**AZƏRBAYCAN RESPUBLİKASI**
**SİLAHLI QÜVVƏLƏRİNİN HƏRBİ AKADEMİYASI**

**Mehman Süleymanov**

# AZƏRBAYCANDA ALİ BAŞ KOMANDANLIQ İNSTİTUTUNUN HEYDƏR ƏLİYEV MƏRHƏLƏSİ

**“Elm və təhsil”**
**Bakı - 2018**

Ön sözün müəllifi
və elmi redaktor: **Əli Həsənov**
*Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor*

Məsləhətçi : **Heydər Piriyev**
*Silahlı Qüvvələrin Hərbi Akademiyasının rəisi, general-leytenant*

Rəyçilər: **Elçin Əhmədov**
*Siyasi elmləri doktoru, professor*

**Vüqar Səlimov**
*Fəlsəfə elmləri üzrə fəlsəfə doktoru*

**Mehman Süleymanov:** *Ehtiyatda olan polkovnik, tarix elmləri doktoru.* **- Azərbaycanda Ali Baş Komandanlıq institutunun Heydər Əliyev mərhələsi**
**Bakı, «Elm və təhsil», 2018, 728 səh**.

Kitab Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi və hərbi təhlükəsizliyinin təmin edilməsi, Azərbaycanda Ali Baş Komandanlıq institutunun real şəkildə formalaşdırılması sahəsindəki tarixi fəaliyyətinin, onun rəhbərliyi altında Azərbaycanda ordu quruculuğu siyasətinin hazırlanması və uğurla həyata keçirilməsi məsələlərinin araşdırılmasına həsr edilmişdir.

ISBN 978-9952-8176-0-7 © «Elm və təhsil», 2018

# ÖN SÖZ

XX əsrin sonlarında yenidən müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasında hüquqi, demokratik dövlət quruculuğu və vətəndaş cəmiyyətinin inkişafı istiqamətində həyata keçirilən siyasi islahatlar strategiyası ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanın ən mürəkkəb və taleyüklü dövründə dövlətə rəhbərlik etmək məsuliyyətini öz üzərinə götürmüş bu görkəmli dövlət xadimi xilaskarlıq və quruculuq missiyasını şərəflə yerinə yetirməklə xalqımızın tarixində silinməz izlər qoymuşdur. 1990-cı illərin əvvəllərində yaranmış tarixi şərait Azərbaycanda hüquqi, demokratik siyasi sistemin və vətəndaş cəmiyyətinin formalaşması, xalqımızın vahid amal, milli-mənəvi dəyərlər ətrafında sıx birləşməsi, ictimai həmrəyliyin yaradılması və ölkənin bazar iqtisadiyyatı yolu ilə inkişafına nail olunması və müstəqilliyin müdafiəsinin təşkili üçün çoxşaxəli islahatlar strategiyasının hazırlanaraq həyata keçirilməsini zəruri edirdi. Azərbaycanı dayanıqlı ictimai-siyasi sabitliyə malik olan, müstəqil, demokratik və dünyəvi bir ölkə kimi dünyaya tanıtmaq hakimiyyətin qarşısında mühüm vəzifələr qoyurdu. Lakin həmin dövrdə iqtidarda olan qüvvələr xalqı ümummilli maraqlar ətrafında səfərbər edən, onun kimliyini, yaratdığı dövlətin və siyasi sistemin xarakteri-

ni, mənəvi dəyərlərini qoruyub saxlayacaq məqsədyönlü siyasət həyata keçirə bilmədi. Keçmiş ictimai-siyasi sistemdə formalaşmış bütün dəyərlərdən, o cümlədən elmi, intellektual və mənəvi potensialdan kütləvi şəkildə imtina meyli cəmiyyətdə ciddi siyasi-ideoloji boşluq yaratdı.

Bu cür həssas bir dövrdə respublikada hökm sürən hərbi- siyasi böhranın aradan qaldırılması, ictimai və hərbi-siyasi sabitliyin yaradılması, demokratik siyasi sistemə və bazar iqtisadiyyatına keçidin təmin edilməsi məqsədilə çoxşaxəli islahatlar aparmaq səriştəsinə malik, əhalinin əksəriyyəti tərəfindən dəstəklənən milli liderə ehtiyac olduğu özünü göstərməyə başladı. 1993-cü ildə görkəmli dövlət xadimi Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycanda hüquqi, demokratik dövlətin və vətəndaş cəmiyyətinin yaradılması istiqamətində elmi-nəzəri əsaslara söykənən siyasi islahatlar strategiyası həyata keçirildi. Bu islahatlar xalqımızın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, respublikamızın demokratik yolla inkişafına nail olunması, hüquqa, ədalətə söykənən vətəndaş cəmiyyətinin əsasının qoyulması, insanların azad, sərbəst yaşaması və qanunun aliliyinin təmin edilməsində böyük rol oynadı.

Azərbaycanın müstəqil milli inkişafı ilə bağlı Heydər Əliyevin siyasi dünyagörüşü və konseptual yanaşması ilk dəfə hələ SSRİ dağılmamışdan qabaq - 1991-ci ilin əvvəllərində Azərbaycan parlamentinin tribunasından dediyi fikirlərdə öz əksini tapmışdır. Onun həmin dövrdə parlament müzakirələrində səsləndirdiyi təklif və mülahizələr müstəqilliyə doğru uzanan yolda irəli sürülən yeganə rasional, praqmatik və uzaqgörən fəaliyyətin parlaq nümunəsi idi. Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilərkən respublikanın demokratik yolla inkişafının zəruri olduğunu vurğulayaraq

bildirmişdir: "Müstəqil Azərbaycanda demokratiya inkişaf etdirilməlidir. Siyasi plüralizmə geniş yol verilməlidir. Azərbaycan Respublikasında Konstitusiyanın pozulmasına, qanun pozuntularına yol verilməməlidir. Dövlət quruculuğu və cəmiyyətin formalaşması məhz demokratik prinsiplər əsasında olmalıdır. Siyasətdə və iqtisadiyyatda sərbəstlik, hürriyyət, insan azadlığı, insan hüquqlarının qorunması və sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı prinsipləri bərqərar olmalıdır".

Ümummilli lider respublika Prezidenti seçildikdən sonra 1993-cü il oktyabrın 10-da Andiçmə mərasimindəki çıxışında da müstəqil Azərbaycan dövlətinin demokratik dəyərlər əsasında inkişaf edəcəyini bir daha bildirərək demişdir: "Müstəqil Azərbaycan Respublikasının qarşısında duran əsas vəzifələrdən biri respublikanın dövlət quruculuğunu təşkil etməkdir. Bizim yolumuz aydındır, bunu dəfələrlə bəyan etmişik. Yolumuz demokratiya yoludur. Müstəqil Azərbaycanda demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək, demokratik dövlət quruculuğu yolu ilə getməlidir".

Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycanın milli inkişaf siyasətinin, gələcək ictimai-siyasi, sosial-iqtisadi və mədəni-mənəvi inkişafının əsasları qoyuldu, daxili və xarici siyasətin məqsəd və vəzifələri, prinsip və xüsusiyyətləri, əsas istiqamətləri və prioritetləri müəyyən edildi.

Antiazərbaycan mövqe tutan daxili və xarici dairələrin təxribatlarına baxmayaraq, Heydər Əliyevin respublikada ictimai-siyasi sabitliyi bərpa etməsi demokratik islahatların aparılması üçün əlverişli şərait yaratdı ki, bu, həm müstəqil dövlət quruculuğu proseslərinin sürətlə getməsində, həm də yeni iqtisadi-siyasi

sistemin formalaşmasında mühüm rol oynadı. Heydər Əliyevin hakimiyyətə gəldiyi ilk illərdə milli birliyə qarşı yönəlmiş hərbi-siyasi təhdidlər respublikada daxili sabitliyin, ictimai-siyasi və sosial-etnik təhlükəsizliyin təmin olunmasını, vətəndaş həmrəyliyinin yaradılması və digər ciddi məsələlərin həllini tələb edirdi. Buna görə də siyasi islahatlar aparılarkən milli təhlükəsizlik sisteminin mühüm tərkib hissələrindən biri olan ictimai-siyasi, sosial-etnik təhlükəsizliyin təmin edilməsi, cəmiyyətdəki köklü dəyişikliklərin xalqımızın maraqlarına təsirinin öyrənilməsi və nəzərə alınması vacib amillərdən biri oldu.

Azərbaycanda ictimai-siyasi sabitliyin, qanunçuluğun və vətəndaş birliyinin təmin olunması siyasi islahatların əsas hədəflərindən birinə çevrildi ki, bunun da nəticəsində respublikada hökm sürən xaos və dağıdıcı qüvvələrin cinayətkar fəaliyyəti aradan qaldırıldı, dövlət və cəmiyyət həyatının bütün sahələrini əhatə edən quruculuq işləri vüsət aldı. Heydər Əliyevin xalqı səfərbər edərək öz arxasınca apara bilən lider olması ilə yanaşı, müstəqil Azərbaycan dövlətinin qurucusu kimi yaradıcı şəxsiyyət keyfiyyətləri yenidən bariz şəkildə təcəssüm olundu. Ümummilli lider mürəkkəb xarici-siyasi vəziyyətdə, yeni dünya nizamının tələblərini və geosiyasi reallıqları nəzərə almaqla Azərbaycan dövlətinin milli inkişaf strategiyasını müəyyənləşdirdi və elmi-siyasi, tarixi cəhətdən əsaslandırdı.

Respublikanın milli təhlükəsizliyinə qarşı yönəlmiş təhdidlərin aradan qaldırılmasının əsas və ən mühüm şərtini ictimai-siyasi sabitliyin təmin olunmasında görən Heydər Əliyev bəyan edirdi ki, nəyin bahasına olursa-olsun ölkə daxilində xaos və qarşıdurma cəhdlərinə qarşı qətiyyətli mübarizə aparacaq, qanunçuluğu və milli dövlətçiliyi möhkəmləndirmək üçün bütün imkanlardan istifadə edəcəkdir. Buna görə də müxtəlif vaxtlarda daxili və xa-

rici dairələrin ölkəmizin konstitusiya quruluşunu sarsıtmaq, ictimai-siyasi sabitliyi pozmaq, etnik münasibətləri kəskinləşdirmək cəhdləri baş tutmadı və həmin hadisələr zamanı aydın oldu ki, siyasi islahatlar ölkədə səmərəli dövlət idarəçiliyi sistemi, dayanıqlı ictimai-siyasi sabitlik yaratmışdır.

Müstəqil dövlətin siyasi-ideoloji əsaslarının, idarəçilik mexanizminin yaradılması və milli inkişaf konsepsiyasının formalaşdırılması istiqamətində Heydər Əliyevin gördüyü işlər bir tərəfdən Ermənistanla hərbi qarşıdurma, digər tərəfdən isə Azərbaycanı təsir altında saxlamaq istəyən daxili və xarici güclərlə kəskin mübarizə şəraitində baş tutmuşdur. Lakin ümummilli lider bu çətinliklərə baxmayaraq, özünün şəxsi nüfuzu, siyasi uzaqgörənliyi, böyük idarəçilik təcrübəsi sayəsində bütün milli resursları vahid amal uğrunda səfərbər etmiş, Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlayaraq, onu sabit inkişaf yoluna çıxarmış və müstəqil subyekt kimi beynəlxalq aləmlə sıx inteqrasiyasına nail olmuşdur.

Heydər Əliyevin xalqımız qarşısındakı mühüm tarixi xidmətlərindən biri də onun tərəfindən Azərbaycanın hərbi təhlükəsizlik siyasətinin əsaslarının hazırlanmasıdır. Hərbi təhlükəsizliyin təmin edilməsində Ali Baş Komandanlıq institutunun formalaşdırılması da Heydər Əliyevin adı ilə bağlıdır.

1993-cü il noyabrın 2-də Heydər Əliyevin radio və televiziya ilə Azərbaycan xalqına müraciətində ordu quruculuğunun əsaslarına dair dəyərli ideyalar irəli sürülmüşdür. Zəngin dövlətçilik təfəkkürünü və təcrübəsini özündə əks etdirən bu müraciətdən irəli gələn vəzifələr həyati olmaqla yanaşı, həm də Azərbaycanın reallıqlarını əks etdirirdi.Strateji planda ordu quruculuğunun istiqamətlərini müəyyənləşdirəcək elə bir məsələ yoxdur ki, bu müraciətdə öz əksini tapmamış olsun. Ordu və dövlət, ordu və maddi

baza, ordu və mənəviyyat, ordu və xalq, ordu və milli kadrlar, ordu və nizam-intizam kimi mühüm məsələlərin əhəmiyyəti, onların həlli yolları həmin müraciətdə son dərəcə aydın şəkildə qiymətləndirilmişdir. Ulu öndər müraciətində xalqımızı Vətənin müdafiəsi kimi müqəddəs vəzifə ətrafında birləşməyə çağırdı ki, bu da ictimai fikirdə böyük əks-səda doğurdu. Müraciətdən sonra ordu quruculuğu sahəsində görülən uğurlu işlər atəşkəs dövründə daha yaradıcı şəkildə davam etdirildi və qısa müddətdən sonra Azərbaycan Ordusu çox qüdrətli bir qüvvəyə çevrildi.

Heydər Əliyev hərbi sahədə hər şeydən əvvəl vahid komandanlıq yaratmağa başladı və bu prosesi dövlətin müstəsna səlahiyyətləri çərçivəsinə saldı, ordunu siyasətdən kənarlaşdırdı, onun ölkə Konstitusiyasından irəli gələn vəzifələrə xidmət göstərməsini təmin etdi. Orduya siyasi qüvvələrin nüfuz etməsinin qarşısı birdəfəlik alındı, onun formalaşması, təşkilatlanması və təchizatı qəbul edilmiş qanunlarla tənzimləndi. Hərbi idarəetmə strukturlarının çevikliyini təmin edən məqsəd və vəzifələr müəyyənləşdirildi və ordu quruculuğu cəmiyyətin digər sahələrində gedən proseslərlə üzvü şəkildə əlaqələndirildi.

Heydər Əliyevin rəhbərliyi altında ordunun maddi-texniki bazası təkmilləşdirildi, eyni zamanda Azərbaycanda hərbi təhsilin mükəmməl sistemi yaradıldı ki, bu da Silahlı Qüvvələr üçün zəruri olan zabit kadrların respublika daxilində hazırlanmasında böyük rol oynadı. Ardıcıllıq, elm və təcrübənin vəhdəti, hərbi qulluqçulara sosial qayğının göstərilməsi və s. məsələlərin həlli ordu quruculuğunun müvəffəqiyyətlə həyata keçirilməsinə böyük stimul verdi. Milli Ordunun güclənməsi və maddi-texniki bazasının möhkəmlənməsi ilə bağlı Heydər Əliyevin apardığı siyasət hazırda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla

davam etdirilir. Bu siyasətə sədaqət və yaradıcı münasibətin nəticəsidir ki, Azərbaycan Ordusu yalnız bölgədə deyil, dünyanın inkişaf etmiş hərbi qüvvələri arasında da özünə layiqli yer tutur.

Orduda mənəvi əhval-ruhiyyənin yüksəldilməsi, milli kadr hazırlığının uğurla davam etdirilməsi, struktur islahatlarının qarşıda dayanan vəzifələrə uyğun aparılması və nizam-intizamın gücləndirilməsi hərbi qüvvələrin döyüş qabiliyyətini artıran mühüm amillərdir. Bütün bunların nəticəsində Milli Ordu özünün Ali Baş Komandanının bütün əmrlərini vaxtında yerinə yetirən və xalqımızın ümidlərini doğruldaraq Azərbaycanın işğal altında olan ərazilərini qısa zaman ərzində azad etməyə qadir olan bir qüvvəyə çevrilmişdir. 2016-cı ilin aprelində cəbhə xəttində əldə edilmiş tarixi uğurlar da bunu bir daha təsdiq etdi.

Ali Baş Komandanlıq institutu ölkənin hərbi təhlükəsizliyinin təmin edilməsində müstəsna rol oynayır. Ümummilli lider Heydər Əliyevin bu institutun formalaşması və təkmilləşməsi istiqamətində apardığı siyasətin elmi, nəzəri baxımdan təhlili və öyrənilməsi daim aktuallıq kəsb edir ki, təqdim olunan kitabın ərsəyə gəlməsi də bu sahədə görülmüş dəyərli işlərdən biri sayıla bilər.

**Əli Həsənov**
*Azərbaycan Respublikası Prezidentinin*
*ictimai-siyasi məsələlər üzrə köməkçisi,*
*tarix elmləri doktoru, professor*

# GİRİŞ

Ötən əsrin 80-ci illərinin ortalarında keçmiş Sovet İttifaqı rəhbərliyinin demokratiya və aşkarlıq adı altında ortaya atdığı siyasi oyunlar bütün ölkədə olduğu kimi, Azərbaycanda və eləcə də digər respublikalarda fərqli bir ictimai-siyasi durum yaratdı. Çoxlarına belə bir durumun mövcudluğu vaxtilə bütün cəmiyyət üçün sərt şəkildə normalaşdırılmış ideologiyadan kənara çıxmaq üçün əlverişli imkanların başlanğıcını qoydu, bir çoxları üçün bu durum mövcud dəyərlərə yeni baxış imkanı verdi, digərləri üçün isə bu durum yuxarıdan başlanan oyunların nikbin sonluğunun ümidlərinə tapınmaqdan başqa bir şey olmadı. Türkçülüyə qarşı genetik düşmənçiliyi ilə xarakterizə olunan erməni millətçi dairələri də ölkədə yaranmış bu durumun çevrəsinə düşdülər, bu durumu xislətlərinə uyğun qiymətləndirdilər və bu durumu əsrlərdən bəri canlı saxladıqları niyyətlərinin - Azərbaycan torpaqları hesabına Ermənistan sərhədlərinin genişləndirilməsinin həyata keçirilməsi üçün çox əlverişli bir şans kimi qəbul etdilər. Bu niyyət xəstə erməni təxəyyülündə hər zaman, hətta sosialist ideologiyasının hegemonluğu dövründə canlı olduğu üçün ölkədə yaranmış durum çox qısa zamanda erməni millətçiliyinin alovlanmasına yol açdı. Azərbaycanın siyasi rəhbərliyinin nəzarəti altında bütün cəmiyyətdə demokratiya və aşkarlıq oyunlarının nikbin sonluqlarına ümumxalq ümidlərinin formalaşdırıldığı vaxtlarda Ermənistan tamam başqa bir ab-havanın əsirinə çevrildi, Azərbaycan torpaqlarını işğal etmək istəkləri erməni zehniyyətində bütün dəyərləri üstələdi. Ən

qısa zamanda bütün dünya erməniliyi də yeni durumun yaratdığı fürsət ətrafında səfərbər oldu, Azərbaycana qarşı çirkin təbliğata, İttifaq rəhbərliyinə qarşı isə təzyiqlərə start verildi.

Qeyd etmək lazımdır ki, bütün respublikaların hüquqlarını qorumağı öz üzərinə götürmüş İttifaq orqanlarının gözü qarşısında hər hansı bir maneəyə rast gəlmədən bu antiazərbaycan erməni təbliğatı ermənilərin silahlanması ilə də müşayiət olunurdu. Bir vaxtlar İttifaqın dəmir qapılarla dünyadan təcrid olunduğu güman edilsə də, qısa bir zaman ərzində Ermənistan silah anbarına çevrildi və dünyanın hər yerindən bura silahlar daşınmağa başlandı. Eyni zamanda, Ermənistan ərazisində olan sovet qoşunlarının hərbi əmlakı çox asan bir şəkildə erməni millətçilərinin qarət obyektinə çevrildi.

Ermənistana toplanan bu silahların kimə qarşı istiqamətlənəcəyi haqqında erməni cəmiyyətində çox aydın bir təsəvvür var idi. Bu təsəvvürlər həm İttifaq rəhbərliyinə, həm də Azərbaycan rəhbərliyinə yaxşı məlum idi. Lakin bu silahların işə salınmasının qarşısının alınması üçün nə Azərbaycan rəhbərliyi qətiyyət göstərdi, nə də İttifaq rəhbərliyi Azərbaycan xalqının hüquqlarının qorunması üçün öz üzərinə götürdüyü vəzifələri yerinə yetirdi. Ona görə də ermənilərin azərbaycanlılara qarşı apardığı millətçi təbliğat kampaniyası az sonra silahlı təcavüz kampaniyası ilə əvəzləndi. Bir tərəfdən Ermənistan ərazisində yaşayan bütün azərbaycanlılar ermənilərin təcavüzünə məruz qaldılar, digər tərəfdən də Dağlıq Qarabağda millətçi-separatçı hərəkata geniş bir vüsət verildi. Erməni millətçiləri sanki Ermənistanda azad fəaliyyət göstərirmişlər kimi Dağlıq Qarabağı da silah anbarına çevirdilər, bu bölgəni Azərbaycanın nəzarətindən çıxarmağa başladılar. Sonralar xalqın tələbi ilə Dağlıq Qarabağda erməni təcavüzkarlığının qarşısının alınması üçün müəyyən tədbirlərə əl atılsa da, həmin

tədbirlər ardıcıl dövlət siyasətindən irəli gəlmədiyi üçün gözlənilən nəticəni də vermədi.

Ermənistan tərəfinin hərbi təcavüzünün cilovlanması üçün nəzərdə tutulan Azərbaycan Ordusunun təşkilinə başlanması da, əslində, o vaxtkı hakimiyyətin xalqın tələbi ilə atdığı addımlardan biri idi. Çünki formalaşdırılan bütün görüntülərə baxmayaraq, respublika hökumətinin bu sahədə aydın siyasəti yox idi, ordu hissələri daha çox hakimiyyətə müxalif olan qüvvələr kimi qəbul edilirdi və orduya qarşı müxtəlif ictimai-siyasi qüvvələr tərəfindən istiqamətlənən dağıdıcı təzyiqlərin də qarşısı alınmırdı. Başlıcası isə Azərbaycanın hərbi təhlükəsizliyinin təmin edilməsi üçün ali hərbi-strateji orqan olan Ali Baş Komandanlıq institutunun mahiyyətinə dumanlı münasibətin mövcudluğu və onun formalaşdırılması məqsədilə milli maraqlara cavab verən siyasətin izlənilməməsi respublikanın ərazi bütövlüyü üçün ciddi təhlükəni ortaya qoydu.

Bunun nəticəsi idi ki, Azərbaycan ərazisində mövcud olan sovet qoşun hissələrinin bütün əmlakının respublikada saxlanması üçün də aydın və qətiyyətli bir mövqe ortaya qoyulmadı, həmin əmlakın xarab edilməsinin və respublikadan çıxarılmasının qarşısı alınmadı və bununla respublika ordusunun formalaşdırılması üçün real baza əldən çıxarıldı. Doğrudur, İttifaq rəhbərliyi hərbi əmlakın müəyyən hissəsini respublikaya təhvil verdi. Amma məlumdur ki, bu əmlak Azərbaycanda mövcud olan hərbi əmlakın yalnız bir hissəsi idi və bütün hərbi əmlakın salamat şəkildə Azərbaycanda saxlanılması erməni təcavüzü qarşısında daha yaxşı müdafiə olunmaq imkanı yarada bilərdi.

Erməni təcavüzünün qarşısının alınması üçün respublikada kəsərli tədbirlərin həyata keçirilməməsinə etiraz əlaməti olaraq genişlənməkdə olan xalq hərəkatı fonunda meydana gələn ictimai-siyasi qüvvələrin siyasi təcrübəsizliyi, vahid məqsəd ətra-

fında birləşə bilməməsi, erməni təcavüzünün qarşısının alınması üçün vahid baxışların və əməllərin ortaya qoyulmaması respublikadakı hərbi-siyasi gərginliyi daha da mürəkkəbləşdirdi. Müstəqilliyin ilk vaxtlarında erməni təcavüzündən müdafiə zərurəti iqtidarla ictimai-siyasi hərəkatlar arasında fikir yekdilliyi yaratmaqdansa, siyasi maraqlar onlar arasında gərginliyi gücləndirdi və bu gərginlik hətta silahlı qarşıdurmaya da gətirib çıxardı. Nəticədə respublikada hakimiyyət dəyişikliyi baş verdi və Ali Baş Komandanlıq institutu da yaradılmamış qaldı.

Lakin gərginlik bununla heç də aradan qalxmadı. Yaranmış vəziyyət dövlət rəhbərliyindən mövcud, obyektiv imkanlara əsaslanaraq qətiyyətli, təşəbbüskar, əsaslandırılmış siyasət yeritməyi, bütün vasitələri səfərbərliyə alaraq respublikanın müdafiəsini təşkil etməyi tələb etsə də, yeridilən siyasətin natamamlığı, fəaliyyət səriştəsizliyi və kəsərsizliyi, ölkə imkanlarının müdafiə işinə səfərbər edilə bilməməsi, firqə və hakimiyyət ehtiraslarının ümummilli mənafeləri kölgədə qoyması Azərbaycanı daha dərin böhranlar girdabına sürüklədi. Hakimiyyətdə olan qüvvələrin arasındakı parçalanma, siyasi çəkişmələr, ordu hissələrinin bu siyasi çəkişmələrə cəlb edilməsi erməni təcavüzünün genişləndiyi bir vaxtda respublikanın daxili vəziyyətini daha da gərginləşdirdi və vətəndaş qarşıdurması təhlükəsi reallaşmağa başladı. Belə bir vaxtda Azərbaycan xalqı öz iradəsini ortaya qoydu və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevi respublikada hakimiyyətə dəvət etdi. Azərbaycanda Ali Baş Komandanlıq institutunun real şəkildə formaşalması da Heydər Əliyevin hakimiyyətə qayıdışından sonrakı dövrə təsadüf edir.

Heydər Əliyev Bakıya dəvət olunanda respublikadakı ictimai-siyasi vəziyyət aşağıdakı kimi xarakterizə olunurdu:

-dövlət rəhbərliyi siyasi böhran içərisində idi;

-iqtidarla xalq arasında dərin uçurum yaranmışdı;

-ölkədə vətəndaş müharibəsi təhlükəsi reallaşmaqda idi;

-separatçı qüvvələr baş qaldıraraq respublikanı etnik əlamətlərinə görə parçalamaq planlarının əməli icrasına başlamışdılar;

-ölkənin xarici siyasəti dərin böhran içərisində idi;

-dövlət orqanları iflic olaraq öz funksiyalarını yerinə yetirə bilmirdilər;

-mövcud ictimai-siyasi qüvvələr arasında hakimiyyət uğrunda güclü mübarizə gedirdi;

-Ai Baş Komandanlıq institutu formalaşdırılmamışdı.

Ali Baş Komandanlıq institutunun yaradılmaması isə Azərbaycanın müdafiə qüvvələrinin təşkilatlanmasını qeyri-mümkün etmişdi. Buna görə Azərbaycan Ordusu da çətin vəziyyətə düşmüşdü və onun daxilində ciddi bir böhran mövcud idi. Bu böhranın xarakterik tərəfləri aşağıdakılardan ibarət idi:

-orduya dövlət rəhbərliyi təmin edilməmişdi;

-ordu quruculuğu ilə bağlı dövlətin aydın proqramı yox idi;

-dövlət və ordu bir-birindən ayrı düşmüşdü;

-ordu siyasi işlərə cəlb edilmişdi;

-ordu daxilində siyasi mənsubiyyətə və məqsədlərə görə parçalanma yaranmışdı;

-ordu daxilində xaos, özbaşınalıq, qanunsuzluqlar baş alıb gedirdi;

-Sovet ordusundan miras qalmış hərbi əmlakın böyük bir hissəsi məhv edilmişdi;

-orduya çağırış işi özbaşına buraxılmışdı;

-ordunun döyüş qabiliyyəti zəruri tələblərə cavab vermirdi;

-orduya vahid komandanlıq təmin edilməmişdi.

Bu nöqsanların sayını artırmaq da olar. Başlıcası isə ordu quruculuğu ilə bağlı cəmiyyət daxilində son dərəcə bədbin bir

əhval-ruhiyyə var idi və bu da öz növbəsində ordunun varlığına əks-təsir göstərirdi. Ölkə daxilində güclənməkdə olan qeyri-sabitlik isə bu sahədə ümidverici bir addımın atıla biləcəyini şübhə altına qoyurdu.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev məhz belə bir şəraitdə hakimiyyətin ağırlığını öz üzərinə götürdü, respublikanı addım-addım bu dərin böhrandan çıxarmağa başladı və tarix üçün kifayət qədər qısa bir zamandan sonra Azərbaycanın hərbi təhlükəsizliyinin təmin edilməsi üçün real qüvvələri formalaşdıra bildi.

Təqdim olunan kitab Azərbaycanın hərbi təhlükəsizliyinin təmin edilməsinin ali-strateji idarəetmə orqanı olan Ali Baş Komandanlıq institutunun real şəkildə formalaşdırılması sahəsində Heydər Əliyevin səmərəli fəaliyyətinin araşdırılmasına həsr olunmuşdur. Kitabda ordu quruculuğu, xalqın müharibəyə səfərbər edilməsi, hərbi təhlükəsizliyin beynəlxalq təminatı, ümumən Ali Baş Komandanlıq institutunun formalaşdırılması sahəsində Heydər Əliyevin fəaliyyəti araşdırma obyekti olmuşdur. Sözsüz ki, başlıca diqqət ordu quruculuğunun aparılmasına, Azərbaycan Ordusunun formalaşdırılmasına yetirilmişdir.

Heydər Əliyevin geniş planda respublikanın hərbi təhlükəsizliyinin, konkret planda isə Ali Baş Komandanlıq institutunun formalaşdırılması sahəsindəki fəaliyyətinin araşdırılması bir sıra aktual cəhətləri ilə xarakterizə oluna bilər.

Hər şeydən əvvəl Heydər Əliyevin bu sahədəki fəaliyyəti müstəqillik tariximizin parlaq bir səhifəsidir və araşdırma da müstəqillik tariximizin öyrənilməsi baxımından əhəmiyyət kəsb edə bilər. Azərbaycanın müstəqilliyinin əldə edilməsi, müstəqilliyin qarşılaşdığı daxili və xarici şərait və onun qorunması üçün Heydər Əliyev tərəfindən görülən işlər obyektiv şəkildə araşdı-

rılarsa tariximizin bu səhifəsi dolğunluğu ilə gələcək nəsillərə çatdırıla bilər.

Azərbaycanın hərbi təhlükəsizliyinin təmin edilməsinin ali hərbi-strateji orqanı olan Ali Baş Komandanlıq institutunun formalaşdırılması və işlək mexanizmə çevrilməsi ilə bağlı Heydər Əliyevin fəaliyyətinin öyrənilməsi ordu quruculuğunun nəzəri-praktiki əsaslarının ümumiləşdirilməsi və üzə çıxarılması baxımından böyük əhəmiyyət kəsb edir. Heydər Əliyev müasir Azərbaycan Ordusunun qurucusudur, onun praktiki addımlarının nəticələri bu günün reallıqlarıdır. Onun bu sahədəki fəaliyyətinin hərtərəfli təhlili, araşdırılması və ümumiləşdirilməsi ilə ordu quruculuğunun uğurlu davamının əsaslarını müəyyənləşdirmək mümkündür.

Heydər Əliyevin hərbi irsinin ətraflı araşdırılmasının müəyyən çətinlikləri də vardır. Bu çətinlik başlıca olaraq dövlət quruculuğunun bu sahəsinin kifayət qədər məxfi olmasıdır. Aydındır ki, Heydər Əliyevin bu sahə ilə bağlı fəaliyyətinin müəyyən məxfi tərəfləri vardır və onlarla tanış olmadan araşdırmanın qarşısına qoyulmuş vəzifələrin tam həlli mümkün deyil. Bununla belə, qeyd edilməlidir ki, Heydər Əliyevin hərbi məsələlərdə kütləvi informasiya vasitələri ilə ictimailəşdirilmiş olan irsi də son dərəcə zəngindir və bu irsin öyrənilməsi Heydər Əliyevin bu sahədəki fəaliyyətinin elmi-təhlili mənzərəsini yaratmağa imkan verə bilər.

Heydər Əliyevin zəngin irsinin öyrənilməsi məqsədilə son illər ərzində respublika daxilində çox böyük işlər görülmüşdür və Heydər Əliyevin həyatı və fəaliyyəti ilə bağlı çoxlu sayda əsərlər işıq üzü görmüşdür. Doğrudur, bu əsərlərin bir çoxu Heydər Əliyevə olan ehtiramdan yaranıb, bir çoxunda publisistik ruh güclüdür, bir çoxu da xatirə-memuar xarakteri daşıyır. Heydər Əliyevin zəngin dövlətçilik irsinin elmi şəkildə öyrə-

nilməsi sahəsində akademik **Ramiz Mehdiyevin** və tarix elmləri doktoru, professor **Əli Həsənovun** araşdırmalarını xüsusi qeyd etmək lazımdır. Bu əsərlər elmi dərinliyi və təhlil genişliyi ilə daha çox maraq doğurur və adları çəkilən müəlliflər dəyərli araşdırmaları ilə, əslində, özlərini respublikada Əliyevşünaslıq məktəbinin yaradıcıları kimi təsdiq etmişlər.

Qeyd etmək lazımdır ki, Azərbaycanın hərbi təhlükəsizliyinin nəzəri və praktiki məsələləri də ilk dəfə akademik təhlilə professor **Əli Həsənov** tərəfindən cəlb edilmişdir və əslində, Azərbaycan siyasətşünaslığında hərbi təhlükəsizlik məsələlərinin elmi şəkildə araşdırılmasının başlanğıcı da onun tərəfindən qoyulmuşdur. Bu kitabın hazırlanması zamanı da professor **Əli Həsənovun** elmi qənaətlərindən əhatəli şəkildə istifadə edilmişdir.

Heydər Əliyevin hərbi təhlükəsizliyin təmin edilməsi sahəsindəki fəaliyyəti ilk dəfədir ki, təqdim olunan bu kitabda ayrıca və geniş tədqiqatın mövzusuna çevrilmişdir. Bu mövzu kifayət qədər geniş mövzudur və onun maraqla qarşılanacağına da müəllifin böyük ümidləri vardır.

# I FƏSİL

# ALİ BAŞ KOMANDANLIQ İNSTİTUTUNUN NƏZƏRİ VƏ HÜQUQİ ƏSASLARI

## 1. Ali Baş Komandanlıq institutunun mahiyyəti

Ölkənin müdafiəsinə hazırlıq və cəlb olunan müharibənin aparılması cəmiyyətin bütün həyatını əhatə edən bir ictimai-siyasi prosesdir. Başqa sözlə, ölkə daxilində siyasi, iqtisadi, mənəvi, sosial və digər münasibətlərin elə bir sahəsi yoxdur ki, bu sahələr hansısa dərəcədə müharibənin gedişinə və ya ölkənin müdafiəsinin təşkilinə təsir göstərə bilməsin. O cümlədən də cəmiyyətin elə bir subyekti, elə bir üzvü yoxdur ki, müharibə dövrünün sınaqlarından kənar qala bilsin. Müharibə xarakteri etibarilə bütün ölkəni, bütün dövləti və bütün cəmiyyəti öz təsiri altına alır. Amma bu proses qarşılıqlı xarakter daşıyır. Müharibə bütün ölkəyə, dövlətə və cəmiyyətə təsir göstərə bildiyi kimi, ölkə, dövlət və cəmiyyət də müharibənin gedişinə öz təsirini göstərə bilir. Çünki hər bir ölkənin, dövlətin və cəmiyyətin müəyyən ölçülər daxilində özünəməxsus potensialı vardır. Bu potensialın real qüvvəyə çevrilməsi fərqli bir şəraiti ortaya qoya bilər ki, bu da müharibənin aparılmasına təsirsiz ötüşməz.

Lakin ölkənin ayrı-ayrı subyektlərinə, ictimai münasibətlərin müxtəlif sahələrinə, maddi sahələrinə aid olan potensial xaotik, nizamsız şəkildə hərb işinə istiqamətlənə bilməz. Hərb işi

cəmiyyətin ictimai həyatının elə sahəsidir ki, bu sahə çox ciddi nizamlılığı, məqsədyönlü planauyğunluğu, qarşılıqlı əlaqələndirməni tələb edir. Hərb işinin ehtiyaclarının düzgün müəyyənləşdirilməsi və ölkə daxilində mövcud olan imkanların da bu ehtiyacların ödənilməsinə istiqamətləndirilməsi dövlətin müstəsna səlahiyyətidir. Bu müstəsna səlahiyyətin daha səmərəli icrası üçün siyasi və hərbi rəhbərliyin bir şəxsdə birləşdirilməsi və bununla ölkənin müdafiəsinin təmin edilməsi məqsədilə siyasi orqanlarla hərbi orqanların vəhdətinin yaradılması və bu orqanların sıx qarşılıqlı əlaqələrinin formalaşdırılması hazırda dövlətçilik təcrübəsinin mühüm elementlərindən birini təşkil edir. Məhz buna görə də müasir dövlətlərin əksəriyyətində dövlətin prezidenti, rəhbəri və ya hökumətin rəhbəri həm də həmin ölkənin silahlı qüvvələrinin ali baş komandanıdır.

Ali baş komandan – dövlətin silahlı qüvvələrinin ali rəhbər şəxsidir (1). Bu ifadə ilk dəfə rəsmi dövriyyəyə XVII əsrdə İngiltərənin, Şotlandiya və İrlandiyanın kralı I Karl tərəfindən gətirilmişdir (2). O zaman bu vəzifənin sahibi yalnız hərbi komandan funksiyasına malik idi və ölkəsinin hərbi qüvvələrinin baş komandanı idi. Yəni bu vəzifənin sahibi siyasi rəhbərliyi özündə birləşdirmirdi. Uzun müddət Qərbdə ali baş komandan vəzifəsi yalnız hərbi səlahiyyətləri özündə birləşdirən bir vəzifə idi. Çar Rusiyası ordusunda da bu vəzifə ilk dəfə məhz qoşunların baş komandanı mənasında tətbiq edilmişdi və bu vəzifə sahibi çar tərəfindən təyin edilirdi..

Rusiyada bolşevik qüvvələri hakimiyyəti ələ keçirəndən sonra da ali baş komandan hərbi rəhbər mənasında qəbul edilirdi və bu vəzifəyə təyin edilən hərbçilər də yalnız qoşunlara rəbərlik etmək səlahiyyətinə malik idilər. Amma məlumdur ki, Birinci Dünya müharibəsindən sonra Ali Baş Komandanlıq institutunun formalaşması dövrün tələbinə çevrildi. Rusiyada yaradılmış Fəh-

lə-Kəndli Müdafiə Şurasının, Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılmış Dövlət Müdafiə Komitəsinin rəhbərləri, əslində, ali baş komandana xas olan səlahiyyətləri öz üzərinə götürmüşdülər. Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə Dövlət Müdafiə Komitəsi də ləğv edildi və bu vəzifənin təsis edilməsinə bir də XX əsrin sonlarında Azərbaycanın öz müstəqilliyini bərpa etməsindən sonra imkan yarandı.

Azərbaycanın da tərkibinə daxil olduğu SSRİ-də isə ali baş komandan vəzifəsi 1923-cü ilə qədər mövcud oldu. Sonra isə Rusiya Silahlı Qüvvələrində aparılan islahatlara görə bu vəzifə ləğv edildi (3). Bir də Böyük Vətən müharibəsi başlanandan sonra ali baş komandan funksiyalarını özündə birləşdirən ali hərbi-siyasi vəzifə təsis edildi. Müharibənin başlamasından dərhal sonra Dövlət Müdafiə Komitəsi yaradıldı və ölkənin rəhbəri, SSRİ Nazirlər Sovetinin sədri İ.Stalin bu vəzifəyə təyin olundu (4).

XX əsrin 60-70-ci illərində SSRİ-yə rəhbərlik edən şəxslər rəsmi olaraq ali baş komandan adlandırılmasalar da, onlar ölkənin Müdafiə Şurasının rəhbəri kimi bu səlahiyyətə malik idilər. SSRİ Konstitusiyasına silahlı qüvvələrin ali baş komandanı ifadəsi 1990-cı il mart ayının 14-də daxil edildi və sonradan SSRİ prezidenti seçilmiş M.Qorbaçov rəsmi olaraq bu funksiyanı da öz üzərinə götürdü. Hazırda dünya praktikasında silahlı qüvvələrin ali baş komandanı vəzifəsi ali vəzifəli şəxs kimi ölkələrin prezidentlərinə həvalə olunur. Amma bir sıra ölkələrdə bu məsələ ilə bağlı fərqlilik də özünü göstərir. Məsələn, Böyük Britaniya metropoliyasına daxil olan bəzi ölkələrdə, o cümlədən Avstraliya və Kanadada ali baş komandan həmin ölkələrin general-qubernatorudur. İranda isə İslam İnqilabının Ali Rəhbəri bu funksiyaları öz üzərinə götürmüşdür.

Silahlı qüvvələrin ali baş komandanı konkret ölkədə qanunla təşkil edilmiş bütün hərbi strukturların ali hərbi rəhbəridir. Bəzi

ölkələrin konstitusiyasında, o cümlədən Rusiya, Belarus və digər ölkələrin konstitusiyasında silahlı qüvvələr ifadəsi yalnız həmin ölkələrin Müdafiə Nazirliyinin tabeliyində olan hərbi qüvvələri nəzərdə tutur. Azərbaycan Respublikası Konstitusiyasının əvvəlki variantında da Silahlı Qüvvələr kimi Müdafiə Nazirliyinin tabeliyində olan hərbi qüvvələr nəzərdə tutulurdu. Amma bu o demək deyil ki, ölkə prezidenti qanunvericiliklə nəzərdə tutulmuş digər hərbi birləşmələrin ali hərbi rəhbəri deyildir. Məsələnin belə təsbit edilməsi müəyyən suallar doğura bilsə də, əslində, həm ölkə konstitusiyasının digər maddələri, həm də digər qanunvericilik aktlarında olan maddələr həmin formal boşluğu aradan qaldıra bilər.

Qeyd edildiyi kimi, Azərbaycan Respublikasının Konstitusiyasının əvvəlki variantında Silahlı Qüvvələr kimi yalnız Müdafiə Nazirliyinin tabeliyində olan hərbi qüvvələr nəzərdə tutulurdu. Ümumxalq səsverməsi ilə 2016-cı ilin 26 sentyabrında keçirilmiş referenduma əsasən Konstitusiyaya edilmiş dəyişikliklərə görə indi Azərbaycan Respublikasının Silahlı Qüvvələri Azərbaycan Ordusunu və qanunvericiliklə nəzərdə tutulmuş digər hərbi birləşmələri özündə birləşdirir.

Hüquq ədəbiyyatında konstitusiya quruluşunun, ölkənin suverenliyinin və ərazi bütövlüyünün qorunması dövlətin əsas funksiyalarından biri kimi xarakterizə olunur. Müasir dünyada cərəyan edən geosiyasi proseslərin xarakterini və dinamikasını dəyərləndirməklə belə bir qənaətə gəlmək mümkündür ki, hazırda bu funksiya dövlətin daimi və əsas funksiyalarından biridir. Həmin funksiyanın səmərəli şəkildə həyata keçirilməsi hər şeydən əvvəl dövlətin hərbi potensialının bütünlüklə səfərbərliyə alınması imkanlarından asılıdır. Hərbi rəhbərliyin və dövlət rəhbərliyinin bir şəxsdə birləşdirilməsi bu sahədə rəhbərliyin mərkəzləşdiril-

məsinə, dövlətin bütün mexanizminin vahid plan və iradə əsasında fəaliyyət göstərməsinə əlverişli imkan açır.

Dövlət rəhbərliyi ilə hərbi rəhbərliyin dövlətin ali məqamı şəxsində birləşdirilməsi həm böyük səlahiyyətdir, həm də böyük məsuliyyətdir. Bu məsuliyyəti üzərinə götürməklə dövlətin ali məqamı xalq tərəfindən seçilən və ya xalqın iradəsini əks etdirən bir məqam kimi bütün xalqın, cəmiyyətin və dövlətin maraqlarının, habelə ölkənin konstitusiya quruluşunun, onun suverenliyinin və ərazi bütövlüyünün qorunmasının qarantına çevrilir.

Bu məsuliyyətli vəzifələrin həlli üçün silahlı qüvvələrin ali baş komandanı funksiyasını öz üzərinə götürmüş ali dövlət məqamı çox böyük səlahiyyətlərə malikdir. Çünki ölkənin bütün potensialının düzgün qiymətləndirilməsi, üzə çıxarılması və məqsədyönlü şəkildə istiqamətləndirilməsi onun rəhbərliyi altında dövlətin təşkilati və rəhbəredici fəaliyyəti ilə mümkündür. Doğrudur, müharibə şəraitində qüvvələr nisbəti kimi ciddi bir amil öz sözünü deyə bilər. Məlumdur ki, müasir dövrdə baş verən müharibələr və silahlı münaqişələr öz qloballığı və geosiyasi xarakteri ilə seçilir və bu da hərb işinin təşkilinə yeni tələblər irəli sürür. Amma bu vəziyyət ölkənin hərbi təhlükəsizliyinin təmin edilməsi üçün ali baş komandan tərəfindən siyasi, iqtisadi, diplomatik, hərbi sahədə yeni dəyərləndirmələr aparılmasını, mövcud siyasətin dəqiqləşdirilməsində və şəraitlə uyğunlaşdırılmasında çeviklik nümayiş etdirilməsini istisna etmir. Hərb işi cəmiyyət həyatının bütün sahələrini əhatə etdiyindən yeni dəyərləndirmələrin və çevikliyin böyük miqyasda olması və bu istiqamətdə əməli fəaliyyətin çox böyük qüvvə və enerji tələb edəcəyi şübhəsizdir. Ona görə də dövlətin təşkilatçılığı olmadan bu böyük işin öhdəsindən gəlmək mümkün deyil.

Bu baxımdan ölkənin bütün potensialının üzə çıxarılması, onun real qüvvəyə çevrilməsi və hərbi təhlükəsizliyinin təmin

edilməsinə istiqamətləndirilməsi silahlı qüvvələrin ali baş komandanından zəngin bilik, böyük təcrübə, davamlı və məqsədyönlü təşəbbüskarlıq, güclü siyasi iradə tələb edir.

## 2. Ali Baş Komandanlıq institutunun hüquqi əsasları

Hər bir dövlətin silahlı qüvvələrinin ali baş komandanının hüquqi statusu ilk növbədə həmin dövlətin konstitusiyasında öz əksini tapır. Konstitusiyanın uyğun maddəsində dövlətin prezidentinin və ya digər ali məqamlı şəxsinin eyni zamanda həmin dövlətin silahlı qüvvələrinin ali baş komandanı olması təsbit olunur. Bu status dövlətin silahlı qüvvələri haqqında qanunda və dövlətin müdafiəsinin əsasları haqqında qanunda da öz əksini tapa bilər.

Dövlət rəhbərinin ali baş komandan olması statusunun ikili tərəfi vardır. Birinci tərəf ondan ibarətdir ki, dövlət rəhbəri ölkənin silahlı qüvvələrini, o cümlədən ölkənin hərbi təşkilatını təşkil edən strukturlar üçün ən ali idarəetmə səlahiyyətlərinə malikdir. İkinci tərəf isə ondan ibarətdir ki, ölkə prezidenti silahlı qüvvələrin və qanunvericiliklə nəzərdə tutulmuş digər hərbi strukturların hər biri üzərində ayrı-ayrılıqda müstəqim ali idarəetmə səlahiyyətlərinə malikdir.

Dövlət rəhbərinin Ali Baş Komandanlıq statusu ölkə konstitusiyasında bəyan olunur, amma bu statusun hansı səlahiyyətlərə malik olması daha çox müdafiə haqqında və ya müvafiq qanunlarda açıqlanır. Dövlət rəhbərinin ali baş komandan kimi ölkənin qanunvericilik aktlarında öz əksini tapan səlahiyyətləri ümumən aşağıda göstərilənlər kimi ifadə oluna bilər:

- dövlətin hərbi siyasətinin əsas istiqamətlərini müəyyən edir, hərbi təhlükəsizliyin təmin edilməsi üçün zəruri tədbirləri həyata keçirir, səlahiyyətləri çərçivəsində dövlətin silahlı qüvvələrinin

və qanunvericiliklə nəzərdə tutulmuş digər hərbi birləşmələrinin vəziyyətinə və təminatına məsulyyət daşıyır;

- dövlətin hərbi doktrinasını təsdiq edir;
- silahlı qüvvələrə, qanunvericiliklə nəzərdə tutulmuş digər hərbi birlik və birləşmələrə, hərbi orqanlara, habelə müdafiə məsələləri üzrə tabelikdə olan icra hakimiyyətinə rəhbərik edir;
- dövlətə qarşı təcavüz baş verdikdə və ya real təcavüz təhlükəsi yarandıqda, silahlı münaqişə başladıqda tam və ya qismən səfərbərlik elan edir, ölkə ərazisində və ya onun bir hissəsində hərbi vəziyyət tətbiq edir;
- müharibə dövrünün hüquq-normativ aktlarının qüvvəyə minməsini təmin edir və onların fəaliyyətini dayandırır, müharibə dövrü üçün icra hakimiyyəti orqanları yaradır və onları ləğv edir;
- silahlı qüvvələrin, qanunvericiliklə nəzərdə tutulmuş digər hərbi birləşmələrin quruculuq və inkişaf planlarını, konsepsiyalarını, silahlı qüvvələrin tətbiqi planını və onların səfərbərlik planını, bütün səviyyələrdə olan dövlət hakimiyyət orqanlarının, yerli idarəetmə orqanlarının və ölkə iqtisadiyyatının hərbi şəraitə keçirilməsi planını, dövlət və səfərbərlik ehtiyatlarının maddi ehtiyatlarının yaradılması planını və müdafiə məqsədilə ölkə ərazisinin (və ya onun bir hissəsinin) əməliyyat təchizatının dövlət proqramını təsdiq edir;
- silahlanmanın və hərbi sənaye kompleksinin inkişafının dövlət planının hazırlanmasını təşkil edir, təsdiqləyir və sonra da onun icrasına rəhbərlik edir;
- ali hərbi rütbələr verilməsi haqqında sərəncamlar imzalayır, ştatla ali hərbi rütbələrə uyğun gələn vəzifələrə təyinatlar aparır və onları vəzifədən azad edir;
- silahlı qüvvələrin və qanunvericiliklə nəzərdə tutulmuş digər hərbi birləşmələrin və orqanların strukturunu və tərkibini, onların ştat sayını təsdiq edir;

- ölkə vətəndaşlarının müvafiq qanunvericilik üzrə hərbi xidmətə çağırışı və xidməti başa vuranların ehtiyata buraxılması haqqında sərəncam verir;

- müdafiə nazirliyinin, baş qərargahın və qanunvericiliklə nəzərdə tuutlmuş digər hərbi birləşmələrin idarəetmə orqanlarının əsasnamələrini təsdiq edir;

- ərazi müdafiəsinin əsasnaməsini və mülki müdafiənin planını təsdiq edir, mülki və ərazi müdafiəsinin təşkilini və vəzifələrini müəyyənləşdirir;

- danışıqlar aparır və hərbi təhlükəsizlik üzrə beynəlxalq müqavilələri, sülhün və beynəlxalq təhlükəsizliyin qorunması üçün nəzərdə tutulan əməliyyatlarda silahlı qüvvələrin iştirakı haqqında, habelə hərbi əməkdaşlıq haqqında müqavilələri imzalayır;

- hərbi təhlükəsizliyin təmin edilməsi üzrə xərclər smetasını müəyyənləşdirir və təsdiq üçün təqdim edir, nəzərdə tutulmuş smeta xərclərindən istifadə edilməsi qaydasını müəyyənləşdirir;

- hərbi təhlükəsizliyin təmin edilməsi üzrə qanunları və digər normativ-hüquqi aktları təsdiq edir;

- ali hərbi təhsil ocaqlarının təsis edilməsi və ləğv edilməsi haqqında qərar qəbul edir;

- silahlı qüvvələrin və qanunvericiliklə nəzərdə tutulmuş digər hərbi birləşmələrin şəxsi heyətinin sosial vəziyyətinin yaxşılaşdırılması, dövlət mükafatları ilə mükafatlandırılması haqqında qərar qəbul edir;

- hərbi təhlükənin artdığı və ya hərbi müdaxilənin qarşısının alındığı dövrdə dövlətin hərbi təşkilatı vasitəsilə strateji idarəetməni həyata keçirir;

- silah və hərbi texnikanın, strateji materialların və ölkə daxilində istehsal olunan ikili xarakterli məhsulların ixrac edilməsi üzərində nəzarəti təşkil edir;

- cinayət məsuliyyətinə cəlb edilmiş hərbi qulluqçuların əfvi ilə bağlı qərarlar qəbul edir;

- hərbi təhlükəsizliyin təmin edilməsi üçün konstitusiya və digər qanunvericilik aktları çərçivəsində digər səlahiyyətləri həyata keçirir (5).

Bundan başqa ölkənin konstitusiya quruluşunun zorla devrilməsinə, hakimiyyətin qəsb edilməsinə və ələ keçirilməsinə cəhd göstərildikdə, silahlı üsyan baş verdikdə, kütləvi iğtişaşlar meydana gəldikdə, terror aktları, xüsusi əhəmiyyətli obyektlərin ələ keçirilməsi halları baş verdikdə, qeyri-qanuni silahlı dəstələrin fəaliyyəti ortaya çıxdıqda, milli, dini əlamətlər üzrə, habelə bölgə daxili münaqişə özünü göstərdikdə, dövlət hakimiyyəti orqanlarının və yerli idarəetmə orqanlarının normal fəaliyyətinə təhlükə yarandıqda dövlət rəhbəri və silahlı qüvvələrin ali baş komandanı tərəfindən fövqəladə vəziyyət, ölkə hərbi təcavüzə məruz qaldıqda isə hərbi vəziyyət elan edilə bilər. İstisna hallarda isə dövlət rəhbəri və silahlı qüvvələrin ali baş komandanı silahlı qüvvələrə müstəqim rəhbərliyi öz üzərinə götürə bilər. Hərbi şəraitdə silahlı qüvvələrdən istifadə edilməsi məsələsi də dövlət rəhbərinin və silahlı qüvvələrin ali baş komandanının səlahiyyətinə aid olan məsələdir. Çünki ölkəyə qarşı istiqamətlənmiş hərbi təcavüzün qarşısının alınması üçün dövlətin başlıca vasitəsi silahlı qüvvələrdir. Əgər silahlı qüvvələrdən istifadə edilməsi məsələsi hərbi şəraitdən doğursa, onda dövlət rəhbəri və silahlı qüvvələrin ali baş komandanı bu barədə birbaşa özü qərar qəbul edir. Silahlı qüvvələrin öz təyinatına aid olmayan əməliyyatlara və beynəlxalq razılaşmalar çərçivəsində ölkə xaricində hərbi vəzifələrin həllinə cəlb edilməsi üçün isə dövlət rəhbəri və silahlı qüvvələrin ali baş komandanı ölkə parlamenti qarşısında mahiyyəti üzrə vəsatət qaldırır (6).

Silahlı qüvvələrin ali baş komandanının hərbi əməliyyatların başlanması barəsində imzaladığı əmrində aşağıdakı məqamlar öz əksini tapa bilər: ölkənin silahlı qüvvələrinin tətbiqi üçün səbəb olan şəraitin mahiyyəti, ölkəyə, onun suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə qarşı istiqamətlənmiş hərbi təcavüzün xarakteri və miqyası, silahlı qüvvələrin və qanunvericiliklə nəzərdə tutulmuş digər hərbi birləşmələrin cəlb edildiyi hərbi əməliyyatların miqyası, sərhədləri və güman edilən müddəti, silahlı qüvvələrin və digər hərbi birləşmələrin açılışı və onların müharibə dövrü ştatlarına keçməsi, vətəndaşların səfərbərlik əsasında hərbi xidmətə cəlb edilməsi və onlar tərəfindən dövlət və səfərbərlik ehtiyatlarının maddi vəsaitlərindən istifadə qaydaları, xarici hərbi təcavüzün qarşısının alınması və hərbi vəziyyət rejiminin təmin edilməsi üçün zəruri olan qüvvə və vasitələr, müharibə dövründə ölkənin silahlı qüvvələrinə və digər hərbi birləşmələrə rəhbərlik edəcək icra hakimiyyəti orqanlarının və hərbi idarəetmə orqanlarının yaradılması, əmrin qüvvəyə minmə tarixi və qüvvədə olma müddəti. Bu əmrdə dövlət rəhbəri və silahlı qüvvələrin ali baş komandanı hərbi vəziyyət rejiminin təmin edilməsi üçün silahlı qüvvələrin cəlb edilmə qaydasını, müharibə dövrü hüquqi aktların qüvvəyə minməsi və onların ləğvi qaydasını, silahlı qüvvələrin ehtiyaclarının ödənməsi üçün lazım olan ərzaq məhsullarının istehsalının təşkilini, hərbi obyektlərin mühafizəsini, hərbi vəziyyət elan edilmiş əraziyə girişin xüsusi rejimini, müdafiə ehtiyacları üçün təşkilatlardan və vətəndaşlardan zəruri əmlakın alınması qaydasını da müəyyənləşdirə bilər (7).

Ölkənin hərbi təhlükəsizliyinin daha səmərəli təmin edilməsi üçün ölkə prezidenti digər nazirliklərin və dövlət təşkilatlarının fəaliyyətinə dəyişiklik edə, yeni strukturlar yarada və ya onları ləğv edə bilər. Hərbi təhlükəsizliyin aktual məsələlərinin həlli ilə

bağlı, bir qayda olaraq, ölkə prezidentinin parlament qarşısında qanunvericilik təşəbbüsü ilə çıxış etmək səlahiyyəti də saxlanılır.

Ali Baş Komandanlıq institutunun formalaşdırılmasının beynəlxalq hüquqi təcrübəsi Azərbaycan Respublikasının qanunvericilik aktlarında da yaradıcı şəkildə nəzərə alınmışdır. Ölkənin Konstitusiyasında və digər qanunvericilik aktlarında respublika Silahlı Qüvvələrinin Ali Baş Komandanının statusu və səlahiyyətləri öz əksini tapmışdır.

Müstəqilliyini bərpa edəndən sonra Azərbaycan Respublikasında silahlı qüvvələrin ali baş komandanı institutunun yaradılması hüquqi baxımdan öz həllini 1992-ci ilin fevralında tapdı. O zaman bu məsələ ilk dəfə Azərbaycan Respublikasının Konstitusiyasında deyil, «Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında» Azərbaycan Respublikasının Qanununda təsbit edildi. Belə bir qanun 1991-ci il oktyabr ayının 9-da Azərbaycan Respublikasının Ali Soveti tərəfindən qəbul edilmişdi. Həmin Qanunda silahlı qüvvələrin ali baş komandanı haqqında hər hansı bir maddə yox idi. Bu boşluğun aradan qaldırılması üçün Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının 25 fevral 1992-ci il tarixli qərarı ilə «Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında» Qanuna qismən əlavələr edildi və Qanunun «Azərbaycan Respublikası Silahlı Qüvvələrinin tabeliyi» adlandırılan 5-ci maddəsi aşağıdakı kimi qəbul edildi: «Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Baş komandanı Azərbaycan Respublikası prezidentidir. Azərbaycan Respublikası Silahlı Qüvvələrinə bilavasitə rəhbərliyi Azərbaycan Respublikasının müdafiə naziri həyata keçirir. Müdafiə nazirini Azərbaycan Respublikasının prezidenti təyin edir» (8).

Sonradan silahlı qüvvələrin ali baş komandanı institutu hüquqi cəhətdən 1995-ci ilin noyabrında ümumxalq səsverməsi

yolu ilə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasında təsbit edildi. Bu Konstitusiyanın 9-cu maddəsində deyilir ki, «Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanıdır» (9).

Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş hüquqi normalar Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanına ölkənin hərbi təhlükəsizliyinin təmin edilməsi sahəsində həvalə olunan əsas funksiyaları da müəyyənləşdirməyə imkan verir. Bunlar Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin müdafiəsi və Azərbaycanda silahlı qüvvələr quruculuğunun aparılmasıdır.

Respublika Prezidentinin inuaqurasiya mərasimi zamanı qəbul etdiyi andda, əslində, Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi də üzərinə götürdüyü məsuliyyətli vəzifə öz əksini tapmışdır. Andın mətni belədir: «Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm».

Qeyd etmək lazımdır ki, hərbi təhlükəsizliyin təmin edilməsi sahəsində dövlətin həm funksiyaları, həm də vəzifələri vardır. Bu anlayışlar bir-birindən fərqli anlayışlardır. Hərbi təhlükəsizliyin təmin edilməsi sahəsində dövlətin funksiyaları dövlətin bu istiqamətdə qarşıya qoyulmuş məqsədinin əldə edilməsi üçün əsas və başlıca fəaliyyət sahəsi kimi xarakterizə oluna bilər. Konkret tarixi şəraitdə həmin fəaliyyət sahəsi xüsusi əhəmiyyət kəsb edir və bu fəaliyyət sahəsi mövcud olmadan qarşıya qoyulan məqsədə çatmaq da qeyri-mümkün olur. Dövlətin qarşısında dayanan funksiyalar Azərbaycanın hərbi təhlükəsizliyinin təmin edilməsi üçün xüsusi əhəmiyyət kəsb edən fəaliyyət sahələridir. Hərbi təh-

lükəsizliyin təmin edilməsi sahəsində silahlı qüvvələrin ali baş komandanının qarşısında dayanan vəzifələr isə onun hər hansı bir funksiyasının konkretləşdirilməsi, icrası istiqamətlərinin müəyyənləşdirilməsi, tərkib hissələrinə bölünməsidir. Vəzifələr funksiyalardan doğur və vəzifələrin həll edilməsi ilə funksiyaların da həyata keçirilməsinə nail olmaq mümkündür.

Ümumən, ölkə rəhbərinin təşkilatçılığı ilə həyata keçirilən dövlətin funksiyaları əsas və qeyri-əsas olmaqla bir-birindən ayrılırlar. Bu funksiyalar bir-birindən əsasən onların icrasına cəlb olunan qüvvə və vasitələrin əhatəsinə və miqyasına görə fərqlənirlər. Ölkənin ərazi bütövlüyünün və suverenliyinin müdafiəsi dövlətin mövcudluğu dövründə hər zaman aktual olan, dövlətin və cəmiyyətin bütün potensialının cəlb edilməsi, dövlətin bütün orqanlarının fəal iştirakı ilə əldə edilən bir ümummilli məqsəddir. Dövlətin qeyri-əsas funksiyası isə adətən daha az qüvvə və vasitənin cəlb edilməsini və ya dövlətin yalnız ayrı-ayrı orqanlarının səfərbər edilməsini tələb edir (10).

Konstitusiyanın hələ preambulasında bildirilir ki, Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq Azərbaycan xalqının ali məqsədidir. Bu məqsəd Azərbaycan dövlətinin və onun rəhbəri olan Azərbaycan Respublikasının Prezidentinin də qarşısında dayanan başlıca vəzifədir. Konstitusiyanın 8-ci maddəsində bildirilir ki, Azərbaycan Respublikasının Prezidenti Azərbaycanın dövlət müstəqilliyinin, ərazi bütövlüyünün təminatçısıdır. Bu vəzifənin hərbi aspektlərinin həlli üçün başlıca vasitə respublikanın Silahlı Qüvvələridir ki, onun yaradılması da respublika Konstitusiyasında öz əksini tapmışdır. Azərbaycan Respublikasının Prezidenti respublika Silahlı Qüvvələrinin Ali Baş Komandanı kimi bu prosesin təşkilatçısı, rəhbəri və uğurla aparılmasının təminatçısıdır.

Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı kimi statusu «Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında» Azərbaycan Respublikası Qanunun yeni redaksiyasının 6-cı maddəsində də təsbit olunmuşdur. Həmin maddə belədir: «Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə rəhbərliyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali baş komandanı kimi Azərbaycan Respublikasının Prezidenti müvafiq dövlət orqanlarının qanunvericiliklə müəyyənləşdirilmiş səlahiyyətləri hüdudlarında həyata keçirir» (11).

Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri daha geniş şəkildə «Müdafiə haqqında» Azərbaycan Respublikası qanununda öz əksini tapmışdır. Bu anunda Azərbaycan Respublikasının digər orqanlarının da müdafiə sahəsində səlahiyyətləri təsbit edilmişdir. Qeyd edilməlidir ki, digər orqanların müdafiə sahəsindəki fəaliyyəti də Azərbaycan Respublikası Prezidentinin nəzarəti altında aparılır. Bu orqanların fəaliyyətinin nizamlanması, əlaqələndirilməsi və istiqamətləndirilməsi də ölkə prezidentinin izlədiyi siyasət çərçivəsində baş verir.

«Müdafiə haqqında» Azərbaycan Respublikası Qanununun 5-ci maddəsində də Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı olması bəyan edilir və Ali Baş Komandan kimi onun səlahiyyətlərinin aşağıdakılardan ibarət olması bildirilir:

- Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə hərbi doktrinanın layihəsini, silahların və hərbi texnikanın dövlət inkişaf proqramını təqdim edir;
- Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə müharibə elan edir və sülh bağlayır;

- Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ali komanda heyətini vəzifəyə təyin və vəzifədən azad edir;

- ali hərbi rütbələr verir;

- hərbi quruculuğun konsepsiyasını, Silahlı Qüvvələrin ümumi strukturunu və sayını təsdiq edir;

-Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi məktəblərini, ali məktəblərin hərbi kafedralarını və elmi tədqiqat təşkilatlarını yaradır və ləğv edir;

-Azərbaycan Respublikasının Konstitusiyası və qanunları hüdudlarında müvafiq orqanların müdafiə sahəsində səlahiyyətlərini, təşkilini və fəaliyyət qaydasını müəyyənləşdirir və onların fəaliyyətinə rəhbərlik edir;

-birgə müdafiə və hərbi əməkdaşlıq, kollektiv təhlükəsizlik və tərksilah məsələləri barəsində danışıqlar aparır və Azərbaycan Respublikasının beynəlxalq müqavilələrini imzalayır;

-Azərbaycan Respublikası Silahlı Qüvvələrinin inkişaf, səfərbərlik, yerləşdirilmə və tətbiq planlarını, iqtisadiyyatın və idarəetmənin səfərbərlik planlarını, Azərbaycan Respublikasının mülki müdafiə planını və ərazi müdafiəsi haqqında Əsasnaməni təsdiq edir;

- Azərbaycan Respublikasının Konstitusiyasına müvafiq olaraq Azərbaycan Respublikasının bütün ərazisində və ya ayrı-ayrı yerlərində hərbi vəziyyət elan edir və bu barədə qəbul etdiyi fərmanı 24 saat müddətində Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə verir; ümumi və qismən səfərbərlik elan edir, habelə səfərbərlik üzrə çağırılanları tərxis edir;

- hərbi vəziyyət haqqında Qanuna müvafiq olaraq hərbi dövrün dövlət idarəçilik orqanlarını yaradır və ləğv edir;

- hərbi əməliyyatlar aparılması barədə Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə əmr verir;

- Azərbaycan Respublikası Silahlı Qüvvələrinin onun təyinatı ilə bağlı olmayan vəzifələrin icrasına cəlb edilməsi barədə Azərbaycan Respublikasının Milli Məclisinə təqdimat verir;

- Azərbaycan Respublikası vətəndaşlarının müddətli hərbi xidmətə çağırılması və müddətli xidmət hərbi qulluqçularının ehtiyata buraxılması barədə fərmanlar verir;

- hərbi qulluqçuların hərbi geyim formasının geyilməsi və fərqlənmə nişanlarının sancılması qaydasını təsdiq edir.

Azərbaycan Respublikasının Prezidenti müdafiə sahəsində dövlət siyasətinin formalaşdırılması üçün məşvərətçi orqan yarada bilər. Belə orqanın səlahiyyəti Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyənləşdirilir.

Qeyd edildiyi kimi, Azərbaycan ərazisində hərbi vəziyyətin elan edilməsi də respublika Prezidentinin səlahiyyətinə aiddir. "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən respublikanın bütün ərazisində və ya ayrı-ayrı yerlərində aşağıdakı hallarda hərbi vəziyyət elan oluna bilər:

- Azərbaycan Respublikası Konstitusiyasının normalarına uyğun olaraq Azərbaycan ərazisində müharibə vəziyyəti elan olunanda;

- Azərbaycan Respublikasına qarşı real hücum təhlükəsi olanda;

- Azərbaycan Respublikası ərazisinin və ya onun müəyyən hissəsi xarici dövlət və dövlətlər tərəfindən havadan, sudan və qurudan blokadaya alınanda və real blokada təhlükəsi olanda;

- xarici dövlət və ya dövlətlər Azərbaycana qarşı müharibə elan edəndə;

- Azərbaycan ərazisi işğala məruz qalanda (12).

Hərbi vəziyyətin elan olunması ilə bağlı Azərbaycan Respublikası Prezidentinin fərmanında aşağıdakı məqamlar öz əksini tapmalıdır:

- hərbi vəziyyətin tətbiq edilməsinə əsas;
- hərbi vəziyyət tədbirlərinin siyahısı və hədləri;
- hüquq və azadlqların müvəqqəti məhdudiyyətlərinin tam siyahısı;
- hərbi vəziyyət tədbirlərinin həyata keçirilməsi üçün cavabdeh olan dövlət orqanları və onların səlahiyyətləri;
- hərbi vəziyyət tətbiq olunan ərazilərin sərhədləri;
- fərmanın qüvvəyə minmə tarixi (13).

Konkret hərbi və tarixi şərait ölkənin hərbi təhlükəsizliyinin təmin edilməsi sahəsində çevik addımlar atılması, qeyri-ənənəvi qərarlar qəbul edilməsi zərurətini yarada bilər. Ölkənin hərbi təhlükəsizliyinin qarantı kimi dövlət başçısı və Silahlı Qüvvələrin Ali Baş Komandanı mövcud qanunlar çərçivəsində belə bir səlahiyyəti özündə saxlayır. Ümumən, Azərbaycan qanunvericiliyinə əsasən Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı Azərbaycanın hərbi təhlükəsizliyinin təmin edilməsində və ölkənin silahlı müdafiəsinin təşkilində xüsusi rola malikdir. Eyni zamanda, ona respublika Silahlı Qüvvələrinin vəziyyəti, onların ölkənin ərazi bütövlüyünün və suverenliyinin silahlı müdafiəsinə daimi hazır vəziyyətdə olması, ölkənin hərbi təhlükəsizliyinin təmin edilməsi üçün dövlətin bütün strukturlarının fəaliyyətinin uzlaşdırılması sahəsində məsuliyyətli vəzifələr həvalə edilmişdir.

## 3.Ali Baş Komandanlıq institutunun fəaliyyət qanunauyğunluqları və prinsipləri

Hərb işi və müharibələrin aparılması bu sahədə həyata keçirilən nəzəri və praktiki işlərə rəhbərliyin mərkəzləşdirilməsini, geniş səlahiyyətlərin müəyyən vəzifəli şəxslərdə cəmləşməsini

və məntiqi olaraq şəxsiyyətlərin rolunun qabardılmasını əks etdirən fəaliyyət sahəsidir. Bəşər tarixində elə bir ciddi müharibə tapmaq mümkün deyil ki, onu şəxsiyyətlərin rolu olmadan uğurla davam etdirmək və başa vurmaq mümkün olsun. Çünki cəmiyyət quruculuğunun obyektiv qanunauyğunluqlarına dayaqlanan hərb işinin xarakteri bunu tələb edir və bu mənada bütün xalqın və dövlətin iradəsini özündə əks etdirən Ali Baş Komandanlıq institutunun fəaliyyətinin düzgün qurulması ölkənin suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, dövlətin müstəqilliyinin müdafiəsində tarixi əhəmiyyət kəsb edir.

Ali Baş Komandanlıq ölkədə hərbi idarəetmənin ən ali orqanıdır və ona görə də hərbi və hərbi-siyasi idarəçiliyin formalaşdırılmasının və onun praktiki fəaliyyətinin səmərəliliyi və keyfiyyəti ali baş komandanın dövlətçilik təcrübəsi və təşkilatçılıq məharəti ilə birbaşa bağlıdır. Onun rəhbərliyi altında qurulan idarəetmənin səmərəliliyi isə o zaman təmin edilmiş olar ki, bu fəaliyyət cəmiyyət quruculuğunun və hərb quruculuğunun qanunauyğunluqlarına, bu sahənin elmi-nəzəri bazasına dayaqlanmış olsun.

Ali Baş Komandanlıq institutu ölkənin hərbi siyasətini formalaşdırarkən sözsüz ki, ilk növbədə cəmiyyət quruculuğunun, o cümlədən dövlət quruculuğunun və hərb quruculuğunun ümumi qanunauyğunluqlarına dayaqlanır və bununla hərbi siyasətin və hərbi idarəetmənin ümumi tərəflərinin, əsas məzmununun, ideya istiqamətlərinin müəyyənləşdirilməsinə zəmin yaradır. Bu məqamlar hərbi siyasətin formalaşdırılmasına, onun strateji hədəflərinin müəyyənləşdirilməsinə, bu siyasətin həyata keçirilməsi üçün daha səmərəli üsulların seçilməsinə, dövlətin potensialının, xalqın mənəvi gücünün səfərbər edilməsinin təşkilinə həlledici təsir göstərir. Hərbi idarəetmədə ali baş komandanın şəxsi keyfiyyətləri məhz o zaman qabarıqlaşır ki, o bu qanunauyğunluqları

düzgün qiymətləndirir, onların təsir imkanlarını nəzərə alır və bu qanunauyğunluqların müəyyənləşdirdiyi parametlərə yaradıcı və təşəbbüskar şəkildə yanaşır.

Alman hərb nəzəriyyəçisi general Şliffen XX əsrin əvvəllərində yazırdı ki, ölkə kralının, prezidentinin, baş nazirinin silahlı qüvvələrin başında dayanması, başqa sözlə ali baş komandan olması onların heç də sərkərdə olması demək deyil. Təyinatla sərkərdə yaratmaq mümkün deyil. Bunun üçün bilik, təcrübə və istedad lazımdır. Müəllif sonra da əlavə edirdi ki, sərkərdədə insanlarda müşahidə edilməyəcək keyfiyyətlər olmalıdır və belə şəxsiyyətlər ilahi qüvvələr tərəfindən himayə olunurlar (14).

Başqa bir hərb nəzəriyyəçisi olan Bernard Brodinin fikrincə isə dünyanın və müharibələrin taleyini xalqlar, hərbi kütlələr deyil, başlıca olaraq prezidentlərin (ali baş komandanların) iradəsi həll edir (15).

Baxmayaraq ki, B.Brodi Ali Baş Komandanlıq səlahiyyətini öz üzərinə götürmüş prezidentlərin müharibələrin aparılması sahəindəki rolunu bir qədər mütləqləşdirib, lakin bu heç də bu ali məqamın hərbi işindəki xüsusi rolunun üzərinə kölgə sala bilməz. Düşmənlə müqayisədə daha əlverilşli imkanlar belə ali hərbi-siyasi rəhbərliyin əsaslandırılmış və məqsədyönlü idarəçiliyi və təşkilatçılığı olmadan reallaşa bilməz. Xüsusilə qəbul edilən qərarlar hərbi siyasət və hərbi idarəçilik qanunlarının tələbləri ilə uzlaşdırılmasa, bu qanunların əhatə etdiyi şərtlər çərçivəsində mövcud imkanların real qüvvəyə çevrilməsi baş verməsə, onda uğursuzluq da qaçılmaz ola bilər.

Ali baş komandanın fəaliyyətində ikili cəhət qarşılıqlı əlaqədə özünü nümayiş etdirir: a) hərbi siyasətin formalaşdırılması və b) hərbi siyasətin reallaşdırılması üçün təşkilatçılıq fəaliyyəti. Bu fəaliyyət sahələrinin hər birinin öz qanunauyğunluqları vardır.

Elmi-nəzəri ədəbiyyatda olan qənaətlərə əsasən, Ali Baş Komandanlıq institutunun hərbi siyasətin formalaşdırılması ilə bağlı fəaliyyətinin aşağıdakı qanunauyğunluqlarını göstərmək olar:

- hərbi-siyasi şəraitin, habelə müvafiq real və potensial düşmənin, onun məqsəd və imkanlarının dərindən öyrənilməsi; ölkə daxili imkanların və beynəlxalq təsirin təhlili;
- hərbi siyasətin məqsəd və vəzifələrinin və onların davamlı olaraq həyata keçirilməsinin əsaslandırılması;
- hərbi-siyasi fəaliyyətin planlaşdırılması və proqnozlaşdırılması;
- hərbi siyasətlə müəyyənləşdirilmiş məqsəd və vəzifələrin ölkənin imkanlarına uyğunluq təşkil etməsi (16).

Ali Baş Komandanlıq institutunun hərbi siyasətin reallaşdırılması sahəsindəki təşkilatçılıq fəaliyyətinin qanunuauyğunluqlarını isə aşağıdakı kimi təsbit etmək olar:

- səylərin əsas vəzifələrin həlli üzərində cəmləşdirilməsi və məqsədlərə nail olunması;
- plan və niyyətlərin həyata keçirilməsində qətiyyət və ardıcıllıq;
- əldə edilmiş nəticələrin fasiləsiz təhlili və fəaliyyətin yenidən dəqiqləşdirilməsi;
- hərbi-siyasi mexanizmin bütün bəndlərində məqsəd və fəaliyyət birliyi;
- ümumi vəzifələri yerinə yetirən orqan və təşkilatların fəaliyyətinin fasiləsiz nizamlanması və əlaqələndirilməsi (17).

Bir daha qeyd edilməlidir ki, cəmiyyətin inkişaf qanunauyğunluqları yalnız aid olduğu sahənin ümumi tərəflərini, əlaqələrini, tələblərini və münasibətlərini özündə əks etdirir. Onlar mənsub olduğu fəaliyyət sahəsi ilə bağlı hazır reseptlər vermirlər. Bu qanunlar yalnız obyektiv tələbləirn çərçivəsini müəyyən-

ləşdirir. Həmin çərçivə daxilində hansı miqyasda və səviyyədə uğurlu nəticənin əldə edilməsi isə ali baş komandanın şəxsi keyfiyyətlərindən çox asılıdır. Hətta bu məsələdə də mükəmməl mənzərəni açıb ortaya qoymaq mümkün deyildir. Doğrudur, ali baş komandan üçün nəzəri, təcrübi, mənəvi amillərlə müəyyənləşən keyfiyyətlər zəruridir. Bunlar haqqında aşağıda da danışılacaqdır. Hətta bu keyfiyyətlərin möcudluğu şəraitində belə ali baş komandanın bəzən ölçülərdən kənara çıxan fərqli istedadını, məharətini qeyd etməmək mümkün deyildir. Məsələn, oxşar nəzəri və praktiki bazaya malik olan ali baş komandanlar arasında fərqli təşkilatçılıq qabiliyyətinin özünü göstərməsi təbii haldır. Bu qabiliyyət isə ali baş komandanın istedad və məharətinin nümayişidir.

Müvafiq qanunların təsir imkanlarından xəbərdar olması ali baş komandan üçün zəruri şərtlərdən biridir. Amma sözsüz ki, bu, Ali Baş Komandanlıq üçün yetərli deyil. Həmin biliklər yalnız səmərəli şəkildə reallaşdıqda hərbi-siyasi əhəmiyyət kəsb edir. Onların hansı səmərə ilə reallaşması isə ali baş komandanın məharəti ilə müəyyənləşir. Hərbi zəka sahiblərinin fikrincə, ali baş komandanların nəzəri bazasını hər hansı bir ölçüyə gətirmək mümkündürsə, onların məharətini belə ölçüyə gətirmək mümkün deyil (18). Ona görə Ali Baş Komandanlıq üçün müəyyən obyektiv və zəruri tələblərin şərhini vermək mümkün olsa da, bu ali məqamlı şəxsin konket və fərqli şəraitdə necə hərəkət etməsini və edə biləcəyini proqnozlaşdırmaq kifayət qədər mürəkkəb məsələdir. Çünki bu məsələdə ali baş komandanın məharət və istedadı özünəməxsus şəkildə özünü büruzə verə bilər.

Ali Baş Komandanlıq institutunun fəaliyyət prinsipləri ümumi xarakter daşıyır və onlar bu fəaliyyət sahəsinin qanunauyğunluqlarından doğan rəhbər qayda və tələblərdir. Cəmiyyətin inkişaf qanunauyğunluqlarından doğan digər prinsiplər kimi, Ali Baş

Komandanlıq institunun fəaliyyət prinsipləri də daha konkretdir, çevikdir, ümumi əlaqələri özlərində əks etdirir və konkret tarixi şəraitlə bağlı olaraq bu prinsiplər hansısa öz aktuallığını itirə bilər və ya hansısa yeni prinsiplər konkret tələblərə daha qabarıq cavab verə bilər. Bu prinsiplər içərisində aşaıdakıları qeyd etmək mümkündür (19): dövlətin rəhbər rolunun təmin edilməsi; xalqla sıx əlaqə, kütlələrə arxalanmaq, onların yaradıcı fəallığının və təşəbbüskarlığının hər tərəfli dəstəklənməsi; siyasi və hərbi rəhbərliyin vəhdəti; məqsəd və planların reallığı, onların elmi əsaslandırılması; ölkənin və düşmən tərəfin qüvvələr nisbətinin real qiymətləndirilməsi və nəzərə alınması; əsas bəndin müəyyənləşdirilməsi; mövcud imkanların reallığa çevrilməsi.

**Dövlətin rəhbər rolunun təmin edilməsi prinsipi**. Bu prinsipin aktuallığı hərb işinin mahiyyətindən irəli gəlir. Qeyd edildiyi kimi, hərb quruculuğu, hərbi siyasətin formalaşdırılması, ölkənin hərbi təhlükəsizliyinin təmin edilməsi, ölkənin hərbi təhdidlərdən qorunması birmənalı şəkildə dövlətin monopoliyasındadır. Bu prinsip müvafiq qanunvericilik aktları ilə də təsdiqlənmişdir. Çünki dövlətin funksiyaları, dövlətin sərəncamında olan vasitələr, siyasi hakimiyyət və digər vasitələr ölkənin bütün potensialının hərb işinə səfərbər edilməsinə, bu potensialın istiqamətləndirilməsinə, ölkənin hərbi təhlükəsizliyinin təmin edilməsi üçün hərbi və qeyri-hərbi yolların əlaqələndirilməsinə imkan verir. Hərbi təhlükəsizliyin təmin edilməsi üçün dövlətin əsas vasitələrindən biri olan hərbi təşkilatın bütün strukturları dövlətin legitim təşkilatıdır, onların mövcudluğu, fəaliyyəti dövlət tərəfindən təsdiq olunmuş qanunvericilik aktları çərçivəsində həyata keçirilir. Dövlətin sanksiyası olmadan yaradılan hər hansı bir silahlı təşkilat qeyri-qanuni silahlı təşkilatdır. Və ya dövlətin tabeliyindən çıxan hər hansı bir hərbi qurum qanun qarşısında məsuliyyət daşıyır.

Ali Baş Komandanlıq institutu ilk növbədə hərbi təşkilatların qanunvericilik çərçivəsində yaradılmasını və fəaliyyətini, bu təşkilatların daxili xidmət normalarını, onlardan qanun çərçivəsində praktiki istifadə edilməsini təmin etməli və onlarınəzarət altında saxlamalıdır. Ölkənin mövcud potensialının, cəmiyyətin imkanlarının hərb quruculuğuna, ölkənin müdafiəsinə səfərbər edilməsinin səmərəliliyi də dövlətin və Ali Baş Komandanlğın nəzarəti və təşkilati rolu altında mümkündür. Bir sözlə, Ali Baş Komandanlıq institutu dövlətin hərb işinə rəhbər rolunun təminatçısıdır və bu rol qanun çərçivəsində düzgün təşkil edilməzsə, ölkənin bütün potensialının hərbi təhlükəsizliyin təmin edilməsinə istiqamətləndirilməsi mümkün olmaz. Hərb işinə dövlətin rəhbər rolunun təmin edilməməsi hərbi təhlükəsizliyin təmin edilməsinə əks-təsir göstərməklə bərabər, dövlət daxilində hərbi-siyasi böhrana da rəvac verə bilər.

Ölkəyə qarşı istiqamətlənmiş hərbi təhdidlərin qiymətləndirilməsi, hərb quruculuğu və ölkənin hərbi təhlükəsizliyinin təmin edilməsi sahəsində qarşıda dayanan vəzifələrin müəyyənləşdirilməsi, hərbi təcavüzün qarşının alınması ilə bağlı silahlı qüvvələrin tətbiqinə başlanmasına qərar verilməsi, müharibənin aparılması, onun hədəflərinin müəyyənləşdirilməsi, müharibələrin qarşısının alınması ilə bağlı beynəlxalq hərbi əməkdaşlığın qurulması, müharibənin dayandırılması, sülh şərtlərinin müəyyənləşdirilməsi və s. məsələlər dövlətin rəhbərliyi altında təmin edilir. Bütün bu məsələlərə dövlət rəhbərliyinin təmin edilməsi eyni zamanda həm dövlətin, həm də Ali Baş Komandanlıq institutunun gücünü nümayiş etdirir.

**Xalqla sıx əlaqə, kütlələrə arxalanmaq, onların yaradıcı fəallığının və təşəbbüskarlığının hər tərəfli dəstəklənməsi prinsipi**. Hərb işinə dövlət rəhbərliyinin zəruriliyi heç də bu

sahədə xalqın, cəmiyyətin yardımına arxalanmağı istisna etmir. Əksinə, yalnız xalqa sıx dayaqlanmaqla, xalqın gücünü üzə çıxarıb düzgün istiqamətləndirməklə hərbi təhlükəsizliyin təmin edilməsi ilə bağlı ciddi vəzifələrin uğurlu həllinə nail olmaq mümkündür.

Hərb işində xalqla sıx qarşılıqlı əlaqənin təmin edilməsinin zəruriliyi bir sıra məqamlarla şərtlənir. Əvvəla, qeyd edilməlidir ki, xalq dövlətin və onun hərbi təşkilatının güc mənbəyidir. Hərbi təşkilatın təminatı və təchizatı üçün xüsusi əhəmiyyət kəsb edən ölkə təsərrüfatının fəaliyyəti xalq əməyi ilə bağlıdır və bunsuz silahlı təşkilatları dövrün tələbləri səviyyəsində təmin etmək mümkün deyildir. Müharibə başlandığı dövrdə isə silahlı qüvvələrin fəaliyyəti üçün mühüm olan arxa cəbhənin hansı səviyyədə mövcudluğu da xalqın bu sahədə iştirak səviyyəsindən asılıdır. Ona görə xalqın gücü və dəstəyi dövlətin və Ali Baş Komandanlığın güc mənbəyidir.

Müharibəni dövlət aparsa da, o, xalqın iradəsinə əsaslanır və dövlətin hərbi təhlükəsizliyin təmin edilməsi sahəsində izlədiyi siyasət xalqın maraqlarına cavab verərsə bu, xalqla dövlət arasında sıx vəhdətin yaranmasına yol aça bilər. Hərb işinin mahiyyəti və ümummilli xarakteri tələb edir ki, nəinki xalqın maraqlarına cavab verən hərbi siyasət həyata keçirilsin, eyni zamanda, vətənin müdafiəsi üçün xalqın daxili enerjisi, mübarizliyi, vətənə bağlılığı, şücaəti, təşəbbüskarlığı üzə çıxarılsın və məqsədyönlü şəkildə qarşıda dayanan vəzifələrin icrasına istiqamətləndirilsin. Ölkənin hərbi təhlükəsizliyinin təmin edilməsinin əsas güc vasitəsi olan silahlı qüvvələrin şəxsi heyətinin mübarizliyinin və bütünlükdə mənəvi keyfiyyətlərinin mənbəyi də xalqdır. Xalqın bu mübariz keyfiyyətlərinin silahlı qüvvələrin şəxsi heyətinə ötürülməsi isə bu istiqamətdə düzgün təşkilati işlərin qurulması ilə mümkündür.

Xalq həm də silahlı qüvvələrin canlı ehtiyatlarının mənbəyidir. Bu canlı ehtiyatların keyfiyyət göstəriciləri də xalqın fəal həyat mövqeyi ilə bağlıdır. Dövlət rəhbəeliyi və Ali Baş Komandanlıq onun marağındadır ki, silahlı qüvvələrə gələn axın yüksək savadlı, ixtisaslı fəal vətəndaşlıq mövqeyi ilə seçilən kontingent olsun. Buna da dövlətin xalqa dayaqlanan siyasəti ilə nail olmaq mümkündür.

**Siyasi və hərbi rəhbərliyin vəhdəti prinsipi**. Ölkənin hərbi təşkilatı öz mövcudluq və fəaliyyət normalarına görə dövlətin və cəmiyyətin digər təşkilatlarına nisbətən nisbi müstəqilliyə malik olsa da, bu heç də onun cəmiyyət və dövlət həyatından təcrid edilməsi demək deyildir. Çünki qeyd edildiyi kimi, hərb işinin hədəfləri və xarakteri məhz siyasətlə müəyyələşdirilir və siyasi hədəflər hərbi strategiyanın formalaşmasına həlledici təsir göstərir.

Ölkənin hərbi təşkilatına daxil olan bütün strukturlar siyasət tərəfindən yaradılır, onların qarşısında dayanan vəzifələr də siyasətlə müəyyənləşir. Hərbi təşkilatların komandanlıqları da siyasi rəhbərliyin, Ali Baş Komandanlığın siyasi iradəsinin icraçısıdır.

Ali Baş Komandanlıq institutunun formalaşdırılması da ölkənin siyasi rəhbərliyi ilə hərbi rəhbərliyinin vəhdətinin təşkilati ifadəsidir. Məhz ali baş komandanın timsalında siyasi rəhbərliklə hərbi rəhbərlik birləşərək real bir qüvvəyə çevrilir və hərbi təhlükəsizlik sahəsində qarşıda dayanan vəzifələrin uğurlu həllinə təminat yaradır.

Siyasət silahlı qüvvələrin bütün ehtiyaclarının təmin edilməsinin təşkilinə məsuliyyət daşıdığı kimi, silahlı qüvvələr də siyasət tərəfindən müəyyənləşdirilmiş çərçivədə öz vəzifələrini icra etməklə bağlı siyasət qarşısında cavabdehliyə məsuliyyət daşıyır. Siyasət hərb quruculuğu ilə bağlı qanunvericiliklə müəyyənləşdirilmiş vəzifələrini düzgün həyata keçirməzsə, silahlı qüvvələr zə-

ruri döyüş keyfiyyətlərini əldə edə bilməz və ya nəzarətdən çıxar. Silahlı qüvvələr (o cümlədən qanunvericiliklə nəzərdə tutulmuş digər hərbi birləşmələr) isə siyasət qarşısında cavabdehliyə riayət etməzsə, dövlətin mövcudluğunu şübhə altına ala biləcək böhrana yol açılar.

**Məqsəd və planların reallığı, onların elmi əsaslandırılması prinsipi**. Hərbi təhlükəsizliyin təmin edilməsi ilə bağlı izlənilən siyasət o zaman uğurla nəticələnə bilər ki, hərbi təhlükəsizlik mühiti, ölkəyə qarşı istiqamətlənmiş hərbi təhdidlər həm geniş və ətraflı təhlil edilsin, həm də onların xarakteri və özündə əks etdirdiyi təhlükə düzgün qiymətləndirilsin. Bu qiymətləndirmə və təhlil ötəri olmaqla subyektivizmə, yersiz arxayınçılığa əsaslanmamalı, dərin elmi araşdırmalara dayaqlanmalıdır. Yalnız bu zaman düzgün hədəflər müəyyənləşdirmək və onların icrası üçün də düzgün vasitələr müəyyənləşdirmək mümkün ola bilər.

Hərbi siyasətin reallığı həm də ölkənin daxili imkanlarının və üzə çıxarıla biləcək potensialının düzgün qiymətləndirilməsinə əsaslanmalıdır. Siyasətlə hərbi təşkilat qarşısında elə vəzifələr qoyula bilər ki, bu vəzifələrin icrası üçün yetərincə qüvvə və imkan mövcud olmasın. Belə yanaşma sözsüz ki, hərbi uğursuzluğa zəmin yarada bilər. Mövcud reallıqla hesablaşmamaq, hərbi hədəflərin müəyyənləşdirilməsində populizmə yol vermək nəinki hərbi uğuru təmin etməz, əksinə ölkəni daha ağır vəziyyətə sala bilər.

Nəzərə alınmalıdır ki, dəyişən təhlükəsizlik mühiti müxtəlif vaxtlarda müxtəlif reallıqları yarada bilər. Bir tarixi şərait üçün real olan məqsəd və planlar digər bir şəraitdə lazımi tələblərə cavab verməz. Ona görə də situasiyaların qiymətləndirilməsində reallıqdan uzaqlaşmaq əks nəticələrə yol aça bilər.

**Ölkənin və düşmən tərəfin qüvvələr nisbətinin real qiymətləndirilməsi və nəzərə alınması prinsipi**. Bu prinsip əvvəlki

prinsiplə sıx şəkildə bağlıdır. Ölkənin daxili imkanları və potensialı hərbi təhdid yarada biləcək qarşı tərəfin imkanları nəzərə alınaraq qiymətləndirilməlidir. Yəni qarşı tərəfin imkanları və potensialı konkret tarixi şəraitdə ölkə daxili müdafiə potensialının dəyərləndirilməsi üçün meyar olmalıdır. Hər bir ölkə öz hərbi siyasətini elə planlaşdırır ki, ehtimal olunan hərbi təhdidlərə cavab vermək gücünə, mövcud təhlükəsizlik mühitində ölkənin konstitusiya normalarının müdafiəsinə yetərli olsun. Bu mənada hərbi təhdid ehtimalı kimi qəbul edilən tərəfin yalnız hərbi gücü deyil, həmin ölkənin siyasi və iqtisadi gücü, ölkə əhalisinin hərbi planlara münasibəti, həmin ölkənin dövlətinin səfərbərlik imkanları, xarici siyasəti, demoqrafik və coğrafi gücü və s. nəzərə alınmalıdır. Təhdid ehtimalı olan tərəfin gücünün qiymətləndirilməsində də subyektivizmə, arxayınçılığa, birtərəfliliyə yol verilməsi heç də hərbi təhlükəsizliyin etibarlı şəkildə təmin edilməsinə xidmət etmir.

**Əsas bəndin müəyyənləşdirilməsi prinsipi**. Qeyd edildiyi kimi, hərb quruculuğu, xüsusilə müharibənin aparılması son dərəcə mürəkkəb hərbi-siyasi bir prosesdir. Müharibə özü son dərəcə mürəkkəb prosesləri əhatə edir və onun uğurla başa çatdırılması ölkənin və dövlətin bütün siyasi, iqtisadi, mənəvi, hərbi və digər potensiallarının üzə çıxarılmasını, onların gerçəkliyə çevrilməsini və qarşıya qoyulan vəzifələrin həllinə istiqamətləndirilməsini tələb edir. Bu mənada Ali Baş Komandanlıq qarşısında bir-biri ilə qarşılıqlı sıx əlaqədə olan çoxsaylı vəzifələrin həlli kimi mühüm vəzifələr dayanır. Baxmayaraq ki, bu vəzifələr çoxdur və onların həlli üçün çox geniş təşkilatçılıq fəaliyyəti tələb olunur, bununla belə konkret şəraitdə, konkret tapşırıqların həlli üçün həmin vəzifələrin heç də hamısı eyni dərəcədə həlledici zərurət kəsb etmir. Onların içərisində zaman və məkana görə ən mühümlərinin seçi-

lib ayrılması, icrasına prioritet əhəmiyyət verilməsi, əsas diqqətin həmin məsələ üzərində cəmləşdirilməsi təşəbbüsün ələ alınmasına, hərbi təhdid mənbələrinin zərərsizləşdirilməsinə təsirli zəmin yarada bilər.

Bu prinsipin mövcudluğu Ali Baş Komandanlıq institutundan, bu institutun məsuliyyətini öz üzərinə götürmüş ali baş komandandan yüksək təşkilatçılıq qabiliyyəti, təfəkkür çevikliyi və hərbi-siyasi müdriklik tələb edir və əslində, Ali Baş Komandanlıq institutunun yetkinlik səviyyəsini nümayiş etdirir. Müəyyən zaman və məkan daxilində hərbi idarəetmənin əsas bəndi bir neçə vəzifənin qarşılıqlı əlaqəsində özünü göstərə bilər. Onların duyulması, təsir imkanlarının müyyənləşdirilməsi, həlli üçün qüvvə və vasitələrin müəyyənləşdirilməsi və həllinə təşkilatçılıq edilməsi xalqın və dövlətin tarixində də əhəmiyyətli bir hadisəyə çevrilə bilər. Həm də əksinə. Əsas bəndin vaxtında müəyyən edilməməsi və onun icrasına diqqətin cəmləşdirilməməsi uğurlu nəticə üçün mümkün şansların itirilməsinə yol aça bilər.

**Mövcud imkanların reallığa çevrilməsi prinsipi**. Hərbi təhlükəsizliyin etibarlı şəkildə təmin edilməsi, o cümlədən hərbi əməliyyatların başlanacağı təqdirdə ölkənin müdafiəsinin təşkili mövcud olan imkanlardan səmərəli istifadə olunmasını və bu imkanların real qüvvəyə çevrilməsini tələb edir. Mövcud olan bütün imkanların üzə çıxarılması və qarşıda dayanan vəzifələrin həllinə istiqamətləndirilməsi heç də özbaşına baş vermir. Bu proses düzgün qurulmuş təşkilatçılıq fəaliyyəti, təhlil və qiymətləndirmə ilə mümkündür. Digər tərəfdən mövcud olan imkanların maksimum səmərəliliyinə nail olunması üçün onların qarşılıqlı əlaqələrinin imkanlarının qiymətləndirilməsi və təmin edilməsi də uyğun təşkilatçılıq fəaliyyəti ilə mümkündür. Müharibə kimi mürəkkəb prosesin idarə edilməsində qətiyyətsizlik, qeyri-ardı-

cıllıq, səmərəsizlik və s. keyfiyyətlərin nümayiş etdirilməsi mövcud imkanların real qüvvəyə çevrilməsini təmin də bilməz.

Müasir dövrdə hərbi təhlükəsizliyin təmin edilməsi üçün qeyri-hərbi vasitələrin, siyasi-diplomatik və informasiya fəaliyyətinin rolu kifayət qədər artmışdır. Bu vasitələrin imkanlarının da real qüvvəyə çevrilməsi və hərbi təhlükəsizliyin təmin edilməsinə səfərbər edilməsi Ali Baş Komandanlıq institutunun əsaslandırılmış və məqsədyönlü fəaliyyəti ilə mümkündür.

## 4. Hərbi idarəetmənin mahiyyəti

Ölkənin hərbi təhlükəsizliyinin təmin edilməsi üçün formalaşdırılan hərbi siyasətin səmərəliliyi həm də Ali Baş Komandanlıq institutunun təşkilatçılıq fəaliyyəti ilə bağlıdır. Hərbi idarəetmədə öz əksini tapan bu təşkilatçılıq hərb quruculuğunun bütün sahələrini və eyni zamanda, bu sahələrin milli təhlükəsizliyin bütün digər istiqamətləri ilə üzvi və məqsədyönlü şəkildə birləşdirilməsini əhatə edir. Əslində, yuxarıda qeyd edildiyi kimi, cəmiyyət həyatının elə bir sahəsi yoxdur ki, bu və ya digər dərəcədə ölkənin hərbi təhlükəsizliyinin təmin edilməsi ilə bağlı olmasın. Bütün bu sahələrin vahid məqsəd ətrafında səfərbər edilməsi və istiqamətləndirilməsi məqsədyönlü və planlı təşkilatçılıq fəaliyyəti sayəsində mümkündür. Belə bir səlahiyyətə və məsuliyyətə isə yalnız dövlətin rəhbəri və silahlı qüvvələrin ali baş komandanı malikdir və onun yüksək təşkilatçılıq keyfiyyətləri ilə cəmiyyət daxilində mövcud olan bütün potensialı üzə çıxararaq reallaşdırmaq və bununla da formalaşdırılmış siyasətin səmərəli həllinə nail olmaq mümkündür.

Müharibə yalnız ölkənin siyasi, iqtisadi, mənəvi, hərbi imkanlarının sınağı deyil, həm də müharibənin aparılmasına rəh-

bərlik edən hakimiyyətin, konkret olaraq Ali Baş Komandanlıq institutunun da sınağıdır. Çünki müharibəyə rəhbərlik etmək, o cümlədən də ölkəni müharibəyə hazırlaşdırmaq (ölkənin hərbi təhlükəsizliyini etibarlı şəkildə təmin etmək) yalnız silahlı mübarizəyə rəhbərlik etmək deyil, həm də bütün cəmiyyətin səylərini, dövlətin iqtisadi, mənəvi, ideoloji gücünü, daxili və xarici siyasətini səmərəli şəkildə qarşıya qoyulan məqsədin əldə edilməsinə istiqamətləndirmək deməkdir (20). Səriştəli, əsaslandırılmış idarəetmə olmadan buna nail olmaq mümkün deyil. Bu da dövlət rəhbərinin, ali baş komandanın üzərinə çox böyük məsuliyyət qoyur. Həmin məsuliyyətin öhdəsindən isə yüksək və yetkin təşkilatçılıq qabiliyyəti ilə gəlmək mümkündür.

Dünya tarixində ali baş komandan səlahiyyətlərinin məharətlə icra edilməsi və bununla qarşıya qoyulan məqsədin əldə edilməsi ilə bağlı zəngin nümunələr mövcuddur. Dünyanın böyük dövlət xadimləri həm də Ali Baş Komandanlıq səlahiyyətlərini məharətlə icra edə bildikləri üçün dünya tarixində özlərinə əbədilik qazana bilmişlər. Çünki bu məharət konkret tarixi şəraitdə ölkənin suverenliyinin, ərazi bütövlüyünün, dövlətin müstəqilliyinin, fərdin və cəmiyyətin azadlığının real qarantına çevrilir və bununla tarixi bir əhəmiyyət kəsb edir.

Ali Baş Komandanlıq institutunun ölkənin suverenliyinin və ərazi bütövlüyünün qorunması işində hansı əhəmiyyətə malik olmasını Azərbaycanın qısa müstəqillik tarixi də nümayiş etdirir. Çünki müstəqilliyin ilk illərində bu institutun obyektiv və subyektiv səbəblər üzündən vaxtında formalaşdırılmaması ölkənin müstəqilliyini, ərazi bütövlüyünü və bütünlükdə vətəndaşların taleyini ciddi sınaqlarla üzbəüz qoydu.

Tarixdə şəxsiyyətin rolu zəka sahiblərini hər zaman maraqlandıran ümumbəşəri mövzulardan biri olmuşdur və bu mövzu

kifayət qədər geniş araşdırmaların mövzusu olmuşdur. Hətta cəmiyyət həyatında xalqın rolunu mütləqləşdirən marksist-leninçi nəzəriyyə də şəxsiyyətin tarixdəki rolunu istisna etmirdi. Bu nəzəriyyədən doğan qənaətlərə görə, tarixi şəxsiyyətlər o şəxslərdir ki, onlar başqalarına nisbətən cəmiyyətin inkişaf ehtiyaclarını, mövcud şəraitin dəyişdirilməsi zərurətini daha tez, daha yaxşı və daha dərindən başa düşürlər və başqalarından daha qətiyyətlə bu istiqamətdə mübarizə aparırlar, cəmiyyət və xalq qarşısında dayanan vəzifələrin həlli yollarını tapmağı və bunun vasitələrini, yollarını və qüvvələrini müəyyənləşdirməyi bacarırlar (21).

Tarixi şəxsiyyətlər haqqında verilmiş bu tərif ali baş komandana tətbiq edilərsə, onda göstərilən keyfiyyətlərə əlavə olaraq yüksək təşkilatçılıq qabiliyyəti də əlavə edilməlidir. Dərin zəka sahibi olan K.Klauzevits bir hərbçi kimi, hərbi-siyasi xadimə, o cümlədən ali baş komandana zəruri olan təşkilatçılıq (hərbi idarəetmə) keyfiyyətləri haqqında daha dolğun və obrazlı fikirlər miras qoymuşdur və bu fikirlərlə ali baş komandanın idarəçilik məharəti haqqında anlaşıqlı şəkildə təsəvvür yaranır.

Bu mənada K.Klauzevitsin nəzəriyyə ilə hərbi dahilərin təcrübəsi arasında mövcud olan qarşılıqlı münasibət haqqında maraqlı yanaşması vardır. Məlumdur ki, hər bir sahədə olduğu kimi hərbi idarəçilik sahəsində də düzgün siyasətin izlənilməsi hər şeydən əvvəl bu sahənin nəzəriyyəsi haqqında yetərli biliklərin olmasını tələb edir. Hərb işinin elmi əsaslarına bələd olmadan, bu sahənin nəzəri qənaətləri ilə tanış olmadan hərbi idarəçilik sahəsində səriştəli qərarlar qəbul etmək mümkün deyildir. Doğrudur, məsələyə geniş yanaşdıqda hərb işindən uzaq olan dövlət rəhbərinin yanında xüsusi hərbi aparatın yaradılması və hərbi xarakterli qərarların da bu aparatın məsləhəti ilə qəbul edilməsi mümkündür. Amma istər dünya təcrübəsi, istərsə də Azərbayca-

nın təcrübəsi göstərir ki, hərb quruculuğu öz xarakteri etibarilə bütün məsuliyyətin bir şəxsdə cəmləşdirilməsini, yəni rəhbərliyin mərkəzləşdirilməsini tələb edir və dövlət rəhbərinin bu sahədəki səriştəsizliyi və qətiyyətsizliyi arzuedilməz nəticələrə gətirib çıxara bilər.

Hərbi idarəçiliyin düzgün qurulması hərb quruculuğunun xarakterinin obyektiv şəkildə qiymətləndirilməsi, müharibənin mahiyyəti, xarakteri və təbiəti haqqında dərin nəzəri biliklərə və toplanmış təcrübi bazaya istinad edilməsi, bu prosesin mahiyyəti və tələbləri ilə bağlı düzgün təhlil aparılması, məntiqi mühakiməyə əsaslanılması ilə mümkündür. Bununla belə o da məlumdur ki, heç bir nəzəriyyə, o cümlədən ictimai-siyasi bir proses olan müharibəyə hazırlıq və onun aparılması haqqında olan nəzəriyyələr mütləq bilikləri ortaya qoya bilmir. Bu biliklər prosesin ümumi tərəflərini əks etdirirlər. Praktiki fəaliyyət isə bu bilikləri daha da konkretləşdirməyi, tamamlamağı, dəqiqləşdirməyi tələb edir. Gözlənilməz situasiya, hərbi silah və texnikada baş verən yeniliklər, silahlı mübarizənin yeni üsullarından irəli gələn yeni yanaşmalar situasiyanın daha dəqiqliklə dəyərləndirilməsi və qısa müddət ərzində uyğun qərarların qəbul edilməsi ilə müşayiət edilməlidir (22). Başqa sözlə, burada intuisiya qabiliyyəti daha qabarıq şəkildə önə çıxır və bu qabiliyyət elmi-nəzəri ədəbiyyatda ali baş komandan səlahiyyətlərini öz üzərinə götürmüş şəxs üçün mühüm keyfiyyətlərdən biri sayılır.

Yenə marksist-leninçi təlimə müraciət edilərsə, intuisiya dərin nəzəri biliklərlə zəngin praktikanın və məntiqi təfəkkürün nümayişi kimi dəyərləndirilir. Bu məsələ ilə bağlı mövcud olan qənaətə görə, indiki reallıqla gələcəkdə baş verə biləcək proseslər arasında bir qanunauyğun əlaqə vardır. Gələcək proseslər bu gün baş verənlərin bazasında meydana gəlir. Ona görə də intuisi-

ya və ya hadisələrin qabaqlanması bu gün baş verən hadisələrin mahiyyətinə nə dərəcədə dərindən nüfuz edilməsindən və onun dərk edilməsindən asılıdır (23). Başqa sözlə, bu gün baş verən proseslərin mahiyyətini, onların inkişaf tendensiyalarını dərindən başa düşməklə bu proseslərin necə inkişaf edəcəyini müəyyənləşdirmək mümkündür.

Marksist-leninçi təlim intuisiyanı nəzəriyyə və praktika ilə bağlayır. K.Klauzevits isə bu məsələni ideallaşdırmışdır. Onun fikrincə, nəzəriyyə və praktika hərbi dahinin qarşısında gücsüzdür. K.Klauzevitsə görə, mürəkkəb şəraitdə, sonsuz sayda müxtəlif təsirlərin mövcud olduğu bir vaxtda hərbi dahi elə düzgün qərarlar qəbul edir ki, bu qərarın meydana gəlməsini heç bir nəzəriyyə ilə və ya təcrübi biliklə izah etmək mümkün deyil. O yazırdı ki, yaranmış mürəkkəb və həlledici şəraitdə hərbi dahi nəzəriyyə və ya mövcud qaydalar çərçivəsində qalmır, bu qaydalar üzərindən məğrurcasına addımlayır və hətta bu qaydalara gülür də. Müəllif sonra da əlavə edirdi ki, hərbi dahinin hərəkətləri özü ən yaxşı qaydadan da üstün tutulmalıdır və belə vəziyyətdə nəzəriyyə də gücsüz qalır və hərbi dahinin etdiklərinin arxasınca getməli olur (24).

K.Klauzevitsə görə, hərbi dahilər o şəxslər idilər ki, onlar nəzəriyyənin ardınca getmirdilər, nəzəriyyə onların ardınca gedirdi. Bununla alman hərbi filosofu heç də elmi-nəzəri biliklərə yiyələnməyin zəruriliyini istisna etmirdi. Əksinə, bunu vacib sayırdı. Mövcud olan hərbi nəzəriyyələrə bələd olmadan hərb işinin xüsusiyyətlərindən də baş çıxarmaq mümkün olmazdı. Onun fikrincə, hərbi dahilər o şəxslər idilər ki, onlar bu nəzəriyyələrdən xəbərdar idilər, amma təşəbbüskarlıq, qarşıya qoyulan məqsəd, gözlənilməz şəraitin tələbi ilə bəzən mövcud nəzəriyyələrlə izah edilə bilməyən qərarlar qəbul edir, addımlar atırdılar. Ona görə də K.Klauzevits hesab edirdi ki, nəzəriyyə hərbi dahilərinin fəaliy-

yətini öyrənməklə təkmilləşməli və zənginləşməlidir. Bu məsələ ilə bağlı söylədiyi fikirlərini ümumiləşdirərək K.Klauzevitz belə bir qənaətə gəlirdi ki, «talant və dahi qanundan (elmi qanunlar nəzərdə tutulur - M.S.) kənar fəaliyyət göstərirlər və bu zaman nəzəriyyə reallıqla ziddiyyət təşkil edir» (25).

K.Klauzevitsin bu fikri bir qədər obrazlı səslənsə də, əslində, onun arxasında obyektiv reallıq dayanır və hərbi-elmi qənaətlərin ortaya çıxması məhz hərbi idarəçiliyin zəngin təcrübəsindən doğur. İctimai-siyasi proseslərin bütün digər qanunları kimi müharibə qanunları da məhz hərbi idarəçiliyin praktikası ilə üzə çıxarılmış və ümumiləşdirilmişdir. Bu qanunlar obyektiv qanunlardır və onlara düzgün riayət edilməməsi uğursuzluğun səbəbi ola bilər. Amma elə situasiyalar mövcuddur ki, ilk baxışda bu qanunlarla formal uyğunsuzluq kimi görünə bilər. Məsələn, müharibənin gedişinin və nəticələrinin qarşı duran tərəflərin hərbi gücündən asılılığı qanunu. Bu qanundan çox sadə görünə biləcək bir qənaət hasil olur: müharibədə o tərəf qalib gəlir ki, onun gücü qarşı tərəfindən gücündən daha çoxdur. Bununla belə, hərb tarixində çoxsaylı faktlar mövcuddur ki, kəmiyyətcə və keyfiyyətcə üstün olan tərəf son nəticədə müharibədən uğursuzluqla çıxmalı olmuşdur. Belə sonluq adı çəkilən qanununun obyektivliyini şübhə altına qoymamalıdır. Əksinə, bu vəziyyət yeni qənaətlərin ortaya qoyulmasına təkan vermişdir. Yəni, müəyyənləşdirilmişdir ki, say üstünlüyü yalnız dövlətin, Ali Baş Komandanlığın məharətli təşkilatçılığı, hərbi idarəçiliyin təşəbbüskarlığı, konkret şəraitdə yeni forma və üsulların tapılması ilə real qüvvəyə çevrilə bilər. Müharibə qanunları nə qədər obyektiv olsalar belə, onlar özü-özünə, insanların iradəsi olmadan həyata keçmirlər. Bu qanunlar insanların şüurlu, mütəşəkkil, məqsədyönlü fəaliyyəti, təşəbbüskar yanaşmaları ilə həyata keçirlər. Müharibə (o cümlədən hərb

quruculuğu) isə elə mürəkkəb, əhatəli, miqyaslı bir prosesdir ki, fərqli bir situasiyada qeyri-adekvat addımların atılması zərurəti ortaya çıxa bilər. Ali baş komandanın məhz belə situasiyada uyğun qərar qəbul etməsi onun təşkilatçılıq və idarəçilik keyfiyyətlərinin göstəricisinə çevrilir. Məhz belə bir situasiyada intuisiya hərbi idarəçilik üçün əhəmiyyətli bir element kimi özünü göstərir.

Toxunulan bu fikirlər bir daha onu göstərir ki, hərbi quruculuq işində və hərbi təhlükəsizliyin təmin edilməsi prosesində hərbi idarəçiliyin əhəmiyyəti son dərəcə böyükdür. Əslində, hərbi idarəçiliklə hərbi siyasət və hərbi təşkilat bir-birlərini tamamlamalıdır. Doğrudur, bu üçbucaqda hərbi siyasətin üstün rolu qabardıla bilər. Çünki hərbi idarəetmənin formalaşdırılmasında, onun fəaliyyət mexanizminin müəyyənləşməsində hərbi siyasət aparıcı təsirə malik ola bilər. Amma bu elementlərin qarşılıqlı əlaqəsi də istisna edilməməlidir. Hərbi idarəetmənin zəruri tələblərə cavab verməməsi hərbi siyasətin nəticəsizliyinə, hərbi təşkilatın isə səmərəsizliyinə yol aça bilər.

Hərb işinə rəhbərlik, bu prosesin təşkili bütünlükdə insan fəaliyyətinin və o cümlədən də dövlət idarəçiliyinin daha mürəkkəb istiqamətlərindən biri sayıla bilər. Çünki bu sahənin düzgün qurulmaması ölkənin hərbi maraqlarını təhlükə altında qoymaqla bərabər, həm də çoxlu sayda insan tələfatı ilə müşayiət oluna bilər. Ona görə də hərbi idarəçiliyin səmərəliliyinə nail olunması dövlət rəhbərliyinin, o cümlədən də ali baş komandan institutunun qarşısında hər zaman aktuallıq kəsb edən bir məsələ olmuşdur. Bu aktuallıq bu gün də özünü göstərməkdədir. Çünki dünya miqyasında cərəyan edən proseslər, qlobal təhlükəsizlik mühiti, silah və hərbi texnikanın, o cümlədən də hərb elminin sürətli inkişafı hərbi idarəçiliyə qarşı da yeni tələblər irəli sürür. Bu tələblərə düzgün cavab verilməsi üçün hərbi idarəçiliyin aktual məsələləri

son zamanlar geniş tədqiqatların mövzusu olmuş və nəticədə hərbi idarəçilik müstəqil bir elm sahəsi kimi formalaşmışdır.

Hərbi idarəetmə ümumən idarəetmənin tərkib hissəsidir və hərbi idarəetmənin mahiyyətinin anlaşılması bütünlükdə idarəetmənin mahiyyətinə nüfuz edilməsini tələb edir. Bu iki kateqoriya bir-biri ilə sıx qarşılıqlı əlaqədədir və hərbi idarəçiliyin ümumi tərəfləri də məhz ümumi idarəçiliyin xarakterik cəhətləri ilə müəyyənləşir. İdarəetmə cəmiyyət həyatı üçün xas olan bir təşkilatçılıq və ya fəaliyyətdir. Çünki ən qədim zamanlardan insanlar öz həyatlarını, öz fəaliyyətlərini planlaşdırmağa, onu tənzimləməyə, uyğunlaşdırmağa çalışmışlar. Bu proses həm onların təsərrüfat fəaliyyətini, həm birgəyaşayışını, həm də ailə həyatını əhatə etmişdir. Ailə daxilində olan tənzimləmə prosesi sonradan toplum miqyası almış, təbəqəli cəmiyyətin yaranması ilə idarəçilik dövlətin timsalında, digər uyğun strukturların timsalında əks olunmuşdur. Bütünlükdə idarəçilik - insanların və onların toplumlarının marağı naminə ictimai inkişafın obyektiv qanunlarının və mütərəqqi tendensiyalarının dərk edilməsi ilə şüurlu, məqsədyönlü, planlı şəkildə həm cəmiyyətə, həm də onun tərkib hissəsi olan ayrı-ayrı strukturlara təsir göstərilməsidir (26).

Başqa bir qənaətə görə isə idarəetmə - məqsədyönlü və şüurlu şəkildə insanlara, obyektlərə, onların vasitəsi ilə proseslərin durumuna, fəaliyyətinə, arzu edilən xarakterdə inkişafına, istiqamətinə və dinamikasına təsir göstərilməsi üçün insan fəaliyyətinin bir növüdür (27).

İdarəetmə dövlət və cəmiyyət həyatının bütün sahələrinə xas olduğu üçün onun həm müxtəlif səviyyələrinə, həm də formalarına rast gəlmək mümkündür. Ona görə idarəetmənin subyekti də hansı formada və səviyyədə təşkil edilməsindən asılıdır. İdarəetmənin subyekti aidiyyəti üzrə təsir sahəsində bu funksiyanı öz

üzərinə götürən qurumdur. İdarəetmənin obyekti isə tənzimlənməsi, istiqamətlənməsi, planlaşdırılması, bir sözlə, təsir göstərilməsi nəzərdə tutulan sahədir. Təsir mexanizminə, subyektin xarakterinə görə idarəetmə konstitusiya əsasına dayaqlana bilər, formal, ictimai, qrupdaxili, legitim, leqal, qeyri-leqal və s. formada özünü göstərə bilər. İdarəetmənin ayrılmaz tərəflərindən biri onun məqsədyönlü olmasıdır. Bir qayda olaraq, idarəetmə subyekti öz fəaliyyətini müəyyən bir məqsəd ətrafında qurur və həmin məqsədin əldə edilməsinə cəhd göstərilir. Bu mənada hərbi idarəetmə məqsədyönlülüyün ən yaxşı nümunəsidir. Çünki məqsəd aydınlığı, hətta konkretliyi hərbi idarəetmənin xarakterik tərəfidir. Amma bunun əksi də ola bilər. İdarəetmə subyekti və ya subyektləri aydın məqsəd müəyyənləşdirməyə də bilərlər ki, bu da nizamsızlığa, uyğunsuzluğa, xaosa yol aça bilər.

Eyni zamanda, o da nəzərə alınmalıdır ki, hər hansı bir struktur daxilində idarəetmə subyektinin müəyyənləşdirdiyi məqsədlə bu struktur daxilindəki insanların məqsədi uyğun gəlməyə bilər. Çünki struktur daxilindəki canlı insanların ətrafda baş verənlərin qiymətləndirilməsində, fəaliyyət hədəflərində, üsullarında olan fərqlilik obyekt və subyekt maraqlarında ziddiyyətləri ortaya çıxara bilər və bu ziddiyyətlər idarəetmənin səmərəliliyinə əks-təsir göstərə bilər. Ona görə də idarəetmə kifayət qədər çevik formada özünü göstərməli və təkmilləşməyə açıq olmalıdır.

Elmi-nəzəri ədəbiyyatda öz əksini tapmış qənaətlərə görə hərbi idarəetmə - dövlət tərəfindən xüsusi olaraq yaradılmış hərbi orqanların təşkilati, icraçı və sərəncamçı fəaliyyətidir və bu fəaliyyətin də əsas məqsədi silahlı qüvvələrə və digər hərbi birləşmələrə mövcud qanunvericiliyə uyğun olaraq idarəedici təsirin göstərilməsidir (28). Bu idarəedici təsiri də öz növbəsində konkretləşdirmək olar və həmin təsir silahlı qüvvələr quruculuğunun qarşısında dayanan vəzifələr kimi özünü göstərə bilər.

Amma hərbi idarəetmə daha geniş mahiyyət kəsb edir və yalnız silahlı qüvvələr quruculuğu ilə məhdudlaşmır. Məlumdur ki, ölkənin hərbi təhlükəsizliyinin təmin edilməsi üçün yaradılmış hərbi təşkilat daha geniş fəaliyyət sahəsini əhatə edir. Bu mənada qeyd etmək olar ki, hərbi idarəetmə müvafiq hakimiyyət orqanlarının ölkənin hərbi təşkilatına hərbi təhlükəsizliyin və müdafiənin təmin edilməsi ilə bağlı konstitusiyadan irəli gələn vəzifələrin həllinin icrası üçün təşkilati, tənzimləyici, təminedici və icraçı təsiridir (29).

Bu yanaşmaya görə hərbi idarəetmə, əvvəla, yalnız silahlı qüvvələrə rəhbərliklə kifayətlənmir və daha geniş fəaliyyət sahəsini əhatə edir, digər tərəfdən də haqlı olaraq bildirilir ki, hərbi idarəetmənin qarşısında dayanan başlıca vəzifə ölkənin hərbi təhlükəsizliyinin təmin edilməsidir ki, bu da dövlət səviyyəsində kompleks vəzifələrin həlli ilə təmin edilir.

Ona görə mütəxəssislər də haqlı olaraq qeyd edirlər ki, ölkənin müharibəyə hazırlaşdırılması ordunun və onun orqanlarının işi deyildir. Bu iş siyasi və iqtisadi sahədə dövlətin xüsusi orqanı tərəfindən həll edilməlidir. Bununla bağlı dövlətin rəhbəredici rolu xüsusilə qabardılır və bildirilir ki, dövlət də yaratdığı orqanlar vasitəsilə bu vəzifənin icrasına məsuliyyət daşıyır (marşal B.M.Şapoşnikov. 30).

Başqa bir qənaətə görə isə, hərbi idarəetmə dövlətin hərbi təşkilatının yaradılması və təkmilləşdirilməsi, onun həyat fəaliyyətinin hərtərəfli təmin edilməsi, silahlı qüvvələrin, digər qoşunların və hərbi birləşmələrin və orqanların hazırlığının və təyinatına görə onlardan istifadə edilməsinin təşkili, ölkənin hərbi təhlükəsizliyinin və müdafiəsi sahəsində qanunvericiliklə müəyyənləşdirilmiş vəzifələrin icrasına rəhbərlik edilməsi ilə bağlı ali baş komandanın və hərbi idarəetmə orqanlarının fəaliyyətidir (31).

Deyilənləri ümumiləşdirməklə, belə bir qənaətə gəlmək mümkündür ki, hərbi idarəetmə - ölkənin hərbi təhlükəsizliyinin təmin edilməsi məqsədilə dövlətin rəhbəredici rolu altında müvafiq ali idarəetmə strukturlarının ölkənin hərbi təşkilatının fəaliyyətinin təşkili və onun səmərəliliyinin artırılması üçün davamlı olaraq göstərdiyi istiqamətverici, tənzimləyici təsirdir. Bu təsir yalnız ölkənin hərbi təşkilatına daxil olan strukturların icraçılıq fəaliyyətinin qurulması ilə bağlı deyil, həm də həmin strukturların idarəetmə funksiyasının qurumlanması və təkmilləşdirilməsi ilə bağlıdır. Çünki ölkənin hərbi təşkilatına daxil olan strukturların hər birinin qarşısında dayanan vəzifələrin keyfiyyətli icrası həmin struktur daxilində səmərəli idarəetmə şəbəkəsi olmadan mümkün deyildir. Bu zaman hərbi idarəetmə ölkənin hərbi təşkilatına daxil olan strukturların müvafiq səviyyədə funksiyalarından birinə çevrilir.

Hərbi idarəetmə kifayət qədər geniş, çoxelementli və çoxşaxəli bir prosesdir və müxtəlif prizmalardan yanaşmaqla bu prosesin mahiyyətini fərqli şəkildə də xarakterizə etmək mümkündür. Burada diqqət yetirilməli olan məqam ondan ibarətdir ki, hərbi idarəetmə dövlət idarəçiliyinin tərkib hissəsidir, bu prosesin öz qanunvericilik bazası var və qarşısında dayanan vəzifələrin xarakterinə görə idarəçiliyin digər sahələrindən fərqlənir, hərbi idarəetmənin subyekti dövlət və legitim rəsmi orqanlardır, bu orqanlarda sərt mərkəzləşdirmə idarəçiliyi mövcuddur.

Hərbi idarəetmənin obyekti kimi isə xarakterindən, səviyyəsindən və istiqamətindən asılı olaraq ölkənin müdafiə sektoru, ölkənin hərbi təşkilatı, ölkənin əhalisi, ərazisi, ölkənin müdafiəsinə və təhlükəsizliyinin təmin edilməsinə töhfə verə biləcək ictimai münasibətlər sistemi çıxış edə bilər. Dinc dövrdə hərbi idarəetmənin obyekti kimi hərbi təşkilatın hərbi strukturları daha qaba-

rıq xarakter alır. O strukturlar ki, orada hərbi xidmət tənzimlənib və həmin strukturlara qanunvericilik əsasında silah və hərbi texnikadan istifadə etmək hüququ verilib. Hərbi vəziyyətin elan edilməsindən sonra isə ölkənin bütün hərbi sektoru, hərbi idarəetmə üsulunun tətbiq edildiyi bütün fəaliyyət sahələri hərbi idarəetmənin obyektinə çevrilir (32).

Xarakterinə və əhatə etdiyi sahəyə görə hərbi idarəetmə bir neçə səviyyədə özünü göstərir (33). Birinci səviyyə siyasi-strateji səviyyədir. Bu səviyyədə olan hərbi idarəetmənin subyektləri ali baş komandanlıq institutu, ali baş komandanın hərbi aparatı, təhlükəsizlik şurası və buna oxşar yaradıla biləcək digər strukturlardır. Siyasi-strateji səviyyədə olan hərbi idarəetmənin obyekti isə ölkənin hərbi təşkilatı, ölkənin hərbi təhlükəsizliyinin təmin edilməsi ilə bağlı bütün fəaliyyət sahələri, daha geniş planda isə bütün ölkə və cəmiyyət ola bilər. Hərbi vəziyyətin elan edilməsi və ölkəyə qarşı istiqamətlənmiş hərbi təcavüzün dəf edilməsi ilə bağlı hərbi idarəetmənin əhatə dairəsi daha da genişlənə bilər ki, bu da qanunvericiliklə tənzimlənir.

İkinci səviyyə isə ölkənin hərbi təşkilatına daxil olan silahlı qüvvələr və digər hərbi birləşmələr səviyyəsində həyata keçirilən hərbi idarəetmədir. Elmi-nəzəri ədəbiyyatda silahlı qüvvələrin idarə edilməsinin iki növünün olması öz əksini tapmışdır - inzibati-təsərrüfat və əməliyyat idarəçiliyi (34). İnzibati-təsərrüfat idarəçiliyi kimi silahlı qüvvələrin qarşısında dayanan vəzifələrin səmərəli şəkildə icrası üçün mövcud imkanlar çərçivəsində əlverişli şəraitin yaradılması qəbul edilir. Bu səviyyədə olan idarəetmə birinci səviyyəli hərbi idarəetmə ilə sıx qarşılıqlı əlaqəyə malikdir. Çünki silahlı qüvvələrin formalaşdırılması və onun qarşısında dayanan vəzifələrin icrasına münasib şərait yaradılması hərbi idarəetmənin daha yuxarı subyektlərinin fəaliyyəti ilə mümkündür.

Həmin münasib şərait öz növbəsində silahlı qüvvələr daxilində idarəetmənin optimal bazasına çevrilir.

Silahlı qüvvələrin (qanunvericiliklə nəzərdə tutulmuş digər hərbi birləşmələrin) idarəedilməsinin inzibati-təsərrüfat növü konkret olaraq onun silah, hərbi texnika, digər maddi-texniki təchizatla təminatında, canlı qüvvə ilə komplektləşdirilməsində, hərbi qüvvələrlə xalq arasında sıx əlaqələrin qurulmasında özünü göstərir (35). Bu məsələlərin düzgün həlli hərbi idarəetmənin subyekti tərəfindən məqsədyönlü, sistemli, əhatəli siyasətin formalaşdırılmasını və onun icrasını təmin edən səmərəli idarəetmənin təşkili ilə mümkündür. Ona görə hərbi idarəetmənin elmi-təcrübi qənaətlərə əsaslanması xüsusi əhəmiyyət kəsb edir. Çünki elmi-təcrübi bazaya dayaqlanmadan hərbi idarəetmənin təkmilləşdirilməsi və inkişaf etdirilməsi, onun çevik və səmərəli bir mexanizmə çevrilməsi kifayət qədər mürəkkəb bir məsələyə çevrilə bilər.

Silahlı qüvvələrin idarəedilməsinin əməliyyat növü isə bu strukturun qarşısında dayanan vəzifələrin icrasına nail olunması üçün silahlı qüvvələrin daxilində idarəetmənin formalaşdırılmasını nəzərdə tutur. Bu məsələ qoşunların daimi döyüş və səfərbərlik hazırlığı səviyyəsində saxlanılması, onların döyüş tapşırıqlarının icrasına hazırlanması və həvalə olunan tapşırıqların icrası zamanı rəhbərliyin təmin edilməsi üçün komandanlığın məqsədyönlü fəaliyyətində öz əksini tapır (36).

Silahlı qüvvələrdə idarəetmənin əməliyyat növü öz ifadəsini aşağıdakılarda tapır. Dinc dövrdə: silahlı qüvvələrin təşkili, təlim-tərbiyəsi, kadr hazırlığı, komplektləşdirilməsi, təchizatı, silahlı qüvvələrin strateji açılışa hazırlaşdırılması, silahlı mübarizənin aparılması metodlarının işlənib hazırlanması, döyüş hazırlığının tələb olunan səviyyədə saxlanılması, silahlı qüvvələrin

döyüş əməliyyatlarının planlarının hazırlanması və həyata keçirilməsi (37). Müharibə dövründə isə - şərait haqqında məlumatların əldə edilməsi, toplanması, öyrənilməsi, təhlili və qiymətləndirilməsi; döyüşün (əməliyyatın) planlaşdırılması, təminatın bütün növlərinin təşkili və qarşılıqlı əlaqəsinin qorunması, idarəetmənin təşkili, tabelikdə olan idarəetmə orqanlarının və qoşunların döyüş fəaliyyətinə hazırlaşdırılması, tabelikdə olan qoşunlara və onların qərargahlarına nəzarət və köməyin təşkil edilməsi, döyüş tapşırığı yerinə yetirən qoşunlara birbaşa rəhbərlik edilməsi, qoşunların yüksək mənəvi-psixoloji durumunun qorunub saxlanılması və s. (38).

Silahlı qüvvələr daxilindəki idarəetmə mənsub olduğu ölkənin imkanlarına, potensialına görə müxtəlif səviyyələrdə qurulmuşdur. Azərbaycan daxilində Ordunun idarə edilməsi strateji səviyyədə - Müdafiə Nazirliyi və Baş Qərargahın timsalında, əməliyyat-strateji səviyyədə - qoşun növləri və Əlahiddə ordu timsalında, əməliyyat-taktiki səviyyədə -korpuslar timsalında, taktiki səviyyədə - briqadalar və digər hissələr timsalında həyata keçirilir.

## İstifadə olunmuş mənbə və ədəbiyyat


1. Военный энциклопедический словарь. Москва, 1983, с. 126
2. Верховный главнокомандующий. https://ru.wikipedia.org/wik/Верховный_главнокомандующий
3. Yenə orada
4. Верховный Главнокомандующий Вооружёнными Силами СССР. https://ru.wikipedia.org/wiki/Верховный_Главнокомандующий_Вооружёнными_Силами_СССР
5. Военная организация государства: понятие и структура. http://bibliofond.ru/view.aspx?id=556677; Тихомиров Ю.А. Админстративное право и просес. http://kniathev.info/books/pravo/011-administrativnoe_pravo_i_process_tihomirov/077-organizaciya_upravleniya_v_oblasti_oborony_ obespecheniya_ bezopasnosti_i_ohrany_gosudarstvennoy_granicy.html; Основные принципы обеспечения военной безопасности. http://otherreferats.allbest.ru/law/00231964_0.html
6. Президент Российской Федерации - высшее должностное лицо государства, Верховный Главнокомандующий Вооруженными силами Российской Федерации. http://knowledge.allbest.ru/law/2c0a65625a2bc68a5c43a88521306c27_0.html
7. Yenə orada
8. «Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqın-

da» Azərbaycan Respublikası Qanununa dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikasının qanunu. «Azərbaycan Respublikası Ali Sovetinin məlumatı», N-5, 15 mart 1992-ci il, s.6

9. Azərbaycan Respublikasının Konstitusiyası. Maddə 9.
10. Корякин В.М., Кудашкин А.В., Фатеев К.В. Военно-админстративное право (Военная админстрация). Москва, 2008, с. 30
11. «Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında» Azərbaycan Respublikası Qanunu. Maddə 6.
12. «Hərbi vəziyyət haqqında» Azərbaycan Respublikası qanunu. Maddə 1
13. Yenə orada, maddə 6
14. Скирдо М.П. Народ, армия, полководец. Москва, 1970, с.157-158
15. Yenə orada, s. 158
16. Халипов В.Ф. Военная политика КПСС. Москва, 1988, с.28
17. Yenə orada, s. 29
18. Клаузевиц. О войне. Т.I, Москва, 1936, с. 142
19. Функции государства: понятие и классификация. https://sites.google.com/site/tgpotvety/home/funkcii-gosudarstva-ponatie-i-klassifikacia; Понятие функций государство. http://www.grandars.ru/college/pravovedenie/funkcii-gosudarstva.html
20. Скирдо М.П. Народ, армия, полковедец. Москва, 1970, с. 96
21. Большая Советская Энсиклопедия. Т. 36, Москва, 1955, с. 641-642

22.Методология военно-научного познания. Москва, 1977, с. 46-47
23. Крупнов С.И. Диалектика и военная наука. Москва, 1963, с. 192-193
24. Клаузевиц. О войне. Т.I, Москва, 1936, с. 124
25. Yenə orada, s. 130
26. Методологические вопросы научного управления в советских вооруженных силах. Москва, 1974, с. 6
27. Белькова О.А. Политическое содержание военного управления.
c-society.ru/data/200701/rganievoennogoupravlenij.doc
28. Корякин В.М., Кудашкин А.В., Фатеев К.В. Военно-админстративное право (Военная админстрация). Москва, 2008, с.79; Военная админстрация. Москва, 2012, с.51
29. Белькова О.А. Политическое содержание военного управления, с.6
c-society.ru/data/200701/rganievoennogoupravlenij.doc
30. Yenə orada
31. Мусрепов Б.С.. Теория военного управления: история и современность, с. 140 // Obronność - Zeszyty Naukowe Wydziału Zarządzania i Dowodzenia Akademii
Obrony Narodowej, 2015, nr 1(13), 136-140
32. Yenə orada, s. 138-139
33. Методологические вопросы научного управления в советских вооруженных силах. Москва, 1974, с. 15-16
34. Военная админстрация. Москва, 2012, с.51
35. Методологические вопросы научного управления в советских вооруженных силах. Москва, 1974, с. 15-16

36. Белькова О.А. Политическое содержание военного управления, с.10
c-society.ru/data/200701/rganievoennogoupravlenij.doc
37. Скирдо М.П. Народ, армия, полководец. Москва, 1970, с. 137
38. Белькова О.А. Политическое содержание военного управления, с.10
c-society.ru/data/200701/rganievoennogoupravlenij.doc

# II FƏSİL

# HEYDƏR ƏLİYEV VƏ SOVET DÖVRÜNDƏ AZƏRBAYCANDA HƏRBİ QURUCULUQ İŞİ

Xalqın istəyi ilə respublika rəhbərliyinə qayıdışından sonra 1993-cü ilin sentyabrında etdiyi çıxışların birində Heydər Əliyev bildirirdi ki, *22 il bundan öncə, 1971-ci ildə biz heç bilmirdik ki, Azərbaycan müstəqil respublika olacaqdır. Lakin mən o vaxt Azərbaycanın müstəqilliyi fikri ilə yaşayırdım* (1). Azərbaycanın müstəqil gələcəyinə olan inamı haqqında ümummilli lider Heydər Əliyevin oxşar bəyanatlarına onun bir çox çıxışlarında rast gəlmək mümkündür. Böyük dövlətçilik zəkası ilə o belə bir günün gələcəyinə inanırdı və belə bir inamla da o, hələ Azərbaycana sovet dövründəki rəhbərliyi zamanı milli maraqlara cavab verən dəyərli siyasət izləyirdi.

1969-cu ilin iyulunda Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsindən sonra respublikanın bütün sahələrində olduğu kimi, hərbi-təşkilati sahədə də yeniləşmənin başlanğıcı qoyuldu. Bu sahəyə diqqət artırıldı, hərbi-təşkilati və müdafiə işinə xalqın həyatında malik ola biləcəyi dəyər verildi, onun miqyası və vüsəti genişləndirildi. Hərbi-təşkilati və müdafiə işinin yeni bir səhifəsinin açılması ilə, əslində, bu məsələdə Azərbaycanın müstəqillik dövrünə dayaqlanan hərbi ənənələr yenidən canlandırıldı və daha da təkmilləşdirildi.

Məlumdur ki, peşəkar milli hərbi kadrların hazırlanmasına hələ Azərbaycan Xalq Cümhuriyyəti dövründə başlanmışdı.

Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra bu prosesə ciddi ideoloji xarakter verilsə də, müəyyən müddət milli hərbi kadrların hazırlanması davam etdirildi. Lakin bu proses elə də uzun çəkmədi. Çünki bir tərəfdən milli diviziyalar ləğv edildi, digər tərəfdən də sovet ordusunda milli hərbi kadrların çox olması mərkəzin siyasətinə uyğun deyildi. Amma Böyük Vətən müharibəsi illərində yenidən milli diviziyaların təşkilinə başlananda milli hərbi kadrlara ehtiyac duyulmağa başladı. Bu milli diviziyalar milli zabitlərin bir yerdə cəmləşməsinə, əlavə ehtiyatlar hesabına milli kadrların artırılmasına imkan verdi. Müharibə başa çatandan az sonra milli diviziyalar yenidən ləğv edildi. Ona görə mərkəz üçün milli hərbi kadrların hazırlanması yenidən öz aktuallığını itirdi.

Bunun nəticəsi idi ki, azərbaycanlıların hərbi sahədə malik olduğu potensialın üzə çıxarılması üçün istər ölkə miqyasında, istərsə də respublika miqyasında xüsusi bir maraq yox idi. Bu işin siyasi və milli əhəmiyyəti də diqqətdən kənarda qalmışdı. Çünki İttifaq rəhbərliyinin milli hərbi kadrların hazırlanmasına və irəli çəkilməsinə qeyri-rəsmi mənfi münasibəti respublika orqanları tərəfindən bir susqunluqla qarşılanırdı və ona görə bu sahəyə münasibətdə də ötərilik güclənməkdə idi.

Respublikada hərbi-təşkilati işin canlandırılmasına Heydər Əliyevin respublika rəhbəri seçilməsindən sonra başlandı. Onun rəhbərliyi altında respublikada hərb işinin, hərbi ənənələrin canlandırılması, xüsusilə gənclər arasında hərbi işinə marağın yaradılması ümumxalq vəzifəsi səviyyəsinə qaldırıldı və bu istiqamətdə ciddi irəliləyişə nail olunması üçün müvafiq qərarlar qəbul edildi.

Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev 1971-ci ilin aprelində MK bürosunun iclaslarının birində hərbi-təşkilati

və kütləvi müdafiə işini "siyasi əhəmiyyəti olan çox mühüm bir məsələ" (2) kimi dəyərləndirdi. Ona görə də Heydər Əliyevin respublika rəhbərliyinə gəlməsindən sonra Azərbaycanda aparılan hərbi-təşkilati və kütləvi-müdafiə işlərinə də məhz bu prizmadan yanaşılırdı.

Bütünlükdə 1969-cu ilin ikinci yarısından etibarən Heydər Əliyevin şəxsi təşəbbüskarlığı əsasında canlandırılmasına başlanan hərbi-təşkilati və kütləvi müdafiə işlərini aşağıdakı kimi qruplaşdırmaq mümkündür: a) çağırışaqədərki hazırlıq; b) hərbi çağırışın təşkili və hərbi hissələrlə əlaqələrin gücləndirilməsi; c) milli hərbi kadrların hazırlığı. Bu sahələrin hər biri geniş əhatə dairəsinə malik idi və onların həyata keçirilməsi də böyük təşkilati işləri tələb edirdi. Çünki bir tərəfdən bu sahələrdəki durğunluq yeni bir siyasətin formalaşdırılmasını tələb edirdi. Digər tərəfdən isə yeni formalaşdırılacaq siyasətin icrası üçün böyük qətiyyət və əzmkarlıq göstərilməsi tələb olunurdu. Heydər Əliyev bu məsələlərin hər ikisinin uğurlu həllini ortaya qoydu. O, respublikanın daxilində və xaricində mövcud olan ətalətə və təzyiqlərə qarşı özünəməxsus mübarizlik və ardıcıllıq göstərərək qısa müddətdə Azərbaycanda hərbi ənənələrin canlandırılmasına, hərbi-təşkilati işlərin kifayət qədər fəallaşdırılmasına nail oldu.

## 1. Çağırışaqədərki hazırlıq işləri

Azərbaycanda hərbi quruculuq sahəsində mövcud olan vəziyyətlə ilkin tanışlıq onun milli maraqlardan tamamilə kənarda qaldığını, bu sahədə mərkəzin yazılı və şifahi göstərişlərinə kor-koranə əməl edildiyini nümayiş etdirirdi. Azərbaycan vətəndaşları da digər respublikaların vətəndaşları kimi SSRİ qanunvericiliyinə uyğun olaraq hərbi xidmətə cəlb edilirdilər. Lakin bəzi

respublikaların çağırışçılarından fərqli olaraq, Azərbaycandan olan çağırışçılar, bir qayda olaraq, hərbi ixtisasların öyrədildiyi hərbi hissələrə deyil, təminat, təchizat və tikinti hissə və bölmələrinə istiqamətləndirilirdilər. Buna görə də Azərbaycanın ehtiyat kontingentinin arasında hərbi ixtisaslara malik olanların sayı da çox deyildi. Bu vəziyyəti mərkəzi orqanların nümayəndələri azərbaycanlıların rus dilini bilməməsi ilə əlaqələndirirdilər. Heydər Əliyev öz çıxışlarının birində bu vəziyyəti belə qiymətləndirirdi: "Biz ildə təxminən 60 min gənci ordu sıralarına göndərirdik. Ancaq onların tam əksəriyyəti inşaat batalyonlarına düşürdü. Soruşanda ki, nə üçün bizim əsgərlərdən belə istifadə edirsiniz? Deyirdilər ki, bilirsiniz, onlar rus dilini bilmir, yaxud da yaxşı bilmirlər. Bu, doğru deyildi. Onların içində bir qismi rus dilini də bilirdi. Ola bilər, kənd yerlərindən olanlar rus dilini bilmirdilər, ya yaxşı bilmirdilər. Bizə deyirdilər ki, orduda hər şey texnika ilə əlaqədardır, gərək dil biləsən, ona görə də biz onları hərbi hissələrin yaxşılarında yerləşdirə bilmərik" (3).

Bu arzuolunmaz vəziyyətin aradan qaldırılmasına nail olunması üçün Heydər Əliyev hələ çağırışdan əvvəl respublika daxilində genişmiqyaslı işlərin görülməsini mühüm bir vəzifə kimi irəli sürdü. Aydın idi ki, ordunun zərbə qüvvəsi olan döyüş hissələrinin müasir hərbi texnikasını bu hissələrdə xidmət edən gənclərin yüksək savadı və texniki hazırlığı ilə hərəkətə gətirmək olardı. Azərbaycanlı gənclərin belə hissələrdə xidmətə cəlb edilməməsi üçün müxtəlif səbəblər mövcud olsa da, mərkəzdən ilk növbədə onların rus dilinə bələd olmamaları bəhanə gətirilirdi. Bu məsələ, əslində, bir problem kimi mövcud idi və rus dilini bilmədikləri üçün azərbaycanlı gənclər xüsusi ixtisaslar tələb edən hərbi hissələrə bir qayda olaraq alınmır və onlardan daha çox xidmət və inşaat hissələrində işçi qüvvəsi kimi istifadə olunurdu. Vəziyyətin

dəyişdirilməsi üçün azərbaycanlı gənclərin rus dili biliyinin təkmilləşdirilməsinə ehtiyac var idi. Ona görə də XX əsrin 70-ci illərindən etibarən respublika rəhbərliyi tərəfindən gənclərin ümumtəhsil səviyyəsinə diqqət artırılmaqla bərabər, respublikada rus dilinin öyrənilməsinə, çağırışdan qabaq bəzi hərbi ixtisas vərdişləri verən OADKYC-nin (Orduya, Aviasiyaya, Donanmaya Könüllü Yardım Cəmiyyəti) fəaliyyətinin səmərəliliyinin genişləndirilməsinə, gənclər arasında hərbi-vətənpərvərlik tərbiyəsinin yüksəldilməsinə diqqət artırıldı. Məlum idi ki, sovet hakimiyyəti illərində hərbi-vətənpərvərlik tərbiyəsi sosialist ideologiyasının tələbləri çərçivəsində aparılırdı. Azərbaycanda da bu tələbə əməl edilirdi. Bununla belə bu işin mərkəzində başlıca olaraq azərbaycanlı gənclərdə hərb işinə marağın oyadılması və gücləndirilməsi dayanırdı ki, burada da hər hansı bir ideoloji təsirə elə bir ehtiyac yox idi. Ona görə də bu istiqamətdə hərb işinə marağın və ilkin hərbi vərdişlərin aşılanması üçün yeniyetmə və gənclər arasında son dərəcə çoxsaylı tədbirlər həyata keçirilirdi. Hərbi-vətənpərvərlik işi yalnız bununla da kifayətlənmirdi. Bu sahəyə, əslində, respublikanın bütün ictimai-siyasi və mədəni qüvvələri, ziyalıları, dövlət və gənclər təşkilatları, hərbçilər və müharibə və əmək veteranları səfərbər edilmişdilər.

1971-ci ilin əvvəllərində respublika rəhbərliyinin tapşırığı ilə Bakının Lenin (Sabunçu) və 26 Bakı Komissarları (Səbail) adına rayonlarında, Kirovabad (Gəncə) şəhərində, Salyan və Xanlar (Göygöl) rayonlarında yerləşən ümumtəhsil məktəblərində, texniki peşə məktəblərində, texnikumlarda, habelə təlim məntəqələri olan müəssisələrdə, təşkilat və sovxozlarda gənclərin xidmətə hazırlaşdırılması, gənclərdə hərb işinə marağın yaradılması məsələləri yoxlanıldı. Bu yoxlamaya 30 təhsil müəssisəsi və 28 təşkilat, müəssisə və sovxoz cəlb edildi. Üzə çıxarılan nəticələr göstərdi

ki, respublika həyatında başlamış olan canlanma bir sıra təhsil müəssisələrində və təşkilatlarda gənclərin çağırışaqədərki hazırlığının səmərəliliyinin artırılmasına müsbət təsir göstərmişdir. Partiya, sovet və komsomol təşkilatlarının nümayəndələrinin yaxından iştirakı ilə respublikada müxtəlif məzmunlu və xarakterli kütləvi müdafiə və hərbi-vətənpərvərlik tədbirləri keçirilirdi. Mövcud olan məlumatlara görə, respublikanın 248 məktəbində, texniki peşə məktəblərində və texnikumlarda ibtidai hərbi hazırlıq aparılırdı və bu hazırlığın bütün orta ümumtəhsil və ixtisas məktəblərinə tətbiq edilməsi Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə başa çatdırıldı. 1971-ci ildə aparılan yoxlamanın nəticələrinə görə aydınlaşdı ki, respublikanın 272 təşkilatında, müəssisəsində, kolxoz və sovxozlarında təlim məntəqəsi fəaliyyət göstərir. Tədris müəssisələrində ibtidai hərbi hazırlığı əsasən ehtiyatda olan zabitlər aparırdılar. Təlim məntəqələrində isə bu işin məsuliyyəti məntəqə rəisinin və təlimatçılarının üzərində idi. Bütün bu görülən və aparılan işlər respublika rəhbərliyi tərəfindən təqdir olunurdu. Bununla belə, gənclərin hərb işinə alışdırılmasında hələ kifayət qədər böyük imkanlar mövcud idi. Ona görə də əlaqədar təşkilatlar və orqanlar qarşısında müvafiq vəzifələr qoyuldu, konkret tədbirlərin həyata keçirilməsi müəyyənləşdirildi (4).

1972-ci ildə Azərbaycanda milli diviziyaların yaradılmasının 30 illiyi təntənəli şəkildə qeyd edildi. Doğrudur, milli diviziyaların yaranma tarixi Böyük Vətən müharibəsi dövründən götürülürdü, bununla belə bu diviziyaların təşkilinin yubileyinin keçirilməsi ilə əslində hərbi işə marağın təbliğ edilməsi və hərbi-vətənpərvərlik işinin genişləndirilməsi qarşıya məqsəd kimi qoyulmuşdu. Respublika rəhbərliyinin xüsusi önəm verdiyi bu yubiley Azərbaycanda geniş miqyasda qeyd edildi, müharibə veteranları ilə çoxlu sayda görüşlər keçirildi, azərbaycanlı müharibə

iştirakçılarının xidmət yolu gənclər arasında təbliğ olundu. Bu istiqamətdəki tədbirlərin daha canlı və səmərəli keçməsi üçün xüsusi təşkilat komitəsi yaradıldı və Azərbaycan Lenin Kommunist Gənclər İttifaqı (LKGİ) Mərkəzi Komitəsinin, respublika Hərbi Komissarlığının, Müharibə veteranları komitəsinin məsul işçiləri və nümayəndələri bu komitənin tərkibinə daxil edildilər (5).

Elə 1972-ci ilin fevralında Bakı məktəblərində "Qəhrəmanlıq dərsləri" aylığı təşkil edildi. Aylığın gedişində Bakı məktəblərinin və gənclərinin nümayəndələrinin hərbi hissələrə və hərbi gəmilərə səfərləri təşkil edildi, onların qarşısında müharibə veteranları və hərbçilər çıxış etdilər, gənclər və məktəblilər hərbi xidmət həyatı ilə yaxından tanış oldular. 1972-ci il aprel ayının 30-da Bakı Ali Hərbi Dənizçilik Məktəbində də "Açıq qapı" günü keçirildi. Bu tədbirin təşkili üçün çağırış yaşı çatmış gənclər məktəbə dəvət edildilər, onlar kursantlarla görüşdülər, hərbi və döyüş texnikası ilə tanış oldular, Xəzər donanmasının hərbi gəmilərində dənizə səyahətə çıxdılar. Gənclərin hərb işinə alışdırılmasında bu tədbirə böyük əhəmiyyət verildiyi üçün Azərbaycan LKGİ MK katibləri və büro üzvləri də qonaqlarla birlikdə Bakı Ali Hərbi Dənizçilik Məktəbində oldular. Həmin ilin iyununda Bakı şəhər komsomol komitəsinin və OADKYC-nin Bakı komitəsinin birgə iştirakı ilə çağırışçı və çağırışaqədərki gənclərin yay spartakiadası keçirildi, xidmətə hazırlaşan gənclərin fiziki-idman hazırlığı yoxlanıldı və onun nəticələri barədə Azərbaycan KP MK-ya da məlumat verildi (6).

Sadalanan bu tədbirlər çağırışaqədərki gənclər arasında aparılan işləri müəyyən qədər fəallaşdırdı. Kütləvi-müdafiə və ictimai təşkilatların fəaliyyətinə tələbkarlıq artdıqca gənclərin hərb işinə alışdırılması, onlarda hərbçi peşəsinə marağın oyadılması və gənclərin fiziki-idman hazırlığının yoxlanılması üçün ən müxtəlif

tədbirlər planlaşdırılırdı. Məsələn, 1972-ci ilin yayında respublikanın çağırışaqədərki gəncləri üçün 15 düşərgə açılmışdı. Mingəçevirdə, Kirovabadda (Gəncə), Qutqaşendə (Qəbələ), Zaqatalada, Lənkəran və Şuşa rayonlarında belə düşərgələr ilk dəfə açıldı. Həmin düşərgələrdə 3620 nəfər çağırış yaşı çatmış gənc və yeniyetmə hərbi-texniki, fiziki və əmək fəaliyyəti ilə məşğul olurdular. Bu hərbi-idman düşərgələrinin proqramlarına hərbi texnikanın, silahların öyrədilməsi, atış vərdişlərinin əldə edilməsi, hərbiləşdirilmiş oyunlarda, sıra və fiziki hazırlıqda iştirak edilməsi, "Əməyə və müdafiəyə hazıram" normativlərinin ödənilməsi daxil edilmişdi. Hazırlıq prosesinin səmərəli və məhsuldar aparılması üçün düşərgənin qərargahına kadr zabitləri, starşina, serjant və sıravi hərbi qulluqçular daxil edilmişdilər. Həmin düşərgələrin fəaliyyəti respublika rəhbərliyinin ciddi nəzarəti altında olduğundan Bakı Hava Hücumundan Müdafiə Dairəsinin qərargahı və Siyasi idarəsi, habelə Azərbaycanda yerləşən hissə və birləşmələrin komandanları onların fəaliyyətinin təşkilində daha yaxından iştirak edirdilər. Konkret olaraq düşərgələrə hərbi qulluqçular ezam olunur, hərbi texnika və vəsait ayrılırdı (7).

Gənclərin hərb işinə alışdırılmasında respublikanın yaradıcı təşkilatlarının fəaliyyəti də genişləndi. 1973-cü ilin yayında bu məsələ respublika Yazıçılar İttifaqında əlaqədar təşkilatların nümayəndələrinin iştirakı ilə geniş müzakirə olundu. Azərbaycan yazıçıları tərəfindən gənclərdə hərb işinə maraq oyadacaq daha çox əsərin ortaya çıxarılması zərurəti qeyd edildi. Yazıçılar İttifaqı tərəfindən təkcə hərbi hissələrdə, təşkilat və müəssisələrdə, təhsil müəssisələrində 100-dən artıq tədbirin keçirilməsi nəzərdə tutulmuşdu. Həmin tədbirlərdə şair və yazıçılar Azərbaycan xalqının qəhrəmanlıq tarixinə həsr edilmiş əsərləri oxumaqla hərb işinə marağın kütləviləşdirilməsində iştirak etməli idilər (8).

Bütünlükdə Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin təşəbbüsü ilə hərbi-təşkilati işlərin ümumxalq əhəmiyyətli vəzifələrə çevrilməsindən sonra gənclərdə hərb işinə marağın oyadılması sahəsində daim inkişafda olan bir iş aparılırdı. Əldə edilmiş müsbət nəticələr təhlil edilib ümumiləşdirilməklə bərabər, nöqsan və çatışmazlıqlar da üzə çıxarılır, onların aradan qaldırılması ilə bağlı konkret tədbirlər həyata keçirilirdi. 1974-cü ilin aprel ayında Azərbaycanda qoşundankənar hazırlığın vəziyyəti yoxlanıldı. Bu hazırlıq forması həm ehtiyatda olan kontingenti, həm də çağırışaqədərki kontingenti əhatə edirdi. Yoxlama nəticəsində müəyyən edildi ki, birinci dərəcəli ehtiyatda olan zabitlərlə komandir hazırlığı müvafiq normativ sənədlər və tələblərə uyğun olaraq aparılır. Respublikanın 43 hərbi komissarlığının hərbi qeydiyyatında olan kontingentin hazırlığı hərbi hissələrin və mülki institutların hərbi kafedraları bazasında aparılırdı. Ehtiyat zabitlərin hazırlığı planı yerinə yetirilməkdə idi. Bu hazırlığın aparılması ilə bağlı tədris proqramları yerli partiya və sovet orqanları ilə də razılaşdırıldı. Respublika qeydiyyatında olan ehtiyat zabitlərin 58 faizi 60 saatlıq proqram üzrə, 42 faizi isə 30 saatlıq proqram üzrə hazırlıq keçdi. Yoxlamanın keçirildiyi bütün hərbi komissarlıqlarda komandir məşğələlərinin aparılması qənaətbəxş qiymətləndirildi. Sumqayıt şəhər hərbi komissarlığı bu sahədə xüsusilə fərqləndi. Bütün bunlarla bərabər, aparılan yoxlamalardan sonra komandir hazırlığında davamiyyətin ciddi nəzarət altında saxlanılması və ayırmalara son qoyulmasının zəruriliyi də vurğulandı (9).

Çağırışaqədərki hazırlıq çərçivəsində isə mülki institutlarda ehtiyat zabitlərin hazırlanması və ibtidai hərbi hazırlığın aparılması yoxlanıldı. Bu istiqamətdə də qarşıya qoyulan vəzifələrin icrasında müsbət nəticələrin əldə edildiyi bildirildi. Yoxlama

zamanı Azərbaycan Dövlət Universitetinin və Politexnik İnstitutunun hərbi kafedralarının fəaliyyəti qənaətbəxş, Neft və Kimya İnstitutunun hərbi kafedrasının fəaliyyəti isə yaxşı qiymətləndirildi. Eyni zamanda, tələbələrin hərb işinə praktiki öyrədilməsinin gücləndirilməsinin, onlara komandir keyfiyyətlərinin aşılanmasının, kafedraların tədris-maddi bazasının yaxşılaşdırılmasının zəruriliyi vurğulandı. İbtidai hərbi hazırlığa gəlincə isə bu proses daha kütləvi xarakter daşıyırdı. İşləyən əhali ilə birlikdə 243 min adam ibtidai hərbi hazırlığa cəlb edilmişdi ki, onların 144 mini çağırışaqədərki gənclər idi. Məktəblər, təhsil müəssisələri, təlim məntəqələri tabel silahları və təlim-tədris vəsaiti ilə bütünlüklə təmin olunmuşdular. Kiçikçaplı tüfənglərlə təminat səviyyəsi isə tam deyildi. Silahların quruluşu, işləmə prinsipləri gənclərə öyrədildikdən sonra, onlardan praktiki olaraq atmaq imkanı da yaradıldı. 1973-cü ildə respublikanın 37 min gənci avtomat silahlardan döyüş güllələri atmaqla hələ çağırışdan əvvəl silahdan istifadənin ilkin vərdişlərinə yiyələndilər. İbtidai hərbi hazırlığın səmərəliliyinin artırılması istiqamətində qarşıda dayanan başlıca vəzifə bu hazırlığı aparan kadrların ştata uyğun komplektləşdirilməsi və onların ümumi hazırlıq səviyyəsinə görə seçilməsi idi. 1973-cü ildə respublikada mövcud olan hərbi rəhbərlərin 1387 nəfəri (84,5%) ehtiyatda olan zabit, 251 nəfəri isə (15,5%) ehtiyatda olan əsgər və serjant idi (10). Bu, əslində məqbul göstərici idi və ibtidai hərbi hazırlıq prosesində gənclərdə hərb işinə marağın oyadılması üçün münasib zəmin yaradırdı. SSRİ Müdafiə Nazirliyi qoşundankənar xidmət idarəsi nümayəndələrinin apardığı yoxlamalardan sonra bu istiqamətdəki işlərin Azərbaycanda yaxşı səviyyədə təşkil edildiyi bildirildi.

Hərbi-təşkilati və kütləvi müdafiə işinin müxtəlif məsələləri vaxtaşırı olaraq rəhbər orqanların müzakirəsinə çıxarılırdı. 1974-cü il avqustun 30-da Heydər Əliyevin təşəbbüsü ilə “Azərbaycan

KP MK-nın 1972-ci ildə respublika gənclərinin sovet ordusu sıralarına çağırılmasının yekunları barədə 3 mart 1973-cü il tarixli qərarının respublikanın partiya, sovet təşkilatları və hərbi komissarlıqları tərəfindən yerinə yetirilməsi işi haqqında" Azərbaycan KP MK-nın yeni bir qərarı qəbul edildi. Bu qərarda hərbi çağırışın təşkili ilə bağlı başlıca diqqət respublikadakı çağırışaqədərki hazırlığın aparılmasına yetirilir, partiya, sovet orqanları, habelə ictimai təşkilatlar qarşısında çağırışaqədərki hazırlığın gücləndirilməsi ilə bağlı konkret vəzifələr qoyulurdu. Həmin qərar Kirovabad (Gəncə) və Bakı şəhərləri partiya komitələrinin bürosunda müzakirəyə çıxarıldı və onun icrasının yolları müəyyənləşdirildi. 1974-cü ilin noyabr ayında Kirovabad şəhər partiya komitəsinin bürosunda keçirilən müzakirələrdə qeyd edildi ki, şəhərin təhsil müəssisələrinin əksəriyyətində muzeylər, döyüş şöhrəti guşələri fəaliyyət göstərir, zabitlər evində gələcək döyüşçü universiteti açılıbdır. Həmin universitetə 9 və 10-cu siniflərdən olan 50 şagird cəlb edilmişdi. Gənclərdə hərbi işə marağın oyadılması üçün "Üfüqdə parıltı" hərbiləşdirilmiş oyunlarının keçirilməsi və kütləviləşdirilməsi də diqqət mərkəzində idi. Hərb işinə marağın gücləndirilməsi üçün şifahi təbliğat tədbirləri də genişləndirilmişdi. "Bilik" cəmiyyətinin xətti ilə 1974 və 1975-ci ilin birinci yarısında hərbi-vətənpərvərlik mövzusunda 1200-dən çox mühazirə oxunmuşdu (11).

1975-ci ilin may ayında Bakı şəhər partiya komitəsinin bürosu Qaradağ rayonunun timsalında rayonlarda çağırışaqədərki və çağırış yaşlı gənclərin hərbi xidmətə hazırlığı məsələlərini müzakirə etdi. Büro bütün əlaqədar təşkilatların çağırışaqədərki hazırlıq sahəsində fəaliyyətinin təkmilləşdirilməsi üçün konkret tədbirlər də müəyyənləşdirdi. Şəhər partiya komitəsinin bürosu OADKYC-nin Bakı komitəsinin fəaliyyətinin səmərəli olduğunu

qeyd etdi. Təkcə 1974-cü ildə və 1975-ci ilin birinci yarısında cəmiyyətin xətti ilə şəhərdə 35,5 min gəncə hərbi ixtisas verildi. Şəhərin sənaye, nəqliyyat və tikinti müəssisələrində ibtidai hərbi hazırlıq üzrə 68 təlim məntəqəsi fəaliyyət göstərirdi. Bu təlim məntəqələrində 5600 çağırış yaşlı gənc hazırlıq keçirdi. 1974-cü il və 1975-ci ilin birinci yarısında idmanın hərbi-texniki növləri üzrə şəhərin müxtəlif təşkilatlarında 5,5 min idman yarışı keçirilmiş və həmin yarışlarda 21 mindən çox gənc iştirak etmişdi. Bu yarışların gedişində 28,6 min dərəcəli idmançı hazırlanmışdı. Çağırışaqədərki gənclər, eyni zamanda, hər il "Sıraya durmağa hazıram" spartakiadalarında da iştirak edirdilər (12).

Naxçıvan Muxtar Respublikasında ibtidai hərbi hazırlığın səviyyəsinin qaldırılması və daha da yaxşılaşdırılması üçün orta məktəblərdə hərbi kabinələr yaradılmışdı və müvafiq təlim-tədris bazası qurulmuşdu. Bütün məktəblərə təlim və kiçikçaplı silahlar verilmişdi. 9-cu sinif şagirdləri çöl məşğələləri keçməklə Kalaşnikov avtomat silahlarından güllə də atmışdılar. Ordubad rayonunun internat məktəbinin şagirdləri üçün bu məşğələlər daha yüksək səviyyədə təşkil edilmişdi. İbtidai hərbi hazırlıq dərslərində tədris olunan biliklərin möhkəmləndirilməsi üçün Culfa rayonunun Noraşen kənd məktəbində yay tətili dövründə idman-müdafiə düşərgəsi təşkil edilmişdi və 200 nəfər yuxarı sinif şagirdi bu düşərgəyə cəlb edilmişdi. Hərbi məktəblərə daxil olmaq istəyənlər üçün Naxçıvan şəhərindəki 3 nömrəli məktəbdə rus dili dərnəyi açılmışdı. Muxtar Respublikanın gəncləri arasında idman-sağlamlıq işlərinin miqyası da genişləndirildi. Əgər 1974-cü ildə çağırışçıların 62,9 faizi "Əməyə-müdafiəyə hazıram" nişanına malik idisə, 1975-ci ildə bu normanı artıq çağırışçıların 76,3 faizi yerinə yetirmişdi.

1975-ci ildə respublikanın 1611 məktəbində 180 min şagird ibtidai hərbi hazırlığa cəlb edilmişdi. Bütün məktəblərdə ibtidai

hərbi hazırlıq müvafiq fənn kabinələrində aparılırd. Bu kabinələr həm tabel silahları, döyüş sursatı, həm də əyani vəsaitlərlə təmin edilmişdilər. Bir sıra məktəblərdə yuxarı sinif şagirdlərinə hərbi ixtisaslar – rabitəçi, teleqrafçı, topoqraf, kimyaçı-dozimetrçi və s. ixtisaslar da öyrədilirdi. Hərbi hazırlıq rəhbərlərinin bilavasitə iştirakı ilə məktəb-rayon miqyasında "Üfüqdə parıltı", "Qartal balası" kimi hərbi-idman oyunları və digər məktəbdənkənar işlər aparılırdı. Bir sıra məktəblərdə "Axtarış", "İgidlik" klubları yaradılmışdı. Çağırışaqədərki gənclərin məktəblərdə aparılan hərbi hazırlığına hər il respublika miqyasında yekun vurulur, nəticədə respublikanın müvafiq rəhbər orqanlarının diqqətinə çatdırılırdı. Lakin respublika rəhbərliyi gənclərin və yeniyetmələrin ibtidai hərbi hazırlığının aparılmasında, onlarda hərb işinə marağın oyadılmasında mövcud imkanlardan heç də bütünlüklə istifadə edilmədiyini bildirirdi. Bu sahədə isə vəziyyətin daha da yaxşılaşdırılması, çağırışaqədərki hazırlığa daha real xarakter verilməsi məqsədilə Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi altında Azərbaycan KP MK və respublika Nazirlər Soveti 1976-cı il oktybarın 5-də "Silahlı qüvvələr üçün mütəxəssislər hazırlığının yaxşılaşdırılması və respublikada idmanın hərbi-texniki növlərinin inkişafı tədbirləri haqqında" qərar qəbul etdi. Qərarda bir sıra nazirlik və təşkilatların çağırışaqədərki hazırlıq sahəsində yol verdiyi nöqsanlar ciddi tənqidə tutulmaqla bərabər, qarşıda dayanan vəzifələrin daha keyfiyyətli həlli üçün konkret yollar və tədbirlər də müəyyənləşdirildi. Qərarda tələb olunurdu ki, orta ümumtəhsil, orta ixtisas və texniki peşə məktəblərinin ibtidai hərbi hazırlıq üzrə tədris-maddi bazası möhkəmləndirilsin, respublikada tirlərin və atış meydanlarının tikintisi genişləndirilsin. Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin rəhbərliyi altında qəbul olunmuş qərar quruculuq işlərinin genişləndirilməsini, mad-

di-texniki bazanın təkmilləşdirilməsi ilə ibtidai hərbi hazırlığın keyfiyyətinin yaxşılaşdırılmasını, obyektiv baza yaradılmasını nəzərdə tuturdu. Qərarla, eyni zamanda, respublikanın rəhbərliyi müvafiq təşkilatların məsuliyyət və cavabdehliyinə tələbkarlığı artırdı ki, bu da qarşıda duran vəzifələrin icrasına yeni münasibətin formalaşmasını sürətləndirdi.

Heydər Əliyev başda olmaqla respublikanın yeni rəhbərliyinin fəaliyyətinin xarakterik xüsusiyyətlərindən biri bu idi ki, qəbul edilmiş qərarların icrası formalizmdən uzaq idi, hər bir tədbirin reallığı planlaşdırıldığı andan nəzərə alınmaqla tətbiqində də öz ifadəsini tapırdı. Sözsüz ki, icraçılıq qabiliyyəti bütün təşkilatlarda, bütün bölgələrdə və strukturlarda eyni səviyyədə olmadığı üçün vaxtaşırı konkret məsələlərin həllinə bir də qayıdılır, respublika rəhbərliyinin aydın mövqeyi məsul şəxslərə, əlaqədar təşkilatlara və ictimaiyyətə çatdırılırdı.

1981-ci ildə ibtidai hərbi hazırlığın vəziyyəti respublikanın 160 məktəbində yoxlanıldı. Bu yoxlamaların nəticələri ümumiləşdirilərək Maarif Nazirliyinin rəhbərliyinin müvafiq əmrində rəsmiləşdirildi və bütün məktəblərə çatdırıldı. Mövcud vəziyyət, ibtidai hərbi hazırlığın müsbət və mənfi tərəfləri, görülən və görülməli olan işlər haqqında Azərbaycan KP MK-ya da məlumat təqdim olundu.

1981-ci ildə respublikanın məktəblərində 2023 nəfər hərbi rəhbər var idi ki, onlardan da 1374 nəfəri ehtiyatda olan zabit idi. Bu kontingentdən 568 nəfərinin ali savadı var idi. Bununla belə, mütəmadi olaraq hərbi rəhbərlərin hazırlıq səviyyəsinin təkmilləşdirilməsi aparılırdı. İl ərzində 300 hərbi rəhbər ümumrespublika kursunda hazırlıq keçdi ki, bu da son nəticədə ibtidai hərbi hazırlığın keyfiyyətinin yaxşılaşdırılmasına müsbət təsir göstərdi. İbtidai hərbi hazırlığın keyfiyyətinin qaldırılması üçün

maddi-texniki bazanın təkmilləşdirilməsi də diqqət mərkəzində saxlanılırdı. 1981-ci ildə Azərbaycandakı 2012 orta məktəbdə təchiz edilmiş hərbi kabinələr var idi ki, onlardan 1925-i SSRİ Müdafiə Nazirliyinin təlimatına cavab verirdi. 1680 məktəbin silah anbarı tam təhlükəsizlik tələblərinə uyğun olaraq yaradılmışdı, 412 məktəbdə kiçikçaplı tüfənglər üçün nəzərdə tutulmuş atıcılıq tiri fəaliyyət göstərirdi. Gənclər və yeniyetmələrdə hərb işinə marağın yaradılması üçün onlar arasında təbliğat və izahetmə işləri də genişləndirilirdi. Bununla bağlı, 1981-ci ildə respublikanın bütün rayonlarında ibtidai hərbi hazırlığın təşkili problemi ilə bağlı elmi-praktiki konfranslar keçirildi. Orta məktəblərdə ləpirçilər hərəkatı genişləndirilir və bu hərəkata daha çox məktəbli cəlb edilirdi. Döyüş şöhrəti muzeylərinin sayı ildən-ilə artmaqda idi. 1981-ci ildə onların sayı 1500-ə çatmışdı. Bütün bu işlər son nəticədə hərbi məktəblərə meylin güclənməsinə kömək edirdi. 1981-ci ildə respublikanın 1500 məktəbi hərbi-vətənpərvərlik işlərinə baxışda iştirak etdi və onların 115-nin işi təqdir edilərək fəxri fərmanlara layiq görüldü. Həmin ildə "Üfüqdə parıltı" və "Qartal balası" hərbi-idman oyunlarına cəlb olunanların sayı 900 minə çatdı, 19 min çağırış yaşlı gənc rus dili üzrə əlavə məşğələlərlə əhatə edildi, 7225 gənc isə hərbiidman düşərgələrində hərbi-idman hazırlığı keçdi (13).

Azərbaycanlı gənclərin və yeniyetmələrin hərbi xidmətə hazırlığının gücləndirilməsi istiqamətində texniki peşə məktəblərində də müvafiq işlər aparılırdı. Xüsusilə ildən-ilə bu sahəyə diqqət artırılırdı. Texniki peşə məktəblərində ibtidai hərbi hazırlığın vəziyyəti və onun təkmilləşdirilməsi yolları 1981-ci ildə iki dəfə texniki peşə təhsili üzrə dövlət komitəsinin kollegiyasında müzakirə edildi. Bu müzakirələr zamanı səsləndirilən rəqəmlər bir daha nümayiş etdirdi ki, respublika rəhbərliyinin gənclərin hərbə

hazırlaşdırılması üçün irəli sürdüyü tələbkarlıq yerlərdəki işlərin fəallaşmasına təkan vermişdir.

1981-ci ildə 110 texniki peşə məktəbində ibtidai hərbi hazırlıq təlimləri keçirildi. Həmin məktəblərdə 63065 şagird təhsil alırdı. 1981-ci ildə ibtidai hərbi hazırlığı 23650 nəfər başa çatdırdı. Onlardan 16050 nəfəri və ya 68 faizi əla və yaxşı qiymətlər almışdı. İbtidai hərbi hazırlığın aparıldığı bütün texniki peşə məktəblərində fənn kabinələri yaradılmışdı. Məktəblərdə eyni zamanda sıra hazırlığı meydanları və silah anbarları var idi. 75 texniki peşə məktəbində atıcılıq tirləri açılmışdı. 1981-ci ildə texniki peşə məktəbləri kollektivlərinin gücü ilə 20 atıcılıq tiri, 10 gimnastika şəhərciyi, silahların təmizlənməsi və yoxlanması üçün 7 guşə, atış qaydaları və üsullarının öyrənilməsi üçün 8 meydança hazırlanmış və 12 fənn kabinəsi yenidən təchiz edilmişdi. Texniki peşə məktəblərində yaradılan və təkmilləşdirilən bu maddi texniki baza ibtidai hərbi hazırlığın səviyyəsinin də yüksəklərdə saxlanılmasına imkan verirdi.

1981-ci ildə texniki-peşə məktəblərinin şagirdlərində hərb işinə marağın oyadılması üçün 570 gecə təşkil edilmiş, "Qəhrəmanlıq yolu ilə" əməliyyatında 42 min şagird iştirak etmiş, "Gənc hərbçi üçnövçülüyü" üzrə yarışlara 20 min, "Snayper" əməliyyatına isə 21 min şagird qatılmışdı. "Qartal balası" və "Üfüqdə parıltı" hərbi-idman oyunları da texniki-peşə məktəbləri şagirdləri arasında öz kütləviliyini saxlamaqda idi. 1981-ci ildə təkcə "Qartal balası" hərbi-idman oyununda 85 texniki peşə məktəbinin 30 min şagirdi iştirak etmişdi. İl ərzində 34992 şagird "Əməyə-müdafiəyə hazıram" kompleksinin normalarını yerinə yetirmişdi ki, onlardan da 2445 nəfər qızıl nişana layiq görülmüşdü. 19290 şagird isə idman dərəcəsini əldə etmişdi və onlardan da 2979 nəfəri atıcılıq idman dərəcəsi ala bilmişdi. Texniki peşə məktəblərində,

eyni zamanda, ordu üçün mütəxəssislərin hazırlanması da aparılırdı. 7 məktəbdə Müdafiə Nazirliyinin, 8 məktəbdə isə xalq təsərrüfatı orqanlarının sifarişi əsasında mütəxəssislər hazırlanırdı. Həmin məktəblərdə əsasən sürücülər hazırlanırdı və bu işə ali savadlı 64 müəllim cəlb olunmuşdu. Sürücülər hazırlanan məktəblərdə avtomobillərin quruluşu üzrə 27 laboratoriya, yığıb-sökmə işləri üzrə 10 laboratoriya, yol hərəkəti qaydaları üzrə 11 kabinə, 7 texniki xidmət məntəqəsi və s. fəaliyyət göstərirdi (14).

Əldə edilən bu göstəricilər ilk növbədə respublika rəhbərliyinin kütləvi müdafiə və hərbi-təşkilati iş sahəsində nümayiş etdirdiyi tələbkarlığın və təşəbbüskarlığın nəticəsi idi. Bütünlükdə, 70-80-ci illər arası digər sahələrdə olduğu kimi, hərbi-təşkilati və kütləvi müdafiə işləri istiqamətində respublika rəhbərliyinin fəaliyyəti öz işgüzarlığı ilə seçilirdi. Mütəmadi olaraq sahənin aktuallıq kəsb edən problemləri respublika rəhbərliyinin müzakirəsinə çıxarılır və müvafiq qərarlar qəbul edilirdi. Azərbaycan KP MK bürosunun 29 aprel 1971-ci il tarixli iclasında Heydər Əliyev bildirirdi ki, son il yarım ərzində MK bürosunda üçüncü dəfədir ki, hərbi məsələnin müzakirəsini aparırıq (15). Yəni bu məsələlərə Heydər Əliyev tərəfindən respublika əhəmiyyətli məsələlər kimi yanaşılır və qəbul edilmiş qərarların icrasına da respublikanın potensialı səfərbər olunurdu. Ancaq hərbi-təşkilatı işlərlə bağlı qərarlar yalnız MK bürosu səviyyəsində qəbul olunmurdu. 1970-ci il dekabrın 10-da Azərbaycan KP MK-nın "Azərbaycan SSR OADKYC-nin maddi-texniki bazasının daha da möhkəmləndirilməsi tədbirləri haqqında" qərarı, 1970-ci il noyabrın 24-də Azərbaycan KP MK-nın "OADKYC respublika komitəsinin SSRİ Silahlı Qüvvələri və xalq təsərrüfatı üçün mütəxəssislər hazırlanması ilə bağlı fəaliyyəti haqqında" qərarı, 1971-ci il sentyabrın 7-də Azərbaycan KP MK bürosunun "OADKYC respubli-

ka komitəsinin işindəki ciddi qüsurlar haqqında" qərarı, 1972-ci il noyabrın 11-də Azərbaycan KP MK və respublika Nazirlər Sovetinin "Azərbaycan SSR OADKYC-nin fəaliyyəti və onun yaxşılaşdırılması tədbirləri haqqında" qərarı, 1973-cü il aprelin 3-də "Respublika gənclərinin 1972-ci ildə Sovet ordusu sıralarına çağırılmasının yekunları barədə" qərarı, 1974-cü ilin avqust ayının 30-da Azərbaycan KP MK-nın "Azərbaycan KP MK-nın 1972-ci ildə respublika gənclərinin sovet ordusu sıralarına çağırışının yekunları barədə" 3 aprel 1973-cü il tarixli qərarının respublikanın partiya, sovet təşkilatları və hərbi komissarlıqları tərəfindən yerinə yetirilməsi işi haqqında" qərarı, 1973-cü il iyunun 6-da Azərbaycan KP MK və respublika Nazirlər Sovetinin "Respublikada kütləvi müdafiə və idman işlərinin inkişaf etdirilməsi sahəsində Azərbaycan SSR OADKYC-nin fəaliyyətinin yaxşılaşdırılması haqqında" qərarı qəbul edildi. Bu sadalananlar Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi kimi fəaliyyəti dövründə hərbi-kütləvi işlərin yaxşılaşdırılması ilə bağlı qəbul edilən qərarların heç də hamısı deyildi. Lakin bunlar da respublikada hərbi-təşkilati və kütləvi-müdafiə işlərinə hansı böyük işgüzarlıqla və tələbkarlıqla yanaşıldığını nümayiş etdirirdi.

Bu sənədlərin adlarından da göründüyü kimi, OADKYC-nin respublika komitəsinin fəaliyyətinin yaxşılaşdırılmasına Heydər Əliyev xüsusi əhəmiyyət verirdi. Çünki bu cəmiyyətin respublika təşkilatlarının işinin yaxşı qurulması daha çox çağırışçıların hərbi-texniki hissələrdə xidmət etməsinə yol aça bilərdi. Rus dilini zəif bilməsi və hərbi ixtisaslara malik olmaması üzündən azərbaycanlı çağırışçıların böyük bir hissəsi tikinti və xidmət hissələrinə göndərilməsi yuxarıda qeyd edildiyi kimi, respublika rəhbərliyinin narahatçılığına səbəb olurdu. OADKYC-nin fəaliyyətinin səmərəli qurulması və təkmilləşdirilməsi ilə hələ respubli-

kada ikən gənclərə lazımlı hərbi ixtisasları vermək və onları hərbi xidmətə hazırlamaq olardı. OADKYC-nin bu istiqamətdə böyük potensialı var idi. Lakin o potensial qədərincə istifadə olunmur və cəmiyyətin respublika komitəsinin fəaliyyəti Mərkəzi Komitə rəhbərliyini qane etmirdi.

1970-ci ilin birinci yarısında OADKYC-nin təlim təşkilatları tərəfindən 4326 nəfər texniki mütəxəssis hazırlanmışdı. Bu da 5250 nəfər miqdarında müəyyənləşdirilmiş planın 78 faizi qədər idi. Hazırlanmış mütəxəssislərin sınaq yoxlamalarından aldığı orta ümumi qiymət 4,1 bal idi. Onlardan 3524 nəfəri "Vətənin müdafiəsinə hazıram" döş nişanının normativlərini ödəmişdi. İl ərzində cəmiyyətin ilk təşkilatlarının sayı bir qədər artmış və onların üzvlərinin ümumi sayı 6813 nəfərə çatmışdı. 1969-cu ilin birinci yarısı ilə müqayisədə sürücülərin, motosikletçilərin, elektriklərin, rabitəçilərin hazırlığı isə iki dəfə artmışdı. 1970-ci ilin birinci yarısında ümumiyyətlə, cəmiyyətin respublika təşkilatları tərəfindən 23111 nəfər "Vətənin müdafiəsinə hazıram" döş nişanının normativlərini ödəməyə hazırlaşmışdı. Bu rəqəm də 1969-cu il ilə müqayisədə xeyli çox idi (16).

Yuxarıda qeyd edildiyi kimi, respublika Nazirlər Soveti 1970-ci il dekabrın 10-da "Azərbaycan SSR OADKYC-nin maddi-texniki bazasının daha da möhkəmləndirilməsi tədbirləri haqqında" qərar qəbul etdi. Qərar OADKYC tərəfindən çağırışaqədərki gənclərə hərbi ixtisaslar verilməsi prosesinin daha da təkmilləşdirilməsini nəzərdə tuturdu. Planlaşdırılırdı ki, 1971-75-ci illər ərzində Azərbaycanda bir atıcılıq meydanı, 5 məntəqədə 100 metrlik tir, bir yerdə 50 metrlik tir və beş texniki təlim evi tikilsin (17).

Qeyd etmək lazımdır ki, Nazirlər Sovetinin bu qərarı Azərbaycan KP MK-nın "OADKYC respublika komitəsinin SSRİ Si-

lahlı Qüvvələri və xalq təsərrüfatı üçün mütəxəssislər hazırlanması ilə bağlı fəaliyyəti haqqında" 24 noyabr 1970-ci il tarixli qərarının ardınca qəbul edilmişdi. Güman edilirdi ki, OADKYC-nin fəaliyyətinin respublika rəhbərliyi səviyyəsində müzakirələrə çıxarılması bu cəmiyyətin fəaliyyətində irəliləyişə səbəb olacaqdır. Lakin 1971-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə aparılan yoxlamalar cəmiyyətin işində xeyli nöqsanlar üzə çıxardı. Xüsusilə kadrların seçilməsi və yerləşdirilməsi sahəsində ciddi qüsurlar aşkarlandı, maliyyə-təsərrüfat fəaliyyətində kobud qanun pozuntuları üzə çıxarıldı. Müəyyən edildi ki, cəmiyyətin rəhbərliyinə bacarıqsız və qeyri-təşəbbüskar kadrlar irəli çəkiliblər. Vəziyyət ciddi narahatçılıq doğurduğu üçün bu məsələ Azərbaycan KP MK bürosunun 7 sentyabr 1971-ci il tarixli iclasının da müzakirəsinə çıxarıldı və büro tərəfindən "OADKYC respublika komitəsinin işindəki ciddi qüsurlar haqqında" qərar qəbul edildi (18). Respublika rəhbərliyi əlaqədar təşkilatlardan OADKYC strukturlarında mövcud olan çatışmazlıqların aradan qaldırılmasını, gənclərin hərbi xidmətə hazırlaşdırılmasını tələb etdi.

Lakin respublika rəhbərliyinin irəli sürdüyü tələblərin icrasının təşkili istiqamətində OADKYC-nin Azərbaycan komitəsi lazımi dönüş yarada bilmədi. 1972-ci il ərzində mövcud olan nöqsanlar hələ də qalmaqda idi. Bunu hətta həmin ilin sentyabrında OADKYC-nin respublika strukturlarının gənclərin ordu sıralarına xidmətə hazırlaşması işini yoxlayan Zaqafqaziya hərbi dairəsi qərargahının nümayəndələri də təsdiq edirdilər. Hərbi dairə komandanının müavini tərəfindən Azərbaycan KP MK-ya göndərilən məktubda bu məsələ təəssüflə qeyd olunurdu. Bildirilirdi ki, gənclərin xidmətə hazırlaşdırılması və mütəxəssislərin yetişdirilməsi üçün müəyyənləşdirilmiş vəzifələrin yerinə yetirilməsində nöqsanlar kifayət qədərdir. OADKYC-nin bir çox

təlim mərkəzləri qeyri-münasib, yarımzirzəmi binalarda yerləşmişdi. Cəmiyyətin strukturları və yerli hakimiyyət orqanları isə yeni obyektlərin tikilməsinə heç də diqqət yetirmirdilər. Tovuz, Kirovabad (Gəncə), Mingəçevir, Zaqatala avtoklubları, Bakı və Sumqayıt dənizçilik klubları, Bakı radioklubu ciddi yardım və qayğıya ehtiyac duyurdu. Təlim mərkəzlərinin maddi-texniki bazası çox ləng təkmilləşdirilir, bu təlim mərkəzlərinin lazımi kadrlarla komplektləşdirilməsi yubadılır və ora yararsız şəxslər göndərilirdi. Təlim mərkəzlərində məşğələlərin səviyyəsinə və davamiyyətinə isə cəmiyyətin komitələri tərəfindən heç bir nəzarət edilmirdi (19).

Belə bir vəziyyət sözsüz ki, respublika rəhbərliyini qane etmirdi. Ona görə OADKYC-nin fəaliyyətinin yaxşılaşdırılması ilə bağlı Azərbaycan KP MK və respublika Nazirlər Soveti 1972-ci il noyabrın 11-də yeni bir qərar qəbul etdi. Həmin qərarda Azərbaycan SSR OADKYC-nin mövcud vəziyyətdən çıxarılması üçün konkret və qəti tədbirlər öz əksini tapmışdı. 1972-ci ildə mövcud vəziyyətin sağlamlaşdırılması, gənclərin hərbi hazırlığının təşkilinin yenidən və daha səmərəli qurulması üçün cəmiyyətin rəhbərliyində dəyişiklik edildi. Tank qoşunları general-mayoru İbrahim Əhmədov OADKYC-nin respublika komitəsinin sədri seçildi. Azərbaycan gənclərinin ordu sıralarına hazırlanmasına xüsusi əhəmiyyət verildiyi üçün təxminən 7 aydan sonra - 1973-cü il iyunun 6-da Azərbaycan KP MK və respublika Nazirlər Soveti OADKYC-nin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı daha bir qərar qəbul etdi. Həmin qərar "Respublikada kütləvi müdafiə və idman işlərinin inkişaf etdirilməsi sahəsində Azərbaycan SSR OADKYC-nin fəaliyyətinin yaxşılaşdırılması tədbirləri haqqında" adlanırdı. Gənclər arasında hərbi-idman növlərinin inkişaf etdirilməsi OADKYC-nin respublika komitəsinə yeni bir vəzifə

kimi tapşırılmaqla bərabər, Azərbaycan SSR İdman komitəsi də bu vəzifənin icrasına səfərbər edildi. Bu məsələ ilə bağlı respublika İdman komitəsi hərbi-idman növlərinin kütləviləşdirilməsi, hərbi-vətənpərvərlik və kütləvi müdafiə işlərinin genişləndirilməsi istiqamətində OADKYC-nin təşkilatları ilə əlaqələrin gücləndirilməsini rayon şöbələrindən tələb etdi. İdman komitəsi, eyni zamanda, sərəncamında olan tirlərdən, atıcılıq meydanlarından, su hovuzlarından, stadionlardan, idman avadanlıqlarından, texniki-idman bazalarından istifadə olunması üçün OADKYC-nin ilk təşkilatlarına müvafiq icazə verdi (20).

Azərbaycan KP MK-nın və respublika Nazirlər Sovetinin qəbul etdiyi qərarlar, OADKYC-nin maddi-texniki bazasının yaxşılaşdırılması üçün həyata keçirilən tədbirlər və cəmiyyətin rəhbərliyində aparılan kadr dəyişikliyi mövcud çatışmazlıqların aradan qaldırılmasına müsbət təsir göstərdi. 1973-76-cı illər ərzində respublikada 3 milyon 160 min rubl məbləğində olan bir sıra obyektlər istismara verildi. Onların arasında motodrom və avtomobil məktəbi, OADKYC-nin Bakıdakı mehmanxanası, aerodrom tikililəri kompleksi, Vartaşendə (Oğuz), Salyanda və digər rayonlarda hərbi-texniki evlərin, Naxçıvan şəhərində 480 nəfər üçün nəzərdə tutulan OADKYC-nin məktəbinin, Tovuz şəhərində avtomobil məktəbinin, Bakı, Lənkəran, Göyçay və Kirovabadda (Gəncə) atıcılıq tirlərinin tikintisi başlandı (21).

1973-cü ildən etibarən OADKYC-nin fəaliyyətində baş verən nəzərəçarpacaq dəyişikliklər sonrakı illərdə daha da genişləndi. Cəmiyyətin təşkilatlarında gənclərin xidmətə hazırlaşdırılması keyfiyyəti daha da yaxşılaşdı. Baş vermiş bu müsbət dəyişikliklər Azərbaycan KP MK-nın hesabat sənədlərində də öz əksini tapmışdı. Azərbaycan KP MK-nın İnzibati orqanlar şöbəsi bildirirdi ki, 1986-cı ildə cəmiyyətin üzvlərinin sayı 34221 nəfər

artmışdır. İlk təşkilatların sayı da çoxalmışdı. Bu artım gənclərin OADKYC-nin sıralarında birləşmək, hərbi ixtisaslara və biliklərə yiyələnmək meylini nümayiş etdirirdi. OADKYC-nin bütünlükdə fəaliyyətinə gətirilən yeni məzmun və tələbkarlıq hətta Heydər Əliyevin İttifaq səviyyəsində yüksək vəzifəyə irəli çəkilməsindən sonra da davam edirdi. Məsələn, SSRİ OADKYC MK-nın bir qrup nümayəndəsi 1988-ci il may ayının son günlərində Azərbaycanda apardığı yoxlamalardan sonra OADKYC-nin respublika komitəsinin fəaliyyətini qənaətbəxş saydı. Cəmiyyətin Bakı, Kirovabad şəhərləri, Cəlilabad rayon təşkilatları, Bakı Dənizçilik Məktəbi, Naxçıvan avtomobil məktəbi, Texniki idman klubu (26 Bakı Komissarları adına rayonda) xüsusilə fərqləndilər. Gənclərin hərbi xidmətə hazırlaşdırılması üçün OADKYC-nin sistemində 14 avtomobil məktəbi, 2 dənizçilik məktəbi, 2 texniki məktəb, radiotexniki məktəb, birləşmiş texniki məktəb və aeroklub fəaliyyət göstərirdi. Bu məktəblərdə il ərzində karbüratorlu avtomobillər üçün 7190 nəfər sürücü, dizel avtomobilləri üçün 360 nəfər sürücü, 540 nəfər sürücü-elektromexanik, zəncirli avtomaşınlar üçün 180 nəfər sürücü-mexanik, radiolokasiya stansiyaları üçün 420 nəfər operator, elektrik aqreqatları üçün 450 nəfər elektromexanik hazırlanmışdı. Verilmiş sifarişlər bütünlüklə yerinə yetirilirdi. Mütəxəssislərin hazırlıq səviyyəsi yoxlama qrupu tərəfindən "yaxşı" qiymətləndirilmişdi. Cəmiyyətin tədris müəssisələrinin, texniki-idman klublarının təchizat səviyyəsi də yaxşı idi. Təkcə 1984-cü ildə OADKYC-nin Mərkəzi Komitəsi tərəfindən Azərbaycana 82 yük, 4 minik avtomobili, avtokran, ekskavator, 110 ədəd motosiklet və mopet, 481 ədəd idman tüfəngi və s. ayrılmışdı (22).

## 2. Hərbi çağırışın təşkili və hərbi hissələrlə əlaqələrin gücləndirilməsi

Çağırış işinin təşkilində, çağırışçı kontingentində keyfiyyət dəyişikliyinin ildən-ilə artması Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövrünün daha bir xarakterik xüsusiyyəti idi.

Doğrudur, respublika Hərbi Komissarlığına verilən sifariş-naryadlar yerinə yetirilirdi. Lakin xidmətə yola salınan gənclərin xidmətə hazırlıq səviyyəsi, hərbi komissarlıqlar tərəfindən çağırışın təşkili heç də lazımi tələblərə cavab vermirdi. Hərbi çağırışın təşkili və aparılması ilə bağlı planlaşdırılan tədbirlərdə formalizm güclənməkdə idi. Bunun nəticəsi idi ki, çağırışaqədərki gənclərə hərbi ixtisasların verilməsi, onların peşə yönümünün gücləndirilməsi zəif olaraq qalırdı. Hərbi komissarlıqlar tərəfindən çağırışçıların seçilməsində və xidmətə çağırılmasında isə yol verdikləri sui-istifadə halları tamamilə aradan qaldırılmamışdı. 1969-cu ilin may-iyun aylarında çağırışla xidmətə göndərilənlərin 90,4 faizinin 8 sinifdən yuxarı savadı var idi. Ümumi kontingentin 78 faizinin idman dərəcəsinə malik olduğu bildirilirdi. Verilən hesabat sənədlərində çağırışçılardan nə qədərinin hərbi ixtisaslara yiyələndiyi də göstərilmişdi (23).

Hərbi xidmətə çağırış işinin təşkili hərbi-təşkilati işin əsasını təşkil edirdi. Ona görə də bu sahədəki vəziyyətin daha da yaxşılaşdırılmasına son dərəcə böyük əhəmiyyət verilirdi. Yuxarıda qeyd edildiyi kimi, Heydər Əliyevin respublika rəhbəri seçilməsindən sonrakı il yarım ərzində bu məsələ üç dəfə Azərbaycan KP MK bürosunda müzakirə edildi. Həmin müzakirələrdə çağırış işinin yaxşılaşdırılması ilə bağlı respublika Hərbi Komissarlığının, yerli partiya və sovet orqanlarının qarşısına çox ciddi vəzifələr qoyul-

du. Buna görə də heç şübhəsiz ki, Heydər Əliyevin respublikaya rəhbərliyinin elə ilk ilindən hərbi çağırışın təşkilində irəliləyiş müşahidə olunmağa başladı.

Qarşıya qoyulan vəzifələrin uğurlu həlli üçün respublikanın Hərbi Komissarlığı əhali və xüsusən də gənclər arasında təbliğat və təşviqat işlərinin genişləndirilməsinə ciddi diqqət yetirirdi. Bu işin yerinə yetirilməsinə partiya komitələrinin və "Bilik" cəmiyyətlərinin təbliğatçıları, həm də ehtiyatda olan zabit və generallar cəlb edilirdilər. 1970-ci ilin sonuna aid olan hesabat sənədlərində göstərilirdi ki, son beş il ərzində 6 mindən çox təbliğatçı və 5 minə yaxın zabit və general əhali və gənclər arasında izahat işlərinin aparılması üçün cəlb olunmuşdu. Təbliğat işlərinin aparılması üçün hərbi komissarlıqlara kömək komitələrinin, Hərb-elmi cəmiyyətin, Müharibə veteranları komitəsinin və digər təşkilatların üzvlərinin köməyindən də istifadə olunurdu. Məsələn, 1970-ci ildə respublikada hərbi komissarlıqlara 28 kömək komitəsi və 31 kömək qrupu var idi. Bu komitə və qruplarda 1000 nəfər ehtiyatda olan zabit və general birləşmişdi. Onlar mühazirə və məruzələrlə gənclər arasında çıxış edir və gənclərdə hərb işinə marağın gücləndirilməsinə çalışırdılar. Bakı Zabitlər evində yaradılmış Hərbi-elmi cəmiyyətin isə 152 üzvü var idi. Onlardan 5-i general, 50-si polkovnik və I dərəcəli kapitan idi. Bu cəmiyyətin hərbi-vətənpərvərlik seksiyası da yaradılmışdı. 5 il ərzində bu seksiyasının üzvləri 6 min tədbirdə iştirak etmiş və həmin tədbirlərdə 400 mindən artıq adam əhatə olunmuşdu. Bundan başqa Hərbi-elmi cəmiyyətin üzvləri qəzet və jurnallarda 400 məqalə ilə çıxış etmiş, radio və televiziya verilişlərinə dəvət almışdılar. Müharibə veteranlarının respublika komitəsi də gənclərdə hərb işinə marağın yaradılması məqsədilə keçirilən tədbirlərdə yaxından iştirak edirdilər. Yalnız 1968-70-ci illərdə müharibə veteranları

tərəfindən gənclər qarşısında 1060 mühazirə oxunmuş, 95 görüş təşkil edilmiş və onların köməyi ilə 42 döyüş şöhrəti otağı və qalereyası yaradılmışdı. Bütünlükdə isə 1970-ci ildə respublikanın məktəblərində, texnikumlarında, texniki peşə məktəblərində, mədəniyyət evlərində və klublarında 920 döyüş şöhrəti muzeyi və otağı var idi. Eyni zamanda, respublikada sovet ordusunun gənc dostlarından ibarət 700 dəstə, 750 hərbi-texniki dərnəklər fəaliyyət göstərirdi. Hərbi-texniki dərnəklərə, bir qayda olaraq, hərbi xidmətdə olan əsgər və serjantlar, habelə ehtiyatda olan zabit və serjantlar rəhbərlik edir və onların yardımı ilə gənclər də bu dərnəklərdə hərbi-texniki ixtisaslara yiyələnirdilər (24).

Gənclərdə hərb işinə marağın gücləndirilməsi üçün müharibə iştirakçılarının və qəhrəmanlarının xatirəsinin əbədiləşdirilməsinə də diqqət artırılmışdı. 1970-ci ildə Azərbaycandan olan Sovet İttifaqı qəhrəmanlarına 12 abidə açılmışdı. Şəhərlərin və yaşayış məntəqələrinin meydanlarında isə müharibədə həlak olanların xatirəsinə 380 abidə ucaldılmış, 120 məktəb və müəssisədə həmin təşkilatlardan olan müharibə iştirakçılarının xatirəsinə abidə qurulmuşdu. 1970-ci ildə komsomol təşkilatları və hərbi komissarlıqlarla birgə yaradılmış hərbiləşdirilmiş düşərgələrin sayı 7-yə çatmışdı. Hər il bu düşərgələrdə 3000-ə qədər gənc hərbi-idman hazırlığı keçirdi. Komsomolçular arasında hərbi təbliğat işinin gücləndirilməsi üçün hər il komsomol təşkilatları katiblərinin və müvafiq işçilərin xüsusi toplantısı təşkil edilirdi.

Respublika Hərbi Komissarlığının Siyasi şöbəsi tərəfindən ictimai əsasla 23 gələcək döyüşçü universiteti yaradılmışdı. Bu universitetlər adətən orta məktəblərdə və təşkilatlarda ibtidai hərbi-hazırlıq keçməmiş gəncləri əhatə edirdi.

Hərbi komissarlıqların fəaliyyətində başlıca yeri isə hərbi çağırışın təşkili tuturdu. 1970-ci il may ayının 5-də Azərbaycan KP

MK və respublika Nazirlər Soveti həqiqi hərbi xidmətə çağırışın keçirilməsinə hazırlıq haqqında xüsusi bir qərar qəbul etdi. Bu qərardan sonra hərbi komissarlıqlar öz işlərini daha da fəallaşdırmağa başladılar və bunun nəticəsi elə həmin ildə aparılan çağırışın statistik göstəricisində də özünü büruzə verdi. 1970-ci ildə də əvvəlki illərdə olduğu kimi sifariş yerinə yetirilməklə bərabər, çağırışçı kontingentinin keyfiyyətində də müsbət dəyişikliklər baş verdi. Bunu aşağıdakı cədvəldən (25) də görmək mümkündür (rəqəmlər ümumi çağırışçı kontingentinə nisbətdə faizlə verilmişdir):

| | 1966 | 1967 | 1968 | 1969 | 1970 |
|---|---|---|---|---|---|
| Sovet ordusunda xidmətə yararlı | 85,9 | 84,8 | 87,7 | 85,1 | 90,4 |
| Xəstəliyə görə möhlət alanlar | 5,7 | 5,6 | 5,2 | 4,8 | 3,3 |
| Sülh dövründə yararsız, müharibə dövründə qeyri-nizami xidmətə yararlı | 6,8 | 8,5 | 6,34 | 8,1 | 5,1 |
| Yararsız kimi qeydiyyatdan çıxarılıb | 1,6 | 1,1 | 0, 72 | 0,2 | 1,2 |

Ambulator müalicədə yol verilən formalizmin aradan qaldırılması və tələbkarlığın artırılması ilə gənclər arasında müalicə-sağlamlıq işlərinin keyfiyyəti daha da yaxşılaşmışdı (26):

| | 1966 | 1967 | 1968 | 1969 | 1970 |
|---|---|---|---|---|---|
| Dispanserizasiyaya cəlb olunanlar | 96,7 | 96,2 | 97,0 | 93,2 | 98,1 |
| Dispanserizasiya zamanı müəyyənləşdirilmiş xəstə- | | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| liklərdən müalicə olunanlar | 69,0 | 70,0 | 73,0 | 74,7 | 76,2 |
| Təhsil səviyyəsi – 8 sinif və yuxarı | 92,8 | 94,5 | 95,1 | 96,7 | 97,1 |
| 5-7 sinif təhsilli | 6,6 | 5,5 | 4,65 | 3,1 | 2,6 |
| 1-4 sinif təhsilli | 0,6 | 0,4 | 0,25 | 0,2 | 0,3 |

Çağırışçılara savad və rus dilinin öyrədilməsi istiqamətində də müəyyən işlər görülürdü. 1966-cı ildə çağırışçıların 69 faizi, 1967-ci ildə 74 faizi, 1968-ci ildə 83 faizi, 1969-cu ildə 84 faizi, 1970-ci ildə isə 85,2 faizi rus dilində danışıb fikirlərini izah edə bilirdi. Çağırışçıların fiziki və idman hazırlığının qaldırılması üçün isə hərbi komissarlıqlarla təhsil şöbələrinin, OADKYC təşkilatlarının və idman strukturlarının qarşılıqlı fəaliyyətinin səmərəliliyinin artırılmasına diqqət gücləndirildi. Bunun təsiri əldə edilmiş nəticələrdə də özünü göstərirdi (27):

| | 1967 | 1968 | 1969 | 1970 |
|---|---|---|---|---|
| Dərəcəli idmançılar | 15,7 | 14,3 | 16,8 | 18,5 |
| Vətənin müdafiəsinə hazıram – nişanı | 62,7 | 68,9 | 69,6 | 71,0 |

Çağırışın təşkili ilə bağlı diqqət mərkəzində dayanan digər bir sahə hərbi ixtisasların verilməsi idi. 1970-ci ilin statistikasına əsasən sovet ordusunda 400-ə yaxın müxtəlif hərbi-texniki ixtisaslar var idi. Xidmət müddəti ərzində bu ixtisasların bir çoxunun öyrənilməsi xeyli vaxt aparırdı. Ona görə də gənclərə hərbi xidmətdən əvvəl belə ixtisasların verilməsi xüsusi əhəmiyyət kəsb edirdi. Respublikada gənclərə hərbi ixtisaslar verilməsi OADKYC və texniki-peşə məktəbləri sistemində aparılırdı.

1970-ci ildə hərbi komissarlıqlar tərəfindən hərbi qeydiy-

yatda olan kontingentin təlimləri, oyunları, hərbi hissə və birləşmələrdə təlim toplanışları və s. tədbirlər keçirildi. Belə tədbirlərin keçirilməsi çağırışçı kontingentinin xidmətə ümumi hazırlıq səviyyəsini qaldırmaqla bərabər, həm də hərbi komissarlıqların çağırışın gizli və çevik aparılmasına nə dərəcədə hazır olduqlarını müəyyənləşdirməyə imkan verirdi. Hərbi komissarlıqların çoxunda idarəetmə mərkəzləri yaradılmışdı. Təlim və oyunların keçirilməsi zamanı bu mərkəzlərin fəaliyyəti müsbət nəticələr vermişdi. Hərbi komissarlıqların fəaliyyətinin yaxşılaşdırılması üçün kadrların seçilməsinə və yerləşdirilməsinə xüsusi diqqət yetirildiyi bildirilirdi. 1967-70-ci illərdə hərbi komissar vəzifəsinə təyin edilənlərin 75 faizi qoşunlardan gəlmişdi. Bunlardan başqa, ehtiyatda olan zabitlərdən də 50 nəfər xidmətə çağırılaraq müxtəlif vəzifələrə təyin edilmişdilər. Nəticədə, hərbi komissarlıqlarda xidmət edənlər cavanlaşdırılmış və gücləndirilmişdi. 1970-ci ilin noyabr ayının ortalarına aid olan məlumatlara əsasən hərbi komissarlıqlarda çalışanların yaş, təhsil, staj, millət və s. göstəriciləri aşağıdakı kimi idi: yaş həddinə görə 30 yaşına qədər olanlar – 10 faiz, 35 yaşına qədər olanlar – 10 faiz, 40 yaşına qədər olanlar – 31 faiz, 45 yaşına qədər olanlar – 17 faiz. Təhsil səviyyəsinə görə: ali savadlılar – 21 faiz, orta savadlılar – 76 faiz, natamam orta savadlılar – 3 faiz. Hərbi komissarlıqlarda xidmət edənlərin 13 faizi 10 ilə qədər, 4 faizi 10-15 il arasında, 36 faizi 15-20 il arasında, 16 faizi 20-25 il arasında və 31 faizi 25 ildən yuxarı sovet ordusu sıralarında xidmət etmişdi. Onlardan 46 faizi eyni vəzifədə 2 ilə qədər, 35 faizi 3 ildən 5 ilə qədər, 19 faizi isə 5 ildən yuxarı xidmət etmişdi. Milli tərkibinə görə isə 63 faizi azərbaycanlı, 27 faizi rus, 10 faizi isə digər millətlərdən idi.

Hərbi komissarlıqların xidmətinə göstərilən tələbkarlıq və çağırışın təşkilindəki müsbət meyllər 1971-72-ci illərdə də davam

etdi. Bunu həmin illərdə aparılmış çağırışın statistikası ilə bağlı rəqəmlər də göstərirdi. Hər iki ildə çağırış üçün verilmiş naryadlar yerinə yetirilmişdi. Çağırışçı kontingentinin keyfiyyətində də irəliləyiş duyulmaqda idi. Bunun çağırışaqədərki hazırlığın daha yaxşı aparılması ilə bağlı olduğu bildirilirdi (28):

| | **1971** | **1972** |
|---|---|---|
| Çağırışa gələnlərdən xidmətə yararlı (faizlə) | 94,7 | 94,8 |
| Sovet ordusuna göndərilənlərdən: | | |
| 8 sinif və yuxarı təhsilli | 95,5 | 94,8 |
| 7 sinif və aşağı təhsilli | 4,5 | 4,1 |
| "Vətənin müdafiəsinə hazıram" döş nişanı alanlar | 66,2 | 70,5 |
| Möhlət alanlar | 1,5 | 1,4 |
| Sülh dövrü üçün yararsız, müharibə dövrü üçün qeyri-nizami xidmətə yararlı | 2,9 | 3,0 |
| Yararsız kimi qeydiyyatdan çıxarılanlar | 0,9 | 0,8 |

Respublika Hərbi Komissarlığının hesabat sənədlərində aşağıdakı rayon və şəhər hərbi komissarlıqlarının fəaliyyətində müsbət meyillərin daha güclü olduğu bildirilirdi: Qaradağ, Lenin (Sabunçu), Nərimanov, Oktyabr (Yasamal), 26 Bakı Komissarları adına rayon (Səbail), Nəsimi, Ağdaş, Əli Bayramlı (Şirvan), Tovuz, Göyçay, Dəvəçi (Şabran), Zaqatala, Qasım İsmayılov (Goranboy), Kirovabad (Gəncə), Masallı, Sumqayıt, Şaumyan (kənd-indiki Goranboy rayonunun bir hissəsi) və Şamxor (Şəmkir). 1972-ci il ərzində OADKYC və texniki-peşə məktəbləri tərəfindən çağırışaqədərki gənclər arasında 4380 avtomobil sürücüsü, 720 nəfər tankçı, 330 nəfər RLS operatoru, 130 nəfər paraşütçü, 150 nəfər sürücü-mexanik, 570 nəfər dizelçi-elektromexanik hazırlanmışdı. Bununla belə, respublika Hərbi Komissarlığı çağırış

işinin təşkilində nöqsan və çatışmazlıqların da tamamilə aradan qaldırılmadığını etiraf edirdi. Konkret olaraq həkim komissiyasının işində nöqsanların mövcudluğu qeyd olunurdu. Məsələn, çağırışçıların fiziki sağlamlığının lazımi səviyyədə yoxlanılmaması üzündən 1971-ci ildə hərbi hissələrə göndərilənlərdən 0,4 faizi, 1972-ci ildə isə 0,3 faizi xidmətə yararsız kimi geri qaytarılmışdı. Başqa sözlə, 1971-ci ildə 485 nəfər, 1972-ci ildə isə 420 nəfər səhhətinə görə geri qaytarılmışdı. 1970-ci ildə respublika Hərbi Komissarlığına çağırışın təşkili ilə bağlı vətəndaşlardan 7284 şikayət məktubu, 1971-ci ildə 6717 şikayət məktubu, 1972-ci ildə isə 3311 şikayət məktubu daxil olmuşdu (29).

Lakin aparılan yoxlama və təhlillər göstərirdi ki, hərbi komissarlıqların fəaliyyətindəki nöqsan və çatışmazlıqlar yalnız yuxarıda deyilənlərlə məhdudlaşmır. Hərbi komissarlıq sistemində də tutduğu vəzifədən sui-istifadə edənlər, qanunsuz əməllərə və rüşvətxorluğa qurşananlar və bununla da respublika gənclərinin xidmətə hazırlığına əks-təsir göstərənlər az deyildi. 70-ci illərin əvvəllərində respublikada korrupsiyaya və rüşvətxorluğa qarşı güclənməkdə olan mübarizə hərbi komissarlıqlardan da yan keçmədi. Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin təşəbbüsü ilə 1973-cü il aprelin 3-də “1972-ci ildə respublika gənclərinin sovet ordusu sıralarına çağırışının yekunları haqqında” Azərbaycan KP MK-nın qərarı qəbul olundu. Bu qərarda 1972-ci ilin çağırış yekunları təhlil olundu, müsbət tərəflərlə bərabər, çatışmazlıqlar da üzə çıxarıldı və onların aradan qaldırılması üçün ciddi tələblər irəli sürüldü. Bir müddətdən sonra Azərbaycan KP MK rəhbərliyinin göstərişi ilə xüsusi briqada təşkil olundu və bu briqadanın vasitəsi ilə Azərbaycan KP MK-nın 3 aprel 1973-cü il tarixli qərarının hərbi komissarlıqlar tərəfindən necə yerinə yetirilməsi vəziyyəti yoxlanıldı (30). Briqadanın

Azərbaycan KP MK-nın rəhbərliyinə hazırladığı məruzəsində adı çəkilən qərarın tələblərinin icrası istiqamətində görülən müsbət işlər haqqında müxtəsər məlumat verilirdi. Bir sıra rayonlarda bu qərarın icrasına məsuliyyətlə yanaşılması, mövcud imkanların səfərbərliyə alınması çağırış işinin təşkilinə də öz müsbət təsirini göstərmiş və nəticədə gənclərin xidmətə çağırışı nizamla aparılmış, hərbi-vətənpərvərlik tərbiyəsi və müalicə-sağlamlıq işləri yaxşılaşdırılmış, ibtidai hərbi-hazırlığın keyfiyyəti təkmilləşdirilmişdi. Görülən işlərin nəticəsi kimi xidmətdən yayınanların sayı da azalmışdı. Bakının Oktyabr (Yasamal) və Nərimanov rayonlarında, Kirovabad (Gəncə) və Sumqayıt şəhərlərində çağırışçıların xidmətə təntənəli şəkildə yola salındığı qeyd edilirdi.

Ancaq Azərbaycan KP MK-nın qərarının icrasına heç də bütün rayonlarda eyni məsuliyyətlə yanaşılmırdı. Xüsusilə, Sabir abad, Göyçay, Qubadlı, Qazax rayonlarında, habelə Bakı şəhərinin 26 Bakı Komissarları adına rayonunda (Səbail) ciddi nöqsanlar mövcud idi. Azərbaycan KP MK-nın briqadası adları çəkilən rayon hərbi komissarlıqlarında ciddi nöqsanların mövcudluğunda respublika Hərbi Komissarlığı rəhbərliyinin tələbkarlığının aşağı olmasını səbəb bilirdi. MK-ya təqdim olunmuş məruzədə bildirilirdi ki, adları çəkilən rayonların hərbi komissarlıqları bir neçə il ərzində mütəmadi olaraq "Ümumi hərbi mükəlləfiyyət haqqında" qanunu pozaraq çoxlu sayda çağırış yaşlı gənclərin həqiqi hərbi xidmətdən yayınmasına zəmin yaratmışdılar. Bu rayonların hərbi komissarlıqlarında xüsusi vasitəçilər aşkarlanmışdı. Həmin vasitəçilər çağırışçılardan rüşvət almaqla hərbi komissarların vasitəsilə onları hərbi xidmətdən azad edirdilər. Sabirabad rayon hərbi komissarı tərəfindən rüşvət əsasında qanunsuz olaraq həqiqi hərbi xidmətdən azad edilənlərin böyük bir siyahısı Mərkəzi Komitəyə təqdim olunan məruzədə öz əksini tapmışdı. Həmin rayonun hər-

bi komissarı tərəfindən 1970-ci ildə qeyri-nizami xidmətə yararlı kimi orduya göndərilməli olan hərbi mükəlləfiyyətlilər yararsız kimi orduda xidmətdən azad edilmişdilər. Göyçay rayonunda isə hərbi komissarın öz vəzifə borcuna səhlənkarcasına yanaşması nəticəsində 60 çağırışçı qanunsuz olaraq xidmətdən azad edilmişdi. Onlardan 40 nəfəri son üç il ərzində həkim komissiyasından keçərək göndəriləcək komandalara daxil edilsələr də, sonradan onlar həmin komandaların tərkibindən çıxarılmışdılar. Qazax və Qubadlı rayonunda qanunsuz olaraq çağırışçıların həqiqi xidmətdən azad edilməsi də Mərkəzi Komitəyə təqdim olunmuş məruzədə əks olunmuşdu.

Belə bir məqama diqqət yetirilirdi ki, rayonların hərbi komissarlıqları çağırış naryadını əsasən fabrik və zavodlarda, kolxoz və sovxozlarda faydalı əməklə məşğul olanlar hesabına yerinə yetirirdi. İctimai-faydalı əməklə məşğul olmayanlar isə müxtəlif bəhanələrlə, hərbi komissarlıqların yardımı ilə müəyyən yollarla xidmətdən yayınırdılar. Respublikanın Hərbi Komissarlığının rəhbərliyinin bu məsələyə müşahidəçi mövqeyində dayandığı qeyd edilirdi. Məsələn, ictimai-faydalı əməklə məşğul olmayanlar Nərimanov rayonundakı çağırışçıların 1 faizini, 26 Bakı Komissarları adına rayonda (Səbail) 1,2 faizi, Göyçay və Sabirabad rayonlarında isə 1,5 faiz təşkil edirdilər. Halbuki mövcud olan məlumatlara görə, onların sayı daha çox idi. Aparılan təhlil və yoxlamalar göstərirdi ki, böyük yaş qrupundan olanların çağırılması əvəzinə daha çox cavanların çağırılması mövcud çağırışçı ehtiyatının daha səmərəli istifadə edilməsinə mane olur, ehtiyac olmadığı halda ictimai-faydalı əməklə məşğul olanların qeyri-məqsədyönlü şəkildə çağırışa cəlb edilməsi isə müəssisələrin əmək məhsuldarlığının aşağı düşməsinə, əsaslandırılmamış kadr axınına səbəb olurdu.

Bir sıra vətəndaşların vaxtında hərbi xidmətə çağırılmaması və qeydiyyat intizamının pozulması halları Bərdə, Ağdam, Kəlbəcər, Xanlar (Göygöl), habelə Bakı şəhərinin Nərimanov və Nəsimi rayonlarının hərbi komissarlıqlarında da aşkar edilmişdi. Mərkəzi Komitənin yoxlama briqadasının məruzəsində kadrların seçilməsi və yerləşdirilməsi ilə bağlı respublika Hərbi Komissarlığının rəhbərliyinə iradlar bildirilirdi. Qeyd olunurdu ki, təyin olunan kadrların mənəvi və işgüzar keyfiyyətləri yoxlanılmır. Nəticədə, hərbi komissarlıqlara mənəvi keyfiyyətini itirmiş olan rüşvətxorlar düşürlər. Konkret fakt kimi Bakının 26 Bakı Komissarları adına rayonunun (Səbail), Şaumyan (Xətai), Göyçay və Nəsimi rayonlarının hərbi komissarlıqlarında baş verənlər nümunə göstərilirdi. 26 Bakı Komissarları adına rayonun hərbi komissarlığının rəhbərliyi və məsul işçiləri cinayət məsuliyyətinə cəlb edildiyi halda, adları çəkilən digər rayonların hərbi komissarlıqlarının məsul işçiləri respublika Hərbi Komissarlığının qətiyyətsizliyi nəticəsində ciddi cəzalardan kənarda qala bilmişdilər. Məruzədə bu məsul işlçilərin rüşvətxorluğu və əliəyriliyi haqqında konkret faktlar sadalanmışdı.

Həkim komissiyalarının fəaliyyətindəki nöqsanlar, xüsusilə rüşvət almaqla çağırışçıların xidmətdən azad edilməsi faktları məruzədə ciddi tənqid olunurdu. 1973-cü ildə və 1974-cü ilin yaz çağırışı gedişində 800 nəfər sağlam çağırışçı rayonların həkim komissiyaları tərəfindən əsaslı olaraq səhhətinə görə xidmətdən azad edilmişdi. Eyni zamanda, həmin müddət ərzində 600 nəfər ağır xəstəliyə tutulmuş çağırışçı xidmətə yararlı şəxslər kimi orduya göndərilmişdi. Respublika Toplanış məntəqəsinin həkim komissiyasının fəaliyyətində də müəyyən nöqsanlar aşkara çıxarılmışdı. Məlum olmuşdu ki, səhhətinə görə xidmətdən möhlət alanların arasında xidmətə tamamilə yararlı olan şəxslər mövcud-

dur. Məruzədə belələrinin adları da çəkilmişdi.

Bərdə, Sabirabad, Göyçay, Qazax və başqa rayonlarda ibtidai hərbi hazırlığın təşkili də ən adi tələblərə cavab vermirdi. Bu rayonların təhsil şöbələri və hərbi komissarlıqları çağırışaqədərki gənclərin xidmətə hazırlaşdırılmasına, onlara rus dilinin öyrədilməsinə son dərəcə laqeyd yanaşırdılar. Adları çəkilən rayonların OADKYC təşkilatları da öhdələrinə düşən vəzifələri yerinə yetirmir, lotereya satmaq və üzvlük haqqı toplamaqla öz işlərini bitmiş hesab edirdilər.

Bakı şəhərinin Nərimanov, Nəsimi, Oktyabr (Yasamal) rayonlarında hərbi xidmətdən yayınanların cinayət məsuliyyətinə cəlb edilməsi üçün də lazımi tədbirlər həyata keçirilmirdi. İnzibati orqanlar rəsmi müraciətlərə heç cavab da vermirdilər. 1974-cü ilin yaz çağırışı zamanı təkcə Bakının Nəsimi rayonunda 100 nəfər çağırışdan yayınmışdı. Lakin onlara qarşı cinayət işi açılmamışdı.

Azərbaycan KP MK-nın 3 aprel 1973-cü il tarixli qərarının icrası ilə bağlı respublika Toplanış məntəqəsinin həkim komissiyasının fəaliyyəti də yoxlanıldı. Müəyyən edildi ki, respublika rəhbərliyinin çağırış işinin təşkilinə qarşı tələbkar mövqeyi respublika Toplanış məntəqəsinin həkim komissiyasının işinə də təsir göstərmişdir. Bundan sonra komissiyanın tərkibi gücləndirilmiş və qarşıya qoyulan vəzifələrin icrasına məsuliyyət artırılmışdı. Doğrudur, bütün nöqsanları aradan qaldırmaq mümkün olmamışdı. Bununla belə, 1973-74-cü illərdə respublika Toplanış məntəqəsinin həkim komissiyası rayonların həkim komissiyalarının qərarlarına daha ciddi tələbkarlıqla yanaşmışdılar. Məsələn, 1973-cü ildə rayonların həkim komissiyaları tərəfindən xidmətə yararlı bilinənlərin təkrar müayinəsi zamanı 501 nəfər xidmətə yararsız bilinmiş, ya da səhhətinə görə bir il çağırışdan möhlət

almışdı. Eyni zamanda, rayonların həkim komissiyaları tərəfindən xidmətə yararsız sayılmış 3665 nəfərin də təkrar müayinəsi aparılmış və müəyyən edilmişdi ki, onlardan 689 nəfəri xidmətə tam yararlıdır. Müalicə işlərinin səmərəli qurulması nəticəsində çağırışçılar arasında Puşkin (Biləsuvar) rayonunda hərbi komissarlıq tərəfindən xidmətə yararsız sayılanların təkrar müayinəsindən sonra onların 50 faizinin xidmətə yararlı olduğu müəyyənləşdirilmişdi. Zərdab rayonu üzrə 37,5 faizin, Laçın rayonu üzrə 40 faizin, Qaradağ rayonu üzrə 35,8 faizin, Əzizbəyov (Xəzər) rayonu üzrə 28,7 faizin, Dağlıq Qarabağ üzrə 26,8 faizin, Şəki üzrə 27,9 faizin xidmətə tam yararlı olduğu müəyyənləşdirilmişdi. Bir sıra rayonların hərbi komissarlıqlarının xidmətə yararlı bildiyi çağırışçılar isə təkrar müayinədən sonra xidmətə yararsız bilinmişdi. Belələri Nəsimi rayonu üzər 40 nəfər, Sumqayıt üzrə 31 nəfər, Nərimanov rayonu üzrə 23 nəfər, Qutqaşen (Qəbələ) rayonu üzrə 17 nəfər, Kirovabad üzrə 16 nəfər, Ağdaş rayonu üzrə 14 nəfər idi. Çağırışçıların həqiqi müayinəsi zamanı daha çox qanunsuzluqlara Zərdab, Puşkin (Biləsuvar), Kəlbəcər, Laçın, Saatlı, Şamxor (Şəmkir), Yardımlı, Ağsu, Əzizbəyov (Xəzər) və digər rayonların hərbi komissarlıqlarında yol verilmişdi. Rayonların həkim komissiyalarının fəaliyyətinə nəzarətin və tələbkarlığın artırılması nəticəsində səhhətinə görə hərbi hissələrdən geri qaytarılanların sayı da azalmışdı. 1973-cü ildə 225 nəfər xidmətə yararsız kimi geri qaytarılmışdı (31).

1974-cü il avqustun 30-da Azərbaycan KP MK respublikada çağırış işinin təşkilinin təkmilləşdirilməsi ilə bağlı növbəti qərar qəbul etdi. Qərarda son illər ərzində çağırış işinin təşkilində özünü göstərən müsbət meyillərə toxunulurdu və eyni zamanda bir daha ciddi vəzifələr müəyyənləşdirilirdi. MK-nın bu qərarının yerinə yetirilməsi ilə bağlı Səhiyyə Nazirliyi tərəfindən çağırış-

çıların müalicə-sağlamlıq işlərinə diqqət daha da gücləndirildi. Həkim komissiyalarının tərkibi, çağırışaqədərki gənclərin zəruri müalicə ilə əhatə edilməsi nəzarət altına götürüldü. 1974-cü ildə respublikada qeydiyyatda olan çağırışaqədərki gənclərin 96,8 faizi həkin müayinəsinə cəlb edildi. Bunun nəticəsi kimi çağırışçı gənclər arasında xidmətə yararlılıq faizi 94,8 faizə çatdırıldı (32).

Respublikanın rəhbər təşkilatlarının qərarlarının icrası istiqamətində səfərbərlik işinin təşkilində də irəliləyişlər duyulmaqda idi. Xüsusilə respublika rəhbərliyinin tələblərinə məsuliyyətlə yanaşılan təşkilatlarda bu işin vəziyyəti daha yaxşı idi. Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin şəxsi təşəbbüsü və tələbkarlığı nəticəsində respublika Hərbi Komissarlığına rayonların hərbi komissarlıqları ilə əlaqə saxlamaq üçün birbaşa 19 rabitə kanalı ayrılmışdı. Bu, rayon hərbi komissarlıqlarının 25 faizini təşkil edirdi. Birbaşa kanalların ayrılması zəruri siqnalların rayon hərbi komissarlıqlarına çatdırılması müddətini də azaldırdı (33).

Səfərbərlik hazırlığının yaxşılaşdırılması zərurəti ilə Zaqafqaziya hərbi dairəsinin komandanı da 1974-cü il dekabrın 16-da məktubla Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevə müraciət etdi. Onun məktubunda bildirilirdi ki, respublikanın bir sıra nazirlik və təşkilatlarının səfərbərlik hazırlığının aşağı səviyyədə olması müəyyənləşdirilmişdir. Hərbi dairənin komandanı xahiş edirdi ki, respublika rəhbərliyi tərəfindən hərbi komissarlıqların döyüş hazırlığının səviyyəsi, xalq təsərrüfatının avto nəqliyyatının vəziyyəti, qoşundan kənar hazırlıq işlərinə rəhbərlik, müdafiə əhəmiyyətli yollar şəbəkəsinin təkmilləşdirilməsi müzakirə edilsin. Bununla bağlı, Heydər Əliyev əlaqədar şəxslərə ciddi tapşırıq verdi. Səfərbərlik hazırlığının səviyyəsi respublikanın rəhbər orqanları tərəfindən yoxlanıldı. Mövcud vəziyyətin daha da yaxşılaşdırılması, habelə müvafiq təşkilatların məsuliyyətinin

artırılması üçün respublika Nazirlər Soveti 1975-ci il aprel ayının 28-də Azərbaycanda hərbi səfərbərlik işinin vəziyyəti haqqında qərar qəbul etdi (34).

Keçən əsrin 70-ci illəri ərzində çağırış üçün respublikaya verilmiş sifariş-naryadlar yerinə yetirilməklə çağırışçı kontingentinin keyfiyyətində də müsbət meyil qalmaqda davam edirdi. 1973-cü ildə çağırışçılar arasında 8 sinif və yuxarı təhsilə malik olanlar 95,8 faiz idisə, 1974-cü ildə bu rəqəm 96,5 faizə çatmışdı. 7 sinif və aşağı təhsilə malik olanlar isə müvafiq olaraq 4,2 faiz və 3,5 faiz idi. 1973-cü ildə çağırışçıların 71,6 faizi "Əməyə-müdafiəyə hazıram" idman normalarını yerinə yetirmişdisə, 1974-cü ildə belələrinin sayı 73,2 faizə çatmışdı. 1974-cü ildə sovet ordusuna xidmətə göndərilənlərin arasında OADKYC tərəfindən hazırlanmış 5803 nəfər karbüratorlu maşınlar sürücüsü, 276 nəfər zəncirli maşınlar sürücüsü, 330 nəfər RLS operatoru, 140 nəfər paraşütçü və 588 nəfər dizel aqreqatlar üçün elektromexanik var idi (35).

Mövcud olan statistikaya görə, sonrakı illərdə "Əməyə-müdafiəyə hazıram" nişanı alanların sayı daha da artdı. 1975-ci ildə çağırışçıların 76,6 faizi, 1976-cı ilə isə 88,3 faizi "Əməyə-müdafiəyə hazıram" normativlərini ödəmişdilər. Təhsil səviyyəsinə görə də çağırışçıların tərkibi dəyişmişdi. 1975-ci ildə çağırışçıların 96,8 faizinin, 1976-cı ildə isə 97,9 faizinin təhsili 8 sinif və ondan yuxarı idi. 1976-cı ildə Azərbaycandan sovet ordusuna xidmətə çağırılanların 60 faizi döyüş hissələrinə, 40 faizi isə tikinti hissələrinə göndərilmişdi (36).

Sonrakı illər ərzində çağırışçıların keyfiyyət tərkibinin yaxşılaşması davam etdi. Verilən naryadlar da yerinə yetirilirdi. Respublika Hərbi Komissarlığının hesabat sənədlərindən aydın olur ki, 1979-cu ildə sovet ordusu sıralarına Azərbaycandan 73273

nəfər çağırışçı göndərilmişdi. Bu, 1978-ci ildəkindən 7749 nəfər çox idi. Xidmətə göndərilənlərin keyfiyyət statistikası isə aşağıdakı kimi idi (37):

| | 1977 | 1978 | 1979 |
|---|---|---|---|
| Çağırışçıların xidmətə yararlığı | 96,5 | 96,5 | 96,5 |
| Göndərilənlərdən: | | | |
| ali, orta ixtisas və orta təhsilli | 82,4 | 89,1 | 92,2 |
| natamam orta təhsilli | 15,7 | 10,0 | 7,3 |
| 7 sinif və aşağı təhsilli | 1,9 | 0,9 | 0,5 |
| ƏMH nişançıları | 90,2 | 94,2 | 96,6 |

Respublika Hərbi Komissarlığının hesabat sənədlərində o da bildirilirdi ki, görülən işlərə baxmayaraq, xüsusən kənd rayonlarında rus dilinin tədrisi səviyyəsi aşağı olaraq qalmaqda davam edir. Bu isə rus dilini bilməyən çağırışçıların sayının döyüş hissələrində və təlim bölmələrində artırılmasına mane olurdu. Əslində, bu sahədə irəliləyişə nail olmaq üçün respublikada konkret işlər görülməyə başlanmışdı. 1970-ci ildən etibarən məktəblərdə rus dili birinci sinifdən öyrənilirdi. 1972-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə respublikada M.F.Axundov adına Azərbaycan Pedoqoji Rus dili və Ədəbiyyatı İnstitutu yaradıldı. 70-ci illərin sonlarında 20 mindən artıq şagird genişləndirilmiş proqram üzrə rus dilini öyrənirdi. Respublika məktəblərində 2676 rus dili kabineti yaradılmışdı. Onların 500-dən çoxu linqafon kabinetinə də malik idi (38). Lakin bir sıra rayonlarda rus dilinin öyrədilməsinə formal yanaşılması xidmətə hazırlıq işlərində də öz təsirini göstərirdi. Bununla belə, məlumdur ki, 1970-80-ci illərdə orta ümumtəhsil məktəblərində rus dilinin tədrisinə xüsusi bir diqqət var idi və ildən-ilə bu sahədə müəyyən irəliləyişlər hiss edilməkdə idi. Heydər Əliyevin Azərbaycanı tərk etdiyi vaxt respublikada artıq 4 min rus

dili kabineti var idi və onlardan 1500-ü linqafon otaqlarına malik idi. 320 Azərbaycan dilli məktəbdə isə 30 mindən artıq məktəbli rus dilini genişləndirilmiş proqram üzrə öyrənirdi. Hərbi komissarlıqların təhsil şöbələri ilə qarşılıqlı fəaliyyət nəticəsində 1983-cü ildə çağırışaqədərki gənclər arasında 24667 nəfərin rus dilini zəif bildiyi, 8779 nəfərin isə rus dilini ümumiyyətlə bilmədiyi müəyyənləşdirilmişdi. Bu kontingentlə 2-3 aylıq proqram üzrə əlavə kurslar təşkil edildi və orduya çağırış ərəfəsində onların sayı müvafiq olaraq 11162 və 2347 nəfərə qədər azaldıldı. Rus dilinin öyrədilməsinin yaxşılaşdırılması üçün respublikada 548 rus dili dərnəyi yaradılmışdı ki, onlarda da 9700 nəfər məşğul olurdu (39).

Heydər Əliyevin Moskvaya SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkildiyi illərdə respublikadan hərbi xidmətə çağırılanların da sayı artıb təxminən 75 min nəfərə çatmışdı. 1976-cı ildə döyüş hissələrinə 28 min çağırışçı göndərilmişdisə, 1982-ci ildə 39 min çağırışçı göndərilmişdi ki, bu da çağırışçıların ümumi sayının 52,3 faizini təşkil edirdi. 1983-cü ildə döyüş hissələrinə göndərilənlərin sayı bir qədər də artaraq 56 faizə çatdı (40).

80-ci illərdə səfərbərlik hazırlığının gücləndirilməsi istiqamətində də konkret tədbirlərin həyata keçirilməsi davam etdirilirdi. 1980-ci ildə Azərbaycan KP MK-nın razılığı ilə respublikanın 72 rayon hərbi komissarlığı ilə birbaşa əlaqə saxlamaq üçün rabitə kanalı ayrılmışdı. Bununla da hərbi komissarlıqların 96 faizi birbaşa rabitə əlaqəsi ilə əhatə edilmişdi. Bu da respublika Hərbi Komissarlığından verilən siqnalların çox qısa zaman ərzində yerlərə çatmasını təmin edirdi. Bundan başqa, 50 rayon və şəhər hərbi komissarlığına “Polosa-2” radiostansiyası almaq üçün vəsait ayrılmışdı. Həmin radiostansiyaların işə salınması rabitənin çevikliyini daha da gücləndirməli idi. Eyni zamanda Abşeronda,

Sumqayıtda və Bakının rayonlarında qurmaq üçün 12 komplekt "Ştrix-M" foroteleqraf aparatı da alınmalı idi. Mürəkkəb şəraitdə səfərbərliyin idarə edilməsinin qorunması üçün respublikanın 5 rayonunda xüsusi mühafizə edilmiş idarəetmə məntəqəsi yaradılmış və daha 5 rayonda da belə məntəqələrin tikintisi aparılırdı. Nüvə silahlarının qəfil istifadəsindən əhalinin qorunması üçün respublikanın şəhərlərində 60050 nəfər tutumu olan 267 sığınacaq, şüalanmadan qorunmaq üçün 92300 nəfər tutumu olan 745 daldalanacaq və 598420 nəfər üçün nəzərdə tutulmuş 66248 zirzəmi otaqları hazırlanmışdı. Bakı şəhərində mövcud olan 12 metro stansiyası da kütləvi qırğın silahlarından qorunmaq üçün təchiz edilmişdi (41).

Keçən əsrin 80-ci illəri ərzində respublika rəhbərliyinin qayğısı ilə 20-dən artıq hərbi komissarlığa yeni bina tikildi və ya mövcud binaların ətrafı xeyli abadlaşdırıldı. Bu da hərbi komissarlıqların şəxsi heyəti üçün normal iş şəraitinin yaradılmasını şərtləndirirdi. Heydər Əliyevin İttifaq rəhbərliyinə yollanması ərəfəsində respublikanın Hərbi Komissarlığına bütün rayon hərbi komissarlıqları ilə birbaşa əlaqə yaratmağa imkan verən rabitə kanalları ayrıldı. Bundan başqa, bütün hərbi komissarlıqlar "Polosa-2" radiostansiyası ilə təmin edildi. Sumqayıtda, Göyçayda və Dağlıq Qarabağda qurulan əlavə "Polosa-2" radiostansiyaları isə toplanış məntəqələri ilə sahələr arasında rabitə əlaqəsi yaradılmasına imkan verdi. 1983-cü ildə daha 4 rayon hərbi komissarlığında belə radioşəbəkənin qurulması planlaşdırılırdı (42).

Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi kimi fəaliyyət göstərdiyi illərdə hərbi-təşkilati sahədə başlanan irimiqyaslı və əhəmiyyətli işlər onun Moskvaya yollanmasından sonra da bir müddət öz ahəngdarlığını davam etdirdi. Bunun nəticəsi kimi, 1983-cü ildə respublika Hərbi Komissarlığında avtomat-

laşdırılmış idarəetmə sistemi və KSPD-12 elektron-hesablama kompleksi ilə təchiz edilmiş idarəetmə mərkəzinin quraşdırılması başa çatdı. Bu idarəetmə mərkəzinin bütün rayon hərbi komissarlıqları ilə birbaşa radioteleqraf rabitəsi var idi. Respublika Hərbi Komissarlığı, eyni zamanda, simli və teleqraf kanalları ilə hərbi dairənin qərargahı ilə birləşdirilmişdi. Respublika Hərbi Komissarlığında məxfi rejimdə işləyən telefon stansiyası da quraşdırılmış və Komissarlığın qərargahı hərbi dairənin qərargahı ilə birləşdirilmişdi. Respublika Hərbi Komissarlığında məxfi rejimdə işləyən telefon stansiyası da qurulmuş və Komissarlığın hərbi dairənin qərargahı ilə məxfi rabitəsi təmin edilmişdi. Sumqayıt hərbi komissarlığında D-3-228 mini EHM-8 qurulmuşdu. Belə elektron-hesablama mərkəzinin Naxçıvan, Dağlıq Qarabağ, Şaumyan (Xətai), Lenin (Sabunçu), Nəsimi, Kəpəz, Yevlax, Nərimanov hərbi komissarlıqlarında da qurulması planlaşdırılırdı. Bu maşınlar teleqraf rabitə kanalları vasitəsilə səfərbərliklə bağlı məlumatı KSPD-12 kompleksinə ötürürdü. Həmin məlumatlar burada təhlil olunduqdan sonra respublika hərbi komissarının nəzarət lövhəsinə ötürülürdü.

Xalq təsərrüfatında olan texnikanın və hərbi tipli avtokolonların səfərbərlik hazırlığının yüksəldilməsi və texniki vəziyyətin yaxşılaşdırılması da Azərbaycan KP MK-nın və respublika Nazirlər Sovetinin daimi nəzarəti altında idi. Səfərbərlik hazırlığının gücləndirilməsi məqsədilə Avtomobil Nəqliyyatı Nazirliyinin avtomobil təsərrüfatları arasında hərbi tipli 25 avtokolon yaradılmışdı. Bu avtokolonların tərkibində 3320 ədəd avtomaşın var idi. Hərbi tipli avtokolonların vaxtında döyüş hazırlığı vəziyyətinə gətirilməsi və zərurət yarandığı halda onların SSRİ Silahlı Qüvvələrinin sərəncamına verilməsi üçün 2701, 2703, 2708 və 2712 nömrəli avtokolonlarda idarəetmə və xəbərdarlıq pultu quraş-

dırılmışdı. 1983-cü ilin sonuna kimi daha 7 avtokolonda belə pultların quraşdırılması və xalq təsərrüfatında olan texnikanın səfərbərlik hazırlığının qaldırılması planlaşdırılırdı. Xalq təsərrüfatında olan texnikanın səfərbərlik hazırlığının yüksəldilməsi və onların çevik şəkildə qoşunlara çatdırılması məqsədilə respublikanın digər nazirlikləri bazasında hərbi tipli daha beş avtakolonun yaradılması nəzərdə tutulmuşdu (43).

## 3. Milli hərbi kadrların hazırlığı

Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi kimi fəaliyyət göstərdiyi dövrdə hərbi-təşklilati sahədə əldə edilmiş ciddi nəticələrdən biri heç şübhəsiz ki, azərbaycanlı hərbi kadrların yetişdirilməsi sahəsində görülən işlər idi. Sovet dövründə bu istiqamətdə müəyyən addımlar atılmışdı, ölkənin ali hərbi məktəblərində azərbaycanlılar üçün kvota da ayrılmışdı. Ancaq 1956-cı ildə sonuncu milli diviziya ləğv edildikdən sonra ölkə hərbi məktəblərində azərbaycanlılar üçün ayrılmış kvota da azalmaqda idi. 1967-ci ildə ölkə ali hərbi məktəblərinə yalnız 136 azərbaycanlı sənəd vermişdi ki, onların da çox az qismi ali hərbi məktəblərə daxil olmuşdu. Həmin il Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinə 21 azərbaycanlı, Bakı Ali Hərbi Dənizçilik məktəbinə isə cəmi 2 azərbaycanlı daxil olmuşdu.

Azərbaycanlıların hərb işinə cəlb edilməsində belə səhlənkarlığa və laqeydliyə yol verilməsini Heydər Əliyev son dərəcə narahatçılıqla qarşılayırdı. O, respublika rəhbəri kimi fəaliyyətə başlamasının elə ilk illərindən hərbi-təşkilati işin genişləndirilməsinə, azərbaycanlılar arasında hərbçi peşəsinə marağın gücləndirilməsinə diqqət xeyli artırıldı. Azərbaycanlı gənclər arasında hərbçi peşəsinə marağın gücləndirilməsi ümumxalq əhəmiyyətli iş sə-

viyyəsinə qaldırıldı və bu sahədə mövcud olan çatışmazlıqların aradan qaldırılması üçün qətiyyətli və kəsərli tədbirlərin həyata keçirilməsinə başlandı.

İlk növbədə bu sahədə mövcud olan çatışmazlıqların səbəbləri araşdırıldı və təhlil olundu. Heydər Əliyev öz çıxışlarının birində bu səbəbləri belə dəyərləndirirdi: "Dövlət təhlükəsizliyi orqanlarında işləyəndə bütün Azərbaycanda, habelə SSRİ-də olan hərbi hissələrlə çox yaxşı tanış idim. Onlarla əlaqəm var idi, onlarla görüşürdüm. Ancaq hər dəfə məni narahat edən o idi ki, azərbaycanlılardan zabit vəzifəsində adam yoxdur... Ümumiyyətlə, SSRİ ali hərbi məktəblərinə, əsasən, ruslar, ukraynalılar, belaruslar qəbul oluna bilərdilər. Qalan millətlərin gənclərinin hərbi məktəblərə qəbul edilməsini çox nadir hadisə kimi qəbul etmək olardı. Bunları görəndə, bu barədə fikirləşəndə düşünürdüm, yaxşı, biz İttifaqın bərabərhüquqlu müttəfiq respublikasıyıq, böyük səlahiyyətlərimiz var. Biz nə üçün ordudan təcrid olunuruq? Deməli, əlavə tədbirlər görmək lazım idi ki, bu maneəni keçəsən və azərbaycanlıları orduda komandan, zabit vəzifəsinə çatdıra biləsən. Ona görə də mən 1969-cu ildə Azərbaycana rəhbər seçiləndən sonra, 1971-ci ildə bununla məşğul oldum" (44).

Əslində, Heydər Əliyev respublikanın rəhbəri seçildiyi andan hərbi-təşkilati işlərdə bir canlanma yaradılması sahəsində konkret fəaliyyətə başlamışdı. 1971-ci ildə isə aprel ayının 29-da keçirilmiş MK bürosunun iclasında orduya çağırış, hərbi məktəblərin komplektləşdirilməsi məsələsi çox geniş müzakirə olundu. Yuxarıda qeyd edildiyi kimi, bu iclasda Heydər Əliyev hərbi işlərlə bağlı məsələlərin son il yarım ərzində üç dəfə MK bürosunun müzakirələrinə çıxarıldığını bildirdi. Büro iclasında 1970-ci ildə hərbi məktəblərə göndərişin vəziyyəti müzakirə edildi və bu sahədə vəziyyətin yarıtmaz olduğu və ümumxalq mənafelərinə cavab vermədiyi bir daha vurğulandı. 1970-ci ildə Azərbaycandan hərbi

məktəblərə 1360 nəfər seçilməli olduğu halda, 910 nəfər seçilmiş və onlardan da cəmi 367 nəfəri hərbi məktəbə daxil olmuşdu. Yəni, verilmiş kvotaya heç 30 faiz də əməl edilməmişdi. Daxil olanların arasında isə azərbaycanlıların sayı xeyli az idi (45).

Azərbaycanlı gənclərin ölkənin ali hərbi məktəblərinə göndərilməsi sahəsində belə zəif nəticələrin ortada olmasına görə Heydər Əliyev OADKYC-nin, komsomol təşkilatlarının, Maarif Nazirliyinin fəaliyyətini ciddi tənqid etdi, hərbi-vətənpərvərlik istiqamətində görülən işlərin formalizmdən hələ də yaxa qurtarmadığını bildirdi. Büro iclasının gedişində Heydər Əliyev Azərbaycanda hərbi ənənələrin, milli hərbi kadrlar hazırlığının bərpa edilməsi və gücləndirilməsi ilə bağlı, əslində, proqram xarakteri daşıyan məzmunlu bir nitq söylədi. Sovet dövlətinin ideoloji ehkamlarının kifayət qədər sərt olduğu bir vaxtda belə bir nitq son dərəcə cəsarətli, qətiyyətli və milli maraqlara xidmət edən bir nitq idi. Milli hərbi kadrların yetişdirilməsində mərkəzin tətbiq etdiyi məhdudiyyətlər üzündən yaranmış boşluğun tezliklə aradan qaldırılmasını Heydər Əliyev perspektiv bir vəzifə kimi irəli sürdü:

"İl yarım ərzində biz üçüncü dəfədir ki, MK bürosunda orduya çağırış və hərbi məktəblərin komplektləşdirilməsi ilə bağlı məsələ müzakirə edirik. Bu, təsadüfi deyil. Çünki bu məsələ siyasi əhəmiyyəti olan çox mühüm məsələdir. Həm ona görə ki, biz bu sahədə işlərin əsaslı şəkildə yaxşılaşdırılmasına nail olmamışıq və bu məsələ ilə bağlı partiyanın tələblərinin yerinə yetirilməsini təmin etməmişik.

Bizdə orduya çağırışın aparılması pis gedir. Nöqsanlar haqqında əvvəllər danışmışıq. Bizdə hərbi məktəblərin komplektləşdirilməsi isə xüsusilə pis gedir. Mən bir daha qeyd edirəm ki, bu məsələ bizim respublikamız üçün son dərəcə siyasi əhəmiyyət kəsb edən fövqəladə mühüm bir məsələdir. Açıq deməliyəm ki,

keçmişdə bizim hərbi ənənəmiz yox idi. Sovet hakimiyyəti qurulana qədər azərbaycanlılar bir qayda olaraq orduda xidmət etmirdilər. 50 və ya 100 il belə davam etmişdir. Bu, əlbəttə ki, hansısa səviyyədə isə bizim insanların hərbi təlim məsələlərinə öz təsirini göstərir. Bununla bərabər, nəzərə alınmalı və elə fəaliyyət göstərilməlidir ki, tarixdə yol verilən o böyük boşluq aradan qaldırılsın, biz bu məsələdə tarixi ənənələri və böyük keçmişi olan digər xalqlarla bir səviyyəyə qalxa bilək.

Biz öz böyük məktəbimizi nə vaxt yaradacağıq? Nə vaxt bizim respublikamız, bizim yerli millətimiz olan azərbaycanlılar Silahlı Qüvvələrdə öz yerini tutacaq və bizim ölkəmizin müdafiəsinə, onun hərbi qüdrətinin möhkəmlənməsi işinə öz töhfəsini verəcəkdir?

Yoldaş Quliyev (respublikanın hərbi komissarı general-mayor Murtuz Quliyev nəzərdə tutulur – M.S.) məruzə etdi ki, seçilmiş 800 nəfərdən 170-i azərbaycanlıdır. Bu da uğurdur. Çünki keçən il onlar cəmi 57 nəfər idilər. Əgər biz 1100-1200 nəfər seçəcəyiksə (söhbət SSRİ ali hərbi məktəblərinə daxil olmaq üçün Azərbaycandan namizədlərin seçilməsindən gedir – M.S.) və respublikada əhalinin 74 faizini azərbaycanlılar təşkil edirsə, onda ən azı bu 74 faizi təmin edin. Əgər bütün 100 faiz verilərsə, onda biz bu sahədə keçmişdə yol verdiyimiz boşluğu aradan qaldıra bilərik. Əgər bu gün malik olduğumuz rəqəmlər qalacaqsa, onda biz öz vəzifələrimizi yerinə yetirə bilməyəcəyik. Bu baxımdan qarşımızda çox böyük vəzifə dayanır və biz milli hərbi kadrlara malik olmasaq, bunu gələcək nəsillər bizə bağışlamaz" (46).

Ölkənin ali hərbi məktəblərində Azərbaycana ayrılmış kvotanın bütünlüklə azərbaycanlılar hesabına yerinə yetirilməsi respublika rəhbərliyinin arzusu olsa da və bu istiqamətdə konkret vəzifələr müəyyənləşdirilsə də, bu məsələdə sözsüz ki, müəyyən çətinliklər də var idi. Əsas çətinlik rus dili məsələsi idi. Çünki

SSRİ ali hərbi məktəblərinə qəbul imtahanları da rus dilində aparılırdı. Bu çətinliyin aradan qaldırılması və azərbaycanlı gənclərin SSRİ ali hərbi məktəblərinə daha yaxşı hazırlaşdırılması üçün 1971-ci ildə Heydər Əliyev Azərbaycanda da Suvorov hərbi-internat məktəblərinin oxşarı olan internat məktəbinin açılması, hərbi məktəblərə daxil olmaq istəyənlərin hələ məktəb yaşından hərb işinə öyrədilməsinə başlanması təşəbbüsünü irəli sürdü. Azərbaycanın ictimai-siyasi həyatında, milli hərbi kadr hazırlığı tarixində böyük əhəmiyyət kəsb edən bu təşəbbüs həmin dövr üçün kifayət qədər cəsarətli bir təşəbbüs idi.

1971-ci ilin yayında Bakıda xüsusi internat məktəbin yaradılması Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan KP MK bürosunun iclasına çıxarıldı. Həmin il iyul ayının 23-də keçirilmiş MK bürosu "Xüsusi orta internat məktəbin yaradılması haqqında" qərar qəbul etdi. Qərara əsasən Zığ qəsəbəsində yerləşən 2 N-li 8 illik internat məktəbi təkmilləşdirilərək Xüsusi orta internat məktəbinə çevrilməli idi.

Azərbaycan KP Mərkəzi Komitəsinin bürosunun qəbul etdiyi qərara əsasən Xüsusi internat məktəbinin qarşısında dayanan başlıca vəzifə ali hərbi məktəblərə daxil olmaq istəyənlərin hazırlaşdırılması olmalı idi. Büro öz qərarı ilə respublika Nazirlər Sovetinə tapşırdı ki, Xüsusi internat məktəbinin zəruri maliyyə vəsaiti ilə təmin edilməsini və şagirdlərin həmin məktəbdə pulsuz təhsil alması məsələlərini həll etsin. Bu tapşırığa əsasən respublika Nazirlər Soveti də 1971-ci il noyabrın 15-də Xüsusi internat məktəbin təşkili ilə bağlı qərar qəbul etdi. Qərara əsasən 1971-1972-ci dərs ilindən başlayaraq 2 N-li 8 illik internat məktəbin bazasında orta internat məktəbi təşkil edilməli idi. Nazirlər Sovetinin həmin qərarı əsasında internat məktəbin ştatında dəyişikliklər edilməklə bu məktəbin maddi-texniki bazasının yaradılması üçün müvafiq miqdarda maliyyə vəsaiti də ayrıldı (47).

Ulu öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyi dövründə bu məktəbin açılmasını belə xatırlayırdı: "... 25 il bundan öncə mən Azərbaycanda əvvəllər heç vaxt oxşarı, analoqu olmayan ixtisaslaşdırılmış hərbi orta məktəb yaratmaq haqqında fikir irəli sürdüm. Bu məktəbi yaratdıq. Doğrudan da, mənim həyatımda gördüyüm işlər içərisində bu addımı, bu işi, bu təşəbbüsü o dövrdən artıq 25 il keçəndən sonra şəxsən özüm çox yüksək qiymətləndirirəm. Mən belə bir addım atarkən, təşəbbüs irəli sürərkən, o vaxt Sovetlər İttifaqının çərçivəsində belə bir qeyri-adi qərar qəbul edərkən təkcə o günləri yox, Azərbaycanın gələcəyini düşünürdüm. Mən çox istəyirdim ki, Azərbaycanın milli ordusu olsun. Əgər o vaxt milli ordu yaratmaq mümkün deyildisə, Sovetlər İttifaqı ordusunun tərkibində Azərbaycanın güclü zabit korpusu, zabitləri olsun. Mən istəyirdim ki, Azərbaycan zabitləri Sovetlər İttifaqı ordusunun tərkibində özlərinə layiq yer tutsunlar, respublikamızın mövqeyini müdafiə etsinlər və Azərbaycanın təsirini bütün Sovetlər İttifaqına yaya bilsinlər. Mən istəyirdim ki, zabitlər korpusumuz olsun, çünki bu, Azərbaycanın gələcəyi üçün lazım idi. O vaxt bunu dərk edə bilməyən adamlar da, buna adicə bir hadisə, tədbir kimi baxanlar da indi yəqin artıq bilirlər ki, bu addımı atarkən nə qədər böyük uzaqgörənlik olmuşdur» (48).

Heydər Əliyev bildirirdi ki, sovet dövründə belə bir məktəbin yaradılması Azərbaycanın gələcəyinə baxış idi. Onun yaradılması belə bir əminlikdən irəli gəlirdi ki, «Azərbaycan xalqı öz milli azadlığını əldə edəcək, dövlət müstəqilliyini əldə edəcək, müstəqil Azərbaycan dövləti yaranacaqdır» (49).

Amma Heydər Əliyevin Azərbaycanın gələcəyinə baxış təfəkküründən doğan belə bir məktəbin respublikada təşkil edilməsi İttifaqın müəyyən dairələrini heç də razı salmırdı. İttifaq orqanları Suvorov hərbi internat məktəblərinin oxşarı olan mək-

təblərin Rusiyadan kənarda açılmasına rəğbətlə yanaşmırdı. Buna görə də Heydər Əliyevə qarşı müəyyən təzyiqlərin göstərilməsinə başlandı. Bu məsələyə Heydər Əliyev öz münasibətini belə bildirirdi: «Deməliyəm ki, o vaxt biz məktəbi yaradanda onun əleyhinə Moskvadan, Sovetlər İttifaqının mərkəzindən çox etirazlar edirdilər. Buraya bir neçə dəfə komissiyalar göndərdilər, yoxladılar, bunun qeyri-qanuni olması barədə qərarlar çıxardılar. Təkliflər verdilər ki, mənim bu qərarım Sovetlər İttifaqında mövcud olan qərarlara ziddir, uyğun deyil, onu ləğv etmək lazımdır. O vaxt mənə deyirdilər ki, Suvorov adına, Naximov adına məktəblər var, əgər siz gənclərinizi, uşaqlarınızı, hərbi təhsilə cəlb etmək istəyirsinizsə, bu məktəblərdən istifadə etmək olar, belə bir ixtisaslaşdırılmış hərbi məktəbin yaranması isə lazım deyil. Ancaq mən öz fikrimdən dönmədim. Heç bir təzyiq mənə güc gələ bilmədi. Mən tutduğum işi davam etdirdim. İxtisaslaşdırılmış bu hərbi məktəb – Azərbaycanın böyük sərkərdəsi, generalı Cəmşid Naxçıvanskinin adını daşıyan məktəb yaşadı, inkişaf etdi, kadrlar hazırladı» (50).

Başqa bir çıxışında isə Heydər Əliyev C.Naxçıvanski adına xüsusi internat məktəbinin açılmasına İttifaq təşkilatlarının etirazı haqqında belə deyirdi: «Bu, Moskvada etirazla qarşılandı və hətta dedilər ki, biz anlamırıq, axı Sovet İttifaqı var, sovet xalqı var, vahid sovet ordusu var. Hər bir gənc sovet ordusunun böyük SSRİ ərazisində olan müxtəlif hərbi məktəblərə daxil olub, hərbi təhsil ala bilər. Bunları mənə bildirərək onu da soruşdular ki, Siz bunu nə üçün edirsiniz? Sonra isə mən qəbul etdiyim qərarın üzərində dayandığıma görə, bu etirazların izahatını verərək, eyni zamanda, Azərbaycanda belə bir hərbiləşdirilmiş orta məktəbin zəruriliyini sübut etməyə çalışdım. Bunun nə olduğunu onlar, yəni Moskvada, SSRİ-nin rəhbərliyində bu

işlə məşğul olan adamlar bilirdilər, amma anlamaq istəmirdilər. Mən isə öz qərarımda israrlı idim» (51).

Beləliklə, respublikada ali hərbi məktəbə daxil olmaq üçün kontingent hazırlayan Xüsusi internat məktəbin əsası qoyuldu. 1971-ci ilin noyabrında Azərbaycan KP MK birinci katibi Heydər Əliyev internat məktəbə bayraq təqdim etdi və bu məktəbə Cəmşid Naxçıvanskinin adı verildi. Məktəbdə təhsil müddəti üç il idi. Tədris VIII, IX və X siniflər üzrə aparılmalı idi. İnternat məktəbə 7-ci sinfi bitirmiş və gələcəkdə də ali hərbi məktəbə daxil olmaq istəyənlər qəbul edilməli idilər. İnternat məktəbi bitirənlərə ali hərbi məktəblərə müsabiqədən kənar daxil olmaq hüququ verilirdi (52).

1971-72-ci tədris ili Xüsusi orta internat məktəbinin ilk tədris ili idi. Yeni qəbul edilən şagirdlər hesabına 10-cu sinif komplektləşdirilmişdi. Birinci tədris ilində məktəbə 48 şagird qəbul edilmişdi. Bütünlükdə isə məktəbin tədris bazası 360 nəfər şagird üçün nəzərdə tutulmuşdu. Məktəbin tədris binası, qazanxanası, yeməkxanası, yataqxanası və digər binaları yeni tələblərə heç də cavab vermirdi. Buna baxmayaraq, müəllim heyəti məktəbin yeni statusundan irəli gələn vəzifələrin həllinə səfərbər edildi və tədris ili uğurla başa çatdırıldı. Məktəbin ilk buraxılışına respublikanın rəhbər təşkilatlarının, nazirliklərin, hərbi hissə və birləşmələrin nümayəndələri qonaq gəldilər. İlk buraxılışın məzunlarından 5 nəfər İttifaqın ali hərbi məktəblərinə daxil ola bildilər və bununla da Azərbaycanda milli hərbi kadr hazırlığının yeni bir istiqamətinin əsası qoyuldu.

Ancaq belə bir məktəbin yaradılması mərkəzin narazılığı ilə qarşılandı və onun bağlanması üçün respublika rəhbərliyinə təzyiqlər başladı. Bununla belə, respublika rəhbərliyi həmin təzyiqlərin qarşısını qətiyyətlə aldı. C.Naxçıvanski adına Xüsusi internat məktəbi nəinki bağlanmadı, əksinə Heydər Əliyevin davamlı

qayğısı nəticəsində daha da inkişaf etdi, maddi-texniki bazası daha da təkmilləşdi. İnternat məktəbin fəaliyyətinin daha da yaxşılaşdırılması üçün respublika rəhbərliyi səviyyəsində bir neçə dəfə müzakirələr aparıldı və əhəmiyyətli qərarlar qəbul edildi. 1976-cı il aprel ayının 20-də Azərbaycan KP MK və Nazirlər Soveti «C.Naxçıvanski adına respublika orta təhsil internat məktəbinin fəaliyyətinin yaxşılaşdırılması tədbirləri haqqında» qərar qəbul etdi. Bu qərarla respublikanın əlaqədar təşkilatları qarşısında Xüsusi internat məktəbinin fəaliyyətinin yaxşılaşdırılması ilə bağlı yeni vəzifələr müəyyənləşdirildi. Qərara əsasən Maarif Nazirliyindən tələb olunurdu ki, bir ay müddətində məktəbin binalarının yenidən qurulması, atıcılıq tirinin, idman meydançasının, qarajın, məktəb işçiləri üçün yaşayış binasının tikilməsi üçün sifariş hazırlasın. Bakı Şəhəri İcra Hakimiyyəti 10 gün ərzində həmin tikililər üçün sahə ayırmalı, Azərdövlətlayihə isə sentybr ayının 1-nə kimi layihə-smeta sənədlərini hazırlamalı idi. Qərarın icrası ilə bağlı Maarif Nazirliyi iyun ayının 2-də lazımi sifarişləri hazırlayıb Azərdövlətlayihəyə təqdim etdi. Bakı Şəhər İcra Hakimiyyəti iyunun 4-də planlaşdırılan tikililər üçün sahələr ayrılması, avqustun 3-də isə tikinti pasportunun verilməsi barədə qərar imzaladı. 1976-cı ilin sentyabrında Azərdövlətlayihə tərəfindən nəzərdə tutulan tikinti layihə-smeta sənədlərinin işlənib hazırlanması başa çatdırıldı. Respublika Plan Komitəsi tərəfindən Xüsusi internat məktəbin binalarının yenidən qurulması və nəzərdə tutulan tikintinin aparılması Maarif Nazirliyinin 1977-ci il üçün əsaslı tikinti planına daxil edildi (53). Bununla da məktəbdə geniş abadlıq işlərinə başlandı.

Respublikanın gənclər təşkilatları da C.Naxçıvanski adına xüsusi internat məktəbinin fəaliyyətinin yaxşılaşdırılması işinə cəlb olunmuşdular. Məktəblilər arasında hərbçi peşəsinə meylin

gücləndirilməsində, gənc mütəxəssislər arasından pedaqoqların və tərbiyəçilərin seçilib məktəbə göndərilməsində, məktəbin binalarının və ərazinin əyani vəsaitlərlə təchiz edilməsində, məktəblilərin seçilməsində gənclər təşkilatları da yaxından iştirak etməyə çalışırdılar. Təkcə 1976-cı il ərzində hərbi komissarlıqlar və təhsil şöbələri ilə birlikdə Xüsusi internat məktəbində təhsilin davam etdirmək üçün 650 şagird seçilmişdi ki, onlardan da 470-i azərbaycanlı idi. Bu məktəbə daimi və məqsədyönlü seçimin aparılması üçün Azərbaycan Lenin Kommunist Gənclər İttifaqı Mərkəzi Komitəsi tərəfindən əlaqədar təşkilatlarla razılaşdırılmaqla şəhər və rayonlarda 42 baza məktəbi müəyyənləşdirilmişdi. İnternat məktəbinin rəhbərliyinin razılığı ilə bu məktəbin ərazisi şərti olaraq 10 mikrorayona bölünmüşdü və bu mikrorayonlardan hər birinə hamilik Bakının rayon komsomol komitələrindən birinə tapşırılmışdı. Azərbaycan LKGİ MK bürosu tərəfindən məktəbin həyətinin abadlaşdırılması, bəzədilməsi, mədəni və idman avadanlıqlarının alınması üçün 3 min rubl vəsait ayrılmışdı (54).

Amma bununla da görülən işlər yekunlaşmadı. Heydər Əliyevin tələbi və göstərişi ilə 1978-ci ildə iyun ayının 30-da C.Naxçıvanski adına Xüsusi internat məktəbin fəaliyyətinin təkmilləşdirilməsi məsələsi Nazirlər Sovetində ətraflı müzakirə olundu. Bu müzakirələrin nəticəsi kimi, Nazirlər Soveti «C.Naxçıvanski adına respublika Xüsusi internat məktəbinin iş şəraitinin yaxşılaşdırılması tədbirləri haqqında» qərar qəbul etdi. 1981-ci il iyun ayının 18-də isə Heydər Əliyevin rəhbərliyi altında aparılan müzakirələrdən sonra Azərbaycan KP MK və respublika Nazirlər Soveti «C.Naxçıvanski adına respublika xüsusi internat məktəbinin maddi-texniki bazasının genişləndirilməsi tədbirləri haqqında» qərar qəbul etdi. Bu qərarlar da xüsusi internat məktəbinin maddi-texniki bazasının daha da təkmilləşdirilməsinə, təlim-tər-

biyənin daha yüksək səviyyədə aparılması üçün zəruri şəraitin yaradılmasına xidmət edirdi. Bu qərarların həyata keçirilməsi istiqamətində 1979-cu ildə məktəbdə 50 metrlik örtülü atıcılıq tiri tikildi, 1980-ci ildə 221 nömrəli orta məktəbin binası yenidən tikilib Xüsusi internat məktəbinə verildi və şagird qəbulu 500 nəfərdən 700 nəfərə çatdırıldı.

1982-ci ildə internat məktəbində suyu süzgəcdən keçirən və qızdıran 25 metrlik örtülü üzgüçülük hovuzu tikilib istifadəyə verildi. Həmin il qazanxananın tikintisi də başa çatdırıldı. 1983-cü ildə isə 250 yerlik beşmərtəbəli yataqxana binası tikilib istifadəyə verildi (55).

Bütün bu görülən işlər heç şübhəsiz ki, tədrisin keyfiyyətini də yuxarı qaldırdı və bunun nəticəsində məktəbin məzunları arasında ali hərbi məktəbə daxil olanların sayı da ildən-ilə artdı. 1974-cü ildə C.Naxçıvanski adına xüsusi internat məktəbin 21 məzunu, 1975-ci ildə 24 məzunu, 1976-cı ildə 46 məzunu, 1977-ci ildə 68 məzunu, 1978-ci ildə 81 məzunu, 1979-cu ildə 83 məzunu, 1980-ci ildə 105 məzunu, 1981-ci ildə 107 məzunu, 1982-ci ildə 103 məzunu, 1983-cü ildə 133 məzunu İttifaqın ali hərbi məktəblərinə daxil oldular (56).

Milli zabit kadrlarının hazırlanmasının başqa bir istiqaməti isə İttifaqın ali hərbi məktəblərində Azərbaycan üçün ayrılmış yerlərə daha çox azərbaycanlı gənclərin göndərilməsi idi. XX əsrin 60-cı illərin sonunda bu istiqamətdə görülən işlər xeyli zəifləmişdi. 1967-ci il may ayının 12-də Azərbaycan KP MK-nın qəbul etdiyi qərarda gənclərin seçilib ölkə ali hərbi məktəblərinə göndərilməsi sahəsində görülən işlər qeyri-qənaətbəxş sayılmışdı. Qərarda bildirilirdi ki, partiya, sovet, komsomol orqanları və hərbi komissarlıqlar gənclərin seçilib hərbi məktəblərə göndərilməsinə lazımi diqqət göstərmirlər. Azərbaycan KP MK katibliyi

rayon və şəhər partiya və komsomol komitələrindən, hərbi komissarlıqlardan tələb edirdi ki, gənclər arasında izahetmə işləri genişləndirilsin və onların seçilərək hərbi məktəblərə göndərilməsi üçün daha qətiyyətli addımlar atılsın (57).

Azərbaycan KP MK bürosunun yuxarıda haqqında danışılan 29 aprel tarixli iclasının materiallarından da göründüyü kimi, 1970-ci ildə də bu sahədə arzu edilən nəticələr əldə edilmədi. Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev həmin büro iclasındakı çıxışından və respublikanın əlaqədar təşkilatları qarşısında ciddi vəzifələr qoymasından sonra bu istiqamətdə görülən işlər daha da fəallaşdı və ölkə hərbi məktəblərinə daxil olan azərbaycanlıların sayı da artmağa başladı. 1972-77-ci illər ərzində ölkənin ali hərbi məktəblərinə Azərbaycandan 8208 gənc seçilib göndərildi ki, onlardan 3398 nəfəri azərbaycanlı idi. Göstərilən illər ərzində hərbi məktəblərə göndərilən gənclərin 2153 nəfəri sınaq imtahanlarını uğurla keçib ali hərbi məktəblərə daxil olmuşdular. Onlardan 694 nəfəri azərbaycanlı idi. Konkret illər üzrə Azərbaycandan ali hərbi məktəblərə göndərilənlərin statistikası aşağıdakı kim idi (58):

| | hərbi məktəblərə göndərilib | | hərbi məktəblərə daxil olub | |
|---|---|---|---|---|
| | cəmi | azərbaycanlı | cəmi | azərbaycanlı |
| 1972-ci il | 1616 | 711 | 353 | 81 |
| 1973-cü il | 1700 | 730 | 408 | 98 |
| 1974-cü il | 1514 | 550 | 360 | 112 |
| 1975-ci il | 1210 | 657 | 310 | 121 |
| 1976-cı il | 1128 | 435 | 334 | 130 |
| 1977-ci il | 1040 | 405 | 390 | 152 |

Gənclərin İttifaq hərbi məktəblərinə seçilməsində Bakının Oktyabr, Nəsimi, Şaumyan (Xətai) rayonları, habelə Qusar və Qazax rayonlarının hərbi komissarlıqları daha səmərəli işlər görürdülər. Bu rayonlarda həm müəyyən edilmiş kvotalar ödənmişdi, həm də bu rayonlardan ali hərbi məktəblərə daxil olanların sayı çox idi. Füzuli, Qutqaşen (Qəbələ), Qax və Bərdə rayonlarının hərbi komissarlıqları isə bir nəfər də olsa gənci İttifaq hərbi məktəblərinə göndərməmişdilər.1977-ci ildə C.Naxçıvanski adına xüsusi internat məktəbini bitirən 58 məzundan 56-sı hərbi məktəblərə qəbul olunmuşdu. (1977-ci ildə internat məktəbinin əvvəlki illərinin məzunlarından da ali hərbi məktəblərə qəbul olunanlar var idi. Bu da 96,5 faiz göstərici demək idi (59).

Bakıda yerləşən ali hərbi məktəblərə azərbaycanlıların qəbulunun artırılmasına da diqqət gücləndirildi. Bu hərbi məktəblərin Azərbaycanda yerləşməsinə baxmayaraq, onların kursantları arasında azərbaycanlıların sayı həddən artıq az idi. Heydər Əliyevə görə, həmin məktəblərdə belə bir vəziyyətin olması konkret səbəblərdən irəli gəlirdi: «Bu, bir tərəfdən o vaxt aparılan siyasət – sovet hakimiyyətinin siyasəti idi. Onlar o vaxt orduda yüksək vəzifələrdə başqa millətlərdən və xüsusən Azərbaycan millətindən olan insanları görmək istəmirdilər. İkinci tərəfdən də Azərbaycanda hərbi peşəyə soyuq münasibət var idi. Biz bunların aradan qaldırılması üçün tədbirlər gördük» (60).

Bu tədbirlərdən biri Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinin rəhbərliyinin dəyişdirilməsi oldu. Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin qətiyyəti və ardıcıllığı nəticəsində general-mayor V.Bərşadlı Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinə rəis təyin edildi və bununla da məktəbə azərbaycanlı gənclərin cəlb edilməsi üçün daha münasib zəmin yaradıldı.

«O vaxt mən arayırdım ki, sovet ordusunda harada azərbaycanlı var, onlara kömək edək, irəliyə çəkək, onların inkişafına yardım göstərək. General Bərşadlı da onlardan biridir. O vaxt mən arayarkən mən onu sovet ordusunun Almaniyadakı hissəsində tapdım. O, orada ordu komandanının müavini idi. Mən onu Azərbaycana dəvət etdim və Bakıda yerləşən Hərbi Komandirlər Məktəbinə rəis təyin etdim. Həmin məktəbin rəisi həmişə rus olurdu, müavini isə mən işlədiyim dövrdə bir neçə erməni idi. Amma bu məktəb Azərbaycanda yerləşirdi. General Bərşadlının həmin məktəbə rəis təyin etmək asan məsələ deyildi. Ancaq mən onu təyin etdirdim ki, onun vasitəsilə oraya çoxlu azərbaycanlı qəbul olunsun, hərbi peşəyə alışsınlar və bu peşəni, zabit peşəsini öyrənsinlər və fəaliyyət göstərsinlər» (61).

Azərbaycan rəhbərliyinin nəzarəti altında həm bu məktəbin fəaliyyətinə, həm də orada daha çox azərbaycanlının təhsil almasına qayğı gücləndirildi. Artırılan diqqət və qayğının, görülən işlərin nəticəsində 1981-ci ildə azərbaycanlıların ali hərbi məktəbə göndərilməsində bir dönüş yarandı. Həmin il ölkənin ali hərbi məktəblərinə, o cümlədən Bakıdakı ali hərbi məktəblərə sənəd verənlərin sayı 2405 nəfərə çatdı ki, onlardan 804 nəfəri ali hərbi məktəblərə daxil oldu. Ali hərbi məktəblərə daxil olanların yarıdan çoxu, konkret olaraq 416 nəfəri azərbaycanlı idi (62).

Azərbaycan rəhbərliyinin milli zabit kadrlarının hazırlığına xüsusi diqqət yetirməsi ilə əlaqədar olaraq Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinin rəisi, general-mayor V.Bərşadlı 1981-ci ilin fevralında Heydər Əliyevə müraciət edərək respublikanın daxili imkanları hesabına bir sıra tikinti və abadlıq işlərinin aparılmasına kömək istədi. Həmin tikinti işləri arasında 1200 yerlik yeməkxananın, üzgüçülük hovuzunun, zabit və gizirlər üçün yataqxananın, klubun, tədris korpusunun, əsgər kazarmasının,

nəqliyyat vasitələrinə texniki xidmət obyektinin tikintisi və stadionun təkmilləşdirilməsi var idi. Heydər Əliyev bu xahişi dərhal nəzarət altına götürdü və onların icrasının mümkünlüyünün öyrənilməsini Nazirlər Sovetinə tapşırdı. Nazirlər Sovetinin apardığı araşdırmalardan sonra məlum oldu ki, təklif olunan bütün tikinti işlərinin aparılması üçün 3,5 milyon rubl vəsait tələb olunur. İttifaq orqanları tərəfindən yeni beşillik üçün əsaslı kapital qoyuluşu xərcləri azaldıldığından Azərbaycanın xalq təsərrüfatı üçün də kapital qoyuluşunun azalacağı gözlənilirdi. Ona görə də təklif olunan tikintilərə vəsait ayımaq respublikanın imkanları xaricində idi. Lakin mövcud maliyyə çətinliklərinə baxmayaraq, respublika Nazirlər Soveti Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinin üzgüçülük hovuzunun, yeməkxanasının tikilməsi və stadionun yenidən qurulması üçün 1 milyon rubla qədər vəsait ayırdı və həmin işlərin görülməsi 1982-ci ilin planına salındı. Məsələ Heydər Əliyevin nəzarətində olduğu üçün qəbul edilən qərar barədə ona da məlumat çatdırıldı (63).

1981-ci ildə respublikada hərbi-təşkilati işin yaxşılaşdırılması məqsədilə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda İbtidai hərbi hazırlıq fakültəsi açıldı. Fakültəyə hər il 150 tələbənin qəbulu planlaşdırılırdı. Təhsilin sonunda məzunlara ehtiyat zabit rütbəsinin verilməsi nəzərdə tutulmuşdu. Respublikanın digər beş ali təhsil ocağında isə hərbi kafedralar fəaliyyət göstərirdi və onlar da ehtiyatda olan zabitlər hazırlayırdılar. 1982-ci ildə bütün bu hərbi kafedralarda 16015 tələbə təhsil alırdı (64).

1982 və hətta 1983-cü ildə respublikada gənclərin ali hərbi məktəblərə üstün marağı qalmaqda davam edirdi. 1982-ci ildə respublikadan 1086 nəfər İttifaqın müxtəlif ali hərbi məktəblərinə daxil olmuşdu ki, onlardan da 691 nəfəri azərbaycanlı idi. 1983-cü ildə bu rəqəm daha da artdı. Respublikadan İttifaqın ali hərbi

məktəblərinə daxil olan 1206 nəfərin 812 nəfəri azərbaycanlı idi (65). Heydər Əliyevin respublikanın rəhbəri seçildiyi ilk illərlə müqayisədə hərbi məktəblərə daxil olan azərbaycanlıların sayı təxminən 20 dəfə artmışdı. Yəni 1971-ci ildə cəmi 46 azərbaycanlı ali hərbi məktəblərə daxil olmuşdusa, 1983-cü ildə onların sayı yuxarıda qeyd edildiyi kimi, 812 nəfərə çatmışdı. 1981-83-cü illərdə Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinə və Xəzər Ali Hərbi Dənizçilik Məktəbində respublika gəncləri üçün müvafiq olaraq 225 və 125 yer ayrılmışdı. Bu məktəblərə daxil olanların da böyük əksəriyyətini azərbaycanlılar təşkil edirdilər. 1984-cü ildə də ali hərbi məktəblərə respublikadan daxil olan 1409 gəncin 1012 nəfəri azərbaycanlı idi. Ancaq görünür, Azərbaycanda milli zabit kadrlarının hazırlanmasına belə xüsusi diqqət yetirilməsi İttifaqın müəyyən dairələrini qane etmirdi. Xüsusilə M.S.Qorbaçovun SSRİ rəhbəri seçilməsindən sonra azərbaycanlılar arasından zabit kadrlarının hazırlanmasına ciddi maneələr yaradılmağa başlandı. Məsələn, 1984-cü ildə ölkənin 135 ali hərbi məktəbinə 1409 nəfər daxil olmuşdusa, 1985-ci ildə bu məktəblərdə Azərbaycandan olan gənclər üçün cəmi 396 yer nəzərdə tutulmuşdu. Bakı Ali Ümumqoşun Komandirləri Məktəbində isə Azərbaycan üçün ayrılan kvota 225 nəfərdən endirilərək 33 nəfər həddində saxlanılmışdı. Respublika rəhbərliyi SSRİ Silahlı Qüvvələrinin Baş Qərargah rəisinə göndərdiyi məktubda ortaya çıxan bu məhdudiyyətlərin aradan qaldırılmasını xahiş etdi. Bu kvota məhdudiyyəti aradan qaldırılmadı. Amma respublikada hərbçi peşəsinə gənclər arasında böyük maraq qaldığından 1985-ci ildə ali hərbi məktəblərə Azərbaycandan 1052 nəfər daxil olmuşdu ki, onların da əksəriyyəti həmin məktəblərə kvotadan kənar daxil olmuşdular. Bununla belə, 1985-ci ildə Azərbaycandan ali hərbi məktəblərə daxil olanların sayı 1984-cü illə müqayisədə

25 faiz az idi. Gürcüstanda isə bu rəqəm təxminən eyni səviyyədə qalmış, Ermənistanda isə əksinə artım baş vermişdi (66).

Başqa sözlə, cənab Heydər Əliyevin respublikada yoxluğu dövründə azərbaycanlılar arasında hərbi işin miqyası yenidən aşağı endirildi, azərbaycanlı zabit kadrlarının hazırlığına diqqət xeyli azaldıldı. Tezliklə müstəqilliyin əldə edilməsi milli hərbi kadrların hazırlığına diqqətin azaldılmasının milli maraqlara necə ziyan vurduğunu açıqlığı ilə nümayiş etdirdi. Bu vəziyyət, eyni zamanda, bir daha milli hərbi kadr hazırlığı sahəsində cənab Heydər Əliyevin uzaqgörənliyini, onun dövlətçilik duyumunu nümayiş etdirdi. Məhz onun rəhbərliyi altında hazırlanmış olan çoxsaylı azərbaycanlı zabit kadrları müstəqil Azərbaycanın hərbi quruculuğunun ilkin zabit bazasını təşkil etdilər və sədaqətli xidmətləri ilə Azərbaycanın hərbi təhlükəsizliyinin təmin edilməsində yaddaqalan səhifələr yazdılar.

## İstifadə olunmuş mənbə və ədəbiyyat

1. Heydər Əliyevin Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşdə çıxışı. http://files.preslib.az/projects/toplu/v2/f3_3.pdf
2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (SSA), fond 1, siyahı 58, iş 77, vərəq 53
3. Heydər Əliyev: Mən Cəmşid Naxçıvanski adına məktəbi yaradarkən həsrətində olduğum arzuma çatmışam, ona görə də özümü xoşbəxt hesab edirəm. "Azərbaycan" qəzeti, 22 aprel 2003
4. SSA, f.1, siy.58, iş 104, v.182-183
5. SSA, f. 1, siy.59, iş 337, v.107
6. Yenə orada, v. 89
7. Yenə orada, v.110
8. SSA, f. 1, siy. 59, iş 351, v.110
9. SSA, f. 1, siy. 61, iş 186, v.69
10. Yenə orada
11. SSA, f. 1, siy. 62, iş 357, v. 118-119
12. Yenə orada, v. 33-34
13. SSA, f. 1, siy. 70, iş 348, v. 125-127
14. Yenə orada, v. 23-25
15. SSA, f. 1, siy. 58, iş 77, v. 53
16. SSA, f. 1, siy. 57, iş 139, v. 143
17. SSA, f. 1, siy. 57, iş 139, v. 143
18. SSA, f. 1, siy. 58, iş 403, v. 21
19. SSA, f. 1, siy. 59, iş 337, v. 107
20. SSA, f. 1, siy. 62, iş 371, v. 232

21. SSA, f. 1, siy. 63, iş 377, v. 97
22. SSA, f. 1, siy. 73, iş 357, v.7-9
23. SSA, f. 1, siy. 56, iş 281, v. 25
24. SSA, f. 1, siy. 97, iş 139, v. 186-188
25. Yenə orada, v. 183-184
26. Yenə orada, v. 182
27. Yenə orada, v.177-178
28. SSA, f. 1, siy. 60, iş 351, v. 141-142
29. Yenə orada, v.142-143
30. SSA, f. 1, siy. 61, iş 341, v. 6-12
31. Yenə orada, v. 50
32. SSA, f. 1, siy. 62, iş 357, v. 1
33. SSA, f. 1, siy. 61, iş 155, v.48-49
34. SSA, f. 1, siy. 62, iş 132, v. 21, 33, 34
35. SSA, f. 1, siy. 62, iş 371, v. 207
36. SSA, f. 1, siy. 65, iş 357, v. 26
37. SSA, f. 1, siy. 66, iş 176, v. 43-44
38. SSA, f. 1, siy. 67, iş 184, v.25-26
39. SSA, f. 1, siy. 72, iş 483, v. 64-65
40. Yenə orada, v. 66
41. SSA, f. 1, siy. 67, iş 184, v. 29-30
42. SSA, f. 1, siy. 72, iş 483, v.70-71
43. Yenə orada, v. 68-69
44. «Azərbaycan» qəzeti, 22 aprel 2003-cü il
45. SSA, f. 1, siy. 58, iş 77, v.39
46. Yenə orada, v.53-55
47. Ramiz Duyğun. Mənim unudulmaz məktəbim. Bakı, 2002, s.7-8
48. Respublika Milli Qvardiyasının qərargahında Azərbaycanın Milli Qəhrəmanı Əfgqan Hüseynovun büstünün açılışı

mərasimində çıxış. 28 may 1995-ci il.
http://files.preslib.az/projects/toplu/v2/f3_5.pdf
49. Cəmşid Naxçıvanski adına hərbi liseyin Naxçıvan filialında kursantlarla görüşdə nitq. 17 iyun 2002-ci il.
http://files.preslib.az/projects/toplu/v2/f3_12.pdf
50. Respublika Milli Qvardiyasının qərargahında Azərbaycanın Milli Qəhrəmanı Əfgqan Hüseynovun büstünün açılışı mərasimində çıxış. 28 may 1995-ci il.
http://files.preslib.az/projects/toplu/v2/f3_5.pdf
51. Heydər Əliyev: Mən Cəmşid Naxçıvanski adına məktəbi yaradarkən həsrətində olduğum arzuma çatmışam, ona görə də özümü xoşbəxt hesab edirəm. "Azərbaycan" qəzeti, 22 aprel 2003
52. Ramiz Duyğun. Mənim unudulmaz məktəbim. Bakı, 2002,s.9
53. SSA, f. 1, siy. 64, iş 323, v.34-35
54. Yenə orada, v. 37
55. Cəmşid Naxçıvanski adına hərbi liseyin Naxçıvan filialında kursantlarla görüşdə nitq. 17 iyun 2002-ci il.
http://files.preslib.az/projects/toplu/v2/f3_12.pdf
56. Ramiz Duyğun. Mənim unudulmaz məktəbim. Bakı, 2002, s.9
57. SSA, f. 1, siy. 64, iş 323, v.34-35
58. Yenə orada, v.37
59. SSA, f. 1, siy. 64, iş 108, v.4
60. Azərbaycan Milli Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 1998-ci il.
http://files.preslib.az/projects/toplu/v2/f3_8.pdf
61. Yenə orada
62. SSA, f. 1, siy. 70, iş 349, v.2

63. SSA, f. 1, siy. 67, iş 214, v.41
64. SSA, f. 1, siy. 70, iş 410, v.51-53
65. SSA, f. 1, siy. 72, iş 370, v.2
66. SSA, f. 1, siy. 74, iş 377, v.51; iş 466, v.9-10; siy. 75, iş 298, v.69

# III FƏSİL

# ALİ BAŞ KOMANDANLIQ İNSTİTUTUNUN HEYDƏR ƏLİYEV MƏRHƏLƏSİ

## 1. Heydər Əliyev Ali Baş Komandanlıq institutunun vəziyyəti haqqında

Azərbaycanda Ali Baş Komandanlıq institutunun nəzəri və hüquqi bazada formalaşdırılması, onun real və işlək ali hərbi-siyasi idarəetmə orqanına çevrilməsi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Hakimiyyətdə olan qüvvələrin kəsərsiz siyasətinin nəticəsi kimi, respublikada təhlükəli hərbi və siyasi böhranın dərinləşdiyi bir vaxtda xalqın tələbi və təkidi ilə 1993-cü ilin iyun ayında Bakıya dəvət olunan Heydər Əliyevin dövlət rəhbəri kimi fəaliyyətinin əsas istiqamətlərindən birini də məhz Ali Baş Komandanlıq institutunun əməli olaraq yaradılması, ölkənin ərazi bütövlüyünün təmin edilməsi üçün görülən və görülməli olan bütün fəaliyyətlərin vahid rəhbərliyin nəzarəti altına gətirilməsi və vahid rəhbərlik altında istiqamətləndirilməsi oldu. Bu məqsədə nail olunması üçün Heydər Əliyev həm də bu ali hərbi-siyasi idarəetmə orqanının formalaşdırılmasının Azərbaycan şəraitindən irəli gələn metodologiyasını müəyyənləşdirdi.

Heydər Əliyevin müxtəlif çıxışlarında, bəyanatlarında və söhbətlərində onun Bakıya dönüşünə qədərki iqtidarlar tərəfindən Ali

Baş Komandanlıq institutunun funksiyalarına aid olan məsələlərlə bağlı buraxılan nöqsanların əhatəli şəkildə qiymətləndirilməsi aparılmışdır. Bununla həm mövcud vəziyyət, həm bu vəziyyətdə görülməli olan işlərin miqyası və zəruriliyi xalqa çatdırılmış, həm də Ali Baş Komandanlıq institutunun formalaşdırılması ilə bağlı konkret vəzifələr və istiqamətlər müəyyənləşdirilmişdir.

Heydər Əliyev respublikanın dərin hərbi-siyasi böhranla qarşılaşmasının başlıca səbəblərindən birini vahid rəhbərliyin, yəni Ali Baş Komandanlıqda təmsil olunan mərkəzləşdirilmiş rəhbərliyin olmamasında görürdü. Çünki belə rəhbərliyin olmaması həm ölkənin bütün imkanlarının vahid siyasət əsasında respublikanın ərazi bütövlüyünün müdafiəsinə istiqamətləndirilə bilməməsinə, həm də hərbi qüvvələrin idarə edilməsinin nəzarətdən çıxmasına səbəb olurdu. Bakıya dönüşünün elə ilk günlərindən verdiyi bəyanatlarında o bu məsələyə xüsusi olaraq toxunurdu və Azərbaycan Ordusuna dövlət nəzarətinin itirilməsini respublika ərazilərinin erməni qüvvələri tərəfindən işğalına əlverişli zəmin yaratması kimi dəyərləndirirdi (1).

Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi də göstərirdi ki, respublikanın həyati vacib maraqlarının təmin olunması hərb işinə dövlət monopoliyasının, dövlətin rəhbəredici rolunun təmin edilməsini tələb edir. Yən, müdafiə işinin təşkilində, ordu quruculuğunun aparılmasında və hərbi qüvvələrin praktiki tətbiqində şəxsi və qrup maraqları deyil, dövlətin müəyyənləşdirdiyi siyasi məqsədlərin əsas tutulmasına ehtiyac var idi. Hərb işinin bütün mahiyyəti də bunu tələb edirdi. Müharibə şəraitində olan ölkə üçün bu tələb xüsusi aktuallıq kəsb edirdi və ona riayət olunmamasının nəticəsi idi ki, 1993-cü ilin yayında Azərbaycanda hərbi və dövlət böhranı yarandı. Heydər Əliyev ordunun dövlət nəzarətindən çıxmasında yalnız Müdafiə Nazirliyinin rəhbərliyini deyil,

həm də dövlət rəhbərliyini günahkar bilirdi. Başqa sözlə, o, ordunun nəzarətdən çıxmasını dövlətin və xalqın maraqları çərçivəsində Ali Baş Komandanlıq institutunun formalaşdırılmaması ilə bağlayırdı: «Azərbaycanın bu vəziyyətə düşməsi, ordumuzun belə bərbad vəziyyətdə olması - bunun əsas günahkarı Rəhim Qazıyevdirsə, onunla yanaşı, həm də Azərbaycanın rəhbərləri, o cümlədən Azərbaycanın prezidenti günahkardır. Təkcə bu prezident deyil, ondan əvvəlki prezident də günahkardır» (2).

Azərbaycan xalqının ümummilli lideri respublika ərazisinin və xalqın erməni təcavüzündən qorunması üçün hələ SSRİ dövründə müvafiq işlərin görülməli olmasının zəruriliyini vurğulayırdı. Amma bunun əksinə olaraq respublika rəhbərliyi müvafiq tədbirləri həyata keçirməməklə yanaşı, xalqın döyüş ruhunu yüksəltməklə, xalqı ayağa qaldırmaqla torpaqların müdafiəsini də təşkil edə bilmədi (3).

Heydər Əliyev haqlı olaraq qeyd edirdi ki, Azərbaycan erməni təcavüzünə məruz qaldığı vaxtdan xalqın və torpaqların müdafiəsi üçün lazımi işlər görülməmişdi, müdafiə qüvvələri təşkil edilməmişdi. Hətta respublika öz müstəqilliyini elan etdikdən sonra da Azərbaycan Ordusunun yaradılması istiqamətində ciddi bir fəaliyyət ortaya qoyulmamışdı. Çünki respublikanın rəhbərliyində olan və respublikanın müdafiəsinin təşkili məsuliyyətini öz üzərinə götürmüş olanlar ordunu yaratmaq istəməmişdilər. Təşkil olunan ayrı-ayrı hissələrdən isə müəyyən qüvvələr yalnız öz məqsədləri üçün istifadə etmişdilər (4).

Heydər Əliyev şübhə etmirdi ki, hətta 1991-ci ilin oktyabrında «Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında» Qanun qəbul olunmasından sonra ciddi ordu quruculuğu prosesinə başlansaydı və bu proses dövlətin rəhbərliyi altında aparılsaydı erməni təcavüzünü cilovlamaq mümkün ola bilərdi:

«Həqiqət bundan ibarətdir ki, Azərbaycanda ordu quruculuğu dərhal, Milli Ordu, Silahlı Qüvvələr yaradılması haqqında 1991-ci ilin oktyabr ayında qəbul olunmuş qərar əsasında yaranmağa başlasaydı, bəlkə də, Ermənistan-Azərbaycan münaqişəsində bizim indi belə vəziyyətə düşməyimiz və çətinliklərlə rastlaşmağımız olmazdı» (5). «...Azərbaycan Ordusunun yaradılması haqqında qərar verilmişdir. Amma həqiqətdə Azərbaycanın ordusu kağız üzərində olmuşdur. ...təəssüf ki, həqiqi Azərbaycan Ordusu yaradılmamışdı. Bu da bizim o illərdəki uğursuzluğumuzun əsas səbəblərindən biridir. 1993-cü ili xatirinizə salın. Məgər o vaxt Azərbaycanda bir mərkəzdən idarə olunan, hərbi nizam-intizama riayət edən ordu vardı?» (6).

Doğrudur, Ermənistanın havadarlarına arxalanaraq Azərbaycana qarşı təcavüzünü genişləndirməsi də bu və ya digər dərəcədə Azərbaycan Ordusunun formalaşmasına mənfi təsirini göstərirdi. Bu cəhət Heydər Əliyevin çıxışlarında və söhbətlərində də öz əksini tapmışdı. Bununla belə, Azərbaycan Ordusunun vaxtında formalaşmamasının başlıca səbəbini Heydər Əliyev məhz respublika rəhbərliyinin fəaliyyətinin səmərəsizliyində, ordu quruculuğuna rəhbərlik etməli olan Ali Baş Komandanlığın bu vəzifənin öhdəsindən gələ bilməməsində görürdü. Məhz Ali Baş Komandanlığı özündə birləşdirmiş olan dövlət rəhbərliyi Azərbaycan «ərazisini qorumaq, vətəndaşlarının təhlükəsizliyini təmin etmək üçün gərəkli olan ordu hissələri yaratmalı idi». Heydər Əliyevin çıxışlarından və fikirlərindən əldə edilən qənaətlərdən biri də budur ki, Azərbaycanın dövlət rəhbərliyində olanlar, o cümlədən Ali Baş Komandan funksiyasını öz üzərinə götürənlər ordunu yaratmamaqla bərabər, xalqı da erməni təcavüzünə qarşı mübarizəyə qaldıra bilməmişdilər: «...xalqı təşkil etmək, səfərbər etmək, ona kömək göstərmək, bu ruhda tərbiyə etmək lazım idi, bu işə, bu

mübarizəyə qaldırmaq lazım idi. Təəssüf ki, bunlar olmamışdır. Bu da məğlubiyyətimizin və ərazimizin bir qisminin işğal edilməsinin başlanğıcı olmuşdur. Ancaq təəssüf ki, sonrakı vaxtlarda da bunların qarşısı alınmamışdır» (7).

Başqa bir çıxışında isə Heydər Əliyev bildirirdi ki, Azərbaycan xalqının tarixi keçmişi, keçən əsrlərdə müxtəlif döyüşlərdə göstərdiyi rəşadət və qəhrəmanlıq nümunələri onun qəlbində yaşamışdır. Ona görə də bu hissiyyatları oyatmaq lazım idi, bunları hərəkətə gətirmək lazım idi. Ancaq bu edilməyibdir (8). Çünki bu vəzifəni öz üzərinə götürməli olan Ali Baş Komandanlıq institutu formalaşdırılmamışdı.

Heydər Əliyev qeyd edirdi ki, respublikanın müdafiəsini təşkilinə rəhbərlik etməli olanlar, yəni Ali Baş Komandan səlahiyyətlərini öz üzərinə götürməli olanlar nəinki xalqı erməni təcavüzünə qarşı mübarizəyə səfərbər edə bilmədilər, onlar hətta mövcud olan hərbi kadrlardan da lazımınca istifadə etmədilər, bunun əvəzində özünümüdafiə dəstələrinin təşkili haqqında qərar qəbul edildi. Heydər Əliyev Azərbaycanın müstəqilliyinin müdafiəsində dayanan bütün qüvvələrin, insanların, o cümlədən də özünümüdafiə qüvvələrinin xidmətinə böyük dəyər verirdi. Vətənin müdafiəsi işini o, hər bir azərbaycanlının, hər bir vətəndaşın müqəddəs vəzifəsi bilirdi. Heydər Əliyev diqqəti ona yönəldirdi ki, respublikanın müdafiəsini təşkil etməyə məsul olan şəxslər Vətənin müdafiəsinə hazır olan insanları təşkilatlandırmalı, mövcud hərbi kadrlardan istifadə etməklə onları təlimatlandırmalı, hərb işinə öyrətməli və sonra da onları torpaqların müdafiəsinə göndərməli idi: «...o da ola bilərdi ki, Azərbaycanın həmin vətənpərvər övladlarını səfərbər edərək yaranmış milli zabit kadrları potensialından səmərəli istifadə edib, hərbi hissələrin komandirlərini onlardan təyin edib, beləliklə də, tezliklə müstəqil

Azərbaycan Ordusu yaradılaydı. Əgər belə olsaydı, Azərbaycan bu məğlubiyyətlərlə rastlaşmazdı. Ölkəmizin bu torpaqları işğal olunmazdı». Bu fikrinin davamı kimi, Heydər Əliyev sonra əlavə edirdi ki, Vətənin müdafiəsinə hazır olanları silah işlətməyə, bütünlükdə müharibə etməyə öyrətmək lazımdır. Ümumiyyətlə, Heydər Əliyev müharibənin aparılmasına mərkəzləşdirilmiş rəhbərliyin təmin edilməməsini, qoşun hissələrinə peşəkar komandanlığının olmamasını, mövcud hissələrin mərkəzləşdirilmiş və məqsədyönlü şəkildə təchiz edilməməsini ərazilərin müdafiəsinin təşkili üçün ciddi nöqsanlar kimi dəyərləndirirdi və cəbhə bölgəsində baş verən uğursuzqluqlarda bu amillərin təsirsiz ötüşmədiyni diqqətə çatdırırdı (9).

Əvvəlki iqtidarların dövründə dövlət tərəfindən ordu quruculuğu funksiyasının həyata keçirilməməsinin, yəni Ali Baş Komandanlıq institutunun düzgün fəaliyyətinin təşkil edilməməsinin səbəbləri də Heydər Əliyevin çıxışlarında öz əksini tapmışdır. Onun fikrincə, ordu quruculuğunu, ölkənin müdafiəsini təşkil etməli olan dövlət rəhbərləri ya Azərbaycanın müstəqilliyini lazımınca qiymətləndirmirdilər, bu müstəqillikdən imtina etmək və ümumittifaq asılılığından ayrılmamaq əhval-ruhiyyəsinə malik idilər, ya da bu müstəqilliyə xor baxırdılar (10). «Vaxt var idi, bəziləri hesab edirdilər ki, Azərbaycan müstəqil dövlət kimi yaşaya bilməz. Hətta artıq Sovetlər İttifaqı dağılan zaman bu İttifaqı qoruyub saxlamağa çalışrdılar. Sübut etməyə çalışırdılar ki, xalqımız azad yaşaya bilməz və respublikamız müstəqil dövlət ola bilməz. Onlar xalq qarşısında nə qədər böyük günahlar ediblər. ...Onlar bizim torpağımızda yaşasalar da, xalqımıza mənsub olsalar da, ancaq xalqımızın mənəvi potensialına, dərin milli azadlıq hisslərinə və əsrlər boyu müstəqillik arzuları ilə yaşayan potensialına inanmırdılar, onu dərk edə bilmirdilər» (11).

Heydər Əliyevin fikrincə, belə qüvvələr bütünlükdə xalqa, millətə, dövlətə xəyanət etmiş, Azərbaycanın dövlət quruculuğunu təmin etmək əvəzinə, öz şəxsi mənafeləri naminə bu prosesi nəinki ləngitmişlər, hətta ona böyük zərbələr vurmuşlar. Onun qənaətinə görə, belə qüvvələrin zərbələrinə məruz qalan sahələrdən biri də silahlı qüvvələr quruculuğu idi. Azərbaycan ərazilərinin müəyyən hissəsinin Ermənistanın işğalı altına düşməsinin və xalqın itkilərlə rastlaşmasının başlıca səbəblərindən birini də Heydər Əliyev bu qüvvələrin ordu quruculuğunda yol verdikləri nöqsanlarla bağlayırdı (12).

Heydər Əliyev respublikanın müdafiəsinin təşkilində yol verilən çox ciddi nöqsanlardan birini ordunun siyasətə cəlb edilməsində, ondan siyasi məqsədlər üçün istifadə edilməsində, ordunun siyasi qrupların nəzarəti altına düşməsində və həmin qruplar tərəfindən ordudan şəxsi məqsədlərin əldə edilməsi üçün istifadə edilməsində görürdü: «Müstəqilliyin ilk illərində ordu quruculuğunda kobud səhvlərə yol verildi, ordu daxili siyasi mübarizəyə cəlb olundu, ayrı-ayrı şəxslərə və siyasi qruplara xidmət edən silahlı dəstələr yaradıldı» (13).

Heydər Əliyev bu məsələyə çox ciddi yanaşırdı və dəfələrlə bu məsələyə öz münasibətini bildirmişdi. Əslində, bu münasibət hərb işinin çoxəsrlik təcrübəsinə dayaqlanırdı və təəssüflə qeyd edilirdi ki, Azərbaycanın və onun müstəqilliyinin taleyi həll olunduğu vaxtlarda siyasi parçalanma bütün cəmiyyətlə bərabər, ordunun daxilinə də sirayət etmişdi. Xalq arasındakı müəyyən nüfuzundan, tutduğu vəzifədən və ya malik olduğu müəyyən maliyyə imkanlarında sui-istifadə etməklə şəxsi maraqları milli maraqlardan üstün tutan müəyyən insanların ordunu siyasiləşdirmək cəhdi müstəqilliyin ilk illərində yalnız ordu quruculuğunu ləngitmədi, eyni zamanda, respublikanın müdafiəsinə ciddi zərbə vurdu. Hal-

buki qanuni tələblər səviyyəsində Ali Baş Komandanlıq institutu təşkil edilmiş olsaydı, ordunun siyasi parçalanmasının qarşısını almaq, ordunun təşkilini, idarəçiliyini və fəaliyyətini qanun çərçivəsində qurmaq mümkün ola bilərdi. Heydər Əliyev bu sahədə yol verilən nöqsanlara tənqidi yanaşaraq birmənalı şəkildə qeyd edirdi ki, «...ordu siyasətdən kənar olmalıdır. Ordu Azərbaycan dövlətinin, dövlətçiliyinin siyasəti əsasında formalaşmalıdır, fəaliyyət göstərməlidir» (14).

Bu prinsip ordu quruculuğunun təməl prinsiplərindən biridir və həmin təməl prinsipin təmin edilməsi sahəsində Ali Baş Komandanın üzərinə böyük məsuliyyət düşür. Həmin məsuliyyətin düzgün dəyərləndirilməməsi və nəzərə alınmaması isə öz məntiqi nəticəsini verməli idi və verdi də. «Keçən illərdə Azərbaycanın başına gələn bəlaların və ordu quruculuğunda olan geriliklərin, buraxılan səhvlərin əsas səbəbi də məhz ondan ibarətdir ki, respublikamızda ordu qurularkən eyni zamanda cürbəcür qeyri-qanuni silahlı dəstələr mövcud olmuşdur. Ordu qurmaq əvəzinə ayı-ayrı vəzifəli şəxslər, siyasətə qoşulmuş insanlar ordunun hissələrindən öz şəxsi məqsədləri üçün istifadə etməyə çalışmışlar və beləliklə də, ordu quruculuğunda böyük itkilərə, fəlakətlərə gətirib çıxarmış və Azərbaycanın ərazisinin bir qisminin işğal edilməsinin əsas səbəbi olmuşdur» (15).

Heydər Əliyev ordunun siyasi məqsədlər üçün parçalanmasını, siyasi oyunlara cəlb edilməsini, siyasi planların həyata keçirilməsi üçün qoşun hissələrinin cəbhə bölgəsindən geri çəkilməsini xəyanət kimi qiymətləndirirdi və bu xəyanətin xalqa gətirdiyi ağır nəticələri təəssüflə xatırlamaqla həmin əməllərdən düzgün nəticə çıxarmağa çağırırdı. Məlum olduğu kimi, belə əməllər yalnız Azərbaycan torpaqlarının müdafiəsini zəiflətmədi, eyni zamanda, respublika daxilində vətəndaş müharibəsinin başlanması-

na da səbəb oldu. «1993-cü ilin iyun ayında Azərbaycanda artıq vətəndaş müharibəsi başlandı, Azərbaycan parçalanmağa başladı. Ölkəmiz dağıdılmaq təhlükəsi qarşısında idi. Bu zaman da Azərbaycanın lazımi səviyyədə ordusu yox idi. Artıq dövlət müstəqilliyi əldə edəndən iki ildən çox bir dövr keçməsinə baxmayaraq, daxili münaqişə, hakimiyyət mübarizəsi o yerə gətirib çıxardı ki, o vaxtkı Azərbaycan iqtidarı Ermənistan silahlı birləşmələri ilə vuruşmağı, torpaqların müdafiəsini də unudaraq bir çox silahlı qüvvələri cəbhədən çıxarıb Azərbaycanın daxilində hakimiyyət mübarizəsi etməyə başladı.

...Beləliklə, Azərbaycan artıq parçalanırdı və müxtəlif qüvvələr hakimiyyət mübarizəsi apararaq vətəndaş müharibəsinə qoşuldular. Ən ağır cəhət ondan ibarət idi ki, Azərbaycanın o vaxt hələ tam yaranmamış ordusuna rəhbərlik edən adamlar da peşəkar hərbçilər yox, küçədən çıxmış - biri yun fabrikinin direktoru, yaxud yun tədarükçüsü, digəri hansısa məktəbdə müəllim, o biri hansısa polis idarəsində, nə bilim, xırda bir vəzifədə işləmiş adamlar idilər. Azərbaycan Ordusunun yaranmasının ilk illəri belə ağır, çətin dövrdə oldu. Məhz bunların nəticəsində, ancaq buna görə, Azərbaycanın o vaxtkı iqtidarları - 1988-ci ildən başlayaraq 1993-cü ilə qədər - yalnız özləri haqqında düşündüklərinə görə, ...yaxud birinin o birisinin əlindən hakimiyyəti alması üçün daxili mübarizə apardıqlarına görə Azərbaycanın vətənpərvər, canını torpaq yolunda şəhid etməyə hazır olan yüz minlərlə insanı başsız qaldı» (16).

Heydər Əliyevin yuxarıdakı fikirlərində həm hərbi kadrların düzgün seçilməsi və yüz minlərlə insanın ölkənin müdafiəsinə səfərbər edilməsində dövlət hakimiyyətinin rolu kimi məsələlərə də toxunulmuşdur. Kadrların düzgün seçilməsi və yerləşdirilməsi həm hərbi idarəçiliyin düzgün təşkili, həm də ölkənin hərbi

təşkilatının ayrı-ayrı strukturlarının düzgün formalaşdırılması, insanlarını müharibəyə səfərbər edilməsi xalq gücünün hərbi xarakterli vəzifələrin icrasına istiqamətləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Bu məsələlərin səmərəli həlli də Ali Baş Komandanlıq qarşısında dayanan mühüm vəzifələrdəndir və Ali Baş Komandan öz səlahiyyətlərinin icrasını təşkil edə bilmədiyi halda toxunulan məsələlərin həlli də mümkün ola bilməz.

Yuxarıdakı fikirlərdə əsas diqqət isə ordu quruculuğunda siyasiləşməyə yol verilməsinin qeyri-mümkünlüyü üzərinə cəmləşdirilmişdir. Bu prinsipin təmin edilməməsi idi ki, hərbi qüvvələrin bir hissəsi müxtəlif adamların nəzarəti altına düşmüşdü. Həmin şəxslərin dövlətin tabeçiliyindən çıxara bildikləri hərbi qüvvələrə arxalanmaqla siyasi iddialar irəli sürməsi və hərbi güc tətbiq etməklə bu iddiaların icrasına çalışmaları isə qeyd edildiyi kimi, respublikada həm vətəndaş müharibəsinin başlanmasına səbəb oldu, həm də ciddi dövlət böhranı yaratdı.

Ordunun dövlət tabeliyindən çıxması və siyasi dairələrin nəzarəti altına düşməsi Ali Baş Komandanın öz səlahiyyətlərini icra edə bilməməsinin göstəricisi olmaqla bərabər, həm də ordu quruculuğuna rəhbərliyin mərkəzləşdirilməsi, qanuni əsasda təkbaşçılığın təmin edilməsi, ordunun siyasətdən kənar qalması, qoşun hissələrinin təlim-tərbiyəsinin mərkəzləşdirilmiş döyüş hazırlığı planı əsasında aparılması, mərkəzləşdirilmiş şəkildə təchiz edilməsi kimi mühüm prinsiplərinin pozulması demək idi. Başlıcası isə Ali Baş Komandan tərəfindən vətənin müdafiəsi funksiyasının icrasının pozulması demək idi.

Hansısa hərbi hissənin müxtəlif adamların nəzarəti altına düşməsi, yəni Ali Baş Komandanın öz funksiyasını qanunvericilik çərçivəsində təşkil edə bilməməsi sadəcə olaraq ordu idarəçiliyində yol verilmiş adi bir qanun pozuntusu deyildi. Konkret ta-

rixi şəraitdə ordunun parçalanması, ordunun siyasi qrup məqsədlərinin icrasına cəlb edilməsi bütünlükdə respublikada cərəyan edən siyasi, hərbi, ictimai proseslərin, respublika ətrafında və daxilində mövcud olan təhlükəsizlik şəraitinin, müstəqilliyin möhkəmləndirilməsinə qarşı istiqamətlənmiş daxili və xarici qüvvələrin təsirlərinin, bütün bunların dövlət maraqları baxımından düzgün qiymətləndirilməməsinin, dövlət idarəçiliyinin düzgün qurulmamasının, xalqın maraqlarının öyrənilməməsinin və onun gücünün dövlətin müdafiəsinə səfərbər edilməsindən üz çevrilməsinin, dövlətin hərbi siyasətinin və hərbi təşkilatının formlaşdırılmamasının, dövlət-ordu münasibətlərinin zəruri tələblərə cavab verməməsinin, ordu quruculuğunun qanun və prinsiplərinə etinasız yanaşılmasının və s. kompleks məsələlərin nəticəsi idi. Bu səbəblərin sayını çoxaltmaq da mümkündür və onların baş verməməsinin və ya qarşısının alınmasının məsuliyyəti də ilk növbədə Ali Baş Komandanın üzərindədir.

Heydər Əliyev də bu məsələlərə qiymət verərkən onların çox ciddi məsələ olduğunu və bütünlükdə Azərbaycan dövlətçiliyinə qarşı çevrildiyini bəyan edirdi. Məsələn, konkret olaraq Əlikram Hümbətovun Lənkəranda hərbi hissəyə və onun vasitəsi ilə nəzarəti ələ keçirməsinə münasibət bildirərkən Heydər Əliyev deyirdi: «Bu, Azərbaycanın parçalanması prosesinin bir cinahıdır (Ermənistanın Azərbaycana təcavüzü nəzərdə tutulur - M.S.), o biri cinahı həmin bu gördüyümüz məsələdir (Lənkəran hadisələri – M.S.). ... bu məsələyə belə sadə yanaşmaq olmaz ki, guya Ə.Hümbətov sərsəm adamdır, yaxud da anlaşılmaz adamdır, bunu özbaşına eyləyir. Xeyr. Bu, böyük bir planın, Azərbaycanı dağıtmaq, Azərbaycanı məhv etmək, Azərbaycan xalqını yox etmək planının tərkib hissəsidir. Təəssüf olsun ki, keçmiş dövrlərdə olduğu kimi, əsrlər boyu olduğu kimi, indi də Azərbaycanın öz

içində xəyanətkarlar az deyil. Bu xəyanətkarlar Əlikram kimi adamları ortaya salır və Azərbaycanı parçalamaq istəyirlər. Öz şəxsi mənsəblərinə çatmaq üçün, öz şəxsi məqsədlərinə nail olmaq üçün, vəzifə tutmaq üçün Lənkərana tez-tez gəlib-gedən adamların, yaxud Lənkəranla heç bir əlaqəsi olmayan, lakin iki gündən bir Lənkərana baş çəkən adamların məqsədi budur. İstəyirlər ki, bu faktordan istifadə edib vəzifə tutsunlar. Bu faktor alınmadı, ikincisindən istifadə etsinlər, o da alınmadı, üçüncüsündən istifadə etsinlər» (17).

Orduda parçalanma yalnız S.Hüseynovla və Ə.Hümbətovla bağlı deyildi. Ordu daxilində fərqli siyasi məqsədlərə xidmət edən digər hərbi qüvvələr də mövcud idi. Bütün bu parçalanmalara kompleks səbəblər yol açdığı kimi, onların aradan qaldırılması da kompleks tədbirlərin görülməsini tələb edirdi. Buna isə Heydər Əliyevin təşkilatçılığı sayəsində nail olundu.

Ordu işlərinə müdaxilə, ordudan hansısa siyasi məqsədlər üçün istifadə edilməsinə hətta Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra da müəyyən cəhdlər edilirdi. Lakin bu cəhdlərin qarşısı Ali Baş Komandan kimi Heydər Əliyev tərəfindən qətiyyətlə alınır və orduya rəhbərliyin mərkəzləşdirilməsi üçün müvafiq addımlar atılırdı. Gəncə hadisələrinin baş verməsindən sonra Müdafiə naziri öz vəzifəsindən azad edilmiş və bir müddət bu vəzifə Müdafiə Nazirliyinin vəzifəli şəxslərinə həvalə olunmuşdu. O zaman Baş nazir vəzifəsində olan Surət Hüseynov 1993-cü il avqust ayının 12-də Nazirliyə gələrək Müdafiə nazirinin arxa cəbhə üzrə müavini general-mayor V.Musayevi Müdafiə naziri kimi şəxsi heyətə təqdim etmişdi. Respublika Prezidentinin və Ali Baş Komandanın səlahiyyətlərini icra edən Heydər Əliyevlə bu məsələ razılaşdırılmadığı və ümumiyyətlə Ali Baş Komandanın səlahiyyətlərinə aid olan məsələyə kənar müdaxilə edildiyi üçün bu cəhdin qarşısı qətiyyətlə alındı (18).

Bir sözlə, Heydər Əliyevin Bakıya dönüşünə qədər Ali Baş Komandanlıq institutunun formalaşdırılmasında yol verilmiş nöqsanlar ölkədə dövlət idarəçiliyini, respublikanın müdafiəsinin təşkilini, ictimai, siyasi və hərbi həyatı dərin böhrana sürükləmişdi. Dövlət idarəçiliyində, hərb quruculuğunda və ictimai-siyasi həyatda köklü dönüş yaradılmadan bu böhrandan çıxmaq mümkün deyildi. Məhz buna görə də Azərbaycan xalqı respublikanın ağır günlərində öz ümidlərini təcrübəli dövlət xadimi Heydər Əliyevə bağladı və onun Bakıya dəvət edilməsinə nail oldu.

## 2. Azərbaycanda Ali Baş Komandanlıq institutunun formalaşdırılması

Heydər Əliyevin respublika hakimiyyətinə qayıdışı ilə dövlət quruculuğunun bütün sahələri kimi, Ali Baş Komandanlıq institutu haqqında da tamamilə yeni bir təfəkkür, yeni bir yanaşma ortaya qoyuldu, ali idarəetmənin bu sahəsi öz dəyərini və yerini tapdı, dövlət quruculuğunun bütün istiqamətləri ilə məqsədyönlü şəkildə əlaqələndirildi. Mövcud olan çətinliklərə baxmayaraq, bu institutun formalaşdırılması üçün qətiyyətli tədbirlər həyata keçirildi, yol verilən nöqsanlar öz qiymətini aldı və onların aradan qaldırılması təmin edildi. Tarix baxımından çox qısa müddətdən sonra Azərbaycanda real, dövlətin və xalqın maraqlarına cavab verən, habelə səmərəli fəaliyyət göstərən Ali Baş Komandanlıq institutu formalaşdırıldı və bununla Azərbaycanın hərb tarixinə də yeni bir səhifə yazıldı.

Yuxarıda qeyd edildiyi kimi, alman hərb filosofu Karl fon Klauzevits hərbi və siyasi hakimiyyəti özündə birləşdirmiş dahilərin məharətinin, bacarığının, praktiki fəaliyyətdə reallaşan istedadının hansısa ölçülərlə qiymətləndirilməsinin mümkün olma-

dığını bildirirdi və əlavə edirdi ki, belə dahilərin fəaliyyəti nəzəriyyələr çərçivəsindən çıxır və nəzəriyyələr belə şəxslərin fəaliyyətinin əsl qiymətini verməkdə gücsüzdürlər. Bu fikir obyektiv reallıqdan heç də uzaq deyil və həmin fikri Ali Baş Komandanlıq institutunun formalaşdırılması sahəsində Heydər Əliyevin fəaliyyətinin qiymətləndirilməsinə də tətbiq etmək mümkündür. Çünki bu fəaliyyət sahəsinin qarşısında dayanan vəzifələrin zaman və məkana görə dəyərləndirilməsi, onun icrasının daha səmərəli qüvvə və vasitələrinin tapılması, onların hərb işi ilə bağlı olan çoxsaylı amillərlə əlaqələndirilməsi, ən düzgün qərarın seçilməsi və onların icrasının təşkili üçün səfərbər olunan duyum, intuisiya, təşkilatçılıq, uzaqgörənlik, məqsədyönlülük, ardıcıllıq və s. keyfiyyətləri, sərf edilən enerjini təsvir ölçüsünə gətirmək, şübhəsiz ki, mümkün deyildir. Ona görə də, dövlət quruculuğunun bütün sahələrində olduğu kimi, Ali Baş Komandanlıq institutunun formalaşdırılması sahəsində də Heydər Əliyevin fəaliyyətinin yalnız görünən tərəflərini təhlilə cəlb edərək ümumiləşdirmələr aparmaq və elmi-təcrübi qənaətlər ortaya qoymaq mümkündür.

Ali Baş Komandanlıq institutunun formalaşdırılması ilk növbədə Heydər Əliyevin praktiki fəaliyyətində öz əksini tapdı. Amma hələ müharibənin getdiyi və respublikada hərbi şəraitin kifayət qədər mürəkkəb olduğu vaxtlarda Heydər Əliyevin rəhbərliyi altında Ali Baş Komandanlıq institutunun hüquqi bazası da yaradıldı. Bununla bağlı Milli Məclis tərəfindən qəbul edilmiş «Müdafiə haqqında» Azərbaycan Respublikasının Qanunu Heydər Əliyevin fərmanı ilə 1993-cü il noyabr ayının 26-da qüvvəyə mindi. Bu qanunla Azərbaycan Respublikasının müdafiə (hərbi) siyasətinin əsasları, Azərbaycanın müdafiəsinin təşkili istiqamətləri, müdafiə sahəsində dövlət orqanlarının səlahiyyət və vəzifələri, müəssisələrin, idarələrin, təşkilatların, yerli

özünüidarəetmə orqanlarının müdafiə ehtiyaclarının ödənməsi sahəsindəki vəzifələri, müdafiə sahəsində vətəndaşların vəzifələri, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin vəzifələri, hərbi vəziyyət, mülki müdafiə, səfərbərlik, ərazi müdafiəsi və s. məsələlər öz əksini tapmışdır. Qanunun 5-ci maddəsində Azərbaycan Respublikası Prezidentinin Silahlı Qüvvələrin Ali Baş Komandanı statusu təsbit edilmiş və onun vəzifələri müəyyənləşdirilmişdir (bu vəzifələr «Hərbi təşkilat» bölməsində göstərilmişdir). Bu vəzifələr Silahlı Qüvvələrin Ali Baş Komandanının qarşısında dayanan vəzifələrin istiqamətlərini əks etdirir və həmin vəzifələr zamana və şəraitə görə çoxlu sayda konkret vəzifələrə bölünə bilərlər (19).

Bu Qanunda ölkənin hərbi təşkilatının əsas tərkib hissələrindən biri olan Silahlı Qüvvələrin və hərbi idarəetmənin əsas bəndlərindən olan Müdafiə Nazirliyinin vəzifələri də təsbit olunmuşdur. Qanunda, habelə hərbi məsələlərlə bağlı Milli Məclisin və Nazirlər Kabinetinin vəzifələri də müəyyənləşdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin Silahlı Qüvvələrin Ali Baş Komandanı statusu Heydər Əliyevin rəhbərliyi altında hazırlanan Azərbaycan Respublikası Konstitusiyasına da daxil edilmişdir. 1995-ci ilin noyabr ayında qəbul edilmiş Konstitusiyanın 9-cu maddəsində bu status öz təsdiqini tapmışdır (20).

Ali Baş Komandanlıq institutunun formalaşdırılması ilə bağlı Heydər Əliyevin tarixi xidməti onda idi ki, onun tərəfindən bu ali hərbi-siyasi idarəetmə orqanı ilə bağlı bütün sahələrin, o cümlədən hərbi təhlükəsizlik şəraitinin qiymətləndirilməsi, hərbi siyasətin müəyyənləşdirilməsi, hərbi idarəetmənin təşkilatlandırılması, hərbi təşkilatın tərkib hissələrinin yaradılması, hərbi siyasətin müəyyən etdiyi vəzifələrin icrasının təşkili, müdafiə məsələləri ilə bağlı ölkənin bütün qurumlarının vəzifələrinin konkretləşdi-

rilməsi və onların əlaqələndirilməsi, ön və arxa cəbhə arasındakı zəruri əlaqələrin qurulması və s. məsələlər eyni zamanda, həm də dövlətin maraqlarına cavab verə biləcək səviyyədə həll edildi.

Heydər Əliyev hələ ilk çıxışlarından başlayaraq Azərbaycanın müdafiə (hərbi) siyasətinin ümumi istiqamətlərini xalqa bəyan etdi. Məsələn, Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilməsi ilə bağlı 1993-cü il iyun ayının 15-də etdiyi çıxışında Heydər Əliyev bildirirdi ki, Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi və inkişaf etdirməyi dövlət rəhbəri kimi qarşısında dayanan başlıca vəzifə hesab edir. Onun müdafiə (hərbi) siyasəti ilə bağlı irəli sürdüyü vəzifələr də bu başlıca vəzifənin həyata keçirilməsinə xidmət edirdi: o cümlədən Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması, müharibənin başa çatdırılması, sülhün əldə edilməsi və Azərbaycan vətəndaşlarının azad və qurucu həyatı üçün əmin-amanlığın yaradılması, respublika daxilində hərbi-siyasi sabitliyin bərqərar edilməsi, ordunun siyasi məqsədlərin icrasına cəlb edilməsinə son qoyulması və s. (21).

Azərbaycan Respublikasının Prezidenti kimi andiçmə mərasimində söylədiyi nitqində isə Heydər Əliyev respublikanın hərbi siyasətinin əsas istiqamətləri bir qədər də konkretləşdirmişdir. Bu vəzifələr həm də Silahlı Qüvvələrin Ali Baş Komandanının qarşısında dayanan vəzifələr idi: «Bizim ən əsas vəzifəmiz respublikanı müharibə vəziyyətindən çıxarmaq, işğal olunmuş torpaqların hamısını geri qaytarmaq, Azərbaycanın ərazi bütövlüyünü, müstəqil respublikanın sərhədlərinin təhlükəsizliyini təmin etmək, yurd-yuvasından didərgin düşmüş soydaşlarımızı ...öz doğma yerlərinə qaytarmaqdır» (22).

Elə həmin nitqində Heydər Əliyev güclü və qüdrətli ordunun yaradılmasını Ali Baş Komandan səlahiyyətini öz üzərinə götür-

müş ölkə Prezidenti kimi qarşısında dayanan mühüm vəzifələrdən biri kimi xarakterizə edirdi: «Azərbaycan Respublikası bir müstəqil dövlət kimi özünü müdafiə etməyə qadir orduya malik olmalıdır. Təəssüf ki, müstəqillik əldə ediləndən sonra keçən dövrdə bu sahədə az iş görülübdür. Lazım gələrsə, sülh yolunda addımlarımız nəticə verməsə, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün, respublikanı müdafiə etmək üçün qüdrətli bir ordunun yaradılması bizim əsas vəzifəmizdir» (23).

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı olmuş Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış Azərbaycan Respublikasının müdafiə (hərbi) siyasətinin əsasları «Müdafiə haqqında» Azərbaycan Respublikasının Qanununda öz əksini tapmışdır. Bu Qanunda bildirilir ki, Azərbaycan Respublikası «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında» Konstitusiya Aktına və beynəlxalq hüquq normalarına əsaslanaraq bütün dövlətlərlə dinc yanaşı yaşamaq prinsiplərini əsas tutur və öz müdafiə qabiliyyətini təcavüzdən qorunmaq üçün müdafiə yetərliyi səviyyəsində saxlayır. Qanunda «hərbi siyasət» anlayışının yerinə «müdafiə siyasəti» və ya qısaca «müdafiə» ifadələri işlədilmişdir. Bu anlayış sadəcə olaraq Azərbaycan dövlətçiliyi tərəfindən hərbi sahədə həyata keçirilən siyasətin xarakterinin və mahiyyətinin müdafiə xarakterli olmasını nümayiş etdirir. Qanunda qeyd edildiyi, habelə Heydər Əliyevin çoxsaylı nitqlərində, çıxışlarında ifadə olunduğu kimi, Azərbaycan bütün dövlətlərlə dinc, yanaşı yaşamağa, dövlətlərin ərazi bütövlüyünə hörmətlə yaşamağa üstünlük verir. Ona görə də, hərbi sahədə izlənilən siyasətin «hərbi» və ya «müdafiə» adı altında verilməsindən asılı olmayaraq Azərbaycan Respublikası yalnız müdafiə xarakterli siyasət həyata keçirir və onun əsasları da Heydər Əliyevin çıxışlarında və onun rəhbərliyi altında hazırlanmış «Müdafiə haqqında» Qanunda öz əksini tapmışdır.

Bütünlükdə Azərbaycan Respublikasının müdafiə (hərbi) siyasətinin əsasları «Müdafiə haqqında» Azərbaycan Respublikasının Qanununda aşağıdakı kimi təsbit olunmuşdur:

Azərbaycan Respublikasının müdafiəsi dövlətin müstəqilliyinin, ərazi bütövlüyünün, suverenliyinin və əhalinin təcavüzdən qorunmasının təmin olunması məqsədilə dövlət tərəfindən həyata keçirilən siyasi, iqtisadi, hüquqi, hərbi və sosial tədbirlər sistemidir.

Azərbaycan Respublikasının müdafiəsinin məqsədi hər hansı bir vaxtda və şəraitdə Azərbaycan Respublikasına qarşı hərbi basqının qarşısını almağın və mümkün təcavüzü silahla dəf etməyin təmin olunması üçün bütün zəruri şərtlərin yaradılmasıdır.

Azərbaycan Respublikasının müdafiəsi Silahlı Qüvvələrin, iqtisadiyyatın, əhalinin, ərazinin müdafiəyə daim hazır olmasına əsaslanır və dövlətin hərbi doktrinasına uyğun olaraq təşkil edilir.

Azərbaycan Respublikasının hərbi doktrinası Silahlı Qüvvələrin quruculuğunda müdafiə yetərliyi prinsipi ilə müəyyənləşdirilir və Azərbaycan Respublikasının heç bir dövlətə qarşı ərazi iddiasının olmamasına və əgər təcavüz obyekti olmasa beynəlxalq hüquqa əsaslanan öhdəliklərdən başqa heç vaxt heç bir dövlətə qarşı birinci hərbi əməliyyatlara başlamayacağına əsaslanır (24).

«Müdafiə haqqında» Qanuna əsasən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanının rəhbərliyi altında Azərbaycanın müdafiəsinin təşkili ilə bağlı müəyyənləşdirilmiş əsas vəzifələr aşağıdakılardır:

- dövlətin hərbi siyasətinin və doktrinasının formalaşdırılması;
- təcavüzün qarşısının alınması üçün beynəlxalq aləmdə müvafiq tədbirlərin görülməsi;

- hərb elminin inkişafı;
- müdafiə və hərbi quruculuq məsələlərinin hüquqi tənzimlənməsi;
-Silahlı Qüvvələrin strukturunun hazırlanması, formalaşdırılması və təkmilləşdirilməsi, zəruri sayının təmin olunması, onların yüksək döyüş qabiliyyətinin, döyüş və səfərbərlik hazırlığının saxlanması;
- dövlətin hərbi-texniki siyasətinin hazırlanması və həyata keçirilməsi, Silahlı Qüvvələrin silah, hərbi texnika, ərzaq, geyim və digər material ehtiyatları ilə təmin olunması;
- dövlət orqanlarının, iqtisadiyyatın, əhalinin və ölkə ərazisinin müharibə dövründə fəaliyyət göstərməsi üçün səfərbərlik hazırlığı;
- dövlət sərhədinin mühafizəsi;
- ölkənin əhalisinin və ərazisinin müdafiəyə, habelə hərbi əməliyyatlarla bağlı mülki müdafiəyə hazırlığı;
- dövlət sirrinin qorunmasının təmin edilməsi (25).

"Müdafiə haqqında" Qanun uzun müddətə nəzərdə tutulmuş və müdafiə siyasətinin ümumi istiqamətlərini özündə əks etdirən bir sənəddir. Amma dəyişən təhlükəsizlik şəraiti ölkənin müdafiəsinin, bütünlükdə hərbi təhlükəsizliyinin təmin edilməsi ilə bağlı konkret, yeni, aktual tələblər irəli sürə bilər. Bununla bağlı konkret vəzifələr Ali Baş Komandanın rəhbərliyi altında müəyyənləşdirilir, onun rəhbərliyi və təşkilatçılığı altında da həyata keçirilir. Tarix şəraitlə bağlı hərbi siyasətin müəyyənləşdirdiyi vəzifələr Ali Baş Komandan səlahiyyətlərini öz üzərinə götürmüş ölkə rəhbərinin imzaladığı fərmanlarda, sərəncamlarda, digər sənədlərdə, onun çıxışlarında, bəyanatlarında öz əksini tapa bilər. Ona görə hər bir ölkənin müdafiə (hərbi) syasətinin xarakterini və mahiyyətini müəyyənləşdirərkən Ali Baş Komandanın mövqeyi

və fəaliyyət istiqamətləri də lazımınca dəyərləndiriliməlidir. Əslində, istər müvafiq qanunvericilik və hüquqi sənədlərin hazırlanmasında, istərsə də həmin sənədlərin tələblərinin neçə icra edilməsində Ali Baş Komandanın mövqeyi həlledici rola malik olur.

Azərbaycanın hərbi siyasətinin xarakterinin, əsas istiqamətlərinin, mahiyyətinin müəyyənləşdirilməsi üçün də Heydər Əliyevin çıxışlarında, bəyanatlarında, imzaladığı sənədlərdə əksini tapan mövqe mühüm əhəmiyyət kəsb edir. Onun çıxışlarının, bəyanatlarının, imzaladığı müvafiq sənədlərin təhlili və qiymətləndirilməsi belə bir qənaətə gəlməyə əsas verir ki, Azərbaycanın Heydər Əliyev tərəfindən formalaşdırılmış hərbi siyasətinin aşağıdakı xarakterik xüsusiyyətləri vardır:

- hərbi siyasət qanunçuluğa əsaslanır;
- Azərbaycanın hərbi siyasəti müdafiə xarakterlidir;
- dövlət müstəqilliyinin, ərazi bütövlüyünün qorunması, insanın və cəmiyyətin maraqlarının müdafiəsi, ölkənin milli təhlükəsizliyinə olan hərbi təhdidlərin neytrallaşdırılması və qarşısının alınması hərbi siyasətin başlıca vəzifələridir;
- hərbi siyasət müdafiə yetərliliyinə əsaslanır;
- hərbi siyasət xalqla dövlətin qarşılıqlı vəhdətinə əsaslanır;
- hərbi siyasət Azərbaycan cəmiyyətinin Vətənin müdafiəsinə şüurlu münasibətinə əsaslanır;
- hərbi siyasət qarşılıqlı maraqlara və beynəlxalq normalara cavab verən beynəlxalq əməkdaşlığa əsaslanır;
- hərbi siyasət rəhbərliyin mərkəzləşdirilməsini əsas tutmaqla ictimai təşəbbüskarlığı istisna etmir;
- hərbi siyasət səmərəli və ardıcıl təşkilatçılığa əsaslanır;
- hərbi siyasət milli, dini və bəşəri dəyərlərə hörmət üzərində qurulmuşdur;
- hərbi siyasət milli və beynəlxalq təcrübəyə əsaslanır.

"Müdafiə haqqında" Qanunda müdafiənin təşkili ilə bağlı sadalanan əsas vəzifələr sırasına dövlətin hərbi təşkilatının yaradılmasını və hərbi idarəetmənin təşkilatlandırılmasını da daxil etmək mümkündür. Bu vəzifələr də Ali Baş Komandan qarşısında dayanan əsas vəzifələr kimi xarakterizə edilə bilər və ölkənin müdafiəsinin təşkilində bu vəzifələrin icrası böyük əhəmiyyətə malikdir. Ali Baş Komandanlıq institutu ölkənin hərbi təşkilatına daxil olmaqla yanaşı, həm də ali idarəetmə orqanıdır. Bu mənada Ali Baş Komandanın təcrübəsi, təşkilatçılığı, qətiyyəti və digər keyfiyyətləri həm ölkənin hərbi təşkilatının, həm də hərbi idarəetmənin təşkilatlandırılmasında mühüm rola malikdir.

Heydər Əliyevin Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi fəaliyyətinin bütün tərəflərini təhlilə cəlb etmək mümkün deyildir. Bu çətinlik yuxarıda göstərilən səbəbdən əlavə, həm də Ali Baş Komandanın fəaliyyətinin məxfilik dərəcəsi ilə bağlıdır. Cəmiyyət üçün Ali Baş Komandanın fəaliyyəti konkret nəticələrdə özünü büruzə verir.

Heydər Əliyevin də Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi tarixi fəaliyyəti ilk növbədə onu rəhbərliyi və təşkilatçılığı altında əldə edilmiş nəticələrdə özünü göstərir. Müxtəsər olaraq həmin nəticələri belə ümumiləşdirmək mümkündür: Azərbaycanın dövlət müstəqilliyinin günü-gündən möhkəmlənməsi, inkişaf etməsi, bu müstəqilliyin əbədi olması, Azərbaycanın dünya birliyində layiqli yerini tutması; Azərbaycanın dövlət maraqlarına cavab verən hərbi siyasətinin təməl prinsiplərinin və istiqamətlərinin müəyyənləşdirilməsi və bu siyasətin indi də canlı qalması; Azərbaycanın hərbi təşkilatının formalaşdırılması, möhkəmləndirilməsi və Azərbaycanın hərbi təhlükəsizliyini təmin etməyə və milli maraqlarını müdafiə etməyə qadir olan qüvvəyə çevrilməsi; Azərbaycanda hərbi idarəetmə məktəbinin formalaşdırılması.

Heydər Əliyev respublikanın rəhbərliyinə qayıdışının ilk gündən hərbi idarəetmə zəncirinin mühüm bəndlərindən olan Müdafiə Nazirliyinin fəaliyyətinin yenidən qurulmasına ciddi diqqət yetirirdi. Çünki bu idarəetmə orqanının qanun çərçivəsində təşkilatlanması, onun Silahlı Qüvvələrin Ali Baş Komandanı tərəfindən müəyyənləşdirilən vəzifələrin real icraçısına çevrilməsi dövlət və xalq mənafeləri üçün, Azərbaycanın Silahlı Qüvvələrinin formalaşdırılması və idarə edilməsi üçün strateji əhəmiyyət daşıyırdı. Heydər Əliyev Müdafiə Nazirliyinin qeyri-peşəkar kadrlarla, müxtəlif qrup maraqlarına xidmət edən şəxslərlə komplektləşdirilməsini qeyri-mümkün sayırdı və bu məsələdə qətiyyətli mövqe tutması haqqında yuxarıda bəzi faktlara da toxunulmuşdur.

Heydər Əliyevin qərarı ilə ilk növbədə Müdafiə Nazirliyinin ordunun parçalanmasının qarşısını ala bilməyən rəhbərliyi vəzifədən kənarlaşdırıldı.Respublika Prezidentinin və Silahlı Qüvvələrin Ali Baş Komandanının sərəncamı ilə Müdafiə Nazirliyinin və Silahlı Qüvvələrin strukturunda müəyyən dəyişiklik edildi. Ordu korpusları ləğv edilərək döyüşən hissələrə rəhbərlik edilməsi üçün Cəbhə Səhra İdarəsi yaradıldı (26) və bu idarənin komandanına müdafiə nazirinin 1-ci müavini statusu verildi. Sonradan Silahlı Qüvvələrin strukturunun təşmilləşdirilməsi davam etdirildi, 1993-cü il noyabr ayının 4-də Cəbhə Səhra İdarəsi ləğv edildi və ölkə Prezidentinin sərəncamı Baş Qərargahın rəhbərliyində də dəyişiklik baş verdi (27).

2 noyabr 1993-cü il tarixli müraciətində Heydər Əliyev Müdafiə Nazirliyinin strukturunda və rəhbərliyində edilən dəyişikliklərin, eyni zamanda həyata keçirilmiş başqa tədbirlərin nəticə verəcəyinə şübhə etmədiyini bəyan etdi. Çünki Ali Baş Komandan tərəfindən bu Nazirliyin qarşısında çox ciddi və konkret tapşırıqlar qoyulmuşdu və onların icrası da Ali Baş Komandan tə-

rəfindən ciddi nəzarət altına alınmışdı. Heydər Əliyev müdafiə qüvvələrinin yenidən qurulması, xalqın gücünün müdafiə işinə səfərbər edilməsi sahəsində müəyyənləşdirilən vəzifələrin icrasına ona görə şübhə etmirdi ki, ilk növbədə o özü vəzifələrin təşkilatçılığının və icrasının məsuliyyətini üzərinə götürdü. Heydər Əliyev böyük işgüzarlıqla siyasi, ictimai təşkilatların fəalları ilə görüşdü, icra orqanlarının rəhbərlərinin müşavirələrini keçirdi, hərbi hissələrdə oldu, cəbhə bölgələrinə səfərlər etdi, respublikanın bütün təşkilatlarının fəaliyyətini tənzimləməklə onların gücünü müdafiə işinə istiqamətləndirdi. Başlıcası isə Heydər Əliyev bütün xalqın istək və iradəsinin təmsilçisinə çevrildi, xalqla birlikdə Azərbaycanın ərazi bütövlüyünün müdafiəsinə səfərbər oldu. Bu istiqamətdəki fəaliyyətini ardıcıllıqla davam etdirəcəyini Heydər Əliyev belə bəyan edirdi: «Mən öz iradəmdən... istifadə edərək Azərbaycanın bu vəziyyətdən çıxması üçün son damla qanıma qədər çalışacağam» (28).

Heydər Əliyev əminliklə bildirirdi ki, «mən qələbəmizə inanıram» (29). Bu qələbənin yaxınlaşdırılması üçün isə müdafiə qüvvələrinin yenidən qurulmasını və möhkəmləndirilməsini dövlətin və cəmiyyətin qarşısında dayanan mühüm vəzifə sayırdı. Onun vaxtaşırı cəbhə bölgələrinə yollanması, hərbi hissələrin şəxsi heyəti ilə, yerli əhali ilə görüşməsi, cəbhə xəttindəki vəziyyətlə şəxsən tanış olması həm müəyyənləşdirdiyi vəzifələrin icrasını nəzarət altında saxlamağa, həm də şəraitdən irəli gələn yeni vəzifələrin müəyyənləşdirilməsinə imkan verirdi. Heydər Əliyev özü bu məsələni belə şərh edirdi: «Ali Baş Komandan kimi Müdafiə Nazirliyindən məlumat alıram, briqada komandirləri ilə bilavasitə əlaqə saxlayıram. Eyni zamanda, vəziyyəti özüm şəxsən görüb, tanış olub aydınlaşdırmaq istəyirəm. Əsgərlərlə, zabitlərlə görüşərək onların əhval-ruhiyyəsini öyrənirəm. Çalışıram öyrə-

nim ki, onların döyüş ruhu nə səviyyədədir. Bunların hamısı, mənim üçün həm orduya rəhbərlik etmək, müdafiəni etibarlı təşkil etmək, həm də torpaqlarımızın azad olunması planlarını hazırlamaq üçün çox lazımdır» (30).

Göründüyü kimi, Heydər Əliyev Ali Baş Komandan kimi yalnız Müdafiə Nazirliyinin rəhbərliyi ilə yox, hətta briqada komandirləri ilə əlaqə saxlayır, ölkə ərazisinin müdafiəsi məsələləri ilə birbaşa hissələrdən məlumat alırdı. Onun özünün də qeyd etdiyi kimi, Silahlı Qüvvələrin yenidən qurulması ilə bağlı olan işləri Heydər Əliyev bütün işlərdən əhəmiyyətli sayırdı və fəaliyyətinin böyük bir hissəsini də bu məsələlərə həsr edirdi. O qeyd edirdi ki, Azərbaycanın Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi ordu quruculuğu ilə, Silahlı Qüvvələrin möhkəmləndirilməsi ilə bağlı olan işlər hər şeydən vacibdir. Ölkə Prezidenti Azərbaycan Respublikası Silahlı Qüvvələrini özünə doğma hesab etməklə ona öz qayğısını əsirgəmədiyini bəyan edirdi. Ümummilli lider Heydər Əliyev orduya daim diqqətinin olmasını və onun davamlı olacağını vurğulamaqla qeyd edirdi ki, bu qurum Azərbaycanın gələcəkdə müstəqil dövlət kimi yaşamasının təminatıdır (31).

Ordunun qurulmasını Heydər Əliyev ümumdövlət səviyyəli bir vəzifə hesab edirdi. O, Ali Baş Komandan kimi bütün dövlət qurumlarının bu istiqamətdəki fəaliyyətini nizamlamaqla bərabər, bu təşkilatların özlərinin də fəal mövqe nümayiş etdirməsini lazım bilirdi və bunu bir vəzifə kimi irəli sürürdü: «Ordunun, Silahlı Qüvvələrin yaranmasına, ordu quruculuğuna dövlətin, bütün hakimiyyət orqanlarının xüsusi qayğısı olmalıdır. Azərbaycan dövləti, Azərbaycan Prezidenti, Ali Baş Komandan bu qayğını göstərir və bundan sonra da göstərəcəkdir. ...Hər bir hakimiyyət orqanının kiçik, ya böyük hissəsi, hər bir vətəndaş gərək hər bir sahədə ordu quruculuğuna öz töhfəsini, payını versin. Çünki

ordu xalqındır. Ordu, Silahlı Qüvvələr xalqın təhlükəsizliyini və müstəqil dövlətin suverenliyini qorumaq üçün lazımdır» (32).

Bu mənada Heydər Əliyev Müdafiə Nazirliyinin fəaliyyətinin düzgün qurulmasına, bu orqanın təşkilatçılıq və idarəetmə imkanlarının genişlənməsinə xüsusi fikir verir, Müdafiə Nazirliyinin qarısında dayanan vəzifələrin icrasına daim ciddi tələbkarlıq irəli sürürdü. Xidməti müşavirələrdən əlavə, Heydər Əliyev ictimaiyyət qarşısındakı çıxışlarında da Müdafiə Nazirliyinin idarəçiliyində və təşkilatçılığında mövcud olan bir sıra nöqsanları açıb göstərir və onların aradan qaldırılmasını qətiyyətlə tələb edirdi. Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı birmənalı şəkildə bəyan edirdi ki, hərbi sahə onun daimi diqqəti altındadır və belə yanaşmadan heç zaman əl çəkməyəcəkdir. Onun fikrincə, Azərbaycanın müstəqilliyinin qorunması hər bir qurumdan və təşkilatdan bütün sahələrdə, o cümlədən də hərbi sahədə işlərini düzgün qurmağı tələb edirdi.

Heydər Əliyev Ali Baş Komandan kimi hərbi hissələrdə özünü göstərən nöqsanlara qarşı barışmaz münasibət nümayiş etdirir və onların da ləğvini, bu nöqsanlara yol açan problemlərin həllini Müdafiə Nazirliyinin rəhbərliyi qarşısında qoyurdu (33). Müdafiə Nazirliyi tərəfindən qarşıda duran vəzifələrin həlli sahəsində səmərəli fəaliyyəti görmədikdə isə Heydər Əliyev hərbi həyatın bütün sahələrinə nüfuz edirdi və mövcud nöqsanlara qarşı barışmaz münasibət nümayiş etdirirdi. Məhz bunun nəticəsi idi ki, 1994-cü ilin aprelində çağırış və səfərbərlik işində yol verdikləri nöqsanlara görə bir sıra rayonların hərbi komissarları Heydər Əliyevin göstərişi ilə vəzifəsindən azad edilmişdilər (34).

Başqa bir halda isə zabitlərin xidməti vəzifələri ilə bağlı təlimatlandırılmasını Heydər Əliyev şəxsən özü aparmışdı. Məsələn, cəbhə bölgəsinə göndərilən zabitlərlə görüş zamanı Heydər Əli-

yev onları belə təlimatlandırırdı: «Siz hərbi qulluqçu, zabitsiniz. Hərbi xidmətin bir toxunulmaz qanunu var: hərbi qulluqçu, hərbi xidmətdə olan adam Vətən, komandanlıq harada lazım bilsə, orada da xidmət etməlidir. Bu, hərbi qulluqçulara, o cümlədən də sizə yaxşı məlumdur. Ona görə də bu gün alacağınız əmrlər sözsüz yerinə yetirilməlidir. ...Bir daha bildirirəm ki, bu gün Müdafiə Nazirliyindən aldığınız əmrlər danışıqsız yerinə yetirilməlidir» (35).

Başqa bir halda isə Heydər Əliyev gənc zabitlərə yalnız Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi deyil, həm də bir valideyn kimi müraciət edirdi, onları «övladlarımız» adlandırırdı, onlara öz tələbləri ilə bərabər, arzularını və tövsiyələrini də çatdırırdı (36).

Yəni müdafiə işləri ilə bağlı səviyyəsindən, ölçüsündən asılı olmayaraq bütün məsələlər Heydər Əliyev üçün xüsusi əhəmiyyət kəsb edirdi və onlar diqqətdən kənarda qalmırdı.

Məhz bunun nəticəsi idi ki, Heydər Əliyevin rəhbərliyi və təşkilatçılığı altında Ali Baş Komandanlıq institutunun əsas funksiyası olan - Vətənin müdafiəsi funksiyası yeni məzmun və yeni nəticələr kəsb etdi. Bu funksiya ümumxalq işinə çevrildi. Silahlı Qüvvələrin Ali Baş Komandanı xalqın istək və arzularını, onun iradəsini və müstəqil yaşamaq istəklərini əks etdirərək bütün cəmiyyəti müdafiə işlərinə səfərbər edə bildi, xalqın gücünü dövlətin gücü ilə birləşdirildi və onu real qüvvəyə çevirdi. Heydər Əliyev bildirirdi ki, «mən Azərbaycan Prezidenti kimi daim xalqa arxalanmışam, xalqı həmişə özümün ən güclü dayağım hesab etmişəm» (37).

Ona görə də Heydər Əliyev həm respublika Prezidenti, həm də Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi xalqın ölkənin müdafiəsinə qaldırılmasına, Azərbaycan ərazilərinin qorunması

üçün aparılan mübarizənin ümumxalq mübarizəsinə çevrilməsinə xüsusi diqqət yetirirdi. Heydər Əliyev Azərbaycanın qorunmasını, müdafiəsini respublikanın hər bir vətəndaşının müqəddəs borcu hesab edir və bu borcu sədaqətlə ödəməyə çağırırdı: «Azərbaycan hər birimizin Vətənidir. Hər kəs, hər bir vətəndaş öz Vətəninin keşiyində durmalıdır. Əgər əsgər, zabit Vətəninin keşiyində durursa, döyüşlərdə həlak olursa, cəbhə bölgəsinə gedə bilməyən vətəndaş öz iş yerində çalışmalı və döyüşməyə qadir olan övladını, qohum-qardaşını mütləq cəbhəyə göndərməlidir. Başqa yol yoxdur, başqa yol ola bilməz! Mən bir daha Azərbaycan vətəndaşlarına, xalqımıza müraciət edərək deyirəm ki, gəlin hamımız əl-ələ verib Vətənin, ana torpağın müdafiəsinə qalxaq» (38).

Heydər Əliyevin çağırışı ilə Azərbaycan ərazilərinin müdafiəsinə könüllü şəkildə hazır olan gənclərlə görüşündə də Silahlı Qüvvələrin Ali Baş Komandanı bütün Azərbaycan xalqını Vətənin müdafiəsi işində iştirak etməyə çağırırdı. O, Vətənin müdafiəsini, Vətənin müdafiəsinin əsas vasitəsi olan Silahlı Qüvvələrin formalaşmasını Azərbaycan xalqının, Azərbaycanın hər bir vətəndaşının vəzifəsi sayırdı: «Xalqımız tarixi ənənələrini, keçmişimizi yada salaraq Azərbaycanın bu ağır vəziyyətdən çıxması üçün bundan sonra daha səmərəli tədbirlər görəcəkdir. Ordumuz, müdafiə qüvvələrimiz möhkəmləndirilməlidir. Bunu da xalq etməlidir. Bu, bizim vətəndaşların işidir. ...Nəhayət, bunu biz etməliyik. Bu bizim borcumuzdur. Ancaq hamımız birlikdə, sizinlə birlikdə etməliyik» (39).

Göründüyü kimi, Heydər Əliyev xalqı hamılıqla birgə mübarizəyə səsləyirdi və özü də Ali Baş Komandan kimi bu mübarizənin önündə gedirdi. O bu mübarizənin təşkilatçısı idi. Heydər Əliyev bir tərəfdən davamlı olaraq cəbhə bölgələrinə gedirdi, döyüşən ordunun şəxsi heyəti ilə bərabər yerli əhalini erməni təca-

vüzünə qarşı mübarizəyə səfərbər edirdi, bir tərəfdən ön cəbhə ilə arxa cəbhənin fəaliyyətini əlaqələndirirdi, digər tərəfdən də xalqın gücünü, iradəsini müdafiə işinə səfərbər edirdi. O şübhə etmirdi ki, ərazilərin müdafiəsi üçün Azərbaycan xalqının böyük imkanları və potensialı vardır və bu potensialı üzə çıxarıb düzgün istiqamətləndirməklə qarşıya qoyulan vəzifələrin həllində ciddi nəticələr əldə etmək mümkündür: «Azərbaycan xalqı tarix boyu, əsrlər boyu həmişə mərdlik, cəsarət, qəhrəmanlıq göstərmişdir, öz yurdunu öz torpağını müdafiə etmişdir, öz mənliyini qoruyub saxlamışdır. İndi necə ola bilər ki, belə bir həlledici mərhələdə, Azərbaycanın müstəqil dövlət olduğu, xalqın azadlığa çıxdığı bir dövrdə öz torpaqlarımızı müdafiə etməyə qadir olmayaq? Buna Azərbaycan xalqının qüdrəti, rəşadəti tamamilə imkan verir» (40).

Başqa bir çıxışında isə xalqın mübarizə potensialını Heydər Əliyev belə qiymətləndirirdi: «Azərbaycan Respublikasının öz torpaqlarını müdafiə etmək üçün böyük potensialı var. Ən böyük potensial bizim insanların Vətənə, torpağa bağlılığı, Vətəni, torpağı sevməsi və onu qorumaq hissidir. Bu, xalqımızın tarixi ənənələrindən irəli gələn hissdir» (41).

Heydər Əliyevin radio və televiziya ilə 1993-cü il noyabr ayının 2-də etdiyi məşhur müraciəti də başlıca olaraq məhz Azərbaycan xalqının ölkənin müdafiəsinə səfərbər olunması məqsədi daşıyırdı. Bu müraciətində respublika Prezidenti bir neçə dəfə Böyük Vətən müharibəsi illərində Azərbaycan xalqının həmin müharibəyə necə səfərbər olmasına toxunaraq tarixi təcrübənin canlandırılmasının zəruriliyinə diqqət çəkirdi. Bu müraciət bütün xalqın istək və arzularını ifadə etdiyi üçün dərhal xalqın da mübarizə proqramına çevrildi və Azərbaycan xalqı Silahlı Qüvvələrin Ali Baş Komandanının çağırışı ilə Vətənin müdafiəsinə səfərbər oldu. Heydər Əliyev bunu çox yüksək qiymətləndirirdi və məm-

nunluqla qeyd edirdi ki, Azərbaycanın bütün vətəndaşları Vətənin müdafiəsinə qalxıblar: «Vətənin müdafiəsi hər birimiz üçün ən ülvi, ən uca, ən müqəddəs vəzifədir. ...Qeyd etmək istəyirəm ki, Azərbaycanın bütün vətəndaşları Vətənimizin müdafiəsinə qalxıblar. Bu, çox əlamətdar və təqdirəlayiq bir haldır. ...Bu bizi daha da gücləndirir. Bəli, bu belədir, belə də olmalıdır. ...Mən bütün Azərbaycan vətəndaşlarına göstərdikləri qəhrəmanlıq nümunələrinə görə, əl-ələ verib Vətənin müdafiəsinə qalxdıqlarına görə təşəkkür edirəm və əmin olduğumu bildirmək istəyirəm ki, bundan sonra da Azərbaycanın bütün vətəndaşları yekdil olacaq, hamı bir nəfər kimi Azərbaycan torpağını müdafiə edəcək, Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü qoruyub saxlayacaqlar» (42).

## İstifadə olunmuş mənbə və ədəbiyyat


1. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin bəyanatı. 2 iyul 1993-cü il/Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s.23
2. Bakıda ümumrespublika müşavirəsində çıxış. 24 avqust 1993-cü il/ Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s.45-46
3. Naxçıvan qarnizonu «N» hərbi hissəsinin şəxsi heyəti ilə görüşdə nitq. 11 oktyabr 1999-cu il / Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s.341
4. Cəbhəyanı rayonlarda yaranmış vəziyyətlə əlaqədar Ağcabədi və Gəncədə keçirilmiş müşavirələrdə yekun çıxışı. 12 dekabr 1993-cü il/ Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s.106
5. Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin 83-cü ildönümünə həsr olunmuş təntənəli mərasimdə nitq. 26 iyun 2001-ci il/ Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s.380
6. Hərbi xidmətdən yayınmış, fərarilik etmiş və digər hərbi cinayətlər törətmiş şəxslərin valideynləri ilə keçirilən görüşdə nitq. 18 oktyabr 1995-ci il. /Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s.231
7. Yenə orada, s.230, 231
8. Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin 83-cü ildönümünə həsr olunmuş təntənəli mərasimdə nitq. 26 iyun 2001-ci il/ Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s.380

9. Silahlı Qüvvələr Gününə həsr edilmiş təntənəli mərasimdə nitq. 29 iyun 2000-ci il/ Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s.354; Naxçıvan qarnizonu «N» hərbi hissəsinin şəxsi heyəti ilə görüşdə nitq. 11 oktyabr 1999-cu il / Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s.343
10. Naxçıvan hərbi qarnizonunun əsgər və zabitləri ilə görüşdə nitq. 30 oktyabr 1996-cı il/ Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s.257
11. Azərbaycan Respublikası Sərhəd qoşunlarının yaradılmasının 5 illiyinə həsr olunmuş təntənəli yığıncaqda nitq. 16 dekabr 1996-cı il/ Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s.267-268
12. Azərbaycan Respublikası Hərbi Təyyarəçilik Məktəbinin ilk buraxılışına həsr olunmuş təntənəli mərasimdə çıxış. 15 oktyabr 1997-ci il/ Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s.284
13. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinə. 24 iyun 2003-cü il/ Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s.469
14. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranmasının 5-ci ildönümü münasibətilə keçirilən təntənəli yığıncaqda nitq. 7 oktyabr 1996-cı il/ Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s.243
15. Yenə orada
16. Naxçıvan qarnizonu «N» hərbi hissəsinin şəxsi heyəti ilə görüşdə nitq. 11 oktyabr 1999-cu il / Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s. 342-343
17. Biləsuvar, Cəlilabad, Masallı, Lənkəran, Astara, Yardımlı və Lerik rayonlarından seçilmiş xalq deputatları və həmin rayonlardan olan rəhbər şəxslər və ziyalılarla görüşdə giriş

və yekun sözü. 13 avqust 1993-cü il.
http://files.preslib.az/projects/toplu/v2/f3_3.pdf
18. Bakıda ümumrespublika müşavirəsində çıxış. 24 avqust 1993-cü il/ Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s.34
19. «Müdafiə haqqında» Azərbaycan Respublikasının Qanunu
20. Azərbaycan Respublikasının Konstitusiyası
21. Azərbaycan Respublikası Milli Məclisinin iclasında çıxış. 15 iyun 1993-cü il/ Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s.14-15
22. Azərbaycan Respublikası Prezidentinin andiçmə mərasimində nitq. 10 oktyabr 1993-cü il/ Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s.54
23. Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s.55
24. «Müdafiə haqqında» Azərbaycan Respublikasının Qanunu.
25. Yenə orada
26. Müdafiə Nazirliyinin arxivi, iş N-4, cild 2 (1993), vərəq 16
27. Ermənistan Silahlı Qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə yeni hücumları ilə bağlı milli televiziya və radio ilə xalqa müraciət. 2 noyabr 1993-cü il/ Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s. 72
28. Bakıda ümumrespublika müşavirəsində çıxış. 24 avqust 1993-cü il/ Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s.39
29. Cəbhəyanı bölgədə - İmişli, Füzuli, Beyləqan, Şəmkir, Ağcabədi rayonlarında və Gəncə şəhərində görüşlər zamanı çıxışlar. 11-12 dekabr 1993-cü il/ Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s.94
30. Ağcabədi rayonunda jurnalistlərin sualına cavab və döyüşçülər qarşısında çıxış/ Heydər Əliyev və ordu quruculuğu.

Bakı, 2008, s.147
31. Azərbaycan Ali Hərbi Məktəbi və Ali Hərbi Təyyarəçilik Məktəbi məzunlarının buraxılışına həsr olunmuş mərasimdə nitq. 28 iyul 2002-ci il/ Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s.449
32. Azərbaycan Respulikası Silahlı Qüvvələrinin 83-cü ildönümünə həsr olunmuş təntənəli mərasimdə nitq. 26 iyun 2001-ci il/ Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s.386
33. Yenə orada, s.392
34. Azərbaycan ərazisinə Ermənistan silahlı Qüvvələrinin yeni hücumları ilə əlaqədar güclü ordu yaratmaq üçün bütün qüvvələrin səfərbərliyə alınması vəzifələrinə həsr olunmuş müşavirədə giriş və yekun sözü. 17 aprel 1994-cü il/ Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s.191
35. Prezident Aparatında zabitlərin bir qrupu ilə görüşdə çıxış. 13 yanvar 1994-cü il, Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s.130
36. Azərbaycan Ali Hərbi Məktəbi və Ali Hərbi Təyyarəçilik Məktəbi məzunlarının buraxılışına həsr olunmuş mərasimdə nitq. 28 iyul 2002-ci il/ Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s.450
37.Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyi münasibətilə Milli Qvardiya qərargahında keçirilən bayram mərasimində nitq. 28 may 1998-ci il/ Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s.308
38. Ermənistanın Azərbaycana qarşı təcavüzünün güclənməsi ilə əlaqədar respublika milli televiziya və radiosu ilə xalqa müraciət. 12 aprel 1994-cü il/ Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s.166

39. Keçmiş beynəlmiləlçi döyüşçülərlə görüşdə çıxış. 4 noyabr 1993-cü il/ Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s.89-90
40. Beyləqan rayonunda ictimaiyyətinin nümayəndələri ilə görüşdə və hərbçilərin müşavirəsində çıxışlar. 9 aprel 1994-cü il/ Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s.144
41. Keçmiş beynəlmiləlçi döyüşçülərlə görüşdə çıxış. 4 noyabr 1993-cü il/ Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s.89
42. Azərbaycanın milli qəhrəmanları və Vətənimizin azadlığı uğrunda [həlak olan] şəhidlərin ailə üzvləri ilə görüşdə çıxış. 27 dekabr 1993-cü il/ Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s.115-116

# IV FƏSİL

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN MÜSTƏQİLLİYİ MƏSƏLƏSİ

## 1. Heydər Əliyev Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü haqqında

XX əsrin sonlarında Azərbaycan xalqının öz müstəqilliyini əldə etməsi tarixi baxımdan son dərəcə mürəkkəb bir hərbi-siyasi dövrə təsadüf edirdi. Bu mürəkkəb hərbi-siyasi dövr bir tərəfdən xaricdən Azərbaycanın müstəqilliyinə və ərazi bütövlüyünə qarşı istiqamətlənmiş hərbi-siyasi təcavüzkarlıqla, bir tərəfdən isə respublika daxilində siyasətin, iqtisadiyyatın böhranı, siyasi şəraitin gərginləşməsi, daxili parçalanmaların güclənməsi, dövlətlə xalq arasında uçurumun yaranması, vətəndaş müharibəsi və separatizm təhlükəsinin ciddiləşməsi ilə xarakterizə olunurdu. Respublikanın iqtidarında olan qüvvələr tərəfindən ciddi və əsaslandırılmış bir dövlət siyasətinin ortaya qoyulmaması isə bu böhranı günü-gündən daha da dərinləşdirirdi. Bunun nəticəsində Azərbaycanın müstəqilliyi ciddi sınaqlarla üzbəüz qaldığı kimi, Azərbaycan xalqının özü də real fəlakətlər təhlükəsi ilə rastlaşdı. Həmin böhranı aradan qaldırmadan Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsinə və inkişafına da nail olmaq mümkün deyildi. Bu tarixi vəzifəni isə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev öz

üzərinə götürdü və respublika hakimiyyətinə gəldiyi vaxt ölkədə vəziyyət nə qədər ağır olsa da, o, birmənalı, aydın və qətiyyətli şəkildə bildirirdi ki, Azərbaycanın müstəqilliyi daimidir, əbədidir, dönməzdir (1).

Bu çox yığcam fikir Heydər Əliyevin Azərbaycanın müstəqilliyi məsələsinə verdiyi qiymət, nümayiş etdirdiyi yanaşma, onun siyasi fəaliyyətinin başlıca məqsədi idi. O, Azərbaycanın müstəqilliyini Azərbaycan xalqının milli sərvəti sayırdı və bu sərvətin qorunaraq gələcək nəsillərə çatdırılmasını da ümummilli vəzifə hesab edirdi. Heydər Əliyev Azərbaycanın müstəqilliyini onun ərazi bütövlüyündən kənar təsəvvür etmirdi və ona görə də onun bütün siyasi və dövlətçilik fəaliyyətinin mərkəzində məhz Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü məsələsi dayanırdı.

Bəyanatlarında, çıxışlarında, müsahibələrində təkrar-təkrar səsləndirdiyi bu fikrinin həyatiliyini və reallığını Heydər Əliyev bütün dövlətçilik fəaliyyəti ilə sübut etdi və tarixi baxımdan qısa müddət ərzində Azərbaycanın güclü bir müstəqil dövlət kimi mövcudluğunu bütün dünyaya nümayiş etdirdi.

Heydər Əliyev qazanılmış müstəqilliyi Azərbaycan xalqının istək və əzminin nəticəsi kimi qiymətləndirirdi və bildirirdi ki, müstəqilliyə aparan yolda Azərbaycan xalqı uzunillik mübarizə tarixinə malikdir. Heydər Əliyevin fikrincə, Azərbaycan türkləri öz inkişafının müxtəlif mərhələlərində dəfələrlə xarici istilalara məruz qalmış, ərazisi zəbt edilmiş və parçalanmış, dövlət müstəqilliyi və istiqlaliyyəti əlindən alınmışdı. Amma xalqın müstəqilliyə olan ümidi və inamı heç vaxt itməmişdi. Heydər Əliyevin də qeyd etdiyi kimi, Azərbaycan xalqının rastlaşdığı belə sınaqlardan biri də XIX əsrin əvvəllərində Gülüstan və Türkmənçay müqavilələrinin imzalanması ilə öz təsdiqini tapmışdı (2).

Tarixə olan bu istinad Azərbaycanın müstəqilliyinin əldə edildiyi illərdə məruz qaldığı daxili və xarici təhdidlərin XIX əs-

rin əvvəllərində Azərbaycan xalqının rastlaşdığı geosiyasi təhdidlərlə müqayisəsinin aparılması üçün də bir əsas ola bilər. Heydər Əliyevin fikirlərindən, söylədiklərindən belə bir qənaət hasil olur ki, Azərbaycan xalqı 200 il başqa bir imperiyanın tərkibində olsa da, müstəqillik əzmini heç vaxt itirməmişdi və tarixi fürsət yetişən kimi bununla bağlı xalq öz iradəsini nümayiş etdirdi.

Dünya azərbaycanlılarının həmrəyliyi gününün elan edilməsi ilə bağlı Naxçıvan Ali Məclisinin sədri kimi Heydər Əliyevin imzaladığı qərarda bildirilirdi ki, dəfələrlə tarixi ədalətsizliyə məruz qalsa da, siyasi, iqtisadi və mədəni bütövlüyü, milli dövlət qurumu ləğv edilsə də, Azərbaycan türkləri müstəqillik və bütövlük yolunda mübarizəsini dayandırmamış, iyirminci yüzilliyin əvvəllərində yaranmış mürəkkəb tarixi şəraitdə öz müstəqilliyini bərpa etmək yolunda mühüm addımlar atmışdı. İmperiya zülmündən azad olan Quzey Azərbaycan türkləri 1918-ci il may ayının 28-də dövlət müstəqilliyini qazanaraq öz tarixi ərazisində milli dövlət qurumunu – Azərbaycan Demokratik Cümhuriyyətini təşkil etdilər (3).

Azərbaycan xalqının qətiyyəti, öz azadlığına qovuşmaq üçün mübarizə əzmi Heydər Əliyev tərəfindən yüksək qiymətləndirilirdi. O, şübhə etmirdi ki, Azərbaycan xalqının tarixi - azadlıq uğrunda mübarizə tarixidir. Bunun nəticəsi idi ki, Azərbaycan xalqı dəfələrlə öz müstəqilliyinə qovuşmuş, milli dövlət yaratmış, lakin sonralar müxtəlif səbəblər üzündən bu müstəqil dövlətdən məhrum olmuşdu (4).

Müxtəlif səbəblər deyəndə daha çox xarici hərbi-siyasi təhdidlər, daxildə isə siyasi gərginliyin mövcud olması diqqət mərkəzinə gətirilirdi. Çünki belə təhdidlər və problemlər 1918-ci ildə elan edilmiş Azərbaycan Xalq Cümhuriyyətinə də xas idi, XX əsrin sonunda Azərbaycanın bərpa olunmuş müstəqilliyinə də.

Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğunu Heydər Əliyev Azərbaycanın müstəqillik tarixinin çox əhəmiyyətli bir sə-

hifəsi kimi dəyərləndirirdi. Dünya Azərbaycanlılarının Həmrəyliyi günü münasibətilə Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyev tərəfindən imzalanmış qərarda Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması Azərbaycanın müstəqilliyinin bərpası kimi xarakterizə edilmişdir. Məsələyə belə baxış, əslində Azərbaycan Xalq Cümhuriyyəti dövründə əldə edilmiş müstəqilliklə Rusiya işğalından əvvəl Azərbaycan xalqının malik olduğu müstəqillik arasında bir bağlılıq qəbul edilmiş olurdu. Bununla, eyni zamanda, Rusiya çarizmi tərkibində olduğu zaman da Azərbaycan xalqının mübarizə əzminin itirmədiyinə işarə edilirdi. Heydər Əliyev Azərbaycanın Rusiya tərkibində olarkən yetişmiş görkəmli ictimai-siyasi və ədəbiyyat xadimlərindən olan M.F.Axundov, C.Məmmədquluzadə, M.Ə.Sabir və digərləri haqqında danışarkən onların da xalqın azadlığı uğrunda mübarizə apardığını xüsusi qeyd edirdi. Onun fikrincə, XIX əsr ərzində nəsildən-nəslə ötürülən azadlıq və müstəqillik istəyi nəhayət ki, XX əsrin əvvəllərində öz məntiqi sonluğuna çatdı.

Heydər Əliyev haqlı olaraq bildirirdi ki, XX əsrin əvvəllərində Azərbaycanda milli-azadlıq hərəkatı daha da gücləndi, Azərbaycanın demokratik qüvvələri, mütəfəkkir şəxsləri, siyasi xadimləri Azərbaycanın müstəqilliyi və xalqın azadlığı uğrunda mübarizəyə qoşuldular. Birinci Dünya müharibəsinin bitməsi ilə əlaqədar olaraq dünyada baş verən dəyişikliklər, sosialist inqilabı nəticəsində Rusiya imperiyasının dağılması Azərbaycanda müstəqil dövlət yaratmaq üçün şərait meydana gətirdi: «Belə bir şəraitdə Azərbaycanın demokratik qüvvələri, siyasi xadimləri 1918-ci il may ayının 28-də ilk Azərbaycan Demokratik Respublikasını elan etdilər. Həmin gün Azərbaycan xalqının tarixinə böyük və əlamətdar bir hadisə kimi daxil olub. Biz bu günü Respublika günü, Milli İstiqlal bayramı kimi qeyd edirik» (5).

Azərbaycan milli mücadiləsinin liderlərindən olan M.Rəsulzadənin, Fətəli xan Xoyskinin, Əlimərdan bəy Topçubaşovun, Nəsib bəy Yusifbəylinin, Həsən bəy Ağayevin, Məhəmmədhəsən Hacınskinin və digərlərinin Azərbaycanın müstəqilliyinin əldə edilməsi sahəsindəki siyasi fəaliyyətini Heydər Əliyev yüksək qiymətləndirirdi. Tarixdən məlumdur ki, bu ictimai-siyasi xadimlərin və Azərbaycanın müstəqilliyinin digər fəallarının səyləri nəticəsində qısa müddət ərzində yadda qalan nəticələr əldə edildi, Azərbaycanın müstəqil dövlət kimi formalaşması üçün ciddi fəaliyyət ortaya qoyuldu. Bunun nəticəsi idi ki, mövcudluğu dövründə Azərbaycan Xalq Cümhuriyyətinin hüdudları müəyyənləşdirildi, Azərbaycan dövlətçiliyinin atributlarından olan Azərbaycanın gerbi, himni qəbul edildi, Azərbaycan dili dövlət dili kimi rəsmiləşdi, mədəniyyətin, iqtisadiyyatın inkişafı, təhsilin təşkili sahəsində ilk addımlar atıldı (6).

Azərbaycan Xalq Cümhuriyyəti dövründə əldə edilmiş mühüm nəticələrdən biri də heç şübhəsiz ki, Azərbaycanın müstəqilliyinə qarşı istiqamətlənmiş xarici hərbi təhdidlərin qarşısının alınması üçün döyüşkən milli ordunun yaradılması idi. Məlumdur ki, Heydər Əliyev Azərbaycanın hərb tarixindən danışarkən Səməd bəy Mehmandarov və Əliağa Şıxlinski kimi sərkərdələrin adını tez-tez çəkmişdir. Heydər Əliyevin bu sərkərdələrin fəaliyyətinə böyük əhəmiyyət verməsi heç şübhəsiz ki, onların Cümhuriyyətin müstəqilliyinin və ərazi bütövlüyünün qorunması üçün milli ordunun qurulmasında göstərdikləri xidmətlərlə bağlı idi.

Göstərilən bütün səylərə baxmayaraq, məlumdur ki, Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay ömür sürdü, Azərbaycanın çətin şəraitdə əldə etdiyi müstəqilliyini qoruyub saxlamaq mümkün olmadı. 23 aylıq tarixdən sonra Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi. Bu süqutun bir sıra obyektiv və subyektiv sə-

bəbləri mövcuddur. Heydər Əliyevin çıxışlarında bu səbəblərin çoxuna münasibət bildirilmişdir. Heydər Əliyev bu səbəbləri sadəcə xatırlatmırdı, onları XX əsrin sonlarında Azərbaycanın yenidən bərpa etdiyi müstəqilliyinin ətrafında formalaşmış hərbi-siyasi vəziyyətlə müqayisə edirdi. Bununla Azərbaycan xalqının lideri Azərbaycanın müstəqilliyinin qorunmasına sədaqətli olan insanları tarixi müqayisədən dərs çıxarmağa, XX əsrin əvvəllərində yol verilmiş səhvləri təkrarlamamağa, bu tarixi dərsə ciddi şəkildə yanaşmağa çağırırdı.

Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin hərbi təhlükəsizliyinə qarşı istiqamətlənmiş təhdidlər içərisində Azərbaycanın müstəqilliyi ilə razılaşmayan böyük dövlətlərin müxtəlif vasitələrə əl atmasını, Rusiyada hakimiyyətə gəlmiş kommunist rejimini, erməni-daşnak qüvvələrinin Azərbaycan ərazilərini parçalamaq niyyətlərini xatırladırdı. Doğrudan da, Azərbaycan Xalq Cümhuriyyəti öz müstəqilliyini elan etməklə böyük dövlətlərin geosiyasi maraq dairəsinə düşdü. Bölgədən kənarda yerləşən belə dövlətlər arasında Böyük Britaniya və Almaniya xüsusilə fəal idilər. Azərbaycanın təbii sərvətləri, habelə əlverişli məkanda yerləşməsi bu dövlətlərin Azərbaycana olan marağını xeyli artırırdı. Tarixdən məlumdur ki, Azərbaycan neftinin əldə edilməsi üçün Almaniya hətta bolşevik Rusiyası ilə separat müqavilə də bağlamışdı. Bakının milli hakimiyyətin nəzarəti altına düşməsinin qarşısının alınması üçün isə bu şəhərə ingilis qoşunları çıxarılmışdı.

Azərbaycan Xalq Cümhuriyyətinin hərbi təhlükəsizliyi üçün daha böyük və real təhlükəni erməni-daşnak qüvvələri və bolşevik rejimi təşkil edirdi. Azərbaycan torpaqlarında özlərinə vətən tapmaq niyyətində olan erməni-daşnak qüvvələrinin istər Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi ərəfəsində və dövründə, istərsə də XX əsrin sonlarında Azərbaycanın öz müstəqilli-

yini bərpa etmək ərəfəsində və dövründəki fəaliyyətində tarixi bir oxşarlıq mövcuddur. Erməni-daşnak qüvvələri tarixin gedişini öz maraqları çərçivəsindən qiymətləndirərək həm Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsindən əvvəl, həm də Azərbaycan Respublikasının müstəqilliyinin bərpasından əvvəl özlərinin çoxsaylı qeyri-qanuni silahlı qüvvələrini formalaşdıra bilmişdilər. Bu isə həm XX əsrin əvvəllərində, həm də XX əsrin sonlarında dinc Azərbaycan xalqına xeyli fəlakətlər gətirdi.

Daxili siyasi gərginlik də bu müstəqilliklərin hər ikisi üçün xas idi. Xüsusilə Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ərəfəsində Azərbaycanın siyasi mühitində bolşevizmin xeyli güclənməsi Azərbaycan ərazilərinin bolşevik qüvvələri tərəfindən işğalını müəyyən qədər asanlaşdırdı.

Heydər Əliyev qeyd edirdi ki, «Azərbaycan Xalq Cümhuriyyəti dövründə də Azərbaycanı parçalamaq istəyirdilər, bunun üçün 1918-1920-ci illərdə bir neçə addım da atılmışdı və parçalanma vəziyyəti yaranmışdı. İndi də müstəqillik əldə edildikdən sonra bunlar təkrar olunur. Müstəqil Azərbaycan dövləti bir çox siyasi qüvvələr tərəfindən təzyiq altındadır... Eyni zamanda, bu dövrə nəzər salarkən 1918-1920-ci illərdə gedən prosesləri xatırlayır, həmin proseslərin bir-birinə çox bənzədiyini görürsən. O vaxt da bir çox xarici qüvvələr Azərbaycana təzyiq göstərirdi. O zaman da Ermənistan Azərbaycan torpaqlarını ələ keçirmək üçün təcavüzə başlamışdı, Azərbaycan xalqı öz torpaqlarını erməni qəsbkarlarından müdafiə edirdi. Həmin dövrdə də Azərbaycanı parçalamaq istəyirdilər. Məlumdur ki, 1918-20-ci illərdə Azərbaycanın parçalanması üçün bir neçə addım atılmışdı və parçalanma vəziyyəti yaranmışdı. İndi də müstəqillik əldə edildikdən sonra bunlar təkrar olunur. Müstəqil Azərbaycan dövləti bir çox xarici qüvvələr tərəfindən təzyiq altındadır» (7).

Azərbaycan Xalq Cümhuriyyətinin süquta uğramasının səbəblərinə də Heydər Əliyevin yanaşması obyektiv və vətəndaş mövqeyidir. Onun yanaşması belə idi ki, 1920-ci ilin aprelində Azərbaycanın dövlət müstəqilliyi və ərazi bütövlüyü təcavüzə - bolşevik Rusiyasının silahlı müdaxiləsinə məruz qaldı. Bununla da qanuni seçilmiş hakimiyyət orqanları zorakılıqla devrildi və Azərbaycan türklərinin çox böyük qurbanlar bahasına qazandığı müstəqilliyə son qoyuldu. Azərbaycanın quzeyi 1804-1828-ci illərdə olduğu kimi yenidən Rusiya tərəfindən ilhaq edildi (8).

Bu fikrin davamı kimi qeyd etmək olar ki, ən xəlqi və ümumbəşəri şüarlar altında Azərbaycana gələn sovet hakimiyyəti çox tezliklə imperiya maraqlarını və bolşevizmin bölgədə gücləndirilməsi üçün erməni millətçi qüvvələrə himayədarlığını nümayiş etdirdi. Nəticədə bu hakimiyyətin antimilli xarakteri tezliklə aydın oldu və erməni millətçiləri də bundan istifadə edərək Azərbaycanın ərazi bütövlüyü üzərinə hücum çəkdilər. Bolşevizmin şüarçılığına inanmış olan azərbaycanlı qüvvələr arasında da Azərbaycan Xalq Cümhuriyyətindən miras qalan ərazi hüdudlarının qorunmasına əzmli olanlar tapılsa da, onların da müqaviməti qırıldı. Bununla Azərbaycan torpaqları olan Zəngəzurun Ermənistana verilməsi rəsmiləşdirildi, Qarabağın dağlıq hissəsinə isə muxtariyyət hüququ verildi. Erməni millətçiləri bununla da kifayətlənmədilər və onlar davamlı olaraq Azərbaycan torpaqlarına iddialar irəli sürdülər və bir çox hallarda havadarlarının himayəsi ilə bu iddialarına nail oldular. Azərbaycanın o zamankı rəhbərliyinin bu məsələdəki qətiyyətsizliyi isə respublikanın xeyli torpağının Ermənistana verilməsinə zəmin yaratdı.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev öz çıxışlarının birində haqlı olaraq bildirirdi ki, SSRİ-nin tərkibində olduğu vaxtlar heç bir müttəfiq respublika Azərbaycan kimi digər

bir müttəfiq respublikanın təcavüzünə məruz qalmamış və ərazilərini itirməmişdir. O əlavə edərək bildirirdi ki, 1929-cu ildən sonra təkcə Naxçıvan Muxtar Respublikasının 625 kvadrat kilometr ərazisi, yəni 9 kəndi müxtəlif bəhanələr altında Ermənistana verilibdir. Bu torpaqların 62 min hektarı kənd təsərrüfatı üçün yararlı torpaqlar idi (9).

Sovet hakimiyyəti illərində Azərbaycanın ərazi bütövlüyünə qarşı mərkəzin tutduğu mövqeyə Heydər Əliyev çox kəskin münasibət nümayiş etdirirdi. Onun fikrincə, mərkəzi orqanların himayədarlığı ilə yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayəti oyuncaq bir qurum idi. O eyni zamanda mərkəzin Azərbaycana qarşı apardığı siyasəti müstəmləkəçi və haqsız bir siyasət kimi qiymətləndirirdi və təəssüflə qeyd edirdi ki, belə siyasətin nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti dövründə 114 min kvadrat kilometr olan Azərbaycan əraziləri sovet dövründə 86 min kvadrat kilometrə çatmışdı. Ona görə Heydər Əliyev birmənalı şəkildə bildirirdi ki, sovet dövründə Azərbaycandan qoparılmış bütün torpaqların haqq-hesabı aparılmalıdır (10).

Azərbaycan torpaqlarının qorunması ilə bağlı Heydər Əliyev çox qətiyyətli mövqe tuturdu. Onun yanaşmasına görə, torpaqların qorunması üçün mübarizə aparılmalıdır. Bu mənada o, qətiyyətli və barışmaz mübarizənin tərəfdarı idi. XX əsrin 90-cı illərində respublika rəhbərliyinin erməni millətçilərinin Azərbaycanı parçalamaq cəhdlərinə qarşı mübarizəsini Heydər Əliyev yetərli saymırdı. Çünki həmin illərdə atılan addımlar erməni millətçilərinin təcavüzkarlığının qarşısının alınması üçün kifayət deyildi. Bəzi hallarda isə respublika rəhbərliyi tərəfindən göstərilən mövqe formal mövqe daşıyırdı. Onun fikrincə, respublika rəhbərliyi bu məsələdə öz şəxsi arzularını bir kənara qoyaraq öz xalqının, torpaqlarının, rəhbərlik etdiyi respublikanın müqəddəsliyinin

keşiyində dayanmalı idi. Azərbaycan torpaqlarının qorunmasına belə bir mövqedən yanaşdığı üçün idi ki, Heydər Əliyev sovet dövründə Azərbaycana rəhbərlik etdiyi 14 il ərzində bir ovuc da olsa torpağın Ermənistana verilmədiyini bildirirdi (11).

Amma bu o demək deyildi ki, Heydər Əliyevin SSRİ dövründə Azərbaycana rəhbərlik etdiyi illərdə erməni millətçiləri Azərbaycan torpaqlarına qarşı iddialar irəli sürməmişdilər. Əslində, Heydər Əliyevin Azərbaycanın rəhbəri seçilməsi ərəfəsində erməni millətçilərinin Azərbaycan torpaqlarına qarşı iddialarının yeni bir fəallaşması başlamışdı. Bu məsələyə Heydər Əliyev də öz münasibətini bildirmişdi.

1966-cı ildə Ermənistan KP MK katibi A.Koçaryan və Ermənistan SSR Nazirlər kabinetinin sədri B.Muradyan Dağlıq Qarabağın Azərbaycandan qoparılması üçün SSRİ rəhbərliyinə yeni bir məktub göndərdilər. Bu məktub öz məzmunu etibarilə Ermənistanın əvvəlki rəhbərlərinin Moskvaya göndərdikləri məktublardan fərqlənmirdi və həmin məktubda da Azərbaycan torpaqlarına ənənəvi erməni iddiaları təkrar olunurdu. Məktub müəllifləri yazırdılar: “Dağlıq Qarabağın Ermənistana verilməsi yaranmış qeyri-normal vəziyyəti aradan qaldıracaqdır: azsaylı erməni xalqı Sovet İttifaqı şəraitində iki dövlətçiliyə malikdir – biri müttəfiq Ermənistan Respublikası və biri də onunla yanaşı olan muxtar milli vilayət, lakin başqa müttəfiq respublikanın tərkibində… Yuxarıda deyilənləri nəzərə alaraq Naxçıvanın və Dağlıq Qarabağın Ermənistan SSR-ə qaytarılmasını çox zəruri hesab edirik” (12).

Belə bir məktubun göndərilməsi ilə Ermənistan rəhbərliyi bir daha SSRİ rəhbərliyinin səxavətli mövqeyinə ümid bağlayırdı. Mövcud olan faktlar da göstərirdi ki, Ermənistan rəhbərliyinin bu ümidləri heç də əbəs deyildi. Çünki həmin məktubun göndərilməsindən sonra Sov.İKP Mərkəzi Komitəsi Dağlıq Qarabağ məsələ-

si ilə bağlı Azərbaycan və Ermənistan respublikalarının birgə komissiyasının yaradılması haqqında qərar verdi. Belə bir komissiyanın yaradıldığını və onun əsassız olduğunu Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyev də xatırladırdı. Görüşlərinin birində o qeyd edirdi ki, Sov. İKP MK Dağlıq Qarabağ məsələsinin araşdırılmasını Azərbaycanın rəhbəri Vəli Axundova və Ermənistan KP MK katibi Koçaryana tapşırmışdı. Bu isə o demək idi ki, Azərbaycana aid olan bu məsələnin həlli Ermənistana tapşırılırdı. Başqa sözlə, Azərbaycana göstərilirdi ki, bu məsələni gedin onlarla həll edin. Heydər Əliyevin fikrincə, belə olanda Ermənistan deyəcəkdi ki, Qarabağ bizimdir, biz də deyəcəyik ki, yox. Başqa sözlə Ermənistan Azərbaycanın daxili işlərinə qarışmaq imkanı əldə edirdi ki, Heydər Əliyev də bununla razılaşmırdı. Bu məsələ ilə bağlı V.Axundovla görüşündə Heydər Əliyev təklif etdi ki, Moskvaya getsin, L.Brejnevlə görüşsün və Ermənistanın Azərbaycanın daxili işlərinə qarışmaq imkanı aradan qaldırılsın. V.Axundov bu təklifin əsasında Moskvaya yollandı, vəziyyəti L.Brejnevə izah etdi. L.Brejnev də bu izahatları qəbul edərək MK-nın qərarını ləğv etdi (13).

60-cı illərin ikinci yarısında Ermənistanda təşkil olunan gizli millətçi təşkilatlar da Dağlıq Qarabağın Azərbaycandan qoparılması üçün çox ciddi millətçi təbliğat aparırdılar. Belə təşkilatlardan biri 1966-cı ildə qurumlanan Ermənistan Milli Birlik Partiyası idi. Partiyanın yaradıcılarının rəssam A.Xaçatryan və tələbələr Stepan Zatikyanla Şaqen Arutyunyanın olduğu bildirilirdi. A.Xaçatryan tərəfindən partiyanın proqram və andının mətni hazırlanmışdı. Partiyaya daxil olanlar bu mətni oxumalı idilər. Adıçəkilən millətçi partiyanın üzvləri Ermənistan daxilində özlərini o dərəcədə azad hiss edirdilər ki, onlar hətta «Poros» (Mayak) adlı qəzet çap edirdilər. Bununla kifayətlənməyən millətçilər «Daha

susmaq olmaz» başlıqlı çoxlu sayda millətçi vərəqlər çap edib yaydılar, «Vətən naminə» adlı jurnalı çapa hazırladılar. Bu millətçi partiyanın fəaliyyəti 1969-cu ilə kimi davam etdi və sonralar onun fəaliyyətinə XX əsrin sonlarında Dağlıq Qarabağ ətrafında erməni-millətçi separatizminin qızışdırılmasında xüsusi rolu olan Paruyr Ayrikyan rəhbərlik etdi. Mövcud olduğu bütün dövrdə Dağlıq Qarabağın və Naxçıvanın Azərbaycandan qoparılıb Ermənistana verilməsi və erməni əhalisinin şüurunun millətçi-separatçı tələblərlə zəhərlənməsi adıçəkilən təşkilatın əsas fəaliyyət istiqamətlərindən birini təşkil edirdi (14).

1968-ci ildə hələ Azərbaycanın Dövlət Təhlükəsizliyi Komitəsinin sədri işləyən Heydər Əliyev həmin ilin aprel ayında Sov. İKP MK yanında Partiya Nəzarəti Komitəsinə göndərdiyi arayışında yazırdı: «Millətçilik hallarının üzə çıxması Dağlıq Qarabağ Muxtar Vilayətində özünü göstərir. Son illər bu vilayətdə yaşayan millətçi ermənilər, habelə Ermənistan SSR-in bəzi sakinləri vilayətin Azərbaycandan çıxması və onun Ermənistana birləşməsi meylini əhali arasında qızışdıran cəhdlər göstərirlər. Millətçi elementlərin təsiri altına gənclərin bir hissəsi, o cümlədən komsomolçular da düşürlər. DQMV-də gənclərin millətçilik fəallığı 1968-ci ildə də baş vermişdi» (15).

Lakin sovet hakimiyyəti illərində Ermənistan rəhbərliyinin qonşu respublikalara ərazi iddiaları üzərində köklənmiş millətçi-separatçı fəaliyyətinin və bu fəaliyyətin erməni millətçi elementlərinin qızışdırılmasına göstərdiyi təsirlərin qarşısını mərkəz qətiyyətlə almadı. Bunun nəticəsi idi ki, Ermənistan rəhbərliyi tərəfindən təşviq olunan millətçiliyin təbliğatı üçün Ermənistanda mövcud olan mühit aradan qaldırılmadı. Ona görə Ermənistanda millətçi təşkilatların yaradılması davam edirdi. Belə təşkilatlardan biri «Vətənpərvərlər ittifaqı» adlı millətçi təşkilat ili və

1973-cü ildə bu təşkilat öz fəaliyyətini Dağlıq Qarabağ ərazisinə keçirdi (16). Heydər Əliyev bu məsələdə çox ciddi mövqe tutdu və tezliklə bu təşkilatın ləğv edilməsinə və onun fəallarının cəzalandırılmasına nail olundu (17).

Ermənistan ərazisində Azərbaycana qarşı millətçilik hərəkatının qızışdırılması, Dağlıq Qarabağın Azərbaycandan qoparılması ilə əlaqədar təbliğat aparılması haqqında Heydər Əliyev özü də bir hadisəni xatırlayırdı. O bildirirdi ki, 1975-ci ildə Azərbaycanda sovet ədəbiyyatı günləri keçirilərkən erməni yazıçı Marietta Şaginyan da Azərbaycana gəlmişdi. Heydər Əliyevin təklifi ilə bu yazıçı Azərbaycanda əlavə bir neçə gün qalmış, Azərbaycanın şəhərlərini gəzmiş, Azərbaycanda yaşayan ermənilərin vəziyyəti ilə yaxından tanış olmuşdu. Növbəti görüşündə o, Heydər Əliyevə məlumat vermişdi ki, 1975-ci ildə Ermənistan ziyalılarının nümayəndələri Dağlıq Qarabağın Azərbaycandan qoparılması üçün yenidən imza toplamağa başlayıblar. Onun sözlərinə görə, o göstərilən təkidlərə baxmayaraq bu imza toplama aksiyasına qoşulmamışdı (18).

1977-ci ildə Dağlıq Qarabağın özündə erməni millətçiləri tərəfindən yenidən separatçı fəallaşmaya cəhd göstərildiyini Heydər Əliyev də xatırlayırdı. Heydər Əliyev, eyni zamanda, onu da bildirirdi ki, belə bir cəhd, doğrudan da, olmuşdu, lakin görülən tədbirlər nəticəsində bu hərəkətlərin qarşısı dərhal alınmışdı (19). Vilayət rəhbərliyinin nümayəndələrinin də qoşulduğu bu proses tezliklə yatırıldı (20).

Mövcud olan bir məlumata görə də 1979-cu ilin noyabrında Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev Dağlıq Qarabağ partiya komitəsinin plenumunda iştirak edərkən onun qarşısında yenə bu vilayətin Ermənistana verilməsi məsələsi qaldırıldı. Ancaq Heydər Əliyevin qətiyyətli cavabı erməniləri susmağa məcbur etdi (21).

Göstərdikləri bütün cəhdlərə baxmayaraq, ermənilər sovet dövründə Qarabağın dağlıq hissəsinin Ermənistana birləşdirilməsinə nail ola bilmədilər. Ermənilərin əldə edə bildikləri yalnız Azərbaycan torpaqlarının ayrı-ayrı hissələri idi. Heydər Əliyevin respublika rəhbərliyində olduğu illərdə ermənilər bu arzularına çata bilmədilər. Onun respublikanı tərk etməsindən sonra erməni millətçiləri Azərbaycanın sərhədboyu ərazilərinə yenidən iddialar irəli sürməyə başladılar. 1985-ci ildə erməni millətçiləri Azərbaycan rəhbərliyinin qətiyyətsizliyindən və İttifaq orqanlarındakı havadarlarının vasitəçiliyindən istifadə edərək Qazax rayonu ilə sərhəddə 2105 hektar sahəni ələ keçirə bildilər (22). Bununla da demək olar ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının yeni bir mərhələsi başlandı. Mixail Qorbaçovun SSRİ rəhbəri seçilməsindən sonra isə bu iddialar daha geniş və miqyaslı xarakter aldı.

1987-ci ildə Ermənistandan Dağlıq Qarabağa axışan emissarların sayı daha da artdı. Partiya və hökumət orqanlarının gözü qarşısında bu emissarlar açıq şəkildə təbliğat aparır, təşkilatlarda, müəssisələrdə, erməni kəndlərində toplantılar keçirir, vilayətin Ermənistana verilməsi ilə bağlı əhalinin imzasını toplayırdılar (24).

Heydər Əliyev bildirirdi ki, bu məsələdə mərkəz SSRİ Konstitusiyasına uyğun olaraq «hər bir respublikanın suverenliyi toxunulmazdır» prinsipinə əməl etsəydi, Dağlıq Qarabağ ətrafında cərəyan edən qanunsuz proseslərə də son qoyulardı. Bunun əvəzində SSRİ rəhbərliyi tərəfindən heç bir hüquqa əsaslanmadan problemin iki respublika arasında çözülməsi təklifini ortaya atması isə məsələni həll etmədi. Əksinə, Ermənistan rəhbərliyi belə mövqedən yararlanaraq Dağlıq Qarabağın Ermənistana verilməsi haqqında ərazi iddiaları irəli sürdü (25).

M.S.Qorbaçovun hakimiyyətə gəlməsi ərəfəsində ölkədə mövcud olan durğunluq və nəzarətsizlikdən istifadə edən erməni millətçiləri Azərbaycana qarşı ərazi iddialarını özündə əks etdirən millətçi təbliğatlarına başlayıb bu fəaliyyəti daha açıq müstəviyə keçirdilər. Bu problemə münasibətdə Heydər Əliyevin konkret yanaşmaları vardır ki, onlar problemin mahiyyətinin aydınlaşdırılması baxımından konseptual əhəmiyyət kəsb edir. Bu məqamlardan biri ondan ibarət idi ki, Dağlıq Qarabağ problemi qondarma və süni bir problem idi. Azərbaycan ərazisində ermənilər kifayət qədər yaxşı yaşayırdılar və onlar onilliklər ərzində azərbaycanlılarla mehriban münasibətlərdə olmuşdular. Dağlıq Qarabağın Azərbaycandan qoparılması ideyası da Ermənistanın rəhbərliyinə və erməni millətçi dairələrinə mənsub idi. Dağlıq Qarabağdakı ermənilərin əksəriyyəti bura köçürülən ermənilər idi və Heydər Əliyev də çıxışlarının birində ermənilərə müraciətlə onların təxminən 160 il öncə Qarabağa köçürüldüklərinə işarə edirdi. Qarabağda müharibə aparan ermənilərin də əksəriyyəti İrəvandan, Leninakandan, Eçmiədzindən gəlmiş şəxslər idi (26). Yəni bu problemin alovlanması üçün obyektiv bir baza yox idi.

Heydər Əliyevin bu problemə yanaşmasının başqa bir məqamı ondan ibarətdir ki, Dağlıq Qarabağ ətrafında mürəkkəb vəziyyətin yaranması SSRİ rəhbərliyinin səhlənkar və məsuliyyətsiz mövqeyinin nəticəsi idi. Mərkəz tərəfindən qətiyyətli, prinsipial və qanuni tədbirlərin həyata keçirilməməsi Azərbaycanın ərazi bütövlüyünün pozulması üçün təhdidləri daha da artırdı. Heydər Əliyev şübhə etmirdi ki, M.S.Qorbaçovun müşaviri olan akademik A.Aqanbekyanın 1987-ci ilə Parisdə çıxış edərək Dağlıq Qarabağla bağlı bəyanat verməsi mərkəzlə razılaşdırılmışdı. Həmin bəyanatında akademik Aqanbekyan bildirmişdi ki, Dağlıq Qarabağ Ermənistana birləşdirilməlidir və bu məsələ M.S.Qorbaçovla razılaşdırılmışdır (27).

Heydər Əliyevin nəzərincə, Dağlıq Qarabağ ətrafında cərəyan edən proseslərin mürəkkəbləşməsinə yol açan yanlışlıqlardan biri də məsələnin respublika miqyasından kənara çıxarılması idi. Heydər Əliyev Dağlıq Qarabağda millətçi fəallaşmaların olduğunu etiraf edirdi. Amma o bu məsələni Azərbaycanın daxili problemi sayırdı, bu məsələnin çözülməsinə Ermənistanın qatılmasını və ya cəlb edilməsini Azərbaycanın suveren hüquqlarına müdaxilə kimi qiymətləndirirdi. Məhz buna görə idi ki, o, yuxarıda qeyd edildiyi kimi, XX əsrin 60-cı illərinin sonlarında Azərbaycanın o vaxtkı rəhbərinin Moskvaya yollanmasını və Ermənistan rəhbərinin iştirakı olmadan bu məsələni SSRİ rəhbərliyi ilə müzakirəyə çıxarmasını təklif etmişdi. XX əsrin 90-cı illərinin sonlarında isə respublika rəhbərliyi Ermənistanın Dağlıq Qarabağla bağlı Azərbaycanın daxili işlərinə qarışmasının qarşısını ala bilmədi. Heydər Əliyev bu baxımdan respublika rəhbərliyinin birinci səhvi kimi 1988-ci il mart ayının 24-də Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin «Azərbaycan SSR DQMV-nin 1988-1995-ci illərdə sosial-iqtisadi inkişafının sürətləndirilməsi tədbirləri haqqında» qəbul etdiyi qərarı göstərirdi. Çünki mərkəzi hakimiyyətin bu qərarına əsasən Ermənistan rəsmi şəkildə Dağlıq Qarabağla bağlı Azərbaycanın daxili işlərinə qarışmaq hüququ əldə etmişdi (28).

Bu məqamla bağlı Heydər Əliyev bildirirdi: « ...88-ci ilin mart ayında SSRİ Nazirlər Sovetinin və Sov.İKP MK-nın qərarını qəbul etməyə Azərbaycan rəhbərlərindən kim qol çəkibsə, burada Qarabağın əldən getməsi üçün birinci addımı atıbdır. Çünki o qərarda yazıblar ki, Ermənistan Respublikasına Dağlıq Qarabağın işləri ilə məşğul olmaq ixtiyarı verilir». Heydər Əliyevə görə belə bir qərarın qəbuluna yol verilməsi Azərbaycana qarşı xəyanət idi (29).

Arkadi Volskinin rəhbərliyi altında Dağlıq Qarabağda Xüsusi İdarəetmə Komitəsinin yaradılmasını da Heydər Əliyev

Azərbaycanın daxili işlərinə müdaxilə kimi qiymətləndirirdi. Bu Xüsusi İdarəetmə Komitəsi SSRİ Ali Soveti Rəyasət Heyətinin yanvar ayının 12-də «Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarə formasının tətbiq edilməsi haqqında» qəbul etdiyi qərar əsasında yaradılmışdı. Hələ Moskvada fəaliyyət göstərərkən bu məsələyə münasibətini soruşanda Heydər Əliyev öz narazılığını bildirmişdi. Onun fikrincə, respublika rəhbərliyi də belə bir Komitənin yaradılmasına qətiyyətli etirazını bildirməli və bununla da Dağlıq Qarabağın Azərbaycandan yadlaşdırılmasına mane olmalı idi (30).

Bu mənada Heydər Əliyev 1988-ci il iyul ayının 18-də SSRİ Ali Soveti Rəyasət Heyətinin geniş iclasında Azərbaycan və Ermənistan rəhbərliyinin iştirakı ilə Dağlıq Qarabağ münaqişəsinin müzakirəsini Azərbaycanın daxili işlərinə qarışılması baxımından qəbuledilməz sayırdı. Bu məsələni Heydər Əliyev o zamankı Azərbaycan rəhbərliyinə də çatdırmışdı. Amma respublika rəhbərliyi Heydər Əliyevin bu mövqeyini prinsipiallıqla qiymətləndirməmişdi (31).

Heydər Əliyevin də iştirak etdiyi müzakirələrdən sonra Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin qəbul etdiyi qərarlardan birində bildirilirdi ki, Azərbaycanın o zamankı partiya və dövlət rəhbərliyi DQMV-də konstitusiyaya zidd, millətçilik zəminində baş verən və inkişaf edən hadisələri vaxtında anlamamış, onların qarşısını ala bilməmiş, Ermənistanın Azərbaycan Respublikasının daxili işlərinə qarışmasının qarşısını almağa, Ermənistanın qeyri-qanuni ərazi iddialarını dəf etməyə qabil olmamış, Azərbaycanın ərazi bütövlüyünü, Azərbaycan xalqının şərəfini və ləyaqətini müdafiə etmək iqtidarında olmamışdır (32).

Azərbaycanın ərazi bütövlüyünə qəsd etməyə çalışan dairələrin bəhanə qazanmaq üçün əl atdığı vasitələrdən biri də guya

Dağlıq Qarabağ əhalisinin sosial-iqtisadi və mədəni inkişaf sahəsindəki hüquqlarının məhdudlaşdırılması idi. M.S.Qorbaçov da Heydər Əliyevlə olan son görüşlərinin birində bu bəhanəni əldə əsas tutaraq Qarabağ ermənilərinin narazılıqlarını bildirməkdə haqlı olduğunu bəyan etmişdi (33).

Bu bəhanənin doğru olmaması barəsində artıq kifayət qədər araşdırmalar işıq üzü görmüşdür. Heydər Əliyev özü də müsahibələrinin birində Dağlıq Qarabağın sosial-iqtisadi inkişafının heç də geri qalmadığını faktlarla bildirirdi. Onun qeydlərinə görə, 3 beşillik ərzində Dağlıq Qarabağda sənaye istehsalının həcmi 3 dəfə, kənd təsərrüfatı məhsulu 1 dəfə yarım artmış, sosial sahə, inteqrasiya prosesləri olduqca inkişaf etmişdi (34).

Hətta Dağlıq Qarabağın Ermənistanla əlaqələrinin məhdudlaşdırıldığı iddiaları da irəli sürülürdü. Guya bu əlaqələrin məhdudlaşdırılması da Dağlıq Qarabağdakı ermənilərin Azərbaycandan qopmasına təkan vermişdi. Heydər Əliyev bu ittihamı qətiyyətlə rədd edirdi: «Bu əlaqəni mən məhdudlaşdırmamışdım. Ancaq mən Azərbaycanın rəhbəri kimi Ermənistanın Dağlıq Qarabağın işlərinə qarışmasına yol vermirdim. Və bunu bir vətəndaş, bir azərbaycanlı kimi öz borcum bilirdim» (35).

Proseslərin sonrakı inkişafı Heydər Əliyevin Dağlıq Qarabağ ətrafında cərəyan edən hadisələrə belə yanaşmanın tamamilə doğru olduğunu nümayiş etdirdi.

Nəhayət, Heydər Əliyev Dağlıq Qarabağ oyunlarının ortaya atılmasını Azərbaycanın parçalanması üçün ortaya atılan bir proses olduğunu bəyan edirdi. Onun mövqeyi belə idi ki, bu oyunu ortaya atmaqla Azərbaycanı parçalamaq istəyən qüvvələr geniş fəaliyyətə başlamışlar: «Bəli, Azərbaycanı parçalamaq Azərbaycanın daxilində və xaricində olan düşmənlərin uzun illərdən, bəlkə əsrlərdən bəri ən bəd niyyəti, istəyi, arzusu olmuşdur. Dağ-

lıq Qarabağda ... başlanan proseslər Azərbaycanı parçalamaq yolunda atılan ilk addım idi» (36).

Başqa bir çıxışında Heydər Əliyev bu fikrini davam etdirərək bildirirdi ki, Azərbaycan ərazisində gedən müharibəni Azərbaycan başlamamışdır. Bu müharibə respublikanı dağıtmaq, onun torpaqlarının bir hissəsini qəsbkarlıqla ələ keçirmək niyyəti ilə qonşu Ermənistan dövləti tərəfindən başlanmışdır. Heydər Əliyevin fikrincə, bu müharibə təkcə Ermənistanla Azərbaycan arasında gedən müharibə deyildi. O əlavə edirdi ki, bu müharibəyə böyük xarici qüvvələr qoşulublar və bu müharibə böyük siyasi proseslərlə bağlıdır. Yəni, Heydər Əliyev Azərbaycana qarşı müharibənin başlanmasını yalnız Ermənistanın Azərbaycana qarşı qəsbkarlıq siyasəti ilə bağlamırdı. O şübhə etmirdi ki, bu müharibənin arxasında böyük siyasi qüvvələr durur və həmin qüvvələrin də məqsədi «başıbəlalı Azərbaycanı parçalamaq, yenidən dağıtmaq»dır (37).

Böyük siyasi qüvvələr deyəndə Heydər Əliyev həm Azərbaycanın müstəqilliyini qəbul etmək istəməyən və bölgədə öz geosiyasi maraqlarını təmin etməyə çalışan dövlətləri, həm də Azərbaycan əraziləri hesabına Ermənistanın genişləndirilməsinə çalışan güclü erməni diasporunu nəzərdə tuturdu. Bu qüvvələrin hər ikisi kifayət qədər fəal şəkildə antiazərbaycan siyasətini ortaya qoymuşdular. Azərbaycanı parçalamaq məqsədi, onun müstəqil inkişafına yol verməmək niyyəti bəzi böyük dövlətlərlə erməni millətçilərini bir-birinə yaxınlaşdırırdı. Qarşıya qoyulan məqsədə nail olunması üçün erməni millətçi dairələri böyük siyasi qüvvələrin əlində bir vasitəyə çevrilmişdi. Həmin siyasi qüvvələrin böyük potensialı ilə erməni millətçilərinin Azərbaycana qarşı sonsuz təcavüzkarlığı birləşərək Azərbaycan xalqına qarşı ciddi fəlakətlərə zəmin yaratmışdı.

Dünyanın bir çox ölkələrinə səpələnmiş və çox böyük kapitala nəzarət edən erməni diasporunu da Heydər Əliyev Azərbaycanın müstəqilliyinə və ərazi bütövlüyünə qarşı real təhdid hesab edirdi. Bu mənada Rusiyada, Fransada, Amerikada, Almaniyada, İranda və digər ölkələrdə yaşayan erməni diasporunun fəallığı xüsusilə qeyd edilirdi. Bildirilirdi ki, Ermənistan Azərbaycanla müqayisədə kiçik bir dövlətdir və onun beynəlxalq aləmlə əlaqələri də çox məhdudlaşdırılmamışdı. Ermənistanın yetərli səviyyədə iqtisadiyyatı və sənayesi də yox idi. Yəni bu dövlətin Azərbaycanla müharibə aparmaq potensialı yox idi. Belə bir şəraitdə ona dəstək verən erməni diasporu idi. Erməni diasporu hava nəqliyyatı vasitəsi ilə Ermənistanı silahla, sursat və ərzaqla təmin edirdi və bu dəstəkdən istifadə edən erməni millətçiləri də Azərbaycanın ərazi bütövlüyünü parçalamaq üçün müharibəni genişləndirirdilər (38).

Erməni diasporunun antiazərbaycan fəaliyyəti Ermənistanı yalnız pul, silah və sursatla təmin etməsi ilə kifayətlənmirdi. Erməni diasporunun Azərbaycana qarşı digər bir ziyanlı mövqeyi onun dünya miqyasında antiazərbaycan təbliğatı aparması və öz məqsədinə çatmaq üçün çox böyük həcmdə kapitalı və informasiya vasitələrini bu işə cəlb edə bilməsi idi. Heydər Əliyev də bu məsələnin ciddiliyini qeyd edirdi. O, açıq şəkildə bildirirdi ki, Dağlıq Qarabağ məsələsi ətrafında erməni diasporunun apardığı əsassız təbliğat nəticəsində dünyanın böyük ölkələrinin əhalisinin və dövlət başçılarının ictimai fikrini Azərbaycan əleyhinə formalaşdırmaq mümkün olmuşdur. Heydər Əliyevin qeydlərinə görə, bu məsələdə xaricdə yaşayan azərbaycanlılardan fərqli olaraq ermənilər daha yaxşı təşkilatlanmışdılar. Bu ermənilərin əksəriyyəti Ermənistanda olmasalar da, Dağlıq Qarabağın harada yerləşməsindən xəbərsiz olsalar da, erməni millətçi məqsədləri

ətrafında yaxşı səfərbər oluna bilirdilər. Ermənilərin ölkə xaricində daha yaxşı təşkilatlanmasının obyektiv səbəblərinə toxunmaqla bərabər, Heydər Əliyev hər halda Azərbaycana qarşı belə bir qüvvənin mövcudluğunu, bir sıra böyük dövlətlərin rəhbərlərinin də antiazərbaycan qərarlar qəbul etməsində erməni diasporunun fəallığını real bir fakt kimi qiymətləndirirdi (39).

Bütün bu amillərin hərəkətə gətirilməsi nəticəsində hələ müstəqilliyin bərpasından əvvəl Azərbaycanda kifayət qədər mürəkkəb ictimai və hərbi-siyasi durum yaranmışdı. Azərbaycanın suveren hüquqlarının qorunmaması nəticəsində 1988-ci ildən başlayaraq Dağlıq Qarabağın Azərbaycandan yadlaşdırılması real bir xarakter almışdı. 1990-cı illərin sonunda etdiyi çıxışlarının birində Heydər Əliyev Azərbaycanın ərazi bütövlüyünün pozulmasına yol açan vəziyyəti belə xarakterizə edirdi: «DQMV 1988-ci ilin əvvəlindən Azərbaycan dövlətinin hakimiyyətindən çıxıb. Bu, gerçəklikdir, reallıqdır, faktdır. Azərbaycan hökuməti DQMV-də özünün hakimiyyət hüquqlarını həyata keçirə bilmir. Bu, ən böyük faciədir. Bununla yanaşı, əgər DQMV-nin müəyyən qədər muxtariyyət hüququ varsa, heç bir muxtariyyət hüququ olmayan Şaumyan rayonu da Azərbaycana tabe olmur. Müstəqil həyat keçirir, yaşayır və Ermənistana tabedir. Ən nəhayət, Çaykənd kəndi də bu vəziyyətdədir. Gəlin belə danışaq: bizim indiyə qədər hələlik daxil olduğumuz Sovetlər İttifaqında heç bir respublikanın suverenliyi, ərazi bütövlüyü bu cür pozulmayıb « (40).

Azərbaycanın ərazi bütövlüyünün parçalanmasına nail olmaq üçün Ermənistan daxilində xüsusi tədbirlər həyata keçirilir, əhali sürətlə silahlandırılırdı. Mərkəzi hakimiyyət orqanlarının nəzarətsizliyi nəticəsində Ermənistanda hələ 1990-cı ildə 140-160 min nəfərlik qeyri-qanuni silahlanmış hərbi dəstələrin olduğu bildirilirdi. Erməni millətçiləri tərəfindən yerli əhalinin qey-

ri-qanuni şəkildə silahlandırılması Qarabağın dağlıq hissəsində və ona qonşu olan məntəqələrdə də aparıldı. Bu silahlı dəstələrin tərk-silah edilməsi haqqında mərkəzi hakimiyyət orqanları tərəfindən qərar qəbul olunsa da, onun icrası elə mərkəzi hakimiyyət orqanları tərəfindən təmin edilmirdi. Erməni millətçiləri də bundan şirniklənərək 1990-cı ildə Dağlıq Qarabağdan uzaq olan Şərur rayonunun Kərki kəndini işğal etdilər (41).

Azərbaycan ərazilərinin silahlı yolla açıq şəkildə işğalına başlanandan sonra da respublika rəhbərliyi Azərbaycanın Konstitusiya hüquqlarının müdafiəsi, onun bütün ərazisində tam dövlət suverenliyinin təmin olunması üçün qətiyyətli tədbirlər həyata keçirilmədi. Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşı belə prinsipsiz mövqe tutulması hələ o vaxtlar Heydər Əliyev tərəfindən kəskin şəkildə pislənilirdi. Onun çıxışından və təkliflərindən sonra Naxçıvan Ali Məclisinin 1990-cı ilin sonlarında qəbul etdiyi bir qərarda Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın ayrılmaz tərkib hissəsi və tarixi torpağı olması vurğulanandan sonra bu bölgədə qanuni hüquqların qorunması ilə bağlı Azərbaycanın o vaxtkı rəhbərliyinin qeyri-milli mövqeyi aşağıdakı kimi qiymətləndirilirdi: « Qeyd edilsin ki, Azərbaycanın partiya və dövlət rəhbərliyi Dağlıq Qarabağ Muxtar Vilayətində əmələ gəlmiş vəziyyətin qiymətləndirilməsinə, onun normallaşdırılmasına yönəldilən tədbirlərin müəyyənləşdirilməsində kobud səhvlərə və yanlışlıqlara yol vermiş, Azərbaycan SSR-in dövlət suverenliyi və ərazi bütövlüyünü, Azərbaycan xalqının şərəf və ləyaqətini müdafiə etməmiş, qətiyyətsizlik göstərmişdir.

Dağlıq Qarabağ Muxtar Vilayətindəki vəziyyətin İttifaq orqanlarında müzakirəsi zamanı və Ermənistan SSR-yə münasibətlərdə barışdırıcılıq və prinsipsizlik göstərən Azərbaycan KP

MK-nın, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin rəhbərliyinin mövqeyi pislənilsin. Qeyd edilsin ki, belə mövqe Azərbaycanın milli mənafeyinə ciddi ziyan vurmuşdur» (42).

Azərbaycanın suveren hüquqlarının və SSRİ qanunvericiliyi ilə müəyyənləşdirilmiş ərazi hüdudlarının qorunması üçün SSRİ və Azərbaycan SSR rəhbərliyinin belə qətiyyətsiz mövqeyi, erməni təcavüzkar qüvvələrinə qanuni cavab verilməməsi məlumdur ki, respublikada mənəvi-psixoloji vəziyyəti daha da kəskinləşdirir, əhalinin dərin qəzəb və narazılıqları ilə qarşılanırdı. Nəticədə, Azərbaycanın dövlət suverenliyinin və ərazi bütövlüyünün müdafiəsi uğrunda xalq kütlələrinin aşağıdan etiraz hərəkatı başlamışdı. Suveren hüquqlarının qorunmaması ilə barışmayan əhali Bakıda, respublikanın bir sıra rayon və şəhərlərində kütləvi mitinqlər və nümayişlər təşkil edirdilər. Amma Azərbaycanın o vaxtkı rəhbərliyi haqsızlıqlara qarşı etiraz edən xalqla dialoqa girmir, əksinə vətənpərvərlik hissi ilə çıxış edənləri ekstremizmdə, milli ədavəti qızışdırmaqda və digər hərəkətlərdə günahlandırırdı. Hətta xalq fəallarına qarşı repressiyalara da əl atılırdı (43).

Heydər Əliyev Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün müdafiəsi üçün xalq kütlələrinin meydanlara axışmasını haqsızlıqlara qarşı xalqın daxilindən yaranmış bir hərəkat kimi qiymətləndirirdi və kimlərinsə bu hərəkatın təşkilatlandırılmasına sahib çıxmaq niyyətini düzgün saymırdı. Çıxışlarının birində Heydər Əliyev Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün müdafiəsi üçün formalaşan xalq hərəkatına münasibətini belə bildirirdi: «1988-ci ildən bu proseslərin nəticəsində başlamış milli azadlıq uğrunda mübarizə - Azərbaycanın mənliyini qorumaq, ərazi bütövlüyünü qorumaq üçün, Azərbaycanın məruz qaldığı təcavüzə qarşı çıxan qüvvələrin bir yerə toplaşması üçün milli azadlıq hərəkatı kimi meydana çıxması Azərbaycan tarixində bö-

yük hadisədir və bu hadisə layiqincə qiymətləndirilməlidir... Ona görə də ilk dəfə Azərbaycanda Azadlıq meydanında yüz minlərlə, hətta milyondan artıq adamın toplaşması, mitinqlər keçirilməsi – bunlar ayrı-ayrı şəxslərin, ayrı-ayrı adamların fəaliyyətinin nəticəsi deyil, həmin illərdə Azərbaycanın daxilində, xalqın içərisində, millətin, bütün Azərbaycan vətəndaşlarının daxilində baş qaldıran vətənpərvərlik hisslərinin, milli azadlığa yönəlmiş hisslərin qaynayıb qarışaraq meydana çıxmasının nəticəsidir. Bütün bunlar, yəni Azərbaycanı qorumaq, Azərbaycan xalqının tarixini, ənənələrini, əldə etdiyi nailiyyətləri qorumaq, Azərbaycanı həm erməni təcavüzünə qarşı gücləndirmək, həm də Moskvada o vaxtlar Sovet İttifaqının rəhbərliyi tərəfindən Azərbaycana qarşı atılmış ədalətsiz addımlara və Azərbaycan rəhbərliyindəki ayrı-ayrı nalayiq şəxslərin xalqımıza zidd olan siyasətinə qarşı çıxmaq niyyətləri bax bu hərəkatları meydana gətirdi. Onların hamısı... Azərbaycanın müstəqilliyini əldə etmək üçün, Azərbaycan xalqının mənliyini, milli qürurunu dünyaya bəyan etmək üçün böyük hadisələrdir və bu hadisələr, nəhayət, Azərbaycanın müstəqillik qazanması üçün əsas yaratmışdır» (44).

Mövcud olan bütün çətinliklərə, təzyiqlərə, təhdidlərə baxmayaraq, ölkədə, bölgədə və Azərbaycanda cərəyan edən hadisələr 1991-ci ilin sonlarında Azərbaycanın müstəqilliyə qovuşması ilə nəticələndi. Təxminən 70 illik sovet hakimiyyətindən sonra Azərbaycan xalqı yenidən öz müstəqil dövlətçiliyini qurmaq, müstəqil yaşamaq şansı əldə etdi. Bununla Azərbaycan xalqının həyatında tamamilə yeni bir mərhələ açıldı. Doğrudur, Azərbaycan öz müstəqilliyini Ermənistanın Azərbaycana qarşı təcavüzünün şiddətləndiyi, xarici təhdid və təzyiqlərin gücləndiyi, iqtisadiyyatın, siyasi mühitin böhranlı bir vaxtında qazandı. Bununla belə, bu müstəqillik xalq tərəfindən tarixi bir hadisə kimi, müstəqil in-

kişaf, milli dirçəliş və dünya birliyində layiqli yer tutmaq üçün əldə edilmiş fürsət kimi qəbul edildi, azad və xoşbəxt həyata yeni ümidlər açıldı.

Heydər Əliyev də Azərbaycanın öz müstəqilliyini bərpa etməsini böyük tarixi hadisə sayırdı. Bu tarixi müstəqilliyin əldə edilməsini və Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsini Heydər Əliyev öz fəaliyyətinin məqsədi sayırdı. Hələ 1990-cı ildə deputatlığa namizəd kimi etdiyi çıxışlarından birində Heydər Əliyev bildirirdi ki, Azərbaycanın ərazi bütövlüyünü və respublikanın bütün ərazisində Azərbaycan hakimiyyətini bərqərar etmək onun qarşısında dayanan əsas məqsəddir. O, sonra da əlavə edirdi ki, Azərbaycanın milli dövlət kimi inkişaf etməsi indi əsas məsələdir. Bunun üçün Azərbaycan tam müstəqil, azad, demokratik respublika olmalıdır (45).

Azərbaycanın öz müstəqilliyini bərpa etməsi ilə öz milli inkişafı üçün də imkan əldə etmişdi. Öz çıxışlarında, bəyanatlarında Heydər Əliyev Azərbaycanın müstəqilliyə qovuşmasının əhəmiyyətini təkrar-təkrar vurğulayırdı. Məsələn, müxtəlif vaxtlarda Azərbaycanın müstəqilliyini bərpa etməsinə Heydər Əliyev aşağıdakı qiymətləri vermişdi:

- Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının tarixi nailiyyətidir;
- Azərbaycan xalqı indi artıq öz həyatını müstəqil dövlət çərçivəsində, öz arzu və niyyətləri əsasında qurmaq imkanına malik olmuşdur;
- Azərbaycanın müstəqil dövlət olması tarixi bir hadisədir;
- Müstəqillik taleyin xalqımıza verdiyi böyük bir fürsətdir;
- Müstəqillik xalqa mənsubdur. Bu, tarixin, taleyin xalqa bəxş etdiyi böyük bir nemətdir;
- Azərbaycan xalqı indi artıq öz həyatını müstəqil dövlət çər-

çivəsində, öz arzu və niyyətləri əsasında qurmaq imkanına malik olmuşdur;

- Azərbaycanın müstəqilliyi Azərbaycan xalqının milli sərvəti, milli nailiyyətidir;
- İndi Azərbaycanın müstəqilliyi xalqımızın öz əlindədir;
- Azərbaycanın müstəqilliyi daimidir, əbədidir, dönməzdir;
- Ömrümün bundan sonrakı hissəsini yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm.

Buna oxşar fikirlərin sayını artırmaq da olar. Bu fikirlər, eyni zamanda, xalqın mövqeyinin ifadəsi idi. Bütün xalq ölkənin müstəqilliyini tarixi bir hadisə, tarixi bir nemət kimi qarşılayırdı. Amma o da məlumdur ki, bu müstəqillik çox mürəkkəb bir şəraitdə əldə edilmişdi. Müstəqilliyin əldə edilməsi ilə Azərbaycana qarşı istiqamətlənmiş təhdidlər nəinki səngimədi, əksinə daha geniş bir vüsət aldı. Əvvəllər Azərbaycana qarşı həyata keçirilən təcavüz ölkədaxili bir proses idisə, müstəqilliyin əldə edilməsindən sonra bu təcavüz iki dövlət arasındakı müharibəyə çevrildi. Bununla da yaxın və uzaq himayədarlarına arxalanan Ermənistan heç bir məhdudiyyət və təzyiqlə qarşılaşmadan Azərbaycana qarşı müharibəni daha da genişləndirdi.

Əslində, dövlət müstəqilliyinin bərpası bu müstəqilliyin və ölkənin ərazi bütövlüyünün qorunması üçün Azərbaycan xalqı üçün də yeni fürsətlər ortaya qoydu. Yeni Azərbaycan rəhbərliyi xalqın iradəsini müstəqil şəkildə ifadə etməklə xalqın gücünü müharibənin aparılmasına səfərbər etmək imkanı əldə etsə də, bu tarixi şansdan bəhrələnə bilmədi. Əksinə, səriştəsizlik, təcrübəsizlik, siyasətdə anlaşılmazlıq, yüksək vəzifə əldə etmək üçün yaradılmış qruplaşmalar Azərbaycanın müstəqilliyini məhv olmaq, ərazilərini isə itirmək təhlükəsini reallığa çevirdi.

Heydər Əliyev bildirirdi ki, müstəqilliyin əldə edilməsindən sonra bu müstəqilliyin qorunması üçün Azərbaycan xalqının potensialından istifadə olunmamışdı. Onun fikrincə, dövrün siyasi liderləri, dövlət adamları, yaxud özlərini sərkərdə adlandıranlar xalqın böyük qüdrətindən, böyük imkanlarından istifadə edə bilməmişdi (46).

Heydər Əliyev Azərbaycan xalqının nümayəndələri qarşısındakı çıxışlarında belə adamların daha ağır təxribatlara əl atdığını da gizlətmirdi. Onun qeydlərinə görə, həmin vaxtlarda Azərbaycan daxilində siyasi gərginlik artdığına görə, ayrı-ayrı qüvvələr bir-birinə qarşı durduğuna görə, bəzi şəxslər, bəzi qruplar xalq qarşısında tamamilə ifşa olduqlarına görə təxribat əməlləri daha da genişlənmişdi. Onlar həmin əməlləri gizlətmək üçün, çirkin niyyətlərinə nail olmaq üçün xalqı, milləti, torpağı qana bulamağa, torpağı satmağa, xalqa xəyanət etməyə hazır idilər (47).

Heydər Əliyev Azərbaycan Xalq Cəbhəsinin təxminən bir illik hakimiyyətindən sonra respublikada yaranmış ağır vəziyyəti belə xarakterizə edirdi: «İqtisadiyyat büsbütün dağılmışdır, suveren dövlətin ərazisinin 17 faizi işğal olunubdur, yarım milyondan çox qaçqın var, sənaye və kənd təsərrüfatı istehsalı, tikinti sıfır həddindədir. Əlbəttə, ... əvvəlki rəhbərlik də öz işini görmüşdür. Onların bir «müqəddəs» prinsipləri vardı: rəhbər vəzifəni yalnız Xalq Cəbhəsindən olan tuta bilərdi. Dövlət işi səriştəsiz adamlara, adi aşpaza belə etibar olunurdu. ...Onlar hər şeyi – təsərrüfatı da, mənəviyyatı da, psixologiyanı da viran qoymuşlar. Ən dəhşətlisi bu idi ki, adamlar əlini ağdan-qaraya vurmur, işləmirdilər. Elə işləmək imkanının özü də yox olub getmişdi» (48).

Bütün bunlara əlavə olaraq, vətəndaş müharibəsi təhlükəsi və respublikanın cənubunda Azərbaycanı parçalamaq təhlükəsi xalqın tarixi nailiyyəti olan müstəqilliyin qazanılmasından təxminən

bir il yarım sonra son dərəcə böhranlı bir vəziyyəti ortaya qoydu. Belə bir böhranlı dövrdə xalq əldə etdiyi müstəqilliyin qorumasını etibar edə biləcəyi şəxsi, Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdi və Heydər Əliyev də konkret tarixi şəraitdə Azərbaycanın müstəqilliyinin xilas edilməsi kimi mürəkkəb və məsuliyyətli bir missiyanı öz üzərinə götürdü. Azərbaycan Respublikası Milli Məclisinin sədri seçilməsi münasibətilə etdiyi çıxışında Heydər Əliyev bu missiyanın proqramını açıqladı, qarşıda dayanan vəzifələrə münasibətini bildirdi. Həmin çıxışında Heydər Əliyev bir daha xüsusi olaraq vurğulayırdı ki, Azərbaycan xalqının tarixi nailiyyəti olan dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özünün əsas vəzifələrindən biri hesab edir. O, qətiyyətlə bildirirdi ki, Azərbaycan daha öz müstəqilliyini itirməyəcək, heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcəkdir. Keçmiş Sovetlər İttifaqının yenidən bərpa olunmasını, Azərbaycanın bu İttifaqın tərkibinə qayıtması ehtimalını Heydər Əliyev mümkünsüz sayırdı. Ona görə o, respublikanın rəhbərlərindən biri kimi elə ilk çıxışlarından Azərbaycan xalqını Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsinə səfərbər olmağa çağırırdı. Həmin çıxışında Heydər Əliyev konkret tarixi şəraitdə Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi üçün aşağıdakı vəzifələrin həyata keçirilməsinin aktuallığını qeyd edirdi:

-Azərbaycanın işğal olunmuş torpaqlarının geri qaytarılması;

- müharibənin dayandırılması, sülhün yaradılması;

- Azərbaycanda demokratik dövlət, sivilizasiyalı cəmiyyət uğrunda mübarizə aparılması;

- Azərbaycandakı etnik qruplar arasında yaranmış gərginliyin aradan qaldırılması, milliyyətindən, dinindən, siyasi mənsubiy-

yətindən asılı olmayaraq bütün insanlar arasında hüquq bərabərliyinin təmin edilməsi;

- daxili gərginliyin aradan qaldırılması (49).

Milli Məclisin sədri kimi Heydər Əliyev ilk çıxışında Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi üçün aktual olan bu vəzifələrin həlli yollarına da toxunurdu. Həmin çıxışda söylənilən fikirlərə görə qarşıda duran vəzifələri aşağıdakı yollarla həll etmək olardı:

-Azərbaycanın bütün potensialından səmərəli istifadə edilməsi;

- elmi, mədəni, dini dəyərlərdən səmərəli istifadə edilməsi;
- Azərbaycan xalqının birliyinə nail olunması;
- daxili iddiaların, iğtişaşların kənara qoyulması;
- bütün siyasi partiyaların, ictimai təşkilatların, insanların vahid məqsəd ətrafında birləşməsi;

Digər çıxışlarında, bəyanatlarında Heydər Əliyev Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsinin başqa yollarına da toxunurdu. Çünki Azərbaycanın rastlaşdığı problemlər çox müxtəlif idi və onların aradan qaldırılması da sözsüz ki, uyğun yanaşmanı tələb edirdi. Çox tezliklə Azərbaycan Prezidentinin Bakını tərk edib Naxçıvana sığınması ilə ölkəyə rəhbərliyin bütün ağırlığı Heydər Əliyevin üzərinə düşdü. Belə bir dövrdə Azərbaycanın müstəqilliyi dalğasında siyasi hakimiyyətə gəlmiş və ciddi vəzifələrə təyin edilmiş qüvvələr Heydər Əliyevin ətrafında səfərbər olmaqdansa, daha çox şəxsi maraqlarının əsirinə çevrildilər, mövqe, nüfuz və vəzifələrinin qorunması üçün respublika daxilində, həm də cəbhə xətti boyunca təxribatlara əl atdılar. Heydər Əliyevə görə isə respublika daxilində böhranın dərinləşməsinin qarşısının alınması üçün şəxsi ambisiyalara, şəxsi instinktlərə, şəxsi maraqların izlənməsinə son qoyulmalı, hər bir şəxs öz ailə-

si, öz xalqı qarşısında məsuliyyət hiss etməli, Azərbaycan xalqının rastlaşdığı ağır imtahandan çıxmağa çalışmalı idi (50).

Heydər Əliyevin Azərbaycan Respublikası Milli Məclisinin sədri seçilməsindən 1994-cü ilin mayında cəbhədə atəşkəs əldə edilməsinə qədər 11 aylıq bir müddət vardır. Təkcə bu müddət ərzində Heydər Əliyevin əvvəlcə Milli Məclisin sədri, sonra isə Respublika Prezidenti kimi Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, ölkə daxilində siyasi sabitliyin təmin edilməsi məqsədilə keçirdiyi görüşlərin, etdiyi səfərlərin, çıxışların, iştirak etdiyi tədbirlərin yalnız statistikasının aparılması onun tərəfindən son dərəcə genişmiqyaslı işlərin aparılmasından xəbər verir. Həmin hüdudsuz və yorulmaz fəaliyyət də qədəm-qədəm Azərbaycanı düşdüyü böhrandan qopardı, onun müstəqilliyinə əbədilik və dönməzlik gətirdi.

Qısa müddət ərzində Gəncə ətrafında və Lənkəran bölgəsində siyasi mühit sabitləşdirildi, xalqın ümidində olduğu dinclik bərqərar edildi. Bununla Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi üçün daxili siyasi sabitlik yaradıldı.

## 2. Heydər Əliyev və Naxçıvanın müdafiəsinin təşkili

Məlumdur ki, Azərbaycan Respublikası XX əsrin sonlarında öz müstəqilliyini erməni təcavüzünün günü-gündən gücləndiyi bir şəraitdə əldə etmişdi. Bu təcavüz yalnız Qarabağın dağlıq hissəsinə və Azərbaycan sərhədi boyu ərazilərə deyil, həm də Naxçıvana qarşı istiqamətlənmişdi. Erməni millətçiləri XX əsrin əvvəllərindən başlayaraq Naxçıvanın da işğalı üçün davamlı təxribatlara əl atırdılar. SSRİ dövründə dəfələrlə Ermənistan rəhbərliyi tərəfindən Naxçıvanın Ermənistana birləşdirilməsi barəsində mərkəzi hakimiyyət qarşısında məsələ qaldırmışdı. Lakin

buna nail olunmamışdı. SSRİ-nin dağılması ərəfəsində isə ermənilər öz niyyətlərini silah gücünə həyata keçirmək üçün şans əldə etdilər və mərkəzi hakimiyyət orqanlarının susqunluğu şəraitində məqsədlərinə çatmaq üçün təcavüzkarlığa böyük meydan verdilər. 1988-ci ildən başlayaraq erməni diasporu və lobbisi tərəfindən müdafiə olunan və silahlandırılan, mərkəzi hakimiyyət orqanlarının himayədarlığından hər vasitə ilə istifadə edən erməni silahlı quldur dəstələri Naxçıvan ərazisini silahlı basqınlara məruz qoydular. Bu basqınların nəticəsi kimi Naxçıvanın əsas ərazisindən anklav şəklində ayrı olan Kərki kəndi 1990-cı ilin yanvarında erməni millətçi qüvvələri tərəfindən işğal edilərək Naxçıvandan qoparıldı. Bölgədə yerləşmiş olan sovet ordusu hissə və bölmələri bu açıq işğalın qarşısını nəinki almadılar, əksinə erməni silahlı dəstələrinin təcavüzünü hətta himayə də etdilər.

Belə bir ağır dövrdə Heydər Əliyev Moskvadan Naxçıvana qayıtdı, əvvəlcə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, sonra isə bu Məclisin sədri kimi Naxçıvanın müdafiəsinin təşkilində fəal iştirak etdi.

Naxçıvanın müdafiəsinin təşkili kompleks tədbirləri əhatə edirdi. Bura Naxçıvanın dövlət orqanlarının fəaliyyətinin təşkili, Naxçıvanda olan sovet ordusu ilə qarşılıqlı əlaqələrin tənzimlənməsi, Naxçıvanın siyasi-iqtisadi problemlərinin həlli, Türkiyə və İranla lazımi əlaqələrin nizamlanması və s. daxil idi. Muxtar Respublikanın müdafiəsinin hərbi aspektləri də bu kompleks tədbirlərə daxil idi və bu məsələ konkret tarixi şərait üçün kifayət qədər böyük əhəmiyyət kəsb edirdi. Çünki Ermənistandan fərqli olaraq Azərbaycanda silahlı müdafiə dəstələrinin yaradılması istiqamətində heç bir iş görülmürdü. Əksinə, respublikanın o vaxtkı rəhbərliyi Azərbaycanın gələcəyini SSRİ-nin tərkibində gördüyü kimi, müstəqil ordunun yaradılmasına da ehtiyac gör-

mürdü. Azərbaycana qarşı təcavüzkarlıq məqsədilə Ermənistanda çox böyük sayda silahlandırılmış dəstələr təşkil edildiyi halda, Azərbaycan rəhbərliyi bu silahlı dəstələrdən qorunmağın yolunu mərkəzin nəzarəti altında olan qoşunlara ümid bağlanmasında görürdü. Sovet qoşun hissələri isə konkret məqsədlərlə bağlı bəzi vaxtlarda müəyyən fəallıq göstərsə də, daha geniş planda özünü erməni təcavüzünün himayədarı kimi göstərirdi və əslində, belə mövqe erməni diasporunun təsiri altında olan mərkəzi hakimiyyət orqanlarının Azərbaycana olan mövqeyi idi. Heydər Əliyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi ilə bağlı ümidlərin mərkəzə bağlanması ilə birmənalı şəkildə razı deyildi. 1991-ci ilin martında SSRİ-nin saxlanılması ilə bağlı müttəfiq respublikalarda referendum keçirilməsinə Heydər Əliyevin qətiyyətli şəkildə etiraz etməsi də buna bir sübutdur. Respublika rəhbərliyi yalnız 1991-ci ilin avqustunda Moskvada dövlət çevrilişinə cəhd göstərilməsindən sonra Azərbaycanda özünümüdafiə qüvvələrinin yaradılması haqqında qərar qəbul etdi. Bununla belə, respublika rəhbərliyi Azərbaycanda müdafiə qüvvələrinin yaradılması ilə bağlı yenə də aydın siyasət ortaya qoymadı. Nəticədə, Azərbaycana qarşı erməni təcavüzü daha da genişləndi. Belə bir şəraitdə Naxçıvana qarşı həyata keçirilən erməni təcavüzlərinin qarşısının alınması üçün Naxçıvanın daxilindəki imkanlar aranmağa başladı və bu iş Heydər Əliyevin rəhbərliyi altında həyata keçirildi.

1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçiləndən sonra Heydər Əliyevin imzası ilə bu qurumun qəbul etdiyi ilk qərarlardan biri «Naxçıvan Muxtar Respublikası Dövlət Milli Müdafiə Komitəsinin yaradılması haqqında» qərar oldu. Sentyabr ayının 7-də qəbul edilən həmin qərar Muxtar Respublikanın hərbi təhlükəsizliyinin təmin edilməsi

üçün nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinə mərkəzləşdirilmiş rəhbərliyin təmin edilməsi ilə bağlı idi. Qərarda əvvəlcə Naxçıvan Muxtar Respublikasında mövcud olan hərbi-siyasi şəraitin qısaca təsviri verilirdi və bildirilirdi ki, son zamanlar bu vəziyyət daha da mürəkkəbləşmiş, Sədərək kəndi ətrafındakı vuruşmada insan tələfatı olmuş, dövlət mülkiyyətinə və şəxsi mülkiyyətə xeyli ziyan dəymişdi. Bundan başqa, Havuş kəndi erməni silahlı dəstələrinin top atəşləri nəticəsində tamamilə dağıdılmış, Babək rayonunu Kərəməçataq, Yuxarı Buzqov, Şahbuz rayonunun Şada kəndlərinə və Batabat yaylağına ardı-arası kəsilməyən hücumlar olmuş, xeyli sayda mal-qara aparılmış, çobanlar öldürülmüş və girov götürülmüşdür.

Qərarda bildirilirdi ki, baş verən bu təcavüz halları haqqında Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycanın Ali Sovetinə dəfələrlə məlumat verilməsinə baxmayaraq, qəti tədbirlər görülməmiş, əksinə qonşu respublika tərəfindən silahlı basqınların sayı daha da artmışdır. Bölgədə olan sovet ordusu hissələri də nəinki bu təcavüz faktlarının qarşısını almamış, əksinə erməni diasporunun göstərişlərini yerinə yetirən Mərkəzin siyasətinə uyğun olaraq respublika ərazisini qonşu respublikadan edilən silahlı təcavüzdən qorumağa cəhd göstərməmişdi. Erməni millətçi dairələrinin həyata keçirdikləri davamlı təcavüzkarlığın nəticəsində Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə birləşdirən avtomobil və dəmir yolu da tamamilə bağlanmış və bununla Azərbaycanın Naxçıvanla əlaqələri tamamilə kəsilmişdi.

Qərara əsasən Naxçıvan Muxtar Respublikasını yaranmış vəziyyətdən çıxarmaq, qonşu Ermənistandan edilən silahlı basqınların qarşısını almaq, əhalinin təhlükəsizliyini təmin etmək, Naxçıvan Muxtar Respublikasının suverenliyini və ərazi bütövlüyünü müdafiə etmək üçün Naxçıvan Muxtar Respublikası Döv-

lət Milli Müdafiə Komitəsi yaradılmalı idi. Bildirilirdi ki, bu Komitə Azərbaycan Respublikası Ali Sovetinin 30 avqust 1991-ci il tarixli «Azərbaycan Respublikası dövlət müstəqilliyinin bərpa etmək haqqında» bəyannaməsinə, «Azərbaycan Respublikasının milli özünümüdafiə qüvvələrinin yaradılması haqqında» qərarına və Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 1991-ci il tarixli fərmanına əsasən təşkil edilir (51). Qərarda Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr tarixli fərmanına toxunulsa da, onun nə haqqında olması göstərilməmişdir. Çox güman ki, burada Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin yaradılması ilə bağlı 5 sentyabr 1991-ci il tarixli Prezident fərmanına işarə edilmişdir.

Moskvada dövlət çevrilişinə baş verən cəhddən sonra SSRİ-nin parçalanması prosesi daha da gücləndi. Müttəfiq respublikalar bir-birinin ardınca öz suverenliklərini elan etdilər. Bu proses Azərbaycanda, o cümlədən Naxçıvan Muxtar Respublikasında da hərbi-siyasi vəziyyətin daha da mürəkkəbləşməsinə yol açdı. Bir tərəfdən erməni millətçiləri yeni şəraitdə daha da azğınlaşdılar, onların azərbaycanlı əhaliyə qarşı tətbiq etdikləri təcavüzkarlıq böyük miqyas aldı. Digər tərəfdən də mərkəzi hakimiyyət orqanları erməni millətçilərinin bu azğınlaşmasına himayəsini daha da artırdı. Çünki gücünü itirməkdə olan mərkəzi hakimiyyət orqanları bölgədə ağır vəziyyət yaratmaqla respublikaların hər ikisini özündən asılı vəziyyətdə saxlamaq istəyirdi. Ona görədir ki, 1991-ci ilin sentyabrında erməni silahlı quldur dəstələrinin Naxçıvan Muxtar Respublikası ərazisinə basqınlarının sayı daha da artdı. Erməni silahlı dəstələri əhalinin mal-qarasını aparmaqla bərabər sentyabr ayının ortalarında Ordubad rayonunun iki sakinini də qətlə yetirdilər. Bir neçə nəfər də erməni quldurları tərəfindən girov götürüldü.

Bu vəziyyətin aradan qaldırılması üçün Naxçıvan Muxtar Respublikasının rəhbərliyi Ermənistanın sərhədyanı rayonlarının hüquq-mühafizə orqanlarının əməkdaşları ilə əlaqələr saxladılar, qarşılıqlı təmas qurmağa çalışdılar. Heydər Əliyev isə bir neçə dəfə Ermənistan Ali Sovetinin sədri Levon Ter-Petrosyanla təmasda olaraq artan təcavüzün qarşısının alınması üçün yollar aradı. Ermənistan rəhbərliyi bölgədə sabitliyin qorunmasına maraqlı olduğunu bildirsə də, erməni silahlı dəstələrinin quldur basqınlarının sayı artmaqda davam etdi.

Eyni zamanda, 1990-cı ilin yanvarında erməni silahlı quldur dəstələri tərəfindən işğal edilən Kərki kəndinin azad edilməsi istiqamətində aparılan səylər bir nəticə vermədi və bölgədə olan sovet ordusu qüvvələri də erməni millətçiləri tərəfindən Naxçıvanın işğal edilmiş ərazisinin geri qaytarılması istiqamətində əməli yardım göstərmədi. Nəticədə bu kəndin əhalisi qaçqın düşərək müxtəlif yerlərdə məskunlaşmağa məcbur oldu.

Dağlıq Qarabağ ətrafında vəziyyətin daha da mürəkkəbləşməsi Naxçıvan Muxtar Respublikasındakı vəziyyətə də mənfi təsir göstərirdi. Burada kifayət qədər fəallaşan erməni silahlı dəstələrinə lazımi müqavimət göstərilməməsi və mərkəzi hakimiyyət orqanları tərəfindən də öz səlahiyyətləri daxilində Azərbaycana qarşı təcavüzün qarşısının alınmaması nəticəsində Dağlıq Qarabağ Muxtar Vilayətinin böyük bir hissəsi artıq Azərbaycanın nəzarəti altından çıxmışdı.

Naxçıvan rəhbərliyi şübhə etmirdi ki, Dağlıq Qarabağ ətrafında vəziyyətin sabitləşdirilməsi, burada erməni millətçilərinə layiqli cavab verilməsi bütünlükdə Naxçıvan Muxtar Respublikasında da vəziyyətin sabitləşməsinə müsbət təsir göstərəcəkdir. Bu mənada Azərbaycan rəhbərliyindən də ciddi tədbirlərin həyata keçirilməsi gözlənilirdi. Lakin Azərbaycan rəhbərliyinin

aydın olmayan siyasəti, əsaslandırılmamış hərəkətləri vəziyyətin daha da mürəkkəbləşməsinə yol açırdı. Konkret olaraq 1991-ci ilin sentyabr ayında Rusiya Prezidenti B.Yeltsinlə Qazaxıstan Prezidenti N.Nazarbayevin vasitəçilik missiyası ilə Bakıya gəlməsi və sonra da bu prezidentlərin sentyabrın 23-də Rusiyanın Jeleznovodsk şəhərində Azərbaycan və Ermənistan prezidentləri ilə danışıqlar aparması Azərbaycanda heç də birmənalı qarşılanmırdı. Xüsusilə Ermənistanın bu danışıqlara dəvət edilməsi və vasitəçilik missiyasının da Azərbaycan və Ermənistan prezidentləri arasında aparılması düzgün hesab edilmirdi. Çünki bununla Ermənistan Azərbaycanın daxili işlərinə qarışmaq hüququ əldə edirdi. Dağlıq Qarabağ Azərbaycan ərazisi olduğu halda bu bölgə ətrafında yaranan vəziyyətin həllinə başqa bir respublika cəlb edilirdi ki, bu da Azərbaycanın suveren hüquqlarına müdaxilə kimi qiymətləndirilirdi.

Bu məsələ ilə bağlı Naxçıvan Muxtar Respublikasının Ali Məclisi xüsusi bəyanat qəbul etdi. Həmin bəyanatda deyilirdi: «Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Rusiya Federasiyasının Prezidenti B.N.Yeltsin, Qazaxıstan Prezidenti N.A.Nazarbayevin DQMV-də vəziyyətin normallaşdırlması işindəki vasitəçilik missiyalarına razılıq hissi ilə yanaşır. Lakin Ali Məclis Dağlıq Qarabağ Muxtar Vilayətindəki vəziyyətin sabitləşdirilməsi ilə bağlı danışıqlarda Ermənistan Respublikasının bərabər tərəf sifəti ilə iştirak etməsinə Azərbaycan Respublikasının daxili işlərinə müdaxilə və onun dövlət suverenliyinə etinasızlıq kimi qiymət verir. Ermənistanın Azərbaycana hər hansı bir ərazi, xüsusilə Dağlıq Qarabağa olan iddiasından rəsmi şəkildə imtina etməsi bu danışıqların başlanması və bu cür sənədin qəbul edilməsi üçün əsas şərt kimi qoyulmalı idi» (52).

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin tənqidinə məruz qalan sənəd sentyabrın 23-də Jeleznovodskda qəbul edilmiş

«Rusiya Prezidenti B.Yeltsin və Qazaxıstan Prezidenti N.Nazarbayevin vasitəçi nümayəndələrinin səfərinin yekunları haqqında birgə rəsmi məlumat» idi. Həmin məlumatda tərəflər Dağlıq Qarabağ ətrafında yaranmış münaqişənin aradan qaldırılmasının şərtlərini aşağıdakılarda görürdülər: atəşin dayandırılması, 1992-ci il yanvar ayının 1-dən DQMV barəsində Azərbaycan və Ermənistan tərəfindən konstitusiyaya uyğun gəlməyən bütün aktların ləğv edilməsi, qanuni hakimiyyət orqanlarının hakimiyyətinin təsdiq edilməsi, SSRİ Daxili İşlər Nazirliyinin və SSRİ Müdafiə Nazirliyinin qoşun hissələrindən başqa digər bütün silahlı dəstələrin münaqişə zonasından çıxarılması. Münaqişə zonasında vəziyyətin normal hala salınması üçün razılaşdırılmış tədbirlərin həyata keçirilməsi məqsədilə müşahidəçilərin müvəqqəti işçi qrupu yaradılmalı və həmin qrupa Rusiya və Qazaxıstanın səlahiyyətli nümayəndələri də daxil olmalı idi. Bundan başqa, Azərbaycan və Ermənistandan köçürülmüş əhalinin mərhələlərlə geri qaytarılması, onların təhlükəsizliyinin təmin edilməsi, girovların azad olunmasına başlanması və kommunikasiya xətlərinin açılması üçün şərait yaradılmalı idi (53).

Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Heydər Əliyev tərəfindən imzalanmış bəyanatında iki respublika arasında gərginliyin aradan qaldırılması və həmsərhəd rayonlarda gərginliyin aradan qaldırılması üçün Azərbaycanla Ermənistan arasında danışıqların aparılmasını zəruri hesab edirdi. Lakin bir şərtlə ki, Dağlıq Qarabağın Azərbaycanın müstəsna səlahiyyətində olması və bu bölgə ətrafında yaranan vəziyyətin də Azərbaycan tərəfindən həll edilməli olduğu diqqətdən kənarda qalmamalı idi. Ona görə bildirilirdi ki, dörd ölkənin prezidentləri tərəfindən Jeleznovodskda imzalanmış məlumatda Azərbaycan Respublikasının milli mənafeyinə toxunan, gözlənilməz nəticələrə gətirə biləcək

müddəalar vardır: «Mövcud sənədin müddəaları bəzi hallarda yovuşmaz, qeyri-müəyyən xarakter daşıyır. Sənəddə əldə edilmiş razılaşmaların həyata keçirilməsi mexanizmi nəzərdə tutulmur. Buna görə də mövcud rəsmi məlumatın arzu edilən nəticələrə nail olunmasına təminat verəcəyinə ümid azdır. Son həftədə baş vermiş hadisələr də bunu təsdiq edir... Təəccüblüdür ki, rəsmi məlumatda işğal edilmiş Azərbaycan kəndi Kərkinin qaytarılması əksini tapmamışdır» (54).

Doğrudan da belə idi. Bu bəyanatda verilən qiymət öz təsdiqini tapdı. Ermənistan bu razılaşmaya əməl etmədi və Azərbaycana qarşı təcavüz daha da artdı. Nəinki işğal edilmiş Kərki kəndi geri qaytarılmadı, əksinə 1991-ci ilin sentyabr və oktyabr aylarında erməni silahlı dəstələri Azərbaycanın digər ərazilərinin işğalını davam etdirdilər.

Sovet ordusu hərbi qulluqçularının bu təcavüzkarlıqlar zamanı açıq-açığına erməni millətçilərini dəstəkləməsi vəziyyəti xüsusilə gərginləşdirirdi. Belə faktlar Naxçıvan Muxtar Respublikası ərazisində də müşahidə edilirdi. Muxtar Respublika ərazisində yerləşmiş hərbi hissələr və sərhəd dəstəsi yerli hakimiyyət orqanları ilə kifayət qədər əlaqə saxlamırdılar, yerli əhali ilə münaqişələrə gətirib çıxaran hərəkətlərə yol verirdilər. Bu da əhali arasında hərbi qulluqçulara qarşı narazılıqları daha da artırırdı. Məsələn, 1991-ci il oktyabrın 5-də erməni silahlı dəstələri Muxtar Respublika ərazisində yerləşən 02444 nömrəli hərbi hissədə qulluq edən kapitan Milevski, kiçik serjant Sliş və sıravi Tukanın vasitəsilə Ordubad rayonu Gənzə kənd sakini S.Abbasovu oğurlayaraq Ermənistanın Mehri rayonu ərazisinə aparmışdılar. Oktyabr ayının 12-də Ordubad dəmir yolu stansiyasında yerli sakinlər tərəfindən İrəvan şəhərində yerləşən 73879 nömrəli hərbi hissədə xidmət edən leytenant S.Suçkov və praporşik O.Xedrik

şübhəli şəxs qismində saxlanılmışdılar. Araşdırmadan sonra məlum olmuşdu ki, həmin şəxslər erməni millətçi dairələri tərəfindən Naxçıvan Muxtar Respublikası ərazisinə təxribat törətmək üçün göndərilmişlər. Axtarış zamanı bu hərbi qulluqçulardan saat mexanizmi olan 2 ədəd partlayıcı qurğu, 47 briket partlayıcı maddə, 10 min rubladək pul aşkar olunmuş və müsadirə edilmişdi (55).

1991-ci il oktyabrın 22-də Naxçıvan hava limanında sərhəd qoşunları Zaqafqaziya dairəsinə məxsus olan və Ermənistanın Leninakan şəhərindən Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Hadrut rayonuna uçan vertolyotuna baxış keçirilmiş və bu baxış zamanı da erməni millətçilərinin sovet hərbçiləri tərəfindən himayə edilməsi aşkar olunmuşdu. Belə ki, Dağlıq Qarabağın 3 erməni sakininin də olduğu həmin vertolyotda partlayıcı maddələr aşkar edilmişdi.

Bir-birinin ardınca təkrarlanan bu xoşagəlməz faktlar erməni millətçilərinin Naxçıvan Muxtar Respublikası ərazisində sovet hərbçilərinin köməyi ilə təxribat törətmək cəhdlərindən əl çəkmədiyini göstərirdi. Belə bir təxribat cəhdi oktyabr ayının 26-da Azərbaycanla Türkiyə arasında tikilən körpü yaxınlığında da baş vermişdi. Bu məqsədlə İrəvanın «Zvartnos» hava limanı nəzarət-buraxılış məntəqəsindəki 2453 nömrəli hərbi hissənin qulluqçusu, sərhəd qoşunları baş leytenantı N.M.Lukaşuk, «Zvartnos» hava limanının işçisi V.S.Susloparov və İrəvan sakini E.M.Martirosyan Sədərək qəsəbəsi ətrafına göndərilmişdilər. İlkin araşdırma zamanı E.Martirosyan bildirmişdi ki, onlar, doğrudan da, təxribat törətmək üçün İrəvanın erməni silahlıları tərəfindən Azərbaycan-Türkiyə körpüsünün tikildiyi əraziyə göndərilmişlər (56).

Belə təxribatların qarşısının alınması və bölgədə yerləşən sovet hərbi hissələrinin hərbi qulluqçularının da erməni silahlı-

larının əlində vasitəyə çevrilməsinə son qoyulması üçün 1991-ci il oktyabrın 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Muxtar Respublika ərazisində yerləşən sovet qoşun hissələrinin statusu haqqında məsələni müzakirə etdi. Ali Məclisdə aparılan müzakirələr zamanı Muxtar Respublikadan keçən dövlət sərhədinin qorunmasının təşkilinin bəzi anlaşılmaz məqamlarına da münasibət bildirildi. Belə ki, Naxçıvan Muxtar Respublikası ərazisindən keçən Sovet-İran və Sovet-Türkiyə sərhəd xətti burada yerləşən 41-ci sərhəd dəstəsi tərəfindən mühafizə olunmalı olduğu halda, dövlət sərhədinin Ordubad və Sədərək rayonları ərazisindən keçən hissəsinin mühafizəsi Ermənistanda yerləşən sərhəd dəstəsinə tapşırılmışdı. Bu isə yerli hakimiyyət orqanları ilə Ermənistanda yerləşən dəstə arasında qarşılıqlı əlaqələr qurulmasını çətinləşdirirdi. Belə bir vəziyyət, eyni zamanda, həmin dəstədən Naxçıvan Muxtar Respublikası ərazisinə göndərilmiş hərbi qulluqçuların erməni silahlılarının fitnələrinə uymasını da istisna etmirdi. Bu anlaşılmazlığın aradan qaldırılması üçün hələ 1990-cı ildə Naxçıvan rəhbərliyi Muxtar Respublika ərazisindən keçən dövlət sərhəd xəttinin bütünlüklə 41-ci sərhəd dəstəsinə həvalə edilməsi haqqında məsələ qaldırmışdı. Lakin həmin məsələ öz həllini tapmamışdı.

Ali Məclisin oktyabr ayının 26-da keçirilən iclasında Sərhəd Qoşunlarının Zaqafqaziya dairəsinin komandanlığından və 41-ci sərhəd dəstəsinin rəhbərliyindən tələb edildi ki, Naxçıvan Respublikası ərazisindən keçən dövlət sərhəd xəttinin bütünlüklə 41-ci dəstənin mühafizəsinə verilməsi məsələsini üç gün müddətində həll etsinlər. Qeyd etmək lazımdır ki, Ali Məclisin bu qətiyyətli tələbi sərhəd qoşunlarının rəhbərliyi tərəfindən deyilən müddət ərzində yerinə yetirildi. Oktyabr ayının 30-da sərhəd qoşunları Zaqafqaziya dairəsinin rəis müavini polkovnik V.Vaxri-

nov və 41-ci sərhəd dəstəsinin rəisi polkovnik V.Jukov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevlə görüşərək Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən bütün sərhəd məntəqələrinin 41-ci sərhəd dəstəsinə tabe edilməsi haqqında məlumat verdilər (57).

Muxtar Respublika ərazisində yerləşən 41-ci sərhəd dəstəsinin rəisi polkovnik V.Jukov, habelə 75-ci mexanikləşdirilmiş atıcı diviziyanın komandiri general-mayor R.V.Slaboşeviç Ali Məclisin oktyabrın 26-da keçirilmiş iclasına da dəvət edilmişdilər. Bu şəxslərin hər ikisi müzakirə olunan məsələ ilə əlaqədar Ali Məclisin üzvləri qarşısında məlumatla çıxış etdilər. Aparılan müzakirələrdən sonra Ali Məclis tərəfindən «Naxçıvan Muxtar Respublikasında yerləşən hərbi qüvvələrin hissələrinin statusu haqqında» qərar qəbul edildi.

Bu qərara əsasən Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən Sovet İttifaqı hərbi qüvvələrinin statusu ilə əlaqədar bütün məsələlərin hərtərəfli öyrənilməsi və təhlil edilməsi, onlarla yerli hakimiyyət orqanlarının qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi, hərbi qulluqçularla yerli əhali arasında münaqişəli halların qarşısının alınması məqsədilə birgə tədbirlər hazırlanması üçün xüsusi komissiya yaradıldı. Həmin komissiyanın tərkibinə Muxtar Respublikanın bir sıra deputatları, habelə 75-ci motoatıcı diviziyanın komandiri ilə 41-ci sərhəd dəstəsinin rəisi də daxil edilmişdilər.

Qeyd etmək lazımdır ki, Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən hərbi hissələrin statusunun müəyyənləşdirilməsi haqqında Ali Məclisin qərarı SSRİ hərbi strukturlarının rəhbərləri tərəfindən müəyyən nigarançılıqla qarşılandı. Güman edilirdi ki, belə bir qərarın qəbul edilməsi Muxtar Respublikada olan hərbi hissələrin fəaliyyətinin məhdudlaşdırılmasına istiqamətlənmiş-

dir. Bu məsələnin araşdırılması ilə bağlı SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin sədr müavini N.A.Şam və SSRİ Baş Sərhəd İdarəsinin şöbə rəisi A.A.Bessonov noyabr ayının əvvəllərində Naxçıvana gəldilər. Noyabr ayının 6-da Heydər Əliyev onlarla görüşdü. Həmin görüş zamanı son aylar ərzində ayrı-ayrı hərbi xidmətçilərlə, o cümlədən sərhədçilərlə əhali arasında törədilən, əhalinin narazılığına səbəb olan və yerli hakimiyyət orqanları ilə Muxtar Respublika ərazisində yerləşən hərbi hissələrin qarşılıqlı fəaliyyətini mürəkkəbləşdirən hüquqa zidd hərəkətlər geniş müzakirə olunmuşdu. Qonaqların nəzərinə çatdırıldı ki, söhbət heç də hərbi hissələrin fəaliyyətinin məhdudlaşdırılmasından yox, hərbi hissələrin qanuna zidd hərəkətlərdən çəkindirilməsindən, konkret vəziyyətlərdə hərbi hissələrlə yerli hakimiyyət orqanları arasında əlaqələrin təkmilləşdirilməsindən gedir. Görüş zamanı bildirildi ki, Naxçıvan Muxtar Respublikası ərazisində sərhəd qoşunları hissələri öz funksiyalarını bu regionda yaranmış real vəziyyətə uyğun həyata keçirməli və yerli orqanlarla qarşılıqlı əlaqənin yaxşılaşdırılmasına səy göstərməlidirlər (58).

Əslində, Ali Məclisin qəbul etdiyi qərarın SSRİ hərbi strukturlarının rəhbərliyində yaratdığı nigarançılıq heç də əbəs deyildi. Çünki İttifaq rəhbərliyinin, Ermənistanda yerləşən Sovet qoşun hissələrinin erməni millətçi dairələrinə hərtərəfli dəstək göstərdiyi, bu millətçi dairələrin Azərbaycana qarşı istiqamətlənmiş təcavüzkarlığının qarşısının alınması üçün mərkəzin öz vəzifələrini yerinə yetirmədiyi və Azərbaycan rəhbərliyinin də Azərbaycan ərazisində yerləşən sovet qoşun hissələrinin yeni şəraitdəki statusunun müəyyənləşdirilməsi üçün konkret addımlar atılmadığı vaxtda Heydər Əliyevin qətiyyəti nəticəsində Naxçıvan Muxtar Respublikasında yerləşən hərbi hissələrin statusu haqqında qərar qəbul edilmişdi. Bu qərar hər şeydən əvvəl Muxtar Respublika

ərazisindəki hərbi qulluqçuların erməni təxribatlarına dəstək vermələrinin, hərbi hissələrin əmlakının respublika xaricinə çıxarılmasının qarşısını aldı və hərbi hissələrin Muxtar Respublika ərazisində yaranmış şəraitə uyğun fəaliyyət göstərmələrini təsbit etdi. Başlıcası isə bu qərar, Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən sovet qoşun hissələrinin əmlakının bütünlüklə Naxçıvan Muxtar Respublikasına təhvil verilməsinə ilkin zəmin yaratdı.

Muxtar Respublika ərazisində yerləşən hərbi hissələrin statusu haqqında Ali Məclisin qəbul etdiyi qərarın hərbi qulluqçularda yaratdığı nigarançılığın müzakirəsi ilə bağlı noyabr ayının 7-də Ali Məclisin sədri Heydər Əliyev Naxçıvanda Muxtar Respublika ərazisində yerləşən bütün hərbi hissələrin komandir heyəti ilə görüş keçirdi. Bu görüşdə Heydər Əliyev geniş nitq söylədi və yeni tarixi şəraitdə Muxtar Respublika ərazisində olan hərbi hissələrin yerli hakimiyyət orqanları ilə qarşılıqlı əlaqələrinin xüsusiyyətlərindən danışdı. O bildirdi ki, son zamanlar ayrı-ayrı hərbi qulluqçular tərəfindən yol verilmiş hüquqa ziddə hərəkətlər yerli əhalinin narazılığına səbəb olmuş, Muxtar Respublikadakı hərbi texnikanın və silahın çıxarılması haqqında şayiələr naxçıvanlılarda narahatçılıq doğurmuşdur ki, bunlar da yerli əhalidə hərbi xidmətçilərə qarşı inamsızlığı artırmış və onsuz da mövcud olan gərginliyi bir qədər də mürəkkəbləşdirmişdir. Bu gərginliyin və anlaşılmazlıqların aradan qaldırılması üçün Heydər Əliyev hərbi hissələrlə Muxtar Respublikanın rəhbərliyi arasında sıx qarşılıqlı fəaliyyətin olmasının zəruriliyini vurğuladı və hərbi hissə komandirlərinin də nəzərinə çatdırdı ki, Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən bütün hərbi hissələr öz xidməti vəzifələrini Naxçıvan Muxtar Respublikasının və Azərbaycan Respublikasının dövlət müstəqilliyini nəzərə almaqla, yerli hakimiyyət orqanları ilə sıx qarşılıqlı əlaqədə həyata keçirməlidirlər. Ali Məclisin

sədri, eyni zamanda, Muxtar Respublika ərazisində hansı hərbi hissələrin yerləşməsinin, onların say tərkibinin və təyinatının dəqiqləşdirilməsinin də yerli xalq üçün əhəmiyyət kəsb etdiyini nəzərə çatdırdı (59).

Başqa sözlə, Heydər Əliyev bəyan etdi ki, bölgədəki hərbi hissələr öz müstəqilliyini elan etmiş Azərbaycanın Respublikasının tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasındadırlar və ona görə də buradakı hərbi hissələr ərazisində qərar tutduqları dövlətin qanunlarına biganə yanaşmamalıdırlar və bu qanunlarla hesablaşmalıdırlar. Bununla əlaqədar nəzərdə tutulurdu ki, Muxtar Respublikada yerləşən hərbi hissələrin statusu dəqiqləşdirilsin. Yəni müəyyənləşdirilməli idi ki, yeni şəraitdə hərbi hissələrin yerli hakimiyyət orqanları ilə əlaqələri, bu hissələrin yerli hakimiyyət orqanları ilə bağlılığı hansı səviyyədə olmalıdır, hərbi hissələr yerli hakimiyyət orqanlarının icazəsi olmadan bu və ya digər vəzifələri yerinə yetirə bilərdilər, ya yox? Bu statusun müəyyənləşdirilməsi hərbi hissələrin səlahiyyətlərinin müəyyən çərçivəyə salınması demək idi. Əgər əvvəllər hərbi hissələr yuxarı hərbi instansiyadan aldıqları tapşırıqları sorğu-sualsız icra etməli olurdularsa, yeni şəraitdə hərbi hissələr hərbi vəzifələrinin icrası zamanı artıq yerli hakimiyyət orqanlarının iradəsini də nəzərə almalı idilər. Ona görə də hərbi hissələr və o cümlədən də yuxarı hərbi komandanlıq Naxçıvan Muxtar Respublikasının hakimiyyət orqanlarının bölgədəki hərbi hissələrin idarə edilməsinə təsir imkanı əldə etməsi ilə razı deyildilər və onun üçün də Muxtar Respublika ərazisindəki hərbi hissələrin statusunun müəyyənləşdirilməsi hərbi hissələrin rəhbərliyi tərəfindən hər vasitə ilə ləngidilirdi. Bu isə Naxçıvan Muxtar Respublikasının rəhbərliyini qane etmirdi. Xüsusilə keçmiş SSRİ-nin dağılması prosesinin dönməz xarakter aldığı, Azərbaycan ərazisində isə hərbi-siyasi

şəraitin daha da mürəkkəbləşdiyi bir şəraitdə hərbi hissələrin statusunun hələ də müəyyənləşməməsi haqlı suallar doğururdu. Bu suallara cavab tapılması məqsədilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1991-ci il dekabrın 16-da «Naxçıvan Muxtar Respublikasında yerləşən silahlı qüvvələrin hissələrinin statusu haqqında» Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 26 oktyabr 1991-ci il tarixli qərarının icra vəziyyəti haqqında məsələ müzakirə edildi. Ali Məclisin iclasında bildirildi ki, toxunulan məsələnin müzakirəyə çıxarılması həm Azərbaycan Respublikasında, həm də SSRİ məkanında meydana gələn yeni şəraitlə bağlıdır. Azərbaycan Respublikasında meydana gələn yeni şərait Azərbaycan Respublikası Ali Soveti tərəfindən 1991-ci il oktyabrın 9-da «Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında» Qanunun qəbul edilməsi ilə bağlı idi. Oktyabr ayının 9-da Azərbaycan Respublikası Ali Soveti eyni zamanda «Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında» qanunun qüvvəyə minməsi barədə» qərar da qəbul etmişdi (60) ki, həmin qərarda Azərbaycan Respublikası ərazisində yerləşən hərbi qüvvələrin statusunun müəyyənləşdirilməsi haqqında müəyyən məqamlar öz əksini tapmışdı. Bu qərarla respublika Ali Soveti Nazirlər Kabinetinə tapşırırdı ki, Azərbaycan ərazisində yerləşən SSRİ Silahlı Qüvvələri hissələrinin və bölmələrinin silahları və digər maddi-texniki sərvətləri, o cümlədən binaları milliləşdirilsin, onlar inventarlaşdırılsın və Azərbaycan Respublikası Prezidentinin sərəncamına verilsin. Azərbaycan Respublikası Ali Sovetinin 8 noyabr 1991-ci il tarixli qərarı ilə SSRİ Silahlı Qüvvələri hissələrinin Azərbaycan ərazisindəki əmlakının milliləşdirilməsi məsələsi aşağıdakı kimi konkretləşdirildi: Azərbaycan Respublikası ərazisində yerləşən SSRİ Silahlı Qüvvələri hissələrinin və bölmələrinin, SSRİ Müdafiə Nazirliyinin və SSRİ Daxili İşlər Na-

zirliyinin qoşunlarının, sərhəd qoşunlarının, mülki-müdafiə hissələrinin və başqa birləşmələrin silahları və digər maddi-texniki sərvətləri, o cümlədən binaları və qurğuları milliləşdirilsin. Silahların, hərbi texnikanın və maddi-texniki əmlakın bütün növlərinin çıxarılması və göndərilməsi, hərbi obyekt və qurğuların, habelə yuxarıda sadalanan nazirliklərin qoşunlarının təminat və xidmət bazalarının sökülməsi və korlanması ilə bağlı hər cürə hərəkətlər yolverilməz hesab edilsin.

Azərbaycan Respublikası Ali Sovetinin 9 oktyabr tarixli qanunundan və qərarından sonra Nazirlər Kabineti 1991-ci il oktyabrın 16-da «Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında» 225 nömrəli sərəncam verdi və həmin sərəncam icra olunmaq üçün Naxçıvana da göndərildi. Həmin sərəncamda bildirilirdi ki, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, ərazilərində SSRİ Müdafiə Nazirliyinin, SSRİ Daxili İşlər Nazirliyinin, SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin birləşmələri, hissələri, sərhəd dəmiryol qoşunları və s. yerləşən rayon və şəhər xalq deputatları sovetlərinin icraiyyə komitələri Azərbaycan Respublikası Nazirlər Kabineti komissiyasının xüsusi icazəsi olmadan öz bölgələrinin hüdudlarından kənara hərbi texnika, avadanlıq, silah və digər hərbi əmlak aparılmasına yol verməsinlər.

SSRİ məkanında yaranan yeni şərait isə ondan ibarət idi ki, Rusiya, Ukrayna və Belarusun prezidentləri Minskdə görüşərək slavyan dövlətləri birliyinin yaradaraq Sovetlər İttifaqının dağıldığını bəyan etdilər. SSRİ-nin dağılması onun vahid silahlı qüvvələrinin bölünməsi məsələsini də ortaya çıxarmışdı. Müstəqilliyini elan etmiş respublikaların bir neçəsi öz ərazisində yerləşən SSRİ Silahlı Qüvvələri hissələrinin yerli hakimiyyət orqanlarına tabe etdirilməsi haqqında qərar qəbul etmişdilər.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bu yeni şəraitdə Muxtar Respublika ərazisində yerləşən hərbi hissələrin də

statusunun müəyyənləşdirilməsini zəruri sayırdı. Ali Məclis belə hesab edirdi ki, İttifaqın dağılması və Zaqafqaziyada müstəqil dövlətlərin yaranması ilə əlaqədar Zaqafqaziya hərbi dairəsi öz mövqeyini müəyyən etməli, bu dövlətlərdə yerləşən hərbi hissələrin yerləşdikləri ərazidən çıxarılması və yaxud onların yerli ali hakimiyyət orqanlarına tabe etdirilməsi məsələsi həll edilməlidir. Bununla əlaqədar Ali Məclis Muxtar Respublika ərazisində yerləşən hərbi hissələrin Naxçıvanda saxlanılmasını və onların Muxtar Respublikanın ali hakimiyyət orqanlarına tabe etdirilməsini zəruri sayırdı (61).

1991-ci il dekabrın 21-də Almatıda on bir müstəqil respublikanın dövlət rəhbərləri toplaşaraq Müstəqil Dövlətlər Birliyinin yaradılması haqqında müqavilə imzaladılar (62). Bununla SSRİ-nin dağılması yolunda daha bir addım atıldı və SSRİ-yə aid olan Silahlı Qüvvələrin bölüşdürülməsi məsələsi daha da aktuallaşdı. Müəyyən qərarlar qəbul edilməsinə baxmayaraq, Azərbaycan rəhbərliyi bu məsələdə lazımi qətiyyət göstərmədiyi halda, Heydər Əliyev bu məsələnin dövlətin milli maraqları çərçivəsində həll edilməsinə xüsusi diqqət yetirdi. Naxçıvan Muxtar Respublikasındakı hərbi hissələrinin statusunun müəyyənləşdirilməsi ilə bağlı qəbul edilən qərarın həyata keçməsi üçün Heydər Əliyev tərəfindən ciddi tələbkarlıq nümayiş etdirildi və hərbi hissələrin əmlakının milliləşdirilməsi daha real xarakter aldı. Bunu hiss edən hərbi hissələrin xidmətçiləri müəyyən təxribatlara əl atdılar. Onlar hərbi hissələrdəki hərbi texnikanı hər vasitə ilə Muxtar Respublikadan kənara çıxarmağa çalışırdılar. Yerli hakimiyyət orqanları və ictimaiyyətin nəzarətindən bu hərəkətlərin gizlədilməsi mümkün olmayanda hərbi qulluqçular silah və texnikanı məhv etməyə cəhd göstərirdilər. Bu faktlar da ictimaiyyətin və hakimiyyət nümayəndələrinin nəzərindən kənarda qalmırdı və

bu hallara qarşı barışmaz münasibət göstərilirdi. Hərbi qulluqçuların belə əməlləri bir çox hallarda onlarla yerli əhali nümayəndələri arasında müəyyən gərginliyə də səbəb olurdu. Naxçıvan Muxtar Respublikasındakı hərbi hissələrin yeni şəraitdə yerli hakimiyyət orqanlarının tabeliyinə verilməsi məsələsinin sərtləşdirilməsi hətta Moskvada da narazılıqla qarşılanmışdı. Bununla bağlı SSRİ Müdafiə naziri marşal Şapoşnikov Naxçıvana teleqram da göndərmişdi.

Hərbi hissələrin milliləşdirilməsinin qarşısını almaq üçün bu hissələrin hərbi qulluqçuları müxtəlif bəhanələrə də əl atırdılar. Bu bəhanələrdən biri guya yerli əhalinin hərbi qulluqçulara qarşı münaqişələrə əl atması idi. Bu məsələ Muxtar Respublikanın müvafiq vəzifəli şəxsləri tərəfindən araşdırılmış və məlum olmuşdu ki, hərbi qulluqçuların iddiaları iftiradan başqa bir şey deyildir və həmin iftiralar hərbi qulluqçuların törətdiyi təxribatların pərdələnməsinə xidmət edir.

Ali Məclisin sədri Heydər Əliyev müzakirə olunan məsələyə aydın və konkret münasibət bildirdi və qeyd etdi ki, Muxtar Respublika ərazisindəki hərbi texnikanın xarab edilməsinə, Muxtar Respublikadan çıxarılmasına yol verilməməli, bu silah və texnika respublikaya təhvil verilməlidir: «İndi bütün respublikalar müstəqillik əldə etmişlər. Müstəqilliyə keçid dövründə isə çətinliklər olacaqdır. Müstəqillik əldə etmiş respublikalar öz sərvətlərinin sahibi olmaq istəyirlər. Bu da qanuni haldır... Lakin onu da qeyd etmək lazımdır ki, hərbi hissələrdə, bölmələrdə texnikanın, avadanlıqların Muxtar Respublikadan çıxarılması haqqında faktlar vardır. Yadda saxlamaq lazımdır ki, sovet ordusu və onun hərbi texnikası keçmiş İttifaqın bütün respublikalarının xərci ilə yaradılmış və saxlanılırdı. Ona görə də hərbçilərdə olan silahlar, hərbi texnika və avadanlıq onların yerləşdiyi hər bir respublikanın payına

düşməlidir. Biz Muxtar Respublikadan silahların, hərbi texnikanın və avadanlığın aparılmasına heç cür yol verə bilmərik. Suveren respublikalar birliyinin yaranması ilə əlaqədar hər bir respublikada, o cümlədən Naxçıvan Muxtar Respublikasında yerləşən hərbi hissələr yerli hakimiyyət orqanlarına tabe olmalıdırlar» (63).

Lakin bu istiqamətdə görülən işlər Heydər Əliyevi heç də qane etmirdi. SSRİ məkanında gedən proseslər silahlı qüvvələrin taleyinə aydınlıq gətirilməsPni tələb edirdi. 1991-ci il dekabrın 25-də M.S.Qorbaçov da SSRİ prezidenti kimi öz fəaliyyətini dayandırdıqdan və SSRİ hökuməti dağıldıqdan sonra silahlı qüvvələrin taleyinin aydınlaşdırılması daha da aktuallıq kəsb etdi. Çünki mövcud olmayan bir dövlətin silahlı qüvvələri də ola bilməzdi və keçmiş SSRİ-dən qalmış silahlı qüvvələrin artıq yeni statusu müəyyənləşdirilməli idi. Naxçıvan Muxtar Respublikası ərazisində olan hərbi hissələrin komandanlığı isə yeni statusun aydınlaşdırılmasına və yerli hakimiyyət orqanlarının hakimiyyəti altına düşməyə elə də maraqlı deyildi.

Bu məsələ ilə bağlı Naxçıvan Muxtar Respublikasının müəyyən vəzifəli şəxslərinin qətiyyətsiz fəaliyyəti də Heydər Əliyevi lazımınca qane etmirdi. Bunun nəticəsi idi ki, Muxtar Respublika ərazisində yerləşən hərbi hissələrin statusunun müəyyənləşdirilməsi bir neçə dəfə ən yüksək səviyyədə müzakirələrə çıxarılmışdı.

1991-ci il oktyabrın 26-da Muxtar Respublikadakı hərbi hissələrin statusunun müəyyənləşdirilməsi ilə bağlı qəbul olunmuş qərara əsasən xüsusi bir komissiya yaradılsa da, bu komissiyanın fəaliyyəti Heydər Əliyevi razı salmırdı. Hərbi hisslərin statusunun müəyyənləşdirilməsi məsələsi dekabr ayında Ali Məclisdə müzakirə edildəndən sonra da bu istiqamətdə səmərəli bir fəaliyyətin olması hiss edilmədi. Ona görə də hətta SSRİ-nin dağılması məlum olandan sonra Muxtar Respublika ərazisindəki hərbi his-

sələrin statusu müəyyənləşməmiş qalmışdı. Hərbi hissələr isə bu anlaşılmaz vəziyyətdən istifadə edərək respublikanın milli maraqlarına cavab verməyən təxribatlarını davam etdirirdilər. Ayrı-ayrı hərbi bölmələrin komandanlığının qanunsuz hərəkətləri Muxtar Respublika daxilindəki vəziyyəti daha da kəskinləşdirirdi. Belə ki, hərbi hissələr tərəfindən respublikanın müxtəlif rayonlarına heç bir ehtiyac olmadan hərbi qulluqçuların böyük silahlı dəstələri çıxarılır, yerli dövlət orqanlarından xəbərsiz avtomobil və hava nəqliyyatı vasitəsilə gəliş-gediş, hərbi sursatın daşınması əməliyyatı həyata keçirilirdi. Cəhri kəndi yaxınlığında yerləşən hava hücumundan müdafiə taborunun komandanlığı bu hissəyə mənsub olan hərbi sursat və təsərrüfat obyektini qanunsuz şəkildə tamamilə məhv etmişdi. Bu hissənin əmlakının talan edilməsinə bu hissəyə aidiyyəti olmayan 75-ci motoatıcı diviziyanın hərbi qulluqçuları da cəlb olunmuşdular. Naxçıvan Muxtar Respubliksının ərazisindəki hərbi hissələrin statusunun müəyyənləşdirilməsinə cəhd göstərildiyi bir vaxtda hərbi qulluqçuların belə bir saymazyanalığı haqlı olaraq yerli əhalinin də hiddətini doğururdu (64).

Buna görə də hərbi hissələrlə yerli əhali arasında qarşılıqlı münasibətlər daha da mürəkkəbləşirdi. Təxribatları davam etdirən hərbi qulluqçular tərəfindən respublikanın dövlət qanunlarına və qaydalarına, milli adət və ənənələrinə hörmətsizlik və etinasızlıq göstərildiyi üçün onlar müəyyən hallarda yerli əhalinin barışmaz davranışı ilə rastlaşmalı olurdu. 1991-ci il dekabrın 31-də azərbaycanlıların həmrəyliyi və birliyinin bayram edildiyi gün dövlət sərhədi boyunca silahlı sərhədçilərin və gözətçi itlərin çıxarılması da 41-ci sərhəd dəstəsi tərəfindən yerli əhaliyə göstərilən hörmətsizlik kimi qiymətləndirilirdi.

Qeyd etmək lazımdır ki, Azərbaycan ərazisində yerləşən keçmiş SSRİ Silahlı Qüvvələrinin statusunun müəyyənləşdiril-

məsi ilə bağlı respublika rəhbərliyinin nümayiş etdirdiyi süstlük və qətiyyətsizlik də Heydər Əliyev tərəfindən narazılıqla qarşılanırdı. Bu məsələ 1992-ci il yanvar ayının 2-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin qəbul etdiyi qərarda da öz əksini tapmışdı. Həmin qərarda göstərilirdi ki, Azərbaycan Respublikasının siyasi rəhbərliyinin göstərilən məsələ ilə əlaqədar qeyri-müəyyən, qeyri-ardıcıl və bəzən anlaşılmaz mövqeyi respublikanın həyatında müasir mərhələdə mühüm əhəmiyyət kəsb edən problemin həllinə imkan vermir (65).

Yuxarıda qeyd edildiyi kimi, bu məsələ ilə bağlı respublikanın Ali Soveti qərar qəbul etmiş və Nazirlər Kabineti də sərəncam vermişdi. Lakin bu qərar və sərəncamın icrasının təşkilinə ciddi münasibət nümayiş etdirilmirdi. Bu isə respublika ərazisində olan hərbi hissə və birləşmələrin hərbi qulluqçularının özbaşınalıqlarını daha da artırırdı.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin Heydər Əliyev tərəfindən 1992-ci il yanvar ayının 2-də imzalanan qərarında Muxtar Respublika ərazisində yerləşən hərbi hissələrin statusunun müəyyənləşdirilməsi ilə əlaqədar konkret və aydın tələblər irəli sürüldü. Qərarda deyilirdi:

«1. Naxçıvan Muxtar Respublikasının ərazisindəki bütün yeraltı və yerüstü sərvətlərin Azərbaycan xalqının, Muxtar Respublika əhalisinin milli sərvəti olduğunu əsas tutaraq Ali Məclis qeyd edir ki, Muxtar Respublika ərazisində yerləşən silahlı qüvvələr hissələrinin bütün hərbi və təsərrüfat tikililəri, əmlakı, silahları və hərbi sursatları, hərbi və mülki texnikası Naxçıvan Muxtar Respublikasına məxsusdur. Hərbi hissələrin komandanlıqları yuxarıda göstərilənlərin hamısı, sərəncamlarında olan hər bir şey haqqında beş gün müddətində muxtar respublika Ali Məclisinə yazılı məlumat təqdim etməli və Ali Məclisin icazəsi olmadan

respublika ərazisindən, hərbçilərin şəxsi əşyaları istisna olmaqla, heç bir şey aparılmamalıdırlar.

2. Naxçıvan Muxtar Respublikasında yerləşən hərbi hissələrin komandanlıqları onların muxtar respublika ərazisində bundan sonra qalmalarının hüquqi statusu haqqında öz təkliflərini on gün müddətində Ali Məclisə təqdim etsinlər. Ali Məclisin 1991-ci il 26 oktyabrda yaradılmış komissiyası...bütün bu məsələlərə baxsın və Ali Məclisin müzakirəsinə versin. Bu məsələlər qəti həll olunanadək muxtar respublika ərazisində yerləşən silahlı qüvvələrin bütün hissələri bundan sonra muxtar respublika Ali Məclisinə tabe olmalı, prinsipial məsələlərdə fəaliyyətlərini Ali Məclis ilə razılaşdırmalıdırlar» (66).

Bununla belə, SSRİ-yə və o cümlədən onun Silahlı Qüvvələrinə vərəsəliyi öz üzərinə götürmüş Rusiya Federasiyasının mərkəzi orqanlarının müqaviməti 1992-ci ilin ilk aylarında respublikalarda olan hərbi hissələrin milliləşdirilməsinə imkan vermədi. 1992-ci ilin ilk aylarında Azərbaycanda daxili siyasi vəziyyətin gərginləşməsi də bu istiqamətdə səmərəli fəaliyyətin ortaya qoyulmasına mane oldu. Ermənistanın Azərbaycana qarşı təcavüzkarlığının genişləndiyi bir vaxtda Bakıda və bütün respublikada da siyasi vəziyyət xeyli mürəkkəbləşmişdi. Güclənməkdə olan siyasi ehtiraslar milli ordu quruculuğunu böhran vəziyyətinə salmışdı. Respublikanın qanuni hakimiyyət orqanlarının olduğu bir vaxtda ölkə Prezidenti tərəfindən Müdafiə Şurasının yaradılması və respublika ərazisində olan hərbi əmlakın respublika daxilində saxlanmasının müəyyən məsələlərinin bu Müdafiə Şurasına tapşırılması keçmiş sovet hərbi hissələrinin statusunun müəyyənləşdirilməsinə heç də aydınlıq gətirmədi. Moskva ilə aparılan danışıqların da nəticəsiz yubanması məsələnin həllini daha da uzadırdı. Eyni zamanda siyasi gərginliyin nəticəsi kimi respublika

Prezidentinin istefa verməsi, respublikada hakimiyyətsizlik dövrünün başlaması keçmiş sovet hərbi qüvvələrinin əmlakına aydınlıq gətirilməsini ləngidirdi. Keçmiş mərkəzdə kök salmış şovinist qüvvələr tərəfindən dəstəklənən Ermənistanın millətçi dairələri isə bu vəziyyətdən istifadə edərək Azərbaycana qarşı təcavüzkarlığı daha da genişləndirirdilər. Bu təcavüzkarlıq Naxçıvan Muxtar Respublikası ilə bağlı da böyüməkdə idi.

Həmin təcavüzkarlığın qarşısının alınması üçün Muxtar Respublikanın rəhbərliyi dəfələrlə Azərbaycan Respublikasının rəhbərliyinə müraciət edərək əməli yardım göstərilməsi barəsində məsələ qaldırdı. Konkret olaraq Naxşıvan Dövlət Müdafiə Koitəsi hələ 1991-ci il oktyabr ayının 7-də, həmin ilin oktyabr ayının 26-da 1992-ci il yanvar ayının 28-də həmin vaxtlarda vəzifədə olan müdafiə nazirlərinə müraciət edərək Naxçıvanın müdafiə qüvvələrinə silah və sursatla təcili yardım göstərilməsinin zəruriliyinə toxundular. Müdafiə Komitəsinin sonralar verdiyi bəyanatında göstərilirdi ki, A.Mütəllibovun Prezidentliyi dövründə Naxçıvandakı milli hərbi qüvvələr tanınımır və onlara əməli yardım göstərilmirdi. Naxçıvanın müdafiə qüvvələrinin təchizatına belə münasibət, əslində, sonradan da davam etdi. Respublikada hakimiyyət dəyişikliyi baş verəndən və Azərbaycan Xalq Cəbhəsi fəallarının hakimiyyət başına gəlməsindən sonra da Naxçıvanın Müdafiə Komitəsi Muxtar Respublikanın müdafiəsinin təşkili üçün Bakıdan hər hansı bir yardımın alınmadığını bildirirdi. Muxtar Respublikanın müdafiəsinin təşkilinə kömək göstərilməsi məqsədilə Naxçıvanın Dövlət Müdafiə Komitəsi 1992-ci il fevral ayının 24-də, fevral ayının 27-də, həmin il mart ayının 9-da və 30-da yenidən respublikanın Müdafiə nazirinə həyəcan dolu məktublar göndərdi. Dövlət Müdafiə Komitəsindən bildirilirdi ki, həmin məktublarda qaldırılan məsələlərə münasibət nəinki Mü-

dafiə Nazirliyi tərəfindən Naxçıvanın müdafiəsinə olan münasibətin dəyişmədiyini göstərdi, əksinə hələ müdafiə naziri R.Qazıyev adından Naxvan Dövlət Müdafiə Komitəsinin ünvanına hədə-qorxular da eşidilməyə başlandı (67).

Müdafiə Nazirliyindin Naxçıvan Dövlət Müdafiə Komitəsinin məktublarından birinə 1992-ci il mart ayının 14-də verdiyi cavabında birmənalı şəkildə deyilirdi ki, hal-hazırda kömək üçün imkanımız yoxdur (68).

1992-ci il may ayının 1-də Ermənistan silahlı qüvvələri Naxçıvan Muxtar Respublikasına qarşı irimiqyaslı təcavüzə başladı. Bu təcavüz bir neçə gün davam etdi və Muxtar Respublikanın həyatına ciddi zərbələr vurdu. Muxtar Respublika daxilində müdafiə qüvvələrinin olmaması erməni silahlı dəstələrinin təcüvüzünün fəlakətlərini daha da artırdı. Bölgədə olan hərbi hissələrin statusunun müəyyənləşməməsi isə onlardan müdafiə məqsədilə istifadə edilməsini qeyri-mümkün edirdi. Bu təcavüzün qarşısını yalnız Ermənistan rəhbərliyi ilə aparılan danışıqlar nəticəsində almaq mümkün oldu. Lakin yaranan sakitlik heç də uzun sürmədi. May ayının 18-də erməni silahlı dəstələri daha böyük qüvvələrlə Şərur rayonu üzərinə hücuma keçdilər. Bu təcavüz Ermənistan tərəfindən Naxçıvan Muxtar Respublikası üzərinə həyata keçirilən ən qanlı və fəlakətli təcavüz idi. Nəticədə insan itkilərinə yol verilmiş, xeyli sayda adam isə yaralanmışdı. Başlıcası isə Sədərək kəndi dağıdılmışdı. Şərur rayonunun bir neçə kəndinin əhalisi başqa yerə köçürülməli olmuşdu. Bununla da Muxtar Respublika daxilində hərbi-siyasi vəziyyət daha da mürəkkəbləşmişdi. Azərbaycanın əsas hissəsi ilə quru əlaqələrinin kəsilməsi, Muxtar Respublikaya yanacaq, ərzaq və başqa ləvazimatların gətirilməsinin məhdudlaşması, iqtisadiyyatın yararsız vəziyyətdə olması Muxtar Respublikanın daxili vəziyyətini daha da gərginləşdir-

mişdi. Yaranmış bu vəziyyəti qiymətləndirərkən Heydər Əliyev bildirirdi ki, Muxtar Respublikada baş verənlər əlavə tədbirlərin həyata keçirilməsini tələb edir. Bu tədbirlər şübhəsiz ki, həm iqtisadiyyatı, həm də xalqın rifahını yaxşılaşdırmaq və onun adi tələbatlarını ödəmək, həm də Naxçıvan Muxtar Respublikasının müdafiəsinin möhkəmləndirilməsi məsələlərini əhatə etməli idi (69).

Muxtar Respublika daxilində yerli müdafiə qüvvələrinin təşkil edilmədiyinə, buradakı keçmiş sovet hərbi hissələrinin də erməni təcavüzünün qarşısını almaqda iştirak etmədiyinə görə yaranmış gərginliyin aradan qaldırılması üçün Heydər Əliyev diplomatik fəallığa diqqəti xüsusilə gücləndirdi. Elə may ayının 18-də Heydər Əliyev müxtəlif ölkələrin Naxçıvanda olan müxbirlərini toplayaraq onların qarşısında bəyanat verdi, onların vasitəsilə Naxçıvanda yaranmış vəziyyəti dünya ictimaiyyətinə çatdırdı. Dünyanın müxtəlif ölkələrində Ermənistanın Naxçıvana təcavüzü haqqında operativ məlumatlar yayıldı. Ermənistanın təcavüzkar mahiyyətinin dünya xalqlarına çatdırılmasının özünü Heydər Əliyev böyük nailiyyət kimi qiymətləndirirdi. Çünki son illər ərzində erməni millətçi dairələrinin apardığı çirkin təbliğat nəticəsində Dağlıq Qarabağ ətrafında yaranmış vəziyyətlə əlaqədar Azərbaycan ittihamlara məruz qalmışdı. Dünya ictimaiyyəti, bir qayda olaraq, Dağlıq Qarabağ problemi və Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi təcavüzkarlıq haqqında birtərəfli məlumat almışdı. Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasında yaranan vəziyyətlə əlaqədar verdiyi bəyanatlar isə Ermənistanın təcavüzkar mahiyyəti haqqında fərqli məlumatlar ortaya qoydu. Bunun nəticəsi idi ki, həmişə birtərəfliyi ilə seçilən Moskva televiziyası elə həmin günlərdə Ermənistanın Naxçıvana təcavüz etməsi haqqında məlumat yaydı. Oxşar məlumatlar dünyanın bir sıra ölkələrinin informasiya vasitələri tərəfindən də yayıldı.

Nəticədə dünyanın 57 dövləti Ermənistanın Naxçıvan Muxtar Respublikasına qarşı təcavüzkarlığını pislədi. Hətta NATO da bununla bağlı bəyanat verdi. May ayının 18-də Türkiyənin Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikasında yaranmış vəziyyəti müzakirə edərək geniş bir bəyanatla çıxış etdi. Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin nümayəndələri yaranmış vəziyyətlə əlaqədar Muxtar Respublikaya gəldilər və s. (70).

Heydər Əliyev Türkiyənin və İranın hökumət nümayəndələri ilə təmaslar yaratdı, Ermənistanın artan təcavüzkarlığını onlarla müzakirə etdi. Konkret olaraq Türkiyənin Baş naziri Süleyman Dəmirəl, Baş nazirin birinci müavini Ərdəl İnönü, Xarici İşlər naziri Hikmət Çətin Naxçıvana zəng edərək Heydər Əliyevlə əlaqə saxladılar və onlar yaranmış vəziyyətdən çıxmağın yolları müzakirə etdilər. Məsələlərin yerində araşdırılması üçün böyük elçi Ömər Ərsun başda olmaqla Türkiyə Xarici İşlər Nazirliyinin nümayəndə heyəti Naxçıvana gəldi. İranın Xarici İşlər naziri Əliəkbər Vilayəti də Heydər Əliyevlə telefon danışığında Ermənistanın təcavüzkarlığını müzakirə etdi və Naxçıvana yardım göstərilməsi üçün qarşılıqlı razılaşma əldə edildi. Bütün bunların nəticəsində Ermənistanın təcavüzkarlığı beynəlxalq aləmdə kifayət qədər qınandı və Ermənistan məhkum vəziyyətinə düşdü. Ona görə də onlar bir çox vasitələrə əl ataraq sübut etməyə çalışdılar ki, guya onlar Muxtar Respublika üzərinə hücuma keçməyiblər. Hətta Ermənistanın müdafiə naziri və digər rəhbər şəxsləri Heydər Əliyevlə əlaqə saxlayaraq danışıqlar aparılmasına və danışıqlar yolu ilə gərginliyin aradan qaldırılmasına hazır olduqlarını bildirdilər (71).

Naxçıvan Muxtar Respublikasının müdafiəsi ilə bağlı Heydər Əliyevin göstərdiyi qətiyyət, izlədiyi siyasət, həyata keçirdiyi tədbirlər və seçdiyi diplomatik addımlar Ermənistanın ge-

nişmiqyaslı təcavüzünün cilovlanmasına imkan verdi. Naxçıvanın Ermənistanla olan sərhədi boyu müəyyən gərginlik sonradan da özünü göstərməkdə idi. Lakin Sədərək kəndi üzərinə olan hücumdan sonra Heydər Əliyevin ortaya qoyduğu fəaliyyət erməni təcavüzkarlığının daha geniş miqyas almasını önlədi və bununla erməni millətçi dairələri də anladılar ki, onların Naxçıvan Muxtar Respublikası üzərinə həyata keçirə biləcəkləri təxribatlar cavabsız qalmayacaq və daha ciddi beynəlxalq qınaqla qarşılaşacaqlar.

Sədərək kəndi ətrafında vəziyyət mürəkkəbləşdiyi günlərdə Heydər Əliyev erməni təcavüzünün dayandırılmadığı halda hərbi kömək üçün Türkiyəyə müraciət edilməsinin mümkünlüyü haqqında da bəyanat verdi. Bunun üçün hüquqi əsas olduğu da bildirildi və Heydər Əliyev qeyd etdi ki, 1921-ci ildə Qarsda imzalanmış müqaviləyə əsasən Türkiyə Naxçıvanın ərazi bütövlüyünün qarantıdır və ona görə Naxçıvanın Türkiyədən hərbi yardım istəməyə haqqı vardır (72).

Heydər Əliyevin bu bəyanatı həm Ermənistanda, həm də onu hər vasitə ilə himayə edən Rusiyada böyük təşvişlə qarşılandı. Türkiyəyə müraciət edilməsi və onun qoşun hissələrinin Naxçıvana gələ bilməsi bölgədəki geosiyasi vəziyyətə ciddi şəkildə təsir edə bilərdi. Bu isə nə Ermənistanın, nə də Rusiyanın xeyrinə idi. Naxçıvan Muxtar Respublikası ilə Türkiyə rəhbərliyi arasında yaranan münasibətlərin və bu münasibətlərin əməli nəticələrinin nəyə gətirə biləcəyini müzakirə etmək üçün elə həmin günlərdə Rusiyanın dövlət katibi Gennadi Burbulis və Rusiyanın Müdafiə naziri Pavel Qraçov Ermənistana səfər etdilər və bağlı qapılar arxasında Ermənistan rəhbərliyi ilə danışıqlar apardılar. Heydər Əliyev şübhə etmirdi ki, bu danışıqlar zamanı Türkiyənin Naxçıvandakı hadisələrə münasibəti müzakirə obyekti olmuşdur. Eyni zamanda, Müstəqil Dövlətlər Birliyi Silahlı Qüvvələrinin baş

komandanı marşal Şapoşnikov da bəyanat verərək hərbi kömək üçün Türkiyəyə müraciət edilməsi ehtimalı ilə bağlı öz təşvişini bölüşmüş və belə bir köməyin Üçüncü Dünya müharibəsinə gətirib çıxara biləcəyini bildirmişdi. Heydər Əliyevin fikrincə, köhnə düşüncə tərzindən uzaqlaşa bilməmiş marşal Şapoşnikov bu bəyanatı ilə hamını qorxutmağa çalışırdı. O qeyd edirdi ki, marşal Şapoşnikov Naxçıvanın statusu ilə bağlı 1921-ci ildə Türkiyə ilə Rusiya arasında imzalanan müqavilənin ləğv edilmədiyini unutmamalıdır. Heydər Əliyev belə bir bəyanatın verilməsini, əslində, Muxtar Respublikada olan və artıq Rusiyaya tabe etdirilmiş hərbi hissələrin Azərbaycanın suveren bir hissəsi olan Naxçıvan Muxtar Respublikasına qarşı Ermənistanın təcavüzkarlığının qarşısının alınmasında köməkdən boyun qaçırması ilə əlaqələndirirdi (73).

Naxçıvan Muxtar Respublikasında hərbi-siyasi vəziyyətin mürəkkəbləşməsi Bakıda dövlət çevrilişinin baş verdiyi və yenidən hakimiyyətsizliyin yarandığı günlərə təsadüf edirdi. Respublikanın ərazi bütövlüyü mərkəzi hakimiyyət orqanları tərəfindən təmin edilməli olduğu halda Bakıda hakimiyyətsizliyin bərqərar olması və siyasi qüvvələrin də başı hakimiyyət uğrunda mübarizəyə qarışdığı bir vaxtda Naxçıvan Muxtar Respublikasının müdafiəsinin təşkili bütünlüklə Heydər Əliyevin üzərinə düşdü. Belə bir mürəkkəb vəziyyətdə Heydər Əliyev xalq tərəfindən seçilmiş bir lider kimi Naxçıvan Muxtar Respublikasının əhalisini və potensialını öz ətrafında birləşdirərək dövlətçilik təcrübəsini və istedadını yenidən ortaya qoydu və Muxtar Respublikaya qarşı istiqamətlənmiş erməni təcavüzünün genişlənməsinin qarşısını almağa müvəffəq oldu.

Naxçıvanın müdafiəsinin təşkili işində yerli əhali, müxtəlif təşkilatlar tərəfindən verilən dəstəyi də Heydər Əliyev yüksək

qiymətləndirirdi. O bildirirdi ki, son vaxtlar Naxçıvan iqtisadiyyatının ağır vəziyyəti, qaçqınların olması, kəndlərin dağılması ilə əlaqədar Muxtar Respublikanın müdafiə işlərini daha da möhkəmləndirmək üçün bəzi müəssisələr, habelə ayrı-ayrı vətəndaşlar vətənpərvərlik təşəbbüsü ilə bu işə yardım etmək istəyirlər. Bu barədə çoxlu təkliflər alınır və sevindirici haldır ki, Naxçıvanın hər bir sakini öz torpağının qeyrətini çəkir, iqtisadiyyatı inkişaf etdirmək və Muxtar Respublikanın müdafiəsini möhkəmləndirmək üçün öz köməklərini göstərmək istəyirlər (74).

Muxtar Respublikanın müdafiəsinin təşkilinə kömək göstərmək üçün əhali və təşkilatlar tərəfindən maliyyə vəsaitləri də toplanırdı. Lakin bu iş mərkəzləşdirilməmiş şəkildə həyata keçirilirdi. Bu isə toplanmış vəsaitin idarə edilməsini, onlardan məqsədli şəkildə istifadəni müəyyən hallarda çətinləşdirirdi. Bunun qarşısını almaq üçün Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının inkişaf və müdafiə fondunu yaratmağı təklif etdi. Bu təklifə ümumxalq münasibətinin müəyyənləşdirilməsi üçün Ali Məclisin Rəyasət Heyətinin 1992-ci il may ayının 25-də olan iclasına Muxtar Respublikanın dövlət və hökumət orqanlarının rəhbərlərini, müxtəlif təşkilatların, qurumların və ümumiyyətlə bütün sahələrin nümayəndələrini dəvət etdi. Həmin iclasda Heydər Əliyevin təklifi razılıqla qarşılandı və Rəyasət Heyətinin 25 may 1992-ci il tarixli qərarı ilə Naxçıvanın inkişafı və müdafiəsi fondu yaradıldı. Qərarda bildirilirdi ki, yaranmış mürəkkəb şəraitdə «Naxçıvan Muxtar Respublikasının daxili imkanlarından daha da səmərəli istifadə etmək, eyni zamanda, iqtisadiyyatın lazımi səviyyədə işlədilməsi zərurəti ciddi surətdə meydana çıxır. Bu tədbirlərin həyata keçirilməsi üçün Muxtar Respublikanın sənaye, kənd təsərrüfatı, tikinti müəssisələrinin, bütün idarə və təşkilatların, hər bir vətəndaşın mak-

simum səy göstərməsi tələb olunur. Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzlərinin qarşısını almaq, muxtar respublikanın ərazi bütövlüyünü qoruyub saxlamaq, əhalinin normal yaşayış və iş şəraitini təmin etmək üçün respublikanın müdafiəsinin möhkəmləndirilməsi əsas vəzifələrdən biridir» (75).

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatının inkişafını və müdafiəsini təmin etmək üçün hər bir vətəndaşın fəal vətəndaşlıq mövqeyi yüksək qiymətləndirilməklə qərarda Naxçıvanın inkişafı və müdafiəsi fondunun yaradıldığı bildirilirdi. Qərarın bəndlərinin birində deyilirdi ki, Naxçıvan Muxtar Respublikasının nazirliklərinə, dövlət komitələrinə, idarələrinə, sənaye, kənd təsərrüfatı, tikinti müəssisələrinə, assosiasiyalara, kooperativlərə, bütün təşkilatlara, ayrı-ayrı vətəndaşlara Naxçıvanın inkişafı və müdafiəsi fondunun təşkilində iştirak etmək barədə müraciət olunsun. Belə bir müraciətin Naxçıvan Muxtar Respublikasının hüdudlarından kənarda, Azərbaycanda, başqa ölkələrdə Naxçıvana vətənpərvərlik hissləri olan bütün azırbaycanlılara ünvanlanması da nəzərdə tutulurdu. Belə bir fondun yaradılması ilə əlaqədar bankda xüsusi hesab da açılması planlaşdırılırdı (76).

Naxçıvana qarşı istiqamətlənmiş təcavüzün qarşısının alınmasında Heydər Əliyevin may-iyul aylarında diplomatik görüş və müzakirələri də xüsusi əhəmiyyət kəsb edirdi. Bu diplomatik fəaliyyət içində Türkiyənin rəhbərliyi ilə işgüzar münasibətlərin qurulması Naxçıvandan dünyaya qapı açılması baxımından böyük əhəmiyyət kəsb edirdi. Heydər Əliyev dəfələrlə Türkiyənin Baş naziri Süleyman Dəmirəllə telefon əlaqələri saxlamış və Muxtar Respublikada yaranan çətin vəziyyətin aradan qaldırılması yolları barəsində fikir mübadiləsi aparılmışdı. May ayında erməni silahlı dəstələrinin Naxçıvan üzərinə hücumları gücləndiyi günlərdə Naxçıvandan Türkiyəyə nümayəndə heyətinin göndəril-

məsi qərara alındı. Bu nümayəndə heyəti 1992-ci il mart ayının 24-də Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında imzalanmış əməkdaşlıq protokolunun icrasının təşkili məsələləri ilə əlaqədar Türkiyədə görüşlər keçirməli idi. 1992-ci il may ayının 28-də Sədərək yaxınlığında Azərbaycanla-Türkiyə arasında tikilən körpünün açılışında iştirak etmək üçün Türkiyənin Baş naziri Süleyman Dəmirəl Naxçıvan Muxtar Respublikasına səfərə gəldi. Bu səfərin gedişində Süleyman Dəmirəl bildirdi ki, Azərbaycan xalqının son illərdə verdiyi itkilərdən xəbərdardır və Azərbaycan özünün ədalətli mübarizəsində tək deyil. O qeyd edirdi ki, Azərbaycan haqqında həqiqətlərin dünyaya yayılması üçün Türkiyə bütün imkanlardan istifadə edəcəkdir. 1992-ci ilin iyun ayının ilk günlərində isə Heydər Əliyev Türkiyəyə səfər etdi, orada Türkiyənin dövlət və hökumət rəhbərləri ilə görüşərək Naxçıvan Muxtar Respublikasında yaranmış vəziyyət haqqında geniş məlumat verdi və eyni zamanda, Naxçıvanın ağır hərbi-siyasi və iqtisadi vəziyyətdən çıxarılması yolları müzakirə etdi (77).

1992-ci il may ayının ortalarında əvvəlcə İranın Qərbi Azərbaycan ostandarının müavini, sonra isə İranın Xarici İşlər nazirinin müavini Vaizi Naxçıvana səfər etdilər və Naxçıvanda yaranmış vəziyyətlə tanış oldular. Azərbaycanın əsas hissəsi ilə quru, hava və dəmir yolunun bağlı olduğu bir vaxtda İran ərazisindən əlaqələr qurulmasına köməklik göstərilməsini Heydər Əliyev yüksək qiymətləndirdi və ümumiyyətlə İranın Ermənistanla Azərbaycan arasında vasitəçilik etmək cəhdləri bölgədə gərginliyin aradan qaldırılması baxımından əhəmiyyətli addım kimi qəbul edilirdi. Bölgədəki vəziyyətlə yaxşı tanış olan Vaizi Naxçıvanda sabitlik yaradılmasını Heydər Əliyevin böyük xidməti sayırdı (78).

1992-ci il iyun ayının ortalarında isə Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfiri Naxçıvan Muxtar Respublikasına

səfər etdi, orada Heydər Əliyev tərəfindən qəbul edildi. Qəbul zamanı Heydər Əliyev Ermənistanın təcavüzkar siyasəti üzündən Naxçıvan Muxtar Respublikasının sərhədləri boyunca yaranmış gərgin vəziyyət haqqında səfiri məlumatlandırdı, Muxtar Respublikadakı vəziyyətlə onu yaxından tanış etdi. Bütün bunlar sözsüz ki, Ermənistanın Azərbaycana qarşı apardığı siyasətin mahiyyəti haqqında həqiqətin daha geniş yayılmasına kömək edirdi. Həyata keçirilən tədbirlər Ermənistanın Naxçıvan Muxtar Respublikası üzərinə genişmiqyaslı təcavüzə keçməkdən çəkindirirdi. Bununla belə, sərhədboyu ərazilərdə müəyyən gərginlik qalmaqda davam edirdi. Bu gərginliyin aradan qaldırılması üçün Heydər Əliyev Ermənistan rəhbərliyi ilə danışıqlar aparılmasını da mümkün sayırdı və vaxtaşırı bu istiqamətdə müəyyən addımlar da atılırdı: «Belə bir şəraitdə bizim əsas məqsədimiz ondan ibarətdir ki, Ermənistan rəhbərliyi ilə danışıqlar apararaq bu atışmaları dayandıraq. Ermənistan rəhbərliyi də hər dəfə sərhəddə gedən atışmaların dayandırılmasına tərəfdar olduqlarını bildirir, lakin bunun real surətdə həyata keçirilməsi üçün lazımi tədbirlər görmür» (79).

1992-ci il iyun ayının əvvəllərində Ermənistan rəhbərliyi bu respublika ilə Naxçıvan Muxtar Respublikası arasında münasibətlərin normallaşdırılması üçün təkliflər paketini Naxçıvana göndərdi. Ermənistan Azərbaycana qarşı təcavüzkar niyyətlərindən əl çəkməsə də, Naxçıvandan keçən yolların bağlanması bu respublikanın da iqtisadi vəziyyətinə ciddi təsir göstərirdi. Ona görə Ermənistan rəhbərliyi kommunikasiyaların açılması üçün müəyyən addımlar atmaq istəyirdi. Təkliflər paketində də bildirilirdi ki, Naxçıvanın Ermənistanla olan sərhəd xətti boyunca sabitlik təmin edilsin, dəmir yolu xətti açılsın. Heydər Əliyev bu təkliflərlə tanış olandan sonra onlara ümumazərbaycan mövqeyindən yanaşdı və öz təkliflərini ortaya qoydu. O bəyan edirdi

ki, Ermənistanla olan münasibətlər Azərbaycanla Ermənistan arasında olan münasibətlərlə bağlı olaraq tənzimlənməlidir və onun üçün də təklif edilirdi ki, ilk növbədə iki respublika arasında davam edən münaqişəyə son qoyulsun. Çünki bu münaqişənin dayandırılmayacağı halda hər hansı bir sahədə Ermənistanla normal münasibətin qurulması mümkün deyildi və o cümlədən dəmir yolunu açmaq da mümkün olmayacaqdı. Ermənistan tərəfi, əslində, Heydər Əliyevin bu arqumenti ilə razılaşırdı və münaqişənin dayandırılması üçün sərhəd xətti boyunca xarici müşahidəçilərin iştirakı ilə 10 müşahidə postunun yaradılmasını təklif edirdi. Onların mövqeyi belə idi ki, həmin müşahidə postlarına İrandan olan müşahidəçilər gətirilməlidirlər. Bununla bağlı Ermənistan tərəfi İrana müraciət də etmiş və İran tərəfinin bu məsələ ilə bağlı razılığını almışdı. Heydər Əliyev isə müşahidəçilərin yalnız bir ölkədən olmasını düzgün saymırdı və təklif irəli sürdü ki, müşahidə postlarına İranla bərabər, həm də Türkiyədən olan müşahidəçilər yerləşdirilsin. Ermənistan rəhbərliyi bu təkliflə razılaşmadı. Onda müşahidə postlarına İran, Türkiyə və Rusiya müşahidəçilərinin yerləşdirilməsi təklif edildi. Bu təklif də Ermənistan rəhbərliyi tərəfindən qəbul edilmədi (80).

Yəni Ermənistan tərəfi bir daha nümayiş etdirdi ki, münaqişənin dayandırılması ilə bağlı bu ölkənin rəhbərliyi hər hansı əməli bir addım atmaq niyyətində deyil.

Naxçıvan Muxtar Respublikasının müdafiəsinin təşkili ilə bağlı müxtəlif xarakterli tədbirlər həyata keçirsə də, bu məsələ ilə bağlı görülən işlərin əsas istiqamətlərindən birini Naxçıvanda yerli müdafiə qüvvələrinin, yəni Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Naxçıvan strukturlarının formalaşdırılması və onların silah və sursatla təmin edilməsi idi. Buna görə də Muxtar Respublika ərazisində yerləşən Rusiyaya məxsus hərbi hissələ-

rin əmlakının dinc şəkildə milliləşdirilməsi və bu əmlakın yeni yaradılmaqda olan ordu strukturlarına verilməsi diqqət mərkəzində qalmaqda idi.

Naxçıvan ərazisində yerləşmiş keçmiş SSRİ Silahlı Qüvvələrinin hissələrinin Rusiya Federasiyasının tabeliyinə keçdiyini nəzərə alaraq Muxtar Respublika Ali Məclisinin rəhbərliyi Rusiya Müdafiə Nazirliyinin, Milli Təhlükəsizlik Nazirliyinin rəhbərləri ilə, Rusiya Sərhəd Qoşunları Baş Komandanlığının rəhbərləri ilə, Zaqafqaziya Hərbi Dairəsinin, Zaqafqaziya Sərhəd Qoşunları Dairəsinin, Naxçıvanda yerləşən 75-ci motoatıcı diviziyasının, 41-ci sərhəd qoşunları dəstəsinin komadanlıqları ilə müxtəlif vaxtlarda danışıqlar aparmış, Naxçıvan ərazisində yerləşən və eyni zamanda, Azərbaycan Respublikasının tabeliyində olmayan qoşun hissələrinin ləğv olunmasını tələb etmişdi. Həmin danışıqlarda Muxtar Respublika Ali Məclisinin rəhbərliyi Azərbaycan Respublikasının artıq tam müstəqil dövlət olduğunu və dünya dövlətləri tərəfindən də bu müstəqilliyin tanındığını əsas tutaraq Azərbaycanın, onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının ərazisində başqa dövlətin hərbi hissələrinin qalmasının qeyri-mümkün olduğunu bəyan etmişdi. Aparılan bu səmərəli danışıqlar və fəaliyyət nəticəsində Rusiya dövləti, onun Müdafiə Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Sərhəd Qoşunları Baş Komandanlığı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin rəhbərliyinin, Heydər Əliyevin qətiyyətli mövqeyini qəbul etmiş və nəhayət ki, Muxtar Respublika ərazisində yerləşən 75-ci motoatıcı diviziyanın, 41-ci sərhəd qoşunları dəstəsinin ləğv olunması və bu hərbi hissələrin sərəncamında olan silahların, sursatların, texnikanın, hərbi və mülki əmlakın Azərbaycan tərəfinin sərəncamına verilməsinə razı olmuşdu (81).

Bununla bağlı olaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1992-ci il iyul ayının 25-də xüsusi qərar qəbul etdi. Həmin qərarda deyilirdi:

«1. Rusiyanın Müdafiə Nazirliyi, Zaqafqaziya hərbi dairəsinin və 75-ci motoatıcı diviziyasının komandanlıqları ilə aparılan danışıqlar nəticəsində Naxçıvan şəhərində yerləşən 75-ci motoatıcı diviziyanın ləğv edilməsi və diviziyanın bütün hərbi və təsərrüfat əmlakının Azərbaycan Respublikasının sərəncamına verilməsi haqqında əldə olunmuş razılıq barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevin məlumatı nəzərə alınsın.

2. Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinə tapşırılsın ki, 75-ci motoatıcı diviziyanın bütün hərbi və təsərrüfat əmlakının planlı, mütəşəkkil surətdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin sərəncamına verilməsi üçün lazımi tədbirlərin həyata keçirilməsini təmin etsin.

3. Yuxarıda göstərilənlərə əsasən Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin yenidən təşkil olunması və onun bazasında Azərbaycan Müdafiə Nazirliyinin tərkibində müvafiq hərbi strukturun yaradılması zəruri hesab edilsin.

4. 75-ci motoatıcı diviziyanın hissələrində xidmət edən bütün azərbaycanlıların Azərbaycan Respublikası Silahlı Qüvvələrinin tərkibinə daxil olması barədə məlumat nəzərə alınsın» (82).

Heydər Əliyev tərəfindən imzalanmış olan bu qərarda bir neçə məqam diqqəti cəlb edir. Əvvəla, qərara əsasən dərhal 75-ci motoatıcı diviziyanın əmlakının təhvil alınmasına başlanmalı idi. Bu işə Naxçıvan Muxtar Respublikasının Dövlət Müdafiə Komitəsi rəhbərlik etməli idi. Diviziyanın əmlakı ilə birlikdə bu diviziyada xidmət edən azərbaycanlı hərbi qulluqçular da Azərbaycan Silahlı Qüvvələrinin yerli strukturlarında xidmət etməyə

keçməli idilər. Digər tərəfdən sovet ordusunun Muxtar Respublikada olan bütün əmlakının təhvil verilməsindən və Muxtar Respublikada Azərbaycan Silahlı Qüvvələrinin strukturlarının formalaşdırılmasına başlanmasından sonra Dövlət Müdafiə Komitəsinin qalması ehtiyacı da aradan qalxırdı. Ona görə də qərarda Muxtar Respublikanın Dövlət Müdafiə Komitəsinin yenidən qurulması haqqında da göstəriş var idi.

Naxçıvan Muxtar Respublikası ərazisindəki sovet qoşun hissələrinin əmlakının dinc şəkildə və bütünlüklə Azərbaycan tərəfinə təhvil verilməsi böyük tarixi bir hadisə idi. SSRİ dağıldıqdan sonra bu dövlətin ordusunun bölüşdürülməsi üçün yenicə müstəqillik qazanmış dövlətlərlə SSRİ-nin varisliyini üzərinə götürmüş Rusiyanın hökumət orqanları arasında dəfələrlə müzakirələr aparılmış və hətta müəyyən razılaşmalar da ortaya qoyulmuşdu. Bununla belə, Rusiyanın siyasi və hərbi rəhbərliyi respublikalardakı hərbi strukturların əmlakının bütünlüklə təhvil verilməsinin qarşısını hər vasitə ilə almağa çalışır və bunun üçün ən müxtəlif təxribatlara əl atılırdı. Azərbaycanda da çoxlu sayda belə təxribatlara əl atılmışdı. Belə bir şəraitdə Heydər Əliyevin məsələyə ardıcıl mövqeyi və prinsipiallığı nəticəsində hər hansı ciddi təxribata yol verilmədən Naxçıvanda yerləşən hərbi hissələrin əmlakını dinc şəkildə təhvil almaq mümkün olmuşdu. Bu hadisənin tarixi əhəmiyyətini Heydər Əliyev də öz çıxışlarının birində qeyd edirdi: «Sovetlər İttifaqı dağılandan sonra keçmiş sovet ordusunun hissələri milli müstəqillik əldə etmiş bir çox dövlətlərin, o cümlədən Azərbaycanın ərazisində hələ də qalmaqda davam edir. Bu dövrdə 75-ci diviziyanın Naxçıvandan getməsi məsələsi ortaya çıxanda belə bir fikir irəli sürülmüşdü ki, bu diviziya öz silahları, hərbi texnikası və əmlakı ilə birlikdə Naxçıvanı tərk edəcəkdir. Lakin sonralar aparılan danışıqlar bu nəticəyə gə-

tirib çıxardı ki, 75-ci diviziya tamamilə buraxılır və ona mənsub olan bütün silahlar, hərbi texnika, sursatlar, hərbi və mülki əmlak Azərbaycan Respublikasının sərəncamına verilir. Bu baxımdan Rusiya ilə Azərbaycan arasında, onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında əldə olmuş razılıq və imzalanmış müqavilə çox böyük tarixi əhəmiyyət kəsb edir» (83).

1992-ci il iyul ayının 27-dən başlayaraq 75-ci motoatıcı diviziyanın sərəncamında olan silahlar, sursatlar, texnika, hərbi və mülki əmlak xüsusi komissiyaların aktı əsasında Naxçıvan Muxtar Respublikasının Dövlət Müdafiə Komitəsinə təhvil verilməsinə başlandı. Dövlət Müdafiə Komitəsi tərəfindən təhvil alınan silah və hərbi texnika Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvanda 5-ci əlahiddə motoatıcı birqadasının formalaşdırılmasına istiqamətləndirilidi. Dövlət Müdafiə Komitəsinin sədri Elman Abbasov da Azərbaycanın Müdafiə nazirinin əmri ilə bu briqadanın komandiri təyin edildi (84).

Heydər Əliyev məmnuniyyətlə qeyd edirdi ki, 75-ci motoatıcı diviziyanın ləğv olunması və onun sərəncamında olan hərbi və mülki əmlakın təhvil verilməsində heç bir hadisə baş verməmiş, bu proses qarşılıqlı hörmət və anlaşma şəraitində keçmişdi.

Təhvil-təslim aktlarına əsasən hesab etmək olardı ki, diviziyanın sərəncamında olan bütün əmlak tamamilə təhvil verilmişdi.

75-ci motoatıcı diviziyanın əmlakının təhvil verilməsi prosesi iyul ayının 27-dən avqust ayının 15-dək davam etdi və avqust ayının 18-də bu diviziyanın şəxsi heyətinin sonuncu dəstəsi təyyarə ilə Naxçıvan torpağını tərk etdi. Avqust ayının 18-də diviziyanın əmlakının, silahlarının, hərbi texnikasının Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvandakı 5-ci əlahiddə motoatıcı briqadasına verilməsi haqqında sənədlərin imzalanması və diviziyanın şəxsi heyətinin Naxçıvandan yola salınması mərasimi təşkil edil-

di. Bu mərasimdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev də iştirak edirdi. Sənədlərin imzalanması mərasimində də Heydər Əliyev baş vermiş hadisəni tarixi bir gün kimi xarakterizə etdi. 75-ci diviziyanın qərargahı isə Naxçıvanda formalaşdırılmış 5-ci əlahiddə motoatıcı briqadaya təhvil verildi. Bu mərasim də təntənəli şəkildə keçirildi. Qərargah qarısında düzülmüş olan şəxsi heyəti Muxtar Respublika Ali Məclisinin sədri Heydər Əliyev «Salam, Azərbaycan əsgərləri» deyə salamladı və sonra da onların qarşısında tarixi bir çıxış etdi: «Azərbaycan Milli Ordusunun zabitləri və əsgərləri! Bu gün bizim üçün son dərəcə əlamətdar bir gündür. Bu gün öz müstəqilliyini əldə etmiş Azərbaycan dövləti artıq öz milli ordusunu yaradır. Bununla əlaqədar olaraq Azərbaycan dövləti öz ərazisindən başqa ordu hissələrinin çıxarılmasını təmin edir. Müstəqil Azərbaycan dövləti öz istiqlaliyyətinə nail olan gündən bu istiqlaliyyəti təmin etmək əzmindədir.

Azərbaycanın tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası da bu yolda müvafiq addımlar atır, lazımi tədbirlər görür və torpağımızın toxunulmazlığını təmin etmək üçün Naxçıvan ərazisində öz milli silahlı qüvvələrinin yaradılması ilə məşğul olur» (85).

Sonra Heydər Əliyev toplaşanlara son aylar ərzində Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən sovet qoşun hissələrinin statusunun müəyyən edilməsi, bu hərbi hissələrin gələcək taleyinə aydınlıq gətirilməsi sahəsində Muxtar Respublikanın Ali Məclis rəhbərliyinin gördüyü davamlı və ardıcıl işlər haqqında məlumat verdi. O bildirdi ki, bu məsələ ilə bağlı Rusiya dövlətinin rəhbərliyi, habelə Rusiya Federasiyası Müdafiə Nazirliyinin rəhbərliyi ilə, Zaqafqaziya Hərbi Dairəsinin, habelə Naxçıvandakı 75-ci motoatıcı diviziyanın komandanlığı ilə danışıqlar apararaq lazımi tədbirlər görmüş və bunun nəticəsində də razılıq əldə edil-

mişdir ki, Naxçıvanda yerləşən 75-ci motoatıcı diviziya buraxılsın, həmin diviziyaya mənsub olan bütün silahlar, hərbi texnika, avadanlıq və döyüş sursatları Azərbaycan Milli Ordusunun Naxçıvanda yerləşən 5-ci əlahiddə briqadasının sərəncamına verilsin. Çıxışına davam edən Heydər Əliyev bildirdi ki, indi Azərbaycan artıq öz müstəqilliyini əldə edib, milli azadlığa nail olub və öz ərazisində ancaq öz silahlı qüvvələrini saxlamaq əzmindədir. Sovet qoşun hissələrinin əmlakının Azərbaycan tərəfinə təhvil verilməsini Heydər Əliyev konkret tarixi şərait üçün təbii bir hal kimi qiymətləndirirdi. Çünki Sovetlər İttifaqı yarandığı dövrdən, bu İttifaqa daxil olan bütün respublikaların sovet ordusuna mənsub olan əmlakda, texnikada, silahda, hərbi sursatda və avadanlıqda öz payları var idi. Sovetlər İttifaqının dağılması ilə əlaqədarsovet ordusu ləğv olunduqdan sonra Azərbaycan da öz payını almalı idi və bu payın bir hissəsi də 75-ci motoatıcı diviziyadır.

Heydər Əliyev Azərbaycan Respublikası Silahlı Qüvvələrinin formalaşdırılması və Naxçıvan Muxtar Respublikasının müdafiəsinin təşkilində böyük əhəmiyyət kəsb edən bu tarixi hadisə ilə bağlı keçirilən mərasimdəki çıxışını belə yekunlaşdırdı: «Bir məsələni də qeyd etmək lazımdır ki, Azərbaycan indi öz milli dövlət quruculuğu ilə məşğuldur, milli ordusunu yaradır və milli müdafiə qüvvələrini möhkəmləndirir. Bu dövrdə Azərbaycan ona qonşu olan dövlətlərlə, o cümlədən Rusiya ilə bərabərhüquqlu əlaqələr yaradılmasına çalışmalıdır. Biz belə hesab edirik ki, 75-ci diviziyanın tərkibində xidmət etmiş hərbi qulluqçular öz vətənlərinə - Rusiyaya, Ukraynaya, Belorusiyaya qayıtdıqdan sonra belə Naxçıvanla öz əlaqələrini kəsməyəcək, Azərbaycanla həmin dövlətlər arasında bərabərhüquqlu əlaqələrin yaradılmasına öz səylərini əsirgəməyəcəkdir. Bu gün Azərbaycan Milli Ordusunun Naxçıvanda olan 5-ci əlahiddə briqadasının sərəncamı-

na böyük bir hərbi əmlak keçir. Şübhəsiz ki, bununla əlaqədar bizim üzərimizə çox böyük məsuliyyət düşür. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adından tam əmin olduğumuzu bildirirəm ki, Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvanda yerləşən hissəsi Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərindən dərk edəcək, briqadanın komandanlığı, bütün zabit və əsgər heyəti sərəncamlarına keçən hərbi əmlakın, texnikanın saxlanmasında, ondan səmərəli istifadə edilməsində böyük səy göstərəcəklər.

Mən Azərbaycan Milli Ordusunun tərkib hissəsi olan 5-ci Naxçıvan əlahiddə motoatıcı briqadasının şəxsi heyətinə, komandanlığına böyük uğurlar arzulayıram və ümidvar olduğumu bildirmək istəyirəm ki, Naxçıvan Muxtar Respublikasının müdafiə imkanları daha da artdıqca, Azərbaycan Milli Ordusu sıralarında xidmət edən oğullarımız bu imkanlardan daha səmərəli istifadə edəcək, Naxçıvanın müdafiəsini daha da möhkəmləndirəcəkdir» (86).

Rusiya Müdafiə Nazirliyinə tabe olan 75-ci motoatıcı diviziyanın əmlakının dinc şəkildə və bütünlüklə Azərbaycan tərəfinə təhvil verilməsi prosesinin getdiyi bir vaxtda eyni zamanda Rusiya Sərhəd Qoşunlarına tabe etdirilmiş 41-ci sərhəd dəstəsinin də əmlakının Azərbaycan tərəfinə verilməsi üçün iş aparılırdı. Heydər Əliyevin rəhbərliyi altında aparılan bu iş də tezliklə öz məntiqi nəticəsi ilə yekunlaşdı və Rusiya mərkəzi hakimiyyət orqanları Heydər Əliyevin məntiqli və qətiyyətli mövqeyi ilə razılaşmalı oldular. Nəticədə 1992-ci ilin avqust ayında Naxçıvan Muxtar Respublikasının İranla və Türkiyə ilə olan sərhədlərinin mühafizəsində dayanan 41-ci sərhəd dəstəsinin ləğv olunması və onun sərəncamında olan bütün silahların, hərbi texnikanın və mülkiyyətin Azərbaycan tərəfinə təhvil verilməsi haqqında qərar qəbul olundu. Bu dəstənin əmlakının təhvil verilməsi müəyyən

müddət vaxt aparmalı idi. Həmin müddət ərzində sərhəd xəttinin nəzarətdən kənar qalmaması üçün lazımi tədbirlər görüldü və Muxtar Respublika Ali Məclisi rəhbərliyinin iradəsi ilə sərhəd xəttinin təmin edilməsi üçün lazımi tədbirlər görüldü. Yəni Naxçıvan Muxtar Respublikası Ali Məclisinin təklifi ilə Azərbaycan Respublikası Sərhəd qoşunlarının Naxçıvan ərazisində 1-ci sərhəd qoşunları dəstəsi yaradıldı və Cahangir Qulamov bu dəstəyə komandir təyin edildi. Bu dəstənin formalaşması və sərhəd xəttinin mühafizəsinin təmin edilməsi eyni vaxtda aparılırdı. Bu sərhəd dəstəsinin ilk bölmələri təşkil olunan kimi 41-ci sərhəd dəstəsinin şəxsi heyəti ilə birlikdə sərhədin mühafizəsinə başladılar və bununla da sərhədin mühafizəsində hər hansı bir boşluğa yol verilmədi. Bir müddət sonra isə 41-ci sərhəd dəstəsi tərəfindən mühafizə olunan sərhəd sahələri planlı şəkildə Azərbaycan Sərhəd Qoşunlarının 1-ci sərhəd dəstəsinə təhvil verilməyə başlandı. Nəzərdə tutulmuşdu ki, bu proses 1992-ci il sentyabr ayının sonuna kimi başa çatsın və bununla da Azərbaycanın dövlət sərhəd xətlərinin Naxçıvandan keçən hissəsinin mühafizəsi tamamilə Azərbaycanın müvafiq strukturları tərəfindən təmin edilsin (87).

Bu prosesin başa çatması ilə də Heydər Əliyevin təşkilatçılığı və yorulmaz fəaliyyəti altında son dərəcə önəm kəsb edən bir tarixi nailiyyətə imza atılmış olurdu. Yəni XIX əsrin əvvəllərindən, Naxçıvan xanlığının Rusiya tərəfindən işğalı dövründən başlayaraq rus qoşunlarının bu bölgədə yerləşməsinə son qoyulurdu və bu qoşunlar bütünlüklə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və Sərhəd Qoşunlarının strukturları ilə əvəz edilirdi.

Naxçıvan torpaqlarının müdafiəsinin və mühafizəsinin bütünlüklə Azərbaycanın milli qüvvələrinə tapşırılması və yad hərbi qüvvələrin buradan çıxarılması bütünlükdə Azərbaycan tarixi üçün yaddaqalan hadisə idi və Azərbaycanın ayrılmaz parça-

sı olan Naxçıvan Muxtar Respublikasının müdafiəsi üçün böyük əhəmiyyət kəsb edən bu siyasi uğurun əldə edilməsi birmənalı şəkildə Heydər Əliyevin adı ilə bağlıdır. Rusiyaya tabe etdirilmiş qoşun hissələrinin Azərbaycanın digər ərazilərindən çıxarılması və onların əmlakının Azərbaycan tərəfinə təhvil verilməsi ilə bağlı yaranmış ağır mənzərənin mövcudluğu da Heydər Əliyevin bu məsələdə nə dərəcədə məntiqlə, dəqiqliklə və milli mənafelərə dayaqlanaraq fəaliyyət göstərdiyini nümayiş etdirir. Bu tarixi uğurun əldə edilməsi ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyətinin xüsusi bir qərarı da vardır. «Naxçıvan Muxtar Respublikasının müdafiəsinin və sərhədlərinin qorunmasının təşkili haqqında» adlanan 19 sentyabr 1992-ci il tarixli həmin qərarda deyilirdi:

«1. Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının ərazisində uzun illər boyu yerləşmiş keçmiş SSRİ silahlı qüvvələrinin, sonra isə Rusiya Federasiyasının tabeliyində olan hərbi hissələrin ləğv olunması, onların sərəncamında olan silahların, hərbi sursatların, texnikanın, hərbi və mülki əmlakın Azərbaycan xalqına, müstəqil Azərbaycan dövlətinə təhvil verilməsi, digər dövlətə mənsub olan hərbi qulluqçuların tamamilə Naxçıvanın ərazisini tərk etməsi ədalətli, hüquqi, böyük tarixi əhəmiyyətə malik olan bir hadisə kimi qiymətləndirilsin.

2. Keçmiş SSRİ silahlı qüvvələrinin, sonradan isə Rusiya Federasiyasının tabeliyində olan və Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən hərbi hissələrin ləğv olunması, onların hərbi və mülki əmlakının Azərbaycan xalqına təhvil verilməsi, müstəqil Azərbaycan dövlətinin Naxçıvan ərazisində milli silahlı qüvvələrin yaranması naminə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, onun rəhbərliyinin, Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin həyata keçirdikləri tədbirlər bəyənilsin və təqdirəlayiq hesab edilsin.

3. 75-ci motoatıcı diviziyanın hərbi və mülki bazası, Naxçıvan Muxtar Respublikasının Dövlət Müdafiə Komitəsinin bazası əsasında Naxçıvanda Azərbaycan Müdafiə Nazirliyinin yeni hərbi hissəsinin yaradılması ilə əlaqədar olaraq Naxçıvan Muxtar Respublikasının Dövlət Müdafiə Komitəsi ləğv olunsun.

Nəzərə alınsın ki, Naxçıvan Muxtar Respublikası ərazisində yaranan Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin yeni hissələri öz fəaliyyətlərini Naxçıvan Muxtar Respublikasının Ali Məclisi ilə sıx əlaqədə həyata keçirəcək, Naxçıvanın Ermənistan tərəfindən hərbi təcavüzdən müdafiə olunması tədbirlərini Ali Məclisin, Naxçıvan Muxtar Respublikası Müdafiə Şurasının rəhbərliyi altında aparacaqdır.

Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ərazisində yeni vahid hərbi hissənin yaranması, bütün müdafiə məsələlərinin bu hissələrin tərəfindən təşkil olunmasını nəzərə alaraq Naxçıvan Muxtar Respublikasında Xalq Cəbhəsinin silahlı qüvvələri buraxılsın. Bütün silahlar, sursatlar Azərbaycanın Müdafiə Nazirliyinin Naxçıvanda yerləşən hərbi hissəsinə təhvil verilsin.

Naxçıvan Muxtar Respublikası ərazisində mövcud olan bütün silahlı dəstələr ləğv olunsun. İyirmi gün müddətində əhalidə olan bütün qeyri-qanuni silahlar yığılsın» (88).

Bu qərarla Muxtar Respublika ərazisində mövcud olan silahlı dəstələrin ləğv olunması, onların ixtiyarında, habelə əhalidə olan qeyri-qanuni silahların toplanması, Azərbaycanın yeni milli hərbi hissələrinin formalaşmasına kömək göstərilməsi hüquq-mühafizə orqanlarına tapşırılırdı. Bundan başqa, qərarda 75-ci diviziyada və 41-ci sərhəd dəstəsində xidmət keçən azərbaycanlı hərbi qulluqçuların öz xidmətlərini yeni yaradılan milli hərbi strukturlarda davam etdirməsi də öz əksini tapmışdı.

Naxçıvan Muxtar Respublikasının müdafiəsinin Azərbaycanın milli hərbi strukturlarına tapşırılmasından əlavə yuxarıdakı qərarda Muxtar Respublikanın müdafiəsi üçün əhəmiyyət kəsb edən bir neçə məqam da vardır. Onlardan biri Dövlət Müdafiə Komitəsinin ləğv edilməsi idi. Muxtar Respublika ərazisində milli hərbi strukturların yaradılmasından sonra belə paralel bir qurumun mövcudluğuna artıq ehtiyac qalmırdı. Ona görə də bu qurum ləğv olundu.

Bundan başqa bu qərarla Muxtar Respublika ərazisində Xalq Cəbhəsinə məxsus olan silahlı dəstələr buraxıldı və əhalidə olan qeyri-qanuni silahların toplanması zəruri sayıldı. Naxçıvan Muxtar Respublikasının müdafiəsinə mərkəzləşdirilmiş rəhbərliyin təmin edilməsi və əhali arasında özbaşına və qanunsuz hərəkətlərin aradan qaldırılması baxımından bu tələb təşkilati əhəmiyyət kəsb edirdi. Azərbaycanın müstəqillik dövrünün ilk illərinin tarixi də göstərir ki, bu tələbin icrası və bərqərar olması bütünlükdə dövlətçilik üçün böyük əhəmiyyət kəsb edir. Naxçıvandan fərqli olaraq Azərbaycanın digər bölgələrində, o cümlədən Bakıda Xalq Cəbhəsinə və digər siyasi qurumlara və qruplara məxsus silahlı dəstələrin mövcudluğu çox qısa müddətdən sonra Azərbaycanın müstəqilliyini çox ciddi sınaqlarla üzbəüz qoydu. Heydər Əliyev Naxçıvandakı fəaliyyəti ilə qeyri-qanuni silahlı dəstələrin mövcudluğu ilə yarana biləcək böhranın aradan qaldırılmasının nümunəsini göstərdi və öz qətiyyəti ilə o, sonradan Azərbaycanın müstəqilliyini təhlükə altına qoymuş bu böhranı bütün respublika miqyasında aradan qaldırdı.

41-ci sərhəd dəstəsinin əmlakının və onun funksiyalarının Azərbaycanın 1-ci sərhəd dəstəsinə təhvil verilməsi 1992-ci il sentyabr ayının sonlarına qədər davam etdi. Sentyabr ayının 29-da bu prosesin başa çatdırılması ilə bağlı tərəflər arasında sənədlər imzalandı. Bununla Azərbaycanın Naxçıvan Muxtar Respublikası ərazisində İran və Türkiyə ilə olan sərhədinin mühafizəsi bütün-

lüklə Azərbaycanın milli sərhəd qurumlarının ixtiyarına keçdi. Muxtar Respublika ərazisində Azərbaycanın İranla və Türkiyə ilə olan sərhədi 215 kilometrlik bir sahəni əhatə edirdi. 41-ci sərhəd dəstəsinin funksiyaları Azərbaycanın sərhəd dəstələrinə təhvil verildikdən sonra sərhəd dəstəsinin qərargahı üzərində Azərbaycanın Dövlət bayrağı qaldırıldı. Təhvil-təslim sənədlərinin imzalanması münasibətilə sentyabr ayının 29-da sərhəd dəstəsinin qərargahında xüsusi mərasim təşkil edildi və mərasimdə Heydər Əliyev də iştirak və çıxış etdi (89). Bu mərasimdən sonra 41-ci sərhəd dəstəsinin şəxsi heyətinin Naxçıvanda qalmış son dəstəsi də təyyarə ilə Muxtar Respublikadan yola salındı.

Bununla, Rusiyaya məxsus olan hərbi xidmətçilərin Naxçıvandan yola salınması başa çatdırıldı və Naxçıvanın müdafiəsinin bütün məsuliyyəti Muxtar Respublikada formalaşdırılmaqda olan milli hərbi strukturların üzərinə qoyuldu. Eyni zamanda, Muxtar Respublikanın müdafiəsinin uğurlu təşkilinə nail olunması üçün yeni yaradılan milli hərbi strukturların tam şəkildə formalaşdırılmasına və təchiz edilməsinə diqqət daha da artırıldı. 1992-ci il oktyabr ayının 9-da Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 1-ci ildönümü münasibətilə Naxçıvanın Azadlıq meydanında hərbi parad təşkil edildi və Naxçıvanda təşkilinə başlanan milli hərbi strukturların təşkilatlanmasına bu paradda bir baxış keçirildi. Bu parad bütünlükdə Muxtar Respublika sakinlərinin və Muxtar Respublikada hərbi strukturların formalaşdırılmasında, təchiz edilməsində və qayğı ilə əhatə olunmasında xüsusi rolu olan Heydər Əliyevin də böyük sevincinə səbəb oldu. Bu parad əslində Naxçıvan Muxtar Respublikasının müdafiəsi yolunda onun rəhbərliyi və təşkilatçılığı altında görülən işlərin nəticəsinə bir baxış idi. Bu paradın təşkili həm də Naxçıvan Muxtar Respublikasının və Azərbaycan Respublikası

Silahlı Qüvvələrinin həyatına yazılan əlamətdar bir hadisə idi. Çünki Naxçıvanın tarixində ilk dəfə müstəqil dövlət kimi Azərbaycanın Dövlət bayrağı qaldırılmaqla və Azərbaycanın himni səsləndirilməklə milli hərbi strukturların paradı keçirilirdi. Hərbi paradın başlanmasından əvvəl Heydər Əliyev maraqlı və tarixi bir nitq söylədi. Həmin çıxışında Heydər Əliyev Azərbaycanın müstəqilliyinin və ərazi bütövlüyünün müdafiəsi üçün milli ordunun yaradılmasının zəruriliyindən, erməni təcavüzünün qarşının alınması üçün Naxçıvan Muxtar Respublikasında həyata keçirilən tədbirlərdən, Naxçıvan Muxtar Respublikasının sərhədlərinin qorunması üçün milli hərbi strukturların və bütünlükdə əhalinin qarşısında dayanan vəzifələrdən danışdı. Heydər Əliyev paradda iştirak edən hissə və bölmələrin şəxsi heyətinə və paradı izləmək üçün meydana toplaşanlara müraciət edərək dedi: «Bu gün müstəqil Azərbaycan dövlətinin, Azərbaycan xalqının tarixində ən əlamətdar bir gündür. Azərbaycan Respublikasının milli Silahlı Qüvvələrinin yaradılmasının birinci ildönümünü qeyd etmək üçün biz Azadlıq meydanına toplaşmışıq. Bu böyük bayram münasibətilə Azərbaycanın zabit və əsgərlərini, bütün Azərbaycan Ordusunda xidmət edən döyüşçüləri, Naxçıvan Muxtar Respublikası əhalisini, Muxtar Respublikanın Ali Məclisi və Nazirlər Kabineti adından təbrik edirəm və bizim müstəqil Azərbaycan Ordusuna müvəffəqiyyətlər və uğurlar arzulayıram.

Müstəqil Azərbaycanın dövlətçilik atributlarının əsas hissəsi olan milli silahlı qüvvələri, milli ordusu artıq yaranmışdır. Bu proses heç də asan olmamışdır. Buna nail olmaq üçün Azərbaycanın mütərəqqi fikirli vətənpərvər, azadlıq sevən övladları uzun illər həsrət içində yaşamış, mübarizə aparmış və nəhayət Azərbaycan torpağında müstəqil milli dövlət və onun milli ordusunun yaradılmasına nail olmuşlar.

Biz 70 il ərzində hər il keçmiş Sovetlər İttifaqının silahlı qüvvələrinin bayramlarının iştirakçısı olmuşuq. Fəqət bugünkü bayram bizim hər birimizin qəlbində böyük iftixar hissi doğurur. Biz böyük sevinc içərisindəyik. Çünki Azərbaycan xalqı nəhayət öz dövlətini, öz millətini, öz doğma torpaqlarını müdafiə etmək üçün milli ordusunu yaratmışdır. Bu ordunun bir hissəsi də Naxçıvanda yerləşir.

Biz bu gün Azərbaycan xalqının gənc və cəsur övladlarının ordu sıralarında xidmət edərək öz bayramlarını qeyd etmək üçün bu meydanda nizamlı sıralarda durduqlarını görürük. Biz milli ordumuzun günü-gündən möhkəmlənməsini, inkişaf etməsini dərk etdikcə bir daha Azərbaycanın müstəqil dövlət olması üçün nə qədər böyük bir yol keçdiyini yadımıza salır və bunun Azərbaycan xalqı üçün, bugünkü və gələcək nəsillər üçün nə qədər vacib və zəruri olduğunu bir daha hiss edirik.

Azərbaycanın milli ordusu ağır müharibə şəraitində yaranıb. Qəhrəman oğullarımız Azərbaycanla Ermənistanın sərhəd bölgələrində, o cümlədən Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan torpağını, xalqımızın milli azadlığını, toxunulmazlığını müdafiə edərək böyük qəhrəmanlıqlar göstərmiş, bu yolda qurbanlar vermişlər. Ancaq bunlar bizdə heç də sarsıntı hissi yaratmamalıdır. Bu gün Azərbaycan Silahlı Qüvvələri yaradılmasının ildönümünü qeyd edərkən biz şəhid olmuş oğullarımızın və qızlarımızın xatirəsini bir daha yad edirik və onların ruhunu əmin etmək istəyirik ki, qəhrəman oğul və qızlarımızın şəhid olması Azərbaycan Milli Ordusu əsgərlərinin daha cəsarətli, daha mətanətli olması üçün böyük nümunə olacaq, biz bu gün də Azərbaycan Silahlı Qüvvələrini əzəmətli, qüdrətli bir ordu kimi görəcəyik. İndi artıq Azərbaycan xalqı, onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının əhalisi tam əmin ola bilərlər

ki, Azərbaycan torpaqlarını, onun müqəddəs sərhədlərini müdafiə etmək üçün layiqli ordusu, bu ordunun lazımi qədər silahı, sursatı, texnikası var. Mən, şübhəsiz ki, heç kimi arxayın salmaq, heç kəsi sayıqlıqdan çəkindirmək istəmirəm. Azərbaycan xalqı öz milli azadlığını əldə edib. Azərbaycan müstəqil dövlət kimi dünyada tanınıb və heç bir qüvvə xalqımızı bu yoldan geri döndərə bilməz. Lakin biz müstəqil Azərbaycan dövlətini möhkəmləndirmək, onun hərbi qüdrətini daha da yüksəltmək üçün çox böyük və çətin yol keçməliyik.

Biz bu gün Azərbaycan Milli Ordusunun cəsur əsgərləri qarşısında onu deyə bilərik ki, Azərbaycan xalqının tarixi ənənələri, qəhrəman keçmişi, xalq qəhrəmanlarının cəsarəti milli ordumuzun əsgərlərini təcavüzkarlara qarşı vuruşlarda yeni-yeni qələbələrə ruhlandıracaqdır. Müstəqil Azərbaycan dövləti öz milli dövlətini quracaq, torpaqlarımızın hamısını özünə qaytaracaq və öz xalqının sülh, əmin-amanlıq şəraitində, öz ənənələri əsasında yaşamasını təmin edəcəkdir.

Mən bu gün bu meydanda xoş əhval-ruhiyyə ilə Naxçıvan Muxtar Respublikası vətəndaşları ilə birlikdə Azərbaycan Milli Ordusunun bu meydanda toplaşmış nümayəndələrini səmimi-qəlbdən salamlayıram. Onu da demək istəyirəm ki, Naxçıvan Muxtar Respublikasının xüsusi coğrafi vəziyyəti ilə əlaqədar olaraq üç tərəfdən Ermənistan ərazisi ilə əhatə olunmuş sərhədlərində yeni fitnəkarlıqların baş verəcəyini nəzərə alaraq Azərbaycan Milli Ordusu hissələrinin daha da möhkəmləndirilməsi, daha da intizamlı, qüdrətli olması çox mühüm şərtlərdəndir.

Muxtar Respublikamızın əhalisi artıq bilir ki, Naxçıvanda uzun illər, əsrlər boyu yerləşmiş əcnəbi qoşunları artıq buradan çıxarılmışdır. Uzun illər Naxçıvanda məskən salmış 75-ci motoatıcı diviziyanın son dəstəsi avqust ayının 18-də Naxçıvandan yola salınmışdır. Həmin diviziyanın bütün silahları, texnikası, hərbi

ləvazimatı və əmlakı Azərbaycan xalqının, milli ordumuzun Naxçıvanda yerləşən hissələrinin sərəncamına keçmişdir. Naxçıvanın qonşu İran və Türkiyə ilə sərhədləri on illər, hətta əsrlər boyu rus qoşunları tərəfindən qorunmuşdur. Artıq onlar da Naxçıvanı tərk edib. Biz keçmiş Sovetlər İttifaqının, sonra isə Rusiyanın burada yerləşən 41-ci sərhəd qoşunları hissələrinin buradan tamam çıxıb getməsinə nail olduq və Azərbaycanda ilk dəfə olaraq milli sərhəd qoşunlarının birinci dəstəsi yaradıldı. İndi artıq qonşu İran və Türkiyə ilə sərhədlərimizi Azərbaycan milli sərhəd qoşunlarının Naxçıvanda yerləşən dəstəsi mühafizə edir.

Bütün bunlar tarixi hadisələrdir və nəinki bugünkü, həmçinin gələcək nəsillər tərəfindən layiqincə qiymətləndiriləcəkdir.

İndi Azərbaycan Milli Ordusunun Naxçıvanda yerləşən hərbi hissələrinin ən ümdə vəzifəsi ondan ibarətdir ki, sərəncamlarına aldıqları çox böyük, qüdrətli və lazımi səviyyədə olan hərbi potensialı bu qədim diyarı düşmən hücumlarından layiqincə qorumağa yönəltsinlər.

Biz azadlıq əldə etmək uğrunda mübarizə apararkən, torpaqlarımızı düşməndən qorumağa başlayarkən çox cüzi imkanlarımızdan istifadə etdik. Ayrı-ayrı silahlı dəstələr yaradıldı. Naxçıvanın vətənpərvər oğulları torpaqlarımızı, sərhədlərimizi qəhrəmanlıqla müdafiə edirlər. Hələ keçən il sentyabr ayının əvvəllərində Azərbaycanın milli ordusu yaradılmış, Naxçıvanın xüsusi vəziyyətini nəzərə alaraq burada Dövlət Müdafiə Komitəsi yaradılmışdı.

Naxçıvan Dövlət Müdafiə Komitəsi bu dövrdə xeyli iş görmüş və bu gün həm 75-ci motoatıcı diviziyanın buradan çıxarılmasında, ona məxsus olan hərbi texnikanın, silah və sursatların təhvil alınmasında və onun bütün hərbi potensialının ələ alınmasında, həm də 41-ci sərhəd qoşunları dəstəsinin buradan çıxarılmasında böyük rol oynamışdır.

Biz indiyədək Naxçıvan torpağını cəsarətlə qorumuş bütün vətənpərvər Naxçıvan oğullarına, bütün könüllü dəstələrə öz minnətdarlığımızı bildiririk, onların gördükləri işləri layiqincə qiymətləndiririk, eyni zamanda, onu da bəyan etmək istəyirik ki, artıq Naxçıvanda nizamlı milli Azərbaycan Ordusunun hərbi hissələri mövcuddur. Bu hissələr lazımi gücə malikdir və Naxçıvan torpaqlarını müdafiə etməyə qadirdir. Eləcə də Naxçıvanın qonşu İran və Türkiyə ilə sərhədlərini mühafizə etmək üçün öz milli sərhəd dəstəmiz var. Ona görə də onlara tövsiyə edirik ki, bundan sonra öz vətəndaşlıq vəzifələri ilə məşğul olsunlar. Torpaqlarımızın düşməndən müdafiəsini ancaq və ancaq Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvanda yaradılmış hissələri həyata keçirməlidirlər. Bizim borcumuz bu hissələrin möhkəmlənməsinə, inkişaf etməsinə hərtərəfli kömək göstərməkdən, onlara yüksək qayğı ilə yanaşmaqdan, qarşılarına çıxan bütün çətinliklərin aradan qaldırılmasında yaxından iştirak etməkdən ibarətdir. Heç şübhə yoxdur ki, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, Nazirlər Kabineti, bütün nazirliklər, dövlət komitələri, müəssisələr, təşkilatlar, ayrı-ayrı vətəndaşlar Azərbaycan Milli Ordusunun Naxçıvanda yerləşən hissələrinə öz qayğı və köməklərini əsirgəməyəcəklər. Bu bizim üçün çox müqəddəs və şərəfli vəzifədir.

İndi bizim Azərbaycan Ordusunda, onun Naxçıvanda yerləşən hissələrində peşəkar, hərbi təhsil almış zabitlər xidmət edirlər. Onlar öz peşə ustalıqlarını artırmaq, hərbi elmə, hərbi texnikaya dərindən yiyələnmək üçün çox ciddi səy göstərməli, gənc əsgərləri də buna sövq etməlidirlər.

Biz tam əminik ki, bu keçid dövründə, Ermənistanla gedən müharibə şəraitində yaradılmış milli ordumuzun əsgər və zabitləri, bölmə və hissə komandirləri öz döyüş məharətlərini durmadan yüksəldəcək, müasir hərbi elmə inadla yiyələnəcək, torpaqlarımı-

zın etibarlı surətdə müdafiə olunmasını yüksək səviyyədə təmin edəcəklər» (90).

Heydər Əliyevin bu tarixi çıxışını meydana toplaşmış Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvandakı hissə və bölmələrinin paradı tamamladı.

1992-ci il oktyabr ayının 18-də Naxçıvanın müdafiəsinin təşkili ilə bağlı daha bir tarixi hadisə baş verdi. Həmin gün Birinci sərhəd dəstəsinin əsgərlərinin andiçmə mərasimi həyata keçirildi. Bu tədbirdə də Heydər Əliyev iştirak etdi. O, andiçmə mərasimindən sonra gənc sərhədçilərə yaxınlaşaraq onları bu hadisə münasibətilə təbrik etdi və onların hər birinə uğurlar arzuladı. Mərasimdə Heydər Əliyev çıxış da etdi. Ali Məclisin sədri gənc sərhədçilərin müstəqil Azərbaycan dövlətinin sərhədlərinin qorunmasına başlamalarını tarixi bir hadisə kimi dəyərləndirdi. O qeyd etdi ki, Azərbaycan artıq müstəqil dövlət olub, Azərbaycan xalqı öz milli azadlığına nail olub və indi müstəqil dövlətin atributlarını yaratmaq işi ilə məşğuldur. Heydər Əliyev sərhəd qoşunlarının təşkilini də bu atributlardan birinin yaradılması kimi qəbul edirdi: «Biz bu gün böyük məmnuniyyət hissə ilə müstəqil Azərbaycan dövlətində sərhəd qoşunlarının yaradılmasını məhz buradan, Naxçıvandan, Azərbaycanın bu qədim diyarından başlandığını qeyd edirik. Azərbaycanın digər sərhədlərindən fərqli olaraq burada keçmiş Sovetlər İttifaqına, ondan sonra isə Rusiya dövlətinə mənsub olan sərhəd qoşunu hissələri bir ay öncə muxtar respublikadan çıxarılmış, onların bütün silahları, hərbi texnikası, sursatları, bütün əmlakı, binaları Azərbaycan sərhəd qoşunlarının Naxçıvanda yaradılmış birinci sərhəd dəstəsinin sərəncamına verilmişdir» (91).

Naxçıvan Muxtar Respublikasının müdafiəsinin təşkili istiqamətində bir çox mühüm tarixi tədbirlərin həyata keçirilməsinə,

Silahlı Qüvvələrin Naxçıvandakı hərbi hissəsinin, habelə Naxçıvandakı sərhəd dəstəsinin təşkili üçün əməli işlər görülməsinə baxmayaraq, müəyyən qüvvələr bu proseslərin inkişafına mənfi təsir göstərməyə çalışırdılar. Məlumdur ki, 1992-ci ilin sonlarından Azərbaycanda ictimai-siyasi vəziyyət daha da mürəkkəbləşməkdə idi. Respublikanın iqtidarında olan qüvvələrin Naxçıvanda olan bəzi nümayəndələri bütün Azərbaycan üçün xarakterik olan ictimai-siyasi anlaşılmazlığı Naxçıvanda da canlandırmaq istəyirdilər. Məqsəd isə bununla şəxsi maraqlara nail olmaq, şəxsi niyyətlərin həyata keçməsinə çalışmaq idi. Bu isə istər-istəməz Naxçıvan Muxtar Respublikasının müdafiəsinin daha səmərəli təşkilinə öz təsirini göstərməyə bilməzdi. Heydər Əliyev də 1992-ci il noyabr ayının 10-da Naxçıvan Muxtar Respublikasının müdafiəsinin təşkilinə həsr edilmiş müşavirədə təəssüflə qeyd edirdi ki, bəzi qüvvələr bizim işimizi pozurlar. Son illərdə Azərbaycanda olan özbaşınalıq Naxçıvana da öz təsirini göstərib və bu pozğunluq gəlib o yerə çatıb ki, onlar istədiklərini edirlər (92).

Həmin müşavirədə qeyd edildi ki, Muxtar Respublika daxilində nizam-intizamın pozulmasına göstərilən cəhdlər hərbi çağırışın təşkilinə də pozucu təsir edir. Bunun nəticəsində də yeni yaradılan hərbi strukturlara çağırış işi xeyli aşağı idi.

Muxtar Respublika daxilində müəyyən qüvvələrin qeyri-prinsipial fəaliyyətini nəzərdən qaçırmamaqla hərbi çağırışda mövcud olan nöqsanlar, əslində, bəzi obyektiv çətinliklərlə də bağlı idi. Çünki, Azərbaycan daxilində, o cümlədən də Naxçıvan Muxtar Respublikasında hərbi çağırışın həyata keçirilməsi hələ lazımınca təşkilatlanmamışdı, keçid dövründə hərbi komissarlıqların heç də hamısı öz fəaliyyətini müstəqil respublikanın mənafeləri çərçivəsində qura bilməmişdi. Ona görə çağırışın icrasında müəyyən nöqsanlar özünü göstərirdi. Bütün Azərbaycanda

cərəyan edən hadisələr, hakimiyyətsizlik, rüşvət və digər hallar da sözsüz ki, bu prosesdə müəyyən neqativ halları üzə çıxarırdı. Bununla belə, Heydər Əliyev məsələyə çox ciddi yanaşdı, Muxtar Respublikanın müdafiəsinin səmərəli təşkilində hərbi çağırışın əhəmiyyətini qeyd etdi və müvafiq orqanlar və vəzifəli şəxslər qarşısında ciddi vəzifələr müəyyənləşdirdi.

Sonrakı çıxışlarının birində Heydər Əliyev bildirirdi ki, biz bir qarış da olsa torpağımızı əldən verməyəcəyik. Nəyin bahasına olursa olsun, özümüzü müdafiə edəcəyik, düşmənin qarşısını alacağıq. Bütün bunlar isə gərgin iş aparmağı və birliyi tələb edir. Biz çalışmalıyıq ki, hamı bir yumruq kimi birləşsin. Biz həm düşmən təcavüzünün qarşısını almalıyıq, həm də maddi və sosial böhran içərisində yaşayan xalqımızın həyat tərzini yüksəltməyə çalışmalıyıq (93).

Heydər Əliyevin qeyd etdiyi bu məqamlar, əslində, Naxçıvan Muxtar Respublikasının müdafiəsinin təşkili istiqamətində qarşıda dayanan əsas vəzifələr idi və xalqın tələbi ilə Bakıya qayıdana qədər bu vəzifələr Heydər Əliyevin fəaliyyətinin əsas məzmununu təşkil edirdi.

## 3. Daxili hərbi-siyasi sabitliyin yaradılması istiqamətində Heydər Əliyevin fəaliyyəti

Müstəqilliyin ilk ilindən sonra Azərbaycan daxilində yaranmış hərbi-siyasi vəziyyəti çıxışlarının birində Heydər Əliyev aşağıdakı kimi xarakterizə edirdi: «Bu dövrdə Azərbaycan xalqının sağlam qüvvələri, milli azadlıq uğrunda mübarizə aparan vətənpərvər qüvvələri ilə yanaşı, Azərbaycanın ərazi bütövlüyünü qorumaq, canından keçərək, şəhid olaraq torpaqlarını qorumaq əzmində olan insanlarla yanaşı, bu hadisələrdən öz şəxsi məqsədlə-

ri, şəxsi mənafeləri naminə istifadə etmək üçün meydana çıxmış insanlar, qruplar da var, mövcud olubdur. ... Azərbaycanda həqiqi vətənpərvərlik hissi ilə yaşayan, torpaqlarımızı qorumaq əzmində olan insanların milli azadlıq uğrunda, Azərbaycanı qoruyub saxlamaq uğrunda mübarizəsi ilə yanaşı ...o dövrlərdə olan hakim dairələrin, dövlət başçılarının bu cinayətkar qrupları əllərinə keçirib, nəyin bahasına olursa olsun, öz mövqelərini, öz hakimiyyətlərini saxlaması prosesləri mövcud olubdur» (94).

Belə bir qarşıdurmanın mövcudluğu əslində, müstəqilliyin bərpasından sonra, xüsusilə Azərbaycan Xalq Cəbhəsi fəallarının hakimiyyəti illərində ölkədə cərəyan edən dağıdıcı proseslərin qarşısının alınmamasının məntiqi yekunu idi. Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə ciddi zərbə vuran həmin proseslərin qarşısının alınması üçün dövlət rəhbərliyi tərəfindən nəinki ciddi tədbirlər görülmürdü, əksinə iqtidarda olan bəzi şəxslərin qətiyyətsiz mövqeyi, nümayiş etdirilən səriştəsiz yanaşma ilə mövcud böhranlı vəziyyət daha da mürəkkəbləşdirilirdi. Heydər Əliyevin qiymətləndirməsinə görə, bu böhranlı vəziyyətin qarşısının alınması üçün o dövrkü dövlətdə və dövlət başçılarında qüdrət, cəsarət, səriştə çatmadı. Bunun nəticəsi idi ki, 1993-cü ilin əvvəlindən Azərbaycanın parçalanmasının başlanğıcı qoyuldu (95).

Xüsusilə dövlətin rəhbərliyində olan şəxslərlə Müdafiə Nazirliyinin korpus komandiri arasında münasibətlərin kəskinləşməsi, hərbi qüvvələrə vahid komandanlığın təmin edilməməsi və bu məsələdə dövlətçilik maraqlarının kənara qoyulması respublika əhalisini narahat edən daxili böhranı daha da dərinləşdirirdi. Heydər Əliyev də qeyd edirdi ki, hakimiyyətdə olan qüvvələrin hakimiyyəti idarə edə bilməməsi, ictimaiyyətin etibarını itirməsi bəzi şəxslər ətrafında olan qüvvələrin fəallaşmasına, ictimai-siyasi və hərbi böhranın baş alıb getməsinə şərait yaradırdı (96).

Həmin böhran isə əslində, Azərbaycanı daxildən parçalayırdı və vətəndaş müharibəsi üçün bir təhlükə təşkil edirdi. Heydər Əliyevə görə isə bu parçalanma yuxarıda qeyd edildiyi kimi, 1993-cü ilin əvvəlindən başlanmışdı və hakimiyyətdə olan qüvvələr də öz qətiyyətsizliyi ilə bu parçalanmaya təkan verirdi. «Hələ 1993-cü ilin əvvəlində - fevral ayında Gəncə şəhərindəki və onun ətrafındakı ayrı-ayrı silahlı qüvvələr faktiki olaraq oranı ələ keçirmişdilərsə və Azərbaycanın dövlət başçıları bu vəziyyətin öhdəsindən gələ bilmirdilərsə, deməli gözlərinin qabağında Azərbaycanın parçalanmasını görürdülər» (97).

Ölkə daxilində yaranmış böhranın vaxtında araşdırılaraq həll edilməməsi, dövlət maraqlarının qorunması üçün əməli münasibət göstərilməməsi tezliklə ciddi bir daxili qarşıdurmanın yaranmasına yol açdı. Dövlət rəhbərliyinin ayrı-ayrı nümayəndələrinin daha çox öz şəxsi maraqları düşünməsi isə bu qarşıdurmanı daha da kəskinləşdirdi. Nəticədə, hələ 1992-ci ilin sonlarında iki qütb arasında olan qarşıdurmanın təhlükəli müstəviyə keçməsi özünü göstərməyə başladı.

Qeyd etmək lazımdır ki, iqtidar nümayəndələrinin bir sıra hərəkətləri, əsaslandırılmamış qərarları, özünəarxayınçılıq xisləti ilə korpus komandiri olmuş Surət Hüseynov şəxsiyyəti ətrafında anlaşılmaz bir problem formalaşdırdılar və sonra da ixtiyarlarında olan qanuni və qeyri-qanuni vasitələrlə bu problemin aradan qaldırılması üçün «strategiya» qurmağa başladılar. Onların bu «strategiyasının» ölkənin siyasi böhranına apardığı artıq məlumdur.

Surət Hüseynov əvvəlcə korpus komandiri vəzifəsindən kənarlaşdırıldı. Güman edilirdi ki, bununla cəbhədə respublikanın xeyrinə sürətli dəyişikliklər yaratmaq mümkün olacaqdı. Amma bu baş vermədi. Əslində, konkret tarixi şəraitdə bu, heç mümkün də deyildi. Çünki ordu düzgün aparılmayan dövlət si-

yasəti nəticəsində dərin böhranla qarşılaşmışdı və ordunun da bu böhrandan çıxarılması üçün dövlət siyasətinin dəyişdirilməsinə, ordu quruculuğunun prinsipial əsaslar üzərinə qoyulmasına ehtiyac var idi. Bu isə çox ciddi dövlətçilik təcrübəsini tələb edirdi.

İnsan itkisi ilə nəticələnən, respublikanı vətəndaş müharibəsi həddinə gətirib çıxaran Gəncə hadisələri dövlət rəhbərliyinin razılığı və Müdafiə nazirinin 1 aprel 1993-cü il tarixli əmrinə əsasən təşkilinə başlanmış və daha çox iqtidara qarşı istiqamətlənmiş 709 nömrəli hərbi hissənin ətrafında düyünlənməyə başladı. Bu hadisənin baş verməsi də, əslində, Azərbaycanda Ali Baş Komandanlıq institutunun formalaşdırılmamasının acı nəticəsi idi. Kəlbəcər rayonu işğal edildikdən sonra Surət Hüseynov ətrafında toplaşan və ona sadiq qalan silahlı dəstələri mütəşəkkil bir struktura çevirmək üçün yeni bir hərbi hissənin yaradılması ideyası ilə iqtidara müraciət etdi və belə bir hissənin təşkilinə razılıq aldı. İqtidar nümayəndələri Kəlbəcərin işğalından sonra düşdükləri mürəkkəb vəziyyətdən çıxa bilmək üçün belə bir hissənin təşkilini qəbul etdilər.

Müdafiə nazirinin 1 aprel 1993-cü il tarixli 062 nömrəli əmrinə əsasən təşkilinə başlanmış avtomobil üzərində 709 nömrəli briqadanın tərkibində aşağıdakı hissə və bölmələr olmalı idi: qərargah, avtomobil üzərində 5 motoatıcı tabor, topçu divizionu, zenit-artilleriya divizionu, tank əleyhinə divizion, əlahiddə maddi təminat taboru, rabitə bölüyü, kəşfiyyat bölüyü, mühəndis-istehkam bölüyü, kimya mühafizəsi bölüyü, təmir bölüyü, tibb bölüyü və mühafizə və xidmət bölüyü. Briqadanın təşkili 1993-cü il aprlin 15-dək başa çatdırılmalı idi (98).

Müdafiə nazirinin 14 aprel 1993-cü il tarixli başqa bir əmri ilə 709 nömrəli briqadanın təşkili ilə bağlı 1 aprel 1993-cü il tarixli əmrə dəyişiklik edildi. Yeni əmrə əsasən briqada Seyfəlidə təşkil edilməli və onun tərkibinə aşağıdakı hissə və bölmələr daxil

olmalı idi: PDM üzərində 5 motoatıcı tabor, avtomobil üzərində 1 motoatıcı tabor, tank taboru, reaktiv-artilleriya taboru, haubitsa topçu divizionu, zenit-raket divizionu, tank əleyhinə divizion, kəşfiyyat bölüyü, rabitə bölüyü, mühəndis-istehkam bölüyü, kimya mühafizəsi bölüyü, əlahiddə maddi təminat taboru, əlahiddə təmir-bərba taboru, mühafizə və xidmət bölüyü və tibb bölüyü (99).

İqtidar nümayəndələri güman edirdilər ki, belə bir hissənin yaradılması və cəbhə xəttinə atılması ilə Kəlbəcər ətrafında yaranmış ağır hərbi şəraitdə təşəbbüsü yenidən ələ almaq mümkün olacaqdır. Lakin 709 nömrəli hərbi hissənin yaradılması və Kəlbəcər istiqamətinə göndərilməsi iqtidarın gözlədiyi gümanları doğrultmadı və Kəlbəcər ətrafında gedən döyüşlərin uğursuzluğa düçar olmasında da iqtidar ilk növbədə elə 709 nömrəli hərbi hissəni günahlandırdı (100).

709 nömrəli hərbi hissə Müdafiə Nazirliyinin tərkibində təşkil edilmiş və onun komandiri də Müdafiə nazirinin əmri ilə təyin edilmişdi. Amma bu hissənin kadrlarının müəyyənləşdirilməsində, hissənin təminat və təchizatında Surət Hüseynov yaxından iştirak edirdi və ona görə də bu hissədə güclü nüfuza malik idi. Yəni əslində, bu hissəyə münasibətdə rəhbərliyin mərkəzləşdirilməsi pozulmuşdu. Hissə Müdafiə Nazirliyinin tərkibində yaradılsa da, burada xidmətdənkənar bir şəxs kimi Surət Hüseynovun nüfuzu böyük idi və hissənin rəhbərliyi də bu nüfuzla hesablaşmalı olurdu. Başqa sözlə, ölkə rəhbərliyi öz qərarı ilə ikili rəhbərliyə malik olan bir hərbi hissənin yaradılmasına icazə vermişdi.

Kəlbəcər ətrafında cəlb edildiyi döyüşlərdə uğursuzluğa düçar olandan sonra 709 nömrəli hərbi hissənin bölmələri geri alınaraq bir müddət Goranboy rayonu ərazisinə yerləşdirildi. Lakin «burada bir neçə çobanın öldürülməsindən və digər üstü açılmayan dalbadal cinayət hadisələrindən sonra Goranboyun yerli si-

lahlı qüvvələri və Goranboy icra hakimiyyəti arasında narazılıqlar artmağa başladı və həmin qüvvələr yenidən Gəncədə və daha sonra Seyfəlidə yerləşdi» (101).

Amma belə bir qərar istər 709 nömrəli hərbi hissə ətrafında başlanan gərginliyin, istərsə də xalqın iqtidara qarşı narazılığının güclənməsinin qarşısını ala bilmədi. İqtidara qarşı istiqamətlənmiş narazılıqlar bir sıra hərbi hissələrə də sirayət etmişdi. Bunun nəticəsi idi ki, bir sıra hissələrin nümayəndələri və yüksək rütbəli zabitlər 709 nömrəli hərbi hissənin bazasına toplaşaraq müşavirə keçirdilər və yeni bir «Hərbi birliyin» yaradılması barədə qərar qəbul etdilər. Bu müşavirənin iştirakçıları «Hərbi birliyi» təmsil etmək səlahiyyətini Surət Hüseynova verdilər (102).

«Hərbi birliyin» tərkibinə daxil olan zabitlər Azərbaycan Respublikası Prezidentinə, Azərbaycan Respublikası Ali Sovetinə, Nazirlər Kabinetinə, Müdafiə Nazirliyinə, bütün əlaqədar təşkilatlara, idarə və müəssisələrə, kütləvi informasiya vasitələrinə, Azərbaycan xalqına ünvanlanmış müraciət qəbul etdilər. Bu müraciətlə yenicə elan olunmuş «Hərbi birliyin» Azərbaycanın Konstitusiya normalarını tanımadığı, iqtidarı qəbul etmədiyi, iqtidara qarşı silahlı mübarizə yolunu tutduğu bəyan edildi. Çünki qəbul olunan müraciətə görə, «Hərbi birliyin» üzvləri Silahlı Qüvvələrin Ali Baş Komandanı, ölkə Prezidenti, dövlət strukturları olduğu halda Azərbaycanın ərazi bütövlüyünü qorumaq səlahiyyətini öz üzərinə götürmüşdülər. Bundan əlavə, «Birliyin» müraciətində ölkə torpaqlarının müdafiəsini təşkil etməyin zəruriliyi qeyd edilsə də və bununla bağlı narahatçılıq hiss olunsa da, yüksək rütbəli zabitlərin «Həbri birliyin» hərbi şurasının qərarlarını sözsüz, tam hərbi qaydada əməl etməyə and içməsi bütünlükdə Müdafiə Nazirliyinin də tananmaması demək idi (103).

Başqa sözlə, yaranmış mürəkkəb şəraitdə iqtidar orqanları dövlətin nəzarətindən qopan hissələrin dövlətin qərarı olmadan

yeni bir strukturda birləşməsini və bu struktura rəhbərlik üçün də dövlət nəzarətindən kənar bir hərbi şuranın yaradılmasının qarşısını ala bilmədilər. 709 nömrəli hərbi hissənin rəhbərliyi də öz fəaliyyəti ilə göstərdi ki, bu hissə üçün Müdafiə Nazirliyinin qərar və göstərişləri artıq məcburi deyil və bunun nəticəsi idi ki, bu hissənin dislokasiyası ilə bağlı Müdafiə Nazirliyindən verilən bir neçə əmr yerinə yetirilmədi.

Müdafiə Nazirliyi bu hərbi hissəni Seyfəlidə saxlamaq və orada yerləşdirmək istəyirdi. Müdafiə nazirinin aprelin 1-də imzaladığı əmrə əsasən polkovnik-leytenant Eldar Əliyev bu hərbi hissənin komandiri təyin edildi. Eldar Əliyev Müdafiə nazirinin müvafiq əmri olmadan hissənin formalaşdırılmasını keçmiş 23-cü sovet motoatıcı diviziyanın şəhərciyində aparılmasını məqsədəuyğun bilmiş və hissənin qüvvə və vasiətlərini bu şəhərciyə köçürmüşdü. Yəni, hərbi hissənin komandiri Müdafiə Nazirliyinin rəhbərliyinin hissənin Seyfəlidə yerləşdirilməsi haqqındakı göstərişini yerinə yetirməkdən imtina edərək Gəncədə qalmağa üstünlük vermişdi. Belə olanda Müdafiə Nazirliyinin rəhbərliyi öz qərarına bir də baxmalı oldu və Gəncə şəhərində olan hərbi şəhərciklərin mövcud qüvvə və vasitələrin yerləşdirilməsi planına uyğun olaraq yenidən bölüşdürülməsini nəzərdən keçirdi. Yeni qərara əsasən 709 nömrəli hərbi hissənin 23-cü motoatıcı diviziyanın şəhərciyindən çıxararaq keçmiş 345 nömrəli paraşüt-desant alayının ərazisində yerləşdirilməsi məqsədəuyğun bilindi. Bununla əlaqədar, 1993-cü il may aynın 8-də Baş Qərargah rəisinin müvafiq əmri də imzalandı və həmin əmrdə nəzərdə tutulmuşdu ki, briqada may ayının 15-nə qədər 345-ci alayın şəhərciyinə köçsün (104). Ancaq bu əmr də yerinə yetirilmədi.

Nəhayət, 1993-cü il may ayının sonlarında iqtidar 709 nömrəli hissə ətrafında cərəyan edən prosesləri nəzarət altına alma-

ğa cəhd göstərdi. Yaranmış vəziyyət may ayının 25-də əvvəlcə Dövlət Müdafiə Komitəsində, sonra da Müdafiə Nazirliyinin kollegiyasında müzakirə olundu. Dövlət Müdafiə Komitəsinin qənaəti belə oldu ki, 709 nömrəli hərbi hissə yalnız Surət Hüseynova tabe olur və qanuni dövlət strukturlarını tanımır. Bu vəziyyət hərbi hissənin dövlətə qarşı çıxması kimi qiymətləndirildi və qərara alındı ki, 709 nömrəli hərbi hissə tərksilah edilsin (105).

Məsələnin həlli dərhal, yəni elə may ayının 25-də Müdafiə Nazirliyinin kollegiyasının da müzakirəsinə çıxarıldı və kollegiyanın gedişində 709 nömrəli hərbi hissə qeyri-qanuni hərbi hissə kimi xarakterizə olundu və onun 1993-cü il may ayının 31-nə kimi ləğv olunması barədə əmr layihəsinin hazırlanması müvafiq şəxslərə tapşırıldı.

1993-cü il may ayının 30-31-də hakimiyyət üçün təhlükə hesab edilən 709 nömrəli hərbi hissənin tərk-silah edilməsi Müdafiə Nazirliyində və Milli Təhlükəsizlik Nazirliyində ətraflı şəkildə müzakirə edildi. Elə toplantının gedişində tərk-silah əməliyyatında iştirak edəcək qüvvələr, habelə toplantı iştirakçılarının bu əməliyyat zamanı vəzifələri dəqiqləşdirildi (106).

1993-cü il may ayının 31-də Müdafiə naziri tərəfindən «709 nömrəli hərbi hissənin ləğv edilməsi haqqında» 0121 nömrəli əmr imzalandı. Həmin əmrdə 709 nömrəli hərbi hissənin zabit və gizirlərinin Müdafiə Nazirliyinin sərəncamına çıxarılması, sıravi heyətin və texnikanın isə 703 nömrəli hərbi hissəyə verilməsi nəzərdə tutulmuşdu. Əmrə görə hissənin ləğv edilməsi iyunun 12-dək başa çatdırılmalı idi. Müdafiə nazirinin adı çəkilən əmri 15 nüsxədə çoxaldılaraq əlaqədar strukturlara və o cümlədən də 709 nömrəli hərbi hissəyə göndərilməli idi. Ancaq əmrin hissəyə göndərilməli olan surəti birbaşa hissənin özünə yox, onun tabe olduğu I korpusun komandanlığına və oradan da 709 nömrəli hərbi hissəyə göndərildi (107).

Müdafiə nazirinin 0121 nömrəli əmrinin imzalanmasından dərhal sonra onun icrasına ciddi hazırlıq görülməyə başladı. 1993-cü il iyunun 2-də Şəmkirin Kür qəsəbəsində 709 nömrəli hərbi hissənin tərksilah edilməsi üçün planlaşdırılan əməliyyatın qərargahı yaradıldı -və əməliyyata rəhbərlik edəcək Dadaş Rzayevin sərəncamına 3000-ə qədər silahlı qüvvə və çoxlu sayda hərbi texnika göndərildi. Əməliyyatın planlaşdırılan şəkildə başa çatdırılması üçün 707 nömrəli hərbi hissədən 200 əsgər və zabit, 7 ədəd T-72 tankı, 2 ədəd M-21 «Qrad» qurğusu, 3 ədəd D-30 topu, 6 ədəd piyada döyüş maşını və 2 ədəd rabitə qurğusu gətirilmişdi. Bundan əlavə, Ağdam istiqamətindən 8 ədəd M-21 «Qrad» qurğusu, 8 ədəd D-30 topu, 5 ədəd piyada döyüş maşını, 6 ədəd rabitə qurğusu maşını bütün heyəti ilə birlikdə - cəmi 60 nəfər, daxili qoşunlardan 260 nəfər, Milli Təhlükəsizlik Nazirliyinin xüsusi təyinatlı dəstəsindən 40 nəfər, bələdiyyə polisindən 60 nəfər, gömrük polisindən 40 nəfər, Bakı və onun ətrafında yerləşən hərbi hissələrdən 681 nəfər tərk-silah əməliyyatının rəhbərliyinin sərəncamına göndərilmişdi. Daxili işlər nazirinin göstərişinə əsasən, bu Nazirliyin bir sıra rəhbər şəxsləri və başqa əməkdaşları – cəmi 1213 nəfər, Daxili İşlər Nazirliyinin strukturuna daxil olan 14 idarə və xidmətin şəxsi heyəti ictimai asayişin təmin olunmasına, qanunsuz saxlanılan silahların və partlayıcı maddələrin yığılmasına, islah-əmək müəssisələrindən döyüş zonasına buraxılmış şəxslərin tutulmasına, həmçinin komendant saatının tətbiqinə kömək məqsədilə 1993-cü il mayın 27-dən iyunun 5-dək Gəncə şəhərinə ezam edildilər. Qanunvericiliyə görə, birbaşa Prezidentin özünə tabe olan Milli Qvardiyanın 200 nəfərlik şəxsi heyəti də Gəncə hadisələrinə cəlb edilmişdi. 1993-cü il iyunun 1-də Milli Qvardiyanın komandanının 02 nömrəli əmrinə əsasən Qvardiyanın 147 nəfərlik silahlı dəstəsi Şəmkir rayonunun Kür qəsə-

bəsinə yollandı. Milli Qvardiyanın 97 nəfərlik digər bir dəstəsi isə 130 nömrəli hərbi hissənin şəxsi heyəti ilə birlikdə 709 nömrəli hərbi hissənin tərk-silah edilməsində iştirak etməli idi (108).

707 nömrəli hərbi hissənin 200 nəfərlik şəxsi heyətindən 160 nəfəri Seyfəli təlim mərkəzinin mühafizəsinə göndərilmiş, qalan 40 nəfər isə 3 tank və 3 PDM ilə birlikdə 130 nömrəli hərbi hissənin sərəncamına verilmişdi. Bundan başqa, Seyfəli təlim mərkəzinə Müdafiə Nazirliyinin Artilleriya idarəsinin zabitlərinin rəhbərliyi altında 60 nəfər şəxsi heyətlə birlikdə 8 ədəd «Qrad», 8 ədəd top gətirilməli idi. Ancaq bu dəstə silah və texnikası ilə birlikdə Gəncə ətrafı yolla hərəkət edərkən tərksilah edilib 709 nömrəli hərbi hissəyə verilmişdi. Bütünlükdə, tərksilah əməliyyatının gizli saxlanılması üçün əməliyyata cəlb edilmiş hissələrin şəxsi heyətinə guya Seyfəlidə yerləşən təlim mərkəzində təlim keçiriləcəyi və oradan Kəlbəcərin azad edilməsinə göndəriləcəyi bildirilmişdi.1993-cü il iyunun 3-də əməliyyata cəlb edilmiş hissə və bölmələrin rəhbərləri ilə Kür qəsəbəsindəki qərargahda xüsusi müşavirə keçirildi və onların hər birinin əməliyyat zamanı icra edəcəkləri vəzifələr dəqiqləşdirildi (109).

Beləliklə, 1993-cü il iyun ayının ilk günlərində ordunun və digər silahlı birləşmələrin böyük bir hissəsi Gəncə ətrafında formalaşmış olan silahlı müxalifətin tərk-silah edilməsinə cəlb edildi. Bununla da Azərbaycanın ərazi bütövlüyünün qorunması üçün yaradılmış olan qoşun hissələri iki cəbhədə birləşərək üzüzə gəldilər.

1993-cü il iyun ayının 4-də gecə saat 1-də Müdafiə naziri tərəfindən 130 nömrəli hərbi hissənin komandirinə 709 nömrəli hərbi hissənin tərk-silah edilməsinə rəhbərlik etmək tapşırıldı. Lakin bu hissənin komandiri belə bir vəzifəni icra etmək tapşırığı ilə razılaşmayaraq elə gecə ikən hərbi hissəni tərk etdi. Belə olanda 709 nömrəli hərbi hissə ilə qonşuluqda yerləşən hərbi

hissəni hərəkətə gətirmək və tərk-silah əməliyyatını icra etmək üçün korpus komandirinə tapşırıq verildi. Korpus komandiri Müdafiə nazirinin təkidindən sonra iyunun 4-də 130 nömrəli hərbi hissəyə gəldi, qarşı tərəfə atəş açılmasını dayandırdı və sonra 709 nömrəli hərbi hissənin komandiri ilə görüşməyi qərara aldı. Lakin korpus komandiri burada həbs edildi və tabeliyində olan hərbi hissələrdən təcrid edildi. Dinc məcrasından çıxan proseslər sonradan silahlı qarşıdurmaya çevrildi. Nəticədə 709 nömrəli hərbi hissənin yerləşdiyi şəhərciyə böyük maddi ziyan dəydi və insan tələfatına yol verildi.

709 nömrəli hərbi hissənin ətrafına toplaşmış olan qüvvələr hökumət qüvvələrinin ilk həmləsinin qarşısını ala bildilər. Bu isə bir tərəfdən iqtidarın bir daha səriştəsizliyini göstərdi, digər tərəfdən isə yaranan qarşıdurma əhalinin ciddi narazılıqlarına səbəb oldu. Nəzərdə tutulan əməliyyata yenidən başlanması və onun sona yetirilməsi üçün vəzifəli şəxslər bəzi əlavə tədbirləri həyata keçirməyi qərara aldılar. Güman edilirdi ki, bununla planın icrasına ciddi təminat yarana bilər. Məsələn, respublikanın Baş nazirin göstərişinə əsasən iyunun 4-də Hava Yolları Dövlət Konserninə məxsus bütün TU-154 və YAK-40 təyyarələrinin və vertolyotların Gəncəyə göndərilməsi barədə tapşırıq alındı. Həmin gün saat 14-dən başlayaraq gecə saat 3-dək Gəncəyə 6 təyyarə və 2 vertolyot uçuşu təşkil edildi. Bu reyslərlə Daxili İşlər Nazirliyinin 530 nəfərlik şəxsi heyəti, 1,6 ton yük, həmçinin döyüş sursatı və silah yola salındı. Ancaq iqtidar qüvvələrinin 709 nömrəli hərbi hissə üzərinə ilk hücumundan sonra bu hissədə və onun ətrafında toplaşmış qüvvələr Gəncə və onun ətrafını nəzarət altına götürdülər. Ona görə də təyyarələrlə Bakıdan gətirilən qüvvələr Gəncəyə daxil ola bilməyərək aeroportda qaldılar. 709 nömrəli hərbi hissədə aeroportda olan iqtidar qüvvələrinin ora-

dan sıxışdırılması qərara alındı. Bununla bağlı hərbi hissənin bir qrup hərbçisi texnikanın müşayiəti ilə aeroporta gələrək həmin qüvvələrdən oranı boşaltmağı tələb etdilər. Tələb yerinə yetirilmədikdə iyunun 5-də səhər saat 5-də toplardan və «Qrad» qurğularından atəş açıldı və aeroportun binasına ziyan yetirildi.

Gəncə ətrafında toplaşan iqtidar qüvvələrini möhkəmlətmək üçün ora 1993-cü il iyunun 5-6-da daxili qoşunların hərbi hissələrindən 630 nəfərlik dəstə göndərildi. Lakin Gəncənin yolları 709 nömrəli hərbi hissə ətrafına toplaşmış qüvvələr tərəfindən bağlı olduğu üçün daxili qoşunlardan olan dəstə Goranboy rayonunda dayanmalı oldu.

Silahlı Qüvvələrin bütün növlərini və digər silahlı birləşmələri təmsil edən qüvvələrin məqsədyönlü şəkildə, Konstitusiyaya zidd olaraq 709 nömrəli hərbi hissənin tərk-silah edilməsinə cəlb olunması Gəncədə və eləcə də bütün respublikada silahlı qarşıdurma yaratdı, vətəndaş müharibəsini reallığa çevirdi. Dövlət rəhbərliyinin respublika daxilində hərbi-siyasi vəziyyəti silah gücünə sabitləşdirmək cəhdi elə iyunun 4-də uğursuzluğa düçar oldu. Xeyli insan tələfatı ilə bərabər, şəhərə külli miqdarda maddi ziyan vuruldu. Azərbaycan Respublikası Milli Məclisinin Gəncə hadisələrini təhqiq edən deputat-istintaq komissiyasının işinin yekunu barədə qərarında da göstərilirdi ki, 709 nömrəli hərbi hissənin tərk-silah edilməsi Azərbaycan Respublikası Müdafiə Nazirliyinin səlahiyyətinə aid olan məsələdir. Belə bir halda Azərbaycan Respublikası Prezidentinin və respublikanın digər rəhbərlərinin həmin əməliyyatın keçirilməsi üçün Silahlı Qüvvələrin bütün növlərindən ibarət geniş miqyaslı hərbi qüvvələri cəlb etməsi məqsədyönlü xarakter aldı və ona görə də buna haqq qazandırmaq olmaz (110).

Bununla 709 nömrəli hərbi hissənin tərksilah edilməsi və silahlı müxalifətin aradan qaldırılması üçün dövlətin planlaşdır-

dığı əməliyyat iflasa uğradı. Silahlı Qüvvələrin bütün növlərindən və digər silahlı birləşmələrdən formalaşdırılmış və təchiz edilmiş böyük bir dəstə kifayət qədər formalaşmamış 709 nömrəli hərbi hissənin müqavimətini qıra bilmədi və iqtidarı ağır bir duruma saldı. Görünür, iqtidar qüvvələri planlaşdırılan əməliyyatın belə nəticələrlə sona çatacağını gözləmirdi. Bunun üçün də elə ilk gündən Gəncədə baş verən hadisələr lazımınca işıqlandırılmadı. İyun ayının 4-də Azərbaycan televiziyası ilə verilən ilkin məlumat hadisələrin mahiyyətini açıqlamaqdan xeyli uzaq idi. Həmin məlumatda deyilirdi: «1993-cü il iyun ayının 4-də səhər saat 9-da Gəncə şəhərində bir qrup silahlı adam döyüş sursatı ələ keçirmək və girovlar götürmək məqsədilə hərbi hissəyə basqın etmişdir» (111). Məlumat Daxili İşlər Nazirliyi adından verildi. Bu məlumatdan belə bir qənaətə gəlmək olardı ki, dövlət orqanları 709 nömrəli hərbi hissənin tərksilah edilməsinin çox tezliklə başa çatacağına əmin imiş və ona görə də ilkin məlumatda həmin əməliyyatda böyük qüvvələrin iştirakını etiraf etmək istəməmişdi.

1993-cü il iyun aynın 5-də Müdafiə naziri və Silahlı Qüvvələrin Baş Qərargah rəisi Bakıya qayıtdılar. Elə həmin gün də onlar ölkə Prezidentinin yanına çağırıldılar. Onların məruzəsi dinlənildikdən sonra qarşılarına Gəncədə toplaşmış olan silahlı müxalifətin tezliklə tərk-silah edilməsi üçün qətiyyətli tapşırıq qoyuldu. Lakin Baş Qərargah rəisi ordunun siyasi oyunlara cəlb edilməsinin düzgün olmadığını qeyd edərək planlaşdırılan yeni əməliyyata etirazını ifadə etdi. Bu etiraz qəbul edilmədi və elə həmin gün Baş Qərargah rəisi öz vəzifəsindən azad edildi.

Gəncədə toplaşan silahlı müxalifətin tərk-silah edilməsinə göstərilən cəhd zamanı 35 nəfər həlak oldu, 135 nəfər isə yaralandı. 1200 nəfərə yaxın şəxs, o cümlədən respublikanın Baş pro-

kuroru, Milli Təhlükəsizlik nazirinin birinci müavini, daxili işlər nazirinin müavini, sərhəd qoşunları idarəsinin qərargah rəisi və digər yüksək vəzifəli şəxslər girov götürüldülər.

Azərbaycan Xalq Cəbhəsinin və dövlətin nəzarəti altında olan informasiya vasitələri iqtidarın planlaşdırdığı əməliyyatın uğursuzluğa düçar olmasının səbəbini 709 nömrəli hərbi hissənin Gəncəni tərk etmiş Rusiya qoşunlarının ən müasir texnikası ilə təchiz edilməsi və bu hissənin sıralarında rus ordusu mütəxəssislərinin mövcudluğu ilə bağlayırdılar (112). Əslində isə iqtidarın hərbi cəhətdən də iflasa uğraması başqa səbəblərlə bağlı idi. Çünki 709 nömrəli hərbi hissənin malik olduğu maddi baza öz keyfiyyətinə və döyüş xüsusiyyətlərinə görə hökumətin nəzarəti altında olan hərbi hissələrdən heç də üstün deyildi. Silah və texnika baxımından da 709 nömrəli hərbi hissə heç də digər hərbi hissələrdən üstün deyildi. Çox sayda ola biləcək hərbi texnikanı şəhər daxilində hərəkətə gətirmək də asan məsələ deyildi. Həqiqətdə, 709 nömrəli hərbi hissənin formalaşması da heç başa çatmamışdı və onun güclü hərbi hissəyə çevrilməsi müəyyən vaxt tələb edirdi. Müdafiə Nazirliyinin və bəzi hərbi hissələrin arxivlərində olan sənədlər də sübut edir ki, 709 nömrəli hərbi hissə bu Nazirliyin tarixində ən uğursuz və döyüş qabiliyyət aşağı olan bir hərbi hissə kimi tanınmışdır. Məsələn, 1993-cü il iyul ayına olan məlumata görə, bu hissə zabitlərlə cəmi 0,5 faiz, gizirlərlə 8 faiz, çavuşlarla 3,4 faiz, sıravi heyətlə cəmi 8 faiz komplektləşdirilmişdi (113). Heç sonradan da bu hissədə ciddi bir dəyişiklik baş vermədi və 1993-cü ilin avqust ayında həmin hissədə aparılan yoxlamadan sonra Baş nazirin qarşısında bu hissənin yararsızlığına görə ləğv edilməsi məsələsi qaldırıldı.

Bu hissədə qeyri-qanuni şəkildə əldə edilmiş silahların olub-olmamasına toxunmadan bütövlükdə qeyd etmək lazımdır

ki, o, Gəncə ətrafına toplanmış iqtidar qüvvələrinə sona qədər müqavimət göstərmək gücünə malik deyildi. İqtidar etiraf etməsə də, bu hadisələrdə dövlət qüvvələrinin uğur qazanmamasının başlıca səbəbi xalq tərəfindən müdafiə olunmaması idi. İqtidar xalqın gücündən məhrum olmuşdu, xalqla iqtidar arasında uçurum yaranmışdı.

Bu hadisələr ərəfəsində iqtidarla xalq arasında yaranmış uçurumu Heydər Əliyev belə dəyərləndirirdi: «... Onlar hələ hakimiyyəti saxlamaq iqtidarında deyildilər. Ona görə bir il müddətində Azərbaycanın başına böyük bəlalar gəldi. Bunu dərk etməli idilər... Çünki hakimiyyətə gələn insanlar düz yol ilə getmədilər. Ona görə də sağlam qüvvələr çəkildi və onlar qüvvədən düşdülər, xalqın etimadını itirdilər. Bütün bunlar da 1993-cü ilin iyununda hakimiyyət, dövlət böhranına, hərbi, siyasi böhrana gətirib çıxardı» (114).

Beləliklə də, Gəncədə insan tələfatı ilə nəticələnən ciddi silahlı qarşıdurma baş verdi. Elə ilk gündən də Gəncədə planlaşdırılan hadisələr dövlət qurumlarının nəzarəti altından çıxdı. Faciənin miqyası barəsində rəsmi informasiya orqanları sussalar da, yayılan xəbərlər və şayiələr ictimaiyyətdə geniş əks-səda doğurdu. Əhali arasında baş qaldıran narazılıqların qarşısının alınması məqsədilə respublika Prezidentinin razılığına əsasən Azərbaycan ziyalılarının və ağsaqqallarının bir qrupu vəziyyətlə yerindəcə tanış olmaq üçün Gəncəyə yola düşdü. Respublika ağsaqqalları Gəncədə baş verənlərlə əyani şəkildə tanışlıqdan sonra vəziyyət haqqında ictimaiyyəti və Milli Məclisin üzvlərini məlumatlandırmalı idilər. Səhəri gün onlar Gəncədə oldular və orada nə baş verdiyi ilə yaxından tanış oldular. Həmin günlərdə, yəni iyunun 5-6-da Gəncə şəhərinin ictimaiyyətinin nümayəndələrinin mitinqi təşkil olundu və bu mitinqdə də ha-

disələrin təhlükəli xarakter ala biləcəyindən ciddi narahatçılıq ifadə olundu.

Qeyd etmək lazımdır ki, iqtidar qüvvələrinin həmləsinin qarşısını alandan sonra 709 nömrəli hərbi hissə ətrafına toplaşmış qüvvələr yalnız Gəncə daxilində dayanmaqla kifayətlənmədilər. Elə həmin günlərdə bu qüvvələrin Bakıya doğru hərəkəti başladı və bununla respublikadakı siyasi vəziyyət daha da kəskinləşdi. Çünki, Gəncədə toplanmış silahlı müxalifət Bakıya doğru hərəkət zamanı keçdikləri rayonlarda iqtidar tərəfindən təyin olunmuş rəhbərləri dəyişdirərək onların yerinə öz nümayəndələrini təyin edirdilər.

İyunun 7-də Gəncə hadisələri başlanan vaxtdan sonra ilk dəfə Prezident aparatında respublika Prezidentinin rəhbərliyi ilə dövlət orqanları rəhbərlərinin geniş müşavirəsi keçirildi. Müşavirədə Gəncə ətrafında baş verənlər müzakirə olundu və orada baş verənlərdən sonra respublikanın ağır hərbi-siyasi böhrandan çıxarılması üçün yollar axtarıldı. Vəziyyətin mürəkkəb xarakter aldığı həm Prezidentin, həm də digər müşavirə iştirakçılarının çıxışlarında səsləndi. Bu çətin məqamda bütün siyasi qüvvələrin Prezidentin ətrafında birləşməsini, xalqın inandığı adamların hakimiyyətdə təmsil olunmasını vəziyyətdən çıxış yolu kimi qiymətləndirən baş nazir P.Hüseynov müşavirədə Azərbaycan dövlətçiliyi naminə istefa verdiyini bildirdi (115).

Elə həmin gün də respublika Prezidenti Naxçıvanda olan Heydər Əliyevlə əlaqə saxladı, respublikanın ağır vəziyyətdən çıxarılması üçün ondan Bakıya gəlməsini xahiş etdi. Bunun üçün Naxçıvana xüsusi təyyarə də göndərildi. Azərbaycan əhalisinin müxtəlif qrupları, ziyalıların nümayəndələri və nüfuzlu ağsaqqallar da belə bir xahişlə Heydər Əliyevə müraciət etdilər. Lakin iyunun 7-də və o cümlədən iyunun 8-də də Heydər Əliyev bu təkliflərdən imtina etdi.

Ancaq iyunun 9-da edilən növbəti təklifdən sonra Heydər Əliyev Bakıya gəlməyi qərara aldı. İnformasiya vasitələrinə verdiyi bəyanatlarında Heydər Əliyev qeyd edirdi ki, respublikada yaranmış dərin böhranın aradan qaldırılması zərurəti ilə bağlı respublika Prezidentinin dəvətini qəbul etmiş və ölkədə vətəndaş həmrəyliyinin əldə edilməsi üçün Bakıya gəlmişdir (116).

Bakıya gəldiyi gündən də Heydər Əliyev respublikada vətəndaş həmrəyliyinin əldə edilməsi istiqamətində fəaliyyətə başladı. Yaranmış böhrandan çıxış yollarının tapılması, vətəndaş qarşıdurmasının qarşısının alınması üçün o, respublika prezidenti ilə, digər rəhbər vəzifəli şəxslərlə, siyasi partiyaların liderləri, diplomatik nümayəndələr və ictimaiyyətin nümayəndələri ilə görüşərək məsləhətləşmələr apardı.

İyun ayının 13-də Milli Məclisin fövqəladə iclasında Ali Sovetin sədri tutduğu vəzifədən istefa vermək qərarına gəldiyini bildirəndən sonra Heydər Əliyevin bu vəzifəyə seçilməsi təklif olundu. Lakin son günlər gördüyü işlər barədə Milli Məclisə müxtəsər məlumat verən Heydər Əliyev təklif olunan məsul vəzifəyə namizədliyi baxılmazdan əvvəl Gəncəyə gedib vəziyyətlə yerindəcə tanış olmağın məqsədəuyğunluğunu bildirdi (117).

Elə həmin gün də Gəncəyə yola düşən Heydər Əliyev iyunun 13-14-də Gəncə şəhərində Surət Hüseynovla və onunla birlikdə şəhərə nəzarət edən digər şəxslərlə görüşüb söhbət etdi. Bu görüşlərdə Gəncə və ətraf rayonlarda yaranmış vəziyyət təhlil olundu və kəskin siyasi böhranın aradan qaldırılması yolları müzakirə edildi. Heydər Əliyev və onu müşayiət edən şəxslər iyunun 4-də qanlı hadisələrin baş verdiyi hərbi hissələrin ərazisində oldular, əhali ilə, hərbi qulluqçularla görüşdülər, baş verənlərlə bağlı vətəndaşların, respublika və xarici informasiya vasitələrinin nümayəndələrinin çoxsaylı suallarına cavab verdilər.

Elə həmin günlərdə S.Hüseynovun nəzarəti altında olan və Müdafiə Nazirliyinin nəzarətindən çıxmış hərbi qüvvələr Gəncədən Bakıya doğru irəliləməyə başladılar. Silahlı müxalifətin rəhbərliyi gizlətmirdi ki, Bakıya doğru irəliləməkdə məqsəd mövcud iqtidarı hakimiyyətdən uzaqlaşdırmaqdır. Müdafiə nazirinin iyun ayının 14-də respublika Prezidentinə verdiyi məlumatda bildirilirdi ki, S.Hüseynovun nəzarəti altında olan hərbi qüvvələr artıq Dəllər aerodromuna, Xaldana, Ağdaşa, Göyçaya və Kürdəmirə nəzarət edirlər. Verilən məlumata görə, bu qüvvələr ayın 15-nə keçən gecə artıq Hacıqabul rayonunun Nəvahı kəndi yaxınlığına yetişmişdilər. Bu qüvvələrin sərəncamında 1 ədəd tank, 4 ədəd «Qrad» qurğusu, 3 ədəd PDM, 2 ədəd top, hərəsində 30 əsgər olan 15 avtomobil, 2 ədəd rabitə maşını, 2 ədəd yanacaq dolduran maşın, 2 ədəd UAZ və minik maşınları var idi (118).

İyun ayının 14-də Bakıya doğru irəliləyən qüvvələrin qarşısının alınması üçün Müdafiə nazirinin və Baş Qərargah rəisinin imzası ilə döyüş əmri imzalandı. Həmin əmrdə deyilirdi ki, üsyançılar döyüş bölgəsində yaranmış ağır vəziyyətdən istifadə edərək Bakıya doğru irəliləyirlər. Bildirilirdi ki, Milli Məclisin qərarına əsasən bu qüvvələr iyun ayının 14-dən 15-nə keçən gecəyədək silahları təhvil verməli idilər. Amma bu baş verməmişdi. Əmrdə göstərilirdi ki, Silahlı Qüvvələr üsyançıların Bakıya doğru hərəkətinin qarşısını almalı və onların atəş açacağı təqdirdə atəşlə cavab verilməli idi. Müdafiə naziri ilə Baş Qərargah rəisinin döyüş əmrində sonra deyilirdi ki, əsas diqqət Kürdəmir-Bakı istiqamətinə yönəldilməli, bütün vasitələrdən açılan atəşlə və 1-ci eşelonun dayanıqlı müdafiəsi ilə üsyançıların əsas qüvvələrinin hücumun qarşısı alınmalıdır. Əgər üsyançılar əsas müdafiə xəttini yarmağa müvəffəq olsaydılar 1-ci və 2-ci eşelonların qüvvələrinin atəşləri, aviasiyanın və hərbi vertolyotların zərbəsi və

artilleriya atəşləri ilə onların irəliləməsi dayandırılmalı idi. Əmrə görə, Bakıya aparan yolların müdafiəsi üçün Müdafiə Nazirliyinin qüvvələri iki eşelonda qruplaşdırılmalı idi. 1-ci eşelonda Bakı Ali Ümumqoşun Komandirləri məktəbinin və hərbi polisin qüvvələri, 2-ci eşelonda isə Hərbi Dəniz Qüvvələrinin bölmələri dayanmalı idi. Əmrdə bu qüvvələrin konkret mövqeləri göstərilmişdi (119).

İyunun 15-də Milli Məclis yarımçıq qalmış iclasının işini davam etdirdi. Səs çoxluğu ilə Ali Sovetin sədri seçilən Heydər Əliyev iclasda qısa çıxış edərək mövcud dərin böhrandan çıxmaq üçün respublikanın qarşısında dayanan mühüm məsələlərə toxundu. Daxili və xarici siyasətdə əldə edilənlərdən, görüləsi işlərdən danışan Heydər Əliyev Azərbaycanın müharibədən çıxarılmasına, vətəndaş qarşıdurması təhlükəsinin aradan qaldırılmasına xüsusilə toxundu. Proqram xarakteri daşıyan çıxışında Heydər Əliyev Gəncədə törədilən cinayətlərin günahkarlarının məsuliyyətə cəlb edilməsini, silah işlədilməsinin yolverilməzliyini vurğuladı, Azərbaycan ziyalılarına, ağsaqqallarına, siyasi partiyaların və qurumların fəallarına, Gəncə əhalisinə, Surət Hüseynova və onun ətrafındakılara, bütün Azərbaycan xalqına müraciət edərək hamını Azərbaycanın ağır vəziyyətdən çıxarılması naminə birləşməyə çağırdı (120).

Heydər Əliyev strateji planda Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişafına, ərazi bütövlüyünün təmin edilməsinə nail olunmasının vacibliyindən danışdısa da, taktiki planda ən yaxın vəzifə kimi respublikada vətəndaş müharibəsinin aradan qaldırılmasını vacib bildi. Buna artıq bir təhlükə də mövcud idi. Çünki elə həmin gün, yəni 1993-cü il iyun ayının 15-də Nəvahı yaşayış məntəqəsi yaxınlığında hökumət qoşunları ilə Bakıya doğru irəliləyən silahlı dəstələr arasında yeni toqquşma baş verdi, yeni insan tələfatı oldu. Belə bir hadisə iyunun 17-də Qazax-Gəncə yolunda da baş verdi.

Respublikada yaranmış vəziyyətin mürəkkəbliyi Heydər Əliyevin Milli Məclisdəki çıxışında bir daha bütün açıqlığı ilə əks olundu. Onun fikrincə, vəziyyəti sabitləşdirməyə borclu olan qüvvələrin ötən günlər ərzində səmərəli fəaliyyət göstərməməsi respublikadakı böhranı daha da kəskinləşdirmişdi. Lakin özünün dövlətçilik təcrübəsinə və xalqın etimadına arxalanan Heydər Əliyev respublikanı, xalqı dərin uçuruma sürükləyən hadisələrin qarşısının alınması üçün heç də bütün imkanlardan istifadə edilmədiyini bildirdi və bunun üçün bütün qüvvələrin vahid məqsəd ətrafında birləşəcəyinə ümidvar olduğunu vurğuladı, xalqa arxalandığını söylədi.

Mövcud gərginliyin səngiməsinə nail olmaq üçün Surət Hüseynovla aparılan danışıqlar zamanı Bakıya doğru irəliləyən qüvvələrin müvəqqəti olaraq dayandırılması haqqında razılığa gəlindi. Lakin bunun əvəzində ciddi tələb irəli sürüldü. Respublikada törədilə biləcək təxribatların qarşısının alınması üçün iyunun 15-dək respublika Prezidenti Ə.Elçibəyin vəzifəsindən istefa verməsi üçün ultimatum verildi. Sonradan bu ultimatumun müddəti iyunun 17-dək uzadıldı.

İyun ayının 16-da Müdafiə naziri və Baş Qərargah rəisi 709 nömrəli hərbi hissənin qüvvələrinin Bakıya doğru irəliləməsinin qarşısını almaq üçün növbəti döyüş əmrini imzaladılar. Həmin əmrdə deyilirdi ki, Azərbaycan Respublikası Müdafiə Nazirinin əmr və göstərişlərinə tabe olmayan 709 nömrəli hərbi hissənin qüvvələri Bakı şəhərini tutmaq üçün Bakıya doğru irəliləməkdədirlər. Sonra bu qüvvələrin mövqeləri göstərilirdi. Əmrə əsasən Bakı şəhərinin müdafiəsinin məsuliyyəti Müdafiə nazirinin arxa cəbhə üzrə müavini general-mayor Vahid Musayevə həvalə olunurdu. Əmrə əsasən 709 nömrəli hərbi hissənin qüvvələrinin Bakıya doğri irəliləməsinin qarşısının alınması üçün iki operativ

qrup yaradılırdı. 1-ci qrupa Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinin bölmələri, Hərbi Dəniz Qüvvələrinin sahil hissələrinin bölmələri daxil idi. Bu qrup Şamaxı, Giləzi, Güzdək qəsəbəsi xətti üzrə müdafidə dayanmalı idilər. 2-ci qrupa isə Hərbi polisin, daxili qoşunların, Arxa cəbhə idarəsinin bölmələri və Hərbi Dəniz Qüvvələrinin sahil bölmələri daxil edilmişdi. Bu qrup isə Güzdək, Xıdırlı və Əli-Bayramlı xətti üzrə müdafiə mövqeləri tutmalı idilər (121).

İyunun 17-də Heydər Əliyev bir daha Surət Hüseynovla təmas saxladı, ona güc vasitələrinə əl atılmasının yenidən qardaş qırğınına səbəb olacağını xatırlatdı, hərəkətlərində təmkinli olmağa, silahlı dəstələrin Bakıya doğru irəliləməsinin qarşısını saxlamağa çağırdı. Bu təmasdan sonra respublika Prezidentinin istefası şərti ilə silahlı dəstələrin Bakıya girməsinin bir gün də təxirə salındığı bildirildi (122).

Silahlı qarşıdurmanın davam etdiriləcəyi təqdirdə onun nəyə gətirib çıxaracağını aydın görən Müdafiə Nazirliyinin yüksək rütbəli zabitləri iyun ayının 17-də iclas çağırıb yaranmış vəziyyəti müzakirə etdilər (123). İclas iştirakçılarının respublika Prezidentinin, Silahlı Qüvvələrin Ali Baş Komandanının adına göndərdiyi müraciətdə deyilirdi ki, cəbhədə və Ermənistanla həmsərhəd rayonlarda yaranmış ağır vəziyyəti, Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsini və «Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında» Qanunun 2-ci maddəsinə müvafiq olaraq Müdafiə Nazirliyinin rəhbər heyətinin ümumi iclası yekdilliklə Nazirliyin hərbi hissələrinin daxili siyasi münaqişələrə cəlb edilməsinin yolverilməzliyini təsdiq edirlər. Onların fikrincə, respublikanın bütün maddi və insan ehtiyatları xarici işğalçılarla mübarizə işinə səfərbər edilməli idi.

Silahlı Qüvvələrin rəhbərliyinin ordunun siyasi münaqişələrə cəlb edilməsinin yolverilməzliyini qətiyyətlə tələb etməsi ölkə rəhbərliyini çətin sual qarşısında qoydu və iyun ayının 18-nə keçən gecə Azərbaycan Prezidenti Ə.Elçibəy Bakını tərk edərək Naxçıvana getdi (124).

Milli Məclisin 24 iyun tarixli qərarı ilə Prezident vəzifəsinin icrası Heydər Əliyevə həvalə olundu. Prezident səlahiyyətlərinin Heydər Əliyevə verilməsi barəsində Ə.Elçibəy də iyunun 24-də fərman imzaladı. Bu isə iflic vəziyyətinə düşmüş ölkədə böhranın daha da dərinləşməsinə səbəb olan dövlət idarəetmə orqanlarının fəaliyyətinin canlandırılması üçün Heydər Əliyevə daha geniş imkanlar açdı. Təcrübəsiz kadrlar öz vəzifələrindən uzaqlaşdırıldılar, dövlət vəzifələrində öz fəaliyyətlərini dondurmaqla siyasi gərginliyin saxlanılmasına çalışanlara, müxtəlif vasitələrlə yeni rəhbərliyin xəttinə mane olmaq istəyənlərə qarşı qətiyyətlilik göstərildi, cəmiyyət miqyasında nizam və intizamın artırılmasına, qanunçuluğun bərpasına tələbkarlıq gücləndirildi. Respublika hüquq-mühafizə orqanlarının fəaliyyəti ciddi nəzarət altına alındı və onların imkanları ölkədə hökm sürən xaosun və böhranın qarşısının alınmasına istiqamətləndirildi.

Respublikadakı böhranın, vətəndaş qarşıdurmasının aradan qaldırılması üçün Heydər Əliyevin Surət Hüseynovla danışıqları və məsləhətləşmələri onların iyunun 27-də Bakıda keçirilən görüşlərində də davam etdirildi. Milli Məclisin iyunun 30-da keçirilmiş iclasında isə Surət Hüseynov Baş nazir vəzifəsinə təsdiq edildi.

Heydər Əliyev o vaxtkı müsahibələrindən birində bu məqama işarə edərək bildirirdi ki, Surət Hüseynovun Bakıya gəlməsi və Azərbaycanın Baş naziri olması baş vermiş bütün hadisələrin məntiqi nəticəsi idi (125).

Surət Hüseynovun Baş nazir vəzifəsinə təsdiq edilməsi respublikadakı daxili siyasi gərginliyi müəyyən qədər azaltdı.

Ancaq vəziyyət hələ də gərgin olaraq qalmaqda idi. Bir tərəfdən respublikanın daxilində böhranın davam etdiyi və bu səbəbdən də ölkə ordusunun parçalandığı bir şəraitdə Ermənistan silahlı qüvvələri hücuma keçərək yeni-yeni yaşayış məntəqələri işğal edirdilər. Digər tərəfdən də respublikada mövcud olan siyasi qüvvələr yaranmış vəziyyətdən çıxmaq üçün heç də prinsipial mövqe tutmurdular. Hakimiyyəti itirməkdə olan AXC fəalları hələ AXC qüvvələrinin iqtidarda olduğu vaxt Bakıda fövqəladə vəziyyət olmasına baxmayaraq, mitinqlər təşkil etməyə, şəhərdə və eləcə də bütün respublikada gərginlik yaratmağa cəhd göstərirdilər.

İyulun 15-16-da Milli Məclisdə Gəncə hadisələri ilə bağlı keçirilən geniş müzakirələr isə respublikada yaranmış böhranla əlaqədar bir sıra məsələlərə aydınlıq gətirdi. Məclisin qərarı ilə təşkil edilmiş deputat-istintaq komissiyasının işinin yekunları iclasda müzakirə edildi. Bu müzakirələrin nəticəsi kimi Milli Məclis «1993-cü il iyun ayının 4-də Gəncədə baş vermiş hadisələri təhqiq edən deputat-istintaq komissiyasının işinin yekunu barədə» qərar qəbul etdi və həmin hadisələrin törədilməsinə məsuliyyət daşıyan şəxslərin adı bu qərarda konkret şəkildə açıqlandı.

Milli Məclisin bu iclasının gedişində də Heydər Əliyev özünəməxsus olan qətiyyətlilik, ardıcıllıq, prinsipiallıq göstərdi, müzakirə olunan məsələnin mahiyyətinin açılması üçün bütün çıxışları öz axarına istiqamətləndirdi, ötəri hisslərin, emosiyaların, yayındırıcı fikirlərin cövlan etməsinə imkan vermədi. Bu iclasın gedişini izləyən jurnalistlərdən biri yazırdı: «Sessiyaya Əliyev rəhbərlik edirdi. Mən televizora baxır və onun hərəkətlərinə göz qoyurdum. Tökülmüş qanın müqəssirləri, dünən başlarına and içilənlər, dil pəhləvanları bir-birinin ardınca tribunaya qalxırdılar. O kəslər ki, il yarım ərzində televiziya ekranlarından çəkilmir, camaata öyüd-nəsihət verir, onu-bunu ifşa edir, damğalayırdılar,

indi onlar özlərini itirmiş və sarsılmışdılar. Kəkələyir, dilləri topuq çalır, öz günahlarını daşdan keçən dəlil-sübutlar qarşısında çətinliklə boyunlarına alırdılar. Başlıca müqəssirin, Elçibəyin adını çəkir, bütün günahları onun üstünə yıxırdılar. Mahir siyasətçi olan Əliyev onların hər birini özünüifşaya istiqamətləndirir, hər birinin əlindən onun potensial imkanını alır, köpünü yatırır, nitqdən məhrum edir, yaltaq televiziyanın yaratdığı simanı o ifşa edirdi. O, həmin adamları mərkəzə bağlayan telləri bir-birinin ardınca qırır, həmin telləri öz əlində cəmləşdirirdi, çünki o, indi bu mərkəzdə idi, viran qoyulmuş idarəetmə sisteminin ilk amanabənd strukturunu yaradırdı. Aydın görünürdü ki, onun üçün çətindir, yetmiş yaşlı siyasətçidən böyük həvəslə səbir və dözüm tələb olunurdu. Həmin anlarda ona müvəffəqiyyət, qisas hissi deyil, vurulub, alova bürünən təyyarənin sükanını öz əlinə keçirən pilotun heyrətamiz ustalığı istiqamət verir» (126).

1993-cü il oktyabrın 3-də keçirilən prezident seçkilərində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Respublikanın rəhbərliyinə gəldiyi qısa müddət ərzində onun rəhbərliyi altında həyata keçirilən siyasət nəticəsində ölkədə Gəncə hadisələri ilə ən yüksək gərginlik nöqtəsinə çatmış vətəndaş qarşıdurması aradan qaldırıldı, ictimai-siyasi sabitlik kifayət qədər möhkəmləndi.

Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə və ictimai-siyasi sabitliyin daha əsaslı şəkildə bərqərar edilməsinə yol açan amillərdən biri də onun respublikanın cənubunda cərəyan edən separatçılıq hərəkatının xalqın gücünə dayaqlanaraq aradan qaldıra bilməsi oldu. Bu separatçılıq hərəkatı Heydər Əliyevin dəfələrlə qeyd etdiyi kimi Azərbaycanı parçalamaq planının bir qolu idi və onun ortaya atılması bir vaxtlar Müdafiə Nazirliyində yüksək vəzifəyə qədər irəli çəkil-

miş Əlikram Hümbətovun adı ilə bağlı idi. Bir hərbçi kimi ölkənin müdafiəsində, bir siyasətçi kimi isə ölkənin siyasi həyatında hər hansı bir iz buraxmayan Əlikram Hümbətovun rəhbərliyi altında respublikanın cənubunda xoşagəlməz hərbi-siyasi vəziyyət yaradılması bir tərəfdən respublika rəhbərliyinin ölkə daxilində yaratdığı xaosdan, digər tərəfdən isə şəxsi maraqlarını respublikanın müstəqilliyinin möhkəmləndirilməsindən də üstün tutan bəzi dairələrin təhrikedici mövqeyindən irəli gəlirdi. Dövlətin qətiyyətsizliyi üzündən ətrafında azacıq güc görən bəzi insanların münasib bildiyi məkanda ağalıq niyyətlərini həyata keçirməyə çalışdığı kimi Əlikram Hümbətov da yaranmış vəziyyətdə təsir dairəsində olan yerli silahlı qruplara istinad edərək hakimiyyətə tabe olmaqdan imtina etdi, Lənkəran və onun ətrafındakı rayonların idarəçilik orqanlarını silahlı nəzarət altına ala bildi. Müdafiə Nazirliyinin qətiyyətsiz və anlaşılmaz mövqeyi üzündən Əlikram Hümbətovun Lənkərandakı briqadanı da nəzarət altına alması ona hətta «Talış-Muğan Respublikası» adlı bir qurumu da elan etməyə təşviq etdi. Bu qondarma respublikaya Azərbaycanın cənubunda olan 7 rayon daxil edilmişdi və o belə bir görüntü də yaratmağa çalışırdı ki, sanki elə belə də olmalı imiş. Müşahidəçilər və 1993-cü ilin yayında Lənkəran bölgəsində baş verənləri yaxından izləyən ziyalılar dönə-dönə qeyd edirdilər ki, Ə.Hümbətovun nə təfəkkürü, nə də siyasi dünyagörüşü ona respublikanın böyük bir hissəsini parçalayıb nəzarət altında saxlamağa imkan verir (127).

Bu insanın ciddi və sabit bir siyasi mövqeyi də yox idi. O, qısa müddət ərzində o dövrün bir neçə siyasi qurumuna üzv olmuşdu. Kənar qüvvələrin dəstəyi və təhriki olmadan onun çox ciddi siyasi təxribata əl atması da inandırıcı görünmürdü. Lənkəran hadisələrinin cərəyan etdiyi günlərdə verdiyi müsahibələrində, Heydər Əliyevlə görüşlərində Ə.Hümbətov özü də dolayısı

yolla etiraf edirdi ki, respublikanın cənubunda başladığı separatçılıq hərəkatı hakimiyyət mübarizəsinə xidmət edir və bu məsələnin zorakı yolla hakimiyyətə gəlmək istəyənlərin iradəsi ilə bağlılığı vardır (128).

Lerik rayonunda doğulan Ə.Hümbətov Politexnik İnstitutunu bitirdikdən sonra Lənkəranda müxtəlif vəzifələrdə çalışmışdı. Azərbaycanda xalq hərəkatı güclənəndə o, Xalq Cəbhəsinin təşəbbüs mərkəzinə daxil olmuş və AXC-nin 1989-cu il 16 iyul tarixli konfransında bu təşkilatın idarə heyətinə seçilmişdi. O, eyni zamanda AXC-nin Lənkəran şöbəsinə rəhbərlik edirdi. 1990-cı ilin yanvar hadisələrindən sonra Azərbaycanda ictimai-siyasi vəziyyət mürəkkəbləşəndə onun rəhbərliyi altında olan dəstə Lənkərandakı partiya və hakimiyyət binalarını ələ keçirdi. Amma bu dəstə sover qoşun bölmələrinin təzyiqi qarşısında Lənkəranı tərk etməli oldu və baş vermiş qarşıdurmada hətta insan təlafatı da yarandı. Bir neçə nəfər, o cümlədən Ə. Hümbətov həbs edildilər.

Həbsdən qayıtdıqdan sonra Ə.Hümbətov AXC-dən uzaqlaşdı, Azərbaycan Sosial-Demokrat partiyasına qoşuldu, bu partiyanın Lənkəran şöbəsini yaratdı. 1991-ci ilin yayında isə ASDP sədrinin müavini seçildi. Azərbaycanın öz müstəqilliyini əldə etməsi ilə sovet qoşun hissələri respublika ərazisini tərk edəndə dövlət orqanlarının qətiyyətsizliyi nəticəsində oradakı silah və texnikanın böyük bir hissəsi Ə.Hümbətovun əlinə keçdi. O, əvvəlcə bölük, sonra tabor təşkil etdi və öz həmfikirlərini də bu hissəyə cəlb etdi.

Ə.Hümbətovun rəhbərliyi altında təşkil olunmuş yerli tabor Azərbaycan Silahlı Qüvvələrinin sıralarına qatıldı, hətta Qarabağda gedən döyüşlərdə də iştirak etdi. Bir müddət sonra bu tabor briqadaya çevrildi və Ə.Hümbətova da polkovnik rütbəsi verildi. Daha sonra onun vəzifəsi daha da böyüdüldü və Müdafiə nazirinin əmri ilə o, Müdafiə Nazirliyinin Döyüş hazırlığı idarəsinin rəisi təyin edildi.

1993-cü ilin fevralında respublikada ictimai-siyasi vəziyyətin kəskin şəkildə mürəkkəbləşməsindən sonra Ə.Hümbətov Müdafiə Nazirliyindən getməyə məcbur oldu və dərhal da Lənkərana qayıtdı. Lənkərana qayıdan gündən də Ə.Hümbətov mövcud iqtidara qarşı müxalif mövqe tutdu və bölgədəki həmfikirlərini ətrafına toplayaraq qanuni dövlət qurumlarına, o cümlədən bölgədə yerləşən hərbi briqadaya qarşı təxribatlara başladı. Onun məqsədi bu briqadaya nəzarəti ələ keçirmək və onun vasitəsilə bölgəni öz nəzarəti altına gətirmək idi. Hakimiyyətdə mövcud olan xaosdan istifadə edən Ə.Hümbətov qısa müddətdən sonra məqsədinə nail oldu. Əvvəlcə Lənkəranda yerləşən hərbi briqadaya müdaxilələr başladı. Həmin briqada ətrafında yaranmış xoşagəlməz vəziyyət 1993-cü il fevral ayının 21-də Müdafiə Nazirliyinin kollegiyasında da müzakirə olundu.

Amma qətiyyətli tədbirlər həyata keçirilmədiyi üçün Lənkəran briqadası tədricən Müdafiə Nazirliyinin nəzarətindən çıxdı və Ə.Hümbətovun nəzarəti altına düşdü. Bununla da o, bölgədə iqtidara qarşı silahlı müxalifət yaratmaq imkanı qazandı və tədricən bölgədə siyasi təxribatların həyata keçirilməsinə başlandı. Bununla, əslində, respublikanın cənubunda da vətəndaş qarşıdurması təhlükəsi yarandı.

Müşahidəçilərin fikrincə, Gəncə hadisələri ilə Lənkəran hadisələrinin eyni vaxta təsadüf etməsi heç də təsadüfi deyildi. Məsələn, Heydər Əliyev bu məsələ ilə bağlı çıxışlarının birində Lənkəran hadisələrinə münasibətini belə bildirirdi ki, bu hadisə Azərbaycamı dağıdıb parçalamaq üçün ortaya atılmış planın tərkib hissəsidir (129).

Lənkəranda vəziyyətin ciddiləşməsi barədə məlumatlar Heydər Əliyevin iyunun 9-da Bakıya gəlməsi ərəfəsində alınmışdı. Respublika Prezidentinin tapşırığı ilə bir neçə vəzifəli şəxs

Lənkəranda olaraq Ə.Hümbətovla görüşmüş və onun tələblərini öyrənərək rəhbərliyə çatdırmışdılar. Ancaq Gəncə hadisələrinin kəskinləşməsi ilə bağlı onun tələbləri və Lənkəranda vəziyyəti gərginləşdirməsi yenə diqqətdən kənarda qalmışdı.

Heydər Əliyevin Bakıya gəlişindən sonra Ə.Hümbətov öz separatçı fəaliyyətini daha da genişləndirməyə, nəzarəti altında olan əraziləri böyütməyə çalışırdı. 1993-cü il iyun ayının 11-də onun tərəfdarlarının vasitəsilə mitinq təşkil edilməsinə cəhd göstərildi. Mitinqə yığışanların arasında Ə.Hümbətobu müdafiə edən silahlı adamlar da var idi. Ancaq polis işçilərinin müəyyən qətiyyət göstərməsi nəticəsində onun tərəfdarları dağıdılmış, onların bir hissəsi isə qaçaraq dağlarda gizlənmişdi (130). Bununla belə, onlar öz niyyətindən əl çəkmədilər və tezliklə zor gücünə şəhərdə hakimiyyəti ələ keçirdilər.

Ə.Hümbətov zorakı yolla Lənkəranda bütün hakimiyyətə nəzarəti öz əlində cəmləşdirəndən sonra «Talış-Muğan Respublikası» yaradıldığını elan edib Biləsuvar, Cəlilabad, Lerik, Masallı Yardımlı, Astara və Lənkəran rayonlarının da bu qondarma quruma daxil olduğunu bəyan etdi (131).

Belə bir təsəvvürün formalaşdırılmasına cəhd göstərilirdi ki, «Talış-Muğan Respublikasının» yaradılması yerli əhali tərəfindən normal qarşılanmışdır, guya əhali inanırdı ki, yeni yaradılmış respublika tərəfindən insanların hüquqları qorunacaqdır. Ancaq separatçılar özləri onu da etiraf edirdilər ki, camaat arasında «Talış-Muğan Respublikasının» yaradılmasına etiraz edənlər, Azərbaycanın parçalanmasını istəməyənlər də vardır (132).

Ə.Hümbətov elan etdiyi «respublikanın» sərhədlərini Lənkərandakı hərbi hissənin nəzarət zonası ilə hüdudlandırırdı. Həmin zonaya isə yuxarıda adları çəkilən 7 rayon daxil idi. Bu rayonların əhalisi bütünlükdə özünü göstərən separatçılığı heç də dəstəkləmirdilər və bu oyunu ortaya atanlar əhali arasında ciddi bir ic-

timai bazaya malik deyildilər. Bunun nişanəsi kimi iyun ayının 29-da Biləsuvar rayonunun əhalisi mitinq keçirərək elan olunmuş qurumu tanımadıqlarını bildirdilər (133).

Qanunsuz şəkildə ələ keçirilmiş silahlı dəstələrin vasitəsilə həmin rayonlarda qanunsuz hərəkətlər törədir, dövlət orqanlarına hədə qorxu gəlir, onları tabe olmağa məcbur edirdi. O, silahlı təzyiq yolu ilə rayonların xalq deputatları sovetlərinin iclaslarını keçirir, Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına zidd qərarlar qəbul etdirirdi (134).

Bu qanunsuzluqlar, cinayətkar dəstə üzvlərinin son həddə çatmış özbaşınalıqları təxminən üç ay davam etdi. Bu üç ay müddətində həmin dəstə öz iradəsini diktə etməklə silah gücünə respublikanın cənub-şərqində xaos və qanunsuzluqlarla müşayiət olunan bir vəziyyət yaratdı. Belə bir şəraitin yaranması heç də səbəbsiz deyildi. Yerli əhalinin və cənub zonasının ziyalılarının müəyyən hissəsi Lənkəran hadisələrinə respublikanın yeni rəhbərliyi tərəfindən ciddi reaksiya verilmədiyindən hadisələrin gedişində seyrçi mövqeyi tutmuşdular. Bəziləri belə fikirləşirdilər ki, bir halda ki, Heydər Əliyev bu hadisələrə öz qiymətini verməyib, deməli, hələ gözləmək lazımdır (135).

Bəzi adamlar hətta belə də deyirdilər ki, «bu qanuusuzluqları biz görürük, bunlara müəyyən qədər dözürük. Ona görə ki, bunlar Azərbaycanın rəhbərliyi tərəfindən ya bəyənilir, ya da bunlara etiraz yoxdur. Ona görə də biz öz sözümüzü deyə bilmirik, bilmirik burada silahlı qüvvə olmalıdır, yoxsa olmamalıdır? Kimsə silah gücü ilə adam tutmalıdır, yoxsa tutmamalıdır?» (136).

Lənkəranda və ona yaxın rayonlarda uzun müddət cərəyan edən qanunsuzluqların və separatçılıq hərəkatının dövlət rəhbərliyi tərəfindən ciddi qiymət almamasının və onların aradan qaldırılması üçün qətiyyətli tədbirlərin həyata keçirilməməsinin əsas səbəbini Heydər Əliyev belə izah edirdi: «Mən Ali Sovetin sədri

kimi işə başlayandan sonra Ali Sovetə bu məlumatlar vaxtaşırı gəlirdi, ancaq bilirsiniz ki, o vaxtlar bizim başımız həddindən artıq qarışıq idi. İyun ayının 4-də Gəncədə baş vermiş hadisələr, demək olar ki, bizim vaxtımızı aldı, o hadisələrin müəyyənləşdirilməsi, təhlil, müzakirə olunması, bildiyiniz kimi, iyul ayının 16-na qədər çəkdi. İyul ayının 15-16-da biz Gəncədə baş vermiş qanlı hadisələri Milli Məclisin iclasında müzakirə etdik, iyul ayının 16-da qərar qəbul etdik. Eyni zamanda, bildiyiniz kimi, o günlərdə Azərbaycan Respublikasının daxili vəziyyətində sabitlik pozulduğuna görə, cürbəcür qüvvələrin qarşıdurmasının mövcud olduğu bir dövrdə, Ermənistanla gedən müharibədə də uğursuzluqlar oldu. Ermənistan silahlı qüvvələri bu fürsətdən istifadə edib bizim Qarabağda bir neçə yaşayış məntəqəsini, kəndləri işğal etdilər. Ən nəhayət, iyul ayının 23-də Ağdam şəhəri də işğal olundu. Ona görə bu məsələlər də bizim başımızı çox qatmışdı» (137).

Mürəkkəb hərbi-siyasi şəraitdə Lənkəranda başlanmış parçalanmanın aradan qaldırılması üçün yerli əhalinin, ictimaiyyətin, ziyalıların fəal mövqeyinə və onların qanunsuz yol tutanlara qarşı təzyiqlərinə də müəyyən ümidlər bağlanılırdı. Çünki respublika ictimaiyyətinin də Lənkəran ətrafında gedən qanunsuz proseslərə qarşı barışmaz münasibəti aydın idi: «Biz güman edirdik ki, Lənkəranda, bir Lənkəranda yox, bu zonada, adlarını çəkdiyim rayonlarda yerli əhali özü, bu rayonların ağsaqqalları, ziyalıları, nüfuzlu adamları, işbilən adamları, bilikli adamları, hörmətli adamları özləri bu məsələni, yəqin ki, dərk edəcəklər, bu məsələləri öz yoluna qoyacaqlar və bəlkə də, bu məsələlərə dövlət tərəfindən müdaxilə olunmasına ehtiyac yoxdur» (138).

Lakin bölgə əhalisinin etirazlarının kütləvi çıxışlara çevrilməsinin ləngiməsi, yerli hüquq-mühafizə orqanlarının isə hadisələrə əsasən seyrçi mövqe tutmasının nəticəsində Ə.Hümbətov

özünü «Talış-Muğan Respublikası"nın ali baş komandanı elan edərək 1961-1992-ci illərdə buraxılmış rus rubllarının Lənkəran zonasında qüvvədə olması,»Talış-Muğan Respublikası"nın Müstəqil Dövlətlər Birliyinə daxil olması, «Talış-Muğan Respublikası"nın Milli Qəhrəmanı adının təsis edilməsi barəsində «fərmanlar» verdi. Hətta bölgəyə daxil olan rayonlardan olan gənclərin qondarma respublikanın ordusuna çağırılması barədə də «fərman» imzalandı (139).

Ə.Hümbətov özünün və onu təhrik edən qüvvələrin məqsədinə çatmaq üçün nəzarəti altında olan hərbi hissələrlə hətta cəbhə bölgəsində də təxribatlar törətməkdən, respublikadakı hərbi şəraiti gərginləşdirməkdən çəkinmirdi. Onun bu təxribatlarına Heydər Əliyevin 1993-cü il avqustun 23-də televiziya ilə xalqa müraciətində də münasibət bildirilmişdi. O qeyd edirdi ki, cəbhədə gərginliyi müəyyən qədər zəiflətmək üçün Ermənistan tərəfi ilə razılığa gəlinsə də, Ə.Hümbətov tərəfindən Ağcabədi istiqamətinə göndərilmiş bir tabor heç kəsin göstərişi olmadan hücum edərək atəşkəs barədə razılığı pozmuşdur. Nəticədə, bir neçə nəfər həlak olmuş, 50-yə yaxın adam əsir düşmüş və müsbət bir nəticə də əldə edilməmişdi. Əvəzində atəşkəs pozulmuş, Azərbaycanın hərbi hissələrinin zəifliyindən istifadə edən erməni ordusunun hissələri cəbhədəki vəziyyəti daha da gərginləşdirmişdilər (140).

Respublikanın cənubunda Azərbaycanın müstəqilliyinə zidd olan qüvvələrin qanunsuz fəaliyyətinin qarşısının daha qətiyyətli alınması üçün münasib şərait Gəncə hadisələrinin nəticələrinin aradan qaldırılmasından sonra yarandı. Azərbaycanın parçalanması prosesinin qarşısının alınması və müstəqilliyinin möhkəmləndirilməsi yolunda respublikanın cənubunda cərəyan edən parçalanmanın qarşısının alınması Heydər Əliyevin yorul-

maz fəaliyyətinin, dövlətçilik təfəkkürünün daha qabarıq bir nümunəsidir. Onun xalqın gücünə dayaqlanaraq xalqı Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə səfərbər etməsi Lənkəran bölgəsində vətəndaş müharibəsinin, böyük silahlı münaqişənin, günahsız qanlar tökülməsinin qarşısını aldı, dövlətin nəzarətindən çıxarılmış silahlı birləşmələr yenidən nəzarət altına gətirildi və bütünlükdə daxili sabitliyin təmin edilməsi yolunda irəliyə doğru çox mühüm və əhəmiyyətli bir addım atıldı.

Heydər Əliyevin təklifi ilə Lənkərana yollanan ziyalılar və ağsaqqallar cinayət yolunu tutanlarla görüşdükdən sonra problemin aradan qaldırılması ilə bağlı müəyyən təklif və məsləhətlərini irəli sürdülər. Səsləndirilən təkiflərlə tanış olduqdan sonra Ə.Hümbətov Bakıya dəvət edildi və burada onu Heydər Əliyev qəbul etdi. Heydər Əliyev Lənkəran bölgəsindən olan deputatlar, rəhbər işçilər və ziyalılarla avqust ayının 13-də olan görüşündə bildirirdi ki, 4 saata qədər davam edən həmin görüşün çox hissəsi Lənkəran hadisələrinə mahiyyətcə aid olmayan söhbətlərin dinlənilməsinə sərf edildi. Ə.Hümbətov Azərbaycanda olan vəziyyətdən, qanunsuzluqlardan, özbaşınalıqlardan, keçmiş iqtidarın günahlarından, Qarabağda gedən müharibədən, ordunun pis vəziyyətdə olmasından xeyli danışdıqdan sonra Azərbaycanın inzibati-ərazi bölgüsünə yenidən baxılması məsələsinə də toxunmuşdu. Söhbət zamanı Ə.Hümbətov toxunduğu məsələlərlə bağlı tutarlı və əsaslı cavablar alsa da, öz mövqeyini tərk etməkdən uzaq oldu və bununla o, qanunçuluğa dəvət yolundan imtina etdi.

Ə.Hümbətov Heydər Əliyev tərəfindən qəbul olunmasını az qala iki tərəfin rəsmi görüşü kimi qiymətləndirmiş, bu söhbətlər zamanı müəyyən fikir birliyi və bəzi məsələlərdə isə fikir ayrılığının olması barədə kütləvi informasiya vasitələrinə müsahibələr vermişdi. Respublikanın cənubunda yaranmış böhra-

nın hələ də müzakirələr yolu ilə həll edilməsinin tərəfdarı olan Heydər Əliyev isə müvafiq məsləhətləşmələrini davam etdirdi, respublikanın cənubunda qanunsuz həbslərə son qoyulmasının zəruriliyini bildirirdi. Bununla belə, o nəinki başladığı qanunsuz əməllərdən əl çəkmədi, əksinə qondarma respublikanın təsis qurultayını da quraşdıraraq özünü prezident elan etdirdi.

Böhranın dinc yolla aradan qaldırılması üçün Heydər Əliyev avqustun 12-də Ə.Hümbətovu ikinci dəfə yenidən qəbul etdi. Həmin qəbul zamanı da 4 saata yaxın söhbət davam etdi. Heydər Əliyev bir daha onu qanunçuluğa, Azərbaycanın müstəqilliyinə qarşı istiqamətlənmiş təxribatçı əməllərdən əl çəkməyə dəvət etdi. Bununla belə, Ə.Hümbətov zəkaya çağırış sədalarına cavab vermədi, əksinə, o öz iddialarını ortaya qoydu və bildirdi ki, Bakıya Lənkəran bölgəsində baş verən hadisələrin müzakirəsi üçün yox, Azərbaycanda olan vəziyyətin müzakirəsi üçün gəlmişdir. Onun fikrincə, Milli Məclis səlahiyyəti olmayan bir qurumdur və bu məsələnin düzgün həlli üçün Azərbaycan Respublikasının Ali Sovetinin tam heyətdə iclası çağırılmalıdır, Ali Sovet qanunsuz yerə buraxıldığı üçün respublikada və o cümlədən Lənkəranda da qanunsuz hərəkətlərə yol verilir, Heydər Əliyevin Ali Sovetdə seçilməməsi də qanunsuz hərəkətdir və Heydər Əliyev də hüququ olmadan Ali Sovetin sədri vəzifəsini tutmuşdur (141).

Ə.Hümbətovun irəli sürdüyü təkliflərin (tələblərin) ikinci hissəsi Nazirlər Kabinetinin və Baş nazirin səlahiyyətləri ilə bağlı idi. Onun fikrincə, avqust ayının 28-də respublika Prezidenti Ə.Elçibəyə etimad göstərilməsi barəsində referendum ləğv olunmalı və əvəzində prezident üsul-idarəsinə münasibət məsələsinə dair referendum keçirilməli, prezident üsul-idarəsi ləğv edilərək bütün səlahiyyətlər Nazirlər Kabinetinə verilməlidir. Bu tələblərlə bağlı Heydər Əliyev də bəyan etmişdi ki, toxunulan məsələ-

nin necə həll edilməsi Ali Sovetin deputatlarının, Ali Sovetin rəhbərliyinin, Nazirlər Kabinetinin səlahiyyətləridir. Lazım olarsa, bu məsələ Milli Məclisin müzakirəsinə çıxarıla bilər, geniş xalq müzakirəsinə verilə bilər, ancaq bir adamın hədə-qorxusu ilə respublikanın hakimiyyət sistemində dəyişiklik edilməsi qəbul edilə bilməz. Ali Sovetin deputatı olmayan bir adamın belə tələblər irəli sürməyə haqqı yoxdur: «Mən deyəndə ki, axı sizin səlahiyyətiniz nədir, nə üçün qanunu pozursunuz? O dedi ki, mənim səlahiyyətim avtomatdır, yəni ki, Heydər Əliyevi avtomatla məcbur etmək olar, yaxud da ki, öldürmək olar, yaxud filan. Mən ona da dedim, yenə deyirəm, Heydər Əliyevin bir ömrü var, onun da çoxu gedib azı qalıb, nə vaxt kəsiləcək, o vaxt da kəsiləcək. Mən demişəm və bir də deyirəm, ömrümün qalan hissəsini xalqıma bağışlamışam. Xalqım da bundan nə qədər istifadə edəcək, o qədər də istifadə edəcək. Ola bilər 5 gün olsun, ola bilər bir ay olsun, ondan da artıq olsun. Ona görə Əlikram kimi adamların məni hədələməyi bir onun yox, ümumiyyətlə məni hədələyən adamların hamısına deyirəm, heç birisi güman etməsin ki, bu hədələr məni bir şeydən çəkindirə bilər, xalqın yolunda mən özümü qurban verməyə hazıram, bu harada baş verəcək mənim üçün fərqi yoxdur. Ancaq bu cür tərbiyəsizlik, bu cür ədəbsizlik, şübhəsiz ki, məni narahat edir» (142).

Heydər Əliyevin fikrincə, Ə.Hümbətovla avqust ayının 12-də olan görüşə qədər respublikadakı gərgin vəziyyəti nəzərə alaraq Lənkəran bölgəsində cərəyan edən hadisələrin sülh və danışıqlar yolu ilə həll edilməsinə üstünlük verirdisə, bəzi şəxslər, o cümlədən Ə.Hümbətov və onun məsləkdaşları bundan sui-istifadə edir, bölgədə fəaliyyət göstərən cinayətkarlar daha da quduzlaşır, "Talış-Muğan Respublikası" yaratmaq adı altında Azərbaycanı parçalamaq, talış köklü Azərbaycan vətəndaşlarını respublikanın

başqa hissəsinə qarşı qoymaq kimi təxribatlara əl atırdılar (143).

Bununla belə, məsələnin dinc yolla həlli üçün 1993-cü il avqustun 13-də Azərbaycan Respublikası Ali Sovetində respublikanın Biləsuvar, Cəlilabad, Masallı, Lənkəran, Astara, Yardımlı və Lerik rayonlarından olan rəhbər işçilər və ziyalılarla görüş keçirildi. Bu görüş Lənkəran bölgəsində gərginliyin aradan qaldırılması üçün dinc danışıqların və məsləhətləşmələrin davamı kimi keçirilsə də, əslində, separatçı qüvvələrə və onlaın ideoloqlarına respublika rəhbərliyi tərəfindən vurulan ilk güclü zərbə idi. Əvvəla, bu görüş göstərdi ki, Lənkəran bölgəsində cərəyan edən hadisələrin sosial bazası yoxdur, yerli əhali nəinki Azərbaycanın parçalanmasını istəmir, əksinə cinayətkar dəstələrin özbaşınalıqlarından çox çətinlik çəkirlər. Bölgədəki hərbi hissəyə nəzarəti ələ keçirmiş cinayətkar dəstə zorakı yolla öz məqsədlərinə çatmaq istəyir. İkincisi, bu görüş ilk dəfə Lənkəran bölgəsində cərəyan edən hadisələrin mahiyyətini bütün xalqa çatdırdı. Bütün xalq, o cümlədən Lənkəran bölgəsinin ictimaiyyəti də aydın şəkildə başa düşdü ki, respublika rəhbərliyinin bu məsələyə münasibəti birmənalıdır, yəni respublikada qanunçuluq bərpa olunmalı, cinayətkarlar məsuliyyətə cəlb edilməlidir. Üçüncüsü, bu görüş Lənkəran bölgəsinin ictimaiyyətinin separatçılara və onun məsləkdaşlarına qarşı mübarizəyə səfərbər olmasına güclü təkan verdi. Dördüncüsü, bütün xalq bildi ki, Lənkəran hadisələrinin ideoloqları bölgədən kənardadırlar və bu məsələnin ortaya atılması və respublikanın yenidən dərin uçuruma sürüklənməsi ilə müəyyən qüvvələrin hakimiyyətə gətirilməsinə cəhd göstərilir.

Heydər Əliyev bu görüşdəki çıxışında xüsusi olaraq vurğuladı ki, Lənkəran bölgəsində müəyyən sosial-iqtisadi çətinliklər olsa da, belə çətinliklər bütün bölgələrə xasdır. Ona görə xalq reallığı obyektiv qiymətləndirərək Ə.Hümbətov və onun məsləkdaşlarına qarşı öz sözünü deməli, prinsipial mövqe tutmalı-

dır. Bu hadisələrin qarşısının alınması üçün ən başlıca silah da xalqın özüdür. Heydər Əliyev həm görüş iştirakçılarına, həm də cənub bölgəsinin bütün ictimaiyyətinə müraciət edərək onları baş verən qanunsuzluqlara qarşı neytral qalmamağa, laqeydlik göstərməməyə, öz mövqeyini ortaya qoymağa, qətiyyətli fəaliyyət göstərməyə çağırdı (144).

Bu görüşdən sonra Heydər Əliyev Lənkəran bölgəsində separatçılıq hərəkatının qarşısının alınması üçün daha ardıcıl və qətiyyətli mövqeyi ictimaiyyətin də geniş dəstəyi və rəğbəti ilə qarşılaşdı. Avqust ayının 16-17-də cinayət yolunu tutanların özbaşınalığı, qanunsuz əməllərini silah gücünə yerli əhaliyə qəbul etdirməyə çalışmaları, respublikanı parçalamaq planları Milli Məclisin iclasında da geniş müzakirə olundu. Heydər Əliyevin aydın, kəskin və qətiyyətli mövqeyi Milli Məclisin iclasında da dəstəkləndi və ölkənin parçalanmasına istiqamətlənmiş təxribatlara ciddi qiymət verildi. İclasa dəvət olunmuş güc nazirliklərinin rəhbərləri də Ə.Hümbətovun və onun ətrafına toplaşmış insanların respublikanın müstəqilliyinə qarşı istiqamətlənmiş qanunsuz əməlləri haqqında geniş məlumat verdilər. Sonra da Lənkəran bölgəsində baş verən hadisələrə yenidən Heydər Əliyev tərəfindən qiymət verildi. O öz çıxışında Ə.Hümbətovun qanunsuz şəkildə hərbi hissəyə nəzarəti ələ keçirməsinə, silahla əhalini, ona qarşı mövqe tutanları hədələməsinə toxundu və belə əməllərə nəhayət ki son qoyulmasının zəruriliyini qeyd etdi. Heydər Əliyevin Milli Məclisdəki çıxışı dərhal Azərbaycan ictimaiyyəti, xüsusilə də respublikanın cənubunun əhalisi tərəfindən, ziyalılar, vətənini sevən insanlar tərəfindən birmənalı şəkildə dəstəkləndi və respublikanın müstəqilliyinə qarşı istiqamətlənmiş əməllərə qarşı etiraz səsləri yüksəlməyə başladı. Avqust ayının 17-də artıq

respublika ictimaiyyətinin Heydər Əliyevin qətiyyətli mövqeyini dəstəkləyən məktubları, teleqramları parlamentə daxil oldu və bu məktub və teleqramlarda ifadə olunan xalq dəstəyi Milli Məclis üzvlərinə də çatdırıldı.

Heydər Əliyevin Milli Məclisdəki çıxışına hətta Ə.Hümbətovun ətrafındakılardan da cavab gəldi. Bu insanlar öz çirkin niyyətlərini həyata keçirməyə qadir olduqlarını güman edərək yenə də respublika rəhbərliyinə ultimatum göndərdilər. Həmin ultimatumda bildirilirdi ki, Ə.Hümbətova qarşı təzyiq səngiməzsə, onda Lənkəran briqadasının cəbhə bölgəsində olan bölmələri geri çağırılacaqlar. Bu tələbin ardınca cəbhə bölgəsindən də Milli Məclisə teleqram daxil oldu. Həmin teleqramda isə bildirildi ki, Ə.Hümbətovun bu hədəsinin heç bir əsası yoxdur və cəbhə bölgəsindəki bütün hissə və bölmələr Azərbaycanın müstəqilliyini və bu müstəqilliyin möhkəmləndirilməsi üçün Heydər Əliyevin nümayiş etdirdiyi qətiyyətli mövqeyi dəstəkləyirlər (145).

Müzakirələrdə çıxış edən Milli Məclis üzvləri, xalq deputatları, ictimaiyyətin nümayəndələri Azərbaycanı silah gücünə parçalamaq niyyətinə düşən, hərəkətlərində özbaşınalıqlara və qanun pozuntularına geniş rəvac verən, Konstitusiyaya zidd addımlar atan şəxslərin bədnam əməllərini pisləyib onların cinayət məsuliyyətinə cəlb olunmasının vacibliyini qeyd etdilər.

Lənkəran hadisələrinin arxasında dayanan şəxslərin, siyasi qüvvələrin, ideoloqların kimlər olmasını, onların məqsəd və planlarını, bölgədəki gərginliyin artması üçün göstərdikləri səyləri müfəssəl şəkildə açıb ictimaiyyətə çatdırması Heydər Əliyevin həm avqustun 13-də, həm də avqustun 16-17-də Milli Məclisdəki çıxışının kəsərli, təsirli və səfərbəredici qüvvəsinin əsas cəhətlərindən biri idi.

Milli Məclisdə aparılan müzakirələr zamanı respublikanın cənubunda cinayətkar yol tutanların Azərbaycanın müstəqilliyinə qarşı istiqamətlənmiş siyasi təxribatlarını dəstəkləyən və bununla da onları öz əməllərini davam etdirməyə təhrik edən bir sıra şəxslərin əməlləri və mövqeyi də kəskin şəkildə pislənmişdi (146).

Milli Məclisdə aparılan müzakirələr və qəbul edilən qərar Ə.Hümbətovda müəyyən bir çaşqınlıq yaratsa da, sonradan o, bir daha öz əməllərindən əl çəkməyəcəyini bəyan etdi. Bununla bağlı o, hətta yerli televiziya ilə çıxış edərək Milli Məclisin qərarını qəbul etmədiyini bildirdi və onun ləğv edilməsini tələb etdi. Öz çıxışında Ə.Hümbətov onu da bildirdi ki, Gəncə və respublikanın bir neçə digər regionu da onun əməlləri ilə həmrəydir və buna görə də Milli Məclisin hansı qərar qəbul etməsindən asılı olmayaraq öz «mübarizəsini» davam etdirəcəkdir (147).

Milli Məclisin qərarına əsasən Lənkəran bölgəsində vəziyyətin sabitləşdirilməsi məqsədilə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi üçün qısa vaxt ayrılsa da, Lənkəran bölgəsində vəziyyət heç də qanuni yoluna düşmədi. Bu vəziyyətin davam etməsi Heydər Əliyevin ciddi narahatçılığı ilə qarşılanırdı. Avqust ayının 21-də onun rəhbərliyi ilə Lənkəran hadisələrinə aid yeni bir müşavirə təşkil olundu və bölgədə cərəyan etməkdə olan proseslər burada bir daha müzakirə olundu. Heydər Əliyev bölgədə cərəyan edən hadisələri və müəyyən şəxslər tərəfindən bu hadisələrə qarşı qətiyyətli mövqe tutulmamasını Azərbaycan dövlətçiliyinə və özünə qarşı təzyiq vasitəsi kimi qiymətləndirirdi. Hadisələrin sonrakı davamı da bunu nümayiş etdirdi. Heydər Əliyev isə bu təzyiqlərin bir nəticə verməyəcəyini, onu öz yolundan çəkindirməyin mümkün olmayacağını bəyan edirdi. Onun fikrincə, bu yolla nəinki müvəffəqiyyət qazanmaq olmazdı, əksinə olsa-olsa aldadıcı xəyallara qapılaraq gücsüzlüyünü nümayiş etdirmək olar-

dı. Heydər Əliyev açıq şəkildə bildirirdi ki, heç kim ona təzyiq edə bilməz, onu sındıra və qorxuda bilməz, çünki o, xalqın iradəsini həyata keçirir, Azərbaycan dövlətçiliyini müdafiə edir (148).

Avqust ayının 21-də keçirilən müşavirədən sonra Heydər Əliyevin təklifinə əsasən bir sıra deputatlar və vəzifəli şəxslər bölgəyə göndərildilər. Bu şəxslər bölgədə iğtişaşların baş verməsinin qarşısını almalı, Ə.Hümbətovu qanunçuluğa dəvət etməli və onun ətrafına toplaşanları da öz əməllərindən çəkindirməyə çalışmalı idilər.

Baş verən hadisələr bölgə əhalisinin hiddətini günü-gündən daha da artırırdı. Bunun nəticəsi kimi, Astarada və Cəlilabadda mitinqlər keçirildi və həmin mitinqlərdə Ə.Hümbətova və onun dəstəsinin törətdiyi qanunsuzluqlara qarşı etiraz bildirilməklə qanunsuz hərəkətlərə tezliklə son qoyulması tələb edildi. Belə bir tələblə Lənkəran şəhərində də yerli əhali böyük və izdihamlı mitinq keçirdi. Avqustun 23-də Lənkəranda gərginlik son həddə çatdı. İctimaiyyət yenidən izdihamlı mitinqə toplaşaraq Ə.Hümbətovun və onun tərəfdarlarının qanunsuzluğa, özbaşınalığa son qoyması tələb olundu. Ə.Hümbətov və onun tərəfdarları qorxuya düşərək xalq izdihamını dağıtmağa cəhd göstərdilər və adamlara atəş açdılar. Əhali isə nəinki qorxub çəkilmədi, əksinə sıralarını daha da möhkəmlədərək separatçı qüvvələrə müqavimət göstərdilər.

İctimaiyyətin mitinqə toplaşaraq qətiyyət göstərməsi, Ə.Hümbətovun və onun tərəfdarlarının silahı yerə qoymaması hadisələrin faciəli davamına təhlükə yaratdığı üçün Heydər Əliyevin tapşırığı əsasında hüquq-mühafizə orqanlarının bəzi rəhbərləri Lənkərana yollandılar. Xalqın təzyiqi ilə cinayətkar dəstə şəhər icra hakimiyyətindən qovulsa da, bu dəstə öz cinayətkar əməllərindən yenə də əl çəkmədi və keçmiş sovet ordusu diviziyasının qərargahında yerləşdi. Hiddətlənmiş xalq kütlələri diviziya qərargahını da mü-

hasirəyə alaraq orada gizlənənlərdən təslim olmağı tələb etdilər. Diviziyanın qərargahı ətrafında təşkil edilən mitinq bütün günü davam etdi. Lənkərana gəlmiş dövlət nümayəndələri Ə.Hümbətovla əlaqə saxlayıb onu təslim olmağa, qan tökməkdən çəkinməyə çağırsalar da, müsbət nəticə əldə edilmədi. Silahlılar xalqın haqlı qəzəbindən yaxa qurtarmaq üçün mitinqə toplaşanları atəşə tutdular. Mitinq iştirakçılarından bir nəfər yerindəcə həlak oldu. Yaralanmış 6 nəfərdən ikisi isə sonradan dünyasını dəyişdi.

Hadisələrin qan tökülməsinə gətirib çıxarmasına görə respublika Prezidentinin vəzifəsini icra edən Heydər Əliyev avqustun 23-də televiziya ilə xalqa müraciət etdi və o, xalqın parçalanmasına istiqamətlənmiş bu separatçılıq hərəkatının qarşısının alınması üçün dövlət səviyyəsində aparılan işlərdən danışdı, yenidən müəyyən şəxslərin və qüvvələrin Lənkəran hadisələri ilə bağlı təxribatçılıq fəaliyyətinə toxundu. Heydər Əliyev bu müraciətində Lənkəran hadisələrinin meydana gəlməsi səbəblərini bir daha təfərrüatı ilə təhlil etdi, Azərbaycanın ordu hissələrinin məqsədyönlü şəkildə parçalanmasının, bacarıqsız və səriştəsiz adamların rəhbərliyi altına verilməsinin nəyə xidmət etdiyinə, hansı faciələrə yol açdığına qiymət verdi (149).

Heydər Əliyevin 23 avqust müraciəti bütün xalqı təkcə Lənkəran hadisələrinə son qoymaq üçün deyil, eyni zamanda, Azərbaycanın təhlükəsizliyi, ərazi bütövlüyü uğrunda mübarizəyə səsləyən çağırışa çevrildi. Xalq gücünün, xalqın iradəsinin və xalq tərəfindən müdafiə olunmağın hansı qüvvəyə malik olduğunu xüsusilə vurğulayan Heydər Əliyev bir daha xalqa çatdırdı ki, Azərbaycanın taleyinə, gələcəyinə, dövlətçiliyinə, müqəddəratına etibarlı təminat vermək üçün ilk növbədə bütün xalqın, cəmiyyətin, vətəndaşların, siyasi qüvvələrin və partiyaların birliyi la-

zımdır. Buna görə də onun siyasətinin və fəaliyyətinin istiqaməti də başlıca olaraq məhz bu məsələyə yönəldilib və ona nail olmaq üçün ilk növbədə xalqdan kömək gözləyir. Heydər Əliyev dönə-dönə qeyd edirdi ki, respublikanın dövlətçiliyinə qarşı yönəldilən hər cürə təxribatlara müqavimət göstərməyin əsas vasitəsi elə xalqın birliyi və həmrəyliyidir: «İndi Azərbaycan Respublikası üçün, Azərbaycan dövlətçiliyi üçün birlik, milli həmrəylik, milli birlik, vətəndaş birliyi hava, su kimi lazımdır. Biz gərək torpaqlarımızı müdafiə edək, gərək işğal olunmuş torpaqlarımızı geri qaytaraq, Azərbaycanın ərazi bütövlüyünü təmin edək. Azərbaycanın müstəqilliyini qoruyub saxlayaq. Ona görə də aramızda olan, ayrı-ayrı şəxsi mənafe güdən qüvvələrə xəbərdarlıq edirəm: bütün bu işlərdən əl çəksinlər, bunların heç bir nəticəsi olmayacaq, onlar heç nəyə nail ola bilməyəcəklər. Çünki xalq artıq ayılmışdır, ayağa qalxmışdır. Xalqın gücünün qarşısında heç bir qüvvə dayana bilməz. Mən də xalqın gücünə arxalanıram. Əgər xalq bu gün məni lazım bilməsə, sabah getməyə hazıram. Ancaq mənə gələn məlumatlara görə, xalq mənə ümid bəsləyir. Mən də bu ümidi doğrultmaq üçün həyatımın qalan hissəsini xalqa bağışlamışam və ona qurban verməyə hazıram» (150).

Heydər Əliyev haqlı olaraq bildirirdi ki, bu gün Azərbaycanın ərazi bütövlüyünün qorunması ordu hissələrinin şəxsi heyətinin vətəndaşlıq mövqeyindən, onların siyasi oyunlardan uzaq olmasından və Azərbaycan dövləti ətrafında sıx birləşməsindən asılıdır. Heydər Əliyevin fikrincə, Ə.Hümbətovun ətrafında olan hərbçilərin çoxu artıq bu məsələləri düzgün başa düşdüyündən cinayətkar dəstədən uzaqlaşmış, dinc xalqa atəş açmaqdan imtina etmişdilər. Ə.Hümbətovun hərbi bölmələri cəbhə bölgəsindən geri çağıracağı ilə hədələməsinə qiymət verərək Heydər Əliyev bildirirdi: «Vətənimizi Ə.Hümbətov kimi canilərin, quldurların yolu

ilə müdafiə etməməliyik. Mən belə hesab edirəm ki, bölgələrdə vuruşan əsgərlərin, zabitlərin hamısı Azərbaycan xalqının mətin oğullarıdır. Onlar Azərbaycan Ordusunun əsgər və zabitləridir, Azərbaycan dövlətini müdafiə edirlər, Azərbaycan Respublikasının torpaqlarını qoruyurlar» (151).

Lənkəran hadisələri ilə bağlı Heydər Əliyevin televiziya ilə xalqa müraciətində daha sonra deyilirdi: «Mən birinci növbədə hərbi hissədə qulluq edən qüvvələrə müraciət edirəm. Milliyyətindən, siyasi mənsubiyyətindən, dilindən asılı olmayaraq siz Azərbaycan vətəndaşlarısınız. Ə.Hümbətov xalqa xəyanət etmiş adamdır, güman edirəm ki, orduda olan bütün əsgərlərimiz, zabitlərimiz, könüllülərimiz mənim sözlərimi eşidirlər və onlar şübhəsiz ki, belə avantüradan, bu cür fırıldaqlardan uzaq olacaqlar». Heydər Əliyev daha sonra cəbhədəki komandir və zabitlərdən çoxlu teleqramlar aldığını, döyüşçülərimizin Vətəni parçalamaq istəyənlərlə bir olmayacağını bildirirdi.

Heydər Əliyev müraciətində, eyni zamanda, Lənkəran bölgəsinin ictimaiyyətini Ə.Hümbətovun qanunsuz dəstələrinə qarşı ayağa qalxmağa, son sözü deməyə çağırış var idi. Bu çağırış dərhal əks-səda verdi, bütün xalq tərəfindən müdafiə olundu. Heydər Əliyevin 23 avqust müraciətinin yüksək mənəvi qüvvəsi də elə bunda idi ki, o, xalq və ictimaiyyət tərəfindən müdafiə olundu. Ə.Hümbətovun və onun tərəfdarlarının cinayətlərinə son qoyulmasında həlledici dönüş nöqtəsi oldu.

Lənkəran ətrafında yaranmış son vəziyyətin nəticələrinin müzakirəsi üçün avqust ayının 24-də respublika Ali Sovetində Milli Məclis üzvlərinin, xalq deputatlarının, mərkəzi dövlət və hökumət orqanlarının məsul işçilərinin, rayon və şəhər icra hakimiyyəti başçılarının, hüquq-mühafizə orqanlarının, digər təşkilatların əməkdaşlarının, elm-mədəniyyət işçilərinin və ziyalıların

nümayəndələri iştirak etdilər. Heydər Əliyev bu müşavirədə də geniş çıxış etdi, baş verən hadisələrin mahiyyətini, səbəblərini və onun çağırışı ilə ayağa qalxmış ictimaiyyətin qətiyyət göstərməsindən sonra yaranmış son durum haqqında məlumat verdi.

Heydər Əliyevin avqustun 24-də ümumrespublika müşavirəsindəki çıxışı avqustun 23-də olan televiziya müraciətini bir növ tamamlayırdı. Əgər televiziya müraciəti Lənkəran bölgəsindəki özbaşınalığa son qoyulması, qanunçuluğun bərpa olunması üçün qətiyyətli ictimai-siyasi hərəkata, həlledici addım atmağa bir çağırış idisə, ümumrespublika müşavirəsindəki çıxış Azərbaycanın ərazi bütövlüyünün parçalanmasına istiqamətlənmiş Lənkəran hadisəsinin nəticələrinin, onun obyektiv və subyektiv tərəflərinin təhlilinə, ümumxalq əhəmiyyəti daşıyan ibrətverici dərslərinin araşdırılmasına, bütün xalqın və cəmiyyətin qarşısında dayanan vəzifələrin müəyyənləşdirilməsinə həsr olunmuş proqram nitqi idi.

Heydər Əliyev qeyd edirdi ki, Ə.Hümbətov siyasi məqsədlərə qulluq edən pozucu bir şəxsdir. Bu mif daxildə sabitliyi pozmağa, Azərbaycan Respublikasını parçalamağa, cəbhə bölgələrində vəziyyəti gərginləşdirməyə xidmət edirdi. Dövlət rəhbərinin ətraflı çıxışının əsas məzmununu belə bir cəhət təşkil edirdi ki, Azərbaycanın qarşılaşdığı müharibədən uğurla çıxmağın, respublikanın ərazi bütövlüyünün təmin edilməsinin başlıca yolu respublikanın daxilindəki hər cürə təxribatların aradan qaldırılması və Azərbaycanda sabitliyin təmin olunmasıdır. Cəbhədə mövcud olan bəzi uğursuzluqları da Heydər Əliyev siyasi məqsədlərə xidmət edən belə təxribatların baş alıb getməsi ilə bağlayırdı (152).

Heydər Əliyev qeyd edirdi ki, indi xalqın qarşısında iki əsas vəzifə dayanır: onlardan biri erməni təcavüzünün qarşısını almaq, işğal olunmuş torpaqlarımızı geri qaytarmaq, xalqı bu qır-

ğından qurtarmaq; ikincisi isə Azərbaycanın daxilində sabitliyi təmin etmək, bu çəkişmələrə son qoymaq. Respublikanın rəhbəri onu da etiraf edirdi ki, bu məqsədə çatmaq heç də asan olmayacaqdır. Lakin bu vəzifələr xalqın imkanlarından kənar da deyildi. Heydər Əliyev ümumrespublika müşavirəsinə toplaşanlara, xalqı ətrafında birləşdirib Azərbaycanın müstəqilliyinin müdafiəsinə səfərbər etməli olanlara müraciət edərək deyirdi: «Əgər, doğrudan da, onlar öz xalqını, vətənini azacıq da olsa sevirlərsə, də-də-babalarının qəbirlərinə hörmət edirlərsə, özlərinin bu gününü, övladlarının gələcəyini düşünürlərsə, gərək namuslu olsunlar. Mən onlara müraciət edirəm. Onlar bu gün gərək mənəviyyatca yüksəlsinlər, bütün çirkin əməllərindən əl çəksinlər, bu gün gərək ümumxalq mənafeyindən çıxış etsinlər... Şəxsi ambisiyalarınızı kənara qoyun, şəxsi instinktlərinizi, şəxsi mənafelərinizi, şəxsi məqsədlərinizi kənara qoyun, düşünün. Azərbaycan Respublikasının dövlətçiliyi təhlükə altındadır. Uzun illərdən, əsrlərdən bəri Azərbaycan dünyada müstəqil dövlət kimi tanınmışdır. İndi bu, təhlükə altındadır. Düşünün bunu, fikirləşin və anlayın ki, hər biriniz məsuliyyət daşıyırsınız» (153).

Dövlət rəhbərinin fikrincə, Azərbaycanın müstəqilliyi, bütövlüyü onun hər bir vətəndaşının həyatından yüksəkdə dayanır və bu məsələ Azərbaycanın müstəqilliyini və bütövlüyünü istəyən hər bir vətəndaşın əməli fəaliyyətində öz əksini tapmalıdır.

Heydər Əliyevin 1993-cü il avqustun 24-də ümumrespublika müşavirəsindəki çıxışı həm də Azərbaycanın daxilində siyasi təxribatlar hazırlamaq istəyən qüvvələrə xəbərdarlıq idi. Doğrudur, Gəncə və Lənkəran hadisələrindən sonra Azərbaycanda sabitliyin təmin edilməsi üçün münasib və əsaslı zəmin əldə edilmişdi. Lakin bu hadisələrin aradan qaldırılması respublika rəhbərliyinin diqqətini uzun müddət özünə çəkməli oldu. Digər tərəfdən

hadisələrin sonrakı inkişafı göstərdi ki, öz siyasi məqsədlərinə çatmaq üçün respublikada, Silahlı Qüvvələrin daxilində hər cür təxribatlar törətməyə hazır olan qüvvələr vardır və onlar öz niyyətlərini həyata keçirmək üçün münasib an gözləyirlər. Xüsusən Xalq Cəbhəsinin hakimiyyəti itirmiş müəyyən tərəfdarları yenidən fəallaşmağa başlamışdılar. Bu ictimai-siyasi qurumun bəzi üzvləri hətta silahlı üsyan həyata keçirmək niyyətinə də düşmüşdülər (154). Heydər Əliyev böyük təəssüf hissi ilə qeyd edirdi ki, Vətəni qorumaq məqsədilə yaradılmış Xalq Cəbhəsinin bəzi üzvləri yenidən hakimiyyətə qayıtmaq üçün ordu hissələri arasında təxribatlarla məşğul olur, cəbhəyanı rayonlarda əhalini qorxudaraq geri çəkilməyə məcbur edir, bəzi ərazilərin işğal olunmasına şərait yaradır, müxtəlif təbliğatlar aparır, xalqı çaşdırmağa, ictimai-siyasi sabitliyi pozmağa cəhd göstərirdilər.

Bütün bunlar sözsüz ki, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təminatçısı olacaq ordunun qurulmasına mənfi təsir göstərirdi. Heydər Əliyev Azərbaycanın rəhbərliyinə gəldikdən sonra ordunun möhkəmləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edirdi. Lakin respublikada vətəndaş qarşıdurmasının real təhlükəyə çevrilməsi, separatizmin ölkənin bütövlüyünə təhlükə yaratması və bu problemlərin aradan qaldırılması çox geniş və yorulmaz təşkilatçılıq işini tələb edirdi. Yəni həmin problemlərin mövcudluğu və onların aradan qaldırılmasına geniş diqqət ayrılması ordunun yenidən qurulmasını və möhkəmləndirilməsini çətinləşdirirdi. Bu isə orduda mövcud olan böhranın davam etməsinə zəmin yaradırdı.

## İstifadə olunmuş mənbə və ədəbiyyat

1. Azərbaycanın İstiqlal bayramına – Respublika gününə həsr olunmuş təntənəli yığıncaqda nitq. 27 may 1994-cü il. http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf
2. 31 dekabr Dünya Azərbaycan türklərinin həmrəylik və birlik günü haqqında. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı. Bax: Qayıdış 1990-1993. Bakı, 1996, s.215
3. Yenə orada
4. Azərbaycanın İstiqlal bayramına – Respublika gününə həsr olunmuş təntənəli yığıncaqda nitq. 27 may 1994-cü il. http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf
5. Yenə orada
6. Yenə orada
7. Yenə orada
8. 31 dekabr Dünya Azərbaycan türklərinin həmrəylik və birlik günü haqqında. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı. Bax: Qayıdış 1990-1993. Bakı, 1996, s.215
9. Azərbaycan Respublikası Ali Sovetinin birinci sessiyasında xalq deputatı Heydər Əliyevin çıxışı (fevral 1991). «Respublika», qəzeti, 31.01.2001
10. Yenə orada
11. Möhsün M. Daha susa bilməzdim. Bax: Qayıdış 1990-1993. Bakı, 1996, s.36
12. Мелик-Шахназаров. Нагорный Карабах: Факты против лжи. www.sumqait.info/caucasus-cunflicts/nagorno-karabakh-facts/nagorno-karabakh-facts-1.htm
13. Yenə orada

14. Армянское национальное движение. www.memo.ru/history/diss/books/alexeewa/CharterG.htm
15. Мелик-Шахназаров. Нагорный Карабах: Факты против...
16. Siyasi Sənədlər Arxivi (SSA), f.1, siy.61, iş 186, v.24-25
17. Yenə orada, v.30-31
18. Şumski A., Mitrofanov A. «Keçmiş» indi haqqında... Bax: Qayıdış 1990-1993. Bakı, 1996, s.19-20
19. Azərbaycan Respublikası Ali Sovetinin birinci sessiyasında xalq deputatı Heydər Əliyevin çıxışı (fevral 1991). «Respublika» qəzeti, 31.01.2001
20. SSA, f.1, siy. 83, iş 9, v.7
21. Cilovdarlı A., Şəhla Abbasova. Türk yurdu Qarabağ. Yüz il müharibə. Bakı, 2000, s.86
22. Elçin İsmayıl. Bu əsl faciə idi. Bakı, 1999, s.26
23. Səmədzadə Z. Dağlıq Qarabağ. Naməlum həqiqətlər. Bakı, 1995, s.11
24. Помпеев Ю. Кровавый омут Karabaxa. B., 1992, s.23
25. Şumski A., Mitrofanov A. «Keçmiş» indi haqqında... Bax: Qayıdış 1990-1993. Bakı, 1996, s.21
26. Ermənistanın Azərbaycana qarşı təcavüzünün güclənməsi ilə əlaqədar respublika milli televiziya və radiosu ilə xalqa müraciət. 12 aprel 1994-cü il. http://files.reslib.az/projects/top/v2/f3_4.pdf
27. Böyük Britaniya Kral Beynəlxalq Münasibətlər İnstitutunda çıxış. 23 fevral 1994-cü il http://files.reslib.az/projects/top/v2/f3_4.pdf
28. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 20 noyabr 1990-cı il tarixli sessiyasının stenoqramından. Bax: Qayıdış 1990-1993. Bakı, 1996, s.79
29. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 21 noyabr

1990-cı il tarixli sessiyasında deputat Heydər Əliyevin çıxışı. Bax: Qayıdış 1990-1993. Bakı, 1996, s.81
30. Yenə orada
31. Yenə orada
32. «Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində, Şaumyan rayonunda və Xanlar rayonunun Çaykənd kəndində yaranmış vəziyyətə münasibət haqqında» Naxzıvan Muxtar Respublikası Ali Məclisinin qərarı. Bax: Qayıdış 1990-1993. Bakı, 1996, s.89
33. Möhsün M. Daha susa bilməzdim. Bax: Qayıdış 1990-1993. Bakı, 1996, s.35
34. Şumski A., Mitrofanov A. «Keçmiş» indi haqqında... Bax: Qayıdış 1990-1993. Bakı, 1996, s.21.
35. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 21 noyabr 1990-cı il tarixli sessiyasında deputat Heydər Əliyevin çıxışı. Bax: Qayıdış 1990-1993. Bakı, 1996, s.82
36. Biləsuvar, Cəlilabad, Masallı, Lənkəran, Astara, Yardımlı və Lerik rayonlarından seçilmiş xalq deputatları və həmin rayonlardan olan rəhbər şəxslər və ziyalılarla görüşdə giriş və yekun sözü. 13 avqust 1993-cü il. http://files.preslib.az/projects/toplu/v2/f3_3.pdf
37. Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşdə çıxış. 22 sentyabr 1993-cü il. http://files.preslib.az/projects/toplu/v2/f3_3.pdf
38. Xaricdə yaşayan soydaşlarımızın bir qrupu ilə görüşdə çıxış. 9 yanvar 1994-cü il. http://files.reslib.az/projects/toplu/v/2/f3_4.pdf
39. Londonun «Hilton» hotelində Böyük Britaniyada yaşayan azərbaycanlılarla görüşdə çıxış. 23 fevral 1994-cü il. http://files.reslib.az/projects/topluv2/f3_4.pdf

40. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 20 noyabr 1990-cı il tarixli sessiyasının stenoqramından. Bax: Qayıdış 1990-1993. Bakı, 1996, s.78
41. «Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində, Şaumyan rayonunda və Xanlar rayonunun Çaykənd kəndində yaranmış vəziyyətə münasibət haqqında» Naxzıvan Muxtar Respublikası Ali Məclisinin qərarı. Bax: Qayıdış 1990-1993. Bakı, 1996, s.91-92
42. Yenə orada
43. Yenə orada
44. Yeni Azərbaycan partiyasının yaradılmasının 2-ci ildönümü münasibətilə keçirilmiş ümumrespublika müşavirəsində nitqi. 19 noyabr 1994-cü il. http://files.reslib.az/projects/toplv2/f3_4.pdf
45. Yüksək etimad şəraitində. Bax: Qayıdış 1990-1993. Bakı, 1996, s.47-48
46. Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşdə çıxış. 21 sentyabr 1993-cü il. http://files.preslib.az/projects/toplu/v2/f3_3.pdf
47. Müstəqil Azərbaycan dövlətçiliyini və ərazi bütövlüyünü qorumaq hər birimizin borcudur. Ümumrespublika müşavirəsində çıxış. 24 avqust 1993-cü il. http://files.preslib.az/projects/toplu/v2/f3_3.pdf
48. «Mən Sizə heç nə vəd etmirəm». «Sobesednik» qəzetinə müsahibə. 10 avqust 1993-cü il. http://files.preslib.az/projects/toplu/v2/f3_3.pdf
Yazıçı Aleksandr Proxanovla müsahibə. 12 avqust 1993-cü il. http://files.preslib.az/projects/toplu/v2/f3_3.pdf
49. Azərbaycan Respublikası Milli Məclisinin iclasında çıxış. 15 iyun 1993-cü il. http://files.preslib.az/projects/toplu/v2/f3_3.pdf

50. Azərbaycan televiziyası ilə xalqa müraciət. 23 avqust 1993-cü il. http://files.preslib.az/projects/toplu/v2/f3_3.pdf
Müstəqil Azərbaycan dövlətçiliyini və ərazi bütövlüyünü qorumaq hər birimizin borcudur. Ümumrespublika müşavirəsində çıxış. 24 avqust 1993-cü il.
http://files.preslib.az/projects/toplu/v2/f3_3.pdf
51. «Naxçıvan Muxtar Respublikası Dövlət Milli Müdafiə Komitəsinin yaradılması haqqında» Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı. 7 sentyabr 1991-ci il. Bax: Qayıdış. 1990-1993. Bakı, 1996, s.479-480
52. Rusiya Federasiyası, Qazaxıstan, Azərbaycan və Ermənistan rəhbərlərinin sentyabrın 23-də Jeleznovodsk şəhərində imzaladıqları rəsmi məlumatla əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin bəyanatı. 1 oktyabr 1991-ci il. Bax: Qayıdış.1990-1993. Bakı, 1996, s.498-450
53. «Həyat» qəzeti, 25 sentyabr 1991-ci il
54. Rusiya Federasiyası, Qazaxıstan, Azərbaycan və Ermənistan rəhbərlərinin sentyabrın 23-də Jeleznovodsk şəhərində imzaladıqları rəsmi məlumatla əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin bəyanatı. 1 oktyabr 1991-ci il. Bax: Qayıdış.1990-1993. Bakı, 1996, s.498-450
55. Naxçıvan Muxtar Respublikası Ali Məclisi mətbuat xidmətinin məlumatı. 31 oktyabr 1991-ci il. Bax: Qayıdış.1990-1993. Bakı, 1996, s.502-504
56. Yenə orada
57. Yenə orada
58. Naxçıvan Muxtar Respublikası Ali Məclisi mətbuat xidmətinin məlumatı. 7 noyabr 1992-ci il. Bax: Qayıdış.1990-1993. Bakı, 1996, s.507-508

59. Naxçıvan Muxtar Respublikası Ali Məclisi mətbuat xidmətinin məlumatı. 8 noyabr 1992-ci il. Bax: Qayıdış.1990-1993. Bakı, 1996, s.508-510
60. Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. N-19-20, 1991-ci il
61. «Naxçıvan Muxtar Respublikasında yerləşən silahlı qüvvələrin hissələrinin statusu haqqında» Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 26 oktyabr 1991-ci il tarixli qərarının icra vəziyyəti barədə» Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı. 16 dekabr 1991-ci il. Bax: Qayıdış.1990-1993. Bakı, 1996, s.514-516
62. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət heyətində. Bax: Qayıdış.1990-1993. Bakı, 1996, s.516-519
63. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət heyətində. Bax: Qayıdış.1990-1993. Bakı, 1996, s.516-519
64. «Keçmiş SSRİ-ni silahlı qüvvələrinin Naxçıvan Muxtar Respublikası ərazisindəki hissələrinin statusunun müəyyən edilməsi və onların yerli dövlət hakimiyyət orqanları ilə qarşılıqlı fəaliyyəti ilə bağlı bir sıra məsələlər haqqında» Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin qərarı. 2 yanvar 1992-ci il. Bax: Qayıdış.1990-1993. Bakı, 1996, s.520-522
65. Yenə orada
66. Yenə orada
67. MN arxivi, iş N-9 (1992), v. 25-26
68. MN arxivi, iş 5 (1992), v.55
69. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyətində. Bax: Qayıdış.1990-1993. Bakı, 1996, s.529-532
70. Yenə orada
71. Yenə orada

72. Heydər Əliyev Ermənistanın hərəkətlərini pisləmişdir. Bax: Qayıdış.1990-1993. Bakı, 1996, s.527
73. Yeni baş komandanın köhnə fikirləri. Bax: Qayıdış.1990-1993. Bakı, 1996, s.526
74. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyətində. Bax: Qayıdış.1990-1993. Bakı, 1996, s.529-532
75. «Naxçıvanın inkişafı və müdafiəsi fondunun yaradılması haqqında» Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin qərarı. 25 may 1992-ci il Bax: Qayıdış.1990-1993. Bakı, 1996, s.533-535
76. Yenə orada
77. Qayıdış.1990-1993. Bakı, 1996, s 635-640
78. İranın xarici işlər nazirinin müavini Naxçıvanda. Bax: Qayıdış.1990-1993. Bakı, 1996, s. 633-634
79. Səhiyyə xidmətinə diqqət. Bax: Qayıdış.1990-1993. Bakı, 1996, s.539-540
80. Yenə orada
81. «Naxçıvan Muxtar Respublikasının müdafiəsinin və sərhədlərinin qorunmasının təşkili haqqında» Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin qərarı.
Bax: Qayıdış. 1990-1993. Bakı, 1996, s. 549-555
82. «Naxçıvan Muxtar Respublikasının müdafiəsinin təşkili ilə əlaqədar bəzi məsələlər haqqında» Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyətinin qərarı. 25 iyul 1992-ci il. Bax: Qayıdış. 1990-1993. Bakı, 1996, s. 542-543
83. Naxçıvanla vidalaşdılar. Bax: Qayıdış.1990-1993. Bakı, 1996, s 545-549
84. «Naxçıvan Muxtar Respublikasının müdafiəsinin və sərhədlərinin qorunmasının təşkili haqqında» Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin qərarı. Bax: Qayıdış.1990-1993. Bakı, 1996, s. 549-555

85. Naxçıvanla vidalaşdılar. Bax: Qayıdış.1990-1993. Bakı, 1996, s 545-549
86. Naxçıvanla vidalaşdılar. Bax: Qayıdış.1990-1993. Bakı, 1996, s 545-549
87. «Naxçıvan Muxtar Respublikasının müdafiəsinin və sərhədlərinin qorunmasının təşkili haqqında» Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin qərarı. Bax: Qayıdış.1990-1993. Bakı, 1996, s. 549-555
88. Yenə orada
89. Azərbaycanın Dövlət bayrağı qaldırıldı. Bax: Qayıdış.1990-1993. Bakı, 1996, s. 555-557
90. Naxçıvanda hərbi parad. Bax: Qayıdış.1990-1993. Bakı, 1996, s. 557-562
91. Sərhədçilər and içdilər. Bax: Qayıdış.1990-1993. Bakı, 1996, s. 562-565
92. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevin yanında keçirilən müşavirənin protokolu. 10 noyabr 1992-ci il. Bax: Qayıdış.1990-1993. Bakı, 1996, s. 565-569
93. Sədərəkdə görüş. Bax: Qayıdış.1990-1993. Bakı, 1996, s. 569
94. Ümumxalq nümayəndələri toplantısında giriş və yekun sözü. 28 noyabr 1994-cü il. http://files.reslib.az/projects/toplu/v2/f3_4.pdf
95. Yenə orada
96. 1995-ci il iyunun 24-də Ümumxalq nümayəndələri toplantısında Heydər Əliyevin yekun nitq. «Azərbaycan», 28 iyun 1995-ci il
97. Ümumxalq nümayəndələri toplantısında giriş və yekun sözü. 28 noyabr 1994-cü il. http://files.reslib.az/projects/toplu/v2/f3_4.pdf
98. MN arxivi, f.6, siy.1, iş 36, v.64

99. MN arxivi, f.6, siy.1, iş 36, v.73
100. Hüseynov P. Cinayətimiz məğlubiyyətimizdir. «Müxalifət» qəzeti, 23,25, 28, 30 sentyabr 1993-cü il
101. Yenə orada
102. Yenə orada
103. Yenə orada
104. MN arxivi, iş N-5 (1993), v.105
105. Hüseynov P. Cinayətimiz məğlubiyyətimizdir. «Müxalifət» qəzeti, 23,25, 28, 30 sentyabr 1993-cü il
106. 1993-cü il iyunun 4-də Gəncə şəhərində baş vermiş hadisə ləri təhqiq edən deputat-istintaq komissiyasının işinin yekunu barədə. «Azərbaycan» qəzeti, 24 iyul 1993-cü il
107. Yenə orada
108. Yenə orada
109. Yenə orada
110. Yenə orada
111. «Azərbaycan», 10 iyun 1993-cü il
112. «Azadlıq», 8 iyun 1993-cü il
113. Müdafiə Nazirliyinin arxivi, fond 16, siy.1, iş 58, vərəq 143
114. 1995-ci il iyunun 24-də ümumxalq nümayəndələri toplan tısında Heydər Əliyevin yekun nitqi. «Azərbaycan» qəzeti, 28 iyun 1995-ci il
115. «Azərbaycan» qəzeti, 9 iyun 1993-cü il
116. Azərbaycan Respublikası prezidentinin səlahiyyətlərini həyata keçirən, Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin «Ostankino» dövlətlərarası televiziya şirkətinə müsahibəsi. «Azərbaycan» qəzeti, 6 iyul 1993-cü il
117. Qarannı Q. Vətəndaş qarşıdurmasına son qoymaq naminə. «Azərbaycan» qəzeti, 15 iyun 1993-cü il
118. MN arxivi, iş N-45 (1993), v. 18

119. M*N arxivi, iş N-61 (1993), v.65-66*

*120. Azərbaycan Respublikası Milli Məclisinin iclasında çıxış. 15 iyun 1993-cü il.* *http://files.preslib.az/projects/toplu/v2/f3_3.pdf*

*121. MN arxivi, iş N-61 (1993), v.67-68*

*122. Milli Məclisin növbədənkənar iclası. «Azərbaycan» qəzeti, 19 iyun 1993-cü il*

*123. «Ayna» qəzeti, 11 dekabr 1994-cü il*

*124. Millət vəkilləri çıxış yolu arayırlar. «Azərbaycan» qəzeti, 22 iyun 1993-cü il*

*125. Azərbaycan Respublikası prezidentinin səlahiyyətlərini həyata keçirən, Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin «Ostankino» dövlətlərarası televiziya şirkətinə müsahibəsi. «Azərbaycan», 6 iyul 1993-cü il*

*126. Proxanov A. Azərbaycanın dərsləri. «Azərbaycan» qəzeti, 12 avqust 1993-cü il*

*127. Biləsuvar, Cəlilabad, Masallı, Lənkəran, Astara, Yardımlı və Lerik rayonlarından seçilmiş xalq deputatları və həmin rayonlardan olan rəhbər şəxslər və ziyalılarla görüşdə giriş və yekun sözü. 13 avqust 1993-cü il.* *http://files.preslib.az/projects/toplu/v2/f3_3.pdf*

*128. «Müxalifət» qəzeti, 15 iyul 1993-cü il*

*129. Biləsuvar, Cəlilabad, Masallı, Lənkəran, Astara, Yardımlı və Lerik rayonlarından seçilmiş xalq deputatları və həmin rayonlardan olan rəhbər şəxslər və ziyalılarla görüşdə giriş və yekun sözü. 13 avqust 1993-cü il.* *http://files.preslib.az/projects/toplu/v2/f3_3.pdf*

*130. «Ayna» qəzeti, 18 iyun 1993-cü il*
*131. «Müxalifət» qəzeti, 24 iyun 1993-cü il*
*132. «Ayna» qəzeti, 25 iyun 1993-cü il*
133. «Yeni Musavat» qəzeti, 16 iyul 1993-cü il
134. «Azərbaycan Respublikasının Lənkəran, Astara, Lerik, Yardımlı, Cəlilabad və Biləsuvar rayonlarında yaranmış vəziyyət haqqında» Azərbaycan Respublikası Milli Məclisinin 17 avqust 1993-cü il tarixli qərarı. «Azərbaycan», 24 avqust 1993-cü il
135. Biləsuvar, Cəlilabad, Masallı, Lənkəran, Astara, Yardımlı və Lerik rayonlarından seçilmiş xalq deputatları və həmin rayonlardan olan rəhbər şəxslər və ziyalılarla görüşdə giriş və yekun sözü. 13 avqust 1993-cü il.
http://files.preslib.az/projects/toplu/v2/f3_3.pdf
136. 1993-cü il avqustun 13-də Azərbaycan Respublikası Ali Sovetində respublikanın Biləsivar, Cəlilabad, Masallı, Lənkəran, Astara, Yardımlı və Lerik rayonlarından seçilmiş xalq deputatları və həmin rayonlardan olan rəhbər işçilər və ziyalılar ilə görüşdə Heydər Əliyevin çıxışı. «Azərbaycan» qəzeti, 17 avqust 1993-cü il
137. Yenə orada
138. Yenə orada
139. «Azadlıq» qəzeti, 12 avqust 1993-cü il
140. Azərbaycan Respublikasının səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri H.Əliyevin 1993-cü il avqustun 23-də televiziya ilə xalqa müraciəti. «Azərbaycan» qəzeti, 24 avqust 1993-cü il
141. 1993-cü il avqustun 13-də Azərbaycan Respublikası Ali Sovetində respublikanın Biləsivar, Cəlilabad, Masallı, Lənkəran, Astara, Yardımlı və Lerik rayonlarından seçilmiş xalq

deputatları və həmin rayonlardan olan rəhbər işçilər və ziyalılar ilə görüşdə Heydər Əliyevin çıxışı. «Azərbaycan» qəzeti, 17 avqust 1993-cü il
142. Yenə orada
143. Müstəqil dövlətçiliyi qorumaq və ərazi bütövlüyünü qorumaq hər birimizin borcudur. Heydər Əliyevin Bakıda ümumrespublika müşavirəsində çıxışı. «Azərbaycan» qəzeti, 25 avqust 1995-ci il
144. 1993-cü il avqustun 13-də Azərbaycan Respublikası Ali Sovetində respublikanın Biləsivar, Cəlilabad, Masallı, Lənkəran, Astara, Yardımlı və Lerik rayonlarından seçilmiş xalq deputatları və həmin rayonlardan olan rəhbər işçilər və ziyalılar ilə görüşdə H.Əliyevin çıxışı. «Azərbaycan» qəzeti, 17 avqust 1993-cü il
145. Qanuni və qəti tədbirlər görüləcəkdir. «Azərbaycan» qəzeti, 18 avqust 1993-cü il
146. «Azərbaycan Respublikasının Lənkəran, Astara, Lerik, Yardımlı, Cəlilabad və Biləsuvar rayonlarında yaranmış vəziyyət haqqında» Azərbaycan Respublikası Milli Məclisinin 17 avqust 1993-cü il tarixli qərarı. «Azərbaycan» qəzeti, 24 avqust 1993-cü il
147. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin 1993-cü il avqustun 23-də televiziya ilə xalqa müraciəti. «Azərbaycan» qəzeti, 24 avqust 1993-cü il
148. Yenə orada
149. Yenə orada
150. Yenə orada
151. Yenə orada

152. Müstəqil dövlətçiliyi qorumaq və ərazi bütövlüyünü qoru maq hər birimizin borcudur. Heydər Əliyevin Bakıda ümum-respublika müşavirəsində çıxışı. «Azərbaycan» qəzeti, 25 avqust 1995-ci il
153. Yenə orada
154. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1993-cü il noyabrın 2-də televiziya və radio ilə xalqa müraciəti. «Azərbaycan» qəzeti, 4 noyabr 1993-cü il

# V FƏSİL

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN ORDUSU

## 1. Heydər Əliyev ordu quruculuğunun əsasları haqqında

XX əsrin sonlarında öz müstəqilliyinə qovuşması Azərbaycan xalqının tarixi inkişafında fərqli olan bir mərhələnin başlanğıcını qoydu. Bu mərhələ ölkənin suveren inkişafı, xalqın öz taleyini özü müəyyənləşdirməsi, dünya birliyində öz layiqli yerini tuta bilməsi üçün tarixi imkanlar açdı. Lakin həmin tarixi imkanların davamlı olaraq reallaşması kifayət qədər mürəkkəb və məsuliyyətli vəzifələrin icrası ilə şərtlənə bilərdi. Bunu Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev də dönə-dönə öz çıxışlarında bəyan edirdi. Azərbaycan Prezidenti seçiləndən sonra keçirilən andiçmə mərasimində Heydər Əliyev bildirirdi ki, dövlət müstəqilliyini möhkəmləndirmək, müstəqil dövlət quruluşu yaratmaq, dövlət atributlarını yaratmaq və inkişaf etdirmək Azərbaycan Respublikası qarşısında, onun vətəndaşları qarşısında dayanan çox böyük və mürəkkəb vəzifələrdir. Bu vəzifələri Heydər Əliyev ölkə Prezidenti kimi özünün də qarşısında dayanan əsas vəzifələr kimi xarakterizə edirdi (1).

Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi üçün onun bütün atributlarının yaradılmasını, xüsusən müstəqil dövlətin mühüm atributlarından olan milli ordunun tezliklə formalaş-

dırılmasının vacibliyini Heydər Əliyev gələcək fəaliyyətinin əsas istiqamətlərindən biri kimi qəbul edirdi. O öz çıxışlarında da dəfələrlə qeyd etmişdi ki, ordu bizim üçün ən gərəkli, ən müqəddəs dövlət strukturudur və onun təşkili və möhkəmləndirilməsi də Azərbaycanın müstəqilliyinin başlıca əlamətlərindən biridir. Heydər Əliyev qabarıq şəkildə qeyd edirdi ki, Silahlı Qüvvələr, ordu hər bir müstəqil dövlətin atributlarından biridir. Ordu olmalıdır, ordu yaranmalıdır (2).

Heydər Əliyev Azərbaycan Ordusunu Azərbaycanın müstəqilliyinin mühüm atributlarından biri kimi qəbul edir və onun tezliklə yaranmasına təkid edirdi. Çünki məlumdur ki, Heydər Əliyev yenidən Azərbaycanın rəhbərliyinə qayıtdığı vaxt yenicə qazanılmış müstəqilliyin atributu olacaq Azərbaycan Ordusu dərin böhran içərisində idi və belə böhran içərisində olan Azərbaycan Ordusu ilə Azərbaycanın müstəqilliyini qorumaq da mümkün olmazdı. Konkret tarixi şərait, güclü daxili və xarici hərbi-siyasi təhdidlər isə Azərbaycanın müstəqilliyini qoruya və Azərbaycanın hərbi təhlükəsizliyini təmin edə biləcək güclü bir ordunun yaradılmasını tələb edirdi.

Müstəqilliyin atributu olan ordunun qurulmasının və təşkilatlandırılmasının dövlətin və xalqın mənafelərinə cavab verə biləcək şəkildə həyata keçirilməsi ölkənin siyasi rəhbərliyinin, dövlətin bütün orqanlarının yüksək siyasi yetkinliyini və təşkilatçılıq qabiliyyətini tələb edirdi. Ölkənin etibarlı müdafiəsi, bu vəzifəni yerinə yetirməyə qadir olacaq güclü ordunun formalaşdırılması ölkənin iqtisadi, siyasi, mənəvi-siyasi, hərbi imkanlarının sınağı olduğu kimi, həm də bu amilləri düzgün əlaqələndirməli olan dövlət rəhbərliyinin, rəhbərlikdə olan siyasi qüvvələrin təşkilatçılıq və yetkinlik keyfiyyətlərinin sınağıdır. Ordu dövlət qurumu olduğu üçün onun formalaşdırılması, möhkəmlənməsi, ölkənin

etibarlı müdafiəsini təmin etməyə imkan verəcək keyfiyyətləri əldə etməsi dövlətin, onun rəhbərliyinin, iqtidarı təmsil edən qüvvələrin orduya qayğısından, silahlı qüvvələr quruculuğunu həyata keçirmək istəyindən və bacarığından birbaşa asılıdır. Silahlı qüvvələrin hərbi-siyasi məzmununun formalaşmasında, iqtisadiyyatın, mədəniyyətin, elm və texnikanın nailiyyətlərinin ordu quruculuğuna və onun möhkəmləndirilməsinə istiqamətləndirilməsində əsas rol dövlətə - «hakim partiyanın siyasətinə aiddir» (3). Ona görə də «silahlı qüvvələr quruculuğunun əsas istiqamətləri, ondan istifadənin məqsədi dövlət siyasətinin ... xarakteri ilə müəyyənləşir. Hərbi quruculuğun bütün mühüm məsələləri ölkənin siyasi rəhbərliyi tərəfindən həyata keçirilir» (4). Bu isə iqtidarı təmsil edən müxtəlif qüvvələr tərəfindən müxtəlif şəkildə yönlənir və həll edilir.

Heydər Əliyevin respublika rəhbərliyinə qayıdışına qədər olan Azərbaycanın qısa müstəqillik tarixi də yuxarıda deyilənlərin doğruluğuna təsdiq ola bilər. Müstəqilliyin təxminən ilk il yarımı ərzində Azərbaycan xalqı iki prezidentin dövlətə rəhbərliyinin şahidi oldu. Bu prezidentlərin hər birinin fəaliyyəti dövründə müstəqilliyin mühüm atributlarından olan ordunun formalaşdırılmasına fərqli münasibət ortaya qoyuldu. Bu münasibətlər siyasi xarakteri və məzmunu baxımından bir-birindən fərqli olsa da, onların heç biri müstəqil ordunun təşkilatlanmasına və sabit inkişafına zəmin yaratmadı.

Azərbaycanın öz müstəqilliyini qazanması ərəfəsində və ilk aylarında ordu quruculuğunun başlıca fərqləndirici xüsusiyyəti ondan ibarət idi ki, respublikanın müstəqil ordusunun təşkilinin zəruriliyi dövlət rəhbərliyinin siyasətində öz mütləq əksini tapmamışdı. Ölkə Prezidenti (5) və Azərbaycanın Müdafiə Nazirliyinin bəzi rəhbərləri (6) müstəqil ordu yaradılmasının məqsədəuyğun

olmadığını, Müstəqil Dövlətlər Birliyinin vahid qoşunları tərkibinə daxil olunmasının əhəmiyyətini irəli sürürdülər. Müstəqilliyin ilk aylarında ordu quruculuğunda özünü göstərən çətinlik və nöqsanlar da, əslində, onun gələcəyinə bəslənilən belə münasibətdən doğurdu.

1992-ci ilin may ayında hakimiyyətə gələn qüvvələrin ortaya qoyduğu mövqe Azərbaycan Ordusunun perspektivinə bir aydınlıq gətirdi və Azərbaycan Ordusunun MDB ordusu tərkibinə daxil olmayacağı, müstəqil ordu quruculuğunun davam etdiriləcəyi təsdiq edildi. Yeni hakimiyyət dövründə ordunun taleyinə, gələcəyinə olan əvvəlki ehtiyatlı münasibətə son qoyuldu. Hətta həyata keçirilmiş bir sıra tədbirlər orduda müəyyən keyfiyyət dəyişikliklərinin yaranmasına, 1992-ci ilin yayında cəbhədə uğurlar qazanılmasına səbəb oldu. Ancaq bütünlükdə ordu quruculuğunun sabit və əsaslandırılmış xətt üzərinə qoyula bilməməsi Silahlı Qüvvələri ciddi problemlərlə rastlaşdırdı. İqtidarda olan qüvvələrin dövlətin idarə edilməsində, o cümlədən ordunun formalaşdırılmasında ciddi səhvlərə yol verməsi dövlətin və respublika rəhbərliyinin bütünlükdə ordu quruculuğunda kəsərsiz mövqeyə malik olduğunu göstərirdi. Mahiyyəti və məzmunu dövlətin həyata keçirdiyi müvafiq siyasətlə müəyyənləşən ordu quruculuğuna dövlət qayğısının belə xarakter alması ordu quruculuğu sahəsində mövcud olan bəzi müsbət nəticələri də aradan qaldırdı və ordu bütünlükdə dövlətin nəzarəti altından çıxdı (7).

Heydər Əliyevin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin qurulmasındakı tarixi rolu ondan ibarətdir ki, o bu prosesi düzgün yola istiqamətləndirdi, dövlətçiliyin atributu kimi onu dövlətin tam nəzarəti altına gətirdi. Başqa sözlə, Heydər Əliyev ordu quruculuğunun əsaslarını bu prosesin məhvərinə çevirdi, bu prosesə yeni bir məzmun verdi, bu proseslə bağlı dövlətin vahid

siyasətini müəyyənləşdirdi və zəruri olan qüvvə və vasitələri də bu siyasətin icrasına səfərbər etdi.

Müvafiq dövlət siyasətinin hazırlanması ordu quruculuğunun qanunauyğunluqlarından biridir. Yəni ordu quruculuğunun vəziyyəti müvafiq dövlət siyasətinin hazırlanmasından və həyata keçirilməsindən birbaşa asılıdır. Bu siyasət yaradıcı, səfərbəredici siyasət də ola bilər və əksinə bu siyasətin yarıtmazlığı ordu quruculuğunu nəticəsiz və bəzən də təhlükəli bir prosesə çevirə bilər. Azərbaycanın müstəqilliyinin ilk ilində ordu quruculuğu sahəsində izlənilən siyasət buna bir sübutdur.

Heydər Əliyev bu məqama son dərəcə yetkin və düzgün bir yanaşma nümayiş etdirirdi. O öz bəyanatlarının birində bildirirdi ki, siyasət silahdan üstündür (8). Yəni düzgün və əsaslandırılmış siyasət müharibənin də aparılmasının əsasıdır, müharibənin aparılması vasitəsi olan silahlı qüvvələrin qurulmasının da əsasıdır. Silah və onu daşıyan silahlı qüvvələr siyasətlə idarə edilməlidir, şəxsi və ya qrup maraqları ilə yox.

Heydər Əliyevin dövlətçilik fəaliyyəti də bir daha təsdiq etdi ki, yalnız düzgün hazırlanmış və əsaslandırılmış dövlət siyasəti ilə ordu yaratmaq mümkündür. Dövlətin nəzarətindən kənar olan silahlı qurumlar isə ordu deyil, sadəcə silahlandırılmış dəstələrdir və onlar dövlətin müstəqilliyinin əsası ola bilməzlər.

Öz çıxış və bəyanatlarında Heydər Əliyev müstəqilliyin ilk illərində ordu quruculuğunun düzgün aparılmamasının bir sıra səbəblərinə, ordu quruculuğunun uğurla aparılmasının konkret əsaslarına, ordunun dövlət sistemindəki yerinə, müstəqil ordu qarşısında dayanan vəzifələrin açıqlanmasına toxunmuşdur ki, onların hər biri ordu quruculuğu üçün metodoloji əhəmiyyət kəsb edir.

Müstəqilliyin ilk illərində ordu quruculuğunun yarıtmazlığı ilə bağlı Heydər Əliyev öz çıxışlarından birində bildirirdi ki,

«neçə illərdir Azərbaycan təcavüzə məruz qalmışdır, lakin ordusunu yarada bilməmişdir. Müstəqilliyini elan etdikdən sonra da yarada bilməmişdir. Çünki ordunu yaratmaq istəməmişlər. Ondan ayrı-ayrı məqsədlər üçün istifadə etmişlər» (9).

Burada ordunun yaradılmamasının bir neçə səbəbinə toxunulmuşdur. Heydər Əliyev ilk növbədə respublikaya rəhbərlik edən qüvvələrin ordu quruculuğu sahəsindəki bacarıqsızlığına işarə etmişdir. Yəni respublikanın əvvəlki rəhbərliyi belə bir vəzifənin öhdəsindən gələ bilməmişdi. Hətta müstəqillik elan edildikdən sonra da bu müstəqilliyin atributu olan ordunun formalaşdırılması işində lazımi nəticə əldə edilməmişdi. Eyni zamanda, ona da işarə edilir ki, ordunu yaratmaq istəməmişdilər. Heç şübhəsiz ki, burada dövlətin fəaliyyətinə toxunulur. Ordu dövlət tərəfindən yaradılmalı olduğu halda, dövlət onu yaratmamışdı və ona görə də Azərbaycanın hərbi təhlükəsizliyinin təmin edilməsi də ciddi uğursuzluqlarla qarşılaşmışdı. Nəhayət, Heydər Əliyev belə bir məqama da işarə edir ki, ordu adı altında mövcud olan qurum da ayrı-ayrı məqsədlər üçün yaradılmış və istifadə edilmişdir. Başqa sözlə, silahlandırılan qüvvələrdən dövlətin vahid siyasəti altında, dövlətin müstəqilliyinin və ərazi bütövlüyünün qorunması üçün deyil, ayrı-ayrı qrupların şəxsi məqsədləri üçün istifadə edilirdi. Nəticədə, dövlət hərbi hissələrə öz nəzarətini itirmişdi, hətta Vətəninin azadlığı uğrunda silaha sarılan insanlardan təşkil edilən hərbi hissə və bölmələr də şübhəli məqsədlərə xidmət edən insanların və qüvvələrin nəzarəti altına düşmüşdü.

Çıxışlarının birində Heydər Əliyev bildirirdi ki, son illərdə Azərbaycanda ordu yaradılması üçün lazımi tədbirlər görülməmişdir (10). Heç şübhəsiz ki, bu yanaşma ordu quruculuğunda yol verilmiş nöqsanların ümumi qiymətləndirilməsidir. Çünki ordu quruculuğu üçün həyata keçirilməli olan tədbirlər kifayət

qədər genişdir və Heydər Əliyev də həmin tədbirlərin məcmusunu nəzərdə tuturdu. Ordu quruculuğu ölkənin silahlı qüvvələrinin yaradılmasına, inkişaf etdirilməsinə, komplektləşdirilməsinə, texniki təchizatının və yüksək döyüş hazırlığının təmin edilməsinə istiqamətləndirilmiş tədbirlər sistemidir və konkret olaraq aşağıdakı məsələləri əhatə edir: silahlı qüvvələrin sülh və müharibə dövrü üçün tərkibinin müəyyənləşdirilməsi, onun təşkilati strukturunun hazırlanması və təkmilləşdirilməsi, silahlı qüvvələrin növlərinin, qisimlərinin, xüsusi qoşunların və xidmətlərin tərkibinin və nisbətinin müəyyənləşdirilməsi, ordunun və donanmanın texniki təchizatı, silahlı qüvvələrin komplektləşdirilməsi, qoşunların mənəvi-ideoloji tərbiyəsi, onların maddi ehtiyatlarının hərtərəfli təmin edilməsi, qoşun və kadr hazırlığı və s. (11).

Ordu quruculuğunun düzgün aparılması üçün məhz bu tədbirlər həyata keçirilməlidir. Yuxarıda sadalanan bu tədbirlərin bir çox elementləri Heydər Əliyevin ayrı-ayrı çıxışlarında da konkret şəkildə səsləndirilmişdir. Bu elementlər arasında hərbçi kadrların hazırlığı məsələsi də var, orduya qayğının olması məsələsi də var, orduda mənəvi əhval-ruhiyyənin formalaşdırılmasının zəruriliyi məsələsi də var və s.

Heydər Əliyev ordunun yaradılmasının zəruriliyini ilk növbədə Azərbaycanın müstəqilliyinin, milli azadlığının və ərazi bütövlüyünün qorunması ilə bağlayırdı. O öz çıxışlarında da qeyd edirdi ki, müstəqilliyinin əldə edilməsi Azərbaycana qarşı təcavüzün davam etdiyi bir zamanda baş vermişdi. Bu vəziyyət Azərbaycanın ərazi bütövlüyünü qorumağa qadir olan, onun cəlb edildiyi müharibədən uğurla çıxmağa gücü çatan ordunun olmasını daha da aktuallaşdırırdı. Heydər Əliyev qeyd edirdi ki, «Azərbaycan xalqı öz müstəqilliyini, milli azadlığını qoruyub saxlamalıdır. Bunun üçün də Azərbaycanın güclü ordusu olma-

lıdır. Bu həm işğal olunmuş torpaqlarımızı düşmənlərdən təmizləmək, həm də gələcəkdə müstəqil Azərbaycanın etibarlı müdafiəsini təşkil etmək üçün gərəkdir» (12).

Azərbaycanın müstəqilliyinin və ərazi bütövlüyünün təmin edilməsində və Azərbaycanın cəlb edildiyi müharibədən uğurla çıxmasında ordunun xüsusi rola malik olmasını Heydər Əliyev ordu quruculuğu ilə bağlı bütün çıxışlarında qeyd edirdi. Ancaq Heydər Əliyev ordunun təşkilinə, onun möhkəmləndirilməsinə daha geniş planda yanaşırdı və onu müstəqil dövlət quruculuğunun bütün dövrlərində xüsusi diqqət tələb edən bir sahəsi kimi qiymətləndirirdi: «Müstəqil respublikanın gərək güclü ordusu olsun. Bu gün torpaqlarımızı müdafiə etmək üçün belə ordu bizə hava-su kimi lazımdır. Belə ordu sabah, gələcək üçün, müstəqil respublikamızın müstəqilliyini təmin etməkdən ötrü də lazımdır. Dünyanın heç bir müstəqil dövləti ordusuz yaşaya bilməz. Xüsusən də yenicə müstəqilliyini qazanmış və belə bir mürəkkəb regionda yaşayan Azərbaycan dövləti. Ona görə də ordu quruculuğu, ordu yaratmaq hər birimizin müqəddəs borcudur. Biz bunu bilməliyik. Xüsusən müstəqillik haqqında həddindən artıq düşünən, müstəqillik arzusunda olan adamlar bilməlidirlər ki, güclü ordusuz müstəqillik ola bilməz» (13).

Başqa bir çıxışında isə Heydər Əliyev bildirirdi ki, əgər müharibə olmasa da, torpaqlarımıza heç kəs təcavüz etməsə də, Azərbaycanın müstəqilliyini, suverenliyini təmin etmək üçün onun qüdrətli ordusu olmalıdır (14).

Azərbaycan Respublikasının qərar tutduğu geosiyasi vəziyyət, malik olduğu təbii sərvətlər, izlədiyi müstəqil siyasət də belə bir ordunun olmasını zəruri edirdi. Çünki Heydər Əliyev Azərbaycan Ordusunu Azərbaycanın müstəqilliyinin qarantı kimi görürdü və Azərbaycanın müstəqilliyinin əbədi və dönməz olması

üçün də belə bir qarantın təşkilatlandırılmasını dövlətin qarşısında dayanan ən başlıca vəzifələrdən biri sayırdı. Ona görə də Heydər Əliyev müstəqil Azərbaycanın müstəqilliyini təmin edə biləcək yeni ordu quruculuğunun əsasını qoydu və hələ sağlığında belə bir ordunu təşkilatlandıra bildi. Dövlətin rəhbəri və Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi Heydər Əliyev Azərbaycan Ordusunu xalqın bir parçası sayırdı, xalqı ordunun güc və qüdrət mənbəyi hesab edirdi. Ona görə də o bütün xalqın güclü ordu formalaşdırılmasına səfərbər edilməsini ciddi vəzifələrindən biri kimi qiymətləndirirdi. Yeni ordunun qurulmasının uğurlu tərəflərindən də biri məhz bu idi ki, Heydər Əliyev bu prosesdə dövlətin və xalqın gücünü düzgün əlaqələndirə bildi.

## 2. Heydər Əliyevin radio və televiziya ilə Azərbaycan xalqına 2 noyabr 1993-cü il tarixli müraciəti

Heydər Əliyevin Bakıya qayıdışından sonra Azərbaycan xalqı qarşısındakı xilaskarlıq missiyasının mühüm nəticələrindən biri də onun Azərbaycan Ordusunu ağır böhrandan qurtarması oldu. Zəngin dövlətçilik təcrübəsi, qətiyyətli və ardıcıl siyasəti ilə o, ordu quruculuğuna yeni məzmun verdi və həqiqətdə müasir ordu quruculuğunun əsasını qoydu. Onun rəhbərliyi altında Azərbaycanın hərbi təhlükəsizliyinin, müstəqilliyinin və suverenliyinin qarantı olacaq ordunun formalaşdırılmasının dövlət səviyyəsində, mərkəzləşdirilmiş şəkildə həyata keçirilməsi üçün qəti və təxirəsalınmaz tədbirlər müəyyənləşdirildi, xalqın və ölkənin bütün imkanları bu mühüm prosesə səfərbər edildi, ordu quruculuğu zərərli sapınmalardan təmizləndi, bu proses dövlətçilik təcrübəsi və milli maraqlar üzərinə gətirildi və bununla da silahlı qüvvələr quruculuğunun keyfiyyətcə yeni bir mərhələsi başlan-

dı. Həmin mərhələnin başlanğıcını isə Heydər Əliyevin radio və televiziya ilə Azərbaycan xalqına 2 noyabr 1993-cü il tarixli müraciəti qoydu.

1993-cü il iyun ayının 15-dən, Ali Sovetin sədri seçildiyi gündən respublikanın ictimai-siyasi həyatında baş verən hadisələr, xalqın taleyi və gələcəyi ilə bağlı olan ciddi problemlər barəsində xalqa, ictimaiyyətə ətraflı məlumatlar çatdırmaq, dövlət rəhbəri kimi respublikanın narahatçılığına səbəb olan məsələlərin həllində xalqın dəstəyinə arxalanmaq Heydər Əliyevin fəaliyyətinin ayrılmaz hissəsi idi. 1993-cü ilin yayında bir-birinin ardınca Azərbaycanda ciddi sosial, siyasi və hərbi gərginlik yaradan Gəncə və Lənkəran hadisələrinin ictimai-siyasi və hərbi təhlükəsinin aradan qaldırılması, respublikanın müstəqilliyinin qorunub saxlanılması üçün Heydər Əliyevin arxalandığı sınanmış vasitələrdən biri xalqın gücünün səfərbər edilməsi və istiqamətləndirilməsi idi.

Radio və televiziya ilə Azərbaycan xalqına 2 noyabr 1993-cü il tarixli müraciətində də Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin mühüm atributlarından biri olan ordunun böhran vəziyyətinə gətirilməsinin səbəb və səbəbkarlarından geniş söhbət açdı, bu sahədə ortaya çıxan çətinlikləri dərindən təhlil edərək yeni ordunun yaradılması üçün xalqın və dövlətin qarşısında dayanan vəzifələrdən danışdı. Proqram xarakteri daşıyan bu müraciətin ana xəttini isə bütün xalqın Azərbaycana qarşı istiqamətlənmiş erməni təcavüzünün qarşısının alınmasına səfərbər edilməsi təşkil edirdi.

Heydər Əliyev əvvəlcə son həftələr Azərbaycanda, Ermənistanla həmsərhəd olan rayonlarda və yaşayış məntəqələrində yaranmış vəziyyət, Ermənistan silahlı qüvvələrinin təcavüzkar hücumlarının genişlənməsi nəticəsində yeni ərazilərin erməni işğalı altına düşməsi barəsində qısaca məlumat verdi. O bildirdi ki,

son gərginliyə səbəb erməni silahlı dəstələrinin oktyabr ayında başlanan hücum kampaniyasıdır.

Müraciətinin əvvəlində Heydər Əliyev respublikada yaranmış gərginliyin səbəbləri haqqında öz fikrini belə açıqlayırdı: «Azərbaycan Respublikası, onun vətəndaşları beş ildən çoxdur ki, müharibə şəraitindədirlər. Bu müddətdə erməni silahlı qüvvələrinin Azərbaycana qarşı təcavüzü mütəmadi olaraq davam edib, respublikanın ərazi bütövlüyü aybaay, ilbəil pozularaq onun torpaqları təcavüzkar tərəfindən işğal olunubdur, indi isə böyük bir qismi işğal altındadır».

Heydər Əliyev bildirirdi ki, son gərginliyə səbəb erməni silahlı dəstələrinin 1993-cü ilin oktyabr ayında başlanan hücum kampaniyasıdır.

Uzun müddət davam edən atəşkəsin pozulmasına cəhd hələ 1993-cü il oktyabr ayının 10-da, Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti kimi andiçmə mərasiminin keçirildiyi gün göstərilmişdi (15). Erməni silahlı qüvvələri Cəbrayıl rayonu ərazisində təcavüzkarlıqlarını genişləndirməyə səy göstərirdilər. Respublika Prezidenti xatırladırdı ki, aparılan danışıqlar nəticəsində hərbi əməliyyatların qarşısını almaq mümkün oldu və əldə edilən atəşkəs oktyabr ayının 21-dək davam etdi.

Heydər Əliyevin xalqa müraciəti ərəfəsində Azərbaycan xalqına qarşı həyata keçirilən təcavüz özünün ən yüksək həddinə çatdı. Respublika Prezidentinin verdiyi məlumata görə, ötən müddət ərzində təxminən 16 min azərbaycanlı şəhid olmuş, 22 min nəfərədək yaralanmış, yüz minlərlə adam ev-eşiyindən didərgin düşmüşdü. Onların ümumi sayı 1 milyon nəfəri keçmişdi. Müharibənin dəhşəti təkcə bununla bitmirdi. Respublika ərazisinin təxminən 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altına düşmüş və ölkə rəhbərinin dediyi kimi, bu ərazilərdə yerləşən kəndlər və qəsəbələr viran edilmişdi.

Heydər Əliyev müraciətində respublikada ictimai-siyasi gərginliyi daha da genişləndirən son döyüşlərə toxunur, ictimaiyyətin diqqətini onların gətirdiyi nəticələr üzərində cəmləşdirməyə çalışırdı: «Son həftələr Azərbaycanda, respublikanın Ermənistanla həmsərhəd bölgə və rayonlarında vəziyyət daha da gərginləşmiş, erməni silahlı qüvvələrinin təcavüzkar hücumları şiddətlənmiş və bunun nəticəsində Füzuli, Cəbrayıl rayonlarının cənub hissəsində olan yaşayış məntəqələri – kəndlər, qəsəbələr tamamilə dağıdılıb viran edilmişdir. Bu rayonlar tamamilə erməni silahlı qüvvələrinin işğalı altına keçmişdir. Sonra Zəngilan rayonuna hücumlar olmuş və nəticədə bu rayon da işğal edilmişdir».

Heydər Əliyevin haqqında danışdığı döyüşlər 1993-cü il oktyabr ayının sonuncu ongünlüyündə cərəyan etmişdi. Erməni tərəfinin bu yeni hücum kampaniyası güclü millətçi təbliğat kampaniyası ilə müşayiət olunurdu. Erməni millətçiləri həmişəki kimi öz çirkin və təcavüzkar niyyətlərini havadarlarının köməyi ilə pərdələyərək yenidən özlərinin təhlükəyə məruz qalmaları haqqında dünya ictimaiyyətinin fikrini azdırmağa cəhd göstərmişdilər. Azərbaycanın cənubunda hərbi əməliyyatların yeni vüsət alması təkcə ermənilərin işğalçılıq planları ilə bağlı deyildi. Respublikada vətəndaş müharibəsi təhlükəsinin aradan qaldırılması, respublikanın yeni rəhbərliyinin inamlı siyasəti daxildə və xaricdə bir sıra qüvvələri təşvişə salmışdı. Buna görə Azərbaycanın müstəqilliyinin güclənməsini istəməyən qüvvələr erməni kartından da kifayət qədər məharətlə istifadə edirdilər. Heydər Əliyev əvvəlki çıxışlarında da haqlı olaraq bildirirdi ki, «bu müharibə təkcə Ermənistanla Azərbaycan arasında gedən müharibə deyil. Bu müharibəyə böyük siyasi qüvvələr qoşulmuşdur. O, böyük proseslərlə bağlıdır. Bu müharibə başıbəlalı Azərbaycanı parçalamaq, yenidən dağıtmaq məqsədi güdən böyük siyasi qüvvələr tərəfindən başlanmışdır».

Heydər Əliyev müraciətində daha sonra onu da əlavə edirdi ki, yaranmış bu gərginliyin aradan qaldırılması üçün respublika rəhbərliyi davamlı olaraq çalışmış və lazımi tədbirləri həyata keçirməyə cəhd göstərmişdir. Həmin tədbirlər içərisində ümummilli lider təcavüzkarın beynəlxalq aləmdə tanınması və onun təcavüzkarlığının qınanması üçün ölkənin xarici siyasətinin yenidən qurulmasına, müharibənin sülh yolu ilə aradan qaldırılmasına istiqamətlənmiş işləri müfəssəl şəkildə ictimaiyyətə çatdırırdı. Heydər Əliyevin müraciətində xarici siyasət sahəsində son aylarda və günlərdə görülən işlərin məzmunu ictimaiyyətə açıqlanmaqla, bütünlükdə bu məsələyə diqqətin gücləndirilməsi, onun dövlət marağına uyğun səviyyədə qurulmasının vacibliyi qeyd edilirdi.

Heydər Əliyev öz müraciətində Ermənistanın Azərbaycana qarşı təcavüzünün sülh yolu ilə aradan qaldırılmasına və dövlətin yeritdiyi siyasətin də buna uyğun qurulması zəruriliyinə öz münasibətini belə ifadə edirdi: «Azərbaycan vətəndaşlarına məlumdur ki, mən Aərbaycan Respublikası Ali Sovetinin sədri seçilən gündən indiyə qədər, indi isə Prezident vəzifəsində olduğum zaman Ermənistanla Azərbaycan arasında gedən müharibəyə son qoyulması, işğal edilmiş torpaqlarımızın geri qaytarılması və ümumiyyətlə bu hərbi münaqişənin kəsilməsi tərəfdarı olmuşam. Münaqişənin həll edilməsində sülh yoluna üstünlük vermişəm və bu məsələlərin danışıqlar yolu ilə həll olunmasını daha lüzumlu bilmişəm. Milli Məclisin iclaslarında bu barədə dəfələrlə fikir mübadiləsi olubdur və Milli Məclis, Azərbaycan ictimaiyyəti bu siyasəti bəyənmişdir. Biz bu yolla gedirik».

1993-cü ilin noyabrınadək olan müddətdə respublika rəhbərliyinin fəaliyyətinin təhlili göstərirdi ki, ötən vaxt ərzində xarici siyasətin yenidən qurulması, müharibənin danışıqlar yolu ilə

başa çatdırılması və xarici ölkələrin və beynəlxalq qurumların diqqətinin bu məsələyə istiqamətləndirilməsi sahəsində müəyyən işlər görülmüşdü. Ölkənin mənafeləri də öz niyyətlərini, işğalçılıq siyasətini heç bir müqavimətə rast gəlmədən beynəlxalq aləmdə kifayət qədər pərdələməyə müvəffəq olmuş erməni millətçilərinin təcavüzkarlığının mahiyyətinin açıb göstərilməsinin, onların hansı məqsədə qulluq etmələrini dünya ictimaiyyətinə çatdırılmasının, Azərbaycanın haqq sözünün beynəlxalq aləmdə yayılmasının əməli fəaliyyət proqramına çevrilməsini tələb edirdi. Çünki Azərbaycanın uzun müddət uğursuzluq məngənəsində qalmasının əsas səbəblərindən biri də elə qarşı tərəfin öz mahiyyətini məharətlə pərdələyə bilməsi və Azərbaycana qarşı informasiya blokadası yarada bilməsi olmuşdu. Belə siyasətlə Ermənistan təcavüzkar siyasətini pərdələməyə və bunun nəticəsində beynəlxalq aləmdə heç bir qınağa rast gəlmədən Azərbaycan ərazilərini işğal etməyə, hətta özünü məzlum bir ölkə kimi göstərərək beynəlxalq aləmdən xeyli kömək almağa və bu köməyi də Azərbaycana qarşı işğalçılıq fəaliyyətinin gücləndirilməsinə istiqamətləndirməyə nail ola bilmişdi.

Öz müraciətində Heydər Əliyev Azərbaycanın milli mənafeyinə cavab verən xarici siyasətin qurulması üçün ilk növbədə nüfuzlu beynəlxalq qurumlarla, dünyanın bütün dövlətləri ilə münasibətlər yaradılmasına tərəfdar olduğunu bildirirdi. Münasibətlərin belə qurulması, çoxtərəfli əməkdaşlığa üstünlük verilməsi bir çox sahələrdə olduğu kimi, xarici siyasət sahəsində də yaranmış olan böhranı aradan qaldıra bilərdi. Çünki Heydər Əliyevin respublika rəhbərliyinə gəlməsinə qədər dünya birliyinin qabaqcıl ölkələri ilə, nüfuzlu beynəlxalq təşkilatlarla qarşılıqlı səmərəli yolların seçilməsi əvəzinə, yalnız bir istiqamətə meyilliyi gücləndirməklə Azərbaycan diplomatiyası Rusiya və İran kimi böyük

və güclü dövlətlərlə münasibətlərdə bir gərginlik yaratmışdı. Nəticədə də Azərbaycanın xarici siyasəti süni problemlərlə qarşılaşdı və Ermənistan da bundan məharətlə istifadə edərək 1992-93-cü illərdə Azərbaycan ərazilərinin işğalını davam etdirmək üçün daha münasib beynəlxalq şərait əldə etdi.

1993-cü ilin yayına kimi Azərbaycanda aparılan xarici siyasətin ümumdövlət və ümummilli maraqlara cavab verməməsi Heydər Əliyevin və digər dövlət rəhbərlərinin çıxışlarında da öz əksini tapmışdı. Bu dövrün diplomatiyasına verilən müxtəlif qiymətləri ümumiləşdirməklə belə bir qənaətə gəlmək olar ki, xarici siyasətin müharibə vəziyyətində olan xalqın ümummilli maraqlarını əks etdirməməsi, əslində, bir sıra reallıqların məntiqi nəticəsi idi. Səriştəsizlik, şəxsi emosiyalar, şəxsi maraqların dövlət maraqlarından üstün tutulması, müstəqil dövlət quruculuğunda xarici siyasətin yerinin düzgün qiymətləndirilməməsi xarici siyasətin kəsərliliyini də xeyli azaldırdı. Heydər Əliyevin fikrincə, xarici siyasətdə belə naşılığın nəticəsində Azərbaycan dünya miqyasında özünü göstərə bilməmişdi və respublikada yeridilən siyasətin səmərəsizliyi üzündən beynəlxalq aləmdə də belə bir fikir yaranmışdı ki, guya Dağlıq Qarabağ ətrafında cərəyan edən proseslərə görə günahkar Azərbaycan tərəfidir. Dağlıq Qarabağ erməniləri hüquqlarından məhrum ediliblər, milli təzyiqlərə məruz qalırlar və s. Ona görə də beynəlxalq aləmdə erməniləri müdafiə edən bir ictimai fikir mövcud idi.

Bunun üçün də Azərbaycanın müstəqilliyinin daha da möhkəmləndirilməsi, işğal olunmuş torpaqların geri qaytarılması üçün səmərəli yollardan birini Heydər Əliyev bütün ölkələrlə, bütün dövlətlərlə qarşılıqlı faydalı münasibətlər yaratmaqda görürdü və respublika Ali Sovetinin sədri kimi fəaliyyətə başladığı gündən bu məsələyə xüsusi diqqət yetirirdi. Bu vəzifəyə seçilən-

dən bir neçə gün sonra dövlətə rəhbərliyi də öz üzərinə götürməli olan Heydər Əliyevin fəal siyasəti nəticəsində Birləşmiş Millətlər Təşkilatı, onun Təhlükəsizlik Şurası, ATƏM və Minsk qrupu ilə əlaqələr daha da genişləndi, bu beynəlxalq təşkilatlar Azərbaycanın ərazisində gedən müharibənin danışıqlar yolu ilə başa çatdırılması işinə daha yaxından cəlb edildilər. Son aylar ərzində bu qurumlarla görülən işlərin yekunlarını Heydər Əliyev xalqa müraciətində belə qiymətləndirirdi: «...Biz bu siyasəti həyata keçirərək, bu yolla gedərək birinci növbədə beynəlxalq təşkilatların imkanlarından istifadə etməyə çalışmışıq. Cəsarətlə deyə bilərəm ki, bu sahədə çox səmərəli və çox fəal tədbirlər görmüşük. Birləşmiş Millətlər Təşkilatının, onun Təhlükəsizlik Şurasının, ATƏM-in, onun çərçivəsində olan Minsk qrupunun imkanlarından maksimum istifadə etməyə çalışmışıq».

Heydər Əliyev, eyni zamanda, dünyanın nüfuzlu dövlətlərinin diqqətini Azərbaycanın problemlərinə cəlb edilməsinin, onların imkanlarından istifadə edilməsinin zəruriliyini öz müraciətində qeyd edirdi. Ali Sovetin sədri seçilməsi ərəfəsində ABŞ-ın, Rusiyanın və Türkiyənin bölgədə müharibəyə son qoyulması üçün birgə təşəbbüslə çıxış etməsi onların vasitəçiliyinin səmərəliliyinə və həmin dövlətlərlə bu istiqamətdə münasibətlərin inkişaf etdirilməsinə əlverişli zəmin yaradırdı: «Böyük dövlətlərin təşəbbüslərindən və vasitəçilik imkanlarından istifadə etməyə səy göstərmişik. ABŞ-ın, Rusiyanın, Türkiyənin bu barədə təşəbbüslərindən və imkanlarından istifadə etməyə çalışmışıq. Həmişə də hesab etmişik ki, bu yolla getsək, müvəffəqiyyət qazanarıq».

Doğrudur, Heydər Əliyev onu da qeyd edirdi ki, beynəlxalq qurumlara, istərsə də dünyanın nüfuzlu dövlətləri ilə əməkdaşlıq təcavüzkarın cilovlanması üçün heç də gözlənilən səmərəni verməmişdir. Ancaq heç şübhəsiz ki, bu münasibətlərin geniş-

lənməsi həm beynəlxalq təşkilatlarda, həm də böyük dövlətlərdə Azərbaycanın probleminə diqqəti xeyli gücləndirmişdir. Problemin həlli üçün ilk addım kimi cəbhədə atəşkəsin əldə edilməsi və sonradan danışıqların səmərəliliyinin artırılması üçün Heydər Əliyev Ermənistanla və hətta Dağlıq Qarabağın erməni icmasının rəhbərləri ilə də əlaqələrin qurulmasının vacibliyini qeyd edirdi. Onun radio və televiziya ilə 2 noyabr 1993-cü il tarixli müraciətindən əvvəl də bu istiqamətdə müəyyən addımlar atılmışdı: «Bu məqsədlərə nail olmaq üçün biz, şəxsən mən və mənim məsləkdaşlarım Ermənistan Respublikasının rəhbərliyi ilə danışıqlar aparılmasını da lüzumlu hesab etmişik. Dağlıq Qarabağda olan qüvvələrlə bilavasitə əlaqəyə girib onlarla danışıqlar aparıb məsələlərin sülh yolu ilə həll olunmasına da səy göstərmişik. Bunların nəticəsində atəşin kəsilməsi və atəş kəsildiyi dövrdə müəyyən danışıqlar aparılması, məsələnin sülh yolu ilə həll olunması, erməni silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş torpaqlarından çıxması məsələlərini qəti surətdə qoymuşuq».

Bu danışıqlar prosesində Heydər Əliyev özü də iştirak edirdi. MDB üzvü olan dövlətlərin rəhbərlərinin Moskvada keçirilən görüşündə, yəni 1993-cü il sentyabr ayının 25-də onun Ermənistan prezidenti L.Ter-Petrosyanla qısa danışıqları oldu. Ermənistan prezidenti də mətbuata verdiyi bəyanatlarında belə görüşün keçirilməsinə tərəfdar olduğunu və belə görüşlərin problemin həlli üçün səmərəli mexanizmin tapılmasına kömək edəcəyini bildirirdi.

Ancaq cəbhə bölgələrində proseslərin sonrakı inkişafı göstərdi ki, Ermənistan prezidentinin bu bəyanatlarının arxasında ciddi bir mövqe dayanmır, öz təcavüzkarlığını hansı ibarələrlə pərdələməyə çalışmasından asılı olmayaraq Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətindən əl çəkmək niyyəti yoxdur,

yaxın və uzaq xaricdən aldığı köməyin sayəsində bu planları reallaşdırmaq üçün hücumları genişləndirməkdən çəkinmir. 1993-cü ilin oktyabrında erməni silahlı dəstələrinin respublikanın cənub-qərb sərhədi boyunca döyüş əməliyyatlarını genişləndirməsi onun təcavüzkar planlarından əl çəkməyəcəyinə bir sübut idi.

Heydər Əliyev öz müraciətində bildirirdi ki, qarşılıqlı razılaşmaya əsasən, cəbhə bölgəsində atəşkəs 1993-cü il noyabr ayının 5-dək davam etməli idi. Ancaq erməni tərəfi bu vədə əməl etməyərək 1993-cü il oktyabrın 10-da atəşkəsin pozulmasına cəhd göstərdi. Respublika Prezidenti sonra müraciətində təəssüflə qeyd edirdi ki, erməni tərəfinin günahı üzündən bu razılıq da uzun sürmədi. Oktyabr ayının 21-də erməni silahlı qüvvələri atəşkəsi pozaraq hücumlarını xeyli genişləndirmişdilər. Bu hücumlar zamanı Füzuli və Cəbrayıl rayonlarının İran sərhədi boyunca yerləşən kəndləri erməni işğalına məruz qaldı. Azərbaycanın müdafiə qüvvələri arasındakı dağınıqlıqdan və müxtəlif siyasi qüvvələrin cəbhə bölgəsində öz siyasi niyyətlərinə çatmaq məqsədilə həyata keçirdikləri təxribatlardan məharətlə istifadə edən erməni silahlı qüvvələri Cəbrayıl və Füzuli rayonlarının İran sərhədi boyunca yerləşən yaşayış məntəqələrini ələ keçirə bildilər. Bu nəticədən ruhlanan erməni silahlı qüvvələri təcavüzü genişləndirərək Zəngilan rayonuna da bir neçə istiqamətdən hücum etdilər. 1993-cü il oktyabr ayının sonlarında respublika rəhbərliyinin dəvəti ilə Bakıya rəsmi səfərə gəlmiş İran İslam Respublikasının Prezidenti Haşemi Rəfsəncani də Zəngilanın işğalına istiqamətlənmiş hücumların qarşısının alınması üçün vasitəçiliyə cəhd göstərdi. O, Ermənistan rəhbərliyi ilə əlaqə yaradaraq atəşin kəsilməsi ilə bağlı təklif verdi. Heydər Əliyevin fikrincə, həm beynəlxalq təsirdən, həm də daxildə görülən müdafiə tədbirlərindən istifadə edilməsinə baxmayaraq, gözlənilən nəticəni əldə etmək mümkün

olmadı və Zəngilan rayonu da Ermənistan silahlı qüvvələrinin işğalı altına düşdü.

Bütün bunlarla bərabər, dövlət rəhbəri xarici siyasətin səmərəliliyinin daha da artırılmasının vacibliyini qeyd edirdi. Bu sahəyə gələcəkdə diqqətin artırılması zəruriliyi respublikanın haqq mövqeyinin beynəlxalq aləmə çatdırılmasının əhəmiyyəti ilə bağlanılırdı. Dövlət rəhbərinin xalqa müraciətində göstərilirdi ki, bütünlükdə hərbi quruculuğa diqqət artırılmalı və bu prosesin səmərəliliyinə nail olunması üçün ölkənin daxili və xarici siyasətində milli maraqlar əsas tutulmalıdır.

Dövlət rəhbərliyi müharibə şəraitində daha ciddi diqqət yetirilməli olan başlıca məsələlərdən birini müdafiə qüvvələrinin qurulmasında və onun respublikanın ərazi bütövlüyünü qorumağa qadir olacaq səviyyəyə qaldırılmasında görürdü. Yalnız güclü müdafiə qüvvələri təcavüzkar niyyətlərdən əl çəkməyən düşmən qüvvələrə layiqli müqavimət göstərib onları geri çəkilməyə məcbur edər və baş verə biləcək yeni təcavüzlərin qarşısını ala bilərdi. Respublika Prezidenti xalqa müraciətində Azərbaycanın müstəqilliyinin etibarlı şəkildə qorunmasını da belə qüvvələrin mövcudluğu ilə bağlayırdı. O bildirirdi ki, ölkənin xarici siyasətinin hansı səviyyədə qurulmasından asılı olmayaraq, Azərbaycan xalqı güclü müdafiə qüvvələrinin təşkilinə nail olmalı və respublikanın ərazi bütövlüyünə etibarlı təminat yaratmalıdır: «Belə ağır vəziyyətdə də mən yenə atəşin dayandırılması, sülh danışıqlarının aparılması, məsələnin sülh yolu ilə həll olunması və işğal edilmiş torpaqlarımızın da bu yolla geri qaytarılması tərəfdarıyam. Mənim mövqeyim belədir və ona əsaslanaraq ayrı-ayrı dövlətlərlə əlaqə saxlayıram. Ermənistanla bəzi danışıqlar aparırıq. Bu mövqeni gələcəkdə də davam etdirəcəyik. Eyni zamanda, biz təkcə buna ümid bəsləmirik. Azərbaycanın gərək

etibarlı müdafiəsi olsun. Biz işğalçılıq, qəsbkarlıq siyasəti yeritmirik. Biz sadəcə olaraq torpaqlarımızı özümüzə qaytarmalıyıq, işğal edilmiş ərazilərimizi geri almalıyıq, Azərbaycanın ərazi bütövlüyünü təmin etməliyik. Bu haqq işidir. Biz bu haqq yolda bütün imkanlarımızdan istifadə etməliyik».

Dövlət rəhbərinin müraciətində səslənən bu fikirlər təkcə Azərbaycan xalqının qarşısında dayanan vəzifələri müəyyənləşdirmirdi. Bu fikirlər, eyni zamanda, ölkənin hərbi qüvvələrinin xarakterini, ölkənin hərbi siyasətinin mahiyyətini müxtəsər şəkildə ifadə edirdi. Yəni müstəqil Azərbaycan Respublikası xarici siyasətində sülh prinsiplərinə əsaslandığı kimi, onun hərbi quruculuğunun da müdafiə xarakterli olduğu bildirilirdi. Lakin respublika Prezidenti təəssüflə qeyd edirdi ki, Azərbaycanın müdafiə qüvvələri hələ formalaşmamışdır və ölkənin keçirdiyi ağır hərbi böhranın əsas səbəblərindən biri də güclü ordunun olmaması idi. Heydər Əliyev öz müraciətində müxtəsər şəkildə Azərbaycanda ordunun təşkil edilməsinin səbəblərini açıqlayır və gəldiyi qənaətlərlə, eyni zamanda, ordunun qurulması işinin, onun təkmilləşdirilməsinin yollarını göstərirdi. O haqlı olaraq qeyd edirdi ki, möhkəm ordunun qurulması uzun sürən bir prosesdir və ölkənin müdafiəsini öz üzərinə götürməyə qadir olacaq bir ordunu bir neçə ay ərzində qurula biləcəyini qeyri-mümkün hesab edirdi.

Respublika ordusunun böhranlı vəziyyətdə olmasını əslində, əvvəlki iqtidarın nümayəndələri də etiraf edirdilər. Ordu hissələrində aparılan yoxlamalar da hərbi hissələrin artıq döyüş qabiliyyətinə malik olmadığını, onların öz döyüş keyfiyyətlərini tamamilə itirdiklərini sübut edirdi. Məsələn, Qarabağ zonasını əhatə edən ikinci korpusun döyüş qabiliyyətini yoxlayan səlahiyyətli komissiya hələ 1993-cü il iyun ayının ilk günlərində belə bir qənaətə gəlmişdi ki, bu korpus döyüş tapşırığının icrasına qabil

deyildir (16). 1993-cü ilin avqustunda isə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin demək olar ki, bütün hissələrinin döyüş imkanlarına malik olmaması haqqında Müdafiə Nazirliyinə təcili sənəd təqdim edilmişdi (17). Yəni Heydər Əliyevin respublika rəhbərliyinə gəlməsi ərəfəsində qoşun hissələri artıq çox ciddi böhran içərisində idi və bu qüvvələrin döyüş qabiliyyəti ən adi tələblərə belə cavab vermirdi.

Heydər Əliyev, eyni zamanda, son vaxtlar Azərbaycanda hərbi şəraitin mürəkkəbləşməsinin müxalifət nümayəndələrinin yeni rəhbərliyin ordu quruculuğuna ciddi fikir verməməsi ilə bağlamasını qətiyyətlə rədd edirdi. Yuxarıda söylənilənlər də bir daha göstərir ki, Heydər Əliyev Azərbaycan rəhbərliyinə gəlməzdən xeyli əvvəl respublika ordusu əvvəlki iqtidarın səriştəsizliyi və qətiyyətsizliyi üzündən dərin böhran içərisində idi. Heydər Əliyev xalqa müraciətində ordunun, bütünlüklə ölkənin müdafiə qüvvələrinin belə vəziyyətə düşməsinin səbəblərini də açıb təhlil edirdi. Ölkə prezidenti həmin səbəblər arasında dövlətin təşkilatçı rolunu, ordu quruculuğunda dövlət siyasətinin xarakterini kifayət qədər obyektivcəsinə qiymətləndirirdi. Dövlət rəhbərinin bu fikirləri, əslində, ordu quruculuğu ilə bağlı çoxillik elmi qənaətləri və qiymətli təcrübəni də özündə əks etdirirdi. Bu elmi qənaətlərin və sınanmış təcrübənin mahiyyəti isə ondan ibarət idi ki, hərbi quruculuğun və onun tərkib hissəsi olan ordu quruculuğunun aparılmasının səmərəliliyi dövlətin bu istiqamətdə izlədiyi və ya malik olduğu müvafiq siyasətin məzmunundan birbaşa asılıdır. Azərbaycanın müstəqilliyinin elə ilk illərinin də təcrübəsi göstərdi ki, ordu quruculuğu sahəsində dövlətin yeritdiyi siyasət, izlədiyi praktiki xətt silahlı qüvvələr quruculuğunu sürətləndirə və ya da ləngidə bilər. Çünki ordunun formalaşdırılmasının zəruri dövlət qayğısı ilə əhatə olunması, hissələrin maddi-texniki ba-

zasının möhkəmləndirilməsi üçün zəruri tədbirlər kompleksinin müəyyənləşdirilməsi, əlaqələndirilməsi, tənzimlənməsi, ölkənin müdafiəsində hansı komponentlərə ehtiyac olması və bu ehtiyacın aradan qaldırılması üçün ilk növbədə nələr edilməsi də dövlət tərəfindən müəyyənləşdirilməlidir. Başqa sözlə deyilsə, ölkə daxilində mövcud olan potensialın üzə çıxarılması, reallaşdırılması, əlaqələndirilməsi, maddi qüvvəyə çevrilməsi və ölkənin müdafiəsinə istiqamətləndirilməsi dövlətin müstəsna səlahiyyətinə aiddir. Ona görə də bu sahə dövlətin siyasi və təşkilatçılıq fəaliyyətinin başlıca, mürəkkəb və eyni zamanda, çox məsuliyyətli sahələrindən biridir. İçərisindən didilən, daxili rəqabətlərə məruz qalan, fəaliyyətini elmi və təcrübi əsaslar üzərində qura bilməyən dövlət belə mürəkkəb bir sahədə səmərəli nəticələr əldə edə bilməzdi. Respublika Prezidenti Heydər Əliyev də müraciətində bu cəhəti vurğulayırdı və Qarabağ probleminin ortaya atıldığı gündən Azərbaycan rəhbərləri tərəfindən xalqın mənafelərinə cavab verən strateji xətt tutulmadığını, çevik taktika işlədilmədiyini ictimaiyyətin diqqətinə çatdırırdı: «Uğursuzluqlar, məğlubiyyətlər beş ildən artıq müddətdə Azərbaycanda gedən proseslərin nəticəsidir. Ermənistan tərəfindən, erməni silahlı qüvvələri tərəfindən Azərbaycana təcavüzlər 1988-ci ilin fevralından etibarən başlanmışdır. Altı ilə yaxındır ki, biz bu vəziyyətdəyik. Təəssüf ki, bu müddətdə Azərbaycan Respublikasını idarə edən şəxslər, onun ərazi bütövlüyünü təmin etmək üçün lazımi tədbirlər görməmiş, nəticədə təcavüzkar qüvvələr dalbadal irəliləmiş, respublikamızın mövqeləri itirilmiş və bütün bunlar indi bizi bu faciəli vəziyyətə gətirib çıxarmışdır».

Heydər Əliyev Azərbaycanın müstəqilliyinin qazanılmasından sonra bu sahəyə lazımi diqqət ayrılmamasını dözülməz hal kimi dəyərləndirirdi. Onun fikrincə, əgər SSRİ tərkibində

olarkən Azərbaycanın hüquqlarının qorunmasında təbii maneələr mövcud idisə, respublikanın müstəqilliyinin bərpasından sonra dövlət rəhbərliyinin daha yaxşı imkanları var idi. Müstəqilliyin respublikaya verdiyi obyektiv imkanlardan isə səmərəli istifadə edilməməsi, qoşun hissələrinin formalaşdırılmaması Azərbaycanın müstəqilliyinin qorunmasını və ərazi bütövlüyünün müdafiəsini ciddi təhlükə altında qoydu. Müstəqilliyin arxada qalan illərini respublika Prezidenti müdafiə qüvvələrinin təşkil edilməməsi baxımından əldən verilmiş fürsət kimi qiymətləndirirdi. Heydər Əliyev ordu ilə dövlət rəhbərliyi arasında məqsədyönlü əlaqələrin olmadığını, qoşun hissələrinin fəaliyyətinin dağınıqlığını, bütünlükdə isə hərbi əməliyyatların aparılması üçün dövlətin strateji xəttinin olmadığını və hərbi hissələrin apardıqları döyüşlərin də müəyyən bir strateji proqramdan irəli gəlmədiyini vurğulayırdı. Respublika Prezidentinin xalq qarşısında etdiyi geniş təhlil göstərirdi ki, müdafiə qüvvələrinin kifayət qədər zəifləməsinin səbəblərindən biri də Müdafiə Nazirliyinin fəaliyyətində, ordu hissələrinin təşkilində, hərbi əməliyyatların aparılmasında bir sistemliliyin olmaması son nəhayətdə ağır nəticələrə gətirib çıxarmışdı. Hərbi quruculuq sahəsində görülən işlərin dövlətin hərbi ehtiyaclarına cavab verməməsi ağır nəticələrə gətirib çıxarmışdı. Heydər Əliyev bununla Müdafiə Nazirliyinin fəaliyyətinin elmi-təcrübi əsaslar üzərində qurulmamasına və ordu hissələrinin döyüş fəaliyyətinin gözlənilən nəticələr verməməsinə işarə edirdi. Ordu quruculuğunun əsaslandırılmış elmi təcrübədən uzaq düşməsinin nəticəsində Azərbaycanda hərbi hissələrin yaradılmasında bir pərakəndəlik var idi, eksperimental strukturlar tətbiq edilirdi, müxtəlif şəxslərin istəyinə və maraqlarına uyğun olan hissə və bölmələr yaradılır və belə strukturlara da hərb işindən uzaq olan adamlar təyin edilirdilər. Belə hissələr və bölmələr isə Azərbay-

canın dövlət maraqlarını yox, ayrı-ayrı qrup və şəxslərin maraqlarını qoruyurdular.

Heydər Əliyevin fikrincə, respublikada hərbi şəraitin mürəkkəbləşməsində Müdafiə Nazirliyinin fəaliyyətinin düzgün qurulmamasının da təsiri böyük idi və o bu Nazirliyin işində yol verilən nöqsanları xalqa qarşı xəyanət kimi xarakterizə edirdi. Dövlət rəhbəri öz müraciətində belə xəyanətlərə yol vermiş şəxslərə qarşı barışmaz mövqe tutduğunu bildirir və əlavə edirdi ki, Silahlı Qüvvələrin strukturunda cinayətkar hərəkətlər etmiş şəxslərə qarşı lazımi tədbirlər görülməsi barədə hüquq-inzibati orqanlarının rəhbərliyinə müvafiq sərəncamlar vermişdir.

Müdafiə qüvvələrinə strateji rəhbərlikdə mövcud olan belə nöqsanların aradan qaldırılması üçün son günlərdə və anlarda görülən işlər barədə də Heydər Əliyev öz müraciətində məlumat verirdi. Toxunulan məsələlər yenicə yaradılmış olan Dövlət Müdafiə Şurasında müzakirə edilmişdi. Müdafiə qüvvələrinə dövlət rəhbərliyinin nizama salınması üçün elə 1993-cü il noyabr ayının 2-də hərbi işlər üzrə dövlət müşaviri vəzifəsi təsis edildi.

Müdafiə Nazirliyinin fəaliyyəti dövlət rəhbərliyində narahatlıq yaratdığından onun işinin yenidən qurulmasına ciddi diqqət yetirilirdi. Respublika Prezidenti qeyd edirdi ki, Müdafiə Nazirliyinin rəhbərliyinə yeni kadrların gətirilməsi bu orqanın fəaliyyətinin sağlamlaşdırılması üçün həyata keçirilən tədbirlərdən biridir.

Heydər Əliyevin xalqa müraciətində qeyd olunurdu ki, Dövlət Müdafiə Şurasında müzakirə olunan məsələlərdən biri də cəbhə bölgələrində yerləşən hərbi hissələrin tabe olduğu Cəbhə Səhra İdarəsinin fəaliyyətinin vəziyyəti idi. Silahlı Qüvvələrin tərkibində belə bir strukturun yaradılması 1993-cü ilin iyul ayına təsadüf edirdi. Çünki ordu korpusları ləğv ediləndən sonra hərbi hissələrə rəhbərlik qərargahı Gəncədə yerləşən Cəbhə Səhra

İdarəsinə həvalə olunmuşdu. Ancaq bu yeni idarəetmə forması qoşun hissələrinin döyüşkənliyinə, onların hazırlıq səviyyəsinin yüksəldilməsinə bir yenilik gətirmədi. Əslində, həmin idarəetmə forması sınaqdan çıxmış təcrübəyə əsaslanmırdı. Bir neçə aylıq təcrübə də göstərdi ki, Cəbhə Səhra İdarəsi aralıq idarəetmə forması kimi müharibə dövründə hərbi hissələrə rəhbərliyin bütün tələblərinə cavab vermir. Hətta bəzi hissələr Cəbhə Səhra İdarəsinə tabe olmağın əlavə vaxt itkisinə və bürokratiyanın artmasına səbəb olduğundan birbaşa Müdafiə Nazirliyinə müraciət etməyə üstünlük verirdilər. Bəzi hissələri isə heç Cəbhə Səhra İdarəsinin tabeliyinə gətirmək mümkün olmadı və bunun nəticəsi kimi həmin hissələrdə döyüş hazırlığı, təlim-tərbiyə prosesi də nəzarətdən kənarda qaldı.

Fəaliyyətindəki belə nöqsanlara görə Cəbhə Səhra İdarəsi Heydər Əliyevin xalqa müraciətindən bir neçə gün sonra ləğv edildi. Müraciətdə güc nazirliklərini özünə tabe etdirilməsinə nail olan Nazirlər Kabinetinin rəhbərliyinin müdafiə məsələlərinin təşkili, qoşun hissələrinin formalaşdırılması sahəsindəki fəaliyyətinə də toxunulur və bu istiqamətdə ciddi nöqsanların olduğunu qeyd edirdi. Dövlət rəhbərinin qənaətinə görə, Nazirlər Kabineti bütünlükdə müdafiə sahəsində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirə bilməmişdi. Bununla əlaqədar, Dövlət Müdafiə Şurasının iclasında bu strukturun rəhbərlərinə də xəbərdarlıq edilmişdi.

İstər Nazirlər Kabinetinin müdafiə məsələlərinin həlli sahəsində yol verdiyi nöqsanlar, istərsə də Müdafiə Nazirliyinin fəaliyyətindəki nöqsanlar sözsüz ki, hərbi hissələrin fəaliyyətinə də öz təsirini göstərirdi. Bunun məntiqi nəticəsi idi ki, hərbi hissələrin fəaliyyətində də bütün ictimaiyyətin təşvişinə səbəb olan nöqsanlar özünü göstərməyə başladı. Dövlət rəhbəri müraciətində

bir sıra nöqsanların təhlilini verir və onların aradan qaldırılması üçün öz fikir və mülahizələrini açıqlayırdı.

Heydər Əliyev xüsusilə ordu hissələrində nizam və intizamın xeyli aşağı olduğunu qeyd edirdi. Ölkə Prezidenti müraciətində İran sərhədi boyunca yerləşən hərbi hissələrin şəxsi heyəti arasında baş verən konkret intizamsızlıqlara da toxunurdu.

1993-cü il noyabr ayının 2-7-də İran sərhədi boyunca yerləşmiş hərbi hissələrin vəziyyətini yoxlayan Müdafiə Nazirliyinin səlahiyyətli komissiyası da Heydər Əliyevin xalqa müraciətində toxunduğu nöqsanların mövcudluğunu təsdiq etdi. Komissiyanın yoxlamalarından sonra Müdafiə nazirinin adına təqdim edilən arayış-raportda göstərilirdi ki, İran sərhədi boyunca yerləşən hərbi hissələrdə intizamsızlıqlar böhran həddinə çatmışdır, fərarilik kütləvi hal almışdır, şəxsi heyətin qeydiyyatında heç bir nizam gözlənilmir. Yoxlama günlərində hərbi hissələrdən birində şəxsi heyətin yalnız 20 faizi var idi. Qalanlarının harada olmasından kimsənin xəbəri yox idi. Bəzi hərbi hissələrdə də xidmətdə olmayan hərbi qulluqçuların sayı çox idi. Hissəni tərk edib gedənlərin çoxu isə silahlarını da özləri ilə aparmışdılar.

Arayış-raportda nizam və intizamın möhkəmləndirilməsi sahəsində komandir və zabitlərin fəaliyyətinin də qeyri-qənaətbəxş olması qeyd edilirdi. Onların bir çoxunun qətiyyətsizliyi, ardıcıllıq göstərə bilməməsi şəxsi heyətin əhval-ruhiyyəsinə də ciddi təsir göstərirdi. Komissiyanın qənaətinə görə, bu da ondan irəli gəlirdi ki, orduya təsadüfi düşmüş kadrlar çox idi.

Heydər Əliyev xalqa müraciətində Azərbaycan Ordusunun dözülməz vəziyyətinə düşməsini konkret faktlarla göstərirdi, belə bir vəziyyətin milli və dövlət maraqlarına cavab vermədiyini vurğulayırdı. O, eyni zamanda, vətənpərvərlik duyğuları ilə orduya gəlmiş, cəsarət və qəhrəmanlıq nümunəsi olmaqla ağır sınaqlarla

üzləşən xalqın ləyaqətli nümayəndələrinin xidmətlərini, hünər və cəsarətini düzgün istiqamətləndirməyi bacarmayan bacarıqsız, şəxsi və qrup maraqlarını izləyən və bununla da orduda layiqincə xidmət edənlərin də zəhmətini heçə endirən kadrları ittihamlandırırdı. Heydər Əliyev öz çıxışlarında Azərbaycanın müstəqilliyinin qorunması yolunda silaha sarılan Azərbaycan oğullarının, Azərbaycan xalqının mübarizliyini və sədaqətini dəfələrlə minnətdarlıqla qeyd etmişdi və öz xilaskarlıq mübarizəsində də elə başlıca olaraq xalqa arxalanırdı. Amma eyni zamanda təəssüflə qeyd edirdi ki, xalqın etimadından sui-istifadə edənlər Azərbaycanda ciddi siyasi gərginlik yaratmaqla bərabər, Azərbaycan Ordusunu da ciddi böhranla üzbəüz qoymuşdular.

Dövlət rəhbəri ordunu, müdafiə qüvvələrini böhranlı vəziyyətə salmış olan bəzi halların, konkret problemlərin üzərində dayanıb onlara öz münasibətini bildirirdi. Bu problemlərdən biri də orduya çağırış və səfərbərlik işinin təşkili vəziyyəti idi.

Azərbaycanı mürəkkəb vəziyyətə gətirən səbəblərdən danışanda Heydər Əliyev cəmiyyətdəki qeyri-sabitliyə də toxunur, bu vəziyyəti geniş təhlil edir və bu vəziyyətin ölkənin müdafiə qüvvələrinin parçalanmasına göstərdiyi mənfi təsiri də ictimaiyyətin diqqətinə çatdırırdı. Onun fikrincə, xalqın arasında birliyin olmaması, ictimai-siyasi sabitliyin pozulması, siyasi qüvvələrin hakimiyyət uğrunda çarpışmaları Azərbaycan Respublikasını hər cəhətdən ağır vəziyyətə salmışdı.

Dövlət rəhbəri xalqa müraciətində təəssüflə qeyd edirdi ki, tarixin çox mühüm mərhələsində respublikanın bir sıra siyasi qüvvələri boyunlarına düşən məsuliyyəti lazımınca qiymətləndirə bilmədiklərindən ölkədəki böhranın günü-gündən dərinləşməsinə şərait yaratmışdılar. Hətta Dağlıq Qarabağ ətrafında düyünlənən münaqişə də belə qüvvələri nəinki milli maraqlar ət-

rafında birləşdirə bilmədi, əksinə belə qüvvələr Dağlıq Qarabağ münaqişəsindən respublika daxilində aparılan hakimiyyət mübarizəsində istifadə edirdilər. Çox mürəkkəb şəraitdə Azərbaycanın vəziyyəti, xalqın ümumi aqibəti unudularaq hakimiyyət davası ön plana çəkilmişdi: «Təəssüf ki, bütün bu dövrdə Dağlıq Qarabağ məsələsindən Azərbaycanda bir çox qruplar tərəfindən hakimiyyət uğrunda mübarizə üçün istifadə edilmişdir. Ayrı-ayrı qüvvələr, siyasi qruplar, ayrı-ayrı şəxslər Azərbaycanın bu faciəli vəziyyətində biri o birinə üstün gəlib, üstün gəlməyə cəhd göstərib, biri digərini yıxaraq onun yerinə keçmək istəmişdir. Belə bir şəraitdə Azərbaycanın aqibəti, xalqımızın ümumi vəziyyəti unudulub. Müxalifət qüvvələrindən hər biri baş verən proseslərdən istifadə edərək hakimiyyətə gəlmək istəmişdir. 1992-ci ildə hakimiyyətə gələn qüvvələr də elə Qarabağ problemindən istifadə etmişlər».

Heydər Əliyevin fikrincə, istər dövlətə rəhbərlik edənlər, istərsə də hakimiyyətə gələnlər ötən illərin acı təcrübəsindən düzgün nəticə çıxara bilməmişdilər. Ona görə də siyasi qüvvələrin mübarizəsi dövlətin və dövlətçiliyin möhkəmlənməsini deyil, ölkənin daxili qüvvələrinin parçalanmasını şərtləndirdi. Bu isə müdafiə qüvvələrini xeyli zəiflətdi və erməni silahlı birləşmələrinin uğurlu hücumu üçün əlverişli şərait yaratdı.

Heydər Əliyev son günlər İran sərhədi boyunca yerləşən məntəqələrin ələ keçirilməsi ilə ilin əvvəlində ölkədə ictimai-siyasi və hərbi böhranın dərinləşməsi arasında məntiqi bir bağlılıq olduğunu açıqlayırdı. Çünki hakimiyyət uğrunda ən ifrat vasitələrdən istifadə edən qüvvələr növbəti dəfə respublikanı hara sürüklədiklərini lazımınca qiymətləndirə bilmədilər. Bu isə tezliklə öz nəticəsini göstərməyə başladı.

Heydər Əliyev daha sonra Gəncə və Lənkəran ətrafında baş verən hadisələrə toxunaraq onların Azərbaycana gətirdiyi faciələ-

rin miqyasını xalqa çatdırdı. Dövlət rəhbərinin bu barədə söylədiyi fikirlərin məntiqi nəticəsi belə idi ki, hakimiyyətin zəifləməsi, ictimai-siyasi qüvvələrin strateji məqsədlər ətrafında birləşə bilməməsi, sabitliyin aradan qaldırılması müdafiə qüvvələrinin, o cümlədən də ordunun dərin böhranına yol açdı. Müraciətdə vurğulanırdı ki, Gəncə və Lənkəran hadisələri, milli-etnik zəmində törədilməyə cəhd göstərilən digər hadisələr də ilk növbədə məhz müdafiə qüvvələrini parçaladı. Ölkənin müdafiəsini təmin etməli olan ordu hissələri qarşı-qarşıya qoyuldu və vətəndaş müharibəsi təhlükəsi meydana gəldi.

Həqiqətdə isə ordu cəmiyyətdən təcrid edilmiş qurum deyil, cəmiyyətin tərkib hissəsidir və ona görə də cəmiyyətdə hakimiyyət uğrunda mübarizə, siyasi qüvvələr arasında qarşıdurma kəskinləşdikcə, xaos və anlaşılmazlıq artdıqca orduda da daxili ab-hava mürəkkəbləşdi. Cəmiyyətdə baş verənlər orduda da əks-səda verdi. Məlum idi ki, ölkə daxilində ictimai sabitliyə nail olmadan orduda da tələb olunan nizam-intizamın əldə edilməsi mümkün deyildi.

İstər dünya hərb tarixinin təcrübəsi, istərsə də müstəqilliyin ilk illərində Azərbaycanda baş verən proseslərin təcrübəsi də göstərdi ki, müharibənin gedişi və başa çatdırılması ölkə daxilindəki ictimai-siyasi sabitlikdən birbaşa asılıdır. Cəmiyyətin daxilində ictimai-siyasi sabitlik və yekdillik olmasa, bütün cəmiyyət vahid məqsədlər ətrafında birləşə bilməsə, onda istər ordu quruculuğunda, istərsə də cəmiyyətin müharibənin aparılmasına səfərbər edilməsində ciddi nəticələr əldə edilə bilməz. Heydər Əliyevin xalqa müraciətində söylədiyi mülahizələr də bu təcrübəyə dayaqlanırdı: «Son aylarda cəbhə bölgələrindəki uğursuzluqlar, bəzi rayonların erməni silahlı qüvvələri tərəfindən işğal olunması bu böhran proseslərinin, daxildəki çəkişmələrin,

toqquşmaların, rəqabətin nəticəsində baş vermiş böhranın məntiqi yekunudur».

Heydər Əliyev onu da əlavə edirdi ki, cəmiyyətə sonsuz bəlalar gətirmiş olan bu parçalanma, bu siyasi qarşıdurma hələ də davam etməkdədir. Dövlət rəhbəri son aylar ərzində İran sərhədi boyunca baş verən hərbi uğursuzluqların başlıca səbəblərindən birini də siyasi qüvvələrin hakimiyyət uğrunda mübarizədə ən ifrat vasitələrə əl atması, cəbhə bölgələrində təxribatlar törətməsi ilə bağlayırdı. Respublika Prezidenti xüsusi olaraq vurğulayırdı ki, hərbi hissələrdə intizamsızlıqların baş alıb getməsində, əsgər və zabitlərin öz mövqelərini özbaşına tərk etməsində orduda olan siyasi təxribat işlərinin təsiri az deyildi.

Heydər Əliyevin fikrincə, respublikada daxili sabitliyi pozmaq, öz məqsədlərinə çatmaq üçün hər bir vasitəyə əl atmaq istəyən qüvvələr çox idi. Ancaq onlardan xüsusilə Xalq Cəbhəsinə məxsus olan qüvvələrin fəaliyyəti daha çox təşviş və təəssüf doğururdu. Həmin qüvvələr təxribatla məşğul olur, cəbhəyanı rayonlara gedib əhalini yalandan qorxudaraq geri çəkilməyə məcbur edir, rayonların işğal olunmasına şərait yaradırdılar.

Respublikanın mətbuat orqanlarının verdiyi məlumatlarda da göstərilirdi ki, cənub bölgələrində hərbi şərait mürəkkəbləşdiyi vaxtlarda AXC-nin fəalları Saatlı və Beyləqan rayonlarında gizli yığıncaqlar keçirmiş, ətraf rayonların əhalisi arasında şayiələr yaymaq, yerli hakimiyyəti ələ keçirmək və bunun nəticəsində bölgədəki rayonları düşmənə təslim etmək məsələlərini müzakirə etmişdilər.

Heydər Əliyev öz müraciətində belə bir məlumata istinad edirdi ki, son günlər Xalq Cəbhəsinin bəzi dəstələri, bəzi təşkilatlar silahlı üsyan qaldırmaq məqsədilə yerlərdə silah paylayırlar. Bununla da onlar yenidən hakimiyyətə gəlmək istəyirlər. Heydər

Əliyev belə əməllərə qurşanan adamlara və qurumlara müraciətlə bildirirdi ki, hakimiyyət sizdə idi və əgər onu saxlaya bilmədinizsə, vəzifənizi qoyub qaçdınızsa, geri çəkildinizsə, yenidən hakimiyyət uğrunda təxribata əl atmağın məqsədi nədir?

AXC ilə təmsil olunan iqtidar öz siyasətini düzgün qura bilmədiyi üçün ölkənin müdafiəsi kimi məsul bir işin öhdəsindən gələ bilməməsi heç də təəccüblü deyildi. Dövlətçiliyin digər sahələrində də vəziyyətin mürəkkəbləşməsi respublikanı ciddi böhrana gətirib çıxarmışdı. Ona görə də Heydər Əliyev israr edirdi ki, əslində, özləri-özlərini hakimiyyətdən məhrum etməyə məcbur olmuş qüvvələr respublikadakı vəziyyəti gərginləşdirməklə deyil, Azərbaycanın ərazi bütövlüyünü qorumaqla məşğul olmalıdırlar.

Heydər Əliyev müraciətində bütün xalqı, dünyabaxışından asılı olmayaraq bütün siyasi qüvvələri yaranmış olan vəziyyəti reallıqla qiymətləndirməyə, əl-ələ verərək Azərbaycanı ağır vəziyyətdən çıxarmağa çağırırdı. Dövlət rəhbərinin qənaəti belə idi ki, qarşılarına qoyduqları məqsəddən asılı olmayaraq respublikanın işğal olunmuş ərazilərinin azad edilməsi, ərazi bütövlüyünün təmin edilməsi bütün siyasi qüvvələri birləşdirən ümumi vəzifə olmalıdır: «Mən Prezident kimi Azərbaycan Respublikasında dünyabaxışından asılı olmayaraq bütün qüvvələri əl-ələ verib Azərbaycanı bu ağır vəziyyətdən çıxarmağa dəvət edirəm. Ola bilsin ki, kiminsə kimdən xoşu gəlmir, birinin bu cür, başqasının ayrı cür dünyagörüşü var – bunlar kənara qoyulmalıdır. Ola bilər ki, tarixi biri bir cür, başqası ayrı cür təhlil etsin – bunlara son qoyulmalıdır. İndi Azərbaycan üçün bir amal, bir məqsəd var. Azərbaycanı bu ağır vəziyyətdən xilas etmək, onun ərazi bütövlüyünü, müdafiəsini təşkil etmək».

İctimai-siyasi birliyi, cəmiyyətin ümumi yekdilliyini təmin etmək zərurəti Heydər Əliyevin müraciətində qabarıq şəkildə ifa-

də olunmuşdu. Konkret zaman kəsiyində respublikanın ictimaiyyəti və dövlət orqanları qarşısında ən aktual vəzifə kimi dayanan bu məsələnin reallaşdırılması üçün Heydər Əliyev təkcə siyasi qüvvələri deyil, hər bir şəxsi vətəndaşlıq mövqeyi nümayiş etdirməyə çağırırdı. Onun fikrincə, heç kim bu işdən kənarda qalmamalı, imkanları daxilində vahid məqsədə xidmət etməyə çalışmalıdır. Respublika Prezidenti xüsusi olaraq vurğulayırdı ki, “indi hamımız üçün bir böyük məfhum var: Azərbaycan Respublikası, Azərbaycan xalqı. Bu məfhumun ətrafında hamı sıx birləşməlidir».

Heydər Əliyev müraciətində «Azərbaycan məfhumu» ətrafında birləşməyin vacibliyini ictimaiyyətə çatdırmaqla bərabər, bu məsələ barədə respublika rəhbərliyinin, dövlət orqanlarının qətiyyətli mövqe tutacağını da vurğulayırdı. Əslində, bu istiqamətdə keyfiyyət dəyişikliyinin meydana gəlməsini də yalnız dövlətin düzgün formalaşdırdığı və həyata keçirdiyi siyasi xətlə əldə etmək olardı. Ona görə respublika Prezidenti siyasi niyyətləri naminə təxribatlara əl atan, ictimai-siyasi sabitliyi pozmağa çalışan qüvvələrə xəbərdarlıq edərək onları öz əməllərindən çəkindirməyə çağırır və belə halların qarşısının alınması üçün ən ciddi tədbirlərə əl atılacağını bildirirdi.

Heydər Əliyev öz müraciətində bildirirdi ki, Xalq Cəbhəsinin, digər siyasi qüvvələrin və qrupların mövqelərini müdafiə edən hissələr, bölmələr mövcud idi. Bu hissə və bölmələr torpaqların müdafiəsi sahəsində səmərəli fəaliyyət göstərə bilmədikləri üçün onlar artıq ləğv edilmişlər.

Heydər Əliyev sonra çıxışlarının birində qeyd edirdi ki, sıralarında 400-500 adam əvəzinə cəmi 15-18 nəfər olan 8 belə tabor ləğv edilmişdir. Bu hissələrin fəaliyyətinə toxunmadan onların sıralarındakı döyüşçülərin sayının belə az olmasının heç də təsadüf olmadığını ölkə başçısı onunla izah edirdi ki, taborların ko-

mandirlərinin çoxu hissədə az adam saxlamaqla tam ştat heyəti üçün ərzaq və maliyyə vəsaitlərini alıb mənimsəyirdilər. Döyüşçülərin çoxunu isə rüşvət alıb evə buraxırdılar. Bununla da həm dövlətin əmlakı dağıdılır, rüşvətxorluğa imkan yaradılır, həm də hissələr iflic vəziyyətinə salınırdı.

Respublika Prezidenti qətiyyətlə bildirirdi ki, siyasi qüvvələr öz iddialarını həyata keçirmək üçün silahlı qurumlar yaratmaq təcrübəsinə ciddi şəkildə son qoymalıdırlar. Ona görə də Heydər Əliyev qeyd edirdi ki, respublikanın ərazi bütövlüyü uğrunda vuruşmaq istəyənlər Müdafiə Nazirliyinin strukturlarında birləşməli və hərbin tələbləri çərçivəsində fəaliyyət göstərməlidirlər: «Kim istəyirsə bizim müdafiə qüvvələrimiz möhkəmlənsin, hamı bir mərkəzdə - Müdafiə Nazirliyində, ordumuzda cəmlənməlidir. Kim orduda qulluq etmək istəyirsə, gəlib qulluq etsin».

Cəmiyyətdə ictimai-siyasi sabitliyin bərqərar olması xalqın müharibənin uğurla aparılmasına səfərbər edilməsində, onun mənəvi-psixoloji əhval-ruhiyyəsinin bütövləşməsində və mübarizləşməsində ciddi dəyişikliklərin yaranması üçün dönüş nöqtəsi ola bilərdi. İctimai hadisələr içərisində heç bir hadisə insan psixikasını, mənəviyyatını müharibə kimi sınağa çəkərək ona hərtərəfli təsir göstərmir. Müharibə şəraitində xalqın mənəvi əhval-ruhiyyəsini möhkəmləndirmək, adamların sabahkı günə, uzun sürən müharibənin qələbə ilə başa çatacağına inamı artırmaq, onları ümumxalq və ümumdövlət mənafeləri məsələlərinin həllinə səfərbər etmək Heydər Əliyevin müraciətində də başlıca istiqamətlərdən biri idi. Həmin müraciətdə hərbi quruculuğun bu mühüm sahəsi ətraflı təhlil edilmiş, baş vermiş hərbi uğursuzluqlarda mənəvi amilin aşağı səviyyədə olması açıqlanmışdır.

Respublika Prezidenti öz müraciətində mənəvi amilin zəifləməsinin başlıca səbəblərindən birini dövlət orqanlarının bu isti-

qamətdə öz işlərini düzgün qura bilməməsi ilə bağlayırdı. Cəmiyyətdə «çox şeyin pozulduğu» kimi mənəvi-psixoloji əhval-ruhiyyə də öz mübarizliyini itirmişdi. Heydər Əliyevin fikrincə, «son illərdə gedən proseslər insanların bir çoxunun mənəviyyatını pozmuş, onların bəzilərində vətənpərvərlik hissini tamamilə kütləşdirmişdir. Vətəni qorumaq, torpağa bağlı olmaq hissini, «ölsəm də torpağımda şəhid olum» hissini çoxları itirmişdir. Bu onların günahı deyil, onlara rəhbərlik edən adamların günahıdır».

Heydər Əliyev haqlı olaraq qeyd edirdi ki, cəmiyyətdə mövcud olan dərin mənəvi parçalanma, mənəvi əhval-ruhiyyənin zəifləməsi neçə illər boyu respublikada davam edən proseslərin məntiqi nəticəsidir. Mövcud olan nöqsanların, çatışmazlıqların, pozğunluqların, cinayətkarların qarşısı nəinki alınmamış, əksinə dövlət strukturlarının bir çoxlarının bu yola düşməsi ictimaiyyətdəki ümidsizlikləri daha da artırmış, haqq və ədalətə inamı zəiflətmişdi. Nəticədə də mənəvi keyfiyyətləri ilə həmişə öyünən bir xalq çox mürəkkəb vəziyyətə düşmüşdü: «Bütün bu proseslər, bir neçə il ərzində yığılmış bu günahlar, nöqsanlar, çatışmazlıqlar, ayrı-ayrı yerlərdə mənəvi pozğunluğun, cinayətkarlığın artması, cinayətkar ünsürlərin üstün mövqe tutması – bunların hamısı bütövlükdə qəhrəman, mərd, mətanətli, cəsarətli Azərbaycan xalqını belə ağır, çətin vəziyyətə salmışdır».

İctimai-siyasi sabitliyi pozmağa, xalqın mübariz əzmini qırmağa çalışan qüvvələrin əsas zərbə hədəflərindən biri də ordu idi. Burada toplaşmış təxribatçı qüvvələr bir sıra məqsədlər izləyirdilər və xalqa zidd fəaliyyətləri ilə son nəhayətdə ordunun möhkəmləndirilməsi əleyhinə çıxırdılar. Belə qüvvələr nəzarət altında saxladıqları ordu bölmələrini izlədikləri məqsədin icrasına istiqamətləndirirdilər və sözsüz ki, belə vəziyyət həmin bölmələrdə mənəvi amilin zəifləməsinə, çox vaxt isə xəyanətkar-

lığa çevrilməsinə şərait yaradırdı. Həmin qüvvələr üçün Vətən, torpaq təəssübü mafioz istəklər və məqsədlərlə əvəz olunmuşdu. Respublika Prezidenti Heydər Əliyev bu cəhəti siyasi və ictimai qurumların fəallarının diqqətinə çatdırır və ordunun möhkəmləndirilməsi üçün həmin əməllərə və əqidəyə xidmət edən qüvvələri zəkaya, ictimai-faydalı əməyə dəvət edirdi.

Qanunsuzluğun hökm sürdüyü bölmədə və hissədə əsgər və zabitlərin əksəriyyətinin mənəviyyatını da sözsüz ki, qanunsuzluqlar üzərində formalaşan iradəsizlik, eqoizm, qorxaqlıq, yaltaqlıq, xəyanət, zülm, satqınlıq və s. keyfiyyətlər müəyyənləşdirməli idi. Heydər Əliyev müraciətində 1993-cü ildə ordunun bir neçə yerə parçalandığını, Gəncədə və Lənkəranda hökumətə tabe olmayan hissələrin meydana çıxdığını, cəbhədə siyasi və mafioz qüvvələrə xidmət edən bölmələrin mövcud olduğunu qeyd edirdi. Dövlət rəhbərinin fikirlərinin məntiqi nəticəsi bir daha belə bir həqiqəti nümayiş etdirirdi ki, bütün fəaliyyəti qanunsuzluqlara istiqamətlənən şəxslərdən və onların rəhbərlik etdiyi hissə və bölmələrin şəxsi heyətindən yüksək mənəvi keyfiyyətlər də gözləmək əbəs idi.

Heydər Əliyev xalqa müraciətində mənəvi amilin möhkəmləndirilməsi məsələsinə xalqın itirilmiş inamının geri qaytarılması, onun gücünün bərpa edilməsi kimi baxır və müharibə dövründə bu problemin xüsusi aktuallıq kəsb etdiyini bildirirdi. Bütün sahələrdə olduğu kimi, mənəvi sahədə də buraxılan nöqsanların acı nəticələrə gətirib çıxardığını açıqlamaqla Heydər Əliyev vəziyyətin heç də çıxılmaz olduğunu iddia etmirdi. Dövlət rəhbəri hələ heç də hər şeyin itirildiyi ilə razılaşmırdı və yaranmış vəziyyətdən çıxmaq üçün Azərbaycan xalqının qüdrəti və imkanları olduğunu dönə-dönə vurğulayırdı: «Bu vəziyyətdən çıxmaq üçün Azərbaycan xalqının qüdrəti və imkanları var. Lakin bundan ötrü gərək

xalq bir məqsədə xidmət etsin. Torpağımızı, Azərbaycanın ərazi bütövlüyünü qorumaq, onun suverenliyini, müstəqilliyini qorumaq hər bir vətəndaş üçün, hər bir azərbaycanlı üçün ən ümdə, ən ülvi, ən başlıca vəzifə olmalıdır. Qalan hisslər, duyğular, qalan cəhdlər hamısı bir kənara qoyulmalıdır».

Azərbaycanın ərazi bütövlüyü uğrunda birləşməyi, Azərbaycanın müstəqilliyinin və suverenliyinin müdafiəsi uğrunda səfərbər olunmağı Heydər Əliyev mənəvi-psixoloji əhval-ruhiyyənin formalaşması üçün də istinad nöqtəsi kimi qəbul edirdi. Respublika rəhbəri Azərbaycan xalqının tarixi keçmişini xatırlayaraq ən çətin vəziyyətlərdə mənəvi bütövlüyün yenidən formalaşacağına, tarixi igidlik ənənələrinin çiçəklənəcəyinə inamını ifadə edirdi: «Bəli, Azərbaycan xalqı qəhrəman xalqdır. Onun tarixində igidlik ənənələri həmişə güclü olmuşdur. Xalqımız öz qəhrəmanları ilə daim fəxr etmişlər. Azərbaycan xalqının qüdrəti bu gün də itməmişdir».

Bunun üçün də Heydər Əliyev qeyd edirdi ki, Müdafiə Nazirliyində bir sıra dəyişikliklər edilsə də, ordunun möhkəmləndirilməsi üçün təkcə bu kifayət deyildir. Müdafiə qüvvələrinin möhkəmləndirilməsi üçün bütün cəmiyyət miqyasında mənəvi-psixoloji vəziyyət dəyişməli, cəmiyyət özü döyüşən əhval-ruhiyyəyə köklənməlidir. Müharibənin tələbləri ölkənin bütün potensialını bir məqsədə səfərbər etməlidir. Cəmiyyətdə müvafiq dəyişikliklər yaransa, bütün orqanlar, ictimai-siyasi qurumlar, bütün xalq müharibənin tələbləri ilə yaşasa, qarşıya qoyulan müqəddəs məqsədlərə çatmaq da asan olacaqdır.

Heydər Əliyev ordu quruculuğunun aparılmasının qanunlarından biri olan mənəvi-ideoloji məsələlərin uğurlu həlli üçün konkret şəraitdən doğan bir sıra vacib və zəruri təklifləri irəli sürərək bu sahədə istər dövlətin, istərsə də cəmiyyətin hər bir

üzvünün qarşısında dayanan vəzifələri müfəssəl şərh edirdi. Cəmiyyətdə yeni mənəvi-psixoloji atmosferin formalaşdırılması üçün hər bir şəxsin vətəndaşlıq borclarına toxunmaqla bərabər, o, ölkə miqyasında müəyyən tədbirlərin həyata keçirilməsi barədə məsələlər qaldırdığını bildirirdi.

Heydər Əliyev yaranmış vəziyyətin tezliklə aradan qaldırılması üçün ilk növbədə xalqa müraciət edirdi, xalqı səfərbər olmağa çağırırdı. Respublika Prezidenti qeyd edirdi ki, Azərbaycanın gələcək taleyi, onun mövcud olub, olmayacağı Azərbaycan xalqının öz əlindədir və düşmən tərəfindən işğal edilmiş Azərbaycan torpaqlarını da azərbaycanlılardan başqa kimsə azad etməyəcəkdir: «Hər bir vətəndaş, hər bir azərbaycanlı hiss etməlidir ki, indi vətəni qorumaq üçün hərə öz payını verməlidir, hərə öz yerini tapmalıdır. İndi hər kəs müsəlləh əsgər olmalıdır. Bundan artıq vəzifə yoxdur. Bütün qalan problemlər ikinci, üçüncü sıraya keçməlidir. Ön cərgədə, birinci növbədə bu problem durmalıdır, hamı onun ətrafında birləşməlidir».

Heydər Əliyevin fikrincə, respublikanın hər bir vətəndaşı Vətən müharibəsinin uğurla başa çatdırılması üçün faydalı bir iş görə bilərdi və bu onların vətəndaşlıq borcuna çevrilməli idi. Dövlət rəhbəri qeyd edirdi ki, kimi cəbhəyə yollanmalıdır, kimi onların və ailələrinin qayğı ilə əhatə olunmasına kömək etməlidir, kimi də döyüşçülərin mənəvi əhval-ruhiyyəsinin qaldırılması üçün öz xidmətini göstərməlidir.

Heydər Əliyev bir tarixi həqiqəti də öz müraciətində xalqa çatdırdı ki, hər bir ölkədə ədalətli müharibəni xalq aparır. Ordu da özü gücünü xalqdan alır, dövlət də öz fəaliyyətində xalqa arxalanır. Azərbaycanın apardığı ədalətli müharibənin aparıcı qüvvəsi də xalqdır və nə qədər ki, bütün xalq ayağa qalxmayıb, vahid bir məqsəd ətrafında birləşməyib onda Vətən müharibəsindən qalib çıxmaq da mümkün olmayacaqdır.

Respublika Prezidentinin qənaəti belə idi ki, xalqın son illər pisləşən sosial həyatı da onların ümumxalq mübarizəsinə səfərbər olmasına mane olmayacaqdır. Bir tərəfdən iqtisadiyyatın tənəzzülü, təsərrüfatçılığın dağılması, digər tərəfdən də minlərlə insanın öz ev-eşiyindən didərgin düşməsi bütövlükdə respublikada yaşayış vəziyyətini pisləşdirsə də, Heydər Əliyevə görə xalq yenə də özündə dözüm və təpər tapmalı, öz iradəsini nümayiş etdirməli idi. Dövlət rəhbərinin fikrincə, torpaq təəssübü, Vətən ağrıları hər şeydən üstün durmalı idi: «Azərbaycanın iqtisadiyyatında da dağıntılar çoxdur. Mən bunu dəfələrlə demişəm. Hazırda sənayemiz də, kənd təsərrüfatımız da ağır vəziyyətdədir. Bir tərəfdən torpaqlarımızın bir hissəsi işğal edilib, digər tərəfdən kənd rayonlarında lazımi işlər görülmədi, məhsul yığılmadı. Əlaqədar nazirliklər üzərinə düşən vəzifələri yerinə yetirmədilər, rayon rəhbərləri lazımi işləri görmədilər. İqtisadiyyatda da çətinliklərimiz çoxdur. Ancaq həm sənayedə, kənd təsərrüfatında, həm də adamların təchizatı sahəsində olan çətinlikləri aradan qaldırmaq mümkündür. Xalqımız dözümlü xalqdır, bu ağır vəziyyətə dözəcəkdir. Ola bilər az yesin, ola bilər nəyi isə çatışmasın, ola bilər paltarı olmasın. Lakin torpağı itirmək olmaz. Ona görə də indi bütün qüvvələr cəlb olunmalıdır ki, hamımız birləşək və hamımız Azərbaycanın müdafiəsini təmin edək, yaranmış vəziyyətdən birlikdə çıxaq».

Heydər Əliyev ifadə etdiyi fikri ilə bağlı 1941-1945-ci illər müharibəsi dövründəki vəziyyəti nümunə gətirir, həmin tarixi təcrübədən ibrət götürməyə çağırırdı. O qeyd edirdi ki, o vaxtlar yaşayış vəziyyəti çox ağır idi. Lakin bu ağırlıq insanların qəddini qırmırdı. Əksinə, hamı bir müqəddəs amal ətrafında səfərbər olunduğundan hər cürə çətinliklərə dözmək üçün qüvvə tapırdı.

Respublika Prezidenti xalqa müraciətində bütün ictimaiyyəti, ilk növbədə isə işğal olunmuş rayonların əhalisini bu ruhda

köklənməyə, praktiki fəaliyyət göstərməyə çağırırdı. Onun fikrincə, Laçının, Şuşanın, Kəlbəcərin, Ağdamın, Füzulinin, Cəbrayılın, Qubadlının, Zəngilanın hörmətli və nüfuzlu şəxsləri öz qüvvələrini toplayaraq yerli gənclərin orduya səfərbər olunmasında dövlət orqanları ilə daha yaxından əməkdaşlıq etməli, səfərbərlik işində buraxılmış nöqsanları aradan qaldırmaqda, müdafiə qüvvələrini möhkəmləndirməkdə kömək etməli idilər. Bununla bağlı, Heydər Əliyev həm işğal olunmuş rayonların, həm də digər rayonların, ictimaiyyətin ayrı-ayrı dairələrinin nümayəndələri ilə görüşməyə, onların təklif və təşəbbüsləri ilə tanış olmağa hazır olduğunu bildirirdi.

Bu fikri ilə Heydər Əliyev xalqla daim ünsiyyətdə olmağa, fəaliyyət proqramını onların təklif və istəklərinə uyğun qurmağa hazır olduğunu bildirirdi. Dövlət rəhbəri özünü də xalqın ayrılmaz bir parçası sayırdı və ən çətin məqamda da ona arxalanmağı lazım bilirdi.

Respublika Prezidenti müraciətində ictimaiyyətin təkliflərinə, konkret olaraq Əfqanıstanda döyüşmüş olan gənclərin könüllü şəkildə dəstələr düzəldib cəbhəyə yollanmaq təşəbbüsünə yüksək qiymət verir və ən yaxın vaxtlarda bu gənclərlə görüşəcəyini bildirirdi. Heydər Əliyev belə təşəbbüslərin daha çox olmasını istəyirdi. Onun fikrincə, yalnız mənəvi cəhətdən güclü və bütöv olan, vətənpərvərlik əhval-ruhiyyəsi ilə yaşayan gənclər belə təşəbbüs qaldırıb Vətən torpağının müdafiəsinə yollana bilərdilər. Heydər Əliyevə görə, belə təşəbbüslər müdafiə qüvvələrinin möhkəmlənməsinə təsir göstərməklə bərabər, Azərbaycanda milli həmrəylik və milli birliyi də təmin edə bilərdi.

Heydər Əliyev respublikada başqa əhval-ruhiyyə ilə yaşayan gənclərin olduğunu da qeyd edirdi və mənəvi cəhətdən əkslik təşkil edən belə gənclərin Azərbaycanda yaşamağa haqqı

olmadığını vurğulayırdı. Ölkə Prezidenti respublikada yaranmış vəziyyətin tələbləri ilə yaşamayan, mənəvi cəhətdən pozulmuş insanların eyş-işrətə qurşanması və yüngül həyat keçirmələri ilə barışmadığını bildirirdi. Heydər Əliyev qətiyyətlə tələb edirdi ki, belə insanlar hansı yola düşdüklərini ciddi şəkildə nəzərdən keçirməli, zamanın, dövrün tələbləri ruhunda yaşamağı bacarmalı və Azərbaycanda yaşamağa haqqı olduqlarını nümayiş etdirməlidirlər: «... Bu torpaq hamımızındır – təkcə orada yaşayan adamların, təcavüzə məruz qalanların deyil, bütün Azərbaycanın torpağıdır. Hesab edirəm ki, bizim vətəndaşlarımız, ictimai-siyasi təşkilatlarımız məni düzgün başa düşərlər. ...Ümumiyyətlə, indi Azəbaycanda hamıda Vətəni müdafiə əhval-ruhiyyəsi olmalıdır. Mən bütün vətəndaşları bu yola dəvət edirəm. Kim bu yolla gedəcəksə o, xalqını sevən, Vətəninə sədaqətli olan adamdır. Kim bizim əxlaqımıza, mənəviyyatımıza, milli ənənələrimizə zidd olan yollarla gedəcəksə, o cür həyat tərzi ilə yaşayacaqsa, onların Azərbaycanda yaşamaq hüququ yoxdur».

Ölkənin, millətin bu gününün və sabahının ümidi kimi qiymətləndirdiyi gənclərin ayrı-ayrı hissələrinin Vətənin çətin günündə müftəxor həyat tərzi seçmələrini Heydər Əliyev xalqın milli tarixi köklərindən, adət və ənənələrindən uzaq düşməsi kimi xarakterizə edir və haqlı olaraq onlara bildirirdi ki, bu torpaq, bu Vətən hamınındır, hamı da eyni əzmkarlıqla onu qorumalı, onun yolunda canından keçməyə hazır olmalıdır.

Dövlət rəhbəri respublikada, ictimaiyyət arasında mövcud olan belə vəziyyəti ümumiləşdirərək vurğulayırdı ki, müdafiə qüvvələrini möhkəmləndirmək üçün Azərbaycanda mənəvi-psixoloji vəziyyət dəyişməlidir. Heydər Əliyevin qeyd etdiyinə görə, respublika ictimaiyyətinin ayrı-ayrı təbəqələri də buna tərəfdar idilər və ölkə rəhbərliyinə ünvanladıqları təklif və məktub-

larında bu məqsədlə daha ciddi əməli tədbirlərin keçirilməsinin vaxtı çatdığını vurğulayırdılar. Məsələn, hərbçilər təklif edirdilər ki, yaranmış ağır vəziyyətdə Azərbaycanı atıb başqa ölkələrə gedən adamlar respublika vətəndaşlığından məhrum edilsinlər.

Cəmiyyətdəki dağınıqlıqdan, ruh düşkünlüyündən ciddi narahatçılıq keçirən ayrı-ayrı adamlar da Heydər Əliyevə məktublar yazmaqla və ya şəxsi müraciətlərlə ölkədə qayda-qanunu möhkəmləndirməyi, tələbkarlığı artırmağı, adamları nizam-intizama tabe etməyi, qanunları ciddiləşdirməyi tələb edirdilər. Heydər Əliyev həmin təklifləri belə qiymətləndirirdi: «Bunların hamısı təbiidir. Ürəyi Vətən üçün, xalq üçün yanan adam belə düşünür və belə düşünməlidir. Biz bu sahədə də lazımi tədbirlər görəcəyik».

Heydər Əliyev cəmiyyətdə qayda-qanunun və intizamın möhkəmləndirilməsi üçün hətta hərbi vəziyyətin elan olunması ilə bağlı təkliflər aldığını bildirirdi. Respublikanın dövlət rəhbəri ölkədə qanunçuluğun, əmin-amanlığın bərpası üçün inzibati tədbirlərin lazımlılığını inkar etməsə də, başlıca olaraq ölkənin bütün əhalisi tərəfindən yüksək şüurluluq, zəka və müdriklik göstəriləcəyinə inandığını bildirirdi: «Güman edirəm ki, hər bir şəxs öz vətəndaşlıq borcunu layiqincə yerinə yetirərsə, hər bir azərbaycanlı öz torpağına, vətəninə, öz elinə, obasına sadiq qalarsa, öz vətənini, torpağını hər şeydən üstün tutarsa belə tədbirlərə əl atmağa ehtiyac olmayacaqdır... Ancaq ola bilər ki, vəziyyət bizi belə tədbirlərə də əl atmaq məcburiyyətinə gətirib çıxarsın. Güman edirəm ki, əgər biz milli həmrəyliyə, vətəndaş birliyinə, vətəndaş həmrəyliyinə nail ola bilsək, bu tədbirlərin hamısından, şübhəsiz ki, imtina edə bilərik və onlara ehtiyac olmaz».

Cəmiyyətdə qanunçuluğun, nizam-intizamın möhkəmləndirilməsi üçün inzibati tədbirlərdən danışarkən Heydər Əliyev ilk

növbədə hüquq-inzibati orqanların fəaliyyətinin düzgün qurulmasının zəruriliyini qeyd edirdi. Ölkə rəhbəri bu sahələrdə işləyən şəxslərin özlərinin qanunçuluğa riayət etməsini, onların mənəviyyatca saf olmasını, qanun pozuntularının qarşısının alınması üçün başlıca şərt hesab edirdi: «Polis orqanları, hərbi komissarlıqlar, başqa hüquq-mühafizə orqanları, prokurorluq orqanları qayda-qanun yaradılması üçün lazımi tədbirlər görməlidirlər. Amma bunun üçün gərək həm polis, həm prokurorluq orqanlarında, həm hərbi komissarlıqlarda, həm də başqa sahələrdə, ordumuzun zabit heyətində, yüksək təbəqələrində mənəviyyatca saf adamlar olsunlar. Əgər belə olmazsa, onlar öz vətəndaşlıq, azərbaycanlılıq, vətənpərvərlik məsuliyyətini hiss etməsələr, bu vəzifələri yerinə yetirə bilməyəcəklər».

Heydər Əliyev xüsusilə rüşvətxorluğun geniş yayılmasını son illərdə cəmiyyətin mənəviyyatını pozan ən zərərli amillərdən biri kimi qiymətləndirir və bu ictimai bəlanın aradan qaldırılması üçün qətiyyətli mübarizənin aparılacağını vurğulayırdı. Dövlət rəhbəri rüşvətxorluğun Azərbaycanda çox dəhşətli hala çevrildiyini qeyd edirdi və onun hüquq-mühafizə orqanlarına, ordunun rəhbər strukturlarına yol tapdığına öz təəssüfünü bildirirdi. Ölkə Prezidenti XX əsrin 70-ci illərində rüşvətxorluğa qarşı mübarizə aparıldığını xatırlatmaqla, indi də bu istiqamətdə ən sərt tədbirlərin həyata keçirilməsinə tərəfdar olduğunu qeyd edirdi.

Bununla belə, Heydər Əliyev etiraf edirdi ki, ən ciddi tədbirlərə əl atılsa da, rüşvətxorluğu aradan qaldırmaq üçün insanların mənəviyyatında lazımi dəyişiklik baş verməlidir, adamların pozulmuş mənəviyyatını vətənpərvərlik və prinsipiallıq hissləri əvəz etməlidir: «Lakin biz nə qədər mübarizə aparsaq da – mən bunu həyati təcrübəmə əsasən deyirəm - əgər insanların mənəviyyatında dəyişiklik olmasa, pozulmuş mənəviyyat bərpa edil-

məsə, insanlarda vətənpərvərlik, namus, şərəf, qeyrət hissi baş qaldırmasa, biz heç nə edə bilmərik».

Heydər Əliyev erməni işğalı nəticəsində ev-eşiyindən didərgin düşmüş insanlara kömək göstərilməsini də xalqın ümumi mənəvi-vətəndaşlıq borcu sayırdı. Bununla bağlı o yenə Böyük Vətən müharibəsi illərində döyüş gedən ərazilərdən köçürülmüş ailələrə bütün respublikalarda, o cümlədən Azərbaycanda göstərilən qayğını yada salaraq Qarabağ və Ermənistanla sərhədboyu bölgələrdən öz yurd-yuvalarını tərk etməyə məcbur olanlara qarşı da belə qayğının göstərilməsinin vacibliyini qeyd edirdi. Dövlət rəhbəri həm dövlət strukturlarının, həm ayrı-ayrı şirkət və firmaların, həm də ayrı-ayrı imkanlı şəxslərin bu nəcib işə qoşulmasını arzulayırdı.

Respublikanın ağır vəziyyətdən çıxarılmasında, xalqın mübariz əhval-ruhiyyədə köklənməsində Heydər Əliyev ziyalıların da üzərinə məsuliyyətli vəzifələr düşdüyünü qeyd edirdi. Dövlət rəhbəri əminliyini bildirirdi ki, xalqın potensialının reallaşdırılmasında, onun döyüşkənlik və qəhrəmanlıq ənənələrinin özünə qaytarılmasında respublika ziyalıları məqsədyönlü iş görə bilərlər: «...Doğrudan da, Azərbaycan xalqının potensialı, həm də qəhrəmanlıq, həm də döyüşkənlik, həm də intellektual potensialı böyükdür. Biz bu potensialdan səmərəli istifadə etməliyik. Bu sahədə ziyalılarımız daha fəal çalışmalıdırlar».

Ona görə də Heydər Əliyev respublika ziyalılarına daha da fəallaşmağı, praktiki fəaliyyətə qoşulmağı tövsiyə edirdi. Respublika Prezidenti xüsusilə qeyd edirdi ki, ziyalılar ardıcıl olaraq cəbhə bölgələrinə yollanmalı, hərbi hissələrin şəxsi heyəti ilə görüşməli, onların mənəvi əhval-ruhiyyəsini, vətənpərvərlik hisslərini coşdurmaqla müdafiə qüvvələrinin möhkəmlənməsinə kömək göstərməlidirlər.

Heydər Əliyev ordunun şəxsi heyətinin mənəvi əhval-ruhiyyəsinin formalaşdırılmasında din xadimlərinin də faydalı işlər görə biləcəyini yüksək qiymətləndirirdi. Ancaq eyni zamanda Heydər Əliyev bütün bu işlərin sistemləşdirilməsinin, məqsədyönlü şəkildə aparılmasının zəruri olduğunu bildirirdi. Çünki yalnız məqsədyönlü, nizamlı şəkildə qarşıya qoyulan vəzifələri həll etməklə xalqın mənəvi potensialının reallaşdırılmasına, onun maddi qüvvəyə çevrilməsinə nail olmaq olardı. Heydər Əliyevin xalqa müraciəti məhz bu inamla və ümidlə bitirdi.

Heydər Əliyevin müraciəti Ermənistanın Azərbaycana təcavüzü başlayan gündən dövlət rəhbəri səviyyəsində Azərbaycan xalqını mübarizəyə səsləyən, Vətən müharibəsinə səfərbər olmağa çağıran ilk müraciət idi və bu müraciət Azərbaycan xalqında böyük əks-səda doğurdu, cəmiyyətdə bir canlanma yaratdı və ölkə Prezidentinin çağırışları cəmiyyətin əksər təbəqələri tərəfindən müdafiə olundu. Heydər Əliyevin çağırışından sonra Azərbaycan Qaçqınlar Cəmiyyətinin qəbul etdiyi müraciətdə deyilirdi: «Biz heç kiminköməyinə arxayın ola bilmərik. Xalqımızın qarşısında iki yol var: ya məhv olmalı, ya da sözdə yox, işdə yumruq kimi birləşib, bütün qüvvələrimizi səfərbər edib ağır vəziyyətdən çıxmalıyıq. Biz bu gün bir daha düşmənlərimizə, vəzifə hərisi olan təxribatçılara anlatmalıyıq ki, onlar iyrənc vasitələrə əl atsalar belə xalqımız böyük ruh yüksəkliyi ilə seçdiyi Prezident Heydər Əliyevin ətrafında birləşməyi və onun başçılığı ilə ölümə də birgə getməyi qərarlaşdırıb» (18).

Respublika Prezidentinin xalqa müraciəti ilə şərik olan astaralı analar isə bildirirdilər ki, indi göz yaşları axıtmaq vaxtı deyil, mətanət göstərmək, Vətənin müdafiəsinə qalxmaq vaxtıdır. Vətən azad olmasa, xoşbəxt yaşaya bilmərik. Vətəni bizim oğullarımız qorumalıdır. Axı başqası gəlib onların əvəzinə düşmənlə vuruşmayacaq (19).

Beləliklə, Heydər Əliyevin radio və televiziya ilə Azərbaycan xalqına 2 noyabr 1993-cü il tarixli müraciətində respublikada yaranmış olan ağır vəziyyət xalqa çatdırıldı. Azərbaycanın cənub sərhədi boyunca baş verən hərbi uğursuzluqlar nəticəsində ərazimizin böyük bir hissəsinin erməni işğalı altına düşməsi və onun xalqda, ictimaiyyətdə yaratdığı gərginliyi əks etdirən bu müraciət yalnız respublikada yaranmış olan ağır hərbi-siyasi vəziyyəti əks etdirmirdi. Bu müraciət hərb quruculuğu sahəsində yaxın və uzaq gələcək üçün Azərbaycan xalqının qarşısında dayanan əsaslı vəzifələrə toxunan proqram çıxışı idi və bu cəhətinə görə Heydər Əliyevin 2 noyabr 1993-cü il tarixli müraciəti Azərbaycanın hərb quruculuğunda böyük praktiki və tarixi əhəmiyyətə malikdir. Dünya hərb quruculuğu təcrübəsinin elə bir əsaslı məsələsi yoxdur ki, 2 noyabr tarixli müraciətində ona toxunulmasın və onun müdafiə quruculuğu sahəsindəki əhəmiyyəti açıqlanmasın. 2 noyabr müraciətinin dolğun və bütöv şəkildə ifadəsini, onun mühüm dövlət sənədinə çevrilməsini şərtləndirən amillərdən birini Heydər Əliyevin hərb quruculuğunun bütün sahələrinə kifayət qədər elmi şəkildə yanaşması və onları dövlətçilik təcrübəsi baxımından şərh etməsi idi. Başlıca olaraq, Heydər Əliyev hərb quruculuğunun qanunauyğunluqlarının, bu prosesin əhatə etdiyi məsələlərin konkret Azərbaycan şəraitində təzahürünün incəliklərini əsaslı şəkildə açıqlayaraq, bu istiqamətdə mövcud nöqsanların nədən doğduğunu və onların necə aradan qaldırılmasının yollarını tutarlı, əsaslı və eyni zamanda anlaşıqlı və inandırıcı şəkildə xalqa, ictimaiyyətə çatdıra bilmişdi. Heydər Əliyev uzun müddət üçün Azərbaycanın etibarlı müdafiəsi baxımından zəruri olan çoxsaylı mühüm problemlərə toxunmuşdu ki, onların vaxtında və keyfiyyətli icrası Azərbaycan dövlətçiliyinin daha da möhkəmlənməsinə yol aça

bilərdi. Bu baxımdan Heydər Əliyevin 2 noyabr 1993-cü il tarixli müraciəti təkcə hərb quruculuğu sahəsində deyil, Azərbaycanın dövlət quruculuğu sahəsində də mühüm əhəmiyyət kəsb edən bir proqram çıxışıdır.

## 3. Orduda mənəvi-ideoloji işin vəziyyəti və onun daha da yaxşılaşdırılması yolları

Elmin və texnikanın sürətli inkişafı nəticəsinə dünya ordularının silahlanmasında olan silahların, hərbi texnikanın döyüş keyfiyyətlərində böyük dəyişiklik yaranmış, onların dəqiqliyi və təsir sahəsi xeyli artmışdır. Lakin bu heç də o demək deyildir ki, ordunun ən yeni silah və texnika ilə təchiz edilməsi döyüş əməliyyatlarında və bütünlükdə müharibədə insanların rolunu azaltmışdır. Əksinə, insan olmayan yerdə ən yeni texnika da istifadəsiz qalmış ehtiyatlardan başqa bir şey deyildir. Hər bir yeni silahın və texnikanın yeni keyfiyyətləri də yalnız insanın silah və texnika ilə qarşılıqlı vəhdətində reallaşa bilər. Hər hansı bir dövlət ən yüksək inkişafa və iqtisadi imkanlara malik olsa belə, insan qüvvəsi, təşkilatçılığı və məharəti olmasa, bu potensialı səmərəli və təsirli şəkildə ölkənin müdafiəsinə istiqamətləndirmək olmaz. Dövlətin iqtisadi potensialı yalnız insanların məqsədyönlü və şüurlu fəaliyyəti ilə ən mürəkkəb vəzifələrin həllində gözlənilən nəticəyə çevrilə bilər.

Bütün gücü, qüvvəsi, iradəsi, bacarığı və məqsədyönlü fəaliyyəti ilə iqtisadi imkanları hərəkətə gətirən insanlar, bütünlükdə isə xalq müharibənin əsas hərəkətverici qüvvəsidir və onun mənəvi keyfiyyətləri, müharibəyə münasibətdə tutduğu mövqeyi konkret şəraitdə maddi qüvvəyə çevrilərək müharibədə qələbəni təmin edən aparıcı amillərdən birinə çevrilir.

Qeyd edildiyi kimi, ictimai hadisələr içərisində heç bir hadisə insanın psixikasını, mənəviyyatını müharibə kimi sınağa çəkərək ona hərtərəfli təsir göstərmir. Külli miqdarda dağıntılara, itkilərə və onların yaratdığı ağır psixoloji gərginliyə sinə gərmək, bütün gücünü toplayaraq müharibənin uğurla aparılmasına istiqamətləndirmək böyük dözüm, iradə, əzmkarlıq, vətənpərvərlik, qətiyyət, mübarizlik və s. mənəvi-ideoloji və psixoloji keyfiyyətlər tələb edir. Müharibədə son nəhayətdə o xalq qələbə əldə edir ki, bütün bu gərginliklərə sinə gərərək yüksək iradə nümayiş etdirsin. Ona görə də müasir müharibələr ona cəlb edilən ölkənin təkcə iqtisadi, elmi-texniki və hərbi potensialının deyil, eyni zamanda, mənəvi potensialının sınağıdır. Aparılan müharibələrin miqyası, kütləviliyi, bu müharibələrdə daha çox canlı qüvvənin, eyni zamanda, ölkənin bütün iqtisadi, siyasi, elmi-texniki potensialının cəlb edilməsi mənəvi amilin rolunu xüsusilə aktuallaşdırır. Çünki bu amil müharibənin aparılması ilə bu və ya digər dərəcədə bağlı olan insanların fəaliyyətinin və davranışının daxili tənzimləyicisi kimi çıxış edir və onun mahiyyətində kütlələrin müharibəyə münasibəti, minlərlə insanın müharibə şəraitində fəaliyyətinin tənzimləyicisi və istiqamətləndiricisi olan məqsəd, niyyət, iradə və s. hisslər ifadə olunur.

Mənəvi-ideoloji amil bir sıra mənəvi elementlərin məcmusu kimi özünü göstərir. Bura xalqın və ordunun müharibənin bütün sınaqlarına dözə bilməsi və qələbə naminə ardıcıl, qətiyyətli fəaliyyəti, malik olduqları yüksək mənəvi hazırlıq, fiziki və mənəvi imkanlardan səmərəli istifadə edə bilmək bacarığı daxildir.

Xalqın mənəvi-ideoloji əhval-ruhiyyəsinin möhkəmləndirilməsi və təkmilləşdirilməsi bir sıra obyektiv və subyektiv tələblərlə bağlıdır. Bu obyektiv və subyektiv tələblərin əlaqələndirilməsi, tənzimlənməsi, istiqamətləndirilməsi və üzə çıxarılmasında döv-

lətin və onun rəhbərliyinin müstəsna rolu vardır. Dövlət və onun rəhbərliyi yeritdiyi siyasətlə, ya yaratdığı daxili və xarici şəraitlə mənəvi amilin formalaşdırılmasını sürətləndirə və ya əksinə, mənəvi amilin formalaşdırılması prosesini ləngidə bilər.

Müharibə şəraitində xalqın mənəvi əhval-ruhiyyəsini möhkəmləndirmək, adamların sabahkı günə, uzun sürən müharibənin qələbə ilə başa çatacağına inamını artırmaq, onları ümumxalq və ümumdövlət mənafeli məsələlərin həllinə səfərbər etmək Heydər Əliyevin fəaliyyətinin ayrılmaz tərəflərindən birini təşkil edirdi. Onun çıxışlarının, müraciətlərinin, müxtəlif görüşlərdəki söhbətlərinin demək olar ki, hamısında hərb quruculuğunun bu mühüm sahəsi ətraflı təhlil edilmiş, baş vermiş hərbi uğursuzluqlarda mənəvi amilin aşağı səviyyədə olmasının yeri açıqlanmışdır.

Heydər Əliyevin mənəvi amilin möhkəmləndirilməsi məsələsinə xalqın itirilmiş inamının geri qaytarılması, gücünün, qətiyyətinin bərpa edilməsi, öz daxili potensialının yenidən bütün dünyaya nümayiş etdirilməsi kimi baxır, müharibə dövründə bu problemin xüsusi aktuallıq kəsb etdiyini bildirirdi. Cəbhə bölgələrindəki uğursuzluqlardan yaxa qurtarmaq, müstəqil Azərbaycanın etibarlı müdafiəsinə nail olmaq üçün Heydər Əliyevin fikrincə, Azərbaycanda bütün mənəvi-psixoloji vəziyyət dəyişməli idi. Respublikadakı ictimai-siyasi durumu radio və televiziya ilə 2 noyabr 1993-cü il tarixli müraciətində ətraflı təhlil edərək Heydər Əliyev belə bir qənaətə gəlirdi ki, mövcud əhval-ruhiyyə ilə Azərbaycanın bütövlüyünü təmin etmək mümkün olmayacaqdır.

Mənəvi amilin formalaşdırılmasında böyük əhəmiyyətə malik olan ictimai-siyasi yekdilliyin təmin edilməsi respublikanın rəhbəri vəzifəsində fəaliyyətə başladığı elə ilk günlərdən Heydər Əliyevin diqqətini cəlb edən ən başlıca məsələlərdən biri idi. Gö-

rülən ardıcıl işlərin nəticəsində vətəndaş qarşıdurmasının sovuşdurulması respublikanın müstəqilliyinə yaranmış təhlükəni aradan qaldırmaqla bərabər, həm də əhalidə respublikanın gələcəyinə, qanunçuluğun tezliklə bərpa olunacağına bir inam yaratdı. Heydər Əliyev bütün fəaliyyəti ilə belə bir həqiqəti xalqa təlqin edirdi ki, şəxsi məqsədlər və maraqlar dövlət maraqları qarşısında bir kənara qoyulmalıdır və hər şey cəbhə üçün, müdafiə üçün olmalıdır. Respublika Prezidentinin fikrincə, xalqın mənəviyyatı da məhz bu tələb üzərində köklənməli və bu məqsədə nail olmaq üçün əhalinin bütün gücü səfərbərliyə alınmalıdır. Dediklərini əsaslandırmaq üçün Heydər Əliyev 1941-45-ci illərin ictimai-siyasi durumunu, o vaxtkı mənəviyyatın məzmununu nümunə göstərirdi: «O vaxt insanlar ac da, çılpaq da qalırdılar, çox şeydən məhrum idilər. Lakin bir şey hamı üçün ümdə idi, əsas vəzifə idi: cəbhəyə, orduya kömək etmək, Vətənin müdafiəsini təşkil etmək. İndi də hamı belə etməlidir, indi də hamı belə olmalıdır» (20).

Əhalinin bu mənəvi tələblər üzərində köklənməsində Heydər Əliyev ictimai, siyasi qurumların fəaliyyətinə, onların ictimai-siyasi sabitliyin təmin edilməsində və xalqın bütün diqqətini yalnız ümumxalq əhəmiyyətli məsələnin həllinə yönəldilməsi istiqamətində görə biləcəkləri işə böyük əhəmiyyət verirdi. Prezidentin fikrincə, ictimai-siyasi qurumlar strateji planda respublikanın ümumxalq mənafeli problemləri ətrafında qarşılıqlı əlaqə, vəhdət yaratmalı və öz fəaliyyətlərini yüksək mənəvi ideallar uğrunda mübarizəyə yönəltməli idilər. O qeyd edirdi ki, siyasi əqidəsindən asılı olmayaraq hər bir azərbaycanlı qisas əhval-ruhiyyəsi, cəmiyyətdə, insanlar arasında ixtilaf salmaq niyyəti ilə yaşamamalıdır. Heydər Əliyev dönə-dönə bütün siyasi partiyalara, siyasi qüvvələrə, Azərbaycanı sevən, vətəninə hörmət bəsləyən bütün adamlara müraciət edərək bildirirdi ki, Azərbaycanı müdafiə et-

mək, bu ağır vəziyyətdən çıxmaq hamını narahat edən ən başlıca məsələ olmalıdır. İctimai-siyasi sabitliyi pozmağa çalışanları Heydər Əliyev vəzifə tutmaq, çaxnaşma salmaq hərisliyinə yox, dövlətçiliyə xidmət etmək, bütün gücünü, iradəsini müstəqilliyin təmin edilməsinə yönəltmək yoluna çağırırdı (21).

Özünün 1993-cü il 2 noyabr tarixli müraciətində Heydər Əliyev bütün siyasi qüvvələri, ictimai hərəkatları, qurumları vahid, ümumi strateji məqsədlər ətrafında birləşməyə və beləliklə də cəmiyyətdə ümumi, sağlam mənəvi-psixoloji atmosfer yaratmağa çağırırdı. 1993-cü il noyabr ayının 17-də respublikada hərbi şəraitin çox mürəkkəb olduğu bir vaxtda siyasi partiyaların və ictimai hərəkatların rəhbərləri ilə görüşəndə də Heydər Əliyev ictimai-siyasi qüvvələri bütün fəaliyyətləri ilə respublikanın ərazi bütövlüyünün qorunmasına, işğal olunmuş torpaqların düşmən tapdağından təmizlənməsinə xidmət etməyə dəvət edirdi: «Yenə də deyirəm: Bir çox məsələlərdə, ayrı-ayrı mövqelərdə, bəlkə də, bir-birinə daban-dabana zidd mövqelərdə dayanan hər kəs, təşkilatlar, partiyalar bu sahədə birləşməlidirlər. Bizim hamımızın bir Vətənimiz var – bu, Azərbaycandır. Hamımız bir torpaqda yaşayırıq – bu, Azərbaycan torpağıdır. Azərbaycan torpağının hər guşəsi hər birimiz üçün müqəddəs yerdir. Əgər bu dartışmalar, çəkişmələr, son altı ildə Dağlıq Qarabağ problemində istifadə edərək aparılan bu hakimiyyət mübarizəsi davam edəcəksə, bütün bunlar isə müdafiə gücümüzün zəifləməsinə, Ermənistan silahlı qüvvələrinin təcavüzünün daha da genişlənməsinə səbəb olacaqsa, Azərbaycan dağılacaqsa, məhv olacaqsa, hakimiyyət davası aparanlar öz hakimiyyətini harada quracaqlar?» (22).

Respublikanın müdafiəsinin etibarlı təşkili üçün iqtidar-müxalifət qarşıdurmasını Heydər Əliyev cəmiyyətin mənəvi durumunun saflaşdırılması və bütün diqqətin erməni təcavüzünün

qarşısının alınmasına istiqamətləndirilməsi baxımından günün çox mühüm vəzifələrindən biri sayırdı. Çünki bu qarşıdurma xalqı çaşdıran, onu ölkənin əsas problemindən sapındıran dağıdıcı təbliğatla müşayiət olunurdu, cəmiyyət daxilində heç də sağlam olmayan bir əhval-ruhiyyə yaradırdı. Ölkə Prezidenti birmənalı şəkildə bəyan edirdi ki, belə qarşıdurma ölkənin ağır olan vəziyyətini daha da ağırlaşdırmaqla, müdafiə qüdrətinə də ağır zərbə vurur: «...hərbi təcavüzə məruz qalmış respublikamızda qarşıdurmaya son qoymaq lazımdır. Bəsdir. Bu beş-altı ildə Azərbaycanda qarşıdurma ən yüksək səviyyəyə qalxmışdır. Bunun xalqa, respublikaya, müstəqil Azərbaycan dövlətinə heç bir xeyri olmamış, ilbəil ancaq və ancaq zərəri dəymişdir. Bu zərərlər üst-üstə yığılaraq indi respublikamızın iqtisadiyyatını da ağır vəziyyətə salmış, xüsusən onun hərbi təcavüzün qarşısını almaq imkanlarını zəiflətmiş və məhdudlaşdırmışdır. Nəticədə respublikanın bir hissəsi işğal olunmuşdur. Ona görə də bu qarşıdurmaya son qoyulmasa, Qarabağ problemindən istifadə edərək hakimiyyət uğrunda mübarizə davam edərsə, dünən hakimiyyətdə olarkən respublikanı bu günə salan adamlar indi gündə qəzetlərə müsahibələr verərək cürbəcür fikirlər söyləməkdə davam etsələr, respublikanı saxlamaq mümkün olmayacaq və o dağılacaqdır. Dünən vəzifə başında olan adamlar indi vəzifədən gediblərsə və vəzifədə olarkən bu işləri görə bilməyiblərsə, bu gün onların danışmağa, müsahibələr verməyə mənəvi haqqı yoxdur. Onlar səhnədən getmişlər. Əgər səhvlərini başa düşüblərsə, elə fəaliyyət göstərməlidirlər ki, xalqı doğrudan da, bu vəziyyətdən çıxarmağa yardım etsinlər. Ya da kənara çəkilməli və deməlidirlər ki, bəli, biz bu işin öhdəsindən gələ bilməmişik, görək axırı nə olur. Ancaq yenidən qarşıdurmanı gücləndirmək, yenə də respublikanı dağıtmaq xalqa xəyanətdir. Bu, ölkənin onsuz da ağır olan və-

ziyyətini daha da ağırlaşdırır və onun iqtisadi potensialına, hərbi qüdrətinə böyük zərbə endirir» (23).

Azərbaycan Ordusunun lazımi səviyyədə formalaşmamasının başlıca səbəblərindən birini də Heydər Əliyev onun daxilindəki mənəvi atmosferin pozulmasında, ordu daxilinə dağıdıcı qüvvələrin sirayət etməsində, şəxsi maraqların dövlət maraqlarından üstün tutulmasında görürdü. Heydər Əliyev bir daha qeyd edirdi ki, «Azərbaycan özünü müdafiə edəcək ordu yarada bilməmişdir. Burada mafioz qruplar, rüşvətxorluq haqqında danışdılar, – bunlar hamısı düzdür. Lakin mafioz qruplar ən çox bizim ordu sisteminə daxil olmuşdur. Cəbhədə qan töküldüyü halda, burada ayrı-ayrı adamlar pul-para mənimsəmişlər. Adamlar həlak olduğu, ev-eşiklərini itirdiyi, didərgin düşdüyü halda bəziləri bu fürsətdən istifadə edərək qanunsuz yollarla özlərinə həddindən artıq var-dövlət yığmışlar. Bizim dərdimiz, bəlamız budur. Ona görə də ordumuz yaradılmamışdır» (24).

Bu mənada Heydər Əliyev Azərbaycanın müdafiə qüvvələrinin yeni milli ideologiya, Azərbaycanın müstəqilliyinə və dövlət mənafelərinə sədaqət ruhunda tərbiyələndirilməsini, milli, tarixi, dini dəyərlərin Silahlı Qüvvələrə aşılanmasını son dərəcə əhəmiyyətli bir vəzifə sayırdı. Onun fikrincə, bu ideologiyanın Silahlı Qüvvələrə aşılanmasında ölkənin ziyalıları, elm və din xadimləri böyük rol oynamalı idilər: «Azərbaycan cəmiyyətinin əksəriyyəti kommunist ideologiyasından, sosializm quruluşundan imtina etmişdir və Azərbaycanın müstəqil, dünyəvi dövlət kimi, ümumbəşəri dəyərlər əsasında, eyni zamanda, milli ənənələr əsasında hüquqi dövlət qurmaq yolu ilə getməsinin tərəfdarıdır. Deməli, bizim ideologiyamız bundan ibarətdir. Həmin ideologiyanın bir hissəsini mənəvi dəyərlərimiz, milli ənənələrimiz təşkil edir. Biz bunların hamısına – mədəniyyətimizə, dinimizə, milli əxlaqımı-

za, bütün milli ənənələrimizə, tariximizə sadiqik. ... Ancaq mənə belə gəlir ki, əgər biz bütün qüvvələrimizi toplasaq, ziyalılardan, din xadimlərindən, alimlərdən, hörmətli adamlardan istifadə etsək, onlar bu işi mütəşəkkil apara bilsələr, hərbi hissələrdə lazımi iş görərək tərbiyə, əxlaq, mənəviyyat məsələlərini döyüşçülərə aşılaya bilsələr, onların mənəviyyatını, iradəsini möhkəmləndirə bilsələr, bu bizim həm siyasi, həm də ideoloji işimiz olacaqdır. Lakin bu iş pərakəndə şəkildə deyil, mütəşəkkil aparılmalıdır» (25).

Heydər Əliyev öz çıxışlarında təəssüflə onu da qeyd edirdi ki, respublikada mövcud olan siyasi qüvvələrin heç də hamısı konkret şəraitdə ümumi sabitliyin yaranmasına, bütün qüvvələrin, səylərin bir məqsədə istiqamətləndirilməsində çalışmır. Dövlət rəhbərinin fikrincə, bu qüvvələr cəmiyyətdə iğtişaş yaratmaqla adamlar arasında qorxu, inamsızlıq yayır, onların mənəvi əhval-ruhiyyəsini zəiflədir, «ancaq öz məqsədləri, qazancları, çirkin niyyətləri, nəyin bahasına olursa olsun, vəzifə tutmaq barədə düşünürdülər. Onlar dağıtmağa, parçalamağa doğru aparır, başqa mənəviyyatla yaşayırlar, xalqın mənəviyyatı ilə yaşamırlar» (26).

Heydər Əliyevin fikrincə, bir çox siyasi qüvvələr xalqı qorxutmaq, iradəsini, inamını qırmaq, respublikanın gələcəyinə, iqtidarın səmərəli fəaliyyət göstərəcəyinə ümidsizlik yaratmaq üçün siyasi terrora əl atırdılar. Dövlət rəhbəri belə mövqedə dayananların nəzərinə çatdırırdı ki, müxalifət mövqeyində dayanmaq heç də o demək deyildir ki, onlar düşmənçilik, xəyanət, terrorçuluq yolunu tutmalıdırlar. Müxalifət sağlam müxalifət olmalıdır, xalqı birləşdirən, ümumi məqsədlər ətrafında səfərbər edən müxalifət olmalıdır, dağıdıb parçalayan müxalifət olmamalıdır (27).

Əslində, terrorçuluq yolunu tutan siyasi qüvvələrin əsas məqsədləri də xalqı sarsıtmaq, onu zorakılığa müqavimət göstər-

məkdən çəkindirmək, beləliklə də, cinayətkar dəstələrin qüvvə üstünlüyünü yaratmaq idi. Ancaq dövlətin apardığı təmkinli, səriştəli siyasət nəticəsində bu siyasi təxribatlar onu törədənlərin gözlədikləri gərginliyi yaratmadı. Hətta 1994-cü il sentyabrın 29-da yüksək vəzifəli dövlət xadimlərinə qarşı siyasi terrorların təşkil edilməsi də xalqı kütləvi şəkildə çaşdırmadı. Bu sakitliyin saxlanılmasında Heydər Əliyevin xüsusi rolu var idi. Həmin hadisə ilə bağlı Heydər Əliyevin müraciətləri, çıxışları xalqın təmkinin, sakitliyinin, mübariz əhval-ruhiyyəsinin saxlanılmasında böyük əhəmiyyətə malik idi. Proseslərin gedişi göstərdi ki, Heydər Əliyevin qətiyyətli, əsaslandırılmış, kəskin və ədalətli çıxışları öz təsirinə görə törədilən siyasi təxribatlardan daha güclü silahdır.

Cəmiyyətdə sabitliyi pozmağa, ümumi düşmənə qarşı xalqın mübarizliyini zəiflətməyə çalışan bəzi siyasi dairələrin təxribat törətməyə çalışdıqları sahələrdən biri də ordu idi. Burada toplaşan təxribatçı qüvvələr bir sıra məqsədlər güdürdülər və xalqa zidd fəaliyyətləri ilə son nəhayətdə ordunun möhkəmlənməsi əleyhinə çıxırdılar.

Belə qüvvələr nəzarət altına keçirdikləri ordu bölmələrini istədikləri məqsədin icrasına istiqamətləndirirdilər və sözsüz ki, belə vəziyyət həmin bölmələrdə mənəvi amilin zəifliyinə, ölgünlüyünə, çox vaxt isə xəyanətkarlığa çevrilməsinə şərait yaradırdı. Belə qüvvələr üçün Vətən, torpaq təəssübü mafioz məqsədlər və istəklərlə əvəz olunmuşdu. Respublikanın Prezidenti Heydər Əliyev bu cəhəti siyasi və ictimai qurumların rəhbərlərinin diqqətinə çatdırır və ordu quruculuğunun yeni mərhələsində həmin əməllərə və əqidəyə xidmət edən qüvvələri zəkaya, ictimai-faydalı fəaliyyətə dəvət edirdi.

Qanunsuzluğun hökm sürdüyü bölmədə, ya hissədə əsgər və zabitlərin əksəriyyətinin mənəviyyatını da sözsüz ki, qanun-

suzluqlar üzərində formalaşan iradəsizlik, eqoizm, qorxaqlıq, yaltaqlıq, xəyanət, zülm, satqınlıq və s. keyfiyyətlər müəyyənləşdirməli idi. Heydər Əliyev haqlı olaraq Əlikram Hümbətovun şəxsində göstərirdi ki, öz fəaliyyətində və rəhbərlik etdiyi hissənin xidmətində qanunsuzluğa yol verən şəxsdən yüksək mənəvi keyfiyyətlər, qəhrəmanlıq gözləmək əbəsdir. Əksinə, belələrinin xəyanəti, prinsipsizliyi, mənəvi kasıblığı məğlubiyyətin də əsas səbəblərindən biri idi (28).

Heydər Əliyev ümumiyyətlə cəmiyyətdə qanunçuluğun bərpasına ciddi əhəmiyyət verirdi. Ölkədə sabitliyin, yekdilliyin bərqərar olmasının zəruri şərtlərindən biri olan bu məsələ, eyni zamanda, sağlam mənəvi əhval-ruhiyyənin formalaşmasına təsir göstərən əsas elementlərdən idi. Doğrudur, Heydər Əliyev cəmiyyətdə qanunçuluğun bərpasını yalnız inzibati üsulların kəsərliliyi, geniş tətbiqi kimi irəli sürmürdü. İfrat yola düşənlərə qarşı qətiyyətli tədbirlərin görülməsi zəruri idi. Ancaq Heydər Əliyev daha çox təmkinə, qarşılıqlı anlaşmaya əsaslanan hərəkətlərə üstünlük verirdi. Bir çox hallarda qeyri-inzibati yollara əl atmasının, humanistlik və mərhəmət göstərməsinin səbəblərini o özü belə açıqlayırdı: «Bunların bir sıra səbəbləri var. Bir səbəb də ondan ibarətdir ki, biz demokratiya şəraitində yaşayırıq. ...Mən demokratiya yolu ilə gedirəm, Azərbaycanda demokratiya prinsiplərini bərqərar edən bir adam kimi çox şeyləri güzəştə gedirəm. Demokratiya yolu ilə getmək, insanlar arasında sülh, əmin-amanlıq, vətəndaş həmrəyliyi, birliyi yaratmaq lazımdır» (29).

Əslində, Heydər Əliyevin belə humanistliyinin özündə də güclü bir qətiyyət, kəsərlilik var idi. Prezidentin istər 1994-cü ilin oktyabrında, istərsə də 1995-ci ilin martında dövlət çevrilişi cəhdinin, mənasız qan axıdılmasının qarşısını dinc yollarla almağa çalışması, bunun üçün müdriklik göstərməsi, xalqın zəkasına

arxalanması müharibə silahlarından da güclü təsirə malik oldu. Onun çıxışları, çağırışları xalqın böyük bir hissəsində mübarizliyi, vətənpərvərliyi, ölkənin suverenliyi uğrunda döyüşə qoşulmaq hisslərini, dövlət rəhbərinə sədaqəti coşdurub dövlət çevrilişi yoluna düşənlərin qarşısına möhkəm bir sədd çəkdi. 1994-cü ilin oktyabrında, 1995-ci ilin martında qanunçuluğun, dövlətçiliyin qorunması yolunda xalqın respublika Prezidentinin müdafiəsinə qalxması Heydər Əliyevin yeni bir keyfiyyətinin – xalqın mənəvi əhval-ruhiyyəsinin formalaşmasına təsir göstərmək və onu istiqamətləndirmək qabiliyyətinin nümayişi idi. Xalqın bu günlərdə nümayiş etdirdiyi yüksək mənəvi əhval-ruhiyyə dövlətçiliyin keşiyində dayanan ordu qüvvələrinin mənəvi cəhətdən daha da möhkəmlənməsinə təsir göstərmişdi.

Ancaq şübhəsiz ki, cəmiyyətdəki ictimai-siyasi sabitlik, mənəvi-psixoloji yekdillik mütləq deyildi. Bir tərəfdən ağır iqtisadi şərait ümumi mənəvi əhval-ruhiyyənin formalaşmasına müəyyən əks-təsir göstərirdisə, digər tərəfdən də bir sıra ictimai, siyasi qurumların fəaliyyəti, o cümlədən ayrı-ayrı vəzifəli şəxslərin korrupsiyaya, rüşvətxorluğa qurşanması, təşkil olunmuş cinayətkarlığın artması cəmiyyətin ümumi mənəvi atmosferini, mənəvi-psixoloji əhval-ruhiyyəsini zəiflədirdi. Bütün bunların ordunun mənəvi-psixoloji vəziyyətinə də mənfi təsir göstərdiyini görən Heydər Əliyev radio və televiziya ilə xalqa 2 noyabr 1993-cü il tarixli müraciətində ictimai, siyasi qurumların qanuna zidd hərəkətlərinin qarşısını qətiyyətlə almaq əzmində olduğunu qeyd edirdi. O bildirirdi ki, Azərbaycan dövlətinin qanunları qorunmalıdır və bunun üçün dövlətin bütün imkanları vardır. «İndi Azərbaycanda milli birliyə, vətəndaş həmrəyliyinə daha çox ehtiyac var. Təəssüf ki, bəzi qüvvələr özlərini müxalifətdə hesab edərək, respublikanın ağır şəraitində olduğunu nəzərə almaya-

raq, cürbəcür təxribatçı hərəkətlər edir və ümumi birliyi pozmaq istəyirlər. Biz buna yol verməyəcəyik. Biz qanunun keşiyindəyik və onun çərçivəsində hərəkət edəcəyik. Heç kəsə imkan verməyəcəyik ki, əvvəlki dövrlərdə olduğu kimi, respublikada yaranmış ağır vəziyyətdən istifadə edərək yenə də hakimiyyət, vəzifə uğrunda mübarizə aparsınlar. Kim belə fikirlərlə yaşayırsa, ondan əl çəksin. Bunların hamısının qarşısı alınacaqdır. Son illərdə Azərbaycanın kimlər tərəfindən belə hala salındığını xalq yaxşı başa düşür və bilir ki, yalnız düz yolla, qanuni yolla gedərək respublikanı bu vəziyyətdən çıxara bilərik « (30).

Qanunçuluğun bərpa edilməsində və bununla da cəmiyyətin mənəvi atmosferinin sağlamlaşdırılmasında Heydər Əliyev icra hakimiyyəti və hüquq-mühafizə orqanlarının üzərinə böyük vəzifələr düşdüyünü vurğulayırdı. Onun fikrincə, cəmiyyətdə rəvac tapan cinayətkarlığın, ən başlıcası isə korrupsiya və rüşvətxorluğun qarşısını bu orqanların prinsipial fəaliyyəti nəticəsində daha səmərəli şəkildə almaq olardı (31).

Respublika Prezidenti qətiyyətlə tələb edirdi ki, icra hakimiyyətləri, polis və prokurorluq orqanları onlara verilən səlahiyyətlərdən yalnız dövləti möhkəmləndirmək, nizam-intizamı gücləndirmək, ordunu qurmaq, onun mübarizliyini artırmaq, Azərbaycanın ərazi bütövlüyünü qorumaq üçün istifadə etməlidirlər.

Heydər Əliyev rüşvətxorluğu son illərdə cəmiyyətin mənəviyyatını pozan ən zərərli hal kimi qiymətləndirir, bu ictimai bəlanın aradan qaldırılmasının mənəviyyatın sağlamlaşdırılmasına göstərə biləcəyi müsbət təsiri çıxış və müraciətlərində dönə-dönə qeyd edir, rüşvətxorluğa qarşı ciddi mübarizə aparacağını bildirirdi.

Rüşvətxorluq kimi qanunsuzluğun mövcudluğuna barışmaz münasibətini bildirən Heydər Əliyev bu bəlanın həm cəmiyyətdə,

həm də Müdafiə Nazirliyində kök atmasını təəssüflə qeyd edirdi: «Azərbaycanda rüşvətxorluq ən dəhşətli bir haldır. Həyatın hər sahəsində rüşvətxorluq baş alıb gedir. Azərbaycan vətəndaşları, xüsusilə 70-ci illərdə fəaliyyət göstərən adamlar bilirlər ki, mən o dövrdə respublikaya rəhbərlik edəndə rüşvətxorluqla mübarizəni fəaliyyətimin əsas istiqaməti kimi qəbul etmişdim. Azərbaycana rəhbərlik etdiyim 14 il ərzində fəaliyyətimin çox hissəsini rüşvətxorluqla mübarizəyə sərf etmişdim. ...Elə bu səfərbərlik hadisəsində də. Hərbi komissarlıqların əksəriyyətində rüşvətxorluq halları var. Kim məndən inciyirsə, qoy incisin, həqiqəti demək lazımdır. Heç belə iş olarmı? Rüşvət verən, öz oğlunu çağırışdan azad edən adam Vətən haqqında, torpaq haqqında düşünürmü? Yaxud da ki, rüşvət alıb, cinayət yolu ilə cibini pulla dolduran adam Vətən haqqında, torpaq haqqında, Azərbaycanın müstəqilliyi haqqında düşünürmü? Bunların hamısı aradan götürülməlidir. Biz bu sahədə ciddi tədbirlər görəcəyik. Mən hamıya xəbərdarlıq edirəm və bildirmək istəyirəm ki, biz bu hallara dözməyəcəyik. Lakin biz nə qədər mübarizə aparsaq da, – mən bunu öz həyat təcrübəmə əsasən deyirəm, – əgər insanların mənəviyyatında dəyişiklik olmasa, pozulmuş mənəviyyat bərpa edilməsə, insanlarda vətənpərvərlik, namus, şərəf, qeyrət hissi baş qaldırmasa, biz heç nə edə bilmərik» (32).

Göründüyü kimi, Heydər Əliyev rüşvətxorluğun yalnız inzibati yollarla aradan qaldırılmasının qeyri-mümkünlüyünü də qeyd edir və bildirirdi ki, bu yola qədəm qoyan insanların mənəviyyatında ciddi dəyişikliklər edilməlidir, sağlam mənəviyyat insanların həyat normasına çevrilməlidir.

Heydər Əliyev geniş ictimaiyyəti, ictimai-siyasi qurumların nümayəndələrini də fəal həyat mövqeyi tutmağa, rüşvətxorluq kimi bir bəla ilə mübarizə aparmağa çağırırdı. Heç də asan olma-

yan bu mübarizənin bir sıra özünəməxsus çətinlikləri də var idi. Yəni cəmiyyətdə qanunçuluğun keşiyində dayanmalı olan hüquq-mühafizə orqanlarının özündə də rüşvətxorluğun geniş yayılması onun aradan qaldırılmasını xeyli mürəkkəbləşdirirdi. Daxili İşlər Nazirliyinin yüksək vəzifəli zabitləri ilə 1994-cü il aprelin 29-da keçirilən görüşündə də ölkə Prezidenti qeyd edirdi ki, cinayətkarlıqla mübarizə aparmalı olan bu orqanın bir sıra əməkdaşlarının özlərinin qanunçuluğu pozması, rüşvətxorluqla məşğul olması, cinayətkar ünsürlərlə əlaqəyə girməsi kriminogen vəziyyəti daha da mürəkkəbləşdirmişdir (33).

Şübhəsiz ki, Heydər Əliyev özü də qeyd etdiyi kimi, bu sözləri heç də bütün polis əməkdaşlarına aid etmirdi. Lakin mövqeyi, əqidəsi və əməlləri ilə cəmiyyətin ümidlərini doğrultmayan polis əməkdaşlarının mövcudluğu və onların qanunçuluğa zidd olan fəaliyyəti bütünlükdə cəmiyyətin mənəvi əhval-ruhiyyəsinə ağır zərbə vururdu. Respublikada mütəşəkkil cinayətkarlığın, qanun pozuntularının kütləvi hal alması ictimaiyyəti, həm də dövlət rəhbərliyini ciddi narahat edirdi. Çünki respublikada müəyyən qrup insanlar var idi ki, onları Vətən, torpaq təəssübü yox, yalınız varlanmaq ehtirası maraqlandırırdı. Bu sahədə vəziyyəti yaxşılaşdırmaq üçün Heydər Əliyev 1994-cü il avqustun 9-da «Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında» fərman imzaladı. Həmin fərmanda deyilirdi: «Son vaxtlar dövlətin iqtisadi, siyasi əsaslarının təhlükəsizliyi, vətəndaşların həyatı, səhhəti və mülkiyyət hüquqları əleyhinə yönəldilən və əsasən mütəşəkkil cinayətkar dəstələr, qanunsuz silahlı birləşmələr və digər ünsürlər tərəfindən törədilən cinayətlərin, o cümlədən terror aktları, təxribat, qəsdən adam öldürmə, banditizm, silahın, döyüş sursatının və partlayıcı maddələrin toplanması və digər yollarla ələ keçiril-

məsi kimi, narkotik maddələrlə bağlı cinayətlərin, maliyyə-kredit fırıldaqlarının və iqtisadi xarakterli sair cinayətlərin çoxalması müşahidə olunur. Cəmiyyətdə rüşvətxorluq və korrupsiya kimi cinayətlərin geniş yayılması xüsusi narahatlıq doğurur və bir sıra vətəndaşlar, o cümlədən vəzifəli şəxslər bu faktları adi bir hal hesab edirlər» (34).

Mənəvi-psixoloji vəziyyətin formalaşmasına mənfi təsir göstərən cinayətkarlıq, qanunu pozmaq, vəzifə borcuna xəyanət, rüşvətxorluq, korrupsiya və s. kimi hallar Müdafiə Nazirliyinin həm mərkəzi aparatında, həm də yüksək zabit heyəti arasında da yayılmışdı. Hətta ordu quruculuğunun yeni mərhələsində də bir sıra yüksək rütbəli zabitlər Vətənə sədaqətlə xidmət etmək əvəzinə siyasi oyunlara qoşularaq dövlət çevrilişində iştirak edirdilər. Bəziləri isə rüşvətxorluq və korrupsiya ilə məşğul olurdular. Doğrudur, Azərbaycanda ordu quruculuğunun yeni mərhələsində ordunun mənəvi-psixoloji vəziyyətinin əsas məzmununu və səviyyəsini təkcə belə zabitlərin mənəvi keyfiyyətləri müəyyənləşdirmirdi. 1993-cü ilin sonlarından başlayaraq cəmiyyətdə, xüsusilə də orduda əmələ gələn dəyişikliklər şəxsi heyətin mənəvi-psixoloji durumunu xeyli sağlamlaşdırmışdı. Amma, qanunsuz yollara düşənlər də var idi və hətta o vaxtkı Müdafiə nazirinin özü haqqında da cəmiyyət daxilində iradlar mövcud idi. Heydər Əliyevin özü də 1993-cü ilin sonlarından başlayaraq ordunun möhkəmləndirilməsində keçmiş müdafiə nazirinin müəyyən xidmətləri olduğunu qeyd edirdi. Bununla belə, Müdafiə naziri M.Məmmədovun etimadı tamamilə doğrulda bilmədiyini və buna görə də onu tutduğu vəzifədən azad etdiyini açıqlayırdı (35). Heç şübhəsiz ki, ordunun döyüş hazırlığı səviyyəsinin qaldırılmasında, şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin sağlamlaşdırılmasında Müdafiə Nazirliyinin rəhbərliyinin xüsusi rolu və

məsuliyyəti var idi. Lakin maliyyə qanunsuzluqlarına qoşulan bir nazirin rəhbərliyi altında orduda büsbütün sağlam atmosferin yaradılması da mümkün deyildi və Heydər Əliyev keçmiş Müdafiə nazirinin ona bəslənilən etimadı doğrultmadığını bildirəndə heç şübhəsiz ki, Müdafiə naziri tərəfindən orduda mənəvi əhval-ruhiyyənin sağlamlaşdırılmasına lazımi diqqət yetirilməməsi də nəzərdə tutulurdu.

Aydındır ki, baş verən proseslərə, o cümlədən də qoşunların əhval-ruhiyyəsinin hansı səviyyədə formalaşmasına görə müdafiə nazirləri də məsuliyyət daşıyırlar. Ordunun möhkəmlənə bilməməsində, günü-gündən daha ciddi aşınmalara məruz qalmasında ona rəhbərlik edən şəxslərin nəzəri və praktiki səviyyəsindən başqa mənəvi keyfiyyətləri də öz sözünü deyirdi.

Heydər Əliyev orduda müsbət dəyişikliklərin olmasını dəfələrlə öz çıxışlarında bildirməsinə baxmayaraq, 1994-cü ilin sonlarına doğru bu istiqamətdə tutulan xəttin zəifləməsinə ciddi diqqət yetirirdi. Ümumiyyətlə, o, ordunun möhkəmləndirilməsində kadrların seçilib yerləşdirilməsinə xüsusi fikir verirdi. 1993-cü ilin noyabrından etibarən ordu quruculuğunda yaranan müsbət cəhətlər də ordunun rəhbərliyində Heydər Əliyev tərəfindən ciddi kadr dəyişikliklərinin aparılması ilə bağlı idi. Həmin kadrların gərgin fəaliyyəti ilə ordunun möhkəmləndiyini nümayiş etdirən əlamətlərdən biri də mənəvi-psixoloji vəziyyətin müəyyən qədər sağlamlaşması idi. Bu isə göstərirdi ki, bütün cəmiyyətdə olduğu kimi, orduda da mənəvi-psixoloji vəziyyətin möhkəmləndirilməsində bu işə məsul olan kadrların böyük rolu vardır. Silahlı Qüvvələr quruculuğunun, xüsusilə ilkin mərhələlərində bu sahədə ciddi nöqsanlar olmuşdur. Kadrların seçilməsində və yerləşdirilməsində ən adi nəzəri və praktiki təcrübəyə riayət edilməmişdi. Sözsüz ki, burada bir sıra obyektiv çətinliklər də mövcud idi. Bu-

nunla belə, ordunun rastlaşdığı bəlaların, o cümlədən mənəvi amilin aşınmasının müəyyən kökləri subyektiv cəhətlərlə bağlı idi. Hər şeydən əvvəl, zabit kadrlarının çox böyük bir hissəsi nə müasir ordunun, nə də müharibə şəraitinin tələblərinə cavab verirdi. Bəzi zabitlər mənəvi cəhətdən sabit ola bilmədikləri kimi, tabeliklərində olan şəxsi heyətin mənəvi möhkəmliyini də təmin edə bilmirdilər. Müxtəlif səviyyəli komandir kadrlarının seçilməsi üçün baza yox idi. Təşkilinə başlandığı vaxt Azərbaycan Ordusunun üzləşdiyi əsas problemlərdən biri də məhz kadr problemi idi.

Çətin dövrün, şəraitin tələblərinə cavab verəcək, zəkası, qorxmazlığı, hərbi keyfiyyətləri ilə bütün şəxsi heyəti döyüşə, hərbi tapşırıqların icrasına ruhlandıra, rəhbərlik etdiyi hissə və bölmənin daim döyüş hazırlığı səviyyəsində saxlaya biləcək kadrların seçilib müvafiq vəzifələrə təyin edilməsi də böyük bacarıq və təcrübə tələb edirdi. Azərbaycan Respublikası Silahlı Qüvvələri sıralarında öz hərbi və mənəvi keyfiyyətləri ilə belə tələblərə cavab verən zabitlər də az deyildi. Heydər Əliyev də öz çıxışlarında dəfələrlə belə zabitlərin adlarını qürur və iftixarla çəkmişdi. Belə zabitlərdən çoxlu sayda Azərbaycanın Milli Qəhrəmanı kimi yüksək ada layiq görülənlər də az deyildi. Lakin uzun müddət «kadr siyasətində yeganə meyar olan istedad, qabiliyyət, səriştə və səviyyə məsələləri arxa plana keçdiyindən» və «iqtidar kadrları əsasən şəxsi sədaqət, dostbazlıq münasibətlərinə, yerliçilik prinsiplərinə görə seçdiyindən» (36) Silahlı Qüvvələrdə də prinsipial kadr siyasəti yeritmək üçün münasib şərait yaranmamışdı. Ordu təşkilinin elə ilk günlərindən aydın olmuşdu ki, «ayrı-ayrı qruplar, ictimai axınlar yaradılacaq ordunu öz təsiri altında saxlamaq istəyir, bu məqsədlə onlara yaxın olan zabitlər müxtəlif vəzifələrə təyin edilir. Burada istedad,

bacarıq, hərbi səriştə nəzərə alınmır. Buna nail olmayanda təzyiqlərə əl atır, piket keçirir, işləməyə imkan vermirdilər» (37).

1992-ci ilin martında respublikadakı ağır ictimai-siyasi və hərbi şəraitdə hərbi təhsili və təşkilatçılıq təcrübəsi olmayan mülki şəxsin Müdafiə naziri təyin edilməsi də ordu quruculuğunda buraxılan kobud səhvlərdən biri idi. Müşahidəçilərin və mütəxəssislərin fikrincə, Azərbaycan Ordusunun ayrı-ayrı hallar istisna edilməklə bir-birinin ardınca uğursuzluğa düçar olmasının başlıca səbəblərindən biri də ordu quruculuğu kimi mürəkkəb bir proses və irimiqyaslı döyüşlərin aparılması barədə təsəvvürü olmayan mülki adamların məsul vəzifələrə təyin edilməsi idi. Yüksək ümumi hazırlığı, ictimai və texniki elmlər sahəsində ciddi biliyi olmayan şəxslərin dövlətin və xalqın taleyinin həlledici anlarında məsul vəzifələrə təyin edilməsi elə əvvəlcədən də bu sahədə uğursuzluğa şərait yaradılması demək idi.

Silahlı Qüvvələr quruculuğuna rəhbərliyin təcrübəsiz və hazırlıqsız kadrlara tapşırılması çox zaman ya siyasi mənsubiyyətinə görə, ya şəxsi sədaqətinə görə, bəzən isə məqsədyönlü şəkildə edilirdi. Məsələn, cəbhəboyu rayonlarda yaradılmış hərbi hissələrin əksəriyyətinə Xalq Cəbhəsinin müvafiq rayon rəhbərləri, ya da fəalları komandir təyin edilmişdi. Bir çox komandirlər isə bu vəzifələri yalnız şəxsi mənfəət xatirinə tutmağa çalışırdılar. Çünki ordu bir vaxt «Azərbaycanın ən gəlirli biznesinə çevrilmişdi». İki aya vicdansız batalyon komandiri milyoner ola bilirdi. Gündə bir sex açılan kimi «batalyon» açılırdı. Əsgərə, könüllüyə maaş verəndən sonra orduda «ölü canlar» çoxaldı (38). Bu isə müftəxorluq üçün geniş imkanlar açdı.

Müdafiə Nazirliyinin rəhbərliyində ən məsul vəzifələrin əksəriyyətini də mülki şəxslər tutmuşdular. İradəcə möhkəm olmayan, hərbi xidmətin çətinlikləri ilə üzləşməyən, tutduğu vəzifəyə qa-

zanc mənbəyi kimi baxan belə şəxslərin digər zabit və əsgərlərə göstərdiyi mənəvi təsir də güclü ola bilməzdi. Müdafiə nazirinin kadrlar üzrə müavini polis işçisi, silahlar üzrə müavini mülki şəxs idi (39). Az sonra Müdafiə Nazirliyi Döyüş hazırlığı idarəsinin rəisi kimi məsul vəzifəyə də hərbi təhsili olmayan Əlikram Hümbətov təyin edildi. O, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin döyüş hazırlığına rəhbərlik etməli idi. Müdafiə Nazirliyinin rəhbərliyində yaranmış anlaşılmazlıq, səriştəsiz kadrların məsul vəzifələrə təyin edilməsi, onların süstlüyü və qətiyyətsizliyi hərbi hissələrə də birbaşa təsir edirdi. Hissə və bölmələrin komandirlərinə qarşı tələbkarlıq zəifləyir, məsuliyyətsizlik artırdı. Tələbkarlıqdan və məsuliyyətdən uzaq olan komandirlər isə xidmət rejimini pozmaqla qanunsuzluq yoluna düşür və tabeçiliyində olanları da bu yola sövq edirdilər. Mənəvi keyfiyyətləri ilə ictimai təhlükə törədən komandirlərin rəhbərliyi altındakı dəstələr cəbhə bölgələrində orduya həvalə edilən vəzifələri yox, öz məqsədlərini həyata keçirməklə məşğul idilər. Onlar təxribatlara, xəyanətə, siyasi oyunlara, talan və cinayətkarlığa əl atmaq və s. yollarla, əslində, ordunun zəifləməsinə və torpaqların boşaldılmasına şərait yaradırdılar. Azərbaycan Respublikası Silahlı Qüvvələri daxildən və xaricdən belə təxribatlara demək olar ki, bütün cəbhə xətti boyu məruz qalırdı. Məsələn, Füzuli rayonunda yerləşən hərbi briqadanın 5-ci taborunun komandiri rayon ərazisində vəziyyətin gərginləşdirilməsində iştirak etmiş, silah satmaqla məşğul olmuş, yerli hakimiyyət orqanlarının fəaliyyətinə müdaxilə etmiş, müxtəlif bəhanələrlə döyüş tapşırıqlarını icra etməkdən yayınmışdı (40). Belə bir fəaliyyətlə Beyləqan rayonunda yerləşən hissəsinin qərargah rəisi də məşğul olurdu.

Cəbhə Səhra Komandanlığının Müdafiə Nazirliyinə təqdim etdiyi bir məlumatda bildirilirdi ki, Ağdam, Füzuli, Cəbrayıl, Qu-

badlı rayonlarının işğalı siyasi məqsədlər naminə şayiələr yayan, təxribata çağıran, partiyalararası didişməyə qoşulan insanların orduya təsir göstərməsi və hərbi hissələrin mənəvi cəhətdən iflic vəziyyətinə düşməsi nəticəsində mümkün olmuşdu. Bu hal özünü Qubadlı rayonunun işğalı zamanı da göstərdi. Digər bölgələrdə də bir sıra hissə komandirləri döyüş tapşırığını yerinə yetirməkdən imtina edib geriyə qaçır və bütün şəxsi heyəti də özü ilə aparırdı. Bir sıra hissələrin komandirləri dəfələrlə inzibati qaydada cəzalandırılmışdılar (41). Bəzi hissələrdə özünə yer tapmış zabitlərin, səriştəsiz və savadsız komandirlərin yeniləri ilə əvəz edilməsi və hissələrdə normal atmosferin yaradılması üçün Müdafiə nazirinin, respublikanın Baş nazirinin adına raportlar da göndərilmişdi. Ancaq bütün bunlar vəziyyətin düzəlməsinə təsir göstərməmişdi. Əslində, respublikada hərc-mərclik, xaos hökm sürdüyü, bütünlükdə kadr təyinatında ciddi əyintilərə yol verildiyi halda Müdafiə Nazirliyinin strukturlarını cəmiyyətdən təcrid edib buradakı kadr siyasətində müsbət nəticələr əldə etmək olmazdı. Hətta respublikanın torpaqlarının günü-gündən erməni təcavüzkarları tərəfindən daha geniş surətdə işğal edilməsi bəzi zabitlərdə, hissə və bölmə komandirlərində vətəndaşlıq hissi oyatmırdı. Məsələn, respublikanın hüquq-inzibati orqanlarının birindən Müdafiə Nazirliyinin rəhbərliyinin adına daxil olmuş məktubda belə zabitləri və komandirləri ilə «tanınan» hissələrin birindəki vəziyyət açıqlanmışdı (42). Məktubda bildirilirdi ki, komandanlığın günahı üzündən «N» nömrəli hərbi hissədə çox gərgin vəziyyət yaranmışdır. Belə ki, Xalq Cəbhəsinin iqtidarda olduğu vaxt bu vəzifəyə təyin olunmuş hissə komandiri öz ətrafına əxlaqi və işgüzar keyfiyyətləri çox aşağı olan kadrlar toplamış və faktiki olaraq özbaşınalıqla məşğul olur. Komandir və onun müavinləri əsgərləri tərbiyələndirmək adı ilə onları ağacla,

məftillə döyür və daha dəhşətli cəza növləri icad edirlər. Bununla da xidmətə gəlmiş cavanları alçaldır, şəxsiyyətini təhqir edir, fiziki təzyiqlərə məruz qoyurlar. Hətta kimsə ilə hesablaşmayaraq onun xoşuna gəlməyən zabitləri də əsgərlərlə birlikdə hauptvaxta saldırır. Məktubda belə cəzaya məruz qalmış zabitlərdən bir neçəsinin adı və vəzifəsi də göstərilirdi. Hissə komandirləri və ətrafındakılar yerləşdikləri rayonun prokurorluğunda işləyən «öz» adamlarının köməyinə arxalanaraq onların fikri ilə razı olmayanları təqib edir, açıq-açığına sərxoşluq etməkdən çəkinmirdilər. Cəzasızlıqdan daha da fəallaşan hissənin rəhbər zabitləri şəxsi heyət üçün gətirilmiş ərzağı satır, beləliklə də, ağır şəraitdə xidmət edən əsgərlərə sıyıq və çaydan başqa bir şey vermirdilər. Pal-paltar isə yalnız ayrı-ayrı əsgərlərə paylanırdı. Hətta bununla da kifayətlənməyən bəzi zabitlər həlak olanların ailələrinə maddi kömək adı ilə xeyli maliyyə vəsaitini də mənimsəyib öz bildikləri kimi istifadə edirdilər. Məktubda bildirilirdi ki, son altı ayda nə komandir, nə də onun ətrafındakılar döyüş əməliyyatlarında iştirak etməmişdilər, onlar məsuliyyətini üzərlərinə götürdükləri şəxsi heyətin qayğısına qalmır və hətta öz şəxsi silahlarını da qoruyub saxlaya bilmirdilər.

Komandirlərin və cavabdeh şəxslərin öz vəzifə borclarının icrasına belə yanaşması hissə və bölmələrin bütün həyat və fəaliyyətinə də sirayət edir, xidməti iflic halına salırdı. Bunun nəticəsi idi ki, hissələrin çoxunda şəxsi heyətin qeydiyyatı özbaşına buraxılır, hərbi komissarlıqlardan xidmətə yenicə gələnlər şəxsi heyət üzrə əmrlərə salınmır, sutkalıq məlumat vərəqəsi vaxtında doldurulmur, döyüş itkiləri haqqında aydın məlumat olmurdu (43).

Hissələrin bir çoxunda şəxsi heyətin qidalanmasında pozuntular qeydə alınmış, nəzarətsizlik üzündən ərzağın oğurlanması baş vermişdi. Bəzi hissələrdə isə yanacaq-sürtkü materiallarının

yersiz israfçılığı yuxarı instansiyaların xüsusi narahatçılığına səbəb olmuşdu (44).

Zabitlərin böyük bir hissəsi kütləvi şəkildə qanunsuzluq, vəzifə və vətəndaşlıq borcuna xəyanət, iradəsizlik, mənəviyyatsızlıq nümayiş etdirdikləri halda, onların tabeliyindəki sıravi heyətin həmişə sağlam ruhda qalacağını gözləmək, əlbəttə ki, doğru olmazdı. Bir daha qeyd edilməlidir ki, Silahlı Qüvvələrin heç də bütün şəxsi heyəti belə mənəvi keyfiyyətlərlə xarakterizə olunmurdu. Lakin mövcud olan qanunsuzluqlar, cinayətkarlıq, mənəvi kasadlıq bir çox hissələri iflic vəziyyətinə salmışdı və müəyyən hissələrdə belə vəziyyətin yaranmasında Heydər Əliyev zabit və komandirlərin günahının böyük olduğunu haqlı olaraq qeyd edirdi. O bildirirdi ki, «son illərdə mənfi proseslər insanların bir çoxunun mənəviyyatını pozmuş, onların bəzilərində vətənpərvərlik hisslərini tamamilə kütləşdirmişdir. Vətəni qorumaq, torpağa bağlı olmaq hissini – «ölsəm də öz torpağımda şəhid olum» hissini çoxları itirmişdir. Bu onların günahı deyil, onlara rəhbərlik edən adamların təqsiridir» (45).

Onu da qeyd edək ki, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin formalaşdırılmasına başlayarkən orduda mənəvi-ideoloji və hərbi-vətənpərvərlik tərbiyəsi ilə məşğul olacaq orqanların yaradılmasına da Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən lazımi diqqət yetirilməmişdi.

Qoşun hissələrində mənəvi-ideoloji və hərbi-vətənpərvərlik işlərinə rəhbərlik edəcək Tərbiyə şöbəsinin təşkili barədə Müdafiə naziri tərəfindən 1992-ci il fevral ayının 28-də əmr verilmişdi (46). Mütəxəssislərin fikrincə, bu əmr, əslində, formal xarakter daşıyırdı, tərbiyə işləri ilə məşğul olacaq strukturların status və səlahiyyətləri onların qarşısında dayanan vəzifələrin tələblərinə cavab vermirdi (47). Bu dövrdə yaranmış vəziyyətdən çıxmaq

üçün zabit iclaslarının, dini strukturların, psixoloji hazırlıq orqanlarının, ictimai-siyasi qurumlarla əlaqə orqanlarının işə salınması, təlim-tərbiyə prosesinin gücləndirilməsində mətbuatın imkanlarından istifadə edilməsi nəzərdə tutulmuşdu.

Rəhbərliyinin böyük bir hissəsi mülki və qeyri-peşəkar şəxslərdən ibarət olan Silahlı Qüvvələrdə bütün mənəvi-ideoloji və hərbi-vətənpərvərlik tərbiyəsinə Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən belə laqeyd və birtərəfli münasibət yaranmışdı. Doğrudur, Nazirliyin Tərbiyə işi şöbəsinin tərkibinin genişləndirilməsi və onun Sosial-siyasi iş idarəsi adlandırılması barədə 1992-ci il avqust ayının 29-da xüsusi əmr imzalandı. Bu idarənin zabitləri və hissələrdəki müvafiq strukturların vasitəsilə müəyyən işlər də görüldü. Hər şeydən əvvəl lazımi əsasnamə hazırlandı, tərbiyə işi ilə məşğul olan hərbçilərin vəzifələri və funksiyaları müəyyənləşdirildi, Bakı Politologiya və Sosial İdarəetmə İnstitutunun, Bakı Ali Hərbi Dənizçilik Məktəbinin nəzdində yeni kadrların hazırlanması üçün müvafiq olaraq biraylıq və üçaylıq kurslar təşkil edildi, təbliğat qrupları yaradıldı, kadrlar seçildi, humanitar hazırlıq üzrə metodiki vəsaitlər tərtib edildi. 1993-cü ildə humanitar hazırlığın aparılması məqsədilə general və zabitlər, gizirlər, gənc əsgərlər üçün və müddətli hərbi xidmətçilər üçün ayrı-ayrılıqda xüsusi tədris proqramları hazırlandı. Bunların nəticəsində bir sıra hissə və bölmələrdə şəxsi heyətin mənəvi-psixoloji tərbiyəsi işində bir canlanma yarandı. Lakin bütünlükdə mənəvi-ideoloji və hərbi-vətənpərvərlik işinin səviyyəsi müharibə şəraitinin tələblərinə cavab vermirdi. Bunun bir sıra səbəbləri var idi. Ən əvvəl Müdafiə Nazirliyinin rəhbərliyi şəxsi heyət arasında tərbiyə işinin aparılmasını lazımınca qiymətləndirmir, bu məsələyə laqeyd yanaşırdı. Ona görə də bu sahədə məsul vəzifələrə çox zaman təsadüfi adamlar, xüsusi hazırlığı olmayanlar, hətta əsgər və ça-

vuşlar təyin edilirdi. Onların çoxu isə öz hüquq və vəzifələrini düzgün təsəvvür edə bilmədikləri üçün tamam başqa işlərlə məşğul olur və beləliklə də, şəxsi heyətin təlim-tərbiyəsi özbaşına buraxılırdı (48).

Bundan əlavə, hərbi qulluqçular arasında izahetmə və təbliğat işləri aparılmır, şəxsi heyətin asudə vaxtı təşkil edilmirdi, tərbiyə işlərinin təsirli formaları seçilmir və çox vaxt bu proses inzibatçılıqla əvəz olunurdu. Cəbhəboyu rayonlarda yerləşən hərbi hissələrdə təbliğatın texniki vasitələrinin olmaması üzündən respublikada və dünyada baş verən hadisələrin şəxsi heyətə çatdırılmasında operativlik pozulurdu.

Müdafiə nazirinin «Azərbaycan Respublikası Silahlı Qüvvələrində hərbi intizamın gücləndirilməsi məqsədilə aparılan işlərin keyfiyyətinin yüksəldilməsi haqqında» 9 aprel 1993-cü il tarixli əmrində mövcud vəziyyətlə əlaqədar qeyd edilirdi ki, hərbi hissələrdə hərbi intizamın tələblərinə, hərbi xidmət haqqında respublika qanunlarına, hərbi nizamnamələrin şərtlərinə, Müdafiə nazirinin əmr və sərəncamlarına ciddi əməl edilmir, tərbiyə işlərinə cavabdeh olan şəxslərin məsuliyyətsizliyi və səhlənkarlığı gənc əsgərlərin incidilməsinə, hərbi hissələrin özbaşına tərk edilməsinə, əsgər və çavuşların qazanc məqsədilə qeyri-qanuni şəkildə evlərinə buraxılmasına gətirib çıxarır, şəxsi heyət arasında spirtli içkilərin və narkotik maddələrin qəbuluna meyil artır, hərbi xidmətdən boyunqaçırma halları çoxalır. Müdafiə Nazirliyinin rəhbərliyinin fikrincə, belə neqativ halların artmasına əsas səbəb təlim-tərbiyə işlərinin aparılmasında ciddi qüsurlara yol verilməsi, zabit heyətinin hərbi və mənəvi səviyyəsinin aşağı olması, komandirlərin şəxsi nümunə göstərə bilməmələri, xidmət üçün lazımi şəraitin yaradılmaması, nümunəvi xidmət edən hərbi qulluqçuların diqqətdən kənarda qalması, şəxsi heyətin problemlərinə

qayğı ilə yanaşılmaması, onlara münasibətdə kobud rəftara yol verilməsi və s. məsələlər idi (49).

Müdafiə nazirinin «Azərbaycan Respublikası Silahlı Qüvvələrinin kütləvi təşviqat işi haqqında» 29 aprel 1993-cü il tarixli 14 N-li direktivində mənəvi-ideoloji sahədə olan nöqsanlar xüsusi narahatlıqla qeyd edilirdi. Direktivdə göstərilirdi ki, kütləvi təşviqat işində çoxlu çatışmazlıqlar var. Bu işin həyatla əlaqəsi, keyfiyyəti, təsirliliyi tam əldə olunmayıb, tədbirlər çox vaxt yüksək ideya səviyyəsində keçirilmir, döyüş və siyasi hazırlıq vəzifələrinin həllinə, hərbi intizamın və nizamnamə qaydalarının möhkəmlənməsinə kömək etmir, hərbi hissələrin rəhbərləri bu vacib məsələyə laqeyd yanaşırlar.

Prezident aparatı tərəfindən 1993-cü ilin aprel ayında qoşun hissələrində aparılmış yoxlamalar zamanı bir neçə hərbi hissədə Prezidentin müvafiq fərmanı olmadan hərbi xidmətçilərin tərxis edilməsi halları aşkar edilmişdi. Yoxlamalar zamanı bəzi hissələrdə intizamsızlığın böhranlı xarakter aldığı qeyd olunmuşdu (50).

Hətta ən elementar intizamsızlığın hərbi hissələrin döyüş hazırlığının səviyyəsinə təsir göstərəcəyi ehtimalı təşviş doğura biləcəyi halda, müharibə aparan Azərbaycan Ordusunda kütləvi intizamsızlıqların baş alıb getməsi az qala adi hala çevrilmişdi. Doğrudur, bu neqativ halların qarşısının alınması üçün hərbi hüquq-mühafizə orqanları tərəfindən də müəyyən işlər aparılmasına cəhd göstərilirdi. 1993-cü ilin sentyabr ayına kimi 1099 hərbi cinayətin üstü açılmış, 1299-dən çox adam məhkum olmuşdu. Məhkum olunanlardan 62 faizi koloniyalara, 12 nəfər günahlarını yumaq üçün döyüş bölgələrinə göndərilmiş, 7 nəfər isə ölüm cəzasına məhkum edilmişdi. Lakin bu tədbirlər də ordudakı vəziyyətdə ciddi bir dəyişiklik yaranmasına kömək etmədi. Bütün bunların nəticəsi idi ki, erməni silahlı dəstələri hücum edən zaman bəzi taqım və bölüklər öz mövqelərini atıb geri qaçırdılar.

Ümumiyyətlə, 1993-cü ilin noyabrınadək hərbi hissələrin şəxsi heyətinin mənəvi-psixoloji tərbiyəsində, onların verilən döyüş tapşırıqlarının icrasına səfərbər edilməsində köklü dəyişikliklər yaratmaq mümkün olmadı. Azərbaycan Ordusunun bir çox əsgər və zabitləri respublikanın ərazi bütövlüyü uğrunda gedən mübarizədə saysız qəhrəmanlıq nümunələri göstərsələr də, onların çoxu fərdi təşəbbüskarlığın, şəxsi vətəndaşlıq mövqeyinin nəticəsi kimi özünü büruzə verirdi. Ancaq belə təcrübənin ümumiləşdirilməməsi, mənəvi-ideoloji və hərbi-vətənpərvərlik tərbiyəsinin səmərəliliyinin təmin edilməməsi nəticəsində hissələrin əksəriyyətində çox dərin böhran yaranmışdı. Təlim-tərbiyə prosesinin düzgün qurulmaması nəticəsində hissələrin özbaşına tərk edilməsi, fərarilik kütləvi hal almışdı. Məsələn, hərbi hissələrin birində fərarilərin sayı 1993-cü ilin mart ayında 56 nəfər, aprel ayında 174 nəfər, may ayında 198 nəfər olmuşdusa, sentyabr ayında bu rəqəm 442-yə çatmışdı (51).

1993-cü ilin oktyabr ayının sonlarında cəbhə bölgəsindəki hərbi hissələrdən fərarilik edən sıravi heyətin sayı 7 min nəfərə çatmışdı (52). Heydər Əliyev bu vəziyyəti dözülməz hal kimi xarakterizə edirdi. O, fərariliyi Vətənə xəyanət, satqınlıq kimi qiymətləndirir və bütün qətiyyəti ilə ictimaiyyətdə belə hərəkət edənlərə qarşı barışmaz münasibətini bildirirdi (53). Heydər Əliyev ictimaiyyətlə görüşlərindən birində bu barədə belə deyirdi: «...Ordunun bəzi hissələrində fərarilərin sayı artıb. Bu, dözülməz haldır. Hər bir fərari ictimaiyyətdə, cəmiyyətdə nifrətlə qarşılanmalıdır, bilməlidir ki, əgər fərarilik edirsə, xalqına, millətinə, ölkəsinə, öz doğma atasına-anasına xəyanət edir» (54).

Respublika Prezidenti və Azərbaycan xalqının rəhbəri kimi Heydər Əliyev Azərbaycan oğullarının öz torpaqlarına xəyanət etməsindən, tarixi-mənəvi dəyərlərə nankorluqla yanaşmasından

narahatlıq keçirirdi və belələrini mənəvi yetkinliyi, əqidə bütövlüyü ilə seçilənlərlə müqayisə edərək Azərbaycanın mənafeləri, bütövlüyü və suverenliyi uğrunda həyatı və varlığı ilə vuruşan gənclərin xidmətindən qürurla danışırdı: «Sizin burada erməni işğalçıları ilə üzbəüz durmağınız hər bir azərbaycanlı gənc üçün nümunə olmalıdır və siz nümunəsiniz. Siz ağır şəraitdə yaşasanız da mərdsiniz, qoçaqsınız, mətanətlisiniz. Bütün Azərbaycan gəncləri məhz belə olmalıdır. Bizim xalqımız əsrlər boyu belə mərd, cəngavər övladlar yetirib, onlar da Azərbaycanı əsrlərdən bəri qoruyub saxlayıb, gətirib müstəqil dövlətə çeviribdir. Sizin mətanətiniz və rəşadətinizlə torpaqlarımızı azad edib müstəqil Azərbaycanın ərazi bütövlüyünə nail olacağıq» (55).

Çıxışlarının birində isə Heydər Əliyev vəzifə borcunu sədaqətlə yerinə yetirən və erməni təcavüzünə qarşı mübarizədə qətiyyət nümayiş etdirən belə gənclərə müraciətlə deyirdi: «Torpaqlarımızı, Vətənimizi, müstəqil Azərbaycanımızı qorumaq sizin şərəfli borcunuzdur. Siz bu borcunuzu düşmənlə üzbəüz olan bir nöqtədə yerinə yetirirsiniz. Vəzifəmiz Azərbaycanın ərazi bütövlüyünü qorumaqdır. Dövlət səviyyəsində bunun üçün müxtəlif tədbirlər görülür. Biz çalışırıq ki, siyasi vasitələrdən istifadə edək. Ordunun borcu isə ondan ibarətdir ki, dövlətin siyasətini səmərəli etmək üçün öz gücünü artırsın. Bu gücün artması siyasi tədbirlərin, danışıqların müsbət nəticə verməsinə mühüm kömək edər. Azərbaycanın gənc övladları, torpağımızın keşiyində duran Azərbaycan balaları, mən sizi gördükcə ürəyim fərəhlə döyünür. Burada erməni işğalçılarına qarşı möhkəm durduğunuzu gördükcə həm mən, həm də bütün Azərbaycan vətəndaşları sevinir. Əminəm ki, siz həm ata-ananızın, doğma torpağınızın, həm də Azərbaycan xalqının ümidlərini doğruldacaqsınız» (56).

Ölkənin, millətin bu gününün və sabahının ümidi kimi qiymətləndirdiyi Azərbaycan gənclərini Heydər Əliyev belə görmək istəyir, bir sıra gənclərin Vətənin çətin günündə müftəxor həyat tərzi seçmələrini xalqın milli-tarixi köklərindən, adət və ənənələrindən uzaq düşmək kimi xarakterizə edir, onları mənəvi yetkinliyə, Vətən və torpaq təəssübü çəkməyə çağırırdı. Heydər Əliyev Bakıda alver edib kommersiya mağazalarında kök salanlara, eyş-işrətlə məşğul olub mənəviyyatsızlıq göstərən gənclərə xəbərdarlıqla bildirirdi ki, bu torpaq, bu Vətən hamınındır, hamı da eyni əzmkarlıqla onu qorumalıdır, onun yolunda canından belə keçməyə hazır olmalıdır (57).

Heydər Əliyev fərarilərə də belə tövsiyə və tələblərlə müraciət edirdi. O, qorxaqlıq göstərən, Vətənə xidmətdən üz döndərən hər bir gəncə onun vətəndaşlıq borcunu anlatmağa çalışırdı. Məlumdur ki, Heydər Əliyev fərarilərə qarşı sərt inzibati cəzaların verilməsinin əleyhinə olmuş, izahetmə və təbliğat yolu ilə onları tutduqları yoldan çəkindirməyə üstünlük vermişdi. Heydər Əliyev fərariliyin ictimai-zərərli nəticələrini elə böyük dəqiqliklə təhlil edirdi ki, bu inzibati tədbirlərdən də güclü təsirə malik olurdu. Ölkə Prezidentinin hərbi məsələlərlə bağlı hər bir çıxışı güclü səfərbəredici qüvvəyə malik idi.

Dövlət rəhbərinin əsgər və zabitlərlə, ictimaiyyətin nümayəndələri ilə görüşləri, onlarla söhbətləri, vacib problemlər ətrafında fikir mübadiləsi aparması həm də təsirli təbliğat fəaliyyətinin nümunəsi idi.

1993-cü ilin sonu, 1994-cü ilin əvvəllərində fərarilərin öz səhvlərini başa düşüb geri qayıtması, orduda fərariliyin azalması Heydər Əliyevin respublikanın taleyinə, bu gününə və sabahına narahatlıq ifadə edən söhbətlərinin, çıxışlarının və onlarla birlikdə həyata keçirdiyi əməli tədbirlərin nəticəsi idi (58).

Heydər Əliyev əsgərlərdə və bütövlükdə gənclərdə mənəvi böhranın güclənməsinin səbəblərini əsasən son illərdə gedən ictimai-siyasi proseslərlə bağlayırdı. Onun fikrincə, bu məsələ həm də gənclərin məruz qaldığı təsirlərlə bağlı idi. Çünki gənclər həmişə valideynlərinin, onları tərbiyə edənlərin, yaşadıqları mühitin təsiri altında idilər. Buna görə gənclərin tərbiyələndirilməsində, əsgərlərin mənəvi əhval-ruhiyyəsinin gücləndirilməsində, fərarilərin düz yola qaytarılmasında ilk növbədə ictimaiyyətin, ictimai və dövlət orqanlarının, ailənin və valideynlərin görə biləcəkləri iş xüsusi əhəmiyyət kəsb edirdi. Heydər Əliyev fərariliyin qarşısının alınması ilə bağlı valideynlərin və ictimaiyyətin üzərinə ciddi məsuliyyət düşdüyünü bildirirdi (59).

«Kim özü orduda qulluq edə bilirsə, qoy könüllü surətdə getsin. Kim özü qulluq edə bilmirsə, yanındakıları başa salsın ki, gedib orduda xidmət etmək lazımdır. Yaxud əgər özü orduda qulluq edə bilmirsə, fikirləşsin ki, orduya necə kömək etmək lazımdır. İndi bunların hamısı ən zəruri vəzifələrdir. Bütün xalqa, Azərbaycan vətəndaşlarına müraciət edirəm ki, bu tədbirlərin həyata keçirilməsində fəal iştirak etsinlər» (60).

Silahlı Qüvvələrin şəxsi heyətinin mənəvi-psixoloji hazırlığının yaxşılaşdırılmasında Heydər Əliyev informasiya və təbliğat vasitələrindən də geniş istifadə edilməsinin vacibliyini vurğulayırdı. O təkid edirdi ki, orduda xidməti özünə şərəf sayan gənclərin əsgəri qayğıları mətbuatda geniş işıqlandırılmalı və onların xidmət yolu bütün xalqa çatdırılmalıdır (61).

Yuxarıda qeyd edildiyi kimi, Heydər Əliyev cəmiyyətin, hərbi hissələrin şəxsi heyətinin mənəvi sağlamlaşdırılmasında respublika ziyalılarının gücündən də istifadə edilməsinin böyük əhəmiyyətini qeyd edirdi. O bildirirdi ki, Azərbaycan xalqının həm qəhrəmanlıq, həm döyüş, həm də intellektual potensialının

reallaşdırılmasının zəruriliyi ziyalılar qarşısında da yeni vəzifələr qoymuşdur və respublikanın taleyi onlardan da öz vətəndaşlıq borclarına məsuliyyətlə yanaşmalarını tələb edirdi.

Respublika Prezidenti insanların mənəvi zənginləşməsində, ordunun mənəvi cəhətdən möhkəmləndirilməsində İslam dininin təsirinə, din xadimlərinin praktiki fəaliyyətinə də böyük əhəmiyyət verirdi. O öz çıxışlarında, müraciətlərində yeri gəldikcə İslam dininin xalqın həyatında və mənəviyyatında oynadığı rola toxunur, Azərbaycanın müstəqilliyinin, onun ordusunun möhkəmləndirilməsində din xadimlərinin, bütün möminlərin görə biləcəkləri işdən danışırdı. O bildirirdi ki, İslam dini əsrlər boyu mənəviyyatımızın əsasında dayanmış, müsəlmanların dünyada layiqli yer tutmasını təmin etmişdir. Qurani-Kərimin bütün kəlamları bu gün Azərbaycanda Allahın yolu ilə getməyimiz üçün məşəldir. Biz bu yolla bundan sonra da gedəcəyik (62).

Heydər Əliyev Azərbaycanın müstəqilliyinin əldə edilməsindən sonra dinin qarşısında qoyulan bütün qadağaların aradan götürülməsini yenidən tarixi köklərə qayıtmaq, milli-mənəvi ənənələri bərpa etmək üçün tarixi imkan kimi qiymətləndirir və dinin inkişafı üçün hər cür imkanlar yaradılmasını təmin edəcəyinə söz verirdi.

Dövlət rəhbəri möminlərlə görüşünün birində xüsusi olaraq vurğulayırdı ki, İslam dininin, Qurani-Kərimin insanları saflığa, təmizliyə, ülvi mənəviyyata dəvət etməsi, onlarda mənəvi paklıq aşılaması müasir dövrdə sonsuz əhəmiyyətə malikdir. O bu məsələlərin aktuallığını Azərbaycanın müstəqilliyi uğrunda aparılan mübarizə ilə bağlayırdı. Heydər Əliyev əlinə silah alıb Vətən uğrunda vuruşan gənclərin öz milli, tarixi qəhrəmanlıq ənənələrinə, saf tərbiyəyə tapındığı kimi, dini ideallara tapındığını da qeyd edirdi: «İslam dini həmişə insanları saflığa, təmizliyə, ülvi mə-

nəviyyata dəvət etmişdir. Qurani-Kərim insanları düzlük, mənəvi paklıq ruhunda tərbiyə edir. Müstəqil Azərbaycan Respublikasının bu ağır, çox çətin, keşməkeşli dövründə bütün bunların bizdən ötrü böyük əhəmiyyəti var. Ölkəmiz altı ildir ki, müharibə şəraitindədir. Ermənistanın silahlı təcavüzü nəticəsində Azərbaycan ərazisinin iyirmi faizi işğal edilmişdir, bir milyondan artıq vətəndaşımız qaçqın vəziyyətində yaşayır. Xalqımız bu müharibədə qəhrəmanlıq nümunələri göstərmişdir. Cəsur oğullarımız öz torpağına, Vətəninə, milli ənənələrinə, dininə, inamına sadiq qalaraq Azərbaycanın ərazi bütövlüyünü, müstəqilliyini qorumaq naminə fədakarlıqla vuruşmuş və canlarından keçmiş, şikəst olmuşlar» (63).

Heydər Əliyevin fikrincə, Azərbaycanın çətin dövründə insanları daxilən bir-birinə bağlayan, onların mənəviyyatını daha da gücləndirən ən başlıca qüvvələrdən biri məhz İslam dininin mənəvi dəyərləri olmuşdu. O qeyd edirdi ki, ordunun gücləndirilməsində, adamların vətənpərvərlik ruhunun qaldırılmasında, hər bir azərbaycanlının Vətənin müdafiəsinə ən müqəddəs borc kimi baxmasında və nəhayət, işğal edilmiş torpaqların azad edilməsində İslam dininin mənəvi dəyərlərinin, möminlərin ibrətverici tövsiyələrinin böyük rolu ola bilər. Respublika Prezidenti İslam dininin mənəvi dəyərlərinə Azərbaycan xalqının mənəviyyatının, daxili aləminin, varlığının məzmununu müəyyənləşdirən, istiqamətləndirən yaradıcı və müqəddəs bir qüvvə kimi baxırdı. Heydər Əliyev əmin olduğunu da bildirirdi ki, dindarlar, möminlər insanların, o cümlədən əsgər və zabitlərin mənəviyyatının möhkəmləndirilməsində öz imkanlarını əsirgəməyəcəklər: «Bununla yanaşı, silahlı qüvvələrimizin daha da möhkəmləndirilməsini unutmamalıyıq. Ona görə ki, cəbhə bölgəsində torpaqlarımızı etibarlı müdafiə edə bilək. Həm də ona görə ki, hər bir müstəqil

dövlətin güclü ordusu olmalıdır. Müstəqil Azərbaycanın belə bir güclü ordusunun yaranmasında dinimizin qoyduğu yol insanların torpağa, öz xalqına, mənəviyyatına sədaqətli olmasına kömək etməlidir. Dindarlardan, ruhanilərdən, dini təşkilatlardan, məscidlərdən rica edirəm ki, ordumuzun möhkəmləndirilməsi, burada yüksək mənəviyyatlı əsgər və zabitlərin xidmət etməsi üçün əlinizdən gələni əsirgəməyin. Çünki mənəviyyatımızın əsasını milli ənənələrimiz, İslam dini təşkil edir. Ona görə də siz gənclərə nə qədər saflıq, təmizlik, Vətənə sədaqət kimi keyfiyyətlər aşılasanız, onları bu ruhda tərbiyə etməyə çalışsanız, ordumuz bir o qədər möhkəm, qüdrətli, Azərbaycanın müstəqilliyini həmişə müdafiə etməyə qadir olacaqdır» (64).

Heydər Əliyev görüşdüyü möminlərə məmnunluqla bildirirdi ki, müsəlman kimi ürəyinin arzularına çatanda, müqəddəs məkanları ziyarət edəndə Vətənini, xalqını yaddan çıxarmırdı, Azərbaycanın müstəqilliyinin, Azərbaycan Ordusunun möhkəmlənməsi üçün dualar edirdi: «Orada dua edərkən Allahdan bir arzum olmuşdur ki, Azərbaycanın müstəqilliyini daimi etsin, respublikamızı bugünkü bəlalardan xilas etsin. Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün bizə yardımını əsirgəməsin, Azərbaycanın sərhədlərinin toxunulmazlığını daim təmin etməkdə həmişə bizə köməkçi olsun, Azərbaycanın müharibə vəziyyətindən çıxması, müharibəyə son qoyulması üçün həyata keçirdiyimiz tədbirlərin müvəffəqiyyətlə başa çatmasına kömək etsin. …Biz müstəqil dövlətik. Müstəqil dövlətin özünəməxsus qüdrəti olmalıdır. Bu qüdrətin əsasını xalq və onun bir hissəsi olan ordu təşkil edir. Bizim güclü ordumuz olmalıdır. Güclü ordu ona görə lazımdır ki, biz sülh danışıqlarını cəsarətlə apara bilək. Qüdrətli ordumuz olmalıdır ki, biz ərazimizin təhlükəsizliyini daim qoruya bilək, öz torpaqlarımızı, ölkəmizi müdafiə edək. Bizim qüdrətli,

möhkəm ordumuz olmalıdır, ona görə ki, müstəqil Azərbaycan dövləti daim qüdrətli olsun. O müqəddəs yerlərdə mənim Allahdan arzum bu olub ki, müstəqil Azərbaycan dövlətinin qüdrətini daha da artırsın. Biz bu işə bütün səylərimizi qoymuşuq və qoyacağıq. Ancaq bizə ilahinin gücü lazımdır. Güman edirəm ki, bizdə bu güc olacaqdır. Allah ordumuzu gücləndirsin, onun qüdrətini artırsın… Bu gün bu müqəddəs Allah evindən ordumuza, əsgərlərimizə, zabitlərimizə müraciət edirəm və əmin olduğumu bildirmək istəyirəm ki, onlar Azərbaycanın müstəqilliyinin, ərazi bütövlüyünün keşiyində daim cəsarətlə duracaq və müstəqil dövlətimizin qüdrətini daha da gücləndirəcək, artıracaqlar» (65).

Dövlət rəhbəri insanları Allah yoluna, onun buyurduqlarına əməl etməyə çağırır, öz əminliyini və yəqinliyini bildirirdi ki, hər bir azərbaycanlı, hər bir müsəlman ilk növbədə İslam dininin tövsiyələrindən bəhrələnərək öz mənəviyyatını saflaşdıracaq və bununla da hər bir azərbaycanlıda Vətənə, öz amallarına sədaqət, mənəvi saflıq əhval-ruhiyyəsi tərbiyə olunacaqdır.

Heydər Əliyev İslam dininin dəyərlərinə inanan əsgər və zabitin ordu sıralarında öz vətəndaşlıq borcunu sədaqətlə yerinə yetirəcəyinə şübhə etmir, bu mənəvi dəyərlərin döyüşçülərə aşılanmasında, onların əqidəsinə və inamına çevrilməsində dini dəyərlərin əhəmiyyətini qeyd edirdi. Onun gəldiyi qənaət belə idi ki, ordunun, hər bir vətəndaşın bütün varlığı ilə Vətən və xalq mənafelərinə sadiq qalmasında, hər bir döyüşçünün əzmkarlığını artıran mənəviyyatının möhkəmləndirilməsində dinin təsiri sonsuzdur.

Ona görə də Heydər Əliyev ordunun gücləndirilməsi ilə bağlı hər hansı bir məsələnin, konkret olaraq mənəvi amilin möhkəmləndirilməsinin həllini təkcə ayrı-ayrı dövlət orqanları, müxtəlif dairələr, təbəqələrdə yox, bütün vətəndaşların fəal həyat mövqeyi

ilə bağlayırdı. O, qətiyyətlə bildirirdi ki, cəmiyyətdə xalqın və dövlətin mənafeyini əks etdirən hər bir məsələ bütün xalq tərəfindən, dövlətin hər bir vətəndaşı tərəfindən müdafiə olunmalıdır. Ölkənin hər bir vətəndaşının öz insani və vətəndaşlıq borcuna vicdanla, məsuliyyətlə yanaşması, nəhayətdə xalqın dönməz və sarsılmaz iradəsi kimi ortaya çıxar və belə qətiyyətli iradə bütün vətəndaşları, eləcə də qoşunların şəxsi heyətini Azərbaycanın müstəqilliyinin qorunması kimi şərəfli bir vəzifə ətrafında daha sıx surətdə birləşdirə bilər. Hər bir vətəndaşın ictimai-faydalı fəaliyyətini, məsuliyyətliliyini Heydər Əliyev xalqın iradəsinin, cəmiyyətin mənəvi atmosferinin formalaşmasının özəyi sayırdı (66).

Heydər Əliyevin fikrincə, xalqın vətəndaşlarının mənəviyyat yaxınlığı, vahid məqsədlər ətrafında birləşə bilməsi dövlətin güclənməsinə yol açacaq və cəmiyyətin mənəviyyatının ümumi istiqamətlərini müəyyənləşdirəcəkdir. Azərbaycan xalqının tarixi-ənənəvi keyfiyyətlərini Heydər Əliyev cəmiyyətin bugünkü mənəviyyatının əsası sayırdı və buna görə də o bütün xalqı əsrlərdən əsrlərə keçmiş milli, mənəvi dəyərləri möhkəmləndirməyə, inkişaf etdirməyə çağırırdı. Dözümlülüyü, dəyanətli və mətin olmağı Heydər Əliyev Azərbaycan xalqının simasını müəyyənləşdirən mənəvi keyfiyyətlər kimi qiymətləndirir, Azərbaycan xalqını həmişə nikbin, gələcəyə inamla baxan, heç bir çətinlikdən qorxmayan, məğrur xalq kimi xarakterizə edirdi (67). Azərbaycan xalqını yaşadan, cəmiyyətin və ordunun mənəvi əhval-ruhiyyəsini müəyyənləşdirən də Heydər Əliyevin fikrincə, bu keyfiyyətlər idi. Prezidentin çıxış və müraciətlərindən belə bir ümumi qənaətə gəlmək olar ki, Azərbaycan Ordusunu zəiflətmək, onu daxildən parçalamaq, mənəviyyatını parçalamaq istəyən qüvvələr ilk növbədə xalqın özündə bir inamsızlıq yaratmağa, onun iradəsini qırmağa, ümumi gücünü zəiflətməyə

çalışmışlar. Dövlət rəhbərinin fikrincə, ən böhranlı vaxtda dözümlü, təmkinli Azərbaycan xalqı bütün gücünü toplayıb nəyə qadir olduğunu, hansı mənəviyyatla yaşadığını və ordusunun hansı mənəviyyata malik olduğunu bütün dünyaya nümayiş etdirdi. Bu mənada Heydər Əliyev ölkədə vətəndaş müharibəsinin və separatizmin qarşısının alınmasında xalqın dəstəyini, həmrəyliyini və qətiyyətini çox yüksək qiymətləndirirdi. Heydər Əliyev xalqın birliyini, ümummilli həmrəyliyini Azərbaycanın müstəqil dövlətçiliyinin əsası sayırdı. Onun fikrincə, Azərbaycan dövlətçiliyinə qəsd etmək istəyənlər məhz bu məsələdə yanılmışdılar ki, xalq artıq bu gün nədən ötrü yaşadığını yaxşı bilir. Müstəqilliyini itirmək istəməyən xalqın əlindən onun müstəqilliyini almaq çətindir. Azərbaycan dövlətçiliyinin kimlərinsə əlində oyuncağa çevrilməsini istəməyən xalq respublika daxilində baş verən dağıdıcı proseslərə qarşı Heydər Əliyev ətrafında sıx birləşərək respublikanın müstəqilliyini qorumaq əzmini nümayiş etdirdi. Bu iradədən, mübarizlikdən güc alan Azərbaycan Ordusu da hansı döyüş və mənəvi keyfiyyətlərə malik olduğunu nümayiş etdirdi, xalqın ümumi istəyinə qarşı çıxanlara layiqli zərbə vurdu.

Heydər Əliyev dönə-dönə qeyd edirdi ki, «Azərbaycan dövlətçiliyini qorumaq əzmi xalqın yenilməz iradəsinə əsaslanır» və buna görə də o, xalqın bütün vətəndaşlarını həmişə mübariz olmağa, xalqın birliyini, vəhdətini pozmağa çalışanlara qarşı qətiyyətli olmağa çağırırdı: «Biz müstəqilliyimizi yalnız milli həmrəylik əsasında, vətəndaş birliyi əsasında qoruyub saxlaya biləcəyik. Biz Azərbaycanın xoşbəxt gələcəyini yalnız bu əsasda təmin edə biləcəyik. Məhz bu əsasda biz Azərbaycanı müharibə şəraitindən çıxara biləcəyik. Məhz bu əsasda biz Azərbaycanın ərazi bütövlüyünü təmin edə biləcəyik» (68).

Ordunun şəxsi heyətinin mənəvi əhval-ruhiyyəsinin qaldırılmasının əsas mənbələrindən birini də Heydər Əliyev Silahlı Qüvvələrin ümumxalq qayğısı ilə əhatə olunmasında görürdü. Heydər Əliyevin fikrincə, Vətən torpağı uğrunda ölüm-dirim mübarizəsinə qoşulmuş döyüşçü bilsə ki, qoruduğu xalq onun qədrini bilir, ehtiyaclarını başa düşür, onun xidmətlərini minnətdarlıqla qiymətləndirir, onda bu döyüşçü daha həvəslə, əzmkarlıqla vuruşacaqdır. Ona görə də respublika Prezidenti ordunun qayğı ilə əhatə olunmasında, ona maddi və mənəvi kömək göstərilməsində hamının borclu olduğunu qeyd edirdi: «Gərək hamımız orduya kömək edək. Hamımız! Hər bir kəs gərək orduya kömək etsin! Orduya qayğı göstərmək lazımdır. Hər bir əsgərə, hər bir zabitə hörmət etmək gərəkdir. Ordu xalqımızın bir hissəsidir. Döyüşçülərimiz bizi müdafiə edən, özünü şəhid edən, özünü güllə qabağına verən adamlardır. Şübhəsiz ki, onlara xüsusi hörmət, xüsusi ehtiram, xüsusi qayğı lazımdır» (69).

Heydər Əliyev xalqın müqəddəs amalları uğrunda canından keçən döyüşçüləri «Azərbaycan xalqının baş ucalığı», «cəmiyyətimizin hörmətli adamları» kimi qiymətləndirir, bütün qurumları, bütün vəzifəli şəxsləri, bütün vətəndaşları ordunun ehtiyaclarının ödənməsinə, onun mübarizə əhval-ruhiyyəsinin qorunub saxlanılmasına kömək etməyə və bununla da istər orduda, istərsə də cəmiyyətdə xalq və Vətən işi uğrunda mübarizənin azərbaycanlı mənəviyyatının əsasına çevrilməsinə çağırırdı.

Heydər Əliyev, eyni zamanda, ordunun şəxsi heyətini onu daim qayğı və diqqətlə əhatə etmiş olan Azərbaycan xalqının ümidlərini doğrultmağa, onun qayğısına layiq olmağa, müstəqilliyinin və suverenliyinin timsalına çevrilməyə dəvət edirdi. Xalqın diqqətinə və qayğısına layiq olmaq isə Heydər Əliyevin fikrincə, ordunun şəxsi heyətindən döyüş hazırlığını daim yük-

sək saxlamağı, mübarizliyini gücləndirməyi, verilən tapşırıqların icrasında iradə və cəsarət göstərməyi tələb edirdi (70).

Azərbaycan Ordusunun sıralarında mərdliklə vuruşan döyüşçüləri Heydər Əliyev hər zaman səmimiyyətlə anır, onlara öz hörmət və ehtiramını bildirirdi. Bununla ölkənin rəhbəri Ali Baş Komandanı olduğu Silahlı Qüvvələrin şəxsi heyətini yeni-yeni qələbələrə ruhlandırırdı (71).

Azərbaycan torpaqlarının müdafiəsinə yollanan döyüşçüləri Heydər Əliyev öz xeyir-duası ilə yola salır və onları hünər göstərməyə, qəhrəmanlıqla döyüşməyə səsləyirdi. Ölkə Prezidenti Azərbaycan döyüşçülərinin qəhrəmanlıq nümunələrini Azərbaycanın müstəqilliyinin qorunmasının əsası sayırdı (72).

Mübarizliyi, igidliyi və mərdliyi ilə seçilən Azərbaycan Ordusunu səsləyən və ilhamlandıran örnəklərdən biri də elə Heydər Əliyevin özünün yorulmaz fəaliyyəti idi. Respublikanın ağır günlərində dövlət rəhbərliyinə dəvət edilən bu dövlət xadiminin, böyük siyasətçinin, el ağsaqqalının əzmkarlığı, yorulmazlığı, təmkini, qətiyyəti, nikbinliyi, müdrikliyi və s. keyfiyyətləri çoxlarına, o cümlədən ordunun şəxsi heyətinə də nümunə idi. Heydər Əliyevin istər dövlət quruculuğunda, istərsə də konkret olaraq ordu quruculuğundakı praktiki fəaliyyəti, səriştəsi, xalqı ən mühüm məsələlərin həllinə səfərbər edə bilməsi canlı mənəviyyat məktəbi idi. O, cəsarətlə bildirirdi ki, Azərbaycanın müstəqilliyinin müdafiəsində hər zaman qətiyyət göstərəcəkdir və bütün fəaliyyəti ilə bunu sübut edirdi.

Azərbaycan Ordusunun mənəvi əhval-ruhiyyəsində ciddi keyfiyyət dəyişikliklərinin yaradılması Heydər Əliyevin əməli-təşkilatçılıq fəaliyyətinin məntiqi nəticəsi idi. O öz çıxışlarında, müraciətlərində, söhbətlərində dəfələrlə toxunduğu bu məsələni praktiki fəaliyyəti ilə tamamlayırdı. İstər ön cəbhədə, istərsə də

arxa cəbhədə bu məsələnin həlli, bütövlükdə ordu quruculuğunun təkmilləşdirilməsi ilə bağlı Heydər Əliyev ən müxtəlif tədbirlərdə iştirak edirdi. O, Əfqanıstan müharibəsinin iştirakçıları olmuş şəxslərlə 1993-cü il noyabr ayının 4-də keçirilmiş görüşdə, həmin il dekabrın 11-12-də, 1994-cü ilin əvvəllərində cəbhə bölgələrində keçirdiyi görüşlərində ordunun şəxsi heyətinin, bütünlükdə müharibə şəraitində olan cəmiyyətin mənəvi əhval-ruhiyyəsinin sağlam mübarizlik üzərində qurulmasının konkret məsələlərini qaldırmış və onların əldə edilməsi yolları ilə bağlı öz tövsiyələrini vermişdi.

Bütün bunlar qoşun hissələrində mənəvi-ideoloji və hərbi-vətənpərvərlik tərbiyəsi prosesinin yenidən qurulması üçün müvafiq orqanlar qarşısında məsuliyyətli vəzifələr qoyurdu. 1993-cü il noyabr ayının 2-də Heydər Əliyevin xalqa müraciətindən sonra bu istiqamətdə görülən işlərdə bir canlanma yarandı. Bunu Heydər Əliyev özü də yüksək qiymətləndirirdi (73).

Müəyyən çətinliklərin olmasına baxmayaraq, Azərbaycan Silahlı Qüvvələrində baş verən dəyişiklikləri, xüsusən şəxsi heyətin mübarizliyinin artmasını, Azərbaycanın müstəqilliyinin müdafiəsi istiqamətindəki əzmkarlığının artmasını, əsgər və zabitlərin öz üzərinə düşən vəzifələri məsuliyyətli icra etməsini və bunun da konkret və sevindirici nəticələrə gətirib çıxarmasını respublika ictimaiyyətinə belə çatdırırdı: «Ordumuz da qurulur, möhkəmlənir. Bu ordu daha keçən ilin yayındakı, yazındakı ordu deyildir. Daha heç kəs erməni tankı görən kimi pərən-pərən düşüb qaçmır. Biz erməni silahlı qüvvələrinin hücumunu dayandırdıq, bundan sonra ordumuz düşmənə sarsıdıcı zərbələr vurdu, onu geri oturtdu. Füzuli rayonunda torpaqlarımızın bir qismi geri alınıbdır, erməni işğalçıları oradan qovulubdur. Lakin bu, işin yalnız başlanğıcıdır. Qarşıda Füzuli rayonunun digər hissələri var, Cəbrayıl var, Zən-

gilan, Qubadlı var, o yandan Ağdam, digər rayonlar var. Bunların hamısını ancaq biz azad etməliyik» (74).

Heydər Əliyevin yorulmaz və məqsədyönlü fəaliyyətinin yaratdığı canlanmanın daha da gücləndirilməsi üçün hərbi hissələrdə şəxsi heyətin təlim-tərbiyəsi ilə məşğul olan kadrların möhkəmləndirilməsinə diqqət artırıldı, kadrlar çatışmadığı üçün pedaqoji təhsil stajı olan zabitlər bu vəzifələrə irəli çəkildilər, döyüş təcrübəsinə malik zabitlər müvafiq kurslara göndərildi, şəxsi heyətlə iş aparan zabitlərin ümumordu və zona müşavirəsi keçirildi, bu sahədəki vəziyyət ciddi təhlil olundu, təlim-tərbiyə prosesinin səmərəliliyini artırmaq üçün müxtəlif dövlət strukturları və ictimai qurumlarla əlaqə möhkəmləndirildi, ordu daha geniş şəkildə qayğı ilə əhatə olundu (75). 1993-cü il dekabr ayının elə ilk günlərində Müdafiə Nazirliyinin Şəxsi Heyətlə İş İdarəsi respublikanın bir sıra dövlət və ictimai təşkilatları ilə birlikdə «Müharibə reallığı və gənclərin ictimai şüurunun hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi problemləri» mövzusunda təlim-metodiki toplanış keçirdi (76). Həmin toplanışda ordudakı hərbi-ideoloji tərbiyə işinin keyfiyyətcə yeni mərhələyə qaldırılması, daha optimal fəaliyyət formalarının tapılması məsələləri müzakirə edildi.

Hərbi hissələrdə hərbi-vətənpərvərlik tərbiyəsinin möhkəmlənməsinə Heydər Əliyevin xalqa müraciətindən sonra ictimaiyyətin geniş təbəqələrinin, müəssisə və təşkilatların, ictimai qrupların ordunu qayğı ilə əhatə etməsi də böyük təsir göstərdi. Doğrudur, əvvəllər də xalq öz ordusunu qayğı ilə əhatə etməyə çalışırdı. Elə müqavimət dəstələrinin təşkili, onların silah, sursat, ərzaqla təchizat xalq kütlələrinin müdafiə qüvvələrinə münasibətini göstərirdi. Respublikanın çoxsaylı təşkilatları, təsərrüfat obyektləri və hətta məktəblilər də vəsait toplayaraq Müdafiə Fonduna göndərirdilər. Heydər Əliyevin xalqa müraciətindən sonra bu təşəbbüslər daha

kütləvi hal aldı və xalqın orduya qayğısı və dəstəyi daha da təşkilatlandı, hərbi hissələrin himayəsi daha da gücləndi.

Silahlı Qüvvələrin ən yaxın hamilərindən biri respublika Veteranlar Şurası idi. Heydər Əliyevin xalqa müraciətindən sonra bu təşkilatın hərbi hissələrlə əlaqəsi daha davamlı xarakter aldı və bu əlaqələrin səmərəliliyi diqqət mərkəzinə gətirildi. Bunun nəticəsi idi ki, respublika Veteranlar Şurasının üzvləri, bir qayda olaraq, hərbi hissələrin şəxsi heyətinin hərbi-vətənpərvərlik tərbiyəsi sahəsində ordu miqyasında keçirilən bütün tədbirlərdə iştirak edirdilər. Müdafiə Nazirliyinin Şəxsi Heyətlə İş İdarəsinin təşkil etdiyi 6 təşviqat qrupunun hər birinə Veteranlar Şurasının nümayəndələri daxil edilmişdilər. Onlardan başqa, həmin qruplara müxtəlif musiqi kollektivlərinin üzvləri, əsgər anaları, tanınmış şəxslər də daxil idilər (77). Bu təşviqat qrupları hərbi hissələrdə şəxsi heyətlə görüşür, onların qayğıları ilə maraqlanır, təcrübələrini bölüşməklə şəxsi heyəti sədaqətli xidmətə ruhlandırırdılar.

Heydər Əliyevin 2 noyabr 1993-cü il tarixli müraciətindən sonra bir çox rayonlarda yerli sakinlərdən ibarət taborlar təşkil edildi. Bakının Səbail, Qaradağ, Nəsimi, Suraxanı, Nərimanov, Binəqədi, Yasamal rayonlarında yerli icra hakimiyyəti qurumlarının hamiliyi altında yaradılan taborlardakı vəziyyəti yoxlayan Müdafiə Nazirliyinin səlahiyyətli komissiyası belə bir qənaətə gəlmişdi ki, həmin taborların təşkili və təşkilatlandırılması sahəsində xeyli iş görülmüşdür (78). Sumqayıt icra hakimiyyətinin hamiliyi altında yaradılan taborun döyüş fəaliyyətini Heydər Əliyev öz çıxışlarının birində xüsusi qeyd etmişdi (79). Şəmkirin, Qazaxın, Ağdamın, Goranboyun, Bakı rayonlarının icra hakimiyyətlərinin nümayəndələri mütəmadi olaraq ön xəttə gedir, döyüşçülərin mənəvi əhval-ruhiyyəsinin yüksəldilməsi, vətənpərvərlik hisslərinin gücləndirilməsi üçün səmərəli işlər görürdülər.

Mədəniyyət Nazirliyinin hərbi hissələrlə sıx əlaqələri yaradılmışdı. Bu Nazirliyin tabeliyində olan mədəniyyət ocaqlarının, habelə Bakı Bələdiyyə Teatrının kollektivləri cəbhə bölgələrinə gedərək vaxtaşırı hərbi qulluqçuların qarşısında çıxış edirdilər (80).

Məktəblilərin də cəbhəyə yardımı davam edirdi. Onların hissələrə göndərdikləri müxtəlif geyim əşyaları döyüşçülərin sosial vəziyyətinin yaxşılaşmasına xidmət etməklə bərabər, xalq tərəfindən qayğı ilə əhatə olunduqlarına əminlik yaradırdı (81).

Qoşun hissələrinin şəxsi heyətinin sosial problemlərinin həllinə, mənəvi-ideoloji və hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsinə, əsgər və zabitlərin Vətəni müdafiə kimi şərəfli işə səfərbər edilməsinə xidmət edən qayğı və hamilik hərəkatı təkcə bu sadalananlarla bitmirdi. Mənəvi əhval-ruhiyyənin formalaşdırılmasına təsir göstərən digər amillərin kompleks halda həll edilməsi bütünlükdə 1993-cü ilin sonu və 1994-cü ilin əvvəllərində Azərbaycan Ordusunun mənəvi əhval-ruhiyyəsini xeyli təkmilləşdirdi və möhkəmləndirdi. Qoşun hissələrinin apardığı əməliyyatlar da bunu açıq-açığına nümayiş etdirirdi.

Heydər Əliyevin təşkilatçılığı sayəsində Azərbaycan Ordusunda güclü keyfiyyət dəyişikliklərinin yaranması şübhəsiz idi və bunu, hətta xarici müşahidəçilər də etiraf edirdilər. Bu keyfiyyət dəyişikliklərinin digər əsaslı səbəbləri kimi xalqın və ordunun mənəvi əhval-ruhiyyəsinin qaldırılması, xalqın və ordunun daxili potensialının üzə çıxarılması və reallaşdırılması oldu. Heydər Əliyev ümummilli lider kimi, öz yorulmaz fəaliyyəti və Azərbaycanın müstəqilliyinin qorunması yolunda göstərdiyi qətiyyəti ilə xalqı vahid məqsəd ətrafında birləşdirdi, onun gücünü və imkanlarını erməni təcavüzünə qarşı mübarizəyə

səfərbər edə bildi. Başlıcası isə Heydər Əliyev öz nümunəsi ilə xalqı öz ardınca apararaq cəmiyyətin təşkilatlanmasında, onun bütün gücünün Azərbaycanın müstəqilliyinin qorunmasına istiqamətləndirilməsində tarixi rolunu oynadı.

### 4. Hərbi xidmətə çağırış və səfərbərlik işinin vəziyyəti

Hərbi quruculuq və ölkənin müdafiə işinə səfərbər edilməsi sahəsində Heydər Əliyev tərəfindən diqqət yetirilən əsas məsələlərdən biri də çağırış və səfərbərlik işinin vəziyyəti idi. Çağırış və səfərbərlik məsələləri hər bir ölkə üçün ümummilli bir məsələdir və onun icra səviyyəsi, əslində, həmin ölkənin xalqının və dövlətin ölkə müdafiəsinə necə hazır olmasından xəbər verir. Səfərbərlik məsələsi həm də xalqın müharibəyə olan münasibətinin açıq ifadəsidir. Bu məsələnin düzgün və müharibə dövrünün tələblərinə uyğun şəkildə qurulması Silahlı Qüvvələrin hissə və bölmələrinin canlı qüvvə ilə vaxtında təmin edilməsinə, mövcud olan itkilərin aradan qaldırılmasına şərait yaradır. Hərbi mükəlləfiyyətlilərin çağırışa və səfərbərliyə cəlb edilməsi, onların seçilməsi, hissələrə göndərilməsi, bu prosesin keyfiyyətliliyinin və fasiləsizliyinin təmin edilməsi ordunun döyüşkənliyini şərtləndirən zəruri amillərdən biridir.

Çağırış və səfərbərlik işinin səmərəliliyinin əldə edilməsi üçün onun cəmiyyət miqyasında və dövlətin rəhbərliyi altında aparılmasına ehtiyac vardır. Ona görə də Heydər Əliyev bu mühüm işin dövlətin və xalqın mənafelərinə, konkret şəraitin tələblərinə uyğun qurulmasına, dövlət orqanlarının bu işə səfərbər edilməsinə xüsusi əhəmiyyət verirdi. 1993-cü ilin sonlarından başlayaraq orduda müəyyən keyfiyyət dəyişikliklərinin yaranmasının səbəblərindən biri də bu sahədə qazanılan uğur idi.

Çağırış-səfərbərlik işinin yenidən qurulması respublikanın rəhbərliyindən, dövlət orqanlarından, hərbi komissarlıqlardan, bütünlükdə ictimaiyyətin ayrı-ayrı dairələrindən böyük səylər tələb edirdi. Çünki hər şeydən əvvəl ordu quruculuğunun ilk illərində bu sahədə mövcud olan nöqsanlar və çətinliklər aradan götürülməli və sonra bu iş yeni səviyyəyə, müharibə dövrünün tələbləri səviyyəsinə qaldırılmalı idi. Doğrudur, həmin nöqsan və çətinliklərin bir çoxu obyektiv səbəblərdən irəli gəlirdi. Ancaq keçmiş dövlət rəhbərliyinin və dövlət orqanlarının səbatsızlığı, qeyri-tələbkarlığı üzündən yol verilən nöqsanlar da az deyildi.

Məlum olduğu kimi, respublikalarda müstəqil orduların yaranmasına mane olmağa çalışan keçmiş Mərkəz çağırış ehtiyatlarının respublikaların milli ordularının tərkibində saxlanılması ilə razılaşmırdı. Çünki bu, vahid ordunun dağılmasını daha da sürətləndirə bilərdi.

Ancaq keçmiş Mərkəzin əl atdığı tədbirlər SSRİ-ni dağılmaqdan xilas etmədi. Suverenliyini elan etmiş respublikalarda, o cümlədən Azərbaycanda ordu quruculuğu sahəsində xalqın tələbindən doğan müəyyən tədbirlərin həyata keçirilməsinə başlandı. Təşkilinə başlanan hissələrin respublikanın öz ehtiyatları hesabına komplektləşdirilməsinin hüquqi əsası isə «Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında» Azərbaycan Respublikası Qanununda təsbit edildi. Həmin Qnunun qüvvəyə minməsi barədə Azərbaycan Respublikası Ali Sovetinin 9 oktyabr 1991-ci il tarixli qərarında respublikanın müvafiq orqanlarına göstəriş verildi ki, Azərbaycan vətəndaşlarının SSRİ Silahlı Qüvvələri sıralarına çağırılması dayandırılsın və onların Azərbaycan Respublikası Silahlı Qüvvələrinin sıralarında xidmət keçməsi təmin edilsin. Qərarda o da göstərilirdi ki, respublikadan kənarda xidmət edən Azərbaycan vətəndaşları xidmətin davamını icra etmək

üçün zərurət yarandıqca geri çağırılsın, millətlərarası münaqişə zəminində SSRİ Silahlı Qüvvələrini tərk edən gənclər xidmətini Azərbaycan Respublikası Silahlı Qüvvələri tərkibində davam etdirəcəyi təqdirdə cinayət məsuliyyətindən azad edilsinlər (82).

Respublikanın ərazi bütövlüyünün etibarlı müdafiəsi üçün mövcud hərbi hissələrin itkilərinin mütəmadi bərpası və yeni yaradılan hissələrin komplektləşdirilməsi üçün 1992-ci il fevral ayının 19-da imzalanan 578 nömrəli Prezident fərmanı ilə qismən səfərbərlik elan edildi. Həmin fərmana görə, 20 yaşından 40 yaşınadək hərbi vəzifəlilər ehtiyac yarandıqca ordu sıralarına çağırıla bilərdilər (83).

Yuxarıda qeyd edildiyi kimi, ölkə prezidentinin 25 iyun 1992-ci il tarixli başqa bir fərmanı ilə əsgər və gizirlərin xidmət müddəti müharibənin getməsi ilə əlaqədar olaraq hərbi əməliyyatların dayandırılacağı günədək uzadıldı (84). Bu fərmana əsasən, Azərbaycan Respublikası qanunvericiliyinə müvafiq olaraq xidmətə yararlı olmayan şəxslərdən başqa digər hərbçilərin xidmətdən tərxis edilməsi xüsusi qərar olanadək dayandırıldı.

Prezidentin qismən səfərbərlik və növbəti çağırış haqqında fərmanlarının həyata keçirilməsi respublika Hərbi Komissarlığının fəaliyyətinin də yenidən qurulmasını tələb edirdi. Bu struktur qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinə, gənclərin əsgəri xidmət üçün ordu sıralarına səfərbər edilməsinə başlasa da, əslində, öz işini müharibə dövrünün tələbləri səviyyəsində qura bilmirdi. Bu da öz növbəsində qoşun hissələrinin komplektləşdirilməsinə, onların döyüş qabiliyyətinə öz təsirini göstərirdi.

Hələ 1992-ci ilin yayında hərbi vəzifəlilərin xidmətdən yayınması respublika miqyasında ciddi xarakter almışdı. Bunun qarşısının alınması üçün respublika Prezidenti 1992-ci il avqustun 25-də xüsusi sərəncam verdi. Həmin sərəncamda göstərilirdi

ki, xalqın gücünün və imkanlarının işğal olunmuş torpaqların azad edilməsinə yönəldildiyi bir zamanda çağırışdan və səfərbərlikdən yayınanlara və fərariliyə qarşı mübarizə qələbənin əsas şərtlərindən biridir. Sərəncamda belə qanunsuzluqların baş verməsi vətəndaşların konstitusiyadan irəli gələn borclarının icrasından imtina kimi xarakterizə edilir və bu qanunsuzluqlara yol verilməməsi üçün hüquq-mühafizə orqanlarına ciddi tapşırıqlar verilirdi (85).

Hərbi xidmətdən yayınmanın kütləvi hal almasının əsas səbəblərindən biri hərbi komissarlıqların fəaliyyətindəki nöqsanlarla bağlı idi. Ordu ilə xalq arasında əlaqələrin formalaşdırılmasının əsas bəndlərindən birini təşkil edən hərbi komissarlıqların öz işlərini düzgün qura bilməmələri, onların fəaliyyətinin nəzarətdən kənarda qalması qanunsuzluqların, rüşvətxorluğun baş alıb getməsinə, ordunun komplektləşdirilməsində nizamsızlığa gətirib çıxarmışdı. Hərbi komissarlıqların, hüquq-mühafizə orqanlarının, çağırış-səfərbərlik işini qazanc mənbəyinə çevirən bəzi qüvvələrin küçədə, bayırda kimi gəldi tutması, imkanlılardan pul alıb buraxması, imkansızları isə fiziki durumu yoxlanılmadan hərbi hissələrə göndərmələri ictimaiyyəti də narahat etməyə başlamışdı (86).

Çağırış kontingentinin seçilməsi tamamilə özbaşına buraxılmışdı. Bir çox hərbi komissarlıqlarda xidmətə yararlı kontingentin müəyyən hissəsi rüşvət alınmaqla buraxıldığı üçün onların yeri yoxlanılmamış adamlarla doldurulur və belələri də hərbi hissələrə çatan kimi geri qaytarılırdı. Bu hal hərbi hissələrdə də ciddi narahatçılıq yaradırdı. Məsələn, hərbi hissələrdən birinin yuxarı orqanlara göndərdiyi raportda göstərilirdi ki, 7 avqust 1993-cü il tarixdə respublika Çağırış məntəqəsindən göndərilmiş 54 nəfər çağırışçıdan xidmətdə yalnız 35-i

qalmışdı. Digərlərindən 11-nin adı siyahıda olsa da, özləri yox idi, 1 nəfər başqa hissədə xidmət edən əsgər idi, 1 nəfər başqa dövlətin vətəndaşı idi, 1 nəfər ailə vəziyyətinə görə, 5 nəfər isə səhhətinin yoxlanılması üçün geri göndərilmişdi (87). Çağırışçı kontingent çağırış məntəqələrində seçilib xidmət üçün hissələrə göndərilməli olduğu halda, seçmə işi hissələrdə aparılırdı və bu da sözsüz ki, hissə komandanlığını əsas vəzifələrin icrasından yayındırırdı.

Başqa bir hərbi hissədən təqdim edilmiş raporta görə 13 avqust 1993-cü il tarixdə çağırış məntəqələrindən xidmətə gətirilən çağırışçılardan heç yarısı xidmətə qəbul edilməmişdi. Siyahıda olan 60 nəfərdən 20-si, ümumiyyətlə, hissəyə gətirilməmişdi, 2 nəfəri başqa hissənin əsgəri idi, 1 nəfər əvvəllər cinayət məsuliyyətinə cəlb olunan şəxs idi, 1 nəfərin sənədləri düzgün deyildi, 7 nəfəri səhhətinin yararsızlığına görə geri qaytarılmışdı, 2 nəfər ailə vəziyyətinə görə qəbul edilməmişdi və beləliklə hissədə cəmi 27 nəfər saxlanılmışdı (88).

Cəbhə Səhra İdarəsi miqyasında bu rəqəmlər təşviş doğuracaq həddə çatmışdı. İdarə qərargah rəisinin 1993-cü il avqust ayının sonlarında Müdafiə Nazirliyinə göndərdiyi raportda bildirilirdi ki, qısa müddət ərzində hissələrə təqdim edilən çağırışçı kontingentinin böyük bir hissəsi – 326 nəfəri heç hissələrə gəlib çatmamışdı. Hansı səbəblərə görə isə onlar elə yolda ikən qaçıb getmişdilər. Neftçala və İmişli rayonlarından göndərilən çağırışçıların çoxunun sənədləri qaydasında deyildi, seçilmə düzgün aparılmırdı, başqa hissələrin əsgərləri tutulub yenidən çağırışçı kimi hissələrə göndərilirdilər. Gətirilən çağırışçıların içərisində 94 nəfər xəstə, əlil və narkoman var idi (89).

Raportda başqa rəqəmlər də göstərilir və rayon hərbi komissarlıqlarının fəaliyyətindən ciddi narazılıq ifadə olunurdu.

Çağırış və səfərbərlik işinin müharibə dövrünün tələblərinə cavab verməməsi, hərbi komissarlıqların fəaliyyətində çox ciddi nöqsanların olması Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 5 oktyabr 1993-cü il tarixli əmrində də qeyd edilmişdi. Burada göstərilirdi ki, 1993-cü ilin aprel-iyun aylarında gənclərin hərbi xidmətə çağırışı və hissələrə göndərilməsi lazımi səviyyədə aparılmamış və bununla da respublika Prezidentinin 30 mart 1993-cü il tarixli, 30 iyun 1993-cü il tarixli fərmanları, habelə Baş Qərargah rəisinin 8 aprel 1993-cü il tarixli və 3 iyul 1993-cü il tarixli direktivləri respublika Hərbi Komissarlığı tərəfindən vaxtında yerinə yetirilməmişdir (90).

Baş Qərargah rəisinin əmrində Bərdə, Lənkəran, Tovuz, Cəlilabad və Masallı rayon hərbi komissarlıqlarının fəaliyyətinin düzgün təşkil edilməməsi, çağırış və səfərbərlik işində nöqsanlara yol verilməsi xüsusilə vurğulanırdı. Xaçmaz, İmişli, Saatlı və Abşeron rayonlarının hərbi komissarlıqları isə işlərindəki nöqsanlara görə inzibati qaydada cəzalandırılmışdılar (91).

Əmrdə çağırış komissiyalarının işinin formal qurulduğu, çağırışçı kontingent arasında seçmə işi aparılmadığı açıqlanırdı, ailədə tək oğlan övladlarının döyüşən hissələrə göndərilməsinin yolverilməzliyi qeyd olunurdu. Mövcud nöqsanların aradan qaldırılması, döyüşən hissələrin vaxtında və yararlı qüvvə ilə bərpa edilməsi üçün Baş Qərargah rəisi öz əmrində respublika Hərbi Komissarlığının fəaliyyətinin yenidən qurulması istiqamətində ciddi göstərişlər verirdi (92).

Ancaq məlumdur ki, Heydər Əliyevin radio və televiziya ilə Azərbaycan xalqına müraciətinə qədər çağırış və səfərbərlik işinin səviyyəsi qənaətbəxş deyildi və Azərbaycan Ordusunun uğursuzluq məngənəsində qalmasında, ordunun mənəvi əhval-ruhiyyəsinin mübarizliyə köklənməməsində bu məsələlərin də

lazımi şəkildə həll edilməməsinin müəyyən təsiri var idi. Çağırış və səfərbərlik işində qanunsuzluqların, rüşvətxorluğun baş alıb getməsi, əsasən imkansızların orduya çağırılması və sonra da onların ailələrinin lazımi qayğı ilə əhatə olunmaması geniş xalq kütlələrində orduya qarşı bir biganəlik yaratmışdı. Nəticədə də çoxları özü çağırışdan qaçıb gizlənir, çoxlarını isə valideynləri gizlədirdilər.

Çağırış-səfərbərlik işinin gedişində ciddi nöqsanların olması həm Dövlət Müdafiə Şurasının 1 noyabr 1993-cü il tarixli iclasında (93), həm də Heydər Əliyevin xalqa 2 noyabr 1993-cü il tarixli müraciətində geniş təhlil olundu və hərbi komissarlıqların qətiyyətsiz mövqeyi nəticəsində hərbi hissələrin komplektləşdirilməsində ərazi prinsipinin əsas götürülməsi dözülməz hal kimi xarakterizə olundu.

Cəbhə bölgələrində yerləşən hərbi hissələrin əksəriyyətində şəxsi heyətin çox böyük hissəsinin yerləşdikləri rayonlardan olması bu hissələrin döyüşkənliyinə mənfi təsir göstərirdi. Heydər Əliyev haqlı olaraq bildirirdi ki, belə döyüşçülər təhlükə yarandığı halda vuruşmaq əvəzinə daha çox ev-eşiyi, ailəsi haqqında düşünürdü. Bu isə hərbi hissələrin fəaliyyətindəki dağınıqlığı artırır, onların müdafiə qüvvəsini zəiflədirdi. Heydər Əliyev bu vəziyyətə öz münasibətini belə bildirirdi: «Onlar döyüşmək əvəzinə, öz torpaqlarını müdafiə etmək əvəzinə, atəş səsi eşidən kimi tez-tələsik ailələrini çıxarmaqla və başqa işlərlə məşğul olmuşlar. Şübhəsiz ki, dinc əhali döyüş bölgələrindən çıxarılmalıdır, bunun üçün lazımi tədbirlər görülməlidir. Lakin bu o demək deyildir ki, döyüşçü öz mövqeyini tərk edərək yalnız özü və ailəsi haqqında düşünsün, qaçmağa çalışsın. Qeyd etmək istəyirəm ki, bu rayonların ərazisində bizim vətəndaşlarımız, öz torpaqlarını müdafiə etməyə qadir olan cavanlar da var idi. Onların çoxu vaxtından

əvvəl qaçıb getmişdir. Əgər adam öz evini, öz ocağını, öz torpağını, yaşayış yerini qorumursa, onun əvəzinə kim gəlib qoruyacaqdır?» (94).

Heydər Əliyev 1993-cü ilin payızında işğal olunmuş rayonlarda öz torpaqlarını qorumağa qadir olan cavanların xidmətdən yayınması bir tərəfə qalsın, heç öz ev-eşiklərini qorumağa cəhd göstərmədən qaçıb dağılmalarına öz təəccübünü gizlətmirdi. O, respublikanın ərazi bütövlüyünün etibarlı şəkildə qorunması, ordunun möhkəmləndirilməsi üçün çağırış və səfərbərlik işinin yenidən qurulmasını, xalqda bu işə yeni münasibət formalaşdırılmasını mühüm vəzifə kimi irəli sürdü (95).

Respublika Prezidenti səfərbərlik işinin müharibə dövrünün tələbləri səviyyəsinə qaldırılması üçün Azərbaycan xalqının böyük potensialı olduğunu vurğulayırdı və bununla bağlı SSRİ dövründə və Böyük Vətən müharibəsi illərində Azərbaycanda görülən işləri nümunə gətirir, çağırış-səfərbərlik işlərində əyintilərə son qoyulmasına çağırırdı (96).

Heydər Əliyev təəccüblə qeyd edirdi ki, Böyük Vətən müharibəsinin başlanmasının ilk günündə 18 min azərbaycanlı cəbhəyə könüllü getmişdisə, müstəqil Azərbaycanın öz ərazi bütövlüyü uğrunda mübarizəsinə kifayət qədər canlı qüvvə tapılmır. Azərbaycan torpaqlarını qorumaq üçün xalq səfərbər olmaq istəmir. Respublika Prezidenti bunu yalnız cəmiyyətdə gedən proseslərlə yox, həm də hərbi komissarlıqların fəaliyyətinin yarıtmazlığı ilə bağlayırdı (97).

Dövlət Müdafiə Şurasının ilk iclasının gedişində Heydər Əliyev və digər məsul şəxslər ordu hissələrinə çağırış və səfərbərlik məsələlərindən danışarkən çağırışçıların küçələrdən, müəssisələrdən zor gücünə yığılması təcrübəsini pisləyərək orduya çağırışın müəyyən edilmiş qaydada həyata keçirilməsinin

zəruri olmasını qeyd etdilər. Çünki belə bir təcrübə hissə və bölmələrin komplektləşdirilməsinə, onların qüdrətinin artırılmasına deyil, əksinə, iflic vəziyyətə düşməsinə, eyni zamanda, əyintilərin və rüşvətxorluğun artmasına səbəb olurdu. Hərbi komissarlıqlar, polis idarələri səfərbərlik adı altında qanunsuz olaraq çağırış məntəqələrinə aparılan adamların 80 faizindən rüşvət alaraq buraxırdılar. Qalanları isə hazırlıq görülmədən cəbhə bölgələrinə göndərilirdi (98).

Heç bir təlim keçməmiş, silahdan istifadə etməyi öyrənməmiş cəbhəyə aparılanlar döyüşə bilmirdilər və belələrinin qaçmaqdan başqa yolu qalmırdı. Rüşvət alıb cinayət yolu ilə cibini dolduran və bununla da Vətən və torpaq haqqında düşünməyən şəxslərə qarşı barışmaz mövqe tutulacağı Heydər Əliyevin radio və televiziya ilə 2 noyabr 1993-cü il tarixli müraciətində, habelə Dövlət Müdafiə Şurasının ilk iclasında öz təsdiqini tapdı. Çağırış və səfərbərliyin, hərbi komissarlıqların işinin yenidən qurulması üçün respublikanın yeni hərbi komissarı təyin edildi (99).

Çağırış və səfərbərlik işinin yeni prinsiplərlə aparılması üçün rayon hərbi komissarlıqlarının, bütün hüquq-inzibati orqanlarının qarşısında ciddi vəzifələr dayandığını Heydər Əliyev 2 noyabr 1993-cü il tarixli müraciətində xüsusi vurğulayırdı. Bu orqanların işinin fəallaşdırılması üçün respublika Prezidenti kadr dəyişikliyi edilməsini, həmin orqanların mənəviyyatca təmiz şəxslərlə möhkəmləndirilməsini də istisna etmirdi: «Polis orqanları, hərbi komissarlıqlar, başqa hüquq-mühafizə orqanları, prokurorluq orqanları qanun-qayda yaradılması üçün, adamların qanuna riayət etməsi üçün lazımi tədbirlər görməlidirlər. Amma bunun üçün gərək həm polis, həm prokurorluq orqanlarında, həm hərbi komissarlıqlarda, həm də başqa sahələrdə, ordumuzun zabit heyətində, yüksək təbəqələrində mənəviyyatca saf adamlar olsunlar. Əgər

belə olmasa, onlar vətəndaşlıq, azərbaycanlılıq, vətənpərvərlik məsuliyyətini hiss etməsələr, bu vəzifələri yerinə yetirə bilməyəcəklər» (100).

Heydər Əliyev polis və hərbi komissarlıqlardan tələb edirdi ki, onlara verilmiş səlahiyyətlərdən müdafiə qüvvələrini möhkəmləndirmək, ölkənin ərazi bütövlüyünü qorumaq üçün düzgün istifadə etsinlər. Eyni zamanda, respublika Prezidenti Azərbaycan vətəndaşlarına da müraciət edərək yüksək şüurluluq göstərməyə, səfərbərlik məsələsinə, ordunun möhkəmləndirilməsinə məsuliyyətlə yanaşmağa, xidmətə yararlı gənclərin orduya səfərbər edilməsinə köməklik göstərməyə çağırırdı (101).

Səfərbərlik işinin düzgün qurulmasının vacibliyinə respublika Prezidenti Heydər Əliyev 1993-cü il dekabr ayının 11-12-də cəbhəboyu rayonlara səfəri zamanı keçirdiyi görüş və müşavirələrdə də toxunmuş, əlaqədar orqanların, rayon icra hakimiyyətlərinin qarşısında konkret vəzifələr qoymuşdu. Heydər Əliyev cəbhəboyu rayonların ictimaiyyəti ilə görüşündə qətiyyətlə bildirirdi ki, bu gün hamı, ən əvvəl əli silah tuta bilən kişilər Vətənin müdafiəsinə qalxmalıdır, adını kişi qoyan kəs qaçqına çevrilməməlidir, düşmənin qarşısınca qaçmaqdansa öz yurdunu, yuvasını son nəfəsinədək qorumalıdır, bununla düşmənin də başına od ələməlidir. Heydər Əliyev dönə-dönə bildirirdi ki, belə olmasa nə Azərbaycan Ordusu möhkəmlənər, nə də işğal olunmuş torpaqlar düşməndən azad edilər. Ona görə Heydər Əliyev işğal olunmuş rayonların müvəqqəti köçkünlərinin arasında olan çağırış yaşlı gənclərin orduya yazılmalarını, Vətənin müdafiəçiləri sıralarına qoşulmalarının lazımlılığını görüş iştirakçılarının nəzərinə çatdırırdı. Onun fikrincə, bu rayonların gəncləri orduya səfərbərlikdə xüsusi fəallıq göstərməlidirlər (102).

Heydər Əliyev digər rayonlarda da səfərbərliyin yenidən qurulmasını hüquq-mühafizə orqanlarının rəhbərlərindən ciddi tələb edirdi. Görüş iştirakçıları Heydər Əliyevin 2 noyabr 1993-cü il tarixli müraciətindən sonra həm xalqın əhval-ruhiyyəsinin qalxmasını, həm də səfərbərlik işinin təkmilləşdirilməsi nəticəsində orduya çağırış işində canlanma yarandığını, ancaq gənclərin zorla yığılıb xidmətə göndərilmələrinin bir fayda vermədiyini qeyd edirdilər.

Heydər Əliyev də bu fikirlərlə razılaşırdı: «Səfərbərlik zamanı qarşıya çıxan hər kəsi orduya göndərmək lazım deyildir. Bizim imkanlarımız genişdir. Səfərbərliyə alınaraq orduya göndərilənlər layiqli adamlar olmalıdırlar. Onlar yaxşı seçilməli, hərbi xidmət keçmiş adamlar, mütəxəssislər olmalıdırlar. İndi ordumuza hərbi peşələrin sirlərinə bələd olan adamlar lazımdır. Belələri qısa müddətdə ordu sıralarında öz yerlərini tapa, layiqli xidmət edə, ordunu gücləndirə bilərlər» (103).

Ancaq Heydər Əliyev çağırış yaşı çatmış gənclərin xidmətdən yayınaraq ictimai-faydalı bir işlə məşğul olmamaları ilə də razılaşmırdı. Dövlət rəhbəri əlaqədar orqanların belə gənclərlə məqsədyönlü iş aparmasının zəruriliyini qeyd edir və hələlik bu işin qeyri-qənaətbəxş olduğunu bildirirdi.

Cəbhə bölgəsinə səfəri zamanı keçirdiyi müşavirələrə Heydər Əliyev rayonların hərbi komissarlarını da dəvət etdirmişdi. Prezident səfərbərlik işinin yarıtmaz olmasında bu orqanların rəhbərlərinin böyük günahı olduğunu, qurşandıqları rüşvətxorluqla xalqın mənəviyyatını korladıqlarını, həlak olmuş döyüşçülərin ruhu qarşısında cinayət etdiklərini bildirir və tələb edirdi ki, mövcud özbaşınalıqlara və qanunsuzluqlara son qoyulsun, ordunun möhkəmləndirilməsi, əhalinin sağlam və yetkin hissəsinin orduya səfərbər edilməsi üçün bütün imkanlardan istifadə edilsin (104).

Səfərbərlik işinin lazımi səviyyədə qurulmamasının bir səbəbini də Heydər Əliyev Müdafiə Nazirliyinin rəhbərliyinin öz vəzifəsinə məsuliyyətlə yanaşa bilməməsi ilə bağlayaraq bu işdə ciddi dönüş yaradılmasını tələb edirdi.

Heydər Əliyev 2 noyabr 1993-cü il tarixli müraciətindən, görüş və söhbətlərindən, həyata keçirdiyi praktiki tədbirlərindən sonra səfərbərlik işində də müəyyən canlanma yarandı. Bu, bir tərəfdən xalqın mənəvi əhval-ruhiyyəsinin qalxması ilə bağlı idisə, digər tərəfdən də hərbi komissarlıqların, bütövlükdə hüquq-mühafizə orqanlarının fəaliyyətindəki dəyişikliklərlə əlaqədar idi. Ölkədə ictimai-siyasi sabitlik, dağınıqlıq aradan qalxdıqca ictimaiyyətdə sabaha ümid, dövlətə, onun siyasətinə bir inam yaradırdı. Heydər Əliyevin müraciətləri, həyata keçirdiyi daxili və xarici siyasət, ordunun möhkəmləndirilməsi sahəsində gördüyü işlər, xalqla daimi ünsiyyət və ona arxalanması əhalinin daha geniş kütlələrini fəal həyat mövqeyi tutmağa sövq edirdi. İctimaiyyətdə yaranan canlanma səfərbərliyin aparılmasında da müsbət dəyişikliklər meydana gətirdi. Heydər Əliyevin gənclərə, valideynlərə, bütün xalqa müraciətindən, fərarilərin böyük bir qisminin günahının bağışlanmasından sonra ordu sıralarına könüllü axın da gücləndi.

Hərbi komissarlıqların fəaliyyətində də canlanma yarandı, çağırış və səfərbərliklə məşğul olan bir sıra strukturlar yeni kadrlarla möhkəmləndirildi, əvvəlki vaxtlardan fərqli olaraq seçmə işinə diqqət artırıldı, respublika Toplanış məntəqəsinin özünü doğrulda bilməyən zabitləri yeniləri ilə əvəz edildi. Bunun nəticəsində 1994-cü ilin yanvarında çağırış keçirilməsi barədə Prezidentin fərmanı yerinə yetirildi, Müdafiə Nazirliyinin müəyyən etdiyi çağırış planına əməl olundu (105).

Bakının Yasamal, Səbail, Binəqədi rayonlarının, habelə Ağdam və Beyləqan rayonlarının hərbi komissarlıqları 1994-cü

ilin yanvar ayında keçirilən çağırış və səfərbərlik kampaniyasında daha böyük mütəşəkkillik göstərdilər. Bununla yanaşı, bir sıra hərbi komissarlıqlar, o cümlədən Bakının Sabunçu, Suraxanı, Əzizbəyov (Xəzər) rayonlarının, habelə Astara, Lerik, Yardımlı, Yevlax və Dəvəçi (Şabran) rayonlarının hərbi komissarlıqları öz işlərində dönüş yarada bilmədilər (106).

Ümumiyyətlə, 1993-cü ilin sonlarında aparılan konkret işlərin nəticəsində səfərbərlik işində müəyyən irəliləyişlər, uğurlar olsa da, bütövlükdə bu sahədəki vəziyyət Heydər Əliyevi qane etmirdi və hərbçilərlə, ictimaiyyətin nümayəndələri ilə görüşlərində o bu məsələyə də toxunurdu. Dəfələrlə konkret və ciddi tapşırıqlar verilməsinə baxmayaraq hərbi komissarlıqlarda rüşvətxorluğun baş alıb getməsi, onun qarşısının alınması üçün Müdafiə Nazirliyinin, əlaqədar orqanların, rayon icra hakimlərinin qətiyyət göstərməməsi bir sıra problemlərin qalmasına səbəb olurdu (107).

Hərbi komissarlıqların fəaliyyətinə respublika Prezidentinin yerlərdəki səlahiyyətli nümayəndəsi kimi rayon icra hakimləri tərəfindən nəzarət edilməsini Heydər Əliyev vacib bilirdi. Ancaq onu da vurğulayırdı ki, belə bir nəzarəti həyata keçirmək üçün rayon icra hakimləri mənəviyyatca təmiz olmalıdırlar, dövlətin onlara bəslədiyi etimada məsuliyyətlə yanaşmalıdırlar.

Lakin müşahidəçilər, eyni zamanda, Müdafiə Nazirliyinin rəhbərliyi bildirirdi ki, bir çox rayonların rəhbərləri nəinki onlara tapşırılan vəzifələrin öhdəsindən gələ bilmirlər, əksinə komissarlığın fəaliyyətinə yerli-yersiz müdaxilə edərək onların normal işinə mane olurdular (108). Nəticədə də rayonda olan hərbi vəzifəlilərin hərbi xidmətə cəlb edilməsində qanunla müəyyənləşmiş prinsiplər həyata keçirilmirdi. Bu məsələnin respublika parlamentində müzakirəsi zamanı bir çox millət

vəkilləri də haqlı olaraq göstərirdilər ki, gənclərin xidmətdən yayınması daha çox hərbi komissarlıqlarda mövcud olan qanunsuzluqlardan irəli gəlir. İmkanı olan rüşvət verib xidmətdən uzaqlaşanda, imkansızlar da başqa yol axtarmaq məcburiyyətində qalırlar (109).

1994-cü ilin yazında cəbhədə hərbi əməliyyatların kəskin xarakter aldığı bir vaxtda da çağırış və səfərbərlik işində özünü büruzə verən nöqsanlar respublika rəhbərliyini ciddi narahat edirdi. 1994-cü il mart ayının 9-da bu məsələ Ali Sovetdə keçirilən geniş müzakirədə, aprel ayının 9-10-da Heydər Əliyevin cəbhəyanı rayonlara səfəri zamanı hərbi qulluqçularla və rayonların ictimaiyyətinin nümayəndələri və rəhbər işçiləri ilə görüşlərində, habelə aprelin 17-də isə Prezident Aparatındakı xüsusi müşavirədə ətraflı təhlil olundu.

1994-cü ilin aprelində Qarabağ ətrafında hərbi-siyasi vəziyyətin xeyli mürəkkəbləşdiyi bir vaxtda cəbhəboyu rayonlara səfəri zamanı Heydər Əliyev çağırış və səfərbərlik məsələləri ilə bağlı rayonların rəhbərliyinin qarşısında ciddi vəzifələr dayandığını qeyd etdi və onlardan bu vəzifələrə məsuliyyətlə yanaşılmasını tələb etdi. Respublika Prezidenti qətiyyətlə bildirdi ki, rayonların rəhbər orqanları rayon daxilində çağırış və səfərbərlik işlərinin həyata keçirilməsinə, fərarilərin geri qaytarılmasına və bununla ordunun möhkəmləndirilməsinə birbaşa məsuliyyət daşıyırlar (110).

Heydər Əliyev işğal altında olan rayonların gənclərinin xidmətə daha məsuliyyətlə yanaşmasının zəruriliyini qeyd edirdi. Belə tələb bütünlükdə, respublikanın bütün hərbi vəzifəliləri qarşısında qoyuldu və respublikada hərbi-siyasi vəziyyətin kəskinləşdiyi vaxtda xidmətə məsuliyyət nümayiş etdirilməsi vətəndaşlıq borcu kimi dəyərləndirilirdi. Beyləqan və Bərdə rayonlarında keçirilən görüşlərdə Heydər Əliyev hərbi komissarlıqların fəaliy-

yətinin sağlamlaşdırılması məsələsinə bir daha toxundu və bununla bağlı əlaqədar qurumlar qarşısında ciddi tələblər qoydu.

1994-cü il aprel ayının 17-də Prezident Aparatında keçirilən müşavirəni açarkən Heydər Əliyev bildirdi ki, respublikada yaranmış vəziyyət, erməni silahlı birləşmələrinin kənar qüvvələrin köməyi ilə geniş hücuma keçməsi fövqəladə müşavirə keçirilməsinə, görülmüş və görüləcək işlərin təhlilinə ehtiyac yaratmışdır. Cəbhə bölgəsində atəşin dayandırılması barədə Ermənistan rəhbərliyi, Rusiya və MDB başçıları ilə danışıqların konkret nəticə vermədiyini qeyd edən respublika Prezidenti müşavirə iştirakçılarının nəzərinə çatdırırdı ki, təcavüzkara cavab vermək üçün xalqın bütün imkanları səfərbər edilməlidir. Prezident diqqəti buna cəlb edirdi ki, hazırda ordunun formalaşmasında, ordu hissələrinin əsgərlərlə, zabitlərlə tam komplektləşdirilməsində böyük çətinliklər vardır. Heydər Əliyev bunun səbəbinin aşağıdakı çətinliklərlə bağlı olduğunu bildirirdi: «Bu gün ...ordumuzun formalaşmasında, ordu hissələrimizin əsgərlərlə, zabitlərlə tam təmin olunmasında çox böyük çətinliklərimiz vardır. Bunlar bir tərəfdən səfərbərliyin zəif getməsi, ikinci tərəfdən isə həm ordu hissələrini, həm də döyüş bölgələrini qoyub qaçanların – fərarilik hallarının artması ilə bağlıdır» (111).

Heydər Əliyev yaranmış vəziyyətdə hərbi hissələrin əsgərlərlə və zabitlərlə təmin edilməsini, orduda nizam və intizamın möhkəmləndirilməsini, fərariliyin qarşısının alınmasını hamının, başlıcası isə vəzifəli şəxslərin əsas işi sayırdı (112).

Çıxışının başqa bir yerində isə Heydər Əliyev ordunun qurulmasını, hərbi hissələrin canlı qüvvə ilə təmin edilməsini bütün xalqın qarşısında dayanan bir nömrəli vəzifə kimi xarakterizə edirdi (113).

Yaranmış vəziyyətlə əlaqədar Heydər Əliyev yaxın günlər üçün çox konkret vəzifələrin müəyyənləşdirilməsini və onların

sözsüz yerinə yetirilməsini vəzifəli şəxslərdən ciddi şəkildə tələb edirdi. Səfərbərlik işinin təşkilini ordunun möhkəmləndirilməsi üçün əsas addımlardan biri kimi qiymətləndirən dövlət başçısı xidmətə yararlı gənclərin xidmətə cəlb edilməsi üçün çox qısa vaxt təyin edərək müşavirə iştirakçılarını öz vəzifələrinə böyük məsuliyyətlə yanaşmağa çağırırdı. Respublika Prezidenti 1994-cü ilin birinci rübünün çağırış planının 30 faiz kəsirlər yerinə yetirilməsini dözülməz hal kimi qiymətləndirir və həmin kəsirin üç gün ərzində aradan qaldırılmasını rayon və respublika qurumlarının qarşısında başlıca vəzifə kimi qoyurdu (114).

Heydər Əliyev yuxarıda adları sadalanan rayon qurumlarının işini təkcə səfərbərlik tapşırıqlarını yerinə yetirməklə bitmiş hesab etmirdi. Bərdə, Göyçay, Mingəçevir, Xaçmaz ehtiyat taborlarının timsalında göstərirdi ki, bu taborların şəxsi heyətinin döyüş bölgələrindən fərarilik etməsinin səbəblərindən biri də həmin rayonların hüquq-mühafizə orqanlarının, icra hakimiyyəti rəhbərlərinin taborların fəaliyyəti ilə tamamilə maraqlanmamalarıdır. Heydər Əliyevin fikrincə, kifayət qədər məsuliyyət, vətəndaşlıq mövqeyi nümayiş etdirə bilməyən bu şəxslərin respublika ərazisində baş verənləri izləməməsi, şəxsi qayğılarının başqa qayğıları üstələməsi rayon əhalisindən təşkil edilmiş hissələrin taleyinə laqeydlik yaratmışdır. Buna görə də lazımi nəzarət və qayğı ilə əhatə olunmayan şəxsi heyət fərarilik edirdi. Heydər Əliyev cəbhəyə göndərilən şəxslərin və onların ailələrinin qayğı ilə əhatə olunmasını, fərarilik edənlərin tapılıb geri qaytarılmasını da rayon fəallarının əsas vəzifələrindən biri sayırdı.

Heydər Əliyev yaranmış ağır vəziyyətdə bu vəzifələrlə kifayətlənməyi qaneedici bilmirdi və tələb edirdi ki, səfərbərlik məsələləri ilə bağlı rayonlarda olan ehtiyatlar hərəkətə gətirilsin. Bunun üçün rayonlarda imkanlar da var idi. Həmin imkanların üzə çıxa-

rılması üçün Heydər Əliyev vəzifəli şəxslərdən başqa, rayonların ağsaqqallarına və ictimaiyyətinə də müraciət edirdi. Ölkə başçısı şübhə etmirdi ki, ictimaiyyətin bu məsələdə fəallaşması özünün lazımi səmərəsini verə bilər. Bu mənada respublika Prezidenti işğal olunmuş rayonlarda mövcud olan ehtiyatlara diqqət yetirilməsini xüsusi vurğulayırdı. Çünki qaçqın vəziyyətində olan əhalinin arasında gənclər də xeyli çox idi və onların da çoxu məskunlaşdıqları rayonlarda işsiz idilər. Bu gənclərin orduya cəlb edilməsi mövcud olan ehtiyacların aradan qaldırılmasına kömək göstərə bilərdi.

Amma Heydər Əliyev çağırış və səfərbərlik işlərini yalnız qaçqın rayonlarının gənclərinə aid edilməsi ilə kifayətlənməyi doğru saymırdı. O, birmənalı şəkildə bildirirdi ki, Azərbaycan ərazilərinin erməni təcavüzündən qorunması harada yaşamasından asılı olmayaraq respublikanın bütün vətəndaşlarının müqəddəs borcudur (115).

Müşavirədə bildirirdi ki, rayonlarda mövcud olan çağırışçı ehtiyatların üzə çıxarılması ilə bağlı polis rəislərinin, sahə müvəkkillərinin qarşısında da ciddi vəzifələr dayanır. Çünki onlar məsul olduqları ərazilərin sakinlərini yaxşı tanıyırdılar və ona görə onlar çağırış yaşında olan gənclərin xidmətə istiqamətləndirilməsində ciddi mövqe tuta bilərdilər. Heydər Əliyev tələb edirdi ki, çağırış və səfərbərlikdən yayınanlara qarşı prokurorluq orqanları tərəfindən də ciddi tədbirlər görülsün və xidmətdən yayınanlarla bağlı ictimaiyyət də məlumatlandırılsın ki, belələri ictimaiyyətin qınağı ilə də qarşılaşsınlar.

Heydər Əliyev çağırış ehtiyatlarının xidmətdən yayınmasında bir sıra vəzifəli şəxslərin də məsuliyyət daşıdığını bildirirdi. Müvafiq göstəriş olmasına baxmayaraq, çağırış yaşı çatmış kontingentin respublikadan çıxmasının qarşısının alınmasına məsul olan şəxslər hava limanında, dəmir yolu vağzalında öz vəzifələrindən sui-istifadə edir, qanunsuzluğa, rüşvətxorluğa yol verərək hərbi

vəzifəlilərin respublikadan kənara çıxmasına şərait yaradırdılar. Respublika Prezidentinin təəssüflə qeyd etdiyinə görə, hətta bəzi icra başçıları da bu çirkin işə qarışırdılar. Eyni zamanda, hərbi komissarlıqlar da vəzifələrinin icrasına səhlənkarlıqla yanaşır, rüşvət alıb respublikadan getmək istəyənlərə saxta icazə sənədləri verirdilər (116).

Hərbi komissarlıqların fəaliyyətinin müharibə dövrünün tələblərinə cavab verməməsini, burada baş alıb gedən qanunsuzluqları Heydər Əliyev xüsusilə təhlil edir və birmənalı şəkildə bildirirdi ki, belə vəziyyətin davam etməsi ilə barışmaq olmaz. Heydər Əliyev qeyd edirdi ki, səfərbərliyə cavabdeh olan hərbi komissarlıqlar bu işin öhdəsindən gələ bilmirlər. Buna görə də hüquq-inzibati orqanlara onlara kömək göstərilməsi barədə tapşırıq verilirdi. Respublika Prezidenti öz vəzifə borclarını layiqincə yerinə yetirə bilmədikləri üçün bir sıra rayonların hərbi komissarlarını dərhal tutduqları vəzifədən azad etdi və onların cəbhə bölgələrinə daha aşağı vəzifələrə göndərilməsi barədə elə müşavirənin gedişində əmr verdi. Bununla belə, yol verdikləri qanunsuz hərəkətlərinə görə cinayət məsuliyyətinə cəlb olunmuş hərbi komissarlar haqqında istintaqın tezliklə başa çatdırılmasını və onun nəticələrinin ictimaiyyətə bildirilməsini tələb etdi (117).

Hərbi komissarlıqların fəaliyyətinin dövrün tələblərinə uyğun qurulmasını təmin etmək üçün Heydər Əliyev bir sıra konkret göstərişlər də verdi. Birincisi, Heydər Əliyev tələb etdi ki, hərbi komissarların vəzifəyə təyin və azad edilmələri Prezident Aparatının razılığı ilə aparılsın. Çünki dövlət rəhbərinin qənaətinə görə, Müdafiə Nazirliyinin rəhbərliyi bu məsələdə kifayət qədər tələbkarlıq göstərmirdi. İkincisi isə Heydər Əliyev tələb etdi ki, hərbi komissarların hamısı 10 gün müddətində attestasiyadan keçirilsin, onların tutduqları vəzifəyə yararlı olub-olmadıqları yoxlanılsın. Müşavirənin sonunda Heydər Əliyev bütün vəzifəli şəxslərin, respubli-

kanın bütün ictimaiyyətinin əsas diqqətinin çağırış və səfərbərlik işinin gücləndirilməsinə cəlb edib, bu sahədə yaxın günlər üçün konkret vəzifələr müəyyənləşdirib onların icrası istiqamətində təcili tədbirlər görülməsinin zəruriliyini vurğuladı.

Heydər Əliyev təkcə orduya səfərbər olunmağı deyil, eyni zamanda, səfərbərlik işinə nəzarət və rəhbərlik etməli olan şəxslərin öz vəzifələrini sədaqətlə yerinə yetirmələrini də vətəndaşlıq borcu sayır, ordunun möhkəmləndirilməsi istiqamətində əməli addım kimi qiymətləndirirdi. O tələb edirdi ki, xalqın, respublikanın bütün vətəndaşlarının etimad göstərdiyi vəzifəli şəxslər ölkənin ağır vəziyyətdə olduğunu dərk etsin, bundan lazımi nəticə çıxararaq əməli tədbirlər görsünlər (118).

Heydər Əliyevin müvafiq vəzifəli şəxslər və qurumlar qarşısında konkret vəzifələr qoyması və onlara məsuliyyətin artırılması tezliklə səfərbərlik işində də müəyyən canlanma yaratdı. 1994-cü ilin aprel-may aylarında düşmənin geniş miqyaslı hücumlarının qarşısının alınmasında, atəşin dayandırılması üçün aparılan danışıqlara Ermənistanın ciddi yanaşmasında sözsüz ki, səfərbərlik sahəsində atılan konkret addımların da öz təsiri oldu. Çünki bu sahədə yaranan canlanma Azərbaycan Ordusunun döyüş qabiliyyətinin daha da artmasına və Ermənistanın Silahlı Qüvvələrinin təcavüzünə qarşı müqavimətin ciddi şəkildə güclənməsinə yol açdı ki, bu da erməni millətçilərini atəşkəslə razılaşmağa məcbur etdi.

## 5. 1993-cü ilin sonu və 1994-cü ilin əvvəllərində yeniləşmiş Azərbaycan Ordusunun döyüş fəaliyyəti

Ümummilli lider Heydər Əliyevin 1993-cü il noyabr ayının 2-də radio və televiziya ilə xalqa müraciətinin tarixi əhəmiyyəti bir də onda idi ki, bu müraciət ilk növbədə dövlət rəhbərliyinin özü tərəfindən konkret fəaliyyət proqramına çevrildi və həmin

dövrdə ordunun yenidən qurulması vəzifəsi dövlət quruculuğunun mərkəzində dayandı. Dövlətin təşkilati fəaliyyəti və rəhbərliyi nəticəsində Heydər Əliyevin çağırışlarından sonra bütün cəmiyyət müdafiə qüvvələrinin möhkəmləndirilməsinə səfərbər oldu və müraciətdə qaldırılan məsələlər dövlət orqanları, ictimai-siyasi qurumlar, ictimaiyyətin təbəqələri tərəfindən fəaliyyət proqramına çevrildi.

Ölkənin müdafiəsinin təşkilinə rəhbərlik etmək üçün Respublika Prezidentinin fərmanı ilə Müdafiə Şurası yaradıldı və noyabr ayının 1-də Müdafiə Şurasının ilk iclası keçirildi (119). Heydər Əliyevin rəhbərliyi altında keçirilmiş ilk iclasda respublikanın İran sərhədi boyunca yerləşən rayonlarında Ermənistan silahlı qüvvələrinin son hücumlarından sonra yaranmış mürəkkəb vəziyyət əsaslı şəkildə təhlil olundu. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hissə və bölmələrinin geri çəkilməsinə, Zəngilan, Cəbrayıl və Füzuli rayonlarının İranla həmsərhəd olan və dinc əhalinin hələ qaldığı ərazilərin işğal olunmasına gətirib çıxaran səbəblər ətraflı təhlil mövzusuna çevrildi. Müdafiə Nazirliyinin fəaliyyəti, hərbi hissələrin formalaşmasına və döyüş hazırlığına rəhbərliyi ciddi müzakirə edildi və bu orqanın rəhbərliyinə qəti göstərişlər verildi ki, qısa müddət ərzində Nazirliyin fəaliyyəti yenidən təşkil edilsin, hissə və birləşmələrin ərazi prinsipi üzrə yaradılması kimi qüsurlu praktikaya son qoyulsun, ölkənin müdafiəsi işinin strateji istiqamətlərinin və onların icrasının taktiki yollarının hazırlanmasına daha diqqətlə yanaşılsın və sistemsizlik aradan qaldırılsın.

Müdafiə Şurasının iclasında həm respublika Prezidenti, həm də respublikanın digər vəzifəli şəxsləri çıxış edərək ordu quruculuğunun elmi-təcrübi əsaslar üzərinə qoyulmasının vacibliyini vurğuladılar, şəxsi heyətin döyüş ruhunun qaldırılmasına

toxunarkən çağırışçıların küçələrdən, müəssisələrdən zor gücünə yığılması praktikasını pislədilər, orduya çağırışın müəyyən edilmiş qaydada həyata keçirilməsinin labüd olduğunu göstərdilər. Şurada qərara alındı ki, hüquq-mühafizə orqanları və digər orqanların əməkdaşları çağırış və səfərbərlik məsələlərinin təşkilində qanunsuzluqların aradan qaldırılması üçün nəzarəti daha da gücləndirsinlər, günahkar şəxslər ciddi şəkildə cəzalandırılsınlar (120).

Müdafiə Şurasının ilk iclasında hərbi hissələrdə baş verən fərarilik hallarının artması da müzakirə edildi. Bu qanunsuz halı doğuran səbəblərin kökü araşdırıldı və mövqelərini özbaşına tərk edən zabit və əsgərlərə qarşı ən ciddi sanksiyalar tətbiq edilməsi barədə qərar qəbul edildi.

Müdafiə Şurası hərbi hissə və birləşmələrin maddi-texniki təchizatının daha da yaxşılaşdırılması zərurətini qeyd edərək respublikanın müdafiə kompleksinə daxil olan baş idarələrə və təşkilatlara tapşırdı ki, bu sahəyə diqqət daha da artırılsın. Bundan başqa, Müdafiə Şurasının qərarı ilə Müdafiə Nazirliyinin əsas strukturlarında bəzi kadr dəyişiklikləri edildi. Respublika Prezidentinin sərəncamı ilə general-mayor Nəcməddin Sadıkov Silahlı Qüvvələrin Baş Qərargah rəisi təyin edildi. Eyni zamanda, respublika hərbi komissarlığının rəhbərliyində də dəyişiklik baş verdi. Prezidentin sərəncamı ilə müdafiə məsələləri üzrə dövlət müşaviri vəzifəsinə də kadr təyinatı oldu.

Hərbi hissə və bölmələrin hərbi hazırlığına və döyüş fəaliyyətinə rəhbərlikdə operativliyi təmin etmək məqsədilə Silahlı Qüvvələrin strukturuna yenidən baxıldı və Cəbhə Səhra İdarəsinin ləğvi məqsədəuyğun bilindi. Müdafiə nazirinin 4 noyabr 1993-cü il tarixli əmri ilə Cəbhə Səhra İdarəsi ləğv olundu. Heydər Əliyevin xalqa müraciətində qeyd edildiyi kimi, 400-500

nəfərlik şəxsi heyəti əvəzinə sıralarında cəmi 15-18 nəfər olan, lakin 400-500 nəfərlik ərzaq və maliyyə vəsaitini israf edən hərbi hissələr ləğv edildi.

Döyüş fəaliyyətini düzgün qura bilməyən hərbi hissələrin yeni kadrlarla möhkəmləndirilməsi də dövlət rəhbərliyinin müdafiə qüvvələrinin sağlamlaşdırılması istiqamətində atdığı konkret addımlardan biri idi (121).

1993-cü il noyabr ayının 4-də Heydər Əliyev Bakıda Azərbaycan torpaqlarının bütövlüyü uğrunda mübarizə aparmağa hazır olan Əfqanıstan müharibəsi veteranlarının bir qrupu ilə görüşdü. Bu tədbir Heydər Əliyevin xalqa müraciətindən sonra cəbhə bölgəsinə yollanmaq təşəbbüsü ilə çıxış edən gənclərlə ilk görüşü idi və o, həm Heydər Əliyev, həm də Əfqanıstan müharibəsinin veteranları tərəfindən böyük məmnunluqla qarşılandı. Prezident öz çıxışında qeyd etdi ki, onun müraciəti Azərbaycanın vətənpərəst oğulları arasında canlanma yaratmışdır və Prezident Aparatına daxil olan neçə-neçə məktublar göstərirdi ki, yerlərdə cəbhəyə yollanmaq təşəbbüsləri qaldırılır. Heydər Əliyev Əfqanıstan müharibəsi veteranlarının, ictimaiyyətin digər dairələrinin cəbhəyə yollanmaq təşəbbüslərini xalqın daxili potensialının, onun mübarizə əzminin əməli fəaliyyətə çevrilməsi kimi qiymətləndirirdi: «Azərbaycan Respublikasının öz torpaqlarını müdafiə etmək üçün böyük potensialı var. Ən böyük potensial bizim insanların Vətənə, torpağa bağlılığı, Vətəni, torpağı sevməsi və onu qorumaq hissidir. Bu, xalqımızın tarixi ənənələrindən irəli gələn hissidir. Güman edirəm ki, xalqımızın tarixi ənənələrimizi, keçmişimizi yada salaraq Azərbaycanın bu ağır vəziyyətdən çıxması üçün bundan sonra səmərəli tədbirlər görəcəkdir. Ordumuz, müdafiə qüvvələrimiz möhkəmləndirilməlidir. Bunu da xalq etməlidir. Bu bütün vətəndaşların işidir. Bunu ordunun özü,

ordunun rəhbərləri etməlidirlər. Nəhayət, bunu biz etməliyik. Bu bizim borcumuzdur» (122).

Heydər Əliyev Vətən sevgisi ilə respublika ərazilərini qorumağa hazır olan Əfqanıstan müharibəsi veteranlarına uğurlar arzulayaraq onların dəstələrinin formalaşdırılması məqsədilə Müdafiə Nazirliyinin rəhbərliyinə müvafiq göstərişlər verdiyini də bildirirdi.

Bundan sonra Bakıda və respublikanın digər rayonlarında da könüllü müdafiə dəstələrinin formalaşdırılmasına başlandı. Respublika Prezidenti Heydər Əliyevin xalqa müraciətindən sonra bərdəli gənclər də qısa müddətdə öz könüllü dəstələrini yaratdılar. Bir neçə gün ərzində yüzlərlə gənc Vətəni qorumaq arzusu ilə könüllü müdafiə dəstələrinə qoşuldular. Rayonun Əfqanıstan müharibəsi veteranları olan gənclər özlərinin «Qeyrət» dəstəsini təşkil etdilər (123).

Müraciətdən sonra Binəqədi rayonunun idarə, müəssisə və təşkilatlarında da yığıncaqlar keçirildi və bu yığıncaqlarda cəbhəyə kömək göstərilməsi məsələləri müzakirə edildi. Cəmi bir neçə gün ərzində rayonun 448 nəfər könüllüsü yeni yaradılan hərbi hissələrin sıralarına göndərildi. Könüllü yaradılmış hissələrə 500 ədəd çarpayı, döşək, isti örtük və digər əşyalar göndərildi. Bir sıra müəssisələrin işçiləri isə əmək haqlarının 10 faizini döyüşə gedən əsgərlərin əmək haqqı fonduna keçirməyi qərara aldılar (124).

Nizami, Salyan, Lənkəran, İmişli və Beyləqan rayonlarının hamiliyi altında təşkil edilən könüllü taborlar cəbhə bölgələrinə yola salındılar. Sumqayıt şəhərində isə bir neçə könüllü müdafiə taboru formalaşdırılaraq cəbhəyə göndərildi və onların qayğıları da şəhər ictimaiyyətinin nəzarəti altına götürüldü (125).

Könüllü müdafiə dəstələrinin formalaşdırılması, təlimi, bütünlükdə Silahlı Qüvvələrin döyüş hazırlığı da Heydər

Əliyevin daimi nəzarəti altında idi və o bu prosesin gedişinə ciddi diqqət yetirirdi. Hərbi hissələrin təlim-tərbiyəsinin vəziyyəti, şəxsi heyətin xidməti qayğıları ilə yaxından tanış olmaq üçün respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Heydər Əliyev 1993-cü il noyabr ayının 7-də «N» hərbi təlim mərkəzinə gəldi (126). O, təlim mərkəzində atıcıların, topçuların, tankçıların təlimini izlədi, əsgər və zabitlərlə görüşdü, onların xidməti, qayğı və problemləri ilə maraqlandı. Bu görüşdə də Heydər Əliyev bildirdi ki, təcavüzün qarşısını almaq üçün ordunun möhkəmləndirilməsi, onun canlı qüvvə və texnika ilə təchiz edilməsi sahəsində dövlətin rəhbərliyi tərəfindən davamlı və ardıcıl tədbirlər həyata keçirilir. Prezident vətəndaşlıq borcunu yerinə yetirən əsgər və zabitlərə həvalə edilmiş müqəddəs vəzifələrin icrasına nail olunması üçün döyüş hazırlığının gücləndirilməsinə, təlimlərin genişləndirilməsinə böyük diqqət verdiyini bildirirdi. O, gənc tankçılara öz arzularını belə ifadə edirdi: «Azərbaycan əsgəri qorxmaz, cəsarətli, mərd olmalıdır Bu texnikanın sükanı arxasında əyləşən hər kəs bilməlidir ki, onun məharətindən, igidliyindən çox şey asılıdır. Döyüşçülər ağır məqamda da zəiflik göstərməməlidirlər. Torpağını müdafiə edən adam üçün müqəddəs amal qəhrəmanlıq göstərməkdir. Hər biriniz bu amalla yaşamalısınız. Sizin yolunuz birdir – Vətən, torpaq uğrunda mətanətlə döyüşmək, düşmənə layiqli cavab vermək. Mən əminəm ki, bu yolda son damla qanınızı belə əsirgəməyəcəksiniz. Bunu sizdən Vətən, Xalq, Torpaq gözləyir» (127).

Noyabrın 7-də təlim poliqonunda tank bölməsinin komandirinin döyüş xidmətlərinə görə respublika Prezidenti Heydər Əliyev tərəfindən növbədənkənar rütbəyə layiq görülməsi bölmənin əsgər və zabitləri tərəfindən də sevinclə qarşılandı. Respublika Silahlı Qüvvələrinin Ali Baş Komandanı bu qərarı ilə bir daha

nümayiş etdirdi ki, Vətən qarşısında sədaqətlə xidmət edən hər bir döyüşçünün zəhməti layiqincə qiymətləndiriləcəkdir.

Müdafiə qüvvələrinin möhkəmləndirilməsi respublika parlamentinin üzvlərinin də diqqət mərkəzində idi. Heydər Əliyevin xalqa müraciətindən sonra Milli Məclisin bir qrup üzvü cəbhə bölgələrinə yola düşərək hərbi hissələrin qayğıları ilə yerlərdə tanış oldu. Milli Məclisin 1993-cü il noyabrın 18-də keçirilən qapalı iclasında bir qrup deputatın döyüş bölgələrinə səfərinin nəticələri barədə məlumat verildi və onların təklifləri əsasında yekun məlumatın hazırlanması üçün redaksiya komissiyası yaradıldı (128).

Milli Məclisin 18 noyabr tarixli iclasında Müdafiə naziri, Silahlı Qüvvələrin Baş Qərargah rəisi, bir sıra deputatlar çıxış edərək Azərbaycanın ərazi bütövlüyünün qorunması, torpaqların erməni işğalından azad edilməsi, ordu quruculuğu, qaçqınların vəziyyəti, mülki müdafiə və s. məsələlərlə bağlı mülahizələrini bildirdilər. İclasda həmçinin müdafiə və təhlükəsizlik üzrə Milli Məclisin daimi komissiyasının yaradılması barədə qərar qəbul edildi.

Milli Məclisin noyabr ayının 26-da keçirilən iclasında isə respublikada müdafiə işini və Silahlı Qüvvələr quruculuğunu tənzimləməyə imkan verəcək iki qanun – «Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında» Qanunun yeni redaksiyası və «Müdafiə haqqında» Azərbaycan Respublikası Qanunu müzakirə edilərək qəbul olundu (129).

Respublikada bütün qüvvələrin erməni təcavüzünə qarşı səfərbər edilməsi üçün 1993-cü il noyabr ayının 17-də siyasi partiyaların və ictimai hərəkatların rəhbərləri ilə respublika Prezidenti Heydər Əliyevin keçirdiyi görüşdə siyasi məsləhətləşmələr aparıldı, ölkənin müdafiəsi işinə bütün siyasi qüvvələrin, onların tərəfdarlarının daha yaxından cəlb edilməsi üçün görüş iştirakçılarının təklif və rəyləri dinlənildi (130).

Silahlı Qüvvələr quruculuğunun yeni mərhələsinin başlanğıcında respublika rəhbəri Heydər Əliyev diplomatik danışıq və əlaqələri də genişləndirdi və müvəqqəti atəşkəsin əldə edilməsinə nail olundu. Ancaq 1993-cü ilin payızında güclü müqavimətə rast gəlmədən Azərbaycanın bir neçə rayonunu işğal etmələri erməni təcavüzkarlarını daha da şirnikləndirdi və onlar ciddi-cəhdlə yeni ərazilərin işğalına hazırlaşırdılar. «Azərbaycan Ordusu» qəzetinin hələ noyabr ayının əvvəllərində dərc etdiyi bir məlumatda bildirilirdi ki, «DQR» silahlı qüvvələri qərargah rəisinin birinci müavini İrəvana gedərək Qarabağdakı silahlı birləşmələrin maddi-texniki bazasını müasir silahlarla təkmilləşdirmək üçün «Mistral», «Stinger» və «Pou» tipli hava hücumundan müdafiə vasitələri və digər sursat almaq barədə danışıqlar aparır. Bu səfər zamanı Ermənistan Müdafiə Nazirliyinin rəhbərliyi ilə Qarabağda aparılan hərbi əməliyyatların gedişi müzakirə edilmiş və yeni döyüş taktikasının seçilməsi məqsədəuyğun bilinmişdi. Əgər əvvəllər erməni qüvvələri əsasən cinah hücumlarına fikir verirdilərsə, indi qəfil və gözlənilməz zərbələrin vurulmasına üstünlük verilirdi. Qış fəslinin başlanması ilə hərbi əməliyyatların intensivliyinin zəifləyəcəyi güman edilsə də, erməni komandanlığı fəal hazırlıq işləri görür, növbəti döyüşlərin planlarını cızırdılar. Qəzetin verdiyi məlumata görə, erməni komandanlığının yeni döyüşlərin planlarını hazırlaması onların ən yaxın vaxtlarda döyüş əməliyyatlarını genişləndirəcəklərini güman etməyə əsas verirdi (131).

Bu məlumatları Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəhbərliyi də təsdiq edirdi. Erməni təcavüzkarları öz hərəkətlərini pərdələmək üçün yenidən geniş təbliğat aparmağa başladılar. Onlar belə bir yalan məlumat yaydılar ki, Azərbaycan Ordusu hücum əməliyyatlarına hazırlaşır. Ancaq noyabr ayının əvvəllərində Azərbaycanın Qazax-Ağstafa-Tovuz-Gədəbəy

rayonlarının sərhədi boyunca Ermənistan tərəfi 5,5 min nəfərlik canlı qüvvə, o cümlədən polkovnik Arakelyanın Armavirdən gətirdiyi 1000 nəfərlik muzdlu kazak, yeni silah olan «Uraqan» tipli reaktiv sistem (RS-30), T-80 tipli 20 ədəd tank və digər çoxlu texnika toplaşmışdı. Müdafiə Nazirliyinin verdiyi məlumata görə, erməni silahlı dəstələri Qarabağın bütün sərhədi boyunca da öz qüvvələrini qruplaşdırır və əlavə dəstələr gətirirdi. Alınan məlumatlara görə, erməni bölmələrinin Goranboy, Tərtər və Beyləqan istiqamətində yaxın vaxtlarda atəşkəsi pozacağı və hücuma keçəcəyi gözlənilirdi (132).

Şübhəsiz ki, ermənilərin yeni təcavüzkarlığa hazırlaşması barədə alınan bu məlumat əsassız deyildi və ona görə də respublika rəhbərliyi qısa müddət ərzində Azərbaycan Ordusunun möhkəmləndirilməsi üçün bütün vasitələrdən istifadə etməyə çalışırdı.

1993-cü il dekabrın əvvəllərində erməni təcavüzkarları daha da fəallaşmağa başladılar. Daxili və xarici havadarlarınınköməyi ilə onlar Azərbaycan qoşunlarının «irimiqyaslı hücumları» haqqında aləmə car çəkərək öz əməllərini gizlətməyə səy göstərirdilər. Ayın 4-5-də erməni silahlı birləşmələri artıq ciddi hazırlıqdan əməli fəaliyyətə keçdilər. Ermənistan Respublikası ərazisində yerləşən bazalardan Azərbaycanın şimal-qərb sərhədində yerləşən sərhəd postları atəşə tutuldu. Dekabrın 6-da Naxçıvanın Sədərək qəsəbəsi də erməni silahlı dəstələrinin güclü atəşlərinə məruz qaldı. Həmin günlər ərzində Beyləqan və Ağcabədi istiqamətində ermənilərə əlavə kömək gətirildiyi və onların cəbhə xətti boyu yerləşdirildiyi müşahidə olunurdu (133).

Ayın 7-də Tərtər istiqamətində hərbi şərait xeyli mürəkkəbləşdi. Düşmənin silahlı qüvvələri səhər saat 6-dan başlayaraq top və reaktiv qurğuların vasitəsilə Tərtər şəhərinin özünü və rayon ərazisindəki mövqeləri güclü atəşə tutdu (134).

Dekabrın 10-dan etibarən isə erməni silahlı dəstələri əsaslı şəkildə hücuma keçdilər. Erməni ordusunun piyada dəstələri Beyləqan istiqamətində hücumu genişləndirərək yeni əraziləri ələ keçirməyə cəhd göstərdilər. Ayın 11-də bu hücum daha geniş xarakter aldı. Onları bu hücumda 20 ədəd tank müşayiət edirdi. Respublika Prezidenti Heydər Əliyevin xalqa müraciətindən sonra erməni silahlı qüvvələrinin ilk böyük hücumu ilə rastlaşan Azərbaycan Ordusunun hərbi hissələri təcavüzkara layiqli müqavimət göstərərək malik olduğu döyüş hazırlığının hansı səviyyədə olduğunu nümayiş etdirə bildilər. Doğrudur, bu döyüşün gedişində heç də bütün hissələr, xüsusilə könüllü müdafiə dəstələri düşmənə kifayət qədər müqavimət göstərə bilmədilər. Bakının Binəqədi rayonunun könüllülərindən təşkil olunmuş taborun döyüşçüləri düşmənin çoxsaylı zirehli texnikasının hərəkətindən qorxuya düşərək geri çəkildilər. Tabor komandirinin yaralanması isə döyüşçülər arasında çaxnaşmanı artırmış və bir çoxları döyüş mövqelərini tərk edərək Bakıya qayıtmışdılar (135). Görünür, elə buna görə də düşmən qüvvələri cəbhə xəttini yararaq 2,5 kilometr irəliləyə bilmişdilər.

Ancaq Ağcabədi və Beyləqan istiqamətində yerləşdirilmiş hissələrin heç də hamısı belə zəiflik göstərərək geri çəkilməmişdi. Bu zonada gedən döyüşlərin nəticələri ilə tanış olan Heydər Əliyev əsasən Cəlilabad rayonu Göytəpə qəsəbəsinin sakinlərindən təşkil olunmuş taborun fəaliyyətini xüsusi qiymətləndirirdi. Bu tabor geri çəkilmiş Binəqədi taborunun mövqelərini tutaraq düşmənə qarşı şücaətlə döyüşmüş və onları qaçmağa məcbur etmişdi. Bu iki taborun fəaliyyətini Heydər Əliyev belə qiymətləndirirdi: «Bu batalyonların hər ikisində xidmət edənlər bizim övladlarımızdır, hamısı Azərbaycan vətəndaşıdır. Lakin bir dəstə qorxaqlıq, mən deyərdim ki, satqınlıq etmiş, tankın səsini eşidən kimi döyüş mövqeyini qoyub qaçmış, digər dəstəsi

isə əksinə, cəsarət göstərərək düşmənin hücumunun qarşısını almışdır. Mən sonuncuların bir hissəsi ilə görüşdüm. Onlar bildirdilər ki, biz ölərik, lakin geri dönmərik. Xalqımıza sədaqətlə xidmət edəcəyimizə, torpaqlarımızı müdafiə edəcəyimizə əmin ola bilərsiniz. Onların bu qətiyyəti məni çox sevindirdi» (136).

Erməni təcavüzkarları heç şübhəsiz ki, bu dəfə də çox asanlıqla qələbə çalacağına ümid edirdilər. Döyüş meydanına böyük qüvvə gətirilməsi isə, yəqin ki, onların tam müvəffəqiyyətinə təminat verməli idi. Lakin döyüş keyfiyyətlərini xeyli təkmilləşdirən Azərbaycan Ordusu hissələri düşmənə çox güclü müqavimət göstərdilər və əməldə sübut etdilər ki, respublika Prezidenti Heydər Əliyevin xalqa müraciətindən sonra ordu quruculuğunda başlanan canlanma əbəs deyildir. Qısa müddət keçməsinə baxmayaraq, ordunun sağlamlaşdırılması istiqamətində bir sıra tədbirlərin həyata keçirilməsi, hissə və birləşmələrin dövlətin və xalqın qayğısı ilə əhatə olunması, xalqla ordu arasında əlaqələrin gücləndirilməsi şəxsi heyətin mənəvi əhval-ruhiyyəsinin yüksəlməsinə kömək etmişdi. Hərbi hissələrdə döyüş hazırlığının təkmilləşdirilməsinə də münasibət dəyişmişdi. Bütün bunlar son nəticədə hərbi hissələrin döyüş qabiliyyətini xeyli yaxşılaşdırdı. Elə onun üçün də böyük qüvvə ilə hücuma keçən düşmən ağır itkilərə məruz qalaraq geri çəkilməyə məcbur oldu. Dekabr ayının 11-də gedən döyüşlərdə erməni silahlı birləşmələri 7 ədəd tank, 3 ədəd piyada döyüş maşını və 200-ə yaxın canlı qüvvə itirdi. Azərbaycan Ordusu hissələrinin dekabrın 11-də əldə etdiyi uğur yeni şəraitdə cəbhədə dönüşün başlanğıcı oldu (137).

Dekabr ayının 12-də erməni silahlı qüvvələri yenidən hücuma keçdilər. Lakin yenə də Azərbaycan döyüşçülərinin güclü müqaviməti, hünər və şücaəti ilə üzbəüz gəldilər.

Dekabr ayının 11-12-də başlanan döyüş əməliyyatları elə həmin günlərdə respublika Prezidenti Heydər Əliyevin cəbhə rayonlarına səfəri ilə üst-üstə düşdü. Respublika Silahlı Qüvvələrinin Ali Baş Komandanı cəbhənin ön xəttində əsgər və zabitlərlə, cəbhəboyu rayonların əhalisi ilə görüşərək vəziyyətlə yaxından tanış oldu, Azərbaycanın müdafiə qüvvələrinin möhkəmləndirilməsi istiqamətində görülmüş və görüləcək işlərdən danışdı. Heydər Əliyev söhbətləri zamanı 2 noyabr 1993-cü il tarixli müraciətindən sonra respublikada bir canlanma yarandığının, müdafiə qüvvələrinin möhkəmləndirilməsi üçün müəyyən işlərin görüldüyünü qiymətləndirməklə bərabər, bütünlükdə, ordunun döyüş qabiliyyətinin hələ lazımi səviyyəyə çatmadığını və bununla bağlı bütün xalq qarşısında böyük vəzifələr dayandığını qeyd etdi. Heydər Əliyev ordu quruculuğunun mürəkkəb şəraitdə getdiyini, bir sıra obyektiv çətinliklərin mövcud olduğunu, ordunun müharibə şəraitində formalaşdırıldığını etiraf edirdi. Ancaq eyni zamanda onu da vurğulayırdı ki, respublika etibarlı şəkildə müdafiə edilməli, Azərbaycan xalqı bütün torpaqlarının və sərvətlərinin sahibi olmalıdır. Ona görə də respublika Prezidenti qeyd edirdi ki, bu məqsədlərə çatmaq üçün sülh və danışıqlar yoluna fikir verilsə də, Azərbaycan Ordusu da möhkəmləndirilməli və onun döyüş imkanları artırılmalıdır.

Heydər Əliyev bu görüşləri zamanı müdafiə qüvvələrinin formalaşdırılmasında və təşkilində yol verilən nöqsanların səbəblərinə toxunmaqla bərabər, onun möhkəmləndirilməsinin gələcək perspektivini xalqın köməyi və qayğısı ilə bağlı olduğunu bildirirdi. O, müvəqqəti köçkünlərlə, yerli əhalinin nümayəndələri ilə görüşdə vurğulayırdı ki, bu gün hamı, ən əvvəl əli silah tutan kişilər Vətənin müdafiəsinə qalxmalıdır, adını kişi qoyan kəs qaçqın ola bilməz və olmamalıdır. Üstəlik buna

dözməməlidir ki, düşmən onun torpağını tapdalasın, onun xalqının namusuna toxunsun. Vətənin müdafiəsi hər kəsin müqəddəs borcu olmalıdır (138).

Heydər Əliyev ölkənin imkanlarının müharibənin aparılmasına səfərbər edilməsinə, xalqla ordu arasında zəruri olan əlaqələrin möhkəmləndirilməsində, ordunun hərtərəfli qayğı ilə əhatə edilməsində respublikanın vəzifəli şəxslərinin, xüsusən yerli hakimiyyət orqanları rəhbərlərinin fəaliyyətinə xüsusi əhəmiyyət verirdi. Respublikanın müdafiəsi ilə bağlı məsələlərin, qaçqın düşmüş vətəndaşların yaşayışına aid problemlərin yerindəcə səmərəli həlli yollarını müzakirə etmək üçün Heydər Əliyev Gəncədə Prezident Aparatının, Nazirlər Kabinetinin məsul işçilərinin, nazirliklərin, komitələrin, şirkətlərin, cəbhə bölgələrinin və işğal olunmuş rayonların rəhbərlərinin, rayon sovetləri sədrlərinin, hüquq-mühafizə orqanlarının rəhbərlərinin, hərbi komissarların iştirakı ilə geniş müşavirə keçirdi. Narahatçılıq doğuran və qarşıda dayanan vəzifələrin həmin müşavirədə geniş müzakirəsi aparıldı.

Respublika Prezidenti müşavirə iştirakçılarına xalqa 2 noyabr tarixli müraciətindən sonra aparılan işlərdən və onun nəticəsi kimi hərbi hissələrin döyüşkənliyində yaranmış dəyişikliklərdən danışdı, Beyləqan və Ağcabədi istiqamətində çirkin niyyətlərindən əl çəkməyən erməni təcavüzkarlarına layiqli zərbə vurulduğunu məmnunluqla qeyd etdi (139).

Heydər Əliyev Azərbaycan torpaqlarının etibarlı müdafiəsinin bütün təşkilat və orqanların başlıca vəzifəsi olmasını qətiyyətli şəkildə bildirirdi və haqlı olaraq qeyd edirdi ki, bu vəzifə təkcə ordunun adı ilə bağlanmamalıdır. Vətənpərvərlik hisslərinin möhkəmləndirilməsi, qələbəyə inamın artırılması xalqın müdafiə işinə səfərbər edilməsi, istiqamətləndirilməsi böyük təşkilatçılıq işi tələb edirdi ki, bu da Heydər Əliyevin fəaliyyətinin ayrılmaz

tərəfini təşkil edirdi. Ordu hissələrində çox qısa zaman ərzində ciddi keyfiyyət dəyişikliklərinin meydana gəlməsi də Heydər Əliyevin rəhbərliyi altında çox mühüm və vacib məsələlərin həllinin düzgün təşkili nəticəsində mümkün olmuşdu.

Heydər Əliyev, eyni zamanda, bütün səviyyələrdə olan orqanların təşkilatçılıq fəaliyyətinin düzgün qurulmasına, müdafiə qüvvələrinin gücləndirilməsi üçün bütün imkanların səfərbər edilməsinə ciddi diqqət yetirirdi. Buna görə də o, rayon rəhbərlərinə həvalə olunmuş məsələlərin icrasına bütün məsuliyyətləri ilə yanaşmalarına cavabdeh olduqlarını çatdırırdı və onların bu istiqamətdəki qətiyyəti müdafiə işinin bütün rayonlarda təşkilinin ardıcıllığına, dönməzliyinə bir zəmin yaradırdı: «Rayon rəhbərləri bilməlidirlər ki, haradasa, azacıq da olsa geri çəkilməyə yol versələr, bundan ötrü başları ilə cavabdehdirlər. Ermənistanla həmsərhəd olan rayonların rəhbərlərinə bir daha deyirəm: siz rayonun ərazi bütövlüyünə cavabdehsiniz. Əgər geri çəkilsəniz, hər hansı mövqeyi təhvil versəniz, buna heç bir vəchlə bəraət qazandıra bilməyəcəksiniz, əksinə mühakimə olunacaqsınız. Mən xəbərdarlıq edirəm, bundan sonra belə hallar bağışlanmayacaqdır. Hər biriniz, sizinlə mən də vətən uğrunda, xalqımızın gələcəyi naminə özümüzü qurban verməyə hazır olmalıyıq. Eyni zamanda, imkanlarımızdan səmərəli istifadə etməliyik ki, Vətəni müdafiə edək, itkilərimiz az olsun» (140).

Heydər Əliyev rayon icra hakimlərinin səfərbərlik sahəsində, ordudan fərarilik etmiş əsgərlərin tapılıb geri qaytarılmasında kifayət qədər fəallıq göstərmədiyini qeyd edir, onları öz işlərini müharibə dövrünün tələbləri səviyyəsində qurmağa çağırırdı.

Rayonların müxtəlif orqanlarının öz vəzifələrinin icrasına yüksək məsuliyyətlə yanaşmaları nəticəsində mövcud səfərbərlik imkanlarından bütünlüklə istifadə edilməsini Heydər Əliyev

ordunun möhkəmləndirilməsi yollarından biri kimi qiymətləndirirdi. O bildirirdi ki, icra hakimiyyətlərinin başçıları, hərbi komissarlıqlar, hüquq-mühafizə orqanları, Müdafiə Nazirliyi bu işlə ciddi məşğul olmalıdırlar. Heydər Əliyevin fikrincə, güclü orduya malik olmağımız müharibədən sülh yolu ilə çıxmağa da kömək göstərə bilər. Çünki güclü müdafiə qüvvələrinə malik olduğumuz təqdirdə erməni təcavüzkar qüvvələrini danışıqlar stolu arxasında oturmağa məcbur etmək olar. Səngərlərdə döyüşçülərlə görüşərkən Heydər Əliyev ümumdövlət miqyasında görüləcək işlərlə bərabər, ordunun döyüş keyfiyyətlərinin hər bir əsgərin və zabitin öz vətəndaşlıq borcunu necə yerinə yetirməsindən asılı olduğunu bildirirdi. O öz fikirlərini ifadə edərək göstərirdi ki, Azərbaycan öz oğullarına, təcrübəli hərbi mütəxəssislərə bu gün həmişəkindən daha çox möhtacdır. Elə mütəxəssislərə ki, həmvətənlərini öz arxasınca aparmağa, düşmən qarşısında igidliklə durmağa, onu pərən-pərən salıb doğma torpaqdan qovmağa qadirdir.

Heydər Əliyevin 1993-cü il dekabrın 11-12-də cəbhə rayonlarına səfəri respublikanın müdafiə qüvvələrinin möhkəmləndirilməsi istiqamətində həyata keçirilmiş mühüm tədbirlərdən biri idi. Erməni silahlı qüvvələri ilə təmas xəttində Azərbaycan torpaqlarının keşiyində dayanan əsgər və zabitlərlə görüşməklə, onların hünərini, zəhmətini layiqincə qiymətləndirməklə Heydər Əliyev göstərdi ki, dövlət və xalq öz ordusunu unutmayıb, vətənpərvər insanlar bir an da olsa diqqətdən kənarda qalmayacaqlar. Bütün gücü ilə Azərbaycanın dövlət mənafelərinin müdafiəsi üçün çalışan və ordunun fəaliyyətini yüksək qiymətləndirən Prezident Heydər Əliyevlə görüşlər döyüşçülərdə yüksək mənəvi əhval-ruhiyyənin formalaşmasına, bütün qüvvələri ilə Vətənin müdafiəsinə səfərbər olmalarına kömək etdi.

Heydər Əliyevin cəbhə bölgələrinə səfəri həm də onun müdafiə qüvvələrinin möhkəmləndirilməsi istiqamətində əməli fəaliyyətinin yeni bir səhifəsi idi. O, işgüzar müşavirələrdə ordunun formalaşdırılması və möhkəmləndirilməsi işində mövcud olan nöqsanların aradan qaldırılması üçün müvafiq təşkilatların rəhbərlərinin hesabatını dinləmiş, onlara konkret tapşırıqlar vermiş, vəzifəli şəxslərin məsuliyyət dairələrini müəyyənləşdirmişdi.

Heydər Əliyevin cəbhə bölgəsinə səfərinin ardınca Milli Məclisin rəhbərliyi və üzvləri də dekabrın 12-də hərbi hissələrdən birində oldular. Milli Məclisin üzvləri əsgərlərlə görüş zamanı onların döyüş hazırlığının səviyyəsi, qayğısı və problemləri ilə maraqlandılar, arzu və təkliflərini dinlədilər.

Uğursuzluğa düçar olmasından quduzlaşan erməni silahlı dəstələri dekabr ayının 13-də Beyləqan və Ağcabədi istiqamətində yenidən hücuma keçdilər. Bu istiqamətdəki döyüş mövqeləri səhər tezdən minaatanlardan atəşə tutuldular. Düşmənin əsas qüvvələri Beyləqan istiqamətində cəmləşdirilmişdi. Çoxlu zirehli texnikanın köməyi ilə hücuma keçən erməni qüvvələri Azərbaycan hissələrinin müdafiə xəttini yararaq Beyləqan rayonunun içərilərinə doğru irəliləməyə cəhd göstərdilər. Cəbhənin bu sahəsində bütün gün ərzində qanlı döyüşlər getdi. Lakin Azərbaycan Ordusunun hissə və bölmələri təcavüzkara layiqli cavab verdilər. Onların güclü zərbəsindən sonra düşmən geri oturduldu. Gün ərzində yenidən hücuma keçməyə cəhd göstərsələr də, erməni qüvvələri uğursuzluğa düçar olaraq böyük itkilərlə əvvəlki mövqelərinə çəkildilər. Haramı düzündə gedən döyüşlərdə düşmən tərəfi 3 tank itirdi (141). Düşmənin canlı qüvvələrinin itkisi isə daha çox idi.

Erməni təcavüzkarları Azərbaycan Ordusu hissələrindən aldığı güclü zərbə ilə barışa bilmirdilər. Görünür, vaxtilə yüngül

döyüşlərdən sonra yaşayış məntəqələrini müqavimətsiz tərk edib geri çəkilən Azərbaycan Ordusu hissələrində güclü keyfiyyət dəyişikliklərinin meydana gəldiyini erməni qüvvələri reallqdan uzaq sayırdılar. Buna görə də hər aldıqları zərbədən daha da quduzlaşan erməni təcavüzkarları növbəti hücuma daha çox qüvvə cəlb edərək məqsədlərinə nail olmağa çalışırdılar. Dekabrın 16-da onlar yenidən Azərbaycan döyüşçülərinin mövqeləri üzərinə hücuma keçdilər. Güclü top hazırlığından sonra erməni qüvvələri saat 12-də Füzuli rayonunun şərqində yerləşən müdafiə mövqelərinə doğru hərəkətə başladılar. Piyadalardan əlavə hücumda ermənilərin 15 ədəd tankı və 4 ədəd piyada döyüş maşını iştirak edirdi. Azərbaycanın hərbi qüvvələrini çıxılmaz vəziyyətə salmaq üçün erməni qüvvələri öz hücumlarını üç istiqamətdən təşkil etmişdilər. Lakin saat 18.30-da erməni qüvvələrinin müqaviməti büsbütün qırıldı və onlar yenə də əvvəlki mövqelərinə çəkilmək məcburiyyətində qaldılar. Erməni qüvvələrinin geri çəkilməsi elə bir vahimə içərisində baş verdi ki, onlar hətta Yuxarı Kürdmahmudlu kəndi istiqamətində bir ədəd işlək tank da qoyub qaçmışdılar (142). Dekabr ayının 16-da gündüz ermənilər tank və PDM-lərdən Azərbaycan Ordusunun Tərtər istiqamətindəki müdafiə mövqelərini də atəşə tutdular.

Sakitləşmək bilməyən erməni qüvvələri dekabrın 17-də Beyləqan istiqamətində yenidən müdafiə xəttini yarmağa cəhd göstərdilər. Bu bölgədə yerləşən hərbi hissələrdən yalnız birinin qarşısına ermənilər 6 ədəd tank və 2 ədəd piyada döyüş maşını çıxarmışdı. Həmin gün erməni hərbi qüvvələri Kürdmahmudlu kəndi istiqamətində Azərbaycan Ordusu hissələrinin müdafiə xəttini 12-ci dəfə yarmağa cəhd göstərsələr də, uğursuzluğa düçar olub geri qayıtdılar.

Sonrakı bir neçə gün ərzində gücdən düşmüş erməni qüvvələri geniş əməliyyatlar aparmaqdan çəkinsələr də, öz niyyət-

lərindən heç də əl çəkmək fikrində deyildilər. Rastlaşdıqları uğursuzluğun əvəzini çıxmaq və Azərbaycanın yeni ərazilərini ələ keçirmək məqsədilə Ermənistanın cənubundan Beyləqan istiqamətinə xeyli qüvvə göndərildi. Ermənilərin 20-dək tankı və 300-dək əsgəri dekabrın 23-24-də cəbhə xətti boyunca yerləşdirilmişdi. Tərtər-Goranboy istiqamətində də ermənilərin hücuma hazırlaşdıqları göz qabağında idi. Çünki onlar bura əlavə olaraq üç motoatıcı tabor çəkib gətirmişdilər.

Əvvəlki adətlərinə sadiq qalan erməni millətçiləri daxildə və xaricdə öz əlaltılarının və havadarlarının köməyi ilə Azərbaycan qoşunlarının Qarabağın «məzlum» müdafiəçiləri üzərinə genişmiqyaslı hərbi əməliyyatlar başlaması barədə səs-küy qaldıraraq dekabrın 24-də axşama yaxın Füzuli rayonunun işğal olunmamış yaşayış məntəqələri və Beyləqan istiqamətində hücuma keçdilər. Bir neçə gün davam edən döyüşlərdə Azərbaycanın ordu hissələri yeni ərazilərin işğalına imkan verməyərək torpaqların hər qarışı uğrunda mərdliklə vuruşdular. Ümumiyyətlə, dekabr ayının 10-dan başlayaraq Beyləqan-Ağcabədi istiqamətində gedən döyüşlər Azərbaycan Respublikasının Silahlı Qüvvələri tarixinə yeni bir səhifə yazdı. Cəbhənin bu bölgəsində gedən döyüşlər uzun müddət uğursuzluq məngənəsində qalan ordunun yeniləşdiyini, möhkəmləndiyini nümayiş etdirməklə bərabər, hissə və bölmələrin şəxsi heyətində, bütünlükdə Azərbaycan xalqında inamın, yeni əhval-ruhiyyənin formalaşmasına təkan verdi. Respublika Prezidenti bu bölgədə gedən döyüşlərdə əsgər və zabitlərin mətanətini və şücaətini yüksək qiymətləndirərək özünün 14 dekabr 1993-cü il tarixli fərmanı ilə ilk dəfə olaraq Silahlı Qüvvələrin şəxsi heyətindən 6 nəfəri «Azərbaycan Bayrağı» ordeninə, 16 nəfəri isə «Hərbi xidmətlərinə görə» medalına layiq gördü.

Dekabr ayının 26-28-də düşmənin çoxlu zirehli və canlı qüvvəyə malik olduğu Goranboy istiqamətində də güclü döyüşlər getdi. Bütün cəbhə boyu təşəbbüsü ələ alan Azərbaycan Ordusunun hissə və bölmələri burada da düşmənə layiqli zərbə vurdular. Dekabrın 26-da erməni əsgərlərindən 7 nəfər öldürüldü, dekabrın 27-də isə daha 26 düşmən əsgəri öldürüldü, 13 düşmən mövqeyi dağıdıldı, xeyli sursat və silah ələ keçirildi (143).

Dekabr ayının 28-də erməni tərəfi həm Ağdam, həm Tərtər, həm də Goranboy istiqamətində yeni genişmiqyaslı hücuma keçdi və növbəti dəfə uğursuzluğa düçar oldu. Ciddi müqavimətə rast gələn təcavüzkarlar döyüş meydanında çoxlu sayda hərbi texnika və canlı qüvvə itirərək geri qaçmağa məcbur oldular. Tərtər istiqamətində düşmənin iki tankı, bir zirehli maşını, 102 millimetrlik üç topu, bir zenit qurğusu, bir komanda-qərargah maşını və böyük bir sursat anbarı ələ keçirildi (144). Dekabrın son günlərində Ağdam-Ağdərə istiqamətində də Azərbaycan Ordusu hissələrinin bir-birinin ardınca bir neçə uğurlu döyüşü keçirildi. Əvvəlcə, Boyəhmədli və Papravənd kəndləri alındı, Ağdam-Ağdərə yolu kəsildi. Sonra isə Mərzili və Novruzlu kəndləri düşməndən azad edildi (145).

Dekabr ayının 29-na keçən gecə düçar olduqları uğursuzluqlardan qəzəblənən erməni hissələri Ağdam, Tərtər və Beyləqan istiqamətlərində müdafiə xəttini yarmağa cəhd göstərdilər. Bütün istiqamətlərdə Azərbaycan Ordusunun hissələri düşmənin hərəkətini saxlayaraq onu ilkin mövqelərinə qayıtmağa məcbur etdilər. Tərtər istiqamətində isə düşmən yenidən ağır zərbə aldı. Bu dəfə onlar nəinki təşəbbüsü ələ ala bilmədilər və hətta Tərtər şəhərini atəşə tutduqları strateji yüksəkliyi də itirdilər.

Dekabr ayının 29-da Qarabağdan çox-çox uzaq olan Qazax və Ağstafa rayonlarının yaşayış məntəqələri Ermənistan ərazisindən raket-top atəşinə tutuldu və bu təcavüz nəticəsində xeyli yaralanan və ölənlər oldu.

Ayın 30-31-də erməni silahlı qüvvələri Tərtər, Ağdam və Beyləqan istiqamətlərində döyüşləri yenidən qızışdırdılar. Dekabrın 31-də düşmən Murovdağ istiqamətində fəallaşmağa başladı. Ancaq burada da ilk döyüşlərdən sonra 5 əsgər itirən düşmənin geri çəkilməkdən başqa çarəsi qalmadı.

1994-cü il yanvar ayının 1-nə kimi Çaykəndə qədər gəlib çıxmağı planlaşdıran erməni təcavüzkarlarının 1993-cü ilin dekabr ayında bütün cəbhəboyu başladığı hücumlar erməni millətçiləri üçün yeni bir nəticə vermədi, əksinə müəyyən bölgələrdə əvvəlki mövqelərini də tərk etməli oldular. Bütün bunlar, şübhəsiz ki, Azərbaycan Ordusu hissələrinin mərdliklə vuruşması nəticəsində mümkün olmuşdu. 1993-cü il dekabr ayında aparılan hərbi əməliyyatların uğurlu nəticələri onu da sübut etdi ki, respublika Silahlı Qüvvələrində çoxdan gözlənilən müsbət keyfiyyət dəyişikliyi meydana gəlmiş, hissə və bölmələrin döyüşkənliyi və müdafiə qüdrəti xeyli artmışdır. Doğrudur, Heydər Əliyevin xalqa müraciəti ilə hərbi əməliyyatların başlanması arasında cəmi bir aydan bir neçə gün artıq vaxt var idi və belə qısa müddətdə ciddi böhran məngənəsində olan orduda əsaslı və köklü dəyişikliklər yaratmaq mümkün deyildi. Bunu respublika Prezidenti Heydər Əliyev özü də etiraf edirdi (146). Lakin respublikanın Silahlı Qüvvələrində nəzərəçarpacaq dəyişikliklərin yaranması və döyüşkənliyin artması danılmaz idi. Baş verən dəyişikliyin əsas təşkilatçısı və ilhamvericisi olan Heydər Əliyev də orduda keyfiyyət dəyişikliklərinin baş verməsini böyük sevinclə qarşılayırdı: «Son aylarda respublikamızda ordunun qurulması, nizamlanması torpaqlarımızın etibarlı müdafiə olunması sahəsində aparılan işlər nəticəsində biz böyük dəyişikliklərin şahidiyik. İndi bizim ordu hissələrimiz, qəhrəman döyüşçülərimiz torpaqlarımızın müdafiəsində etibarlı durublar, qəhrəmanlıq nümunələri göstərirlər, erməni silahlı qüvvələrinin hücumlarına qarşı layiq-

li cavablar verirlər, onlara zərbə endirirlər. Məmnuniyyət hissi ilə demək olar ki, son aylarda erməni silahlı qüvvələrinin bütün cəhdləri məğlubiyyətə uğrayıbdır. Onların bütün hücumları dəf olunubdur. Respublikamızın Silahlı Qüvvələri tutduğu mövqeləri etibarlı müdafiə edirlər və erməni silahlı qüvvələrinə Azərbaycan Respublikasının gücünün və qüdrətinin nə qədər artdığını sübut edirlər» (147).

Heydər Əliyev 1994-cü miladi ilinin gəlişi münasibətilə xalqa təbrikindən götürülmüş bu sətirlərdə ötəri də olsa orduda yaranan dəyişikliklərin səbəblərinə toxunulmuşdur. Silahlı Qüvvələrin hissə və bölmələrinin sistemləşdirilməsi, görülən bütün işlərin nizama salınması və vahid mərkəzdən məqsədyönlü şəkildə istiqamətləndirilməsi, ümumdövlət miqyasında görülən işlərin düzgün qurulması son nəticədə ölkənin müdafiə qüdrətinin artmasına gətirib çıxardı. Silahlı Qüvvələrdə müsbət dəyişikliklərin yaranmasını şərtləndirən başlıca tədbirlər, Heydər Əliyevin xalqa 2 noyabr 1993-cü il tarixli müraciətindən sonra cəmiyyətdə yaranan canlanma xalqın əhval-ruhiyyəsini yüksəltmiş, milli vətənpərvərlik hisslərini xeyli artırmış və xalqın əksər təbəqələrinin bütün varlığı ilə respublikanın müdafiəsi işinə səfərbər olunmasına zəmin yaratmışdı. Heydər Əliyev çıxışlarının birində bu dəyişikliyi belə qiymətləndirirdi: «Xalqımızın milli vətənpərvərlik hissi güclənib, döyüş ruhu yüksəlib, xalq artıq dərk edib ki, öz torpağını o özü qorumalıdır. Kənardan heç kəs gəlib onun torpağını qorumayacaqdır. Bu heç mümkün olası iş də deyil. Əgər sən bir yerdə yaşayırsansa, sənin bir evin, bir koman varsa, onun sahibisənsə, onu qorumalısan. Əgər qoruya bilərsənsə, demək, sən namuslu, şərəfli adamsan, həm də doğrudan da, vətənpərvər insansan. Əgər qoruya bilmirsənsə, sənin heç yaşamaq haqqın yoxdur» (148).

Lakin respublika rəhbərliyi yaranmış vəziyyətə reallıqla yanaşırdı. Ordunun möhkəmləndirilməsi istiqamətində müsbət meyillərin mövcudluğu təsdiq olunmaqla bərabər, bir sıra hissə və birləşmələrin şəxsi heyəti arasında xain və təxribatçıların olması və onlara qarşı kəskin mövqenin tutulmasının vacibliyi də etiraf edilirdi. Orduda cinayət törətmiş şəxslərin üzə çıxarılması, cəzalandırılması ordu daxilində sağlam mühitin yaradılmasına, ordunu daxildən didən səbəblərin aradan qaldırılmasına şərait yarada bilərdi və respublika Prezidenti Heydər Əliyevin göstərişi ilə bu sahədə hüquq-mühafizə orqanları tərəfindən böyük iş görülmüşdü. Orduda baş verən cinayətkarlıqların bir çoxu 1993-cü ilin sonunadək istintaq təhqiqatından keçirilərək məhkəməyə təqdim edilmiş, ya da istintaq işləri sona çatmaq üzrə idi. Respublika Baş Prokurorluğu rəhbərliyinin fikrincə, vaxtilə Azərbaycan Ordusu hissə və bölmələrinin uğursuzluqlarını şərtləndirən fərarilik, itaətsizlik, əmri yerinə yetirməkdən boyunqaçırma, qətiyyətsizlik, fəaliyyətsizlik və s. kimi halların təkrarına 1993-cü ilin dekabrında Beyləqan istiqamətində gedən döyüşlər zamanı da cəhd göstərilmişdi. Belə halların, əsasən, qarşısı alınsa da, cinayət törədənlər də tapılırdı. Bunun nəticəsi idi ki, əsgər və zabitlərin bir hissəsi icazəsiz olaraq döyüş mövqelərini tərk edərək geri qaçmışdılar (149).

Döyüş mövqelərini özbaşına tərk edən döyüşçüləri Heydər Əliyev xəyanətkarlar kimi qiymətləndirərək, belə halların qarşısının alınması üçün qətiyyətli tədbirlərin həyata keçirilməsinin vacibliyini qeyd edirdi. Görülən tədbirlər nəticəsində öz vətəndaşlıq borclarına cinayətkarcasına yanaşaraq döyüş mövqelərindən qaçanların 33 nəfəri tutularaq cinayət məsuliyyətinə cəlb edilmişdi. Onlardan 13 nəfərinin işinə səyyar məhkəmədə baxılaraq birinə ölüm cəzası, 12 nəfərinə isə 12 ildən 15 ilədək həbs cəzası kəsilmişdi (150).

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev orduda mövcud olan qanunsuzluqların, baş verən cinayətkarlığın qətiyyətli şəkildə qarşısının alınmasının tərəfdarı idi. Ancaq bunun yalnız inzibati yolla həll edilməsinə üstünlük vermirdi. Ona görə də Heydər Əliyev 1993-cü ilin sonlarında hərbi hissələri özbaşına tərk etmiş fərarilərə, onların valideynlərinə müraciət edərək Vətənin ağır günündə şüurluluq göstərməyə çağırdı və bildirdi ki, 1994-cü il yanvarın 3-dək könüllü surətdə hərbi hissələrə qayıdanlar cinayət məsuliyyətindən azad ediləcəklər (151).

Respublika Prezidentinin bu çağırışı ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılandı və müxtəlif səbəblərə görə xidmət etdikləri hissələri tərk edən fərarilər Heydər Əliyevin səsinə səs verərək yenidən öz vətəndaşlıq borclarını yerinə yetirməyə hazır olduqlarını bildirdilər. 1994-cü il yanvar ayının 1-dək onlardan 200 nəfəri respublika Hərbi Prokurorluğunda qeydiyyatdan keçib əməllərindən peşman olduqlarını bildirdilər (152).

1994-cü il yanvar ayının 2-də yenidən öz xidməti borclarının icrasına qayıtmağa hazır olan gənclərlə və onların valideynləri ilə respublika Prezidenti Heydər Əliyevin görüşü oldu. O bu görüş zamanı Silahlı Qüvvələrin son vaxtlar respublikanın ərazisini etibarlı şəkildə müdafiə etməsindən, yaxşı nailiyyətlər qazanmasından, erməni silahlı qüvvələrinə sarsıdıcı zərbə vurulmasından, xalqda vətənpərvərlik hisslərinin, döyüş əhval-ruhiyyəsinin artmasından qürur hissləri keçirməsini ifadə etməklə bərabər, orduda hələ də keçmişin neqativ əlamətlərinin mövcud olduğunu, qorxaqlığın, fərariliyin, xəyanətkarlığın tamamilə aradan götürülmədiyini qeyd etdi və belə hallara yol verənlərə qarşı həmişə amansız mövqe tutacağını vurğuladı (153).

Heydər Əliyev fərarilik etmiş gənclərin hər birinin əməllərində cinayət tərkibinin olmasını təsdiqləməklə yanaşı, bu yola

ayaq qoyub sonra da öz hərəkətlərindən peşman olmuş, respublika Prezidentinin çağırışına səs vermiş hərbi qulluqçularla görüşə böyük əhəmiyyət verdiyini bildirirdi.

Heydər Əliyev əməllərində cinayət tərkibi olan, ancaq hərəkətlərindən peşmançılıq çəkərək ordu sıralarına qayıtmağa hazır olan gənclərin günahlarını bağışladığını bildirərək, qeyd etdi ki, indi hər bir Azərbaycan vətəndaşının ən başlıca vəzifəsi Vətəni qorumaq olmalıdır: «Bu vəzifəni həyata keçirmək üçün hər bir Azərbaycan vətəndaşı canını qurban verməyə hazır olmalıdır. Bizim Vətənimiz, müstəqil Azərbaycan Respublikası indi elə vəziyyətdədir ki, biz gərək qəhrəmanlıq nümunələri göstərək, hər bir vətəndaş öz vətəndaşlıq borcunu vicdanla yerinə yetirsin ki, Azərbaycanın işğal olunmuş torpaqlarını geriyə qaytara bilək» (154).

Günahları bağışlanan gənclərin bundan sonra Vətənə, Azərbaycan xalqına sədaqətlə xidmət edəcəklərinə əmin olduğunu bildirən Heydər Əliyev həmin görüşdəki çıxışında hərbi xidmətdən fərarilik etmiş digər gənclərə müraciətlə deyirdi: «Buraxdığınız səhvi etiraf eləyin, tutduğunuz yoldan, yəni etdiyiniz cinayətdən çəkinin, Vətənin, torpağın müdafiəsinə qalxın. Ordu sıralarına gəlin, Vətəni müdafiə etmək üçün əsgəri vəzifənizi şərəflə yerinə yetirin».

Heydər Əliyev bu görüş zamanı hərbi hissələrdən fərarilik etmiş şəxsləri, onların valideynlərini bir daha yaxşıca fikirləşməyə, tarixi sınaq mərhələsində Vətən, xalq qarşısında məsuliyyətini başa düşməyə çağırdı və könüllü geri qayıdanların qeydiyyatının aparılması müddətinin daha bir həftə uzadılması barədə göstəriş verdi.

Bir neçə gündən sonra respublika Prezidenti Heydər Əliyev hərbi xidmətdə cinayətə yol vermiş və döyüş mövqelərini özba-

şına tərk edərək erməni silahlı dəstələrinin irəliləməsinə şərait yaratmış Binəqədi könüllü taborunun döyüşçülərinə qarşı humanistlik göstərdi və onların günahlarının bağışlanması barədə fərman verdi.Fərman verilən vaxt bu taborun 44 döyüşçüsü cinayət məsuliyyətinə cəlb edilmişdi. 1994-cü ilin ilk günlərində həmin məhkumların qohumları və ailə üzvləri respublika Prezidentinə müraciət edərək onların bağışlanmasını xahiş etdilər. Bu xahiş və müraciətlər respublikanın Prezidenti tərəfindən humanistcəsinə qarşılandı və günahlarını sədaqətli xidmətləri ilə yumağa hazır olan döyüşçülərin bağışlanması barədə fərman verdi (155).

1994-cü ilin yanvar ayının 13-də Heydər Əliyev daha bir tədbirdə iştirak və çıxış etdi. O, cəbhə bölgələrində yerləşən hissələrdə xidmətə yollanan zabitlərlə görüşdü və onların şəxsində Azərbaycan Ordusunun möhkəmlənməsində zabitlərin xidmətlərini yüksək qiymətləndirərək onlara uğurlar arzuladı.

Heydər Əliyev erməni təcavüzkarlarının günahları üzündən son dövrdə cəbhə bölgələrində hərbi əməliyyatların qızışması ilə meydana gələn itkilərin bərpa edilməsinin, hissələrə yeni qüvvələr gətirilməsinin vacib olduğunu bildirirdi. O göstərirdi ki, hərbi hissələrdə həm sıravi heyətin, həm də zabit heyətinin sıralarının möhkəmləndirilməsi günün aktual məsələlərindən biridir. Dövlət rəhbəri son zamanlarda xalqda vətənpərvərlik əhval-ruhiyyəsinin yüksəlməsi ilə səfərbərlik işinin yaxşılaşmasından fərarilərin öz günahlarını başa düşərək geriyə qayıtmasından və bununla da sıravi heyətin itkilərinin bərpasında müsbət dəyişikliklərin yaranmasından məmnun olduğunu ifadə edərək respublikanın paytaxtından, hərbi komissarlıqlardan cəbhə bölgələrinə xeyli zabit göndərilməsindən də razı qaldığını bildirirdi: «...Bu gün Müdafiə Nazirliyinin əmri ilə yeni vəzifələrə təyin olunacaqsınız, hərbi hissələrdə komandir vəzifələrini tutacaq-

sınız. Əminəm ki, bu vəzifələri layiqincə yerinə yetirəcəksiniz. Siz hərbi qulluqçu, zabitsiniz. Hərbi xidmətin bir toxunulmaz qanunu var: hərbi qulluqçu, hərbi xidmətdə olan adam Vətən, komandanlıq harada lazım bilsə, orada da xidmət etməlidir. Bu hərbi qulluqçulara, o cümlədən sizə yaxşı məlumdur. Ona görə də bu gün alacağınız əmrlər sözsüz yerinə yetirilməlidir və güman edirəm ki, siz cəbhə bölgələrinə gedib hərbi hissələrdə öz xidmətinizi davam etdirərək Azərbaycan Respublikasının müdafiə qüdrətini daha da möhkəmləndirəcək, həm torpaqlarımızın müdafiəsinə, həm də işğal olunmuş torpaqlarımızın geri qaytarılmasına töhfənizi verəcəksiniz» (156).

Respublika Silahlı Qüvvələrinin Ali Baş Komandanı dönədönə qeyd edirdi ki, biz Vətən müharibəsi aparırıq, yalnız öz Vətənimizi qoruyuruq və bu müqəddəs işə hər bir adam, xüsusilə Vətəni qorumaq işini özünə peşə seçmiş olan zabitlər öz borcunu verməlidirlər və o bu müqəddəs amal üçün cəbhəyə yola düşənlərə Allahdan xeyir-dua arzuladı.

Prezidentin rəhbərliyi altında strateji əhəmiyyət kəsb edən belə tədbirlərin izlənməsi və keçirilməsi şübhəsiz ki, ölkənin müdafiə potensialının səfərbər edilməsinə məqsədyönlü təsir göstərirdi və 1994-cü ilin ilk günləri yenə də cəbhədə Azərbaycan Ordusunun hissə və bölmələrinin uğurlu döyüşləri ilə başladı. Ermənistanın millətçi dairələrini, onların daxili və xarici havadarlarını, Azərbaycanın müstəqil dövlət kimi möhkəmlənməsini heç bir vəchlə qəbul etmək istəməyənləri döyüş bölgəsində baş verən dəyişikliklər qətiyyən qane etmirdi və onlar həmişə sülh danışıqlarını ortaya atsalar da, təcavüzkar əməllərindən də əl çəkmirdilər. Müdafiə Nazirliyinin mətbuat xidmətinin verdiyi məlumatlarda göstərilirdi ki, yanvarın elə ilk günlərindən ermənilər Azərbaycan ərazilərinin içərilərinə doğru hücumlarını da-

yandırmırdılar. İşğalçı qüvvələr Ağdam-Beyləqan istiqamətində xeyli sayda canlı qüvvənin və texnikanın iştirakı ilə genişmiqyaslı hücuma keçdilər. Yanvar ayının 5-də Azərbaycanın Silahlı Qüvvələri düşmənin təzyiqinə mərdliklə müqavimət göstərərək cavab zərbələri endirdi və onları zəbt etdiyi ərazilərdən geri çəkilməyə məcbur etdi. Gərgin və qanlı döyüşlər nəticəsində Azərbaycan Ordusunun əsgərləri düşmənin irimiqyaslı hücumlarının qarşısını almış, Füzuli rayonunun Aşağı Yağlıvənd, Kərimbəyli və Şükürbəyli yaşayış məntəqələri və Horadiz qəsəbəsi də daxil olmaqla 22 yaşayış məntəqəsi erməni işğalından azad edilmişdi. Vahiməyə düşən erməni silahlıları döyüş meydanında 8 tank, 12 ədəd tank əleyhinə texnika, 6 zirehli yedək qurğusu, 7 top, 3 avtomobil və çoxlu miqdarda hərbi sursat və silah qoyaraq qaçmışdılar. Cəbhənin bu istiqamətində son döyüşlərdə düşmən, ümumiyyətlə 500-dək silahlı, 32 tank, 7 PDM, 5 avtomobil, 6 minaatan və 10 top itirmişdi. Ermənilərin qurduğu 3 mindən artıq mina isə zərərsizləşdirilmişdi (157).

Azərbaycan Respublikasının rəhbərliyi cəbhə bölgələrində uğurlu əməliyyatlar aparılmasına baxmayaraq, yenə də müharibənin sülh yolu ilə başa çatdırılmasına tərəfdar idi və bu istiqamətdə əməli addımlar atırdı. 1994-cü il yanvar ayının 15-də Zaqafqaziyadakı Rusiya qoşunları qrupunun vasitəçiliyi ilə Tbilisi şəhərində Azərbaycanın və Ermənistanın müdafiə nazirlərinin görüşü keçirildi. Görüşdə müharibənin dayandırılması məsələləri müzakirə olunmalı idi. Azərbaycan Respublikasının müdafiə naziri bu görüşdə bildirdi ki, atəşin dayandırılması sahəsində beynəlxalq birliyin gördüyü bütün tədbirlər həyata keçirilməmiş qalır. Onun üçün də atəşkəs haqqında razılıqlara əməl olunmasına etibarlı təminat yaratmaq məqsədilə Azərbaycanın Müdafiə Nazirliyi təklif etdi ki, bütün cəbhə boyu atəş dayandırılsın,

Ermənistan silahlı birləşmələri Azərbaycan torpaqlarından çıxarılsın və hər iki dövlətin siyasi rəhbərliyi səviyyəsində dialoq başlansın (158).

Ancaq şübhəsiz ki, bu şərtlərlə müharibənin dayandırılmasını Azərbaycan torpaqlarına göz dikən erməni millətçiləri və onların havadarları istəmirdi. Ona görə də Tbilisi danışıqları konkret bir nəticə vermədi. Erməni təcavüzkarlarının dövlətlərarası danışıqlara qeyri-ciddi şəkildə yanaşması, işğalçı niyyətlərini sülh haqqında səs-küylərlə ört-basdır etməyə çalışmaları həmişəki kimi yenə də aydın oldu. Müdafiə Nazirliyinin atəşkəs haqqında razılığa gəlmək barəsində danışıqlar apardığı bir vaxtda erməni silahlı qüvvələri yenidən cəbhədə Azərbaycan Ordusunun müdafiə xəttini yarıb irəliləməyə cəhd göstərdi.

Yanvar ayının 15-dən 16-na keçən gecə cəbhənin cənub hissəsində cəmləşən çoxlu sayda erməni qoşunları Azərbaycan Ordusu hissələrinin azad etdiyi ərazilərə, Füzulu rayonunun Horadiz və Dördçinar kəndlərinə hücuma keçdilər. Əvvəlki məğlubiyyətlərdən qəzəblənən düşmən tərəfi bu hücumu ilə yenidən Azərbaycan-İran sərhədi boyunca yerləşən əraziləri öz işğalı altına almaq istəyirdi. Azərbaycanın hissə və bölmələri möhkəmlənərək erməni qoşunlarının hücumlarına layiqli cavab vermək imkanına malik olduqlarını bir daha nümayiş etdirdilər. Canlı qüvvə itkisinə məruz qalmış düşmənlər tələsik yenidən Füzuli şəhəri ətrafındakı əvvəlki mövqelərindən geri çəkildilər (159).

Müdafiə Nazirliyinin Mətbuat xidmətinin verdiyi məlumata görə, aparılan son hərbi əməliyyatlar nəticəsində düşmən Füzuli rayonunun Böyük Bəhmənli, Aşağı Yağlıvənd, Kərimbəyli, Arayatı, Dördçinar, Şükürbəyli, Alxanlı, kənd Horadiz, Kiçik Horadiz, Tonaşen və Dostakir məntəqələrini qoyub qaçmışdılar. Azərbaycan Ordusunun hərbi hissələri Kəlbəcər və Goranboy

rayonları ərazisindəki bir sıra strateji yüksəklikləri də ələ keçirmişdilər. İşğal olunmuş Azərbaycan ərazisində dekabr (1993) – yanvar (1994) aylarındakı hücumlar zamanı böyük itkilər verən və gücdən düşdüyünü hiss edən erməni komandanlığı Ermənistandan əlavə qoşun kontingenti, silah və zirehli texnika gətirilməsi barədə faktları öz təbliğatı ilə ört-basdır etməyə çalışaraq «DQR»-in hakim dairələrinin guya səfərbərlik elan etməsi haqqında əsassız informasiya da yaydılar (160).

Əslində isə vertolyotlarla hər gün Ermənistandan Yuxarı Qarabağa təcili olaraq canlı qüvvə və sursat daşınması davam edirdi. Geriyə isə erməni silahlılarının yaralıları daşınırdı. Əvvəlki hücumlarla heç bir hərbi uğur əldə edə bilməyən düşmən yanvar ayının 17-də yenidən Füzuli istiqamətində təşəbbüsü ələ keçirməyə cəhd göstərdi. Böyük ciddi-cəhdlə başlanan hücum gözlənilən nəticəni vermədi və düşmən ağır zərbə alaraq geri çəkildi (161).

Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisində apardığı müharibənin uğursuzluqlarının ictimaiyyətdən gizlədilməsi üçün Ermənistanın daxilində və xaricində Azərbaycana qarşı güclü təbliğat işləri aparılsa da, baş verənlərin əsas mahiyyətini gizlətmək mümkün deyildi. Saysız-hesabsız itkilərdən qəzəblənən erməni əhalisi hətta 1994-cü il yanvar ayının 13-14-də Leninakanda öz rəhbərlərinin yeritdiyi siyasət əleyhinə mitinq keçirməyi planlaşdırırdılar. Lakin yerli hakimiyyət orqanları buna imkan verməyərək mitinqi silah gücünə dağıtmışdılar (162).

İşğalçıların uğursuzluqları regionda sülh yaranmasını istəməyən Ermənistan rəhbərliyinin nüfuzunu aşağı salmışdı. Bu vəziyyət sözsüz ki, Ermənistanın təcavüzkar dairələrini, onların havadarlarını razı salmırdı. Moskvada olan müəyyən dairələr Azərbaycanda işğalçılıq siyasətinin uğursuzluğa düçar olması-

nın qarşısını almaq üçün Ermənistanın rəhbərliyinə açıq-açığına köməklik göstərir, hətta Soçidən buraya təyyarələrlə silah və yanacaq göndərilməsi gizlədilmirdi (163). Müşahidəçilərin fikrincə, müstəqil Azərbaycana təzyiqlərin gücləndirilməsi üçün Ermənistanın rəhbərliyinə, onun silahlı qüvvələrinə hər cürə köməklik göstərilirdi. Hətta Ermənistanda yerləşən Rusiya qoşunlarının hərbi xidmətçiləri də erməni qoşunları ilə birlikdə Azərbaycan ərazisindəki hərbi əməliyyatlarda iştrirak edirdilər. Belələrinin içərisində erməni millətindən olan hərbi qulluqçular çoxluq təşkil edirdilər. Məsələn, Rusiyanın Ermənistandakı 127-ci motoatıcı diviziyasına məxsus olan 11233 nömrəli hərbi hissənin hərbi qulluqçuları Stepan Kevarkyan və Razmik Qriqoryan 1994-cü il yanvarın 22-də Kəlbəcər rayonunun Çaplı kəndində Azərbaycan Ordusunun bölmələri tərəfindən əsir götürülmüşdülər. Həmin gün əsir alınan daha bir hərbi qulluqçu, Leninakan şəhər hərbi komissarlığının 4-cü şöbə rəisi Aşot Qriqoryan Azərbaycan ərazisinə necə gəlib çıxmalarını belə izah edirdi: «Yanvar ayının 21-də Leninakan rayon hərbi komissarı podpolkovnik Minasyan məni otağına çağırıb bildirdi ki, Azərbaycan Silahlı Qüvvələri Ermənistanın Vardenis rayonunu bombardman edib, qadın və uşaqları doğum evindən çıxarmaq üçün təcili ora getmək lazımdır. Çox çəkmədi ki, Rusiya Silahlı Qüvvələrinə məxsus 6 ədəd «KamAZ» və «Ural» markalı maşınlar da gəldi və biz Leninakan rayon hərbi komissarlığının dörd nəfər zabiti ilə hadisə yerinə yola düşdük. Rayon mərkəzinə çatarkən şəhərin bombalanmasının şahidi olmadıq. Deməli, bizi aldatmışdılar. Vardenis rayon hərbi komissarına müraciət etdik. O bizi yaxınlıqda yerləşən qərargaha apardı və Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-leytenant Andreasyanla görüşdürdü. Baş Qərargah rəisi Vardenis rayonunun Şəfəq kənd orta məktəbində

maşınların təcili yüklənməsini əmr etdi. Avtomat, qumbaraatan və pulemyotlarla yaraqlanmış 240 nəfər əsgər və zabit maşınlara doluşdu. «UAZ» markalı bir maşın isə bizi müşayiət edirdi. Yanvarın 22-də səhər saat 5-dək yol getdik. Zil qaranlıq olduğu üçün səhərədək gözləməyi məsləhət bildilər. Hava işıqlaşana kimi yenidən 15 km irəlilədik. Yaşayış məntəqələrinin birində maşınları saxladılar və şəxsi heyətə maşınları tərk etmək haqqında əmr verdilər. Əsgərləri düşürəndən sonra geri qayıtdıq. Yolda bizi güclü atəşə tutdular. Maşınları saxlamağa məcbur olduq. Mühasirəyə düşdük. Bu zaman məlum oldu ki, bizi Azərbaycan Respublikasının Kəlbəcər rayonuna gətiriblər «(164).

Azərbaycan Ordusunun hissə və bölmələrinin Kəlbəcər rayonunun ərazisində bir neçə gün ərzində keçirdiyi döyüşlər nəticəsində rayonun Bozlu, Təkqaya, Babaşlar, Qanlıkənd, Şəpki, Suzusluq, Qasımbinəsi, Yanşaq, Bağırsaq, Qamışlı, Bağırlı yaşayış məntəqələri işğalçılardan azad olundu. Gərgin döyüşlərdən sonra bu istiqamətdəki Çiçəkli dağı da daxil olmaqla strateji cəhətdən əhəmiyyət kəsb edən bir sıra yüksəkliklər də Azərbaycan Ordusu hissələrinin nəzarəti altına keçdi. Bunun nəticəsində Kəlbəcər -Ağdərə yolunun yuxarı hissəsi və Kəlbəcər yolunun tunelə qədər olan hissəsi ermənilərin nəzarəti altından çıxdı. Burada gedən döyüşlərdə düşmənin 300-dək əsgər və zabiti, 9 tankı, 2 PDM-i, 5 artilleriya qurğusu məhv edildi. 4 tank, 2 PDM, xeyli atıcı silah, minaatan və sursat anbarları ələ keçirildi (165).

Azərbaycan Ordusunun əldə etdiyi müvəffəqiyyətlər, orduda baş vermiş müsbət dəyişiklikləri sabit və dönməz xarakter alması bütün Azərbaycan xalqının böyük sevincinə səbəb oldu. Azərbaycan Ordusunun uğurlarının möhkəmləndirilməsi üçün dövlətin bütün imkanlarının səfərbər edilməsinə çalışan Heydər Əliyev, eyni zamanda, cəbhəyə yola düşən hərbi hissələrin şəxsi

heyətini, hər bir döyüşçünü qəhrəmanlıq yolunu əzmlə davam etdirməyə, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi üçün son nəfəsədək vuruşmağa çağırırdı. O, 1994-cü il yanvar ayının 24-də cəbhəyə hazırlaşan hərbi hissələrin yola salınma mərasimində əsgər və zabitlərə belə müraciət etdi: «Mən sizə, əziz zabitlər, əsgərlər, məhz sizə arxalanıram, sizə güvənirəm və əminəm ki, siz də sizin kimi minlərlə Azərbaycan əsgəri, zabiti və bir nəfər tək ayağa qalxıb Azərbaycanın ərazi bütövlüyünü müdafiə edəcəklər. İnanıram ki, siz gedib cəbhədəki qəhrəman döyüşçülərimizin sıralarına qoşulacaq, işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi üçün hünər, qəhrəmanlıq göstərəcəksiniz» (166).

Müharibənin Ermənistanın təcavüzkar dairələrinin günahı üzündən davam etdiyini qeyd edən Heydər Əliyev bildirirdi ki, Azərbaycan bütün məsələlərin sülh yolu ilə, danışıqlar yolu ilə həll edilməsinin tərəfdarıdır və bu istiqamətdə əməli addımlar atır. Lakin Ermənistan rəhbərliyinin zəkaya çağırışlara qulaq asmaması, Azərbaycanın işğal olunmuş torpaqlarını tərk etmək istəməməsi Azərbaycan xalqından öz torpaqlarını daha əzmlə müdafiə etməyi tələb edir. Buna görə də Heydər Əliyev cəbhə bölgələrinə yola düşən əsgər və zabitlər qarşısındakı qısa çıxışı zamanı onların bu müqəddəs vəzifənin həyata keçirilməsi üçün yola düşdüklərini açıqlayırdı. Respublika Prezidentinin Azərbaycan xalqının bu gününə və sabahına narahatlığı üzərində köklənən çıxışının hər cümləsi hər bir döyüşçünü bütün gücü və bacarığı ilə mübarizəyə səfərbər edən böyük bir mənəvi qüvvənin ifadəsinə çevrilmişdi.

Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun günü-gündən möhkəmlənməsi və bütünlükdə cəmiyyətdə müsbət meyillərin güclənməsi respublikanın xaricində olan müəy-

yən qüvvələri ciddi təşvişə salmışdı. «Armyanskiy vestnik» qəzetinin 1993-cü ilin son nömrələrindən birində çap olunmuş məqalənin müəllifləri Heydər Əliyevin Azərbaycanda hakimiyyət başına gəlməsini az qala özlərinin milli faciəsi, Ermənistanın təcavüzkar siyasətinə son qoyulmasının başlanğıcı kimi qiymətləndirirdilər. Heydər Əliyevin uzaqgörən müdrikliyi sayəsində daxili və xarici siyasətdə müəyyən aydınlıq yaranması, Azərbaycanın Rusiya ilə münasibətlərinin getdikcə yaxşılaşması erməni millətçi dairələrini ciddi təşvişə salmış və Azərbaycanın MDB-yə daxil olmasından əvvəlki dövrü Ermənistanın regionda ən yaxşı dövrü kimi qiymətləndirilmişdi (167). Erməni siyasətçiləri şübhə etmirdilər ki, Heydər Əliyevin yeritdiyi siyasət nəticəsində hətta MDB daxilində də daha Azərbaycanı təkləmək mümkün olmayacaq və ermənilərin öz ərazilərini genişləndirmək barəsindəki iddiaları da uğursuzluğa düçar olacaqdır. Qəzet yazırdı: «Heydər Əliyevin hakimiyyət başına qayıtması vəziyyəti kökündən dəyişdirməkdədir. Heydər Əliyev MDB-yə müsbət münasibət bəslədiyini qətiyən gizlətmirdi və nəzərə almaq lazımdır ki, burada söhbət təkcə iqtisadi vəziyyətdən getmir. Azərbaycanın MDB-yə daxil olması Rusiya ilə münasibətlərdə Ermənistanı «ötüb keçməsinə», onu Moskva ilə münasibətlərdə nail olduğu müvəqqəti imtiyaz və üstünlüklərindən məhrum etməsinə imkan yaradır» (168).

Məqalə müəllifləri təəssüf hissi ilə qeyd edirdilər ki, ermənilərin həmişə məharətlə istifadə etdikləri qeyri-sabitlik, nəhayət, Azərbaycanda sona çatacaqdır və Heydər Əliyev respublikada sabitlik yaratmaqla keçmiş rejimlərin buraxmış olduğu səhvləri aradan qaldıracaqdır. Erməni millətçiləri şübhə etmirdilər ki, Heydər Əliyev Azərbaycanın nicat yoludur. O, dünyanın ən böyük siyasətçilərindən biridir və öz bacarığı və təcrübəsi ilə Azərbaycanı düşdüyü böhran məngənəsindən çıxararaq onu güclü bir

respublikaya çevirəcəkdir. Öz fikirlərini sübut etmək üçün onlar Heydər Əliyevi belə xarakterizə edirdilər: «Ona Rusiya sakinləri də həvəslə inanır və növbələrdə dayanarkən ürəkaçıqlıqla deyirdilər: «Bəli, bizə Heydər Əliyev lazımdır, məhz o burada qayda-qanun yarada bilər». ... İndi Əliyev Bakıdadır və başa düşmək lazımdır ki, hər halda orada qayda yaradılacaqdır» (169).

«Armyanskiy vestnik» qəzetində çap olunan məqalənin müəllifləri gizlətmirdilər ki, Heydər Əliyevin Bakıya gəlməsi və özünün potensialının reallaşdırılması üçün daha geniş imkan əldə etməsi tezliklə öz nəticəsini verəcəkdir. Bu isə Ermənistan üçün arzuolunmaz nəticələrə yol aça bilərdi. Heydər Əliyevin Azərbaycanda hakimiyyət başına gəlməsini şəxsi və milli faciələri kimi qəbul edən erməni millətçiləri bu insanın qabiliyyət və bacarığını kifayət qədər reallıqla qiymətləndirirdilər və ona görə də məqalə müəllifləri erməni rəhbərlərini işğalçılıq siyasətinə müəyyən hədd qoymağa çağırırdılar. Onların fikrincə, indi yeni ərazilər işğal etmək barəsində deyil, işğal olunmuş ərazilərdə möhkəmlənmək barəsində düşünmək lazım idi. Çünki Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycan möhkəmlənəcək və ermənilər bütün işğal edilmiş ərazilərdən çıxarılacaqdır.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 1993-cü ilin sonu, 1994-cü ilin əvvəllərində uğurlu hərbi əməliyyatları göstərirdi ki, Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra Azərbaycanın möhkəmlənməsi, müstəqillik yolunda inamlı addımlar atması, erməni təcavüzkar ordusuna güclü zərbələr vurması, Azərbaycanın işğal olunmuş torpaqlarının yavaş-yavaş düşmənlərdən təmizlənməsi təkcə erməni millətçilərini təşvişə salmamışdı. Xarici informasiya orqanlarının qaldırdığı əsassız hay-küylər sübut edirdi ki, bir sıra ölkələrdəki müəyyən dairələr açıq-açığına erməni təcavüzkarlarına havadarlıq edirlər, Azər-

baycan Ordusunun möhkəmlənməsi onları ermənilərdən daha çox yasa batırıbdır və Azərbaycan Ordusunun uğurlu hücumlarının qarşısının alınması üçün ona, bütünlükdə Azərbaycan xalqına qara yaxmaq üçün bütün vasitələrə əl atmağa hazırdırlar. Bütün dövlətlərlə münasibətlərin daha da möhkəmlənməsinə tərəfdar olduğunu bildirən Heydər Əliyev xarici ölkələrin Azərbaycandakı səfirləri ilə görüşlərinin birində də ayrı-ayrı dairələrin Azərbaycana qarşı əsassız təbliğata başlamasından narahatçılığını bildirirdi (170).

Çox vaxt bu əsassız təbliğatın və hay-küyün önündə bir sıra ziyalılar gedirdi. Onlardan bir qrupu – Qarabağ Rus Ziyalıları Komitəsinin sədrlərindən biri Valentin Ostotski, şair Qleb Şetinski, «Obşaya qazeta»nın müxbiri Gennadi Javoronkov, «Literaturnaya qazeta»nın müxbiri İlya Fonyakov, Qarabağ Rus Ziyalıları Komitəsinin katibi Ananda Bestaşvili Azərbaycan Ordusunun uğurlarından sonra Qarabağa gəlmiş, hərbi əməliyyatların gedişi ilə tanış olmuşdular. Niyyətləri təcavüzkarları dəstəkləmək olan bu başıbəlalı ziyalılar İrəvandakı müxtəlif görüşlərindən sonra belə bir qənaətə gəlmişdilər ki, Azərbaycan Ordusunun kütləvi hücumlarını dayandırmaq lazımdır və bu barədə onlar 1994-cü il fevral ayının 25-də Ermənistanın Moskvadakı nümayəndəliyində təşkil etdikləri mətbuat konfransında da hay-küy qaldırmışdılar (171).

Moskvada erməni diasporunun dəstəklədiyi bəzi qəzetlər də Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra çox qısa bir müddət ərzində Azərbaycan Ordusunun möhkəmlənməsindən dərin təşviş keçirir, erməni silahlı birləşmələrini, onları müdafiə edən qüvvələri itirdikləri Azərbaycan torpaqlarını yenidən işğal etməyə ruhlandırır, onların itkilərini, uğursuzluqlarını hər vasitə ilə ört-basdır etməyə çalışırdılar (172). Azərbaycan ərazisin-

də davam edən müharibənin gedişi barədə məlumatları birtərəfli şəkildə oxuculara çatdıran bu məqalələrin müəlliflərinin bəziləri çox qəti şəkildə Rusiya qoşunlarının Azərbaycan ərazisində yerləşdirilməsinə razılıq verilənədək hərbi təzyiq göstərilməsini lazım bilirdilər. Müşahidəçilərin fikrincə, 1994-cü il mart ayının 12-də Qazaxda Ermənistan və Azərbaycan parlament sədrlərinin görüşündə atəşin kəsilməsi haqqında əldə edilmiş razılığın həyata keçirilməməsinin əsas səbəblərindən biri də bu idi. Çünki bu razılaşmanın yerinə yetirilməsi xarici qoşunların Qarabağa gətirilməsini istisna edirdi ki, bu da Rusiyada müəyyən qüvvələri qane etmirdi.

Respublikanın rəhbərliyi də Azərbaycana qarşı belə bir təzyiqin mövcud olduğunu etiraf edirdi və müəyyən dairələr Azərbaycanın dövlət mənafelərinə cavab verməyən sülh planının qəbul edilməyəcəyi təqdirdə respublikanın daha bir neçə rayonunun işğal edilməsindən qorxudurdular (173). 1994-cü ilin birinci rübündə atəşkəs haqqında əldə edilmiş razılaşmanın hər dəfə də erməni qoşunları tərəfindən pozulması da, şübhəsiz ki, bununla bağlı idi.

1994-cü ilin mart ayı ərzində döyüşlər səngiməsə də, əsasən mövqe xarakteri daşıyırdı. Lakin atəşkəsin əldə edilməsi barədə aparılan danışıqların nəticələri, ermənipərəst informasiya vasitələrinin məlumatları göstərirdi ki, Azərbaycan rəhbərliyinə təzyiq göstərilməsi və ona xeyirli olmayan sülh planının qəbul edilməsi üçün yaxın vaxtlarda respublikaya qarşı yeni və daha irimiqyaslı əməliyyatlar başlaya bilər. Azərbaycanın dövlət rəhbərləri, şəxsən Heydər Əliyev müharibənin yeni dalğasının qarşısının alınması üçün danışıqlardan, beynəlxalq əlaqələrdən istifadə etməyə çalışmaqla bərabər, ordu hissələrinin möhkəmlənməsini, onun rastlaşdığı problemlərin vaxtında həll olunmasını da diqqətdən kənarda qoymurdu.

Heydər Əliyevin 1994-cü il aprel ayının 9-10-da növbəti dəfə cəbhə bölgələrində olması da belə zərurətdən irəli gəlirdi. Onun hərbçilərlə görüşü yüksək rütbəli zabitlərin Füzuli rayonunda komanda-qərargah məşqindən başladı. Bu məşq Heydər Əliyevin rəhbərliyi altında keçirildi və onun gedişində ordu quruculuğunun, respublikanın müdafiəsi işinin ayrı-ayrı məsələləri müzakirə olundu (174).

Sonra o, cəbhənin ən qaynar nöqtələrində oldu, oradakı əsgər və zabitlərin qayğıları ilə maraqlandı, onların xidməti ilə tanış oldu. Respublika Prezidenti 2 noyabr 1993-cü il tarixli müraciətindən sonra orduda güclü dəyişikliklər meydana gəldiyini, əsgər və zabitlərin öz borclarını sədaqətlə yerinə yetirdiyini, səfərə çıxdığı bölgədə müdafiə işinin yaxşı qurulduğunu məmnunluqla qeyd etdi. Heydər Əliyevin fikrincə, məhz bu vəziyyət Azərbaycan Ordusu hissələrinin 40 kilometrədək irəliləməsinə şərait yaratmışdı.

Respublika Prezidenti Heydər Əliyev aprelin 9-da Füzuli rayonunun ərazisində yerləşən daha bir hərbi hissədə oldu. Elə səngərlərdə olarkən Heydər Əliyev şəxsi heyətin döyüş hazırlığı, məişət qayğıları ilə maraqlandı. Silahlı Qüvvələrin Ali Baş Komandanını böyük ruh yüksəkliyi ilə qarşılayan əsgər və zabitlər görüşə gəldiyi üçün Heydər Əliyevə öz minnətdarlıqlarını bildirib respublika ərazilərinin düşmən tapdağından təmizlənməsi üçün bütün bacarıqlarını sərf edəcəklərinə söz verdilər.

Heydər Əliyev bu görüşündə də ordu quruculuğu məsələlərinə toxundu və bildirdi ki, bu işə xüsusi diqqət yetirilməli, zabitlər öz hərbi bilik səviyyəsini artırmalı, əsgərlər döyüş təliminin incəliklərini dərindən mənimsəməlidirlər. Respublika Prezidenti yaxındakı kəndlərə işarə edərək deyirdi ki, əsgər və zabitlər son vaxtlar böyük hünər göstərsələr də, Azərbaycan ərazilərinin böyük bir hissəsi hələ də işğal altındadır. Onun azad edilməsi isə

ordu quruculuğunun yüksək səviyyədə aparılmasını tələb edir. Ona görə də Heydər Əliyev əsgər və zabitlərə öz tövsiyələrini belə çatdırırdı: «Siz gərək sədaqətlə xidmət edəsiniz, hərbi peşənin bütün sirlərini mənimsəyəsiniz, hər bir döyüşdə qalib gələ biləsiniz – cəsarətiniz, həm də hərbi biliklərinizlə. Bunun üçün sizə tapşırılan yerlərin müdafiəsində möhkəm dayanmalı, həm də vaxt itirmədən təlim, hazırlıq işlərini aparmalı, silahı öyrənməli, peşənizin bütün incəliklərinə yiyələnməlisiniz ki, döyüşlərdə qalib gələsiniz».

Silahlı Qüvvələrin Ali Baş Komandanı bütünlükdə ordunun qarşısında dayanan vəzifələri belə açıqlayırdı: «Vəzifəmiz Azərbaycanın ərazi bütövlüyünü qorumaqdır. Dövlət səviyyəsində bunun üçün müxtəlif tədbirlər görülür. Biz çalışırıq ki, siyasi vasitələrdən istifadə edək. Ordunun borcu isə ondan ibarətdir ki, dövlətin siyasətini səmərəli etmək üçün öz gücünü artırsın. Bu gücün artması siyasi tədbirlərin, danışıqların müsbət nəticə verməsinə mühüm kömək edər» (175).

Cəbhənin ön xəttində yerləşən hissə və bölmələrin şəxsi heyətinin xidməti, döyüş hazırlığının gedişi, əsgər və zabitlərin əhval-ruhiyyəsi, onların vətəndaşlıq borclarına münasibəti respublika Prezidentini razı saldı və gördüklərini də nəzərə almaqla ordunun imkanlarına nikbin yanaşdığını bildirirdi. Heydər Əliyevin fikrincə, Azərbaycanın müdafiə qabiliyyətinin möhkəmləndirilməsi üçün böyük potensialı var və ordu quruculuğunun son dövrünün nəticələri həmin potensialdan məqsədyönlü şəkildə istifadə olunduğunu göstərir. O, böyük qürur hissi ilə görüşünə gəldiyi yerli əhaliyə çatdırırdı ki, bu ordu daha keçən ilin yayındakı, yazındakı ordu deyildir, daha heç kəs erməni tankı görən kimi pərən-pərən düşüb qaçmır və əldə olunmuş uğurların artırılması və möhkəmləndirilməsinin zəru-

riliyini qeyd edir və bununla əlaqədar konkret praktiki məsələlərin həllinə də kifayət qədər diqqət yetirirdi.

Heydər Əliyev ordu quruculuğunun bütün məqamlarına xüsusi diqqətlə yanaşırdı, hər bir məqamın əhəmiyyətini yüksək dövlətçilik təcrübəsi ilə qiymətləndirirdi. Cəbhə bölgəsinə bu dəfəki səfəri zamanı Heydər Əliyev döyüşçülərlə görüşlərinin birində çıxışını belə başa çatdırdı: «İndi siz bura yaxınlaşarkən gözəl bir mahnı oxuyurdunuz. Qoy, o mahnı da sizi ruhlandırsın, vətənpərvərliyinizi, döyüş ruhunuzu daha da artırsın. Siz böyük məsuliyyət daşıyırsınız. Mən istərdim ki, həmişə bu məsuliyyətin yüksək zirvəsində olasınız. Bir daha sizə cansağlığı arzu edirəm, döyüşlərdə qəhrəmanlıq, uğurlar diləyirəm və hər birinizi Azərbaycanın Milli Qəhrəmanı kimi görmək istəyirəm».

Azərbaycan Ordusunun əsgər və zabitləri aprel ayının 10-da qızışan döyüşlərdə də öz vətəndaşlıq və əsgəri borclarını necə yerinə yetirdiklərini bir daha nümayiş etdirdilər. Həmin döyüşlərin başlanması barədə Ali Baş Komandan Bərdə rayonunda olarkən xəbər tutdu və dərhal elə oradaca erməni qoşun hissələrinin hücumunun dayandırılması üçün Müdafiə Nazirliyi rəhbərliyinin və həmin bölgədəki hərbi hissələrin komandirlərinin iştirakı ilə operativ müşavirə keçirdi, təxirəsalınmaz vəzifələr müzakirə olundu.

1994-cü il aprel ayının 10-dan başlayan döyüş əməliyyatları öz miqyası ilə əvvəlkilərdən seçilirdi və Azərbaycan döyüşçülərinin iradəsini, mətanətini, mübarizliyini imtahana çəkən yeni bir sınaq idi. Erməni təcavüzkarları havadarlarından aldıqları böyük qüvvələr hesabına Goranboy və Tərtər rayonları istiqamətindən Azərbaycanın müdafiə qüvvələrini yarıb keçməyə cəhd göstərdilər. Respublika Prezidenti Heydər Əliyev də bu hücumu cəlb edildiyi qüvvələrə görə ən böyük hücumlardan biri kimi qiymətləndirir və bu döyüşlərin gedişində erməni qüvvələ-

rinin də ilk dəfə əsaslı və sarsıdıcı zərbə aldığını vurğulayırdı.

Verilən məlumatlara görə, erməni qoşunlarının aprelin 10-da başlanan hücumlarının əsas məqsədi may ayının 1-dək Bərdə rayonunu işğal etmək və sonra da Bakı-Gəncə yoluna çıxaraq onu kəsmək idi.

Aprel ayının 10-da Ermənistan silahlı qüvvələri böyük qüvvə ilə Goranboy və Tərtər rayonlarının ərazisinə güclü hücuma keçərək Gülüstan və Talış məntəqələrini tutmağa cəhd göstərdilər. Erməni qoşunları bir neçə yüksəkliyi ələ keçirsələr də, bütünlükdə məqsədlərinə nail ola bilmədilər və Azərbaycan Ordusu hissələrinin güclü müqaviməti ilə rastlaşdılar.

Aprel ayının 11-də Ermənistan silahlı qüvvələrinin hərbi hissələri Ağdərə və Ağdam istiqamətində hücuma keçdilər. Ağdərə bölgəsində olan Madagiz, Akop-Kamari yaşayış məntəqələrini işğal etməyə cəhd göstərdilər. Ağdam istiqamətində də yeni yaşayış məntəqələrini ələ keçirmək üçün ermənilər böyük qüvvələr cəlb etdilər. Onlar gün ərzində üç dəfə niyyətlərini həyata keçirməyə çalışdılar. Lakin Azərbaycan döyüşçülərinin mətin iradəsi ilə qarşılaşdılar. Ağdərə istiqamətindəki döyüşlərdə qəhrəmanlıqla döyüşən əsgər və zabitlərdən 24 nəfər, Ağdam istiqamətində isə 21 nəfər şəhid oldu (176). Goranboy istiqamətində də itkilər mövcud idi. Düşmən tərəfi isə daha böyük itkilərə məruz qalmışdı. Lakin onun döyüşə cəlb etdiyi qüvvənin, hərbi texnikanın miqdarı çox idi və bu üstünlükdən istifadə edərək Qarabağın şərqində vəziyyəti mürəkkəbləşdirməyə, yeni yaşayış məntəqələrini ələ keçirməyə çalışırdı. Döyüşlərin miqyası heç kimdə şübhə yeri qoymurdu ki, Azərbaycanın müstəqilliyinin düşməni olan dairələrin Azərbaycan üzərinə təcavüzünün yeni və qanlı bir səhifəsi başlamışdır. Öz çirkin niyyətlərindən əl çəkməyən erməni millətçiləri və onların havadarları Azərbaycan xalqını diz çökdürmək üçün ən ifrat vasitələrə əl atır-

dılar. Onlar Azərbaycanın müdafiə qüvvələrinin kifayət qədər möhkəmləndirilməməsindən, respublikanın iqtisadi və siyasi çətinliklərindən istifadə edərək yeni döyüşləri ortaya atmaqla Azərbaycanın siyasi rəhbərliyini də tutduğu yoldan çəkindirməyə cəhd göstərirdilər.

Azərbaycan Ordusu kimi bütünlükdə Azərbaycan xalqı da yeni və ağır bir sınaqla üzbəüz qaldı. Təcavüzkar və işğalçı qüvvələrin müdafiə xəttini yararaq Bakı-Gəncə yoluna doğru irəliləmək planları Azərbaycan Respublikası üçün böyük təhlükə yarada bilərdi. Bu təhlükənin aradan qaldırılması isə Azərbaycan xalqının bütün gücünün səfərbər olunmasını tələb edirdi.

Ermənistan silahlı qüvvələrinin yeni, irimiqyaslı hücumlarının başlanması ilə respublikada yaranmış vəziyyət barədə Heydər Əliyev 1994-cü il aprel ayının 12-də radio və televiziya ilə xalqa müraciət etdi. Dövlət rəhbərinin növbəti dəfə radio və televiziya ilə xalqa müraciət etməsinin özü də göstərirdi ki, respublikada çox mürəkkəb hərbi-siyasi şərait yaranmışdır və həmin şəraitdən çıxmaq üçün cəmiyyətin bütün təbəqələrinin gücü və qüvvəsi bir məqsədə istiqamətləndirilməlidir. Heydər Əliyev müraciətinin əvvəlində qeyd edirdi ki, son günlər Ermənistanın Azərbaycana qarşı təcavüzünün genişlənməsi, döyüşlərin Azərbaycan ərazisində şiddətlənməsi ilə əlaqədar yaranmış vəziyyət barədə məlumat vermək və bununla bağlı bir sıra fikirlərini bölüşmək üçün televiziya studiyasına gəlmişdir.

Respublika Prezidenti Heydər Əliyevin müraciətində (177) xalqla bölüşmək istədiyi fikirləri şərti olaraq üç yerə bölmək olar: a) respublikada davam edən müharibənin aradan qaldırılması üçün son bir neçə ay ərzində görülmüş işlərin xülasəsi; b) erməni qoşunlarının son hücumları nəticəsində yaranmış vəziyyət; c) mövcud vəziyyətdən çıxmaq yolları və bu yolların reallaşdırılması üçün görülməli olan işlər.

Respublika Prezidentinin müraciətinin əvvəlində müharibənin dayandırılması üçün son ayda aparılan sülh danışıqlarından, diplomatik fəaliyyətdən qısaca məlumat verildi. Heydər Əliyev hələ 1993-cü il dekabr ayının 24-də MDB başçılarının Aşqabadda keçirilən toplantısında Ermənistan prezidenti L.Ter-Petrosyanla olan görüşün və danışığın, 1994-cü il fevral ayının 18-də Moskvada Azərbaycanın, Ermənistanın və Rusiyanın müdafiə nazirlərinin görüşündə martın 1-dən atəşin kəsilməsi barədə əldə edilmiş razılığın, martın 12-də Qazaxda Ermənistan və Azərbaycan Ali Soveti sədrlərinin danışıqlarının, o cümlədən Rusiyanın vasitəçiliyi ilə aparılan müxtəlif səviyyəli danışıqların səmərə verməməsinin günahını Ermənistan rəhbərliyinin tutduğu qeyri-əməli mövqedə görürdü. O, təəssüf hissi ilə qeyd edirdi ki, Ermənistanın rəhbər dairələri də, Ermənistan silahlı qüvvələri də yola gəlmək istəmirlər. Onlar sülh danışıqlarına tərəfdar olduqlarını bildirsələr də, əməli işə keçmək lazım olanda öz niyyətlərini açıb göstərirlər. Heydər Əliyev 1994-cü il aprel ayının 10-dan etibarən Ermənistanın qoşun hissələrinin başlamış olduğu hücumları da bu respublikanın təcavüzkar dairələrinin yeritdiyi siyasətin əsl mahiyyətinin nümayişi kimi qiymətləndirirdi.

Azərbaycan Ordusunun son aylarda möhkəmlənməsi, erməni qoşunlarına layiqli müqavimət göstərmələri Ermənistan silahlı qüvvələrinin rəhbərliyinə artıq yaxşı məlum idi və ona görə də möhkəmlənmiş Azərbaycan Ordusu hissələrinə üstün gəlmək üçün düşmən ordusunun komandanlığı çox böyük qüvvələri cəlb etmək məcburiyyətində qalmışdı. Bu döyüşdə ermənilər tərəfində muzdlu qüvvələrin iştirakı da şübhəsiz idi və Goranboy ərazisində öldürülmüş muzdlulardan birinin şəkli «Azərbaycan Ordusu» qəzetinin 4 may 1994-cü il tarixli nömrəsində çap olunmuşdu.

Ancaq erməni qoşun hissələri nə qədər böyük qüvvə ilə hücuma keçsələr də, Azərbaycan döyüşçülərindən layiqli zərbə alırdılar. Prezident Heydər Əliyev bu barədə öz müraciətində qürur və sevinclə məlumat verirdi. O, Ağdam və Ağdərə rayonları istiqamətində aparılan döyüşləri, bu bölgədə yerləşən hərbi hissələrin son anadək düşmənlə vuruşmasını, onların mətanətini, qəhrəmanlığını Azərbaycan Ordusunun döyüş salnaməsinin yadda qalan səhifələrindən biri kimi qiymətləndirir və Azərbaycan torpaqlarının müdafiəsi yolunda son nəfəsədək vuruşub qəhrəmanlıqla həlak olan döyüşçülərin xatirəsi qarşısında baş əydiyini bildirirdi. Heydər Əliyevin fikrincə, məhz bu döyüşçülərin igidliyi, dəyanəti nəticəsində aprelin 10-dan başlanan hücumların gedişində erməni qüvvələri böyük itkilər verdi.

Heydər Əliyev cəbhə bölgələrində yaranmış vəziyyəti, erməni silahlı birləşmələrinin izlədiyi məqsədləri təhlil edərək belə bir qənaətə gəlirdi ki, bütün Ermənistan ərazisindən toplanaraq Azərbaycana gətirilmiş və kifayət qədər hazırlıq görmüş düşmən qüvvələrinin hücumu hələ bir müddət davam edəcəkdir. Ermənistan tərəfinin döyüşlərə cəlb etdiyi qüvvələrin miqyası, bu respublikanın təcavüzkar dairələrinin və havadarlarının son zamanlar verdikləri bəyanatlar da bunu sübut edirdi. Ona görə də Heydər Əliyev təcavüzə qarşı respublikanın ümumi gücünün daha da artırılmasının zəruriliyini vurğulayırdı.

Heydər Əliyev siyasi niyyətləri üçün respublikada vəziyyətin mürəkkəbləşməsindən istifadə edənləri də haqq yoluna gəlməyə, vahid ümumdövlət mənafeyi ətrafında birləşməyə çağırırdı. O, ümumxalq qüvvələrini parçalayaraq yalnız şəxsi və qrup mənafeləri ətrafında mübarizə aparanları və bu məqsədlə cəmiyyətin ayrı-ayrı təbəqələri arasında çaşqınlıq yaratmaq istəyənləri xəyanətkar adlandırırdı və tutduqları yoldan əl çəkməyəcəkləri

təqdirdə onlara qarşı sərt tədbirlərin həyata keçiriləcəyini bildirirdi. Respublika Prezidenti öz müraciətinin müəyyən hissəsini Qarabağda yaşayan erməni əhalisinə ünvanlayaraq onları da neçə ildən bəri davam edən və yerli əhaliyə əzab və əziyyətlər gətirən müharibənin əleyhinə çıxmağa çağırırdı. Respublika Prezidenti Qarabağda yaşayan ermənilərin Azərbaycan vətəndaşları olduğunu və onların böyük əksəriyyətinin bu müharibəyə zorla sürükləndiyini qeyd edirdi. Cəbhə bölgələrində götürülən hərbi əsirlərin verdiyi ifadələr də bunu sübut edirdi.

Ona görə Heydər Əliyev Qarabağın yerli əhalisinin Azərbaycan vətəndaşları kimi hüquqlarının qorunacağını, bu müharibənin, axıdılan qanların qarşısının alınmasında ağıllı və prinsipial mövqe tutmalarının vacibliyini vurğulayırdı.

Heydər Əliyev belə çağırışlarla Ermənistan rəhbərliyinə, Ermənistan vətəndaşlarına da müraciət edirdi. O bu müharibənin Ermənistanın təcavüzkar dairələri tərəfindən başlandığını və onun erməni xalqına heç bir xeyir gətirməyəcəyini vurğulayırdı. Heydər Əliyev erməni rəhbərliyini inandırmağa çalışırdı ki, bu müharibəni davam etdirməklə onlar öz xalqlarına da yalnız əzab və iztirablar gətirirlər. Qeyd olunurdu ki, elə son döyüşlərdə yüzlərlə erməni əsgər və zabitinin öldürülməsinə görə erməni siyasətçiləri və təcavüzkar dairələri məsuliyyət daşıyırlar və nə vaxtsa onlar öz xalqının qarşısında cavab verməli olacaqlar.

Heydər Əliyev dönə-dönə bildirirdi ki, Azərbaycan xalqı, onun dövlət rəhbərliyi sülh tərəfdarıdır və bu sülhün əldə edilməsi üçün yeganə şərt kimi isə erməni təcavüzkarlarının, silahlı qüvvələrinin Azərbaycan torpağını tərk etməsini, respublikanın ərazi bütövlüyünün və sərhədlərin toxunulmazlığının təmin edilməsi tələbini irəli sürürdü. Ancaq Heydər Əliyev onu da qeyd edirdi ki, sözdə sülh tərəfdarı olduğunu göstərməyə çalışsa da,

Ermənistanın rəhbərliyi, əslində, bu mövqedən çox-çox uzaqdır və atəşkəs haqqında olan razılaşmaları pozaraq əməliyyatları davam etdirməsi də buna sübutdur. Aprel ayının 10-da başlanan hücumlar da əslində bunun ifadəsi idi. Heydər Əliyevin fikrincə, bu irimiqyaslı hücumların məhz aprelin 10-da başlaması da təsadüfi deyildi. Çünki 1994-cü il aprelin 11-də Praqa şəhərində Minsk qrupunun Dağlıq Qarabağ probleminin həlli ilə əlaqədar iclası başlamalı idi. Aprel ayının 14-15-də isə Moskvada MDB ölkələri başçılarının görüşü keçirilməli və orada mühüm məsələlər müzakirə olunmalı idi. Yaranmış vəziyyətin təhlili göstərirdi ki, erməni təcavüzkar dairələri və onların havadarları bu beynəlxalq görüşlərdə Azərbaycanın nümayəndə heyətinə təzyiqlər göstərərək Azərbaycan üçün münasib sazişə qol çəkdirmək niyyətində idilər. Heydər Əliyev öz müraciətində belə təzyiqlərə qarşı qətiyyətli və barışmaz olacağını bildirərək bu mövqedə dayanan bütün qüvvələri zəkanın səsinə qulaq asmağa çağırırdı: «...Aprelin 11-də, yəni dünən Praqa şəhərində Minsk qrupunun Dağlıq Qarabağ problemi ilə əlaqədar iclası başlanmışdır. Məhz bu günlərdə, həmin iclasda Azərbaycan və Ermənistan nümayəndələrinin iştirak etdiyi bir vaxtda Ermənistan silahlı qüvvələri belə güclü hücumlara keçmişlər. Bildiyiniz kimi, aprelin 14-15-də Moskva şəhərində Müstəqil Dövlətlər Birliyi dövlət başçılarının görüşü keçiriləcək, mühüm məsələlər müzakirə olunacaqdır. Bu ərəfədə Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı hücumları da yəqin ki, bir məqsəd daşıyır: ola bilər ki, bu hücumlarla Azərbaycana və onun rəhbərliyinə təsir göstərmək istəyirlər. Ancaq böyük səhv edirlər. Heç kəs bizə təsir edə bilməz! Biz Azərbaycan Respublikasının müstəqilliyini qorumuşuq və bundan sonra da qoruyacağıq. Biz müstəqilliyimizin keşiyində, nəyin bahasına olursa olsun, durmuşuq».

Heydər Əliyev respublikada erməni təcavüzkarlarının fitnəkarlığı nəticəsində yaranmış vəziyyətlə bağlı MDB üzvü olan respublikalara, xüsusən Rusiyaya müraciət edərək bölgədə sülhün yaranması üçün öz imkanlarından istifadə etməyə çağırırdı. O qeyd edirdi ki, Rusiya böyük dövlət kimi həm Ermənistanla, həm də Azərbaycanla yaxın dostluq əlaqələrinə malikdir, dünya miqyasında öz çəkisi var və BMT Təhlükəsizlik Şurasının daimi üzvüdür. Buna görə də bu dövlət Azərbaycanda gedən müharibənin qarşısının alınması üçün böyük təsir imkanlarına malikdir. Müraciətdə bildirilirdi ki, həm Rusiya, həm də dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar, xüsusən, Birləşmiş Millətlər Təşkilatı, onun Təhlükəsizlik Şurası, bu Təşkilatın daimi üzvləri olan Amerika, İngiltərə, Fransa, Çin Ermənistan Respublikasının təcavüzkar fəaliyyətinin qarşısını almaq üçün təsirli tədbirlər görməlidir. Heydər Əliyev, eyni zamanda, Azərbaycanla və Ermənistanla həmsərhəd olan Gürcüstan, Türkiyə və İran dövlətlərinə də müraciət edirdi və onları da Azərbaycanda davam edən müharibənin həlli yollarının tapılmasından kənarda qalmamağa çağırırdı. Sonda Heydər Əliyev müraciətini müxtəsər olaraq rus dilində də təkrar etdi ki, respublikanı narahat edən ciddi məsələlər beynəlxalq dildə də səsləndirilsin.

Heydər Əliyev 1994-cü il aprel ayının 12-də radio və televiziya ilə müraciətini Azərbaycan xalqının və Azərbaycan əsgərinin gücünə olan dərin inamının ifadəsi ilə tamamladı: «Mən Azərbaycan xalqının dəyanətinə, dözümünə, qəhrəmanlığına güvənirəm və əminəm ki, biz bütün bu sınaqlardan müvəffəqiyyətlə çıxacaq, torpaqlarımızı müdafiə edəcək və təcavüzkar qüvvələrin hamısına layiqli cavab verəcəyik. Döyüş bölgələrində olan əsgərlərimizə, zabitlərimizə bir daha müraciət edib deyirəm: Bilin ki, siz ana Vətəninizi, torpağınızı müdafiə edirsiniz, müqəd-

dəs amallara xidmət göstərirsiniz. Sizin xidmətiniz xalq, cəmiyyət və dövlət tərəfindən daim qiymətləndiriləcəkdir.

...Əziz və hörmətli həmvətənlər! Bu gün həm böyük həyəcanla, həm də böyük ümidlə sizə müraciət edirəm. Ümidvaram ki, Azərbaycan xalqı bu ağır sınaqlardan çıxacaq, öz gücünü toplayacaqdır. Azərbaycan Respublikasının vətəndaşları milli həmrəylik, vətəndaş həmrəyliyi əsasında bütün bu çətinlikləri dəf edəcəklər. Əminəm ki, respublikamızın müdafiəsində, keşiyində dayanan Azərbaycan Ordusu, qəhrəman əsgərlərimiz verdikləri sözə əməl edəcək, torpaqlarımızı etibarlı qoruyacaqlar. Sizə bugünkü müraciətim yalnız və yalnız Azərbaycan xalqını, respublikamızın vətəndaşlarını bir daha ayağa qaldırmaq məqsədi daşıyır. Başqa məqsəd yoxdur və heç bir narahatlıq üçün də əsas yoxdur. Mən Azərbaycan vətəndaşlarına güvənirəm və əminəm ki, hamımız birlikdə bu çətinliklərdən çıxacağıq».

Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin bu müraciəti onun rəhbərliyi altında aparılan təşkilatçılıq işləri ilə vəhdət təşkil edərək 1994-cü il aprel ayının 10-dan başlanan irimiqyaslı erməni hücumlarının qarşısının alınması üçün böyük rol oynadı.

1994-cü il aprel ayının 10-dan başlanan irimiqyaslı hücumlarla erməni qoşun hissələri təcavüzkarlıqlarını genişləndirsələr də bütünlükdə qarşılarına qoyduqları məqsədə nail ola bilmədilər. Tərtər və Goranboy rayonları ərazisində gedən döyüşlər xüsusilə geniş vüsət aldı. Aprelin 11-də Ağdam rayonu ərazisi də güclü hücuma məruz qaldı. Ağdərə rayonunda da hücumları genişləndirən erməni qüvvələri Madagiz və Akop-Kamari kəndlərini işğal etməyə cəhd göstərdilər.

Düşmənin əsas məqsədi Tərtər şəhərini ələ keçirmək idi. Həmin məqsədə çatmaq üçün burada 2 min nəfərlik qruplaşma

yaradılmış və bu qruplaşmanın ixtiyarına 30 ədəd zirehli texnika verilmişdi. 1994-cü il may ayının 12-dək davam edən bu döyüşlərdə erməni tərəfi dəfələrlə Azərbaycan Ordusu hissələrindən ağır zərbələr aldı. Hər uğursuzluqdan sonra cəbhəyə Ermənistandan yeni-yeni qüvvələr gətirilsə də, Azərbaycan qoşunlarının müdafiə xəttini yarmaq mümkün olmadı. Təkcə sonuncu döyüş zamanı Ermənistan silahlı qüvvələri 1000 nəfərdən artıq canlı qüvvə və 50-dək zirehli texnika itirdi.

1994-cü il may ayının 12-dən etibarən atəşkəsin əldə edilməsi ilə cəbhə bölgəsində uzunmüddətli sakitlik yarandı. Bişkek protokolunun imzalanması ilə Azərbaycan ərazisində gedən müharibədə ilk dəfə uzunmüddətli atəşkəs əldə edildi. Beləliklə, 1993-cü ilin sonundan başlayıb 1994-cü ilin mayınadək davam edən hərbi əməliyyatlar kampaniyası Azərbaycan Respublikası Silahlı Qüvvələrinin döyüş qabiliyyətinin səviyyəsini nümayiş etdirən sınağa çevrildi. Həmin dövr ərzində yenicə təşkilatlanmaqda olan Silahlı Qüvvələrin hissə və bölmələri uğurlu döyüş əməliyyatları aparmaq bacarığını nümayiş etdirərək Azərbaycan ərazilərinin içərilərinə doğru irəliləyən düşmən qüvvələrini xeyli geri atdılar.

## İstifadə olunmuş mənbə və ədəbiyyat

1. Azərbaycan Respublikası Prezidentinin andiçmə mərasimində nitq. 10 oktyabr 1993-cü il. http://files.preslib.az/projects/toplu/v2/f3_3.pdf
2. Azərbaycan Silahlı Qüvvələrinin 3-cü ildönümünə həsr olunmuş təntənəli yığıncaqda nitq. 8 oktyabr 1994-cü il. http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf
3. Война и Армия. Москва, 1977, с.105
4. Военное право. Москва, 1977, с. 40-41
5. «Xalq qəzeti», 14 may 1992-ci il
6. Süleymanov M. Azərbaycan Ordusu. Formalaşma prosesinin nəzəri və praktiki problemləri. Bakı, 1994, s. 9
7. Hüseynov P. Cinayətimiz məğlubiyyətimizdir. «Müxalifət» qəzeti, 23, 25, 28, 30 sentyabr 1993-cü il
8. Möhsün M. Mütəşəkkil və yekdil şəraitdə. Bax: Qayıdış. 1990-1993. Bakı, 1996, s.452
9. Cəbhəyanı bölgədə - İmişli, Füzuli, Beyləqan, Şəmkir, Ağcabədi rayonlarında və Gəncə şəhərində görüşlər zamanı çıxışlar. 11-12 dekabr 1993-cü il. http://files.preslib.az/projects/toplu/v2/f3_3.pdf
10. İstanbulda mətbuat mərkəzində jurnalistlər və kütləvi informasiya vasitələri nümayəndələri üçün mətbuat konfransında bəyanat. 11 fevral 1994-cü il. http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf
11. Данилевич А.А., Рогозин О.К. и др. Международная Безопасность, стратегическая стабилность, обороноспособность государств. Москва, 1993, с.306

12. Bərdə rayonunda ictimaiyyətin nümayəndələri qarşısında çıxış. 9-10 aprel 1994-cü il http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf
13. «Respublika» qəzeti, 24 iyun 1994-cü il
14. Azərbaycan Silahlı Qüvvələrinin 3-cü ildönümünə həsr olunmuş təntənəli yığıncaqda nitq. 8 oktyabr 1994-cü il. http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf
15. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1993-cü il noyabrın 2-də televiziya və radio ilə xalqa müraciəti. «Azərbaycan» qəzeti, 4 noyabr 1993-cü il
16. MN arxivi, f.7, siy.1, iş 11, v. 266
17. MN arxivi, f.16, siy.1, iş 7, v. 4-6
18. «Azərbaycan» qəzeti 5 noyabr 1993-cü il
19. «Azərbaycan» qəzeti 10 noyabr 1993-cü il
20. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1993-cü il noyabrın 2-də televiziya və radio ilə xalqa müraciəti. «Azərbaycan» qəzeti, 4 noyabr 1993-cü il
21. Yenə orada
22. Hamımız bir məqsədə - Azərbaycnın birliyini, bütövlüyünü, suverenliyini qorumaq məqsədinə xidmət etməliyik. «Azərbaycan» qəzeti, 19 noyabr 1993-cü il
23. Yenə orada
24. Yenə orada
25. Yenə orada
26. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1995-ci il martın 15-də televiziya və radio ilə xalqa müraciəti. «Azərbaycan» qəzeti, 16 mart 1995-ci il
27. Hamımız bir məqsədə - Azərbaycanın birliyini, bütövlüyünü, suverenliyini qorumaq məqsədinə xidmət etməliyik. «Azərbaycan» qəzeti, 19 noyabr 1993-cü il

28. Yenə orada
29. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1995-ci il martın 15-də televiziya və radio ilə xalqa müraciəti. «Azərbaycan» qəzeti, 16 mart 1995-ci il
30. Vətənin müdafiəsi hər kəsin müqəddəs borcudur»Azərbaycan» qəzeti, 14 dekabr 1993-cü il
31. Yenə orada
32. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1993-cü il noyabrın 2-də televiziya və radio ilə xalqa müraciəti. «Azərbaycan» qəzeti, 4 noyabr 1993-cü il
33. Prezident sarayında Daxili İşlər Nazirliyi rəhbər işçilərinin geniş müşavirəsində giriş və yekun sözü. http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf
34. «Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında». «Azərbaycan» qəzeti, 18 avqust 1994-cü il
35. Yenə orada, 08 fevral 1995-ci il
36. 1993-cü il iyunun 4-də Gəncə şəhərində baş vermiş hadisələri təhqiq edən deputat-istintaq komissiyasının işinin yekunları barədə. «Azərbaycan» qəzeti, 24 iyul 1993-cü il
37. Müəmmalı sui-qəsd, dövlət çevrilişini kim hazırlamışdı, eks-prezident nə istəyirdi? Keçmiş Baş Qərargah rəisi Ş.Musayevlə müsahibə. «Azadlıq» qəzeti, 15,20,22 avqust 1992-ci il
38. Hüseynov P. Cinayətimiz məğlubiyyətimizdir. «Müxalifət» qəzeti, 23, 25, 28, 30 sentyabr 1993-cü il
39. Müdafiə Nazirliyindən uzaqlaşdırılmağım ermənilərin çox xoşuna gəlmişdi. V.Bərşadlı ilə müsahibə. «Azərbaycan Ordusu» qəzeti, 14 sentyabr 1993-cü il
40. MN arxivi, f. 16, siy. 1, iş 23, v. 59

41. MN arxivi, f. 16, siy.1, iş 6, v.15, 35; f.16, siy.1, iş 25, v.3
42. MN arxivi, f. 16, siy. 1, iş 9, v. 62-64
43. MN arxivi, f. 16, siy.1, iş 23, v. 181
44. MN arxivi, f. 6, siy. 1, iş 36, v. 181
45. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1993-cü il noyabrın 2-də televiziya və radio ilə xalqa müraciəti. «Azərbaycan» qəzeti, 4 noyabr 1993-cü il
46. Milli Məclisin növbədənkənar iclası.»Azərbaycan» qəzeti, 19 iyun 1993-cü il
47. Yenə orada, 31 mart 1992-cü il
48. MN arxivi, f. 16, siy. 1, iş 23, v. 69, 160
49. MN arxivi, f. 7, siy. 4, iş 1, v.25
50. MN arxivi, f. 16, siy. 1, iş 23, v. 4
51. MN arxivi, f. 6, siy.3, iş 4, v. 105-123; f. 16, siy. 1, iş 22, v.63
52. MN arxivi, f. 16, siy. 1, iş 61, v.297
53. Vətənin müdafiəsi hər kəsin müqəddəs borcudur. Heydər Əliyevin cəbhə rayonlarına səfərinin materialları. «Azərbaycan» qəzeti, 14 dekabr 1993-cü il
54. «Azərbaycan Ordusu» qəzeti, 13 aprel 1994-cü il
55. Yenə orada
56. Beyləqan rayonunda ictimaiyyətin nümayəndələri ilə görüşdə və hərbçilərin müşavirəsində çıxışları. 9-10 aprel 1994-cü il http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf
57. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1993-cü il noyabrın 2-də televiziya və radio ilə xalqa müraciəti. «Azərbaycan» qəzeti, 4 noyabr 1993-cü il
58. «Azərbaycan Ordusu» qəzeti, 13 aprel 1994-cü il
59. Yenə orada
60. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1993-cü il noyabrın 2-də televiziya və radio ilə xalqa müraciəti.

«Azərbaycan» qəzeti, 4 noyabr 1993-cü il
61. Vətənin müdafiəsi hər kəsin müqəddəs borcudur. Heydər Əliyevin cəbhə rayonlarına səfərinin materialları. «Azərbaycan» qəzeti, 14 dekabr 1993-cü il
62. «Azərbaycan», 27 avqust 1994-cü il
63. Mövlud bayramı münasibətilə Bakıda, Təzəpir məscidində təntənəli mərasimdə çıxış. 26 avqust 1994-cü il. http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf
64. Yenə orada
65. Səudiyyə Ərəbistanına – müqəddəs Məkkə və Mədinə şəhərlərinə ziyarətdən sonra Bakıda Təzəpir məscidində din xadimləri ilı görüşdə çıxış. 29 iyul 1994-cü il. http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf
66. «Azərbaycan», 21 iyul 1994-cü il
67. Yenə orada, 23 mart 1994-cü il
68. Azərbaycanın dövlət müstəqilliyi gününə həsr olunmuş təntənəli yığıncaqda çıxış. 17 oktyabr 1994-cü il. http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf
69. «Azərbaycan Ordusu» qəzeti, 13 aprel 1994-cü il
70. Ağcabədi rayonunda jurnalistin sualına cavabı və döyüşçülər qarşısında çıxışı. 9-10 aprel 1994-cü il. http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf
71. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1994-cü il aprelin 12-də televiziya və radio ilə xalqa müraciəti. «Azərbaycan» qəzeti, 13 aprel 1994-cü il
72. «N» hissəsinin əsgər və zabitləri ilə görüşdə çıxışı. 24 yanvar 1994-cü il. http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf
73. Prezident Aparatında zabitlərin bir qrupu ilə görüşdə çıxış. 13 yanvar 1994-cü il
74. Beyləqan rayonunda ictimaiyyətin nümayəndələri ilə görüşdə

və hərbçilərin müşavirəsində çıxışları. 9-10 aprel 1994-cü il http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf

75. «Azərbaycan Ordusu» qəzeti , 7 sentyabr 1994-cü il
76. Yenə orada, 9 dekabr 1993-cü il
77. «Azərbaycan Ordusu» qəzeti, 7 sentyabr 1994-cü il
78. Süleymanov M. Hərb quruculuğunun yeni mərhələsi. Bakı, 1996, s.210
79. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1994-cü il aprelin 12-də televiziya və radio ilə xalqa müraciəti. «Azərbaycan» qəzeti, 13 aprel 1994-cü il
80. «Azərbaycan Ordusu» qəzeti, 7 sentyabr 1994-cü il
81. Yenə orada
82. «Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında» Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi qaydası barədə» Azərbaycan Respublikası Ali Sovetinin 9 oktyabr 1991-ci il tarixli qərarı. Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, N-19-20, 1991-ci il.
83. MN arxivi, f. 16, siy. 1, iş 2, v.1
84. Yenə orada
85. Газета»Бакинский рабочий», 26 августа 1992 г.
86. «Yeni Müsavat» qəzeti, 1 aprel 1993-cü il
87. MN arxivi, f. 16, siy. 4, iş 89, v.31
88. Yenə orada, v.32
89. Yenə orada, v.27
90. MN arxivi, f. 16, siy. 1, iş 9, v. 54
91. Yenə orada, v.54-55
92. Yenə orada, v. 55
93. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1993-cü il noyabrın 2-də televiziya və radio ilə xalqa müraciəti. «Azərbaycan» qəzeti , 4 noyabr 1993-cü il

94. Yenə orada
95. Yenə orada
96. Yenə orada
97. Yenə orada
98. Yenə orada
99. Məlumat. «Azərbaycan» qəzeti, 3 noyabr 1993-cü il
100. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1993-cü il noyabrın 2-də televiziya və radio ilə xalqa müraciəti. «Azərbaycan», 4 noyabr 1993-cü il
101. Yenə orada
102. Cəbhəyanı rayonlarda yaranmış vəziyyətlə əlaqədar Ağcabədi və Gəncədə keçirilmiş müşavirələrdə yekun çıxışı. 11-12 dekabr 1993-cü il. http://files.preslib.az/projects/toplu/v2/f3_3.pdf
103. Yenə orada
104. Yenə orada
105. Əliyev Ş. Hər şey cəbhə üçün, hər şey qələbə üçün. «Azərbaycan» qəzeti, 2 fevral 1994-cü il
106. Yenə orada
107. «Azərbaycan Ordusu» qəzeti, 13 aprel 1994-cü il
108. S.Səfərli. Bütün qüvvələr ordu quruculuğuna səfərbər edilməlidir. «Azərbaycan» qəzeti, 11 mart 1994-cü il
109. Qarannı Q. Siyasətdə küsmək olmaz. “Azərbaycan” qəzeti, 26 aprel 1994-cü il
110. Bərdə rayonunun ictimaiyyətinin nümayəndələri qarşısında çıxış. 9-10 aprel 1994-cü il. http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf
111. Prezident sarayında Azərbaycan ərazisində Ermənistan Silahlı Qüvvələrinin yeni hücumları ilə əlaqədar güclü ordu yaratmaq üçün bütün qüvvələrin səfərbərliyə alınması vəzi-

fələrinə həsr olıunmuş müşavirədə giriş sözü və yekun sözü. 17 aprel 1994-cü il. http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf
112. Yenə orada
113. Yenə orada
114. Yenə orada
115. Yenə orada
116. Yenə orada
117. Yenə orada
118. Yenə orada.
119. Azərbaycan Respublikası Prezidenti Mətbuat xidmətinin məlumatı. «Azərbaycan» qəzeti, 03 noyabr 1993-cü il
120. Yenə orada
121. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan Respublikası Milli Məclisinin iclasımda çıxışı. «Azərbaycan» qəzeti, 09 noyabr 1993-cü il
122. Keçmiş beynəlmiləlçi döyüşçülərlə görüşdə çıxış. http://files.preslib.az/projects/toplu/v2/f3_3.pdf
123. Yenə orada
124. Cəbhənin müdafiəsi üçün. «Azərbaycan» qəzeti, 12 noyabr 1993-cü il
125. Ağır vəziyyətimiz ruhdan düşməyə əsas vermir. Əksinə... «Azərbaycan» qəzeti, 16 noyabr 1993-cü il
126. Heydər Əliyev: "Azərbaycanın ərazi bütövlüyü sizin əlinizdədir". «Azərbaycan» qəzeti, 09 noyabr 1993-cü il
127. «Azərbaycan Ordusu» qəzeti, 10 noyabr 1993-cü il
128. Milli Məclisdə. «Azərbaycan» qəzeti, 19 noyabr 1993-cü il
129. Milli Məclisin iclası. Qanunlar müdafiənin dayağı olacaq. «Azərbaycan» qəzeti, 27 noyabr 1993-cü il
130. Hamımımz bir məqsədə - Azərbaycanın birliyini, suveren-

liyini, bütövlüyünü, qorumaq məqsədinə xidmət etməliyik. Siyasi partiyaların və ictimai hərəkatların rəhbərləri ilə görüş. «Azərbaycan» qəzeti, 19 noyabr 1993-cü il
131. «Azərbaycan Ordusu» qəzeti, 04 noyabr 1993-cü il
132. Ermənistan geniş miqyaslı yeni hücumlar hazırlayır. «Azərbaycan» qəzeti, 13 noyabr 1993-cü il
133. Süleymanov M. Hərb quruculuğunun yeni mərhələsi. Bakı, 1996, s.126
134. Yenə orada
135.Vətənin müdafiəsi hər kəsin müqəddəs borcudur. «Azərbaycan» qəzeti, 14 dekabr 1993-cü il
136. Yenə orada
137. MN arxivi, iş N-45 (1993), v. 162
138. Vətənin müdafiəsi hər kəsin müqəddəs borcudur. «Azərbaycan» qəzeti, 14 dekabr 1993-cü il
139. Yenə orada
140. Yenə orada
141. «Azərbaycan Ordusu» qəzeti, 23 dekabr 1993-cü il
142. MN arxivi, iş N-45 (1993), v.167
143. Yenə orada, 26 fevral 1994-cü il
144. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin məlumatı. «Azərbaycan» qəzeti, 29 dekabr 1993-cü il
145. «Yeni Müsavat» qəzetii, 11 fevral 1994-cü il
146. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyədə yaşayaç azərbaycanlılarla görüşüləri. «Azərbaycan» qəzeti, 16 fevral 1994-cü il
147. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin xalqa yeni il təbriki. “Azərbaycan” qəzeti, 04 yanvar 1994-cü il
148. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyədə yaşayan azərbaycanlılarla görüşüləri. «Azərbay-

can» qəzeti, 16 fevral 1994-cü il
149. Ömərov Ə. Heç kəs məsuliyyətdən qaça bilməz. "Azərbaycan" qəzeti, 04 yanvar 1994-cü il
150. Yenə orada
151. Vətənin etimadını və inamını doğrultmalı. Prezident Aparatında görüş. "Azərbaycan" qəzeti, 05 yanvar 1994-cü il
152. Yenə orada
153. Yenə orada
154. Yenə orada
155. Respublika Prezidenti bir qrup fərarini bağışlamışdır. "Azərbaycan" qəzeti, 11 yanvar 1994-cü il
156. Heydər Əliyev: Sizin biliyinizə və təcrübənizə Vətənin ehtiyacı var."Azərbaycan" qəzeti, 15 yanvar 1994-cü il
157. Düşmənin hücumları dəf olunmuşdur. "Azərbaycan", 07 yanvar 1994-cü il
158. Həqiqəti gizlətməyə çalışırlar. "Azərbaycan" qəzeti, 18 yanvar 1994-cü il
159. Yenə orada
160. Yenə orada
161. Düşmən böyük itkilər verir. "Azərbaycan" qəzeti, 19 yanvar 1994-cü il
162. Sabiroğlu Ş. Aşot, Stepan, Razmik Ermənistanın Azərbaycana təcavüzünü təsdiq edirlər. «Azərbaycan Ordusu» qəzeti, 29 yanvar 1994-cü il
163. «Yeni Müsavat» qəzeti, 11 fevral 1994-cü il
164. «Azərbaycan Ordusu» qəzeti, 25 yanvar 1994-cü il
165. Düşmənə sarsıdıcı zərbələr vuurlmuşdur. «Azərbaycan» qəzeti, 25 yanvar 1994-cü il
166. Yenə orada
167. Aslan K. Ermənilər Heydər Əliyevdən niyə qorxurdular?

«Azərbaycan Ordusu» qəzeti, 23 dekabr 1993-cü il
168. Yenə orada
169. Yenə orada
170. Rusiyaya münasibət dəyişməzdir. «Azərbaycan» qəzeti, 05 fevral 1994-cü il
171. Mehrəliyev E. Rəzalət. Ermənistan nəyi və necə təbliğ edir. “Azərbaycan” qəzeti, 01 mart 1994-cü il
172. Газета «Независимая газета», 29 января 1994 года; Газета «Красная Звезда» 30 марта 1994 г.
173. “Azərbaycan Ordusu”, 04 may 1994-cü il
174. Yenə orada, 13 aprel 1994-cü il
175. Yenə orada
176. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1994-cü il aprelin 12-də televiziya və radio ilə xalqa müraciəti. “Azərbaycan” qəzeyi, 13 aprel 1994-cü il
177. Yenə orada

# VI FƏSİL

# ATƏŞKƏS DÖVRÜNÜN ORDU QURUCULUĞU

## 1. Heydər Əliyev və ordu quruculuğuna yeni tələblər

1994-cü ilin mayında Ermənistanın Azərbaycana qarşı apardığı müharibədə atəşkəsin əldə edilməsi dövlət quruculuğunun bütün sahələrində olduğu kimi, ordu quruculuğunda da yeni bir səhifə açdı. Heydər Əliyev dövlətin və xalqın bütün imkanlarının ordunun möhkəmləndirilməsinə səfərbər edilməsi üçün dinc şəraitin ələ edilməsini yüksək qiymətləndirirdi və əldə edilmiş fürsətdən səmərəli şəkildə bəhrələnməyi çox vacib sayırdı. Çünki Azərbaycanın qərar tutduğu hərbi-siyasi şərait bunu zəruri edirdi. Dövlət rəhbəri çıxışlarında da bəyan edirdi ki, Azərbaycanı düşdüyü ağır vəziyyətdən çıxarmağın, Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirməyin, Azərbaycana qarşı istiqamətlənmiş olan müxtəlif təzyiqlərin qarşısını almağın ən etibarlı yollarından biri məhz Azərbaycan Ordusunun möhkəmləndirilməsi idi.

Atəşkəs dövründə iştirak etdiyi tədbirlərdə, keçirdiyi görüşlərdə, müşavirələrdə Heydər Əliyevin Azərbaycanın müdafiəsinin və hərbi təhlükəsizliyinin təmin edilməsi sahəsində ordu qarşısında dayanan vəzifələr, eyni zamanda, ordu quruculuğunun müxtəlif sahələri üzrə görülməli olan işlər haqqında maraqlı fikirləri vardır. Bu fikirlər Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsinə və təfəkkürünə, Azərbaycanın hərbi təhlükəsizliyi

baxımından bölgədə və bölgə ətrafında cərəyan edən proseslərin mahiyyətinə dayaqlandığı üçün həmin fikirləri həm də ordu quruculuğunun davam etdirilməsinə irəli sürülmüş tələblər kimi də qiymətləndirmək mümkündür.

Qeyd edildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı Heydər Əliyev Azərbaycan Ordusunu müstəqil Azərbaycan dövlətinin atributlarından biri kimi görürdü (1). O, Azərbaycanın müstəqil dövlətçiliyinin bütün atributlarının, o cümlədən də Azərbaycan Ordusunun formalaşmasını və mövcudluğunu zəruri bilirdi və Azərbaycan Ordusunun möhkəmləndirilməsinə həm də Azərbaycanın müstəqillik atributlarından birinin möhkəmləndirilməsi kimi baxırdı.

Heydər Əliyev hər şeydən əvvəl ordunun müstəqil dövlət quruculuğundakı yerini çox yüksək qiymətləndirirdi və ordu quruculuğuna irəli sürdüyü tələblər də bu qiymətdən və ordunun müstəqil dövlətdəki yerindən irəli gəlirdi. O bəyan edirdi ki, Azərbaycan dövlətinin ən böyük dayağı, onun sütunu Azərbaycanın Silahlı Qüvvələridir. Azərbaycanın Silahlı Qüvvələrinə daxil olan bütün hərbi strukturlardır. Bunların içərisində birinci yerdə Azərbaycan Ordusudur (2).

Hər bir müstəqil dövlətin mövcudluğu, bu dövlət üçün mövcud olan müxtəlif təhdidlərin qarşısının alınması bir çox amillərdən asılıdır. Amma dövlətin hərbi təhlükəsizliyinə mövcud olan təhdidlərin qarşısının alınması və cəmiyyətin hərbi təhlükəsizliyinin etibarlı şəkildə təmin edilməsinin əsas vasitəsi isə Silahlı Qüvvələrdir. Yuxarıdakı fikrində “bütün hərbi strukturlar” – deyəndə Heydər Əliyev qanunvericiliklə nəzərdə tutulmuş digər silahlı birləşmələrə işarə edirdi. Ölkə rəhbəri onların hamısının roluna böyük dəyər verirdi. Amma ölkənin silahlı müdafiəsində

ordunun xüsusi yeri olduğunu da ayrıca qeyd edirdi. İstər Azərbaycanın müstəqilliyinin bir neçə illik təcrübəsi, istər Azərbaycan xalqının tarixi göstərirdi ki, malik olduğu imkanlara və sərvətlərə görə Azərbaycan torpaqları mütəmadi olaraq hərbi təhdidlərə məruz qalmış və belə təhdidlər gələcəkdə də təkrarlana bilər. Elə Azərbaycanın müstəqilliyinin ilk illərinin təcrübəsi də onu göstərdi ki, güclü ordunun olduğu təqdirdə təhdidlərin qarşısını almaq və Azərbaycana qarşı istiqamətlənmiş erməni təcavüzünü cilovlamaq mümkündür. Buna görə də Heydər Əliyev ordunu Azərbaycan dövlətinin ən böyük dayağı adlandırırdı.

Heydər Əliyev şübhə etmirdi ki, Azərbaycanın müstəqilliyinin qorunması və müdafiə edilməsi müstəqillik atributu olan Azərbaycan Ordusunun qarşısında dayanan başlıca vəzifədir. Bu vəzifə strateji və çox uzun müddətə hesablanmış bir vəzifə kimi qəbul edilirdi. Çünki Azərbaycan xalqının ümummilli lideri Azərbaycanın müstəqilliyinin əbədi olacağına şübhə etmirdi. Çıxışlarının birində ordu quruculuğunda əldə edilən müəyyən uğurları qeyd etməklə bərabər, Heydər Əliyev bildirirdi ki, “Azərbaycanda ordunun inkişaf etməsi, möhkəmlənməsi dövlətimizin və xalqımızın ən əsas vəzifəsidir. Biz həmişə həmrəy olaraq bəyan etmişik ki, Azərbaycanın dövlət müstəqilliyi əbədidir və sarsılmazdır. Bu bəyanatı həmişə reallaşdırmaq üçün, bu fikirləri əməli surətdə daim həyata keçirmək üçün biz orduya qayğı göstərməliyik, onu möhkəmləndirməli və inkişaf etdirməliyik” ( 3).

Fikirlərini davam etdirən Heydər Əliyev bildirirdi ki, ordunun möhkəmləndirilməsi müharibə aparmaq zərurəti ilə bağlı deyildir. Onun fikrincə, Azərbaycan xalqı müharibə istəmir və bunu öz siyasəti ilə də nümayiş etdirirdi (4).

Dövlət rəhbəri bəyan edirdi ki, ordunun gücləndirilməsində məqsəd heç də döyüşlərə hazırlaşmaq deyildi. Amma bir müstəqil

dövlət kimi müstəqilliyin etibarlı qorunması üçün Azərbaycanın güclü Silahlı Qüvvələri olmalıdır.

Heydər Əliyevin başqa çıxışlarında da bu fikir səslənmişdir. «Məhz buna görə də bizim güclü ordumuz olmalıdır. Məhz buna görə də ordumuz öz qüdrəti ilə sülhə nail olmaq işinə kömək etməlidir. Bizim güclü ordumuz olmalıdır ki, Azərbaycana qarşı hər hansı bir yeni təcavüzün, hərbi əməliyyatın qarşısı alınsın» (5). Başqa sözlə, Heydər Əliyev ordunun yalnız hansısa kon kret hərbi təhdidlərin qarşısının alınması üçün yox, bütünlükdə Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi və müstəqilliyin etibarlı müdafiəsinin təşkili üçün möhkəmləndirilməli olduğunu bildirirdi. Çünki ölkə möhkəm və güclü orduya malik olduğu təqdirdə məkrli qüvvələrin Azərbaycana qarşı hansısa təhdidlərə meyil etmək istəyinin qarşısı da elə əvvəldən alına bilərdi.

Başqa bir çıxışında isə Heydər Əliyev bu fikrini bir qədər də konkretləşdirmişdir: «Azərbaycanın dövlət müstəqilliyinin ən dəyərli nəticələrindən biri Azərbaycanın milli ordusunun yaranması, təşkil olunması və onun müasir tələblərə uyğun hazırlanmasıdır. Hər bir dövlət öz dövlətçiliyini qüdrətli etmək istəyirsə, onun güclü ordusu olmalıdır» (6).

Yəni Azərbaycan Ordusunun möhkəmlənməsi Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinin şərti kimi dəyərləndirilirdi. Bu mənada Heydər Əliyevin irəli sürdüyü bu fikir bütün dövrlər üçün aktual olacaq bir ümummilli vəzifə və tələb kimi səslənməkdədir.

Bununla belə, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi və işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi məqsədilə yaxın gələcək üçün ordunun qarşısında tarixi vəzifə də dayanırdı. Heydər Əliyev cəbhə bölgəsində atəşkəsin əldə edilməsindən sonra da ardıcıl şəkildə Ermənistanın Azərbaycana qarşı təcavüzünün nəticələrinin dinc yolla aradan qaldırılmasına

tərəfdar olduğunu bildirirdi və özünün fəaliyyəti ilə də bunu sübut edirdi. Amma ölkə başçısı Azərbaycan torpaqlarının 20 faizinin işğal edildiyini, bu torpaqlardan bir milyondan artıq əhalinin zorla köçkün vəziyyətinə salındığını, işğal edilmiş ərazilərin viran hala qoyulduğunu, sərvətlərin talan olduğunu da ən müxtəlif çıxışlarında səsləndirirdi. Dövlət rəhbəri bu nəticələrin aradan qaldırılması üçün dinc yollarla bərabər, digər yolları da istisna etmirdi. Elə onun üçün də qətiyyətli şəkildə bildirirdi ki, "torpaqlarımızı azad etməliyik. Bunun üçün ordumuz gündən-günə qüvvətlənməli, güclənməli, qüdrətlənməlidir. Torpaqlarımızı azad etmək üçün Azərbaycan gəncləri orduda xidməti özlərinin ən şərəfli vəzifəsi bilməlidirlər" (7).

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi və suverenliyinin qorunması ilə bağlı Heydər Əliyev çox aydın, qətiyyətli və güzəştsiz bir mövqeyə malik idi. O, bütün həyatı və siyasəti ilə belə bir mövqenin örnəyi idi və dövlət siyasətini də bu meyar əsasında qururdu. Bu məqsədlərin əldə edilməsində Azərbaycan xalqına və onun bir parçası olan Azərbaycan Ordusuna da böyük inam bəsləyirdi: "Azərbaycan xalqı azadlığını əldə etmiş xalq kimi yaşayacaq, öz müstəqil dövlətini qoruyacaq, saxlayacaq və müstəqil Azərbaycan Respublikası əbədi yaşayacaqdır. Bu onu göstərir ki, biz Vətənimizin ərazi bütövlüyünü təmin etməyə qadirik. Torpaqlarımızı azad edəcəyik. Torpaqlarımızdan didərgin düşmüş vətəndaşlarımız, soydaşlarımız öz yerlərinə, yurdlarına, elinə-obasına qayıdacaqlar. Azərbaycanın ərazi bütövlüyü, suverenliyi tamamilə bərpa olunacaq, qorunacaq, saxlanılacaqdır" (8).

Heydər Əliyev atəşkəsin əldə edilməsində, erməni millətçi dairələrinin atəşkəs danışıqlarına ciddi yanaşmasına Azərbaycan Ordusunun döyüş qüdrətinin artmasının da xüsusi təsiri olduğunu qeyd edirdi. O, eyni zamanda, güclü Azərbaycan Ordusunu

atəşkəs dövründə sülh danışıqlarının uğurlu aparılmasının da zəmini sayırdı (9).

Heydər Əliyev atəşkəs dövründə, Dağlıq Qarabağ ətrafında münaqişənin danışıqlar yolu ilə həll edilməsi üçün iş aparıldığı bir vaxtda ermənilər tərəfindən atəşkəsin pozulmasının, yenidən müharibəyə başlamaq cəhdinin qarşısının alınmasını da Azərbaycan Silahlı Qüvvələrinin qarşısında dayanan ciddi vəzifələrdən biri kimi dəyərləndirirdi. Bununla bağlı dövlət rəhbəri Silahlı Qüvvələrin daimi döyüş hazırlığına malik olmasını zəruri sayırdı: “Bu danışıqlar davam edir. Mən ümid edirəm ki, bunlar öz müsbət nəticəsini verəcəkdir, biz bu münaqişəyə son qoyacağıq. Bu, bizim dövlətimizin vəzifəsidir. Bu, mənim vəzifəmdir. Bu, Azərbaycan hökumətinin vəzifəsidir. Yəni bizim siyasətimizin vəzifəsidir. Sizin vəzifəniz isə bu deyil. Sizin vəzifəniz Azərbaycan torpaqlarını daim qorumağa və atəşkəsi pozmaq, yaxud müharibəni yenidən başlamaq üçün göstərilən hər bir cəhdə vaxtında tutarlı cavab verməyə qadir olmaqdır. Sizin vəzifəniz bundan ibarətdir. Ona görə də siz hər gün, hər dəqiqə, hər saniyə buna hazır olmalısınız” (10).

Heydər Əliyev özünün radio və televiziya ilə 2 noyabr 1993-cü il tarixli müraciətindən sonra ordu quruculuğunda müsbət keyfiyyət dəyişiklikləri baş verməsini məmnunluqla qeyd edirdi. Bu keyfiyyət dəyişiklikləri atəşkəs dövründə də davam etdi. Ona görə də Heydər Əliyev bildirirdi ki, artıq Azərbaycanın müasir tələblərə cavab verə biləcək nizami ordusu vardır. Orduda lazımi nizam-intizam, qanun-qayda vardır və Azərbaycanın bugünkü ordusu, Silahlı Qüvvələri Azərbaycan torpaqlarını etibarlı müdafiə etməyə qadirdir (11).

Heydər Əliyev ordu quruculuğunda müsbət nəticələrin əldə edilməsini və bununla da yeni Azərbaycan Ordusunun qurulma-

sını öz çıxışlarında dəfələrlə qeyd etmişdi: «Azərbaycan bu gün güclü orduya malikdir və Azərbaycan torpaqlarının qorunmasına qadir olan ordumuz var və Azərbaycan əsgəri bu gün canını verib, şəhid olub Azərbaycanın müstəqilliyini, torpaqlarını qorumağa hazırdır» (12).

Məhz belə bir ordu öz malik olduğu döyüş hazırlığı ilə cəbhədə atəşkəsin pozulmasının qarşısını alır və düşmənin təcavüzkar niyyətlərini cilovlayırdı. Bununla belə, sözsüz ki, Heydər Əliyev ordu quruculuğunda əldə olunmuş səviyyə ilə kifayətlənməyi düzgün saymırdı, Azərbaycan Ordusunun daha da möhkəmləndirilməsini qarşıda dayanan çox ciddi vəzifələrdən biri hesab edirdi. Dövlət rəhbəri bu prosesdə ortaya çıxan nöqsanları və neqativ halları da diqqətdən kənarda qoymurdu və bu prosesin davamlı və ardıcıl olmasını vacib sayırdı.

Azərbaycanda möhkəm və sağlam ordu yaradılmasının əsaslı istiqamətləri Heydər Əliyevin radio və televiziya ilə Azərbaycan xalqına 2 noyabr 1993-cü il tarixli müraciətində öz əksini tapmışdı. Bu müraciət Azərbaycan ərazisində döyüşlərin getdiyi bir vaxtda edilmişdi və sözsüz ki, Azərbaycan ərazisində döyüşlərin getməsi yeni ordunun formalaşdırılmasına da öz təsirini göstərirdi. Atəşkəs razılaşması isə bu proses üçün yeni bir şərait yaratdı, yeni imkanları ortaya qoydu və bunlar da şübhəsiz ki, ordu quruculuğunun qarşısında dayanan vəzifələrin dəqiqləşdirilməsini, konkretləşdirilməsini, yeni ehtiyatların müəyyənləşdirilməsini və cəlb edilməsini tələb edirdi. Bu yeni dövrdə ordu quruculuğu qarşısında dayanan yeni vəzifələr Heydər Əliyev tərəfindən müəyyənləşdirildi və onların həyata keçirilməsi də nəzarətə götürüldü. Bununla, əslində, Heydər Əliyev tərəfindən dinc dövrün ordu quruculuğu üçün əhatəli bir proqram hazırlandı.

Heydər Əliyev öz çıxışlarında, bəyanatlarında ordu qurucu-

luğunun uğurlu aparılması üçün zəruri olan bir sıra prinsipləri və tələbləri irəli sürmüşdür. Bu prinsiplər, əslində, mütəxəssislər tərəfindən qəbul edilmiş prinsiplərdir. Amma Heydər Əliyev Azərbaycanın müstəqilliyinin qorunması və möhkəmləndirilməsi üçün xalqın və dövlətin qarşısında dayanan vəzifələrə dövlətçilik təfəkkürü ilə yanaşaraq bu prinsipləri şərtləndirən ümumiləşdirmələri ortaya qoymuşdur. Söylənilən prinsiplər praktiki aktuallıq kəsb etdiyi üçün onları həm də ordu quruculuğu sahəsində Azərbaycan dövlətinin və xalqının qarşısında dayanan vəzifələr kimi də xarakterizə etmək mümkündür. Həmin prinsiplər aşağıdakılardır:

- Ordu quruculuğuna dövlət rəhbərliyinin təmin edilməsi;
- Ordu quruculuğunun daimi təchizata əsaslanması;
- Ordu və xalq birliyi, ordu quruculuğuna xalqın qayğısının təmin edilməsi;
- Ordu quruculuğuna mənəvi amilin təsiri;
- Ordu quruculuğunda nizam və intizamın təmin edilməsi, məsuliyyət və cavabdehlik;
- Orduya çağırışda könüllülüyün və qanunçuluğun vəhdəti;
- Ordu quruculuğunun daimi kadr və döyüş hazırlığı;
- Ordu quruculuğunda elmin və praktikanın üzvü əlaqələndirilməsi;
- Ordu quruculuğunda ardıcıllıq, davamlılıq.

### a) Ordu quruculuğuna dövlət rəhbərliyinin təmin edilməsi

Heydər Əliyevin ordu quruculuğunun uğurla aparılması üçün dönə-dönə vurğuladığı əsaslardan biri bu prosesin dövlətin rəhbərliyi altında aparılması və ordunun siyasətdən kənar olması idi. Bu tələbin mahiyyəti ondan ibarətdir ki, ordunun yaradılma-

sı dövlətin müstəsna səlahiyyətidir, bu proses bütünlüklə dövlət tərəfindən aparılır, onun bütün təchizatı dövlət tərəfindən təmin edilir, formalaşma xüsusiyyətləri dövlət tərəfindən müəyyənləşdirilir və praktiki istifadəsi də dövlətin qəbul etdiyi qanunlar çərçivəsində həyata keçirilir. Məlumdur ki, Müdafiə Nazirliyindən başqa bəzi dövlət orqanlarının tabeliyində də silahlı birləşmələr mövcuddur. Bu birləşmələr də dövlət qanunları əsasında, dövlət vəzifələrinin həyata keçirilməsi zərurəti ilə yaranmışdır. Qanunvericilikdə nəzərdə tutulmayan hallarda, dövlətin nəzarətindən kənarda yaradılmış olan hər hansı bir silahlı dəstə qeyri-qanuni silahlı dəstədir. Belə dəstələrin mövcudluğu və onların dövlət mənafelərinə necə zərbə vurduğunu Azərbaycanın müstəqilliyinin ilk illərinin təcrübəsindən də görmək mümkündür.

Ordu quruculuğunun həyata keçirilməsinə ayrı-ayrı ictimai təşkilatların, müəssisələrin, hüquqi və fiziki şəxslərin də kömək göstərməsi mümkündür. Lakin bu kömək və yardımlar dövlətin nəzarəti altında aparılmalı və bu yardımların istiqamətləndirilməsi müvafiq dövlət orqanları tərəfindən idarə olunmalıdır.

Heydər Əliyev ordu quruculuğuna dövlət rəhbərliyinin təmin edilməsinin zəruriliyi barəsində aşağıdakı məqamlara işarə edirdi: «Biz orduya, Silahlı Qüvvələrə qayğını artırmalıyıq. Onun hər bir problemi dövlətin və hökumətin himayəsi altında olmalı, vaxtlı-vaxtında baxılmalı və həll edilməlidir. Mən dövlət başçısı və Ali Baş Komandan kimi bəyan edirəm ki, bundan sonra da bu vəzifənin yerinə yetirilməsinə çalışacağam» (13).

Silahlı Qüvvələrin Ali Baş Komandanı silahlı qüvvələr quruculuğuna və silahlı qüvvələrdən istifadəyə məsuliyyət daşıyan və yüksək vəzifəli dövlət mənsubudur. Bu mənada Ali Baş Komandan dövlət adından fəaliyyət göstərir və onun qanunvericilik çərçivəsindəki fəaliyyəti dövlətin orduya rəhbərliyinin ifadəsidir.

Heydər Əliyevin Ali Baş Komandan kimi gələcəkdə də dövlətin orduya himayəsi ilə bağlı vəzifəni yerinə yetirəcəyini bəyan etməsi, əslində, ordu quruculuğuna gələcəkdə də dövlət rəhbərliyinin davamlılığının təsdiqi idi.

Çıxışlarının birində Heydər Əliyev dövlət rəhbəri və Ali Baş Komandan kimi orduya olan qayğısına çox böyük əhəmiyyət verdiyini aşağıdakı kimi bəyan edirdi: «Azərbaycan dövlətinin, o cümlədən Prezidentin, Ali Baş Komandanın çox işləri var. Ancaq bizim dövlətimiz üçün, mənim üçün, Azərbaycanın Prezidenti, Ali Baş Komandan üçün ordu ilə, Silahlı Qüvvələrlə əlaqədar olan işlər hər şeydən vacib, hər şeydən əhəmiyyətlidir. Mən öz vəzifəmi bu prinsiplə həyata keçirirəm və bundan sonra da bu prinsiplə həyata keçirəcəyəm. Ona görə bilin, mənim Silahlı Qüvvələr haqqında qayğım, diqqətim adi xarakter daşımır. Mən bütün Silahlı Qüvvələrimizi özüm üçün ən doğmalardan hesab edirəm. Çünki birincisi, Silahlı Qüvvələrdə xidmət göstərənlər çətin peşə ilə məşğuldurlar. Eyni zamanda, xalq üçün, dövlət üçün, millət üçün çox vacib bir peşə ilə məşğuldurlar. Ona görə də əmin ola bilərsiniz ki, mənim diqqətim və qayğım daimi olacaq, həm ordunun, həm də bizim ali təhsil sisteminin maddi-texniki bazasının yaranması, başqa vəsaitlərlə təmin edilməsi və digər işlərlə – onlar çoxdur – şəxsən mən məşğulam və daim məşğul olacağam. Hesab edirəm ki, bu, Azərbaycanın gələcəkdə müstəqil dövlət kimi yaşamasının əsas təminatıdır» (14).

Dövlətin ordu quruculuğuna rəhbərliyi də Ali Baş Komandan və onun müvafiq aparatı tərəfindən həyata keçirilir. Ali Baş Komandan təkcə ordu quruculuğu siyasətini müəyyənləşdirmir, həm də bu siyasətin həyata keçirilməsini təşkil edir. Ona görə də çıxışlarında, müşavirələrində Heydər Əliyev Ali Baş Komandan kimi Müdafiə Nazirliyinin rəhbərliyi, bu Nazirliyin yüksək vəzi-

fəli şəxsləri və zabitləri qarşısında ciddi tələblər qoyurdu və verilən vəzifələrin vaxtında yerinə yetirilməsini, mövcud nöqsanların aradan qaldırılmasını tələb edirdi: «Bu gün Azərbaycanın Silahlı Qüvvələrindən, Azərbaycan Ordusundan, Müdafiə Nazirliyindən öz vəzifələrini daha da keyfiyyətli, daha da yaxşı yerinə yetirməyi tələb edirəm. Bunu bu gün ona görə bəyan edirəm ki, bu, bizim daimi tələbimizdir. Biz bu prinsipdən bir gün də geri çəkilməyəcəyik» (15).

Bu tələbkarlığın nəticəsi idi ki, respublika Prezidenti kimi Heydər Əliyevin imzaladığı fərmanla 1995-ci ilin martında Müdafiə Nazirliyinin rəhbərliyində dəyişiklik edildi və Səfər Əbiyev yeni Müdafiə naziri təyin edildi.

Ordu quruculuğunda dövlət rəhbərliyinin təyin edilməməsinin ağır nəticələrə gətirib çıxardığını və çıxara biləcəyini Heydər Əliyev öz çıxışlarında, o cümlədən radio və televiziya ilə xalqa 2 noyabr 1993-cü il tarixli müraciətində əhatəli şəkildə açıqlamışdı. Atəşkəs dövründə etdiyi çıxışlarında da o, vaxtilə ordu quruculuğunda dövlət rəhbərliyinin təmin edilməməsinin Azərbaycan üçün ağır nəticələrə gətirib çıxardığını qeyd etməklə həmin nəticələrdən dərs götürülməsi qənaətini ortaya qoyurdu: «Keçən illərdə Azərbaycanın başına gələn bəlaların və ordu quruculuğunda olan geriliklərin, buraxılan səhvlərin əsas səbəbi də məhz ondan ibarətdir ki, respublikamızda ordu qurularkən, eyni zamanda, cürbəcür qeyri-qanuni silahlı dəstələr mövcud olmuşdur. Ordu qurmaq əvəzinə ayrı-ayrı vəzifəli şəxslər, siyasətə qoşulmuş insanlar ordunun hissələrindən öz şəxsi məqsədləri üçün istifadə etməyə çalışmışlar və beləliklə də, ordu quruculuğunda böyük pozuculuğa yol vermişlər. Məhz bunlar hamısı həm Azərbaycanın dövlət quruculuğunda, həm də ordu quruculuğunda böyük itkilərə, fəlakətlərə gətirib çıxarmış və Azərbaycanın ərazisinin bir qisminin işğal edilməsinin əsas səbəbi olmuşdur.

Bunları xatırlayaraq, dərk edərək, buraxılan səhvlərdən, əyintilərdən nəticə çıxararaq bu gün artıq hamı bilməlidir ki, ordu quruculuğunda keçmişdə olan hallara yol verilə bilməz. Ordumuz sağlam ordu olmalıdır. Azərbaycan xalqının milli, mənəvi ənənələri əsasında tərbiyələnən, möhkəmlənən, hazırlanan və inkişaf edən ordu olmalıdır" (16).

Heydər Əliyevin ordu quruculuğuna irəli sürdüyü tələbləri onun bu istiqamətdəki təşkilatçılıq fəaliyyəti ilə tamamlanırdı. Bu sahədə də Heydər Əliyevin işgüzarlığı nümunə idi. Məsələn, təkcə 1993-1998-ci illər ərzində Heydər Əliyev tərəfindən ordu quruculuğu məsələləri ilə bağlı 109 müşavirə, iclas və görüş keçirilmişdi (17). Həmin tədbirlərdə Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün qarantı olacaq möhkəm ordu formalaşdırılmasının ən müxtəlif məsələləri və vəzifələri müzakirə edilmiş və əldə olunmuş qərarlar Müdafiə Nazirliyinin və digər müvafiq dövlət strukturlarının fəaliyyətinin əsasını təşkil etmişdi. Ordu quruculuğu məsələlərinə dövlət rəhbərliyinin qayğı və tələbkarlığının artırılması, bu istiqamətdə görülən işlərin sistemləşdirilməsi və təkmilləşdirilməsi Silahlı Qüvvələrin formalaşmasına da müsbət təsir göstərirdi.

Ordu və siyasət məsələsinə münasibətdə Heydər Əliyevin mövqeyi birmənalı idi: «Ordu siyasətə qarışmamalıdır. Kim ordunu siyasətə qatmaq istəyirsə, o, Azərbaycan Konstitusiyasını pozur və biz buna yol verməyəcəyik, belə halların qarşısını alacağıq. Ancaq orduda xidmət edən hər bir əsgər, zabit, general bilməlidir ki, o, müstəqil Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycan dövlətinin, dövlətçiliyinin, ərazimizin müdafiəsi, ölkəmizin konstitusion əsaslarının qorunması hər bir əsgərin, zabitin, döyüşçünün borcudur» (18).

Bu tələbin nə qədər vacib olduğunu elə ordu quruculuğunun ilk illərinin təcrübəsi də sübut edə bilər. Ordunun siyasi niyyət-

lər ətrafında qruplaşdırılması, müxtəlif siyasi təxribatların həyata keçirilməsinə ordu qüvvələrinin cəlb edilməsi Azərbaycan Ordusunu dərin böhran içərisinə saldı ki, bu da erməni təcavüzünə qarşı mübarizəni xeyli zəiflətdi. Ordunun qarşısında dayanan vəzifələr, ordu daxilində xidmətin qurulması müvafiq qanunvericiliklə, nizamnamələr və təlimnamələrlə nizamlanır. Ordunun müstəqim vəzifələrindən kənar vəzifələrə cəlb edilməsi də yalnız ali qanunvericilik orqanının qərarı əsasında baş verə bilər. Digər hallarda isə ordunun hansısa siyasi planların həyata keçirilməsinə cəlb edilməsi, ordu daxilində siyasi mənsubiyyətinə görə qruplaşmalar yaradılması və ya buna cəhd göstərilməsi dövlət cinayəti sayılır. Başlıcası isə belə hallar güclü ordunun formalaşdırılması yolunda böyük maneədir.

### b) Ordunun maddi-texniki təchizatına diqqət

Ölkənin hərbi qüdrətinin əsasını onun iqtisadi potensialı təşkil edir. O, təkcə ölkədəki maddi-texniki bazanın və insan ehtiyatlarının kəmiyyət göstəricilərindən ibarət deyil. Buraya həm də ordu quruculuğunun uğurlu aparılması üçün zəruri olan ehtiyacları vaxtında ödəmək qabiliyyəti, başqa sözlə, iqtisadiyyatın səmərəli işini təşkil edə bilmək imkanları da daxildir. Çox böyük maliyyə tələb edən müasir ordu quruculuğunun aparılması ölkənin iqtisadiyyatının yüksək səviyyədə inkişaf etməsini tələb edir. Çünki silahlı qüvvələrin texniki cəhətdən müasir silah sistemləri ilə təchiz edilməsi üçün böyük maddi, əmək və maliyyə ehtiyatları, güclü istehsal bazası, yaxşı inkişaf etmiş sənaye istehsalı strukturu tələb olunur (19).

Silahlı qüvvələrin maddi-texniki bazası ölkənin iqtisadiyyatının əsasında yaradılır. Təsadüfi deyil ki, hərb nəzəriyyəçiləri

və mütəxəssisləri ordu quruculuğunun uğurla aparılmasını şərtləndirən amillər içərisində iqtisadi amilə xüsusi yer verirlər (20).

Müasir hərbi texnikanın istehsalı və ya onun əldə edilməsi inkişaf etmiş iqtisadiyyat olmadan mümkün deyil. Hətta silah və hərbi texnika istehsal etməyən, hərbi istehsalın təşkili üçün zəruri imkanları olmayan ölkələrdə belə hərbi tələbatın idxal edilməsi hesabına ödənilməsi də ölkə iqtisadiyyatının yüksək səviyyəsini tələb edir. Ona görə də klassik hərb nəzəriyyəçiləri bildirirdilər ki, «ordu və dəniz qüvvələri kimi heç nə iqtisadi vəziyyətdən belə asılı deyildir» (21).

Azərbaycan xalqının respublikanın ərazi bütövlüyü uğrunda erməni təcavüzünə qarşı apardığı mübarizənin çətinliklərindən biri də iqtisadiyyatının zəifləməsi, SSRİ-nin çökməsindən sonra respublika iqtisadiyyatının müharibə tələblərinə cavab verməyən bir səviyyəyə düşməsi idi. Xalq təsərrüfatı iflic vəziyyətinə düşdüyündən müharibənin tələblərinin ödənməsi də günü-gündən çətinləşirdi və Ermənistandan fərqli olaraq, Azərbaycana kənardan hər hansı bir yardım göstərilmirdi. Ona görə bütünlükdə, cəmiyyətin də yaşayış səviyyəsi ağırlaşmaqda idi. Doğrudur, Azərbaycanın zəngin təbii sərvətləri və SSRİ dövründən qalmış güclü sənaye infrastrukturu var idi. Ancaq bir tərəfdən köhnə iqtisadi sistemin dağılması və yeni iqtisadi sistemə keçidlə bağlı çətinliklər, bir tərəfdən də iqtidarda olan və daha çox hakimiyyətin qorunub saxlanılması barədə fikirləşən qüvvələrin iqtisadiyyatın yeni şəraitə uyğunlaşdırılması üçün zəruri islahatları aparmaması iqtisadi vəziyyəti mürəkkəbləşdirməklə ordunun maddi-texniki təminatının və təchizatının ödənilməsini də çətinləşdirirdi. Hətta respublika müstəqilliyini qazandıqdan sonra da onun iqtisadiyyatının hərbi şəraitin tələblərinə uyğun qurulmamasının nəticəsi idi ki, Ermənistan silahlı qüvvələri ilə mü-

barizədə Azərbaycanın ilk hərbi hissələri həddən artıq zəif təchiz olunmuş və pis silahlanmışdılar (22). Əhali, ictimaiyyətin ayrı-ayrı dairələri hərbi hissələrin təchizatına kömək göstərsələr də, bu, problemin tam həlli demək deyildi. Bundan başqa əhalinin göstərdiyi müxtəlif maddi yardımların toplanmasında və istifadəsindəki nizamsızlıqların mövcudluğu bu sahədə mümkün ola biləcək səmərəni də məhdudlaşdırırdı. Respublikanın büdcəsində isə tələb olunan vəsaiti tapmaq mümkün deyildi. Hətta respublikanın rəhbərliyi yeni yaradılan hissələrin xərclərinin ödənməsini də qismən ictimaiyyətin hesabına həll etməyə çalışırdı və bunun üçün xüsusi Müdafiə fondu da təsis edilmişdi (23).

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev də ordu quruculuğunun uğurla aparılmasının başlıca yollarından birini məhz iqtisadiyyatın sağlamlaşdırılmasında, onun sürətli inkişafında görürdü. Onun çoxsaylı çıxışlarından alınan qənaət də belədir ki, güclü ordunun maddi-texniki bazasının yaradılması da məhz güclü iqtisadiyyata dayaqlanmalıdır. Onun fikrincə, ordunun maddi-texniki bazası nə qədər təkmil olardısa, ordunun zərbə qüvvəsi də o dərəcədə güclü ola bilərdi. «Azərbaycanın müasir tələblərə uyğun güclü, qüdrətli ordusu var. Ancaq bu da son hədd deyildir. Biz ordumuzu daha da gücləndirməliyik. Onu müasir silahlarla daha çox silahlandırmalıyıq» (24). Başqa bir çıxışında Heydər Əliyev Silahlı Qüvvələrin qüdrətinin artırılmasından danışanda bu qüdrətin yalnız «qol gücü» kimi başa düşülməsinin tərəfində deyildi. O özü əlavə edirdi ki, ordunun döyüş qüdrəti müasir texnikada, texnologiyada və silahlardadır (25).

Ordunun maddi-texniki təchizatının təmin edilməsi üçün sovetlər dövründən Azərbaycanda böyük potensial olsa da, Heydər Əliyev bu potensialın məhv edildiyini böyük təəssüflə qeyd edirdi. Çünki lazımi tələbkarlıq və qətiyyət göstərilmədiyi üçün Azərbay-

can ərazisində olan hərbi əmlakın xeyli hissəsi sovet qoşunları tərəfindən respublikadan çıxarılmış, respublika daxilində qalan əmlak isə düzgün istifadə edilmədiyindən yeni formalaşan milli qoşun hissələri üçün əlavə çətinliklər yaranmışdı. «...keçmiş sovetlər ordusundan Azərbaycanın payına düşmüş böyük hərbi potensial, silahlar, sursatlar, hərbi texnika, böyük hərbi bazalar, – Azərbaycanın ərazisində bunlar çox olubdur, – dağıdılıb, mənimsənilib. Bunlar hamısı Azərbaycan Ordusunun yaranmasına zərbələr vurubdur və Azərbaycan xalqını böyük xəyanətlərə gətirib çıxarıbdır. Açıq demək lazımdır, əgər 1991-ci ilin sonunda Azərbaycan müstəqillik aldığı zaman keçmiş sovet ordusunun Azərbaycan ərazisində olan potensialı, Azərbaycana çatmış potensialı qorunub saxlanılsaydı, ondan səmərəli istifadə olunsaydı, nə bu cür məğlubiyyətlər ola bilərdi, nə də bizim müdafiə potensialımız indi belə vəziyyətdə ola bilərdi.

Çox şey dağıdılıbdır, həddindən artıq. Bunu adi vətəndaşlar bilmir, bunlar gizlədilibdir. Mən isə bilirəm ki, Azərbaycanın ərazisində keçmiş sovet ordusunun nə qədər nəhəng qurğuları var idi, nə qədər böyük texnikası var idi, nə qədər böyük sursat anbarları var idi, nə qədər binaları, hərbi bazaları var idi.

Bunlar hamısı Azərbaycana qalmalı idi, bunlar hamısı Azərbaycanın sərəncamına keçməli idi. Bir çoxu keçib, haqq naminə demək lazımdır ki, sovet ordusuonu təhvil verib, ancaq o dövrdə bunlar ayrı-ayrı şəxslər tərəfindən dağıdılıb, mənimsənilib, satılıb, oğurlanıb. Ona görə də Azərbaycanda ordu quruculuğu iki tərəfdən şikəst olubdur: bir tərəfdən onun sərəncamında olan o böyük hərbi, texniki, silah potensialı, baza potensialı dağıdılıbdır, ikinci tərəfdən də hərbi quruculuqla məşğul olmaq əvəzinə cürbəcür, ayrı-ayrı batalyonlar yaradaraq o dövrdə hərə öz məqsədləri üçün istifadə edibdir” (26).

Ordu quruculuğunun maddi-texniki təminatının bazasını təşkil edən iqtisadiyyatın hələ tam şəkildə böhrandan çıxmamasına baxmayaraq, Heydər Əliyev əlaqədar şəxslərdən Silahlı Qüvvələrin maddi-texniki bazasının təmin edilməsi, maliyyə ehtiyaclarının və təchizatının vaxtında ödənilməsi yollarının axtarılıb tapılmasını tələb edir, ölkənin mövcud imkanlarının səfərbər edilməsinin zəruriliyini vurğulayırdı (27).

Mövcud şəraitdə Silahlı Qüvvələrin təchizatını respublika öz məhdud imkanları hesabına ödəmək məcburiyyətində qalırdı. Bu sahədə qarşıya çıxan vəzifələrin uğurla və vaxtında yerinə yetirilməsi üçün 1995-ci il yanvar ayının 12-də respublika Prezidenti Heydər Əliyevin rəhbərliyi altında xüsusi müşavirə keçirildi. Müşavirədə respublikada müdafiə işinin təşkilinin, ordunun möhkəmləndirilməsinin iqtisadiyyatın sağlamlaşdırılması ilə bağlılığı qeyd edildi və ordunun ehtiyacının vaxtlı-vaxtında ödənilməsi üçün respublika hökumətinə tapşırıq verildi. Həmin müşavirədə bir daha qeyd edildi ki, respublikada güclü ordunun təşkili, ordunun möhkəmləndirilməsi, onun tələbatının tam ödənilməsi iqtisadiyyatın səmərəli fəaliyyəti ilə bağlıdır. Ölkənin etibarlı müdafiəsi onun güclü iqtisadiyyatına dayaqlanmalıdır.

Amma bunun üçün real imkanlar mövcud deyildi. Çünki 1993-cü ilin yayında Heydər Əliyev xalqın tələbi ilə Naxçıvandan Bakıya gələndə respublikada hərbi-siyasi böhranla bərabər, həm də iqtisadi böhran da yaşanmaqda idi.

1992-ci illə müqayisədə 1993-cü ildə milli gəlirin həcmi 13,3 faiz aşağı düşmüş, neft hasilatı 800 min ton, təbii qazın çıxarılması isə bir milyard kubmetr azalmışdı. Kənd təsərrüfatında ümumi məhsulun dəyəri 1992-ci ildəkinə nisbətən 16,5 faiz aşağı düşmüşdü. İqtisadiyyatda davam edən böhranlı vəziyyət inflyasiyanın daha da güclənməsinə, büdcə kəsirinin artaraq 25 milyard mana-

ta çatmasına, habelə cəmiyyətin kəskin surətdə təbəqələşməsinə, əhalinin əksəriyyətinin yoxsullaşmasına gətirib çıxarmışdı (28).

Heydər Əliyevin hakimiyyət başına gəlməsindən sonra respublika daxilində mürəkkəb hərbi-siyasi vəziyyət olsa da, ordunun maddi-texniki təchizatının yetərincə təmin edilməsinə, Azərbaycana qarşı davam edən erməni təcavüzünün qarşısının alınması üçün iqtisadiyyatın fəaliyyətinin tənzimlənməsinə diqqət xeyli artırıldı. Ancaq bir tərəfdən ötən illər ərzində buraxılan nöqsanlar, ölkə ərazisində müharibə getməsi, digər tərəfdən də keçid dövrünün çətinlikləri problemin həllini xeyli mürəkkəbləşdirirdi.

1993-cü ilin sonlarında respublikanın təsərrüfat həyatında mövcud olan vəziyyəti Heydər Əliyev də ağır iqtisadi böhran kimi dəyərləndirirdi (29). Onun fikrincə, iqtisadiyyatın əsas sahəsi olan istehsalın vəziyyəti xüsusilə dözülməz idi. Bu sahənin əsas göstəriciləri heç də dövlətin və xalqın iqtisadi maraqlarını əks etdirmirdi.

1993-cü il noyabr ayının 19-da və 24-də respublikada iqtisadi islahatların gücləndirilməsi ilə bağlı Heydər Əliyevin rəhbərliyi altında Prezident Aparatının, Ali Sovetin, Nazirlər Kabinetinin, nazirliklərin, dövlət komitələrinin, digər orqan və müəssisələrin rəhbərlərinin iştirakı ilə keçirilən müşavirədə bir daha qeyd edildi ki, Azərbaycanın iqtisadiyyatı, maliyyə-kredit vəziyyəti çox ağır haldadır və əgər təcili tədbirlər görülməsə, sosial-iqtisadi böhran dərinləşəcək, respublikanın bütün həyatı üçün ciddi çətinlikıər yaradacaqdır. Bu müşavirələrdə yaranmış vəziyyəti hərtərəfli təhlil edən Heydər Əliyev respublika iqtisadiyyatın böhranda olmasının səbəblərindən birini ölkə ərazisində müharibə getməsində görürdü. Amma onun da qeyd etdiyi kimi, ölkə iqtisadiyyatını böhrana yuvarlanmasının başlıca səbəblərindən biri də vaxtında bu sahədə ciddi işlərin görülməməsi idi: "Bu-

günkü müşavirədə iqtisadiyyatın sərbəstləşdirilməsi, bazar iqtisadiyyatına geniş yer verilməsi haqqında da geniş söhbət getdi. Bununla əlaqədar mənim mövqeyim aydındır. Bir şeyi başa düşə bilmirəm. Bazar iqtisadiyyatı ümumiyyətlə, sosialist iqtisadiyyatına zidd olan iqtisadiyyatdır. Sosializmə və onun iqtisadiyyatına zidd olan qüvvələr son il yarımda Azərbaycana rəhbərlik etmişlər, həm Milli Məclisin, həm nazirliklərin əksəriyyətinin, həm də ki dövlətin rəhbərliyində olmuşlar. Əgər mühafizəkar qüvvələr bazar iqtisadiyyatının tətbiqinə mane olurdularsa, bəs sərbəst iqtisadiyyat tərəfdarı olan adamlar nə üçün onu həyata keçirməmişlər? Əgər bacarmırdılarsa, heç olmasa, lazımi qərarlar verib ona yol açmaq mümkün idi. Bu yolda bəzi səhvlər də ola bilərdi. Hər halda buna yol açmaq lazım idi".

1994-cü ilin birinci yarısında respublikada hərbi şəraitin daha da kəskinləşməsinə, hərbi əməliyyatların geniş vüsət almasına baxmayaraq, iqtisadi məsələlərin həllinə dövlət rəhbərliyi tərəfindən xüsusi diqqət yetirilirdi. Heydər Əliyev haqlı olaraq qeyd edirdi ki, iqtisadiyyatın sağlamlaşdırılması respublikanın həyatının bütün sahələrində olduğu kimi, müdafiə sahəsində də qarşıda dayanan vəzifələrin həllinə kömək edə bilər və bunun üçün həyata keçirilən tədbirlərə lazım olan külli miqdarda vəsaiti də güclü iqtisadiyyatdan almaq olardı (30).

İqtisadiyyat sahəsində dövlətin nəzərdə tutduğu siyasətin ardıcıl həyata keçirilməsi, vəzifələrin konkretləşdirilməsi üçün 1994-cü il fevralın 20-də, martın 4-də, martın 30-da müxtəlif səviyyələrdə müşavirələr keçirildi. Həmin müşavirələrdə də respublika iqtisadiyyatının ağır vəziyyətdə olmasına müharibənin təsiri bir daha qeyd edildi. Ölkə rəhbəri bildirirdi ki, indi biz müstəqil dövlətik, iqtisadi imkanlarımız məhduddur. Çünki böhran içərisindəyik, müharibə aparırıq. Müharibə isə bildiyiniz kimi, çox böyük xərc tələb edir (31).

Bu müşavirələrin hamısında Heydər Əliyev geniş nitq söyləyib xalq təsərrüfatının mövcud vəziyyətini ətraflı təhlil etməklə bərabər, müxtəlif sahə, təşkilat və müəssisələrin rəhbərlərinin və nümayəndələrinin çıxışlarına və təkliflərinə də diqqətlə yanaşdı, onlara lazımi göstərişlər verdi. Bundan başqa o, respublikanın təsərrüfatlarına, müəssisələrinə, rayonlarına səfərləri, iş adamları, daxili və xarici biznesmenlərlə görüşləri, habelə Bakıda və xaricdə diplomatik danışıqları zamanı respublikanın iqtisadi vəziyyətinin sağlamlaşdırılmasını diqqət mərkəzində saxlayırdı. Bununla belə, respublika Prezidenti ölkə iqtisadiyyatının bərpasının əsas yolunu məhz daxili potensialın səfərbər edilməsində görürdü: "Respublikamız artıq müstəqil bir ölkədir, dövlətdir. Kənar yerdən bizə nə ət, nə yağ gələcək, nə taxıl məhsulları, nə də başqa şeylər gələcək. Biz öz ərazimizin, təbiətimizin imkanlarından, Allahın respublikamıza, xalqımıza verdiyi bu nemətlərdən səmərəli istifadə edərək xalqımızı yaşatmalıyıq. Sizə qəti deyirəm ki, xalqımızın öz torpağından, iqlimindən, təbiətindən istifadə edərək rahat və yaxşı maddi səviyyədə yaşaması üçün Allah ölkəmizə hər şey verib. Biz bundan, yenə də deyirəm, səmərəli istifadə etməliyik, bu işi planlı, ardıcıl şəkildə aparmalıyıq. Azərbaycanın kənd təsərrüfatı potensialı bərpa edilməlidir. Torpaqlarımız, hava, su, ərazimiz Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalının sürətlə artırılmasına yönəldilməli, istifadə olunmalıdır. Belə hesab edirəm ki, bu işlər qısa bir müddətdə öz nəticəsini verəcək, Azərbaycan Respublikasının əhalisi öz torpağının bəhrəsini götürüb yaşayacaqdır" (32).

Heydər Əliyev respublika iqtisadiyyatının problemlərinin həllinə həsr edilmiş müşavirələrdən birində qeyd edirdi ki, Azərbaycan xalq təsərrüfatı son illər ərzində nə qədər dağılsa belə, onun iqtisadi potensialı yenə böyükdür və ondan səmərəli isti-

fadə olunarsa, qısa müddət ərzində müəyyən dəyişikliklərə nail olmaq mümkündür (33).

Lakin elə 1994-cü ilin birinci yarısının sosial-iqtisadi inkişaf göstəriciləri respublikanın hələ də iqtisadi geriləmədən yaxa qurtara bilmədiyini nümayiş etdirirdi. İstehsal vasitələri üzərində dövlət mülkiyyətinin üstün mövqe tutması şəraitində qiymətlər durmadan qaldırılmış və bunlar da öz növbəsində müəssisələrin və əhalinin tədiyyə qabiliyyətinin aşağı düşməsinə səbəb olmuşdu. Rubl məkanının dağılması, keçmiş İttifaq respublikalarının öz milli valyutalarını tətbiq etməsi, bu valyutaların qarşılıqlı surətdə dönərliliyinə nail olmaq üçün əlaqələndirilmiş tədbirlər görülməməsi banklararası əməliyyatları son dərəcə çətinləşdirmiş, MDB ölkələrinin müəssisələri və iqtisadiyyat sahələri arasında ödənişlərin həyata keçirilməsində problemlər yaratmışdı (34).

Respublikanın Prezidenti kimi fəaliyyətinin ilk illərində Heydər Əliyevin iqtisadi vəziyyətlə bağlı elə bir çıxışını tapmaq mümkün deyil ki, orada müharibənin təsərrüfatçılıq üçün yaratdığı ağır şəraitə toxunmasın. Onun qənaətinə görə, müharibə bir tərəfdən iqtisadiyyatın ahəngdar inkişafını pozmuş, ölkə daxilində intizama ciddi zərbə vurmuş, bir tərəfdən bəzi insanlar yaranmış vəziyyətdən şəxsi maraqları üçün bəhrələnməyə çalışaraq, normal təsərrüfatçılığa zərbə vurmuş, digər tərəfdən də təsərrüfat sahələri işğal altına düşmüş, o cümlədən də bir milyondan artıq insan qaçqın düşməklə öz təsərrüfatlarını tərk etməli olmuşdular. O qeyd edirdi ki, respublika ərazisinin 20 faizinin işğal altına düşməsi, qaçqınların əmək fəaliyyətindən məcburi olaraq uzaqlaşdırılması, onların məskunlaşdıqları şəhər və qəsəbələrdə, kənd və obalarda həm sənaye, həm də kənd təsərrüfatı məhsulları istehsalından məhrum edilməsi və əksəriyyətinin də işsiz qalmaları respublikanın iqtisadi və maliyyə vəziyyətini daha da ağırlaşdırırdı (35).

Respublika Prezidenti müharibənin davam etməsi ilə əlaqədar olaraq iqtisadi islahatların aparılmasının, iqtisadiyyatın sağlamlaşdırılması yollarının axtarılıb tapılması üçün daha fəal işlər aparılmasının tərəfdarı idi və öz fəaliyyəti ilə belə bir nümunə göstərirdi. O vaxtaşırı yüksək səviyyəli müşavirələr və iclaslar keçirərək bu sahədəki vəziyyəti müzakir edirdi.

Mövcud olan nöqsan və çətinlikləri qeyd etməklə Heydər Əliyev heç də iqtisadiyyatın vəziyyətinin çıxılmaz olduğunu söyləmirdi. O, iqtisadiyyatın vəziyyətinin düzəldilməsi üçün qətiyyətli addımlar atılacağını bildirir və bu istiqamətdə ən əvvəl xalqa arxalandığını vurğulayırdı. Dövlət rəhbəri mövcud problemlərə dözüm və müdrikliklə yanaşan xalqa ehtiramını ifadə edərək onların həyatının yaxşılaşdırılması üçün lazımi tədbirlərin görüləcəyini vəd edirdi (36).

Heydər Əliyev qətiyyətlə bildirirdi ki, artıq xalqın taleyi öz əlindədir, onun gələcəyinin xoşbəxt qurulması üçün daha kimlərəsə yox, öz gücümüzə, öz zəhmətimizə arxalanmalıyıq. Respublika Prezidenti Azərbaycanın müstəqil, firavan yaşaması üçün təbii sərvətlərin, elmi, mənəvi potensialın, əmək ehtiyatlarının mövcud olduğunu qeyd edir və müstəqillik yolunda əzmlə irəliləmək üçün bu imkanlardan məqsədyönlü və ümumxalq mənafeləri baxımından istifadə etməyə çağırırdı. Heydər Əliyev inamla bildirirdi ki, tarixin yenidən bəxş etdiyi müstəqilliyi qoruyub saxlamağa və möhkəmlətməyə Azərbaycan xalqının gücü çatar və ona görə də bu tarixi imkan əldən verilməməlidir. Respublika Prezidenti iqtisadiyyatın inkişaf etdirilməsini, müstəqilliyin qorunmasını müstəqil xalqın xoşbəxt və firavan həyatının əsası sayırdı və ona görə də müstəqil Azərbaycanın gələcəyə doğru inamla addımlaması üçün onun iqtisadiyyatının düzgün təşkilini bütün cəmiyyət qarşısında dayanan prinsipial vəzifələrdən biri

sayırdı: "Biz müstəqil dövlət kimi yaşayırıq və dəfələrlə demişik ki, müstəqil dövlətçiliyimiz əbədi olacaqdır. Yəni biz daha başqa bir dövlətin tərkibində, himayəsi altında yaşamayacağıq. Başqa bir dövlətin də imkanlarından istifadə etməyə nə imkanımız, nə də istəyimiz var. Demək, əgər biz müstəqil dövlət olmaq istəmişiksə və buna nail olmuşuqsa, öz ölkəmizin sərvətlərindən səmərəli istifadə edərək həm müstəqil dövlətimizi möhkəmləndirməliyik, həm də bu müstəqilliyin təkcə siyasi-mənəvi deyil, habelə maddi nəticəsi də olmalıdır, insanların yaşayışının yaxşılaşmasını təmin etməlidir. Əgər bu olmasa, belə müstəqilliyin heç bir əhəmiyyəti yoxdur. Müstəqillik ona görədir ki, biz öz taleyimizin sahibi olaq, öz sərvətlərimizin sahibi olaq və bu sərvətlərdən istifadə edərək xalqımız daha yaxşı yaşasın. Əgər müstəqilliyimiz sadəcə olaraq formal xarakter daşıyacaqsa, yaxud müstəqillik dövründə iqtisadiyyatımız gündən-günə geriləyəcəksə, əhalinin yaşayış səviyyəsi pisləşəcəksə, onda bu müstəqillik nəyə lazımdır? Belə də yaxşı olar ki, başqa bir dövlətin müstəmləkəsi olasan, xalqın bundan da yaxşı yaşasın. Amma biz buna yol verə bilmərik. Əvvələn ona görə ki, müstəqillik əsrlər boyu bizim arzumuz olmuşdur. İkincisi, bizim ölkəmiz – Azərbaycan öz sərvətlərindən istifadə edərək iqtisadiyyatını yaxşı qura və əhalisinin, vətəndaşlarının rifahını daha da yaxşılaşdıra bilər" ( 37).

Heydər Əliyev bazar iqtisadiyyatına keçidi Azərbaycan dövlətinin iqtisadi siyasətinin strateji yolu adlandırır və ölkənin gələcəyini də bu yolla bağlayırdı. Dövlət rəhbərinin fikrincə, geriyə - sosialist təsərrüfat sisteminə qayıdılması mümkün deyildi. Çünki o sistem artıq özünün son həddinə çatmışdı, yeni şəraitdə təsərrüfatın inkişafı üçün buxova çevrilmişdi. Heydər Əliyev də qeyd edirdi ki, dövr, zaman daha çevik və işlək sistemin tətbiqini tələb edir. Bazar iqtisadiyyatı belə bir sistemdir. Bu iqtisadi

sistem mülkiyyət formasının dəyişdirilməsini, təsərrüfatın bazar iqtisadiyyatı əsasında qurulmasını, təşəbbüskarlığa geniş meydan verilməsini tələb edirdi (38).

Lakin Heydər Əliyev birdən-birə mövcud iqtisadi sistemin dağıdılmasının və yeni iqtisadi sistemin tətbiqinin mümkünlüyü-nü də qəbul etmirdi. Çünki 70 il ərzində mövcud olan cəmiyyətin bütün sahələrinə nüfuz edərək sosialist həyat tərzini müəyyən-ləşdirən iqtisadi sistemdən yeni, bazar münasibətlərinə əsaslanan iqtisadi sistemə keçilməsi mərhələlərlə, əsaslandırılmış proqram əsasında tədricən mümkün ola bilərdi. Heydər Əliyevin fikrincə, keçid dövründə mövcud sistemin potensialını dağılmaqdan qoru-maqla yeni iqtisadi sistemin tətbiqinə şərait yaradılmalı idi (39).

Ölkə Prezidentinin qənaəti belə idi ki, son bir neçə ildə Azər-baycanın iqtisadiyyatı mürəkkəb bir vəziyyətə düşmüşdü və bu vəziyyətdən yeni iqtisadi sistemə keçmək bir sıra çətinliklərlə qarşılaşacaq və bu da xeyli vaxt itkisinə səbəb olacaqdır. Bununla belə, o, iqtisadiyyatın sağlamlaşdırılmasında ardıcıl yol tutulma-sına təkid edir, qarşıya qoyulan məqsədə çatmaq üçün nə etmək lazım gəldiyini də öz çıxışlarında irəli sürürdü.

Atəşkəsin əldə edilməsindən sonra iqtisadi islahatların sürətləndirilməsi, geniş özəlləşdirmənin aparılması, aqrar isla-hatlara meydan verilməsi, neft-qaz strategiyasının həyata keçi-rilməsinə başlanması çox qısa müddətdən sonra ölkəni iqtisadi böhrandan çıxardı və Azərbaycan Respublikası sürətli inkişaf yoluna qədəm qoydu.

Heydər Əliyevin uğurlu siyasəti nəticəsində artıq 1996-cı il-dən etibarən Azərbaycan iqtisadiyyatında dönüş yarandı. O özü də çıxışlarının birində qeyd edirdi ki, atəşkəs əldə ediləndən "sonra iqtisadiyyatın inkişafına, sosial məsələlərə ciddi fikir ver-məyə başladıq. Mən sizə deyim ki, 1996-cı ildən 2002-ci ilə qədər

bütün göstəricilərin hamısı yüksəkdir. Gəlirlərimiz var. Məsələn, 1992-ci ildə Azərbaycanın büdcəsi bilmirəm, deyəsən təxminən 100 milyon dollar idi. Amma bizim gördüyümüz işlər nəticəsində indi Azərbaycanın büdcəsi 1 milyard 200 milyon dollardır. Bunlar hamısı bizə imkan verdi ki, sosial məsələləri həll edək" (40).

Bu rəqəmlərdən göründüyü kimi, Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycan iqtisadiyyatı nəinki böhrandan çıxarıldı, hətta dövlət büdcəsi 12 dəfə artdı. Bu isə yalnız əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına deyil, həm də ordunun maddi-texniki təminatına yeni imkanlar açdı və Azərbaycan Ordusu öz inkişafının yeni bir dövrünə qədəm qoydu.

### c) Ordu və xalq birliyi, ordu quruculuğuna xalqın qayğısının təmin edilməsi

Heydər Əliyev ordunu xalqın ayrılmaz hissəsi sayırdı, ordunun gücünü xalqda görürdü. Yəni o, ordunu xalqdan ayrı və təcrid edilmiş halda təsəvvür etmirdi. Belə olsaydı, ordu quruculuğu da uğurla gedə bilməzdi. Ona görə də Heydər Əliyev xalqı hər zaman orduya qayğı göstərməyə çağırırdı: «Xalq, dövlət orduya ümid edir, orduya güvənir. Ordu isə xalqın, dövlətin dəstəyinə güvənir. Ona görə də xalqın, ordunun birliyi və Azərbaycan dövlətinin ölkənin müstəqilliyini bundan sonra da möhkəmləndirmək, inkişaf etdirmək siyasətini əzmlə aparması, iqtisadiyyatın inkişafı üçün lazımi tədbirlərin görülməsi, Azərbaycanda hərbi quruculuq sahəsində indiyə qədər görülən işlərdən sonra daha da dəyərli işlər görülməsi ona əsas verir ki, həm dövlət, həm xalq, həm də ordu bir istiqamətdə gedir. Bir istiqamətdə də gedəcəkdir. Dövlət xalqındır, xalq üçündür, millət üçündür. Ordu xalqındır və ordu xalq üçündür, dövlət üçündür,

millət üçündür. Güman edirəm ki, bu anlayışlar heç vaxt unudulmayacaqdır» (41).

Heydər Əliyevin bu məqamla bağlı söylədiyi fikirlərindən belə bir qənaətə gəlmək mümkündür ki, xalqın orduya münasibəti, əslində, xalqın öz müstəqilliyinə münasibətidir. Əgər xalq müstəqil olmaq istəyirsə və müstəqilliyini qorumaq istəyirsə, güclü orduya malik olmalıdır. Güclü orduya malik olmaq üçün isə onun formalaşdırılmasına qayğı göstərilməlidir (42).

Yuxarıdakı fikrində Heydər Əliyev xalqın orduya necə qayğı göstərməsinin bəzi yollarını da göstərmişdir. Bu, ilk növbədə xalqın öz müstəqilliyinə olan inamı, müstəqilliyini qorumaq əzmi, müstəqilliyin möhkəmləndirilməsinə olan fəal mövqeyi ilə şərtlənirdi. Çünki ordu xalqın ayrılmaz hissəsidir və ordunun mübarizə əhval-ruhiyyəsi də xalqın mənəvi keyfiyyətləri ilə şərtlənir. Xalq öz müstəqilliyinə və dövlətçiliyinə sədaqətli olarsa, müstəqilliyin və dövlətçiliyin düşmənlərinə qarşı barışmaz olarsa, onda bu mövqe xalqın arasından çıxan əsgər və zabitlər vasitəsilə ordunun daxilinə də daşına bilər.

Heydər Əliyev xalqla ordu arasında qarşılıqlı münasibətlərin formalaşmasını həm də ümumdövlət əhəmiyyətli bir məsələ kimi qəbul edirdi. Onun fikrincə, ordunun xalq qayğısı ilə əhatə edilməsi, yalnız ordunun güclənməsinin şərti deyil, həm də dövlətin qüdrətinin mənbəyidir (43).

Dövlət rəhbəri orduya xalq qayğısının artırılmasını ilk növbədə ordunun xalqa məxsus olması, ordunun müstəqilliyin keşiyində dayanması ilə əlaqələndirirdi. O bildirirdi ki, əvvəllər Azərbaycan xalqının öz müstəqil ordusu yox idisə, indi belə bir orduya malikdir, bu ordu Azərbaycan xalqına məxsusdur və xalq da onu qayğı ilə əhatə etməlidir: "Dövlət müstəqilliyimizi əldə edənə qədər bizim Milli Ordumuz olmamışdır. İnsanlarımız, gənclərimiz

o zaman mənsub olduğumuz dövlətin ordusunda xidmət etmişlər. Bu gün böyük iftixar hissi ilə demək olar ki, Azərbaycan oğulları o illərdə də ləyaqətlə xidmət etmişlər, böyük qəhrəmanlıq nümunələri göstərmişlər. Ancaq bütün keçmiş dövrlərdən fərqli olaraq, indi bizim ordumuz öz dövlətimizin, xalqımızın ordusudur. Xalqla ordunun birliyi həm xalqın qüdrətini, həm ölkənin qüdrətini artırır, həm də ordunu daha da qüvvətli edir. Ona görə də qarşımızda duran əsas vəzifələrdən biri xalqla ordunun sağlam mənəvi birliyini təmin etməkdən ibarətdir" (44).

Heydər Əliyev bildirirdi ki, Azərbaycan xalqı azad yaşamaq istəyirsə, ölkəsinin müdafiə olunmasını, ərazi bütövlüyünün qorunmasını istəyirsə, hər şeydən öncə məhz orduya qayğı göstərməlidir, Azərbaycanın hər bir vətəndaşı bu məsələdə öz vətəndaşlıq mövqeyini nümayiş etdirməlidir: "Xalqımızın, ictimaiyyətin üzərinə böyük vəzifələr düşür. Bu da ondan ibarətdir ki, xalqın ayrılmaz hissəsi sayılan ordumuz xalqın və vətəndaşların qayğısı altında olmalıdır. Xalq ordunu daim sevməli, ona kömək etməlidir. Əgər xalq azad, sərbəst yaşamaq istəyirsə, ölkəsinin, torpaqlarının toxunulmazlığını arzu edirsə, gərək hər şeydən öncə orduya qayğı göstərsin. Ordunun hörmətini qaldırmaq lazımdır. Hərbi peşə Azərbaycanda ən hörmətli peşələrdən biri olmalıdır. Hər bir vətəndaş Azərbaycan əsgərinə, zabitinə hörmət, ehtiram və qayğı göstərməlidir" (45).

Orduya qayğı göstərilməsindən danışanda Heydər Əliyev yalnız ictimaiyyətin deyil, bütün dövlət qurumlarının, ictimai-siyasi təşkilatların, müxtəlif kollektivlərin, yerli hakimiyyət orqanlarının, iş adamlarının qarşısında belə bir vəzifə dayandığını vurğulayırdı: «Eyni zamanda, bütün hakimiyyət orqanlarını orduya daim qayğı göstərməyə dəvət edirəm. Bir daha qeyd edirəm, ordu dövlətin, xalqın, millətin qayğısı ilə əhatə olunmalıdır.

Bu gün ordunun təchizatında çətinliklər, problemlər var. Biz bunları həll etməyə çalışırıq. Amma, eyni zamanda, yerli hakimiyyət orqanları da, təsərrüfat kollektivləri də, müəssisələr də, iş adamları da ordunun qayğılarının həll olunması üçün orduya yardım etməlidirlər. Bizim belə bir təcrübəmiz, ənənəmiz vardır. Xüsusən, 1993-cü ilin noyabr ayının əvvəlindən orduya xüsusi diqqət, güclü qayğı hərəkatı başlanmışdır. Amma indi bu, müəyyən qədər soyuyubdur. Hesab edirəm ki, bu proses daim davam etməlidir. Hər kəs orduya qayğı göstərməlidir, öz imkanlarından istifadə edib ordunun problemlərinin həll olunmasına çalışmalıdır, ordunun inkişaf etməsi üçün əlindən gələni əsirgəməməlidir.

Ordu bizim doğma ordumuzdur. Ordu xalqımızın tərkib hissəsidir. Ordu ölkəmizin, millətimizin, dövlətimizin müstəqilliyinin dayağıdır. Ona görə də biz heç vaxt bunu unutmamalıyıq və orduya olan qayğını daim əsas vəzifəmiz kimi dərk etməliyik" (46).

Heydər Əliyev xalq arasında hərbi xidmətə, zabitlərə, hərbçi peşəsinə hörmət və ehtiramın artırılmasını xalqın orduya qayğısı kimi dəyərləndirirdi. O, təkidlə bildirirdi ki, hərbi peşə Azərbaycanda ən hörmətli peşələrdən biri olmalıdır. Çünki xalqın hərbçilərə belə xüsusi münasibət bəsləməsi bir tərəfdən onu sədaqətli xidmətə ilhamlandırardısa, digər tərəfdən də onun üzərinə böyük məsuliyyət qoya bilərdi. Şübhə yoxdur ki, xalqın böyük etimadı ilə qarşılaşan hərbi qulluqçu da hər zaman bu etimadı doğrultmağa çalışa bilərdi. Ona görə Heydər Əliyev xalq və ordu arasındakı münasibətlərin qarşılıqlı olmasının zəruriliyini vurğulayırdı. Yəni xalq orduya qayğı göstərdiyi kimi, ordu da bu qayğını sədaqətli xidmətləri ilə doğrultmağa çalışmalı idi: «Nəhayət, ordunun qarşısında dayanan əsas vəzifə barədə. Ordu, Müdafiə Nazirliyi, Silahlı Qüvvələrin komandanları, bütün Silahlı Qüvvələr dövlətin, hökumətin, xalqın onlara göstərdikləri qayğıya

layiq xidmət etməlidirlər. ...Biz mövcud imkanlarımız daxilində orduya qayğı göstəririk. Ordumuz, hərbi hissələrimiz, Silahlı Qüvvələrimiz, əsgərlər və zabitlər bu qayğıya cavab olaraq, birincisi, gərək sədaqətli xidmət etsinlər. İkincisi, gərək onlar hərbi hissələrdə yüksək vətənpərvərlik, sədaqət, mənəviyyat əhval-ruhiyyəsi yaratsınlar, bu keyfiyyətə malik olsunlar» (47).

Heydər Əliyev ordu və xalq birliyinin yaradılmasında, xalqın orduya qayğısının təmin edilməsində dövlət strukturlarının üzərinə xüsusi vəzifə düşdüyünü bəyan edirdi. Bu mənada o, əvvəlki iqtidarın bu sahədə böyük nöqsanlara yol verdiyini bildirirdi. Dövlət rəhbərinin fikrincə, əvvəlki iqtidar xalqı ölkənin müdafiəsinə səfəbər edə bilmədi, xalqla ordunun mübarizlik əzmini birləşdirə bilmədi və bu da son nəticədə ağır nəticələrə gətirib çıxardı (48).

Heydər Əliyev çoxsaylı çıxışlarında ordunun qayğı ilə əhatə olunmasının müxtəlif yollarını göstərmişdir. O, Silahlı Qüvvələr Gününün təntənəli şəkildə qeyd edilməsini də orduya qayğının bir nümunəsi sayırdı və bunun davamlı olmasını arzulayırdı: "Azərbaycanın Silahlı Qüvvələri Gününü yüksək səviyyədə bayram edirik. Bununla da yeni bir ənənə yaranır. Hesab edirəm ki, Azərbaycanın Silahlı Qüvvələri günü bir bayram kimi xalqımızın həyatına daxil olacaq, xalqla ordunun birliyini, dövlətimizin və xalqımızın orduya olan qayğısını nümayiş etdirəcəkdir" (49).

### ç) Orduda mənəvi-psixoloji mühitin sağlamlaşdırılması vəzifələri

Mənəvi keyfiyyətlər Azərbaycan Ordusunda artıq güclənməkdə idi. Heydər Əliyevin radio və televiziya ilə 2 noyabr 1993-cü il tarixli müraciətindən sonra ordu quruculuğunda müsbət dəyişikliklərin yaranmağa başlaması, əslində, ilk növbədə ordu

daxilində mənəvi keyfiyyətlərin güclənməsi, mənəvi əhval-ruhiyyənin sağlamlaşdırılması ilə bağlı idi. Şübhə yox idi ki, ordu daxilində mənəvi əhval-ruhiyyə nə qədər sağlam və mübariz olardısa, ordunun döyüş qabiliyyəti də o qədər yüksək olardı. Ona görə də Heydər Əliyev bu məqama ciddi diqqət yetirirdi, ordunun mübariz mənəvi əhval-ruhiyyəsinin mənbəyini xalqda görürdü. Heydər Əliyev bəyan edirdi ki, Azərbaycan xalqı dərin mənəviyyata malik xalqdır, qəhrəman xalqdır (50). Bu mövzuda Heydər Əliyevin çoxsaylı fikirlərini təkrarlamaq mümkündür və ona görə də Heydər Əliyev şübhə etmirdi ki, xalqın bu mübariz ənənələri əsasında «orduda sədaqətlə xidmət etmək, Vətənə, torpağımıza, müstəqil Azərbaycana, millətimizin bu gününə və gələcəyinə sədaqət hər bir azərbaycanlının, hər bir vətəndaşımızın, gəncimizin, hər bir əsgərimizin ümdə vəzifəsi olmalıdır» (51).

Silahlı Qüvvələrdə mənəvi əhval-ruhiyyənin sağlamlaşdırılması və gücləndirilməsi üçün gənclər arasında hərbi-vətənpərvərlik tərbiyəsinin genişləndirilməsi məsələsi Heydər Əliyevin diqqət mərkəzində olan məsələlərdən biri idi. Dövlət rəhbəri ordunun şəxsi heyətinin mənəvi keyfiyyətinin mühüm amillərindən saydığı bu məqamın da xalqdan mənbə aldığını vurğulayırdı və xalq arasında vətənpərvərlik ruhunun güclənməsinin hərbi qulluqçuların da hərbi-vətənpərvərlik tərbiyəsinə müsbət təsir edəcəyini bəyan edirdi (52).

Çıxışlarından başqa birində isə Heydər Əliyev ordunun şəxsi heyəti arasında vətənpərvərlik əhval-ruhiyyəsinin yüksəldilməsinin zərurətini aşağıdakı kimi izah edirdi: «Hərbi-vətənpərvərlik ruhu hər bir insanın qəlbində yaşamalıdır. Əgər vətənpərvərlik hissiyyatı olmasa, o, ölkəsinin vətəndaşı ola bilməz. Hərbi-vətənpərvərlik hissiyyatı olmasa, bizim xalqımız bu ağır vəziyyətdən çıxa bilməz. Ona görə ...bizim əsas vəzifələrimizdən biri də Azər-

baycanda vətənpərvərlik ruhunu yüksəltmək, orduda vətənpərvərlik ruhunu yüksəltmək və hər bir vətəndaşda hərbi-vətənpərvərlik ruhunu yüksəltməkdir. Bütün bunların nəticəsində bizim ordumuz güclənəcək, müstəqil dövlətimiz daha da yüksəklərə qalxacaq, Azərbaycan müstəqil dövlət kimi daim yaşayacaqdır» (53).

Şəxsi heyətdə hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi kifayət qədər geniş fəaliyyət sahəsidir və bu məqsədin əldə edilməsi kompleks tədbirlərin həyata keçirilməsini tələb edirdi. Bu iş də əslində, cəmiyyət miqyasında aparılan işin tərkib hissəsidir və ona görə də cəmiyyət üçün xas olan mənəvi meyarlar ordunun hərbi-vətənpərvərlik tərbiyəsi üçün də meyar sayılmalıdır. Bu meyarların sayı çoxdur və onların bəzilərinə Heydər Əliyevin də çıxışlarında, söhbətlərində toxunulmuşdur. Məsələn, qanunçuluğun bərpası, dövlət mənafelərinin şəxsi maraqlardan üstün tutulması, xidməti vəzifəyə sədaqət, nizam və intizamın yaradılması, komandirlər və rəhbər şəxslər tərəfindən xidməti vəzifələrin icrasında nümunə olmaq, xidməti və dövlət əmlakına qayğı, şəxsi heyətə qayğı və s.

Heydər Əliyevə görə, gənclərdə hərbi-vətənpərvərlik tərbiyəsinin meyarlarından biri Azərbaycanın müstəqilliyi və bu müstəqilliyə sədaqət mövcud olması idi. Bu məqam Heydər Əliyevin bütün fəaliyyətində aydın və parlaq bir xətt kimi keçməkdədir. Azərbaycanın müstəqilliyini tarixi bir nailiyyət sayan Heydər Əliyev bu müstəqilliyin əbədi və dönməz olacağına da şübhə etmirdi. Bu müstəqilliyin qorunmasına sədaqətli xidmət isə hər bir Azərbaycan vətəndaşının, hər bir Azərbaycan gəncinin şərəfli vəzifəsi və borcu olmalı idi. Belə bir sədaqət gənclərdə hərbi-vətənpərvərlik keyfiyyətlərini formalaşdıra bilərdi.

Atəşkəs dövründə şəxsi heyətin hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsinin yollarından birini də Heydər

Əliyev Azərbaycanın qəhrəmanlıq tarixinin, hərbi irsinin öyrənilməsində və təbliğində görürdü. Heydər Əliyev şübhə etmirdi ki, Azərbaycanın qəhrəmanlıq tarixində özünə şərəfli yer tutmuş sərkərdələr və xalq qəhrəmanları hərbi-vətənpərvərlik tərbiyəsi üçün əsl örnək ola bilərlər: «Azərbaycan xalqının qədim, zəngin dövlətçilik tarixi vardır. Azərbaycanın dövlətçilik tarixində ordu qurulması, yaranması, dövləti, ölkəni qorumaq üçün qüdrətli olması həmişə diqqət mərkəzində dayanıbdır. Azərbaycan xalqı çoxəsrlik tarixində çox döyüşlərdən çıxmış, yadelli basqınlara cavab verərək, torpaqlarını qoruyaraq, qonşu xalqların, ölkələrin təcavüzünün qarşısını alaraq, yaxud da öz ərazisinin bərpasını təmin edərək çox döyüşlər etmiş, döyüşlərdən çıxmışdır. Azərbaycan xalqı tarix boyu görkəmli qəhrəmanlıq nümunələri göstərmişdir. Azərbaycan xalqının igid oğulları öz qəhrəmanlıqları ilə dastana çevrilmişlər, nəsillərdən-nəsillərə, dillərdən-dillərə keçmişlər. Koroğlu, Babək kimi adlar bizim tarixi keçmişimizə aid olsa da, xalqımız üçün bu gün də qəhrəmanlıq, cəsurluq nümunələridir, hər bir Azərbaycan gənci üçün örnəkdir» (54).

Heydər Əliyev Böyük Vətən müharibəsinin veteranlarının və iştirakçılarının həyat yolunu və təcrübəsini, habelə müstəqil Azərbaycan Ordusu sıralarında Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə qəhrəmanlıq göstərən, şəhid olan Azərbaycan oğullarının həyat yolunu da gənc nəslin hərbi-vətənpərvərlik tərbiyəsi üçün canlı örnək sayırdı və həmişə də bu örnəklərdən istifadə etməyə çağırırdı. Heydər Əliyev, əslində, əmin idi ki, ordu sıralarında xidmət edən gənclərin əksəriyyəti məhz bu örnəklərdən nümunə götürürlər, yüksək vətənpərvərlik və vətəndaşlıq ruhu ilə silaha sarılaraq Vətənə xidmət edirlər (55).

Yuxarıda qeyd edildiyi kimi, gənclərin, Silahlı Qüvvələrin şəxsi heyətinin hərbi-vətənpərvərlik tərbiyəsi ilə bağlı Heydər

Əliyevin istinad etdiyi örnəklərin sayı çoxdur. Amma bu örnəklərin içərisində ən qiymətlisi, ən əyanisi, ən dəyərlisi elə xalqın lideri, dövlətin rəhbəri, Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi Heydər Əliyevin özünün həyatı və fəaliyyəti idi. Heydər Əliyevin nümunə gətirdiyi örnəklər hamısı elə onun şəxsində cəmləşmişdi. Azərbaycanın qəhrəmanlıq keçmişinə bağlılıq, Azərbaycan xalqının maraqlarını və mənafelərini hər şeydən üstün tutmaq, Azərbaycanın müstəqilliyinə sədaqət, Azərbaycanın müstəqilliyinin əbədiyaşarlılığına inam, Azərbaycanın müstəqilliyinin qorunmasına qətiyyət, hərbi xidmətə və həyatını hərbi xidmətə həsr edənlərə sonsuz ehtiram, Azərbaycanın müstəqilliyinə düşmən kəsilənlərə qarşı barışmazlıq, Vətənə dərin məhəbbət və s. keyfiyyətlər Heydər Əliyevin şəxsiyyətini xarakterizə edə biləcək keyfiyyətlərin yalnız bir hissəsidir. Böyük dövlətçilik və idarəçilik təcrübəsinə malik olan Heydər Əliyev zəhmətsevərlik və yorulmazlıq simvolu idi. Onun şəxsiyyəti azərbaycançılığın və Azərbaycana xidmətin yüksək zirvəsi idi və bu məqamı ilə vətənsevərliyin ən böyük örnəyi idi.

Çıxışlarının birində Heydər Əliyev bildirirdi ki, ölkəmizdə hazırkı ictimai-siyasi sabitlik insanların əksəriyyətində vətənə sədaqət, əldə olunmuş nailiyyətlərə yüksək qiymət vermək inamı və belə bir şəraitin daha da yaxşılaşdırılması arzusu yaradıbdır (56).

Heydər Əliyev bütün gənclərin vətənpərvər ruhda yetişməsini, onların hələ çağırışdan əvvəl Silahlı Qüvvələrdə xidmətə hazır olmalarını istəyirdi. Silahlı Qüvvələrdə xidmət etmək çağırış yaşı çatmış hər bir Azərbaycan gəncinin Konstitusiyadan irəli gələn borcudur. Ona görə çağırış yaşı çatdıqda qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla kişi cinsindən olan Azərbaycan gəncləri xidmətə yollanmalıdırlar. Qanuni əsas olmadan xidmətdən yayınmaq cinayət məsuliyyəti daşıyır. Heydər Əliyev

cəmiyyəti hərbi qulluqçulara qayğı göstərməyə çağıranda şübhə etmirdi ki, bu qayğı xidmətə hazırlaşan gənclərin də mənəvi əhval-ruhiyyəsinə müsbət təsir edəcək və onlarda da xidmətə maraq yaranacaqdır. Yəni dövlət rəhbəri cəmiyyətdə elə bir mənəvi durumun yaranmasını istəyirdi ki, xidmətə yollanmaq sadəcə qanuni borcun icrası kimi yox, həm də Vətənə xidmətə şüurlu münasibətin ifadəsi olsun, gənclərin daxili istəyinin nişanəsinə çevrilsin. Başqa sözlə, xidmətə münasibətdə qanunçuluqla könüllülük bir vəhdətdə birləşsin, gənclər könüllü şəkildə özlərini şərəfli xidmətə hazırlasınlar.

Məsələn, çıxışlarının birində Heydər Əliyev bu məsələyə münasibətini belə bildirirdi: «Ordu mövzusu, ordunun yaranması, formalaşması bizim bütün həyatımızda əsas mövzulardan biri olmalıdır, gənclərin orduda xidmət etmək üçün tərbiyələndirilməsi bizim əsas vəzifələrimizdən biri olmalıdır və bu vəzifələri biz ardıcıl surətdə həyata keçirməliyik. ...Hər bir Azərbaycan gəncinə isə gənclik vaxtına çatana qədər özünü orduda xidmət etmək üçün hazırlamağı tövsiyə edirəm» (57).

Bu fikrini davam etdirən Heydər Əliyev bildirirdi ki, biz indi ildə təxminən 35-40 min gənci orduya səfərbər edirik. Bu, gənclərin ümumi sayının çox hissəsini təşkil edir. Bundan artığına ehtiyac yoxdur. Ancaq gərək hər bir gənc orduya səfərbər olmağa hazır olsun və orduda xidmət etməyi şərəf kimi qəbul etsin (58).

Gənclərin hərbi xidmətə hazırlaşdırılmasını Heydər Əliyev ümumxalq vəzifəsi sayırdı. Ordu xalqın olduğu kimi, onun formalaşdırılması və gənclərin orduya hazırlaşdırılması da xalqın, ictimai təşkilatların, hər bir vətəndaşın yaxından iştirakını tələb edirdi. Heydər Əliyev çıxışlarının birində respublikadakı gənclər təşkilatına müraciət edərək bildirirdi ki, gənclərin orduya hazırlaşdırılması gənclər təşkilatlarının da qarşısında dayanan başlıca vəzifə olmalıdır (59).

Heydər Əliyev, eyni zamanda, valideynlərə də müraciət edirdi ki, onlar övladlarının xidmətə hazırlaşdırılmasına və cəlb olunmasına məsuliyyətlə yanaşsınlar. Belə bir müraciət dövlət rəhbəri tərəfindən elə gənclərin özlərinə də ünvanlanırdı ki, onlar orduda xidməti şərəfli borc kimi qəbul etsinlər və bununla da ordunun formalaşmasına və güclənməsinə öz xidmətlərini göstərsinlər: «Hər bir Azərbaycan vətəndaşı, hər bir gənc orduda xidmət etməyi özünün şərəfli borcu hesab etməlidir. Bu, vətəndaşlıq borcudur. ...Hər bir azərbaycanlı gənc bilməlidir ki, orduda xidmət etməyən cəmiyyətdə hörmət qazana bilməz. Əksinə, cəmiyyətdə insanlara orduda xidmət etmələrinə görə yaxşı münasibət, xüsusi hörmət göstərilməlidir. Belələri orduda xidmət etməyənlərdən fərqləndirilməlidir. Mən üzümü Azərbaycan gənclərinə tutub bildirirəm ki, onlar öz vətəndaşlıq borclarını şərəflə yerinə yetirməlidirlər. Gənclər bu şərəfə nə qədər nail ola bilsələr, cəmiyyətimizdə o qədər də hörmət qazanacaqlar. ...Orduda xidmət edən hər bir gənc mətinləşir, bərkiyir. Orduda xidmət etmək kimi çətin yolu keçənlər gələcək həyatlarında hər bir çətinliyin öhdəsindən gəlməyə qadir olurlar. Hörmətli valideynlər, ona görə də övladlarınızın həyatda müvəffəq olmalarını, uğur qazanmalarını istəyirsinizsə, birinci növbədə onları hərbi xidmətə göndərin. Qoy getsinlər, əsgər olsunlar. Əsgər adı Azərbaycanda ən şərəfli ad olmalıdır. Kim ki, əsgər olub, o, hörmətli adam hesab edilməlidir. Əsgər olmayan isə qoy özü hesabını aparsın» (60).

Heydər Əliyev, eyni zamanda, tövsiyə edirdi ki, hərbi çağırışa biganəlik nümayiş etdirən şəxslər ümumxalq qınağı ilə rastlaşsın. Belə olduğu halda həmin gənclər cəmiyyətdə qınaq obyekti olmamaq üçün öz vətəndaşlıq borcunu düzgün başa düşər və fəal vətəndaşlıq mövqeyində dayanarlar.

Bu mənada Heydər Əliyev Azərbaycan cəmiyyətinin tərkib hissəsi olan müxtəlif siyasi qüvvələri də ordu, ordu sıralarında

xidmətlə bağlı sağlam münasibət nümayiş etdirməyə çağırırdı. Ordu Azərbaycanın siyasi müstəqilliyinin müdafiəsində dayanan bir qüvvə olduğu üçün Heydər Əliyev onunla bağlı həqiqətə uyğun olmayan məlumatlar yayılmasını, ordu ilə bağlı cəmiyyətdə neqativ fikir formalaşdırılmasını və bununla hərbi xidmətə münasibətdə də gənclər arasında çaşqınlıq yaradılmasını düzgün saymırdı (61).

## d) Ordu quruculuğunda kadr məsələləri və döyüş hazırlığı

Hərbi xidmətə qarşı fəal münasibətin formalaşdırılmasında Heydər Əliyev Silahlı Qüvvələrin zabit heyətinin də üzərinə məsuliyyətli vəzifələr düşdüyünü bildirirdi. Ona görə də o, zabit heyətinin qarşısında xidmət normalarına düzgün əməl edilməsini, əsgərlərə qarşı tələbkarlıqla qayğını üzvi şəkildə birləşdirməyi qarşıya ciddi bir vəzifə kimi qoyurdu. Bu mənada Heydər Əliyev həm də ordu quruculuğunda zabit heyətinin rolu barədə öz münasibətini bildirirdi. O, haqlı olaraq bəyan edirdi ki, ordunun möhkəmlənməsi və lazımi tələblərə cavab verməsi ilk növbədə komandir heyətindən, Müdafiə Nazirliyinin, hər bir hərbi hissənin rəhbərliyindən, hər bir zabitdən asılıdır. Çünki əsgərlər il yarım müddətinə xidmətə çağırılırlar, xidməti vəzifələrini yerinə yetirirlər, sonra da tərxis olunub gedirlər. Heydər Əliyevin fikrincə, qoşun hissələrində xidmət edən zabit heyəti o səviyyədə olmalı idi ki, onlar il yarım müddət ərzində xidmət üçün orduya çağırılan hər bir gənci hərbi peşəyə alışdıra bilsin, gənclərə hərbi peşəni sevdirsin və bunun nəticəsində ordudan tərxis olan gənclər hər zaman hərbi xidməti böyük məhəbbət hissləri ilə xatırlasınlar. Belə olduğu təqdirdə həmin gənclər harada yaşamağından və işləməyindən asılı olmayaraq gələcəkdə zərurət yarananda yenidən orduya səfərbər

olub artıq hazırlıqlı bir insan kimi Azərbaycanın müstəqilliyinin müdafiəsinə qalxalar (62).

Heydər Əliyev ordunun möhkəmlənməsində və ya parçalanmasında zabit heyətinin təsirinin mümkünlüyünü qeyd edir və bu məsələyə diqqət yetirilməsinin vacibliyini bildirirdi. Bu mənada, ölkə başçısı 1995-ci ilin mart ayında dövlət çevrilişinə cəhddə bir sıra zabitlərin iştirakına da işarə edirdi. Məlumdur ki, bu hadisə atəşkəs dövründə baş verdi. Ordu quruculuğunun sağlamlaşdırılması və gücləndirilməsi üçün münasib şəraitin olduğu bir vaxtda bir sıra zabitlər ordu daxilində dağıdıcı bir mövqe tutdular və yenidən Azərbaycan daxilində vətəndaş qarşıdurması yaratdılar. Heydər Əliyevin qeydlərinə görə, hətta yüksək rütbəli zabitlər arasında da bu yola yuvarlananlar var idi. 2000-ci ildə Heydər Əliyev bildirirdi ki, ordu belələrindən artıq təmizlənməkdədir. Lakin xidməti vəzifəsinə laqeydliklə yanaşan zabitlərin hələ də Azərbaycan Ordusunda qaldığı bildirilirdi. Heydər Əliyev belə zabitlərin ordu sıralarından uzaqlaşdırılmasını qətiyyətlə tələb edirdi (63). Bununla, belə bir mövqe ortaya qoyulurdu ki, ordu daxilində sağlam niyyətə malik olmayan zabitlər tabeliyində olan şəxsi heyətdə də xidmətə münasibətdə sağlam yanaşma formalaşdıra bilməzdilər. Başqa sözlə, bununla həm də ordu quruculuğunda zabit heyətinin xüsusi rola və təsirə malik olması vurğulanırdı.

Heydər Əliyev ordu quruculuğuna irəli sürdüyü mühüm tələblərdən biri bu idi ki, gərək orduda yüksək vətənpərvərlik ruhu olsun, gərək orduda Azərbaycan dövlətçiliyinə, dövlətinə, Azərbaycanın Ali Baş Komandanına daimi sədaqət olsun (64). Bu keyfiyyətlərin əldə edilməsinin əsas yollarından biri isə məhz zabit heyətinin vətəndaşlıq mövqeyindən, xidmətə sədaqətli münasibətindən, həvalə olunmuş vəzifələrin icrasına ardıcıllığından irəli gəlirdi.

Ona görə də Heydər Əliyev tövsiyə edirdi ki, hər bir zabit, hər bir komandir mənəviyyatca saf olmalıdır. Çünki mənəvi saflıq insanı yüksəldir və başqa keyfiyyətlərin də onda formalaşmasına kömək edir (65).

Azərbaycanın müstəqilliyinə sədaqət nümayiş etdirən, mənəviyyatca saf olan zabit kadrlarının hazırlanması üçün Heydər Əliyev hərbi təhsil sisteminin yaradılmasına və möhkəmləndirilməsinə xüsusi əhəmiyyət verirdi. Məlumdur ki, hələ sovet dövründə Heydər Əliyev bu mühüm sahədə dəyərli işlər görmüşdü və milli hərbi kadrlar hazırlığı üçün qiymətli bir baza yaratmışdı. Ona görə də müstəqillik illərində hərbi təhsil bazasının daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsi üçün əlverişli imkan mövcud idi. Heydər Əliyev iştirak etdiyi tədbirlərdən birində Azərbaycanda Ali Hərbi Məktəbin, Ali Hərbi Təyyarəçilik Məktəbinin, Ali Hərbi Dənizçilik Məktəbinin, Hərbi Akademiyanın, müxtəlif təkmilləşdirmə kurslarının mövcudluğunu və onların milli hərbi kadrlar hazırlığı istiqamətindəki fəaliyyətini məmnunluqla qeyd edirdi. Onun sözlərinə görə, artıq formalaşmış olan hərbi təhsil sistemi Azərbaycan Respublikası Silahlı Qüvvələri üçün yeni zabitlər, müxtəlif ixtisaslar üzrə mütəxəssislər hazırlayacaqdır ki, bu da Azərbaycan Ordusunun müasir tələblərə uyğun inkişafına kömək edəcəkdir (66).

Heydər Əliyev tərəfindən Azərbaycanda hərbi təhsil sisteminin inkişafına və möhkəmləndirilməsinə xüsusi diqqət yetirməsinin nəticəsi idi ki, atəşkəs dövründə mövcud olan hərbi təhsil sisteminin kifayət qədər təkmilləşdirilməsi üçün ciddi işlər görüldü. Heydər Əliyevin şəxsi təşəbbüsü və qətiyyəti nəticəsində 1971-ci ildə əsası qoyulmuş Cəmşid Naxçıvanski adına xüsusi internat məktəbi 1997-ci ildə Heydər Əliyevin sərəncamı ilə C.Naxçıvanski adına Hərbi Lisey adlandırılmışdır. Atəşkəs

dövründə Heydər Əliyev dəfələrlə bu Liseydə olmuş, orada hərbi təhsilin gedişi ilə maraqlanmışdı. 2003-cü ilin aprel ayında Heydər Əliyev bu Liseyin təşkilinin 30 illiyinə həsr edilmiş təntənəli mərasimdə də iştirak və çıxış etdi. Bu tipli tədris ocağının milli kadrların hazırlanması sahəsindəki əhəmiyyəti nəzərə alındığı üçün idi ki, Azərbaycan Respublikası Prezidentinin 13 mart 1998-ci il tarixli sərəncamı ilə C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı təşkil edildi. 2004-cü ildə isə bu Liseyin bazasında Heydər Əliyev adına Hərbi Litsey yaradıldı.

Sovet dövründən mövcud olan ali hərbi məktəblərin fəaliyyəti isə atəşkəs dövründə daha da təkmilləşdirildi. Hələ sovet dövründə zabit kadrlarının hazırlığının tanınmış məktəblərindən olan Bakı Ali Ümumqoşun Komandirləri Məktəbi Azərbaycanın müstəqilliyinin qazanılmasından sonra Bakı Ali Birləşmiş Komandanlıq Məktəbi adlandırıldı. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 20 avqust 2001-ci il tarixli sərəncamı ilə bu məktəb Azərbaycan Ali Hərbi Məktəbi adlandırıldı. Azərbaycan Respublikası Prezidentinin 10 mart 2004-cü il tarixli fərmanı ilə bu məktəb indi Heydər Əliyevin adını daşıyır.

Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinin, Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbinin fəaliyyətinin təkmilləşməsi də atəşkəs dövrünün ilk illərinə, Heydər Əliyevin rəhbərliyi altında aparılan ordu quruculuğu illərinə təsadüf edir. Milli zabit kadrlarının yetişdirilməsi sahəsində Heydər Əliyevin rəhbərliyi altında aparılan işlərin bir əməli nəticəsi də 1999-cu ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının yaradılması oldu. Bu Akademiyanın açılması ilə Azərbaycan zabitlərinin respublika daxilində ali hərbi təhsil almaq imkanları da təmin edildi.

Bu ali hərbi təhsil ocaqlarından başqa Müdafiə Nazirliyi sistemində bir sıra ixtisas və təkmilləşdirmə kursları da mövcuddur.

Belə bir təhsil sisteminin formalaşmasını Heydər Əliyev məmnunluqla qeyd edirdi və bu təhsil sisteminin fəaliyyətinin qurulmasında zəhməti olan zabitlərə, professor-müəllim heyətinə öz təşəkkürünü də çatdırırdı. Bununla belə, Heydər Əliyev bu sahədə işlərin daim davam etdirilməsinin, təlim-tədrisin təkmilləşdirilməsinin zəruriliyini də vurğulayırdı. Zabit kadrlarının hazırlığı işinin təkmilləşdirilməsini Heydər Əliyev ordu quruculuğunun qarşısında dayanan vəzifələrdən biri kimi dəyərləndirirdi (67).

Heydər Əliyev tələb edirdi ki, ali hərbi məktəbləri bitirmiş olan gənc zabitlər Silahlı Qüvvələrin komanda heyətinin, yüksək rütbəli zabit heyətinin daimi qayğısı altında olsun, onların bir zabit kimi formalaşmasına və lazımi təcrübə əldə etməsinə köməklik göstərilsin: "Ali Hərbi Məktəbi bitirmiş hər bir şəxs gərək xüsusi qeydiyyatda və nəzarətdə olsun. Birincisi, o, necə xidmət edir, ikincisi, onun lazımi səviyyədə xidmət etməsi üçün hansı diqqət və qayğı göstərilir? Əgər daimi diqqət və qayğı olmasa, bəziləri üçün çox çətin olar. Mən bunu Müdafiə Nazirliyinin rəhbərliyindən tələb edirəm" (68).

Gənc zabitlərə qayğı göstərilməsini Heydər Əliyev yalnız Müdafiə Nazirliyinin rəhbərliyindən tələb etmirdi. Eyni zamanda, o özü gənc zabitlərə qayğı nümunəsi göstərirdi, gənc zabitlərə ən səmimi hisslərlə müraciət edirdi, onlara atalıq məhəbbəti nümayiş etdirirdi. Bu baxımdan Heydər Əliyevin ali hərbi məktəblərin buraxılış mərasimlərindən birində etdiyi çıxışından bir parça xarakterik ola bilər: «Əziz övladlarımız! Mən sizi bir daha, bir daha təbrik edirəm, sizə cansağlığı arzu edirəm, işinizdə uğurlar arzulayıram. Arzu edirəm ki, bir ildən, iki ildən, üç ildən sonra hərbi hissələrə gələndə sizin hər birinizi özüm gözümlə görüm, sizinlə görüşə bilim və müvəffəqiyyətləriniz haqqında məlumatlar, raportlar alım. Güman edirəm ki, bu da olacaqdır.

Bizim ordumuz güclüdür. Ordumuzun gücü günü-gündən artır. Ölkəmizin gözəl gələcəyi var. Azərbaycan xalqı, Azərbaycan dövləti işğal olunmuş torpaqları mütləq azad edəcəkdir. Onu biz azad edəcəyik, biz! Biz bunu sülh yolu ilə həll etmək istəyirik, bu barədə çox səylər qoymuşuq və bundan sonra da qoyacağıq. Ancaq bizim bu səylər sonsuz olmayacaqdır. Biz bütün səylərimizi qoyub məsələni sülh yolu ilə həll etməyə çalışacağıq. Əgər bu, mümkün olmasa, bizim əziz zabitlərimiz, əziz Silahlı Qüvvələrimiz, siz torpaqlarımızın azad olunması üçün hər gün hazır olmalısınız! Torpaqlarımız azad olacaq, ordumuz inkişaf edəcək, respublikamızın iqtisadiyyatı yüksələcək və yaxın illərdə Azərbaycan böyük inkişaf yoluna qədəm qoyacaqdır. Buna əmin ola bilərsiniz» (69).

Diqqət yetirilərsə, Heydər Əliyev gənc zabitlərə "əziz övladlarımız", "əziz zabitlərimiz" – deyə müraciət edirdi və şübhə etmirdi ki, əziz bildiyi bu zabitlərin səyləri ilə işğal olunmuş Azərbaycan torpaqları azad olunacaq və Azərbaycan Ordusu inkişaf edəcəkdir.

Yuxarıdakı cümlələrdə Heydər Əliyevin gənc zabitlərə həm də tövsiyələri vardır. Bu tövsiyələr gənc zabitləri müvəffəqiyyətlər qazanmağa, Azərbaycan Ordusunu inkişaf etdirməyə çağırırdı. Heydər Əliyevin gənc zabitlərə verdiyi tövsiyələri, əslində, gənc zabitlərin xidmət və davranış kodeksi kimi də qiymətləndirmək olar. Bu tövsiyələr gənc zabitlərdən həm savadlı olmağı, Azərbaycan zabitinə xas mənəvi keyfiyyətlərə malik olmağı, həm də daim axtarışda, daim inkişafda olmağı tələb edirdi: "Əziz gənc zabitlər, mən artıq dedim ki, siz keçdiyiniz yolun birinci mərhələsini başa vurmusunuz. Qarşınızda yolun daha da ağır hissəsi durur. O da qeyd etdiyim kimi, aldığınız biliklərinizi, öz imkanlarınızı sizə həvalə olunan vəzifənin yerinə yetirilməsinə sərf etməyinizdir.

Güman edirəm ki, siz bu peşəni şüurlu seçdiyinizə və Ali Hərbi Məktəbi uğurla bitirdiyinizə görə, gələcəkdə də yaxşı nümunələr göstərəcək, öz xidmətinizi daim davam etdirəcəksiniz. Mən dəfələrlə demişəm ki, bu gün də sizə deyirəm ki, hərbi peşə insandan çox şey tələb edir. Həm fiziki hazırlıq, həm nizam-intizam, həm dövlətə, vətənə, ölkəyə, doğma torpağa əsl sədaqət, həm də böyük cəfakeşlik, zəhmətsevərlik, mərdlik, qəhrəmanlıq, mətinlik və sair. Əgər bunlar olmasa, gələcəkdə sizin üçün bu yol çətin olacaqdır. Mən demək istəmirəm ki, bunlar sizdə yoxdur, əgər bunlar olmasaydı, siz bu peşənin ardınca getməzdiniz. Ancaq siz gərək daim özünüzdə bu keyfiyyətləri tərbiyə etdirəsiniz. Bu keyfiyyətlər sizin işinizdə gərək özünü göstərsin, get-gedə möhkəmlənsin və sizin adi adətinizə çevrilsin.

Siz bilməlisiniz ki, Azərbaycanın Silahlı Qüvvələri Azərbaycanın torpaqlarını, dövlətçiliyini qorumalı və Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal olunmuş torpaqların azad edilməsi üçün üzərinə qoyulacaq vəzifələrin yerinə yetirilməsinə daim hazır olmalıdırlar. Ona görə də siz öz hərbi xidmətinizdə hər gün, hər vaxt bunu düşünməlisiniz, bunu bilməlisiniz, bunu yadınızdan çıxarmamalısınız. Bizim ordumuz bu günün, gələcəyin ordusudur» (70).

Bu tövsiyələri Heydər Əliyev təkcə gənc zabitlərə ünvanlamırdı. O bütün zabit korpusundan yüksək peşə hazırlığına, sağlam mənəvi keyfiyyətlərə malik olmağı tələb edirdi. Şübhə edilmirdi ki, zabit kadrlarının yüksək peşəkarlığı bütünlükdə Silahlı Qüvvələrin döyüş hazırlığının əsasıdır. Heydər Əliyev tələb edirdi ki, Azərbaycan Ordusu sıralarında olan hər bir zabit, komandir və yüksək vəzifəli şəxs sədaqətlə xidmət etsin, xidmətlərini elə qursunlar ki, ordu günü-gündən daha da güclənsin, əldə edilən nəticələrlə kimsə arxayınlaşmasın. Ölkə rəhbəri tövsiyə edirdi

ki, zabitlər hər zaman gələcəyə baxsınlar və Azərbaycanın dövlət müstəqilliyini qorumağa qadir olacaq zabitlər kimi yetişsinlər və inkişaf etsinlər. Çünki Azərbaycanda güclü ordunun formalaşdırılması üçün yüksək səviyyəli zabitlərə ehtiyac var idi (71).

Yüksək peşə hazırlığına və mənəvi keyfiyyətlərə malik zabitləri Heydər Əliyev yüksək döyüş hazırlığının və ordunun inkişafının əsası sayırdı. Bu inkişafın davamlı şəkildə olması üçün də Heydər Əliyev müəyyən tələblər irəli sürürdü. Həmin tələblərdən biri də ordu quruculuğunda mövcud olan nöqsanların və çatışmazlıqların aradan qaldırılması zərurəti idi. Ölkə rəhbəri şübhə etmirdi ki, yüksək mənəvi və peşə keyfiyyətlərinə malik olan zabitlər bu nöqsanları aradan qaldıra bilərlər.

Heydər Əliyev atəşkəs dövründə ordu quruculuğunda müsbət nəticələrin əldə edilməsini qeyd etməklə bərabər, bu nəticələrlə kifayətlənməməyə və orduda inkişafın davamlılığını təmin etməyə çağırırdı. Bu mənada Heydər Əliyev ordunun rəhbərliyindən tutmuş bütün zabit heyətinə kimi müxtəlif vəzifələri tutan zabitlər qarşısında ciddi vəzifələr qoyurdu, orduda nizam - intizamın yaradılmasını, hər bir hərbi qulluqçunun xidməti vəzifənin icrasına məsuliyyət və cavabdehliyinin artırılmasını ciddi vəzifə kimi irəli sürürdü. «Ordunun ordu olmasının əsas amili nizam-intizamdır. Hər bir sahədə nizam-intizam ordudakı kimi vacib, əhəmiyyətli deyildir. Ona görə də ciddi nizam-intizam, hərbi nizamnamənin tam yerinə yetirilməsi vacibdir» (72).

Heydər Əliyev ilk növbədə zabitlərdən, yüksək vəzifələr tutan hərbi qulluqçulardan, Müdafiə Nazirliyinin rəhbərliyindən intizamlı olmağı, xidmət normalarının pozulmasına qarşı barışmazlıq nümayiş etdirilməsini tələb edirdi. Yuxarıda deyilənlərdən də məlumdur ki, müstəqilliyin ilk illərində Azərbaycan Ordusunda yaranan dərin böhranın əsas səbəblərindən biri də

məhz zabit kadrları arasında mənəvi aşınmanın olması, onların müəyyən hissəsinin öz vəzifələrinin icrasına şəxsi və ya qrup maraqlarının təmin olunması kimi baxması idi. Heydər Əliyev ordunun belə şəxslərdən təmizlənməsi üçün artıq əməli işlərin görüldüyünü qəbul edirdi. Ancaq onu da əlavə edirdi ki, bu işlər davam etdirilməlidir və orduda o şəxslər qalmalıdır ki, onlar Azərbaycan dövlətçiliyinə, Ali Baş Komandana sədaqətli olsunlar və Azərbaycanın gələcəyi haqqında düşünsünlər. Orduda xidmət edənlər arasında ikili mövqenin mövcudluğunu Heydər Əliyev qəbul etmirdi (73).

Heydər Əliyev bəyan edirdi ki, ordu quruculuğunda görülən işlərdən ümumən razıdır, bu mənada bir sıra zabitlərin xidmətlərini təqdir edir, onların fəaliyyətlərini dəyərləndirirdi. Eyni zamanda, dövlət rəhbəri ümid edirdi ki, xidmətini təqdir etdiyi zabitlər, komandirlər öz fəaliyyətlərini daha da təkmilləşdirəcək, Ali Baş Komandanın verdiyi qiymətə layiq olacaq və xidmətdə mövcud olan qüsurları aradan qaldıracaqdır (74).

Heydər Əliyev ordu quruculuğunda zabitlərin üzərinə yüksək məsuliyyət düşdüyünü bildirirdi. Onun fikrincə, zabitlərin üzərinə düşən məsuliyyət digər sahələrdə çalışanların üzərinə düşən məsuliyyətdən daha artıq idi və ona görə də onlara qarşı daha böyük tələbkarlıq irəli sürülürdü (75).

Bəzi çıxışlarında Heydər Əliyev ordu quruculuğu istiqamətində aparılan işlərə qarşı çox ciddi və qətiyyətli tələblər irəli sürdü. Onun fikrincə, bu istiqamətdə aparılan işlər Azərbaycanın müstəqilliyinin, ərazi bütövlüyünün təmin edilməsinə yetərli olacaq səviyyədə deyildi və bu sahədəki işlərin daha da intensivləşdirilməsini və mövcud nöqsanlara qarşı daha qətiyyətli mövqenin tutulmasını tələb edirdi. Məsələn, 2001-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ildönümü münasibətilə etdiyi çıxı-

şında Heydər Əliyev bəyan edirdi ki, ordu quruculuğunun inkişafı heç də günün tələblərinə cavab vermir və belə bir vəziyyətin yaranmasında Heydər Əliyev həm ayrı-ayrılıqda zabitlərin, həm də Müdafiə Nazirliyinin üzərinə böyük məsuliyyət düşdüyünü bildirirdi. Ordu quruculuğunda nöqsanlara yol verilməsini və onların aradan qaldırılması üçün qətiyyətli tədbirlərin həyata keçirilməməsini Heydər Əliyev narahatlıqla qeyd edirdi (76).

**e) Ordu quruculuğunda nizam və intizamın təmin edilməsi, məsuliyyət və cavabdehlik**

Heydər Əliyev çıxışlarında həm özünün, həm də cəmiyyətin narahatlığına səbəb olan bəzi konkret nöqsanları da dilə gətirirdi. Bu nöqsanlardan biri orduya çağırış işində özünü göstərən nöqsanlar idi. Bu nöqsanlara qarşı Heydər Əliyev barışmazlıq nümayiş etdirdi, bu nöqsanların yaranmasında məsuliyyət daşıyan hərbi komissarlıqların rəhbərliyinə, eləcə də hərbi komissarlıqların fəaliyətini tənzimləməli olan Müdafiə Nazirliyinin rəhbərliyinə isə ciddi xəbərdarlıq olundu (77).

Gənclərin hərbi xidmətə çağırışında belə nöqsanların olmasını Heydər Əliyev iki səbəblə əlaqələndirirdi. Birincisi, hərbi komissarlıqlarda olan nöqsanlarla, hərbi komissarların öz vəzifələrindən sui-istifadə edərək rüşvətxorluğa qurşanması ilə, ikinci isə ayrı-ayrı vətəndaşların rüşvət verərək öz övladlarını hərbi xidmətdən sapındırmağa çalışmaları ilə. Bu səbəblərin hər ikisini Heydər Əliyev qəbuledilməz sayır, həm Müdafiə Nazirliyindən, həm də hərbi komissarlıqlardan tələb edirdi ki, ordu quruculuğu üçün ziyanlı olan bu nöqsanları tezliklə aradan qaldırsınlar.

Ordu quruculuğunda Heydər Əliyevin ciddi narahatçılığına səbəb olan nöqsanlardan biri də ayrı-ayrı hərbi hissələrdə rüşvət-

xorluq hallarının olması idi. Bu nöqsanın bəzi yerlərdə daha çox olduğu da bildirilirdi. Heydər Əliyev respublikanın Prezidenti və Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi ordunun simasını təşkil etməyən bu hala qarşı kəskin mübarizə aparılmasını tələb edirdi. Heydər Əliyevə görə, belə hallara qarşı hərbi hissələrdə obyektiv münasibət göstərilməli idi və özünün də belə bir mövqedə dayandığını bəyan edirdi (78).

Bu məsələlərlə bağlı Heydər Əliyev dəfələrlə Müdafiə Nazirliyinin rəhbərliyi ilə söhbət etmiş və konkret göstərişlər vermişdi. Bununla belə, müəyyən nöqsanlar yenə də qalmaqda idi və həmin nöqsanları respublika Prezidenti hətta ictimaiyyət qarşısında da səsləndirirdi (79).

Bu nöqsanların, qanunsuzluqların aradan qaldırılmasının da əsas yolları Heydər Əliyevin çıxışlarında öz əksini tapmışdı və bu sahədə də əsas məsuliyyətin zabitlərin üzərinə düşdüyünü bildirirdi. Heydər Əliyev bütünlükdə ordu quruculuğunda nöqsanların aradan qaldırılması üçün ilk növbədə zabit heyətini nizam-intizamlı olmağa çağırırdı. Çünki hərbi hissə daxilində xidmət atmosferi zabitlər və komandirlər tərəfindən yaradılırdı. Bu atmosferin sağlamlaşdırılması üçün ilk növbədə buna məsuliyyət daşıyan zabitlər sağlam keyfiyyətlərə malik olmalı idilər. «...hər bir hərbi hissədə ciddi nizam-intizam yaratmaq üçün gərək birinci növbədə, hərbi hissənin komandirinin özü intizamlı olsun. Gərək özü intizamlı olsun. Gərək özü nümunə olsun. Əgər özü nümunə olmasa, nizam-intizamı pozsa, bəzi hallarda spirtli içkilərlə, başqa şeylərlə özünü məşğul etsə, əlbəttə, onda əsgər deyəcək ki, komandir bunu edəndə mən nə üçün etməməliyəm. Ona görə mən ...tələb edirəm ki, bütün hərbi hissələrdə nizam-intizamı möhkəmləndirək. Bu, birinci növbədə komandirlərdən asılıdır. Komandirlər nizam-intizamı özləri üçün təmin etməlidir, rəhbər-

lik etdiyi hissədə bunu təmin etməlidir. Bir tərəfdən, əsgərə qayğı göstərməlidir, eyni zamanda, ona qarşı tələbkar olmalıdır. Belə olan halda bizim əsgərimiz gedib bir il, il yarım hərbi xidmətini keçəndən sonra tamamilə yeni keyfiyyətlər əldə edəcək, gələcək həyatında bu keyfiyyətlər ona yaşamaq, işləmək üçün kömək edəcəkdir» (80).

Başqa bir çıxışında isə Heydər Əliyev orduda nizam və intizamın yaradılması sahəsində rəhbər heyətin qarşısında dayanan vəzifələri belə açıqlayırdı: "Hər bir zabit, komandir əsgərdən, özünə tabe olan zabitdən nizam-intizam tələb edərkən, qanun-qaydaya riayət etməyi tələb edərkən özü bu barədə nümunə göstərməlidir. Yüksək rütbəli zabitlərin, generalların nümunəsi, şübhəsiz ki, bütün orduda sağlam mühit, sağlam əhval-ruhiyyə, möhkəm nizam-intizam yaratmaq üçün əsasdır.

Mən bu gün bütün zabit heyətindən, Müdafiə Nazirliyinin rəhbərliyindən tələb edirəm ki, orduda, Silahlı Qüvvələrdə, Müdafiə Nazirliyində nizam-intizamın, qanun-qaydanın möhkəmlənməsinə daha da çox fikir verilsin. Bu sahədə hələ nöqsanlar da çoxdur, səhvlər də buraxılıbdır. Bu nöqsanları, səhvləri aradan qaldırmaq lazımdır" (81).

Heydər Əliyev tələb edirdi ki, hər bir əsgər Vətənin xidmətində olduğu kimi, hər bir zabit də əsgərin xidmətində olmalıdır. Obrazlı şəkildə deyilmiş bu fikir onu ifadə edirdi ki, Müdafiə nazirindən başlamış gizirə və çavuşa kimi vəzifəli şəxslər əsgərlərə qayğı göstərməlidirlər, əsgərlərə qarşı nümayiş etdirilən xidməti tələbkarlıq insani qayğı ilə üzvi şəkildə birləşdirilməlidir. Xidmətə belə münasibətin formalaşmasını Heydər Əliyev hərbi hissələrdə nöqsanların aradan qaldırılması, nizam və intizamın möhkəmləndirilməsi yollarından biri hesab edirdi (82).

Möhkəm nizam və intizamı Heydər Əliyev Silahlı Qüvvələrin döyüş qüdrətinin əsas şərtlərindən biri kimi qəbul edirdi

və döyüş hazırlığının davamlı şəkildə artırılmasını da ordu quruculuğunun əsas tələblərindən biri kimi irəli sürürdü: «hərbi hissələr döyüş qabiliyyətini gündən-günə artırmalı, siz əsgərlər və zabitlər hərbi peşəni daha çox mənimsəməli, fiziki hazırlığınızı, səriştənizi artırmalı,orduda nizam-intizamı möhkəmləndirməli, silahdan, sərəncamınızda olan bütün vasitələrdən istifadə etməyə qadir olmalı, biliyinizi, bacarığınızı, qabiliyyətinizi daha da yüksəltməlisiniz «(83).

Heydər Əliyev, eyni zamanda, hərbi xidmətdə olan hər bir Azərbaycan vətəndaşının öz xidməti borclarına yüksək intizamla yanaşmasının zəruriliyini qeyd edirdi. O, nizam və intizamı ordu həyatının əsası kimi dəyərləndirirdi və bu tələbin ciddi şəkildə əməl edilməsini xüsusi bir vəzifə kimi irəli sürürdü: "Nizam-intizam ordunun qüdrətinin əsasını təşkil edir. Təəssüflər olsun ki, keçən illərdə orduda, hərbi hissələrdə özbaşınalıq geniş yayılmışdı. Şübhəsiz ki, bu, nə əsgərlərin, nə də zabitlərin əksəriyyətinin günahı deyildi. Bu, sadəcə olaraq ayrı-ayrı siyasətbazlar, özlərini siyasətçi hesab edib ordudan, hərbi hissələrdən şəxsi məqsədləri üçün istifadə edənlər tərəfindən meydana gəlmiş hallar idi. Bir daha qeyd edirəm ki, bunlar da ordu quruculuğumuza, ümumiyyətlə, ölkənin müdafiəsinə böyük zərbələr vurmuşdur. Ona görə də indi orduda, hər bir hərbi hissədə yuxarıdan aşağıyadək qanun-qayda, nizam-intizam, yüksək tələbkarlıq mövcud olmalıdır" (84).

Heydər Əliyev çox aydın şəkildə hər bir hərbi hissədə xidmətin mövcud qanunlar əsasında, yuxarıdan aşağıya nizam və intizama əməl edilməsi şərti ilə qurulmasının vacibliyini qeyd edirdi. Ordunun şəxsi heyətinə qarşı yüksək tələbkarlığın olmasını da o, hərbi xidmətin mühüm şərtlərindən biri kimi irəli sürürdü.

Heydər Əliyev ordu quruculuğunda özünü göstərən bəzi intizamsızlıq hallarının obyektiv səbəblərini də göstərirdi. Bu

səbəblər ayrı-ayrı siyasətbazların özlərini orduya nüfuz etməsi, onların hərbi hissələrdən şəxsi məqsədlər üçün istifadə etməyə çalışması ilə bağlı idi. Dövlət rəhbəri, eyni zamanda, ayrı-ayrı şəxslərin hərbi xidmət borcunun ödənməsinə səhlənkarlıqla yanaşmasının mövcudluğunu da qeyd edirdi. Amma belələri sayca çox deyildilər. Respublika gənclərinin mütləq əksəriyyəti isə Vətənə məhəbbət, vətəndaşlıq borclarına böyük sədaqət hissləri ilə yaşayırdılar və bunu Heydər Əliyev də böyük məmnunluqla vurğulayırdı: "Təəssüflər olsun ki, bəziləri öz vətəndaşlıq borcunu layiqincə yerinə yetirə bilmir, bunu anlamır, başa düşmür, orduda xidmət etməkdən yayınır, yayınmağa çalışır və beləliklə də, cinayət edirlər. Yaxud bəziləri ordu sıralarından fərarilik edir və beləliklə də, cinayət edirlər. Lakin belələri azlıq təşkil edirlər. Bu gün, bu bayram günü mən böyük iftixar hissi ilə deyirəm ki, Azərbaycan vətəndaşlarının, xalqının tam əksəriyyəti vətənpərvərlik, vətəni müdafiə etmək, vətənə sədaqət əhval-ruhiyyəsi ilə yaşayır və vətən, torpaq yolunda şəhid olmağa hazırdır" (85).

Ordu hissələrində özünü göstərən bu və ya digər intizamsızlıqların və çatışmazlıqların birdəfəlik aradan qaldırılması yollarından danışarkən Heydər Əliyev xalqın və valdeynlərin də qarşısında ciddi vəzifələr dayandığını bildirirdi: "İndi orduya çağırılan gənclər bilməlidirlər ki, onlar öz şərəfli vəzifələrini yerinə yetirməyə çağırılırlar. O gənclərin valideynləri bilməlidirlər ki, onların övladları ölkə, dövlət qarşısında öz vətəndaşlıq borclarını layiqincə yerinə yetirməlidirlər. Orduya payız çağırışını məhz bu prinsiplər əsasında həyata keçirmək lazımdır. Hərbi hissəyə çağırılanlara xüsusi qayğı göstərilməlidir. Onlar ilk günlərdən nizam-intizama dəvət olunmalıdırlar. Şübhəsiz ki, əsgərlik xidmətini layiqincə yerinə yetirmək üçün onlara lazımi şərait yaradılmalıdır" (86).

Göründüyü kimi, Heydər Əliyev əsgərlər arasında intizamsızlıqların aradan qaldırılması üçün onlara qayğı göstərilməsini, əsgərlər üçün normal xidmət şəraitinin yaradılmasını da ordu quruculuğunun mühüm vəzifələrindən biri sayırdı. Bu isə ordunun rəhbər heyətindən böyük məsuliyyət tələb edirdi.

Ordu quruculuğunda nizam-intizama ciddi diqqət yetirilməsindən danışarkən Heydər Əliyev şübhə etmirdi ki, bu vəzifəni lazımi səviyyədə yerinə yetirmək və Azərbaycanın qüdrətli ordusunu yaratmaq mümkündür. Belə bir qüdrətli ordunun yaradılmasını isə Heydər Əliyev həm özünün, həm də cəmiyyətin şərəfli vəzifəsi hesab edirdi: “Bir sözlə, indi biz elə bir mərhələdəyik ki, müstəqil Azərbaycanın bu günü, gələcəyi üçün layiqli, sağlam, çox qüdrətli ordu yarada bilərik. Bu imkanlardan istifadə etmək lazımdır. Bu, bizim şərəfli vəzifəmizdir. Bu, bizim borcumuzdur” (87).

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin daimi qayğısı və yüksək təşkilatçılığı sayəsində kifayət qədər qısa müddətdən sonra belə bir ordunun təşkilatlandırılması, zəruri nizam və intizama malik, müasir tələblərə cavab verən ordunun yaradılması mümkün oldu: “Mən bu gün böyük məmnuniyyətlə qeyd etmək istəyirəm ki, artıq Azərbaycanın müasir tələblərə cavab verə biləcək nizami ordusu vardır. Orduda lazımi nizam-intizam, qanun-qayda var və Azərbaycanın bugünkü ordusu, Silahlı Qüvvələri Azərbaycan torpaqlarını etibarlı müdafiə etməyə qadirdir” (88).

### ə) Ordu quruculuğunda ardıcıllıq və elmilik

Heydər Əliyev ordu quruculuğunun uğurla aparılması üçün bu prosesdə elm və praktikanın üzvi şəkildə əlaqələndirilməsini, habelə ordu quruculuğunda ardıcıllıq və davamlılığın da təmin edilməsini əsas tələblər kimi irəli sürürdü.

Respublika Prezidenti hər bir zabitin və hərbi qulluqçunun öz hərbi biliyini təkmilləşdirməsini Azərbaycan Ordusunun qüdrətinin artırılmasının şərti kimi dəyərləndirirdi. Həyatın bütün sahələrində sürətli inkişaf olduğu kimi, hərb elmində də bu meyil özünü göstərirdi və bu meyildən kənarda qalmaq zamanın, dövrün tələbləri ilə ayaqlaşmamaq demək olardı. Hərbi texnologiyanın özünün də sürətlə inkişaf etməsi bu texnologiyadan peşəkarcasına istifadə etməyi bacaran kadrların olmasını tələb edirdi və yalnız elmli, bilikli kadrlar vasitəsilə yeni texnologiyanın döyüş imkanlarını bütünlüklə üzə çıxarmaq olardı. «Müharibə nəticəsində meydana çıxmış hərb elmi – bunların hamısını həm bizim hərbi ali məktəblərdə öyrətmək lazımdır, bunu həm də hər bir zabit hər gün özü öyrənməlidir, biliyini, hərbi elmini artırmalıdır» ( 89).

Qeyd etmək lazımdır ki, Heydər Əliyev tərəfindən ali hərbi məktəblərin açılmasına göstərilən qayğı elmi biliklərə yiyələnməyin vacibliyindən irəli gəlirdi. Hər gün ortaya çıxan elmi biliklər sözsüz ki, özündən əvvəl mövcud olan bütün bilikləri rədd etmirdi. Bu baxımdan yeni elmi biliklər o vaxt daha səmərəli ola bilərdi ki, bu biliklər mövcud təcrübə ilə üzvi şəkildə əlaqələndirilsin.

Nəhayət, Heydər Əliyev ordu quruculuğunda ardıcıllıq və davamlılıq deyəndə bu prosesin uzunmüddətliliyinə işarə edirdi. Ordu quruculuğu elə bir prosesdir ki, hər zaman inkişafda olmalı və qırılmaz bir xətt kimi davam etməlidir. Bu prosesdə fasilələrə yol vermək və ya məcburi fasilələrlə qarşılaşmaq ordunun möhkəmlənməsinə əks-təsir göstərə bilər. Heydər Əliyev təkidlə bildirirdi ki, ordu hər gün inkişafda olmalıdır. Bu prosesdə bir gün də fasilə vermək olmaz (90).

Çıxışlarının birində Heydər Əliyev bildirirdi ki, Azərbaycanın güclü ordusu bu gün də, sabah da, on il, yüz il də bundan sonra lazımdır. Bunun üçün Azərbaycan Ordusunun, Silahlı Qüvvələrinin qüdrəti hər gün artmalı idi. Ona görə də ölkə rəh-

bərinin fikrincə, bu ordu sabah ondan güclü, beş il sonra ondan da güclü, on il, on beş il sonra daha da güclü olmalıdır (91).

Respublika Prezidenti şübhə etmirdi ki, belə bir qüvvəyə ordu quruculuğunun davamlı şəkildə aparılması ilə nail olmaq mümkündür.

Ordu quruculuğunda əldə olunmuş nailiyyətlərdən danışarkən birmənalı şəkildə qeyd edirdi ki, əldə edilmiş nəticələrlə kifayətlənmək və arxayınlaşmaq olmaz və ordunun inkişaf etdirilməsi Azərbaycan dövlətinin və xalqının əsas vəzifələrindən biri olaraq qalmaqdadır. Yəni ordu quruculuğunun davamlı olaraq aparılması mühüm bir vəzifə kimi dəyərləndirilirdi və müfaviq strukturlardan da bu məsələyə riayət olunması tələb edilirdi. Bunu Heydər Əliyev bir tərəfdən Azərbaycanın müstəqilliyinin davamlı, daimi olması ilə əlaqələndirirdi, digər tərəfdən də ordunun daim yüksək hazırlıq səviyyəsində olması tələbi ilə əlaqələndirirdi: "Biz buna çətin yollardan keçərək nail olmuşuq. Ancaq əldə etdiyimiz nailiyyət bizi arxayınlaşdırmamalıdır. Azərbaycanda ordunun inkişaf etməsi, möhkəmlənməsi dövlətimizin və xalqımızın ən əsas vəzifəsidir. Biz həmişə həmrəy olaraq bəyan etmişik ki, Azərbaycanın dövlət müstəqilliyi əbədidir və sarsılmazdır. Bu bəyanatı həmişə reallaşdırmaq üçün, bu fikirləri əməli surətdə daim həyata keçirmək üçün biz orduya xüsusi qayğı göstərməliyik, onu möhkəmləndirməli və inkişaf etdirməliyik" (92).

## 2. Heydər Əliyev və hərbi irs

Azərbaycan cəmiyyətinin ölkənin müstəqilliyinin və ərazi bütövlüyünün müdafiəsi kimi vahid məqsəd ətrafında birləşdirilməsi, onun mübariz ruhunun təşkilatlandırılması və istiqamətləndirilməsi, mənəvi potensialının üzə çıxarılması üçün Heydər

Əliyevin istinad etdiyi ən qiymətli meyar və nümunələrdən biri xalqın hərbi və qəhrəmanlıq tarixi idi. Bu tarixi o, keçmişimizdən miras qalmış zəngin və ibrətamiz bir sərvət kimi qiymətləndirir və ölkənin müdafiəsinin təşkilinin müxtəlif məsələləri ətrafında etdiyi çıxışlarında hər bir vətəndaşı da bu tarixə tapınmağa çağırırdı. Ölkə rəhbərinin fikrincə, bu tarix Azərbaycan xalqının Vətənə, torpağa bağlılıq, Vətənə sevgi tarixi idi və bu tarixə sədaqət əldə edilmiş müstəqilliyin həmişəyaşarlığına real zəmin yarada bilərdi. Məsələn, Azərbaycan xalqının ümummilli lideri bildirirdi: «Azərbaycan Respublikasının öz torpaqlarını müdafiə etmək üçün böyük potensialı var. Ən böyük potensial bizim insanların Vətənə, torpağa bağlılığı, Vətəni, torpağı sevməsi və onu qorumaq hissidir. Bu, xalqımızın tarixi ənənələrindən irəli gələn hissidir. Güman edirəm ki, xalqımızın tarixi ənənələrimizi, keçmişimizi yada salaraq Azərbaycanın bu ağır vəziyyətdən çıxması üçün bundan sonra səmərəli tədbirlər görəcəkdir» (93). Başqa bir çıxışında Heydər Əliyev: «Azərbaycan xalqının tarix boyu nümayiş etdirdiyi qəhrəmanlıq, cəsurluq ənənələri bu gün müstəqil Azərbaycan dövlətində yenidən yüksəlmişdir və daha da canlanacaqdır» (94) – deyirdi. Onun belə bir fikri də vardır: «Azərbaycan xalqı tarix boyu, əsrlər boyu həmişə mərdlik, cəsarət, qəhrəmanlıq göstərmişdir, öz yurdunu, öz torpağını müdafiə etmişdir, öz mənliyini qoruyub saxlamışdır» (95).

Heydər Əliyevin belə dəyərli fikirlərinin sayını artırmaq da olar. Bütün bunlar onu göstərirdi ki, respublikanın Prezidenti Azərbaycan xalqının qəhrəmanlıq tarixini yüksək qiymətləndirirdi və şübhə etmirdi ki, belə bir tarixə malik olan Azərbaycan xalqı bu tarixi ənənələri canlandıracaq və yaşadacaq, əcdadlarının yolunu davam etdirərək ölkənin müstəqilliyinin müdafiəsinə qalxacaq və bu müstəqilliyə qənim kəsilənlərə layiqli cavab verəcəkdir.

Heydər Əliyev dəfələrlə bildirmişdi ki, Azərbaycana qarşı başlanan müharibə, onun daxilində həyata keçirilən siyasi təxribatlar ölkənin parçalanması üçün qurulan böyük planların nəticəsidir. Azərbaycanın hərbi və qəhrəmanlıq keçmişini xatırlatmaqla Heydər Əliyev bildirmək istəyirdi ki, belə planlar Azərbaycana qarşı uzun illərdən bəri ortaya atılıb və hər dəfə də Azərbaycan xalqının qəhrəmanlığı və mübarizliyi sayəsində onların qarşısı alınıbdır. Azərbaycan xalqının tarixi də göstərirdi ki, milli dövlətçiliyin və ərazi hüdudlarının qorunması tarix boyu xalqın qarşısında dayanan çox ciddi vəzifələrdən biri olmuşdur. Təbii sərvətləri, böyük təsərrüfatçılıq imkanları, çox əlverişi məkanda yerləşməsi daim xarici qüvvələrin diqqətini bu bölgəyə cəlb etmiş və onlar silah gücünə Azərbaycan xalqını əsarət altına alaraq onun var-yoxunu talamağa çalışmışlar. Bu xarici qüvvələrin müxtəlif təcavüzlərinə mətanətlə sinə gərən Azərbaycan xalqının qəhrəmanlıq tarixi, əslində ,elə xalqın mövcudluq tarixidir. Çünki Azərbaycan xalqı hər zaman müharibə istəməsə də, daim xarici təcavüzlərin mərkəzində qalmış və bu təcavüzlərdən qorunmaq üçün həmişə hərbə hazır olmuş, hərb işini inkişaf etdirərək onu daha da təkmilləşdirmişdir.

Azərbaycanın müasir müstəqillik tarixinin öyrənilməsi də göstərir ki, bu müstəqilliyin əldə edilməsindən sonra ölkə müharibədən, xarici qüvvələrin təcavüzündən və müxtəlif siyasi qüvvələrin daxili təxribatlarından kənarda qala bilməmişdir. Azərbaycanın malik olduğu geosiyasi vəziyyəti, zəngin sərvətləri, böyük iqtisadi imkanları və ölkənin mənafeləri çərçivəsində apardığı müstəqil siyasəti onu deməyə əsas verir ki, gələcəkdə də Azərbaycana qarşı belə bir təhlükənin ortaya çıxacağı istisna deyildir. Belə bir qənaətlə Heydər Əliyevin çıxışlarını təhlil edərkən də rastlaşmaq mümkündür. Məsələn, o öz çıxışlarında

qeyd edirdi ki, biz öz ordumuzu daha da möhkəmləndirməliyik. «Əgər müharibə olmasa da, torpaqlarımıza heç kim təcavüz etməsə də, Azərbaycanın müstəqilliyini, suverenliyini təmin etmək üçün qüdrətli ordumuz olmalıdır» (96). Ona görə də Azərbaycanda hərb işinin ölkənin mənafelərinə cavab verəcək səviyyədə qurulması və inkişaf etdirilməsi həyati aktuallıq kəsb edir. Bu işin düzgün təşkili, vətəndaşların və dövlətin bütün gücünün səmərəli şəkildə bu sahəyə istiqamətləndirilməsi üçün xalqın tarixi təcrübəsinin, qəhrəmanlıq ənənələrinin öyrənilməsi böyük əhəmiyyət kəsb edirdi. Məhz buna görə idi ki, Heydər Əliyev hərbi irsə, Azərbaycan övladlarının qəhrəmanlıq tarixinin öyrənilməsinə xüsusi diqqətlə yanaşırdı.

Hərb işi insan fəaliyyətinin elə sahələrindəndir ki, onun təşkili və inkişafı tarixi ənənə və təcrübədən təcrid edilə bilməz. Bu məsələ o vaxt daha əhatəli həll edilə bilər ki, o, xalqın neçə min illik hərb tarixinin praktiki nəticə və dəyərlərinə əsaslansın və bu dəyərlər hərb elminin müasir nailiyyətləri ilə qovuşsun. Yəni əslində, hərb işinin düzgün təşkili xalqın hərb tarixi təcrübəsi ilə hərb elminin bugünkü inkişaf səviyyəsinin qarşılıqlı vəhdətinin praktiki ifadəsidir və hərb işini tarixi təcrübəni nəzərə almadan qurmağa çalışmaq onu möhkəm özüldən qoparmaq deməkdir. Bugünkü hərb işi ötən təcrübəni qavramadan, onun metodiki baxımdan müsbət qənaətlərinə dayaqlanmadan irəliyə gedə bilməz. Belə olmazdısa, insanlar hər şeyi yenidən başlamalı olardı. Hərb işində təcrübi sınaqlardan keçirilməmiş və əvvəlki qənaətlər üzərində inkişaf etdirilməmiş eksperimentlərin tətbiq edilməsi isə böyük insan itkiləri ilə nəticələnən faciəli sonluqlara gətirib çıxara bilər. Azərbaycanın müstəqilliyinin ilk ilinin ordu quruculuğu tarixi də buna bir sübut ola bilər.

Hərbi irsin öyrənilməsinin metodoloji, elmi-praktiki, mənəvi-tərbiyəvi əhəmiyyəti vardır. Bu məqamların hər biri özlüyün-

də vacib məsələlərdir və ölkənin müdafiəsinin təşkilində onlar öz aktuallığını itirməmişlər. İlk baxışdan güman etmək olar ki, elmin, texnikanın yüksək inkişaf səviyyəsi ilə səciyyələnən müasir həyatda hərbi irsin, tarixi ənənələrin öyrənilməsinin ciddi bir səmərəsi ola bilməz. Lakin elə elmi və praktiki qənaətlər vardır ki, həmin qənaətlər hər zaman öz aktuallığını qoruyub saxlamaqdadır. Çünki onlar hərb işinin əsasını təşkil edir və onlar mahiyyət etibarilə dəyişməzdir. Dəyişən yalnız onları hərəkətə gətirən qüvvələrdir. Məsələn, xalq və ordu arasındakı münasibətlər, müharibənin aparılmasına xalqın münasibəti və onun müharibəyə necə səfərbər olunması, ölkənin müdafiəsinin təşkilində xarici siyasətin nəzərə alınması, ölkənin müdafiəsinin təşkilinin maddi və mənəvi amillərdən asılılığı, ölkənin müdafiəsinin təmin edilməsi üçün dövlətin apardığı siyasətin xarakteri və s. Bu məqamların (əsasların) sayı çoxdur və Azərbaycan xalqının qəhrəmanlıq tarixi də bütün bu məqamların yüksək məharətlə icrasının ifadəsidir. Heydər Əliyev də məhz Azərbaycan xalqının belə qəhrəmanlıq tarixini bugünkü mübarizə üçün örnək sayırdı.

Heydər Əliyevin yuxarıda xatırlanan fikirlərindən əldə edilən bir qənaət də budur ki, Azərbaycanın gənc nəslinin, onun Silahlı Qüvvələrinin şəxsi heyətinin hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, onlarda qələbəyə dərin inam, ilham, Vətənə və torpağa sarsılmaz sədaqət hisslərinin aşılanması da xalqın qəhrəmanlıq tarixinin öyrənilməsi ilə daha təsirli və səmərəli ola bilər. Bu günün və sabahın ən yaxşı qəhrəmanlarını, vətənpərvərlərini xalqın tarixi qəhrəmanlarının timsalında yetişdirilməsi daha realdır. Hələ ötən əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin ilk peşəkar hərbi naziri tam artilleriya generalı Səməd bəy Mehmandarov Azərbaycanın hərb tarixinin öyrənilməsinin qoşunların mənəvi əhval-ruhiyyəsinin sağlamlaş-

dırılması istiqamətindəki tərbiyəvi rolu barədə deyirdi: «Bolşevizmlə mübarizə tədbirlərindən biri xalqda sağlam milli hisslərin oyadılmasıdır. Bu, Azərbaycan Respublikasının yaranmaqda olan gənc ordusu üçün xüsusilə zəruridir. Bizim yalnız tatarlarla (azərbaycanlılarla – M.S.) komplektləşdirilən hərbi qüvvələrimiz öz xalqının dünya tarixinin səhifələrində çoxlu igidliklər yazmış və bütün Avropa xalqları tərəfindən xatırlanan və danışılan, ancaq özümüzün daha az bələd olduğumuz şərəfli hərbi keçmişini bilməlidirlər. Yüz ildən artıq davam edən Rusiya səltənətindən xilas olan türk (Azərbaycan – M.S.) xalqına xatırladılmalıdır ki, biz heç də həmişə əsarət altında olmamışıq, həm də öz iradəmizi Avropa və Asiyaya diktə etmişik. Güman edirəm ki, türk (Azərbaycan - M.S.) tarixinin bilicilərindən kimsə xalqımızın bu günə qədərki mühüm hadisələrini özündə əks etdirən qısa tarixi barədə kütləvi kitabçaları hazırlamağı və çap etdirməyi tapşırmaq çox faydalı olardı. ...Bizim ziyalılarımızın əsas vəzifələrindən biri orduya onun tarixi keçmişini tanıtmaqdır».

Heydər Əliyev də məhz belə bir qəhrəmanlıq tarixini və qəhrəmanlıq ənənələrini xalq üçün nümunə göstərirdi. Belə bir qəhrəmanlıq tarixinin öyrənilməsi həm də Azərbaycanın hər bir əsgərinin və zabitinin dünyagörüşünü, onun hərbi təfəkkürünü genişləndirərdi ki, bu da Vətən qarşısındakı xidməti vəzifəyə şüurlu münasibətin zəruri tərəfidir.

Heydər Əliyev Azərbaycan xalqının qəhrəmanlıq ənənələrinin ən qədim zamanlardan gəldiyini bildirirdi. Yəni Azərbaycan xalqının ən qədim dövrlərindən belə ənənələrin başlanğıcının qoyulduğunu qeyd edirdi və bu qədim qəhrəmanlıq ənənələrinin içərisində Dədə Qorqud qəhrəmanlarının mübarizliyini xüsusi vurğulayırdı. Bu dastandan danışarkən Heydər Əliyev Qazan xanın adını çəkir, onun öz övladını cəngavərliyə necə hazırlamasına

toxunurdu (97). Bu dastan surətlərinin hər ikisinin Azərbaycan xalqının qəhrəmanlıq tarixində öz yeri vardır. Dədə Qorqud əgər xalqın müdrikliyini, xalqı öz ətrafında birləşdirib ağır günlərdə onların gücünü istiqamətləndirən el ağsaqqalını təmsil edirsə, Qazan xan xalqın düşmənə qarşı vuran əlini, onun mübarizliyini, el maraqları üçün qətiyyət göstərən qəhrəman övladlarını təmsil edirdi. Bu surətlərin hər ikisi bu gün də Azərbaycan üçün canlıdırlar, aktualdırlar və bunu müstəqilliyin ilk illəri də nümayiş etdirdi. Ölkə üçün ən çətin anlarda xalq məhz belə bir müdrik ağsaqqala ehtiyac duyduğunu hiss etdi və Heydər Əliyev kimi xalqa liderlik edəcək bir şəxsiyyətə hakimiyyəti etibar etdi. Onun müdrikliyi altında isə Azərbaycanda Qazan xanın ənənələrini davam etdirə biləcək milli hərbi qüvvələrin formalaşdırılmasına başlandı.

Heydər Əliyevin fikrincə, Babək və Koroğlu kimi el qəhrəmanları bu gün də Azərbaycan xalqının öyrənməli və qəhrəmanlıq ənənələrini davam etdirməli olduğu tarixi örnəklərdir. Çünki onlar da elinin-obasının ağır günlərində xalqını yadelli qüvvələrə qarşı səfərbər edib cəsurluq nümunələri göstərmiş qəhrəmanlar idi və onların şücaəti və sərkərdəliyi altında xalq qonşu xalqların təcavüzlərinin qarşısını almış, yadelli basqınlara cavab verərək torpaqlarını qoruya bilmişdi: “Azərbaycan xalqının qədim, zəngin dövlətçilik tarixi vardır. Azərbaycanın dövlətçilik tarixində ordu qurulması, yaranması, dövləti, ölkəni qorumaq üçün qüdrətli olması həmişə diqqət mərkəzində dayanıbdır. Azərbaycan xalqı çoxəsrlik tarixində çox döyüşlərdən çıxmış, yadelli basqınlara cavab verərək, torpaqlarını qoruyaraq, qonşu xalqların, ölkələrin təcavüzünün qarşısını alaraq, yaxud da öz ərazisinin bərpasını təmin edərək çox döyüşlər etmiş, döyüşlərdən çıxmışdır. Azərbaycan xalqı tarix boyu görkəmli qəhrəmanlıq nümunələri göstərmişdir. Azərbaycan xalqının igid oğulları öz qəhrəmanlıqları

ilə dastana çevrilmişlər, nəsillərdən-nəsillərə, dillərdən-dillərə keçmişlər. Koroğlu, Babək kimi adlar bizim tarixi keçmişimizə aid olsa da, xalqımız üçün bu gün də qəhrəmanlıq, cəsurluq nümunələridir, hər bir Azərbaycan gənci üçün örnəkdir" (98).

Çıxışlarının birində Heydər Əliyev Uzun Həsənin də tarixi xidmətlərindən danışmışdı (99). Doğrudur, Uzun Həsən respublika Prezidentinin çıxışında təcrübəli siyasətçi və diplomat kimi xatırlanır. Amma tarixdən məlumdur ki, Uzun Həsən həm də böyük bir sərkərdə idi. O öz istedadı və təşkilatçılığı ilə böyük bir dövlət qura bilmişdi və bu dövlətə təcavüz niyyətində olan qüvvələrə qarşı uğurlu döyüşlər aparırdı. Buna görə, Uzun Həsənin tarixi xidmətləri Heydər Əliyev tərəfindən məmnunluqla xatırlanırdı və o, bu xidmətləri nəsillərə nümunə sayırdı.

Respublika Prezidenti Azərbaycan xalqının zəngin tarixinin bütün dövrlərini düzgün öyrənməyə, ondan düzgün nəticə çıxarmağa çağırırdı: "Tariximizə heç vaxt xor baxmamalıyıq, tariximizi qiymətləndirməliyik, kiçik bir müsbət hadisəni də unutmamalıyıq. Çünki tariximiz zəngindir, eyni zamanda, çox əzab-əziyyətli tarixdir. Xalqımız əsrlər boyu böyük sınaqlardan, çətinliklərdən keçmiş, ancaq öz mənliyini, milliliyini, öz dilini itirməmişdir. Ona görə də tarixi təhrif etmək xəstəliyi – bu, keçən dövrə qədər bizdə var idi və təəssüflər olsun, indi də mövcuddur – aradan götürülməlidir. Biz bundan xilas olmalıyıq. Tariximizin hər bir səhifəsi – istər lap qədim dövrə, orta əsrlərə, istərsə də XIX əsrə, XX əsrə aid olsun – bizim üçün qiymətlidir" (100).

Azərbaycan xalqının istər qədim dövrlərdə, istərsə də orta əsrlərdə olsun bütünlükdə qəhrəmanlıq keçmişinin bütövləşməsinə xidmət edən çoxməzmunlu hərbi irsi olmuşdur. Bu dövrlər Azərbaycan ərazisində müstəqil dövlətlərin yaranması, hərb işinin zənginləşməsi ilə xarakterikdir. Xüsusilə orta əsrlərdə

Azərbaycan türklərinin yaratdığı imperiyalar onların malik olduğu hərb işinin yüksək zirvəsi ilə əldə edilmişdi. Azərbaycanlı hökmdarların dövlətçilik və hərb işini özündə birləşdirməsi, dövrün ən məharətli sərkərdələri kimi tanınması bölgənin tarixində böyük izlər buraxmışdı. Başqa sözlə, bu dövrdə Azərbaycan xalqına mənsub olan böyük hökmdar-sərkərdələrin yaratdıqları hərbi miras dünya hərb sənətinin yeni səhifələri olmaqla qürur və iftixar mənbəyidir və Heydər Əliyev də belə bir irsin düzgün qiymətləndirilməsini və ondan ibrət götürülməsini bütün cəmiyyətə təlqin edirdi.

Heydər Əliyev çıxışlarında, söhbətlərində yaxın tariximiz olan XIX və XX əsrlərdə baş verən hərbi-siyasi proseslərin təhlilinə, bu dövrün yetişdirdiyi azərbaycanlı sərkərdələr və generallar nəslinə, Azərbaycan övladlarının qəhrəmanlıq nümunələrinə və onların öyrənilməsinə və insanlara çatdırılmasına daha geniş yer ayırırdı. Bu dövr Azərbaycan xalqının həyatında və tarixində çox kəskin və taleyüklü hərbi-siyasi proseslərin, Azərbaycan torpaqlarının parçalanması ilə nəticələnən qanlı müharibələrin getdiyi, Azərbaycanın nizami ordusunun meydana gəldiyi, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizələr aparıldığı, Azərbaycanın şanlı hərbçilər nəslinin yetişdiyi bir dövrdür. Əslində, Azərbaycan xalqının bugünkü hərbi həyatının XIX, XX əsrlərdə formalaşmış hərbi irslə canlı əlaqəsi vardır və həmin irsin düzgün öyrənilməsi, bu irsin tarixindən əldə edilmiş qənaətlərə yaradıcı yanaşılması Azərbaycanın müasir hərb quruculuğunun uğurlarına zəmin yaratmaqla gənc nəslin, Silahlı Qüvvələrin şəxsi heyətinin ilham və inam mənbəyinə çevrilə bilər.

XIX əsrin əvvəlləri Azərbaycan tarixinin xanlıqlar dövrünə təsadüf edir. Məlumdur ki, həmin dövrdə tarix səhnəsində mövcud olan Azərbaycan xanlıqları öz müstəqilliklərini qoruyub

saxlamaq üçün şimalda və cənubda yerləşən iki böyük dövlətə qarşı mübarizə aparmalı olmuşdular. Bu dövrün tarixi də Azərbaycan xalqının qəhrəmanlıq tarixidir. Azərbaycan xalqı güclü dövlətlərin çoxsaylı qoşunları ilə rastlaşmalı olsa da, öz müstəqilliyini qoruyub saxlamaq üçün sonsuz əzmkarlıq və mübarizlik nümunələri göstərmişdirlər. Həmin mübarizlik nümunələri də Azərbaycan xalqının hərbi irsinin və qəhrəmanlıq tarixinin yaddaqalan səhifələridir.

Heydər Əliyevin çıxışlarından birində Şuşa qalasının qəhrəmanlıq tarixindən söz açılır. Şuşa qalasının qəhrəmanlıq keçmişinin nümunə gətirilməsini əslində, Heydər Əliyevin Azərbaycanın xanlıqlar dövrünün müstəqilliyin qorunması üçün aparılan mübarizə tarixinə ümumi bir baxışı kimi də dəyərləndirmək olar: "Qəhrəman Azərbaycan oğulları vaxtilə Şuşanı qoruyub saxlayıblar. Ona görə də Şuşaya Şuşa qalası deyirlər. Dəfələrlə o, təcavüzkarlar tərəfindən zəbt edilmək təhlükəsi altında olubdur. Ancaq Şuşanı qoruyublar, saxlayıblar. Bizim əcdadlarımız, ulu babalarımız o vaxtlar öz borclarını yerinə yetiriblər" (101).

Ölkə prezidentinin bu fikrində iki məqam diqqəti cəlb edir. Birincisi, Şuşa qalası kimi bir qalanın tikilməsi. Bu qala Qarabağ xanlarının seçimi və rəhbərliyi altında Azərbaycan xalqı tərəfindən tikilmişdi və malik olduğu imkanlara görə xalqın məğlubedilməzlik simvoluna çevrilmişdi. İkincisi isə Heydər Əliyev burada həm də Azərbaycan xalqının əcdadlarının və ulu babalarının mübarizliyinə işarə etmiş, dəfələrlə bu qalanın xarici təcavüzkarlar tərəfindən işğal edilməsi təhlükəsinin olmasına baxmayaraq, onun qorunub saxlandığına toxunmuşdur. Heydər Əliyev ayrıca vurğulayırdı ki, xalqın əcdadları və ulu babaları öz borclarını yerinə yetirərək Şuşa qalasını qoruyub saxlamışdılar. Bununla dövlətin rəhbəri həm də ona işarə edirdi ki, 1992-ci ildə

Şuşanın qorunmasına məsul olan insanlar öz borclarını yerinə yetirsəydilər, bu qala erməni təcavüzkarlarının əlinə keçməzdi. Eyni zamanda, ona da işarə edilirdi ki, ulu babaların qəhrəmanlıq keçmişi öyrənilsəydi, ondan düzgün nəticə çıxarılsaydı və onların ənənələrinin davam etdirilməsinə cəhd göstərilsəydi, Şuşanın əldən getməsi kimi bir ağrılı hadisə Azərbaycan xalqının taleyinə yazılmazdı.

Xanlıqlar dövründən sonra çar Rusiyası dövründə Azərbaycanda hərb işinin yeni bir dövrü başlayır. Bu dövrün xarakterik tərəfi ondan ibarətdir ki, çar Rusiyası tərkibində azərbaycanlılar hərb işinə cəlb edilmirdilər. Bunun əsas səbəblərindən biri o idi ki, çar Rusiyası bu rejimin işğalına qarşı qətiyyətli mübarizə aparmış Azərbaycan xalqının övladlarına etibar etmirdi və əmin deyildi ki, azərbaycanlılara paylanmış olan silahlar rejimin özünə qarşı çevrilməyəcəkdir. Rusiya işğalına qarşı belə bir barışmazlıq əhali arasında kifayət qədər güclü idi. Bununla belə, artıq o dövrdə yetişməkdə olan azərbaycanlı ictimai-maarifpərvər xadimlər Azərbaycan xalqının hərbi işindən yadırğadılmasının xalq üçün ziyanlı tərəflərini də görürdülər. Ona görə də azərbaycanlıların da hərb işinə cəlb edilməsi dövrün azərbaycanlı ziyalıları arasında xeyli aktual idi. Doğrudur, XIX əsrdə azərbaycanlıların hərb işinə cəlb edilməsi, onlardan ayrı-ayrı alaylar təşkil edilməsi halları mövcuddur. Həmin alayların cəlb edildikləri müharibələrdə xüsusi şücaət göstərməsi haqqında da müfəssəl mənbə məlumatları vardır. Lakin bütünlükdə, XIX əsrdə, eləcə də XX əsrin əvvəllərində azərbaycanlıların Rusiya ordusunda xidmətə cəlb edilməsi daha çox istisna xarakteri daşıyırdı, azərbaycanlılardan toplanan alaylar daha çox xüsusi hallarda, müharibə dövründə təşkil edilirdi. Azərbaycanlı əhali arasında xidmətə cəlb edilmə, xristian əhali arasında olduğu kimi daimi deyildi.

Bu dövrdə azərbaycanlılar arasında mövcud olan hərb işinin vəziyyətini Heydər Əliyev aşağıdakı kimi təhlil edirdi: “XIX-XX əsrlərdə Azərbaycan öz dövlətçiliyindən məhrum olandan sonra, çar Rusiyasının tərkibində olduğu zaman da Azərbaycan xalqının görkəmli nümayəndələri həmin orduda xidmət etmiş və Azərbaycan oğlunun, əsgərinin hərbi peşəkarlıq sahəsində nəyə qadir olduğunu dəfələrlə sübut etmişlər.

Doğrudur, respublikamız çar Rusiyasının tərkibində olduğu zaman azərbaycanlıları, müsəlmanları orduya cəlb etmirdilər, ordudan azad edirdilər. Biz tarixi təhlil edərkən bunun nə qədər mənfi nəticələr verdiyini görürük. Millətimiz, xalqımız hərbi peşədən məhrum olmuşdu. Ancaq bununla yanaşı, o dövrdə hakim dairələrlə bağlı olan xan sülalələri övladlarını hərbi xidmətə göndərir, bunu özlərinə böyük şərəf hesab edirdilər. Onlar yüksək səviyyəli hərbi məktəblərdə təhsil alaraq böyük rütbələr almağa nail olurdular. Onlar hamısı çar Rusiyasının ordusunda xidmət etmişlər. Azərbaycanlı bəzi görkəmli sərkərdələr, generallar Rusiyanın XIX əsrdə apardığı müharibələrdə iştirak etmiş və qəhrəmanlıq nümunələri göstərmişlər. Bununla bərabər, xatırladığım bu faktların bu gün bizim üçün əhəmiyyəti ondan ibarətdir ki, bunlar xalqımızın, millətimizin nəyə qadir olduğunu göstərir.

Çar Rusiyasının ordusunda azərbaycanlılar, müsəlmanlar xidmət etmədikləri halda Azərbaycan oğulları rus ordusunun yüksək səviyyəli hərbi məktəblərini bitirib, döyüşlərdə böyük peşəkarlıq, qəhrəmanlıq nümunələri göstərib, general rütbələri alıb, yüksək ordenlərlə təltif ediliblərsə, bunlar Azərbaycan xalqının, oğullarının nəyə qadir olduğunu göstərir. Bunlar tariximizin sovet dövründə unudulmuş səhifələridir, faktlardır. Ancaq biz bu gün tariximizi bərpa edərkən bunların hamısını öyrənməliyik və xalqımız bunu bilməlidir.

Naxçıvan xanları sülaləsindən bir neçə general çox uğurla xidmət etmişlər: general Ehsan xan, general Kəlbəli xan, Hüseyn xan, İsmayıl xan, Cəmşid xan Naxçıvanskilər. Bakıxanovlar sülaləsindən bir çox generallar Azərbaycanın tarixində və rus ordusunun tarixində görkəmli yer tutmuşlar. Talışxanovlar sülaləsindən bir çox generallar bizim tariximizin səhifələrində öz yerlərini tutmuşlar. General Fərəc bəy Ağayev, general Ağalarov, general Ərəblinski və başqaları - bunlar hamısı XIX əsrdə və XX əsrin əvvəllərində orduda xidmət etmiş yüksək rütbəli generallar, Azərbaycan oğullarıdır" (102).

Heydər Əliyev burada Azərbaycanın hərb tarixinin ulduzları olan bir sıra generalların adlarını çəkmişdir. Qeyd etmək lazımdır ki, çar ordusunun tərkibində xeyli sayda azərbaycanlı zabit rütbələrində xidmət etmişlər. Onların çoxu bəy və xan nəslindən idi və bu təbəqə Rusiya monarxiyasına liberal yanaşan təbəqə kimi qəbul edilirdi. Ona görə də onların övladlarının rus ordusunda xidmətinə Rusiya hakimiyyət dairələri tərəfindən ciddi müqavimət göstərilmirdi. Digər tərəfdən Rusiya ordusunda xidmətə və ya Rusiyanın hərbi məktəblərində oxumağa rus məktəblərini bitirmiş gənclər qəbul edilirdilər. Əyalətlərdəki rus dilli məktəblər Rusiyanın müvafiq orqanlarının nəzarəti altında idi və güman edilirdi ki, belə məktəblərdə də Rusiya monarxiyasına sədaqətli olan gənclər formalaşdırılırdı. Hər halda hələ XIX əsrin əvvəllərindən xeyli sayda azərbaycanlını Rusiya ordusu sıralarında görmək mümkündür. Şücaətli xidmətinə görə onların arasında yüksək hərbi rütbələrə və ali ordenlərə layiq görülən xeyli sayda azərbaycanlı zabitlərin adı məlumdur.

Heydər Əliyevin xatırlatdığı generalların bir neçəsi, o cümlədən general Balakişi Ərəblinski, general Fərəc bəy Ağayev, general Ehsan xan Naxçıvanski, general Kəlbəli xan Naxçıvanski,

general İsmayıl xan Naxçıvanski, Bakıxanov sülaləsindən olan generallar hələ XIX əsrin birinci yarısında Rusiya ordusunda xidmətə başlamış və yüksək general rütbələrinə layiq görülmüşdülər. Bu generalların adı, şöhrəti hələ xidmət etdikləri illərdə çox-çox ətrafa yayılmışdı və onların hərbi şücaəti Azərbaycan xalqının qəhrəmanlıq tarixinin çox məzmunlu və qürurverici səhifəsini təşkil edir. General Balakişi Ərəblinski, general İsmayıl xan Naxçıvanski kimi generallar hətta rus hərbi qulluqçuları arasında xidmət nümunəsinə çevrilmişdilər və onlar özlərindən sonra zəngin bir məktəb qoyub getmişdilər.

XIX əsrin əvvəllərindən başlayaraq azərbaycanlılar arasında tanınmış generallar və hərbçilər nəslinin də formalaşması başladı. Heydər Əliyev bu nəsillərdən general Naxçıvanskilər nəslinin, general Bakıxanovlar nəslinin, general Talışxanovlar nəslinin adlarını çəkmişdir. Bu nəsillərin sırasına Qacarlar nəslini, Yadigarovlar nəslini, Şıxlinskilər nəslini də əlavə etmək mümkündür. Bu nəsillərin də hər birinin həm general övladları, həm də silsilə təşkil edən zabitləri olmuşdur. General Naxçıvanskilər arasında Heydər Əliyev Hüseyn xan Naxçıvanskinin və Cəmşid xan Naxçıvanskinin də adlarını çəkmişdir. Qeyd etmək lazımdır ki, onların hər ikisinin Azərbaycanın hərb tarixində xüsusi yeri vardır və hər ikisi də xidməti vəzifəyə sədaqət nümunəsidir. Hüseyn xan Naxçıvanski yalnız Rusiya ordusu tərkibində xidmət etmişdisə, Cəmşid xan Naxçıvanskiyə həm Cümhuriyyət ordusunun tərkibində, həm də Sovet Azərbaycanının ordusu tərkibində xidmət etmək nəsib olmuşdur. Hüseyn xan Naxçıvanski Rusiya ordusu sıralarında tam general (general-polkovnik) rütbəsinə layiq görülmüş ilk azərbaycanlılardan biridir və nail olduğu bu yüksək rütbə ilə Azərbaycan övladlarının hansı hərbi istedada malik olduğunu nümayiş etdirdi. 1863-cü ildə anadan olmuş Hüseyn xan

Naxçıvanskinin hərbi istedadı I Dünya müharibəsi illərində xüsusi ilə parlayırdı. Həmin vaxta kimi kifayət qədər maraqlı hərbi xidmət yolu keçmiş Hüseyn xan hələ I Dünya müharibəsi başlamamış general-leytenant rütbəsinə layiq görülmüşdü. Müharibə başlayanda isə o, Rusiya ordusunun 2-ci süvari diviziyasının komandiri idi. 1914-cü ilin oktyabrında isə Hüseyn xan 2-ci süvari korpusunun komandiri təyin edildi. Bir alayı azərbaycanlılardan təşkil edilmiş "Vəhşi diviziya" da bu korpusun tərkibində müharibəyə qatılmışdı. Göstərdiyi şücaətə görə Hüseyn xan elə 1914-cü ilin oktyabr ayında "Müqəddəs Georgi" ordeninin 3-cü dərəcəsinə layiq görüldü. Həmin ilin noyabr ayında Hüseyn xan "Müqəddəs Vladimir" ordeninin 2-ci dərəcəsi ilə də təltif olundu. 1915-ci ildə general-adyutant, 1916-cı ildə isə tam süvari generalı rütbəsinə layiq görülməsi (103) də Hüseyn xan Naxçıvanskinin xidməti uğurlarının sübutudur

Heydər Əliyevin qürur mənbəyi kimi qeyd etdiyi generallar nəsli və generallar Azərbaycanın hərbi irsini daha da zənginləşdirdilər, Azərbaycanın hərb tarixinə yeni bir məzmun gətirdilər və sübut etdilər ki, azərbaycanlıların hərbi keyfiyyətləri son dərəcə yüksəkdir. Onlar əvvəlki hərbi ənənələri yaşatdıqları kimi, özləri də zəngin hərbi irs miras qoyub getdilər.

Heydər Əliyevin öz çıxışlarında adlarını təkrar-təkrar çəkdiyi zabitlər və generallar arasında Səməd bəy Mehmandarovla Əliağa Şıxlinski xüsusi yer tuturlar. Ölkə Prezidenti bu generalları həm I Dünya müharibəsinin iştirakçıları kimi, həm də Azərbaycan Xalq Cümhuriyyətinin iştirakçıları kimi xatırlayırdı. Qeyd etmək lazımdır ki, bu generalların hər ikisi general Hüseyn xan Naxçıvanski kimi azərbaycanlılar arasında nizami hərbin zirvəsidir, yeni bir məktəbin yaradıcılarıdır, ən başlıcası isə müstəqil Azərbaycanın milli ordusunun təşkilatçılarıdır. Bu generalların

hər ikisi uzun xidmət yolu keçmişdir. Onlar təkcə xidməti vəzifəsinin icrasına sədaqət nümunəsi deyildilər, həm də yaradıcı hərbçilər idilər, təşəbbüskarlıqları və novatorluğu ilə xidmət yoldaşlarını da öz arxalarınca apara bilirdilər. Harada xidmət etməsindən asılı olmayaraq, onların hər ikisi rus komandanlığının hörmət və ehtiramını qazanmışdılar.

Heydər Əliyev bu generalların Port-Artur müharibəsinin iştirakçısı olmasını da xatırladırdı: "Rus ordusunda böyük hörmət qazanmış Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski tariximizdə adlarını çəkdiyim generallara nisbətən daha da tanışdırlar. Onlar Rusiya - Yaponiya müharibəsində iştirak etmişlər, qəhrəmanlıq nümunələri göstərmişlər, sonra isə 1918-ci ildən başlayaraq Azərbaycanda Silahlı Qüvvələrin yaranmasında böyük xidmətləri olmuşdur" (104).

Səməd bəy Mehmandarovla Əliağa Şıxlinskinin daha çox məşhur olmasını Heydər Əliyev də qeyd edirdi. Onlar bu şöhrəti Port-Artur cəbhələrində, xüsusilə də I Dünya müharibəsi cəbhələrində qazanmışdılar. Port-Artur cəbhələrində bu zabitlərin hər ikisi tapşırılan vəzifələri prinsipiallıqla icra etməklə bərabər, düşmən qarşısında əzmkarlıq nümunəsi göstərdilər, güclü düşmən qüvvələri qarşısında rus komandanlığının süstlüyünə və təslimçiliyinə qarşı barışmazlıq nümayiş etdirdilər. Səməd bəy Mehmandarov Port-Artur cəbhəsində ikən general-mayor rütbəsinə layiq görüldü. Rus ordusunun Port-Arturda məğlub olmasına baxmayaraq, Səməd bəyin general rütbəsinə layiq görülməsi də onun bir hərbçi kimi malik olduğu potensialdan xəbər verirdi.

İstər S.Mehmandarovun, istərsə də Ə.Şıxlinskinin xidməti həyatının daha mühüm səhifələrindən biri I Dünya müharibəsi ilə bağlıdır. Əslində, bu müharibə Azərbaycanın hərbçilər nəslinin yetişməsinin sınaq meydanı oldu. Müharibənin başlanğıcında Ə.Şıxlinski Petroqradın topçu rəisi idi. Sonrakı illərdə o, bir

neçə məsul vəzifəyə təyin edildi və 1917-ci ilin aprel ayında general-leytenant rütbəsinə layiq görüldü. Mehmandarov isə I Dünya müharibəsi başlayanda piyada diviziyasının komandiri idi. 1915-ci ildə o artıq 2-ci Qafqaz korpusuna rəhbərlik edirdi. Elə həmin ildə də o, tam artilleriya generalı rütbəsinə layiq görüldü. Səməd bəy Mehmandarov Rusiya ordusu sıralarında tam general rütbəsinə layiq görülən ilk azərbaycanlı idi. I Dünya müharibəsinin gedişində S.Mehmandarovla Ə.Şıxlinski istedadlı və təcrübəli generallar kimi tanındılar və tapşırılan sahələrdə hərbi uğurları təmin etdilər. Yəni artıq elə I Dünya müharibəsi bu generalları yetkin zabitlər kimi hərb tarixinə bəxş etdi.

Bu generalların daha böyük uğurları isə Azərbaycan Xalq Cümhuriyyətinin müstəqil milli ordusunun formalaşdırılması sahəsindəki xidmətləri ilə bağlıdır. Amma xronoloji ardıcıllığa riayət etməli olsaq, qeyd etməliyik ki, Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin ordusunun formalaşdırılmasından əvvəl Qafqaz İslam Ordusunun Azərbaycandakı fəaliyyətinə, Əlahiddə Azərbaycan Korpusunun yaradılmasına da öz çıxışlarında toxunmuşdur. Əlahiddə Azərbaycan Korpusu Müsəlman korpusunun davamı olduğu nəzərə alınarsa, onda həm Müsəlman korpusunun, həm də Qafqaz İslam Ordusunun Azərbaycanın hərb tarixində əhəmiyyətli yerə malik olduğunu Heydər Əliyevin fikirlərindən də görmək mümkündür.

Müsəlman korpusunun təşkili 1917-ci ilin fevralında Rusiyada baş verən hakimiyyət dəyişikliyindən sonra Cənubi Qafqazda cərəyan edən proseslərin məntiqi nəticəsi idi. Həmin dövrdə vətən axtarışında olan erməni millətçi dairələri yaranmış ağır şəraitdən istifadə edərək Azərbaycan torpaqlarında öz dövlətlərini yaratmaq niyyətlərini gizlətmirdilər. Bu məqsədlə Azərbaycanlı əhaliyə qarşı terror və soyqırımının həyata keçirilməsi xalqı çox

ağır təhlükələrlə üzbəüz qoymuşdu. Çox böyük sayda olan erməni silahlı dəstələrinin təcavüzünün qarşısını almaq və eləcə də genişlənməkdə olan bolşevik-daşnak irticasını buxovlamaq üçün Azərbaycanın istiqlal mübarizləri hələ Azərbaycanın müstəqilliyi elan edilməzdən əvvəl milli tərkibli qoşun hissələrinin yaradılması tələbini irəli sürürdülər. Bu tələblərin nəticəsi kimi, Cənubi Qafqazdakı hakimiyyət orqanı olan Zaqafqaziya Komissarlığı 1917-ci il dekabrın 11-də milli tərkibli qoşun strukturlarının, o cümlədən Müsəlman korpusunun təşkili barəsində qərar qəbul etdi. Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra isə Azərbaycan hökumətinin 26 iyun 1918-ci il tarixli qərarı ilə Müsəlman korpusu Əlahiddə Azərbaycan Korpusu adlandırıldı. Azərbaycan Respublikası Prezidentinin 1998-ci ilin mayında imzaladığı fərmanla 1918-ci ilin iyun ayının 26-sı Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü kimi qeyd edilməyə başlanmışdır. Heydər Əliyev qeyd edirdi ki, Azərbaycan Xalq Cümhuriyyətinin ənənələrinə hörmət və sədaqət nümayiş etdirərək həmin tarixi hadisənin baş verdiyi günü Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü kimi elan etmişdir (105). Bununla, əslində, müasir Azərbaycan Ordusu Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılmış ordunun varisi kimi qəbul edilmiş və onların arasında bir canlı əlaqə yaradılmışdır. Bu qərarla həm də Heydər Əliyevin qeyd etdiyi kimi, Cümhuriyyətin ordu quruculuğu dəyərlərinə bir sədaqət ifadə olunmuşdur.

Cümhuriyyətin ordu quruculuğunda bu gün üçün də əhəmiyyət kəsb edən böyük dəyərlər mövcuddur və güclü ordunun formalaşdırılması üçün həmin dəyərlər diqqətdən qaçırılmamalıdır. Amma onu da qeyd etmək lazımdır ki, Cümhuriyyət ordusunun quruculuğunun ilkin mərhələsi Qafqaz İslam Ordusunun dövrünə düşür və bu dövr, o cümlədən Azərbaycan hökumətinin

dəvəti əsasında Türkiyənin hərbi qüvvələrinin Azərbaycan xalqının köməyinə yetişməsi də Heydər Əliyev tərəfindən yüksək qiymətləndirilirdi.

Tarixdən məlumdur ki, hələ müstəqilliyini əldə etməzdən əvvəl Azərbaycanın ciddi ərazi problemləri var idi. Azərbaycanın mərkəzi şəhəri olan Bakı şəhəri bolşevik-daşnak qüvvələrinin əlində idi və onların tabeliyi altında burada çox böyük hərbi qüvvələr cəmlənmişdi. Bu qüvvələr Bakının milli qüvvələrin təsiri altında olmasına heç cürə razı deyildilər və öz məqsədlərinə nail olmaq üçün onlar 1918-ci ilin martında Bakıda azərbaycanlı əhaliyə qarşı amansız soyqırımını həyata keçirdilər. Azərbaycanın müstəqilliyi ərəfəsində Lənkəran bölgəsi əvvəlcə bolşevik, sonra isə denikinçi qüvvələrin nəzarəti altına keçdi və onlar da Azərbaycan xalqının bu bölgəyə olan haqqını tanımaq istəmirdilər. Nəhayət, Qarabağın dağlıq hissəsi də erməni-daşnak qüvvələrinin nəzarəti altına düşmüşdü. Təşkilinə yenicə başlanmış Müsəlman korpusunun isə elə bir gücü yox idi ki, Azərbaycan xalqına düşmən olan bu qüvvələrə müqavimət göstərə bilsin. Belə bir vəziyyətdə müstəqilliyinin ilk günlərini yaşayan Azərbaycan hökuməti hərbi yardım üçün Osmanlı Türkiyəsi hökumətinə müraciət etdi. Bu müraciətin nəticəsi kimi, Azərbaycana Türkiyə hərbi qüvvələri göndərildi. "Bəli, o zaman Azərbaycan, Bakı bir çox ölkələrin maraq dairəsinə çevrilmişdi. Burada, azərbaycanlıların qədim torpağında yadellilər hökm sürmək istəyirdilər, Azərbaycanı, Bakını öz əllərinə keçirmək istəyirdilər. O vaxt döyüşlərdə bizə yardım etməyə gələn türk ordusunun cəngavər, qəhrəman oğulları olmuşdur. ...Nuru Paşanı, Xəlil Paşanı Bakıda indiyə qədər hamı xatırlayır. Vaxt keçib, zaman keçib, sovet hakimiyyəti illərində bu tarix tamamilə pozulub, qaralanıb, bu tarixi öyrənməyə insanların imkanları olmayıb. Ancaq o adlar,

həmin adların arxasında olan qəhrəman türk əsgərləri xalqımızın qəlbində yaşayıbdır" (106).

Heydər Əliyev Nuru paşanın və Xəlil paşanın adlarını ehtiramla xatırlayırdı. Ölkə rəhbərinin də qeyd etdiyi kimi, bu generalların hər ikisinin Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinin möhkəmləndirilməsində, Azərbaycan xalqının bolşevik-daşnak zülmündən xilas edilməsində böyük tarixi xidmətləri var idi. Nuru paşa Azərbaycanda yerli qüvvələrdən və Türkiyədən gəlmiş hərbi qüvvələrdən təşkil olunmuş Qafqaz İslam Ordusunun komandanı idi. Xəlil paşa isə Qafqaz İslam Ordusunun daxil olduğu Şərq Ordular Qrupunun komandanı idi. Nuru paşanın da, Xəlil paşanın da bu vəzifələrə təyin olunması Türkiyə hərbiyyə naziri Ənvər paşa tərəfindən həyata keçirilmişdi. Onların hər ikisi Ənvər paşanın etibar etdiyi adamlar idi və Ənvər paşa Azərbaycan xalqına yardım göstərilməsi üçün Nuru paşa ilə Xəlil paşanın güclərini əsirgəməyəcəyinə şübhə etmirdi. Azərbaycan xalqına bolşevik-daşnak qüvvələri ilə mübarizədə yaxından göstərdikləri tarixi xidmətlərinə görə Heydər Əliyevin dediyi kimi həm Nuru paşa, həm də Xəlil paşa Azərbaycanda minnətdarlıqla xatırlanırdılar. Respublika Prezidenti bir məqamı da çox incəliklə qeyd edirdi ki, Nuru paşaya və Xəlil paşaya olan ehtiram həm də onların adlarının arxasında dayanan qəhrəman türk əsgərlərinin xidmətlərinə olan ehtiram idi. Vaxtilə Azərbaycanı qorumaq üçün Azərbaycana gəlmiş türk əsgərlərinin tarixi xidmətlərinə görə Heydər Əliyev bütün türk xalqına minnətdarlıq edirdi: "Mən sizə Azərbaycan xalqı adından bir daha təşəkkür edirəm. Bütün türk xalqına təşəkkür edirəm. Burada şəhid olmuş türk əsgərlərinin qohum-əqrəbasına öz təşəkkürümü bildirirəm və bu əsgərlərin simasında qəhrəman türk ordusuna, bu gün dünyanın ən güclü ordularından biri olan Türkiyə Cümhuriyyətinin

ordusuna təşəkkürümü bildirirəm və bu şəhidlərə Allahdan rəhmət diləyirəm" (107).

Elə bu minnətdarlığın ifadəsi kimi, 2000-ci ildə Bakının Şəhidlər xiyabanında Azərbaycanda şəhid olmuş türk əsgərlərinin xatirəsinə abidə ucaldıldı və həmin abidənin xatirə kitabına Heydər Əliyev belə sözlər yazdı: "Azərbaycan xalqının milli azadlığı uğrunda şəhid olan türk əsgərinə, azərbaycanlı döyüşçülərə Allahdan rəhmət diləyirəm. H.Əliyev. Azərbaycan Respublikasının Prezidenti. 9.04.2000" (108).

Birinci Dünya müharibəsinin nəticələrinə görə tezliklə türk hərbi hissələri Azərbaycanı tərk etməli oldular. Bundan sonra Azərbaycanda ordu quruculuğu bütünlüklə Azərbaycan hökumətinin üzərinə düşdü. "1918-ci ildə Xalq Cümhuriyyəti, Azərbaycanın ilk demokratik hökuməti dövlət quruculuğu işini çox mürəkkəb və çətin bir dövrdə apardığı zaman Silahlı Qüvvələrin yaranmasına və ordu quruculuğuna xüsusi əhəmiyyət vermiş, qayğı göstərmişdir. Xalq Cümhuriyyətinin iki illik - iki il tam olmamışdır - tarixini bu gün vərəqləyərkən ordu quruculuğu sahəsində nə qədər dəyərli işlər gördüyü, doğrudan da, böyük hörmət hissi doğurur.

Azərbaycanın ilk hərbi naziri – Baş nazir Fətəli xan Xoyski olmuşdur. Ancaq az bir müddətdən sonra Səməd bəy Mehmandarov hərbi nazir, Əliağa Şıxlinski hərbi nazirin müavini təyin edilmişlər. Baş qərargahın rəisi isə polyak millətindən olan Sulkeviç olmuşdur. Onlar çox işlər görmüşlər. O vaxt gənc, müstəqil Azərbaycan Ermənistan təcavüzünə, Ermənistanın Azərbaycanda törətdiyi təxribatlara qarşı mübarizə, döyüşlər aparırdı və uğurlu işlər görürdü" (109).

Həyatının sonuncu ilində, 2003-cü ildə Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan Respublikasının Silahlı Qüvvə-

lərinin şəxsi heyətinə göndərdiyi təbrikində isə Heydər Əliyev Cümhuriyyət dövründə aparılan ordu quruculuğunu belə qiymətləndirirdi: "Azərbaycanda ordu quruculuğu prosesi çox çətin, mürəkkəb və ziddiyyətli mərhələlərdən keçmişdir. Xalq Cümhuriyyətinin mövcud olduğu 1918–1920-ci illərdə Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski və digər peşəkar hərbçilərin rəhbərliyi altında yüksək intizama və hərbi hazırlığa malik, döyüş qabiliyyətli milli ordu hissələri formalaşdırılmışdı. Azərbaycanın yeni yaradılmış ordusu Ermənistanın təcavüzünün qarşısının alınması, Qarabağda və digər ərazilərdə separatçı hərəkatların yatırılması və ölkə sərhədlərinin qorunmasında mühüm rol oynamış, öz hərbi qabiliyyətini nümayiş etdirə bilmişdi" (110).

Bu fikirlərin hər ikisində Cümhuriyyətin ordu quruculuğu Heydər Əliyev tərəfindən çox yüksək qiymətləndirilmişdir. Cümhuriyyətin bu tarixini Azərbaycan xalqının ümummilli lideri böyük ehtiramla xatırlayırdı. Heydər Əliyev xüsusi olaraq vurğulayırdı ki, çətin şəraitdə olmasına baxmayaraq, Cümhuriyyət ordusunun rəhbərləri yüksək intizama və hazırlığa malik, döyüş qabiliyyətli milli ordu hissələri formalaşdırdılar. Bu qüvvələr isə uğurlu işlər gördülər və Ermənistanın Azərbaycana qarşı törətdiyi təxribatlara qarşı mübarizə apardılar. Heydər Əliyev tərəfindən söylənən bu fikirlər Cümhuriyyət ordusunun formalaşma və fəaliyyət tarixinə qısa bir baxışdır. Onun bu müxtəsər fikirlərinin arxasında isə son dərəcə gərgin və yorulmaz bir fəaliyyət dayanır. Həmin yorulmaz fəaliyyətin nəticəsində Azərbaycanda çox qısa bir zamanda döyüşkən bir ordu formalaşdı və bu ordu Azərbaycanı bolşevik işğalına qədər parçalanmaqdan və bölünməkdən qorudu, respublikanın bütün ərazisində Azərbaycan hökumətinin hakimiyyətini bərqərar etdi.

Heydər Əliyev Cümhuriyyət ordusunun təşkilində böyük xidmətləri olan şəxslərin də adlarını çəkirdi. O cümlədən, Fətəli

xan Xoyski, Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski, Məmməd bəy Sulkeviç və digərləri. Xidmətləri ilə bu gün də millətə və Vətənə sədaqət nümunəsi sayıla biləcək belə peşəkar hərbçilərin (F.X.Xoyski istisna olmaqla) sayı isə çox idi. Cümhuriyyət hərbinin şərəfli tarixinin yaradılmasında onların hər birinin böyük xidmətləri vardır və onların zəhməti ilə yaradılan Cümhuriyyətin hərb tarixini, Cümhuriyyətin hərbi irisini Heydər Əliyev də təqdir edirdi. Səməd bəy Mehmandarovla Əliağa Şıxlinski isə peşəkarlığı ilə, təşkilatçılığı ilə, təşəbbüskarlığı ilə, bütün ordunu arxasınca aparmaq qabiliyyətinə görə nəinki Cümhuriyyət hərbinin, bütünlükdə Azərbaycanın nizami hərbinin zirvəsini təşkil edirlər. Onlar gələcək üçün də əhəmiyyətini itirməyəcək çox zəngin bir irs qoyub getmişlər və həyatını hərb işinə həsr edən hər bir azərbaycanlı zabit tərəfindən bu irs layiqincə öyrənilməlidir. Heydər Əliyevin Cümhuriyyətin hərb tarixinə verdiyi qiymətdən əldə edilən qənaət də bunu təsdiq edir.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra iki il ərzində Azərbaycan formal müstəqilliyə malik oldu. Azərbaycanı işğal edən bolşevik qüvvələri işğal etdikləri xalqlara azadlıq gətirmələri görüntüsü yaratmaq məqsədilə Azərbaycanın yerli hakimiyyət strukturlarını təşkil etdilər, onlara müəyyən səlahiyyətlər verdilər. O cümlədən 1920-1922-ci illərdə Azərbaycanda Hərbiyyə və Bəhriyyə Komissarlığı da mövcud oldu. Cümhuriyyət dövründən qalmış olan hərbi hissələr, o cümlədən də yeni yaradılan hərbi hissələr bu Komissarlığa tabe idi. Komissarlığın rəhbəri də milli kadr idi. Əvvəlcə Çingiz İldırım, sonra da Əliheydər Qarayev Azərbaycanın hərbiyyə və bəhriyyə komissarı təyin edildilər. Bir daha qeyd edilməlidir ki, Azərbaycanda təşkil edilmiş milli hökumət qurumları mərkəzin əlavəsindən başqa bir şey deyildi və bu qurumların mərkəzin siyasətindən kənara çıxmaq güclə-

ri və səlahiyyətləri yox idi. Bununla belə, Heydər Əliyev Azərbaycanın formal müstəqilliyinin mövcud olduğu illərdə də hərbi sahədə görülən işlərə biganə yanaşmağın tərəfdarı deyildi. "Xalq Cümhuriyyəti süqut edəndən sonra Azərbaycan Sovet Sosialist Respublikası yaşadığı əvvəlki iki il müddətində ordu quruculuğu ilə məşğul olmuşdur. O vaxt, 1920-ci ildə Azərbaycan Sovet Sosialist Respublikasının Hərbi Dəniz Nazirliyi yaranmışdı. Azərbaycan öz Silahlı Qüvvələrini yaradır və inkişaf etdirirdi. Doğrudur, bu ordu dərhal sonra XI Qızıl Ordunun tərkibinə keçmişdi. Ancaq buna baxmayaraq, bu, Azərbaycan Respublikasının özünün yaratdığı hərbi hissələr olmuşdur. Xalq Cümhuriyyəti kimi, Azərbaycan Sovet Sosialist Respublikasının hökuməti də Azərbaycanın mövcud olan hərbi mütəxəssislərindən istifadə etmişdir.

Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski uzun müddət çar Rusiyasının ordusunda xidmət edəndən, Xalq Cümhuriyyəti dövründə müstəqil Azərbaycan Ordusunun yaranmasına rəhbərlik edəndən sonra Azərbaycan Sovet Sosialist Respublikasında da ordu qurmaq, yaratmaq, azərbaycanlılara hərbi təhsil, təlim vermək işləri ilə məşğul olmuşlar. Bu, çox maraqlıdır, səciyyəvidir, amma eyni zamanda təbiidir. Çünki hərbi peşə, ixtisas birinci növbədə hərbi təhsil, təcrübə, bilik, hərbi təlim-tərbiyə, döyüş təcrübəsi tələb edir. Bunlar olmayanda ordu qurmaq, Silahlı Qüvvələr yaratmaq mümkün deyildir. Əgər bunlar, peşəkar hərbçilər varsa, ordu quruculuğunda onlardan səmərəli istifadə etmək olar. Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski buna əyani sübutdur.

Qeyd etdiyim kimi, Cəmşid Naxçıvanski Naxçıvan xanları sülaləsindən çıxmış generallardan biridir. O, çar Rusiyası ordusunda xidmət etmiş, Xalq Cümhuriyyəti zamanı Azərbaycanın diviziya komandiri olmuş və Qarabağda erməni təxribatçılarına, təcavüzkarlarına qarşı döyüşlər aparmış, sonra isə sovet ordusun-

da xidmət etmişdir. O, nə qədər böyük təcrübəli bir insan olmuşdur ki, o vaxt Sovetlər İttifaqının ən yüksək hərbi məktəbi olan Frunze adına Moskva Hərbi Akademiyasında kafedra müdiri vəzifəsində işləmişdir" (111).

Heydər Əliyevin haqqında danışdığı bu dövr istər Azərbaycan tarixi, istərsə də Azərbaycanın hərb tarixi üçün kifayət qədər maraqlı və ziddiyyətli bir dövrdür. Çünki siyasi mahiyyətinə, ideoloji ziddiyyətlərinə, mərkəzin diktat xarakterinə baxmayaraq, bolşevizm ideologiyasına aldanmış olan müəyyən milli qüvvələr Azərbaycanın hüquqlarının qorunub saxlanılması üçün müəyyən cəhdlər göstərməyə çalışırdılar. Bu, ordu quruculuğunda da belə idi. Erməni daşnaklığı ilə çulğaşmış olan bolşevizmin işğalçı mahiyyətinə baxmayaraq, sovetləşdirilməkdə olan Azərbaycan Ordusunda da bir sıra milli keyfiyyətlərin qorunmasına cəhd göstərilirdi. Baxmayaraq ki, bolşevik işğalının elə ilk günlərindən Cümhuriyyət ordusunun hərbi qüvvələri, bu qüvvələrin zabit və əsgərləri kütləvi qırmızı terrora məruz qaldılar. Hətta Əliheydər Qarayevin rəhbərliyi altında Azərbaycanın sovetləşmiş hərbi hissələri Qarabağda erməni-daşnak qüvvələrinə qarşı çox ağır döyüşlər apardılar. Yəni Nəriman Nərimanov və bolşevizmə tapınmış olan bir sıra şəxslər, o cümlədən də elə sonradan Azərbaycanın hərbiyyə və bəhriyyə komissarı təyin edilmiş Əliheydər Qarayev yeni şəraitdə bolşevizmin Azərbaycana qarşı siyasətində milli maraqların qorunmadığının şahidi oldular. Erməni-daşnak qüvvələri Azərbaycanın sovetləşməsindən əvvəl Azərbaycana qarşı hansı münasibətdə idilərsə, Azərbaycanın sovetləşməsindən sonra da həmin münasibətdə qaldılar. Hətta müəyyən hallarda bolşevizmə arxalanmaqla Azərbaycana qarşı daha ifrat mövqe tutdular. Bu qüvvələrin Qarabağın dağlıq hissəsindəki yeni təcavüzünə qarşı da bolşevizm rəhbərliyi tərəfindən aydın və kəskin

münasibət bildirilmədi. Onda Cümhuriyyət dövründən qalmış hərbi qüvvələrin köməyi ilə Qarabağın erməni qüvvələrindən qorunması üçün tarixi xidmət göstərildi.

Nəriman Nərimanov kimi şəxslər Azərbaycanın qırmızılaşdırılmış ordusunda da milli ruhun az-çox qorunmasına çalışdılar. Azərbaycanın böyük sərkərdələri Səməd bəy Mehmandarovla Əliağa Şıxlinskinin bolşevizm terrorundan qorunub saxlanılması və onların Azərbaycan xalqına qaytarılması da bu cəhdlərin nəticəsi idi. Bu sərkərdələr hətta yeni şəraitdə Azərbaycan hərbçilərinin yetişdirilməsinə cəlb edildilər. Bu istiqamətdə də həm Səməd bəy Mehmandarov, həm də Əliağa Şıxlinski son dərəcə əhəmiyyətli xidmətlər göstərdilər. Onlar Birləşmiş Komandirlər Məktəbində təlim-tərbiyə ilə məşğul olmaqla təcrübələrini, biliklərini yeni hərbçilərə verdilər ki, Heydər Əliyev də onların bu xidmətini yüksək qiymətləndirirdi.

Sovetləşmənin ilk dövrünün parlaq hərbi nümayəndələrindən biri olan Cəmşid Naxçıvanskinin bir hərbçi kimi fəaliyyəti və onun Azərbaycanda hərbi ənənələri davam etdirmək sahəsindəki xidmətləri də Heydər Əliyev tərəfindən yüksək qiymətləndirilirdi. Cəmşid Naxçıvanski peşəkar hərbçi, böyük təşkilatçı idi. O həm Azərbaycanda yüksək hərbi vəzifələrdə, həm də Moskvada M.Frunze adına Ali Hərbi-Siyasi Akademiyada yüksək vəzifələrə təyinat almışdı. Kifayət qədər cavan yaşlarında o, qırmızı terrorun qurbanı oldu. Qırmızı terrorun qurbanı olması da Cəmşid Naxçıvanskinin milli bir hərbçi olmasına sübutdur. Rejim bir sıra digər hərbçilər kimi onun da milliliyindən qorxaraq həyatına son qoydu. "Təəssüf etməliyik ki, belə kadrların bəziləri, bəlkə də, çoxları sonralar sovet hakimiyyətinin repressiya qurbanları oldular. Onların çoxu 30-cu illərdə öldürüldülər, məhv oldular, o cümlədən Cəmşid Naxçıvanski də 1937-ci ildə repressiya qurbanı oldu" (112).

Cəmşid Naxçıvanskinin adı sovet Azərbaycanın mövcudluğunun ilk dövründəki hərb işinin simvoluna çevrilmişdir və Azərbaycanın XX əsrin 20-30-cu illərinin hərb tarixindən danışarkən göz önünə gələn ilk hərbçi də məhz Cəmşid xan Naxçıvanskidir. Heydər Əliyev də Cəmşid Naxçıvanskinin hərbi keyfiyyətlərini layiqincə qiymətləndirirdi. Bunun nəticəsi idi ki, 1971-ci ildə Heydər Əliyevin xüsusi səyləri ilə Bakıda əsası qoyulan hərbi-internat məktəbinə də onun təşəbbüsü ilə Cəmşid Naxçıvanskinin adı verilmişdi.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra müstəqil Azərbaycan Ordusunun məhvi xətti götürüldü və çox tezliklə də buna nail olundu. Yeni tarixi şərait azərbaycanlılar arasında hərb işi üçün tamamilə yeni vəziyyət yaratdı. Heydər Əliyev bu dövrün hərbi irsinin də doğru-düzgün öyrənilməsinin vacibliyini qeyd edirdi. Hərbi işlə bağlı bu dövrün xarakterik xüsusiyyəti ondan ibarət idi ki, bir tərəfdən hərbi işdə olan azərbaycanlıların milli qüvvələr kimi formalaşmasına imkan verilmirdi, digər tərəfdən isə belə bir şəraitdə də azərbaycanlılar hərbi sahədə nəyə qadir olduqlarını nümayiş etdirməyə çalışırdılar. “Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğalından sonra müstəqilliyin ən mühüm atributu olan milli ordu hissələri ləğv edilmiş, azərbaycanlılar Sovet Silahlı Qüvvələri sıralarında hərbi xidmətə cəlb edilmişdir. Azərbaycanın SSRİ tərkibində olduğu illərdə milli zabit korpusunun formalaşmasına, azərbaycanlıların yüksək hərbi vəzifələrə irəli çəkilməsinə müxtəlif süni maneələr yaradılırdı” (113).

Heydər Əliyevin digər bir fikri isə aşağıdakı kimidir: “Biz ortada heç bir şeyi itirməməliyik. ...Azərbaycan xalqı keçmiş dövrlərdə də, öz ordusu olduğu zamanda da güclü ordu yaratmağa qabil olubdur. Azərbaycan xalqı hətta müstəqil olmadığı halda da, başqa dövlətin tərkibində, yaxud başqa bir rejimdə yaşadığı

zamanda da yenə hərbi peşəni mənimsəməyə çalışıb və çox gözəl nümunələr göstəribdir" (114).

Bu mənada Heydər Əliyev Azərbaycan övladlarının Böyük Vətən müharibəsindəki iştirakına xüsusi yer ayırırdı. Onun çıxışlarında həm azərbaycanlıların bu müharibədə iştirakı və onların göstərdikləri qəhrəmanlığın, arxa cəbhədə qələbənin əldə edilməsinə Azərbaycan xalqının verdiyi töhfələrin, həm də Böyük Vətən müharibəsinə olan mövcud münasibətlərin geniş təhlili aparılmışdır. Bütünlükdə bu müharibə azərbaycanlılar arasında hərb işinin yeni və zəngin bir səhifəsidir və Heydər Əliyev də bu səhifənin obyektivcəsinə, milli dəyərlər baxımından qiymətləndirilməsinə təkid edirdi.

İlk növbədə Heydər Əliyev Böyük Vətən müharibəsinə münasibətdə təftişçi baxışlara yol verilməsini qətiyyətlə rədd edirdi və tarixi hadisələrə, tarixi proseslərə dəyişən siyasi baxışlara görə deyil, dövrün obyektiv reallıqlarına uyğun olaraq qiymət verilməsini istəyirdi. Heydər Əliyevə görə, yeni tarixi şəraitdə Böyük Vətən müharibəsinə münasibətdə yeni yanaşmaların ortaya çıxması, Azərbaycanın həmin dövr tarixinin birtərəfli qiymətləndirilməsi Azərbaycan xalqının bu müharibənin aparılması ilə bağlı ortaya qoyduğu xidmətlərin üzərindən xətt çəkilməsi olardı. "...Bu qələbə haqqında son illərdə cürbəcür söhbətlər gedir. Hətta xatirimdədir ki, deyəsən, ya 1991-ci, ya da 1992-ci ildə bu bayramı Azərbaycanda heç qeyd etməmişdilər. Hər halda dəqiq xatirimdədir ki, demişdilər belə bir qələbə yoxdur. Ancaq mən o vaxt Naxçıvanda yaşayırdım və biz bu qələbəni orada qeyd edirdik. ...Kimsə hesab edir ki, bu, Böyük Vətən müharibəsi olmayıb. Yaxşı, bəs nə müharibəsi olub? …Son illərdə tariximizi təhrif etməyə cəhdlər çox olub. Ancaq bu da yeni bir şey deyil. Təəssüf ki, elə XX əsrin əvvəllərindən, daha dəqiq desək, ola bilər, 1920-

ci ildən tariximizi təhrif edə-edə gəlmişik. Tariximizi müəyyən dövrdə bir qüvvələr təhrif edirdi, son illərdə, xüsusən 1991, 1992, 1993-cü illərdə isə başqa cür təhrif etməyə başladılar ... biz gərək tarixi təcrübədən dərs götürək. Əgər 1920-ci ildən sonra – kommunist, sosialist rejimi vaxtında keçmiş tariximiz təhrif olunmuşdursa, marksizm-leninizm ideologiyasına uyğunlaşdırılmışdısa, uyğun gəlməyənlər tarix kitablarımızdan çıxarılmışdırsa və biz indi bunu etiraf ediriksə, demək, bundan sonra təhrifə yol vermək olmaz. Tariximiz o vaxt bir cür təhrif olunub, indi isə meydana yeni ideoloqlar çıxıb. ... 1941-45-ci illər müharibəsi Azərbaycan üçün də Böyük Vətən müharibəsidir. Bu, İkinci dünya müharibəsidir. Dünya tarixində, bəşəriyyət tarixində bu, ən dəhşətli, ən ağır, ən genişmiqyaslı müharibə olubdur. Burada. nə qədər insanlar tələf olubdur. O vaxt biz hamımız Sovet İttifaqına daxil idik. Son tədqiqatlar göstərir ki, Sovet İttifaqının ərazisindən 27 milyon adam bu müharibədə həlak olubdur. Şübhəsiz ki, Avropa ölkələrindən də, digər ölkələrdən də çox adamlar həlak olublar. Bu müharibə Hitler faşizminə qarşı müharibə idi. Bu qələbə Hitler faşizmi üzərində qələbə idi. Bu, böyük qələbədir. Tarixdən bunu heç kəs silə bilməz və silməyə haqqı da yoxdur. Bu gün söhbətimizə başlayarkən mən dedim ki, tarixi təhrif edənlər keçmiş tariximizdən özlərinə dərs götürməlidirlər. Tarixi heç kəs təhrif etməməlidir. Heç kəs tarixi dəyişdirməyə çalışmamalıdır. Tarix necə varsa, elə də var. Həyatda nə olubsa, olubdur. Tarixin o parlaq səhifələrini bu gün kimsə utana-utana, çəkinə-çəkinə xatırlamamalıdır, əksinə, biz bu bayramı qürur hissi ilə qeyd etməliyik... Tarix tarixdir və 1941-1945-ci illər Azərbaycan xalqının tarixində də çox görkəmli yer tutur, xalqımızın tarixinin parlaq səhifələridir. Biz bunları böyük hörmət və ehtiramla xatırlamalıyıq. Bu dövrün insanlarını – həm həmin dövrdə döyüşən, həlak olanları,

cəbhədə yaralananları, həm də rəşadət göstərib bu gün yaşayanları həmişə xatırlamalı, onlara böyük hörmət və ehtiramımızı bildirməliyik" (115).

Heydər Əliyev bu müharibənin qələbə ilə başa çatdırılması üçün Azərbaycan xalqının xidmətlərini də yüksək qiymətləndirirdi və bu məsələyə obyektivcəsinə yanaşılmasının tərəfdarı idi. Onun fikrincə, Azərbaycanın bir sıra təsərrüfat sahələri var idi ki, müharibənin aparılmasında xüsusilə həlledici rola malik idi. O cümlədən neft hasilatı, bu neftin cəbhəyə çatdırılması üçün göstərilən fədakarlıqlar Azərbaycan üçün ibrətamiz bir fəaliyyət idi və belə bir fəaliyyətin təkrarlanmasına Azərbaycanın müstəqilliyinin ilk illərində də böyük ehtiyac var idi. "Burada tamamilə doğru deyildi ki, 1941-1945-ci illər müharibəsində Azərbaycan xalqının iştirakı təkcə cəbhədə döyüşməkdən ibarət olmayıb. Azərbaycanın nefti həmin müharibədə qələbənin əldə olunmasının əsasını təşkil edən amillərdəndir. Təsadüfi deyildir ki, Hitler və Hitler ordusu gəlib Bakını işğal etməyə, zəbt etməyə can atırdı. Hitler ordusu Bakını işğal edə bilsəydi, vəziyyət, bəlkə də, bambaşqa ola bilərdi. Tamamilə doğru deyildi ki, o vaxt Sovet İttifaqında hasil olunan neftin 70 faizini Azərbaycan verirdi. Bizim Azərbaycan neftçiləri bu nefti nə qədər əzab-əziyyətlə çıxarırdılar. Bilirsiniz ki, Qafqaza yol bağlanmışdı, Hitler ordusu gəlib Mozdokda durmuşdu. Burada dəmir yolu yox idi. Ancaq Xəzər dənizi, Orta Asiya vasitəsilə o dövrdə – o dövrü indiki dövrlə müqayisə etmək olmaz, çünki çətinliklər daha da çox idi – bütün çətinliklərin öhdəsindən gələrək neft də çıxarılırdı, cəbhəyə də göndərilirdi. Təkcə neft deyildi. O vaxt Azərbaycanın maşınqayırma zavodlarında silah istehsal olunurdu. Bu, Azərbaycan xalqının tarixidir. Azərbaycanın tarixində ən çox neft 1941-1945-ci illərdə çıxarılmışdır. Burada bizim insanlar – fəhlələr, mühəndislər, texniklər

çalışıblar, bunları unutmaq olarmı? ...Yaxud neftçilər, ümumiyyətlə, arxa cəbhədə çalışanlar unudulmamalıdır. Məsələn, yadınızdadır ki, o vaxtlar böyük alimlərimiz Yusif Məmmədəliyev, Əli Quliyev yüksək keyfiyyətli benzin ixtira etdikləri üçün Dövlət mükafatı almışdılar. Biz bunu unuda bilərikmi? Unuda bilmərik. Mənim xatirimdədir ki, böyük neftçi, çox təcrübəli insan Süleyman Vəzirov, Rüstəm İsmayılov müharibə vaxtı məhz neft hasilatı və cəbhəni neftlə təmin etmək sahəsindəki xidmətlərinə görə Sosialist Əməyi Qəhrəmanı adı almışdılar. ...Məsələn, Əliş Ləmbəranski o vaxtlar cəbhədə olmuşdu. Bakıya qayıtdıqdan sonra neft sənayesində çox böyük fəaliyyət göstərmişdir. ...Bəs necə demək olar, "bu qələbə bizim qələbə deyil" ki, böyük bəstəkarımız Üzeyir Hacıbəyov o vaxt öz şəxsi məvacibi, pulu ilə bir təyyarə alıb cəbhəyə göndərmişdi? Məgər Üzeyir Hacıbəyov bilmirdi ki, bunu nədən ötrü edir? Azərbaycandan müharibəyə tank alıb göndərənlər var idi. Respublikanın qabaqcıl əmək adamları, kəndlilər öz pulları ilə tank alırdılar, təyyarə alınmasına pul verirdilər, nə qədər vəsait toplanırdı. Bunların hamısını unutmaqmı olar? Bunlar bizim qardaşlarımız, atalarımız, babalarımız, vətəndaşlarımızdır, azərbaycanlılardır" (116).

Burada Heydər Əliyev Azərbaycan xalqının və respublika təsərrüfatının müharibəyə səfərbər olmasının müxtəsər mənzərəsini yaratmışdı. Respublika təsərrüfatının müharibəyə səfərbər edilməsi üçün bütün Azərbaycan gecəli-gündüzlü cəbhə üçün çalışırdı. Heydər Əliyev özü də bunların şahidi olmuşdu və ona görə də o, Azərbaycan xalqının bu misilsiz fədakarlığına kölgə salınmasına tərəfdar deyildi. Əksinə, tarixin bu səhifəsinin öyrənilməsinin zəruriliyini qeyd edirdi.

Digər çıxışlarının birində isə Azərbaycan təsərrüfatının cəbhə üçün fəaliyyətini Heydər Əliyev belə təsvir edirdi: "Mühari-

bənin uğurla aparılmasında və düşmən üzərində qələbə çalınmasında Azərbaycan Respublikasının xidmətləri arxa cəbhədə görülmüş işlərlə də bağlıdır. Müharibənin ilk günlərindən Azərbaycan Respublikasının bütün şəhər və kəndlərində, hər bir iş yerində insanlar qələbə naminə gecə və gündüz çalışmışlar. Bu qələbənin çalınmasında Azərbaycanın xüsusi rolu bir də ondan ibarətdir ki, Azərbaycan Respublikasının nefti o vaxtlar həmin müharibənin uğurla aparılması üçün ən mühüm amillərdən biri olmuşdur. Həmin dövrdə Sovetlər İttifaqında çıxarılan neftin 70 faizi Azərbaycanda hasil edilirdi. Bu qədər neft Azərbaycan neftçilərinin fədakar əməyi sayəsində istehsal olunurdu. Şübhəsiz, nəticə çıxarmaq çətin deyil ki, əgər Azərbaycan nefti olmasaydı, motorlar müharibəsi, texnika müharibəsi o qədər uğurlu və müvəffəqiyyətli ola bilməzdi. Azərbaycan neftçiləri gecə-gündüz neftin çıxarılması, emal olunması və çətin yollarla cəbhəyə göndərilməsi ilə məşğul idilər. Onların hər biri bu yolda canlarını qoyaraq faşizm üzərində qələbə çalınmasında səy göstərirdi. O vaxtlar Azərbaycan alimləri tərəfindən yüksək keyfiyyətli benzin, kerosin və başqa neft məhsulları ixtira olunaraq respublikamızda istehsal edilirdi. Azərbaycan Respublikasının sənaye müəssisələri, xüsusən maşınqayırma zavodları silah və sursat istehsalı ilə məşğul idi. Müharibə dövründə Azərbaycanda 130 növ silah və sursat istehsal olunaraq cəbhəyə göndərilirdi. Beləliklə, Azərbaycan Respublikasının vətəndaşları, azərbaycanlılar bu qələbənin çalınması üçün həm bilavasitə döyüşlərdə, həm də arxa cəbhədə çox işlər görmüş, böyük fədakarlıq nümayiş etdirmişlər" (117).

Azərbaycan vətəndaşlarının Böyük Vətən müharibəsi cəbhələrinə səfərbər olunmasını isə Heydər Əliyev bir çox çıxışlarında, o cümlədən radio və televiziya ilə Azərbaycan xalqına 2 noyabr 1993-cü il tarixli müraciətində bu gün üçün də örnək sayırdı. Xü-

susən, Azərbaycanın müstəqilliyinin ilk illərində orduda mövcud olan xaosun, fərariliyin aradan qaldırılmasında, insanlarda xidmətə məsuliyyətin yaradılmasında ölkə Prezidenti Azərbaycanın Böyük Vətən müharibəsi dövrünün bu təcrübəsini nümunə sayırdı.

Qeyd etmək lazımdır ki, Böyük Vətən müharibəsi illərində Azərbaycandan xidmətə çağırılanların sayı barəsində Heydər Əliyevin çıxışlarında 600 min və 700 min rəqəmləri vardır. Məlumdur ki, bu rəqəm 600 mindən çoxdur. Amma bu müharibədə azərbaycanlılar arasından könüllü, heç bir qeydiyyat olmadan iştirak edənlərin mövcudluğu da istisna olunmur. “İkinci Dünya müharibəsində, 1941-1945-ci illər Böyük Vətən müharibəsində Hitler faşizmi üzərində qələbə çalınmasında Azərbaycan Respublikasının, xalqımızın, respublikamızın vətəndaşlarının böyük rolu olmuşdur. Məhz buna görə bu günlər qələbənin 50 illik yubileyini böyük iftixar hissi ilə qeyd edir və onu xalqımız üçün, müstəqil Azərbaycan dövləti üçün böyük bayram hesab edirik. Müharibənin ilk günlərindən Azərbaycan xalqı, respublikamızın vətəndaşları da Hitler faşizminə qarşı döyüşlərə başladılar. Müharibənin ilk günlərində 40 min nəfərdən artıq Azərbaycan vətəndaşı könüllü olaraq cəbhəyə getməyə yazıldı. Həmin dövrdə 180 min adam xalq ordusuna yazılmışdır. 1941-45-ci illərdə və ondan da qabaq Azərbaycanın oğul və qızları döyüşlərdə vuruşmuş, böyük rəşadət və qəhrəmanlıqlar göstərmişlər. Həmin illərdə Azərbaycan Respublikasından 700 min nəfərə qədər adam cəbhəyə getmişdir. Onlardan 300 min nəfəri həlak olmuşdur. Azərbaycanlılar, bizim respublikadan cəbhəyə gedənlər igidliklə vuruşmuş, alman faşizminə qarşı müharibənin son gününə qədər amansız və cəsarətli mübarizə aparmış, qəhrəmanlıq nümunələri göstərərək qələbənin əldə olunmasına öz paylarını vermişlər. Respublikamızın on minlərlə vətəndaşı, azərbaycanlılar döyüş-

lərdə fərqləndiklərinə, qəhrəmanlıq göstərdiklərinə görə yüksək orden və medallarla təltif edilmişlər. Azərbaycandan cəbhəyə getmiş, döyüşlərdə qəhrəmanlıq göstərmiş 130 nəfər ən yüksək ada – Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Vətəndaşlarımızın bir qismi müharibədən əlil və şikəst qayıtmış, sonralar bunun nəticəsində də həyatdan getmişdir. Bu gün bizim aramızda müharibənin ağrılarını və dərdlərini öz üzərlərində daşıyanlar da çoxdur. Bir sözlə, Hitler faşizminə qarşı müharibədə Azərbaycan xalqı, respublikamızın vətəndaşları qəhrəmanlıq, şücaət göstərmiş və tariximizə çox dəyərli səhifə yazmışlar" (118).

Müharibə illərində azərbaycanlılardan ibarət bir neçə milli diviziya da təşkil edilmişdi və Heydər Əliyev həmin diviziyaların təşkilini də Azərbaycan övladlarının hərbi şücaətinin nümayişi baxımından əhəmiyyətli hadisə sayırdı. Bu diviziyaların təşkili həm də milli hərbi təfəkkürün inkişafında maraqlı bir hadisə idi və bu diviziyaların xidmət yolu isə azərbaycanlıların hərbi qabiliyyətinin və istedadının daha bir ifadəsi idi. "O illər Azərbaycan xalqının müharibədə iştirakı bir neçə xüsusi Azərbaycan diviziyalarının tərkibində olmuşdur. 1941-ci ildən başlayaraq Azərbaycanda 402-ci, 369-cu, 223-cü, 416-cı diviziyalar təşkil olunmuşdur və onların əksəriyyəti azərbaycanlılardan ibarət idi. Onlar Qafqazın müdafiəsində, sonra isə alman faşist qoşunlarının Sovet İttifaqı ərazisindən çıxarılmasında, hətta Berlinə qədər qovulmasında iştirak etmişlər. Bu diviziyalar vaxtilə, hələ 20-ci illərdə Azərbaycanda yaranmış 77-ci diviziyanın əsasında 1941-1944-cü illərdə yaranmış diviziyalar idi. 77-ci diviziya da çox böyük döyüş, qəhrəmanlıq yolu keçmişdir. 416-cı Taqanroq diviziyası Berlinə qədər getmişdir. 223-cü diviziya Belqradın alınmasında, Rumıniya və başqa ölkələrdə faşist ordularının məhv olunmasında iştirak etmişdir. Bunlar hamısı Azərbaycan xalqının

hərbi peşəyə bağlı və hərbi peşə kimi bir peşəyə yiyələnməyə qadir olduğunu əyani surətdə göstərir" (119).

Müharibənin qələbə ilə başa çatdırılmasında Heydər Əliyev hər bir azərbaycanlı döyüşçünün böyük şücaət göstərdiyini və onların qəhrəmanlıqları ilə Azərbaycan tarixinə dəyərli bir səhifə yazıldığını bildirirdi. Bu tarixi xidmətləri Heydər Əliyev bütünlükdə faşizmin qarşısının alınmasında Azərbaycan xalqının ortaya qoyduğu xidmətlər kimi xatırlayırdı. Ölkə başçısı Azərbaycan xalqının bu tarixi xidmətlərinə, hərb meydanında yaratdığı qəhrəmanlıqlara görə özünün qürur keçirdiyini bəyan edirdi. Eyni zamanda, Heydər Əliyev xalqın bu fədakarlığının gələcək nəsillərə nümunə olduğunu və onlar tərəfindən öyrənilməli olduğunu qeyd edirdi.

Müxtəlif çıxışlarında Heydər Əliyev müharibə illərində xüsusi qəhrəmanlıq göstərmiş azərbaycanlıların da adlarını böyük iftixarla çəkirdi və onların Azərbaycan xalqına başucalığı gətirdiyini söyləyirdi: "Azərbaycan oğulları alman faşizmi ilə aparılan döyüşlərdə böyük qəhrəmanlıq nümunələri göstərmişlər. Onların adları xalqımızın tarixində daim yaşayacaqdır. İsrafil Məmmədov, Qafur Məmmədov, Hüseynbala Əliyev, Mehdi Hüseynzadə kimi Sovet İttifaqı Qəhrəmanları, həqiqətən, böyük igidliklər göstərmişlər. O illərdə azərbaycanlılardan yüksək səviyyəli zabitlər və generallar da yetişmişdir. Həzi Aslanovun qəhrəmanlığı bütün dünyaya məlumdur. General Həzi Aslanov, general Akim Abbasov, general Mahmud Əbilov və bir çox başqa generallar, zabitlər İkinci Dünya müharibəsi zamanı yetişmiş Azərbaycan generalları, zabitləridirlər" (120).

Azərbaycan oğullarının Böyük Vətən müharibəsi illərində göstərdiyi igidliklərin, qəhrəmanlıqların üzə çıxarılmasında, əbədiləşdirilməsində və gələcək nəsillərə çatdırılmasında Heydər Əliyev özü də çox fədakar bir fəaliyyət göstərirdi. Bununla o ça-

lışırdı ki, bu qəhrəmanlıq tarixi gənclərə çatdırılsın, Böyük Vətən müharibəsi illərində ata-babaların miras qoyduğu qəhrəmanlıq ənənələri davam etdirildiyi kimi, Böyük Vətən müharibəsində yaradılan yeni qəhrəmanlıq tarixi də gələcək nəsillər tərəfindən davam etdirilsin. Heydər Əliyev sonralar Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş Mehdi Hüseynzadənin igidliklərinin üzə çıxarılmasında və onun qəhrəmanlığının layiqli qiymətini tapmasında əvəzsiz xidmətə malik idi. Onun xatirəsinə Bakıda abidə ucaldılması və bununla onun qəhrəmanlığının əbədiləşdirilməsi də Heydər Əliyevin şəxsi təşəbbüsünün və təşkilatçılığının nəticəsi idi.

Bu mənada Heydər Əliyev iki dəfə Sovet İttifaqı Qəhrəmanı tank qoşunları general-mayoru Həzi Aslanovun qəhrəmanlığına da Azərbaycan xalqına başucalığı gətirəcək bir dəyər kimi baxırdı, onun igidlikləri ilə özünün də qürur yaşadığını və bu qəhrəmanlığın əbədiləşdirilərək gələcək nəsillərə çatdırılmasının zəruriliyini bildirirdi. Respublika Prezidenti şübhə etmirdi ki, Həzi Aslanov kimi qəhrəmanlar Azərbaycanın yeni nəsil hərbçilərinin, generallarının yetişməsində bir örnək ola bilər. «Həzi Aslanov öz qəhrəmanlıq, cəsurluq nümunələri ilə Azərbaycan xalqını dünyada tanıtmış bir şəxsiyyətdir. Həm döyüşçü, həm sərkərdə, general, həm də vətənpərvər bir insan, Vətəninə sədaqətlə son nəfəsinə qədər döyüşmüş, həlak olmuş həmvətənimiz Həzi Aslanov bizim üçün daim əziz olub və gələcək nəsillər üçün də əziz olacaqdır. Onun adı Azərbaycanda çox yerlərdə əbədiləşibdir. ...Mən bunu böyük iftixar hissi ilə qeyd edirəm. Həzi Aslanovun həyat yolu, qəhrəmanlığı, İkinci dünya müharibəsində xidmətləri bütün Azərbaycan gəncləri üçün örnəkdir. Xüsusən, müstəqil Azərbaycanın indiki vaxtında. Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın təcavüzə məruz qaldığı bir vaxtda Həzi Aslanov

Azərbaycan xalqı üçün, ordumuz üçün, gənclərimiz üçün böyük örnəkdir, nümunədir. ...O dövrdə sovet ordusunda azərbaycanlı zabitlərin sayı çox az idi. Azərbaycandan general olanlar da çox az idi. Həzi Aslanov həm vətənpərvərliyinə, həm öz zəkasına, biliyinə görə, həm də hərbi peşəyə böyük hörmət və məhəbbətinə görə bu yolu seçmiş, zabit olmuş, İkinci Dünya müharibəsində vuruşmuş, böyük yol keçmiş, Qafqaz dağlarından Pribaltikaya qədər döyüşə-döyüşə getmiş, həlak olmuşdur. Mən vaxtilə Stalinqradda müharibəyə həsr olunmuş abidəni ziyarət edərkən orada adları qızıl hərflərlə yazılmış Sovet İttifaqı qəhrəmanları arasında Həzi Aslanovun da adını iftixarla oxumuşdum. Hələ o vaxt ürəyim dağa döndü, fəxr etdim, ətrafımda olan adamlara sevinclə bildirdim ki, baxın, bu abidədə Azərbaycan oğlunun da adı var. Bunlar hamısı Azərbaycan tarixinin parlaq səhifəsidir...» (121).

Nəhayət, Heydər Əliyev Azərbaycan xalqının Böyük Vətən müharibəsində iştirakı tarixindən danışarkən Azərbaycanda hərb işinin gələcəkdə daha da təkmilləşdirilməsi üçün hansı nəticələrin çıxarılmasına da toxunurdu. İlk növbədə Heydər Əliyev Azərbaycan xalqının Böyük Vətən müharibəsində göstərdiyi qəhrəmanlıqların əbədiləşdirilməsini, beləliklə də, bu müharibədə yaradılmış qəhrəmanlıq tarixinin nəsildən-nəsillərə ötürülməsini ümummilli bir vəzifə hesab edirdi. Dövlətin rəhbəri kimi Heydər Əliyev özü də bu sahədə təşəbbüskarlıq və yorulmazlıq nümayiş etdirirdi: “Bilirsiniz, o keçmiş illərdə də burada işləyəndə, indi də – yenidən Azərbaycanın başçısı kimi mən Böyük Vətən müharibəsində Azərbaycanın iştirakı, yaxud ayrı-ayrı şəxslərin qəhrəmanlığı ilə əlaqədar olan abidələri həmişə müqəddəs yerlər kimi qəbul etmişəm. Bu gün də ziyarət etdiyimiz yerlər mənim üçün həmişə müqəddəs yerlər olub. Xatirinizdədir, bu da tarixdir, onu yaddan çıxarmayın – 416-cı Taqanroq diviziyası Azərbaycanda

təşkil olunmuşdu. O diviziya Taqanroqda Sambek yüksəkliklərindəki döyüşlərdə böyük qələbə qazandı, qvardiya diviziyası adı, Taqanroq diviziyası adı aldı, sonra isə Berlinə qədər getdi. Həmin diviziyanın qəhrəmanlığını tarixə salmaq, 416-cı Taqanroq diviziyasının xidmətlərini, qəhrəmanlığını əbədiləşdirmək üçün mənim yaxından iştirakımla o vaxt Rostov vilayətində Azərbaycanın vəsaiti hesabına böyük bir kompleks tikdik. Azərbaycanın gözəl heykəltəraşı Elcan Şamilovun, Rostov vilayətindən memarlar ata-oğul Qrekovların layihələri əsasında tikilən bir abidə üçün vəsaitin, tikinti materiallarının hamısını biz Azərbaycandan göndərdik, təşkil etdik. Böyük bir memorial düzəltdik. Xatirinizdədir, sizin bir çoxlarınızla biz birlikdə gedib həmin memorialı açdıq. Mən iftixar hissi keçirirdim ki, Rusiyanın mərkəzi nöqtələrindən birində Azərbaycan əsgərinin, diviziyasının qəhrəmanlığını sübut edən böyük bir kompleks – o, adi bir heykəl deyil, böyük bir kompleksdir, Stalinqrad kompleksinə bərabərdir – yaratdıq. Krımda, Sapun dağında 77-ci Azərbaycan diviziyasının şərəfinə Ukrayna ilə birlikdə böyük bir abidə düzəltdik. Ora gedənlər görüblər. Orada döyüş əks etdirən böyük bir panoram düzəldilibdir, üzərində azərbaycanlıların adları var. Stalinqraddakı memorialda da – oraya siz də, mən də getmişik, – azərbaycanlı qəhrəmanların adları var. Həzi Aslanovun da, başqalarının da adı oraya qızıl hərflərlə yazılıb. Bunlar hamısı xalqımızın keçdiyi yolu tarixdə əks etdirmək, həkk etmək üçün görülən işlərdir. Biz bu işləri bundan sonra da görəcəyik. Yenə də deyirəm, biz tariximizi qiymətləndirməliyik, ona hörmət etməliyik. Tariximizi yaradan adamları, o cümlədən 1941-1945-ci illər müharibəsi iştirakçılarını qəlbimizdə daim saxlamalıyıq, onların xatirəsini heç vaxt unutmamalıyıq" (122).

Həzi Aslanovun qəhrəmanlığından danışarkən respublika Prezidenti onun adını daşıyan hərbi məktəbdə oxuyan kursant-

ların hamısını Həzi Aslanova bənzəməyə, hər bir kursantın Vətəni Həzi Aslanov kimi sevməyə, hərbi ixtisasları Həzi Aslanov kimi mənimsəməyə çağırırdı. Heydər Əliyev şübhə etmirdi ki, hərb işinə məhz belə münasibət bəslənildikdə Azərbaycanda yeni hərbçilər nəsli yetişə biləcəkdir.

Heydər Əliyev yalnız Həzi Aslanovun deyil, ümumən Böyük Vətən müharibəsi cəbhələrində igidlik nümayiş etdirmiş və Azərbaycanın qəhrəmanlıq ənənələrini davam etdirmiş şəxslərin hamısının təcrübəsindən və mübarizliyindən müstəqil Azərbaycan Ordusunun qurulmasında və möhkəmləndirilməsində istifadə edilməsini əhəmiyyətli sayırdı. “Müstəqil Azərbaycan Respublikasının Milli Ordusu məhz bu zaman formalaşmağa, yaranmağa başlayıbdır. İndi bizim Milli Ordumuz var. Artıq bizim müstəqil Azərbaycana məxsus hərbi hissələrimiz, zabitlərimiz, generallarımız, qəhrəman döyüşçülərimiz, əsgərlərimiz var. Bugünkü Milli Ordumuzun yaranmasında da, qurulmasında da Böyük Vətən müharibəsində, 1941-1945-ci illər müharibəsində əldə edilmiş təcrübədən və qəhrəmanlıq nümunələrindən istifadə olunmalıdır. Alman faşizminə qarşı döyüşlərdə qəhrəmanlıq göstərmiş Həzi Aslanovun, İsrafil Məmmədovun, Qafur Məmmədovun, Hüseynbala Əliyevin və minlərlə belə oğulların igidlikləri gənclərimiz üçün nümunə olmalıdır. Döyüşçülərimiz öz atalarının, babalarının qəhrəmanlıq tarixini yaxşı öyrənməli, bundan nəticələr çıxarmalı və öz əsgəri, hərbi fəaliyyətlərində istifadə etməlidirlər” (123).

Heydər Əliyev Böyük Vətən müharibəsinin nümunəsində hərbi-vətənpərvərlik təbliğatının gücləndirilməsini, Azərbaycan xalqının qəhrəmanlıq tarixinin gənclərə çatdırılmasını mühüm bir vəzifə kimi dəyərləndirirdi. Çünki məhz hərbi keçmişini yaxşı bilən gənclər onlara örnək ola biləcək qəhrəmanları təkrarlamağa,

onlara miras qalmış dəyərləri zənginləşdirməyə çalışa bilərdilər: "...qələbənin təbliğ olunması Azərbaycan xalqının qəhrəmanlıq nümunələrinin gənc nəslə çatdırılmasına, müstəqil Azərbaycan Respublikasının Milli Ordusunun yaranmasına, inkişaf etməsinə çox böyük fayda verəcəkdir. Bəli, gənclərimiz bilməlidirlər ki, vaxtilə çar Rusiyası ordusunda da bizim çox görkəmli zabitlərimiz, generallarımız, çox böyük şücaət, qəhrəmanlıq göstərən insanlarımız, azərbaycanlılar var idi. Gənclər bilməlidirlər ki, 1941-1945-ci illər müharibəsində, dünya, bəşəriyyət tarixində ən dəhşətli müharibədə Azərbaycan xalqının qəhrəmanlıq göstərən generalları, zabitləri, sıraviləri olub. Onlar öz qəhrəmanlıqları ilə xalqımızın hörmətini qaldırıblar, Azərbaycan xalqını tanıdıblar. Bunların hamısı gənc nəslimiz üçün örnəkdir və örnək olmalıdır. İndi yaratdığımız, qurduğumuz Milli Ordunun yaranmasında, qurulmasında bu təcrübədən istifadə edilməlidir. Bunlar hamısı bir-birinə silsilə ilə bağlı tariximizdir və biz bu tariximizə həmişə böyük hörmətlə yanaşmalı, onu qiymətləndirməliyik" (124).

Heydər Əliyev Azərbaycan xalqının Böyük Vətənm Müharibəsinin gedişində göstərdiyi mübarizliyin respublikaya qarşı istiqamətlənmiş erməni təcavüzünün qarşısının alınması, işğal altındakı Azərbaycan torpaqlarının azad edilməsi üçün örnəyə çevrilməsinin zəruriliyini də bəyan edirdi. Respublika Prezidenti bildirirdi ki, Azərbaycan torpaqlarını Azərbaycan xalqı özü azad etməlidir, bu işi kənardan kimsə gəlib görməyəcəkdir. O, Böyük Vətən müharibəsi illərində olduğu kimi, bütün xalqı bu müqəddəs vəzifənin icrasına hazır olmağa səsləyirdi: " ... Yeddi milyonluq Azərbaycan xalqı öz şərəfini, namusunu, müstəqilliyini, ərazisinin toxunulmazlığını, öz tarixini, keçmişini və gələcəyini müdafiə etmək üçün vuruşmalıdır. Biz hücum etmirik. Bir halda ki, torpaqlarımıza hücum edirlər, biz müdafiə olunmalıyıq,

düşmənə layiqli cavab verməliyik. ... Onların (Böyük Vətən müharibəsində vuruşmuş azərbaycanlılar nəzərdə tutulur – M.S.) igidlikləri Azərbaycanın şanlı salnaməsində layiqli yer tutur və xalqımız üçün örnəkdir. Biz onları unutmamışıq və heç vaxt unutmayacağıq. Onlar əbədiyyətə qovuşmuşlar. Öz torpaqlarımızı biz özümüz qorumalıyıq. Heç kəs gəlib torpaqlarımızı bizim əvəzimizə qorumayacaq, bizim əvəzimizə şəhid olmayacaq. Hər kəs öz evini, öz obasını qorumalıdır" .

Böyük Vətən müharibəsinin başa çatmasından sonra Azərbaycan milli diviziyalarının ləğv edilməsini Heydər Əliyev təəssüflə xatırlayırdı. Bu, bir tərəfdən azərbaycanlı zabit kadrlarının dağılmasına və azalmasına gətirdi, digər tərəfdən də hərbi hissələrdə milli hərbi ruhun inkişafına son qoydu. Bunun nəticəsi idi ki, XX əsrin 60-cı illərində Sovet Silahlı Qüvvələrində yüksək rütbəli azərbaycanlı zabit kadrları artıq qalmamışdı. Belə bir vəziyyətin ortaya çıxmasını Heydər Əliyev Sovet imperiyasının məqsədyönlü siyasəti kimi qiymətləndirirdi: "Təəssüflər olsun ki, müharibə zamanı yaranmış milli diviziyalar müharibə qurtarandan sonra, 1940-cı illərin sonunda, 1950-ci illərdə dağıdıldı. Beləliklə də, Azərbaycan millətindən olan zabit korpusu da get-gedə dağıldı. Demək olar ki, 1960-cı illərdə azərbaycanlılardan sovet ordusunda yüksək zabit, general səviyyəsində xidmət edənlər azaldı və yoxa çıxdı" (125). " Bu, o vaxtkı sovet imperiyasının siyasəti idi. Mən bu siyasəti görürdüm" (126).

Heydər Əliyev bildirirdi ki, Azərbaycan milli diviziyaları dağıdılmasaydı, həmin diviziyaların tərkibində yeni zabit kadrları, o cümlədən də yüksək rütbəli zabit kadrları yetişə bilərdi. Mərkəz isə ordu daxilində milli kadrların çoxalmasına heç də rəğbətlə yanaşmırdı. Ona görə də tezliklə mövcud olan milli diviziyaların tərkibi dəyişdirildi və onlarda millilik nişanələri qalma-

dı. Nəticədə, XX əsrin 60-70-ci illərində azərbaycanlılar arasında hərbi ənənələrin zəifləməsi, hərbi işə bağlılığın zəiflədilməsi halları xarakterik idi. Heydər Əliyev azərbaycanlılar arasında hərbi işin yadırğadılmasına yönəldilmiş belə bir siyasəti qəbuledilməz sayırdı: "...həmin dövrdə biz hərbi peşəkarlıq sahəsində, xalqımızın bu işə münasibətində müəyyən mənada itirmişik. Ancaq biz bunu da aradan götürməyə çalışdıq. 1960-1970-ci illərin əvvəllərində müşahidələr onu göstərdi ki, sovet ordusuna Azərbaycandan hər il 60-70 min gənc səfərbər edilir, onlar hərbi mükəlləfiyyət, iki illik hərbi xidmət keçirlər. Ancaq bunların içərisində peşəkar hərbçilər ya olmur, ya da çox az olurdu. Azərbaycanlı gənclərin hərbi məktəblərdə təhsil almağa marağı çox azalmışdı" (127).

1969-cu ildə respublikanın rəhbəri seçiləndən sonra Heydər Əliyev Azərbaycanda hərbi ənənələrin canlandırılması, hərbçi peşəsinə münasibətin dəyişdirilməsi üçün yeni bir dövr başladı. Onun rəhbərliyi altında azərbaycanlılar arasında hərbi işin vəziyyəti ciddi şəkildə araşdırıldı, Bakıda yerləşən ali hərbi məktəblərə azərbaycanlı gənclərin cəlb edilməsi, Azərbaycandan hərbi xidmətə cəlb edilən çağırışçı kontingentinin ciddi hərbi ixtisaslı hərbi hissələrdə xidmətə göndərilməsi, azərbaycanlı məktəblilərin ali hərbi məktəblərə hazırlaşdırılması üçün konkret və əməli tədbirlər həyata keçirildi.

## İstifadə olunmuş mənbə və ədəbiyyat

1. Müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumunda nitq. 2 fevral 1996-cı il. http://files.preslib.az/projects/toplu/v2/f3_6.pdf
2. Naxçıvandakı «N» hərbi hissəsində keçirilən görüşdə nitq. 17 iyun 2002-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_12.pdf
3. Azərbaycan Milli Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 1998-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_8.pdf
4. Yenə orada
5. Naxçıvan hərbi qarnizonunun əsgər və zabitləri ilə görüşdə nitq. 30 oktyabr 1996-cı il. http://files.preslib.az/projects/toplu/v2/f3_6.pdf
6. Naxçıvandakı «N» hərbi hissəsində keçirilən görüşdə nitq. 17 iyun 2002-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_12.pdf
7. Alman faşizmi üzərində qələbənin 51-ci ildönümü münasibətilə Həzi Aslanov adına Ali Ümumqoşun Komandirləri məktəbinin meydanında rəsmi-keçiddə çıxış. 9 may 1996-cı il. http://files.preslib.az/projects/toplu/v2/f3_6.pdf
8. Respublika Milli Qvardiyasının qərargahında Azərbaycanın Milli Qəhəmanı Əfqan Hüseynovun büstünün açılış mərasimində çıxış. 28 may 1995-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_5.pdf
9. Hərbi xidmətdən yayınmış, fərarilik etmiş və digər hərbi ci-

nayətlər törətmiş şəxslərin valideynləri ilə keçirilən görüşdə çıxış. 18 oktyabr 1995-ci il.
http://files.preslib.az/projects/toplu/v2/f3_5.pdf
10. Azərbaycan Milli Ordusunun yaradılmasının 82 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 2000-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_10.pdf
11. Azərbaycan Milli Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 1998-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_8.pdf
12. Azərbaycan Respublikası Silahlı Qüvvələri Gününə həsr olunmuş təntənəli mərasimdə çıxış. 25 iyun 2001-ci il.
http://files.preslib.az/projects/toplu/v2/f3_11.pdf
13. Azərbaycan Milli Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 1998-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_8.pdf
14. Azərbaycan Ali Hərbi Məktəbi və Ali Hərbi Təyyarəçilik Məktəbi məzunlarının buraxılışına həsr olunmuş mərasimdə Azərbaycan Respublikası Prezidenti, Ali Baş Komandan Heydər Əliyevin nitqi. 27 iyul 2002-ci il.
http://files.preslib.az/projects/toplu/v2/f3_12.pdf
15. Yenə orada
16. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranmasının 5-ci ildönümü münasibətilə keçirilən təntənəli yığıncaqda nitq. 7 oktyabr 1996-cı il
17. Vətənə, dövlətə, xalqa sədaqətli xidmətin parlaq nümunəsi. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1993-cü il oktyabrın 3-dən 1998-ci il oktyabrın 3-dək olan dövr ərzində keçirdiyi tədbirlər və görüşlər haqqında Azərbaycan Respublikası Prezidenti katibliyinin məlumatı. «Respublika» qəzeti, 3 oktyabr 1998-ci il

18. Azərbaycan Milli Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 1998-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_8.pdf
19. Власович Ю.Е., Сухогузов А.С., Зубков В.А. Основы военно-экономических знаний. Москва, 1989, с. 43-44
20. Война и Армия. Москва, 1977, с. 180-194; Григорьев Б.Г. Экономический и моральный факторы в войне. Москва, 1970, с. 11-16
21. Энгельс Ф. Избранные военные произведения. Москва, 1957, с.11
22. Müdafiə Nazirliyinin (MN) arxivi, fond 1, siyahı 26, iş 10, v. 22, 29.
23. «Azərbaycan» («Həyat») qəzeti, 03 oktyabr 1991-ci il
24. Naxçıvandakı «N» hərbi hissəsində keçirilən görüşdə çıxış. 17 iyun 2002-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_12.pdf
25. Azərbaycan Milli Ordusunun yaradılmasının 82 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 2000-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_10.pdf
26. Müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumunda nitq. 2 fevral 1996-cı il. http://files.preslib.az/projects/toplu/v2/f3_6.pdf
27. Prezident sarayında respublikanın kənd təsərrüfatında aparılan islahatların vəziyyətinə həsr olunmuş müşavirədə giriş və yekun sözü. 5 noyabr 1994-cü il. http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf
28. «Azərbaycan» qəzeti, 04 mart 1994-cü il
29. Yenə orada, 23 noyabr 1993-cü il
30. Prezident sarayında respublika iqtisadiyyatının vəziyyətinə həsr olunmuş geniş müşavirədə giriş və yekun sözü. 2 avqust

1997-ci il http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf
31. Prezident sarayında kənd təsərrüfatı problemlərinin həllinə həsr olunmçuş müşavirədə çıxış. 4 nart 1994-cü il. http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf
32. Yenə orada
33. Prezident sarayında əhalinin sosial müdafiəsini gücləndirmək və iqtisadiyyatın maliyyə vəziyyətini sabitləşdirilməsini təmin etmək tədbirlərinə həsr olunmuş müşavirədə giriş və yekun sözü. 20 may 1994. http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf
34. «Azərbaycan» qəzeti, 13 avqust 1994-cü il
35. Prezident sarayında əhalinin sosial müdafiəsini gücləndirmək vəiqtisadiyyatın maliyyə vəziyyətini sabitləşdirilməsini təmin etmək tədbirlərinə həsr olunmuş müşavirədə giriş və yekun sözü. 20 may 1994-cü il. http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf
36. Prezident sarayında pambıqçılıqda mövcud vəziyyət və səpin kampaniyasına hazırlıqla əlaqədar problemlərin həlli yollarına həsr olunmuş müşavirədə yekun sözü. 30 mart 1994-cü il. http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf
37. Prezident sarayında respublikanın kənd təsərrüfatında aparılan islahatların vəziyyətinə həsr olunmuş müşavirədə giriş və yekun sözü. 5 noyabr 1994-cü il. http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf
38. Prezident sarayında respublika iqtisadiyyatının vəziyyətinə həsr olunmuş geniş müşavirədə giriş və yekun sözü. 12 avqust 1994-cü il. http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf
39. «Azərbaycan» qəzeti, 01 aprel 1994-cü il
40. Türkiyə Respublikasının Jandarm qüvvələrinin baş koman-

danı, ordu generalı M.Şener Eruygur və onu müşayiət edən şəxslərlə görüş. 3 iyun 2003-cü il

41. Azərbaycan Respublikası Silahlı Qüvvələri Gününə həsr olunmuş təntənəli mərasimdə çıxış. 25 iyun 2001-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_11.pdf
42. Azərbaycan Milli Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 1998-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_8.pdf
43. Naxçıvan hərbi qarnizonunun əsgər və zabitləri ilə görüşdə nitq. 30 oktyabr 1996-cı il. http://files.preslib.az/projects/toplu/v2/f3_6.pdf
44. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranmasının 5-ci ildönümü münasibətilə keçirilən təntənəli yığıncaqda nitq. 7 oktyabr 1996-cı il. http://files.preslib.az/projects/toplu/v2/f3_6.pdf
45. Azərbaycan Milli Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 1998-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_8.pdf
46. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranmasının 5-ci ildönümü münasibətilə keçirilən təntənəli yığıncaqda nitq. 7 oktyabr 1996-cı il. http://files.preslib.az/projects/toplu/v2/f3_6.pdf
47. Azərbaycan Milli Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 1998-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_8.pdf
48. Hərbi xidmətdən yayınmış, fərarilik etmiş və digər hərbi cinayətlər törətmiş şəxslərin valideynləri ilə keçirilən görüşdə çıxış. 18 otyabr 1995-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_5.pdf
49. Azərbaycan Milli Ordusunun yaradılmasının 80 illiyinə həsr

olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 1998-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_8.pdf

50. Respublika Milli Qvardiyasının qərargahında Azərbaycanın Milli Qəhrəmanı Əfqan Hüseynovun büstünün açılış mərasimində çıxış. 28 may 1995-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_5.pdf
51. Alman faşizmi üzərində qələbənin 51-ci ildönümü münasibətilə Həzi Aslanov adına Ali Ümumqoşun Komandirləri məktəbinin meydanında rəsmi-keçiddə çıxış. 9 may 1996-cı il. http://files.preslib.az/projects/toplu/v2/f3_6.pdf
52. Azərbaycan Milli Ordusunun yaradılmasının 82 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 2000-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_10.pdf
53. Azərbaycan Respublikası Silahlı Qüvvələri Gününə həsr olunmuş təntənəli mərasimdə çıxış. 25 iyun 2001-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_11.pdf
54. Azərbaycan Milli Ordusunun yaradılmasının 82 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 2000-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_10.pdf
55. M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetinin 75 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə nitq. 26 noyabr 1994-cü il. http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf
56. Azərbaycan Milli Ordusunun yaradılmasının 82 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 2000-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_10.pdf
57. Müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumunda nitq. 2 fevral 1996-cı il. http://files.preslib.az/projects/toplu/v2/f3_6.pdf
58. Yenə orada

59. Yenə orada
60. Azərbaycan Milli Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 1998-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_8.pdf
61. Naxçıvandakı «N» hərbi hissəsində keçirilən görüşdə çıxış. 17 iyun 2002-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_12.pdf
62. Azərbaycan Milli Ordusunun yaradılmasının 82 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 2000-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_10.pdf
63. Yenə orada
64. Yenə orada
65. Azərbaycan Ali Hərbi Məktəbi və Ali Hərbi Təyyarəçilik Məktəbi məzunlarının buraxılışına həsr olunmuş mərasimdə Azərbaycan Respublikası Prezidenti, Ali Baş Komandan Heydər Əliyevin nitqi. 27 iyul 2002-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_12.pdf
66. Yenə orada
67. Yenə orada
68. Yenə orada
69. Yenə orada
70. Yenə orada
71. Azərbaycanın şəhid milli qəhrəmanlarının və döyüşçülərinin valideynlərinə, ailə üzvlərinə, habelə hərbi qulluqçulara «qızıl ulduz» medalları, «Azərbaycan Bayrağı» ordenləri və «Hərbi xidmətlərə görə» medallarının təqdim olunma mərasimində nitq. 8 dekabr 1998-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_8.pdf
72. Azərbaycan Respublikası Silahlı Qüvvələri Gününə həsr olunmuş təntənəli mərasimdə çıxış. 25 iyun 2001-ci il.

http://files.preslib.az/projects/toplu/v2/f3_11.pdf
73. Azərbaycan Milli Ordusunun yaradılmasının 82 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 2000-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_10.pdf
74. Naxçıvandakı «N» hərbi hissəsində keçirilən görüşdə çıxış. 17 iyun 2002-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_12.pdf
75. Azərbaycan Milli Ordusunun yaradılmasının 82 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 2000-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_10.pdf
76. Azərbaycan Respublikası Silahlı Qüvvələri Gününə həsr olunmuş təntənəli mərasimdə çıxış. 25 iyun 2001-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_11.pdf
77. Yenə orada
78. Azərbaycan Milli Ordusunun yaradılmasının 82 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 2000-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_10.pdf
79. Azərbaycan Respublikası Silahlı Qüvvələri Gününə həsr olunmuş təntənəli mərasimdə çıxış. 25 iyun 2001-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_11.pdf
80. Azərbaycan Milli Ordusunun yaradılmasının 82 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 2000-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_10.pdf
81. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranmasının 5-ci ildönümü münasibətilə keçirilən təntənəli yığıncaqda nitq. 7 oktyabr 1996-cı il. http://files.preslib.az/projects/toplu/v2/f3_6.pdf
82. Naxçıvandakı «N» hərbi hissəsində keçirilən görüşdə çıxış. 17 iyun 2002-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_12.pdf

83. Azərbaycan Milli Ordusunun yaradılmasının 82 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 2000-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_10.pdf
84. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranmasının 5-ci ildönümü münasibətilə keçirilən təntənəli yığıncaqda nitq. 7 oktyabr 1996-cı il. http://files.preslib.az/projects/toplu/v2/f3_6.pdf
85. Hərbi xidmətdən yayınmış, fərarilik etmiş və digər hərbi cinayətlər törətmiş şəxslərin valideynləri ilə keçirilən görüşdə çıxış. 18 otyabr 1995-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_5.pdf
86. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranmasının 5-ci ildönümü münasibətilə keçirilən təntənəli yığıncaqda nitq. 7 oktyabr 1996-cı il. http://files.preslib.az/projects/toplu/v2/f3_6.pdf
87. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranmasının 5-ci ildönümü münasibətilə keçirilən təntənəli yığıncaqda nitq. 7 oktyabr 1996-cı il. http://files.preslib.az/projects/toplu/v2/f3_6.pdf
88. Azərbaycan Milli Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 1998-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_5.pdf
89. Azərbaycan Milli Ordusunun yaradılmasının 82 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 2000-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_10.pdf
90. Azərbaycan Ali Hərbi Məktəbi və Ali Hərbi Təyyarəçilik Məktəbi məzunlarının buraxılışına həsr olunmuş mərasimdə Azərbaycan Respublikası Prezidenti, Ali Baş Komandan Heydər Əliyevin nitqi. 27 iyul 2002-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_12.pdf

91. Azərbaycan Milli Ordusunun yaradılmasının 82 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 2000-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_10.pdf
92. Azərbaycan Milli Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 1998-ci il http://files.preslib.az/projects/toplu/v2/f3_8.pdf
93. «Azərbaycan» q'zeti, 05 noyabr 1993-cü il
94. Respublikanın İstiqlala bayramına – Respubika gününə həsr olunmuş təntənəli yığıncaqda nitq. 27 may 1994-cü il. http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf
95. Beyləqan rayonunda ictimaiyyətin nümayəndələri ilə və hərbçilərin müşavirəsində çıxışları. 9-10 aprel 1994-cü il. http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf
96. Azərbaycan Silahlı Qüvvələrinin 3-cü ildönümünə həsr olunmuş təntənəli yığıncaqda nitq. 8 oktyabr 1994-cü il. http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf
97. Bakı türk şəhidliyinin və xatirə abidəsinin açılış; mərasimində nitq. 9 aprel 2000-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_10.pdf
98. Azərbaycan Milli Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 1998-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_8.pdf
99. Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşdə çıxış. 22 sentyabr 1993-cü il. http://files.preslib.az/projects/toplu/v2/f3_3.pdf
100. Respublika günü münasibətilə keçirilən təntənəli yığıncaqda nitq. 27 may 1995-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_5.pdf
101. Hərbi xidmətdən yayınmış, fərarilik etmiş və digər hərbi cinayətlər törətmiş şəxslərin valideynləri ilə keçirilən görüşdə

çıxış. 18 oktyabr 1995-ci il.
http://files.preslib.az/projects/toplu/v2/f3_5.pdf

102. Azərbaycan Milli Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 1998-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_8.pdf
103. Исмаилов Э.Э. Георгиевские кавалеры – азербайджанцы. Москва, 2005, с.164-165
104. Azərbaycan Milli Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 1998-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_8.pdf
105. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinə. 24 iyun 2003-cü il http://files.preslib.az/projects/toplu/v2/f3_13.pdf
106. Bakıda türk şəhidliyinin və xatirə abidəsinin açılışı mərasimində nitq. 9 aprel 2000-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_9.pdf
107. Yenə orada
108. Süleymanov M. Azərbaycanda türk şəhidlikləri. Bakı, 2000, s.129
109. Azərbaycan Milli Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 1998-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_8.pdf
110. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinə. 24 iyun 2003-cü il http://files.preslib.az/projects/toplu/v2/f3_13.pdf
111. Azərbaycan Milli Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 1998-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_8.pdf
112. Yenə orada

113. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinə. 24 iyun 2003-cü il http://files.preslib.az/projects/toplu/v2/f3_13.pdf
114. Azərbaycan Milli Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 1998-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_8.pdf
115. Faşizm üzərində qələbənin 50 illiyinə hazırlıqla əlaqədar müharibə, əmək və silahlı qüvvələrin veteranları ilə görüşdə çıxış. 7 aprel 1995-ci il http://files.preslib.az/projects/toplu/v2/f3_5.pdf
116. Yenə orada
117. 1941-1945-ci illər Böyük Vətən Müharibəsində faşizm üzərində qələbənin 50 illiyinə həsr edilmiş təntənəli gecədə nitq. 5 may 1995-ci il http://files.preslib.az/projects/toplu/v2/f3_5.pdf
118. Azərbaycan Milli Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 1998-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_8.pdf
119. Yenə orada
120. Yenə orada
121. İki dəfə Sovet İttifaqı Qəhrəmanı, görkəmli sərkərdə Həzi Aslanovun adına Bakı Ümumqoşun Komandirləri Məktəbində keçirilən təntənəli mitinqdə çıxış. 9 may 1994-cü il. http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf
122. Alman faşizmi üzərində qələbənin 51-ci ildönümü münasibətilə Həzi Aslanov adına Ali Ümumqoşun Komandirləri Məktəbinin meydanında rəsmi-keçiddə çıxış. 9 may 1996-cı il. http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf
123. Yenə orada
124. Əfsanəvi qəhrəman Mehdi Hüseynzadənin abidəsi önünə

toplaşanlar qarşısında çıxış. 9 may 1994-cü il. http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf
125. Azərbaycan Milli Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 1998-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_8.pdf
126. Cəmşid Naxçıvanski adına hərbi liseyin Naxçıvan filialının açılışında nitq. 13 oktyabr 1999-cu il. http://files.preslib.az/projects/toplu/v2/f3_9.pdf
127. Azərbaycan Milli Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. 26 iyun 1998-ci il. http://files.preslib.az/projects/toplu/v2/f3_8.pdf

# VII FƏSİL

# ALİ BAŞ KOMANDANLIĞIN İLHAM ƏLİYEV DÖVRÜ

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin XX əsrin sonlarında hakimiyyətə qayıdışı, müstəqil Azərbaycanı dövlətçiliyini məhv olmaqdan xilas etməsi, güclü dinamik inkişaf edən və milli varlığı yaşadan ölkəyə çevirməsi, təkcə bügünkü deyil, gələcək nəsillər, Azərbaycan sevgisini qəlbində yaşadan bütün nəsillər üçün tarixi əhəmiyyət kəsb edən dövlətçilik təcrübəsi idi (1). Bu təcrübə Azərbaycanın müstəqilliyinin dönməzliyini, bu dönməzliyin təmin edilməsi üçün Azərbaycanın güclü potensiala malik olmasını təsdiqləyən bir təcrübə və siyasi irs idi. Siyasi uzaqgörənliyi ilə Heydər Əliyev yalnız Azərbaycanı dərin böhrandan çıxarmadı, eyni zamanda bu dövlətin uzun perspektiv üçün inkişaf və təhlükəsizlik konsepsiyasını formalaşdırdı. Həmin inkişaf və təhlükəsizlik konsepsiyasının Heydər Əliyevin siyasi varisi, respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi isə XXI əsrin əvvəllərində Azərbaycanı müstəqil dövlət kimi inkişafının yeni bir səviyyəsinə çıxardı. Əslində, Heydər Əliyevin yorulmaz fəaliyyəti və təşkilatçılığı, siyasi təfəkkürü və uzaqgörənliyi nəticəsində Azərbaycanı irəliyə aparacaq və daim inkişaf etdirəcək magistral yolun istiqaməti, konturları artıq məlum idi. Yalnlz bu yolla inamla, sürətlə irəliləmək üçün əzm və iradə nümayiş etdirmək, bu magistral xətt üzrə

hərəkət zamanı yeni şəraitə uyğun təşəbbüskarlıq göstərməklə onu sona qədər getmək, firavan, təhlükəsiz və azad Azərbaycan idealını reallaşdırmaq olardı (2) ki, İlham Əliyev də ölkə Prezidenti kimi fəaliyyətə başlamasının ilk günündən məhz belə bir iradəni ortaya qoydu. Dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsi, milli maraqların müdafiəsi üçün heç bir xarici təsirlərə yol vermədən yalnız Azərbaycanın maraqlarına cavab verəcək siyasət aparılması, Azərbaycanın bölgədə və dünyadakı nüfuzunun gücləndirilməsi XXI əsrin əvvəllərindən başlayaraq İlham Əliyevin rəhbərliyi altında aparılan daxili və xarici siyasətin əsas xarakterik cəhətləri idi (3). Məhz belə bir siyasətin həyata keçirilməsi, Heydər Əliyevin siyasi irsinin çevikliyinin nümayiş etdirilməsi, dünya miqyasında cərəyan edən proseslərin yeni xarakterinə uyğun siyasi təşəbbüskarlıq göstərilməsi Azərbaycan dövlətinin uğurlarına zəmin yaratmaqla, respublikanı bölgədə yeni güc mərkəzinə çevirməkdədir.

Azərbaycanın hərbi təhlükəsizliyinin təmin edilməsi, ölkənin hərbi təhlükəsizliyinin güc qarantı olan Silahlı Qüvvələrin daha da möhkəmləndirilməsi İlham Əliyevin Ali Baş Komandanlığı altında uğurla aparılan ordu quruculuğunun əsas prioritetlərindən birini təşkil edir. Bu məsələlərin həllinə istiqamətlənmiş vəzifələrin Azərbaycan xalqının gözləntilərini doğruldacaq səviyyədə həyata keçirilməsi və bunun nəticəsi olaraq Azərbaycan Ordusunun bölgənin ən güclü ordusuna çevrilməsi İlham Əliyevin Azərbaycanın maraqlarının qorunması istiqamətində davamlı xidmətinin göstəricisi olmaqla bərabər, həm də onun yeni dövrün güclü siyasətçisi və dövlət xadimi olmasının sübutudur. Azərbaycanın hərbi təhlükəsizliyinin diqqət mərkəzində saxlanılması, Azərbaycan Ordusunun davamlı olaraq gücləndirilməsi, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi hazırda da İlham Əliyevin

ölkə Prezidenti və Ali Baş Komandan kimi fəaliyyətinin prioritet istiqamətlərindən biri olaraq qalmaqdadır və bu məsələlərin dövlət quruculuğunun digər istiqamətləri ilə Azərbaycanın milli maraqları çərçivəsində üzvü şəkildə əlaqələndirilməsi ölkənin hərbi təhlükəsizliyi üçün yeni imkanlar açmaqdadır.

## 1. İlham Əliyev və Azərbaycanın ərazi bütövlüyü məsələsi

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi sahəsindəki qətiyyətli fəaliyyəti onun siyasi varisi, 2003-cü il oktyabrın 15-də keçirilən Prezident seçkilərində qələbə qazanmış cənab İlham Əliyevin mövqeyində və fəaliyyətində də öz qabarıq əksini tapdı. Bu da təbii idi. Çünki bir tərəfdən Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi Azərbaycanın dövlət maraqlarından irəli gəlirdi, Azərbaycan xalqının istəklərindən doğurdu, digər tərəfdən isə belə bir mövqe Heydər Əliyev tərəfindən izlənilən siyasətin məntiqi davamı idi. Ona görə cənab İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə bağlı andiçmə mərasimində bildirirdi ki, Azərbaycanda alternativi olmayan Heydər Əliyev siyasətini davam etdirəcəkdir (4).

İlham Əliyev ilk andiçmə mərasimində dövlət rəhbəri kimi gələcək fəaliyyətinin müxtəsər proqramı olan çıxışında Azərbaycanın ərazi bütövlüyü məsələsinə də münasibətini bildirdi və bu məsələ ilə bağlı özünün aydın və qətiyyətli mövqeyini ortaya qoydu. Respublika Prezidenti bəyan etdi ki, Ermənistanın Azərbaycana qarşı təcavüzünün aradan qaldırılması aşağıdakı əsas prinsiplər əsasında həll edilməlidir: beynəlxalq hüquq normaları əsas götürülməli, Azərbaycan torpaqları işğaldan azad olmalı, bir milyondan artıq qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalı,

ölkənin ərazi bütövlüyü təmin olunmalıdır. İlham Əliyev sonra onu da əlavə etdi ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz torpaqlarını, nəyin bahasına olursa olsun azad edəcəkdir (5).

Ölkə Prezidenti kimi ilk çıxışında İlham Əliyev Ermənistanın Azərbaycana qarşı işğalının davam etməsinin mümkünsüzlüyünü bəyan etdi. Bu problemin həlli üçün həm sülhsevər mövqeyini açıqladı, həm də Azərbaycan torpaqlarının işğaldan azad edilməsi üçün digər seçimlərin də istisna edilmədiyini bildirdi.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi məsələsi respublika Prezidenti kimi İlham Əliyevin dövlətçilik siyasətində çox mühüm bir yer tutur və bu istiqamətdə onun kifayət qədər yorulmaz və ardıcıl fəaliyyəti vardır. Onun dünya ölkələrinin dövlət və hökumət rəhbərləri, nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri ilə elə bir görüşünü tapmaq mümkün deyil ki, orada Ermənistanın Azərbaycana qarşı təcavüzü və Dağlıq Qarabağ münaqişəsinin həlli yolları barədə danışıqlar, müzakirələr aparılmasın və çıxışlar edilməsin. İstər həmin çıxışlarda, müzakirələrdə, istərsə də respublika daxilində müvafiq tədbirlərdə və müvafiq auditoriya qarşısındakı çıxışlarında İlham Əliyev tərəfindən Dağlıq Qarabağ münaqişəsinin meydana gəlməsinin əsl səbəbləri, Ermənistanın Azərbaycana qarşı təcavüzünün mahiyyəti, bu təcavüzün davamlılığının səbəbləri, beynəlxalq hüquq normalarının tələblərinin əksinə olaraq bu münaqişənin həllinin uzanması, münaqişənin həllinin ədalətli yolları, bu münaqişənin ədalətli həllinin bölgənin təhlükəsizliyinə, iqtisadi inkişafına verə biləcəyi fayda və s. məsələlər geniş təhlil olunmuş və qiymətləndirilmişdir (6).

Ermənistan rəhbərliyinin və bu dövlətin beynəlxalq aləmdə olan havadarlarının beynəlxalq ictimai rəyə yeritməyə çalışdıqları mövqenin əksinə olaraq, İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətinin Ermənistanın və dünya erməniliyinin Azərbaycana qarşı təcavüzkarlığından doğduğunu bəyan edirdi. Konkret fakt və sübutlarla o bildirirdi ki, erməniliyin Azərbaycan torpaqlarına qarşı təcavüzkarlığının böyük tarixi vardır və zaman-zaman Azərbaycan torpaqları erməni təcavüzkarlığının qurbanı olmuşdur (bu barədə aşağıda danışılacaqdır). Sovet İttifaqının dağılması ərəfəsində isə Ermənistanın Azərbaycana qarşı təcavüzkarlığının yeni bir mərhələsi başladı.

İlham Əliyev çıxışlarında bildirirdi ki, Dağlıq Qarabağ münaqişəsinin yaranması heç də bu bölgədəki erməni əhalisinin milli azadlıq hərəkatının yox, Ermənistanın Azərbaycana qarşı apardığı təcavüzkarlığın nəticəsidir. Respublika Prezidenti Dağlıq Qarabağ ermənilərinin öz müqəddəratını təyin etmək hüququ ilə bağlı irəli sürdükləri iddianın da beynəlxalq hüquqa zidd olduğunu əsaslandırmaqla, ermənilərin öz müqəddəratlarını artıq təyin etdiklərini və Ermənistan adlı bir dövləti yaratdıqlarını bəyan edirdi. O, haqlı olaraq dünya ictimaiyyətinə də çatdırırdı ki, ermənilər yaşadıqları bütün digər ölkələrdə öz müqəddəratlarını təyin etmək fikrinə düşsələr, onda dünyada hansı vəziyyətin yaranacağını söyləmək də çətin olar (7).

Ermənistanın Azərbaycana qarşı hələ Sovet İttifaqının dağılmasından əvvəl başladığı təcavüzkarlığının ifşası üçün Prezident İlham Əliyev prezidentliyinin ilk illərində - Avropa Şurası Parlament Assambleyasının 2004-cü il aprel ayının 29-da olan yaz sessiyasında məzmunlu bir çıxış etdi və konkret faktlarla bu təcavüzkarlığa öz qiymətini verdi. Mütəxəssislər İlham Əliyevin bu çıxışını Azərbaycan diplomatiyasının növbəti uğurlarından biri kimi dəyərləndirdilər (8).

İlham Əliyev çıxışlarında bildirirdi ki, Dağlıq Qarabağ ətrafında yaradılan vəziyyət müxtəlif bəhanələr altında təqdim edilsə də, çox tezliklə erməni millətçiləri öz əsl niyyətlərini ortaya qoydular. Onlar açıq şəkildə Dağlıq Qarabağı Azərbaycandan ayırmaq və Ermənistana birləşdirmək üçün iddialar irəli sürdülər.

Respublika Prezidentinin bildirdiyi kimi, əslində, Dağlıq Qarabağın Azərbaycandan qoparılması üçün işlər hələ xeyli əvvəldən başlamışdı. Amma o vaxtlar bu iş məxfi şəkildə aparılırdı və SSRİ rəhbərliyinin inandırılmasına cəhd göstərilirdi ki, Azərbaycan Respublikası Dağlıq Qarabağın problemlərinin həllinə fikir vermir və ona görə də bu bölgə Azərbaycandan qoparılaraq Ermənistana birləşdirilməlidir. SSRİ rəhbərliyinə təzyiqlər yolu ilə niyyətlərinə nail olmadıqda erməni millətçiləri açıq təcavüzkar hərəkətlərə başladılar. İlham Əliyevin də qeyd etdiyi kimi, ermənilər cəzasızlıqdan istifadə edərək əvvəlcə azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə siyasəti həyata keçirdilər və Azərbaycanı çox ciddi problemlərlə üzbəüz qoydular (9). Bununla da kifayətlənməyən erməni millətçiləri tezliklə daha təcavüzkar əməllərə al atdılar. Hələ İttifaq süquta uğramamışdan əvvəl Azərbaycana qarşı işğal siyasətinə başlandı (10). Bu işğalçılıq isə Azərbaycan xalqına böyük fəlakətlər gətirdi, minlərlə azərbaycanlı erməni millətçilərinin işğalçılıq siyasətinin qurbanı oldu. İlham Əliyev erməni millətçilərinin azərbaycanlı əhaliyə qarşı törətdikləri cinayətləri faşizmlə müqayisə edirdi: «Azərbaycan xalqı da XX əsrin sonlarında faşizm ideologiyasının nəticəsi olan Qarabağ fəlakəti, işğalı ilə üzləşmişdi. Biz XX əsrin sonlarında erməni faşizmi ilə üzləşdik. Bizə qarşı aparılan işğalçı siyasət, xalqımıza qarşı törədilən Xocalı soyqırımı məhz erməni faşizminin təzahürüdür. ...Günahsız insanlar, qadınlar, uşaqlar ona görə öldürülürdü ki, onlar azərbaycanlıdır. Biz erməni faşizminə qarşı mübarizə aparırıq» (11).

Belə bir millətçi fəaliyyətin qarşısının alınmaması üçün İlham Əliyev o vaxtkı İttifaq rəhbərliyini ittihamlandırırdı. Bu məsələdə respublika Prezidenti iki məqama diqqəti yönəldirdi. Birincisi, əgər İttifaq rəhbərliyinin bu işlərdə əli olmasaydı, Cənubi Qafqazda heç vaxt münaqişə yaranmazdı. Başqa sözlə, İttifaq rəhbərliyi erməni millətçiliyinin qarşısını almadı və bununla Cənubi Qafqazda münaqişə yaranmasına yol açıldı. İkincisi isə İlham Əliyevin fikrincə, Azərbaycanı daha da çətin vəziyyətə salmaq üçün respublika rəhbərliyinə Azərbaycan xalqına yad olan antimilli qüvvələr gətirildi və onların əli ilə Azərbaycan xalqına qarşı cinayətlər törədildi. İlham Əliyev bu prosesdə Azərbaycanın daxilində olan antimilli qüvvələrin dağıdıcı fəaliyyətini də istisna etmirdi. Belə bir vəziyyətdən isə Ermənistan istifadə etdi və Azərbaycana qarşı açıq müharibəyə başladı (12).

İlham Əliyev İttifaqın süqutu ərəfəsində respublika rəhbərliyinin antimilli siyasət apardığını və bununla da erməni separatizminin genişlənməsi üçün zəmin yaradıldığını qeyd edirdi. Nümunə kimi o, İttifaq rəhbəri M.S.Qorbaçovun fərmanı əsasında Azərbaycanın suveren hüquqlarının pozulması ilə Dağlıq Qarabağda Xüsusi İdarəetmə Komitəsinin yaradılmasını göstərirdi. Bu Komitənin yaradılması Dağlıq Qarabağın Azərbaycandan yadlaşmasını daha da sürətləndirdi və burada erməni separatizmi də xeyli gücləndi. Sonrakı illərdə də respublika rəhbərliyinin kəsərsiz fəaliyyəti vəziyyətin daha da mürəkkəbləşməsinə və Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına gətirib çıxardı (13).

Çıxışlarının birində İlham Əliyev qeyd edirdi ki, əgər Azərbaycanın 1990-cı illərdə güclü rəhbərliyi olsaydı, o zaman ölkə rəhbərliyində səriştəsiz insanlar olmasaydı, bu insanların geosiyasət, dövlətçilik və ölkənin idarə edilməsi ilə bağlı hər hansı bir

səriştəsi olsaydı, biz bu gün belə bir vəziyyətdə olmazdıq. Ölkə Prezidenti əlavə edirdi ki, Ermənistan kimi zəif, iqtisadi cəhətdən çox acınacaqlı vəziyyətdə yaşayan ölkə heç bir halda bizim ölkənin bir qarış belə torpağını işğal edə bilməzdi (14).

Bu mənada İlham Əliyev şübhə etmirdi ki, əgər keçən əsrin 80-90-cı illərində Heydər Əliyev Azərbaycan rəhbərliyində olsaydı, Dağlıq Qarabağ münaqişəsi ortaya çıxmazdı və Ermənistan da Azərbaycan torpaqlarını işğal edə bilməzdi. Çoxsaylı çıxışlarında İlham Əliyev ona işarə edirdi ki, ermənilər öz millətçi-separatçı planlarının həyata keçirilməsi üçün əvvəlcə Heydər Əliyevi SSRİ rəhbərliyindən uzaqlaşdırmağa nail oldular. Bu millətçi dairələrə yaxşı məlum idi ki, dövlət səlahiyyətlərinə malik olan Heydər Əliyevin qətiyyəti, prinsipial fəaliyyəti qarşısında onlar öz çirkin niyyətlərinə nail ola bilməyəcəklər. Buna görə də onlar İttifaq rəhbərliyinə olan təzyiqlərini işə saldılar və 1987-ci ildə Heydər Əliyevin SSRİ rəhbərliyindən uzaqlaşdırılmasına nail oldular. «Mən bu barədə fikirlərimi dəfələrlə bildirmişəm və bu gün də demək istəyirəm, əgər Heydər Əliyev o vaxt xalqımız üçün həlledici məqamlarda Azərbaycanda olsaydı, bir qarış torpaq işğal altına düşməzdi. Əfsuslar olsun ki, o illərdə hakimiyyətdəki insanlar vəzifə borcunu ləyaqətlə yerinə yetirə bilməmişlər və beləliklə, Sovet İttifaqının dağılması ərəfəsində Azərbaycan böyük çətinliklərlə üzləşmişdir. Bizə qarşı elan edilməmiş müharibə başlamışdır. Torpaqlarımız işğal olunmağa başlamışdır» (15).

Başqa bir çıxışında isə respublika Prezidenti İlham Əliyev bu məqamı belə dəyərləndirirdi: «Ulu öndər siyasi hakimiyyətdən gedəndən sonra iki həftə keçməmiş erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək üçün artıq fəal işlərə başlamışdılar. Əvvəlki illərdə onları bu əməllərdən çəkindirən məhz Heydər Əliyev amili olmuşdur. Məhz o illərdə,

1987-ci ilin sonundan başlayaraq separatizm meyilləri gücləndi və beləliklə, Dağlıq Qarabağ münaqişəsinin başlanması üçün şərait yaradıldı. Biz hamımız yaxşı başa düşürük ki, əgər o zaman Heydər Əliyev Azərbaycanda olsaydı, heç vaxt bu münaqişə baş verməzdi və Azərbaycanın tarixi torpaqları işğal altına düşməzdi. Heydər Əliyevin ürəyi Azərbaycanla döyünürdü. Ancaq o vaxtkı sovet rəhbərliyi Heydər Əliyev amilini dərk edərək bütün imkanlardan istifadə edirdi ki, onu Azərbaycandan təcrid etsin» (16).

İlham Əliyev ulu öndər Heydər Əliyevin SSRİ rəhbərliyindən getməsindən iki həftə sonra erməni millətçiləri tərəfindən Dağlıq Qarabağ məsələsinin qaldırılmasını xatırlayanda, yəqin ki, 1987-ci ilin noyabrında M.S.Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri akademik A.Aqanbekyanın Parisdə Fransa Kommunist Partiyasının orqanı olan «Humanite» qəzetinə Dağlıq Qarabağla bağlı verdiyi müsahibəsini nəzərdə tuturdu. Erməni diasporunun çox böyük təsir imkanlarına malik olduğu Parisdə verilən həmin bəyanatda Dağlı Qarabağın Ermənistana birləşdirilməsinin məqsədəuyğunluğu və bununla bağlı SSRİ rəhbərliyi qarşısında da məsələ qaldırıldığı bildirilirdi (17).

Məlumdur ki, bu bəyanat dünya erməniliyini ayağa qaldırdı və bütün dünyaya səpələnmiş olan erməni lobbisi hələ İttifaq hökumətinin mövcudluğu dövründə yaşadıqları ölkələrdə bütün imkanlarını səfərbərliyə aldı. Nəticədə erməni millətçilərinin Azərbaycana qarşı işğalçı niyyətlərinin pərdələnməsi və böyük dövlətlərin ictimai fikrində Azərbaycanın Dağlıq Qarabağda yaşayan ermənilərin milli hüquqlarının əzilməsi haqqında təhrif olunmuş təsəvvürlər yaradılması üçün çox geniş fəaliyyəti başladı.

İlham Əliyev Dağlıq Qarabağ bölgəsi ətrafında baş verənləri birmənalı şəkildə Ermənistan Respublikasının suveren və əraziləri beynəlxalq aləmdə tanınmış Azərbaycan Respublikasına

qarşı təcavüzü adlandırırdı və bunu öz çıxışlarında, söhbətlərində siyasi, hüquqi və tarixi baxımdan əsaslandırırdı. Bütün bunlara baxmayaraq, Ermənistanın beynəlxalq aləmdə qınanmamasını, xüsusilə müstəqilliyinin ilk illərində Azərbaycanın haqq səsinin dünya səviyyəsində lazımınca eşidilməməsini İlham Əliyev dünyaya yayılmış erməni diasporunun və ermənilərə lobbiçilik edən qüvvələrin antiazərbaycan təbliğatının nəticəsi sayırdı. İlham Əliyev Amerika konqresi tərəfindən 1992-ci il oktyabr ayının 24-də «Azadlığı müdafiə Aktı»na Azərbaycana qarşı istiqamətlənmiş 907-ci düzəlişin qəbul edilməsi ilə əlaqədar münasibətini bildirərkən deyirdi: «O düzəlişin qəbul edilməsində də obyektiv səbəblər olub, Azərbaycan haqqında məlumat olmayıb, yaxud da ancaq mənfi məlumat olubdur. Haradasa, 1990-cı illərin ortalarına qədər təkcə burada deyil, eyni zamanda, Avropa ölkələrində də Azərbaycan haqqında mənfi məlumat yayılırdı, yaxud da ümumiyyətlə məlumat yayılmırdı. Bizim haqqımızda mənfi rəy yaradan əsas qüvvə erməni lobbisidir. Çünki onların əsas məqsədi Azərbaycanı ləkələmək, antidemokratik dövlət kimi təqdim etmək və beləliklə, sübut etməyə çalışmaqdır ki, demokratiya inkişaf etməmiş belə bir ölkədə ermənilər azlıq kimi yaşaya bilməzlər. Guya onların rahat yaşaması təhlükə altındadır. Ona görə də Azərbaycana qarşı ciddi kampaniya gedir» (18). Bununla dünya erməniliyi Ermənistan tərəfindən Azərbaycana qarşı işğalçılıq siyasətinin aparılmasının pərdələnməsinə cəhd göstərir, saxta təbliğatla azərbaycanlıların ermənilərə qarşı dözümsüzlüyü qabardılmaqla Dağlıq Qarabağ münaqişəsinin mahiyyəti də təhrif olunurdu.

İlham Əliyev belə bir vəziyyətin yaranmasını hələ müstəqilliyini əldə etməzdən əvvəl Azərbaycana qarşı informasiya müharibəsinin işə salınması ilə izah edirdi. Bu informasiya mühari-

bəsini yuxarıda qeyd edildiyi kimi, böyük maliyyə ehtiyatları və təbliğat imkanları olan erməni diasporu və erməni diasporunun havadarları aparırdılar. Bundan ötrü külli miqdarda maliyyə ehtiyatları da cəlb olunmuşdu: «...Azərbaycanın müstəqil ölkə kimi mövcudluğunun ilk illərindən, bəlkə də, ondan da əvvəl biz informasiya müharibəsi şəraitində yaşayırıq. Ermənistan və bəlkə, daha da çox erməni lobbisi Azərbaycana qarşı informasiya müharibəsini 1980-cı illərin sonlarında başlamışdır. Müstəqilliyin ilk illərində biz... bu müharibədə uduzmuşduq. Bu, bəlkə də, təbii idi. Çünki bizim belə xarici resurslarımız yox idi» (19).

Bu informasiya müharibəsinin əsas aparıcı qüvvəsi sözsüz ki, erməni diasporu və lobbisi idi və azərbaycanlılardan fərqli olaraq, erməni diasporunun dünyanın əksər böyük dövlətlərində təşkilatlanmış qurumları mövcud idi. Həmin diaspor qurumları hələ XX əsrin əvvəllərindən təşkilatlanmağa başlamışdılar və bu qurumların ideoloji bazası olan türkçülüyə qarşı nifrət malik olduqları maliyyə və təbliğat ehtiyatları ilə birləşərək kifayət qədər real bir qüvvəyə çevrilmişdi. «Uzun illər ərzində Ermənistan ...öz diasporunun yardımı ilə ictimai rəyi uğurla çaşdırmışdır. Xüsusən də bu, müstəqilliyin birinci illərində baş verdi. Azərbaycanın o vaxt heç bir diplomatik nümayəndəliyi yox idi. Ermənistanın isə diasporu var idi və o, diplomatik nümayəndəlik missiyasını oynayırdı. Ona görə yanlış ictimai rəy yaradılması Ermənistan siyasətinin əsas elementi idi» (20).

Azərbaycana qarşı aparılan qeyri-obyektiv təbliğat kampaniyası əslində məqsədyönlü şəkildə aparılan təbliğat kampaniyası idi. Bu təbliğat kampaniyası erməni millətçiləri tərəfindən planlaşdırılan işğalçılıq siyasətinin tərkib hissəsi idi. Erməni millətçi dairələri Azərbaycan torpaqlarının işğalına başlamazdan əvvəl dünya miqyasında çox geniş antiazərbaycan təbliğatına başla-

yaraq Azərbaycan haqqında arzusunda olduqları ictimai rəyi formalaşdıra bildilər. Nəticədə isə erməni millətçi qüvvələri nəinki Azərbaycana qarşı apardığı işğalçılığı müəyyən səviyyələrdə pərdələməyə nail oldu, hətta özlərini məzlum sifətdə təqdim etməklə müəyyən dövlətlər tərəfindən öz işğalçı fəaliyyətlərinə siyasi və maddi dəstək də qazana bildilər. Bu isə Azərbaycan ərazilərinin işğalı üçün münasib şərait yaratdı.

Qeyd etmək lazımdır ki, atəşkəs dövründə dünya erməniliyinin Azərbaycana qarşı yalan təbliğatı heç də səngimədi. Əksinə, dünya erməni diasporları, onların havadarları çox böyük səylə Azərbaycan torpaqlarının işğalının möhkəmləndirilməsi, işğal altında olan ərazilərin birdəfəlik Azərbaycandan qoparılaraq Ermənistana birləşdirilməsi üçün daha böyük qüvvələrlə səfərbərliyə alındılar. Bu məqsədlə böyük maliyyə ehtiyatları işə salınıb, yeni-yeni siyasətçiləri öz çevrələrinə çəkmək üçün böyük bir kampaniya başlandı. «...Hələ ki, erməni lobbisinin təhriki ilə... Azərbaycana qarşı əsassız ittihamlar səslənir. Biz bilirik bu, haradan qaynaqlanır. Əlbəttə ki, bu cür çirkin yazıların birinci mənbəyi erməni lobbisidir. Çünki erməni lobbisi, dünya erməniliyi Azərbaycanı bir nömrəli hədəf kimi seçibdir. Yəni bu, reallıqdır, bu, belədir. Çünki başa düşürlər ki, onlar üçün bir nömrəli təhlükə məhz Azərbaycandır. Bizim üçün də erməni lobbisi ən böyük düşməndir. Mən yenə də bildirmək istəyirəm ki, bunu deməkdən çəkinmirəm. Çünki bu, reallıqdır, bu, həqiqətdir. Onların, necə deyərlər, çirkli pulları bəzi siyasətçiləri, bəzi ictimai xadimləri bu qəbuledilməz yola təhrik edir» (21).

Məlumdur ki, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin həyata keçməsinə bir tərəfdən də Azərbaycanın öz daxilində olan ağır hərbi-siyasi şərait, milli parçalanma, ordu və cəmiyyət daxilində dərin kök salmış böhran əlverişli zəmin yaratdı.

Ancaq xalqın tələbi ilə Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra cəbhədə atəşkəs əldə edildi, Azərbaycan düşdüyü dərin hərbi, siyasi, ictimai böhrandan çıxarıldı. Çox qısa müddətdən sonra Azərbaycan sürətli inkişaf yoluna qədəm qoydu. Bu inkişaf erməni millətçi dairələrini, dünya erməniliyini qane etmədiyi kimi, Azərbaycanın müstəqilliyini istəməyən qüvvələrin də ciddi təşvişinə səbəb oldu. Ona görə vaxt ötdükcə Azərbaycana qarşı aparılan təbliğatın hədəflərində müəyyən dəyişikliklər baş verirdi. Müstəqilliyin ilk illərində Azərbaycana qarşı aparılan təbliğat mahiyyət etibarilə Ermənistanın Azərbaycana qarşı işğalçılığının pərdələnməsinə, Azərbaycan ərazilərinin işğalının möhkəmlənməsinə xidmət edirdisə, sonradan isə sürətli inkişaf yolunda olan bütün Azərbaycan çirkin və qeyri-obyektiv təbliğatın hədəfinə çevrildi. Bu təbliğat kampaniyasında da erməni lobbisi öz fəallığı ilə daha çox seçilirdi: «Bu, daimi bir kampaniyadır, səbəbləri də aydındır. İlk növbədə, dünya erməniliyi, erməni lobbisi bizi hədəf seçib, onların himayəsində olan riyakar, rüşvətxor siyasətçilər bu işlərə qoşulub. Xüsusilə bu, Qərb siyasətçilərinə aiddir. Erməni pulları ilə özünə həyat quran konqresmenlər, senatorlar, deputatlar, islamofob siyasətçilər və s. ünsürlər Azərbaycana qarşı müharibə elan ediblər. Əfsuslar olsun ki, bu gün Avropada faşizm, irqçilik, islamofobiya, ksenofobiya, antisemitizm baş qaldırır. Yəni, bu hərəkət təkcə müsəlmanlara qarşı deyil. Əlbəttə ki, onlar müsəlman ölkəsinin bu qədər inkişaf etməsini istəməyən qüvvələrdir» (22).

Başqa bir çıxışında da İlham Əliyev Azərbaycana qarşı dünya miqyasında erməni diasporu və onun havadarları tərəfindən aparılan təbliğatın mahiyyətinə toxunmaqla həm də bu təbliğatın mexanizminin necə qurulduğuna öz münasibətini bildirirdi: «Biz bunu bilirik. Bizim haqqımızda xarici mətbuatda gedən yazıla-

rın böyük əksəriyyəti erməni müəllifləri tərəfindən bəzi hallarda başqa adlarla yazılır. Yaxud da erməni lobbi təşkilatları tərəfindən maliyyələşdirilir. Biz bunu bilirik ki, lobbi fəaliyyəti inkişaf etmiş ölkələrdə çox geniş yayılıbdır. Erməni lobbisinin də böyük iqtisadi imkanları var. Onlar bu iqtisadi imkandan istifadə edib həm siyasətçiləri öz tərəflərinə çəkirlər, həm də mətbuat orqanlarında özlərinə sərf edən yazıları dərc etdirirdilər. Bir sözlə, ... əksər ölkələrdən fərqli olaraq, dünyada bizə, Azərbaycana qarşı mütəmadi qaydada çox böyük və düşmənçilik mövqeyində dayanan strukturlar fəaliyyət göstərir» (23).

İlham Əliyevə görə, dünya erməni lobbisinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı fəaliyyəti yalnız Azərbaycana qarşı informasiya müharibəsinin aparılması ilə kifayətlənmirdi. Dünya erməni diasporu və lobbisi öz böyük maliyyə imkanlarından istifadə etməklə həm də Ermənistanı çökməyə qoymurdu və Ermənistanın bir dövlət kimi mövcudluğu bir çox hallarda onların ayırdığı maliyyə vəsaitlərindən asılı idi. Bu da imkan verirdi ki, Ermənistan iflas olmaqdan xilas olsun və Azərbaycana qarşı öz təcavüzkar mövqeyində qalsın. Bu məsələdə erməni diasporunun niyyətləri dünyanın böyük dövlətlərində Azərbaycanın müstəqil bir dövlət kimi möhkəmlənməsini istəməyən qüvvələrin niyyətləri ilə üst-üstə düşürdü. Ona görə də, Ermənistanın Azərbaycana qarşı təcavüzü açıq-aşkar olsa da, böyük dövlətlər Ermənistanı təcavüzkar kimi tanımaqdan imtina edirdilər: «Şübhəsiz ki, əgər ermənilərin güclü lobbisi olmasaydı, bu gün Ermənistanın vəziyyəti tamamilə başqa ola bilərdi. Yəni Ermənistanı bir dövlət kimi saxlayan ən vacib amil və vasitə onların dünyadakı mövqeləridir. Əgər fərz eləsək ki, bunu ümumi kontekstdən çıxaraq, onda görərik ki, Ermənistan bir dövlət kimi formalaşmır, yəni uğur əldə etmir. Ancaq onların güclü imkanları, maliyyə imkanları, siyasi

dayaqları, müvafiq qurumlarla əlaqələri, əlbəttə ki, Ermənistanın da mövqelərini möhkəmləndirir. Baxmayaraq, bütün dünya bilir ki, Ermənistan Azərbaycana təcavüz edibdir, bu təcavüz nəticəsində torpaqlarımızın 20 faizi işğal altındadır. Etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma torpaqlarından didərgin düşübdür. Bunlar açıq bəlli olduğuna baxmayaraq, Ermənistana, onun işğalçı siyasətinə hələ ki, lazımi qiymət verilmir» (24).

Dünya erməniliyi, onun havadarları və eləcə də Ermənistan rəhbərliyi tərəfindən Azərbaycan ərazilərinin işğalına haqq qazandırmaq üçün təbliğat fəaliyyətində irəli sürülən iddialardan biri də guya Dağlıq Qarabağdakı ermənilərin öz müqəddəratını təyinetmə hüququna malik olmaları idi. Dağlıq Qarabağdakı erməni separatizminə demokratik don geydirmək, Ermənistanın işğalçı siyasətini «hüquqi» çərçivəyə salmaq üçün bu iddia elə indinin özündə də erməni millətçi qüvvələri və onların havadarları tərəfindən fəal şəkildə təbliğ edilməkdədir. Bu müddəanın irəli sürülməsində də məqsəd yenə də Dağlıq Qarabağın Azərbaycandan qoparılması idi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünya miqyasında ən yüksək dairələrdə, o cümlədən də müxtəlif ölkələrdə ictimaiyyətin nümayəndələri ilə keçirdiyi görüşlərdə bu müddəanın əsassızlığını, qeyri-obyektivliyini tutarlı şəkildə ifşa etmişdir. İlham Əliyevin bu müddəa ilə bağlı ortaya qoyduğu arqumentlər auditoriya tərəfindən də çox sadə və anlaşıqlı qəbul olunurdu. İlham Əliyevin çox sadə, inandırıcı və hüquqi baxımdan da doğru olan mövqeyi ondan ibarətdir ki, ermənilər artıq bir dəfə öz müqəddəratını həll ediblər. Ona görə də müxtəlif ölkələrə səpələnmiş ermənilərin həmin ölkələrdə öz müqəddəratlarını həll etmək tələbini ortaya qoymalarına heç bir haqları yoxdur. Eyni zamanda, İlham Əliyev onu da çatdırırdı ki,

ermənilər birinci dəfə də Azərbaycan torpaqlarında öz müqəddəratlarını müəyyənləşdiriblər. İkinci dəfə də onların öz müqəddəratlarını yenidən Azərbaycan torpaqlarında müəyyənləşdirməyə çalışmalarına daha yol verilə bilməz: «Ermənistan tərəfi bu təcavüzə və işğala bəraət qazandırmaq üçün, adətən, beynəlxalq hüququn digər prinsiplərindən çıxış etməyə çalışır. Onlar nəzərdə tuturlar ki, Dağlıq Qarabağ erməniləri öz müqəddəratını həll etmək hüququna malikdirlər. Lakin ...ermənilərin artıq öz ölkəsi və dövləti vardır. Onlar artıq öz müqəddəratını Ermənistan dövləti çərçivəsində təyin etmişlər. İndi təsəvvür edin ki, ermənilər yaşadıqları hər bir ölkədə öz müqəddəratını təyin etməyə çalışsalar, onda nə baş verər? Hamıya məlumdur ki, onlar müxtəlif ölkələrdə yaşayırlar, lakin bu o demək deyil ki, yaşadıqları hər bir yerdə muxtariyyət yaratmalı və separatçılıq etməlidirlər. Həm də bu separatçılıq təcavüzkar xarakter daşıyır. Əminəm ki, beynəlxalq ictimaiyyətin bu mövzuya daha çox diqqət yetirəcəyi təqdirdə, məsələ beynəlxalq hüquq normaları əsasında və sülh yolu ilə həll edilə bilər. İkincisi, Ermənistan dövləti var və erməni xalqı öz müqəddəratını Ermənistan dövləti çərçivəsində artıq təyin edibdir. Əgər ermənilər yaşadıqları bütün ölkələrdə öz müqəddəratını təyin etmək eşqinə düşərlərsə, dünyada nə qədər erməni dövləti yaranacaqdır? Ermənilər Gürcüstanda, Rusiyada, Amerikada, Fransada və digər ölkələrdə yaşayırlar. Nə üçün onlar yaşadıqları bütün ölkələr içərisində öz müqəddəratını təyin etmək üçün yalnız Azərbaycanı seçiblər?! Bu prinsip beynəlxalq hüquq normalarına ziddir. Əgər Qarabağda yaşayan ermənilər öz müqəddəratını təyin etmək istəyirlərsə, buyursunlar, onu Ermənistan dövləti çərçivəsində etsinlər» (25).

Dünya erməniliyinin, onun havadarlarının və erməni millətçi dairələrinin Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasə-

tinin pərdələnməsi və Azərbaycan əraziləri üzərindəki işğalın möhkəmləndirilməsi üçün əl atdıqları digər bəhanələr içərisində cənab İlham Əliyevin diqqətini daha çox özünə çəkən bəhanələrdən biri də guya Dağlıq Qarabağın tarixən erməni torpaqları olması idi. «Erməni təbliğatı nəticəsində indiyə qədər təkcə burada deyil, başqa ölkələrdə də hələ də belə bir yanlış rəy qalır ki, guya Dağlıq Qarabağ tarixi baxımdan erməni torpağıdır. Amma bu, tamamilə yanlış bir məlumatdır. Bu, Azərbaycanın əzəli torpağıdır. Onun bütün toponimləri, tarixi Azərbaycanla bağlıdır. Ermənilərin oraya gəlməsi ancaq XIX əsrin əvvəlində başlamışdır. Onlar başqa ölkələrdən oraya köçürülmüşlər. Bunu əks etdirən, ermənilər tərəfindən 1978-ci ildə ucaldılmış abidə də var idi ki, onu vurdular dağıtdılar» (26).

Bu bəhanənin əsassızlığının ortaya qoyulması üçün də İlham Əliyev həm ciddi, həm də auditoriya üçün anlaşıqlı olacaq arqumentlər səsləndirirdi. Məlumdur ki, dünya erməniliyi belə bir iddianın qəbul edilməsi üçün davamlı olaraq təbliğat aparırdı və öz xəyalları əsasında tərtib etdikləri mifik «Böyük Ermənistan» xəritəsini ən müxtəlif dillərdə təkrar-təkrar çap etdirirdi. Dünya tarixşünaslığı, xüsusilə bölgə ölkələrinin tarixşünaslığı tərəfindən qəbul edilməyən bu xəritə Azərbaycanın böyük hissəsini, o cümlədən Dağlı Qarabağı da özündə birləşdirirdi. Elmi-tarixi dövriyyədə olan faktlar isə erməni iddialarının əksini ortaya qoyurdu. İlham Əliyev də erməni iddialarını ifşa edərkən məhz belə faktlara istinad edirdi: «Azərbaycanın regionu olan Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır. Ermənilər əvvəllər orada heç vaxt yaşamayıblar. Onlar Dağlıq Qarabağa XIX əsrin əvvəllərində İran və Türkiyədən çar Rusiyası tərəfindən köçürülmüşlər. Bu o məqsədlə edilmişdir ki, Rusiya Qafqazda özünə dayaq əldə etsin. Ermənistan indi də həmin funksiyanın yerinə

yetirilməsini davam etdirir. Ermənilər hazırda müxtəlif ölkələrin bu regionda siyasətinin həyata keçirilməsində də müəyyən rol oynayırlar. Başqa sözlə desək, Dağlıq Qarabağ heç vaxt erməni ərazisi olmayıbdır. Hətta əgər siz Qarabağ sözünün mənasına nəzər yetirsəniz, onun açmasını erməni dilində tapmayacaqsınız. Ermənidən soruşsanız, sizin dildə Qarabağ nə deməkdir, o sizə cavab verə bilməyəcəkdir. Bizim dildə isə onun mənası böyük bağdır – Qara bağ. Tarix həmçinin bu faktı açıq-aydın sübut edir ki, ermənilər bu regiona qonaq qismində gəlmişlər. Rusiya imperiyasının süqutundan və Sovet İttifaqının yaranmasından sonra sovet respublikaları arasında yeni sərhədlərin çəkilməsi ilə bağlı müxtəlif qərarlar qəbul edilmişdir. Tarixi keçmişi nəzərə alsaq, Dağlıq Qarabağ Azərbaycanın tarixi bir hissəsi olaraq bizim inzibati sərhədlərimiz çərçivəsində qalmışdır» (27).

Dağlıq Qarabağ münaqişəsinin mahiyyətinin doğru-düzgün başa düşülməsi, Azərbaycana qarşı istiqamətlənmiş erməni təbliğatının saxtalığının sübut edilməsi, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması baxımından İlham Əliyev yuxarıdakı cümlələrdə müxtəsər şəkildə bir sıra tarixi həqiqətlərə istinad etmişdir:

1. **Azərbaycan regionu olan Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır**. Ermənilərin tarixinə aid olan ən qədim yazılı mənbələr ermənilərin bir xalq kimi Qafqazdan çox-çox uzaqda formalaşdığını təsdiq edir. Bu xalqın Qafqaza gəlməsi də dünyanın digər bölgələrinə olan axışması kimi tarixin xeyli sonrakı mərhələsinə təsadüf edir. Ona görə, ermənilərin Dağlıq Qarabağı erməni torpaqları adlandırılmasının heç bir elmi-tarixi əsası yoxdur. İlham Əliyevin istinad etdiyi digər faktlar da bu sübutu daha da möhkəmləndirir;

2. **Ermənilər Dağlıq Qarabağa XIX əsrin əvvəllərində İran və Türkiyədən çar Rusiyası tərəfindən köçürülmüşlər**. Söhbət burada Türkmənçay müqaviləsinin şərtlərindən və 1828-29-cu illərdə Osmanlı Türkiyəsi ilə aparılan müharibənin nəticələrindən gedir. Bu iki müharibəni qələbə ilə başa çatdıran Rusiya tərəfi hər iki dövlətin ərazisində yaşayan ermənilərin Azərbaycanın Qafqazdakı işğal olunmuş ərazilərinə köçürülməsini həmin dövlətlərə qəbul etdirdi. Həmin dövlətlərin ərazisindən Azərbaycanın keçmiş Qarabağ, İrəvan və Naxçıvan xanlıqlarına nə qədər erməni köçürülməsi haqqında çoxlu sayda sənədlər mövcuddur və ermənilər özləri də bu sənədləri inkar edə bilmirlər;

3. **Çar Rusiyası Qafqazda özünə dayaq yaratmaq üçün erməniləri bu bölgəyə köçürdü** və Ermənistan elə indi də başqa dövlətlərin Qafqazdakı dayaq rolunu oynayır. Çar Rusiyası generalları bir tərəfdən ermənilərin güclüyə yalmanmaq xasiyyətlərinə bələd olduqları üçün, digər tərəfdən Azərbaycan xanlıqları ərazisində Rusiya işğalına qarşı müqavimət hərəkatının zəiflədilməsi və nəhayət Azərbaycanın bölgələri arasında tarixi bağlılığın qırılması üçün erməniləri Qarabağ, İrəvan və Naxçıvan xanlıqları ərazisində, Azərbaycan torpaqlarında yerləşdirdi. İlham Əliyevin digər çıxışlarında istinad etdiyi kimi, Dağlıq Qarabağın Marağa kəndində 1978-ci ildə ermənilərin İran ərazisindən bu bölgəyə köçürülməsinin 150 illiyi münasibətilə xatirə abidəsi qoyulmuşdu. Ermənilər bu faktı da inkar edə bilmirdilər. Amma sonra onlar özlərinin Dağlıq Qarabağdakı tarixinin daha qədim olmasını iddia etmək üçün həmin abidəni dağıtdılar;

4. **Bölgənin coğrafi adlarının Azərbaycan dilində olması**. Bu fakt bölgənin azərbaycanlılara mənsub olmasının göstəricisidir. İlham Əliyev auditoriyaya hətta «Qarabağ» sözünün də Azərbaycan sözü olduğunu çatdırırdı. Belə bir sadə həqiqət ortaya qo-

yulurdu ki, Dağlıq Qarabağ qədim erməni torpağı olsaydı, buradakı coğrafi adlar da erməni dilində olardı. Halbuki real vəziyyət tamamilə bunun əksinədir.

5. Nəhayət, İlham Əliyev hətta Sovetlər dövründə bölgənin xəritəsi yenidən çəkiləndə də **Dağlıq Qarabağın Azərbaycan əraziləri kimi Azərbaycanın inzibati sərhədləri daxilində saxlanıldığını** bildirirdi. Məlumdur ki, bolşevik rejimi bölgədə öz dayağını möhkəmləndirmək üçün ermənilərə istinad edirdi və ermənilərin xeyrinə olaraq Azərbaycan əraziləri də doğranaraq ermənilərə pay verilmişdi. İlham Əliyev başqa çıxışlarında bu məsələyə də toxunurdu. Bununla belə, Dağlıq Qarabağın Azərbaycana mənsubluğu o qədər aydın idi ki, ermənilərin bütün təzyiqlərinə baxmayaraq, bolşeviklər bu bölgəni onlara hədiyyə edə bilməmişdilər.

İlham Əliyev digər çıxışlarında Dağlıq Qarabağın mərkəzi şəhəri sayılan Stepanakertin də ilkin adının Azərbaycan sözü – Xankəndi olduğunu və əsrlər boyu bu məntəqənin məhz Xankəndi adlandırıldığını bildirirdi. Ölkə Prezidenti həmin məntəqənin bolşevik və quldur Stepan Şaumyanın adı ilə adlandırılmasını isə sovet dövrünə aid olduğunu qeyd edirdi. İlham Əliyev onu da bildirirdi ki, Dağlıq Qarabağın etnik tərkibi süni şəkildə dəyişdirilmişdi və sovet dövründə burada ermənilər əksəriyyət təşkil edə bilmişdilər. Amma bu, erməni millətçilərinə heç də haqq vermirdi ki, Dağlıq Qarabağda azlıqda qalan azərbaycanlıları oradan qovsunlar (28).

İlham Əliyev, eyni zamanda, Ermənistanın özünün Azərbaycan torpaqlarında qərarlaşdığını dünya ictimaiyyətinə çatdırırdı. Bununla bağlı, həm İrəvan xanlığının əhalisinin böyük əksəriyyətinin azərbaycanlı olduğu, həm də İrəvanın paytaxt kimi Ermənistana 1918-ci ildə güzəştə gedildiyi bildirilirdi. Bu faktlar

ermәni millәtçilәri üçün xoşagәlmәz faktlar olsa da, onları gizlәtmәk dә mümkün deyil. Hәr iki fakt haqqında kifayәt qәdәr mötәbәr mәnbә mövcuddur. 1918-ci ilin 28 mayında ermәni millәtçilәri Tbilisidә Ermәnistanın yaradıldığını elan etdilәr. Amma onlar bilmirdilәr ki, bu dövlәtin paytaxtı hansı şәhәr olsun. Çünki onların etnik baxımdan әksәriyyәt tәşkil edәcәklәri böyük bir şәhәr Qafqazda mövcud deyildi. Belә bir vaxtda onlar Azәrbaycan Milli Şurasına müraciәt etdilәr vә qәbul edәcәklәri güzәştlәr qarşısında İrәvanın da paytaxt kimi Ermәnistana güzәştә gedilmәsi mәsәlәsini qaldırdılar. Azәrbaycan Milli Şurası da 1918-ci il may ayının 29-da İrәvanın paytaxt kimi Ermәnistana güzәştә gedilmәsi barәdә qәrar qәbul etdi (29).

Bu mәsәlәlәrә İlham Әliyev öz münasibәtini belә bildirirdi: «...tәşәbbüslәrimiz, tarixә müraciәtimiz vә konkret dәlillәrlә, faktlarla mövqeyimizi әsaslandırmışıq ki, İrәvan Ermәnistanın paytaxtı kimi Azәrbaycan dövlәti tәrәfindәn 1918-ci ildә verilmişdir. İrәvan xanlığında yaşayan әhalinin әksәriyyәti azәrbaycanlılar idi. Zәngәzur mahalı qәdim Azәrbaycan torpağıdır vә süni şәkildә Ermәnistana verilmişdir. Zәngәzur mahalının Ermәnistana verilmәsi böyük әdalәtsizlik idi. Doğma torpağımızın bir parçası Ermәnistana birlәşdirildi. Bunun çox böyük mәnfi nәticәsi oldu. Bu, bütün türk dünyasını parçaladı. Bütün indiki Ermәnistan әrazisinin әksәr toponimlәri Azәrbaycan mәnşәli toponimlәrdir. Şәhәrlәrin, kәndlәrin adları. Hәtta bunu Böyük Sovet Ensiklopediyasında da görmәk mümkündür. O vaxt ermәni şәhәrlәrinin adları vә onların әski variantı yazılmışdı. ...Dağlıq Qarabağ әzәli Azәrbaycan torpağıdır. Ermәni tәbliğatı bütün dünyada bizә qarşı işә salınıbdır. Biz isә hәqiqәtlәri çatdırmalıyıq ki, Xankәndi şәhәri Stepanakert deyil, Xankәndidir. Stepanakert quldur dәstәsinin rәhbәri Şaumyanın adına verilmişdir. Mәn dәfәlәrlә bu barәdә

demişəm, əgər o yaşayış məntəqəsinin tarixi adı olsa idi, o tarixi adı ermənilər bərpa edərdilər. Bu bizim torpağımızdır» (30).

Erməni millətçiləri tərəfindən Azərbaycana qarşı aparılan çirkin təbliğat kampaniyasında tarixin saxtalaşdırılması cəhdlərinə İlham Əliyev başqa bir çıxışında öz qətiyyətli mövqeyini belə açıqlayırdı: «Tarix tarixdir. 1978-ci ildə Qarabağda məskunlaşmalarının 150 illiyini qeyd edən ermənilər yaxşı bilirlər ki, onlar bu torpaqlara qonaq kimi gəlmişlər. Nəinki Dağlıq Qarabağ, bugünkü Ermənistan tarixi Azərbaycan torpaqlarında formalaşıbdır. İrəvan xanlığı, Zəngəzur mahalı bizim tarixi ərazimizdir. Xəritəyə baxsaq, görərik ki, vaxtilə Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana vermək nəticəsində böyük türk dünyası coğrafi cəhətdən parçalandı. Yəni Zəngəzurun Ermənistana verilməsinin çox böyük mənfi mənası var idi. Biz indi iddia etmirik ki, bu torpaqlar Azərbaycana birləşsin. Halbuki hər bir azərbaycanlı, hər bir vətəndaş, hər bir uşaq öz tarixini bilməlidir. Bilməlidir ki, bu bölgələr tarixi Azərbaycan torpaqlarıdır. Məsələnin həlli üçün, əlbəttə, bütün amillər nəzərdən keçirilməlidir. Tarix bəllidir. Bu bizim torpağımızdır, nəinki Dağlıq Qarabağ və digər bölgələr» (31).

İlham Əliyevin münasibət bildirdiyi tarixi faktlar təkcə Ermənistanın və dünya erməniliyinin Azərbaycana qarşı apardığı qeyri-obyektiv təbliğatın ifşa edilməsi, Azərbaycan həqiqətlərinin dünya ictimai rəyinə çatdırılması baxımından əhəmiyyətli deyildi, bu tarixi faktlar həm də rəsmi müzakirələr və danışıqlar zamanı Dağlıq Qarabağla bağlı erməni iddialarının əsassızlığının sübutu üçün ortaya qoyulur və bununla Azərbaycanın tələblərinin obyektivliyi üçün daha geniş təsəvvür formalaşdırılırdı. Qeyd edildiyi kimi, Dağlıq Qarabağ münaqişəsinin həlli yolunun tapılması istiqamətləri İlham Əliyev tərəfindən müəyyənləşdirilən ölkə xarici siyasətinin əsas prioritetlərindən birini təşkil edirdi

və hazırda da təşkil etməkdədir. Münaqişənin həllinə vasitəçilik edən Minsk qrupunun həmsədr ölkələrinin, beynəlxalq təşkilatların, dünyanın böyük dövlətlərinin rəhbərləri və nümayəndələri ilə İlham Əliyevin keçirdiyi elə bir görüş tapmaq olmaz ki, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi məsələsi orada müzakirəyə çıxarılmasın və bu məsələlərin ədalətli həlli yollarına toxunulmasın.

Dağlıq Qarabağ münaqişəsinin həlli və Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi istiqamətində ən müxtəlif səviyyələrdə İlham Əliyevin rəhbərliyi altında aparılan işlərin ən başlıca xarakterik cəhəti heç şübhəsiz ki, Azərbaycanın ədalətli mövqeyi ilə bağlı İlham Əliyevin nümayiş etdirdiyi davamlı qətiyyətdir. Məlumdur ki, Ermənistan rəhbərliyi öz təcavüzkar niyyətlərinə, Ermənistana havadar olan qüvvələrin dəstəyinə, Ermənistanı öz siyasətinin vasitəsi edən maraqlı tərəflərin təzyiqlərinə əsaslanaraq Azərbaycan ərazisində işğalın möhkəmləndirilməsi üçün ən müxtəlif bəhanələrə, təkliflərə, yollara, təxribatlara əl atır. Bütün bu təxribatların qarşısında İlham Əliyevin hər zaman Azərbaycanın maraqlarını, milli mənafeyini əks etdirən aydın, sabit və qətiyyətli mövqeyi olmuşdur və bu mövqe indi də qalmaqdadır – Azərbaycanın ərazi bütövlüyü müzakirə obyekti deyildir və heç vaxt da olmayacaqdır (32). Bu qətiyyət və iradə xalqın istəyindən irəli gələn bir mövqedir və İlham Əliyev ölkə Prezidenti seçiləndən sonra andiçmə mərasimində bəyan etdiyi kimi bu qətiyyətli mövqeni bütün fəaliyyəti ilə də təsdiq etdirməkdədir. Bu qətiyyətdə həm Azərbaycan Respublikası Prezidentinin xalq qarşısında verdiyi vədə bir sədaqət var, həm də Azərbaycanın gələcəyinə olan bir inam və nikbinlik vardır: «Biz bu gün gələcəyə çox nikbinliklə baxırıq. Gələcəyimiz çox parlaq olacaqdır. Ölkəmiz inkişaf edəcək, güclənəcək, Azərbaycan üçün ən ağır problem olan

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi öz həllini tapacaqdır. Mən buna əminəm. Bizim işimiz haqq işidir. Biz ədaləti müdafiə edir, ərazi bütövlüyümüzü bərpa etmək istəyirik. Çalışırıq ki, bu münaqişə beynəlxalq hüquq normaları əsasında sülh yolu ilə öz həllini tapsın. Amma, eyni zamanda, biz bütün digər hadisələrə də hazır olmalıyıq. Bizim heç bir ölkənin torpağında gözümüz yoxdur, öz torpaqlarımızı da heç kimə verməyəcəyik. Biz öz doğma torpaqlarımızı azad edəcəyik. İstəyirik, bunu sülh yolu ilə edək. Əgər bu mümkün olmazsa, bütün başqa vasitələrdən istifadə edib doğma torpaqlarımızı azad edəcəyik» (33).

İlham Əliyev BMT Baş Məclisinin sessiyasında, bütün dünyanın rəhbərləri qarşısında da bu qətiyyətini bildirdi və Azərbaycan xalqının iradəsini ən yüksək və mötəbər auditoriya qarşısında səsləndirdi: «Azərbaycan torpaqlarının işğalı, ərazi bütövlüyünün pozulması və etnik təmizləmənin nəticələri ilə heç zaman barışmayacaqdır» (34).

İlham Əliyev aydın şəkildə erməni millətçilərinin və onların havadarlarının da nəzərinə çatdırırdı ki, vaxtı uzatmağın, nəyə isə ümid etməyin mənası yoxdur. Azərbaycan xalqının da, Azərbaycan Prezidentinin də mövqeyi dəyişməz olaraq qalacaqdır: «Biz heç vaxt torpaqlarımızın itirilməsi ilə barışmayacağıq, heç vaxt Dağlıq Qarabağın Azərbaycandan ayrılmasına izn verməyəcəyik. Bu mənim qəti mövqeyimdir və bu mövqe dəyişməz olaraq qalır. 2003-cü ildə Prezident seçkilərində mən bu məramla iştirak edirdim və öz fikirlərimi, siyasətimi bəyan etmişdim, bu gün də bu mövqedəyəm. Mən heç vaxt real olmayan məsələlərə toxunmuram, heç vaxt faktiki şəkildə icra edilməyən məsələləri ortaya qoymuram. Mövqeyimdə də heç bir dəyişiklik olmur, çünki bu, siyasətdir və siyasət Azərbaycanın bütün sahələrini əhatə edir. O cümlədən bu sahədə. Bu münaqişə yalnız Azərbaycanın

ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Dağlıq Qarabağ Azərbaycan torpağıdır» (35).

Digər çıxışlarından birində isə İlham Əliyev bəyan edirdi ki, Dağlıq Qarabağa heç bir zaman müstəqillik verilməyəcək, heç bir vaxt bu bölgə Ermənistana birləşməyəcək: «Bir şeyi deyə bilərəm ki, heç vaxt Dağlıq Qarabağa müstəqillik verilməyəcək, heç vaxt Dağlıq Qarabağ Ermənistana birləşməyəcəkdir. Əgər ermənilər öz müqəddəratını təyin etmək istəyirlərsə, onların artıq öz dövləti var – Ermənistan. Erməni xalqı öz müqəddəratını təyin edibdir. Əgər Dağlıq Qarabağda yaşayanlar da öz müqəddəratını təyin etmək istəyirlərsə, onlar buyurub, Ermənistana – Azərbaycanın tarixi torpaqları üzərində qurulan bir dövlətə köçə bilərlər» (36).

Ən müxtəlif səviyyəli auditoriyalarda İlham Əliyevin belə qətiyyətli çıxışlarına təkrar-təkrar rast gəlmək mümkündür. Dövlət rəhbəri haqlı olaraq qeyd edirdi ki, Azərbaycanın ərazi bütövlüyü heç bir başqa ölkənin ərazi bütövlüyündən az əhəmiyyət kəsb etmir (37). Ona görə də bütün müzakirələrdə İlham Əliyev Azərbaycan xalqının bu dəyərinə və qəbul olunmuş beynəlxalq normaya hörmətlə yanaşılmasını lazım bilirdi.

Belə qətiyyətli mövqeyinə baxmayaraq, İlham Əliyev müharibə tərəfdarı olmadığını və Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllini dəstəklədiyini bildirirdi. Münaqişənin həllinin ədalətli yolunu isə İlham Əliyev beynəlxalq hüquq normalarına riayət olunmasında görürdü. Ölkə Prezidenti kimi andiçmə mərasimində İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin həllinin bir sıra prinsiplərini sadalamışdı. Bütünlükdə isə o, Dağlıq Qarabağ münaqişəsinin BMT Təhlükəsizlik Şurasının bu münaqişə ilə bağlı qəbul etdiyi 4 qətnaməsinin yerinə yetirilməsini, BMT-nin rəhbər sənədlərində, Helsinki Aktında öz əksini tapmış beynəlxalq normalar çərçivəsində münaqişənin həll edilməsini təkid edirdi.

İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildiyi dövrdə Dağlıq Qarabağ münaqişəsinin həllinə vasitəçilik edən Minsk qrupunun fəaliyyətində elə bir canlanma hiss olunmurdu. 2004-cü ilin mart ayında Azərbaycana səfər edən ATƏT-in fəaliyyətdə olan sədri, Bolqarıstanın xarici işlər naziri S.Passi də bəyan edirdi ki, Minsk qrupunun Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı hazırda konkret təklifləri yoxdur. Buna görə də Azərbaycan Prezidenti ilə Ermənistan prezidenti arasında keçiriləcək görüşə müəyyən ümid bağlandığını bildirirdi (38).

İlham Əliyev isə ATƏT-in Minsk qrupunun fəaliyyətini qeyd etməklə bərabər, onun həmin dövrdə nümayiş etdirdiyi yanaşmanın məsələnin həllinə müsbət təsir edə bilməyəcəyini bildirirdi. Çünki Minsk qrupunun münaqişənin həlli ilə bağlı hazırkı mövqeyi daha çox müşahidəçi xarakteri daşıyırdı. Münaqişənin həllinin prezidentlərin görüşünə bağlanması barəsində ortaya atılan gözləntilərə gəlincə isə İlham Əliyev vurğulayırdı ki, Minsk qrupu gərək öz mandatı çərçivəsində vasitəçilik missiyasını həyata keçirsin. Əgər münaqişə iki ölkənin prezidentlərinin görüşündə həll olunacaqdısa və Minsk qrupu da prezidentlərin əldə edəcəkləri razılaşmanı dəstəkləyəcəkdisə, İlham Əliyevə görə onda Minsk qrupu adi müşahidəçiyə çevrilərdi. Minsk qrupuna isə müşahidəçilik missiyası deyil, vasitəçilik missiyası həvalə olunmuşdu (39).

2004-cü il ərzində həm İlham Əliyevin bir sıra mühüm beynəlxalq görüşlərində, həm də Minsk qrupu həmsədrlərinin Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşlərində bir daha münaqişənin həlli istiqamətində vasitəçiliyin canlandırılması məsələsinə toxunuldu və Azərbaycanın haqlı mövqeyi yenidən səsləndirildi. Fransanın «La letr diplomatic» jurnalına verdiyi müsahibəsində İlham Əliyev mövcud vəziyyəti geniş təhlil etdi və yaranmış durumla bağlı baxışlarını da açıqladı. İlham Əliyev

bu müsahibəsində Dağlıq Qarabağ münaqişəsini təkcə Azərbaycan üçün deyil, Avropanın təhlükəsizlik arxitekturası üçün mühüm rol oynayan Cənubi Qafqazda sabitliyə təhdid olacaq bir münaqişə kimi qiymətləndirdi, Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılığın nəticələrini açıqladı, Ermənistan rəhbərliyinin münaqişənin həlli ilə bağlı BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin icrasına məhəl qoymadığını qeyd etdi. Avropa Şurasının, Avropa Birliyinin və digər beynəlxalq təşkilatların qərarlarında Azərbaycan ərazilərinin işğalı faktı öz əksini tapsa da, İlham Əliyev bu qərarların yerinə yetirilməsi üçün beynəlxalq təşkilatlar və dünya birliyi tərəfindən təcavüzkara qarşı təzyiqin gücləndirilməsini lazım bilirdi (40).

2004-cü ilin sentyabrında İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti kimi BMT-nin Baş Məclisinin iclasında iştirak etdi və və bu mötəbər təşkilatın tribunasından bir daha Ermənistanın Azərbaycana qarşı apardığı işğalın nəticələri, bu işğalın aradan qaldırılması üçün Ermənistanın beynəlxalq təşkilatların qərarlarına etinasızlığı və digər məsələlər barədə geniş bəyanat verdi.

İlham Əliyev bildirdi ki, Azərbaycan BMT-yə üzv olduğu ilk günlərdən daim beynəlxalq birliyin diqqətini Dağlıq Qarabağ ilə bağlı Ermənistan-Azərbaycan münaqişəsi və Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğal olunması məsələsinə yönəltmişdir. Bununla BMT-dən təcavüzkarın işğal olunmuş torpaqlardan geri çəkilməyə məcbur ediləcəyi və beləliklə, öz yurdlarından qovulmuş Azərbaycan vətəndaşlarının daimi yaşayış yerlərinə qayıtması üçün imkanlar yaradılacağı gözlənilirdi. Suveren Azərbaycanın ərazilərinin Ermənistan tərəfindən işğalına cavab olaraq, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə 822, 853, 874, 884 nömrəli 4 qətnaməni yekdilliklə qəbul etdiyini qeyd edən Azərbaycan Prezidenti həmin qətnamələrin Dağlıq Qarabağ böl-

gəsinin Azərbaycanın tərkib hissəsi kimi təsdiqlədiyini və Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə, beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərinə hörmət edilməsinin təsbit edildiyini vurğuladı. Bildirilirdi ki, BMT qətnamələri Azərbaycanın zəbt olunmuş ərazilərindən bütün işğalçı qüvvələrin dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını və köçkün düşmüş insanların daimi yaşayış yerlərinə təhlükəsiz qayıtması üçün şəraitin təmin olunmasını tələb etmişdir. Buna baxmayaraq, həmin qətnamələr beynəlxalq hüququn fundamental prinsiplərini heç zaman tanımayan Ermənistan tərəfindən yerinə yetirilməmişdir.

İlham Əliyev Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayonun Ermənistan tərəfindən işğal edildiyini, işğal olunmuş ərazilərdə etnik təmizləmə aparıldığını və bir milyondan artıq insanın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü xatırladaraq BMT Təhlükəsizlik Şurasının özünün Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi qətnamələrin icrasına biganə yanaşmasına da diqqəti cəlb etdi. Azərbaycan Respublikasının Prezidenti qeyd edirdi ki, Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymayan Ermənistan işğal olunmuş Azərbaycan ərazilərində qeyri-qanuni məskunlaşdırma həyata keçirir ki, bu da beynəlxalq hüququn, xüsusilə müharibə zamanı Mülki Şəxslərin Müdafiəsi üzrə 1949-cu ildə qəbul edilmiş 4-cü Cenevrə Konvensiyasının müddəalarına zidd idi (41).

İlham Əliyev Baş Məclisdəki çıxışında daha sonra Ermənistanın işğal olunmuş Azərbaycan torpaqlarında törətdiyi qanunsuzluqlardan danışdı və münaqişənin həlli üçün hələlik nəticəsiz qalan fəaliyyət barəsində məlumat verdi. Eyni zamanda, İlham Əliyev münaqişənin həlli, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi zəruriliyi ilə bağlı qətiyyətli mövqeyini dünya ölkələrinin rəhbərlərinin nəzərinə çatdırdı. Bildirildi ki, mü-

naqişənin siyasi yolla həlli prosesi son 12 il ərzində ATƏT-in Minsk qrupu çərçivəsində həyata keçirilmiş, lakin bu günədək heç bir nəticə verməmişdir. Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsi, vəziyyətin yerində qiymətləndirilməsi və Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən həyata keçirilən qeyri-qanuni fəaliyyət məsələlərinə ATƏT-in Minsk qrupu ciddi diqqət yetirməmişdir. Ona görə də İlham Əliyev qeyd edirdi ki, BMT Təhlükəsizlik Şurasının, ATƏT və onun Minsk qrupunun problemə hazırkı passiv və biganə yanaşması və beynəlxalq birlik tərəfindən ciddi təzyiqin göstərilmədiyi indiki şəraitdə Ermənistan özünün təcavüzkar və destruktiv mövqeyindən geri çəkilməyəcəkdir. Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistanın qeyri-qanuni fəaliyyəti və onun danışıqlar prosesində tutduğu mövqe bir daha sübut edir ki, Ermənistan münaqişəni baş vermiş fakt əsasında zorla qəbul etdirməyə çalışaraq, nəinki problemin nizamlanması yollarını axtarmır, hətta danışıqların daha da uzadılması və təcavüzün nəticələrini möhkəmləndirmək məqsədi güdür. İlham Əliyev BMT-nin yüksək tribunasından bəyan edirdi ki, Dağlıq Qarabağ münaqişəsi etnik təmizləmə və de-fakto suveren dövlətin ərazilərinin ilhaq olunması əsasında deyil, beynəlxalq hüquq və demokratiya normaları əsasında həll edilə bilər. Bu məsələ ilə bağlı respublika Prezidenti öz fikirlərini belə yekunlaşdırdı ki, Azərbaycan öz torpaqlarının işğalı, ərazi bütövlüyünün pozulması və etnik təmizləmənin nəticələri ilə heç zaman barışmayacaqdır (42).

Gözlənilən bütün ümidlərə baxmayaraq, 2004-cü ildə münaqişənin həllinin tapılması istiqamətində ciddi bir irəliləyişin əldə edilməsi mümkün olmadı. İlham Əliyev bildirirdi ki, biz bütün ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşırıq və Azərbaycana qarşı da belə bir münasibət göstərilməsi arzusundayıq. İlham

Əliyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi üçün digər variantların da istisna olmadığını dünya ictimaiyyətinə çatdırırdı. Onun qeyd etdiyinə görə, digər variantlara əl atılması isə münaqişənin həlli ilə bağlı aparılan müzakirələrin hansı nəticələrlə yekunlaşmasından asılı ola bilərdi (43).

Bununla belə, İlham Əliyevin əzmkarlığı və ardıcıllığı nəticəsində Azərbaycanın ədalətli mövqeyi, onun ərazi bütövlüyü həm dünyanın böyük dövlətləri tərəfindən, həm də nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən qəbul edilir və münaqişənin tezliklə həll olunmasına dəstək ifadə edilirdi. Məhz bunun nəticəsi idi ki, 2004-cü il oktyabr ayının 29-da BMT-nin Baş Məclisinin sessiyasında Azərbaycan nümayəndə heyətinin təşəbbüsü ilə «Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət» adlı əlavə maddə iclasın gündəliyinə daxil edilməsi qərara alındı. Bu qərarın qəbuluna yalnız Ermənistan etiraz etdi. Həmin ilin dekabr ayının 6-7-də ATƏT Nazirlər Şurasının Sofiyada keçirilən iclasında ATƏT-in Minsk qrupunun «Praqa prosesi» adlı bir nizamlama prosesinin meydana gəlməsi haqqında məlumat verildi. 2005-ci ilin yanvar ayının 25-də Avropa Şurası Parlament Assambleyası «ATƏT-in Minsk Konfransının məşğul olduğu Dağlıq Qarabağ bölgəsi üzərində münaqişə» adlı qətnamə qəbul etdi. 2005-ci ilin yanvar ayının sonlarında isə işğal olunmuş ərazilərdə məskunlaşdırma üzrə ATƏT-in Minsk qrupunun faktaraşdırıcı missiyası Azərbaycana gəldi (44).

İlham Əliyev bu qərarların qəbul edilməsini müsbət hal kimi qiymətləndirirdi. Çünki bununla ən azı Azərbaycana qarşı işğal həyata keçirildiyi təsdiq olunurdu. Avropa Şurasının qətnaməsini İlham Əliyev belə qiymətləndirirdi: «Həmin sənəddə aydın şəkildə yazılıb ki, məsələ həll olunmalıdır. Daha sonra deyilir ki, Ermənistan etnik təmizləmə siyasətini apararaq, Azərbaycan

ərazisinin 20 faizini işğal edib və bunun nəticəsində 1 milyon azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşübdür. Beləliklə, Ermənistanın Azərbaycana qarşı etdiyi təcavüz artıq aydın şəkildə göstərilibdir. Avropa Şurası tərəfindən bir sıra sərt bəyanatlar verilibdir» (45).

Bu qətnaməni qiymətləndirərkən İlham Əliyev daha sonra bildirirdi ki, əgər münaqişənin həllindən danışılırsa, Ermənistan Azərbaycan torpaqlarının ilhaq siyasətinə son qoymalıdır və yalnız bundan sonra Dağlıq Qarabağa dünyanın ən yüksək muxtar statusu verilə bilər.

«Praqa prosesi» adlı bir ifadənin siyasi terminologiyada yer alması heç şübhəsiz ki, Minsk qrupu həmsədrləri ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Dağlıq Qarabağ münaqişəsinin həlli ətrafında bir neçə dəfə Praqada görüşməsi ilə bağlı idi. Bu görüşlər və müzakirələr 2004-cü il mart ayının 4-5-də, aprel ayının 16-da, iyunun 21-də, avqustun 30-da, 2005-ci il yanvar ayının 12-də keçirilmişdi. Minsk qrupunun həmsədrləri digər şəhərlərdə də müxtəlif məsləhətləşmələr aparmışdı. Amma, görünür, münaqişənin həlli prinsipləri iki ölkənin xarici işlər nazirlərinin iştirakı ilə daha çox Praqada müzakirə edilmiş və təqdim olunan təkliflər də burada razılaşdırılmışdı.

İlham Əliyev Praqa prosesinin ilkin dövründə müzakirəyə çıxarılan təkliflərin Azərbaycanın maraqlarına cavab vermədiyini bildirirdi. Onun sözlərinə görə, bu prosesdə hətta Dağlıq Qarabağı Azərbaycandan ayıra biləcək müəyyən mexanizmlərə də yer verilmişdi. Bütünlükdə, münaqişənin həlli ilə bağlı irəli sürülən təkliflərdə Azərbaycan tərəfini qane etməyən çoxsaylı məqamlar var idi. Bəzi məqamları isə İlham Əliyev təhlükəli məqamlar kimi xarakterizə edirdi. Sözsüz ki, İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti kimi bu məqamlarla razılaşmadı və

münaqişənin həlli prinsiplərinin razılaşdırılması üçün gərgin işlər aparıldı (46). Yalnız Praqada keçiriləın görüşlərin intensivliyinə diqqət yetirilərsə, aparılan işlərin gərginliyinə şübhə yeri qalmaz.

Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının Praqa prosesi çərçivəsində aparıldığı vaxtlarda İlham Əliyev çıxışlarının birində Azərbaycan üçün qəbul edilməsi mümkün olmayan bəzi təkliflərin müəyyən detallarını açıqlamışdı. Güman etmək olar ki, həmin təklif Praqa prosesinin ilkin vaxtlarında irəli sürülən və Azərbaycan tərəfindən qəbul olunmayan təklif idi. Bu təklif də, əslində, münaqişənin mərhələli həlli variantı kimi nəzərdə tutulubmuş. Təklif olunurdu ki, Dağlıq Qarabağ ətrafında işğal olunmuş Azərbaycan rayonları işğalçı qoşunlardan təmizlənsin. Laçın və Kəlbəcərin azad edilməsi isə qalsın sonrakı dövrə. Yəni Laçın və Kəlbəcərin azad edilməsi digər rayonların azad edilməsinin ardınca həyata keçirilməli deyildi. İlham Əliyevin bildirdiyinə görə, Laçın və Kəlbəcər rayonlarının azad edilməsi sonradan ayrıca danışıqların mövzusuna çevrilməli idi və bu rayonların taleyi erməni tərəfinin hansı isə şərtləri ilə əlaqələndirilməli idi. Ona görə İlham Əliyev bu təklifi qəbul etmədi (47).

Praqa prosesi Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının mərhələli prosesi demək idi. İlham Əliyev münaqişənin nizamlanmasının bu variantı ilə razı idi. Respublika Prezidenti Praqa prosesini əslində Minsk qrupu həmsədrləri tərəfindən münaqişənin nizamlanması üçün Azərbaycanın yanaşmasının qəbul edilməsi kimi dəyərləndirirdi. Azərbaycan diplomatiyasının uğurlu fəaliyyəti sayəsində irəli sürülən ilkin təkliflər aradan qaldırılaraq Azərbaycan tərəfinin yanaşmasını özündə əks etdirən bir nizamlama prosesi qəbul olunmuş və Ermənistan da bu prosesə cəlb edilmişdi. Baxmayaraq ki, İlham Əliyevin fikrincə, Ermənistanın bu prosesə cəlb edilməsi üçün çox böyük səylər göstə-

rilmiş, çox böyük diplomatik gedişlər edilmişdi. «Praqa prosesi» ifadəsi də sadəcə olaraq mərhələli həll sözünün əvəzində işlənirdi ki, bu söz erməniləri və Ermənistanı çox qıcıqlandırmasın.

İlham Əliyev Praqa prosesinin detallarını ümumi şəkildə aşağıdakı kimi ifadə edirdi:

- işğal olunmuş torpaqlar işğalçı qüvvələrdən azad olunmalı;
- qaçqınlar və köçkünlər öz doğma torpaqlarına qayıtmalı;
- ondan sonra Dağlıq Qarabağın statusu müəyyən oluna və bu bölgəyə Azərbaycanın tərkibində ən yüksək status verilə bilər (48).

Bu məsələni şərh etdikdən sonra İlham Əliyev bildirirdi ki, son zamanlar erməni mətbuatında və bir sıra başqa mətbuat orqanlarında danışıqlar prosesi haqqında təxribat xarakterli müxtəlif məlumatlar dərc olunur ki, nə vaxtsa Dağlıq Qarabağ Azərbaycandan ayrılacaq, nə vaxtsa müstəqil olacaq, yaxud da ki, Ermənistana birləşdiriləcəkdir. «Biz buna heç vaxt imkan verməyəcəyik. Bizim mövqeyimiz dəyişməz olaraq qalır. Mövqeyimizdə heç bir dəyişiklik yoxdur və olmayacaqdır. Heç vaxt – nə bu gün, nə sabah, nə on ildən, nə də yüz ildən sonra Dağlıq Qarabağın Azərbaycandan ayrılması məsələsi müzakirə obyektinə çevrilə bilməz. Biz buna imkan verə bilmərik. Sadəcə olaraq çalışmalıyıq ki, bütün vasitələrdən istifadə edib bu məsələni tezliklə həll edək və dediyim kimi burada siyasi, diplomatik və başqa amillər öz rolunu oynamalıdır» (49).

2005-ci ildə Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı Azərbaycan və Ermənistan prezidentlərinin bir neçə görüşü oldu. Eyni zamanda, Minsk qrupunun həmsədrləri öz vasitəçiliklərini müəyyən qədər fəallaşdırdılar və onların vasitəçiliyi və iştirakı ilə Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin bir neçə görüşü baş tutdu. İl ərzində aparılan işlərin ümumi tendensiyasını İlham Əliyev müsbət qiymətləndirirdi. O qeyd edirdi

ki, bütün amillər Azərbaycanın xeyrinə işləyir. Hüquqi müstəvidə Dağlıq Qarabağ münaqişəsi müzakirə mövzusu deyildir. Çünki Azərbaycan öz mövqeyində haqlı idi. Siyasi cəhətdən beynəlxalq təşkilatların qərarları da Azərbaycanın mövqeyini əks etdirirdi (50). Bu mənada İlham Əliyev Avropa Şurasının qəbul etdiyi qətnaməni, yuxarıda qeyd edildiyi kimi, müsbət qiymətləndirirdi və ümid edirdi ki, bu qətnamə aparılan müzakirələrdə Azərbaycanın mövqelərini möhkəmlədəcək və bütünlükdə nizamlama prosesinə müsbət təsir göstərəcəkdir. Çünki həmin qətnamədə Ermənistanın Azərbaycana təcavüzü, işğal olunmuş ərazilərdə etnik təmizləmə aparıldığı açıq şəkildə təsbit olunmuşdu.

İlham Əliyev 2005-ci ildə Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı aparılan işə yekun vurarkən bu prosesə ümumən müsbət qiymət verdi. Çünki münaqişənin nizamlanması ilə bağlı Praqa prosesində Azərbaycanın yanaşmasının qəbul edilməsi, müzakirələrin nəticələrinə müəyyən ümid yaranması bunu deməyə əsas verirdi. Bununla belə, İlham Əliyev öz prinsipial mövqeyini də səsləndirirdi və bu mövqeyini həm Ermənistan rəhbərliyinə, həm də Minsk qrupunun həmsədrlərinə çatdırırdı. Bu prinsipial mövqe nizamlama prosesinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində baş tutması zəruriyyəti idi. «Bu bizim prinsipial mövqeyimizdir. Bu o həddir ki, bu həddən o tərəfə biz heç vaxt, heç bir güzəştə gedə bilmərik. Bəzi hallarda deyirlər ki, qarşılıqlı güzəştlər olmalıdır. Mən sual verirəm, bizim nəyimiz var ki, onu ermənilərə güzəştə gedək? Bizim torpaqlarımız işğal altındadır, bizim soydaşlarımız qaçqın-köçkün şəraitində yaşayırlar. Bizim Ermənistana məxsus nəyimiz var ki, onlara qaytaraq? Ona görə qarşılıqlı güzəştlər deyəndə, gərək bilək, biz nəyi nəzərdə tuturuq. Azərbaycan tərəfindən indiki şəraitdə ...on ildən artıq danışıqların aparılması da böyük güzəştdir. Bunu hamı bil-

məlidir. Bizim səbrimiz tükənməz deyildir. Bütün bunlar bizim diplomatik uğurlarımızdır. Ancaq əgər məsələ öz həllini tapmırsa, bunların heç bir əhəmiyyəti yoxdur. …Biz çalışırıq və çalışacağıq ki, bütün imkanlardan istifadə edib məsələni sülh yolu ilə həll edək. Ancaq eyni zamanda, biz güclü olmalıyıq. Güclü olan dövlət hər şeyə qadirdir» (51).

İlham Əliyev ATƏT-in faktaraşdırıcı missiyasının bölgəyə gəlməsini və işğal olunmuş ərazilərdə monitorinq aparılmasını da Azərbaycan diplomatiyasının uğurlarından biri sayırdı. Çünki belə bir missiyanın təşkil edilməsi Azərbaycan tərəfinin təkidi ilə baş tutmuşdu. Ermənistan tərəfinin etirazına baxmayaraq, bu missiya baş tutdu və aparılan monitorinq nəticəsində işğal olunmuş ərazilərdə qeyri-qanuni məskunlaşdırma aparılması barədə Azərbaycan tərəfinin məlumatları öz təsdiqini tapdı. Bu faktın beynəlxalq müşahidəçilər tərəfindən təsdiqlənməsi beynəlxalq aləmdə bir rezonans da doğurdu (52) ki, bu da Azərbaycanın haqlı mövqeyinin güclənməsinə təsirsiz ötüşə bilməzdi.

2006-cı ilin noyabr ayının sonlarında NATO üzvü olan dövlətlərin zirvə toplantısında Azərbaycanın ərazi bütövlüyünün təsdiqlənməsi və 2006-cı ilin sonlarında erməni millətçi dairələrinin Dağlıq Qarabağ ərazisində təşkil etdikləri «referendum» oyununun dünya miqyasında tanınmaması da Azərbaycan diplomatiyasının uğuru sayıla bilərdi. Birinci halda NATO-nun Riqada keçirilən zirvə toplantısının qəbul etdiyi yekun bəyannamədə Azərbaycanın beynəlxalq aləmdə tanınmış sərhədlərinin və suverenliyinin dəstəkləndiyi qeyd edildi və Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasına səylər göstərilməsi müsbət hal kimi qiymətləndirildi. İkinci halda isə erməni millətçiləri Dağlıq Qarabağda yaratdıqları qondarma qurumu legitimləşdirmək ümidləri ilə 2006-cı il dekabr ayının 10-da «konstitusi-

ya referendumu" adlı bir siyasi təxribata əl atdılar. Lakin erməni millətçilərinin ümidlərinin əksinə olaraq bu siyasi təxribatın nəticələrini beynəlxalq təşkilatlar və dünya dövlətləri tanımadılar. ATƏT-in Minsk qrupunun həmsədrləri də Dağlıq Qarabağdakı «referendum» oyunu ilə bağlı xüsusi bəyanat yaydılar. Həmin bəyanatda bir daha bildirilirdi ki, Dağlıq Qarabağda elan olunmuş qondarma qurumu heç bir dövlət, heç bir beynəlxalq təşkilat tanımır. Həmsədrlər bəyan edirdilər ki, belə bir «referendumun» keçirilməsi Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinə müsbət təsir etməyəcəkdir. Bəyanatda daha sonra deyilirdi ki, Dağlıq Qarabağın hər hansı gələcək hüquqi statusu heç bir hədə olmadan, yaxud zor işlədilmədən, həm də bütün tərəflərin iştirakı ilə yalnız Minsk qrupu çərçivəsində və yalnız siyasi danışıqların nəticəsi kimi müəyyən edilməlidir (53).

Dağlıq Qarabağda erməni millətçiləri tərəfindən referendum oyununun keçirilməsi məsələsinə İlham Əliyev də bir neçə çıxışında öz münasibətini bildirmişdi. Onun təhlilində bu «referendumun» nəticələrinə beynəlxalq münasibət Azərbaycanın haqlı mövqeyinin təsdiqi, Ermənistanın separatçı mövqeyinin isə dəstəklənməməsi idi: «Azərbaycan bu məsələni beynəlxalq hüquq normaları əsasında həll etməyə çalışır və artıq bütün beynəlxalq təşkilatlar bu mövqeyi dəstəkləyir. Son zamanlar beynəlxalq təşkilatlar tərəfindən, əlbəttə, Minsk qrupu və eyni zamanda, başqa təşkilatlar tərəfindən verilmiş bəyanatlar, ölkələr tərəfindən olan addımlar bizim mövqeyimizi daha da möhkəmləndirir. 2006-cı ildə Dağlıq Qarabağda qanunsuz "referendum" keçirilmişdir. Heç bir beynəlxalq təşkilat bunu tanımamışdır. Əksinə, bütün beynəlxalq təşkilatlar və aparıcı ölkələr bunu pisləmişdir. ATƏT, ATƏT-in Minsk qrupunun həmsədrləri Amerika, Fransa, Rusiya, Avropa İttifaqı, Avropa Şurası, İslam Konfransı Təşkilatı,

GUAM dövlətləri – Ukrayna, Gürcüstan, Moldova, - Türkiyə, bütün beynəlxalq təşkilatlar bunu tanımadılar. Nə üçün? Çünki etnik təmizləmə aparan, azərbaycanlıları öz doğma torpaqlarından, Dağlıq Qarabağdan qovan separatçılar indi etnik təmizləmə siyasəti nəticəsində yaranmış vəziyyətdən istifadə edib, birtərəfli şəkildə referendum keçirdilər. Heç kim buna razılıq verə bilməz, bunu heç kim tanımayacaqdır. Dağlıq Qarabağın müstəqil ölkə kimi tanınması heç vaxt mümkün deyildir. Ona görə bizim mövqeyimiz möhkəmlənir. Onsuz da möhkəm idi, onsuz da bəzi hallarda, əvvəlki illərdə bəzi ölkələr, beynəlxalq təşkilatlar tərəfindən ədalətsiz mövqeyi görəndə də öz yolumuzdan dönməmişdik. Bəzi hallarda bizə təzyiqlər ediləndə də iradəmizdən dönməmişdik. Heç kim və heç nə bizi bu yoldan döndərə bilməz. Ona görə istənilən halda, biz bu mövqedə qalacağıq və öz mövqeyimizi müdafiə edəcəyik» (54).

Diplomatik fəaliyyət nəticəsində Azərbaycanın ədalətli mövqeyinin beynəlxalq aləmdə dəstəklənməsini İlham Əliyev müsbət hal kimi dəyərləndirsə də, bu fəaliyyətin əməli sonluğunun Azərbaycanın işğal olunmuş ərazilərinin azad olunmasına yol açmamasını təəssüf doğurucu bir hal kimi qəbul edirdi. O bildirirdi ki, diplomatik səylərimiz gözəl nəticələr verir, amma buna rəğmən məsələ hələ də öz həllini tapmır. Ölkə Prezidenti sonra da əlavə edirdi ki, əgər işğal edilmiş ərazilər azad olunmasa, onda diplomatik sahədə görülmüş işlərin bir əhəmiyyəti olmayacaqdır (55).

Baxmayaraq ki, 2007-ci ildə Dağlıq Qarabağ münaqişəsinin həlli Praqa prosesi çərçivəsində davam etdi, amma Ermənistan rəhbərliyinin qeyri-səmimi möveyi üzündən bu prosesin əməli nəticə verəcəyinə ümidlər elə də böyük deyildi. Çünki Ermənistan rəhbərliyi münaqişənin nizamlanması ilə bağlı Azərbaycanın yanaşmasını əks etdirən Praqa prosesinin pozulması üçün ən

müxtəlif bəhanələrə əl atırdı. Bu isə müzakirələrin gedişini daha da çətinləşdirirdi.

İlham Əliyevə görə, danışıqlar prosesində Ermənistanın qeyri-konstruktiv mövqe tutmasını göstərən əlamətlərdən biri danışıqlar prosesinin gedişini təhrif etməyə çalışması idi. Ermənistan daxilində aparılan müzakirələrin nəticəsi kimi Dağlıq Qarabağa müstəqillik verilməsi haqqında məlumatlar yayılırdı. İlham Əliyev bəyan edirdi ki, danışıqların hansı prinsiplər əsasında aparıldığı həm tərəflərə, həm də Minsk qrupunun həmsədrlərinə yaxşı məlumdur. Ermənistan rəhbərliyi bu prinsiplərin nədən ibarət olduğunu bildiyi halda öz daxili auditoruyası üçün prosesin gedişini təhrif edirdi (56).

Yəni Ermənistan rəhbərliyi danışıqların gedişində bir mövqe göstərirdi, ölkə daxilində hesablanmış məlumatlarında isə başqa mövqe nümayiş etdirirdi. Bunlar isə danışıqlar prosesinə bir çaşqınlıq gətirirdi.

Bu çaşqınlıqların aydınlaşdırılması, Azərbaycanın mövqeyinin ictimaiyyətə çatdırılması üçün İlham Əliyev 2007-ci ilin payızında iştirak etdiyi tədbirlərdən birində bütünlükdə danışıqlar prosesinin geniş təhlilini apardı və bu proseslə bağlı özünün qətiyyətli və prinsipial mövqeyini bir daha ortaya qoydu. «Üç ildən bir az çoxdur ki, mən bu məsələ ilə bilavasitə məşğul oluram. Deyə bilərəm ki, danışıqlar prosesində çox böyük irəliləyiş əldə edilmişdir. Bu, həqiqətdir və onu da deyə bilərəm ki, Azərbaycan maraqlarını təmin edən istiqamətdə irəliləyiş müşahidə olunur. 2003-cü ilin sonunda və 2004-cü ilin əvvəlində danışıqlarda ancaq bir neçə işğal olunmuş rayonun azad edilməsi haqqında söhbət aparılırdı. İlk mərhələdə dörd rayondan söhbət gedirdi. Ondan sonra artıq beş rayondan söhbət gedirdi. Amma bu da bizi heç vaxt qane edə bilməzdi. Baxmayaraq ki, o mərhələlərdə beynəlxalq

müşahidəçilər, beynəlxalq vasitəçilər hesab edirdilər ki, beş rayonun qaytarılması ilə məsələ öz həllini tapa biləcək. Hətta təəccüb edirdilər ki, nə üçün Azərbaycan tərəfi buna razı olmur? Nə üçün İlham Əliyev beş rayonun qaytarılmasına razılıq vermir? Hətta mənə izah etməyə çalışırdılar ki, bu, böyük bir nailiyyət olacaq və beş rayonun qaytarılması özlüyündə böyük hadisə olacaqdır. Həqiqətən də belədir, müharibəsiz, dinc yolla beş rayonu qaytarmaq - əlbəttə, kim bunu istəməz? Ancaq nəyin bahasına?! Məsələ bundadır! Dağlıq Qarabağa müstəqilliyin verilməsi bahasınamı? Biz heç vaxt buna getməyəcəyik! Yaxud da, tutaq ki, beş rayonu qaytardıq. Bəs, Kəlbəcər, Laçın nə olacaq?! Bəs Şuşa nə olacaq?! Məsələ bundadır. Ona görə mən hesab edirəm ki, bizim mövqeyimiz çox düzgün mövqedir. Baxmayaraq, biz hamımız başa düşürük ki, işğal olunmuş ərazilərdə əhalinin ən böyük hissəsi məhz o beş rayonda cəmləşibdir. Beş rayonun qaytarılması, demək olar ki, köçkünlərin sosial problemlərinin həlli deməkdir. Bunu da biz bilirik. Ancaq yenə də deyirəm, Azərbaycanın mövqeyi ondan ibarətdir ki, bütün işğal olunmuş rayonlar Azərbaycana qayıtmalıdır. Danışıqlar nəticəsində, çox çevik diplomatik səylər nəticəsində, siyasi addımlar nəticəsində və əlbəttə, Azərbaycanın son 3-4 il ərzində güclənməsi nəticəsində artıq danışıqların müəyyən mərhələsində altı rayondan söhbət getməyə başladı. Yalnız Laçın rayonunu ermənilər, elə bil ki, girov kimi saxlamaq istəyirdilər. Ancaq biz buna da getmədik. Baxmayaraq, bu, böyük bir irəliləyiş idi. Biz haradan başlamışıq, haraya gəlmişik.

Onu deyə bilərəm ki, bu danışıqların bütün xronologiyası, bütün təfərrüatı Minsk qrupunun həmsədr ölkələri tərəfindən qeydə alınır. Amma buna baxmayaraq, biz yenə də öz səylərimizi göstərdik və ilk növbədə, həmsədr olan ölkələrin rəhbərliyinə izah etməyə müvəffəq olduq ki, Azərbaycanın bütün rayonları

işğalçılardan azad edilməlidir. Əks təqdirdə, istənilən sülh müqaviləsinin ömrü uzun olmayacaqdır. Sülh müqaviləsi elə olmalıdır ki, o, ədalətli olsun. Ədalət bərpa edilməlidir. Beynəlxalq hüquq normaları öz yerində, bütün beynəlxalq davranış normaları öz yerində, amma, eyni zamanda, ədalət bərpa olunmalıdır. Ədalət bərpa olunmasa, imzalanacaq o saziş hər an pozula bilər.

Ona görə müəyyən mərhələdə Minsk qrupu tərəfindən bizim təkidimizlə verilən təkliflərdə artıq yeddi rayonun işğalçılardan azad olunması məsələləri öz həllini tapmağa başladı. Amma o da bizi qane etmir. Çünki aydındır ki, Dağlıq Qarabağın inzibati ərazilərindən kənarda yeddi rayon yerləşir. Ancaq Dağlıq Qarabağın inzibati ərazisinin içində Şuşa şəhəri yerləşir. ...Şuşasız Dağlıq Qarabağ probleminin həlli mümkün deyildir. Bu bizim qətiyyətli mövqeyimizdir, bunu Ermənistan tərəfi də bilir, həmsədr ölkələr də bilir. Bu bizim mövqeyimizdir – azərbaycanlılar Şuşaya qayıtmalıdırlar. Bir sözlə, münaqişədən əvvəl kim harada yaşayıbsa, oraya da qayıtmalıdır. Biz demirik ki, ermənilər kimi durub etnik təmizləmə siyasəti aparaq, erməniləri Dağlıq Qarabağdan qovaq. Baxmayaraq ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Biz deyirik ki, vətəndaşlarımız öz doğma torpaqlarına qayıtsınlar. Ermənilər Xankəndində yaşayıblar, orada da yaşasınlar. Biz buna etiraz etmirik. Azərbaycanlılar isə Şuşada yaşayıblar, Kəlbəcərdə, Laçında və başqa rayonlarda yaşayıblar. Onlar oraya qayıtmalıdırlar» (57).

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin beynəlxalq hüquq normalarına dayaqlanan bu prinsipial mövqeyi istər Ermənistanın rəhbərliyinə, istərsə də erməni millətçi dairələrinin havadarlarına yaxşı məlum idi və Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının bu prinsiplər üzrə yekunlaşması Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsinə, bir milyondan artıq qaçqın

və köçkünün öz yurdlarına qayıtmasına, başqa sözlə, Azərbaycanın inkişafına güclü bir təkan ola bilərdi. Bu isə aydın məsələ idi ki, Ermənistan rəhbərliyinin və onun havadarlarının ciddi təşvişinə səbəb olurdu. Ona görə də Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına çox münasib beynəlxalq şərait yaransa belə, Ermənistan rəhbərliyi ən müxtəlif bəhanələrlə müzakirələrin inkişafından yayınmağa başladı.

İlham Əliyev çıxışlarında da bildirirdi ki, Dağlıq Qarabağ məsələsi ağrılı məsələ olaraq qalmaqdadır. Bu problemin sülh yolu ilə həllinə cəhd göstərilsə də, hələlik buna nail olmaq mümkün deyildir. Ölkə Prezidenti bildirirdi ki, bütün ikitərəfli və beynəlxalq görüşlərdə Azərbaycanın ərazi bütövlüyü dəstəklənir, tanınır və müdafiə olunur, bütün dünya Azərbaycanın mövqeyinin ədalətli olmasını etiraf edir, lakin belə şifahi və sənədləşmiş beynəlxalq dəstək real nəticəyə çevrilmir. Bunun səbəbini də ölkə Prezidenti Ermənistanın qeyri-konstruktiv, qeyri-səmimi mövqeyində görürdü. O bəyan edirdi ki, Ermənistan rəhbərliyi öz sözünə əməl etmir, əvvəlcə razılaşdırılmış prinsiplərdən geri çəkilir, beynəlxalq vasitəçiləri aldatmağa çalışır, ictimai rəyi çaşdırmaq istəyir, danışıq masası arxasında bir söz, rəsmi bəyanatlarda isə başqa söz deyirdi və bununla qeyri-ciddiliyini ortaya qoyurdu (58).

Danışıqlar prosesinin yenidən canlandırılması üçün Azərbaycan tərəfinin göstərdiyi cəhdlər, respublika rəhbərliyi tərəfindən Minsk qrupunun həmsədrləri ilə aparılan ardıcıl müzakirələr bu istiqamətdə yeni bir addımın atılmasına gətirib çıxardı. 2007-ci il noyabr ayının 29-da ATƏT üzvü olan ölkələrin xarici işlər nazirlərinin Madriddə keçirilən iclası zamanı Minsk qrupunun həmsədrləri Dağlıq Qarabağ münaqişəsinin həllinə dair Əsas Prinsiplər Toplusunu tərəflərə təqdim etdilər (59).

Bu prinsiplər toplusu siyasi leksikonda Madrid prinsipləri kimi tanınmaqdadır. Bir müddət bu prinsiplərin mahiyyəti ictimaiyyətdən gizli saxlanıldı. Böyük səkkizlik ölkələrinin 2009-cu il iyul ayının 10-da İtaliyanın Akvil şəhərindəki görüşü zamanı Minsk qrupunun həmsədrləri olan ölkələrin prezidentlərinin Qarabağ münaqişəsi ilə bağlı verdikləri bəyanatdan sonra Madrid prinsiplərinin konturları da aydınlaşmağa başladı. Rusiya, Fransa və ABŞ prezidentləri bu bəyanatda qeyd etdilər ki, Azərbaycan və Ermənistan liderləri Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə razılaşmanı Madrid prinsipləri üzrə əldə etməlidirlər (60).

Kütləvi informasiya vasitələrinə verilən məlumatlara görə, Madrid prinsiplərinin əsasını aşağıdakı elementlər təşkil edirdilər:

-Dağlıq Qarabağı əhatə edən ərazilərin Azərbaycanın nəzarəti altına qaytarılması;

- Dağlıq Qarabağa aralıq statusun və bölgənin təhlükəsizliyinə zəmanətin verilməsi;

- Dağlıq Qarabağa Ermənistana birləşdirən koridorun verilməsi;

- əhalinin öz iradəsini ifadə etməsi ilə Dağlıq Qarabağın son statusunun müəyyənləşdirilməsi;

- qaçqınların və köçkünlərin öz yurdlarına qayıtması hüququnun təmin edilməsi;

-beynəlxalq zəmanət tədbirləri, o cümlədən sülhyaratma əməliyyatı (61).

Madrid prinsiplərində Dağlıq Qarabağ münaqişəsinin həllinin ümumi istiqamətləri öz əksini tapmışdı və bu prinsiplər çərçivəsində aparılan danışıqlar zamanı münaqişənin həllinin detalları müəyyənləşdirilməli idi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bildirirdi ki, yenilənmiş Madrid prinsipləri ümumən Azərbaycan üçün məqbuldur. Çünki bu prinsiplərin hazırlanmasında Azərbaycan rəhbərliyi kifayət qədər ciddi fəaliyyət aparmalı olmuşdu. Doğrudur, sənəd tamamilə Azərbaycan tərəfinin təkliflərini əks etdirmirdi. İlham Əliyev bildirirdi ki, Madrid prinsiplərində Azərbaycan tərəfi üçün narahatedici məqamlar çox azdır və kiçik istisnalar olmaqla həmin prinsiplər əsas kimi qəbul edilə bilərdi (62).

Madrid prinsipləri həmsədr ölkələrin birgə təklifi idi və həmin təkliflər əsasında müzakirələrə başlanması üçün həm Azərbaycanın, həm də Ermənistanın bu prinsiplərə razılığı bildirilməli idi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2009-cu il noyabr ayının 22-də Münhen şəhərində Ermənistan prezidenti ilə görüşündə, 2010-cu il yanvar ayının 25-də Soçidə Rusiya prezidentinin vasitəçiliyi ilə yenə Ermənistan prezidenti ilə keçirilən görüşündə rəsmi olaraq Azərbaycan tərəfindən danışıqların Madrid prinsipləri əsasında aparılmasına razılıq verdi. Amma belə bir cavab Ermənistan tərəfindən alınmadı. Ermənistan tərəfi Madrid prinsiplərinə münasibətini bildirməli olduğu halda yenə də müxtəlif bəhanələr ortaya atmağa başladı. Ermənistan rəhbərliyinin əl atdığı bəhanələrdən biri bu oldu ki, əgər Azərbaycan tərəfinin şərtləri qəbul olunarsa, Dağlıq Qarabağda erməni qalmayacaqdır. Guya Dağlıq Qarabağ erməniləri azərbaycanlıların təzyiqləri ilə üzləşəcəkdilər. Çıxışlarının birində İlham Əliyev ermənilərin bu cəfəng iddiasına çox tutarlı cavab verdi: «...ermənilərdən fərqli olaraq heç vaxt etnik təmizləmə əməliyyatları aparmamışıq, belə niyyətimiz də yoxdur. Bəzi hallarda biz Ermənistandan çox sadəlövh və gülməli bəyanatlar eşidirik ki, əgər Azərbaycanın istədiyi məsələ öz həllini taparsa, Azərbaycanın təklifi qəbul olunarsa, o zaman Dağlıq Qarabağda ermənilər qalmayacaqdır. Qoy onlar

bizi öz arşını ilə ölçməsinlər. Azərbaycan xalqı başqa millətlərə qarşı heç vaxt ayrı-seçkilik etməmişdir. Biz Ermənistandan fərqli olaraq monodövlət deyilik. Bizdə bütün xalqlar, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Bizim xüsusiyyətimiz bundadır. Bizim düşüncəmiz bundadır. Ermənistan isə, bəlkə də, dünyada tək ölkədir ki, ...orada erməni millətindən başqa millət yaşamır. Baxmayaraq ki, bugünkü Ermənistan Azərbaycanın əzəli torpaqları üzərində qurulubdur, İrəvan xanlığının əhalisinin əksəriyyəti azərbaycanlılar idi. Bu, bizim tarixi torpağımızdır. Ancaq azərbaycanlılar müxtəlif tədbirlərlə, müxtəlif yollarla indiki Ermənistandan qovuldu. Nəinki azərbaycanlılar, bütün başqa millətlər də Ermənistandan ya qovuldu, ya öldürüldü, ya sıxışdırıldı, ya da elə dözülməz şərait yaradılmışdır ki, onlar orada qala bilmirlər. Ona görə Azərbaycan dövləti heç vaxt heç kimə qarşı etnik təmizləmə siyasəti aparmamışdır və aparmayacaqdır. Əgər beynəlxalq hüquq normalarını əks etdirən təkliflər Ermənistan tərəfindən qəbul edilərsə, o zaman Dağlıq Qarabağda erməni icması ilə bərabər Azərbaycan icması da yaşayacaq, yaşamalıdır və onların orada, azərbaycanlıların orada yaşaması həm tarixi ədaləti tam təsdiq edəcək, həm də ki, beynəlxalq hüquq normalarına tam uyğundur» (63).

Vaxtın uzadılması üçün Ermənistan rəhbərliyi Madrid prinsiplərinə bəzi əlavələrini təqdim etdi. Amma bu əlavələrin ortaya atılması, əslində, müzakirələrin uzadılması, razılaşmaya aparan yolun qarşısının alınması idi. Bununla belə, xeyli vaxt keçəndən sonra da Madrid prinsipləri ilə bağlı Ermənistan rəhbərliyinin aydın mövqeyi ortaya qoyulmamışdı. İlham Əliyev də şübhə etmirdi ki, bununla Ermənistan danışıqları süni surətdə uzadır, Ermənistan tərəfi danışıqlarda səmimi deyildir. Müəyyən mərhələlərdə razılaşdırılmış olan məsələlərə Ermənistan rəhbər-

liyi yenidən qayıtmaq istəyir və yenidən onları ortaya atırdı ki, əlavə vaxt qazanılsın. Ermənistan rəhbərliyinin nəzərincə vaxt keçdikcə Dağlıq Qarabağda və onun ətrafında status-kvo vəziyyəti daha da möhkəmlənəcək və bununla Dağlıq Qarabağdakı qondarma qurumun legitimləşdirilməsinə daha əlverişli imkanlar yaranacaqdır. Buna görə də müxtəlif vaxtlarda Ermənistan rəhbərliyi ən müxtəlif bəhanələrlə danışıqlar prosesindən uzaqlaşmağa çalışırdı. Ermənistan rəhbərliyi və ya bu ölkənin nümayəndələri bəzən danışıqları tərk edirdilər, bəzən çox müəmmalı səbəblərlə bu vasitəyə əl atırdılar, heç kimə demədən danışıqlar prosesindən uzaqlaşmaqla özlərini gülünc vəziyyətə salırdılar. Bu məqamları qiymətləndirərkən İlham Əliyev qeyd edirdi ki, danışıqlar prosesinin əbədi bir prosesə çevrilməsi üçün Ermənistan tərəfi özünü qeyri-konstruktiv mövqenin sahibi kimi tanıtmağa da hazırdır (64).

İlham Əliyev bildirirdi ki, Ermənistan tərəfi Madrid prinsipləri çərçivəsində danışıqların aparılmasına razı olmazsa, onda danışıqlar öz mənasını itirəcək və imitasiya xarakteri alacaqdır. Bunu isə Azərbaycan Respublikasının Prezidenti qəbul etmirdi və o, danışıqların müxtəlif mərhələlərində də bəyan etmişdi ki, imitasiya naminə aparılan danışıqlara razı deyildir. İlham Əliyev danışıqların mühüm bir mərhələyə çatdığı vaxtda bəzi ölkələrin təcavüzkar dövlət kimi Ermənistana təzyiq göstərməsi əvəzinə, Ermənistanı çətin iqtisadi-siyasi vəziyyətdən çıxarmağa cəhd göstərməsini anlaşılmazlıq kimi qəbul edirdi: «Əgər bizim maraqlarımız kənara qoyulursa, əgər torpaqlarımızın işğalına göz yumulursa və işğalçı dövləti çətin, ağır iqtisadi vəziyyətdən çıxarmaq üçün min bir səy göstərilirsə, Azərbaycan ictimaiyyəti bunu necə qəbul edə bilər?! Nə üçün işğalçı ölkəyə təzyiqlər göstərilmir?! Nə üçün Azərbaycan bugünkü danışıqlarda demək olar ki, ən böyük konstruktivlik nümayiş etdirir, Ermənistan isə danışıqları pozur?!» (65).

Madrid prinsiplərinin tərəflərə təqdim olunmasından sonrakı illərdə Azərbaycan bir neçə böyük diplomatik uğur əldə etdi ki, bu uğurlar da respublikanın siyasi-diplomatik mövqeyinin möhkəmlənməsinə əlavə imkanlar açdı. Həmin diplomatik uğurlar da ölkə Prezidenti İlham Əliyevin davamlı siyasi fəaliyyətinin və təşkilatçılıq işlərinin nəticəsi idi. Bu uğurlardan biri BMT Baş Məclisinin 62-ci sessiyasının 2008-ci il mart ayının 14-də keçirilmiş plenar iclasında «Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət» adlı qətnamə idi. Qeyd etmək lazımdır ki, bu məsələnin BMT-nin plenar iclasının müzakirəsinə çıxarılması ətrafında həm Azərbaycan tərəfindən, həm də Ermənistan tərəfindən böyük iş aparıldı. Ermənistan öz xislətinə uyğun olaraq belə bir məsələnin BMT-nin plenar iclasına salınmasına tərəfdar deyildi. Bunun qarşısını ala bilməyəndə isə öz havadarları ilə birlikdə real həqiqətlərin üzə çıxarılmasın qarşısının alınması və Ermənistanın Azərbaycana qarşı işğalçılığını pisləyən qətnamənin qəbuluna yol verilməməsi üçün çirkin təbliğatı genişləndirdi. Azərbaycan tərəfi bölgədə yaranmış real həqiqətlərin mahiyyətinin, Ermənistanın işğalçılıq fəaliyyətinin nəticələrinin, beynəlxalq hüquq normalarının tapdalanmasının dünya birliyinə çatdırılması üçün əməli işlər apardı. Ermənistanın və onun havadarlarının bütün səylərinə baxmayaraq, BMT-nin plenar iclasında müzakirə olunan məsələ ilə bağlı Azərbaycanın haqlı tələblərini və beynəlxalq hüquq normalarına dayaqlanan haqlarını müdafiə edən qətnamə qəbul edildi. Qətnamədə Azərbaycan tərəfi üçün siyasi və diplomatik maraq kəsb edən bir sıra əhəmiyyətli məqamlar var idi. Qətnamənin elə birinci maddəsində deyilirdi ki, Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınan sərhədləri daxilində suverenliyinə və ərazi bütövlüyünə hörmət və dəstəyi təsdiqləyirdi. Qətnamənin digər maddələrində isə Ermənistanın bütün

qüvvələrinin Azərbaycan Respublikasının işğal altında olan ərazilərini dərhal, tam və qeyd-şərtsiz tərk etmələrini tələb olunur, Azərbaycanın işğal olunmuş ərazilərindən qovulmuş əhalinin öz ev-eşiklərinə qayıtmaq hüququ tanınır, Dağlıq Qarabağda demokratik özünüidarəetmə sisteminin yaradılması bəyənilirdi və s. (66). Qətnamədə Azərbaycanın ədalətli mövqeyini əks etdirən bir sıra digər məqamlar da var idi.

Qeyd etmək lazımdır ki, Minsk qrupunun həmsədri olan ölkələr bu qətnamənin əleyhinə səs verdilər. Onlar bunun üçün öz mövqelərini açıqlasalar da, əslində, bu mövqe təcavüzkarın himayə edilməsindən başqa bir şey deyildi. Bütünlükdə 39 dövlət qətnamənin lehinə, 7 dövlət əleyhinə səs vermiş, 100 dövlət isə bitərəf qalmışdı.

Azərbaycan Respublikasının Prezidenti də bu qətnamənin qəbul edilməsini yüksək qiymətləndirirdi: «Bildiyiniz kimi, bu yaxınlarda BMT-nin Baş Məclisində Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyətlə bağlı aparılan səsvermə də bizim siyasi gücümüzü göstərmişdir. Azərbaycanın haqq işi, Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması məsələləri o qətnamədə təsdiq edilmişdir və BMT – dünyanın aparıcı beynəlxalq təşkilatı tərəfindən qəbul olunmuşdur. Bu bizim böyük diplomatik və siyasi qələbəmizdir. Bu, bir tərəfdən, Azərbaycanın artan nüfuzunu göstərir, çünki bizi dəstəkləyən ölkələr bizim haqlı olduğumuzu birmənalı şəkildə bəyan etdilər. Baxmayaraq ki, bəzi ölkələrə güclü təzyiqlər də göstərilmişdi. Digər tərəfdən, bu onu göstərir ki, dünya ictimaiyyəti bu məsələyə ədalətli yanaşır. Bizim işimiz haqq işidir. Biz münaqişənin beynəlxalq hüquq normaları və prinsipləri əsasında həll olunmasını tələb edirik və bu mövqedən geri çəkilməyəcəyik. Qətnamədə

Azərbaycanın işğal altındakı ərazilərinin işğalçılardan azad olunması, münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsi məsələlərinin öz əksini tapması, əlbəttə ki, bizim mövqeyimizi daha da gücləndirir. Biz dəfələrlə bəyan etmişik və mən bu gün də bəyan etmək istəyirəm ki, bunun kənarında, bu çərçivələrin kənarında heç bir razılaşma mümkün deyildir. Dağlıq Qarabağın müstəqilliyi heç vaxt tanınmayacaqdır, dünya birliyi bu barədə bir daha öz mövqeyini bildirmişdir» (67).

Başqa bir çıxışında isə İlham Əliyev bu qətnamənin qəbul edilməsini belə qiymətləndirirdi: «Mart ayında BMT Baş Məclisində Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyətlə bağlı qətnamənin böyük səs çoxluğu ilə qəbul edilməsi həm bizim gücümüzü göstərdi, həm də haqq-ədaləti göstərdi. Yəni onu göstərdi ki, dünya birliyi, dünya ictimaiyyəti Azərbaycanın tərəfindədir. Baxmayaraq ki, bir daha vurğulamaq istəyirəm, Minsk qrupunun həmsədr ölkələri, vasitəçilik missiyası ilə birbaşa məşğul olan ölkələr – Amerika Birləşmiş Ştatları, Rusiya və Fransa bizə məlum olmayan səbəblər üzündən bu qətnamənin əleyhinə çıxmışdı və bəzi hallarda başqa ölkələri də buna təhrik etmək istəmişdilər, ancaq Azərbaycan tərəfindən irəli sürülmüş qətnamə böyük səs çoxluğu ilə qəbul edildi. Bu bizim böyük siyasi və diplomatik uğurumuzdur. Bu, növbəti sənəddir, ciddi sənəddir» (68).

Azərbaycan üçün digər bir diplomatik uğur NATO ölkələrinin 2008-ci il aprelin 2-4-də Buxarestdə keçirilən zirvə toplantısında yenidən Azərbaycanın ərazi bütövlüyünün təsdiqlənməsi ilə bağlı idi. Bu toplantının "Yekun Bəyannamə"sində ərazisində «dondurulmuş münaqişələr» olan keçmiş sovet respublikalarının ərazi bütövlüyünün dəstəkləndiyi bəyan edilirdi (69).

2008-ci ildə Rusiya Prezidentinin vasitəçiliyi ilə Moskva ətrafındakı Mayendrof iqamətgahında keçirilən Azərbaycan və

Ermənistan prezidentlərinin görüşündə hər üç ölkə prezidentləri tərəfindən imzalanan Bəyannamə də Azərbaycan diplomatiyasının uğuru, İlham Əliyevin isə qətiyyətli mövqeyinin yeni bir ifadəsi sayıla bilər. Həmin Bəyannaməyə görə Rusiya Federasiyası Prezidentinin dəvəti ilə Azərbaycan Respublikasının, Ermənistan Respublikasının və Rusiya Federasiyasının prezidentləri 2008-ci il noyabrın 2-də Moskvada görüşərək, Dağlıq Qarabağ münaqişəsinin vəziyyətini və onun siyasi vasitələrlə, ATƏT-in Minsk qrupunun həmsədrləri kimi Rusiyanın, ABŞ-ın və Fransanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında birbaşa dialoqun davam etdirilməsi yolu ilə həll perspektivlərini müzakirə edərək bir sıra müddəaları irəli sürürdülər. Həmin müddəalar beş bənddən ibarət idi.

İlk bənddə tərəflər Cənubi Qafqazda vəziyyətin sağlamlaşdırılmasına, Dağlıq Qarabağ münaqişəsinin siyasi nizamlanması yolu ilə sabitliyin və təhlükəsizliyin təmin edilməsinə çalışacaqlarını bildirirdilər. Həmin Bəyannamədə o da qeyd olunurdu ki, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn norma və prinsipləri, habelə bu sahədə qəbul olunmuş qərar və sənədlər əsasında həll olunmalıdır ki, bu da bölgədə iqtisadi inkişafa və hərtərəfli əməkdaşlığa geniş zəmin yaradacaqdır.

İkinci maddədə deyilirdi ki, ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçilik cəhdləri onların münaqişə tərəfləri ilə 2007-ci il noyabr ayının 29-da Madriddə görüşməsi və siyasi tənzimlənmənin əsas prinsiplərinin hazırlanması məqsədilə gələcək müzakirələrin böyük əhəmiyyəti vardır.

Üçüncü bənddə tərəflər sülh şəraitində nizamlanmanın bütün aspekti və mərhələlərinin xüsusi öhdəliklə beynəlxalq zəmanətlə müşayiət olunmasını razılaşdırdılar.

Dördüncü bənddə Azərbaycan və Ermənistan prezidentləri bu istiqamətdə işin davam etdirilməsini, o cümlədən gələcəkdə

yüksək səviyyəli görüşlərdə Dağlıq Qarabağ münaqişəsinin siyasi tənzimlənməsinin razılaşdırılması üzərində işlərin davam etdirilməsi haqqında razılığa gələrək xarici işlər nazirlərinə tapşırdılar ki, ATƏT-in Minsk qrupu həmsədrləri ilə qarşılıqlı əlaqədə danışıqlar prosesini gücləndirsinlər.

Beşinci bənddə isə tərəflər nizamlanmanın əldə edilməsi istiqamətində etimadın gücləndirilməsi üzrə lazımi tədbirlərin həyata keçirilməsinə şərait yaradılmasının dəstəklənməsini vacib sayırdılar (70).

Qeyd etmək lazımdır ki, bu Bəyannamənin qəbul edilməsindən sonra onun ətrafında söz-söhbətlər, birtərəfli şərhlər, təhlillər çox böyük səs-küyə səbəb oldu. Xüsusən Ermənistan tərəfi Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində hər hansı bir öhdəlikdən kənar qalmaq üçün ən müxtəlif fikir və mülahizələrlə yenidən ictimai rəydə bir çaşqınlıq yaratmağa çalışdı.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də çıxışlarının birində Mayendorf Bəyannaməsinə qiymət vermiş və onu geniş təhlil etmişdi. Bu Bəyannamə ilə bağlı İlham Əliyevin mövqeyi aşağıdakı kimi idi: «Ermənistan və Azərbaycan prezidentlərinin birgə imzaladıqları bəyannamə BMT Baş Məclisində qəbul edilmiş bəyannamənin (2008-ci il mart ayının 14-də BMT Baş Məclisində qəbul edilmiş «Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət» adlı sənəd nəzərdə tutulur – M.S.) məntiqi nəticəsidir. Baxmayaraq ki, Ermənistan təbii olaraq, BMT-də qətnamənin qəbul olunmasına etiraz etməyə çalışırdı. Buna baxmayaraq, Ermənistan rəhbəri o əsasda müştərək bəyannaməyə qol çəkmişdir. Orada nə göstərilir? Orada, ilk növbədə, göstərilir ki, münaqişə beynəlxalq hüquq prinsipləri əsasında, beynəlxalq təşkilatların qərarları və sənədləri əsasında öz həllini tapmalıdır. Hansı qərarlar və sənədlər?! Bu, tamamilə

aydın məsələdir. Qeyd etdiyim BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, BMT Baş Məclisinin qətnaməsi, ATƏT-in sənədləri, Lissabon sammitinin sənədləri – bütün bunlardır sənədlər. Yəni məsələ bunların əsasında öz həllini tapmalıdır və Ermənistan rəhbərinin buna qol çəkməsi hesab edirəm ki, çox müsbət bir haldır.

Digər tərəfdən, birgə bəyannamə Ermənistan-Azərbaycan prezidentləri tərəfindən imzalanmışdır. Yəni onu göstərir ki, bu ölkələr münaqişənin tərəfləridir, münaqişənin heç bir başqa tərəfi yoxdur. Halbuki uzun illər ərzində Ermənistan tərəfi həmişə çalışırdı ki, qondarma Dağlıq Qarabağ qurumunun nümayəndələrini də bu prosesə daxil etsin. Biz haqlı olaraq, buna həmişə etiraz edirdik. Əminəm ki, Ermənistan rəhbərinin münaqişənin tərəfi kimi birgə bəyannaməyə qol çəkməsi artıq növbəti illərdə Dağlıq Qarabağın prosesə qoşulması cəhdlərinə son qoyacaqdır.

Bununla bərabər, birgə bəyannamədə göstərilir ki, məsələnin həllinin bütün mərhələləri beynəlxalq zəmanətlə təmin olunmalıdır. Bu da açıq-aydın onu göstərir ki, məsələ yalnız mərhələli şəkildə öz həllini tapa bilər. Bütün dövrlərdə Azərbaycanın mövqeyi ondan ibarət olmuşdur ki, məsələ ancaq addım-addım öz həllini tapa bilər. İlk növbədə, Ermənistan işğalçı qüvvələri bütün işğal olunmuş torpaqlardan çıxarılmalı, beynəlxalq zəmanət əsasında təhlükəsizlik məsələləri həll olunmalıdır. Ondan sonra Dağlıq Qarabağın statusu haqqında danışıqlar aparıla bilər, bir şərtlə ki, o status ancaq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində olmalıdır. Bu, Azərbaycanın prinsipial və dəyişməz mövqeyidir. Mərhələli həllin üstün olması onu göstərir ki, Azərbaycanın uzun illər ərzində dediyi sözlər və təklif etdiyi yanaşmalar bu gün Ermənistan tərəfindən də qəbul edilir. Əks halda, Ermənistan tərəfi mərhələli həlli nəzərdə tutan bəyannaməyə heç vaxt qol çəkməzdi. Bildiyiniz kimi, onların mövqeyi paket variantından

ibarət olmuşdur. Yəni mən onu ona görə bir az daha geniş işıqlandırıram ki, heç kimdə heç bir şübhə olmasın – bu bəyannamə Azərbaycanın milli maraqlarına xidmət göstərir» (71).

ATƏT-in xarici işlər nazirlərinin 2009-cu il dekabr ayının 5-də Afinada keçirilən görüşündə qəbul edilmiş qərarda Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin mümkünlüyü qeyd olundu. Bu qərar da Azərbaycanın münaqişənin nizamlanması ilə bağlı mövqeyinin möhkəmlənməsinə kömək etdi.

2011-ci ilin oktyabr ayında Azərbaycan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi və 2012-13-cü illərdə dünyanın ən mötəbər siyasi qurumunun qərarçıxarma fəaliyyətində iştirak etdi. Azərbaycan öz tarixində ilk dəfə Təhlükəsizlik Şurasına üzv seçildi, bu Şuranın işinə sədrlik etdi. İlham Əliyev bu hadisəni də Azərbaycanın diplomatik uğuru hesab edirdi: «BMT Təhlükəsizlik Şurasına seçilməyimiz də dünyanın Azərbaycana olan münasibətini göstərir. Azərbaycanın namizədliyini 155 ölkə dəstəkləmişdir. Keçən ay (may 2012-ci il – M.S.) Azərbaycan tarixdə ilk dəfə Təhlükəsizlik Şurasına sədrlik etmişdir. Onu da qeyd etmək istəyirəm ki, Təhlükəsizlik Şurasına seçilməyimiz o qədər də asan olmamışdır. Biz gərgin mübarizədə bu yeri qazanmışıq. Haqlı olaraq qazanmışıq. İlk günlərdən, ilk aylardan öz prinsipial mövqeyimizi nümayiş etdiririk. Bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Onu da deyə bilərəm ki, ilkin mərhələdə Ermənistan da bizimlə bərabər bu mötəbər quruma üzv olmaq istəyirdi, öz namizədliyini vermişdi. Ancaq sonra görəndə ki, Azərbaycanın qarşısında acizdir və onları çox acı məğlubiyyət gözləyir, siyasi döyüş meydanından sakitcə çəkildi və öz siyasi məğlubiyyətini etiraf etdi. Bu, çox böyük rəmzi xarakter daşıyan bir addım idi. Artıq heç kimə sirr deyildir ki, Azərbaycana dün-

ya birliyi tərəfindən diqqət çox yüksək səviyyədədir. Mən heç şübhə etmirəm ki, əgər müharibənin fəal fazası başlanarsa, necə ki, Ermənistan siyasi meydandan qaçıb, döyüş meydanından da qaçacaqdır» (72).

2012-ci il avqust ayının 31-də Qoşulmama hərəkatının Tehranda keçirilən 16-cı konfransında qəbul edilən qətnamədə Azərbaycanla bağlı öz əksini tapmış müddəa da Azərbaycanın diplomatik uğurlarından biri sayıla bilər. Həmin hərəkatın 120 üzv ölkəsinin rəhbərlərinin iştirak etdiyi bu konfransın qətnaməsinin 391-ci maddəsində deyilirdi: «Dövlət və hökumət başçıları Ermənistan-Azərbaycan münaqişəsinin həll olunmamış qalmasından, onun beynəlxalq və regional sülh və təhlükəsizliyi təhdid etməyə davam etməsindən təəssüfləndiklərini ifadə etdilər. Onlar BMT Nizamnaməsində təsbit olunmuş gücdən istifadə etməmək prinsipinin vacibliyini bir daha təsdiqləyir və tərəfləri münaqişənin Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində danışıqlar yolu ilə həlli üçün səylərini davam etdirməyə çağırır».

Bu konfransın işində Ermənistanın xarici işlər nazirinin rəhbərliyi altında olan heyət də iştirak edirdi. Bu heyətin canfəşanlığına baxmayaraq, Azərbaycanın haqlı mövqeyi bir daha dünyanın 120 ölkəsi tərəfindən müdafiə olundu. 2012-ci il may ayının 20-21-də NATO-nun Çikaqoda keçirilən sammitinin bəyannaməsində Azərbaycanın ərazi bütövlüyünə yenidən dəstək verilməsinin də İlham Əliyev Azərbaycanın diplomatik uğurlarından biri sayırdı. İlham Əliyevə görə, istər Qoşulmama Hərəkatının qərarı, istərsə də NATO sammitində qəbul olunmuş qərar Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində çox vacib qərarlar idi. Çünki hər iki beynəlxalq əhəmiyyətli sənəddə Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həl-

linin zəruriliyini təsdiqlənirdi. Qoşulmama Hərəkatı ilə NATO dünyanın əksər ölkələrini özündə birləşdirirdi. Ona görə də İlham Əliyev bəyan edirdi ki, dünya birliyinin də Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövqeyi birmənalıdır. Bu mövqe ədalətli və beynəlxalq hüquqlara dayaqlanan bir mövqedir və biz bu mövqedən bir addım da olsa geri çəkilməyəcəyik (73).

İlham Əliyev dünya birliyi və beynəlxalq təşkilatlar tərəfindən Azərbaycanın haqlı mövqeyinin dəstəklənməsinə qiymət verilərkən bildirirdi ki, artıq münaqişənin həlli üçün bütün lazımi diplomatik və hüquqi əsaslar qoyulubdur və bu əsasları biz qoymuşuq (74).

Bütün bunlara baxmayaraq, dünya birliyinin, ən nüfuzlu beynəlxalq təşkilatların Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində qəbul etdikləri qərarlar Ermənistan tərəfindən qulaqardına vuruldu və Ermənistan qeyri-konstruktiv mövqeyində qalmaqda davam etdi. Aydın idi ki, məqsəd danışıqların uzadılması, status-kvonun dəyişilməz olaraq saxlanılması idi. Əslində, dünya birliyinin və beynəlxalq təşkilatların qəbul etdiklərin qərarların icrasına qeyri-fəal münasibət nümayiş etdirmələri Ermənistanın belə bir mövqedə qalmasına münasib şərait yaradırdı. Azərbaycan Respublikasının Prezidenti Dağlıq Qarabağ münaqişəsi ilə bağlı «nə hərb, nə sülh» vəziyyətinin saxlanımasını isə qeyri-mümkün sayırdı. Bu vəziyyətin aradan qaldırılması və münaqişənin nizamlanmasında ciddi nəticələrə nail olunması üçün İlham Əliyev təcavüzkar Ermənistana qarşı beynəlxalq sanksiyaların tətbiq edilməli olduğunu bildirirdi. Ölkə Prezidenti beynəlxalq təşkilatların qərarlarını icra etməyən, Azərbaycan ərazisində soyqırımı törədən, beynəlxalq qanunları pozan təcavüzkar Ermənistana qarşı yumşaq münasibət nümayiş etdirilməsini ikili standartların nümunəsi kimi qiymətləndir-

mişdi: «Nə üçün təcavüzkar bu günə qədər qınaq obyektinə çevrilməyib?! Nə üçün Avropa Şurası Parlament Assambleyasında Ermənistan nümayəndə heyətinin səlahiyyətlərini dayandırmaq məsələsi müzakirə edilmir?! Biz bu məsələni dəfələrlə qaldırmışıq. Yadımdadır ki, hələ 2001-ci ildə mən Azərbaycan Milli Məclisinin AŞPA-dakı nümayəndə heyətinin rəhbəri kimi dəfələrlə bu məsələni qaldırmışam. Buna heç kim heç bir reaksiya vermir. Deyirlər, gedin razılaşın. ...Hesab edirəm, vaxt gəlib çatıb ki, biz bu məsələ ilə bağlı fikrimizi daha da açıq şəkildə ifadə edək. Biz bu ikili standartlardan yorulmuşuq. Bu qədər ədalətsizliyə dözmək mümkün deyildir" (75).

İlham Əliyev öz çıxışlarında dəfələrlə Azərbaycanın siyasi, iqtisadi və hərbi gücü ilə Ermənistanın siyasi, iqtisadi və hərbi gücünü müqayisə edərək iki ölkə arasında Azərbaycanın xeyrinə çox böyük fərq olduğunu bildirmişdi. Bu fərq ildən-ilə böyüyürdü və Azərbaycanın sürətli inkişafı qarşısında Ermənistan böhran və durğunluq qarşısında qalmaqda davam edirdi. Bütün sahələr üzrə dərin böhran içində olan Ermənistanın Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında özünün qeyri-konstruktiv mövqeyindən əl çəkməməsini İlham Əliyev yalnız bu ölkənin rəhbərliyinin mövqeyi ilə deyil, həm də ikili standartlarla izah edirdi. İlham Əliyev gizlətmirdi ki, dünyada Dağlıq Qarabağ münaqişəsinin həllini istəməyən qüvvələr vardır və onların Azərbaycana qarşı ikili standartları davam etməkdədir. Məqsəd də Dağlıq Qarabağ münaqişəsindən güclənməkdə olan Azərbaycana qarşı təzyiq vasitəsi kimi istifadə olunması idi: "Baxmayaraq ki, Minsk qrupuna həmsədrlik edən ölkələrin dövlət başçıları dəfələrlə demişlər ki, status-kvo qəbuledilməzdir. Ancaq bu, sözlərdən başqa bir şey deyil. Sadəcə olaraq sözlərdir və bu sözlərin arxasında heç bir ciddi siyasət dayanmır. Əgər status-kvo qəbuledilməzdirsə -

bu, əlbəttə ki, qəbuledilməzdir, - onda bir tədbir görülməlidir. İşğalçı dövlətə təzyiq göstərilməlidir. O məcbur edilməlidir ki, işğal olunmuş torpaqlardan çıxsın. Yoxsa bu da riyakarlığın bir növüdür. Bir bəyanat verilir, onun arxasında iş görülmür. Necə ki, BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir. Heç biri 20 ildən çoxdur ki, icra edilmir. Nə üçün başqa yerlərdə qəbul edilmiş qətnamələr dərhal icra edilir, bizə gəldikdə icra edilmir?! Bu, ədalətsizlikdir, bu, ikili standartlardır. Artıq Azərbaycan xalqı bunu yaxşı bilir, dərk edir ki, bu problemin həll olunmaması təkcə Ermənistanın qeyri-konstruktiv mövqeyi ilə izah edilə bilməz. Görünür, dünyada elə qüvvələr var ki, bu münaqişənin həll olunmasında maraqlı deyillər. Görünür, elə qüvvələr var ki, maraqlıdır bu münaqişə dondurulmuş, yarıdondurulmuş vəziyyətdə qalsın və bundan Azərbaycana bir təzyiq vasitəsi kimi istifadə etsinlər. Son illərdə müxtəlif bölgələrdə - Avropada, Yaxın Şərqdə gördüyümüz mənzərə bax, bu mövqeyi, bu yanaşmanı daha da gücləndirir. Proseslərdən belə nəticə çıxır. Ona görə, buna da aydınlıq gətirilməlidir ki, biz nə vaxta qədər bu ikili standartlarla üzləşəcəyik?!" (76).

Çıxışlarının birində İlham Əliyev inkişaf üçün resursu olmayan, iqtisadiyyatı çökən, sənayesi ölən, insanları ölkəni tərk edən, insan resursları olmayan, bir ölkə kimi dünya xəritəsindən silinmək təhlükəsi qarşısında qalan Ermənistanın yalnız xarici maliyyə, hərbi və siyasi dəstək hesabına Azərbaycan torpaqlarını işğal altında saxlaya bildiyini söyləyirdi. O, çox açıq şəkildə bəyan edirdi ki, bizim torpaqlarımızı işğal edən təkcə Ermənistan deyil. Bizim torpaqlarımızı işğal edən Ermənistanın havadarları, ermənipərəst, islamofob siyasətçilər, anti-Azərbaycan qüvvələrdir. Ermənistan bizim torpaqlarımızı işğal edə bilərmi? Bir həftə ərzində orada daş daş üstündə qalmaz. Bu da reallıqdır (77).

Azərbaycana qarşı istiqamətlənmiş belə bir ədalətsiz reallıq mövcud olsa da və bu reallıq münaqişənin həllini uzatsa da, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev çox böyük əminliklə bəyan edirdi ki, "gün gələcək Azərbaycan öz ərazi bütövlüyünü təmin edəcək" (78). Çünki bu, Azərbaycan xalqının iradəsi idi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan xalqı qarşısında verdiyi vəddən doğan qətiyyətli mövqeyi idi.

## 2. İlham Əliyev və Azərbaycan Ordusu

Cənab İlham Əliyevin prezidentlik illəri Azərbaycan Ordusununin kişafının keyfiyyətcə yeni bir dövrünü təşkil edir. Bu dövr ərzində Azərbaycan Ordusu istər təşkilati baxımdan, istər təchizat baxımından, istər döyüş keyfiyyətləri baxımından tamamilə yeni bir səviyyəyə qalxdı və bölgənin ən güclü ordusuna çevrildi.

Məlumdur ki, ordu quruculuğu dövlət quruculuğunun məxfilik tələb edən sahələrindən biridir. Ona görə İlham Əliyevin rəhbərliyi altında bu sahədə görülən işlərin heç də hamısı kütləvi informasiya vasitələrinə çıxarılmamışdır. Sözsüz ki, İlham Əliyevin rəhbərliyi altında ordu quruculuğu sahəsində görülən işlərin bütün miqyası haqqında tam təsəvvürü məxfilik dərəcəsi itməmiş sənədlərlə tanışlıq yarada bilərdi. Bununla belə, kütləvi informasiya vasitələrinə çıxarılan məlumatlar, hərbi xarakterli tədbirlərdə İlham Əliyevin çıxışları, başlıcası isə ordu quruculuğunda əldə edilmiş nailiyyətlər İlham Əliyevin rəhbərliyi altında bu sahədə həyata keçirilən siyasətin səmərəliliyindən, milliliyindən və əhatəliliyindən xəbər verir. Son illərdə görülən işlərin nəticəsində Azərbaycan Ordusu, əslində, Azərbaycanın

inkişafının simvoluna çevrilmişdir və İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun çox güclü şəkildə möhkəmlənməsini indi Azərbaycanı istəməyən qüvvələr də etiraf etməkdədirlər.

İlham Əliyevin Azərbaycan Ordusunun güclənməsinə istiqamətlənmiş siyasətinin uğurla həyata keçməsinin bir sıra xarakterik cəhətləri vardır. Bu xarakterik cəhətlərdən birincisi heç şübhəsiz ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ordu quruculuğu sahəsində müəyyənləşdirdiyi dövlət siyasətinə sədaqət və həmin siyasətin yeni tarixi şəraitə uyğun olaraq yaradıcı şəkildə davam etdirilməsi idi. İlham Əliyev bütün fəaliyyəti boyu həm bəyan edir, həm də fəaliyyəti ilə nümayiş etdirirdi ki, Azərbaycanın inkişafında Heydər Əliyev siyasətinə sadiqdir və bu siyasətə alternativ yoxdur. Azərbaycanda ordu quruculuğunda da bu prinsip əsas tutulurdu.

Bəllidir ki, milli ordu quruculuğunda ulu öndər cənab Heydər Əliyevin böyük xidmətləri var və bu xidmətlərin tarixi öz başlanğıcını hələ sovet dövründə onun Azərbaycana rəhbərlik etdiyi illərdən götürürdü. Xüsusən milli hərbi kadrların yetişdirilməsində və o cümlədən C.Naxçıvanski adına hərbi internat məktəbinin açılmasında Heydər Əliyevin qətiyyəti və ardıcıllığı Azərbaycanda milli hərbi quruculuğun çox qiymətli səhifələrindən birini təşkil etməkdədir. İlham Əliyev də Azərbaycan xalqı qarşısında göstərilmiş bu tarixi xidmətə çox yüksək qiymət verirdi və çıxışlarında da dəfələrlə bu məsələyə toxunmuşdu: «Xalqımızın ümummilli lideri Heydər Əliyevin keçmişdə, hələ ötən əsrin 70-ci illərində də orduya diqqəti böyük idi. Baxmayaraq ki, o vaxt Azərbaycan müstəqil dövlət deyildi, müttəfiq respublika idi, amma məhz Heydər Əliyevin təşəbbüsü ilə Bakıda Naxçıvanski adına ixtisaslaşdırılmış məktəb yaradılmışdı. Demək olar ki, bu, çox nadir bir hadisə idi. Çünki digər respublikalarda belə mək-

təblər yox idi. Mərkəzi hökumət, Sovet İttifaqı Kommunist Partiyası bu məsələyə o qədər də müsbət baxmırdı. Heydər Əliyev buna böyük çətinliklə müvəffəq olmuşdu. Naxçıvanski adına məktəb bu gün də Azərbaycana xidmət edir. Yəqin ki, xalqımızın lideri o vaxt da Azərbaycanı müstəqil dövlət kimi görürdü. Bu gün ordumuzda xidmət edən zabitlərin bir çoxu Naxçıvanski adına məktəbin məzunlarıdır» (79).

İlham Əliyev başqa bir çıxışında isə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin C.Naxçıvanski adına hərbi-internat məktəbin açılması sahəsindəki fəaliyyətini belə qiymətləndirirdi: «Hələ 1970-ci illərdə, Azərbaycan Sovet İttifaqı tərkibində bir respublika kimi yaşayan bir dövrdə Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış orta məktəbin yaradılması məhz Heydər Əliyevin təşəbbüsü ilə mümkün olmuşdur. Sanki o bilirdi, hiss edirdi ki, bir gün Azərbaycan müstəqil dövlət olacaq və müstəqil dövlət üçün hazırlıqlı, peşəkar hərbi kadrlar lazım olacaqdır. O illər bütün istiqamətlərdə müasir bilikli kadrların hazırlanması prosesi sürətlə gedirdi. Azərbaycan gəncləri üçün Sovet İttifaqının aparıcı ali məktəblərinə çoxlu yer ayrılırdı. Həmin bu güclü kadr potensialı indi Azərbaycanın müstəqilliyinə, Azərbaycanın inkişafına xidmət edir. O cümlədən ordumuzda xidmət edən şəxslərin o illər Naxçıvanski adına məktəbdə təhsil almaları onların fəaliyyəti və xidməti üçün böyük dəstək idi» (80).

İlham Əliyev ümummilli liderin müasir Azərbaycan Ordusunun təməlinin qoyulmasında və onun formalaşdırılmasındakı xidmətlərini də çox yüksək qiymətləndirirdi. Yuxarıda qeyd edildiyi kimi, İlham Əliyev dəfələrlə bildirmişdi ki, 90-cı illərin əvvəllərində Azərbaycana Heydər Əliyev kimi bir şəxsiyyət rəhbərlik etsəydi Dağlıq Qarabağ münaqişəsi də ortaya çıxmazdı. Yəni, İlham Əliyev Heydər Əliyevi XX əsrin 80-90-cı illərində

bütün sahələrdə Azərbaycana qarşı istiqamətlənmiş məkrli planların qarşısını almağa qadir bir şəxsiyyət sayırdı. Burada, eyni zamanda, ordu quruculuğu məsələsi də nəzərdə tutulurdu. İlham Əliyev şübhə etmirdi ki, XX əsrin 90-cı illərinin əvvəllərindən Heydər Əliyev Azərbaycan rəhbərliyində olsaydı, Azərbaycan Ordusu da sağlam əsaslar üzərində formalaşardı və Ermənistanın Azərbaycana qarşı yönəlmiş bütün işğalçılıq planlarının da qarşısı alınardı. Heydər Əliyevin Naxçıvandakı fəaliyyəti də belə bir həqiqətin təsdiqi idi. Heydər Əliyev öz gücü və qətiyyəti ilə sovet qoşunlarının buradakı əmlakının kənara çıxarılmasına imkan vermədi və bu əmlak Azərbaycanın Naxçıvanda yaradılan hərbi hissəsinin maddi-texniki bazasını təşkil etdi. Eləcə də Heydər Əliyev Naxçıvanı erməni təcavüzündən qoruyub saxlaya bildi. Bununla xalqı erməni təcavüzünə qarşı səfərbər etməyin və erməni təcavüzündən müdafiə olunmağın nümunəsini göstərdi.

Məhz belə bir dövrdə Bakıda ordu quruculuğunu xaos və özbaşınalıq öz ağuşuna aldı və erməni təcavüzünə müqavimət göstərə biləcək bir ordu formalaşmadı. «1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra, əlbəttə ki, Milli Ordunun yaranması çox vacib məsələ idi. Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində Azərbaycanda nizami ordu yarana bilmədi. Azərbaycanda ordu quruculuğu lazımi səviyyədə aparılmırdı» (81).

Müstəqilliyin ilk illərində Azərbaycanda ordu quruculuğunun xalqın ümidlərini doğruldacaq səviyyədə aparılmamasının hansı nəticələrə yol açdığını isə İlham Əliyev belə şərh edirdi: «1980-ci illərin sonlarında – 1990-cı illərin əvvəllərində Azərbaycana rəhbərlik etmiş şəxslərin yarıtmaz fəaliyyəti nəticəsində biz böyük çətinliklərlə üzləşmişdik. Azərbaycan torpaqlarının işğalı başlamışdır və işğal bu gün də davam edir. 1992-ci ildə

Şuşa və Laçının, 1993-cü ilin aprel ayında Kəlbəcər rayonunun işğalı nəticəsində faktiki olaraq Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlılıq təşkil edilmişdir. Əlbəttə ki, digər rayonlarımızın işğalı üçün düşmənə əlavə imkanlar yarandı. Biz o tarixi çox yaxşı xatırlayırıq. Bilirik ki, Ermənistan və onun xarici havadarları Azərbaycan torpaqlarının işğalı işində böyük qəddarlıq göstərmişlər» (82).

1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə gəldikdən sonra Heydər Əliyev Azərbaycanı düşdüyü ağır böhrandan çıxarmaq və ölkənin müstəqilliyini xilas etmək üçün tarixi fəaliyyətinə başladı. Onun son dərəcə çətin və mürəkkəb şəraitdə əldə etdiyi ümummilli nailiyyətlərdən biri də məhz Azərbaycan Ordusunun möhkəm, qanuni əsaslar üzərində qurulmasına başlanması idi. «Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən sonra isə Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda ordu quruculuğu işi sürətlə aparılmışdır. Nəzərə alsaq ki, müstəqilliyimizin ilk illərində orduda vahid komandanlıq yox idi, Azərbaycanda ordu quruculuğu prosesinin necə çətin şəraitdə getdiyini görərik. Bir tərəfdən, daxildə müxtəlif xoşagəlməz hadisələr, iqtisadi böhran, siyasi-hərbi böhran, daxili çəkişmələr, digər tərəfdən, Ermənistanın Azərbaycana qarşı təcavüzü və bu təcavüz nəticəsində torpaqlarımızın itirilməsi – belə bir şəraitdə ordu quruculuğu faktik olaraq sıfırdan başlanmışdı. Ancaq qısa müddət ərzində Azərbaycanda çox güclü ordu yaranmışdır» (83).

Heydər Əliyevin 1993-cü il noyabr ayının 2-də radio və televiziya ilə xalqa müraciət etməsi Azərbaycanda yeni, müasir ordu quruculuğunun əsasını qoydu. Bu müraciətdə müstəqil Azərbaycan dövlətinin atributu olacaq ordunun qurulması üçün dövlət siyasətinin aktual istiqamətləri müəyyənləşdirildi, dövlət və xalq qarşısında dayanan vəzifələr konkretləşdirildi və çox tezlik-

lə də düzgün qurulan işlərin nəticəsi özünü göstərməyə başladı: «Ümummilli liderimiz Azərbaycan xalqının daha da yaxşı yaşamasını təmin etmək, doğma Azərbaycanı inkişaf etdirmək üçün bütün dövrlərdə böyük səylər göstərmişdir. O cümlədən ordu quruculuğu istiqamətində də böyük işlər görülmüşdür. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanda ordu quruculuğu prosesi başlanmışdır. Hamımız bilirik ki, ilk illərdə bu proses çox ağır, çətin gedirdi. Ümumiyyətlə, müstəqillik bərpa olunduqdan sonra Azərbaycanda vəziyyət çox ağır idi və əlbəttə, bu, orduda gedən proseslərə də öz mənfi təsirini göstərirdi. Faktiki olaraq ordumuz çox zəif idi. Yalnız Heydər Əliyev hakimiyyətə qayıdandan sonra ordu quruculuğu istiqamətində böyük işlər görülməyə başladı, nizamlı ordu yarandı və bu gün o, ən yüksək standartlara cavab verir, qarşıda duran bütün vəzifələri həll edə bilir. Azərbaycanı ağır vəziyyətdən qurtarmaq, ölkədə xaosun, böhranın, vətəndaş müharibəsinin qarşısını almaq, ölkəmizi inkişaf yoluna çıxarmaq xalqımızın ümummilli lideri Heydər Əliyevin müstəsna xidməti idi» (84).

İlham Əliyev öz çıxışlarında Azərbaycan Ordusunun təşkilatlandırılmasında Heydər Əliyevin fədakar fəaliyyətini gənc hərbçilərə örnək sayırdı və onları Heydər Əliyevin yaradıcısı olduğu orduda ulu öndərin yolunu davam etdirməyə çağırırdı: «Xatırlayırsınız ki, ... Naxçıvanski adına məktəbin 30 illiyi qeyd edilərkən, xalqımızın ümummilli lideri əsgərlər, zabitlər, generallar qarşısında çıxış edərkən onun səhhətində problemlər yaranmışdı. O, iki dəfə öz nitqini dayandırmışdır. Amma bütün buna ciddi baxmayaraq, o, iki dəfə kürsüyə qayıtmış, öz nitqini başa çatdırmışdı. Budur, bizim hamımız üçün nümunə, budur, bizim hamımız üçün örnək. Bu fədakarlıq, bu cəsarət, bu siyasi iradə bizim hamımız üçün böyük örnək, nümunə olmalıdır. Biz

hamımız çalışmalıyıq ki, xalqımızın ümummilli lideri Heydər Əliyevə oxşayaq, onun yolu ilə gedək» (85).

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin buraxılış mərasimlərindən birində İlham Əliyev Azərbaycan xalqının ümummilli liderinin ordu quruculuğundakı roluna toxunarkən bildiririrdi ki, Azərbaycan Ali Hərbi Məktəbinin ulu öndər Heydər Əliyevin adını daşıması bu məktəbdə oxuyanların üzərinə əlavə məsuliyyət qoyur (86) və buna görə də ölkə Prezidenti Ali Hərbi Məktəbin kursantlarını Heydər Əliyev ənənələrinə sadiq olmağa çağırırdı.

İlham Əliyevin prezidentliyi dövründə ordu quruculuğunun uğurla aparılmasının xarakterik tərəflərindən biri heç şübhəsiz ki, ordu quruculuğuna dövlət rəhbərliyinin, dövlət qayğısının təmin edilməsi, ordu quruculuğunun dövlət quruculuğunun digər sahələri ilə üzvi surətdə əlaqələndirilməsi, ordu quruculuğunun prioritet istiqamətlərinin müəyyənləşdirilməsi, dövlətin və xalqın potensialının səmərəli və məqsədyönlü şəkildə ordu quruculuğuna səfərbər edilməsi, ordu quruculuğuna vahid komandanlığın təmin edilməsi idi. Bu prinsiplərin ordu quruculuğuna uğurlu tətbiqi öz başlanğıcını, əslində, Heydər Əliyevin prezidentliyi dövründən götürür. İlham Əliyev isə bu prinsiplərə sədaqət nümayiş etdirdi, onlara yaradıcı şəkildə yanaşdı, konkret tarixi şəraitin tələblərinə uyğun olaraq müvafiq vəzifələr müəyyənləşdirdi.

Ordu quruculuğuna rəhbərliyin dövlətin əlində cəmləşdirilməsi dövlətin müstəsna səlahiyyətidir və bu prinsipə riayət edilməsi ordu quruculuğunun uğurunun da ən başlıca şərtidir. Bu şərtə əməl olunmaqla həm strateji dövr üçün, həm də konkret tarixi şərait üçün ordu quruculuğu qarşısında dayanan vəzifələrin düzgün müəyyənləşdirilməsi İlham Əliyevin bu sahədəki fəa-

liyyətinin də səmərəliliyinin başlıca amilidir. Həmin fəaliyyətin hansı nəticəyə gətirdiyi isə indi göz qabağındadır.

İlham Əliyev ordu quruculuğunu dövlətin qarşınında dayanan prioritet vəzifələrdən biri kimi dəyərləndirirdi. O bildirirdi ki, ordu quruculuğu bizim üçün ən başlıca, ən prioritet məsələdir. Bu, hər bir ölkə üçün belə olmalıdır. Çünki hər bir ölkə özünü müdafiə etməlidir (87). İlham Əliyev bunu hər bir ölkə üçün, başqa sözlə, hər bir müstəqil dövlət üçün başlıca vəzifə sayırdı. Çünki ordu hər bir dövlətin müdafiəsinin dayağıdır və güclü ordu, eyni zamanda, müstəqilliyin zaminidir.

Ordu quruculuğunun dövlət quruculuğunun mühüm sahələrindən biri olmasını və bu sahəyə dövlət tərəfindən ciddi diqqət yetirildiyini İlham Əliyev öz çıxışlarında təkrar-təkrar qeyd edirdi: «Ordu quruculuğu məsələləri həmişə diqqət mərkəzindədir. Bu bizim üçün əsas məsələdir» (88); «Ordu quruculuğu hər bir ölkə üçün çox önəmli məsələdir. Xüsusilə müharibə şəraitində yaşayan ölkə üçün bu, prioritet olmalıdır. Bu, belədir və Azərbaycanda ordu quruculuğu ən prioritet məsələdir» (89); «Bizim mövqeyimiz güclü ordu ilə tamamlanır. Bu məqsədlə son illər ərzində ordu quruculuğuna çox böyük diqqət göstərilmişdir. Ordumuz inkişaf edir. Bu inkişaf daimi prosesdir. ...Azərbaycan dövləti ordu quruculuğuna çox böyük əhəmiyyət verir. Bu bizim başlıca vəzifəmizdir və gələcək illərdə bu proses daha da sürətlə gedəcəkdir. ... Ordu dövlətçiliyi, bizim seçimimizi, müstəqil siyasətimizi qoruyur. Xalq isə ordunu qoruyur və qorumalıdır. Mən həmişə deyirəm ki, güclü dövlətin güclü ordusu olmalıdır» (90).

İlham Əliyevin belə bəyanatları çoxdur və bu bəyanatlar ordu quruculuğu sahəsində dövlətin qarşısında dayanan vəzifələrin mühümlüyünün təsdiqi idi.

İlham Əliyev ordu quruculuğunu Azərbaycanın müstəqilliyinin şərti kimi qiymətləndirirdi, ordu müstəqilliyin atributu

kimi qəbul edilirdi və ona görə də bu ordu quruculuğu dövlət quruculuğunun prioritet sahəsinə çevrilmişdi. «Bizim ordumuz bizim qürurumuzdur. Bizim ordumuz müstəqilliyimizi şərtləndirən amildir. Biz bundan sonra da…Azərbaycan Ordusunu gücləndirəcəyik» (91).

İlham Əliyev ordu quruculuğunu həm də milli qürur məsələsi sayırdı və bununla bu prosesin ümummilli xarakter daşıdığına da işarə edirdi. Bu prosesin xalq qayğısı, hər bir vətəndaşın qayğısı ilə əhatə olunmasının vacibliyini respublika Prezidenti öz çıxışlarında da qabardırdı. Əslində də belə idi. Çünki xalqın bir parçası olan ordu xalqın qayğısı ilə əhatə olunmasaydı, bu ordu güclü ordu ola bilməzdi: «Azərbaycanda ordu quruculuğu ümumxalq işidir. Dövlət buna öz qayğısını, diqqətini göstərir. Azərbaycan xalqı, Azərbaycanda yaşayan, işləyən bütün insanlar, bütün qurumlar, özəl sektorun nümayəndələri də bu məsələyə böyük diqqətlə yanaşmalıdırlar» (92); «Bu gün ordu quruculuğu prosesinə böyük diqqət verilir. Siz bunu hiss edirsiniz, cəmiyyət bunu hiss edir. Çünki ordunun möhkəmləndirilməsi hər bir vətəndaşın işidir, hər bir vətəndaşın borcudur. İlk növbədə, dövlət öz diqqətini əsirgəməməlidir. Biz bütün sahələrdə orduda gedən proseslərin inkişafına çalışırıq» (93).

İlham Əliyev ordu quruculuğunu həm də ölkənin hər bir vətəndaşının borcu sayırdı. Bu borc respublika Konstitusiyasından irəli gələn borcdur. Lakin bu borcun şüurlu şəkildə yerinə yetirilməsi, bu borcun mənəvi borc kimi qəbul edilməsi ordunun gücünün və möhkəmliyinin də əsas amillərindən birinə çevrilə bilərdi.

Xalqın və vətəndaşların ordu quruculuğuna yardımını və qayğısını isə İlham Əliyev ölkə Prezidenti və Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi öz fəaliyyətinə dəstək kimi qiymətləndirirdi və belə bir dəstəyə güvəndiyini də bəyan edirdi: «Ali Baş Komandan kimi mən bu dəstəyə güvənirəm, arxalanıram və əminəm

ki, bizim cəmiyyətimiz, hər bir vətəndaşımız bu istiqamətdə daha da fəal rol oynayacaqdır» (94). Ölkə Prezidenti xalqı və hər bir vətəndaşı həm də ordu quruculuğuna qayğı göstərməkdə fəal olmağa çağırırdı. Çünki bu fəallıq ordu quruculuğunun sürətlənməsinə və səmərəliliyinin artmasına yol aça bilərdi.

Ordu quruculuğunu İlham Əliyev həm də respublika Prezidenti və Ali Baş Komandan kimi öz qarşısında dayanan başlıca vəzifələrdən biri kimi xarakterizə edirdi və bəyan edirdi ki, bu sahəyə diqqət azalmayacaqdır: «Ordunun bütün məsələləri müntəzəm qaydada həll edilir. Mən bunu daim diqqət mərkəzində saxlayıram. Azərbaycan Respublikasının Prezidenti və Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi bu, mənim borcumdur» (95).

Başqa bir çıxışında isə İlham Əliyev bəyan edirdi ki, Ali Baş Komandan kimi gələcəkdə də ordu quruculuğuna və ordunun inkişafına öz dəstəyini verəcəkdir (96).

Bununla İlham Əliyev bir tərəfdən ordu quruculuğunun dövlətin qayğısı altında olduğunu bildirir, bir tərəfdən də ordu quruculuğunun yüksələn xətlə inkişafının dönməzliyini bildirirdi. Çünki dövlət rəhbərliyinin ordu quruculuğuna hansı münasibətdə olması ordu quruculuğunun gələcəyini müəyyənləşdirən əsas şərtdir. Özü də bu bəyanatlar sadəcə bəyanatlar deyildi. Bu bəyanatlar əslində respublika Prezidentinin fəaliyyət proqramı idi və o özü də dəfələrlə bəyan etmişdi ki, yalnız bəyanatlar verməklə kifayətlənmir və verdiyi sözü axıra çatdırır.

Qeyd edildiyi kimi, İlham Əliyev ordunu müstəqilliyin atributu kimi qəbul edirdi və bu mənada ordu quruculuğunun Azərbaycanın müstəqil dövlət quruculuğu kimi davamlı xarakter daşıyacağı şübhə doğurmurdu. Bununla belə, ordu quruculuğunun yaxın gələcək üçün qarşısında dayanan vəzifələrin müəyyən-

ləşdirilməsi və konkretləşdirilməsi haqqında da İlham Əliyevin aydın və konkret mövqeyi vardır. Bu mövqe Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi vəzifəsindən irəli gəlirdi. Yaxın gələcək üçün Azərbaycan Ordusunun qarşısında dayanan vəzifələrə toxunanda İlham Əliyev aşağıdakıları bildirirdi: «Heç bir başqa ölkənin torpağında bizim gözümüz yoxdur. Amma biz öz torpaqlarımızı da heç kimə verən deyilik. Əgər biz buna sülh yolu ilə nail ola bilməsək, yeni vəziyyət yaranacaq və onda Azərbaycan başqa variantlarla məşğul olacaqdır. Amma bu məsələni həll etmək üçün, ümumiyyətlə, ölkəmizi daha da hərtərəfli inkişaf etdirmək üçün biz güclü olmalıyıq. Biz öz iqtisadi potensialımızı gücləndirməliyik. Ordu quruculuğunda böyük işlər görməliyik» (97); «Mən əminəm ki, bizim ordumuz bundan sonra da öz potensialını gücləndirəcək və qarşıda duran bütün vəzifələri yerinə yetirəcək, Azərbaycan torpaqlarını işğaldan azad edəcəkdir» (98); «Ordu quruculuğu prosesi sürətlə getməlidir. Biz hələ çox işlər görməliyik. Bizim planlarımız böyükdür və mən şübhə etmirəm ki, qarşıda duran bütün vəzifələri yerinə yetirəcəyik» (99); «Bir sözlə, dünyada gedən proseslər onu göstərir ki, hər bir ölkə, ilk növbədə, güclü olmalıdır. Güclü olarsansa, sən öz maraqlarını qoruyacaqsan. Əgər sən güclü olmasan, hətta bütün beynəlxalq normalar sənin tərəfində olsa da, bunun böyük əhəmiyyəti olmayacaqdır» (100); "Azərbaycan öz torpaqlarının bir hissəsini müvəqqəti olaraq itiribdir. Belə olan halda, ordu quruculuğu, müdafiə potensialının möhkəmlənməsi və güclü ordunun yaranması dövlət üçün, hökumət üçün, hər bir vətəndaş üçün bir nömrəli vəzifədir. Biz bu istiqamətdə öz səylərimizi davam etdirəcəyik. Biz hər an hazır olmalıyıq ki, öz doğma torpaqlarımızı azad edək» (101); «Bizim həm siyasi sahədə, həm iqtisadi məsələlə-

rin həllində çox düşünülmüş strategiyamız var, taktikamız var. Azərbaycanın hərtərəfli inkişaf etdirilməsi üçün lazımi tədbirlər görülür və ordu quruculuğu prosesi bu işlərdə başlıca rol oynayır. Yenə də deyirəm, biz müharibə şəraitində yaşayırıq, buna görə də biz ilk növbədə, ordu quruculuğu ilə məşğul olmalıyıq və məşğul oluruq. Müharibə hələ bitməyib, müharibənin birinci mərhələsi başa çatıbdır və hər an hazır olmalıyıq ki, öz doğma torpağımızı düşməndən silahlı yolla azad edək» (102); «Məqsədimiz ondan ibarətdir ki, ölkənin müstəqilliyini daha da gücləndirək, Azərbaycanın müstəqil siyasətini təmin edək, ölkə qarşısında duran bütün vəzifələri həll edək. Bu vəzifələrin arasında ən vacib, ən birinci vəzifə torpaqlarımızı işğalçılardan azad etmək vəzifəsidir» (103).

İlham Əliyevin iştirak etdiyi elə bir hərbi xarakterli tədbir yox idi ki, orada dövlət başçısı Azərbaycan Ordusunun qarşısında dayanan mühüm və başlıca vəzifə haqqında bəyanat verməsin. Bu vəzifə hər şeydən əvvəl dövlətin və xalqın iradəsini əks etdirirdi, əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulan və İlham Əliyev tərəfindən uğurla davam etdirilən müstəqil dövlət quruculuğunun mahiyyətindən, nəhayət İlham Əliyevin öz vətəndaşlıq mövqeyindən və qətiyyətindən irəli gəlirdi. Ölkə Prezidentinin qeyd etdiyi kimi, Azərbaycan öz inkişafının elə bir səviyyəsinə çatmışdı ki, onun üçün həll edilməsi mümkün olmayan vəzifələr yox idi. O cümlədən də ordu quruculuğu vəzifəsi. Bunun üçün dövlətin gücü, potensialı və bu amilləri ordu quruculuğuna səfərbər etməyi bacaran dövlət rəhbərliyi var idi. Bu dövlət rəhbərliyi tərəfindən ordu quruculuğunun konkret vəzifələri müəyyənləşdirilir, onun həlli yolları konkretləşdirilir və vaxtında da həmin vəzifələr həyata keçirilirdi.

İlham Əliyev dəfələrlə bəyan etmişdi ki, Ermənistanla aparılan müharibə hələ bitməyib, bu müharibənin birinci mərhələsi

başa çatıb. Dövlət rəhbəri, eyni zamanda, onu da bəyan edirdi ki, müharibənin davam etdirilməsi Azərbaycan dövlətinin seçimi deyildir. Lakin işğalçı dinc müzakirələrin nəticəsi kimi işğal etdiyi ərazilərdən geri çəkilməsə, onda Azərbaycan xalqının və dövlətinin başqa bir seçimi də qalmayacaqdır. Ona görə də İlham Əliyev ordunun möhkəmləndirilməsini, gücləndirilməsini prioritet istiqamət sayırdı ki, bu ordu Azərbaycan torpaqlarının işğalçı qüvvələrdən təmizlənməsinə hazır olsun.

İlham Əliyev öz çıxışlarında Azərbaycanın işğal edilmiş ərazilərinin təmizlənməsinə qadir olacaq ordunun formalaşdırılmasının bir sıra yollarına da öz münasibətini bildirmişdir. Ölkə rəhbəri ordunun günü-gündən daha da möhkəmləndirilməsinin əsas yollarından birini heç şübhəsiz ki, bu ordunun maddi-texniki bazasının müasir tələblər səviyyəsində təmin edilməsində görürdü.

Bu məsələ kompleks şəkildə həll olunurdu. Ordunun maddi-texniki təchizatının yaxşılaşdırılması bütünlükdə ölkənin iqtisadi inkişaf səviyyəsi ilə birbaşa əlaqəli idi. Ona görə də Azərbaycanın iqtisadi cəhətdən inkişaf etdirilməsi, bunun üçün iqtisadi islahatların həyata keçirilməsi, xarici investisiyanın cəlb edilməsi üçün əlverişli mühitin yaradılması dövlət rəhbərliyinin diqqət mərkəzində idi və izlənilən düzgün siyasət nəticəsində qısa müddətdə bu sahədə ciddi nəticələr əldə edilmişdi. Ümummilli lider Heydər Əliyev tərəfindən əsası müəyyənləşdirilmiş iqtisadi inkişaf strategiyası Azərbaycanı iqtisadi inkişafın yeni bir səviyyəsinə qaldırdı və bu da imkan verdi ki, ildən-ilə hərbi büdcə də davamlı şəkildə artsın və ordu quruculuğunun sürətli inkişafına yol açsın. «Son illərdə Azərbaycanda aparılan iqtisadi siyasət öz bəhrəsini verir. Azərbaycan iqtisadi cəhətdən güclü dövlətə çevrilir. Azərbaycanda son bir neçə il ərzində iqtisadi inkişaf dünya miqyasında ən yüksək templərlə ölçülür və bu bizə imkan

verir ki, həyatımızın bütün sahələrində lazımi tədbirləri görək. Azərbaycanda nəinki hərbi büdcə, bütün başqa məsələlərin həlli üçün əlavə vəsait ayrılır. Büdcəmiz artdıqca bütün iqtisadi-sosial məsələlər həllini tapır. Ancaq biz, ilk növbədə, hərbi xərclərə daha da böyük diqqət göstərməliyik» (104).

Maliyyə ehtiyatlarının mövcudluğu sözsüz ki, hərbi ehtiyacların aradan qaldırılmasının başlıca şərtidir. Lakin bu ehtiyatlardan səmərəli istifadə edilməməsi gözlənilən nəticələrin əldə edilməsini daha da çətinləşdirə bilər. Ona görə də Azərbaycanın iqtisadi inkişafından əldə edilən gəlirlərin hərbi sahəyə yönəldilməsi üçün xüsusi dövlət siyasəti müəyyənləşdirildi, prioritet sahələr konkretləşdirildi, maliyyə vəsaitlərinin məqsədyönlü şəkildə istifadəsinə diqqət artırıldı.

İlham Əliyevin çıxışlarında Azərbaycan Ordusunun maddi-texniki təchizatının təkmilləşdirilməsi haqqında izlənilən siyasət haqqında kifayət qədər məlumatlar vardır. Bu məlumatların təhlil edilməsi ilə İlham Əliyevin prezidentliyinin ilk illərindən başlayaraq Azərbaycan Ordusunun maddi-texniki təchizatının təkmilləşdirilməsi dinamikasının mənzərəsini yaratmaq mümkündür.

Hələ prezidentliyinin ilk ilində İlham Əliyev Azərbaycan Ordusunun maddi-texniki bazasının gücləndirilməsinin diqqət mərkəzində olduğunu bildirirdi. O qeyd edirdi ki, işğal olunmuş torpaqların azad edilməsi üçün Azərbaycan hərtərəfli inkişaf etmiş ölkəyə çevrilməlidir, iqtisadi potensial güclənməlidir. Azərbaycanın iqtisadi potensialını Ermənistanın iqtisadi potensialı ilə müqayisə edərkən İlham Əliyev bildirirdi ki, bu məsələdə iki ölkə arasında ciddi fərq vardır. Onun sözlərinə görə, 2004-cü ildə Azərbaycanın dövlət büdcəsi Ermənistanın dövlət büdcəsindən 4 dəfə üstün idi və 2005-ci ildə bu üstünlük 5 dəfəyə çatmalı idi.

Azərbaycanın iqtisadi potensialının belə artması isə orduya ayrılan xərclərin miqdarını artırmaqda idi. İlham Əliyev bəyan edirdi ki, bu tendensiya saxlanılacaq, orduya ayrılan vəsait gələcəkdə də artırılacaq və bununla Azərbaycan Ordusunun maddi-texniki bazası da möhkəmlənəcəkdir (105).

2005-ci ildə bu siyasət uğurla davam etdirildi. Həmin il ölkənin hərbi xərcləri 2004-cü illə müqayisədə 40 faiz artırıldı. Bu da imkan verdi ki, ordunun maddi-texniki təchizatının yaxşılaşdırılması üçün konkret işlər görülsün. İlham Əliyev bildirirdi ki, imkanların artması nəticəsində orduya yeni texnika və avadanlıq alınmışdır və bu işlər gələcəkdə də görüləcəkdir (106).

Ölkənin iqtisadi inkişafda olması ilə bərabər, Azərbaycan Ordusunun davamlı inkişaf yoluna çıxmasını İlham Əliyev məmnunluqla qeyd edirdi və ölkə Prezidenti seçilməsindən sonra ordunun inkişaf etdirilməsi ilə bağlı verdiyi vədin də yerinə yetirildiyini söyləyirdi: «Azərbaycan inamla inkişaf edir və ordu quruculuğu istiqamətində də böyük işlər görülübdür. Biz bu siyasətə sadiqik və mən Prezident seçkiləri ərəfəsindəki çıxışlarımda bunu bəyan etmişdim. Bu gün çox şadam ki, nəzərdə tutulmuş bütün planlar həyatda öz əksini tapır, ordumuz güclənir və qarşıda duran bütün vəzifələri həll etməyə qadirdir. Hər bir ölkə üçün onun ordusu çox vacib bir atributdur, çox önəmli bir rəmzdir. O cümlədən Azərbaycan üçün. Xüsusilə nəzərə alsaq ki, Azərbaycan hələ də müharibə şəraitində yaşayır, orduya diqqət daim yüksək səviyyədə olmalıdır. ...Mən Prezident seçiləndən sonra dəfələrlə bəyan etmişdim ki, qarşıda duran mühüm vəzifələrdən biri iqtisadiyyatı gücləndirmək və ordu potensialını gücləndirməkdir. Bu məsələlər bir-biri ilə sıx bağlıdır. Bu gün biz hamımız görürük ki, bu, sadəcə, bəyanatlar deyil, biz əməli-praktiki işlərimizlə buna nail olmuşuq və nail olacağıq» (107).

Konkret rəqəmlərə gəldikdə isə Azərbaycanın hərbi büdcəsinin artım dinamikası aşağıdakı kimi idi: İlham Əliyevin Prezident seçildiyi 2003-cü ildə Azərbaycanın hərbi büdcəsi 150 milyon dollar ətrafında idi. 2004-cü ildə bu büdcə artaraq 175 milyon dollar oldu. 2005-ci ildə isə hərbi büdcə 300 milyon dollara çatdırılmışdı. Bu rəqəm büdcənin ilkin göstəricilərində nəzərdə tutulan vəsaitdən artıq idi. Ölkənin inkişafı sürətləndikcə Prezidentin təklifi ilə Milli Məclis tərəfindən büdcə göstəriciləri dəqiqləşdirilmiş və bununla da Azərbaycanın 2005-ci ildə olan hərbi xərclərində əvvəlki illə müqayisədə 70 faiz artım yaranmışdı. Bu rəqəmin də hələ son hədd olmadığı bildirilirdi. İlham Əliyev hələ 2005-ci ildə bəyan edirdi ki, Azərbaycan Ordusu indi Cənubi Qafqazın ən güclü ordusudur və əldə edilən bu üstünlük daha da möhkəmləndiriləcəkdir. Bunu ölkə Prezidenti başlıca olaraq Azərbaycan ərazilərinin işğal altında olması ilə əlaqələndirirdi. Dağlıq Qarabağ münaqişəsinin həlli üçün siyasi-diplomatik fəaliyyətlə birlikdə ordunun gücləndirilməsini də İlham Əliyev çox vacib sayırdı. Əldə edilən nəticələrə yekun vuraraq İlham Əliyev onu da bildirirdi ki, artıq Azərbaycan Ordusu istənilən vaxtda işğal altında olan torpaqları azad edə bilər (108).

2006-cı ildə Azərbaycanın hərbi büdcəsinin 600 milyon dollara çatdırılması planlaşdırılırdı. Başqa sözlə, 2005-ci illə müqayisədə Azərbaycanın hərbi büdcəsinin iki dəfə artması gözlənilirdi. İlham Əliyev bunu real sayırdı və bildirirdi ki, əgər dövlətin ümumi büdcəsi 2006-cı ildə iki dəfə artacaqsa, hərbi büdcənin də iki dəfə artması təbii olmalıdır. Hərbi büdcədə belə bir artım sözsüz ki, ordunun daha müasir silah və texnika ilə təchizatına da əlavə imkanlar aça bilərdi. İlham Əliyev də qeyd edirdi ki, ordunun maddi-texniki bazasının möhkəmləndirilməsi işində təbii ki, dövlət büdcəsindən orduya ayrılmış xərclərin artması zəruri-

dir və ona görə də artım davam etdirilməlidir. Yeni imkanların yaranması nəticəsində 2006-cı ildə hərbi xərclər iki dəfə deyil, daha çox artırıldı və bu xərclər 700 milyon dollara çatdırıldı. İlham Əliyevin prezidentliyə başladığı 2003-cü ildən 2006-cı ilədək ölkənin hərbi xərcləri 4 dəfə artmışdı. Bunun da nəticəsində İlham Əliyevin qeyd etdiyi kimi, həmin illər ərzində ordunun maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində böyük işlər görülmüş, çoxlu hərbi texnika, avadanlıq, müasir silahlar alınmış, Azərbaycan Ordusu xeyli güclənmişdi. Ölkə Prezidenti bir daha bəyan edirdi ki, ilk növbədə ordu quruculuğuna böyük diqqət yetirilmişdir və bu proses davam etdiriləcəkdir (109).

Azərbaycanın hərbi büdcəsinin artması və bunun nəticəsində respublika ordusunun güclənməsi hələ 2006-cı ildə Ermənistanı və onun havadarlarını ciddi təşvişə salmışdı. İddia edilirdi ki, bölgədə hərbi təhlükə arta bilər. İlham Əliyev belə iddiaları əsassız sayırdı. O, bir tərəfdən bildirirdi ki, Azərbaycan yalnız öz hərbi büdcəsini artırmır. Ölkənin sürətli iqtisadi inkişafı ümumi dövlət büdcəsinin artmasına səbəb olur. Hərbi büdcə isə dövlət quruculuğunun digər sahələri ilə mütənasib şəkildə artırılır. Bunu ölkə başçısı təbii bir hal kimi dəyərləndirirdi. Digər tərəfdən isə Azərbaycanın müharibə vəziyyətində olması da diqqət mərkəzinə gətirilirdi. İlham Əliyev bəyan edirdi ki, Azərbaycan müharibə şəraitində yaşayan bir ölkədir, atəşkəs rejiminin olması müharibənin qurtarması demək deyildir. Ölkə başçısı Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı sülh danışıqlarına sadiqliyin saxlanıldığını xatırlatmaqla onu da əlavə edirdi ki, müharibə şəraitində yaşayan, torpaqları işğal altında olan bir ölkə üçün müdafiə xərclərinin artması zəruridir və bu siyasət bu gün də var, sabah da olacaq və bundan sonra da davam etdiriləcəkdir (110).

Azərbaycan Ordusunun maddi-texniki bazasının təkmilləşdirilməsi istiqamətində İlham Əliyevin qəbul etdiyi uğurlu qərarlardan biri də 2006-cı ilin sonlarında Azərbaycanda Müdafiə Sənayesi Nazirliyinin yaradılması haqqında qərar verilməsi oldu. Belə bir qərar müdafiə sənayesinin ölkə daxilində təşkilinə, ordu üçün zəruri olan hərbi texnikanın istehsalının ölkə daxilində nizamlanmasına və ölkənin hərbi-texniki ehtiyaclarının xarici bazardan asılılığının zəiflədilməsinə zəmin yaratmalı idi. Bu məsələ ilə bağlı Prezident fərmanı imzalanan kimi dövlətin rəhbərliyi altında yeni Nazirliyin formalaşdırılması və fəaliyyətinin nizamlanması istiqamətində dərhal əməli işlərə başlandı və dövlət büdcəsində də bunun üçün lazımi xərclər nəzərdə tutuldu.

Müdafiə Sənayesi Nazirliyinin yaradılması ilə bağlı İlham Əliyev öz yanaşmasını belə açıqlamışdı: «Artıq 2007-ci il üçün Müdafiə Sənayesi Nazirliyinin formalaşması və maddi-texniki bazasının möhkəmlənməsi üçün büdcə xərcləri nəzərdə tutulubdur. Əminəm ki, 2007-ci ildə onlardan səmərəli istifadə olunacaq və Azərbaycanda güclü müdafiə sənayesi yaradılacaqdır. Sirr deyil ki, biz ordumuzun güclənməsi üçün müxtəlif yerlərdən texnika, silah-sursat alırıq, ən müasir döyüş vasitələri alırıq və alacağıq. Amma bununla bərabər, Azərbaycanda istehsal oluna bilən texnikanı biz özümüz istehsal etməliyik. Buna vəsait qoyulmalıdır. Bu sənaye inkişaf etməlidir ki, biz özümüzü təmin edə bilək və bu istiqamətdə böyük uğurlar əldə edəcəyik» (111).

Müasir hərbi texnikanın, inkişaf etmiş hərbi avadanlıqların xaricdən alınmasının davam etdirilməsi respublika rəhbərliyinin planlarında qalmaqda idi. 2007-ci ilin əvvəlində İlham Əliyev xarici ölkələrdən hərbi təyyarələr alındığını da elan etdi. Bununla bərabər, respublikanın daxilində bir sıra silahların və texnikanın istehsal edilməsi imkanları da var idi. Müdafiə Sənayesi Nazirliyi də bu imkanların üzə çıxarılması və istifadə edilməsi

məqsədilə yaradılmışdı. Nəzərdə tutulmuşdu ki, Müdafiə Sənaye-si Nazirliyinin təşkilatlandırılması çox sürətlə aparılsın və 2007-ci ilin sonlarında artıq bu Nazirliyin istehsal etdiyi məhsullar istifadəyə verilsin. Qarşıya qoyulan məqsədlərə çatmaq üçün Azərbaycanda güclü hərbi sənaye kompleksinin formalaşdırılması planlaşdırılırdı (112).

Ordunun maddi-texniki bazasının təkmilləşdirilməsi üçün hərbi büdcənin artırılması sahəsində də işlər davam etdirilirdi. 2005-ci ilin avqustunda İlham Əliyev respublika Nazirlər Kabinetinin iclasında bəyan etdi ki, bu il üçün hərbi büdcə 300 milyon dollar təşkil edirsə, ən yaxın zamanlarda bu büdcəni Ermənistanın ümumdövlət büdcəsi səviyyəsinə çatdırmaq lazımdır. Respublika Prezidenti bu məsələni respublika qarşısında dayanan vəzifə kimi xarakterizə etdi və bu məqsədə nail olunacağını da bildirdi (113).

İlham Əliyevin əzmkarlığı və ordu quruculuğuna artan diqqəti sayəsində 2007-ci ildə artıq bu məqsədə nail olmaq mümkün oldu. «İki il bundan əvvəl mən bəyan etmişdim ki, Azərbaycanda hərbi xərclər Ermənistanın ümumi dövlət xərclərinə bərabər olacaqdır. O vaxt, bəlkə də, bəziləri buna o qədər də inanmırdı. Çünki belə bir vəziyyət o qədər də real görünmürdü. Ancaq mən bilirdim. Bilirdim ki, bunu həll etmək üçün yollar var. Bilirdim ki, əgər biz səmərəli işləsək, bütün gücümüzü səfərbər etsək, iqtisadi islahatları davam etdirsək, liberal iqtisadiyyat qursaq, gözəl investisiya mühiti yaratsaq, sahibkarlığı gücləndirsək, nəhəng enerji layihələrini başa çatdırsaq buna nail olacağıq. Hər bir istiqamətdə bizim uğurlarımız var. Hər bir sadaladığım sahədə biz istədiyimizə nail olmuşuq və bunun nəticəsidir ki, indi Azərbaycanın müdafiə xərcləri Ermənistanın bütün dövlət büdcəsinə bərabərdir. Gələcək illərdə bundan da artıq olacaqdır» (114).

2007-ci ildə hərbi büdcə artıq 1 milyard dollara çatdırıldı. Ölkə başçısı prezidentliyi müddətində, yəni 4 ildə hərbi büdcənin 8 dəfə artdığını bildirirdi. 2007-ci ildə hərbi xərclər Azərbaycanın dövlət büdcəsində artıq birinci yeri tuturdu. Bunu İlham Əliyev dövlətin ordunun möhkəmləndirilməsinə xüsusi diqqəti kimi dəyərləndirirdi. Çünki bu vəsaitin artırılması orduya alınan avadanlığın, silah və texnikanın miqdarının da artırılmasına imkan verirdi (115).

2008-ci ildə Azərbaycanın hərbi xərcləri daha yüksək səviyyəyə çatdırıldı və 2 milyard dollar təşkil etdi. Bununla son beş il üçün ölkənin hərbi xərcləri 10 dəfədən çox artırılmış oldu. Əvvəlki illə müqayisədə isə bu artım iki dəfəyə bərabər idi. Bu o demək idi ki, bir il ərzində Azərbaycan Ordusunun maddi-texniki bazasının yaxşılaşdırılması üçün 2 dəfə böyük imkanlar açılmışdır. Bu məsələni şərh edərkən İlham Əliyev ordu quruculuğu üçün əhəmiyyət kəsb edən belə bir məqama da toxundu ki, Azərbaycan Ordusunun maddi-texniki bazasının möhkəmlənməsinə nail olmuşuq. Bu o demək idi ki, ordunun döyüş qabiliyyətinin planlaşdırılan səviyyəyə çatdırılması üçün zəruri olan maddi-texniki baza təmin edilmişdi. Ordunun malik olduğu yeni maddi-texniki bazanın bir hissəsi 2008-ci ilin iyununda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin təşkilinin 90 illiyi münasibətilə keçirilən paradda da nümayiş etdirildi. İlham Əliyev bildirirdi ki, əldə edilən nəticə də son hədd deyildir və Azərbaycan Ordusunun möhkəmləndirilməsi prosesi davamlı olacaqdır. Ölkə başçısı bəyan edirdi ki, Azərbaycanın artmaqda olan maddi və maliyyə imkanları da ilk növbədə ordu quruculuğunun təkmilləşdirilməsinə istiqamətlənəcəkdir (116).

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin təşkil edilməsinin 90 illiyi münasibətilə keçirilən paradda çıxış edərkən

Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev bildirdi ki, ölkənin hərbi potensialının gücləndirilməsi və müasir ordunun yaradılması üçün çox böyük işlər görülübdür. Bunun sübutu kimi Azərbaycan Ordusunun hazırkı səviyyəsini, onun müasir standartlara cavab verməsini göstərirdi. Ölkə Prezidenti bu məsələdə verilən vədlərə tamamilə əməl olduğunu və bu tendensiyanın gələcəkdə də davamlı olacağını bildirirdi. O xatırladırdı ki, Azərbaycanın hərb xərclərinin artırılması, Azərbaycan Ordusunun inkişafına lazım olan qədər vəsait ayrılması, Azərbaycanın hərbi xərclərinin Ermənistanın dövlət büdcəsi səviyyəsinə qaldırılması barədə vədlər verilmişdi. İlham Əliyev məmnunluqla çatdırırdı ki, bu vədlər artıq yerinə yetirilmişdir. Çünki Azərbaycanın uğurlu iqtisadi inkişafı və dövlət rəhbərliyinin ordu quruculuğuna davamlı diqqəti verilən belə vədlərin vaxtında icrasına bir zəmin yaradırdı. İlham Əliyev bir daha qeyd edirdi ki, Azərbaycan hər an işğal olunmuş torpaqlarının azad edilməsinə hazır olmalıdır və buna görə də Azərbaycan güclü orduya malik olmalıdır (117).

İlham Əliyev 2008-ci ildə respublikada müdafiə sənayesinin də xeyli inkişaf etdiyini bildirirdi. Bir sıra ölkələrdən gətirilmiş yeni texnologiya əsasında ölkə daxilində artıq bir sıra silah və sursatın istehsalını həyata keçirmək mümkün olmuşdu və bu məsələ ilə bağlı da respublika rəhbərliyinin geniş planları var idi. İlham Əliyev vurğulayırdı ki, «qısa müddət ərzində Azərbaycanda güclü hərbi sənaye kompleksinin yaradılmasına nail olmalıyıq. Biz bunun ilkin nəticələrini görürük və bu, çox sevindirici haldır. Bu onu göstərir ki, qəbul edilmiş bütün qərarlar çox böyük keyfiyyətlə və qısa müddət ərzində həyatda öz əksini tapır. Biz təbii ki, hələ silah-sursatın, hərbi texnikanın, döyüş təyyarələrinin böyük əksəriyyətini xaricdən alırıq. Bu proses davam etdiri-

lir və bizim dost ölkələrlə bu sahədəki əməkdaşlığımız güclənir. Ancaq biz istəyirik ki, Azərbaycana lazım olan hərbi texnika və silah-sursat maksimum dərəcədə Azərbaycanda istehsal olunsun. Bunu etmək üçün, əlbəttə, yeni texnologiyalar gətirilməlidir, peşəkar mütəxəssislər hazırlanmalıdır və maliyyə imkanları da ayrılmalıdır. Bütün bu amillər bu gün Azərbaycanda mövcuddur. İldən-ilə artan hərbi xərclərin tərkib hissəsi olan müdafiə sənayesinə ayrılan xərclər də artır. Biz yaxın zamanlarda daha da böyük rəqəmləri görəcəyik» (118).

2009-cu ildə Müdafiə Sənayesi Nazirliyinin artıq 19 müəssisəsi fəaliyyət göstərirdi ki, bu müəssisələrdə 400 növdə müdafiə təyinatlı məhsul istehsal olunurdu (119). Sonrakı illərdə Müdafiə Sənayesi Nazirliyinin istehsal potensialı daha da genişləndirildi və İlham Əliyevin açıqlamasına görə, bu Nazirliyin xətti ilə hərbi təyinatlı məhsulların istehsalı prosesi də uğurla gedirdi və əldə edilən nəticələri ölkə Prezidenti böyük nailiyyətlər kimi dəyərləndirirdi. Buna görə Azərbaycan Ordusunun təchizatının formalaşdırılmasında Müdafiə Sənayesinin payı ildən-ilə artmaqda idi. İlham Əliyev qeyd edirdi ki, artıq Azərbaycanda müxtəlif növ silahların, hərbi texnikanın, o cümlədən patronların, mərmilərin, tapançaların, avtomatların, pulemyotların, minaatanların, snayper tüfənglərinin, zirehli texnikanın, pilotsuz təyyarələrin və s. istehsalı mənimsənilmişdir. Bu silah və sursatların keyfiyyəti də yüksək qiymətləndirilirdi (120).

İldən-ilə hərbi xərclərin artırılması da davam etdirilirdi. İlham Əliyevin çıxışlarında əksini tapmış məlumatlara görə, 2010-cu ildə hərbi büdcə 2 milyard 150 milyon dollar idisə, 2011-ci ildə hərbi xərclər 3 milyard 413 milyon dollara, 2012-ci ildə isə 3 milyard 474 milyon dollara çatdırıldı. İlham Əliyevə görə, son iki ilin hərbi xərcləri arasında fərq elə də böyük deyildi. Amma

bu iki ilin hərbi xərcləri toplananda təkcə son iki il ərzində Silahlı Qüvvələrin maddi-texniki təchizatının yaxşılaşdırılması üçün nə qədər böyük vəsaitin sərf edildiyini görmək mümkündür. Ölkə Prezidenti Azərbaycan Ordusunun artıq ən müasir silahlarla, döyüş vertolyotları ilə, döyüş təyyarələri ilə, artilleriya qurğuları ilə təchiz edildiyini, respublika daxilində isə istehsal olunan hərbi təyinatlı məhsulların sayının 600-ə çatdırıldığını açıqlayırdı (121).

2012-ci ildə İlham Əliyev bəyan edirdi ki, Azərbaycanda nizami ordu formalaşmış və güclənmişdir. O, Azərbaycan Ordusunu nəinki bölgənin, bəlkə, dünyanın ən güclü ordularından biri kimi dəyərləndirirdi. Belə bir səviyyənin əldə edilməsi üçün ölkə başçısı ordunun maddi-texniki bazasının böyük dərəcədə möhkəmləndiyini bildirirdi. Ordunun son durumunu Silahlı Qüvvələrin Ali Baş Komandanı belə şərh edirdi: «Ordumuzun maddi-texniki bazası böyük dərəcədə möhkəmləndirilmişdir. Hərbi xərclər ildən-ilə artır. Azərbaycanın dövlət büdcəsində hərbi xərclər birinci yerdədir. Bu da təbiidir. Bu, belə də olmalıdır. Çünki biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib. Müharibənin birinci mərhələsi başa çatıbdır. Atəşkəs rejimi vardır. Ancaq sülh müqaviləsi imzalanmayıb. Müharibə şəraitində yaşayan ölkədə birinci növbədə ordu məsələlərinə diqqət göstərilməlidir və Azərbaycanda bu, belədir. Son bir neçə il ərzində hərbi xərclərimiz 20 dəfədən çox artmışdır. Hazırda bu xərclər 3,6 milyard dollar səviyyəsindədir. Bu da Ermənistanın bütün dövlət xərclərindən 50 faiz çoxdur. Əlbəttə, bu reallıqları bizim uğurlu iqtisadi siyasətimiz, iqtisadi islahatlarımız yaratmışdır. Ordu xərcləri bundan sonra da artacaqdır. Yeddi il bundan əvvəl mənim sərəncamımla Müdafiə Sənayesi Nazirliyinin yaradılması bu sahədə də dönüşə gətirib çıxarmışdır. Bu yeddi il ərzində Azərbaycanda hərbi təyinatlı 20 zavod və istehsalat birli-

yi yaradılmışdır. Hazırda Azərbaycanda hərbi təyinatlı məmulatın sayı 665-dir. Azərbaycanda 665 adda hərbi təyinatlı məmulat istehsal edilir. Biz gələcəkdə bu sahədəki fəaliyyətimizi daha da genişləndirəcəyik. Azərbaycan Ordusuna lazım olan əsas təminat daxili istehsal hesabına formalaşmalıdır» (122).

2015-ci ilin sonlarında isə Azərbaycanda artıq 1000-dən artıq hərbi təyinatlı məhsul istehsal olunurdu və İlham Əliyev bunu hərbi quruculuq sahəsində həyata keçirilən siyasətin uğuru kimi dəyərləndirirdi. İlham Əliyev onu da əlavə edirdi ki, ordunun ehtiyaclarının respublika daxilində daha geniş şəkildə ödənilməsi üçün lazımi işlər gələcəkdə də görüləcəkdir və bununla bağlı o, respublika alimlərini də bu işdə daha fəal iştirk etməyə çağırırdı. 2016-cı il sentyabr ayının 27-30-da keçirilən ADEX-2016 müdafiə sərgisində Azərbaycanda istehsalı yeni mənimsənilən müasir silah və hərbi texnika da nümayiş etdirildi və respublika Prezidenti də bu hərbi texnika ilə yaxından tanış oldu.

2013-cü il iyun ayının 26-da Azərbaycan Respublikası Silahlı Qüvvələrinin təşkilinin 95 illiyinə hər olunmuş hərbi paradda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki bazasının gücləndirilməsi sahəsində görülən işlərlə bağlı ictimaiyyətə açıqladığı məlumatlar dövlət rəhbərliyinin bu sahəyə ayırdığı diqqəti bir daha ortaya qoydu. İlham Əliyevin bu mərasim zamanı Silahlı Qüvvələrin maddi-texniki bazası haqqında söylədikləri yalnız hesabat xarakterli məlumat deyildi, həm də dövlətin bu sahədə gələcək fəaliyyət planları haqqında bir məlumat idi. «Azərbaycan son illər ərzində hərbi məqsədlər üçün çox böyük vəsait xərcləmişdir. Müqayisə üçün deyə bilərəm ki, 2003-cü ildə bizim hərbi büdcəmiz 163 milyon dollar idi, keçən il bu rəqəm 3,6 milyarda, bu il isə 3,7 milyard dollara çatmışdır. Yəni,

bu, özlüyündə onu göstərir ki, ordu quruculuğu prioritet məsələdir. Büdcəmizin ən böyük xərcləri orduya sərf olunur. Bu da təbiidir. Biz son illər ərzində ən müasir texnikaları almışıq. XXI əsrdə müharibələr daha çox texnologiyalar, biliklər üzərində qurulacaqdır. Bu, zəmanənin tələbidir. Azərbaycanın son illər ərzində əldə etdiyi silahlar müasir silahlardır. Yüksək dəqiqliyə və çox böyük məhvetmə gücünə malik olan silahlardır. Son illərdə yüzə yaxın döyüş və nəqliyyat helikopteri alınmışdır. Onlarla döyüş təyyarəsi, hava hücumuna qarşı ən müasir qurğular alınmışdır. Bu zirehli maşınlar, ən müasir tanklar, ən müasir artilleriya qurğuları düşmənin istənilən nöqtəsini məhv etməyə qadirdir. Bu proses davam etdirilir. Növbəti illərdə də hərbi xərclər ümumi büdcəmizdə üstünlük təşkil edəcəkdir. Müqayisə üçün deyə bilərəm ki, yoxsul Ermənistanın bütün büdcəsi iki milyard dollara yaxındır. Yəni ancaq hərbi məqsədlər üçün istifadə olunan vəsaitimiz Ermənistanın bütövlükdə bütün xərclərindən təxminən iki dəfə çoxdur» (123).

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin öz inkişafının tamamilə yeni bir səviyyəsinə qalxmasının, onun təkcə bölgədə deyil, dünyanın inkişaf etmiş orduları arasında özünə yer tutmasının əsaslı səbəblərindən biri onun ən yeni və müasir texnika və silahla təmin edilməsi idi ki, bu da İlham Əliyevin ordu quruculuğuna olan ardıcıl diqqətinin, qarşıya qoyulan böyük planların icrasının təşkilinə səmərəli rəhbərliyinin, ordu quruculuğu ilə bağlı xalq qarşısında verdiyi vədlərin ardıcıl şəkildə yerinə yetirilməsinin məntiqi nəticəsi idi.

İlham Əliyev ordu quruculuğunun uğurla aparılmasında istər ordunun şəxsi heyətinin, istərsə də Azərbaycan gəncliyinin mənəvi tərbiyəsinin, milli hərbi kadrlar hazırlığının rolunu yüksək qiymətləndirirdi və ordu məsələləri ilə bağlı çoxsaylı çıxışlarında bu məsələlərə xüsusi diqqət yönəldirdi. O, inkişafının yeni

səviyyəsinə qalxmış Azərbaycan Ordusunun professionallığının artmasında, onun döyüş gücünün möhkəmlənməsində bu amillərə riayət edilməsini müvafiq instansiyalara həm tövsiyə edir, həm də tələb edirdi.

Azərbaycan hərbçilərinin mənəvi və hərbi-vətənpərvərlik tərbiyəsində İlham Əliyev Azərbaycan xalqının ümummilli lideri, müasir Azərbaycan Ordusunun qurucusu Heydər Əliyevin həyat yolunu, Azərbaycan xalqına, onun mənafelərinə xidmət nümunəsi olan Heydər Əliyevi örnək sayırdı və gənc nəsli də onun fədakarlığından öyrənməyə və onun yolunu davam etdirməyə çağırmışdır.

Orduda xidmət edən gənclərin, bütünlükdə Azərbaycan gənclərinin milli-mənəvi dəyərlər üzərində formalaşmasını, bu dəyərlərdən kənar düşməməsini İlham Əliyev yalnız ordunun deyil, eyni zamanda, Azərbaycan dövlətçiliyinin möhkəm təməllərindən biri hesab edirdi. Onun fikrincə, ənənələrə, tarixi keçmişə bağlılıq milli dəyərlərin əsasını təşkil edirdi və onlar müasir reallıqları müəyyən edən, Azərbaycanı digər ölkələrdən fərqləndirən amillər idi: «Bu gün ölkəmizdə hər bir sahədə olduğu kimi, milli-mənəvi sahədə də dirçəliş, inkişaf vardır. Biz güclü, müasir dövlət qururuq. Ancaq ənənələrimizə, tariximizə, keçmişimizə çox bağlıyıq. Dünyada qloballaşma prosesləri gedir, istər-istəməz bizə də təsir edir. Yəni bu, heç bir ölkədən yan keçə bilməz. Xüsusilə bu dövrdə milli dəyərlərə diqqət daha da böyük olmalıdır. İnsanlar milli ruhda tərbiyə olunmalıdırlar. Öz Vətəninə, öz keçmişinə, tarixinə, dahi şəxsiyyətlərinə hörmətlə yanaşmalıdırlar. Mən çox şadam ki, bugünkü Azərbaycan reallıqlarını bu amillər müəyyən edir. Bizi bəzi başqa ölkələrdən fərqləndirən məhz odur ki, Azərbaycan dövləti güclü milli təməl üzərində qurulubdur» (124).

Başqa bir çıxışında isə İlham Əliyev Azərbaycan gənclərinin mənəvi və hərbi-vətənpərvərlik tərbiyəsinin əsasını təşkil etməli olan milli dəyərləri belə dəyərləndirmişdidi: «Azərbaycan xalqı öz milli mənəvi dəyərlərinə sadiqdir. Dövlətimiz bu dəyərlər üzərində qurulubdur. İyirmi il ərzində milli dəyərlərə münasibətimiz, milli ənənələrimizə hörmətimiz bizi daha da gücləndirdi. Bu gün müstəqil Azərbaycan bu əsaslı və güclü milli təməl üzərində öz gələcəyini qurur. Biz müasir dövlət qururuq, dünyaya inteqrasiya edirik, dünya proseslərində uğurla, fəal iştirak edirik. Ancaq çox güclü milli-mənəvi dəyərlərimiz bizim üçün əsasdır. Biz ümumbəşəri dəyərlərə sadiqik, ümumbəşəri dəyərləri bölüşürük. Milli dəyərlər isə bizim üçün həm keçmişimizə olan münasibətdir, hörmətdir, eyni zamanda, gələcəyə atılan addımlardır. Mən çox şadam ki, Azərbaycanda gənclər də milli-mənəvi dəyərlər əsasında tərbiyə olunurlar. Gənclər milli ruhda böyüyürlər. Milli ruhun yüksək səviyyədə olması bizi – azərbaycanlıları bir xalq kimi daim yüksəklərə qaldıracaqdır. Əsrlər boyu xalqımız müstəqillik arzusu ilə yaşamışdır. Biz müxtəlif ölkələrin, imperiyaların tərkibində yaşamışıq, ancaq milli mənliyimizi heç vaxt itirməmişik. Hər zaman milli dəyərlər, Azərbaycan dəyərləri bizi daha da gücləndirirdi. Xalqımız üçün ən çətin anlarda bir millət kimi özümüzü qorumaq üçün, ilk növbədə, milli dəyərlərimiz, ənənələrimiz, milli bayramlarımız, ana dilimiz öz rolunu oynamışdır» (125).

İlham Əliyev Azərbaycan Ordusunun şəxsi heyətinin də məhz belə milli dəyərlər üzərində yetişməsini, onların yüksək vətənpərvərlik əhval-ruhiyyəsində olmasını, Vətənə bağlılıqlarını böyük məmnunluqla qeyd edirdi. Ölkə Prezidenti onu da əlavə edirdi ki, bu amillər Azərbaycan Ordusunu daha da gücləndirir: «Bütün cəmiyyətdə olduğu kimi, orduda da vətənpərvərlik ruhu yüksək səviyyədədir. Orduda xidmət edənlərin mütləq əksəriyyəti gənclərdir. Mən çox şadam ki, Azərbaycan gəncləri vətənpər-

vərlik ruhunda tərbiyə alırlar. Orduda xidmət edənlər Vətəninə, xalqına bağlı olan, Vətənini sevən insanlardır. Bu amillər ordumuzu daha da gücləndirir» (126).

İlham Əliyev Azərbaycan Ordusunda xidmət edənlərin əksəriyyətinin gənclər olmasını xüsusi qeyd etməklə, onların milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalarını dəyərli bir hal kimi qəbul edirdi. Ölkə Prezidenti bəyan edirdi ki, gənclər bizim ümidimizdir və orduda xidmət edən gənclər də Vətənə bağlı olan insanlardır (127).

İlham Əliyev Azərbaycan torpaqlarının qorunması yolunda qəhrəmanlıqla şəhid olmuş Mübariz İbrahimovla Fərid Əhmədovu da Vətəninə və xalqına bağlı olan gənclərdən sayırdı və onları bütün gənclər üçün örnək və nümunə hesab edirdi. Vətən torpaqlarının müdafiəsi yolunda həlak olan bu gənc hərbçilərin şücaətinə verdiyi dəyərin nəticəsi idi ki, İlham Əliyev onlarla vida mərasimində iştirak etdi və əminliklə bildirdi ki, Azərbaycan Ordusunda minlərlə, on minlərlə belə gənclər vardır və onlar öz doğma torpaqlarını işğaldan azad etmək üçün Ali Baş Komandanın əmrini gözləyirlər (128).

İlham Əliyev orduda xidmət edən gənclərin yüksək mənəvi keyfiyyətlərə malik olmasında xalqın orduya qayğısını, xalqla ordu arasında birliyin olmasını vacib cəhətlərdən biri sayırdı. «Bizim gücümüz bizim birliyimizdədir» (129) deyən İlham Əliyev bütün xalqı Vətən uğrunda səfərbər olmağa, birlikdə mübarizəyə qalxmağa çağırırdı (130).

İlham Əliyev çıxışlarında Azərbaycan Ordusunun professionallığının və döyüş gücünün artmasını da dəfələrlə qeyd etmişdi və bu keyfiyyətlərin əldə edilməsində kadr hazırlığını yüksək qiymətləndirirdi. Məlumdur ki, milli hərbi kadrların yetişdirilməsi üçün zəruri baza hələ ümummilli lider Heydər Əliyevin

prezidentliyi dövründə yaradılmışdı və təhsil bazası Azərbaycan Ordusunu zəruri ixtisaslar üzrə hazırlıqlı kadrlarla təmin edirdi. Həmin təhsil bazalarının fəaliyyətinin daha da təkmilləşdirilməsi, onların maddi-texniki bazasının yaxşılaşdırılması İlham Əliyevin daimi nəzarəti və qayğısı altında idi. İlham Əliyev dəfələrlə hərbi təhsil bazalarında olmuş, gənc zabitlərin buraxılış mərasimlərində iştirak etmiş, onların qarşısında çıxış etmiş və onlara öz xeyir-duasını vermişdi. Ölkə Prezidenti bildirirdi ki, Azərbaycan Ordusunun yeni inkişaf səviyyəsinə qalxmasının əsas səbəblərindən biri də orduda peşəkar kadrların hazırlanması və təhsil məsələlərinə böyük diqqət verilməsidir (131).

Çıxışlarının birində gənc və peşəkar hərbi kadrların hazırlanmasına dövlət qayğısını İlham Əliyev belə şərh edirdi: «Bizə hazırlıqlı hərbçilər lazımdır. Bütün sahələrdə yeni gənc kadrların yetişdirilməsi məsələlərinə böyük diqqət göstərilir. Azərbaycan uğurla inkişaf edir. Ölkəmizdə bütün sahələr inkişaf edir. Gənc kadrların hazırlanması prosesi bizim gələcəyimizi şərtləndirən amildir. Hər bir sahədə, o cümlədən hərbi sahədə gənc peşəkar kadrlara ehtiyac vardır. ...Bu proses bu gün də davam etdirilir. Azərbaycanda hərbi kadrların hazırlanmasına böyük diqqət göstərilir. Mən çox şadam ki, hərbçilərimizin peşəkarlığı, döyüş qabiliyyəti ildən-ilə artır, ruh yüksəkliyi yüksək səviyyədədir» (132).

İlham Əliyev müxtəlif çıxışlarında Azərbaycan Ordusunda nizam-intizam, döyüş hazırlığı, hərbi qulluqçuların sosial qayğısının gücləndirilməsi və s. məsələlər haqqında da dəyərli fikirlər söyləmişdir. Bu fikirlər həm Azərbaycan Ordusunda görülən işlərin nəticəsinə verilən qiymətdir, həm də ordu quruculuğunun uğurlu aparılması üçün müəyyənləşdirilmiş vəzifələrdir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş

Komandanı İlham Əliyev şübhə etmirdi ki, onun ordu quruculuğu sahəsində müəyyənləşdirdiyi vəzifələr gələcəkdə də uğurla yerinə yetiriləcək və daha da güclənən Azərbaycan Ordusu Azərbaycan bayrağını Xankəndində və Şuşada dalğalandırmağa qadir olan bir qüvvəyə çevriləcəkdir.

2016-cı il noyabr ayının 12-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş komandanı cənab İlham Əliyev Ermənistan ordusunun işğalından azad edilimiş Lələtəpə yüksəkliyində oldu, ön cəbhədə olan bölmələrin xidmət qayğıları ilə tanış oldu və müşahidə etdiklərindən razı qaldığını bəyan etdi. Ölkə Prezidenti burada xidmət çəkən əzgər və zabitlərlə görüşdü və onların qarşısında çıxış etdi. Həmin çıxış həm bölgədə formalaşan hərbi vəziyyətin dəyərləndirilməsi, həm də Azərbaycan Respublikası Silahlı Qüvvələrinin gücünün qiymətləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edən bir çıxış idi. Respublika Prezidenti bu çıxışında dedi: «Bu ilin aprel ayında Ermənistan dövlətimizə, xalqımıza qarşı növbəti silahlı təxribat törətmişdir. Qəhrəman Azərbaycan Ordusu - xalqımızın əsgər və zabitləri bu təxribata layiqli cavab vermişdir. Uğurlu əks-hücum əməliyyatı keçirərək düşmənə sarsıdıcı zərbələr vurmuşdur və Azərbaycanın işğal altında olan torpaqlarının bir hissəsi azad edilmişdir.

Bu gün biz Lələtəpə ərazisindəyik. Hələ bir neçə ay bundan əvvəl bu ərazi işğal altında idi. Biz bu işğala son qoyduq. Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının ərazilərində işğal altında olan 2000 hektardan çox torpaq uğurlu əks-hücum əməliyyatı nəticəsində işğalçılardan azad edilmişdir. Minlərlə hektar torpağa bu gün Azərbaycan Ordusu tam nəzarət edir.

Onu da qeyd etməliyəm ki, əks-hücum əməliyyatımız əlverişsiz mövqelərdən başlamışdır. Biz yüksəklikləri, təpələri işğalçılardan azad etmişik və böyük qəhrəmanlıq göstərmişik. Aprel

döyüşləri hərbi dərsliklərə salınmalıdır. Azərbaycan Ordusu bu döyüşlərdə peşəkarlıq, qəhrəmanlıq, məharət göstərmişdir. Biz şəhidlər verdik, Allah bütün şəhidlərimizə rəhmət eləsin. Yaralı əsgərlərimiz, zabitlərimiz olubdur. Mən Hərbi Hospitalda yaralı əsgər və zabitlərimizlə görüş zamanı onlarda ruh yüksəkliyi gördüm. Onların bir arzusu var idi - tezliklə sağalmaq və döyüş bölgələrinə qayıtmaq.

Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan vətəndaşları vətənpərvər vətəndaşlardır. Bizim əsgərlərimiz, zabitlərimiz Vətən uğrunda, torpaq uğrunda ölümə getməyə hazırdırlar. Aprel döyüşləri bizim şanlı qələbəmizdir. Azərbaycan Ordusu öz gücünü göstərdi. Ermənistan uzun illər öz ordusu haqqında yalanlar, miflər uydururdu. Guya onların yenilməz ordusu var. Aprel döyüşləri göstərdi ki, hansı ordu yenilməzdir. Azərbaycan Ordusu yenilməz ordudur. Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir. İşğal edilmiş torpaqlarda, Dağlıq Qarabağda elə bir hərbi hədəf yoxdur ki, bu gün biz onu məhv edə bilməyək. Bu gün Azərbaycan Ordusu güclü ordular sırasındadır. Bunu biz bilirik, Azərbaycan xalqı bilir və bütün dünya bilir. Güclü orduların reytinqlərində Azərbaycan Ordusunun çox yüksək yeri vardır. Ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir, günbəgün artır.

Ordumuzda nizam-intizam hökm sürür. Ordumuzun maddi-texniki təminatı ən yüksək səviyyədədir. Biz son illər ərzində milyardlarlaa dollar dəyərində ən müasir silah-sursat, hərbi texnika almışıq. O texnikalar ən son texnologiyaya malikdir. Aprel döyüşləri bunu bir daha göstərdi. Aprel döyüşlərindən sonra ordumuzun maddi-texniki təminatı ilə bağlı əlavə tədbirlər görülür, vəsait ayrılıb, ən müasir, yüksək dağıdıcı qüvvəyə və dəqiqliyə malik olan silahlar, texnika alınır və artıq bizim sərəncamımızdadır.

Ordumuzun döyüş qabiliyyəti ilə bərabər, vətənpərvərlik ruhu da yüksəkdir. Biz öz torpağımızdayıq, bura Azərbaycandır. Lələtəpə də Azərbaycandır, Şuşa da Azərbaycandır, Xankəndi də Azərbaycandır. Biz öz torpağımızdayıq. Heç bir ölkənin torpağında gözümüz yoxdur. Ancaq biz öz torpağımızda ikinci erməni dövlətinin yaranmasına heç vaxt imkan verməyəcəyik. Aprel döyüşləri bunu bir daha sübut etdi.

1994-cü ilin yanvar ayında Füzuli rayonunda uğurlu əməliyyat keçirilmişdir, 22 kənd işğalçılardan azad edilmişdir. Bu, böyük tarixi qələbə idi. Aprel döyüşləri növbəti tarixi qələbədir. Dünya bir daha gördü ki, Azərbaycan Ermənistanın işğalçılıq siyasəti ilə heç vaxt barışmayacaq. Biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik və edəcəyik. Bu bizim əzəli torpağımızdır, tarixi torpağımızdır və biz bu gün hələ də işğal altında olan bütün torpaqlarımıza qayıdacağıq.

Lələtəpə əməliyyatı bizim qəhrəmanlıq rəmzimizdir. Lələtəpə tarixə düşdü. Əgər erməni silahlı qüvvələri aprel döyüşlərindən düzgün nəticə çıxarmasalar, gələcəkdə Lələtəpə əməliyyatı kimi bir çox uğurlu əməliyyatlar olacaqdır. Ermənistanın siyasi rəhbərliyi, nəhayət, dərk etməlidir ki, işğalçılıq hərəkətləri onları uçuruma aparır. Azərbaycan gündən-günə güclənir, möhkəmlənir. Bizim güclü potensialımız və güclü Ordumuz var. Biz Ordumuzla, əsgər və zabitlərimizlə, sizinlə - bax, burada düşmənlə üz-üzə dayanan oğullarımızla fəxr edirik. Sizə eşq olsun! Azərbaycan inkişaf edəcək və biz ərazi bütövlüyümüzü bərpa edəcəyik!” (133)

Azərbaycan Respublikasının Prezidenti bu müxtəsər çıxışında bir neçə məsələyə xüsusi diqqət yetirdi. Hər şeydən əvvəl Azərbaycanın işğal olunmub torpaqlarının bir hissəsinin azad edilməsini Azərbaycan xalqının qəhrəmanlığı, Azərbaycan Ordusunun

dərsliklərə salınmalı olan peşəkarlığı və məharəti kimi dəyərləndirdi. İlham Əliyev şübhə etmədiyini bildirdi ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan vətəndaşları son dərəcə vətənpərvərdirlər, 2016-cı ilin aprelində cəbhə xəttində əldə edilmiş uğurlar Azərbaycan xalqının şanlı qələbəsidir.

İlham Əliyev çıxışında həm də qarşı tərəfə, Azərbaycan ərazilərini işğal altında saxlayan Ermənistan rəhbərliyinə öz xəbərdarlığını çatdırdı. O bir mənalı şəkildə bildirdi ki, Azərbaycan xalqı və dövləti Ermənistanın işğalçılıq siyasəti ilə heç vaxt barışmayacaq, Azərbaycan xalqı öz ərazi bütövlüyünü bərpa edəcək, Azərbaycan xalqı mütləq işğal altında olan torpaqlara qayıdacaqdır. İlham Əliyev daha sonra əlavə etdi ki, Ermənistan rəhbərliyinin izlədiyi siyasət bu ölkəni uçuruma aparır, Ermənistanın hərbi qüvvələri aprel döyüşlərindən düzgün nəticə çıxarmasalar onda onlar Lələtəpə əməliyyatı kimi Azərbaycan Ordusunun çoxlu uğurlu əməliyyatları ilə qarşılaşacaqlar.

Nəhayət, İlham Əliyev bu çıxışında bir daha Azərbaycanda aparılan ordu quruculuğuna qiymət verdi, bu sahədə qarşıda duran vəzifələrə toxundu. Bu mənada ölkə Prezidentinin dedikləri ümumiləşdirilərsə aşağıdakı qənaətlərə gəlmək mümkündür:

-Azərbaycanın peşəkar ordusu vardır;

-Azərbaycan Ordusu Ermənistan ordusundan çox-çox güclüdür;

-Azərbaycan Ordusu istənilən vəzifəni yerinə yetirməyə qadırdir;

-Azərbaycan Ordusunun döyüş qabiliyyəti yüksək səviyyədədir və bu qabiliyyət günü-gündən artıq;

-Azərbaycan Ordusu dünyanın güclü orduları arasındadır;

-Azərbaycan Ordusu Dağlıq Qarabağ ərazisində olan istənilən hədəfi məhv etməyə qadirdir;

-Azərbaycan Ordusu yüksək nizam-intizama malikdir;

-Azərbaycan Ordusunun maddi-texniki təminatı yüksək səviyyədədir;

-aprel döyüşlərindən sonra Azərbaycan Ordusunun müasir hərbi texnika və silah təminatının təkmilləşdirilməsi üçün əlavə tədbirlər görülür.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı çıxışını onunla bitirdi ki, bütün xalqımızla birlikdə Azərbaycan Ordusu ilə, düşmənlə üz-üzə dayanan əsgər və zabitlərlə, Azərbaycan oğulları ilə fəxr edir. Çünki məhz belə əsgər və zabitlərin və onların həmkarlarının fədakar xidmətləri nəticəsində ordu quruculuğu sahəsində İlham Əliyev tərəfindən aparılan siyasət uğurla həyata keçmiş və Azərbaycan Ordusu dövlətin və xalqın etimadına layiq bir orduya çevrilmişdi.

### 3. Ordu quruculuğunun uğurlu davamı

XXI əsrin ikinci onilliyinin ortalarında Azərbaycan Ordusu öz inkişafının ən uğurlu dövrünü yaşamaqdadır. Çünki Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında ordu quruculuğu sahəsində izlənilən aydın siyasət, həyata keçirilən konkret tədbirlər Azərbaycan Ordusunu Cənubi Qafqazın ən güclü ordusuna çevirməklə, dünya miqyasında öncül sıralardan birinə çıxarmışdır (134)

Bunu hətta beynəlxalq ekspertlər də etiraf etmək məcburiyyətində qalmışlar və kimsəyə artıq gizli deyil ki, Azərbaycan Respublikasının siyasi və iqtisadi baxımdan davamlı inkişafı Azərbaycan Ordusunun inkişaf xəttini gələcəkdə də saxlayacaqdır.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yüksələn xətlə inkişafının başlıca səbəblərindən biri, qeyd edildiyi kimi, aydın

və əsaslandırılmış dövlət siyasətinin mövcudluğudursa, digər başlıca bir səbəbi də bu siyasətin həyata keçirilməsinin ən səmərəli şəkildə təşkilidir. Bu mənada ordu quruculuğu siyasətinin həyata keçirilməsi üçün son illərdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin fəaliyyəti yeni bir məzmun kəsb etmiş, təkmilləşmiş və daha səmərəli fəaliyyət sahəsinə çevrilmişdir.

2013-cü ilin oktyabrında general-polkovnik Zakir Həsənovun Azərbaycan Respublikasının Müdafiə naziri vəzifəsinə təyin edilməsi ilə Müdafiə Nazirliyində və bütünlükdə Silahlı Qüvvələrdə kadr və struktur islahatlarının başlanğıcını qoydu. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstəriş və tapşırıqları əsasında bu islahatlar Silahlı Qüvvələrin qarşısında dayanan vəzifələrlə əlaqələndirildi, daha işlək və səmərəli strukturların tətbiqinə başlandı. Bu istiqamətdə görülən işlərin nəticəsi kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamına əsasən Naxçıvan Muxtar Respublikasında Əlahiddə Ümumqoşun Ordu yaradıldı, Nazirliyin və Silahlı Qüvvələrin təminat və təchizat qurumlarının strukturu müasir tələblərə uyğunlaşdırıldı, təlim-tərbiyə prosesi ən qabaqcıl təcrübə üzərində quruldu. Silahlı Qüvvələrin qoşun növlərinin rəhbərliyinə, Silahlı Qüvvələr quruculuğunun əsas ağırlığını öz üzərinə götürən idarə və xidmətlərin əksəriyyətinin rəhbərliyinə təcrübəli və təşəbbüskar kadrlar gətirildi. Bütünlükdə daha layiqli kadrların aşkar edilməsi, onların düzgün seçilməsi, yerləşdirilməsi, vəzifə üzrə irəli çəkilməsi, növbəti hərbi rütbələrin vaxtında verilməsi üçün Silahlı Qüvvələrdə yeni attestasiya qaydaları tətbiq edildi. Ordunun əsas dayağı olan zabitlərdən onların bilik və bacarıqlarına uyğun istifadə olunması, dəyişən xidmət şəraitinə uyğunlaşma vərdişlərinin inkişaf etdi-

rilməsi, xidmətə bərabər şəraitin yaradılması məqsədilə (135) zabitlərin planlı şəkildə yerdəyişməsi üçün yeni təlimat hazırlandı.

Azərbaycan Respublikasnın Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Silahlı Qüvvələrin zabit heyətinin nümayəndələri ilə görüşlərinin birində bildirirdi ki, müasir mərhələdə Azərbaycan dövlətinin artan siyasi-iqtisadi uğurları, daxili və xarici siyasətdə qazanılan genişmiqyaslı nailiyyətlər ölkədə bütün sahələrin, həmçinin ordu quruculuğunun inkişaf etdirilməsinə möhkəm zəmin yaradır. O əlavə edirdi ki, bu gün dövlət rəhbərliyi, şəxsən Prezident, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən orduya böyük diqqət və qayğı vardır, Silahlı Qüvvələrimizin bölmələri müasir silah və hərbi texnikalarla təmin edilir, həm də hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm işlər görülür (136).

Görülən məqsədyönlü işlərin nəticəsi idi ki, qarşıya qoyulan məqsədə çatmaq üçün qoşunların maddi-texniki təchizatında çox ciddi dəyişikliklərə nail olundu. Bu da təbiidir. Çünki Azərbaycan Respublikasının dövlət rəhbərliyinin qayğısı ilə orduya ayrılan büdcənin ildən-ilə artması onun maddi-texniki təchizatının da müasir dünya standartları səviyyəsinə qaldırılmasına imkan vermişdir. İndi Azərbaycan Ordusunun ixtiyarında ən müasir döyüş sistemləri mövcuddur ki, bu da ordunun döyüş qabiliyyətini xeyli artırmışdır. O cümlədən 152 mm-lik «Msta-C», 120 mm-lik «Vena» özüyeriyən artilleriya qurğuları, 120 mm-lik «Sani» minaatan kompleksi, 220 mm-lik TOS-1A reaktiv qurğuları, 122 mm-lik T-122 «Sakariya», 300 mm-lik T-»Qasırğa», 300 mm-lik «Smerç» yaylım atəşli reaktiv artilleriya sistemləri, «Maşina-M» markalı özüyeriyən artilleriya divizionunun atəşi avtomatik idarəetmə kompleksi, PRTMK-1 radiopelenqasiya meteroloji kompleksi, "Mersedes-Benz" avtomobilinin şassisi üzərində yığılmış

120 mm-lik «CORDOM-M3» markalı özüyeriyən minaatan sistemləri, yeni növ döyüş sursatları, müxtəlif təyinatlı təmir və komanda-müşahidə maşınları, T-72, T-72M1, müasir T-90S tankları, BMP-3, BTR-82 zirehli texnikaları, BTS-4, BTS-5 markalı dartıcılar, səyyar təmir emalatxanaları, ən müasir hərbi təyyarələr və vertolyotlar, hava hücumundan müdafiə sistemləri, Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin istehsalı olan 60, 82 və 120 mm-lik minaatanlar, müxtəlif növ atıcı silahlar, elektro-optik, termal, gecə nişangahları, müşahidə sistemləri və s. silah və texnikalar (137). Azərbaycan Ordusunun döyüş və müdafiə imkanlarını yeni bir səviyyəyə qaldırmışdır. Bu sahədə görülən işlər də davamlı xarakter daşıyır və bu da öz növbəsində ordunun möhkəmləndirilməsini davamlı olacağına əlavə bir zəmanət verir.

Uzun müddət qoşunların istifadəsində olan, texniki tələblərə cavab verməyən və istismar müddəti bitmiş olan silahlar istifadədən çıxarılmış və onlar yeniləri ilə əvəz edilmişdir. Müxtəlif silah növlərindən istifadənin səmərələşdirilməsi üçün onlara optik, gecə və termal nişangahlar quraşdırılmış, günün istənilən vaxtında atışların həyata keçirilməsi üçün müxtəlif növ pikatinlər alınmış və silahlar üzərində təkmilləşdirmə işləri aparılmışdır (138).

Qoşunların atəş qüdrətinin daha da gücləndirilməsinin təmin edilməsi üçün 2013-cü il dekabr ayında Raket və Artilleriya Qoşunları İdarəsi yaradıldı. Bu struktur dəyişikliyindən sonra Əlahiddə Ümumqoşun Ordunun Raket və Artilleriya Qoşunları qərargahı, ordu korpuslarında və motoatıcı briqadalarda artilleriya qərargahları yenidən quruldu, təmas xəttinin dərinliklərində yerləşən düşmən hədəflərinin daha səmərəli məhvinə nail olmaq üçün 2014-cü ildə reaktiv artilleriya divizionunun bazasında Raket briqadası yaradıldı. Bundan başqa ,Əlahiddə Ümumqoşun Ordunun tərkibində yeni bir reaktiv artilleriya briqadası yaradıldı

və bu briqada müasir avtomatlaşdırılmış idarəetmə sistemləri ilə təchiz edildi (139).

Raket və Artilleriya Qoşunlarının imkanlarının daha da artırılması məqsədilə bölmələrdə döyüş atışı üzrə taktiki təlimlərdə pilotsuz uçuş aparatlarından istifadə edilməklə atəşlərin həyata keçirilməsi məsələləri araşdırılmış, hədəflərin koordinatlarının təyinm edilməsi və onların sınaq atəşləri ilə vurulması sahəsində vərdişlər şəxsi heyətə aşılanmışdır. Bundan əlavə, döyüş hazırlığının artırılması məqsədilə Raket və Artilleriya Qoşunlarında vaxtaşırı döyüş şəraitinə yaxın ərazilərdə taktiki təlimlər, məşqlər və çöl çıxışları həyata keçirilməkdədir. Bunun nəticəsidir ki, artilleriya hissələrində qərargahların hazırlıq səviyyəsi daha da yüksəldilmiş, şəxsi heyətin ixtisas hazırlığı isə xeyli təkmilləşdirilmiş, Raket və Artilleriya Qoşunlarının idarəetmə strukturları ilə xüsusi təyinatlı qoşunların qərargahları arasında atəşin çağırılması ilə bağlı qarşılıqlı təcrübə genişləndirilmiş və qoşunların atəşlə himayə edilməsinin səmərəliliyi daha da artırılmışdır (140).

Maddi-texniki bazanın davamlı olaraq təkmilləşdirilməsi qoşunlar arasında rabitənin çevikliyini və dayanıqlılığını təmin etmişdir. Təkcə 2014-cü ildə 4 hərbi hissə, 2 qarnizon hərbi polis şöbəsi və bir hərbi şəhərciyə uzaq rabitə xətti çəkilmiş və onlar Müdafiə Nazirliyinin rabitə sisteminə qoşulmuş, 16 dəst, 2015-ci ildə isə 33 dəst mobil radio idarəetmə məntəqəsi hazırlanmış və qoşunlara verilmişdir. 2015-ci ildə ultraqısadalğalı radiorabitənin dayanıqlığının artırılması üçün 1-ci eşelon bölmələrinin müdafiə zolağında stasionar radioretranslyasiya məntəqələri qurulmuş və istismara verilmişdir. Bu istiqamətdə digər zəruri tədbirlər də həyata keçirilməkdədir (141).

Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində operativ idarəetmə sisteminin istifadəyə verilməsi isə Silahlı Qüv-

vələr növlərinin və birliklərinin komanda məntəqələrinin bu sistemə qoşulmasına, əməliyyat şəraiti ilə bağlı bütün növ kəşfiyyat vasitələrindən əldə edilən kəşfiyyat məlumatlarının real vaxt çərçivəsində təhlil olunmasına və atəş vasitələrinə ötürülməsinə imkan yaranmış və bütünlükdə idarəetmə sisteminin operativliyinə nail olunmuşdur. İstismara qəbul edilmiş yeni texnologiya vasitəsilə idarəetmə məntəqələrinə və müasir silah sistemlərinə müxtəlif miqyaslı rəqəmsal və raster topoqrafik xəritələr yüklənmiş və bu da idarəetmə məntəqələri sistemlərinin birbaşa müasir silah sistemlərinə düşmənin strateji obyektləri haqqında dəqiq məlumatlar ötürməsinə və zərurət yarandığı anda həmin obyektlərin bu silah sistemlərinin köməyi ilə məhv edilməsinə zəmin yaratmışdır (142).

2015-ci il iyun ayının 25-də Bakı şəhərinin Qaradağ rayonunun Puta qəsəbəsində Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələrinin yeni bazasının açılışı oldu. Bu bazanın açılışında Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev də iştirak etdi, Hərbi Dəniz Qüvvələrinin komanda məntəqəsində oldu, şəxsi heyətin nümayəndələri ilə görüşdü, baza daxilində hərbi qulluqçuların yaşayışı və məişəti ilə yaradılmış şəraitlə tanış oldu (143).

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki təchizatının əsaslı şəkildə təkmilləşdirilməsi sahəsində respublika rəhbərliyinin müəyyənləşdirdiyi vəzifələrin uğurla yerinə yetirilməsi qoşunların avtomobil texnikası, əşya və ərzaqla təminatında da əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur. Yalnız 2013-2016-cı illər ərzində kifayət qədər müasir avtomobil texnikası alınaraq Silahlı Qüvvələrin birlik, birləşmə və hərbi hissələrinin təminatına verilmişdir. Bu da qoşunların sürətli hərəkət qabiliyyətini daha da artırmış, fəaliyyət imkanlarını genişləndir-

mişdir. Qarşıya qoyulan məqsədə çatmaq üçün hərbi hissələrin və bölmələrin balansında olan köhnə model QAZ-66, Zil - 130, Zil - 131, Ural - 375 markalı avtomobillər silinmiş və onlar KamAZ-43114, MAZ-631708, MAZ - 531605, MAZ - 533605, Ural - 432066 və digər avtomobillərlə əvəzlənmişdir (144).

Hazırda təminatda duran hərbi hissələrin şəxsi heyəti və həqiqi hərbi xidmətə çağırılmış gənc əsgərlər fasiləsiz olaraq əşya və təsərrüfat əmlakı ilə təmin edilirlər. 2013-2016-cı illər ərzində bəzi gündəlik, səhra geyim formalarının modelində, şəxsi heyətin məişət xidmətinin yaxşılaşdırılmaı üçün təchizat normalarında müsbət dəyişikliklər edilmiş, bir çox hərbi hissələrdəki hamam-camaşırxana kombinatlarına servis xidmətləri göstərilmiş, bir sıra hərbi hisssələrdə isə camaşır xidmətinin yaxşılaşdırılması üçün mülki şirkətlərlə müqavilə imzalanmışdır. Mərkəzi Əşya Bazasında Silahlı Qüvvələr üçün toxunulmaz ehtiyatlar yaradılmışdı. Bu sahənin vəziyyətinin daha da yaxşılaşdıırlması və nizamlanması üçün bir sıra yeni rəhbər sənədlər hazırlanmış və Müdafiə nazirinin müvafiq qərarı ilə təsdiq edilmişdir (145).

Hərbi hissələrin şəxsi heyətinin ərzaq təminatının yaxşılaşdırılması üçün də bir sıra rəhbər və normativ sənədlər yenilənmiş, şəxsi heyətin qida rasionunun enerji dəyərinin artırılması üçün quru ərzaq paylarına əlavələr edilmişdir. Bununla da şəxsi heyətin quru ərzaq payının ümumi enerji dəyəri 3236 kkal-dən 3993 kkal-yə çatdırılmışdır. Ərazi relyefinə görə daşıma yolları və içməli su mənbəyi olmayan təhlükəli və əlverişsiz şəraitdə xidmət edən və döyüş şəraitində hesab olunan hərbi hissələrdə döyüş növbətçiliyi aparan hərbi qulluqçuların fiziki sağlamlığının qorunması məqsədilə yeməklərin hazırlanması və içməli suya olan tələbatın aradan qaldırılması üçün bu şəxsi heyət qablaşdırılmış su ilə təmin edilir. Şəxsi heyətin qidalanmasının təkmil-

ləşdirilməsi üçün hərbi hissələrdə özünəxidmət xətləri istifadəyə verilmişdir ki, bununla milli xörəklərin müxtəlif çeşidlərinin təklif edilməsi imkanını artırmışdır. Son illər ərzində Müdafiə Nazirliyinin Mərkəzi Ərzaq Anbarında müxtəlif ərzaq məhsullarının saxlanılması üçün bir ədəd 1000 tonluq saxlanc, ət, balıq və digər tez xarab olan ərzağın saxlanılması üçün bir ədəd 1000 tonluq müasir soyuducu saxlanc, həmçinin meyvə və tərəvəzin saxlanması üçün Gəncə bölməsində bir ədəd 500 tonluq, Beyləqan bölgəsində isə bir ədəd 200 tonluq saxlanc tikilib istifadəyə verilmişdir (146).

Hissə və birləşmələrin maddi-texniki təhizatının modernləşdirilməsi və müasirləşdirilməsi döyüş hazırlığı prosesinin də uyğun tələblər üzərində qurulması ilə müşayiət olunur. Ümumiyyətlə, Silahlı Qüvvələr səviyyəsində döyüş hazırlığının təşkilinə münasibətdə yeni meyarlar ortaya qoyulmaqdadır. Peşəkarlıq, döyüş hazırlığında ardıcıllıq, nəzəri və təcrübi biliklərin əlaqələndirilməsi, yüksək intizam, vəzifə borcuna şüurlu münasibət və s. keyfiyyətlər bu meyarların əsasını təşkil etməkdədir. Bütün səviyyələrdə olan qərargahların, zabit və komandir heyətinin öz xidmətlərini bu yeni meyarlar əsasında qurmağa çalışması döyüş hazırlığı prosesinin səmərəliliyənə də ciddi təsir göstərməkdədir. Bu sahədə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişlərinin icrası ilə bağlı Müdafiə Nazirliyinin rəhbərliyinin qarşıya qoyduğu tələb ondan ibarətdir ki, maddi-texniki bazanın inkişaf etdirilməsi şəxsi heyətin yeni silah və texnikadan istifadə bacarığını və məharətini daha da yüksəltsin, hər bir hərbi qulluqçu tutduğu vəzifədən asılı olmayaraq öz yerində verilən tapşırıqları yerinə yetirmək qabiliyyətinə malik olsun, öz vəzifələrini döyüş şəraitinə uyğun icra etməyi bacarsın.

Şəxsi heyətə döyüş hazırlığı vərdişlərinin daha yaxşı aşılanması üçün hissə və birləşmələrdə təlim bazalarının şəbəkəsinin genişləndirilməsi, mövcudlarının isə təkmilləşdirilməsi Müdafiə Nazirliyinin rəhbərliyinin diqqət mərkəzində dayanan məsələlərdən biridir. Son illər ərzində hərbi şəhərciklərin yaradılması və təkmilləşdirilməsi heç şübhəsiz ki, təlim-tədris bazalarının da inkişaf etdirilməsinə zəmin yaratmışdır. Bundan əlavə, ordunu gələcək döyüşlərə hazırlamaq üçün qısa müddət ərzində tam təmin olunmuş müxtəlif təyinatlı bir neçə təlim bazası qurularaq qoşunların ixtiyarına verilmişdir. Onların açılışı, bir qayda olaraq, Müdafiə Nazirliyinin rəhbərliyinin iştirakı ilə aparılır. Məsələn, 2015-ci ilin iyun ayında şəxsi heyətin atəş və taktiki hazırlığı üçün nəzərdə tutulan təlim-atış mərkəzinin açılışı oldu. Bu təlim mərkəzində cəbhə xəttindəki vəziyyətin modelləşdirilməsi, təlimlərin real döyüş şəraitinə uyğun olaraq keçirilməsi, düşmənin təxribat-kəşfiyyat cəhdlərinin qarşısının alınması, əks-tədbirlərin görülməsi və digər praktiki məşqlərin keçirilməsi üçün bütün şərait yaradılmışdır. Eyni zamanda, poliqonda istənilən şəraitdə hazırlıq məşqlərini keçmək məqsədilə müvafiq siniflər mövcuddur. Bu təlim mərkəzində, həmçinin şəxsi heyət silahlanmasında olan atıcı silahlar, minaatanlar və qumbaraatanlardan istifadə etmək bacarığına yiyələnmək və təcrübə qazanmaq imkanı mövcuddur. Ərazidə hazırlanmış hədəf sahəsi tam kabelləşdirilib, avtomatik enib-qalxan hədəflər, geri daxil olan məlumatlar və qiymətləndirmə avadanlığı ilə təmin edilib. Bütün bunlar da hərbi tədris proqramlarının keyfiyyətlə öyrənilib mənimsənilməsinə, şəxsi heyətin peşəkarlığının və nəzəri biliklərinin artırılmasına, praktik vərdişlərinin möhkəmləndirilməsinə zəmin yaratmaqdadır.

2015-ci ilin sentyabrında cəbhəyanı ərazidə şəxsi heyətin dağ hazırlığı təlim mərkəzi də açılmışdır. Bu təlim mərkəzində

dağ şəraitində zəruri olan döyüş vərdişlərinin əldə edilməsi üçün hərbi topoqrafiya, mühəndis, atış, idman şəhərcikləri, minaatanlardan və atıcı silahlardan praktiki atəşlərin yerinə yetirilməsi, dağ taktiki təlimi, dağlıq şəraitdə sağqalma, qayalara dırmanma, su maneələrini dəfetmə və digər sahələr mövcuddur. Çətin və yüksək dağlıq şəraitdə yerləşən hərbi hissələrin şəxsi heyətinin peşəkar hazırlığının yüksəldilməsi məqsədilə döyüş hazırlığı planına əsasən mərkəzdə ixtisaslı təlimatçılar tərəfindən döyüş şəraitinə tam uyğunlaşdırılmış, relyefin tələblərinə cavab verən təlim məşqlərinin həyata keçirilməsi nəzərdə tutulmuşdur (147).

2015-ci ilin sentyabr ayında Mi-35 zərbə vertolyotlarının heyət üzvlərinin hazırlıq səviyyəsinin təmin edilməsi üçün trenajor mərkəzi də açılmışdır. Bu təlim bazalarının mövcudluğu şəxsi heyətin peşə hazırlığının daha da yüksəldilməsinin mühüm elementi kimi qəbul olunur və bu təlim bazalarında əldə edilən vərdişlər müharibə şəraitinə yaxınlaşdırılmış hərbi təlimlər zamanı sınaqdan çıxarılır və daha da təkmilləşdirilir.

Müdafiə Nazirliyinin döyüş hazırlığı planına uyğun olaraq həyata keçirilən hərbi təlimlər ordunun şəxsi heyətinin müasir döyüşlərin ən mürəkkəb tapşırıqlarını hansı səviyyədə yerinə yetirməyə hazır olduğunu nümayiş etdirir, ordunun döyüş qabiliyyətini və peşəkarlığını artırır və yeni silah sistemlərindən və döyüş texnikasından istifadə bacarığını daha da təkmilləşdirir. Ona görə də hərbi təlimlərin həyata keçirilməsinə və bu təlimlərin səmərəliliyinin artırılması üçün təşkilati işlərin təkmilləşdirilməsinə qarşı tələbkarlıq kifayət qədər gücləndirilmişdir. Son illər ərzində həyata keçirilən hərbi təlimlərin nəticələri də bunu göstərmişdir.

Bu təlimlər ardıcıl və davamlı şəkildə həyata keçirilməkdədir və onlar, bir qayda olaraq, Müdafiə Nazirliyinin rəhbərliyinin iştirakı ilə aparılır. 2014-cü il aprel ayının ortalarında Naxçıvan

Muxtar Respublikası ərazisində keçirilən hərbi təlim əhatə etdiyi kontingentin sayına görə son illərdə icra olunmuş ən böyük təlimlərdən biri idi. Bu təlimlərə Əlahiddə Ümumqoşun Ordunun tərkibindəki hissə və bölmələrin 20.000 (iyirmi min) nəfərə yaxın şəxsi heyəti, 400-dən çox zirehli texnikası, aviasiya, hava hücumundan müdafiə sistemləri, raket və artilleriya qoşunlarının qüvvə və vasitələri, o cümlədən, xüsusi təyinatlı qüvvələr cəlb olunmuşdu. Təlimlər zamanı tank, piyadaların döyüş maşınları, raket, artilleriya, minaatan qurğulardan və atıcı silahlardan döyüş sursatları ilə praktiki atışlar icra edildi, xüsusi təyinatlı bölmələr isə birbaşa təyinatları üzrə qarşıya qoyulmuş tapşırıqları praktiki olaraq uğurla yerinə yetirdilər (148).

2014-cü il iyun ayının 26-da isə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının və Dövlət Sərhəd Xidmətinin birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimləri keçirildi. Təlimlərdə «Azərbaycan Respublikası ərazisinin müdafiəsi və təcavüzkarın məğlubiyyətə uğradılması məqsədilə Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin birgə fəaliyyətinin planlaşdırılması və təşkili, dövlət sərhədinin mühafizəsi və müdafiəsi, əks-hücuma keçməklə təcavüzkarın əsas qüvvələrinin darmadağın edilməsi» mövzusunda məsələlər üzrə tapşırıqlar yerinə yetirildi.

Təlimlərə ümumilikdə 4000 nəfərədək şəxsi heyət, 80 tank, 100-dək zirehli döyüş maşını, 80-ə qədər artilleriya sistemi, 10 döyüş təyyarəsi, 20-dək döyüş və nəqliyyat-döyüş vertolyotu cəlb edilmişdi. Təlimlərin rəhbərliyi tərəfindən şəxsi heyət qarşısında aşağıdakı vəzifələr qoyulmuşdu:

1. Azərbaycan Respublikası Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının və Dövlət Sərhəd Xidmətinin birləşmə,

hissə və bölmələrinin ərazi müdafiəsi çərçivəsində birgə döyüş tətbiqinin planlaşdırılması və qarşılıqlı əlaqənin təşkili üzrə müxtəlif səviyyələrdə qərargahlar arasında koordinasiyanın təmin edilməsi;

2. Dövlət sərhədinin mühafizəsi, ərazi müdafiəsinin aparılması və əks-hücum əməliyyatının gedişində Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin uzlaşmış fəaliyyətinə nail olunması, birləşmə, hissə və bölmələrin döyüş fəaliyyətinin sinxronlaşdırılması;

3. Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin birgə döyüş fəaliyyətinin gedişində qoşunların koordinasiyalı şəkildə idarə edilməsi və informasiya mübadiləsinin saxlanılması üzrə qərargah fəaliyyətinin məşq etdirilməsi (149).

Təlimlərdə aviasiya zərbələrinin və artilleriya sistemlərinin döyüş atışının praktiki idarə olunması, hava desantının çıxarılması, müxtəlif qoşun növləri və xüsusi qoşunların hücum əməliyyatında tətbiqi məsələləri işlənib, birləşmə, hissə və bölmələrin taktiki fəaliyyəti və silah sistemlərinin real atışları həyata keçirildi, müxtəlif güc strukturlarının birləşmə və hissələri arasında qarşılıqlı əlaqənin saxlanılması təmin edildi. Qarşıya qoyulan bütün vəzifələrin icrası ilə başa çatan bu təlimləri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev yüksək qiymətləndirdi və təlimin sonunda döyüş qabiliyyətinin gücləndirilməsi üçün öz tapşırıqlarını verdi.

Müdafiə Nazirliyinin döyüş hazırlığı planına uyğun olaraq keçirilən təlimlərə ehtiyatdan çağırılan hərbi vəzifəlilər də cəlb edilmişdilər. Onlar bu təlimlərdə iştirak etməklə hərbi ixtisaslarını və təcrübələrini təkmilləşdirir, müasir silah və texnika nümunələri, habelə ordunun döyüş imkanları ilə tanış olurdular.

Silahlı Qüvvələrin hissə və bölmələrinin döyüş qabiliyyətinin təkmilləşdirilməsinə müsbət təsir göstərən məqamlardan biri də ordunun beynəlxalq fəaliyyətinin genişlənməsidir. Azərbaycan

Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən bu sahədə müəyyənləşdirilən vəzifələrin icrası istiqamətində son illərdə maraqlı təcrübə əldə edilmişdir. Xüsusilə Azərbaycanın, Türkiyənin və Gürcüstanın müştərək hərbi təlimlər keçirməsi tərəflərin hər biri üçün əhəmiyyətli bir hadisə olmuşdur.

Bu ölkələrin müdafiə nazirlərinin 2014-cü ilin avqustunda Naxçıvanda, 2015-ci ilin aprelində Tbilisidə, mayında isə Ankarada keçirilən görüşlərindən sonra müştərək hərbi təlimin planlaşdırılması qərar alındı və 2015-ci ilin iyununda üç ölkənin xüsusi təyinatlı qüvvələrinin «Qafqaz qartalı» adlı təlimi keçirildi. Türkiyə Silahlı Qüvvələrinin hissə və bölmələri ilə müştərək hərbi təlimlərin keçirilməsi isə artıq bir ənənə halını almışdır. 2014-cü il sentyabr ayının 13-20-si arasında Azərbaycanda həyata keçirilən irimiqyaslı təlimlərin ardınca ilk dəfə olaraq Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin birgə təlimləri başladı və bu təlimlər oktyabr ayının 3-nə kimi davam etdi (150).

Təlimlərdə iştirak edən Türkiyə Hərbi Hava Qüvvələrinin pilotları Azərbaycan pilotları ilə birgə ikiyerli döyüş-təlim MiQ-29 tipli qırıcı təyyarələrində Azərbaycanın hava məkanındakı uçuş zonaları, ərazidəki hərbi aerodromların qalxma-enmə zolaqları, marşrut üzrə aeronaviqasiya vəziyyəti, uçuş, enmə və ehtiyat aerodromlarındakı şəraitlə tanış olmaq məqsədilə uçuşlar həyata keçirdilər. Azərbaycan Hərbi Hava Qüvvələrinin pilotlarının ikiyerli döyüş-təlim F-16 tipli qırıcı təyyarələrində Türkiyə pilotları ilə birgə uçuşları da icra olundu. Təlimlərdə Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus 30-dan artıq aviasiya vasitəsi, o cümlədən MiQ-29, F-16 qırıcı, Su-25 hücum və C-130 “Herkules” hərbi-nəqliyyat təyyarələri, Mi-24, AH-1W “Super Cobra” döyüş və Mi-17, “Sikorski” UH-60 döyüş-nəqliyyat vertolyotları iştirak etdi.

Azərbaycanla Türkiyə arasında illik hərbi əməkdaşlıq planına əsasən 2015-ci il mart ayının əvvəllərində Türkiyə Respublikasının Konya şəhərində «TurAz Şahini-2015» təlimləri keçirildi. Təlimdə Azərbaycan Hərbi Hava Qüvvələrinin 3 ədəd MiQ-29 qırıcı, 3 ədəd Su-25 hücum və İl-76 hərbi-nəqliyyat təyyarəsi iştirak etdi. Eyni zamanda, «İŞIK-2015» beynəlxalq axtarış-xilasetmə təlimlərində iştirak etmək məqsədilə Azərbaycan Hərbi Hava Qüvvələrinin 4 ədəd Mi-17 döyüş-nəqliyyat vertolyotları da təlimdə iştirak etdi. Təlimlərdə Azərbaycan və Türkiyə ilə yanaşı, bir sıra ölkələrin Hərbi Hava Qüvvələrinin vasitələrinin müştərək fəaliyyətlərinin planlaşdırılması, əməliyyatların keçirilməsi üzrə qarşılıqlı fəaliyyət və döyüş uzlaşması imkanlarının öyrənilməsi, o cümlədən axtarış-xilasetmə və digər tapşırıqlar yerinə yetirildi (151).

Təlimlər 3 mərhələdə həyata keçirildi. Birinci mərhələdə, Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus MiQ-29, Türkiyə Hərbi Hava Qüvvələrindən isə F-16 təyyarələri döyüş uçuşları etdilər. Azərbaycan Respublikasının pilotları F-16, Türkiyə Respublikasının pilotları isə MiQ-29 təyyarələrində uçuşlar edərək şərti yaxın hava döyüşlərini keçirdilər. İkinci mərhələdə, Azərbaycan Hərbi Hava Qüvvələrinin Su-25 tipli təyyarələri Türkiyə Hərbi Hava Qüvvələrinin F-4E hərbi təyyarələri ilə birgə hava uçuşu tapşırıqlarını icra etdilər. Azərbaycan Respublikasının pilotları F-4E, Türkiyə Respublikasının pilotları isə Su-25 təyyarələrində uçuşlar etdilər. Üçüncü mərhələdə, ordu aviasiyası qarşıya qoyulan tapşırıqları yerinə yetirdi. Azərbaycan və Türkiyə Respublikaları Silahlı Qüvvələrinin xüsusi təyinatlı bölmələri müvafiq olaraq Mi-17 və AS-532 «Cougar» vertolyotlarında müxtəlif növ döyüş tapşırıqlarını icra etdilər. Təlimlərin sonuncu günü, plana uyğun olaraq MiQ-29 və F-16 təyyarələri hava düşməninə qarşı döyüşə qatıldılar və hədəflərini bombalamaqla onları top atəşinə tutdular, Su-25

və F-4E təyyarələri isə düşmənin yer hədəflərinə bomba və top zərbələri endirdilər. Sonra isə Azərbaycan və Türkiyə xüsusi təyinatlıları Mi-17 və AS-532 «Cougar» vertolyotları vasitəsilə şərti düşmən ərazisində qəzaya uğramış təyyarənin pilotlarının xilas edilməsi əməliyyatını icra etdilər (152).

Oxşar təlimlər 2016-cı ilin mart ayında da Türkiyənin Konya şəhərində keçirildi. 2015-ci il may ayının ortalarında isə Naxçıvanda iki ölkənin ümumqoşun qüvvələrinin irimiqyaslı təlimi keçirildi. Silahlı Qüvvələrin qoşun növlərində, birlik və birləşmələrdə də döyüş hazırlığı planına uyğun olaraq mütəmadi hərbi təlimlər keçirilir və qarşılıqlı döyüş fəaliyyətinin əlaqələndirilməsi məsələləri bu təlimlər zamanı həll edilirdi (153).

Son illər ərzində Silahlı Qüvvələrin beynəlxalq əlaqələri kifayət qədər genişlənmişdir. Müdafiə Nazirliyinin beynəlxalq hərbi əməkdaşlıq sahəsindəki fəaliyyəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müəyyənləşdirilən respublikanın vahid xarici siyasət strategiyasının tərkib hissəsi olaraq dövlətin milli maraqlarının və təhlükəsizliyinin təmin edilməsinə xidmət edir və bu sahədəki işlər respublikanın Xarici İşlər Nazirliyi və digər aidiyyəti dövlət hakimiyyət orqanları, idarə, təşkilat və müəssisələri ilə əlaqəli şəkildə həyata keçirilir. Müdafiə Nazirliyinin digər dövlətlərin hərbi qurumları və beynəlxalq təşkilatlarla əməkdaşlıq sahəsində Müdafiə Nazirliyinin səlahiyyətləri çərçivəsində Azərbaycan Respublikasının müdafiə və xarici siyasətindən irəli gələn vəzifələrin təmin edilməsi, beynəlxalq əməkdaşlıq sahəsində perspektiv inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi üçün 2015-ci ildə Müdafiə Nazirliyinin «Beynəlxalq hərbi əməkdaşlıq konsepsiyası» hazırlanmışdır (154).

Müdafiə Nzirliyinin beynəlxalq hərbi əməkdaşlıq sahəsində izlədiyi siyasətin əsas məqsədini Azərbaycan Respublikasının

suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığına hörmət əsasında Azərbaycan Respublikasının işğal altında olan Qarabağın dağlıq hissəsinin və digər ərazilərin sülh yolu ilə azad edilməsinə nail olunması, Silahlı Qüvvələrin döyüş qabiliyyətinin inkişaf etdirilməsi, hərbi-texniki əməkdaşlıq sahəsində faydalı münasibətlərin qurulması və tərəfdaş xarici dövlətlərin Silahlı Qüvvələri ilə qarşılıqlı uzlaşmanın təmin edilməsi, Müdafiə Nazirliyinin fəaliyyət istiqamətləri üzrə beynəlxalq təcrübənin öyrənilməsi, xarici dövlətlərin hərbi qurumları ilə və beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi və s. təşkil edir (155).

Bu məqsədə nail olunması üçün Müdafiə Nazirliyi Avro-Atlantik strukturlarla, ikitərəfli və çoxtərəfli formatda region və regiondan kənar ölkələrlə, beynəlxalq hərbi-siyasi təşkilatlarla və xarici dövlətlərin müdafiə-sənaye kompleksləri ilə davamlı əməkdaşlıq həyata keçirir.

Görülən işlərin nəticəsi kimi son illər ərzində müdafiə və təhlükəsizlik sahəsində islahatların aparılmasına, Silahlı Qüvvələrin döyüş qabiliyyətinin və əməliyyat uyarlılığının artırılmasına, hərbi təhsil və tədris istiqamətində qabaqcıl təcrübələrin öyrənilməsinə, sülhməramlı əməliyyatlarda iştiraka, enerji və kibertəhlükəsizliyin təminatına və digər təhlükəsizlik çağırışları ilə mübarizəyə qarşılıqlı diqqət daha da güclənmişdir. Bu istiqamətdə fəaliyyətin düzgün qurulması nəticəsində 34 ölkə ilə hərbi əməkdaşlıq sahəsində hökumətlərarası və qurumlararası yeni hüquq-müqavilə sənədləri imzalanmış və bir sıra ölkələrlə isə oxşar müqavilə sənədlərinin imzalanmasına dair müzakirələr aparılır (156).

İkitərəfli və çoxtərəfli əməkdaşlıq sahəsində Müdafiə Nazirliyi tərəfindən əsas diqqət qarşılıqlı və faydalı təcrübə müba-

diləsinin aparılmasına, müdafiə sahəsində dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinin öyrənilməsinə, Silahlı Qüvvələrdə döyüş hazırlığının yüksəldilməsi üçün beynəlxalq ekspert yardımının təmin edilməsinə, beynəlxalq müqavilə və sazişlərdən irəli gələn təşkilati və koordinasiya xarakterli tədbirlərin yerinə yetirilməsinə yönəldilmişdir.

İkitərəfli əməkdaşlığın gücləndirilməsi üçün Müdafiə Nazirliyinin rəhbərliyinin xarici ölkələrə səfərləri və eləcə də xarici nümayəndə heyətlərinin Azərbaycana səfərləri son illərdə kifayət qədər dinamik xarakter almışdır. Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun, habelə Müdafiə nazirinin birinci müavini-Silahlı Qüvvələrin Baş Qərargah rəisi Nəcməddin Sadıkovun dünyanın inkişaf etmiş ölkələrinə rəsmi və işgüzar səfərləri ikitərəfli əməkdaşlığın yeni məzmun almasına və səmərəliliyinin yüksəldilməsinə zəmin yaratmışdır. Beynəlxalq hərbi əməkdaşlığın səmərəliliyinin artırılması məqsədilə Türkiyə Respublikasının Silahlı Qüvvələri və Pakistan İslam Respublikasının Birləşmiş Qərargahı ilə müdafiə sahəsində yüksək səviyyəli dialoq iclasları artıq ənənəvi hal almışdır. Bundan başqa, Müdafiə Nazirliyinin rəhbərliyi son illər ərzində Türkiyənin, Rusiyanın, Pakistanın, İranın, Litvanın, Gürcüstanın, Rumıniyanın, İordaniyanın, Latviyanın, Serbiyanın, Sloveniyanın, Xorvatiyanın, İspaniyanın və bir sıra digər ölkələrin hərbi qurumlarının rəhbərliyi ilə görüşlər keçirmiş, qarşılıqlı əməkdaşlıq imkanlarını müzakirə etmişdir.

Bu görüşlər zamanı diqqət mərkəzində olan məsələlərdən biri həm ümumən Silahlı Qüvvələr qurculuğu sahəsində, həm də konkret olaraq zabit kadrlarının hazırlığı sahəsində qabaqcıl təcrübənin öyrənilməsi və ondan istifadə edilməsidir.

Hərbi əməkdaşlıq sahəsində mövcud olan hökumətlərarası və qurumlararası hüquq-müqavilə sənədləri əsasında hər il 25-ə

yaxın ölkə ilə ikitərəfli hərbi əməkdaşlıq planları və kurs proqramları imzalanır. Bu plan və proqramlar əsasında son illər ərzində Azərbaycan Respublikasında orta hesabla 45-ə yaxın tədbir keçirilmiş, ölkə xaricində isə Silahlı Qüvvələrin nümayəndələri təxminən 75 tədbirdə iştirak etmişdir. Bu tədbirlər çərçivəsində Silahlı Qüvvələrin 300-ə yaxın nümayəndəsi müxtəlif kurslarda iştirak etmək üçün ölkə xaricinə göndərilmişdir (157).

İkitərəfli əməkdaşlıq çərçivəsində Azərbaycan Respublikasının Hərbi Dəniz Qüvvələrinin T-710 idarəetmə gəmisi, G-121 gözətçi gəmisi və A-640 orta yedək gəmisi 2013-cü il avqustun 31-dən sentyabrın 9-dək Rusiya Federasiyası Xəzər Hərbi Donanmasının əsas bazası olan Həştərxan şəhərinə dostluq səfəri etmişdi. Rusiyanın Xəzər Hərbi Donanmasının «Dağıstan» raket gəmisi və «Volqadonsk» kiçik artilleriya gəmisi isə 2013-cü il avqust ayının 12-13-də və 2014-cü il oktyabr ayının 16-19-da Bakı şəhərinə dostluq səfəri etdi. 2015-ci il avqust ayının 13-16-da isə Rusiyanın Xəzər Hərbi Donanmasının «Mahaçqala» və «Volqadonsk» gəmiləri yenidən Bakıda dostluq səfərində oldu. 2016-cı ilin oktyabr ayında İranın Xəzər Hərbi Donanmasının «Dəmavənd» və «Cövşən» hərbi gəmiləri də Bakıda dostluq səfərində oldu (158).

Son illər ərzində müxtəlif ölkələrlə şəxsi heyətin mübadiləsi, hərbi təhsil sahəsindəki əməkdaşlıq xeyli genişlənmişdir. İndi Silahlı Qüvvələrin şəxsi heyətinin daha çox nümayəndəsi xarici ölkələrin təhsil müəssisələrində, müxtəlif ixtisas və dil kurslarında öz biliklərini artırmaq imkanları əldə etmişlər. Eyni zamanda, Azərbaycanın Müdafiə Nazirliyi də dost və qonşu ölkələrin nümayəndələrinin respulikanın bu sahədəki imkanlarından bəhrələnməsinə şərait yaratmışdır. Məlumdur ki, hazırda Azərbaycanda müxtəlif pilləli təhsil proqramlarını həyata keçirən xüsusi təyinatlı təhsil sistemi mövcuddur. Bu təhsil sistemində müasir

tələblərə cavab verən zabit kadrlarının hazırlanması üçün zəruri baza vardır. Bunun nəticəsidir ki, hazırda Qazaxıstanın, Tacikistanın və Qırğızıstnın nümayəndələri Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alırlar(159).

Bundan başqa, 2014-cü ildə Azərbaycanda və xarici ölkələrdə keçirilmiş 5 hərbi təlimdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 475 nümayəndəsi, 2015-ci ildə keçirilmiş 9 təlimdə 1300-ə yaxın nümayəndəsi, 2016-cı ilin 1-ci yarısında keçirilmiş 7 təlimdə isə 275 nümayəndəsi iştirak etmişdir (160).

Son zamanlar qarşıya çıxan yeni təhdidlərlə mübarizənin səmərəliliyinin artırılması və qarşılıqlı müdafiə əməkdaşlığının gücləndirilməsi məqsədilə Müdafiə Naziriliyinin rəhbərliyi tərəfindən regional əməkdaşlığın genişləndirilməsinə də böyük önəm verilir. Bu mənada Azərbaycan, Türkiyə və Gürcüstan Müdafiə Nazirlikləri arasında çoxtərəfli əməkdaşlıq formatı yaradılmışdır. Bu çərçivədə 2014-cü ildən etibarən üç ölkənin müdafiə nazirlərinin və 2015-ci ildən isə Silahlı Qüvvələrin rəhbərlərinin üçtəfərli görüşlərinin keçirilməsinə başlanmışdır. Bu formatda üç ölkənin müdafiə nazirləri ildə 2 dəfə, Silahlı Qüvvələrin rəhbərləri isə ildə bir dəfə görüş keçirirlər (161).

1994-cü il may ayının 4-də Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin imzaladığı Sülh Naminə Tərəfdaşlıq (SNT) Çərçivə sənədi ilə Azərbaycan Respublikası ilə NATO arasınnda tərəfdaşlığın əsası qoyulmuşdur. Hazırda bu beynəlxalq təşkilatla əməkdaşlığın əsas istiqamətlərini hərbi-siyasi dialoq, sülhü dəstəkləmə əməliyyatlarında iştirak etmək, beynəlxalq təhlükəsizliyə qarşı mövcud olan təhdidlərə qarşı birgə mübarizə, təhlükəsizlik və müdafiə islahatları sahəsində əməkdaşlıq təşkil edir. Bu təşkilatla genişspektrli əməkdaşlıq Fərdi Tərəfdaşlıq və Əməkdaşlıq Proqramı, Planlaşdırma və Analiz

Prosesi (PAP) və Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı (FTƏR) üzərində qurulmuşdur.

NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" (SNT) Proqramı çərçivəsində mövcud mexanizmlərdən istifadə edilməsi də Müdafiə Nazirliyinin diqqət mərkəzində olmuşdur. Bu mənada Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) çərçivəsində Ortaq Qüvvələr Birliyinə bəyan edilmiş Silahlı Qüvvələrin bir taboru NATO-nun qiymətləndirmə təlimlərindən müvəffəqiyyətlə keçərək 2014-cü ildə NATO-nun "Döyüşə hazır" sertifikatını almışdır. Bundan əlavə, Silahlı Qüvvələrin bir kəşfiyyat bölüyü də 2015-ci ilin yanvarında ƏİK çərçivəsində Ortaq Qüvvələr Birliyinə bəyan edilib (162).

2019-cu ilin sonuna kimi isə bir briqadanın bu proqram çərçivəsində hazırlanması nəzərdə tutulmuşdur (163).

Təhlükəsizlik sahəsində qarşılıqlı əməkdaşlığın genişləndirilməsi məqsədilə «Sülh Naminə Tərəfdaşlıq» Proqramı çərçivəsində 2014-2016-cı illərdə ölkə xaricində təşkil olunmuş 500-ə yaxın kurs, seminar, treninq və digər tədbirdə Silahlı Qüvvələrin 1000-ə yaxın, ölkə daxilində təşkil edilmiş 35-ə yaxın müxtəlif tədbirdə isə 800-ə qədər nümayəndəsi iştirak etmişdir (164 ).

NATO-nun Müdafiə Təhsilinin Gücləndirilməsi Proqramı (DEEP) çərçivəsində hazırda Azərbaycanın xüsusi təyinatlı təhsil müəssisələrində NATO standartlarının tətbiqi üçün müvafiq işlər aparılmaqdadır. Bu proqram hərbi təhsil sistemində Boloniya prosesinin tətbiq olunmasını, tədrisdə müasir metodologiya və vasitələrin tətbiqini, müdafiə islahatlarının daha da dərinləşdirilməsini nəzərdə tutur. Silahlı Qüvvələrdə ingilis dili biliyinin gücləndirilməsi üçün NATO imkanlarından da geniş istifadə edilir. DEEP çərçivəsində Silahlı Qüvvələrin Hərbi Akademiyasının Çex Respublikasının, Litvanın, Polşanın, Rumıniyanın, İsveçin,

Bolqarıstanın və ABŞ-ın hərbi akademiyaları ilə səmərəli əməkdaşlığı üçün yaxşı imkanlar yaranmışdır (165).

Ötən illər ərzində beynəlxalq təhlükəsizliyə və sabitliyə töhfə verilməsi istiqamətində də işlər davam etdirilmişdir. 2015-ci ildən NATO-nun Əfqanıstanda həyata keçirdiyi "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyasında Silahlı Qüvvələrin 94 nəfərlik sülhməramlı kontingenti strateji əhəmiyyətə malik Kabul beynəlxalq hava limanını mühafizə etmişdir. Bütünlükdə isə 1999-cu ildən 2015-ci ilin sonlarına qədər Silahlı Qüvvələrin 3 minə yaxın hərbi qulluqçusu dünyanın müxtəlif regionlarında keçirilən sülhməramlı əməliyyatlarda iştirak etmişdir. Konkret olaraq Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bölmələri 1999-cu ildən 2008-ci ilə qədər NATO-nun rəhbərliyi altında Serbiyanın Kosovo əyalətində keçirilən sülhməramlı əməliyyatda iştirak etmiş, 2003-2008-ci illərdə isə çoxmillətli qüvvələrin tərkibində İraqda keçirilən sülhyaratma əməliyyatına öz töhfəsini vermişlər. 2002-ci ildən isə Azərbaycan Silahlı Qüvvələrinin bölmələri İSAF çərçivəsində NATO-nun rəhbərliyi altında Əfqanıstanda keçirilən əməliyyatda iştirak edir. Əvvəlcə bu əməliyyatda bir taqım tapşırılan vəzifələrin icrasını həyata keçirirdi. 2008-ci ildə buradakı qüvvələrin tərkibi 22 nəfərdən 45 nəfərə, 2009-cu ildə 90 nəfərə çatdırılmışdır (166).

Hazırda Azərbaycanın 94 nəfərlik heyəti (90 nəfərlik bir piyada bölüyü, 2 nəfər mühəndis-istehkamçı və 2 nəfər həkim) «Qətiyyətli dəstək» missiyasının tərkibində xidmətini davam etdirir. Bu missiyanın başa çatmasından sonra isə Azərbaycan tərəfi NATO-nun gücləndirilmiş Davamlı Tərəfdaşlıq missiyasına qoşulmağa öz prinsipial razılığını bildirmişdir (167).

Sülhməramlı əməliyyatlar və NATO qərargahlarında digər dövlətlərin hərbi qulluqçuları ilə çiyin-çiynə xidmət zamanı toplanılan təcrübə Silahlı Qüvvələrimizin qarşılıqlı uyarlılıq səviy-

yəsinin artırılmasına və müvafiq qabiliyyətlərin əldə edilməsinə imkan yaratmışdır.

Milli zabit kadrlarının hazırlanması sahəsində də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müəyyənləşdirdiyi vəzifələr uğurla yerinə yetirilməkdədir. Bu vəzifələrin həyata keçirilməsi üçün hazırda Azərbaycanda inkişaf etmiş və müasir hərbi təhsil bazası mövcuddur. 2016-cı ilin əvvəlinə kimi həmin bazanı aşağıdakı xüsusi təyinatlı təhsil müəssisələri təşkil edirdi: Silahlı Qüvvələrin Hərbi Akademiyası, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzi, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi, Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi, C.Naxçıvanxki adına Hərbi Lisey, Heydər Əliyev adına Hərbi Lisey və xüsusi təyinatlı təhsil müəssisəsi statusu olmayan Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsi.

Zabit kadrlarının hazırlığına xüsusi önəm verən Müdafiə Nazirliyinin rəhbərliyi həm bu məktəblərin buraxılış mərasimlərində iştirak edir, həm də bu məktəblərdə tədrisin təşkili ilə yaxından maraqlanırdı. 2014-cü ildə Azərbaycan Ali Hərbi Məktəbinə Azərbaycan xalqının ümummili lideri Heydər Əliyevin adının verilməsinin 10 ili tamam oldu. Bu münasibətlə məktəbin kursantları qarşısında çıxış edən Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov bildirdi ki: «Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli Silahlı Qüvvələrimizin hansı vəziyyətdə olmasından çox asılıdır. Bunun üçün Siz Silahlı Qüvvələrin sıralarına gənc zabitlər kimi daxil olmaqla Ordumuza yeni nəfəs, yeni ruh və döyüş əzmi gətirməlisiniz... Düşmən hiss etməlidir ki, Siz hər sahədə, həmişə ondan üstünsünüz, Vətənə sədaqətiniz, Ana torpağa, ailəyə bağlılığınız, xalqımıza və dövlətimizə məhəbbətiniz hədsizdir» (168).

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 yanvar 2009-cu il tarixli, 8 nömrəli qərarına əsasən Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində 4 bakalavr ixtisası çərçivəsində 9 hərbi uçot ixtisası üzrə, Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbində 4 bakalavr ixtisası çərçivəsində 4 hərbi uçot ixtisası üzrə, Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbində isə 3 bakalavr ixtisası çərçivəsində 8 hərbi uçot ixtisası üzrə zabit kadrlarının hazırlığı təşkil edilmişdi. AAHM-i bitirən məzunlara bakalavr diplomu və leytenant hərbi rütbəsi veriləndən sonra onlar hərbi ixtisasları üzrə nəzəri biliklərini möhkəmləndirmək və praktiki vərdişlər qazanmaq üçün Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzindəki birillik kursa göndərilirlər. Ali Hərbi Dənizçilik Məktəbinin məzunları həmin məktəbin nəzdindəki birillik zabit ixtisas kursuna, Ali Hərbi Təyyarəçilik Məktəbinin məzunları isə müvafiq hərbi hissələrin nəzdində yaradılmış kurslara göndərilirlər (169).

2014-cü ilin sentyabr ayında Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində olan Müdafiə Nazirliyinin rəhbərliyi tədrisin təşkili ilə daha yaxından tanış oldu, bu prosesin təkmilləşdirilməsi və səmərəliliyinin daha da artırılması üçün konkret tapşırıqlar verdi.

2014-2015-ci illərdə xüsusi təyinatlı təhsil müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı bir sıra rəhbər sənədlər hazırlanmış və qüvvəyə minmişdir. O cümlədən, Müdafiə nazirinin 20 fevral 2014-cü il tarixli 70 nömrəli əmri ilə xüsusi təyinatlı ali təhsil, xüsusi təyinatlı əlavə təhsil və xüsusi təyinatlı tam orta təhsil müəssisələrinin fəaliyyətlərinin təşkili haqqında təlimatlar, müdafiə nazirinin 28 iyun 2014-cü il tarixli 43 nömrəli qərarı ilə «Xüsusi təyinatlı təhsil müəssisələrində Dövlət attestasiya komissiyalarının işi haqqında Təlimat», Müdafiə nazirinin 11 avqust 2015-ci il tarixli 33 nömrəli qərarı ilə «Xüsusi təyinatlı ali təhsil

müəssisələrinin təhsil fəaliyyətinin təşkili haqqında Təlimat, Müdafiə nazirinin 12 noyabr 2015-ci il tarixli 50 nömrəli qərarı ilə «Azərbaycan Respublikası Müdafiə Nazirliyinin xüsusi təyinatlı təhsil müəssisələrinə və Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinə qəbul qaydaları haqqında Təlimat» və digər rəhbər sənədlər qüvvəyə minmişdir (170).

2015-ci il dekabrın 25-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin imzaladığı sərəncama əsasən isə milli zabit kadrları hazırlığının daha da təkmilləşdirilməsi üçün Ali Hərbi Təyyarəçilik Məktəbi və Ali Hərbi Dənizçilik Məktəbi Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə birləşdirildi. Bu birəşmədən sonra Məktəbin strukturunda müvafiq dəyişikliklər edildi və 4 fakültə yaradıldı: quru qoşunları fakültəsi, hərbi hava qüvvələri fakültəsi, hava hücumundan müdafiə fakültəsi və hərbi dəniz qüvvələri fakültəsi. Bu fakültələrdə zabit kadrlarının hazırlanması üçün AAHM-də 21 kafedra fəaliyyət göstərir (171).

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin yeni statusda fəaliyyətinin daha yaxşı təşkili üçün zəruri təşkilati işlər aparılmış, Məktəbin yeni nizamnaməsi hazırlanmış, tədris plan və proqramları yenidən işlənərək təsdiq edilmişdir.

Tibb ixtisasları üzrə zabit kadrlarının hazırlanması isə Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsində təşkil edilmişdir. Bu fakültəyə Tibb Universitetinin müalicə-profilaktika, pediatriya və stomatologiya fakültələrinin 4-cü kursunu bitirmiş oğlan tələbələr seçmə yolu ilə qəbul edilirlər. Fakültədə təhsil müddəti 2 ildir. 2011/2012-ci tədris ilindən etibarən Hərbi tibb fakültəsində rezidentlərin də hazırlığına başlanmışdır. Rezidenturaya qəbul Dövlət İmtahan Komissiyası tərəfindən aparılan imtahanların nəticələrinə əsasən həyata keçirilir. Hazırda Hərbi

tibb fakültəsinin rezidenturasında 18 ixtisas üzrə tibb kadrları hazırlanır (172).

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının hərbi uçot ixtisaslarının təkmilləşdirilməsi, hərbi kadrların yenidən hazırlanması, onların staj keçməsi və bütünlükdə kadrların təkmilləşdirilməsi üzrə təlim-tərbiyə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində aparılır. Bu məqsədlə Təlim və Tədris Mərkəzində Zabit heyətini təkmilləşdirmə kursu, Silahlı Qüvvələrin və qanunvericiliklə nəzərdə tutulmuş digər silahlı birləşmələrin hərbi uçot ixtisasları üzrə zabit kadrları hazırlayan Ehtiyat zabit hazırlığı kursu, kiçik komandir, rəis və mütəxəssis vəzifələri üçün kadr hazırlığı aparan Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu fəaliyyət göstərir (173). Hərbi Dəniz Qüvvələri üçün müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlanması isə Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi nəzdində həyata keçirilirdi.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlanması kursunun əsası 2005-ci ildə qoyulmuşdur və 2006-cı ildən başlayaraq Silahlı Qüvvələrdə xidmət edən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları bu kursa cəlb edilir və onlara sertifikat verilir (174).

Yüksək ixtisaslı azərbaycanlı zabit kadrlarının yetişdirilməsində və təkmilləşdirilməsində əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1999-cu ildə imzaladığı sərəncamla qoyulmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının xüsusi rolu vardır. Son illərdə bu təhsil müəssisəsinin fəaliyyətinin daha da təkmilləşdirilməsi məqsədilə struktur dəyişiklikləri aparılaraq onun tərkibində iki fakültə yaradılmışdır: əməliyyat-taktiki fakültə və əməliyyat-strateji fakültə. 2012/2013-cü dərs ilindən etibarən ikiillik akademik proq-

ram üzrə əməliyyat-taktiki fakültədə tabor komandiri, briqadanın qərargah rəisi və briqada komandiri, habelə korpusların qərargah zabitləri səviyyəsində kadrların hazırlanmasına başlanmışdır. Əməliyyat-strateji fakültədə isə 18 aylıq akademik proqram üzrə əməliyyat-taktiki birliklərin komandirləri və komandir müavinləri, əməliyyat-strateji birliklərin və mərzəki idarəetmə orqanlarının qərargah zabitləri və komandirləri səviyyəsində kadrların hazırlanması planlaşdırılır. 2014-cü ildə Hərbi Akademiyaya magistr səviyyəsində qiyabi təhsil üzrə ilk qəbul həyata keçirilmişdir (175).

Bundan başqa, Silahlı Qüvvələrin Hərbi Akademiyasının nəzdində briqada komandirinin müavini və ondan yuxarı vəzifədə olan zabit heyətinin təkmilləşdirmə kursu və Strateji Tədqiqatlar və Dövlət Müdafiəsini İdarəetmə kursu da fəaliyyət göstərir. Bu kursda respublikanın Müdafiə Nazirliyinin, digər güc strukturlarının və mülki nazirliklərin yüksək vəzifəli kadrlarına respublikanın təhlükəsizliyinin və müdafiəsinin təşkili ilə bağlı xüsusi biliklər verilir (176).

Hazırda Silahlı Qüvvələrin Hərbi Akademiyasında yüksək ixtisaslı zabit kadrlarının yetişdirilməsi ilə bərabər, hərb elminin inkişafına da xüsusi diqqət yetirilir. Əslində, Silahlı Qüvvələrin Hərbi Akademiyası Azərbaycanda hərb elminin mərkəzinə çevrilmişdir. 2014-cü ildən Hərbi Akademiyanın adyunkturasının açılması, Akademiyada çalışan elm adamlarının sayının xeyli artması da bunu deməyə əsas verir. 2016-cı ilin əvvəlində Hərbi Akademiyada 12 nəfər zabit fəlsəfə doktoru, 4 nəfər isə elmlər doktoru üzrə hazırlıq proqramı keçirdi.

Hərb elminin inkişafının stimullaşdırılması üçün son illərdə Hərbi Akademiyada bir sıra maraqlı elmi konfranslar keçirilmişdir. Məsələn, 2015-ci il fevral ayının 26-da Azərbaycan Respubli-

kası Müdafiə nazirinin təsdiq etdiyi «Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin 2015-ci ildə Elmi iş planı»na əsasən Silahlı Qüvvələrin Hərbi Akademiyasında Hərb elminin inkişafı sahəsində «Azərbaycan Respublikasında idarəetmə sistemlərinin təkamülü və inkişaf perspektivləri» mövzusunda, 7 mart 2015-ci il tarixdə «Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun elmi fəaliyyəti və Xəzər dənizi sahəsində aparılan elmi tədqiqatlar» mövzusunda, 20 aprel 2015-ci il tarixdə «Azərbaycan Respublikası inkişafın yeni mərhələsində: varislik, novatorluq və dinamizm» mövzusunda elmi seminarlar, 2015-ci il may ayının 16-da isə «Hərb elminin inkişaf perspektivləri», 2016-cı il may ayının 4-də isə «Heydər Əliyev irsində hərb tarixi məsələləri» mövzusunda respublika elmi-praktik konfransları keçirilmişdir (177).

Ordu quruculuğunun uğurla davam etdirilməsi məqsədilə bu prosesin qanunvericilik və normativ bazasının təkmilləşdirilməsi üçün davamlı işlər aparılmışdır. Bu istiqamətdə Müdafiə Nazirliyi tərəfindən bir sıra yeni qanunvericilik aktları işlənərək aidiyyəti dövlət qurumları ilə razılaşdırılmışdır. 2014-cü ilin dekabrında Silahlı Qüvvələrin Sıra Nizamnaməsi təsdiq edilmişdir. Bu nizamnamə bir sıra yeniliklərlə yanaşı, həm də mövcud qaydaların təkmilləşdirilməsini özündə əks etdirir. Bu yeniliklər də başlıca olaraq orduda hərbi intizamın möhkəmləndirilməsi məqsədi daşıyır. Bundan başqa, Silahlı Qüvvələrin İntizam, Qarnizon və Qarovul xidmətləri, Daxili Xidmət nizamnamələri daha da təkmillədirilmişdir. Silahlı Qüvvələrdə müasir standartların tətbiqi ilə əlaqədar hərbi birləşmələrdə bəzi vəzifələrin səlahiyyətlərinə dəyişikliklər edilib, yeni yaradılan bir sıra vəzifələr və onların səlahiyyətləri artıq Daxili Xidmət Nizamnaməsinin yeni layihəsində öz əksini tapıb (178).

Silahlı Qüvvələrin şəxsi heyəti arasında mənəvi-psixoloji və ideoloji işlər də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ordu quruculuğu sahəsində müəyyənləşdirdiyi tələblər səviyyəsinə qaldırılmışdır. Bu işlərin mərkəzində Azərbaycanın dövlət müstəqilliyinə, Konstitusiyadan irəli gələn vəzifə borclarına sədaqət dayanmaqdadır. Bu məqsədə nail olmaq üçün Müdafiə Nazirliyinin tabeliyində olan hərbi hissələrdə hərbi psixoloq sisteminin fəaliyyətinə yenidən baxılmışdır. Bunun nəticəsində hərbi qulluqçular hərbi xidmətə çağırıldığı gündən ehtiyata buraxılan günədək planlı şəkildə, mütəmadi və davamlı olaraq mənəvi-psixoloji tərbiyə ilə əhatə olunmuşlar (179).

Bu işlərin yüksək səviyyədə aparılması üçün uyğun kadrların hazırlanması və yerləşdirilməsi də uğurlu şəkildə həll edilmişdir. Vaxtaşırı olaraq Silahlı Qüvvələrdə şəxsi heyətlə iş aparan zabitlərin toplantıları və seminarları keçirilir. Müdafiə Nazirliyinin rəhbərliyinin iştirakı ilə keçirilən belə tədbirlərdə, bir qayda olaraq milli-mənəvi dəyərlər ruhunda tərbiyə edilməsinə dair aktual məsələlər, şəxsi heyətlə iş üzrə vəzifəli şəxslərin gələcək fəaliyyətlərinin daha da gücləndirilməsi yolları müzakirə edilir, Vətənə, dövlətə sədaqət, nizamnamələrin tələblərinin şəxsi heyətə öyrədilməsi, qanunlara hörmətlə yanaşılması, hüquq pozuntularının, nizamnamədənkənar hərəkətlərin qarşısının alınması və s. məsələlər barədə fikir mübadiləsi aparılır (180).

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən müəyyənləşdirilmiş məsuliyyətli vəzifələrin uğula yerinə yetirilməsi üçün Müdafiə naziri general-polkovnik Zakir Həsənov zabit heyəti qarşısında çox ciddi tələblər qoyurdu və bildirirdi ki: «Hər kəs yaxşı bilməlidir ki, bu gün ordumuzun şəxsi heyətini qarşıda du-

ran mühüm vəzifənin icrasına - torpaqlarımızın işğaldan azad edilməsinə səfərbər etmək qarşımızda dayanan ən mühüm vəzifədir. Orduda önəm verilən əsas şərt gənc döyüşçülərin milli-mənəvi dəyərlərimiz ruhunda tərbiyə edilməsidir. Bu məqsədlə şəxsi heyətin şüuruna dövlətin və xalqın mənafeyini müdafiə etmək hissləri aşılanmalıdır. Hər bir gənc döyüşçü hansı amal və məqsəd uğrunda xidmət etdiyini, mübarizə apardığını dərindən dərk etməlidir. ...Xalqımızın illərdən bəri üzləşdiyi münaqişənin mahiyyəti şəxsi heyətə izah edilməli və doğma torpaqlarımızın işğaldan azad edilməsi uğrunda mübarizənin bizim ədalətli işimiz olduğu aşılanmalıdır. Yəni əsgərlərimizin müharibəyə hazır olmasının əsas zərurəti yalnız xalqımızın ədalətli mübarizəsindən - doğma torpaqlarımızı işğaldan azad etmək zərurətindən irəli gəlir» (181).

Qabaqcıl təcrübədən istifadə, şəxsi nümunə, sosial ədalət və bərabərlik mühitinin yaradılması, kollektivlərdə münasibətlərin sağlam mühit şəraitində qurulması, hərbi hissələrdə xidmətin günün nizam qaydalarına uyğun təşkili üçün normal şəraitin yaradılması, sağlam rəqabətin, hərbi hissələrdə əsgər yoldaşlığı, hərbi xidməti münasibətlərin qarşılıqlı dostluq, hörmət və gənc əsgərlərə qayğı əsasında qurularaq davam etdirilməsinin formalaşdırılması və s. kimi məsələlər mənəvi-psixoloji işlərin aparılması zamanı Müdafiə Nazirliyinin rəhbərliyinin irəli sürdüyü əsas tələblərdir.

Silahlı Qüvvələrdə mənəvi-psixoloji işlərin aparılması zamanı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyat yolunun və irsinin öyrənilməsinə xüsusi dəyər verilir. Bu məqsədlə Silahlı Qüvvələrin əksər hərbi hissələrində, birləşmə və birliklərində Heydər Əliyev guşələri yaradılmışdır, şəxsi heyət arasında davamlı olaraq «Heydər Əliyev irsini öyrənirik» məşğələləri təşkil olunur, Heydər Əliyevin anadan olma günü və xatirə günü planlı tədbirlərlə qeyd olunur.

Silahlı Qüvvələrin şəxsi heyətinin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin nümunəsində tərbiyələndirilməsini Müdafiə naziri Zakir Həsənov da zabit heyətinin qarşısında dayanan mühüm vəzifələrdən bir sayırdı: «Qoy hər bir əsgər qədim xalqın nümayəndəsi olduğunu dərindən dərk etsin, qəhrəmanlarımızı yaxşı tanısın, böyük dövlət xadimi, ulu öndər Heydər Əliyevin irsini mükəmməl öyrənsin. Həyatda da belədir, hər kəs cəmiyyətdə özünə layiqli yer tutmaq istəyirsə, dahi insanların ömür yolunu özünə örnək bilməlidir. Bu mənada ümummilli liderimizin mənalı ömür yolu və tarixi fəaliyyəti Silahlı Qüvvələrimizin şəxsi heyətinə ən layiqli örnəkdir» (182).

Mənəvi-psixoloji işin aparılması istiqamətində kütləvi hərbi-vətənpərvərlik tədbirlərinin təşkili, Azərbaycan xalqının tarixi qəhrəmanlarının, müharibə iştirakçılarının milli qəhrəmanların həyat yolunun təbliği əhatəliyi və səmərəliliyi ilə fərqlənən tədbirlərdəndir. Bu istiqamətdə son bir neçə il ərzində həm Silahlı Qüvvələr daxilində, həm də Silahlı Qüvvələrlə yerli hakimiyyət orqanlarının təşkilatçılığı ilə Azərbaycan xalqının böyük sərkərdələri olan Səməd bəy Mehmandarovun, Əliağa Şıxlinskinin, Cəmşid xan Naxçıvanskinin yubiley tədbirləri təntənəli şəkildə qeyd edilmişdir. Hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi məqsədilə II Dünya müharibəsinin veteranları ilə görüşlər, Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan döyüşlərdə şücaət göstərmiş milli qəhrəmanların xatirə günləri artıq ənənə halını almışdır.

Bu tədbirlərin təşkili zamanı ictimaiyyətin daha geniş nümayəndələrinin cəlb edilməsi ilə ordu ilə xalq arasındakı əlaqələrin möhkəmlənməsi də təqdirəlayiq nəticələrdən birinə çevrilmişdir. 2015-ci il oktyabr ayının 25-dən başlayaraq Silahlı Qüvvələrdə «Açıq qapı» günlərinin keçirilməsinə başlanmışdır. «Açıq qapı»

gününün keçirildiyi tarixdə ictimaiyyətin bütün nümayəndələri, hərbi qulluqçuların valideynləri və yaxınları Silahlı Qüvvələrdə, xidmət həyatında baş verən ciddi müsbət dəyişiklikləri müşahidə etmək imkanı qazanır, Azərbaycan Ordusunungücü və qüdrəti ilə yaxından tanış olurlar. Müdafiə Nazirliyinin bütün rəhbərliyi «Açıq qapı» günlərinin keçirilməsində iştirak etməklə ictimaiyyətin nümayəndələri ilə birbaşa əlaqədə olur (183).

Ordu ilə xalq arasındakı əlaqələrin möhkəmləndirilməsi baxımından Müdafiə Nazirliyinin rəhbərliyinin cəhbəyanı rayonların icra hakimiyyətləri rəhbərləri ilə görüşləri də yeni bir ənənənin başlanğıcını qoymuşdur (184**).**

Son illər ərzində orduda həyata keçirilən mühüm islahatlardan biri də məişət və təsərrüfat fəaliyyəti sahəsində baş verən dəyişikliklərdir. Silahlı Qüvvələrin şəxsi heyətinin xidməti vəzifələrin icrasından ayırılmaların qarşısının alınması üçün Müdafiə Nazirliyinin rəhbərliyinin qərarı ilə təsərrüfat və xidmət sahələrinin mülki şəxslərə və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularna tapşırılmasına başlanmışdır. Bunun nəticəsində bir neçə il ərzində 20 mindən artıq mülki şəxs və 20 min nəfərədək müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu Silahlı Qüvvələrdə işlə təmin edilmişdir (185).

Eyni zamanda, hərbi qulluqçuların sosial-məişət qayğılarının yaxşılaşdırılması istiqamətində də Silahlı Qüvvələrdə köklü islahatlar həyata keçirilmişdir. Məzuniyyətdən istifadə etməyən hərbi qulluqçulara kompensasiyalar ödənilmiş, onların mənzil şəraitinin yaxşılaşdırılmasında müsbət dəyişikliklər baş vermişdir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 28 dekabr 2011-ci il tarixli 569 nömrəli fərmanına uyğun olaraq 1118 hərbi qulluqçuya dövlət vəsaiti hesabına yaşayış sahəsi verilmiş, Müdafiə Nazirliyinin fondundan isə 1330 ailəli hərbi qulluqçuya xidməti yaşayış sahəsi

ayrılmışdır. 2013-cü ildən başlayaraq 2016-cı ilin oktyabr ayına kimi 131 hərbi şəhərcik qazla təmin edilmişdir (186).

2015-2016-cı ildə bir sıra hərbi qarnizonlarda yeni hərbi şəhərciklər istifadəyə verildi və bu iş davamlı və ardıcıl xarakter aldı. Bütün bunlar isə öz növbəsində Azərbaycan Ordusunun döyüş qüdrətinin artmasına zəmin yaratdı. Məhz buna görə də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Silahlı Qüvvələrin döyüş hazırlığı barədə verdiyi bəyanatların birində deyirdi: «Dövlət başçısının tapşırığına əsasən Müdafiə Nazirliyinin rəhbərliyi, komandir heyəti tez-tez cəbhə xəttində şəxsi heyətlə görüşlər keçirir. Əsas məqsədimiz əsgər və zabitlərimizin ümumi vəziyyəti, hərbi hissələrin döyüş hazırlığının səviyyəsi ilə maraqlanmaq, müvafiq tapşırıq və tövsiyələri çatdırmaqdır.

Bu gün Azərbaycan öz iqtisadiyyatı, büdcəsi, demoqrafik vəziyyəti, hərbi gücü və bir sıra digər parametrlərinə görə hər cəhətdən tənəzzülə uğrayan düşməndən qat-qat üstündür. Bunu tək biz deyil, artıq Ermənistanın siyasi rəhbərliyi də etiraf edir. Bütün bunlar Ali Baş Komandan cənab İlham Əliyevin apardığı ardıcıl siyasətin nəticəsidir. Ordumuza göstərilən diqqət sayəsində Silahlı Qüvvələrimiz müasir silah-sursat, döyüş texnikası, o cümlədən təyyarə, helikopter və artilleriya sistemlərinin keyfiyyəti, şəxsi heyətin sayı və döyüş əzmi baxımından düşmən ordusunu dəfələrlə qabaqlayır.

Keçən ilin avqustundan indiyədək ötən müddətdə düşmənə vurulan zərbələrdən sonra Ermənistanın hərbi-siyasi rəhbərliyi hələ də özünə gələ bilməyib. İndi də qorxu və vahimə içindədir. Artıq məqam yetişib. Səbri tükənən xalqımız, öz doğma yurdlarından didərgin salınmış insanlarımız da bizdən hərəkətə keçib, ömür boyu Azərbaycana qarşı düşmənçilik mövqeyində olan iş-

ğalçıları torpaqlarımızdan çıxarmağı tələb edir. Beynəlxalq qurumlar tərəfindən münaqişəyə dair qəbul edilmiş bir çox qərarlar da haqq və ədalətin bizim tərəfimizdə olduğunu sübut edir. Xalqımız onu da bilməlidir ki, döyüş ruhlu Azərbaycan əsgəri ölkəmizi Şuşasız, Laçınsız, digər işğal olunmuş şəhər və kəndlərsiz təsəvvür etmir. Silahlı Qüvvələrin bütün şəxsi heyəti torpaqlarımızı işğaldan azad etmək uğrunda müqəddəs borcunu yerinə yetirməyə hazırdır və qadirdir. Azərbaycan əsgəri yalnız öz gücü və qüvvəsinə güvənərək düşməni işğal olunmuş torpaqlardan qovmaqla ərazi bütövlüyümüzü bərpa edəcəkdir. Buna heç kimin şübhəsi olmamalıdır" (187).

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun bu fikri əməli işdə də öz əksini tapdı və 2016-cı il aprel ayının ilk günlərində Azərbaycan Ordusunun hissə və bölmələri cəbhə xəttinin şimal-şərqində və cənub-şərqində işğalçı Ermənistan hərbi qüvvələrinə çox güclü zərbə endirdilər.

2016-ci il mart ayının sonlarından etibarən cəbhə xəttində erməni təxribatları, atəşkəsin pozulması halları yenidən artmağa başlamışdı. Bu təxribatların nəticəsində mart ayının 25-də cəbhə xəttində Azərbaycanın bir hərbi qulluqçusu, mart ayının 26-da isə Tovuz istiqamətində Ermənistanla sərhəddə daha iki hərbi qulluqçu şəhid oldu. Sonrakı günlər ərzində də ermənilər tərəfindən atəşkəsin pozulması halları səngimədi.

Erməni hərbi qüvvələrinin belə fəallaşmasını Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Ermənistan rəhbərliyinin münaqişəni sülh yolu ilə həll etməyə hazır olmaması ilə əlaqələndirirdi. Xüsusilə bu münaqişənin sülh yoluna həllinə ümidlər artanda Ermənistan rəhbərliyi təcavüzkar təxribatlara əl atmağı üstün tuturdu. Konkret fakt kimi cənab İlham Əliyev 2014-cü ildə Fransa Prezi-

dentinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan prezidentləri arasında görüşün nəticələrini xatırladırdı. Həmin görüşdən sonra münaqişənin sülh yolu ilə həllinə yeni bir ümid yaransa da, Ermənistan prezidenti geri qayıdan kimi yeni bir təxribata əl atdı, Ağdamın işğal edilmiş ərazilərində 47 min nəfər hərbçinin iştirakı ilə hərbi təlim keçirməyə başladı. Məhz həmin təlimlər zamanı Ermənistana məxsus hərbi vertolyot Azərbaycan Silahlı Qüvvələri tərəfindən vurulmuş və bununla da Azərbaycana qarşı yeni bir təbliğat kampaniyası başlamaq üçün bəhanə əldə edilmişdi.

Cənab İlham Əliyev bəyan edirdi ki, aprel ayında cəbhədə vəziyyətin mürəkkəbləşməsi ərəfəsində Rusiyanın Prezidenti və rəhbərliyi Minsk qrupunun digər həmsədrləri ilə brilikdə Qarabağ münaqişəsinin həlli ilə bağlı yeni təkliflər irəli sürmüşdülər və həmin təkliflərdə Azərbaycanın ərazi bütövlüyü məsələsinə münasibət bildirilmişdi. Amerika Birləşmiş Ştatlarının rəhbərliyi də Qarabağ münaqişəsinin həlli ilə bağlı Ermənistan rəhbərliyinə müəyyən mesajlar vermişdi. Yəni Qarabağ münaqişəsinin sülh yolu həlli üçün yeni bir perspektiv formalaşmaqda idi. Bölgədə status-kvonun dəyişməsini birmənalı şəkildə istəməyən Ermənistan rəhbərliyi münaqişənin həlli üçün meydana gələn ümidləri aradan qaldırmaq üçün yenidən özlərinin sınanmış vasitəsinə, cəbhə xəttində təxribatların genişləndirilməsinə əl atdı, sülh prosesinə böyük zərbə vurdu. Bunun nəticəsi idi ki, 2016-cı il aprel ayının 1-də Ermənistan yenidən atəşkəsi geniş şəkildə pozdu, Azərbaycanın cəbhəboyu kəndlərini güclü atəşə tutdu. Bunun üçün iriçaplı silahlar və artilleriya işə salındı, əhaliyə ciddi tələfat yetirildi. Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun qeyd etdiyi kimi, erməni hərbi qüvvələrinin təcavüzkarlığı nəticəsində yaranmış əməliyyat şəraiti qiymətləndirildikdən sonra Azərbaycan Respublikası

Silahlı Qüvvələrinin rəhbərliyi əks-hücum əməliyyatı keçirmək qərarını qəbul etdi. Bu əməliyyatın keçirilməsi ilə düşmənin atəş nöqtələrinə və artilleriya qurğularına zərbə vurulmalı və onlar Azərbaycan kəndlərində daha uzaq məsafəyə çəkilməyə məcbur edilməli idi. Ehtimal olunan istiqamətlərdə Ermənistanın silahlı qüvvələrinin ehtiyatlarının hərəkətə gətirilə bilməsi nəzərə alınaraq aprel ayının 1-dən 2-nə keçən gecə Azərbaycan Silahlı Qüvvələrinin kəşfiyyat qrupları üç istiqamətdən atəşkəsi pozan düşmən üzərinə əks-hücum həyata keçirdilər. Böyük sürətlə və çevikliklə həyata keçirilən bu əks-hücum nəticəsində cəbhənin şimal-şərq hissəsində Seysulan kəndi, Talış kəndi ətrafındakı strateji yüksəkliklər və cənubda Horadiz istiqamətindəki strateji yüksəkliklər ələ keçirildi.

Erməni hərbi qüvvələrinin təxribatının qarşısının alınması üçün həyata keçirilən əks-hücum zamanı pilotsuz uçuş aparatları, universal radiolokasiya komplekslərinin səmərəli və effektiv tətbiqi nəticəsində düşmənə güclü zərbə vuruldu. Əməliyyat zamanı düşmənin atəş açan artilleriya və minaatan batareyaları pilotsuz uçuş aparatlarının və universal radiolokasiya kompleksləri tərəfindən aşkarlandı, düşmənin təmas xəttinin dərinliklərində formalaşdırdığı əks-hücum qruplaşmalarına, təmas xəttinə doğru irəliləyən kolonlarına, artilleriya, reaktiv və minaatan batareyalarına atəş zərbələri endirməklə düşmənə böyük itkilər yetirildi (188).

Azərbaycanın hərbi qüvvələrinin döyüş üstünlüyünün qarşısını almaq və əvvəlki cəbhə xəttini bərpa etmək üçün Ermənistanın hərbi komandanlığı Madagiz və Ağdərə ətrafında yerləşmiş ehtiyat hərbi qüvvələri hərəkətə gətirdilər və yenidən irəli atıldılar. Erməni hərbi qüvvələrinin bu fəallığının qarşısı Azərbaycanın hərbi qüvvələri tərəfindən qətiyyətlə alındı və erməni hərbi

qüvvələrinə ciddi zərbə endirildi. Qarşı tərəfin həm canlı qüvvəsi, həm texnikası Azərbaycan bölmələrinin rəşadəti və döyüşkənliyi ilə ciddi itkilərlə üzləşdi. İlkin məlumatlara görə 300-ə yaxın erməni hərbçisi məhv edildi, yüzlərlə hərbçi isə yaralandı. Bütünlükdə, 1994-cü ildə elan edilmiş atəşkəs dövründə Ermənistanın hərbi qüvvələri ilk dəfə Azərbaycanın Silahlı Qüvvələri tərəfindən çox ciddi zərbə aldılar və göstərilən bütün cəhdlərə baxmayaraq, Azərbaycanın Silahlı Qüvvələri qarşısında gücsüz qalaraq məğlubiyyətlə barışmalı oldular. Sonrakı günlərdə Azərbaycanın Silahlı Qüvvələri azad etdiklər mövqelərdə daha da möhkəmləndilər və əldə edilən uğurun əbəs olmadığını sübut etdilər.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hissə və bölmələri 2016-cı il aprel ayının ilk günlərində erməni hərbi təxribatına verilən cavab zamanı qazandığı uğurla yalnız Ermənistanda deyil, bir sıra ölkələrdə Ermənistan ordusunun məğlubedilməzliyi haqqında yaranmış təsəvvürləri alt-üst etdi və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin gücünü və iradəsini ortaya qoydu. Bu uğur Azərbaycanın dövlət rəhbərliyinin son illər ərzində Azərbaycan Ordusunun möhkəmləndirilməsi istiqamətində izlədiyi siyasətin düzgünlüyünü, Azərbaycan xalqının və dövlətinin öz qanuni haqlarını qorumağa qadir olduğunu nümayiş etdirdi. Bu uğur həm də Dağlıq Qarabağ ətrafında yeni bir hərbi situasiya yaratdı və Azərbaycanın hərbi-siyasi mövqelərini daha da gücləndirdi. Azərbaycan Ordusununbu uğuru Silahlı Qüvvələrin Ali Baş Komandanın müvafiq göstərişi əsasında Azərbaycanın işğal olunmuş bütün ərazilərini azad etməyə qadir olduğunu, Azərbaycan xalqının ona bağlanılan ümidlərinin əbəs olmadığını ortaya qoydu.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bölmələrinin Ermənistan hərbi qüvvələrinin aprel ayının 2-də törətdiyi hərbi

təxribata cavab kimi keçirdiyi əks-hücumun nəticələrini qiymətləndirərkən Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyev bəyan edirdi ki, «aprelin 2-si Azərbaycan Ordusunun tarixində parlaq qələbə günü kimi qalacaqdır». Bu münasibətlə cənab İlham Əliyev Ali Baş Komandan kimi Azərbaycan Ordusuna, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bütün şəxsi heyətinə öz təbriklərini də çatdırırdı.

2016-cı il iyun ayının 3-də dünya azərbaycanlılarının Bakıda keçirilən IV qurultayında cənab İlham Əliyev aprel ayının əvvəllərində erməni hərbi qüvvələrinin təxribatlarının qarşısının alınması zamanı respublika Silahlı Qüvvələrinin fəaliyyətini yenidən çox yüksək qiymətləndirdi və bu mötəbər tədbirdəki çıxışını da dünya azərbaycanlılarına qəhrəman Azərbaycan Ordusunun şəxsi heyətini salamlamaq çağırışı ilə bitirdi.

2016-cı il oktyabr ayının 17-də Azərbaycanın Dövlət müstəqilliyinin bərpasının 25 illiyi münasibətilə təşkil olunmuş təntənəli mərasimdəki çıxışında cənab İlham Əliyev ordu quruculuğu sahəsində əldə edilmiş nailiyyətlərə yenidən yüksək qiymət verdi. Onun Azərbaycanda ordu quruculuğu sahəsində aparılan işlərə verdiyi qiymətdə aşağıdakı məqamlar öz əksini tapmışdı:

- ordu quruculuğu sahəsində Azərbaycanda böyük addımlar atılıb və bu iş davam etdirilməkdədir;
- Azərbaycanın güclü ordusu var;
- Azərbaycanın güclü orduya malik olmasını bütün dünya bilir;
- biz öz gücümüzə əminik və düşmənin istənilən hədəfini məhv etməyə qadirik;
- Azərbaycan Ordusu öz gücünü 2016-cı ilin aprelində erməni hərbi qüvvələrinin təxribatına qarşı həyata keçirdiyi əks-hü-

cumda nümayiş etdirdi (189).

Azərbaycan Respublikasının Prezidenti, Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev məmnunluqla bildirirdi ki, bu əks-hücumdan sonra Ağdərə, Füzuli və Cəbrayıl rayonlarının bir hissəsi düşməndən azad edilib və indi həmin ərazilərdə Azərbaycan bayrağı dalğalanır.

Azərbaycan Ordusunun əldə etdiyi uğur Azərbaycan cəmiyyətində son dərəcə böyük ruh yüksəkliyi ilə qarşılandı, xalq böyük coşqu ilə bir daha mübariz ordu yaratığına görə Azərbaycan rəhbərliyinə, habelə Azərbaycan Ordusunun özünə ehtiramını və dəstəyini bəyan etdi. Bu uğurdan sonra bütün respublika miqyasında keçirilən kütləvi tədbirlər Azərbaycan xalqının, Azərbaycanın dövlət rəhbərliyinin və Azərbaycan Ordusunun birliyinin nümayişinə çevrildi və Azərbaycan xalqı bir daha əməli şəkildə əmin oldu ki, Azərbaycan xalqının müstəqilliyini, xoşbəxt gələcəyini qorumağa qadir olan bir Ordusu vardır.

## İstifadə olunmuş mənbə və ədəbiyyat


1. Mehdiyev R. Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə. Məqalələr, çıxışlar, müsahibələr. Yanvar 2002-dekabr 2006. 2-ci cild. Bakı, 2006, s.453 (elektron variant)
2. Yenə orada
3. Həsənov Ə. Səmərəli dövlətçilik-demokratik inkişaf, s.65. Bax: İlham Əliyev: İqtibaslar və təhlil. Bakı, 2006, s.63-72
4. Vətənə, xalqa və dövlətə sədaqət andı. Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevin andiçmə mərasimi. 01 noyabr 2003-cü il. http://files.preslib.az/site/ialiyev/2003.pdf
5. Yenə orada
6. Həsənov Ə. Azərbaycan geosiyasəti. Bakı, 2015, s. 862
7. Гасанов А. Политика национального развития и безопасности Азербайджанской Республики. Баку, 2014, с.514
8. Həsənov Ə. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı,2011, s.323
9. 28 May-Respublika günü münasibətilə rəsmi qəbul. Prezident İlıhm Əliyev rəsmi qəbulda iştirak etmişdir. 25 may 2012-ci il. http://files.preslib.az/site/ialiyev/2012.pdf
10. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin növbət buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilmişdir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev mərasimdə iştirak etmişdir. 25 iyun 2012-ci il. http://files.preslib.az/site/ialiyev/2012.pdf
11. Bakıda Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının yeni inzibati binası istifadəyə verilib: Azərbaycan

Prezidenti İlham Əliyevin çıxışı. 7 may 2015-ci il. http://files.preslib.az/site/ialiyev/2015.pdf
12. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 87-ci ildönümü və Heydər Əliyev fondunun fəaliyyətə başlamasının 6 illiyi münasibətilə təntənəli mərasim keçirilmişdir. Prezident İlham Əliyev bu mərasimdə iştirak etmişdir. 12 may 2010-cu il. http://files.preslib.az/site/ialiyev/2010.pdf
13. Azərbaycan Prezidenti İlham Əliyevin Ağdam rayonuna səfəri. Ağdam Olimpiya İdman Kompleksinin açılış mərasimi. 17 yanvar 2008-ci il. http://files.preslib.az/site/ialiyev/2008.pdf
14. Prezident İlham Əliyevin Azərbaycan Respublikasının dövlət müstəqilliyinin iyirminci ildönümünə həsr olunmuş Beynəlxalq bayram tədbirində nitqi. 23 sentyabr 2011-ci il. http://files.preslib.az/site/ialiyev/2008.pdf
15. 28 May-Respublika günü münasibətilə rəsmi qəbul. Prezident İlham Əliyev rəsmi qəbulda iştirak etmişdir. 25 may 2012-ci il. http://files.preslib.az/site/ialiyev/2012.pdf
16. Ulu öndər Heydər Əliyevin anadan olmasının 88-ci ildönümü və Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının 7 illiyi münasibətilə təntənəli mərasim keçirilmişdir. Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir. 11 may 2011-ci il. http://files.preslib.az/site/ialiyev/2011.pdf
17. События вокруг НКАО в кривом зеркале фальсификаторов. Баку, 1989, с.7
18. Azərbaycan Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına səfəri. Azərbaycan icmasının üzvləri ilə görüş. 27 aprel 2006-cı il. http://files.preslib.az/site/ialiyev/2006.pdf
19. Президент Ильхам Алиев: «В Азербайджане сформировалась сильная и независимая пресса».

http://news.day.az/-politics/245920/html

20. Kral Beynəlxalq Əlaqələr İnstitunda siyasi brifinq. 7 noyabr 2006-cı il. http://files.preslib.az/site/ialiyev/2006.pdf
21. Azərbaycan Prezidenti İlham Əliyevin diplomatik xidmət orqanları rəhbərlərinin dördüncü müşavirəsində nitqi. 22 sentyabr 2012-ci il. http://files.preslib.az/site/ialiyev/2012.pdf
22. Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib: Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi. 13 iyul 2015-ci il. http://files.preslib.az/site/ialiyev/2015.pdf
23. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2008-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclası keçirilmişdir. 14 aprel 2008-ci il. http://files.preslib.az/site/ialiyev/2008.pdf
24. Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin ikinci müşavirəsi keçirilmişdir. Prezident İlham Əliyev müşavirədə iştirak etmişdir. 14 avqust 2006-cı il. http://files.preslib.az/site/ialiyev/2006.pdf
25. Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə rəsmi səfəri. Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Böyük Millət Məclisində nitq söyləmişdir. 24 aprel 2004-cü il. http://files.preslib.az/site/ialiyev/2004.pdf
26. Azərbaycan Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına səfəri. Azərbaycan icmasının üzvləri ilə görüş. 27 aprel 2006-cı il. http://files.preslib.az/site/ialiyev/2006.pdf
27. Varşava Universitetində görüş. Azərbaycan Prezidenti İlham Əliyevin nitqi. 31 mart 2005.

http://files.preslib.az/site/ialiyev/2006.pdf

28. Azərbaycan Silahlı Qüvvələrinin Yaradılmasının 92-ci ildönümü münasibətilə Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimi keçirilmişdir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev təlimin əsas mərhələsini izləmişdir. 24 iyun 2010-cu il.
http://files.preslib.az/site/ialiyev/2010.pdf
29. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. II cild, Bakı, 2005, s. 56-57
30. Azərbaycan Milli Elmlər Akademiyasının illik ümumi yığıncağı keçirilmişdir. Prezident İlham Əliyev yığıncaqda iştirak etmişdir. 26 aprel 2011-ci il.
http://files.preslib.az/site/ialiyev/2011.pdf
31. Müasir, müstəqil Azərbaycan bütün azərbaycanlıların vətənidir. Dünya azərbaycanlılarının III qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi. 6 iyul 2011-ci il. http://files.preslib.az/site/ialiyev/2011.pdf
32. Azərbaycan Prezidenti İlham Əliyevin İsmayıllı rayonunda jurnalistlərlə müsahibəsi. 19 avqust 2005-ci il.
http://files.preslib.az/site/ialiyev/2005.pdf
33. Azərbaycan Prezidenti İlham Əliyevin Yevlax şəhərinə səfəri. Yevlax şəhərində Ümummilli Liderimiz Heydər Əliyevin adını daşıyan mərkəzi meydanın və prospektin açılış mərasimi. 8 iyun 2004-cü il. http://files.preslib.az/site/ialiyev/2004.pdf
34. BMT Baş Məclisi 59-cu sessiyasının ümumi müzakirələrində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı. 24 sentyabr 2004-cü il
http://files.preslib.az/site/ialiyev/2004.pdf

35. Ağdam rayonunda Bənövşələr qəsəbəsinin açılış mərasimi. 1 mart 2006-cı il. http://files.preslib.az/site/ialiyev/2006.pdf
36. Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına həsr olunmuş iclası keçirilmişdir. 13 aprel 2007-ci il. http://files.preslib.az/site/ialiyev/2006.pdf
37. 28 May – Respublika Günü münasibətilə rəsmi qəbul keçirilib: Prezident İlham Əliyev rəsmi qəbulda iştirak edib: Azərbaycan Prezidenti İlham Əliyevin nitqi. 27 may 2015-ci il. http://files.preslib.az/site/ialiyev/2015.pdf
38. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü. Təhlili xronika. Bakı, 2012, s.226
39. Özbəkistana dövlət səfəri başa çatdıqdan sonra Heydər Əliyev adına hava limanında jurnalistlərə müsahibə. 24 mart 2004-cü il. http://files.preslib.az/site/ialiyev/2004.pdf
40. Fransanın "La letr diplomatic" jurnalına müsahibə. 6 iyul 2004-cü il. http://files.preslib.az/site/ialiyev/2004.pdf
41. BMT Baş Məclisi 59-cu sessiyasının ümumi müzakirələrində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı. 24 sentyabr 2004-cü il. http://files.preslib.az/site/ialiyev/2004.pdf
42. Yenə orada
43. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycanda İTAR-TASS günlərinin iştirakçıları ilə görüşü. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı. 22 yanvar 2005-ci il. http://files.preslib.az/site/ialiyev/2005.pdf
44. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü. Təhlili xronika. Bakı, 2012, s.230-32
45. Azərbaycan Prezidenti İlham Əliyev İtaliyanın "Rai News-24" telekanalının "Next" proqramına müsahibə vermişdir. 25

fevral 2005-ci il. http://files.preslib.az/site/ialiyev/2005.pdf
46. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2010-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclası keçirilmişdir. 14 aprel 2010-cu il.
http://files.preslib.az/site/ialiyev/2010.pdf
47. 28 may – Respublika Günü münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevin adından rəsmi qəbul. 25 may 2007-ci il.
http://files.preslib.az/site/ialiyev/2007.pdf
48. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə 2005-ci ilin birinci yarısında respublikamızın sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirə. 21 iyul 2005-ci il.
http://files.preslib.az/site/ialiyev/2005.pdf
49. Yenə orada
50. Azərbaycan Prezidenti İlham Əliyevin İsmayıllı rayonunda jurnalistlərlə müsahibəsi. 19 avqust 2005-ci il.
http://files.preslib.az/site/ialiyev/2005.pdf
51. Üçüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclası olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev iclasda iştirak etmişdir. 2 dekabr 2005-ci il.
http://files.preslib.az/site/ialiyev/2005.pdf
52. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə 2005-ci ilin birinci yarısında respublikamızın sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirə. 21 iyul 2005-ci il.
http://files.preslib.az/site/ialiyev/2005.pdf
53. Əhmədov E. Adı çəkilən əsəri, s.239-240
54. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2006-cı ilin sosial-iqtisadi yekunlarına və 2007-ci

ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir. 22 yanvar 2007-ci il. http://files.preslib.az/site/ialiyev/2007.pdf
55. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə 2005-ci ilin sosial-iqtisadi yekunlarına həsr olunmuş iclas. 31 yanvar 2006-cı il. http://files.preslib.az/site/ialiyev/2006.pdf
56. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin növbəti buraxılışına həsr olunmuş təntənəli mərasim. 22 iyun 2007-ci il. http://files.preslib.az/site/ialiyev/2007.pdf
57. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilən müşavirədə Ermənistanın ölkəmizə hərbi təcavüzü nəticəsində doğma torpaqlarından didərgin düşmüş soydaşlarımızın problemləri müzakirə olunmuşdur. 10 sentybar 2007-ci il. http://files.preslib.az/site/ialiyev/2007.pdf
58. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2007-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2008-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir. 11 yanvar 2008-ci il. http://files.preslib.az/site/ialiyev/2008.pdf
59. Гасымлы М. Агрессия Армении против Азербайджана. Дипломатические усилия по решению армяно-азербайджанского нагорно-карабахского конфликта (1987-2009), 216. См: От Майндорфа до Астаны: принсипиальные аспекты армяно-азербайджанского нагорно-карабахского конфликта. Москва, 210, с.189-243
60. Süleymanlı N. Dağlıq Qarabağ münaqişəsinin informasiya modeli. Bakı, 2011, s.194
61. Yenə orada, s. 195
62. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2010-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclası keçirilmişdir. 14 ap-

rel-cu il. http://files.preslib.az/site/ialiyev/2010.pdf
63. Yenə orada
64. Yenə orada
65. Yenə orada
66. BMT Baş Assambleyası, 62-ci sessiya, 86-cı plenar iclas, Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət. Qətnamə. 14 mart, 2008-ci il. Bax: Əhmədov E. Adı çəkilən əsəri, s.789-790
67. Bakıda Novruz bayramı münasibətilə ümumxalq şənliyi Azərbaycan Prezidenti İlham Əliyev şənlikdə iştirak etmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin nitqi. 20 mart 2008-ci il.
http://files.preslib.az/site/ialiyev/2008.pdf
68. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2008-ci ildə sosial-iqtisadi inkişafın yekunlarına həsr olunmuş iclası keçirilmişdir. 16 yanvar 2009-ci il.
http://files.preslib.az/site/ialiyev/2009.pdf
69. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü. Təhlili xronika. Bakı, 2012, s.252
70. Süleymanlı N. Adı çəkilən əsəri, s. 189-190
71. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2008-ci ildə sosial-iqtisadi inkişafın yekunlarına həsr olunmuş iclası keçirilmişdir. 16 yanvar 2009-cu il.
http://files.preslib.az/site/ialiyev/2009.pdf
72. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin növbəti buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilmişdir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev mərasimdə iştirak etmişdir. 25 iyun 2012-ci il.
http://files.preslib.az/site/ialiyev/2012.pdf

73. Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2012-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2013-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir. 15 yanvar 2013-cü il.
http://files.preslib.az/site/ialiyev/2013.pdf
74. 28 May–Respublika Günü münasibətilə rəsmi qəbul: Prezident İlham Əliyev rəsmi qəbulda iştirak etmişdir: Prezident İlham Əliyevin nitqi. 27 may 2014-cü il.
http://files.preslib.az/site/ialiyev/2014.pdf
75. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir: Prezident İlham Əliyevin giriş nitqi. 13 aprel 2014-cü il.
http://files.preslib.az/site/ialiyev/2013.pdf
76. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib: Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi. 10 yanvar 2015-ci il.
http://files.preslib.az/site/ialiyev/2015.pdf
77. Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib: Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi. 13 iyul 2015-ci il.
http://files.preslib.az/site/ialiyev/2015.pdf
78. Yenə orada
79. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Gəncədəki “N” hərbi hissəsinin şəxsi heyəti

ilə görüşmüşdür.18 iyun 2004-cü il. http://files.preslib.az/site/ialiyev/2004.pdf

80. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin növbəti buraxılışına həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin nitqi. 27 iyun 2005-ci il. http://files.preslib.az/site/ialiyev/2005.pdf
81. Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi münasibətilə təntənəli hərbi parad. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev hərbi paradda iştirak etmişdir. 26 iyun 2008-ci il. http://files.preslib.az/site/ialiyev/2008.pdf
82. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müdafiə Nazirliyində ordu quruculuğu məsələlərinə həsr olunmuş müşavirə keçirilmişdir. 23 aprel 2009-cu il. http://files.preslib.az/site/ialiyev/2009.pdf
83. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin növbəti buraxılışına həsr olunmuş təntənəli mərasim. 23 iyun 2006-cı il. http://files.preslib.az/site/ialiyev/2006.pdf
84. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin növbəti buraxılışına həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin nitqi. 27 iyun 2005-ci il. http://files.preslib.az/site/ialiyev/2005.pdf
85. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Gəncədəki “N” hərbi hissəsinin şəxsi heyəti ilə görüşmüşdür. 18 iyun 2004-cü il. http://files.preslib.az/site/ialiyev/2004.pdf
86. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin növbəti buraxılışına həsr olunmuş təntənəli mərasim. 23 iyun 2006-cı il. http://files.preslib.az/site/ialiyev/2006.pdf

87. Azərbaycanın Silahlı Qüvvələrinin 95 illiyi münasibətilə Bakıda təntənəli hərbi parad keçirilmişdir. Prezident, Ali Baş Komandan İlham Əliyev hərbi paradda olmuşdur. 26 iyun 2013-cü il. http://files.preslib.az/site/ialiyev/2013.pdf
88. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müdafiə Nazirliyində ordu quruculuğu məsələlərinə həsr olunmuş müşavirə keçirilmişdir. 23 aprel 2010-cu il. http://files.preslib.az/site/ialiyev/2010.pdf
89. Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 92-ci ildönümü münasibətilə Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimi keçirilmişdir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev təlimin əsas mərhələsini izləmişdir. 24 iyun 2010-cu il.
http://files.preslib.az/site/ialiyev/2010.pdf
90. Azərbaycanın Silahlı Qüvvələrinin 95 illiyi münasibətilə Bakıda təntənəli hərbi parad keçirilmişdir. Prezident, Ali Baş Komandan İlham Əliyev hərbi paradda olmuşdur. 26 iyun 2013-cü il. http://files.preslib.az/site/ialiyev/2013.pdf
91. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin növbəti buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilmişdir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev mərasimdə iştirak etmişdir. 25 iyun 2012-ci il.
http://files.preslib.az/site/ialiyev/2013df
92. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin növbəti buraxılışına həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin nitqi. 27 iyun 2005-ci il.

http://files.preslib.az/site/ialiyev/2005.pdf

93. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin növbəti buraxılışına həsr olunmuş təntənəli mərasim. 23 iyun 2006-cı il. http://files.preslib.az/site/ialiyev/2006.pdf
94. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Gəncədəki "N" hərbi hissəsinin şəxsi heyəti ilə görüşmüşdür. 18 iyun 2004-cü il. http://files.preslib.az/site/ialiyev/2004.pdf
95. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin növbəti buraxılışına həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin nitqi. 27 iyun 2005-ci il. http://files.preslib.az/site/ialiyev/2005.pdf
96. Azərbaycanın Silahlı Qüvvələrinin 95 illiyi münasibətilə Bakıda təntənəli hərbi parad keçirilmişdir Prezident, Ali Baş Komandan İlham Əliyev hərbi paradda olmuşdur. 26 iyun 2013-cü il. http://files.preslib.az/site/ialiyev/2013.pdf
97. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Novruz bayramı münasibətilə keçirilən ümumxalq şənliyində çıxışı. 22 mart 2005-ci il. http://files.preslib.az/site/ialiyev/2005.pdf
98. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin növbəti buraxılışına həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin nitqi. 27 iyun 2005-ci il. http://files.preslib.az/site/ialiyev/2005.pdf
99. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin növbəti buraxılışına həsr olunmuş təntənəli mərasim. 22 iyun 2007-ci il. http://files.preslib.az/site/ialiyev/2007.pdf
100. Azərbaycan Prezidenti İlham Əliyevin Ağdam rayonuna səfəri. Ağdam Olimpiya İdman Kompleksinin açılış mərasimi. 17 yanvar 2008-ci il.

http://files.preslib.az/site/ialiyev/2008.pdf
101. Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi münasibətilə təntənəli hərbi parad. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev hərbi paradda iştirak etmişdir. 26 iyun 2008-ci il. http://files.preslib.az/site/ialiyev/2008.pdf
102. Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 91-ci ildönümü münasibətilə Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və Daxili Qoşunların birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimi keçirilmişdir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev təlimin əsas mərhələsini izləmişdir. 24 iyun 2009-cu il.
http://files.preslib.az/site/ialiyev/2009pdf
103. Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 92-ci ildönümü münasibətilə Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimi keçirilmişdir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev təlimin əsas mərhələsini izləmişdir. 24 iyun 2010-cu il.
http://files.preslib.az/site/ialiyev/2010.pdf
104. Yenə orada
105. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Gəncədəki "N" hərbi hissəsinin şəxsi heyəti ilə görüşmüşdür. 8 iyun 2004-cü il.
http://files.preslib.az/site/ialiyev/2004.pdf
106. Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yaranmasının 13-cü ildönümünə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin nitqi. 12 mart 2005-ci il.
http://files.preslib.az/site/ialiyev/2005.pdf
107. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin növ-

bəti buraxılışına həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin nitqi. 27 iyun 2005-ci il-ci il.
http://files.preslib.az/site/ialiyev/2005.pdf

108. Yenə orada
109. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin növbəti buraxılışına həsr olunmuş təntənəli mərasim. 23 iyun 2006-cı il. http://files.preslib.az/site/ialiyev/2006.pdf
110. Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin ikinci müşavirəsi keçirilmişdir. Prezident İlham Əliyev müşavirədə iştirak etmişdir. 14 avqust 2006-cı il. http://files.preslib.az/site/ialiyev/2006.pdf
111. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2006-cı ilin sosial-iqtisadi yekunlarına və 2007-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir. 22 yanvar 2007-ci il. http://files.preslib.az/site/ialiyev/2006.pdf
112. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin növbəti buraxılışına həsr olunmuş təntənəli mərasim. 22 iyun 2007-ci il. http://files.preslib.az/site/ialiyev/2007.pdf
113. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin sədrliyi ilə müşavirə. 16 avqust 2005-ci il. http://files.preslib.az/site/ialiyev/2005.pdf
114. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2007-ci ilin birinci yarısında sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir. 1 avqust 2007-ci il. http://files.preslib.az/site/ialiyev/2007.pdf
115. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin növbəti buraxılışına həsr olunmuş təntənəli mərasim. 22 iyun

2007-ci il. http://files.preslib.az/site/ialiyev/2007.pdf
116. Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi münasibətilə təntənəli hərbi parad. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev hərbi paradda iştirak etmişdir. 26 iyun 2008-ci il. http://files.preslib.az/site/ialiyev/2008.pdf
117. Yenə orada
118. Yenə orada
119. Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 91-ci ildönümü münasibətilə Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və Daxili Qoşunların birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimi keçirilmişdir Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev təlimin əsas mərhələsini izləmişdir. 24 iyun 2009-cu il. http://files.preslib.az/site/ialiyev/2009.pdf
120. Azərbaycanın müstəqilliyinin 20-ci və Silahlı Qüvvələrin 93-cü ildönümləri münasibətilə təntənəli hərbi parad. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev hərbi paradda iştirak etmişdir. 28 iyun 2011-ci il. http://files.preslib.az/site/ialiyev/2011.pdf
121. Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2011-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2012-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir. 16 yanvar 2012-ci il. http://files.preslib.az/site/ialiyev/2012.pdf
122. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin növbəti buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilmişdir Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev mərasimdə iştirak etmişdir. 25 iyun, 2012-ci il. http://files.preslib.az/site/ialiyev/2012.pdf

123. Azərbaycanın Silahlı Qüvvələrinin 95 illiyi münasibətilə Bakıda təntənəli hərbi parad keçirilmişdir. Prezident, Ali Baş Komandan İlham Əliyev hərbi paradda olmuşdur. 26 iyun 2013-cü il. http://files.preslib.az/site/ialiyev/2013.pdf
124. Bakıda xalq qəhrəmanı Koroğlunun abidəsinin açılışı olmuşdur: Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı. 21 fevral 2012-ci il. http://files.preslib.az/site/ialiyev/2012.pdf
125. Bakıda Novruz bayramı münasibətilə ümumxalq şənliyi. Azərbaycan Prezidenti İlham Əliyev şənlikdə iştirak etmişdir. 19 mart 2012-ci il http://files.preslib.az/site/ialiyev/2012.pdf
126. Azərbaycanın Silahlı Qüvvələrinin 95 illiyi münasibətilə Bakıda təntənəli hərbi parad keçirilmişdir Prezident, Ali Baş Komandan İlham Əliyev hərbi paradda olmuşdur. 26 iyun 2013-cü il. http://files.preslib.az/site/ialiyev/2013.pdf
127. Azərbaycanın müstəqilliyinin 20-ci və Silahlı Qüvvələrin 93-cü ildönümləri münasibətilə təntənəli hərbi parad. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev hərbi paradda iştirak etmişdir. 28 iyun 2011-ci il. http://files.preslib.az/site/ialiyev/2011.pdf
128. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Milli Qəhrəman Mübariz İbrahimov və baş leytenant Fərid Əhmədovun vida mərasimində iştirak etmişdir. 7 noyabr 2010-cu il. http://files.preslib.az/site/ialiyev/2010.pdf
129. Azərbaycanın Silahlı Qüvvələrinin 95 illiyi münasibətilə Bakıda təntənəli hərbi parad keçirilmişdir. Prezident, Ali Baş Komandan İlham Əliyev hərbi paradda olmuşdur. 26 iyun 2013-cü il. http://files.preslib.az/site/ialiyev/2013.pdf
130. Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 92-ci ildö-

nümü münasibətilə Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimi keçirilmişdir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev təlimin əsas mərhələsini izləmişdir. 24 iyun 2010-cu il. http://files.preslib.az/site/ialiyev/2010.pdf

131. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin növbəti buraxılışına həsr olunmuş təntənəli mərasim. 22 iyun 2007-ci il. http://files.preslib.az/site/ialiyev/2007.pdf

132. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin növbəti buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilmişdir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev mərasimdə iştirak etmişdir. 25 iyun, 2012-ci il. http://files.preslib.az/site/ialiyev/2012.pdf

133. http://www.president.az/articles/21707

134. Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunmuş rəsmi qəbulda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı. http://azertag.az/print/1002089

135. Müdafiə naziri general-polkovnik Zakir Həsənov: "Silahlı Qüvvələrimiz qarşıya qoyulan bütün tapşırıqları uğurla yerinə yetirməyə qadirdir" http://www.mod.gov.az/index2.php?content=news/2015/24_06_mn_musahibe

136. Müdafiə naziri bölük komandirlərinin şəxsi heyətlə iş üzrə müavinlərinin təkmilləşdirmə kursunun ilk məzunları ilə görüşüb. http://www.mod.gov.az/index2.php?content=-news/2014/29_08_melumat_ttm

137. Müdafiə naziri general-polkovnik Zakir Həsənov: "Silahlı

Qüvvələrimiz qarşıya qoyulan bütün tapşırıqları uğurla yerinə yetirməyə qadirdir".
http://www.mod.gov.az/index2.php?content=news/2015/24_06_mn_musahibe; Silahlı Qüvvələrin Hərbi Akademiyasının cari arxivi. Dx. N-1786, tarix 10.10.2016, v.1-2
138. Silahlı Qüvvələrin Hərbi Akademiyasının cari arxivi. Dx. N-1786, tarix 10.10.2016, v.1-2
139. Silahlı Qüvvələrin Hərbi Akademiyasının cari arxivi. Dx. N-1780, tarix 08.10.2016, v.1-2
140. Silahlı Qüvvələrin Hərbi Akademiyasının cari arxivi. Dx. N-1780, tarix 08.10.2016, v.1-2
141. Silahlı Qüvvələrin Hərbi Akademiyasının cari arxivi. Dx. N-1740, tarix 01.10.2016, v.1-2
142. Silahlı Qüvvələrin Hərbi Akademiyasının cari arxivi. Dx. N-1763, tarix 05.10.2016, v.1
143. Silahlı Qüvvələrin Hərbi Akademiyasının cari arxivi. Dx. N-1774, tarix 07.10.2016, v.2
144. Silahlı Qüvvələrin Hərbi Akademiyasının cari arxivi. Dx. N-1786, tarix 10.10.2016, v.2
145. Silahlı Qüvvələrin Hərbi Akademiyasının cari arxivi. Dx. N-1786, tarix 10.10.2016, v.6
146. Silahlı Qüvvələrin Hərbi Akademiyasının cari arxivi. Dx. N-1786, tarix 10.10.2016, v.4-5
147. Cəbhəyanı bölgədə yeni dağ hazırlığı təlim mərkəzinin açılışı olub. 10 sentyabr 2015 il.
http://www.mod.gov.az/index2.php?content=news/2015/10_09_melumat_achilish
148. Naxçıvan MuxtarvRespublikası ərazisində keçirilən genişmiqyaslı hərbi təlimlər sona çatıb. 18 aprel 2014 il.
http://www.mod.gov.az/index2.php?content=news/2014/18_04_melumat

149. Birgə əməliyyat-taktiki təlimləri keçirilib. 26 iyun 2014 il. http://www.mod.gov.az/index2.php?content=-news/2014/26_06_melumat
150. Müdafiə naziri general-polkovnik Zakir Həsənov: "Silahlı Qüvvələrimiz qarşıya qoyulan bütün tapşırıqları uğurla yerinə yetirməyə qadirdir".
http://www.mod.gov.az/index2.php?content=news/2015/24_06_mn_musahibe
151. Azərbaycan və Türkiyə hərbi hava qüvvələrinin birgə təlimləri davam edir. 20 sentyabr 2014 il.
http://www.mod.gov.az/index2.php?content=news/2014/20_09_telim_hhq
152. «TurAz Şahini 2015» birgə təlimləri yekunlaşıb. 4 aprel 2015-ci il.
http://www.mod.gov.az/index2.php?content=news/2015/04_04_melumat_turaz
153. «TURAZ Şahini-2016» taktiki-uçuş təlimləri başa çatıb. 25 mart 2016. ilhttp://www.mod.gov.az/index2.php?content=-news/2016/20160325_melumat_turazyekun
154. Silahlı Qüvvələrin Hərbi Akademiyasının cari arxivi. Dx. N-1883, tarix 01.11.2016, v.1
155. Silahlı Qüvvələrin Hərbi Akademiyasının cari arxivi. Dx. N-1883, tarix 01.11.2016, v.1
156. Müdafiə naziri general-polkovnik Zakir Həsənov: "Silahlı Qüvvələrimiz qarşıya qoyulan bütün tapşırıqları uğurla yerinə yetirməyə qadirdir".
http://www.mod.gov.az/index2.php?content=news/2015/24_06_mn_musahibe
157. Silahlı Qüvvələrin Hərbi Akademiyasının cari arxivi. Dx. N-1883, tarix 01.11.2016, v.3

158. Silahlı Qüvvələrin Hərbi Akademiyasının cari arxivi. Dx. N-1774, tarix 07.10.2016, v.1-2
159. Silahlı Qüvvələrin Hərbi Akademiyasının cari arxivi. Dx. N-1883, tarix 01.11.2016, v.2
160. Silahlı Qüvvələrin Hərbi Akademiyasının cari arxivi. Dx. N-1883, tarix 01.11.2016, v.1
161. Yenə orada, v. 2
162. Müdafiə naziri general-polkovnik Zakir Həsənov: "Silahlı Qüvvələrimiz qarşıya qoyulan bütün tapşırıqları uğurla yerinə yetirməyə qadirdir"....
163. Silahlı Qüvvələrin Hərbi Akademiyasının cari arxivi. Dx. N-1883, tarix 01.11.2016, v.4
164. Yenə orada, v. 3
165. Yenə orada, v. 4
166. Müdafiə naziri general-polkovnik Zakir Həsənov: "Silahlı Qüvvələrimiz qarşıya qoyulan bütün tapşırıqları uğurla yerinə yetirməyə qadirdir". http://www.mod.gov.az/index2.php?content=news/2015/24_06_mn_musahibe
167. Silahlı Qüvvələrin Hərbi Akademiyasının cari arxivi. Dx. N-1883, tarix 01.11.2016, v.5
168. Müdafiə naziri yeni tədris ili ilə əlaqədar hərbi məktəblərdə olub. http://www.mod.gov.az/index2.php?content=news/2014/13_09_melumat_aahm
169. Silahlı Qüvvələrin Hərbi Akademiyasının cari arxivi. Dx. N-1759, tarix 05.10.2016, v.1-3
170. Yenə orada, v. 5-6
171. Silahlı Qüvvələrin Hərbi Akademiyasının cari arxivi. Dx. N-1803, tarix 12.10.2016, v.1

172. Silahlı Qüvvələrin Hərbi Akademiyasının cari arxivi. Dx. N-1759, tarix 05.10.2016, v.4
173. Silahlı Qüvvələrin Hərbi Akademiyasının cari arxivi. Dx. N-1829, tarix 18.10.2016, v.4
174. Silahlı Qüvvələrin Hərbi Akademiyasının cari arxivi. Dx. N-1759, tarix 05.10.2016, v.4
175. Yenə orada, v. 1-5
176. Yenə orada
177. «Hərb elminin inkişaf perspektivləri» mövzusunda birinci respublika elmi-praktik konfransı keçirilib. http://www.mod.gov.az/index2.php?content=news/2015/30_05_gorus_dinleyici
178. Müdafiə naziri general-polkovnik Zakir Həsənov: "Silahlı Qüvvələrimiz qarşıya qoyulan bütün tapşırıqları uğurla yerinə yetirməyə qadirdir". http://www.mod.gov.az/index2.php?content=news/2015/24_06_mn_musahibe
179. Yenə orada
180. Müdafiə naziri şəxsi heyət üzrə rəhbər zabit heyətinin nümayəndələri ilə görüşüb. http://www.mod.gov.az/index2.php?content=news/2015/16_10_melumat_iclas; Müdafiə naziri komandirlərin şəxsi heyətlə iş üzrə müavinləri ilə görüşüb. http://www.mod.gov.az/index2.php?content=news/2016/20160128_melumat_toplantittm
181. Müdafiə naziri bölük komandirlərinin şəxsi heyətlə iş üzrə müavinlərinin təkmilləşdirmə kursunun ilk məzunları ilə görüşüb.http://www.mod.gov.az/index2.php?content=news/2014/29_08_melumat_ttm.
182. Müdafiə naziri bölük komandirlərinin şəxsi heyətlə iş üzrə müavinlərinin təkmilləşdirmə kursunun ilk məzunları ilə görüşüb http://www.mod.gov.az/index2.php?content=-

news/2014/29_08_melumat_ttm
183. Silahlı Qüvvələrdə "Açıq qapı" günü keçirilib. 25 oktyabr 2015
184. Cəbhəboyu zonada yerləşən rayonların icra hakimiyyəti başçıları ilə birgə müşavirə keçirilib.
http://www.mod.gov.az/index2.php?content=news/2015/12_09_melumat_mushavire
185. Müdafiə naziri general-polkovnik Zakir Həsənov: "Silahlı Qüvvələrimiz qarşıya qoyulan bütün tapşırıqları uğurla yerinə yetirməyə qadirdir". http://www.mod.gov.az/index2.php?content=news/2015/24_06_mn_musahibe
186. Silahlı Qüvvələrin Hərbi Akademiyasının cari arxivi. Dx. N-1786, tarix 10.10.2016, v.7
187. Müdafiə naziri cəbhə bölgəsindəki hərbi hissələrin döyüş hazırlığını yoxlayır.
http://www.mod.gov.az/index2.php?content=news/2015/06_08_melumat_cebhe
188. Silahlı Qüvvələrin Hərbi Akademiyasının cari arxivi. Dx. N-1780, tarix 08.10.2016, v.1
189. Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunmuş rəsmi qəbulda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı.
http://azertag.az/print/1002089

# NƏTİCƏ

XX əsrin sonlarından başlayaraq istər Azərbaycanda, istərsə də bölgədə və dünyada cərəyan edən proseslər belə bir həqiqəti ortaya qoyur ki, ölkənin müstəqilliyinin qorunması, onun dünya birliyində layiqli yer tutması aparılan məqsədyönlü mübarizənin məntiqi nəticəsidir. Mübarizə deyiləndə heç də yalnız silahlı mübarizə nəzərdə tutulmur. Ölkənin müstəqilliyinin, azadlığının qorunması üçün düzgün siyasi strategiyanın müəyyənləşdirilməsi və onun səmərəli şəkildə həyata keçirilməsi, milli mənafeyə xidmət edən iqtisadi inkişafın təmin edilməsi, xalqda özünəinam yaradılması, ölkənin daxili siyasi, iqtisadi, ictimai, hərbi sabitliyinin bərqərar edilməsi, əsaslandırılmış xarici siyasətin həyata keçirilməsi, bütünlükdə milli maraqların qorunmasını və inkişafını nəzərdə tutan kompleks tədbirlər və bütün bunların həyata keçirilməsi üçün ardıcıllıq nümayiş etdirilməsi özü də mübarizənin bir formasıdır. Sadalanan və sadalanmayan ölkə əhəmiyyətli bu məsələlərin həyata keçirilməsi tarixi şəraitdən, mühitdən, müxtəlif təsirlərdən, obyektiv və subyektiv səbəblərdən asılı olaraq böyük məsuliyyət və həssaslıq tələb edir və o ölkələr öz inkişafında müvəffəqdirlər ki, onlar qarşıya qoyulan ən mürəkkəb vəzifələrin icrasını daha səmərəli, daha düzgün və daha dəqiq təmin edə bilirlər. Bu sahədə ölkə rəhbərliyinin də üzərinə böyük məsuliyyət düşür və tarix də bunu sübut edir ki, böyük dövlət xadimləri, istedadlı siyasi rəhbərlər öz ölkələrinin inkişafında çox önəmli rol oynaya bilərlər.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev də öz xalqının tarixində müstəsna rola malik və ən mürəkkəb şərait-

də xalqına rəhbərlik missiyasını üzərinə götürmüş güclü dövlət xadimlərindən biridir. Onun istər sovet dövründə Azərbaycana rəhbərliyi, istərsə də müstəqillik illərində Azərbaycana rəhbərliyi belə bir aydın və istisnasız qənaətə gəlməyə imkan verir. Hər iki rəhbərlik dövründə Heydər Əliyev Azərbaycanı inkişafının çox yüksək səviyyəsinə qaldıra bildi

Heydər Əliyev Azərbaycanın müstəqil dövlət quruculuğunun bütün sahələrində, o cümlədən Azərbaycanın hərbi təhlükəsizliyinin təmin edilməsi və Ali Baş Komandanlıq institutunun formalaşdırılması sahəsində gördüyü işlər onun mahir siyasətçi, böyük təşkilatçı olduğunu bir daha sübut edir. Onun müstəqil Azərbaycanın dövlət rəhbəri kimi fəaliyyətinin elə ilk günləri göstərdi ki, respublikanın dövlət müstəqilliyini, ərazi bütövlüyünü etibarlı şəkildə qorumaq, ölkənin bütün potensialını məqsədyönlü şəkildə bu istiqamətə yönəltmək, hərbi təhlükəsizliyin təmin edilməsinə hesablanmış hərbi siyasətin səmərəli şəkildə həyata keçirmək üçün əsas şərtlərdən biri daxili hərbi-siyasi sabitliyin təmin edilməsi, xalqın bütün təbəqələrinin ümumdövlət mənafelərini əks etdirən ümummilli məqsədlər ətrafında birləşməsinə nail olunmasıdır. Heydər Əliyevin Azərbaycanın dövlət rəhbəri kimi fəaliyyətinin xarakterik tərəflərindən biri bu idi ki, o, daxili hərbi-siyasi sabitliyin, vətəndaş həmrəyliyinin, xalqın birliyinin təmin edilməsinin əhəmiyyətini düzgün qiymətləndirdi və onların əldə edilməsinə də nail oldu. Elə bir xalq ola bilməz ki, ən azı onun böyük əksəriyyəti daxili ictimai-siyasi sabitliyin, əmin-amanlığın bərqərar olmasını istəməsin. Lakin ölkə daxilində bu sabitliyin təmin edilməsi, bununla da quruculuq işlərinin, o cümlədən ordu quruculuğunun həyata keçirilməsinə zəruri şərait yaradılması üçün əsaslandırılmış dövlət siyasəti lazımdır. Heydər Əliyevin respublikada daxili hərbi-siyasi sabitliyin təmin

edilməsi sahəsindəki fəaliyyəti bu zərurətin əyani təzahürü idi. Bu fəaliyyət göstərdi ki, ölkədə daxili hərbi-siyasi sabitliyin təmin edilməsi dövlət rəhbərliyindən çox böyük əzmkarlıq, ardıcıllıq və təcrübə tələb edir və kifayət qədər mürəkkəb olan tarixi şəraitdə belə vəzifələrin həllinə də Heydər Əliyev kimi böyük dövlət xadimləri nail ola bilərlər.

Heydər Əliyev cəmiyyətin ictimai-siyasi sabitliyinin və yekdilliyinin təmin olunmasına xüsusi əhəmiyyət verirdi. Respublikanın rəhbəri və Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi o, əsas fəaliyyətini də məhz bu sahədən başladı. Xalqın siyasi qütblərə parçalanmasını, dövlətin vətəndaşlarının bir-birinə qarşı əks cəbhələrdə dayanmasını Heydər Əliyev erməni təcavüzünə qarşı mübarizədə ciddi maneə kimi qəbul edir, bu parçalanmanın, müxalifətçiliyin ifrat forma alması dayandırılmayınca güclü ordu yaratmağın və ölkənin etibarlı müdafiəsinin mümkünlüyünü də istisna edirdi. 1993-cü ilin yayında Gəncə və Lənkəranda baş vermiş hadisələrin qarşısının alınması respublikada ictimai-siyasi sabitliyin bərqərar olmasına, cəmiyyətin vahid məqsəd ətrafında daha çox səfərbər edilməsinə, ölkənin müdafiə qüdrətinin möhkəmlənməsinə şərait yaratdı. Heydər Əliyev əməli fəaliyyəti ilə bir daha sübut etdi ki, hərbi quruculuq kimi ümumxalq əhəmiyyətli bir məsələnin həlli də ilk növbədə bu prosesə rəhbərlik etməli olan Ali Baş Komandanlıq institutunun real şəkildə yaradılmasından asılıdır.

Dövlət quruculuğunun bütün sahələrində olduğu kimi, ordu quruculuğu sahəsində də səmərəli siyasət yeridilməsində Heydər Əliyevin şəxsi keyfiyyətlərini qiymətləndirməmək olmaz. Onun səmərəli fəaliyyəti bir daha göstərdi ki, təşəbbüskarlıq, ardıcıllıq, qətiyyət, yorulmazlıq, prinsipiallıq ordu quruculuğuna rəhbərlik edən dövlət rəhbərinin ayrılmaz xüsusiyyətləri olmalıdır.

Bu keyfiyyətlərin səmərəli uzlaşdırılmasının özü də mühüm əhəmiyyətə malikdir.

Azərbaycan Ordusunun formalaşdırılması sahəsində Heydər Əliyevin tarixi fəaliyyətinin ilk addımları Naxçıvanda atıldı. Bu böyük dövlət xadiminin Muxtar Respublikadakı qısa fəaliyyəti bir daha göstərdi ki, məqsədyönlü, milli maraqları qoruyan siyasət yeridilməsi, xalqın milli maraqlar ətrafında birləşdirilməsi ən mürəkkəb vəzifələri belə həyata keçirməyə imkan verir. Heydər Əliyev təşkilatçılıq qabiliyyəti ilə həm Naxçıvanın erməni təcavüzündən müdafiəsini, həm də burada milli hərbi hissənin sağlam əsaslar üzərində formalaşmasını təmin etdi və bununla da respublikanın iqtidarında olan qüvvələrə də dövlətçilik nümunəsi göstərdi.

Ordu quruculuğunun səmərəliliyinə nail olunmasının başlıca şərtlərindən birini Heydər Əliyev xalqın qüvvəsinə arxalanmaqda, xalqla vəhdətdə görürdü. O, xalqın gücü qarşısında hər cür qüvvənin sönük olduğunun təsdiq edir və öz fəaliyyətinə də ən böyük dəstəyi xalqın etibarında və etimadında görürdü. Ölkə həyatının ən böyük problemlərinin həllində də o məhz xalqın gücünə arxalanırdı və ölkə həyatının mürəkkəb anlarında da xalqı ayağa qaldırmağı və milli mənafelər ətrafında onu səfərbər etməyi bacarırdı.

Azərbaycanda ordu quruculuğunun yeni əsaslar üzərinə qoyulmasının və qısa müddət ərzində yeni ordunun formalaşdırılmasının başlıca şərtlərindən biri də məhz Heydər Əliyev tərəfindən bütün xalqın bu prosesə cəlb edilməsi idi. Nəticədə, xalqın mübarizlik, dönməzlik əzmi orduya da sirayət etdi, şəxsi heyətin mənəvi əhval-ruhiyyəsi kifayət qədər sağlamlaşdırıldı, yeni-yeni ehtiyat hissələr təşkil edilərək cəbhəyə göndərildi, döyüşçülərin və onların ailələrinin sosial qayğı ilə əhatə edilməsində canlanma yarandı.

Bütünlükdə, Heydər Əliyev ordu quruculuğuna münasibətdə cəmiyyətdə yeni bir təfəkkür formalaşdırdı, insanlarda orduda xidmətə yeni bir münasibət yarandı, əvvəlki dövrlərdə orduya olan etimadsızlıq, ordunun ayrı-ayrı qruplarının fəaliyyətindən doğan ehtiyatlılıq və nigarançılıq aradan qaldırıldı, ordunun xalqın bir parçası olmasının real anlamı cəmiyyətdə bərqərar olundu. Heydər Əliyevin bu sahədəki fəaliyyəti xalqda orduya inamı geri qaytardı, xalq da ordunu özünün bir parçası kimi qəbul etdi və orduya qayğı ümummilli dəyər aldı, ordu da vahid rəhbərlik altında birləşərək xalqın iradəsini əks etdirdi və erməni təcavüzünə qarşı mübarizəyə səfərbər oldu.

Ordu quruculuğunda yeni bir mərhələnin başlanğıcını isə Heydər Əliyevin radio və televiziya ilə xalqa 2 noyabr 1993-cü il tarixli müraciəti qoydu. Bu müraciət bir tərəfdən sağlam ordu quruculuğunun əsaslarını və bu istiqamətdə xalqın və dövlətin qarşısında dayanan mühüm vəzifələri müəyyənləşdirən konseptual bir sənəd idisə, bir tərəfdən də Heydər Əliyevin xalqa çağırışı idi. Bu çağırış xalqın bütün təbəqələri tərəfindən qəbul edildi və xalqın bütün potensialı ordu quruculuğuna istiqamətləndirildi. Yəni Heydər Əliyev xalqın potensialını ordu quruculuğu kimi mühüm bir sahəyə səfərbər edə bildi. Heydər Əliyev respublika ağsaqqallarına, ziyalılarına, mədəniyyət və incəsənət xadimlərinə, dindarlara, iş adamlarına müraciət edib onları orduya daha yaxından kömək etməyə, əsgər və zabitlərin mübariz döyüş ruhunda tərbiyə olunmasına yardım etməyə, orduda baş verən neqativ halların qarşısının alınmasında qətiyyətli mövqe tutmağa çağırdı. Heydər Əliyev xüsusilə hərbi strukturlara yol tapmış rüşvətxorluğa qarşı mübarizənin gücləndirilməsinin zəruriliyini vurğuladı. Bu baxımdan ümummilli lider orduya çağırış-səfərbərlik işinin düzgün təşkil edilməsinə böyük əhə-

miyyət verir, bu məsələni yalnız hərbi komissarlıqların və hərbi strukturların deyil, eyni zamanda, dövlət və hakimiyyət orqanlarının qarşısında dayanan çox mühüm vəzifə sayırdı.

İstər səfərbərlik işindəki, istərsə də bütövlükdə ordu quruculuğundakı nöqsanların aradan qaldırılmasında kadrların tərbiyələndirilməsi, seçilməsi, yerləşdirilməsi Heydər Əliyevə görə böyük əhəmiyyət kəsb edən məsələlərdən biri idi. O, dəfələrlə hərbi hissələrə səfər etdi, hərbi hissələrin xidmət həyatı ilə yaxından tanış oldu, əsgər və zabitlərin qayğıları ilə maraqlandı. Heydər Əliyev peşəkarlıqla bərabər, mənəviyyat saflığını, əqidə bütövlüyünü, vəzifə borcuna sadiqliyi zabit kadrlarının başlıca keyfiyyətlərindən sayırdı və buna nail olunmasını da ordu quruculuğunun ümdə vəzifələrindən biri hesab edirdi.

Atəşkəsin əldə edilməsindən sonra ordu quruculuğuna diqqət heç də zəifləmədi. Əksinə, Heydər Əliyev dinc fürsətin əldə edilməsini ordu quruculuğunun sürətləndirilməsi üçün münasib imkan kimi qiymətləndirdi. Böyük öndər birmənalı şəkildə bildirdi ki, Azərbaycanda ordu quruculuğu kampaniya xarakteri daşımamalıdır. Ordu Azərbaycanın müstəqilliyinin atributudur və ona görə bu proses davamlı bir prosesdir.

Atəşkəs dövründə ordu quruculuğunun uğurlu aparılması üçün Heydər Əliyev dövlətin strateji siyasətini müəyyənləşdirdi, milli zabit kadrlarının hazırlanması üçün hərbi təhsil sistemi formalaşdırdı, ordunun maddi-texniki bazasının təkmilləşdirilməsi daimi diqqət altına alındı.

Azərbaycanın dövlət rəhbəri və Ali Baş Komandanı kimi Heydər Əliyevin fəaliyyətinin öyrənilməsi göstərir ki, respublikanın hərbi təhlükəsizliyinin təmin edilməsində ölkənin xarici siyasətinin məzmunu böyük əhəmiyyət kəsb edir. Ona görə idi ki, xalqın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması, Azər-

baycan ətrafında yaranmış informasiya blokadasının aradan qaldırılması, Azərbaycana qarşı hərbi təcavüzün cilovlanması və Azərbaycanın haqlı mövqeyinin dünya miqyasında dəstəklənməsi üçün Heydər Əliyev yeni xarici siyasət formalaşdırdı. Əvvəlki dövrlərdən fərqli olaraq, izlənilən yeni xarici siyasət xalqın və dövlətin mənafeyinə tabe etdirildi, əsassız birtərəfliliyə son qoyuldu, bölgədə maraqları kəsişən böyük dövlətlərin maraqlarının yaxınlaşdırılmasına cəhd göstərildi, Ermənistanın təcavüzkarlığı barədə müfəssəl məlumat ar ən yüksək kürsülərdən dünya ictimaiyyətinə çatdırıldı. Bunun nəticəsi idi ki, dünyanın böyük dövlətlərində, nüfuzlu beynəlxalq təşkilatlarda Azərbaycanın haqlı mövqeyinə dəstək əməli xarakter aldı.

Azərbaycan Ordusunun hazırkı səviyyəsi ordu quruculuğu sahəsində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyənləşdirilən ordu quruculuğu siyasətinin tamamilə doğru olduğunu bir daha sübut edir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən həmin siyasət indi Azərbaycan Ordusunun yalnız bölgədə deyil, bütünlükdə dünyanın ən müasir orduları arasında yer tutmasına imkan vermişdir.

## MÜNDƏRİCAT

**ÖN SÖZ...........................................................................3**
**GİRİŞ ..........................................................................10**
**I FƏSİL. ALİ BAŞ KOMANDANLIQ İNSTİTUTUNUN NƏZƏRİ VƏ HÜQUQİ ƏSASLARI....................................18**

1. Ali Baş Komandanlıq institutunun mahiyyəti.1 .....................8
2. Ali Baş Komandanlıq institutunun hüquqi əsasları.............23
3. Ali Baş Komandanlıq institutunun fəaliyyət qanunauyğunluqları və prinsipləri..........................................34
4. Hərbi idarəetmənin mahiyyəti............................................46

İstifadə olunmuş mənbə və ədəbiyyat. ..................................60

**IIFƏSİL. HEYDƏR ƏLİYEV VƏ SOVET DÖVRÜNDƏ AZƏRBAYCANDA HƏRBİ QURUCULUQ İŞİ ................64**

1. Çağırışaqədərki hazırlıq işləri..............................................66
2. Hərbi çağırışın təşkili və hərbi hissələrlə əlaqələrin gücləndirilməsi. ...................................................................87
3. Milli hərbi kadrların hazırlığı............................................106

İstifadə olunmuş mənbə və ədəbiyyat. ................................123

**III FƏSİL. ALİ BAŞ KOMANDANLIQ İNSTİTUTUNUN HEYDƏR ƏLİYEV MƏRHƏLƏSİ...127**

1. Heydər Əliyev Ali Baş Komandanlıq institutunun vəziyyəti haqqında...............................................................127
2. Azərbaycanda Ali Baş Komandanlıq institutunun formalaşdırılması................................................................139

İstifadə olunmuş mənbə və ədəbyyat...................................156

**IV FƏSİL. HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN MÜSTƏQİLLİYİ MƏSƏLƏSİ.......................................... 161**
1. Heydər Əliyev Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü haqqında ............................................................ 161
2. Heydər Əliyev və Naxçıvanın müdafiəsinin təşkili ...........190
3. Daxili hərbi-siyasi sabitliyin yaradılması istiqamətində Heydər Əliyevin fəaliyyəti..............................243
İstifadə olunmuş mənbə və ədəbiyyat....................................288

**V FƏSİL. HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN ORDUSU...........................................................................301**
1. Heydər Əliyev ordu quruculuğunun əsasları haqqında ......301
2. Heydər Əliyevin radio və televiziya ilə Azərbaycan xalqına 2 noyabr 1993-cü il tarixli müraciəti. .......................309
3. Orduda mənəvi-ideoloji işin vəziyyəti və onun daha da yaxşılaşdırılması yolları. .......................................................346
4. Hərbi xidmətə çağırış və səfərbərlik işinin vəziyyəti.........387
5. 1993-cü ilin sonu və 1994-cü ilin əvvəllərində yeniləşmiş Azərbaycan Ordusunun döyüş fəaliyyəti ..............................405
İstifadə olunmuş mənbə və ədəbiyya.....................................453

**VI FƏSİL. ATƏŞKƏS DÖVRÜNÜN ORDU QURUCULUĞU.................................................................464**

1. Heydər Əliyev və ordu quruculuğuna yeni tələblər. ...........464
a) Ordu quruculuğuna dövlət rəhbərliyinin təmin edilməsi. . 471
b) Ordunun maddi-texniki təchizatına diqqət .......................476
c) Ordu və xalq birliyi, ordu quruculuğuna xalqın qayğısının təmin edilməsi....................................................488

ç) Orduda mənəvi-psixoloji mühitin sağlamlaşdırılması vəzifələri. ........................................................................492
d) Ordu quruculuğunda kadr məsələləri və döyüş hazırlığı..437
e) Ordu quruculuğunda nizam və intizamın təmin edilməsi, məsuliyyət və cavabdehlik...................................................499
ə) Ordu quruculuğunda ardıcıllıq və elmilik.........................508
2. Heydər Əliyev və hərbi irs. ................................................513
İstifadə olunmuş mənbə və ədəbiyyat ...................................557

**VII FƏSİL. ALİ BAŞ KOMANDANLIĞIN İLHAM ƏLİYEV DÖVRÜ ...............................................................570**

1. İlham Əliyev və Azərbaycanın ərazi bütövlüyü məsələsi...572
2. İlham Əliyev və Azərbaycan Ordusu. ................................626
3. Ordu quruculuğunun uğurlu davamı. .................................659
İstifadə olunmuş mənbə və ədəbiyyat ...................................697
**NƏTİCƏ.........................................................................719**

**"Elm və təhsil" nəşriyyatının direktoru:**
**Professor Nadir MƏMMƏDLİ**

**Redaktor: Anar Hüseynəliyev**
**Dizayner: Məmmədbağır Hüseynov**
**Texniki redaktor: Yadigar Mirbağırzadə**

**Çapa imzalanmış 7.1.2018**
**Şərti çap vərəqi 45,5. Sifariş № 17**
**Kağız formatı 60x84 1/16. Tiraj 300 .**

**Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur**
**E-mail: nurlan1959@gmail.com**
**Тел: 497-16-32; 050-311-41-89**
**Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4**